DÖVLƏTLƏR ARASINDA SİYASƏT:
güc və sülh uğrunda mübarizə

HANS MORGENTAU

Hans Morgentau
Dövlətlər arasında siyasət:
güc və sülh uğrunda mübarizə
(ingilis dilindən tərcümə)

Tərcüməçi:
Vüsalə Zahirova

İxtisas redaktoru:
Kərəm Məmmədov

Bakı, TEAS Press Nəşriyyat evi, 2017, 876 s.

ISBN 978 9952 515 24 4

Bu kitab ilk dəfə 1948-ci ildə "McGraw-Hill" nəşriyyatı tərəfindən
"Politics Among Nations. The Struggle for Power and Peace" adı ilə
nəşr edilib, sonrakı illərdə isə dəfələrlə təkrar nəşr olunub.
Əsər "McGraw-Hill" nəşriyyatının 2006-cı ildə nəşr olunan orijinalı əsasında
TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.
Kitabın Azərbaycan dilinə tərcüməsi və nəşri hüququ
TEAS Press Nəşriyyat evinə məxsusdur.

www.teaspress.az

Bütün hüquqlar qorunur.

© McGraw-Hill, 2006
© TEAS Press Nəşriyyat evi, 2017

Türkiyədə çap edilib.
Bilnet Matbaacılık ve Ambalaj Sanayi A.Ş.
Dudullu Organize Sanayi Bölgesi 1. Cadde No: 16
Ümraniye / İstanbul
Tel: 444 44 03 Faks: (216) 365 99 07
www.bilnet.net.tr

YEDDİNCİ NƏŞR

DÖVLƏTLƏR ARASINDA SİYASƏT:
GÜC VƏ SÜLH UĞRUNDA MÜBARİZƏ

Hans Y.Morgentau
Çikaqo Universitetinin siyasi elmlər və müasir tarix üzrə mərhum professoru
Çikaqo Universitetində Amerika Xarici Siyasətinin Araşdırılması Mərkəzinin mərhum direktoru

Yenidən işləyənlər
Kennet U.Tompson
Virciniya Universitetinin İctimai İşlər üzrə Miller Mərkəzinin mərhum direktoru

və
U.Devid Klinton
Tuleyn Universitetinin siyasi elmlər üzrə dosenti

TEAS PRESS

-2015-
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Mündəricat

Ön söz ... 15
Giriş ... 17

I FƏSİL. BEYNƏLXALQ SİYASƏT NƏZƏRİYYƏDƏ VƏ TƏCRÜBƏDƏ

1. Beynəlxalq siyasətə dair realist nəzəriyyə ... 47
Siyasi realizmin 6 prinsipi ... 48

2. Beynəlxalq siyasət elmi ... 63
Beynəlxalq siyasət anlayışı ... 63
Müxtəlif yanaşmalar ... 63
Anlayışın hüdudları ... 65
Beynəlxalq sülh probleminin qavranılması ... 71

II FƏSİL. BEYNƏLXALQ SİYASƏT GÜC UĞRUNDA MÜBARİZƏ KİMİ

3. Siyasi güc ... 74
Siyasi güc nədir? ... 74
Dövlətin məqsədlərinə çatmaq vasitəsi kimi ... 74
Onun təbiəti: 4 fərq ... 75
Siyasi gücün öz dəyərini itirməsi ... 80
Siyasi gücün dəyərini itirməsinin 2 əsası ... 84
XIX əsr fəlsəfəsi ... 85
Amerika təcrübəsi ... 85
Sülh elmi: çağdaş utopizm ... 87

4. Güc uğrunda mübarizə: status-kvo siyasəti ... 97

5. Güc uğrunda mübarizə: imperializm ... 103
İmperializm nə deyil? ... 103
İmperializmə dair iqtisadi nəzəriyyələr ... 107
İmperializmə dair marksist, liberal və "iblis" nəzəriyyələri ... 107
Bu nəzəriyyələrin tənqidi ... 108

İmperializmin müxtəlif növləri . . . 113
İmperializmin 3 səbəbi . . . 113
Qalibiyyətlə bitən müharibə . . . 113
Məğlubiyyətlə bitən müharibə . . . 114
Zəiflik . . . 115
İmperializmin 3 məqsədi . . . 115
Dünya imperiyası . . . 116
Qitə imperiyası . . . 116
Lokal üstünlük . . . 117
İmperializmin 3 metodu . . . 118
Hərbi imperializm . . . 119
İqtisadi imperializm . . . 119
Mədəni imperializm . . . 121
İmperialist siyasəti necə müəyyən etməli və ona qarşı necə mübarizə aparmalı . . . 124
Siyasət məsələsi: çəkindirmə, barışıq, qorxu . . . 125
Müəyyənləşdirmə məsələsi . . . 130

6. Güc uğrunda mübarizə: nüfuz siyasəti . . . 134
Diplomatik protokol . . . 135
Hərbi güc nümayişi . . . 140
Nüfuz siyasətinin 2 məqsədi . . . 142
Nüfuz siyasətinin 3 təhrifi . . . 145

7. Beynəlxalq siyasətdə ideologiya elementi . . . 150
Siyasi ideologiyaların təbiəti . . . 150
Xarici siyasətlər üçün səciyyəvi olan ideologiyalar . . . 154
Status-kvo ideologiyaları . . . 154
İmperializm ideologiyaları . . . 156
İkili təbiətə malik ideologiyalar . . . 160
Dərketmə problemi . . . 163

III FƏSİL. DÖVLƏTİN GÜCÜ

8. Dövlətin gücünün mahiyyəti . . . 166
Dövlətin gücü nədir? . . . 166
Müasir millətçiliyin kökləri . . . 169
Millətçilikdən geri çəkilmə: görüntü və reallıq . . . 169
Fərdin təhlükə altında olması və sosial parçalanma . . . 171
9. Dövlətin gücünün ünsürləri . . . 175
Coğrafiya . . . 175
Təbii ehtiyatlar . . . 177
Ərzaq . . . 178
Xammal . . . 180
Neftin gücü . . . 181
Sənaye sahələrinin istehsal gücü . . . 185
Hərbi hazırlıq . . . 188
Texnologiya . . . 188
Rəhbərlik . . . 190
Silahlı qüvvələrin sayı və səviyyəsi . . . 191
Əhali . . . 192
Məskunlaşma . . . 192
Əhali artımı tendensiyaları . . . 195
Milli xarakter . . . 196
Onun mövcudluğu . . . 196
Rus milli xarakteri . . . 198
Milli xarakter və dövlətin gücü . . . 201
Milli əhvali-ruhiyyə . . . 203
Onun qeyri-sabitliyi . . . 203
Cəmiyyətin və hökumətin xarakteri həlledici amillər kimi . . . 206
Diplomatiyanın xarakteri . . . 209
Hökumətin xarakteri . . . 214
Resurslar və siyasət arasında tarazlıq məsələsi . . . 214
Resurslar arasında tarazlıq məsələsi . . . 215
İctimai dəstək məsələsi . . . 216
Yerli hökumət və xarici siyasət . . . 220

10. Dövlətin gücünün qiymətləndirilməsi . . . 222
Qiymətləndirmənin vəzifəsi . . . 222
Qiymətləndirmə üçün 3 səciyyəvi səhv . . . 225
Gücün mütləq xarakteri . . . 225
Gücün daimi xarakteri . . . 227
Yeganə amil xətası . . . 230
Geosiyasət . . . 230
Millətçilik . . . 231
Militarizm . . . 233

IV FƏSİL. DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI: *QÜVVƏLƏR TARAZLIĞI*

11. Qüvvələr tarazlığı . . . 238
Sosial müvazinət . . . 238
Qüvvələr tarazlığı universal anlayış kimi . . . 238
Daxili siyasətdə qüvvələr tarazlığı . . . 241
Qüvvələr tarazlığının 2 əsas forması . . . 244
Birbaşa müxaliflik forması . . . 244
Rəqabət forması . . . 246
Koreya və qüvvələr tarazlığı . . . 249

12. Qüvvələr tarazlığının müxtəlif üsulları . . . 250
Parçala və idarə et . . . 250
Kompensasiyalar . . . 251
Silahlanma . . . 252
İttifaqlar . . . 253
İttifaqların ümumi təbiəti . . . 253
İttifaqlar və dünya ağalığı . . . 259
İttifaqlar və əks-ittifaqlar . . . 261
Tarazlığın "tənzimləyicisi" . . . 267

13. Qüvvələr tarazlığının strukturu . . . 272
Hakim və asılı sistemlər . . . 272
Qüvvələr tarazlığında struktur dəyişikliyi . . . 274

14. Qüvvələr tarazlığının qiymətləndirilməsi . . . 276
Qüvvələr tarazlığının qeyri-müəyyənliyi . . . 277
Qüvvələr tarazlığının qeyri-reallığı . . . 282
Qüvvələr tarazlığı bir ideologiya kimi . . . 287
Qüvvələr tarazlığının qeyri-adekvatlığı . . . 289
Əxlaq normalarına dair fikir birliyinin məhdudlaşdırıcı təsiri . . . 289
Müasir dövlət sisteminin mənəvi həmrəyliyi . . . 294

V FƏSİL. DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI: *BEYNƏLXALQ ƏXLAQ NORMALARI VƏ DÜNYA İCTİMAİ FİKRİ*

15. Əxlaq normaları, adətlər və hüquq gücün hüdudları kimi . . . 300

16. Beynəlxalq əxlaq normaları . . . 305
İnsan həyatının müdafiəsi . . . 306
Dinc dövrdə insan həyatının müdafiəsi . . . 306
Müharibə zamanı insan həyatının müdafiəsi . . . 310
Müharibənin mənəvi mühakiməsi . . . 313
Beynəlxalq əxlaq normaları və total müharibə . . . 314
Universal əxlaq normaları və millətçi universalizm . . . 318
Zadəgan beynəlmiləlçiliyinin şəxsi əxlaq normaları . . . 319
Beynəlxalq əxlaq normalarının dağılması . . . 323
Beynəlxalq cəmiyyətin dağılması . . . 325
Millətçiliyin beynəlmiləlçilik üzərində qələbəsi . . . 328
Millətçiliyin transformasiyası . . . 330
İnsan hüquqları və beynəlxalq əxlaq normaları . . . 334

17. Dünya ictimai fikri . . . 340
Dünyanın psixoloji birliyi . . . 342
Texnoloji birləşmənin iki tərəfi . . . 343
Millətçilik baryeri . . . 346

VI FƏSİL. DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI: *BEYNƏLXALQ HÜQUQ*

18. Beynəlxalq hüququn əsas problemləri . . . 354
Beynəlxalq hüququn ümumi təbiəti . . . 354
Beynəlxalq hüququn qanunvericilik funksiyası . . . 358
Onun dağınıq xarakteri . . . 358
Təfsir və məcburiyyət qüvvəsi . . . 361
Beynəlxalq hüququn mühakimə funksiyası . . . 364
Məcburi yurisdiksiya . . . 365
Məcburiyyətsizlik qeyd-şərti . . . 367
Beynəlxalq məhkəmələr . . . 370
Məhkəmə qərarlarının təsiri . . . 372
Beynəlxalq hüququn tətbiq edilməsi . . . 374
Onun dağınıq xarakteri . . . 374
Təminat müqavilələri . . . 377
Kollektiv təhlükəsizlik . . . 379
Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsi . . . 380

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin VII fəsli 385
Veto 389
"Sülh uğrunda birləşmə" qətnaməsi 391

19. Suverenlik 394
Suverenliyin ümumi xarakteri 394
Suverenliyin sinonimləri: müstəqillik, bərabərlik, yekdillik 397
Suverenlik nə deyil? 399
Suverenlik necə itirilir? 400
Beynəlxalq təşkilatlarda əksəriyyət səsverməsi 405
Suverenlik bölünəndir? 408

VII FƏSİL. ÇAĞDAŞ DÜNYADA BEYNƏLXALQ SİYASƏT

20. Millətçi universalizmin yeni mənəvi qüvvəsi 416
Köhnə və yeni millətçilik 416
İnsanların düşüncələri uğrunda mübarizə 419
Təbliğatın 3 prinsipi 420

21. Yeni qüvvələr tarazlığı 427
Yeni qüvvələr tarazlığının sərtliyi 427
Böyük dövlətlərin sayının azalması 427
Gücün ikiqütblülüyü 429
İkibloklu sistemə doğru təmayül 430
Tarazlayıcının yoxa çıxması 432
"Üçüncü qüvvə" problemi 433
Müstəmləkə sərhədinin yox olması 435
Müstəmləkə inqilabı 438
Qərbin tənəzzülü 440
İkiqütblü sistemin potensial imkanları 445
Onun dağılması ehtimalı 446
"Soyuq müharibə"nin davamı 447
Yeni hərəkətlilik diplomatiyası 448
Gərginliyin azaldılması və sülh şəraitində birgə yaşamaq 454

22. Total müharibə 462
Xalqların total müharibəsi 464
Xalqlar tərəfindən total müharibə 468
Xalqlara qarşı total müharibə 469
Müharibənin mexanikləşməsi 471
Silahların mexanikləşməsi 471
Nəqliyyat və kommunikasiyanın mexanikləşməsi 474
Məqsədlər uğrunda total müharibə 476
Total mexanikləşmə, total müharibə və total hegemonluq 479

VIII FƏSİL. SÜLH PROBLEMİ: *MƏHDUDİYYƏTLƏR VASİTƏSİLƏ SÜLH*

23. Tərk-silah 486
Dövrümüzdə sülh problemi 486
Tərk-silahın tarixi 488
Uğursuzluqlar 489
Uğurlar 492
Tərk-silahın 4 problemi 494
Nisbət 494
Dünya Tərk-silah Konfransı 498
İkinci Dünya müharibəsindən sonra tərk-silaha dair danışıqlar 499
Bölüşdürmə meyarları 501
Tərk-silah silahların azaldılmasıdır? 504
Tərk-silah sülh deməkdir? 506
Nüvə dövründə silahlara nəzarət 511

24. Təhlükəsizlik 524
Kollektiv təhlükəsizlik 524
İtaliya-Efiopiya müharibəsi 531
Koreya müharibəsi 532
Beynəlxalq polis qüvvələri 535

25. Məhkəmə yolu ilə nizamlama 538
Məhkəmə funksiyasının xarakteri 538
Beynəlxalq münaqişələrin təbiəti: gərginliklər və mübahisələr 541
Xalis mübahisələr 542
Gərginlik mahiyyəti daşıyan mübahisələr 542
Gərginliyi təcəssüm etdirən mübahisələr 543
Mühakimə funksiyasının hüdudları 545

26. Dinc dəyişiklik 549
Dövlət daxilində dinc dəyişiklik 549
Beynəlxalq əlaqələrdə dinc dəyişiklik 553
Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsi 554
Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi 556

27. Beynəlxalq hökumət 558
"Müqəddəs ittifaq" 558
Tarixi 558
Böyük dövlətlərin yaratdığı hökumət 560
Status-kvonun ikili mənası 561
Sülh, nizam və milli maraq 563
"Avropa konserti" 566
Millətlər Cəmiyyəti 567
Təşkilatlanması 568
Status-kvonun ikili mənası: Fransa və Böyük Britaniya 570
Millətlər Cəmiyyətinin 3 zəifliyi 573
Konstitusional zəiflik 574
Struktur zəifliyi 575
Siyasi zəiflik 578

28. Beynəlxalq hökumət: Birləşmiş Millətlər Təşkilatı 580
Nizamnaməyə görə Birləşmiş Millətlər Təşkilatı 580
Superdövlətlərin hökuməti 580
Ədalətin müəyyən edilməmiş prinsipləri 583
Birləşmiş Millətlər Təşkilatı – siyasi reallıq 585
Baş Assambleyanın yüksəlişi və iflası 585
Yeni prosedurlar 597
Birləşmiş Millətlər Təşkilatı və sülh problemi 600

IX FƏSİL. SÜLH PROBLEMİ: *TRANSFORMASİYA YOLU İLƏ SÜLH*

29. Dünya dövləti 604
Ölkədaxili sülhün şərtləri 605
Qrupun fövqündə duran sədaqətlər 605
Ədalət gözləntisi 608
Dəfedilməz güc 609
Dövlətin rolu 610
Dünya dövləti məsələsi 613
İki düşüncə məktəbi 613
İctimai dəstəyin 3 hissədən ibarət sınağı 615
İki yanlış həll yolu 618
Dünyanın istilası 618
İsveçrə və ABŞ nümunələri 619

30. Dünya birliyi 623
Mədəni yanaşma: UNESCO 623
Mədəni inkişaf və sülh 625
Mədəni birlik və sülh 625
Beynəlxalq anlaşma və sülh 627
Funksional yanaşma 629
Birləşmiş Millətlər Təşkilatının sistemi 629
Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) 634
Avropa birlikləri 635
İqtisadi və texniki yardım qurumları 638

X FƏSİL. SÜLH PROBLEMİ: *RAZILAŞMA YOLU İLƏ SÜLH*

31. Diplomatiya 642
Diplomatiyanın 4 vəzifəsi 642
Diplomatiyanın alətləri 645
Rəmzi təmsilçilik 645
Hüquqi təmsilçilik 646
Siyasi təmsilçilik 647
Diplomatiyanın iflası 649
Kommunikasiyaların inkişafı 649
Diplomatiyanın dəyərini itirməsi 650
Parlament prosedurları ilə yürüdülən diplomatiya 651
Superdövlətlər – diplomatiyanın yeni iştirakçıları 653
Çağdaş dünya siyasətinin təbiəti 654

32. Diplomatiyanın gələcəyi 656
Diplomatiya yenidən necə dirçələ bilər? 656
Aşkarlıq qüsuru 657

Qərarların səs çoxluğu ilə qəbulu qüsuru . . . 659
Hissələrə bölmə qüsuru . . . 662
Diplomatiyanın vədi: onun 9 qaydası . . . 665
4 fundamental qayda . . . 666
Güzəştin 5 ilkin şərti . . . 670

Nəticə . . . 674

Əlavə A. XXI əsr üçün realizmin XXI əsr üçün yenilənməsi . . . 677
Beynəlxalq institutların yanlış vədi *Con C.Merşaymer* . . . 677
Realist konstruktivizm *C.Samuel Barkin* . . . 704
İngilis məktəbi və Amerika realizmi:
düşüncələrin görüşü, yoxsa ortaq dillə bölünmə? *Riçard Litl* . . . 732
Morgentau: siyasət güc uğrunda mübarizə kimi *Eşli Telis* . . . 741
İraq təcrübəsi *Admiral Uilyam Krou* . . . 754
Beynəlxalq siyasət fəlsəfəsində yeni başlanğıclar *General Brent Skoukroft* . . . 764
ABŞ "soyuq müharibə"nin qalibi oldumu? *Səfir Devid Nyusom* . . . 765

Əlavə B. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi . . . 773

Ədəbiyyat . . . 803

Tarixi lüğət . . . 807

Biblioqrafiya . . . 825

İndeks . . . 851

ÖN SÖZ

"Dövlətlər arasında siyasət" kitabı 50 ildir ki, çoxları tərəfindən beynəlxalq siyasət haqqında qələmə alınmış bir nömrəli əsər hesab olunur. Kitabın sayca yeddinci olan bu nəşri çap olunduğu bir zamanda onun milli maraq, güc və diplomatiya da daxil olmaqla əsas mövzuları xarici siyasət fəaliyyəti ilə məşğul olanlar üçün artıq adiləşmiş anlayışlardır. Eyni zamanda onun daha geniş ictimaiyyət üçün dəyəri xüsusilə "11 sentyabr hadisələrinin hər şeyi dəyişdiyi" haqqında bəyanatlar səsləndiyi vaxt hiss olunmağa başladı. Əlbəttə, 2001-ci ildən və ondan da əvvəl kitabın 6 nəşri işıq üzü gördüyü 1985-ci ildən etibarən şərtlər dəyişmişdir. Lakin professor Morgentau əmin idi ki, sürətlə inkişaf edən hadisələr ardıcıllığının altında beynəlxalq siyasətin müasir beynəlxalq həyatın qabarmaçəkilmələrini anlamaq üçün vacib olan müəyyən zəruri xüsusiyyətlər qalıb.

Bu fikirlə razılaşmağımız növbəti nəşrin hazırlanması üçün əvvəlcədən keçirilmiş iki əlavə müzakirənin aparılması ilə nəticələndi. Birincisi, biz 6-cı nəşrin bütün mətnini, əsasən, toxunulmaz saxladıq. Professor Morgentau inanırdı ki, öz sağlığında dəfələrlə ardıcıl şəkildə nəşr olunmuş klassik əsəri beynəlxalq münasibətlərə dair onun fəlsəfəsinin özək ünsürlərini – realist nəzəriyyə, güc uğrunda mübarizə siyasəti, böyük dövlətlərin xarici siyasəti, millətçilik, dövlətin gücü, diplomatiya və dünya dövlətinin yaradılması imkanları – dəyişilməz saxlamalıdır. 6-cı nəşr (müəllifin ölümündən sonra ilk nəşr) düşünülmüş şəkildə professor Morgentaunun 5-ci nəşrinə etdiyi dəyişiklikləri minimum səviyyədə saxladı və bu dəyişikliklər faktiki materialların yenilənməsi və kitabın beynəlxalq hüquq haqqında əvvəlki bölməsində məhkəmə yolu ilə həllə dair nəzərdən keçirilmiş materialların bəzi qısa ixtisarları ilə məhdudlaşır.

Professor Tompson cənab Piter Geldmanın dəyərli yardımı ilə və professor Morgentaunun onun övladları Suzanna və Metyunun əməkdaşlığı ilə Virciniya Universitetinin Alderman kitabxanasında saxlanılan yazılarına arxalanaraq, kitabın 6-cı nəşrini hazırlayarkən kitabın 5-ci nəşrinə yazdığı ön sözdə "əvvəlki nəşrlərdəki işi üzvi və dönməz formada" davam etdirmiş olduğunu yazan Morgentaunun yanaşmasını təkrarlamağa cəhd etdi. Oxşar ruhda da biz 7-ci nəşrin öz sözünü deməsinə imkan vermək qərarına gəldik.

Qeyd etməliyik ki, əlyazmada kitabın ilk dəfə çap olunduğu dövr üçün ənənəvi olduğu kimi kişi cinsində olan əvəzlik üstünlük təşkil edir. 6-cı nəşrdə və ona görə də 7-ci nəşrdə kitabın orijinal dilinə toxunmamaq qərara alındı. Ümid edirik ki, bizim istifadə etdiyimiz kişi cinsində olan əvəzliyin hansı hallarda müvafiq olaraq qadınları və kişiləri nəzərdə tutduğu anlaşıla bilər.

PREZİDENT KİTABXANASI

Bununla belə, 1985-ci ildən etibarən hadisələrin inkişafını inkar etmək olmaz – ona görə də bizim redaksiya heyətimiz ikinci qərarı verdi. Professor Morgentaunun düşüncəsinin hətta müasir beynəlxalq həyatın ən çox dəyişmiş şərtlərində belə münasibliyini qoruyub saxladığını göstərmək səyimizin bir hissəsi olaraq, biz bu klassik mətnə iki əlavə etdik. Bunlardan birincisinə kitabın birinci hissəsində rast gəlinir; bu, beynəlxalq siyasətə realist yanaşmanın zamanı olmayan baxışlarının nümayiş olunduğu, onun *"Dövlətlər arasında siyasət"* kitabında özünü göstərən düşüncəsinin lazımi qədər qiymətləndirilməmiş aspektlərinin qeyd olunduğu və XXI əsrin əvvəlində bəzi cari problemlərdən bəhs edilən giriş essesidir.

İkinci əlavəyə isə kitabın sonunda rast gəlmək olar: bu, beynəlxalq düşüncənin müxtəlif ənənələrinə mənsub olan tanınmış alimlərin yazdığı bir neçə essedən ibarətdir və onlar bu esselərdə professor Morgentaunun realizminə digər ənənələrin içindən cavab verirlər, eləcə də admiral Uilyam Krounun müəllifi olduğu essedə realist ənənəsi mövqeyindən danışılır və o, ABŞ-ın müasir dünyada üzləşdiyi sülh və müharibə məsələlərinə tətbiq olunur.

Hazırkı hadisələr haqqında general Brent Skoukroftun və səfir Devid Nyusamın vaxtına düşən esseləri də bura daxil edilmişdir. Professor Morgentaunun müdrikliyini yeni nəsil araşdırmaçılara və vətəndaşlara təqdim etmək imkanına bu yolla yanaşarkən ən yaxşı bünövrədə – Morgentaunun özünün professor Tompsonla birlikdə digər klassik bir kitabın – *"Beynəlxalq siyasətin prinsipləri və problemləri: seçilmiş mübahisələr"* (*"Principles and Problems of International Politics: Selected Readings"*, New York: Alfred A.Knopf, 1950) kitabının redaktəsi ilə qoyduğu nümunə əsasında fəaliyyət göstərdiyimizə inanırıq.

Beynəlxalq münasibətlərin əksər araşdırmaçıları üçün *"Dövlətlər arasında siyasət"* kitabının təqdimata ehtiyacı yoxdur. O, tələbələr və minlərlə doktorant üçün elmi istinada çevrilib. Ümid edirik ki, indiki nəşr yeni oxucular cəlb edərək və ali təhsil və ictimai münasibətlərin yeni dövründə dəyişən ehtiyaclara cavab verərək, onun auditoriyasını genişləndirməyə xidmət edəcək.

Kennet U.Tompson
U.Devid Klinton

GİRİŞ

DÖVLƏTLƏR ARASINDA SİYASƏTİN DAVAM EDƏN ƏHƏMİYYƏTİ

Nə Morgentaunun realizminin davamçısı, nə də özünə görə görkəmli elm xadimi olan çağdaş alimlərdən biri belə deyir: "Əgər bizim beynəlxalq münasibətlər fənnimizin bir banisi varsa, o, Hans Morgentaudur".[1]

XXI əsrin astanasında kim Morgentau, yaxud onun ən məşhur əsəri olan *"Dövlətlər arasında siyasət"* əsərinin belə dəyərləndirilməsi ilə razı olmaya bilər? Yeni cığır açan belə bir analizin meydana çıxmasından sonra ötən 50 ildən çox müddət ərzində pərəstişkarları onun dərin düşüncələrinə əsaslanmağa cəhd edir, həmin vaxtda onun tənqidçiləri öz arqumentlərini onun tutarsız olmasını göstərmək cəhdi ilə başlamağı özlərinə borc bilirlər. O, beynəlxalq münasibətlər haqqında yeganə ən çox təsir imkanına malik əsər olaraq qalır və Amerika araşdırmaçılarının birdən çox nəslinin intellektual inkişafına rəhbərlik edib.

Bu halda *"Dövlətlər arasında siyasət"* əsərinin əhəmiyyətini bir baxımdan şərh etmək olduqca sadədir; o, faktiki olaraq beynəlxalq münasibətlər sahəsində hər bir giriş kursunda yer alır, belə ki, tələbələr onun arqumentlərinə ya birbaşa, ya da dolayı yolla münasibətlərini bildirirlər. Lakin digər baxımdan bu klassik kitabın görkəmli müəllifinin ölümündən 20 ildən çox müddət sonra müdafiə etmək onun artıq fənnin qanına hopması səbəbindən kifayət qədər çətindir. Çox vaxt onun çağdaş dövrün alimlərinin razılaşdıqları bu qisimləri, sadəcə, beynəlxalq həyatın ümumi şəkildə anlaşılan arxa plan şərtlərinin hissəsi kimi mənimsənilir. "Hər kəsə məlumdur ki" ifadəsi Morgentauya almanın yerə düşməsini müşahidə edən zaman İsaak Nyutona istinad edildiyi qədər istinad etməyə ehtiyacın olmamasının gizli mənasının paroludur. (*"Dövlətlər arasında siyasət"* əsərinin baxışlarının "sağlam düşüncə"yə belə təsadüfi transformasiyası zamanı unudulur ki, o, ilk dəfə nəşr olunan zaman bu arqumentlərin çoxu son dərəcə mübahisəli hesab olunurdu!) Eyni zamanda Morgentaunun narazılıq doğuran arqumentləri çox vaxt belə bir müşahidə ilə diqqət cəlb edir ki, "soyuq müharibə" günlərində sahib olduqları dəyərlərdən asılı olmayaraq, onlar bu gün, şübhəsiz ki, tutarlı deyil.

[1] Stanley Hoffman, *Janus and Minerva: Essays in the Theory and Practice of International Politics* (Boulder, CO: Westview Press, 1987), səh. 6

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Ona görə də "*Dövlətlər arasında siyasət*" kitabının yeni nəşrinin nəyə görə əhəmiyyətli olduğunu izah etmək üçün üçhissəli bir vəzifə müəyyən etmişik. Birincisi, bu giriş essesi çox qısa şəkildə beynəlxalq həyat haqqında Morgentaunun nəzərdə tutduğu formada və "soyuq müharibə"dən sonra və terrorçuluq ilə müharibənin ortasında tutarlılığını saxlayan realizmə uyğun müəyyən fundamental müşahidələrə nəzər salır. Bu fikirlər dünyanın klassik realist mənzərəsi ilə yaxından əlaqəlidir və ona görə də uzun-uzadı müzakirəyə ehtiyac duymur və yalnız onu qeyd etmək lazımdır ki, Sovet İttifaqının süqutu ilə onlar öz kəskinliyini itirmir. İkincisi, biz beynəlxalq sistemin etik baxımdan korlanmasına dair narahatlığı Morgentaunun mirası ilə bərabər şəkildə nəzərdən keçirmək üçün bir mülahizəmizi təqdim edirik; bu bölmənin böyük bir hissəsi əxlaq normalarının onu maraqlandırmadığına dair tez-tez rast gəlinən təsəvvür ilə zəruri olur. Üçüncüsü, Morgentaunun ideyalarını müasir hadisələrə tətbiq etməklə beynəlxalq arenada baş verən hadisələrin onun yaşadığı ömürdə təsəvvürünə gətirmiş ola bilməyəcəyi, lakin, bununla belə, onun böyük əsərində qarşılaşdığımız elmi çərçivənin istifadəsi ilə dərhal qavramış ola biləcəyi bütün ünsürlər ilə birlikdə geniş ümumi müşahidəsini apararaq və müvafiq nəticələr əldə edərək esseni tamamlayacağıq. Başqa sözlə, burada arqument tanış olan prinsiplərdən tanış olmayan prinsiplərə və həmin prinsiplərin tətbiqinə keçir.

REALİZM VƏ MÜNAQİŞƏNİN UZUNMÜDDƏTLİ MÖVCUDLUĞU

Realistlər hər zaman münaqişədən ilham alıblar. Münaqişə ilə barışmamalarına baxmayaraq, onlar heç vaxt münaqişənin heç olmasa yalnız zorakı münaqişənin kökünün və şaxəsinin beynəlxalq həyatdan kəsilə bilməsi üçün edilən sülhməramlı çağırışlara riayət etməyiblər. "Soyuq müharibə"dən sonra beynəlxalq münaqişənin həmin mübarizəyə qədər olduğu kimi baş verməkdə davam etdiyini söyləmək hamıya məlum olan bir gerçəkliyi xatırlamaqdır. Buna baxmayaraq, Morgentau dünyanın, sadəcə, Sovet Ittifaqının mövcudluğuna son qoyulduğu üçün dinc və birgə yaşayış məkanına çevrildiyi haqqında fikrin rədd edilməsinə təəccüblənməzdi.

Deməli, realizm münaqişəni beynəlxalq siyasətdə qarşılıqlı fəaliyyətin ənənəvi forması kimi müəyyən etməyi nəzərdə tutur. Şərtlərdəki və baxışlardakı fərqliliklər şəxsi marağın fərqli təyinatlarını yaradır və bununla da həmin maraqlar toqquşur. Şəxsi marağın motor, yaxud motiv qüvvəsi formasında olan enerjisi və mənəvi və təsisati əyləcin zəifliyi bizi nəticələri əsas etibarilə nisbi güc ilə təyin olunan mübarizələrə gətirib çıxarır.

Realistlərin bəzən münaqişənin hər yerdə mövcudluğundan başqa heç nədə büruzə verməmələri həzz onları gözdən salan aludəçiliklər ilə əlaqələndirilə bilər, belə ki, onlar elmi opponentlərinin əmin-amanlığın rasionallıq, əxlaq normaları və təsisati nizamlanmanın nisbətən sadə şəkildə tətbiqi ilə əldə edilmiş, yaxud əldə edilmək üzrə olduğuna dair fikirlərini puça çıxarmağa çalışırlar. Münaqişənin kökləri insan təbiətində axtarılmalı olduğuna görə nifaqın siyasi həyatın labüd parçası olduğuna dair inam realist meylin qorxu doğuran cizgisi ilə yaxşı uyğunlaşır. Morgentau çəkinmədən boynuna alırdı ki, onun insan təbiəti haqqında təsəvvürü tutqundur.

Əslində, belə bir fikir irəli sürmək olar ki, *raisond'etat* və qüvvələr tarazlığı kimi məhək daşlarına əsaslanmağın tərəfdarı olmaqla realistlər bu qəddar və darıxdırıcı dövrədə qurtulmağa və dövlətçiliyi ölçülə bilən şəxsi marağın daha ümidverici bünövrəsinin üzərinə qoymağa çalışırlar.[1] Lakin hətta burada da realist münaqişənin aradan qaldırılmasına deyil, ən uzağı yumşaldılması, məhdudlaşdırılması və istiqamətləndirilməsinə qədər inandırıla bilər. Hətta əgər onlar verdiyi reseptlər qəbul olunsa belə, tədbirlər aparılan hesablamalar onların ümidlərinin çox da yüksəlməsinə imkan vermir. Mübarizələr, təhlükələr və əks-təhlükələr hətta ehtiyat tədbirlərinə və diplomatik protokola bürünmüş olsa belə, hələ də normadır. Heç bir realist qurd və quzunun bir yerdə yaşayacağını zənn etmir və bundan da artığı, iki qurdun üstünlük uğrunda mübarizə aparmağı dayandıracağını gözləmir. Əgər mübarizə səs-küy salmaq və hədələyici bədən dili ilə, qanlı döyüşlərə əl atmadan yoluna qoyula bilsə də, sonda yenə də bir tərəf digər tərəf üzərində üstünlük əldə etmiş olur.

Belə bir münaqişənin əsarəti altında olan belə bir mühitdə əgər kimsə bir az aqressiv davranmasa, bundan yalnız xeyir götürəcək. Başqa sözlə, tədbirlilik yalnız beynəlxalq cəmiyyətin sülhyaratma təsirlərinə güvənməyin nə qədər təhlükəsiz olduğu düşüncəsini deyil, həm də gücün alətlərini səmərəli şəkildə əlində saxlamaq fərasətini əhatə edir. Qarşılıqlı xeyirli olan tarazlıq şəxsi marağın böyük dövlətlər tərəfindən məharətlə həyata keçirilməsi ehtimalına söykənir; ümumi sabitlik məhdudlaşdırılmış, bununla belə, real münaqişəyə söykənir.

Beləliklə, ABŞ və onun bəzi avropalı müttəfiqləri arasında aşkar olan, yəni "soyuq müharibə"nin sona çatması və ortaq düşmənin yox olması ilə açıq şəkildə özünü göstərə bilmiş mübahisələrdə bəzən müşahidə olunurdu ki, *İraqa* qarşı hərbi qüvvə tətbiq edilməsi ilə birlikdə avropalılar *İranın* nüvə proqramının beynəlxalq yoxlanışında əməkdaşlıq etməsindən asılı olaraq, onun öz bazarlarına

[1] Bax: Albert O. Hirschman, *The Passions and the Interest: Political Arguments for Capitalism Before ITS Triumph* (Princetone University Press, 1977)

girişinə icazə vermək, yaxud bunu bağlamaqla iqtisadi güc məcburiyyəti tətbiq etmək istəyirdilər (yaxud ən azından bunu istədiklərini bəyan edirdilər). Reynold Neybur qeyd edirdi ki, məcburiyyət ya hərbi zərbələr, yaxud iqtisadi sanksiyalar vasitəsilə ziyanın vurulmasını nəzərdə tutur və siyasi həyat, demək olar ki, hər zaman məcburiyyət vasitəsilə fəaliyyət göstərir. Əgər hətta məcburiyyətin hərbi tədbirlərlə məhdudlaşan daha dar mənası qəbul olunsa belə, Çinin potensial olaraq neft ilə zəngin olan Spratli adaları zəncirinə iddiaları irəli sürərkən silahlı nümayişləri nümunəsi var. Əgər Vyetnam, Tayvan, Malayziya, Bruney, yaxud Filippin həmin iddialar ilə mübarizə aparmaq istəsəydi, onda onlar da həmçinin öz mövqelərini ya öz gücləri, ya da ona dəstək verməyə hazır olan xarici qüvvənin, məsələn, ABŞ-ın gücü hesabına müdafiə etməyə hazır olmalı idilər.[1] XXI əsrdə münaqişə dini fundamentalizm, yaxud təbii resurslar uğrunda baş verə bilər, lakin görünən odur ki, o baş verəcək və realizm münaqişə reallığını qəbul etmək, mübarizə aparmaq və münaqişədə qələbə çalmaq üçün zəruri qətiyyəti açıb göstərmək iddiasında idi. Hətta çıxılmaz vəziyyət belə hər hansı bir tərəfin digərləri tərəfindən məcburiyyət tədbirlərinə rəvac verə biləcəyi qorxusundan öz iddialarını çox uzağa aparmamaq istəksizliyinə əsaslanar; açıq münaqişədən uzaq durmağa bir addımlıqda olan münaqişə vasitəsilə nail oluna bilər.

Oyunçular diplomatiyaya müraciət etmək istəyərlər, çünki onlar münaqişəyə qoşulmağa hazır olduqlarını nümayiş etdirmiş digər dövlətlərə qarşı çıxmağın xərclərini hesablayırlar. Bununla belə, bu kimi əks-tədbiri əvvəlcədən təxmin etmədən gələcəyin kölgəsi indiki məcburiyyət tədbirlərinin qarşısını almaz. Realizm ən aydın şərhlərini beynəlxalq həyatın bu tərəfinə verir.

Realistlər nə qədər ki münaqişənin beynəlxalq sistemin bir hissəsi olduğunu görməkdən təsirlənmirlər (çünki onlar bunu *aşkar* etmirlər, *qəbul* edirlər), ona həddindən artıq sərt reaksiya verməyə qarşı peyvənd oluna bilərlər. Bu onların münaqişə fenomeninə uzaqgörənliklə qarşı çıxmaq istəyəcəklərini deməyin başqa bir yoludur. Bu, ağır ziyandan əzab çəkmiş bir xalqın haqlı qəzəbinin hərbi məqsədlərə nail olmaq yollarını soyuqqanlılıqla nəzərdən keçirmədən hücuma keçməsi ilə nəticələnməsinə icazə verməklə ona heç bir xeyir gətirməyəcək. Heç bir dövlətin resursları sonsuz deyil və onların hamısı çoxsaylı təhlükələr ilə qarşılaşa bilər. Dövləti ən əlacsız vəziyyətlərdən başqa, bütün hallarda içində olduğu münaqişəyə ağılsızcasına həddindən artıq sərmayə qoymaqdan çəkindirən, aydındır ki, pusquda duran digər bir münaqişənin mövcudluğunun qəbuludur.

[1] Bax: Michael T.Klare, *Resource Wars: The New Landscape of Global Conflict* (New York: Henry Holt, 2001).

"Soyuq müharibə"nin mühüm hissəsi olmuş ideoloji mübarizə, əlbəttə ki, aradan qalxmışdır. Beynəlxalq cəmiyyətin üzvlərinin dövlətlərə və cəmiyyətlərə məxsus olan yerli təşkilatlara görə kəskin şəkildə bölündüyü bir dünya müharibənin bir mühüm səbəbinin aradan qalxmış olduğu bir dünyadır. Daha ümumi şəkildə desək, realist ənənəsi aşkar şəkildə bəyan edilmiş ideoloji cəhdlərin arxasında istənilən güc birliklərinin arasında toqquşmaların həqiqi səbəbi kimi güc və maraq motivləri axtarıb tapmağa meyilləndirilər və kommunizmin nüfuzdan salınmasını yalnız bir tiranlığın məğlubiyyəti kimi deyil, həm də bünövrəni təşkil edən, resurslar, nüfuz və idarəetmə ilə əlaqəli şübhələrə kölgə salmış çağırışlardan ibarət kol-kos yığımının yoldan təmizlənməsi üçün arzuolunan fürsət kimi görərdi. Bəs bu münaqişə yalnız Qərb və müsəlman fundamentalizmi arasında yeni yarımideoloji qarşıdurma iləmi əvəz olunmuşdur?

Realistlərin münaqişəyə göstərdikləri böyük diqqətin yüksək dəyəri özündə, çox şübhəsiz, belə bir məna daşıyır ki, onların əməkdaşlıq haqqında deməyə sözləri azdır. Əlbəttə ki, ümumi məqsədə təmənnasız sədaqət çoxu sistemli iflas dövründə olmasa da, geniş yayılmış beynəlxalq və daxili nizamsızlıq dövrlərində yaşamış realistlərin əsas qayğısı deyil. Düşmənçilik, şübhə, qarşıdurma – realistlər bunları beynəlxalq siyasəti ən çox izah edən münasibətlər hesab edirdilər. Razılaşma, dinc münasibətlər, əməkdaşlıq – bunlar isə realistlər üçün hər zaman daha qeyri-müəyyən və az fundamental, daha çox altında gücün durduğu əlaqələri yumşaldan və gizli saxlayan, lakin heç vaxt aradan qaldırmayan bir örtükdür. Bu o demək deyil ki, diplomatik sistem olan beynəlxalq cəmiyyətin belə cəhətləri realistlərə məlum deyil – onlardan biri olan Morgentau, irəlidə görəcəyimiz kimi, onları ətraflı şəkildə müzakirə edir – lakin onun əsərində hər zaman belə bir xatırlatma ilə rastlaşırıq ki, bu üsullar güc siyasəti üçün əvəzedici deyil. Əvəzində onlar gücü bütün tərəflərin faydalı hesab etdikləri yollara yönləndirmək üsulu, eləcə də güc uğrunda yarışa, məsələn, "soyuq müharibə" dövründə görmüş olduqlarımızdan daha az amansız yollarla getmək imkanı verəcək ortaq normaların inkişafına doğru cığırdır.

Bu zaman inam və əməkdaşlığın "soyuq müharibə"dən sonrakı dövrdə beynəlxalq həyatda realist təsəvvürlərin real diplomatik, iqtisadi və strateji təcrübə ilə uzlaşmadığı geniş ərazilər yarada biləcək qədər yüksək inkişaf edib-etmədiyi haqqında sual meydana çıxır. Şübhəsiz ki, "soyuq müharibə" sistemində gücün əvvəlki iki mərkəzi arasındakı münasibətlər yaxşılaşmış, Avropada regional inteqrasiya sahəsində misli olmayan təcrübə və fövqəlmilli institutların yaradılması davam etmiş və Ümumdünya Ticarət Təşkilatı kimi beynəlxalq maliyyə institutlarına artırılmış əhatə dairəsi və səlahiyyət verilmişdir. Rusiya və Çinin ABŞ-ın gücünü tarazlamaq səyi ilə bir çox neorealist tərəfindən çoxdan gözlənilən müttəfiqliyi hələ ki

baş verməyib. Buna baxmayaraq, bu hadisələrin sistemin qəlbində ehtimalların yenidən formalaşmasına səbəb olub-olmayacağı maraqlı ola bilər. Belə bir fikir ilə çıxış etmək mümkündür ki, Vaşinqton və Moskva arasında düşmənçilik yox olacaq dərəcədə azalıb, çünki ikinci artıq birincinin fəal rəqibi deyil – hətta bu halda da bəzi Avropa paytaxtları NATO-nu Rusiya dövlətinin gücünün və ambisiyalarının yenilənməsinə qarşı sığorta kimi saxlamaq istəyər. ÜTT-nin qanadı altında aparılan danışıqlar tərəflərin qısqanclıqla bələdçilik etdikləri və öz iqtisadi maraqlarını irəli aparmağa cəhd etdikləri təsadüfi görüşlər olaraq qalır. ABŞ ilə tarazlıq yaradan Rusiya-Çin bloku hələ ortaya çıxmayıb, lakin üst səviyyədə Avropa Birliyi tərəfindən təmsil olunan yeni güc bloku olan Fransa-Almaniya bloku ən azından ağlabatandır. Məsələ ondadır ki, "soyuq müharibə"dən və 11 sentyabr hadisələrindən sonrakı dünyadakı beynəlxalq siyasətdə nisbi güc ilə əlaqədar narahatlığın canlı və güclü olduğu görünür.

Ümumiyyətlə, realistlər beynəlxalq əməkdaşlığın qeyri-mümkün olduğu fikrinin tərəfdarı olmayıblar. Onlar yalnız belə bir fikrin tərəfdarı olublar ki, beynəlxalq əməkdaşlıq üçün göstərilən səylər güc arzusunu boğmağa və mövcud qüvvələr bölgüsünün yaratdığı nisbi təsir formasına əhəmiyyət verməməyə əbəs yerə cəhd göstərmək əvəzinə, onu gücün reallıqlarına uyğunlaşdırmalıdır. Realizm nisbi sakitlik dövrlərini və möhkəmləndirilmiş beynəlxalq cəmiyyətini anlamaq səyi ilə digər ənənələr tərəfindən faydalı şəkildə tamamlana bilər, lakin bu o demək deyil ki, əgər dünya, həqiqətən, həmin dövrlərdən birinə daxil olursa, realizmin öz əhəmiyyətini tamamilə, yaxud çox böyük həcmdə itirib.

REALİZM VƏ GÜCƏ ETİNASIZLIĞIN QEYRİ-MÜMKÜNLÜYÜ

"Soyuq müharibə"dən sonrakı dövrdə beynəlxalq sistem Morgentaunun ömrü ərzində istənilən anda olduğundan daha çox güc üzərində təmərküzləşib. ABŞ bu gücü necə istifadə etməlidir? Realistlərin böyük gücə sahib olmağın hakim dövlətin liderlərini keçmişdə dövlətləri fəlakətə sürükləmiş ağalıq həvəsindən, əsası olmayan əminlikdən və irrasional şövqlərdən azad etmədiyi haqqında xəbərdarlıq edərək, təmkinə çağırış etməkdə vahid mövqe tutduğu görünür. Eyni zamanda heç bir realist ABŞ-a passiv xarici siyasət yolu tutaraq öhdəliklərdən imtina etməyi məsləhət görməz. Çirkli əllər təhlükəsi realistlərin dəfedilməz hesab etdiyi bir təhlükə deyil.

Gücə realist münasibət, əslində, mürəkkəb və ən az haçalanmışdır. Özlərinin insan təbiəti haqqında anlayışlarından və tarix haqqında məlumatlardan çıxış

edərək realistlər gücün dağıdıcılığına elə ehtiram və qorxu nümayiş etdirirlər ki, yanlış olaraq anlaşılır ki, onlar gücün *idarə edilməli* olduğuna əmindirlər. Realizm inama az meyillidir – istisna olaraq realistlər birmənalı şəkildə qəbul edirlər ki, insanın öz maraqlarını istənilən digərlərinin maraqlarından irəli çəkməyə cəhd edəcəyinə ümumiyyətlə inanmaq olar. Ağılla həyata keçirilən daxili idarəetmə mövcud olmadıqda xarici idarəetmələrə müraciət etmək ehtiyacı yaranır ki, beynəlxalq arenada da bu, qüvvələr tarazlığının məşhur kələyinə gətirib çıxarır. Müvafiq qüvvələr bölgüsünün səmərəli nəticələri üçün az-çox tələblər irəli sürülüb, lakin "güc şəraiti"nə[1] yaxın və dəyişməz diqqətin ağlabatan izahının əsasında belə bir mülahizə durmuşdur ki, əgər gücə kifayət edəcək qədər əks güc tərəfindən nəzarət olunarsa və qarşı çıxılarsa, ondan digərlərini istismar etmək üçün yanlış istifadənin təhlükəsi minimuma endirilə bilər. Hətta qüvvələr tarazlığı siyasətinin məharətlə tətbiqi belə sülhü mühafizə edə bilməz, lakin müharibəni "təhlükəsiz" qüvvələr bölgüsünün mühafizəsi və bərpası mexanizmi kimi qəbul etmək istəyinin özü realistlərin qüvvələr müvazinəti üçün ödəmək istədiyi qiyməti (yəni ona qoyduqları dəyəri) göstərir, həmin müvazinət isə qeyri-müəyyən təmkinlilikdən təhlükəsizlik gözləmir, bunun əvəzinə irəli sürdükləri təhdidlərini inandırıcı etmək üçün əlində kifayət qədər güc resursu olanlar tərəfindən real və potensial məcburiyyətin möhkəm zəminində dayanır. Yoxlanılmayan və nəzarət olunmayan gücə sahib heç bir şəxsə və ya kollektiv birliyə inanmaq olmaz.

Berkdən Morgentauya qədər bütün realistlər uzun müddət məqsədlərinin arzuolunan olması və motivlərinin saflığının qeyri-məhdud gücə sahib olmaqda onlara inam bəslənə biləcəyinə imkan verdiyini iddia edənlərə qarşı çıxıblar. Nəzarət olunan bilməyən güc təhlükəli, müəmmalı gücdür və münasibətlərin ürəkaçan olmayan belə formasının mövcudluğu bir şəxsdə, yaxud təsisatlar qrupunda qüsurların olması ilə deyil, insanların onlar tərəfindən işlədilən bütün təsisatlara sirayət edən qüsurlu psixologiyası və qəlbi ilə əlaqədardır. Beləliklə, gücün nəzarət edilməli olduğu ilə bağlı qətiyyət realistlərin təsəvvüründə xüsusi yerə sahibdir.

Gücə ikinci və ən azından üzdə tamamilə uyğun gəlməyən realist münasibət ondan ibarətdir ki, güc *istifadə* olunmalıdır. Doğrudur, gücə açıq-aşkar "Təhlükəli material" yarlığı yapışdırılmalıdır və o, gözdən kənar, yəni nəzarətsiz qalmamalıdır. Hər şeyə rəğmən güc həyati gerçəklikdir və realistlər də həyati gerçəkliklərə uyğunlaşmağa böyük əhəmiyyət verirlər. Güc fenomenindən imtina etmək olmaz; bir qrupun öz güc istəyindən əl çəkmək cəhdinin yeganə nəticəsi digər rəqib qrupların gücünün nəzarətsiz qalması və ona görə də sui-istifadəsi olacaq. Güc əldəetmə istiqamətində çalışmaların mütləq şəkildə bir dövlətin bədnamlıqlarla məşğul olmasına

[1] Bax: Inis Claude, *Power and International Relations* (New York: Random House, 1962).

rolu az deyil. Heç bir realist bu məsələyə Morgentaudan daha çox nəzər yetirməyib. Bununla belə, istehzalı məqamdır ki, Morgentau onun dövründə iki tərəfin tarixən görünməmiş dərəcədə bir-birindən ayrılmış olduğuna dair arqument ilə çıxış edərək, mənəvi prinsiplər üçün narahatlığı milli maraq naminə fəaliyyət ilə birləşdirmək imkanlarını işıqlandırdı. Onun həmin tərəfləri hələ də bir araya gətirə biləcək üsullara verdiyi təsvir beynəlxalq cəmiyyəti anlamağa cəhd edən hər kəs üçün dərin və təxribatçı çağırış olaraq qalır. Buna onun *"Dövlətlər arasında siyasət"* kitabındakı müşahidəsi ilə yanaşıla bilər: "müasir müharibənin xarakteri ilə yaradılmış milli maraq və həmin marağı müasir müharibə texnologiyasının təqdim etdiyi üsullarla təmin etmək beynəlxalq siyasətin mənəvi məhdudiyyətləri üzərində korlayıcı təsirə malikdir".[1]

XXI əsrin istənilən realisti kimi, Morgentau da milli maraqların və mənəvi prinsiplərin iki bir-birinə əks çəkisini realizm tərəzisində tarazladı. O bunu *"Dövlətlər arasında siyasət"* əsərində və həmin dövrdə qələmə aldığı digər əsərlərində dövlətlərin üz-üzə qaldığı beynəlxalq şəraitin yalnız qüvvələr tarazlığından deyil, həmçinin ideyalar mühitindən təşkil olunduğu fikrini irəli sürərək etdi. "Əhliləşdirilmiş" milli maraq ayrı-ayrı dövlətlərin güc meyillərinin ifadəsini məhdudlaşdıran beynəlxalq səviyyədə qəbul olunmuş ideyalar qrupu (mənəvi dəyərlər də daxil olmaqla) tərəfindən məhdudlaşar.

Əmin olmaq üçün 1940-cı illərin və 50-ci illərin əvvəllərində Morgentauya birdən artıq tərəfin tərəfdarı kimi istinad oluna bilər. O zaman-zaman bütün dövlətləri öz maraqlarını təyin edəndə sahib olduqları qərəzli və məhdud baxışa görə

[1] *Politics Among Nations: The Struggle for Power and Peace* (New York: Alfred A.Knopf, 1948), səh. 182. Morgentaunun düşüncəsi xüsusilə beynəlxalq və ölkədaxili sahələrdə dəyişən şərtlərə cavab olaraq zamanla təkamül etmişdir. (Bax: Jaap W.Nobel, "Morgenthau's Strugglewith Power: The Theory of Power Politics and Cold War," *Review of International Studies*, Vol. 21 [January 1995], səh. 61-85). Bu esse *"Dövlətlər arasında siyasət"* əsərinin yeni nəşrinin çap olunması münasibətilə yazıldığı üçün biz bu bölmədəki təfsiri kitabın nəşri illərində üzə çıxmış – yəni Morgentaunun 1930-cu illərin əvvəlində ABŞ-a gəlişindən sonra ilk dövrlərdə yazdığı məqalələrdən tutmuş *"Dövlətlər arasında siyasət"* (bundan sonra – PAN) kitabının 1954-cü ildə ikinci nəşrinə qədərki işlərlə – birincilər "siyasi realizmin 6 prinsipi"ni ehtiva edir – məhdudlaşdırırıq. Morgentaunun Avropada yaşayan zaman iki müharibə arasındakı dövrdəki yazılarının onun ABŞ-a gəldikdən sonra üzə çıxan işləri ilə müqayisəsi üçün bax: Christoph Frei, *Hans J.Morgenthau: An Intellectual Biography* (Baton Rouge: Louisina State University Press, 2001); Neils Amstrup, "The 'Early' Morgenthau: A Comment on the Intellectual Origins of Realism," *Cooperation and Conflict: Nordic Journal of International Politics*, No. 3 (1978), səh. 163-175; Greg Russel, *Hans J.Morgenthau and the Ethics of American Statecraft* (Baton Rouge: Louisiana State University Press, 1990), xüsusilə fəsil 2 və 3.

pisləmək üçün kəskin mövqeyi tuta bilərdi. 1952-ci ildə tarixən Amerika xarici siyasətinin mənəvi prinsiplərə əsaslanmış olduğuna dair bəyanatları "şovinist bəraət" kimi təsvir edərkən və bunun yerinə onu "insafsız" adlandırarkən o, növbəti fikirləri əlavə etdi: "Bizə məlumdur ki, bu bütün dövlətlərin öz maraqları təhlükə altında olarkən düşdükləri yoldur və o çox amansız, çox əqidəsiz və çox məkrlidir".[1] Bu məsələdə öz ölkənin digərləri qədər günahkar ola biləcəyini qəbul etmək "həyatın dramatik mənası, həlli olmayan ziddiyyətin məlum olduğu"nun qəbulu üçün – bu, *"Elmli adam"*[2] kitabında gəlinən nəticənin bünövrəsində dururdu – zəruri idi. O həm də bəyan etdi ki, "mənəvi və intellektual baxımdan dərk edilən istənilən ağ-qara nümunə faktiki olaraq təyinatına görə ikisindən birinin yaxşı və ya pis, müdriklik və ya yanlış olan tərəflərin ayrılmaz surətdə bir-birinə qarışmış və bir-birinin içinə keçmiş siyasi vəziyyətdə ədaləti təmin etmək üçün adekvat deyil".[3]

O daha tez-tez israr edirdi ki, maddi rifah iqtisadiyyatın, hüquqi idarəetmə isə hüququn işi olduğu kimi, siyasət də gücün ən azı yaxın məqsəd olduğu müstəqil bir sahədir.[4] Bu halda demək olardı ki, siyasi sahə daxilində "siyasi aktorun, ümumi mənəvi vəzifələrindən başqa, ağılla, yəni siyasi fəaliyyətin qaydalarına uyğun hərəkət etmək üçün xüsusi mənəvi öhdəliyi var və onun üçün məqsədəuyğunluq mənəvi vəzifəyə çevrilir".[5] Ağılsız hərəkətlərin nəticəsi, hətta baxmayaraq ki, onlar xoş niyyətlər daşıyır, siyasi qərar qəbul edəni də keçib onun ölkəsi və həmvətənlərinə də aid olur və "onlar, həqiqətən də, qayğıları altında olan xalqların maraqlarını təhlükə altına salan siyasi qanunlara laqeydliyinə görə qınağa layiq olanlardır".[6] Ona görə də "uzaqgörənlik nümayiş etdirmədən, yəni zahirən əxlaq normalarına cavab verən fəaliyyətlərin siyasi nəticələrini nəzərdən keçirmədən siyasi mənəviyyat ola bilməz" və "böyük bir dövlətin milli maraqdan başqa, heç bir digər mənəvi və intellektual fəaliyyət və mühakimə meyarı yoxdur".[7] Morgentau "Hobbsun ifrat fikirlərində əxlaq normaları, eləcə də qanunun dövlət tərəfindən

[1] "Another 'Great Debate': The National Interest of the United States," *American Political Science Review*, Vol. XLVI (December 1952), səh. 970-971.
[2] *Scientific Man vs. Power Politics* (Chicago: University of Chicago Press, 1946; reprinteded. 1974), səh. 206.
[3] "The Moral Dilemma in Foreign Policy," in The London Institute of World Affairs, *The Year Book of World Affairs, 1951*, edited by George W.Keeton and George Schwarzenberger (London: Stevenes and Sons, 1951), səh. 13.
[4] Bax: *PAN*, 2nd ed (New York: Alfred A.Knopf, 1954), səh. 5, 9, 10-11.
[5] *Scientific Man*, səh. 186.
[6] *In the Defense of the National Interest: A Critical Examination of American Foreign Policy* (New York: Alfred A.Knopf, 1951), səh. 33.
[7] "Another 'Great Debate'," səh. 986; "Whatisthe National Interest of the United States?"*Annals of the American Academyof Political and Social Science*, Vol. 282 (July 1952), səh. 7.

yaradıldığına və dövlətdən kənar nə əxlaq normasının, nə də qanunun mövcud olmadığına dair gizlənmiş əsaslı və unudulmuş həqiqət"in fərqinə varan zaman o, zahirən qəti şəkildə əxlaq normalarından uzaq təsir bağışladı: "xarici siyasətin bu iki məfhumu: milli maraq və mənəvi prinsiplər arasında heç bir güzəşt ola bilməz".[1]

Bununla belə, həmin iki məfhum arasında güzəşt yolu tapmağa cəhd etdi. O bunu dövlət liderlərinin milli maraqlarını müəyyən etməyə cəhd edən zaman daxilində fəaliyyət göstərdikləri ideya və fikirlərin beynəlxalq qrupundan xeyli təsirləndiklərini bəyan etməklə etdi. İngilis məktəbinin qeyd etdiyi kimi, "beynəlxalq cəmiyyət"in sahib olduğu böyük qüvvə hətta ən çox maddi düşüncəli dövlət adamları tərəfindən də hiss olundu və bu məhz ona görə baş verdi ki, belə bir geniş yayılmış fikir var idi ki, o diqqətdən yayınıb. Bu, dövlət liderlərini digər formada etmiş ola biləcəkləri kimi, milli maraq başlığı altında da hərəkət edə biləcəkləri iddiasından çəkindirməkdə xüsusilə böyük təsirə malik idi.

Morgentau düşüncəsində mərkəzi mövqeyə sahib olan milli marağın belə elastikliyini həmin terminin ikihissəli təyinatının köməyi ilə anlaya bildi. Dövlətin milli marağının "ixtisar oluna bilməyən minimum"u, "digər vahidlərə münasibətdə onun maraqlarının zəruri elementi", sadəcə, onun "öz kimliyini ... qoruması" – yəni "dövlətin ərazisinin, siyasi təsisatlarının və mədəniyyətinin bütövlüyü"[2] kimi şərh edilə bilərdi. Bu şəkildə – milli təhlükəsizlik kimi – nəzərdən keçirilən milli maraq siyasi vahidə davamlı mövcudluq təminatını verən və "diplomatiyanın güzəştsiz və hətta müharibə riskinə gedərək müdafiə etməli olduğu"[3] əsas özək idi. Bura milli özünütəsdiqin mütləq şəkildə vacib və tamamilə haqq qazandırıla bilən olduğu ərazi idi. Dövlət adından təhlükəsizliyin belə təzahürlərinə göz yetirmək üçün heç bir digər hakimiyyət mövcud deyildi və bu beynəlxalq vakuum öz məqsədi kimi digər dəyərləri deyil, gücü nəzərdə tutmağa dair Hobbs qaydasının qəbulunu tələb edirdi. Milli cəmiyyət *üçün* məsuliyyət daşıyanda hədəflərin ölçüsü və bütün həmvətənləri *qarşısında* məsuliyyət daşıyan zaman mənəvi vəzifəyə çağırış Morgentaunun milli mövcudluq kimi anlaşılan milli maraq mübahisə mövzusu olan zaman üçün nəzərdə tutduğu amansızlığı tələb edirdi.

Morgentau ərazi, təsisatlar və mədəniyyət triosu çərçivəsindən çıxarkən milli marağın dəyişən hissələri arasında nəzərdən keçirilə bilən məqsədlərin müxtəlifliyi

[1] *In Defense of National Interest*, səh. 34; "The Primacy of the National Interest," *The American Scholar*, Vol. 18 (Spring 1949), səh. 212. Morgentaunun Hobbsun prudentializmini tənqidsiz qəbul etmiş olmaqda günahlandırılmasına qarşı özünün müdafiəsi üçün bax: "Another 'GreatDebate'," səh. 983.
[2] "Another 'GreatDebate'," səh. 973.
[3] *PAN*, 1st ed., səh. 440.

səbəbindən şəxsi maraqların müdafiəsinə daha incə və hətta dolayı yanaşmaya yol açdı. "Dövlətlərin xarici siyasətlərində həyata keçirə biləcəyi məqsədlər istənilən dövlətin həyata keçirmiş olduğu və ya həyata keçirə biləcəyi ən müxtəlif məqsədləri əhatə edə bilər".[1] Burada Hobbsun zərurət dövrü bitdi və diplomatik seçim dövrü başladı.

Dövlət adamları milli marağın dəyişkən qisminə uyğun həyata keçirə biləcəkləri məqsədləri seçən zaman təmsil etdikləri xalqın mənəvi dəyərlərini nəzərə almalı idilər; əksini etmək milli marağın dəyişməz özəyinin mərkəzində duran milli mədəniyyəti təhlükə altına qoyardı. Onlar digər dövlətlərin maraqlarını və bu kimi məqsədlərin doğura biləcəyi münaqişə ehtimalını nəzərə almalı idilər; "uzaqgörənlik, yəni ... zahirən əxlaq normalarına cavab verən fəaliyyətlərin siyasi nəticələrini nəzərdən keçirmək" bu kimi ikinci dərəcəli maraqların irəli sürülməsinin dövlətin gücü üçün xərclərini hesablamağı tələb edirdi.[2]

Onların məqsədyönlü şəkildə nəzərdən keçirməli olmadıqları, lakin istənilən halda düşüncələrinə əhəmiyyətli dərəcədə forma verən amil həm dövlətlərin yürüdə biləcəkləri məqsədlərə, həm də onları yürütmək üçün istifadə edə biləcəkləri vasitələrə məhdudiyyət qoyan beynəlxalq idarəetmə qaydalarıdır. Morgentau materialist deyildi; o, tamamilə açıq şəkildə bildirmişdi ki, sabitliyə və sülhə yalnız rasionallıqla nail oluna biləcəyinə inanmaq utopik olsa da (çox vaxt onun bütün töhfəsinin bu hökmdən ibarət olduğu hesab olunur), sabitliyə və sülhə yalnız güc ilə nail oluna biləcəyi də artıq realist yanaşma deyil.[3] Başqa sözlə, beynəlxalq mənəvi prinsiplər qrupunun hiss olunmayan təsiri yalnız milli maraqlara əsaslanan siyasətləri məhdudlaşdırmır, həm də həmin maraqları təyin etməyə xidmət edir.

Belə mənəvi dəyərlər o dərəcədə fundamental idi ki, onlar real siyasi fəaliyyətin konturlarını müəyyən etdi. "Ümumi mənəvi meyarlar hökumətin təşkili və hətta bünövrəsinə işıq salan siyasi reallığın özünün tərkib hissəsidir".[4] Doğrudan da, dövlətlər öz siyasətlərini maraqlarına əsasən təyin edirdi, lakin müəyyən dəyərlər nəyin maraq hesab oluna biləcəyini müəyyənləşdirmək üçün kifayət qədər güclü idi:

"Çünki baxmayaraq ki, ... dövlətlər beynəlxalq fəaliyyətlərində öz maraqlarına münasibətləri ilə hərəkətə gətirilir və beynəlxalq hüququn qaydalarına yalnız bu qaydalar həmin maraqlara xidmət edəcəkləri qədər riayət edəcəkdi, başqa dövlətlərin fundamental hüquqlarının pozulması, bir qayda olaraq, dövlətlər hüququnun

[1] *PAN*, 2nd ed., səh. 8.
[2] "Another 'Great Debate'," səh. 986.
[3] "The Machiavellian Utopia," *Ethics*, Vol. LV (January 1945), səh. 145.
[4] Yenə orada, səh. 145.

və bütövlükdə Qərb sivilizasiyasının öz mövcudluğuna görə borclu olduğu bir neçə mənəvi prinsip tərəfindən müəyyən sərhədlər daxilində saxlanılıb. Bu iki fikir arasındakı ziddiyyət yalnız xəyalidir; çünki bu mənəvi prinsiplər yalnız həmin fundamental hüquqların pozulması ilə həyata keçirilə bilən məqsədləri siyasi maraqlar sahəsindən kənarlaşdıracaq qədər güclü olub. Bu mənəvi prinsiplər siyasi maraqların həyata keçirilməsində beynəlxalq fəaliyyətləri mümkün siyasi maraqların özü qədər məhdudlaşdırmayıb, buna görə də yalnız həmin fundamental hüquqların pozulması ilə həyata keçirilə bilən məqsədlərə mümkün siyasi məqsəd kimi münasibət bəsləmək heç dövlət adamlarının ağlına belə gəlməyib".[1]

Bu "öz mövcudluğuna görə dövlətlərin son ümid olaraq güc tərəfindən müdafiə olunan ortaq və bir-birini tamamlayan maraqları"na borclu olan beynəlxalq hüquq haqqında keçərli idi. "Harada ki nə maraqların birliyi, nə də qüvvələr tarazlığı yoxdur, orada beynəlxalq hüquq da yoxdur", lakin milli maraqlar – ən azından sağ qalmaq ilə əlaqədar olan özək maraqlardan kənar olanlar – öz mənasını və fəaliyyətə çəkən qüvvələrini "ədalətin istiqamətverici ideyaları ilə birləşən və hüquqi qaydalar tərəfindən ifadə edilməyi tələb edən prinsiplər qrupu"ndan[2] alır. Bu həmçinin Morgentaunun qarşı çıxdığı, yaratdığı və daha sonra beynəlxalq cəmiyyətin ortaq normaları, qaydaları və təcrübələrini əks etdirən digər təcrübələr haqqında keçərli idi. Bu, "diplomatiyanın birlik yaratma prosesləri" haqqında da keçərli idi. Bu onun əsaslandırdığı, "... onun səmərəli fəaliyyətini mümkün edən intellektual və mənəvi birlik haqqında məlumatlılığa söykənən"[3] qüvvələr tarazlığı haqqında keçərli idi. Beynəlxalq sülhə nail olmaq probleminin həlli – baxmayaraq ki, "bu, müvəqqəti və istənilən halda etibarsız həll yolu" idi – 3 amildən asılı idi: "insan təbiətinin xudbin meyillərini sosial baxımdan dözülə bilən sərhədlər daxilində saxlayan sosial təzyiq", sosial müvazinət və ən azından ədalətə yaxın vəziyyət vəd edən "mənəvi mühit".[4]

Bütün bu istinadlarda biz milli maraqların formalaşdırılmasında mənəvi dəyərlərin rolunun şahidi oluruq. Liderlərin hətta ən praqmatik olanı belə özü də dərk etmədən mümkün marağın nədən ibarət olduğu haqqında çoxsaylı ehtimallardan təsirlənərdi və ehtimalların gücü reallıqda özünü belə bir faktda göstərirdi ki, onlar dilə gətirilməmiş şəkildə – nə vaxtsa qərar qəbuletmə prosesinin tərkibi kimi müzakirə olunmadan, hər hansı xüsusi bir qərarın arxa fonu olaraq qalırdılar.

[1] "The Problem of Neutrality," *University of Kansas City Law Review*, Vol. VII (February 1939), səh. 125-126.
[2] "Positivism, Functionalism, and International Law," *American Journal of International Law*, Vol. 34 (April 1940), səh. 275, 268.
[3] *PAN*, 1st ed., səh. 445, 160.
[4] *Scientific Man*, səh. 217.

Diplomatiya formasını müəyyən edən ideyalar uğrunda diplomatiyanın yürüdüldüyü maddi hədəflər qədər əhəmiyyətli idi.

Mənəvi dəyərlərin bu rolu həm məhdudlaşdırıcı idi, həm də özü məhdud idi. Bu o mənada məhdudlaşdırıcı idi ki, müəyyən məqsədləri gündəmdən çıxarır və onların hətta irəli sürülməli olan potensial maraqlar kimi nəzərdən keçirilməsini qeyri-mümkün edirdi. O, beynəlxalq siyasətin hədəflərini haqqında danışıqların aparıla biləcəyi və güzəştlərin edilə biləcəyi idarə oluna bilən ölçüyə qədər sıxaraq kiçildirdi. O, fiziki olaraq insanın əlinin çata biləcəyi ilə onun üçün yapışmağın normativ olaraq ağlabatan olduğu arasında (arzuolunan) boşluq yaratdı:

"Əgər biz özümüzə dövlət adamlarının və diplomatların öz dövlətlərinin güc məqsədlərinin həyata keçirilməsinə yardım etmək üçün hansı imkanlara sahib olduqları və əslində, nə etdikləri sualını versək, anlayarıq ki, onlar təxminin edə bildiklərindən və tarixin digər dövlətində faktiki olaraq etmiş olduqlarından daha az iş görürlər. Onlar müəyyən məqsədləri nəzərdən keçirməkdən və müəyyən üsullardan istifadə etməkdən ya ümumiyyətlə, ya da müəyyən şərtlər altında imtina edirlər və bunu ona görə etmirlər ki, məqsədəuyğunluq baxımından onlar qeyri-praktik və ağılsız görünürlər, ona görə edirlər ki, bəzi mənəvi qaydalar qarşıya mütləq bir maneə çəkir. Mənəvi qaydalar bəzi siyasətlərin, ümumiyyətlə, məqsədəuyğunluq baxımından nəzərdən keçirilməsinə icazə vermir".[1]

Bununla siyasi sahənin müstəqilliyində çat əmələ gəldi: gücdən qeyri-siyasi məqsədlər üçün istifadə siyasi aktorun hesablamalarına daxil oldu və beləliklə, bəzi addımları, demək olar ki, sözün tam mənasında, təsəvvürəgəlməz etdi.

Mənəvi dəyərlərin rolu o mənada məhdud idi ki, o, münaqişəyə və özünütəsdiqə son qoymadı, onları yalnız yumşaltdı. Morgentau "yalnız öz maraqlarını deyil, həmçinin digər dövlətlərin maraqlarını dərk edən dövlətin milli marağının sonuncuya uyğun şəkildə təyin edilməli olduğu"nu "siyasi mənəviyyatın tələbi" adlandıranda "onların şəxsi marağının bütün fərdlər, eləcə də bütün dövlətlər tərəfindən birtərəfli şəkildə dərk edilərək həyata keçirilməsinin öz-özlüyündə dinc və ahəngdar cəmiyyətin formalaşmasına şərait yaradacağına dair ehtimal"ı xüsusilə rədd etdi. Əvəzində o hesab edirdi ki, "aramsız münaqişə və müharibə təhlükəsi ziddiyyətli maraqların diplomatik fəaliyyətlə davamlı şəkildə uzlaşdırılması ilə minimuma endirilməlidir"; bu fikir belə bir fakt ilə zərurət kəsb etdi ki, "bütün dövlətlərin bütün zamanlarda öz milli maraqlarını yalnız mövcudluqlarını qoruyub saxlamaq baxımından dərk etdiyini və nəticə etibarilə mövcudluğuna dair marağını məhdudlaşdırıcı və rasional baxımdan təyin etdiyi"ni[2] ehtimal etmək *olmaz*.

[1] *PAN*, 1st ed., səh. 174-175.
[2] "Another 'Great Debate'," səh. 977-978.

Güc siyasəti sahəsi diplomatik yolla uyğunlaşdırma səbəbindən siyasi bir sahə olmaqda qalmır və "bu yolla əldə edilən sakitliyin *modusvivendi*, narahatlıq, etibarsızlıq və hətta paradoksallıqdan başqa bir şey olmadığı yalnız insan mövcudluğunun dramatik ziddiyyətlərinin əhəmiyyətini aldadıcı uzlaşmanın ovundurucu məntiqi ilə kiçiltməyə və təhrif etməyə üstünlük verənləri məyus edir".[1]

"Əhliləşdirilmiş" milli maraq (Morgentaunun siyasətdə rasionallıq və elmin yerinə münasibətdə bütün skeptisizminə görə, o, bəzən "rasional" və "elmi" maraq adlandırılır[2]) ayrı-ayrı dövlətlərin güc meyillərinin ifadəsini məhdudlaşdıran beynəlxalq səviyyədə qəbul olunmuş ideyalar qrupu ilə məhdudlaşdırılmalı idi. Əvvəlcədən formalaşmış belə təsəvvürlər dövlətlərin beynəlxalq cəmiyyətin quruluşuna olduqca güclü təzyiq göstərməsinin və ona rəng verməsinin qarşısını alırdı. Morgentau yalnız dövlətlərin öz milli maraqlarını həyata keçirmək üçün belə hərəkət etməli olduğunu hesab etmirdi, həm də dövlətlərin belə hərəkət etməsinə təkid edirdi və bu zaman belə bir arqument ilə çıxış edirdi ki, beynəlxalq siyasətin təhlükəli vəziyyətlərində onların hər ikisi öz rifahlarının qayğısına qalmağa məcburdur və buna məcbur edilirlər, çünki bunu onlar üçün başqa heç kim etməyəcək. O eyni zamanda öz dövləti də daxil olmaqla bütün dövlətlərin beynəlxalq münasibətlərdə ədalət haqqında sahib olduğu məhdud və qərəzli baxışı qəbul edirdi və onların hamısının öz maraqlarına nail olmağa cəhd edənlərin eyni müstəvisində yerləşdirilməsinin tərəfdarı idi. O "bütün dövlətlərin Allahın insan düşüncəsi üçün dərkedilməz olan mühakiməsi altında olduğu"nu qəbul edərək, "ayrıca millətçilik ilə qəzavü-qədərin tövsiyələri arasında kor-koranə bərabərliy"ə qarşı xəbərdarlığa ciddi yanaşdı. Mənəvi dəyərlərə dair dilə gətirilməyən razılaşma ilə məhdudlaşan milli maraq bu mütiliyi fəaliyyətə keçirmək üçün vasitəni təchiz etdi:

> Bizi həm... mənəvi ifratçılıq, həm də... siyasi ağılsızlıqdan xilas edən məhz güc baxımından təyin olunan maraq anlayışıdır. Çünki əgər biz öz dövlətimiz də daxil olmaqla bütün dövlətlərə öz maraqlarını həyata keçirən siyasi varlıqlar kimi baxsaq, onların hamısına ədalətli yanaşma sərgiləyə bilərik. Biz onlara qarşı iki mənada ədalətli ola bilərik: biz öz dövlətimizi mühakimə etdiyimiz kimi, digər dövlətləri də mühakimə edə bilirik və onları bu şəkildə mühakimə etməklə digər dövlətlərin maraqlarına hörmətlə yanaşan və bu zaman öz dövlətimizin maraqlarını müdafiə edən və həyata keçirən siyasətlər yürüdə bilirik. Siyasətdə yumşalma mənəvi mühakimədə yumşalmada əks olunmaya bilməz.[3]

[1] *Scientific Man*, səh. 203.
[2] Yenə orada, səh. 172, 213; "The Machiavellian Utopia," səh. 145; "Positivism, Functionalism, and International Law," səh. 268; "Another 'Great Debate'," səh. 973.
[3] *PAN*, 2nd ed., səh. 10.

Mənəvi dəyərlər milli marağın iddialarını məhdudlaşdıraraq və buna görə də rəqabət aparan dövlətlərin maraqlarının üst-üstə düşdüyü və toqquşduğu ərazilərin çərçivəsini müəyyən edərək siyasətin mülayimliyinə, diplomatiyaya və sülhə yol açır.

"SAXLANILA BİLMƏYƏN MƏRKƏZ"

Morgentaunun mənəvi dəyərlərin, əks halda, milli marağın təhlükəli dərəcədə geniş təyinatlarına çevriləcək məfhumların məhdudlaşdırılmasına təsirinə münasibəti haqqında diqqətəlayiq olan onun keçmiş zamanda ifadə edilməsidir. Onun XX əsrin beynəlxalq siyasəti haqqında əsas qorxusu o idi ki, bu siyasət həmin mənəvi dəyərləri o dərəcədə itirmişdi ki, milli maraqlar qeyri-məhdud və güzəştsiz olmuşdu. Belə bir vəziyyət dövlətlərin maraqları arasında toqquşma imkanlarını artırdı – bu eyni zamanda dövlətlərin əlində olan dağıdıcı texnologiyaların geniş həcmdə artımı ilə təhlükəli şəkildə birləşən siyasi vəziyyət idi.

"Köhnə rejim"

Morgentau daha qədim ideyalar qrupunu xristianlığın dəyərlərində müəyyən etdi – bunlar siyasi mübarizələr üçün ümumi çərçivəni təyin edən *mənəvi* etiqadlar idi və Morgentau bununla "bizim üçün Qərb dünyasına, sadəcə, coğrafi vahid kimi deyil, həm də mədəni və mənəvi varlıq kimi münasibət göstərməyi mümkün etdi".[1] Bu normalar "[dövlətlərin] güc uğrunda mübarizəsinin məqsədlərinə və vasitələrinə səmərəli məhdudiyyətlər qoyan ortaq inamların və ümumi dəyərlərin çərçivəsi"ni[2] müəyyən edir. Baxmayaraq ki, onlar universal deyildi – belə ki, onlar yalnız *Avropa* dövlətlər sisteminin mirası idi – suveren dövlətlər sisteminin əlaqədar olduğu bütün dövlətləri əhatə edirdi. O, "mənəvi mühitin məhdudlaşdırıcı təsiri"ni belə təsvir edirdi:

> "Bütün növ ailələr daxilində nifaqlar olduğu kimi, həmin dövlətlər ailəsi daxilində də nifaqlar var idi. Lakin bütün bu münaqişələrdən daha güclü olan nə isə var ki, dövlətlərin ambisiyalarını və rəqabətlərini müəyyən çərçivələr daxilində saxlayır və bütün pozucu meyilləri üstələyən bir birliyi dərk edirdi:

[1] *In Defense of National Interest*, səh. 60.
[2] *PAN*, 1st ed., səh. 193.

bu, Qərb sivilizasiyasının özünün birliyidir. Həmin "dövlətlər ailəsi"nin bütün üzvləri dəyərlərin həmin ümumi çərçivəsinin davamlı mövcudluğunu və işləkliyini təminat altına aldılar. Onların bir-birilərinə münasibətdə istəkləri və siyasətləri yalnız həmin ümumi çərçivənin davamlı mövcudluğu ilə uyğun olduğu qədər uzağa gedərdi. Xarici siyasət məhdud məqsədə çatmağın məhdud bir üsulu idi".[1]

Millətçi universalizm

Morgentau bizə deyir ki, "bu gün bu siyasi və mənəvi sistemdən geriyə az şey qalıb".[2] Təsəvvürlər mühitindəki dəyişikliklər onu məhv edib. Bu dəyişikliklər arasında millətçiliyin böyüməsi də var idi və o, "qismən dövrümüzdə dövlətin yararlandığı, demək olar ki, ilahi olan nüfuzun nəticəsi" idi. Dinin populyar düşüncə üzərində təsiri azalanda – əslində isə "təşkilatlanmış din milli dövləti üstələmək əvəzinə, onunla ortaq olanda" – və yerli və əyalət bağlılıqları milli bağlılığın mərkəzləşdirici çəkimi tərəfindən zəiflədildikdə "dövlət fərdin sədaqəti üçün son istinad nöqtəsinə çevrildi".[3]

Psixoloji olaraq hələ də etiqadların universal qrupuna ehtiyacı olan insanlar köhnə beynəlxalq cəmiyyəti dövlətlər arasında yalnız ola biləcəyi qədər təhlükəli olan güc uğrunda mübarizəyə əsaslanan rəqabət ilə dəyişmədi. Əvəzinə öz dövlətlərinin ideya və ideologiyasının bütün dünyanı idarə etməli olan ideyalar olduğunu qəbul edərək, daha da təhlükəli olan bir kurs seçdilər. Bununla da "əvvəllər yekdil olan beynəlxalq cəmiyyətin mənəvi baxımdan özündənrazı milli birliklərin mənəvi hökmlərinin ümumi çərçivəsi daxilində fəaliyyət göstərməyi dayandırmış çoxluğun adi şəkildə parçalanması və son zamanlar universal mənəvi hökmlərin və milli əxlaq normalarının xüsusi sistemi arasında əlaqələri dəyişmiş əsaslı dəyişikliyin zahiri əlamətidir".[4]

Bir dövlətin öz milli maraqları üstün və yuxarıda olanda və dövlətlərin maraqları artıq bərabərlik zəminində görüşməyəndə "köhnə diplomatiyanın məziyyəti hesab olunan güzəşt yeni diplomatiyada xəyanətə çevrilir; çünki mənəvi meyarların ümumi çərçivəsi daxilində mümkün və qanuni olan ziddiyyətli iddiaların qarşılıqlı uyğunlaşdırılması mənəvi meyarların özləri münaqişə mövzusu olanda təslim olmağa bərabərdir".[5] Hər bir dövlətin paytaxtında ideoloji,

[1] *In Defense of National Interest*, səh. 60-61.
[2] Yenə orada, səh. 61.
[3] *PAN*, 1st ed., səh. 190-191.
[4] Yenə orada, səh. 191.
[5] Yenə orada, səh. 193.

güzəştə getməyən, səlibçi xarici siyasət özünü göstərməyə başlayıb. Millətçilik "yalnız... keçən dövrlərdən bizə gəlib çatan[mış] məhdudiyyətləri məhv edib deməyək, son dərəcə zəiflətmədi, həmçinin... ayrı-ayrı dövlətlərin güc istəklərini təmiz vicdan və psevdodini coşqunluqla təmin etdi ...[və] universal ağalığa coşqun həvəs və güc ilə ruhlandırıb".[1] Millətçi universalizmin zəfəri həm öz nəticələrinə (daha çox insanın əzab çəkməsinə səbəb olan daha çox münaqişəyə gətirib çıxarması), həm də təkəbbürünə görə mənəvi faciə idi.

Əvvəlki beynəlxalq mənəvi cəmiyyətdə praktiki cəhətdən mümkün olan əhliləşdirilmiş, yaxud rasional milli maraq belə bir elmi və mənəvi mühitdə köhnəlmiş oldu. Optimistlər beynəlxalq həyat probleminin görünməmiş rasional analizi təqdim etdikləri bir vaxtda millətçi universalizm faktiki olaraq dövlətlərin güc meyillərini rasionallığın məhdudiyyətlərindən azad etdi:

"Bizim dövrümüz bir tərəfdən səbəbin, digər tərəfdən isə maraq və emosiyaların sosial fəaliyyətin müəyyən edilməsində sahib olduğu müvafiq payda həlledici dəyişikliyin şahidi olmağa məhkumdur. ...Dini müharibələrin siyasi ideologiyalar arasında müharibə formasında, təfriqəçilərə işgəncənin verilməsi, onların cəzalandırılması və məhv edilməsi ilə müşayiət olunan yenidən dirçəlişi dövrümüzdə həmin dəyişikliyin başvermə dərəcəsinə işıq salır".[2]

Mənəviyyat və rasionallıqdan imtina edildikcə, güc uğrunda sadə və təbii mübarizə daha da tutqunlaşdı; bu mənada beynəlxalq münasibətlər getdikcə açıqdan-açığa daha çox "siyasiləşir" və ona görə də qəddarlaşır. 1939-cu ilin əvvəllərində qələmə aldığı yazılarında Morgentau müharibələrarası dövrdəki tendensiyaları ümumiləşdirdi və bir neçə ay bundan sonra başlayacaq yeni müharibədən xəbər verdi:

"Siyasi sahənin özünün əxlaqi-hüquqi sərhədləri ...son illərin totalitar siyasi filosofları və təcrübələri tərəfindən aradan götürülmüşdür. Siyasi sfera indi hüdudsuz olmuşdur; artıq zərurətdən siyasi istəklərin hədəfi olan heç bir insani dəyər yoxdur və uzun vədədə olmayacaq da. Lakin universal mənəvi prinsipləri ayrı-ayrı siyasi fəlsəfələr ilə əvəz edən bu mənəvi inqilab dövlətlərin hüququnun hüquqi qüvvəsinə və effektivliyinə dərindən təsir göstərə bilmir.

"Müdaxilə etməmək, müstəqillik və bərabərlik ilə əlaqədar əxlaqi-hüquqi prinsiplər, eləcə də sülh və müharibə arasında hüquqi fərq" "yeni siyasi-mənəvi meyillər... sərhədsiz siyasi istəkləri dəstəkləmək üçün, xüsusilə uyğun olan üstün siyasi-hərbi güc və uzaq gedən müharibə maşını tərəfindən" əvəz olunduqca "dövlətlərin vahiməsini başa düşmək olur".[3] Mənəvi prinsiplərin və idarəetmənin beynəlxalq birliyinin belə məhvini "mənəvi inqilab" adlandırmaq olar".

[1] Yenə orada, səh. 268. Həmçinin bax: *Scientific Man*, səh. 67, 197.
[2] *Scientific Man*, səh. 213. Müqayisə et: "Morgenthau's Struggle for Power," səh. 64-66.
[3] "The Problem of Neutrality," səh. 126.

Geriyə yol

"Dövlətlər arasında siyasət" kitabı amerikalı və qərbli oxucularına onların necə bir ciddi döngəyə gəlib çatdıqlarını göstərdiyi kimi, həm də XX əsrin ikinci yarısında dünyanın üz-üzə qaldığı təhlükələrin azaldılması üçün atılmalı olan addımlara aydınlıq gətirirdi. Millətçi universalizmin çox zərərli olan təsirinin azaldılması və onun ənənəvi beynəlxalq cəmiyyətin hansısa çağdaş oxşarı ilə əvəz olunması, əlbəttə ki, xüsusi əhəmiyyət kəsb edirdi. Morgentau kitabın altbaşlığının birinci hissəsini (*"Güc uğrunda mübarizə"*) siyasi impulsun qətiyyətlə araşdırılması ilə əsaslandırmışdır; ikinci hissəni (*"Sülh uğrunda mübarizə"*) isə bu güc meyillərini məhdudlaşdırmanın yollarını müəyyən etmək arzusu ilə əsaslandıracaqdı.

Ənənə qəlibi sınmışdı; Darvin, Nitsşe və Freyddən sonra "İman dövrü"nə geri qayıtmaq olmazdı. Ona görə də bir zaman təbii olaraq mövcud olmuş olduğu söylənilənlər indi əmək sərf edilərək yaradılmalı idi. Morgentaunun təsvir etdiyi fərasətli və insani diplomatiya idi və o belə bir təsəvvür yaratmalı idi ki, dövlətlər arasında güzəşt satqınlığa bərabər *deyil*. Əslində, həyati olmayan maraqların güzəştə gedilməsi gətirib çıxardığı düşüncə tərzinə görə yaxşı bir şey idi; həmin düşüncə tərzi oyunda digər oyunçuların da olduğunu və bundan daha əhəmiyyətlisi, dəqiq və yaxşı anlaşılan qaydalara və az-çox son hədəflərə malik olan məhdud *oyunun* – yarışın mövcudluğunu qəbul edirdi. Sözün qısası, diplomatiya din və cəngavərliyin yaratdığı ənənəvi məhdudiyyətlər üçün müasir əvəzedici tapmalı idi.

Diplomatik yanaşma mənəvi razılaşma çatışmazlığının özünü sabitlik və özünü idarəetmə üstünlüyünə çevirər. Doğrudur, bir əsr yarımlıq bir dövrün sonunda millətçi universalizmin yüksəlişi öz dağıdıcı işini görmüş olduqda dövlətlərə ayrı-ayrı hallarda istiqamət vermək üçün kifayət qədər konkret olan heç bir fövqəlmilli mənəvi prinsip mövcud deyildi, əgər belə prinsiplər mövcud olmuş olsaydı, onları pozanlara sanksiyalar qoyan heç bir məcburiyyət qurumu yox idi. Beynəlxalq cəmiyyətin belə nazik üzlüyünü nəzərə aldıqda dövlətlərin bunun əvəzində arxalanmalı olduğu "müxtəlif mənəvi prinsiplərə əsaslanan, milli maraq və bir sıra xalqların yanaşı yaşaması zəmini üzərində qurulan siyasətlər ilə müşayiət olunan digər siyasi sistemlərin və siyasətlərin həmin nisbilik fəlsəfəsi və dözümlülüyü"[1] idi.

"Soyuq müharibə"nin təhlükələrini azaltmağın yolu bu idi – məsələn, əlbəttə ki, kommunizm və liberal demokratiya arasında öldürücü mübarizə ilə deyil, lakin yalnız ağılın və xoş məramın münaqişəni həll edə biləcəyini düşünərək də deyil. Bunun əvəzinə, iki superdövlət mənəvi baxışlarındakı fərqliliyi həyatın

[1] "The Primacy of The National Interest," səh. 211.

gerçəkliyi kimi qəbul edərək, onların mübarizəsini idarə edə və sıxa biləcək ümumi qaydalara uyğun birgə mövcudluq yolları tapmalı idi. "Belə ki, texnoloji baxımdan danışsaq, bu potensial olaraq vahid bir dünyadır, mənəvi və siyasi cəhətdən danışdıqda isə biz "dəmir pərdə"nin arxasındakı dünyadan dərin və geniş uçurum ilə ayrılan bir dünyada yaşayırıq, – deyə Morgentau tərəddüd etmədən bəyan edirdi. – Ona görə də buradan belə bir nəticə çıxır ki, dünyada baş vermiş əsaslı [texnoloji] dəyişikliklərə baxmayaraq, hər zaman olduğu kimi, bu, hələ də bir həqiqətdir ki, digər dövlətin pisniyyətli istəkləri ilə üz-üzə qalan dövlətin bir əsas öhdəliyi var – öz maraqlarının qayğısına qalmaq".[1] Lakin onun maraqları, görmüş olduğumuz kimi, onun istədiyi kimi – rasional, məhdud iddialar kimi anlaşılmalı idi ki, milli təhlükəsizliyin özəyi xaricində öz hüquqi maraqlarını həyata keçirən digər dövlətlər ilə sövdələşmənin hədəfi ola biləydilər və olaydılar.

Ona görə də Morgentau istəyirdi ki, diplomatik təcrübə üçün mövcud olan heç bir imkan əldən buraxılmasın. (Nə qədər ki Birləşmiş Millətlər Təşkilatı "təbliğat çıxışları etmək üçün platforma, daxili auditoriyanı duruş vəziyyətləri ilə təsirləndirmək üçün səhnə, düşmənə heç bir nəticəsi olmayan təsir göstərmək üçün teatr dayağı forması kimi"[2] deyil, sakit müzakirələr üçün istifadə olunurdu, bu təşkilat da bura daxil idi. O həmçinin Sovet İttifaqı ilə nizamlamada təsir dairələri yaratmaq istəyini əhatə edirdi; o, Arnold Toynbinin superdövlətlərin "bir-birinə "Sən Mancuriyanı tutursan və biz də Çinin qalan hissəsini tuturuq" deyəcəyi və bunun kimi bütün dünyanı bölüşəcəyi"[3] haqqında təklifinə istinad edirdi). Əvvəlki mənəvi konsensusun pozulması ənənəvi diplomatiyanı – bir-birinin qanuniliyini qəbul edən oyunçular arasında məhdud yarışın ifadəsini – köhnəltmişdir. Lakin ənənəvi diplomatiya kimi bir şeyin təcrübəsi mənəvi konsensusu yenidən bərqərar etməyə kömək edə bilərdi.

Morgentau qeyd edəndə ki, "danışıqlarla nizamlama üçün əlverişli olan gerçək bir vəziyyət iki ünsürdən ibarətdir: güc və yoluna qoyula bilən ziddiyyətli maraqlar", o hər iki vacib ünsürü nəzərdə tuturdu.[4] Milli marağa, xüsusilə mövcudluğun qorunub saxlanmasına dair əsas maraqlara diqqət zəruri olan gücü qoruyub saxlaya bilərdi; mənəvi dəyərlərə maraqlar üzrə danışıqların aparılmasına və onların yoluna qoyulmasına imkan verən diplomatik sistem üçün xarakterik olan mülayimlikdə və plüralizmdə rast gəlinə bilərdi.

[1] "What Is the National Interest of the United States?", səh. 4.
[2] "The Yardstick of National Interest," *The Annals of the American Academy of Political and Social Science* (November 1954), səh. 84.
[3] *In Defense of National Interest*, səh. 155-156. Həmçinin bax: "Morgenthau's Struggle for Power," səh. 67-68.
[4] *In Defense of National Interest*, səh. 149. Həmçinin bax: səh. 133-135.

Morgentauya görə, hər bir dövlət adamı qəbul edərdi ki, öz ölkəsinin maraqlarını həyata keçirən zaman o, əslində, təmənnasız ədalət və üzərinə ləkə düşməmiş mənəvi ideal deyil, gücün şəxsi marağa xidmət edən artımı (onun öz seçiciləri qarşısında öhdəlikləri baxımından zəruri və haqq qazandırıla bilən olacaq qədər) məqsədinə xidmət edirdi, necə ki, digər dövlət adamları da eyni şəkildə məhdud və xudbin siyasət yürüdürdülər. Morgentaunun dövlət adamı gücün reallıqlarına iti baxışa malik olardı və hətta mübarizənin qaydaları çərçivəsində qalaraq belə öz ölkəsinin maraqları naminə böyük sövdələşmələrə gedərdi. Yenilənmiş beynəlxalq cəmiyyət yenidən yaradılmış mənəvi konsensusa söykənməsə də, öz təxmini nəticələrinə və mülayimliyinə görə millətçi universalizm ilə nail oluna biləcək hər hansı dünya idarəçiliyindən daha çox mənəvi nəticələr ortaya qoyacaqdı. Qalanlar qeyri-müəyyən gələcək üçün saxlanıla bilərdi.

Həmin gələcək həmin dövrdən etibarən, əlbəttə ki, sovet sisteminin süqutu və "soyuq müharibə"nin başa çatması ilə gəlib çatıb. Lakin Morgentaunun milli maraqlar və mənəvi dəyərlər arasındakı əlaqələr haqqında təhlili bütün bu dəyişikliklər üçün hələ də həm uyğun, həm də yüksək dəyər kəsb etmiş olaraq qalır, çünki o onun özünün insan düşüncəsinə sığa bilməyəcəyini irəli sürdüyü problemə cavab verir: "Əgər dövlət milli marağa laqeydlik hesabına mənəvi prinsiplərin vurğulanması ilə hər zaman təhlükə yaradan milli intihar canavarından qaça bilirsə, güman ki, dövlətlər arasında əxlaq qaydalarının böyük qənimi olan səlibçi ruh canavarının əlinə düşəcək".[1] Onun millətçi universalizm və təklif olunan alternativi haqqında tənqidi fikirləri hər iki canavardan qaçmağın yoluna işıq saldı. Dövlət adamının milli marağa verdiyi işlək təyini milli təhlükəsizlik üçün həqiqətən zəruri olan məqsədlər ilə məhdudlaşdıran rasionallıq və məhdudiyyətlər ona siyasi etiqadın səlibçi ruhundan qaçmağa və diplomatiya üçün dözümlülük və güzəşt vərdişləri qazanmaq yolları açmağa kömək edər və eyni zamanda onun həmvətənlərinin milli yaşamının təminatı haqqında daşıdığı öhdəliyi yerinə yetirməsi üçün imkan yaradar. Bundan əlavə, bu, realizm və ingilis məktəbinin baxışlarını birləşdirmək üçün həm Beri Buzan, həm də digərləri tərəfindən göstərilmiş çağdaş səylərin[2] və reflektivistlərin neorealizmin üstünlüyünə qarşı çıxmaq üçün göstərdiyi səylər haqqında aparılan müzakirənin müjdəçisinə çox oxşayır.[3] O, klassik realizmin bu essenin birinci hissəsində qeyd olunmuş baxışları haqqında həqiqət olaraq qalarkən də belədir.

[1] "The Primacy of The National Interest," səh. 211.
[2] Bax: Barry Buzan, Charles Jones and Richard Little, *The Logic of Anarchy: Neorealismto Structural Realism* (New York: Columbia University Press, 1993).
[3] Bax: Alexander Wendt, "Anarchy Is What States Make of It: The Social Construction of Power Politics," *International Organization*, Vol. 46 (Spring 1992); Judith Goldstein and Robert Keohane, editors, *Ideas and Foreign Policy: Beliefs, Institutions, and Political Change* (Ithaca, NY: Cornell University Press, 1993).

ÇAĞDAŞ MƏSƏLƏLƏR

Bütün bu baxışlar beynəlxalq siyasətin mövcud vəziyyətində necə əks olunur? Amerika 11 sentyabr 2001-ci ildə baş vermiş dəhşətli hadisələrin nəticəsi olan bu vaxta qədər görünməmiş problemlərlə üz-üzə qalıb. Bir problem ölkə daxilində və xaricində milli təhlükəsizliyi təhdid edir; digər bir problem isə demokratiya və açıq cəmiyyəti təhlükə altına salır. Birinci yeni daxili təhlükəsizlik sisteminin yaradılmasını tələb etdiyi halda, digəri bütün dünyada müdafiə və hücum tədbirlərinin görülməsini tələb edir. Onların hər ikisi insan hüquqlarının və fundamental azadlıqların məhdudlaşmaması üçün daimi sayıqlıq tələb edir. Aşkarlıq və qətiyyətdən başqa, bu müəssisə ilə əlaqədar olan heç nə anlaşılan deyil. Bundan çox az əvvəl Klinton administrasiyası dövründə terrorizm mövzusu ictimaiyyətin yalnız ötəri diqqətini cəlb etmişdi; "*New York Times*" qəzeti 1995-ci ildə Dünya Ticarət Mərkəzinə hücumu bir dəfə baş verən məhdud bir hadisə kimi təqdim etdi.

Təhlükəsizlik haqqında belə yanlış düşüncənin ötüb-keçməsi ilə xeyli əlaqədar problem üzə çıxdı: terrorçuluğa mənəvi baxımdan haqq qazandıra bilən hansısa şərtlər mövcuddurmu? Azadlıq uğrunda mübarizə aparanlar ilə terrorçular arasında əsaslı fərqlər hansılardır? Terrorçuluq Amerika siyasətini necə dəyişib ki, bu gün terrorun qiymətləndirilməsi gündəlik Amerika xəbər yayımlarının tərkib hissəsinə çevrilib? Prezidentlərin şəxsi meyilləri dövlət siyasətinin formasına necə təsir göstərir? Hər bir prezidentin milli təhlükəsizlik maraqlarını əhalinin azadlıqları ilə tarazlaşdırmalı olduğu həqiqətdirmi? Faktlar ABŞ-ın Vətənpərvərlik aktına və ölkənin müxtəlif yerlərində və müxtəlif Amerika icmalarında qəbul olunmuş qanunvericilik sənədlərinə reaksiyalar haqqında nəyi üzə çıxarır? Bizim dəyərlərimizdən hansı ən çox təhlükə altındadır? Amerika ictimaiyyətinin hansı zümrəsi prezidentin öz gündəlik həyatlarını təhlükəsizlik ilə əlaqədar narahatlıqlarla çox qısmadan sürməyə dair məsləhətlərinə əməl edib? Əgər bizdən terror ilə müharibə naminə nəyisə qurban vermək istənilirsə necə? Buş administrasiyası ayrı-ayrı şəxslərin nəyisə qurban verməsi üçün açıq şəkildə müraciət etmişdimi?

Biz güman etməliyik ki, əgər professor Morgentau ictimai mühakiməyə qayıtmalı olsaydı, məsələlərə belə bir yanaşma nümayiş etdirərdi. Onun yalnız xarici siyasət məsələləri ilə əlaqədar olduğuna dair bir nəticəyə gəlmək yanlışdır, çünki onun yazılarının çoxu demokratiya, vətəndaş hüquqları və insan azadlığına təhlükələr kimi məsələlərə həsr olunub. Onun işlərinin əsas hissəsi keçmiş və indiki prezidentlər və onların daxili və xarici siyasətindən bəhs edir.[1]

[1] Bax: Hans Morgenthau, *The Purpose of American Politics* (New York: Alfred A.Knopf, 1960); Morgenthau, *The Truth and Power: Essays of a Decade, 1960-1970* (New York: Praeger, 1970).

Heç şübhə yoxdur ki, onun Corc V. Buş və onun siyasəti haqqında deməyə bəzisi təqdiramiz, digərləri tənqidedici mühakimələr olmaqla sözü çox olardı.

Əminliklə deyə bilərik ki, Morgentau terrorçuluğun dinamikalarını gözdən keçirməklə başlayardı. Onun tükənməz qaynaqları və bünövrəsində duran mənbələr nələrdir? Gücünü ayrı-ayrı regionların və dövlətlərin daxilindəki vəziyyətlərdən alan terrorçuluq hansı ölçüdə ümumdünya hərəkatıdır? Bu hərəkat dünyada millətçilik və etnik mənsubiyyət tərəfindən hansı dərəcədə dəstəklənir və digər siyasi və mədəni amillər ona nə qədər güc verir? İraqdakı və Əfqanıstandakı maraqlarımız arasındakı fərqlər hansılardır? Onlardan hansı Amerikanın xarici siyasətində əsas maraq kimi nəzərdən keçirilməlidir? 11 sentyabr hadisələrindən sonra bizim dünyadakı missiyamız hər yerdə terrorçulara və terrorçuluğa müqavimət göstərməkdir, yoxsa bizim siyasətimizi "Düşmənimiz kimdir?" sualına cavab təyin edəcək? Morgentau təhlükənin "əl-Qaidə", yaxud Üsamə bin Ladendən gəldiyini nə dərəcədə qəbul edərdi və təhlükələri hansı ölçüdə digərlərinin fəaliyyətinin nəticəsi kimi görərdi? Əgər İraq terrora qarşı müharibədə mərkəzi cəbhəyə çevrilibsə, bu onun digər təhlükələr ilə müqayisəsində hansı əhəmiyyəti kəsb edir? ABŞ və dünya üçün Orta Şərqdə demokratiya və azadlığın əhəmiyyəti "əl-Qaidə"nin əhəmiyyətini üstələyirmi?

Mürəkkəbliklər rəhbərlik, eləcə də ideologiyadan qaynaqlanır və Morgentau "*Dövlətlər arasında siyasət*" kitabında gücün ünsürlərini müzakirə edən zaman onların hər ikisini nəzərdən keçirir. Onun fərasətli və hətta rəhmsiz insanların güc mübarizəsində maraqların irəli sürülməsində oynaya biləcəyi həlledici rol haqqında aşkar xəbərdarlığı bizə ümumilikdə rəhbərliyin əhəmiyyətini xatırladır. Lakin onun xüsusilə diqqət yetirdiyi bir xüsusiyyət var ki, bu da vaxtaşırı olaraq mimikriyaya düşməyə meyil edən təşkilatlara fəaliyyətsizlikdən çıxmaq və dəyişən şərtlərə yenilikçi cavablar vermək üçün təkan verməkdir. Bin Laden kimi xarizmatik bir fiqurun videoyazılarından ruhlanaraq sərbəst şəkildə təşkilatlanmış terrorçu qrupların mürəkkəb dövlət kəşfiyyat və təhlükəsizlik orqanları sisteminin barmaqları ilə civə kimi yayıla biləcəyi təhlükəsinin böyük olduğu bir dövrdə heç bir başqa tədqiqat daha mühüm ola bilməz. Morgentaunun yeni ideyalara malik olmayan rəhbərliyə gətirdiyi Yena döyüşündə Prussiya ordusu və Majino xətti arxasındakı fransız baş qərargahı kimi nümunələrə bir gün FTB və MKİ-nin "əl-Qaidə"dən gələn və sürətlə böyüyən təhlükənin qarşısını almaqda gecikməsinin xəbərdaredici nümunəsi də əlavə oluna bilər.

Geriyə baxdıqda biz Morgentaunu Vyetnam müharibəsinin öndə gedən amerikalı tənqidçisi kimi xatırlayırıq. Zaman keçdikcə həm Morgentaunun bizim Vyetnamdakı siyasətimizə qarşı çıxmasına, həm də həmin siyasətin davam edən nəticələrinə aydınlıq gəldiyi üçün bu gün onlardan hansı dərsi çıxardığımızı soruşa

bilərik? Bu mühakimə xəttini izləyərək növbəti suallara cavab tapa bilərik: Amerika xarici siyasəti üçün Vyetnam və İraq arasındakı paralellər hansılardır və əsas fərqlər hansılardır? Generalların hazırkı müharibəni örnək kimi keçmiş müharibənin plan və strategiyalarından istifadə edərək aparmağa çalışdığı doğrudursa, bu o deməkdirmi ki, biz İraqdakı hərəkətlərimizlə Vyetnamdakı keçmiş siyasətimizi təkrarlayırıq? Yoxsa bizim İraqdakı yanaşmamız Vyetnamda tətbiq etdiyimiz yanaşmadan kəskin şəkildə fərqlənir? Vyetnam müharibəsindən hansı dərsləri öyrənməyimizdən asılı olmayaraq, onlar hələ də hansısa əhəmiyyət kəsb edirmi, yaxud onlar İraq və Əfqanıstandakı siyasətin örnəyi kimi nə qədər qeyri-münasibdir?

Demokratiyaya gəlincə, Morgentaunun Orta Şərqdə gələcək demokratiya haqqında baxışları necə idi? O, İraq (yaxud əvvəllər Sovet İttifaqı və Çin) kimi dövlətlərin çox asanlıqla demokratik ola biləcəklərini gözləyirdimi? Ona görə Orta Şərqdə əsas aktorlar kim idi və onlardan qalan mədəni və siyasi irası nə idi? Hansı ölkə ən çox digərlərinə təsir etmək iqtidarındadır və hansı ölkələrin demokratiyanı qəbul etməkdə xarici nümunələri təqib edəcəyi gözlənilmir? Bizim siyasətimizə nəzərən İraqın regionun qalan hissəsi üçün nümunə olmaq məziyyətinə sahib olacağı əvvəlcədən nəzərdə tutulurmu? Nəhayət, əgər Orta Şərqin bir cəmiyyətində dəyişikliyin regionda bütün qalan ölkələrdə və digər inkişaf etməkdə olan ölkələrdə dəyişikliyə səbəb olacağına inanırıqsa, indiki dünya böhranını nəzərdən qaçırmışmı oluruq?

Burada Morgentaunun milli xarakter haqqında fikirlərini xatırlasaq, yerinə düşər. O, yetişməmiş stereotiplərdən uzaq dursa da və anlayışın mütləq şəkildə "sürüşkən" olduğu ilə razılaşsa da, bununla belə, "intellekt və xarakterin müəyyən keyfiyyətlərin bir dövlətdə digərindən daha tez-tez rast gəlindiyi və daha yüksək dəyər kəsb etdiyi" faktının uzunsürən və çox vaxt həlledici effektinə işarə edirdi. Liberal demokratik dövlətin fəaliyyəti üçün zəruri olan dəyərlərin ixracına edilən hər hansı cəhd bu cür mürəkkəb təsisatları və təcrübələri qəbul edəcək tərəfin düşüncəsindəki fərqləri nəzərə almalıdır. Morgentau çəkinmədən belə bir sual qoya bilərdi ki, demokratiya elə bir təbii yoluxucumudur ki, düşünülmüş şəkildə göstərilən səy hesabına yalnız ABŞ-dan İraqın son dərəcə fərqli xüsusiyyətlərə malik cəmiyyətinə, oradan isə onun regiondakı tarixi, mədəni və dini fərqləri olan qonşularına keçə bilsin?

Tələsik onu da qeyd etməliyik ki, bu gün bizim içində olduğumuz böhran haqqında yazdıqlarımız Morgentauya "məsələlərə yanlış yanaşma" kimi görünə bilərdi. Morgentau ayrı-ayrı siyasətləri münaqişə, məcburiyyət və qarşılıqlı siyasi fəaliyyətin bu formalarına gətirib çıxaran sistem qüvvələrinin sərtliyinin azaldılması imkanlarına dair anlayışlar və nəzəriyyələr haqqında olduğu qədər çox şərh etmirdi. Əgər münaqişə, doğrudan da, əbədidirsə, onda bizim vəzifəmiz İkinci

Dünya müharibəsi zamanı olduğu kimi bizdən sonrakı ən güclü müttəfiqlərimiz ilə birləşərək olmasa da, öz güc və təsirimizi təmərküzləşdirməyin ən səmərəli yollarını axtarıb taparaq təsirimizi artırmaqdır. İstəyərək daha zəif koalisiyalar ilə razılaşmaq və ya dünyada özümüzü miskin və köməksiz kimi göstərmək kifayət etməyəcək. Həyata keçirdiyimiz tədbirlərdən asılı olmayaraq, müəyyən qüvvə çatışmazlıqları hər zaman olacaq, çünki istənilən xarici siyasətin xəyalən nail olmağa cəhd edə biləcəyi potensial məqsədlər bütün hallarda, hətta ən güclü dövlətin belə müəyyən həddi olan mövcud resurslarını üstələyəcək. Ona görə də seçim zərurətindir. Morgentaunun bizim siyasi rəhbərliyimizdən gözləyə biləcəyi həmin seçimi edərkən əvvəlcə milli marağımızı və ona nail olmaq və onu müdafiə etmək gücümüzü müəyyən etmək üçün zamanın sınağından keçmiş hökmlərdən başlayaraq, rasional hesablamalar aparmaqdır. Xüsusilə münaqişə ilə parçalanmış regionlarda biz bir-birinə qarşı duran qüvvələrin və dövlətlərin maraqlarını və onların həmin məqsədləri reallaşdırmaq və bizim məqsədlərimizə mane olmaq imkanını dəyərləndirmək işini davam etdirmişikmi? Bu gün hərdən əvəz oluna bilən yalnız güc – xüsusilə gücün maddi aspekti – deyil, din və etnik mənsubiyyətlərə görə parçalanmış ölkələr də faktiki olaraq, xüsusilə qısa vədədə fundamental dəyişikliklərə nail olmaq üçün normaların və gücün hər hansı formasına sahib olmaya bilər: İraq bunun sübutudur. Orada dəyişikliyə mane olan regional rəqabətlər, qruplaşmalar və dərin dini və siyasi qarşıdurmalar və parçalanmalardır.

Hər şeydən mühümü odur ki, müstəsna şəkildə olmasa da belə, əsasən, hərbi fəaliyyətə həsr olunmuş hər hansı birxətli plan işğal və yenidənqurmanın müəyyən qaçılmaz problemlərini gözdən qaçıracaq və onları diqqətdən kənar qoyacaq. Morgentaunun belə bir "utopik və qeyri-siyasi yanaşma"ya qarşı ən sərt xəbərdarlığı onun 1951-ci ildə, *"Dövlətlər arasında siyasət"* kitabının birinci və ikinci nəşrləri arasındakı müddətdə nəşr etdirdiyi bir kitabında öz əksini tapmışdır. *"Milli marağın müdafiəsində"* kitabı beynəlxalq arenadakı sərtlik haqqında xəbərdarlıq edir. Morgentau "beynəlxalq münasibətlərin güc uğrunda mübarizənin heç vaxt bitməyəcəyini inkar edən və bunun əvəzinə onun əlaqəsiz sayda adi "cinayət fəsadları"ndan ibarət olduğunu bəyan edən təsəvvürü"nün – həddən artıq bəsit, lakin, bununla belə, amerikalılar üçün adətən cəlbedici olmuş göstərişin meydana gəlməsinə səbəb olan bir təsəvvürün əhəmiyyətini azaltdı: həmin təsəvvür belədir – "Düşməni əz, onu qeyd-şərtsiz təslim olmağa məcbur et; onu demokratik və sülhpərvər bir xalq kimi yenidən tərbiyələndir; və demokratiyanın hər yerdə bərqərar olması ilə dövlətlər arasında sülh və xoşməram da təmin olunacaq".

Morgentau II Dünya müharibəsi və "soyuq müharibə" zamanı yanlış əməl olunmaqda ittiham etdiyi bu məsləhətə daha siyasiyönlü yanaşma təklif edirdi və həmin yanaşmada qəbul olunurdu ki, "müharibənin işi hərbi əməliyyatlarda əldə

olunmuş qələbə ilə deyil, yalnız fəaliyyət qabiliyyətli qüvvələr bölgüsünün bərqərar edilməsi ilə bitir və bunun bünövrəsi müharibənin gedişində qoyulmalıdır".[1] Hərbi strategiya və siyasi məqsədlər arasında əlaqənin belə müfəssəl anlayışı yarım əsrdir ki, Amerikanın dünyadakı siyasətinin haqqında davam edən və təəssüf ki, o, silahlı münaqişəni aradan qaldırmaqdan heç vaxt olmadığı qədər uzaq olan müzakirənin bir hissəsi olaraq heç vaxt olmadığı qədər dəyərli görünür.

Tarixin Amerikanın İraqdakı və digər yerlərdəki hərəkətlərini necə qiymətləndirməsindən asılı olmayaraq, həqiqi analiz münaqişə vəziyyətində olan ərazilərin müharibə qurumları tərəfindən həyata keçirilən sülh cəhdləri üçün yeni məkanlar tapa bilib-bilmədiyi əsasında aparılacaq. Morgentauya gəlincə isə, qarşılaşdığımız gerçəklik bundan ibarətdir ki, o, haqqında diplomatiyaya dair, demək olar ki, hər elmi əsərdə yazılmış hamıya tanış olan bir markaya çevrilib. Britaniyada G.R.Beric *"Diplomatiya: nəzəriyyə və təcrübə"* kitabında ona istinad edir və *"Makiavellidən Kissincerə qədər diplomatik nəzəriyyə"* kitabında belə bir müşahidə aparır ki, heç bir şübhə yoxdur ki, Florensiya "XX əsrdə yaşamış məşhur xələfi Hans Morgentaunun mükəmməl bir diplomatiyanın dövlətin maddi gücünə güc qatacağına dair baxışı ilə"[2] razılaşmış olardı. *"Dövlətlər arasında siyasət"* kitabına yenidən nəzər yetirib, Fransada Rişelye, Kombon qardaşları, Böyük Britaniyada Kanninq və Kasleri, yaxud Tomas Ceferson və Con Kvinsi Adams kimi amerikalılara istinadların sayını görəndə çox vaxt yanlış olaraq birtərəfli düşüncə sahibi və beynəlxalq siyasətə dair baxışları dövlətlərin hərbi gücə əsaslanan toqquşmalarından uzağa getməyən bir mütəfəkkir kimi xarakterizə olunan Morgentau ilə incə fərqli diplomatiyanın töhfələri arasındakı bu əlaqə daha az təəccüb doğurur. *"Dövlətlər arasında siyasət"* kitabında sülhə gedən yol, Morgentaunun onu gördüyü kimi, uzun və dolanbaclı yoldur, lakin o, indiki halda diplomatiyadan keçir. Sonda dünya dövləti meydana çıxa bilər, lakin bu prosesin başlaması diplomatiya təcrübəsi ilə bəslənən xoş rəftardan, təmkindən və ümumi maraq düşüncəsindən asılıdır. Təsadüfi deyil ki, davamlı sülhə nail olmaq üçün bir-biri ilə yarışan göstərişlərin uyğunsuzluğunu nümayiş etdirdikdən sonra Morgentau öz araşdırmasını diplomatiyanın mərkəzləşdirilməsinə işarə etməklə tamamlayır. O, əvvəlcə diplomatiyanın dörd vəzifəsini və müasir dövrdə onların iflasa uğramasının səbəblərini qiymətləndirir, daha sonra isə sonuncu paraqrafda diplomatiyanın gələcəyini və onun yenidən dirçələ bilməsi yollarını nəzərdən keçirir. Onun məramı

[1] *In Defense of National Interest*, səh. 94-96.
[2] G.R.Berridge, *Diplomacy: Theory and Practice*, 2nd ed. (New York: Palgrave, 2002), səh. 218; Berridge, Maurice Kens-Soper, and T.G.Otte, editors, *Diplomatic Theory from Machiavelli to Kissinger* (New York: Palgrave, 2001), səh. 20.

zahirən paradoksal olsa da, aydındır: qədim diplomatiya institutunun ilkin razılaşma üsullarının köməyi ilə dramatik (baxmayaraq ki, son dərəcə uzun çəkəcək) siyasi dəyişiklik – müstəqil suveren dövlətlər sisteminin qlobal siyasi hakimiyyət ilə əvəz olunması üçün bünövrə qurmaq və beynəlxalq siyasəti yumşaldaraq, ölkədaxili siyasətə oxşar hər hansı bir formaya salmaqla nəticədə əsrlərlə yaşı olan müharibə təcrübəsini yüngülləşdirmək.

Bütün bunlar bizə sübut edir ki, tarixin Morgentau üçün çıxardığı dərslər güc və sülh arasındakı əlaqənin xüsusiyyətindən asılıdır. Bunların ikisi onun üçün ayrılmazdır. Olduqca tez-tez biz onlara iki sukeçirməz hissə kimi baxırıq, lakin onların hər ikisi birlikdə nəzərdən keçirilməlidir – xüsusilə hakimiyyət mövqelərini tutarkən terrorçuluq və digər qlobal böhran vəziyyətləri ilə üz-üzə gəlməli olan hər kəs tərəfindən. Dünya kütləvi qırğın silahları, zaman-zaman "rejim dəyişikliyi"ni zəruri edə bilən şərtlər və göbələkşəkilli nüvə buludu ilə simvollaşdırılan fırtına öncəsi vəziyyət ilə üz-üzə qalmaq məcburiyyətindədir; o həm də köhnə və yeni diplomatiyaya, vasitəçiliyin və münaqişənin həllinin müasir formalarına və sammit görüşlərinə etinasızlıq göstərə bilmir. Morgentau *"Dövlətlər arasında siyasət"* kitabının mətnində olduğu kimi, altbaşlığında da onların hər ikisinə bərabər yer verdiyindən belə görünür ki, onun fikirləri bu gün də eşidilməyə layiqdir. Bizə qalan vəzifə, sağ olsaydı, müəllifin əlaqədar olmuş olacağı siyasəti və müzakirələri diqqətlə izləməkdir. Onun elmi işləri və şərhlərinin bütöv bir toplusu və xüsusilə torpağa qoyulmuş toxum olan bu kitabın vasitəsilə onun səsi hər zaman bizimlədir. Bu kitabı oxuyaraq biz onun etdiyi xəbərdarlıqlara diqqət yetirmək imkanına və öhdəliyinə malik oluruq, onun bəyan etdiyi fikirlərə qarşı çıxır və dövrümüz və gələcək nəsillər üçün verdiyi vədlərə tutunuruq.

Kennet U.Tompson
U.Devid Klinton

I FƏSİL

BEYNƏLXALQ SİYASƏT NƏZƏRİYYƏDƏ VƏ TƏCRÜBƏDƏ

1. Beynəlxalq siyasətə dair realist nəzəriyyə

Bu kitabda beynəlxalq siyasətin nəzəriyyəsini təqdim etmək nəzərdə tutulur. Belə bir nəzəriyyəni müəyyən etməli olan tədqiqat aprior və abstrakt deyil, empirik və praqmatikdir. Başqa sözlə, bu nəzəriyyə qabaqcadan hasil olunmuş mücərrəd prinsiplərə və ya reallıq ilə əlaqəsi olmayan konsepsiyaya görə deyil, məqsədlərinə görə tədqiq edilməlidir: əlaqəsizlik və anlaşılmazlığa yol verməmək naminə böyük bir fenomenlər toplusu nizama salınmalı və aydınlaşdırılmalıdır. Burada təcrübi və məntiqi olmaqla iki növ araşdırma aparılmalıdır: faktlar əslində olduqları kimi nəzəriyyənin onlara şamil etdiyi xüsusiyyətləri əks etdirirmi və nəzəriyyənin hasil etdiyi nəticələr onun gedişatından irəli gələn məntiqi zərurətlərə uyğundurmu? Qısası, nəzəriyyə faktlara və öz mahiyyətinə müvafiqdirmi?

Bu nəzəriyyənin qaldırdığı məsələ bütün siyasi proseslərin təbiətinə aiddir. Müasir siyasi düşüncə tarixi insan təbiəti, cəmiyyət və siyasətə baxışları bir-birindən köklü şəkildə fərqlənən iki məktəb arasında gedən mübahisələrdən ibarətdir. Bu məktəblərdən biri inanır ki, universal şəkildə qəbul olunmuş mücərrəd prinsiplərdən qaynaqlanan rasional və əxlaq normalarına cavab verən siyasi nizama hər an nail olmaq mümkündür. O, insan təbiətinin xoş məramının və sonsuz mülayimliyinin labüdlüyünü nəzərdə tutur və bilgisizlik və anlaşılmazlıq səbəbindən sosial nizamın rasional standartlara cavab verə bilməməsini, sosial təsisatların köhnəlməsini və müəyyən təcrid olunmuş fərd və qrupların mənəvi pozğunluğunu günahkar hesab edir. O, təhsilə, islahatlara və qüsurları aradan qaldırmaq naminə hərdən güc tətbiqinə etimad göstərir.

Digər məktəbin nümayəndələri inanırlar ki, rasional nöqteyi-nəzərdən dünyanın qeyri-mükəmməl olması insan təbiətinə xas qüvvələrin nəticəsidir. Dünyada vəziyyəti yaxşılaşdırmaq üçün bu qüvvələrə qarşı deyil, onlarla birgə fəaliyyət göstərmək lazımdır. Toqquşan maraqlar və onlar arasında münaqişə dünyaya məxsus xüsusiyyətlər olduğundan mənəvi prinsiplərə heç vaxt tam əməl oluna bilmir, ən yaxşı halda, yalnız maraqların müvəqqəti tarazlanması və münaqişələrin səthi həlli ilə belə bir vəziyyətə qismən nail oluna bilər. Bu məktəb daha sonra sınaqlar və tarazlıqlar sistemində bütün plüralist cəmiyyətlər üçün universal bir prinsip görür. O, mücərrəd prinsiplər əvəzinə tarixi presedentlərə müraciət edir və onun məqsədi tam mükəmməlliyə nail olmaq əvəzinə, qüsurları azaltmaqdır.

İnsan təbiətinə olduğu kimi və tarixi proseslərə, əslində, baş verdikləri kimi nəzəri yanaşma burada *realizm* adı ilə təqdim olunan nəzəriyyəni doğurub. Siyasi realizmin ehkamları nələrdir? Burada siyasi realizmin fəlsəfəsinin hər hansı sistemli şərhinə cəhd edə bilmərik; çox zaman yanlış anlaşılan 6 fundamental prinsipi fərqləndirmək kifayət edəcək.

SİYASİ REALİZMİN 6 PRİNSİPİ

1. Siyasi realizmin nümayəndələri inanırlar ki, ümumilikdə cəmiyyət kimi, siyasət də insan təbiətindən qaynaqlanan obyektiv qanunlarla idarə olunur. Cəmiyyəti təkmilləşdirmək üçün ilk növbədə onun yaşadığı qanunları dərk etmək vacibdir. Bizim seçimlərimizdən asılı olmayaraq fəaliyyət göstərən bu qanunları insan yalnız uğursuzluq riski ilə qarşılaşdıqda dəyişir.

Siyasət qanunlarının obyektivliyinə onsuz da inanan realizm qeyri-mükəmməl və birtərəfli olsa belə, bu obyektiv qanunları əks etdirən rasional nəzəriyyənin yaranması ehtimalına da inanmalıdır. Onda o həmçinin siyasətdə həqiqətlə mülahizənin, yəni obyektiv və rasional baxımdan həqiqi, dəlillərlə təsdiqlənən və səbəblərlə izah olunanla subyektiv qiymətləndirilən, faktlardan uzaq olan, qərəz və arzu olunan təfəkkürlə üzə çıxarılanın fərqləndirilməsi ehtimalına da inanmalıdır.

Siyasət qanunlarının qaynaqlandığı insan təbiəti bu qanunları öyrənməyə çalışan klassik Çin, hind, yunan fəlsəfələrindən bəri dəyişməyib. Odur ki yenilikçilik siyasi nəzəriyyə üçün zəruri bir məziyyət deyil və qədim dövr fəlsəfəsi də qüsurlu hesab oluna bilməz. Siyasi nəzəriyyə haqqında, əgər belə bir nəzəriyyə varsa, əvvəllər heç vaxt danışılmaması faktı onun möhkəmliyinin xeyrinə deyil, əksinə, fərziyyələrin yaranması meylini yaradır. Əksinə, siyasət nəzəriyyəsinin yüz illər və hətta min illər əvvəl yaranması faktı isə – məsələn, güc tarazlığı nəzəriyyəsinin mövcudluğu – onun vaxtı keçmiş və köhnəlmiş olduğu fərziyyəsini yaratmır. Siyasət nəzəriyyəsi səbəb və təcrübədən ibarət ikili yoxlama üsulu ilə öyrənilməlidir. Çiçəklənmə dövrünü əsrlər öncə yaşadığı üçün belə bir nəzəriyyəni rədd etmək rasional arqument ilə deyil, modernist qərəz ilə çıxış etməkdir ki, bu halda da bu günün keçmiş üzərində üstünlüyü əsas götürülür. "Dəb" və ya "qəribəlik" naminə belə bir nəzəriyyənin dirçəlişinə səy göstərmək siyasi məsələlərdə bizim həqiqətlərə deyil, düşüncələrə sahib ola biləcəyimizi hesab etməyə bərabərdir.

Realizmdə nəzəriyyə faktların təyin edilməsindən və dəlillərlə onlara məna verməkdən ibarətdir. Hesab olunur ki, xarici siyasətin xarakteri yalnız həyata keçirilən siyasi tədbirlərin və bu tədbirlərin öncədən görünə bilən nəticələrinin öyrənilməsi yolu ilə müəyyən edilə bilər. Bununla biz dövlət xadiminin hərəkətinin həqiqi mahiyyətini üzə çıxara və təxmin edilən nəticələrdən onların hərəkətlərinin məqsədinin nə ola biləcəyini ehtimal edə bilərik.

Lakin yalnız faktların öyrənilməsi də kifayət deyil. Xarici siyasətin faktiki xam materiallarına məna vermək üçün biz siyasi reallığa rasional cizgilər – xarici siyasətin ağlabatan mahiyyətini təqdim edən sxem ilə yanaşmalıyıq. Başqa sözlə, biz özümüzü xarici siyasətin konkret bir problemini müəyyən şərtlər altında həll etməli olan dövlət xadiminin yerinə qoyuruq və öz-özümüzdən bu şərtlər altında bu problemi həll etməli olan dövlət adamının hansı alternativlərinin olduğunu (bu zaman biz onun rasional metodlarla hərəkət etdiyini hesab edirik) və verilmiş şərtlər altında fəaliyyət göstərən bu xüsusi dövlət adamının həmin rasional alternativlərdən hansını seçə biləcəyini soruşuruq. Rasional hipotezlərin həqiqi faktlara və onların nəticələrinə qarşı sınaqdan keçirilməsi beynəlxalq münasibətlərin faktlarına nəzəri məna yükləyir.

2. Siyasi realizmə beynəlxalq siyasətdə yol göstərən bələdçi güc nöqteyi-nəzərindən təyin olunan maraq konsepsiyasıdır. Bu konsepsiya beynəlxalq siyasəti izah etməyə çalışan səbəb ilə anlaşılmalı faktlar arasında əlaqəni müəyyən edir. O, siyasəti muxtar bir fəaliyyət sahəsi və iqtisadiyyat (maraq nöqteyi-nəzərindən maddi sərvətlər kimi qəbul edilir), etika, estetika və ya din kimi digər sahədən kənar bir anlayış kimi təyin edir. Belə bir konsepsiyasız beynəlxalq və ya daxili olmasından asılı olmayaraq, siyasət nəzəriyyəsinin bütövlükdə anlaşılması mümkün deyil, çünki bunsuz biz siyasi və qeyri-siyasi faktları fərqləndirə və ən azından siyasi sahəyə sistemli nizam ölçüsü gətirə bilməzdik.

Biz hesab edirik ki, dövlət adamları güc kimi müəyyən olunan maraq baxımından düşünür, hərəkət edirlər və tarixi dəlillər bu fərziyyəni təsdiq edir. Bu fərziyyə bizə keçmiş, indiki və ya gələcək dövlət adamlarının siyasi səhnədə atdıqları, yaxud atacaqları addımları müəyyən mənada yenidən xatırlamaq və əvvəlcədən təxmin etmək imkanı verir. O, göndərişlərini yazanda biz onu müşahidə edirik; digər dövlət adamları ilə danışıqlarını dinləyirik; onun ağlındakı düşüncələri oxuyur və əvvəlcədən təxmin edirik. Güc kimi müəyyən olunan maraq baxımından düşünərkən biz onun kimi düşünürük və qərəzsiz müşahidəçilər olaraq onun düşüncə və hərəkətlərini, bəlkə də, siyasi səhnədə bir aktor olan onun özündən daha yaxşı anlayırıq.

Güc kimi müəyyən olunan maraq konsepsiyası intellektual elm sahəsini icmalçıya həvalə edir, rasional nizamı siyasətin müzakirə obyektinə çevirir və bununla siyasətin nəzəri idrakını mümkün edir. Aktor baxımından o, rasional elm sahəsinin fəaliyyətini təmin edir və xarici siyasətdə bir-birini əvəz edən dövlət adamlarının fərqli motivlərindən, seçimlərindən, intellektual və mənəvi keyfiyyətlərindən asılı olmayaraq, bütövlükdə daxildə uyğunlaşma yolu ilə Amerika, Britaniya və ya Rusiya xarici siyasətlərinin anlaşılan, rasional mühitini formalaşdıran həmin heyrətamiz ardıcıllığı yaradır. Beynəlxalq siyasətə dair realist nəzəriyyə bu zaman iki çox rast gəlinən yanlışlığa münasibətdə ehtiyatlılıq nümayiş etdirməlidir: bunlar motivlərə yanaşma və ideoloji seçimlərə yanaşmadır.

Xarici siyasətin açarının ancaq dövlət xadiminin motivlərində axtarılması həm əhəmiyyətsiz, həm də aldadıcıdır. Bu ona görə əhəmiyyətsizdir ki, motivlər psixoloji göstəricilər arasında ən çox xəyali olanlar, çox vaxt etiraf edilə bilmədiklərindən aktor və həmçinin icmalçının maraq və emosiyaları ilə təhrif edilənlərdir. Biz öz motivlərimizin həqiqətən nə olduğunu bilirikmi? Bəs başqalarının motivləri haqqında nə bilirik?

Biz hətta dövlət xadiminin həqiqi motivlərini sahib olduğumuz biliklərin köməyi ilə xarici siyasəti qismən dərk etməklə müəyyən edə bilsək belə, mümkündür ki, həqiqətdən sapaq. Bu bir həqiqətdir ki, dövlət xadiminin motivləri haqqında məlumat onun yürütdüyü xarici siyasətin mümkün istiqamətini müəyyənləşdirməyin bir çox göstəricilərindən biridir. Bununla belə, bu onun yürütdüyü xarici siyasi xətlər haqqında qabaqcadan fikir söyləməyin yeganə əsası ola bilməz. Tarix motivlərin xarakteri ilə xarici siyasətin xarakteri arasında heç bir dəqiq və zəruri əlaqə nümayiş etdirmir. Bu həm mənəvi, həm də siyasi nöqteyi-nəzərdən doğrudur.

Biz dövlət xadiminin xoş niyyətlərinə əsaslanaraq, onun yürütdüyü xarici siyasətin mənəvi cəhətdən təqdirəlayiq və ya siyasi cəhətdən uğurlu ola biləcəyi qənaətinə gələ bilmərik. Motivlərini qiymətləndirərək biz onun məqsədyönlü şəkildə mənəvi cəhətdən doğru olmayan siyasət yürütməyəcəyini söyləyə bilərik, lakin onun müvəffəqiyyətli ola biləcəyi haqqında heç nə deyə bilmərik. Əgər biz onun fəaliyyətinin mənəvi və siyasi xarakterini bilmək istəyiriksə, onun motivlərini deyil, fəaliyyətini öyrənməliyik. Dövlət adamlarının dünyanı yaxşılaşdırmaq arzusu ilə yola çıxdıqları, lakin sonda onu daha da pis vəziyyətə qoyduqları hallar azmı olub? Bəs onların qarşılarına müəyyən bir məqsəd qoyduqları, lakin sonda gözləmədikləri və arzulamadıqları başqa bir nəticəyə nail olduqlarına azmı rast gəlinib?

Nevil Çemberlenin barışdırma siyasəti qiymətləndirə biləcəyimiz qədər xoşməramlı motivlərdən qaynaqlanırdı; o, demək olar ki, Britaniyanın bir çox digər baş nazirləri ilə müqayisədə öz şəxsi iqtidarı haqqında təsəvvürlərə daha az arxalanır və sülhü qorumağa və əlaqədar olan hər kəsin rifahını təmin etməyə çalışırdı. Buna baxmayaraq, onun siyasi addımları İkinci Dünya müharibəsinin qaçılmazlığına və milyonlarla insanın danışılması mümkün olmayan iztirablar çəkməsinə yol açdı. Digər tərəfdən, ser Uinston Çörçillin motivləri mahiyyətcə daha az universal idi, eyni zamanda daha sərt formada şəxsi və milli iqtidara doğru yönəlmişdi. Bununla belə, bu kimi alçaq motivlərdən qaynaqlanan xarici siyasət xətti onun sələfinin tutduğu xətdən öz siyasi və mənəvi xüsusiyyətlərinə görə, əlbəttə ki, üstün idi. Motivlərinə görə qiymətləndirilərsə, Robespyer həyatda yaşamış ən əxlaqlı insan idi. Lakin həmin əxlaqa dair utopik radikalizm onu özündən daha az əxlaqlı olanları qətlə yetirməyə məcbur etdi, onu edam kürsüsünə gətirdi və lideri olduğu inqilabı darmadağın etdi.

Xoşməramlı motivlər qərəzli şəkildə pis məram daşıyan siyasi xətlərə təminat verir; onlar təlqin etdikləri siyasi xətlərin mənəvi düzgünlüyü və siyasi uğuruna zəmanət vermir. Xarici siyasəti dərk etmək istəyərkən bizim bilməli olduğumuz mühüm amil əsas etibarilə dövlət xadiminin motivləri deyil, onun xarici siyasətin mahiyyətini dərk edə bilmək üçün sahib olduğu intellektual imkanlar, həmçinin dərk etdiklərini uğurlu siyasi fəaliyyətə çevirə bilmək üçün sahib olduğu siyasi bacarıqlardır. Buradan belə bir nəticə çıxarmaq olar ki, etika mücərrəd formada motivlərin mənəvi xarakterini dəyərləndirdiyi kimi, siyasi nəzəriyyə də intellekt, iradə və fəaliyyətin siyasi xarakterini dəyərləndirməlidir.

Beynəlxalq siyasətə dair realizm nəzəriyyəsi həmçinin digər çox rast gəlinən bir yanlışlıqdan da uzaq olmalıdır ki, bu da dövlət adamının xarici siyasi fəaliyyətinin onun fəlsəfi və siyasi meyilləri ilə bərabərləşdirilməsi və birinciyə dair nəticələrə ikinci vasitəsilə gəlinməsidir. Dövlət adamları xüsusilə çağdaş şəraitdə ictimai dəstəyə nail olmaq naminə öz xarici siyasətlərini fəlsəfi və siyasi meyilləri baxımından təqdim etməyi bir vərdişə çevirə bilərlər. Bununla belə, onlar da Linkoln kimi milli maraq nöqteyi-nəzərindən düşünməyi və hərəkət etməyi tələb edən "*dövlət* vəzifələri" ilə sahib olduqları mənəvi dəyərləri və siyasi prinsiplərini bütün dünyada reallaşdırmaqdan ibarət olan "*şəxsi* arzuları" arasında seçim etməli olacaqlar. Siyasi realizm siyasi ideallara və mənəvi prinsiplərə nə etinasızlıq tələb edir, nə də belə etinasızlığı bağışlayır. Lakin o, arzu edilən və mümkün olan – bütün zamanlarda hər yerdə arzu olunan və konkret zaman və məkanda mümkün olan arasında dəqiq fərqləndirmə tələb edir.

Aydın məsələdir ki, heç də bütün xarici siyasət fəaliyyətləri hər zaman rasional, obyektiv və emosiyaların təsirindən kənar bir kursa sahib olmayıb. Fərdi xüsusiyyətlər, qərəz, subyektiv seçimlər və nəsildən-nəslə keçən istənilən intellekt və iradə zəifliyi kimi mümkün elementlər xarici siyasətin rasional kursdan yayınmasına gətirib çıxarır. Xüsusilə xarici siyasət demokratik nəzarət şəraitində həyata keçirilərkən xarici siyasətə dəstək məqsədilə ictimai emosiyaların idarə edilməsinə ehtiyac xarici siyasətin özünün rasionallığına xələl gətirməyə bilmir. Odur ki rasionallığı hədəf götürmüş bir xarici siyasət nəzəriyyəsi mövcud məqamda müəyyən mənada həmin irrasional elementlərdən qaynaqlanmalı və təcrübədə özünü doğruldan rasional mahiyyət nümayiş etdirən xarici siyasət görüntüsü yaratmağa çalışmalı və bu zaman yenə təcrübədə özünü doğruldan rasionallıqdan mümkün yayınmalara yol verməməlidir.

Rasionallıqdan siyasətçinin şəxsi səbatsızlığı və ya psixopatologiyası ilə əlaqəli olmayan yayınma halları yalnız rasionallıq nöqteyi-nəzərindən mümkün görünə bilər, lakin bunlar öz-özlüyündə məntiqi irrasionallıq sisteminin elementləri də ola bilər. İrrasional siyasətin müəyyən mənada əks-nəzəriyyəsinin yaradılması ehtimalı da araşdırılmağa dəyər.

Xarici siyasətə dair Amerika düşüncəsinin inkişafını nəzərdən keçirərkən yanlış yanaşmaların hansı görüntü altında olmasından asılı olmayaraq, istər elmi arqument, istərsə də siyasi təcrübə qarşısında davamlılığından heyrətə gəlirsən. Bir zamanlar bu heyrət həqiqi bir Aristotel üsulu ilə rasional anlayış yolunda axtarışa çevrilmişdi, bu axtarış həm rahatlaşdırıcı, həm də narahatedici bir nəticə ilə sonuclanır: bizim bu nöqtəyə gəlməyimizə səbəb hamımızın bu və ya digər forma və dərəcədə ortaq olduğumuz elmi nöqsanlardır. Onlar birlikdə beynəlxalq siyasətin patologiyasının ümumi görüntüsünü təşkil edir. İnsan düşüncəsi reallığa tədbirlər görmək məqsədilə yanaşanda – bunun ən bariz nümunələrindən biri siyasi toqquşmadır – çox vaxt dörd ümumi əqli fenomenin biri tərəfindən yanlış yönləndirilir: əvvəllər adekvat hesab olunan düşüncə və fəaliyyət formalarının qalıqları indi yeni sosial reallıq tərəfindən köhnəlmiş kimi göstərilir; reallığın həqiqəti uydurma reallıq ilə əvəz edən demonoloji şərhi – zahirən həllolunmaz məsələlərin əvəzinə bədxah insanların gündəmə gətirilməsi; qeyri-real söz verməklə vəziyyətin təhlükəli olduğu ilə razılaşmaqdan imtina etmək; yaxud zahirən gərgin olan real vəziyyətin sonsuz olaraq mülayim qalacağına ümid etmək.

İnsan sosial durumlara yeknəsəq formalarda cavab verir. Əvvəlki vəziyyətlərlə bənzərliyi qəbul edilən durum eyni cavab tədbiri doğurur. Zəka müəyyən mənada müxtəlif vəziyyətlərə uyğun bir neçə formanı hazır saxlayır; daha sonra yalnız verilmiş vəziyyətə əvvəlcədən ona uyğun hazırlanmış formanın tətbiq olunması üçün müəyyənləşdirmənin aparılması tələb olunur. Beləliklə, insan zəkası hər bir xüsusi vəziyyətin yeniliyinin yoxlanılması və ona uyğun düşüncə və fəaliyyət formasının müəyyən edilməsindən qaçınaraq zəhmətə qənaət prinsipinə riayət edir. Lakin məsələ dinamik dəyişikliyə məruz qalarkən ənənəvi formalar artıq uyğun gəlmir; onlar belə dəyişikliyi əks etdirən yeni formalarla əvəz edilməlidir. Əks halda, ənənəvi formalarla yeni reallıqlar arasında boşluq yaranacaq və düşüncə və fəaliyyət yanlış istiqamətləndiriləcək.

Beynəlxalq platformada beynəlxalq münasibətlərin siyasi institutlar, diplomatik prosedurlar və hüquqi tənzimləmələrdə əks olunan strukturunun beynəlxalq siyasətin reallıqlarının ziddinə getməyə və onunla böyük ölçüdə uyğunsuzluğa meyil etmiş olduğunu söyləmək mübaliğə olmaz. Bunlardan birincisi bütün xalqların "suveren bərabərliyi"ni nəzərdə tutduğu halda, ikincisi bir tərəfdə əllərində görünməmiş ümumi məhvetmə gücü topladıqları üçün supergüclər adlanan iki dövlət, digər tərəfdə isə gücləri hətta ənənəvi milli dövlətlər ilə müqayisədə həddən artıq kiçik olduğu üçün "kiçik dövlətlər" adlandırılan digər çoxsaylı dövlətlər olmaqla xalqların ifrat bərabərsizliyi ilə təyin olunur. Beynəlxalq siyasətin reallığı ilə onu anlaşılan etmək və idarə etmək üçün yaradılmış məfhumlar, təsisatlar və prosedurlar arasındakı həmin ziddiyyət və uyğunsuzluğun nəticəsidir ki, anarxiya vəziyyətində olan beynəlxalq münasibətlərin, ən azı, böyük güclər

səviyyəsindən aşağıda idarəolunmazlığına səbəb olub. Beynəlxalq terrorçuluq və hökumətlərin ona fərqli reaksiyaları, xarici hökumətlərin Livandakı vətəndaş müharibəsinə qarışması, ABŞ-ın Cənub-Şərqi Asiyada apardığı hərbi əməliyyatlar və Sovet İttifaqının Şərqi Avropaya hərbi müdaxiləsi ənənəvi məfhumlar, təsisatlar və prosedurlara istinadən izah oluna və ya əsaslandırıla bilməz.

Bütün bu vəziyyətlərin bir ümumi xüsusiyyəti var. Müasir qarşılıqlı asılılıq gerçəkliyi bunu nəzərə alan siyasi bir nizam tələb edir, reallıqda isə XIX əsrə köklənən hüquqi və təsisati ali struktur öz-özünü təmin edə bilən, keçilməz, suveren milli dövlətlər çoxluğunun mövcudluğunu nəzərdə tutur. Köhnəlmiş hüquqi və təsisati nizamın bu qalıqları yalnız beynəlxalq münasibətlərin gücün bərabərsizliyi və maraqların qarşılıqlı asılılığı fonunda rasional transformasiyasına mane olmur. Həmçinin belə bir sistemin qüsurlu fəaliyyəti çərçivəsində qeyri-mümkün deyilsə, təsadüfi hallarda rasional siyasi addımlarla da özünü göstərir.

Sosial problemləri fərdiləşdirmək primitiv düşüncəyə xas xüsusiyyətdir. Problem rasional idraka və uğurlu manipulyasiyaya meyilli olmadıqda bu tendensiya xüsusilə güclü olur. Ayrıca bir şəxsin və ya şəxslər qrupunun itaətsizliyi ilə əlaqədar problemlə qarşılaşdıqda bu, məsələnin həlli üçün həm intellektual cəhətdən müvafiq, həm də həssas üsul kimi özünü göstərə bilər. Belə ki, bədxahlığın mənbəyi kimi şeytana inam bizə diqqəti onun mənbəyinin axtarışına və fiziki mövcudluğunu qəbul etdiyimiz konkret bir insan üzərində nəzarətinə yönəltməklə bədxahın təbiətini "anlamağ"a yardım edir. Siyasi münaqişənin mürəkkəbliyi belə sadə həll yollarına maneə yaradır. Təbii fəlakətlərin qarşısı cadugərlərin yandırılması ilə alınmadığı kimi, güclü Almaniyanın Avropa üzərində hegemonluq qurması təhlükəsinin qarşısını da ardıcıl alman liderlərindən yaxa qurtarmaqla almaq mümkün deyil. Lakin biz problemin üzərində nəzarətimizin olduğu – və ya nəzarətimizin olacağına ümid etdiyimiz müəyyən insanlara bağlamaqla problemi həm elmi, həm də praqmatik cəhətdən idarə edilən hissələr qədərində kiçildirik. Müəyyən insanlar və ya insanlar qrupunu bədxahlığın mənbəyi kimi müəyyən edəndən sonra biz fərdlərdə sosial problemlərə aparan təsadüfi əlaqəni dərk etmiş oluruq; bu aşkar idrak aşkar həll yolunu irəli sürür: buna "məsul" olan fərdlər kənarlaşdırılır və problem həll edilmiş olunur.

Xurafat hələ də bizim cəmiyyət daxilindəki əlaqələrimiz üzərində təsirə malikdir. Düşüncə və hərəkətin demonoloji nümunəsi indi insan fəaliyyətinin rasional tədqiqat formasına bağlı olan digər sahələrinə və bizim təbiət ilə əlaqələrimizdən xurafat törədən hadisələrə də ötürülüb. Uilyam Qraham Samnerin dediyi kimi, "xurafatın həcmi çox dəyişməyib, lakin indi o, dinə deyil, siyasətə bağlanıb".[1] ABŞ-ın kommunizmin çoxmərkəzli (polisentrik) təbiətini dərk etməkdə və ona

[1] "Mores of the Present and Future", in *War and Other Essays* (New Haven, CT: Yale University Press, 1911), səh. 159.

cavab verməkdə düçar olduğu çoxsaylı uğursuzluqları bu nöqsanın bariz nümunəsidir. Kommunizmə belə dağınıq müxalifətliliyin nəticəsi olaraq, antikommunist mövqe bəyan edən və bunu həyata keçirən hökumət və hərəkatlara verilən dəstək də dağınıq idi. Amerikanın Asiya və Latın Amerikasında həyata keçirdiyi siyasi xətlər bu bəsitləşdirici mövqedən qaynaqlanmışdır. Vyetnam müharibəsi və bizim kontinental Çin ilə razılığa gələ bilməməyimiz burada öz məntiqli izahını tapır. Bunu Vyetnamda Feniks proqramı altında geniş miqyaslı qətllər və ayrı-ayrı dövlət adamlarının qətli və ya sui-qəsdlər də daxil olmaqla əks-inqilabi nəzəriyyə və onun icrası haqqında da söyləmək olar. Oxşar yanaşmanın işarələrinə bu yaxınlarda Mərkəzi Amerikada şahid olunmuşdur.

Xarici siyasətə demonoloji yanaşma təhdidedici reallığın etirafı və səmərəli şəkildə idarə olunmasının rədd edilməsindən ibarət olan digər bir patoloji tendensiyanı gücləndirir. Demonoloji yanaşma bizim kommunizmin tərəfdarlarına – daxildə və xaricdə ayrı-ayrı fərdlərə, siyasi hərəkatlara, xarici hökumətlərə – qarşı diqqətimizi və münasibətimizi dəyişib və həqiqi təhlükədən yayındırıb: dövlətlərin gücü, kommunistdir, yoxsa deyil. Makkartizm demonoloji yanaşmanın yalnız ən çox yayılan amerikan nümunəsi deyildi, həmçinin bu növ yanlış dəyərləndirmənin ən qeyri-adi nümunələrindən biri idi: o, real olan rus gücü təhlükəsiylə daha çox xəyali olan daxili diversiya təhlükəsinin yerini dəyişirdi.

Nəhayət, siyasətə bu yanaşmanın tərkibi olaraq belə bir inam mövcuddur ki, nə qədər ümidsiz olmasından asılı olmayaraq, xoş niyyətlə yanaşılarsa, yaxşı maliyyələşdirilərsə və lazımi səylər göstərilərsə, reallıqda heç bir problem həlledilməz deyil. Mən bir yerdə bu inamın elmi və tarixi köklərini aşkar etməyə cəhd etmişəm[1]; burada mən Vyetnam müharibəsi və Amerikanın gücünün ümumi zəifləməsi kimi əks təcrübələrə rəğmən onun davamlı möhkəmliyini göstərməklə kifayətlənirəm. Siyasi və hərbi problemlərin iqtisadi həll üsullarına üstünlük verilməsi iqtisadi mənfəətlərin əzablı və riskli diplomatik sövdələşməyə aşkar şəkildə sərfəli transferinə üstünlük verən potensial iqtisadi dəstək qəbul edənlərin maraqları ilə güclü şəkildə möhkəmlənmişdir.

Real olan beynəlxalq siyasətlə ondan qaynaqlanan rasional nəzəriyyə arasındakı fərq foto və rəsm portreti arasındakı fərqə bənzəyir. Foto gözlə görülə biləcək hər şeyi göstərir; rəsm portreti isə gözün görə biləcəyi hər şeyi göstərmir; lakin o, gözün görə bilməyəcəyi bir şeyi göstərir və ya ən azı, göstərməyə çalışır: bu da rəsmi çəkilmiş şəxsin insani keyfiyyətləridir.

Siyasi realizm yalnız nəzəri deyil, həm də normativ elementə sahibdir. Ona məlumdur ki, siyasi reallıq ehtimallar və sistemin irrasionallıqları ilə zəngindir və nəzəriyyə onların xarici siyasət üzərində tipik təsirlərini göstərir. Bununla belə,

[1] *Scientific Man Versus Power Politics* (Chicago: University of Chicago Press, 1946).

o, ümumi sosial nəzəriyyə ilə nəzəri anlaşma naminə, siyasi reallığın rasional elementlərini vurğulamaq ehtiyacını bölüşür; çünki həqiqəti nəzəriyyə üçün anlaşıqlı edən bu rasional elementlərdir. Siyasi realizm bir rasional xarici siyasətin heç vaxt təcrübədə əldə edilə bilməyəcək nəzəri quruluşunu təqdim edir.

Eyni zamanda siyasi realizm rasional xarici siyasəti yaxşı xarici siyasət hesab edir; çünki yalnız rasional xarici siyasət riskləri azaldır və faydaları çoxaldır və bununla da həm idrakın mənəvi tövsiyələri, həm də uğurun siyasi tələbləri ilə uyğunlaşır. Siyasi realizm istəyir ki, siyasi dünyanın fotoşəkli onun rəsmlə çəkilmiş portretinə mümkün qədər çox oxşasın. Yaxşı – bu, rasionaldır – xarici siyasət ilə reallıqda olan xarici siyasət arasındakı qaçılmaz boşluqdan xəbərdar olan siyasi realizm yalnız nəzəriyyənin diqqəti siyasi reallığın rasional elementlərinə çəkməli olduğunun deyil, həm də xarici siyasətin öz mənəvi və praktiki məqsədləri baxımından rasional olmalı olduğunun tərəfdarıdır.

Beləliklə, real xarici siyasətin onun ümidlərini doğrultmaması və ya doğrulda bilməməsi burada təqdim olunan nəzəriyyəyə qarşı gətirilə biləcək arqument deyil. Bu arqument kitabın siyasi reallığın dağınıq təsvirini deyil, beynəlxalq siyasətin rasional nəzəriyyəsini təqdim etməkdən ibarət olan məramının yanlış anlaşılmasına səbəb olur. Məsələn, mükəmməl güc tarazlığının reallıqda çətin rast gəlinə biləcəyi kimi bir faktı ilə qüvvədən düşməkdən uzaq olaraq, o hesab edir ki, bu baxımdan çatışmaz olan reallıq ideal güc tarazlığı sisteminə təxmini uyğun gələn formada anlaşılmalı və qiymətləndirilməlidir.

3. Realizm hesab edir ki, onun əsas anlayışı olan güc kimi təyin olunan maraq universal şəkildə qəbul edilən obyektiv kateqoriyadır, lakin bu həmin anlayışa daimi bir məna bəxş etmir. Əslində, maraq məfhumu siyasi mahiyyətlidir və zaman və məkan şərtlərinin təsirinə məruz qalmır. Fukididin qədim Yunanıstanın təcrübələrindən doğan "dövlətlər və fərdlər arasında əlaqələrin ən möhkəmi maraqların eyniliyidir" fikri XIX əsrdə lord Solisberinin xalqlar arasında "yeganə davamlı birlik əlaqəsi" "heç bir toqquşan marağın olmamasıdır" mülahizəsi ilə davam etdirildi. Corc Vaşinqton bunu hökumətin ümumi bir prinsipi olaraq irəli sürdü:

"İnsan təbiəti haqqında kiçik biliklər belə bizi əmin edir ki, – insanlığın böyük bir qismində bu şamil olunur, – maraq idarəedici prinsipdir; və demək olar ki, hər kəs bu və ya digər dərəcədə onun təsiri altındadır. İctimai əxlaq motivləri müəyyən bir zaman kəsiyində və ya xüsusi hallarda insanları heç bir şəkildə maraqlı olmadıqları işləri görməyə sövq edə bilər; lakin sosial vəzifənin xalis tələb və öhdəliklərinə davamlı uyğunluğu təmin etmək üçün onlar özləri kifayət etmir. Az adam bütün şəxsi maraq və ya mənfəət görüşlərini ümumi xeyirə daimi şəkildə qurban vermək bacarığına sahibdir. İnsan təbiətinin pozğunluğundan bu baxımdan narazılıq etmək mənasızdır; fakt budur ki, bütün dövrlərin və xalqların təcrübəsi bunu təsdiq edib və biz onu dəyişə bilməkdən öncə böyük ölçüdə insan

konstitusiyasının özünü dəyişməliyik. Bu prinsiplərin güman olunan həqiqəti üzərində qurulmayan heç bir təsisat mövcudluğunu davam etdirə bilməz".[1]

Bu, XX əsrdə Maks Veberin müşahidəsində təkrarlandı və genişləndirildi:

"İnsanların hərəkətlərini birbaşa idarə edən ideyalar deyil, maraqlardır (maddi və ya mücərrəd). Bu ideyaların yaratdığı "dünya obrazları" çox vaxt maraqların dinamizminin hadisələri inkişaf etdirdiyi cığırları təyin edən işarələr rolunu oynamışdır".[2]

Bununla belə, tarixin müəyyən mərhələsində siyasi fəaliyyəti təyin edən maraq növü daxilində xarici siyasətin formalaşdırıldığı siyasi və mədəni şəraitdən asılıdır. Xalqların xarici siyasətlərində nail ola biləcəkləri məqsədlər hər hansı xalqın nə vaxtsa nail olduğu və ya nail ola biləcəyi məqsədlərin bütöv sırasını nümayiş etdirə bilər.

Eyni fikirlər güc məfhumuna da şamil edilə bilər. Onun mahiyyəti və istifadə üsulu siyasi və mədəni mühit tərəfindən təyin olunur. Güc insanın insan üzərində nəzarətini təşkil və təmin edən hər şeyi ehtiva edir. Beləliklə, güc fiziki zorakılıqdan bir beyinin digərini idarə etdiyi ən incə psixoloji əlaqələrə qədər bu məqsədə xidmət edən bütün sosial münasibətləri əhatə edir. Güc həm Qərb demokratiyasında olduğu kimi mənəvi məqsədlər tərəfindən nizamlanan və konstitusional təminatlarla idarə olunan zaman, həm də heç bir qanuna tabe olmayıb öz qüdrətinə arxalanan və yeganə bəraəti böyümək olan şiddətli və qəddar zorakılıq forması aldığı zaman insanın insan üzərində ağalığını nəzərdə tutur.

Siyasi realizm hesab etmir ki, xarici siyasətin fəaliyyət göstərdiyi çağdaş şərait öz ifrat qeyri-sabitliyi və hər yerdə mövcud olan geniş miqyaslı zorakılıq təhlükəsinə rəğmən dəyişməyə bilməz. Məsələn, güc tarazlığı, əslində, bütün plüralist cəmiyyətlərin əbədi elementidir, "Federalist" yazılarında bu var; lakin o, ABŞ-da olduğu kimi nisbi sabitlik və dinc münaqişə şəraitində fəaliyyət göstərə bilir. Əgər bu şəraiti yaradan amilləri beynəlxalq səhnəyə də köçürmək olsa, orada da tarixin uzun bir mərhələsində müəyyən xalqlar arasında olduğu kimi sabitlik və sülh şəraiti təşəkkül tapar.

Beynəlxalq münasibətlərin ümumi xarakteri üçün həqiqət olan çağdaş xarici siyasətin əsas istinad nöqtəsi olan milli dövlət üçün də həqiqətdir. Realizmin marağın siyasi fəaliyyəti qiymətləndirən və yönləndirən əbədi bir standart olduğuna həqiqətən inandığını nəzərə alsaq, maraq ilə milli dövlət arasında çağdaş əlaqə

[1] *The Writings of George Washington*, edited by John C.Fitzpatrick (Washington, DC: United States Printing Office, 1931-1944), Vol. X, səh. 363.
[2] Marianne Weber, *Max Weber* (Tübingen: J.C.B.Mohr, 1926), səh. 347-348. See also Max Weber, *Gesammelte Aufsätze zur Religionssoziologie* (Tübingen: J.C.B.Mohr, 1920), səh. 252.

tarixin məhsuludur və odur ki tarixin gedişatında yox olmağa məhkumdur. Realist istiqamətdə heç nə siyasi dünyanın milli dövlətlərə mövcud bölgüsünün tamamilə fərqli xarakterli, çağdaş dünyanın texniki imkanları və mənəvi tələbləriylə ayaqlaşan daha böyük vahidlərlə əvəz olunacağı fikrinə qarşı çıxmır.

Realizm ilə digər düşüncə məktəbləri arasında çağdaş dünyanın necə transformasiya olunmalı olduğuna dair çox önəmli sual ətrafında fikir ayrılığı mövcuddur. Realistlər inanırlar ki, bu transformasiyaya yalnız keçmişi müəyyən edən daimi qüvvələr üzərində məharətli şəkildə manipulyasiya yolu ilə nail oluna bilər, çünki gələcəyi də onlar təyin edəcək. Realisti inandırmaq olmaz ki, biz öz qanunları olan siyasi reallığa qarşı çıxmaqla və bu zaman həmin qanunları nəzərə almaqdan imtina etmək kimi mücərrəd bir ideya ilə çıxış edərək, transformasiyaya səbəb ola bilərik.

4. Siyasi realizm siyasi fəaliyyətin mənəvi əhəmiyyətindən xəbərdardır. O həmçinin mənəvi nəzarət və uğurlu siyasi fəaliyyətin tələbləri arasındakı qaçılmaz gərginlikdən də xəbərdardır. O həmin gərginliyi nəzərə almamaq və unutmaq və bununla da guya mütləq siyasi faktların mənəvi cəhətdən reallıqda olduğundan daha qaneedici, əxlaq qanunlarının isə həqiqətdə olduğundan daha az tələbkar olduğu görüntüsünü yaratmaqla həm mənəvi, həm də siyasi məsələləri anlaşılmaz etmək istəmir.

Realizm belə bir fikri müdafiə edir ki, universal əxlaq prinsipləri öz mücərrəd quruluşları ilə dövlətlərin fəaliyyətinə tətbiq oluna bilməz və onlar konkret zaman və məkan şərtlərinin süzgəcindən keçməlidir. Bir fərd öz-özünə *"Fiat justitia, pereat mundus* (Dünya məhv olsa belə, qoy zəfər çalsın)" deyə bilər, lakin dövlətin himayə etdiyi kəslər naminə bunu söyləməyə haqqı yoxdur. Həm fərd, həm də dövlət siyasi fəaliyyəti azadlıq kimi universal əxlaq prinsiplərinə görə dəyərləndirməlidir. Lakin fərdin belə bir əxlaqi prinsipi müdafiə etmək üçün özünü qurban vermək haqqı olduğu halda, dövlətin azadlığının boğulmasından irəli gələn mənəvi narazılığın milli mövcudluğu qorumaq kimi digər mənəvi prinsipdən ilhamlanan uğurlu siyasi fəaliyyətə maneə yaratmasına icazə vermək haqqı yoxdur. İdraksız, yəni zahirən mənəvi əxlaqi normalara cavab verən hadisənin siyasi nəticələrini nəzərə almadan heç bir siyasi mənəviyyatdan danışıla bilməz. Bundan əlavə, realizm idrakı – alternativ siyasi hadisələrin nəticələrinin ölçülməsini – siyasətdə ən ali əxlaq hesab edir. Əxlaq nəzəriyyəsi mücərrəddə hadisələri onların mənəvi qanunlarla uyğunluğuna görə qiymətləndirir; siyasi əxlaq nəzəriyyəsi isə hadisələri siyasi nəticələrinə görə qiymətləndirir. Klassik və Orta əsr fəlsəfəsi bundan xəbərdar idi, eləcə də Linkoln aşağıdakı fikirlərini söyləyən zaman bunu bilirdi:

"Mən bildiyimin və bacardığımın ən yaxşısını edirəm və sona qədər belə davam etməyi nəzərdə tuturam. Əgər nəticə düzgün olacaqsa, mənə qarşı deyilənlərin

heç bir əhəmiyyəti qalmayacaq. Əgər nəticə səhv olacaqsa, mənim düzgün yolda olduğuma on mələk and içsə belə, heç bir fərqi yoxdur".

5. Realizm hər hansı bir xalqın əxlaq meylləri ilə dünyanı idarə edən əxlaq qanunlarını eyniləşdirməyin əleyhinədir. O, həqiqəti və baxışı fərqləndirdiyi kimi, həqiqəti və bütpərəstliyi də fərqləndirir. Bütün xalqları sövq edirlər ki, – onlardan çox azı uzun müddət buna müqavimət göstərə bilib, – öz meyillərini və fəaliyyətlərini dünyanın əxlaq məramlarına uyğunlaşdırsınlar. Xalqın əxlaq qanunlarının subyekti olduğunu bilmək bir məsələ, xalqlar arasındakı əlaqələrdə nəyin pis, nəyin yaxşı olduğunu əminliklə bildiyini iddia etmək isə başqa məsələdir. Xalqların hamısının Allahın mühakiməsi altında olduğuna dair insan ağlı üçün anlaşılmaz inam ilə Allahın hər zaman bir nəfərin tərəfində olduğuna və biri nəyisə istəyərsə, Allahın da onu istəyəcəyinə dair küfrlü hökm arasında dünyalar qədər fərq var.

Ayrıca bir dövlətin siyasi fəaliyyətiylə qəzavü-qədərin məsləhətləri arasında qoyulan ehtiyatsız bərabərliyə mənəvi cəhətdən bəraət qazandırmaq olmaz, çünki bu, xudpəsəndlik günahını qaynaqlandırır, hansı ki, yunan faciə müəllifləri və Bibliya peyğəmbərləri həm idarə edənləri, həm də idarə olunanları ona qarşı xəbərdar və idarə edirdilər. Bu bərabərlik siyasi cəhətdən də zərərlidir, belə ki, bu, mühakimə zamanı təhriflərə səbəb olur, necə ki, kor-koranə aparılan azğın Səlib yürüşləri, mənəvi prinsiplər, ideallar və ya Allahın özü adına xalqları və sivilizasiyaları məhv edir.

Digər tərəfdən, güc nöqteyi-nəzərindən təyin olunan həmin maraq məfhumudur ki, bizi mənəvi ifratçılıqdan və siyasi ağılsızlıqdan qoruyur. Öz xalqımız da daxil olmaqla bütün xalqlara güc nöqteyi-nəzərindən təyin olunan müvafiq maraqlarını güdən siyasi varlıqlar kimi nəzər yetirsək, onların hamısına qarşı ədalətli mövqe tutmaq iqtidarında olarıq. Biz həmçinin onlara qarşı ədalətli mövqeni ikili mənada sərgiləyə bilərik: biz digər xalqları öz xalqımızı mühakimə edən formada mühakimə etməyi bacarırıq və onları bu formada mühakimə edəndən sonra öz maraqlarımızı qoruyan və təbliğ edən zaman digər xalqların müvafiq maraqlarını güdməyi də bacarırıq. Siyasi hüdudlar düzgün müəyyən edilərsə, bu özünü mənəvi mühakimə hüdudlarının təyin edilməsində də əks etdirəcək.

6. Bundan əlavə, siyasi realizm ilə digər düşüncə məktəbləri arasındakı fərq real və mütləqdir. Bununla belə, siyasi realizm nəzəriyyəsinin böyük bir hissəsi düzgün anlaşılmaya və yanlış şərh oluna bilər, onun siyasi məsələlərə dəqiq elmi və əxlaqi yanaşması inkar oluna bilməz.

Elmi cəhətdən iqtisadçı, hüquqşünas, əxlaqçı öz sahəsinin muxtariyyətini müdafiə etdiyi kimi, siyasi realist də siyasi sahəsinin muxtariyyətini müdafiə edir. O, güc kimi təyin olunan maraq nöqteyi-nəzərindən düşünür, necə ki, iqtisadçı var-dövlət kimi təyin olunan maraq nöqteyi-nəzərindən; hüquqşünas hadisənin hüquqi qaydalara uyğunluğu nöqteyi-nəzərindən; əxlaqçı hadisələrin əxlaq qanunlarına

uyğunluğu nöqteyi-nəzərindən. İqtisadçı soruşur: "Bu siyasət cəmiyyətin və ya onun hər hansı bir seqmentinin var-dövlətinə necə təsir edir?" Hüquqşünas soruşur: "Bu siyasət hüquq qaydalarına uyğundur?" Əxlaqçı soruşur: "Bu siyasət əxlaq qaydalarına uyğundur?" Siyasətçi isə soruşur: "Bu siyasət xalqın (dövlətin) gücünə necə təsir edir?" (və ya federal hökumətin, konqresin, partiyanın, kənd təsərrüfatının və digər mümkün sahələrin).

Siyasi realist qeyri-siyasi düşüncə standartlarının mövcudluğu və əhəmiyyəti haqqında məlumatsız deyil. Lakin o bir siyasi realist kimi bu digər standartları siyasi standartlara tabe edə bilməz. O həmçinin başqa sahələrə dair düşüncə standartları siyasi sahəyə zorla şamil edilərkən digər məktəblərlə fikir ayrılığına düşür. Elə burada siyasi realizm beynəlxalq siyasətə "hüquqi-mənəvi yanaşma"ya qarşı çıxır. Bu məsələnin müqayisə olunduğu kimi adi təsəvvür xülyası olmadığı və dərin polemikaya yol açdığı tarixi nümunələr ilə göstərilə bilər. Məsələni anlamaq üçün üç nümunə kifayət edir.[1]

1939-cu ildə Sovet İttifaqı Finlandiyaya hücum etdi. Fransa və Böyük Britaniya biri hüquqi, digəri siyasi olmaqla iki əsasla buna qarşı çıxdı. Bu addım Millətlər Cəmiyyətinin Nizamnaməsinin müddəalarını pozurmu, əgər pozursa, Fransa və Böyük Britaniya hansı əks-tədbirlər görməlidir. Hüquqi suala asanlıqla müsbət cavab vermək olar, belə ki, Sovet İttifaqı açıq şəkildə Nizamnamə ilə qadağan olunan bir addım atmışdı. Siyasi sualın cavabı isə bir sıra amillərdən asılıdır: birincisi, Sovet İttifaqının hərəkətinin Fransa və Almaniyanın maraqlarına təsirinin forması; ikincisi, bir tərəfdən Fransa və Böyük Britaniya, digər tərəfdən isə Sovet İttifaqı və digər düşmən dövlətlər, xüsusilə Almaniya arasında qüvvələrin mövcud bölgüsü; və üçüncüsü, əks-tədbirlərin Fransa və Böyük Britaniyanın maraqlarına və gələcək qüvvələr bölgüsünə müvafiq təsiri.

Fransa və Böyük Britaniya Millətlər Cəmiyyətinin aparıcı üzvləri kimi Sovet İttifaqının Millətlər Cəmiyyətindən çıxarılmasını təmin etdi və yalnız İsveçin Fransa və Böyük Britaniya qoşunlarının Finlandiyaya gedən yolda İsveç ərazisindən keçməsinə etiraz etməsiylə Finlandiyanın Sovet Ittifaqına qarşı müharibəyə qoşulmasının qarşısı alındı. Əgər İsveçin bu etirazı onları xilas etməsəydi, Fransa və Böyük Britaniya qısa zaman kəsiyində eyni zamanda həm Sovet İttifaqı, həm də Almaniyaya qarşı müharibə aparmalı olacaqdı.

[1] Digər nümunələr üçün bax: Hans J.Morgenthau, "Another 'Greater Debate': the National Interest of the United States," *The American Political Science Review*, Vol. XLVI (December 1952), səh. 979 və növbəti səhifələr. Həmçinin bax: Hans J.Morgenthau, *Politics in the 20th Century*, Vol. 1, *The Decline of Democratic Politics* (Chicago: University of Chicago Press, 1962), səh. 79 və növbəti səhifələr; və ixtisar olunmuş nəşr (Chicago: University of Chicago Press, 1971), səh. 204 və növbəti səhifələr

Fransa və Böyük Britaniyanın siyasəti hüquqçuluğun klassik nümunəsidir, belə ki, onlar hüquqi suallarına öz sahəsi daxilində qanuni olan cavabın siyasi fəaliyyətlərini təyin etməsinə icazə verdilər. Həm hüquqa, həm də gücə aid hər iki sualı vermək əvəzinə, onlar yalnız hüquqi sualı verdilər; və aldıqları cavab mövcudluqlarının asılı ola biləcəyi məsələ üzərində heç bir təsirə malik ola bilməzdi.

İkinci nümunə beynəlxalq siyasətə "əxlaqçı yanaşma"nı təsvir edir. Bu, Çin kommunist hökumətinin beynəlxalq statusuna aiddir. Bu hökumətin yaranması Qərbi biri mənəvi, digəri siyasi olmaqla iki məsələ ilə qarşı-qarşıya qoydu. Bu hökumətin təbiəti və siyasi fəaliyyəti Qərb dünyasının mənəvi prinsiplərinə uyğun idimi? Qərb dünyası belə bir hökumət ilə münasibət qurmalı idimi? Birinci suala cavab mənfi olmaya bilməzdi. Lakin bu elə bir zərurət doğurmurdu ki, ikinci suala da cavab mənfi olmalıdır. Birinciyə – əxlaqa dair suala tətbiq olunan düşüncə standartı, sadəcə, Çin kommunist hökumətinin təbiətinin və siyasi fəaliyyətinin Qərbin əxlaq prinsiplərinə uyğunluğunu yoxlamaqdan ibarət idi.

Digər tərəfdən, ikinci – siyasi sual hər iki tərəfin cəlb olunan maraqlarının və mövcud gücünün, həmçinin bu və digər fəaliyyət kursunun maraqlar və güc üzərində təsirinin mürəkkəb analizinin mövzusu olmalıdır. Bu analiz elə bir nəticəyə gətirib çıxara bilərdi ki, o, Çin kommunist hökumətiylə münasibətlər saxlamamaq üsulundan daha müdrik olardı. Bu analizə bütünlükdə laqeyd yanaşaraq belə bir nəticə hasil etmək və siyasi suala əxlaqi məsələ nöqteyi-nəzərindən verilən cavab beynəlxalq siyasətə "əxlaqçı yanaşma"nın əsl klassik nümunəsidir.

Üçüncü nümunə realizm ilə xarici siyasətə hüquqi-əxlaqi yanaşma arasındakı ziddiyyəti aydın şəkildə təsvir edir. Belçikanın bitərəfliyinin təminatçılarından biri kimi Böyük Britaniya 1914-cü ilin avqustunda Almaniya ilə müharibəyə başladı. Çünki Almaniya Belçikanın bitərəfliyini pozmuşdu. Britaniyanın bu addımı ya realist, ya da hüquqi-əxlaqi yanaşma nöqteyi-nəzərindən əsaslandırıla bilərdi. Qeyd olunmalıdır ki, realist baxımdan sübut etmək olar ki, əsrlər boyu *"Aşağı ölkələr" (tarixi Hollandiya əraziləri)* üzərində düşmən dövlətlərin nəzarətinin qarşısının alınması Britaniya xarici siyasəti üçün bir aksioma olmuşdur. O zaman bu, özözlüyündə Belçikanın bitərəfliyinin pozulması məsələsi deyildi, təcavüzkarın düşmən niyyətləri Britaniya müdaxiləsi üçün məntiqi səbəb yaratmışdı. Əgər təcavüzkar Almaniya deyil, başqa bir dövlət olsaydı, Böyük Britaniya, yəqin ki, müdaxilədən imtina edərdi. Bu həmin vaxt Britaniya xarici işlər naziri ser Edvard Qreyin tutduğu mövqe idi. Katibin xarici işlər üzrə köməkçisi Hardinq 1908-ci ildə ona belə bir fikir söyləmişdi: "Əgər Fransa Almaniyaya qarşı müharibədə Belçikanın bitərəfliyini pozsaydı, İngiltərə və ya Rusiyanın Belçikanın bitərəfliyini müdafiə məqsədilə barmağını tərpədəcəyi şübhəlidir, lakin əgər Belçikanın bitərəfliyini Almaniya pozubsa, çox ehtimal ki, vəziyyət əksinə olacaqdı". Bundan sonra ser Edvard Qrey belə bir cavab vermişdi: "Bu, dəqiqdir".

Lakin hüquqi və əxlaqi mövqedən çıxış edərək, Belçikanın bitərəfliyi özözlüyündə hüquqi və əxlaqi yanlışlıqlara görə və maraqların təhlükə altına alınmasına və təcavüzkarın kimliyinə rəğmən Britaniyanın və əslində, həmçinin Amerikanın müdaxiləsini əsaslandırır. Bu, Teodor Ruzveltin 1915-ci il yanvarın 22-də ser Edvard Qreyə yazdığı məktubda tutduğu mövqedir:

"Mənə görə, vəziyyətin məğzi Belçika idi. Əgər İngiltərə və ya Fransa Belçikaya qarşı Almaniya kimi hərəkət etsəydi, mən indi Almaniyaya etiraz etdiyim kimi, onlara da etiraz edərdim. Mən sizin addımınızı müqavilələrin vicdanla yerinə yetirilməli olduğuna və beynəlxalq əxlaq adlı bir məfhumun mövcudluğuna inanan insanların etməli olduqlarının bir modeli olaraq cəsarətlə təqdir etdim. Mən bu mövqeni bir almandan çox ingilis olmayan, öz ölkəsinin maraqlarına xidmət etməyə sədaqətlə çalışan, bununla belə, həmçinin geniş mənada bəşəri mövzularda ədalət və ləyaqət naminə əlindən gələni etməyə cəhd edən və odur ki istənilən mövcud vəziyyətdə bütün digər xalqları hərəkətlərinə görə mühakimə etməyi borcu hesab edən bir amerikalı kimi müdafiə edirəm".

Siyasi sahənin muxtariyyətinin onun digər düşüncə metodları tərəfindən dağıdılmasına qarşı belə realist müdafiəsi həmin digər düşüncə metodlarının mövcudluğunun və əhəmiyyətinin nəzərə alınmaması anlamını daşımır. Bu daha çox o anlama gəlir ki, hər kəs fəaliyyətini özünə məxsus sahə və funksiyalara həsr etməlidir. Siyasi realizm insan təbiətinə dair plüralist konsepsiyaya əsaslanır. Həqiqi insan "iqtisadi insan", "siyasi insan", "əxlaqlı insan", "dindar insan" və s. qarışığıdır. "Siyasi insan"dan başqa bir şey olmayan insan əxlaqi təmkinə malik olmadığı üçün vəhşi bir heyvandır. "Əxlaqlı insan"dan başqa bir şey olmayan insan isə idraka malik olmadığı üçün bir səfehdir. "Dindar insan"dan başqa bir şey olmayan insan dünyəvi həvəslərə malik olmadığı üçün bir müqəddəsdir.

İnsan təbiətinin belə müxtəlif təzahürlərinin mövcudluğunu qəbul edən siyasi realizm həmçinin onu da qəbul edir ki, onlardan hər hansı birini anlamaq üçün onu öz şərtləri daxilində nəzərdən keçirmək lazımdır. Bu o deməkdir ki, əgər "dindar insan"ı anlamaq istəyiriksə, həmin anda insan təbiətinin digər aspektlərini nəzərə almadan diqqəti sanki yeganə bir aspekt kimi dini aspektə yönəltməliyik. Bundan əlavə, dini sahəyə digər standartların mövcudluğundan və onların insanın dini xüsusiyyətləri üzərində real təsirindən xəbərdar olaraq, ona müvafiq düşüncə standartlarını tətbiq etməliyik. İnsan təbiətinin bu təzahürü baxımından həqiqi olan digər təzahürləri baxımından da həqiqidir. Məsələn, heç bir müasir iqtisadçı öz elmi və onun digər bəşəri elmlərlə əlaqəsini başqa bir formada anlamır. Digər düşüncə standartlarından belə uzaqlaşma prosesi və öz tədqiqat subyektinə uyğun standartların yaradılması yolu ilə iqtisadiyyat insanın iqtisadi fəaliyyətinin muxtar nəzəriyyəsi kimi formalaşmışdır. Siyasi sahəyə belə bir töhfə vermək siyasi realizmin qarşısına qoyduğu məqsəddir.

Belə prinsiplərə əsaslanan siyasət nəzəriyyəsinin yekdil razılıqla qarşılanmaması xarici siyasət kimi bir sahənin deyil, varlıqların təbiətinin məsələsidir. Bizim mədəniyyətdə nəzəriyyə və siyasətə dair, rasional, obyektiv siyasət nəzəriyyəsinin ehtimal və nəticələrinə uyğunlaşa bilməyən iki istiqamət bir-birinə zidd gedir. Bu istiqamətlərdən biri XIX əsrin təcrübə və fəlsəfəsindən qaynaqlanan səbəblərə söykənərək, cəmiyyətdə gücün rolunu azaldır; bu tendensiyaya qarşıda daha təfərrüatlı yer ayıracağıq.[1]

Digər istiqamət realist nəzəriyyə və siyasi təcrübənin əksinə olaraq, insan düşüncəsiylə siyasi sahə arasında mövcud olan və ya olmalı əlaqədən qaynaqlanır. Gələcəkdə müzakirə edəcəyimiz səbəblərdən[2] insan düşüncəsi gündəlik fəaliyyətində siyasi həqiqətin üzünə dik baxmağa cürət edə bilmir. İnsan siyasi proseslərə, xüsusilə beynəlxalq siyasətə nə qədər çox cəlb olunarsa, bu, həqiqəti o qədər çox pərdələyər, təhrif edər, kiçildər və ya şişirdər. Yalnız özünü siyasətin təbiəti və özünün siyasi səhnədə oynadığı roluna dair aldatmaqla insan siyasi bir heyvan kimi özü və yoldaşları ilə razılıq içərisində yaşaya bilər.

Beləliklə, beynəlxalq siyasəti insanların görmək istədiyi kimi deyil, həqiqətdə olduğu və daxili təbiəti baxımından olmalı olduğu kimi anlamağa çalışan bir nəzəriyyənin əksər digər elm sahələrinin üzləşməli olmadığı psixoloji müqaviməti dəf etməli olması qaçılmazdır. Odur ki beynəlxalq siyasətin nəzəri idrakına həsr olunan bir kitab xüsusi izah və dəyərləndirmə tələb edir.

[1] Bax: səh. 83 və növbəti səhifələr
[2] Bax: səh. 154 və növbəti səhifələr

2. Beynəlxalq siyasət elmi

BEYNƏLXALQ SİYASƏT ANLAYIŞI

Müxtəlif yanaşmalar

Bu kitabın iki məqsədi var. Birincisi, xalqlar arasında siyasi əlaqələri təyin edən qüvvələri müəyyən edib anlamaq və bu qüvvələrin bir-biri, beynəlxalq siyasi münasibətlər və təsisatlar ilə qarşılıqlı fəaliyyət yollarını dərk etməkdir. Sosial elmlərin digər əksər sahələrinin məqsədinin bundan ibarət olduğunun sübut edilmiş olduğunu hesab etmək olar, çünki bütün elmi öhdəliklərin təbii məqsədi sosial hadisələrin və onların inkişaf formasının altında yatan qüvvələri aşkar etməkdir. Beynəlxalq münasibətlərin tədqiqinə yanaşmada isə bu məqsədi sübut edilmiş hesab etmək olmaz; odur ki o, xüsusi diqqət tələb edir. Dr. Qreyson Kirk belə qeyd edirdi:

"Son zamanlara qədər ABŞ-da beynəlxalq münasibətlərin tədqiqində, əsasən, üç yanaşmadan birinə daxil olan şəxslər aparıcı rola malik idilər. Birincisi, beynəlxalq münasibətləri, sadəcə, keçmiş tarix hesab edən tarixçilər var idi və burada lazımi məlumatların kifayət qədər olmaması tədqiqatçıya mane olurdu. İkinci qrup beynəlxalq hüquqşünaslar qrupu idi və onlar, əsasən, dövlətlərarası münasibətlərin hüquqi aspektləriylə lazımi qaydada maraqlanırdılar, lakin onlar nadir hallarda hüquqi əlaqənin daimi natamamlığı və tutarsızlığının əsas səbəblərini öyrənmək üçün ciddi cəhd göstərirdilər. Sonuncusu beynəlxalq münasibətlərlə olduğu kimi deyil, daha çox idealistlərin qurmaq istədiyi mükəmməl bir sistem olaraq maraqlanan insanlar qrupu idi. Yalnız son dövrlərdə – və gecikmiş olaraq – tədqiqatçılar dünya siyasətinin fundamental və sabit qüvvələrin və onları bir araya gətirən təsisatların öyrənilməsinə istiqamətləniblər və burada məqsəd onları tərifləmək və ya pisləmək deyil, sadəcə, dövlətlərin xarici siyasətini təyin edən əsas meyillərin daha yaxşı anlaşılmasını təmin etməyə cəhd etməkdir. Bununla da siyasət elmi, nəhayət ki, beynəlxalq düzənə də daxil olur".[1]

Professor Çarlz E.Martin Q.Kirkin qaldırdığı mövzunu aşağıdakı kimi müzakirə etmişdir:

[1] *American Journal of International Law*, Vol. 39 (1945), səh. 369-370.

"Beynəlxalq münasibətlər sahəsində müəllim və tələbələrin hər şeydən çox qarşılaşdığı problem məhz bizim iki müxtəlif və bir-birinə zidd fəaliyyət sahəsinə yönəldikdə qarşılaşdığımız dualizmdir. Mən burada münaqişələrin nizamlanması ilə məşğul olan sülh təsisatları sahəsini və güc siyasəti və müharibə sahəsini nəzərdə tuturam. Lakin bu belə olmalıdır. Bundan qaçış yoxdur... Mən düşünürəm ki, son 20 ildə bizim tədrisdə yanaşmamızın ittiham olunmasının ən böyük səbəblərindən biri, demək olar ki, çox sözçülüklə müharibə təsisatından diqqətin yayındırılması və güc siyasətinin təsiri haqqında yazılmış kitabların diqqətə alınmamasıdır. Mən düşünürəm ki, siyasi sahənin alimləri belə etməklə böyük səhv edirlər. Biz güc siyasətini və onun nəticələrini, eləcə də ondan doğan vəziyyətləri öyrənən həmin kəslər olmalıyıq, həmçinin biz müharibə təsisatını öyrənən kəslər olmalıyıq".[1]

Bu kimi amillər baxımından təyin olunan beynəlxalq siyasət akademik bir elm sahəsi kimi yaxın tarix və indiki hadisələrdən, beynəlxalq hüquqdan və siyasi islahatdan fərqlidir.

Beynəlxalq siyasət yaxın tarix və indiki hadisələrdən daha çoxunu özündə ehtiva edir. Müşahidəçi daim dəyişkən xarakterə və dəyişən perspektivlərə malik çağdaş bir mənzərə ilə əhatə olunmuşdur. O yalnız yaxın keçmişdə baş verən hadisələrin daha uzaq keçmiş ilə əlaqəsindən və onların hər ikisinin əsasında duran insan təbiətinin çoxillik xarakterindən irəli gələn əsaslara enmədən üzərində durmaq üçün möhkəm bir bünövrə və ya obyektiv qiymətləndirmə standartları tapa bilmir.

Beynəlxalq siyasət hüquqi qaydalar və təsisatlar ilə məhdudlaşdırıla bilməz. Beynəlxalq siyasət bu qaydaların çərçivəsində və bu kimi təsisatların vasitəsilə fəaliyyət göstərir. Lakin beynəlxalq siyasətin onlarla eyniliyi milli səviyyədə Amerika siyasətinin Amerika Konstitusiyası, federal qanunlar və federal hökumət qurumları ilə eyniliyindən çox deyil.

Beynəlxalq siyasətin nədən ibarət olduğunu anlamağa cəhd etməzdən əvvəl beynəlxalq siyasətdə islahat təşəbbüslərinə dair Uilyam Qraham Samnerin fikrini bölüşək:

"Siyasi müzakirələrin ən pis qüsuru faktların və insan təbiətinin olduğu kimi düzgün öyrənilməsi əvəzinə, inadla böyük prinsiplər və ehtimalların üzərində durmaqdan irəli gələn doqmatizmdir... İdeal indikindən daha yüksək və daha yaxşı vəziyyətlərdə yaradıla bilər və demək olar ki, qeyri-ixtiyari olaraq idealın artıq mövcudluğu və heç bir kökü olmayan fərziyyələrin əsasında durması qəbul edilir... Bütövlükdə siyasi mövzulara dair mücərrəd fərziyyə metodu qüsurludur. Bu metod ona görə məşhurdur ki, asandır; yeni bir dünya təsəvvür etmək bu

[1] *Proceedings of the Eighth Conference of Teachers of International Law and Related Subjects* (Washington, DC: Carnegie endowment of International Peace, 1946), səh. 66.

dünyanı tanımağı öyrənməkdən daha asandır. Bir neçə qeyri-dəqiq ehtimala əsaslanan fərziyyə irəli sürmək dövlətlərin və təsisatların tarixini öyrənməkdən daha asandır; populyar bir doqmatizmlə getmək onun həqiqi olub-olmadığını analiz etməkdən daha asandır. Bütün bunlar çaşqınlığa, ifadə və bayağılıqların qəbuluna, xalqların rifahına töhfə vermək əvəzinə, daha çox münaqişəyə aparıb çıxarır".[1]

Anlayışın hüdudları

Beynəlxalq siyasətin təbiəti və metodlarına dair nəzəri araşdırmanın qarşılaşdığı ən mühüm çətinlik icmalçının istifadə etdiyi materialın anlaşılmazlığıdır. Onun anlamağa çalışmalı olduğu hadisələr bir tərəfdən unikal hadisələrdir: bu formada onlar yalnız bir dəfə baş verib, daha əvvəl və sonra buna rast gəlinməyib. Digər tərəfdən, onlar sosial qüvvələrin təzahürləri olduğundan eynidir. Sosial qüvvələr fəaliyyətdə olan insan təbiətinin məhsuludur. Odur ki uyğun şərtlər altında onlar oxşar formada təzahür edəcək. Bəs oxşarlıq və unikallıq arasında çəkilməli olan xəttin yeri haradır?

Beynəlxalq siyasət nəzəriyyəsinin dərk etməli olduğu hadisələrin bu anlaşılmazlığı – bu, sözarası qeyd oluna bilər – bundan savayı, insan dərketməsi üçün ümumi çətinliyin xüsusi nümunəsidir. Monteyn qeyd edir ki, "heç bir hadisə və heç bir vəziyyət tam olaraq bir-birinə bənzəmir, həmçinin onların biri digərindən tam olaraq fərqlənmir: *təbiətin yaratdığı fərasətli bir qarışıqlıqdır. Əgər bizim üzlərimizdə oxşarlıq olmasaydı, insanı heyvandan ayıra bilməzdik; əgər fərqlilik olmasaydı, bir nəfəri digərindən ayıra bilməzdik.* Bütün varlıqları bir araya gətirən bəzi oxşarlıqlardır; hər bir nümunə təhrif olunmuş və təcrübədən qaynaqlanan müqayisə hər zaman qüsurlu və natamamdır. Lakin, bununla belə, müqayisələri bir yerindən əlaqələndirirlər. Qanunlar da bu şəkildə faydalı olur və bəzi təhrifli, məcburi və qərəzli təfsir yolu ilə hər bir işimizə uyğunlaşır".[2] Beynəlxalq siyasət nəzəriyyəsi siyasi proseslərin belə "təhrifli, məcburi və qərəzli təfsiri"nə qarşı hər zaman ehtiyatlı olmalıdır.

Biz beynəlxalq siyasətin prinsiplərini belə hadisələr arasında apardığımız müqayisələrdən öyrənirik. Müəyyən bir siyasi vəziyyət müəyyən xarici siyasi xəttin formalaşması və icrasına yol açır. Fərqli bir siyasi vəziyyətə düşdükdə isə biz öz-özümüzdən soruşuruq: bu vəziyyət əvvəlki vəziyyətdən nə ilə fərqlənir və onlar arasında oxşarlıq nədir? Oxşarlıqlar əvvəlki siyasi xəttin təkrarlanmasına əsas verirmi? Yaxud oxşarlıq və fərqlərin qarışığı həmin siyasətin mahiyyətini qoruyub saxlayırmı, yoxsa müəyyən aspektlərinə görə o dəyişdirilməlidirmi? Yaxud, bəlkə, fərqlər bütövlükdə analogiyanın aparılmasına və əvvəlki siyasi xəttin tətbiqinə

[1] "Democracy and Responsible Government", *The Challenge of Facts and Other Essays* (Newhaven, CT: Yale University Press, 1914), səh. 245-246.

[2] *The Essays of Michel de Montaigne*, edited and translated by Jacob Zeitlin (New York: Alfred A.Knopf, 1936), Vol. III, səh. 270; Montaigne'sitalics.

imkan vermir? Əgər beynəlxalq siyasəti başa düşmək, günümüzün hadisələrinin mahiyyətini qavramaq və gələcəyi əvvəlcədən görüb ona nüfuz etmək istəyiriksə, bu suallarda nəzərdə tutulan ikili intellektual tapşırığı yerinə yetirməyi bacarmalıyıq. İki siyasi vəziyyət arasındakı oxşarlıq və fərqləri ayırd etməyi bacarmaq lazımdır. Bundan əlavə, bu oxşarlıq və fərqlərin alternativ xarici siyasi xəttə köçürülməsini dəyərləndirməyi bacarmaq lazımdır. İxtiyari seçdiyimiz üç hadisə bu məsələni və onun çətinliklərini təsvir edəcək.

1796-cı il sentyabrın 17-də Corc Vaşinqton xalq qarşısında etdiyi vida çıxışında Amerika xarici siyasətinin Avropa işlərinə qarışmamaq baxımından prinsiplərinin konturlarını cızdı. 1823-cü il dekabrın 2-də prezident Monro Konqresə göndərdiyi müraciətdə Amerika xarici siyasətinin eyni şərtlərə cavab verən prinsiplərini təqdim etdi. 1917-ci ildə ABŞ Almaniyaya qarşı Fransa və Böyük Britaniyaya qoşulmaqla onların hər ikisinin müstəqilliyini təhlükə altına aldı. 1941-ci ildə ABŞ eyni fəaliyyət kursunu davam etdirdi. 1947-ci il martın 12-də prezident Trumen Konqresə ünvanladığı müraciətdə Amerika xarici siyasətinin prinsiplərini kommunizmin dünyaya yayılması şərtlərinə uyğun olaraq, yenidən işləyib-hazırladı.

1512-ci ildə İngiltərə kralı VIII Henri Fransaya qarşı Habsburqlar sülaləsi ilə ittifaq qurdu. 1515-ci ildə o, Fransa ilə Habsburqlar sülaləsinə qarşı ittifaq qurdu. 1522 və 1542-ci illərdə o, Fransaya qarşı Habsburqlar sülaləsi ilə birləşdi. 1793-cü ildə Böyük Britaniya, Prussiya və Habsburqlar sülaləsi Napoleona qarşı birləşdi. Böyük Britaniya 1914-cü ildə Avstriya və Almaniyaya qarşı Fransa və Rusiya ilə, 1939-cu ildə isə Almaniyaya qarşı Fransa və Polşa ilə birləşdi.

Napoleon, II Vilhelm və Hitler Avropa qitəsini işğal etməyə cəhd etdilər və uğursuzluğa düçar oldular.

Bu üç hadisə nümunəsində elə oxşarlıqlar tapmaq olarmı ki, onlar əsasında xarici siyasətin bir prinsipini müəyyən etmək olsun? Yaxud bu hadisələrin hər biri digərindən ayrıca siyasi yanaşma tələb edəcək qədər fərqlidirmi? Bu qərarı verməyin çətinliyi xarici siyasətdə düzgün dəyərləndirmə, gələcəyə dair müdrik planlama, düzgün vaxtda, düzgün formada, düzgün işlər görməklə ölçülür.

Vaşinqtonun vida nitqində müəyyən etdiyi xarici siyasət Amerika xarici siyasətinin ümumi prinsipi hesab oluna bilərmi, yoxsa bu, müvəqqəti şəraitdən qaynaqlanırdı və odur ki işləkliyi həmin şəraitlə məhdudlaşırdı? Vaşinqtonun və Monronun müraciətlərində yer alan xarici siyasət xətləri Trumen doktrinası ilə uyğunluq təşkil edirmi? Məsələni digər formada şərh etmək üçün Trumen doktrinası Vaşinqton və Monronun xarici siyasət konsepsiyalarında vurğuladıqları ümumi prinsipin sadə modifikasiyasıdır, yoxsa Trumen doktrinası Amerika xarici siyasət ənənələrindən radikal uzaqlaşmanın göstəricisidir? Əgər belədirsə, şərtlərin dəyişdiyini nəzərə alaraq ona haqq qazandırmaq olarmı? Ümumən danışsaq, ABŞ-ın 1796, 1823, 1917, 1941

və 1947-ci illərdə tutduğu beynəlxalq mövqedəki fərqlər həmin müxtəlif siyasi vəziyyətlərə münasibətdə təyin etdiyi və həyata keçirdiyi müxtəlif xarici siyasi xətlərə haqq qazandırırmı? Avropanı 1917, 1941 və 1947-ci illərdə ABŞ ilə üz-üzə qoyan şəraitlərin oxşar və fərqli cəhətləri hansılardır və ABŞ tərəfindən onlar nə qədər oxşar və fərqli xarici siyasət yanaşması tələb edir?

Britaniya xarici siyasətində həmin dəyişikliklərin mənası nədir? Onlar şahzadə və dövlət adamlarının səbatsızlıq və xainliyindən qaynaqlanırdımı? Yoxsa onlar hər hansı xüsusi qruplaşmanın qarşısını alan daimi qüvvələrin qeydinə qalan – bu, Avropa qitəsiylə münasibətləri təyin edirdi – bir xalqın ümumi müdrikliyindən ilhamlanır?

Qitənin istila olunmasına edilən üç cəhdin nəticəsində yaşanan çoxsaylı hadisələri müşayiət edən fəlakətlər müqayisəedilməz səbəblərin nəticəsidirmi? Yoxsa nəticələrdəki oxşarlıq ümumi siyasi vəziyyətdəki oxşarlıqlaramı – həmin oxşarlıqlara ki, yenidən cəhd etmək istəyə bilənlərə ətraflı götür-qoy etmə dərsi verir – işarə edir? Daha da xüsusiləşdirsək, Sovet İttifaqının İkinci Dünya müharibəsindən sonra yürütdüyü siyasət Napoleon, II Vilhelm və Hitlerin siyasətiylə oxşar idimi? Əgər belə idisə, ABŞ-ın 1917 və 1941-ci illərdə yürütdüyü siyasətləri də oxşar adlandıra bilərikmi?

Bəzən Britaniya xarici siyasətindəki dəyişikliklərə dair cavabdan aydın görünür ki, Britaniya siyasətinin kökündə səbatsızlıq deyil, müdriklik dayanırdı. Bununla belə, çox vaxt, xüsusilə indidən və gələcəkdən söz açdıqda cavab tərəddüdlü və qeyd-şərtlərin subyekti olmaq məcburiyyətindədir. Cavabı doğurmalı olan faktlar mahiyyətcə anlaşılmazdır və davamlı dəyişikliyin subyektidir. Fərqli düşüncəyə malik insanlara tarix yanlış analogiyalardan başqa heç nə öyrətməyib. Belə insanlar ölkələrinin xarici siyasətinin yürüdülməsi üçün məsuliyyət daşıyan zaman onlar yalnız fəlakətə nail olublar. II Vilhelm və Hitler Napoleonun taleyindən heç nə öyrənmədilər, çünki onlar düşünürdülər ki, bu onlara heç nə öyrətməyəcək. Vaşinqtonun tövsiyələrindən kor-koranə əməl edilməli doqma yaradanlar həmin tövsiyələri ümumiyyətlə rədd edənlərdən az yanılmayıblar.

1938-ci il Münhen razılaşması başqa bir müzakirə mövzusudur. Sonradan fikirləşəndə, əlbəttə, yaşanan təcrübədən hamımıza məlumdur ki, o bir uğursuzluq idi və həmin təcrübəyə əsaslanaraq onun iflasa məhkum olduğunu nümayiş etdirən nəzəri kateqoriyalar işləyib-hazırlamışıq. Lakin mən Münhen razılaşması əldə olunan zaman xarici siyasət nəzəriyyəçilərinin və icraçılarının və həmçinin küçədəki insanların onu necə razılıqla təqdir etdiyini yaxşı xatırlayıram. Münhen razılaşması o zaman ümumən böyük bir dövlət idarəçiliyi aktı, sülh naminə istilaçılıq arzusunda olanlara güzəştlərin edilməsi kimi qiymətləndirilirdi. E.H.Kar bunu o zaman belə qiymətləndirirdi, A.J.P.Teylor isə indi də belə qiymətləndirir. Mühakimədə yol verilmiş, o zaman az insanın dərk etdiyi və ya dərk edə biləcəyi nöqsan yenə siyasi

proqnoza xas olan ehtimallara etinasızlığın nəticəsi idi. Keçmişdə özünü sadə bir həqiqət kimi göstərən amil ya perspektivdə tamamilə naməlum idi, ya da qeyri-müəyyən intuisiyadan başqa heç nə ilə təyin edilə bilmirdi.

Sonuncu olaraq çağdaş günümüzün nüvə müharibəsi probleminə nəzər salaq. Zaman-zaman Amerika siyasətçiləri nüvə müharibəsindəki "üstünlük"dən açıq şəkildə danışırlar. Bu zaman onlar Rusiya hərbi liderlərinin fikirlərini əks etdirirlər, lakin dəfələrlə termonüvə müharibəsinin hər iki supergüc üçün fəlakətli olacağı haqqında xəbərdar edən Brejnev kimi sovet siyasi liderlərinin fikirlərini nəzərə almırlar. Xüsusilə 1980-ci illərdə, "soyuq müharibə"nin gərginliyi yenidən yüksəltdiyi vaxtlarda, hər iki ölkədə nüvə müharibəsində qələbənin ağlasığmazlığına dair fikirlər əks-səda verdiyi zamanda geniş həcmdə artırılmış müdafiə xərclərinin köməyi ilə təchizatlı, gücləndirilmiş strateji silahlı qüvvələr formalaşdırıldı. Nüvə müharibəsinin tarixdən bizə tanış olan zorakılıq nümunələrindən miqyasına görə böyük, lakin onlardan fərqlənməyən, sadəcə olaraq, zorakılığın digər bir forması olduğunu qəbul edən nüvə müharibəsi nəzəriyyəsini yaratmaq mümkündür. Bu mühakimədən belə bir nəticəyə gəlmək olar ki, nüvə müharibəsinin ənənəvi müharibədən daha dəhşətli olacağı güman edilir, lakin onun dözülməz olması mütləq deyil, belə bir müharibənin baş verəcəyi təqdirdə, ən azı, bəzilərimizin ondan sağ çıxa bilməyimiz üçün tədbirlər görürük. Başqa sözlə, əgər nüvə müharibəsinin təbiəti və nəticələrinə dair nəzəri mühakimələrə başlasaq, məntiqi olaraq belə bir nəticəyə gələ bilərik ki, ABŞ nüvə müharibəsindən qaçınmağa cəhd etməklə kifayətlənməməli, həmçinin belə bir müharibədən sağ çıxa bilmək üçün hazırlıq görməlidir. Bu zaman tamamilə qanunauyğun bir sual ortaya çıxır ki, 100 milyon amerikalının həlak olacağı və ABŞ iqtisadi gücünün onda doqquzunun məhv olacağı bir şəraitdə qalan ondabir iqtisadi imkanla biz sağ qalan amerikalıların ABŞ-ı yenidən qurmasına necə şərait yarada bilərik.

Bu nüvə müharibəsi nəzəriyyəsinin ilk ağıla gələn elementi aydın hiss olunan qeyri-müəyyənlikdir və bu qeyri-müəyyənlik daxili və beynəlxalq siyasətin bütün səviyyələrdə nəzəri analizi və proqnozlaşdırılması üçün xarakterikdir. Hətta ölüm sayı, maddi ziyan və maddi bərpa göstəricilərinə dair təxminləri qəbul etsək belə, bu nəzəriyyə nüvə müharibəsinin özü ilə gətirə biləcəyi insani və maddi dağıntılara insanların reaksiyasına münasibətdə qeyri-müəyyənlik göstərməli olacaq. Şübhə yoxdur ki, mürəkkəb insan cəmiyyətinin primitiv qarışqa cəmiyyəti kimi fəaliyyət göstərdiyini təsəvvür etmək olsaydı, onun bərpaetmə qabiliyyətini də qəbul etmək olardı. Əgər bir qarışqa yuvasında yaşayan qarışqaların yarısı və qarışqa yuvasını təşkil edən materialların onda doqquzu məhv olsaydı, qalan qarışqaların növbəti fəlakəti onları haqlayanadək hər şeyi yenidən tikib qurmağa başlayacaqlarını və saylarını bərpa edəcəklərini tərəddüd etmədən söyləyə bilərik.

Lakin insan cəmiyyəti belə mexaniki bərpaetmə qabiliyyətinə sahib deyil.

Cəmiyyətlər də insanlar kimi dağıdıcı niyyət daşıyır və belə misilsiz kütləvi dağıdıcılığın qarşısında insan hövsələsinin humanist təşəbbüs göstərə bilməyəcəyi həddi var. Bu həddə çatanda sivilizasiyasının özü iflas edəcək. İnsan reaksiyasının hüdudlarında bu həddin dəqiq yeri nəzəri qavrama sığmır. Bizə qalan yalnız təcrübə ilə sübut oluna bilən və ya bilməyən intuisiyalarımızdır.

Beynəlxalq siyasəti öyrənən tələbənin mənimsəməli və heç vaxt unutmamalı olduğu ilk dərs budur ki, beynəlxalq proseslərin mürəkkəbliyi sadə həll yolları və etibarlı proqnozları qeyri-mümkün edir. Burada alim və şarlatanın yolları ayrılır. Xalqlar arasında siyasəti təyin edən qüvvələr və onların siyasi əlaqələrini həyata keçirdikləri üsullar haqqında biliklər beynəlxalq siyasətə dair faktların anlaşılmazlığını üzə çıxarır. Hər bir siyasi situasiyada təzadlı tendensiyalar özünü göstərir. Bu tendensiyalardan biri əksərən müəyyən şərtlər altında digərini üstələyir. Lakin hansı tendensiyanın üstün olacağını söyləmək kimsənin gümanına qalır. Bu halda tədqiqatçının edə biləciyi, ən yaxşı halda, potensial imkanlar kimi, "müəyyən" beynəlxalq vəziyyətə xas olan müxtəlif tendensiyaları da təyin etməkdir. O bir tendensiyanın digərini üstələməsinə kömək edən müxtəlif şərtləri göstərə və sonda müxtəlif şərtlərin və tendensiyaların həqiqətdə üstünlük ehtimallarını qiymətləndirə bilər.

Beləliklə, dünya prosesləri gələcəyi keçmişə dair biliklərin və indiki zamanın verdiyi işarələrin köməyi ilə təyin etməyə çalışan istənilən şəxsin qarşısına sürprizlər çıxarır. 1776-cı ildə Vaşinqton bəyan etdi ki, "ölkəmizin taleyi, insan ağlına gələn bütün ehtimallara görə, bir neçə həftənin gərginliyindən asılıdır". Lakin müstəqillik uğrunda müharibənin sona çatması üçün 7 il lazım gəldi. 1792-ci ilin fevralında Britaniya baş naziri Pitt hərbi xərclərin azaldılmasına bəraət qazandırdı (xüsusilə Britaniya Dəniz Qüvvələrinin heyətinin sayı əsaslı şəkildə azaldılmışdı) və növbəti fikirləriylə bu azalmanın davam edəcəyinə ümidini bəyan etdi: "Şübhə yoxdur ki, bu ölkənin tarixində heç vaxt elə bir dövr olmayıb ki, biz Avropa tərəfdən sülhə 15 il ərzində bugünkündən daha inamla bel bağlayaq". İki ay sonra isə Avropa qitəsi müharibə burulğanına düşdü. Bir ildən də az müddət sonra isə Britaniya da həmin müharibəyə cəlb olundu. Beləliklə, demək olar ki, əsrin təxminən dörddəbiri ərzində aramsız davam edən hərb dövrü başladı. Lord Qrenvil 1870-ci ildə Britaniya xarici işlər katibi olanda uzun müddət vəzifədə olmuş katib köməkçisi ona məlumat verdi ki, "onun uzun iş təcrübəsi dövründə heç vaxt xarici siyasətdə belə uzunsürən sakitlik olmayıb və onun [lord Qrenvilin] məşğul olmalı olduğu hər hansı mühüm məsələni xatırlamır". Həmin gün İspaniyada Hohenzolern-Ziqmaringen qrafı Leopold taxta çıxdı və bu hadisə üç həftə sonra Fransa-Prussiya müharibəsinin başlamasına rəvac verdi. Rusiyada 1917-ci ilin martında inqilabdan 6 həftə əvvəl Lenin Sürixdə bir qrup sosialistə belə demişdi: "Biz, yaşlı insanlar, gözlənilən inqilabın həlledici döyüşlərini, yəqin ki, görə bilməyəcəyik". Bir ildən də az müddət sonra Rusiya inqilabının həlledici döyüşləri onun rəhbərliyi altında keçdi.

Görkəmli dövlət adamının gələcəyə dair baxışları özünü belə yanlış formada doğruldursa, kiçik beyinlərin proqnozlarından nə gözləyə bilərik? Birinci Dünya müharibəsindən əvvəl, ümumi fikir böyük müharibələrin qeyri-mümkünlüyü, yaxud ən azından qısa müddətliliyi yönündə olduğu bir zamanda beynəlxalq münasibətlərə dair yazılmış neçə kitabda baş verəcəklərə heç olmasa üstüörtülü bir işarə vardı? İki dünya müharibəsi arasındakı dövrdə əsrin doqquzuncu onilliyində beynəlxalq münasibətlərin vəziyyətinə dair əvvəlcədən fikir söyləməyə kömək edə biləcək hər hansı kitab yazılmışdımı? İkinci Dünya müharibəsinin başlanğıcında kim təxmin edə bilərdi ki, müharibənin sonunda dünyanın siyasi görüntüsü necə olacaq? 1945-ci ildə kim bilərdi ki, dünya 1955-ci ildə necə olacaq, yaxud 1960-cı ildə kim bilərdi ki, dünya 1970-ci və ya 1980-ci ildə necə olacaq? Bu halda biz bu gün sabahın və ya o birigünün nə gətirəcəyini və ya 2000-ci ildə dünyanın necə olacağını söyləyənlərə necə inana bilərik?[1]

1979-cu ildə kəşfiyyat idarələri, xüsusilə Mərkəzi Kəşfiyyat İdarəsi Amerika siyasətçilərini İran şahının devrilməsi ilə kulminasiyaya çatmış çevrilişlər haqqında xəbərdar etmədiklərinə görə tənqid olunurdu. Prezident Karter özü kəşfiyyat sahəsində ən ali səlahiyyətliləri ictimaiyyət qarşısında fəaliyyətlərindəki boşluqlara görə məzəmmət etməklə görünməmiş bir hərəkət etdi.

Ziyalı və cavabdeh insanlar qrupuna görə bu fəaliyyət uğursuzluğu nə ilə izah olunur? Cavab bu insanların istifadə etməli olduqları empirik materialların təbiətində yatır. İcmalçı məcmusu gələcəyi formalaşdıran amillərin çoxluğu ilə üzləşir. Gələcək haqqında proqnozlar verə bilmək üçün icmalçı bütün bu amillər, onların dinamikası, qarşılıqlı fəaliyyəti və reaksiyası və s. haqqında məlumatlı olmalıdır. Lakin onun, əslində, məlumatlı olduğu və ola biləcəyi yalnız ümumi məcmunun kiçik bir fraqmentidir. O təxmin etməlidir və yalnız gələcək, çoxsaylı mümkün təxminlər arasında kimin düzgün seçim etdiyini göstərəcək.

Beləliklə, İrana dair kəşfiyyat dairələri səhv təxmin etmişdi. Onları əsassız olaraq günahlandırmaq əvəzinə, öz-özümüzə iki sual verməliyik: ictimai narazılığın alovlanmasını məqamında dəqiq göstərmək olarmı? Əgər cavab müsbətdirsə, onda ABŞ bununla əlaqədar nə edə bilərdi? İkinci suala cavab ən yaxşı halda belə çox qısadır. Yəqin ki, kəşfiyyat idarələrinin İrana birinci növbədə edə biləcəklərindən daha az diqqət ayırmasının səbəbi budur.

Qeyd etsək, yerinə düşər ki, mərkəzi anlayışı olan var-dövlətin təyinatına görə kəmiyyətlə əlaqədar olması səbəbindən sosial elmlərin ən dəqiqi hesab olunan iqtisadiyyat elmi də eynilə etibarlı proqnozlar verməkdə acizdir. 1953-1963-cü

[1] Beynəlxalq münasibətlərə dair öncədən söylənən fikirlərin yanlışlığı növbəti müharibənin təbiəti haqqında proqnoz verməyə çalışmış ekspertlərin əcaib xətalarında özünü aydın şəkildə göstərir. Bu proqnozların tarixi Makiavellidən başlamış general C.F.Fullerə qədər həqiqi tarixi proseslərə dair ehtimallarla heç bir əlaqəsi olmayan, öz-özlüyündə ağlabatan məntiqi deduksiyaların toplusudur. Məsələn, general Fuller 1923-cü ildə hesab edirdi ki, İkinci Dünya müharibəsinin həlledici silahı qaz olacaq! Bax: *The Reformation of War* (NewYork, E.P.Dutton, 1923)

illərdə Amerika ÜDM-də illik dəyişikliklərə dair verilmiş çoxsaylı proqnozların analizi orta hesabla 40 faiz yanlışlığa yol verildiyini göstərir.[1] 1966-cı ilin oktyabrında "Prundenşl" həyat sığortası şirkəti 1967-ci ildə istehlakçı xərclərinin 31 mlrd. dollar artacağı və avadanlıq investisiyalarının 7,5 mlrd. dollar təşkil edəcəyi proqnozunu vermişdi. 1967-ci ilin oktyabrında istehlakçı xərclərinə dair rəqəmlər 27 mlrd. dollara qədər azaldıldı və bu, demək olar ki, əgər dəyişilmiş rəqəmlərin özünü doğruldacağı halda, 15% miqdarında yanılma deməkdir; şirkət avadanlıq investisiyalarına dair rəqəmləri də 7 mlrd. dollara qədər azaltdı. Həmin ildə İqtisadi Məsləhətçilər Şurası ÜDM-in artımına dair proqnozlarda təxminən 12% şişirtməyə yol vermişdi.

BEYNƏLXALQ SÜLH PROBLEMİNİN QAVRANILMASI

Bu məsələ bizi kitabın ikinci məqsədinə yönəldir. XX əsrin son onilliklərində siyasətə, həmçinin, əlbəttə ki, beynəlxalq siyasətə dair heç bir araşdırma biliyi fəaliyyətdən ayıra bilmək və biliyi öz xeyri naminə istifadə etmək qavramında maraqlı olmaya bilməz. Beynəlxalq siyasət artıq ABŞ tarixinin uzun bir dövründə olduğu kimi böyük xərclər tələb edən və ya mənfəətli hadisələrin deyil, az qala xalqın mövcudluğu və müqəddəratı məsələsini gündəmə gətirən hadisələrin silsiləsidir. Vətəndaş müharibəsiylə bağlı daxili proseslər ABŞ-ın mövcudluğu və müqəddəratı məsələsinə daha böyük təsir göstərib, nəinki Meksika müharibəsi, İspaniya-Amerika müharibəsi və Monro doktrinasına[2] Ruzveltin əlavəsi kimi hadisələrə aparan və onların doğurduğu beynəlxalq proseslər.

Günümüz üçün səciyyəvi olan iki amil daxili və xarici siyasi proseslərin ABŞ üçün nisbi əhəmiyyətini tamamilə dəyişmişdir. Hər şeydən əvvəl, ABŞ bu kitabın yazıldığı dövrdə yer üzündə iki ən güclü dövlətdən biridir. Lakin o, real və potensial rəqiblərilə müqayisədə yürütdüyü siyasətin dövlətlər arasındakı mövqeyinə təsirinə əhəmiyyət verməməyə cürət edə biləcək qədər güclü deyil. Vətəndaş müharibəsinin sonundan İkinci Dünya müharibəsinin başlanğıcına qədər ABŞ-ın Latın Amerikasındakı qonşuları, Çin və ya İspaniyaya münasibətdə hansı siyasi xətti yürütdüyünün əhəmiyyəti kiçik idi. Onun öz gücünə inamı qüvvələr tarazlığının fəaliyyəti ilə birləşib, ABŞ-ı uğurun doğurduğu hüdudsuz ambisiyalar və uğursuzluğun gətirdiyi qorxu və iflasdan qorudu. ABŞ həddən çox

[1] Viktor Zarnowitz, *An Appraisal of Short-Term Economic Forcasts* (New York: National Bureau of Economic Research, 1976).

[2] Həmin əlavə Teodr Ruzveltin 1904-cü il dekabrın 6-da Konqresə etdiyi müraciətdə yer alır. Həmin müraciətdə o, ABŞ-ın Latın Amerikası ölkələrinin daxili işlərinə müdaxilə hüququnu bəyan edirdi. Mətn üçün bax: *The Record of American Diplomacy: Documents and Readings in the History of American Foreign Relations*/ed. Ruhl J. Bartlett, 4th ed. (New York: Alfred A. Knopf, 1964), səh. 539

şirniklənmədən, yaxud qorxmadan uğura və uğursuzluğa sakit yanaşmağı bacardı. İndi o, qitədəki istehkamının divarları arxasından çıxıb və dost, yaxud düşmən kimi siyasi dünyanın bütün proseslərinə qoşulub.

Çox güclü olub, lakin heç nəyə qadir olmamaq təhlükəsi ikinci bir amilin təsiriylə daha da kəskinləşir: dünya siyasi strukturunda qeydə alınmış üç inqilab. Birincisi, mərkəzi Avropada olan çoxdövlətli sistem mərkəzləri Avropanın hüdudlarından kənarda yerləşən, bütün dünyanı əhatə edən ikiqütblü sistem ilə əvəz olundu. Bundan əlavə, siyasi dünyanın tarix boyu Qərb sivilizasiyasının timsalında mövcud olmuş mənəvi birliyi insanların etibarını qazanmaq uğrunda dünyanın hər yerində bir-biriylə mübarizə aparan iki qovuşmaz düşüncə və fəaliyyət sisteminə bölündü. Sonda müasir texnologiyalar universal məhvə səbəb olan total müharibəyə şərait yaratdı. Çağdaş beynəlxalq siyasətdə bu üç yeni elementin üstünlüyü yalnız dünyada sülhün mühafizəsini kəskin olaraq çətinləşdirmədi, həmçinin müharibəyə xas təhlükələri elə bir həddə qədər artırdı ki, orada artıq total nüvə müharibəsi özünüməhv kimi absurd bir forma alırdı. Dünyanın belə vəziyyətində ABŞ-ın tutduğu üstün güc mövqeyi və bundan irəli gələn məsuliyyət səbəbindən beynəlxalq siyasəti qəlibə salan qüvvələrin və onun kursunu təyin edən amillərin idrakı ABŞ üçün maraqlı elmi məşğuliyyətdən daha böyük bir anlam daşıyır. Bu, zəruri əhəmiyyət kəsb etməyə başlamışdır.

Beynəlxalq siyasətə dair bugünkü ABŞ-ın imtiyazlı mövqeyi baxımından mülahizələr aparmaq dövrümüzdə Amerika xarici siyasətinin qarşılaşdığı zəruri problemlərə dair mülahizələr aparmağa bərabərdir. Güclər arasında güc olan ABŞ-ın milli maraqlarının təbliğatı bütün dövrlərdə Amerika xarici siyasətinin əsas qayəsi olarkən iki dünya müharibəsinin şahidi olmuş və nüvə silahları ilə total müharibə aparmağın yollarını öyrənmiş bir zamanədə sülhün qorunması bütün xalqların qayğısına çevrilib.

Bu səbəbdəndir ki, bu kitab güc və sülh olaraq iki konsepsiyanın ətrafında planlaşdırılır. Bu iki konsepsiya XX əsrin sonuncu onilliklərində, görünməmiş dərəcədə toplanmış dağıdıcı gücün sülh probleminə heç vaxt olmamış aktuallıq qazandırdığı bir vaxtda dünya siyasətinə dair müzakirənin mərkəzində durur. Hərəkətverici qüvvəsi suveren xalqların güc arzusu olan bir dünyada sülh yalnız iki vasitə ilə qorunub saxlana bilər. Onlardan biri beynəlxalq səhnədə özünü güc uğrunda mübarizə kimi göstərən sosial qüvvələrin özünütənzimləmə mexanizmidir ki, bu da qüvvələr tarazlığıdır. Digəri isə beynəlxalq hüquq, beynəlxalq əxlaq və dünya ictimai fikri şəklində özünü göstərən normativ məhdudiyyətlərdən ibarətdir. Bu vasitələrdən heç biri bu gün fəaliyyət göstərdiyi formada, güc uğrunda mübarizənin qeyri-müəyyən tərzdə dinc fəaliyyət sərhədləri daxilində cərəyan etməsini təmin edə bilmədiyindən üç əlavə sual vermək və onları cavablandırmaq lazım gəlir: beynəlxalq sülhün qorunması üçün bu gün əsas təkliflərin əhəmiyyəti nədən ibarətdir? Daha dəqiq desək, suveren xalqların beynəlxalq cəmiyyətinin fövqəldövlət təşkilatına, məsələn, dünya dövlətinə transformasiyasının əhəmiyyəti nədir? Nəhayət, keçmişdən öyrənilən dərsləri unutmayan və onları günümüzün problemlərinə uyğunlaşdırmağa çalışan fəaliyyət proqramı necə olmalıdır?

II FƏSİL

BEYNƏLXALQ SİYASƏT GÜC UĞRUNDA MÜBARİZƏ KİMİ

3. Siyasi güc

SİYASİ GÜC NƏDİR?[1]

Dövlətin məqsədlərinə çatmaq vasitəsi kimi

Beynəlxalq siyasət siyasətin bütün sahələri kimi güc uğrunda mübarizədir. Beynəlxalq siyasətin son məqsədinin nə olmasından asılı olmayaraq, güc hər zaman ən yaxın məqsəddir. Dövlət adamları və xalqlar azadlıq, təhlükəsizlik, inkişaf və ya gücün özünü məqsəd kimi qarşıya qoya bilərlər. Onlar məqsədlərini dini, fəlsəfi, iqtisadi və ya sosial ideyalar baxımından təyin edə bilərlər. Onlar ümid edə bilərlər ki, bu məsələ öz daxili gücü, ilahi müdaxilə və ya bəşəri münasibətlərin təbii inkişafı hesabına gerçəkləşəcək.

Həmçinin onlar bunun reallaşdırılmasına digər dövlətlər və beynəlxalq təşkilatlarla texniki əməkdaşlıq kimi, qeyri-siyasi vasitələrlə də dəstək verməyə çalışa bilərlər. Lakin onlar öz məqsədlərini istənilən vaxt beynəlxalq siyasi vasitələrlə reallaşdırmağa can atdıqlarında bunu gücə nail olmağa cəhd göstərərək edirlər. Xaçlılar müqəddəs torpaqları kafirlərin ağalığından azad etmək istəyirdilər; Vudro Vilson dünyanı demokratiya üçün təhlükəsiz etmək istəyirdi; nasistlər Şərqi Avropanı Almaniya müstəmləkəçiliyi üçün açmaq, Avropada ağalıq etmək və dünyanı zəbt etmək istəyirdilər. Onların hamısı bu məqsədlərinə nail olmaq üçün gücü seçdiklərindən beynəlxalq siyasətin aktyoru idilər.[2]

[1] Siyasi güc konsepsiyası siyasət elminin ən mürəkkəb və ziddiyyətli problemlərindən birini təşkil edir. Siyasət elmində istifadə olunan istənilən konsepsiyanın əhəmiyyəti onun siyasi fəaliyyətin hər hansı sahəsinə şərti olaraq aid olduğu qəbul edilən fenomeni maksimum izah edə bilməsiylə təyin olunur. Odur ki siyasi güc konsepsiyasının beynəlxalq siyasəti dərk etmək üçün tələb olunan əhatə dairəsi bələdiyyə siyasəti çevrəsinə aid olan əhatə dairəsindən geniş olmalıdır. Sonuncuda istifadə olunan siyasi vasitələrin çevrəsi beynəlxalq siyasətdə istifadə olunan vasitələrin çevrəsindən daha dardır.

[2] Beynəlxalq siyasətdə gücə dair bir sıra mühüm mülahizələr üçün bax: Lionel Robbins, *The Economic Causes of War* (London: Jonathan Cape, 1939), səh. 63 və növbəti səhifələr.

Beynəlxalq siyasətin bu konsepsiyasından iki nəticə hasil olunur. Birincisi, bir dövlətin digər dövlətə münasibətdə atdığı hər addım siyasi xarakterli deyil. Bir çox hallar var ki, adi qaydada gücə dair heç bir mülahizələr nəzərə alınmadan cərəyan edir və onlar subyekt olan xalqın gücünə, adətən, heç bir təsir göstərmir. Bir çox hüquqi, iqtisadi, humanitar və mədəni tədbirlər bu növdəndir. Belə ki, bir dövlət digər bir dövlətlə ekstradisiya müqaviləsi imzalayan, digər dövlətlər ilə məhsul və xidmətlərin mübadiləsini həyata keçirən, təbii fəlakətlər zamanı digər dövlətə yardım göstərən və mədəni irsinin dünyaya yayılmasını təbliğ edən zaman normal olaraq beynəlxalq siyasi münasibətlərə daxil olmur. Başqa sözlə, bir dövlətin beynəlxalq siyasətə cəlb olunması onun beynəlxalq arenada iştirakı zamanı göstərdiyi çoxşaxəli fəaliyyətlərdən yalnız biridir.

İkincisi, xalqların hamısı bütün dövrlərdə beynəlxalq siyasətə eyni dərəcədə cəlb olunmur. Onların iştirak dərəcəsi indiki dövrdə ABŞ və Sovet İttifaqının nail olduğu maksimum səviyyədən İsveçrə, Lüksemburq və ya Venesuela kimi ölkələrin minimum iştirak səviyyəsi və Lixtenşteyn və Monako kimi dövlətlərin ümumiyyətlə iştirak etməməsinə kimi aralıqda dəyişir. Oxşar müstəsna hallara ayrı-ayrı ölkələrin tarixində rast gələ bilərik. İspaniya XVI-XVII əsrlərdə beynəlxalq arenada güc uğrunda mübarizənin əsas fəal iştirakçılarından idi, lakin bu gün o yalnız əhəmiyyətsiz bir rola sahibdir. Eyni vəziyyət Avstriya, İsveç və İsveçrə kimi ölkələr üçün də həqiqətdir. Digər tərəfdən, ABŞ, Sovet İttifaqı və Çin kimi dövlətlər bu gün beynəlxalq siyasətə 50 və hətta 20 il bundan əvvəl olduğundan daha dərindən cəlb olunub. Sözün qısası, xalqların beynəlxalq siyasətlə əlaqəsi dinamik xarakterlidir. O, gücün növbələşməsi ilə dəyişir, bu bir xalqı güc uğrunda mübarizənin ön sırasına çəkə bilər, yaxud da xalqı güc uğrunda mübarizədə fəal iştirak imkanından məhrum edə bilər. O həmçinin mədəni transformasiyaların təsiri altında da dəyişə bilər ki, bu da xalqı gücdən başqa digər üsullara, məsələn, ticarətə üstünlük verməyə məcbur edə bilər. Ölkələrin güc uğrunda mübarizəyə az və ya çox dərəcədə cəlb olunması tendensiyası Arnold Volferi belə bir fikir ilə çıxış etməyə vadar etdi ki, onlar, onun adlandırdığı kimi, güc qütbündən etinasızlıq qütbünə qədər bir-birinə zidd hüdudlarda yer alır.

Onun təbiəti: 4 fərq

Bu kitabın kontekstində gücdən danışarkən biz insanın təbiət, yaxud dil, nitq, səs və ya rəng kimi bədii vasitələr, yaxud istehsal və ya istehlak, yaxud da özünə nəzarət mənasında özü üzərində gücünü nəzərdə tutmuruq. Biz gücdən danışarkən insanın digər insanların düşüncələri və hərəkətləri üzərində nəzarətini nəzərdə tuturuq. Siyasi gücə biz ictimai hakimiyyətin daşıyıcıları arasında qarşılıqlı nəzarət əlaqələri və sonuncu ilə bütünlükdə əhali arasında əlaqələri aid edirik.

Siyasi güc onu həyata keçirənlərlə üzərində həyata keçirilənlər arasında psixoloji əlaqədir. Bu, birinciyə ikincinin müəyyən hərəkətləri üzərində düşüncələrə təsir etmək yolu ilə nəzarət imkanı verir. Həmin təsir 3 mənbədən qaynaqlanır: mənfəət gözləntisi, zərər xofu və ayrı-ayrı şəxslərə, yaxud təsisatlara sevgi və ya hörmət. Bu, göstərişlər, təhdidlər, hər hansı bir şəxs və ya təsisatın hakimiyyət və ya xarizması, yaxud da bunların bəzilərinin kombinasiyası vasitəsilə gücləndirilə bilər.

Bu təyinat baxımından 4 fərq üzə çıxarılmalıdır: güc və təsirin fərqi, güc və qüvvənin, istifadə olunan və olunmayan gücün fərqi və legitim və qeyri-legitim gücün fərqi.

ABŞ prezidentinə xarici siyasətin həyata keçirilməsinə dair məsləhətlər verən dövlət katibi, əgər prezident onun məsləhətlərinə əməl edirsə, təsirə malikdir. Lakin onun prezident üzərində gücü yoxdur, çünki onun sərəncamında prezidentin iradəsinə təsir etmək üçün heç bir vasitə yoxdur. O inandıra bilər, lakin məcbur edə bilməz. Digər tərəfdən, prezident dövlət katibi üzərində gücə sahibdir, belə ki, o, vəzifəsinin verdiyi səlahiyyət, mənfəətlər vədi və zərərlə təhdid vasitəsilə sonuncuya öz iradəsini qəbul etdirə bilər.

Siyasi güc fiziki zorakılığın reallıqda tətbiqi baxımından zordan fərqləndirilməlidir. Polis əməliyyatı, həbs, ciddi cəzalandırma və ya müharibə siyasətə məxsus olan fəaliyyətlərdir. Zorakılıq real forma aldıqda siyasi gücdən hərbi və psevdo-hərbi güc naminə imtina zərurəti yaranır. Xüsusilə beynəlxalq siyasətdə silahlı güc real və ya potensial təhdid olaraq xalqın siyasi gücünü formalaşdıran ən vacib maddi amildir. Müharibədə reallıq tələb edərsə, hərbi gücün siyasi güclə əvəz olunması zərurəti yaranır. Fiziki zorakılığın real tətbiqi, siyasi güc mahiyyəti daşıyan iki düşüncə arasında psixoloji əlaqə və biri digərinin hərəkətləri üzərində ağalıq etmək üçün kifayət qədər güclü olan iki qurum arasında fiziki əlaqə ilə əvəz olunur. Bu səbəbdəndir ki, fiziki zorakılığın tətbiqində siyasi əlaqənin psixoloji elementi itir və biz siyasi və hərbi güc arasında fərqləndirmə aparmalı oluruq.

Nüvə silahlarının mövcudluğu istifadə olunan və istifadə olunmayan gücü fərqləndirmək zərurətini yaradır. Nüvə dövrünün paradokslarından biridir ki, bu dövrdən əvvəlki tarixə aid təcrübələrin əksinə olaraq, hərbi gücün artması artıq siyasi gücün də artmasına səbəb olmur. Total nüvə zorakılığı təhlükəsi total məhv təhlükəsi yaradır. Belə olduqda o eyni silahla cavab verə bilməyən xalqlara qarşı hələ də xarici siyasətin münasib aləti ola bilər. Nüvə silahları ilə silahlanmış xalq digər xalq üzərində gücünü növbəti ifadə forması ilə tətbiq edə bilər: "Ya sən mənim dediyim kimi hərəkət edirsən, ya da mən səni məhv edəcəyəm". Əgər təhdid olunmuş xalq növbəti cavabı verərsə, vəziyyət dəyişir: "Əgər məni nüvə silahları ilə məhv etsən, sən də məhv olacaqsan". Bu zaman qarşılıqlı təhdidlər bir-birini inkar edir. Bir xalqın nüvə silahları ilə məhvi digərinin də məhvinə

gətirib çıxardığı üçün hər iki xalq rasional hərəkət edəcəklərinə dair ehtimallara əsaslanıb, təhdidə etinanın göstərilməməsinə nail ola bilər.

Əlaqədar xalqların bir-birini total nüvə müharibəsində məhv etmək kimi irrasional addım ata biləcəkləri nüvə müharibəsinin ağlabatanlığına dair yalnız bir ehtimaldır və əslində, ABŞ və Sovet İttifaqı bundan bir-birinə qarşı, məsələn, Sovet İttifaqı 1956-cı ildə Süveyş böhranı, ABŞ 1961-ci ildə Berlin böhranı və hər ikisi 1973-cü ildə ərəb-İsrail müharibəsi zamanı istifadə edib. İstənilən vəziyyətdə güc ilə hədələmə xarici siyasətin rasional bir aləti kimi istifadə oluna bildiyi halda, həmin gücün tətbiqi irrasional olaraq qalır; çünki hədələyici qüvvə digər tərəfin iradəsinə təsir etmək üçün siyasi məqsədlə deyil, ardınca özünün də məhv olacağına əmin ola-ola, digər tərəfi məhv etmək kimi irrasional məqsədlə istifadə olunur.

Beləliklə, sahib olduğu dağıdıcılıq qabiliyyəti xarici siyasətə məxsus siyasi məqsədlərin məhdud xarakteriylə müqayisədə nüvə silahının xarici siyasətin aləti olaraq imkanlarını əhəmiyyətsiz edir. Müəyyən şərtlər altında digər tərəfi nüvə silahından istifadə yolu məhv etməklə hədələmək üsulundan digər tərəfin iradəsini dəyişmək məqsədilə istifadə rasional ola bilər; digər tərəfi realda məhv etməklə öz məhvinə yol açmaq isə irrasional olardı. Əksinə, adi silahların xarici siyasətin aləti kimi istifadəsi münasibdir, çünki reallıqda onlardan özünü ölçüyəgələn risklərlə üz-üzə qoyub məhdud zərər yetirməklə digər tərəfin iradəsini dəyişmək üçün əlverişli alət kimi istifadə oluna bilər.

Sonuncu, legitim güc, yəni tətbiqi əxlaqi və hüquqi cəhətdən əsaslandırılan güc qeyri-legitim gücdən fərqləndirilməlidir. Tətbiqi əxlaqi və hüquqi səlahiyyət qazanmış güc əsassız tətbiq olunan gücdən fərqləndirilməlidir. Əlində olan axtarış orderi əsasında məni axtaran polis zabitinin gücü əlində silah tutmaqla eyni hərəkəti edən dələduzun gücündən mahiyyətcə fərqlənir. Bu fərq yalnız fəlsəfi cəhətdən əsaslandırılmış deyil, həmçinin xarici siyasətin həyata keçirilməsi baxımından da müvafiqdir. Tətbiqinə görə əxlaqi və hüquqi əsas doğura bilən legitim güc ona bərabər, lakin elə də əsaslandırıla bilməyən qeyri-legitim gücdən, yəqin ki, daha effektivdir. Qeyd olunmalıdır ki, legitim gücün öz obyektinin iradəsinə təsir etmək şansı ona bərabər qeyri-legitim gücün şansından daha böyükdür. Özünümüdafiə və ya BMT-nin bəyan etdiyi məqsədlərlə tətbiq olunan gücün uğur qazanmaq şansı "təcavüzkar" dövlət tərəfindən və ya beynəlxalq hüququ pozmaq məqsədilə tətbiq olunan bərabər gücün uğur qazanmaq şansından daha böyükdür. Şahidi olacağıq ki, siyasi ideologiyalar xarici siyasət fəaliyyətlərinə legitimlik görüntüsü vermək məqsədinə xidmət edir.

Ümumi şəkildə qəbul olunduğu kimi, mənfəət gözləntisi, zərər xofu və ayrı-ayrı şəxslər, yaxud təsisatlara sevgi və ya hörmət daim dəyişkən kombinasiyalarda bütün növ daxili siyasət fəaliyyətləri üçün bünövrə yaradır və bu amillərin beynəlxalq

siyasət üçün əhəmiyyəti az aydın olsa da, az real deyil. Siyasi gücü zorakılığın real tətbiqi səviyyəsinə qədər azaltmaq, yaxud da onu ən azından uğurlu güc ilə hədələmə və inandırma, xarizmaya etinasızlıq ilə bərabərləşdirmək tendensiyası müşahidə olunurdu. İrəlidə şahid olacağıq ki[1], bu etinasızlıq beynəlxalq siyasətdə nüfuzun müstəqil element kimi inkarını geniş ölçüdə izah edir. Bununla belə, Napoleon və ya Hitler kimi şəxslərin, yaxud hökumət və ya ABŞ Konstitusiyası kimi təsisatların insanların iradəsini ayrı-ayrı şəxslərin və ya təsisatların iradəsinə tabe etdirən inamı və sevgini oyadan xarizmasını nəzərə almadan beynəlxalq siyasətin müasir dövrdə xüsusilə gözəçarpan bir sıra fenomenlərini anlamaq mümkün deyil.

Xarizmatik liderliyin və ona subyektin liderə sevgisi şəklində özünü göstərən cavabın beynəlxalq siyasət üçün daşıdığı əhəmiyyət şotland presviterianı və protestant birliyinin əməkdaşı Con Dyurinin 1632-ci ildə Britaniya səfiri Tomas Rouya yazdığı, o zaman Almaniyada protestant məsələsi uğrunda döyüşən İsveç kralı II Qustav Adolfun gücünün iflasını şərh edən məktubunda aydın şəkildə öz əksini tapmışdır:

"Onun hakimiyyətinin böyüməsi onun xanəgahının zəminidir; sevgi isə onun hakimiyyətinin zəminidir; bu, sevgi yolu ilə mümkündür; çünki bu, güc ilə mümkün deyil; çünki onun gücü öz subyektlərində deyil, əcnəbilərdədir; öz pulunda deyil, onlarınkındadır; onların xoş məramında deyil, indi onunla onlar arasında baş verənlərin sadə zərurətindədir; odur ki bu zərurət indi olduğu kimi vacib olmasa, yaxud Allah tərəfindən göndərilən hər hansı digər vasitələrlə bu zərurəti aradan qaldırsa, həmin pul və güc və onların yardımı onun əlindən çıxacaq, o, hakimiyyətini itirəcək və onun xanəgahı artıq olmayacaq: çünki başlanğıcda olan sevgi artıq olmayacaq..."[2]

ABŞ prezidenti siyasi gücünü hökumətin icraedici qolu üzərinə cəmləyir, çünki onun göstərişləri bu qolun nümayəndələri tərəfindən yerinə yetirilir. Partiya liderinin siyasi gücü var, çünki o, partiya üzvlərinin hərəkətlərini öz iradəsinə uyğun yönəldə bilir. Biz sənayeçilərin, işçi liderlərin və ya lobbiçilərin siyasi gücündən bəhs edirik, çünki onların seçimi dövlət rəsmilərinin fəaliyyətinə təsir edir. ABŞ Puerto-Riko üzərində siyasi gücə sahibdir, çünki bu adanın vətəndaşları ABŞ qanunlarına riayət edirlər. ABŞ-ın Mərkəzi Amerika üzərində siyasi gücündən danışarıqsa, Mərkəzi Amerika hökumətlərinin fəaliyyətlərinin ABŞ hökumətinin istəklərilə uyğunluqlarını nəzərdə tuturuq.[3] Beləliklə, A dövlətinin B dövləti üzərində siyasi gücə sahib olması və ya bunu istəməsinə dair bəyanat hər zaman o mənanı

[1] Bax: fəsil 6.

[2] Gunnar Westin, *Negotiations About Church Unity, 1628-1634* (Upsala: Almquist and Wiksells, 1932), səh. 208. Yazılış müasirləşdirilmişdir.

[3] Mətndəki nümunələr lobbiçinin nümunəsindəki kimi sadə sosial fakt olan siyasi güc ilə legitim hakimiyyət olan – bu, ABŞ prezidentidir – siyasi güc arasındakı fərqi təsvir edir. Həm ABŞ prezidenti, həm də lobbiçi mənbəyinin və təbiətinin fərqli olmasından asılı olmayaraq, siyasi gücü həyata keçirənlərdir.

daşıyır ki, A dövləti B dövlətinin düşüncəsinə təsir etməklə onun fəaliyyətinin müəyyən istiqamətləri üzərində nəzarət edə bilir və ya nəzarət edə bilmək istəyir.

Xarici siyasətin maddi məqsədlərinin nə olmasından – xam materialların mənbələrinin ələ keçirilməsi, dəniz yolları üzərində nəzarət və ya ərazi dəyişiklikləri – asılı olmayaraq, onlar hər zaman düşüncəyə təsir etməklə fəaliyyət üzərində nəzarətə gətirib çıxarırlar. Fransa xarici siyasətinin bir əsrlik hədəfi olan Reyn sərhədi Almaniyanın Fransaya hücumunu fiziki cəhətdən çətin və qeyri-mümkün etməklə Almaniyanın belə bir addım atmaq istəyinin qarşısını almağı nəzərdə tutan siyasi məqsədə işarə edir. Böyük Britaniya XIX əsr boyu dünya siyasətində aparıcı mövqeyinə görə onu rəqibləri üçün ya çox təhlükəli (çünki Böyük Britaniya çox güclü idi), ya da çox əhəmiyyətsiz (çünki onun gücü təmkinlə istifadə olunurdu) edən hesablanmış siyasətinə borcludur.

İstənilən növ hərbi hazırlığın siyasi məqsədi hərbi gücdən istifadəni çox təhlükəli edərək, digər xalqları bundan çəkindirməkdir. Hərbi hazırlıqların siyasi məqsədi, başqa sözlə, potensial düşməni hərbi gücdən istifadədən əl çəkməyə məcbur etməklə hərbi gücün real tətbiqini əhəmiyyətsizləşdirməkdir. Müharibənin siyasi məqsədi öz-özlüyündə ərazi istilası və düşmən ordularının məhvi deyil, düşmənin düşüncəsini dəyişərək, onu qalib gələnin iradəsinə təslim olmağa məcbur etməkdir.

Odur ki beynəlxalq münasibətlərdə iqtisadi, maliyyə, ərazi, yaxud da hərbi siyasətlər müzakirə olunan zaman, məsələn, deyək ki, iqtisadi məqsədlər naminə həyata keçirilən iqtisadi siyasəti siyasət aləti olaraq həyata keçirilən iqtisadi siyasətdən – bu, iqtisadi hədəfi yalnız digər xalqın siyasətinə nəzarət vasitəsindən ibarət olan bir siyasətdir – fərqləndirmək lazımdır. İsveçrənin ABŞ-a münasibətdə eksport siyasəti birinci kateqoriyaya aiddir. Sovet İttifaqının Şərqi Avropa ölkələrinə münasibətdə iqtisadi siyasəti isə ikinci kateqoriyaya aiddir. ABŞ-ın Latın Amerikası, Asiya və Avropada həyata keçirdiyi iqtisadi siyasətlərin çoxu da bura aiddir. Fərqin böyük praktiki əhəmiyyəti var və onun müəyyən edilməsi zamanı yol verilən səhv siyasətdə və ictimai fikirdə böyük çaşqınlığa səbəb olub.

Öz məramlarına xidmət edən iqtisadi, maliyyə və ya hərbi siyasətlər öz göstəriciləri baxımından dəyərləndirmənin mövzusudur. Bu, iqtisadi və ya maliyyə cəhətdən xeyirlidirmi? Ərazinin ələ keçirilməsi onu ələ keçirən dövlətin iqtisadiyyatına və əhalisinə necə təsir edir? Hərbi siyasətdə dəyişikliyin təhsil, əhali və daxili siyasi sistem üçün nəticələri hansılardır? Bu siyasətlərə dair qərarlar məhz belə məxsusi mülahizələrin aparılması ilə qəbul olunur.

Bununla belə, əgər bu siyasətlərin hədəfləri onları həyata keçirən xalqların digər xalqlara münasibətdə gücünü artırmağa xidmət edirsə, bu siyasətlər və onların hədəfləri başlıca olaraq onların milli gücə verdiyi töhfə nöqteyi-nəzərindən

dəyərləndirilməlidir. Halbuki sırf iqtisadi nöqteyi-nəzərdən qiymətləndirilə bilməyən iqtisadi siyasət yürüdülən siyasi siyasət ilə əlaqəli şəkildə şərh edilə bilər. Xarici bir dövlətə verilən borcun təhlükəli və mənfəətsiz xarakteri sırf maliyyə zəminində ona qarşı əsaslı bir arqument ola bilər. Lakin əgər bankirin nöqteyi-nəzərindən borc nə qədər ağılsız olsa belə, dövlətin siyasi siyasətinə xidmət edirsə, arqument yersizdir. Əlbəttə, ola da bilər ki, bu növ siyasətlərə cəlb olunan iqtisadi və maliyyə itkiləri dövlətin beynəlxalq mövqeyini gözlənilən siyasi mənfəətləri aşacaq dərəcədə zəiflədər. Bu kimi hallarda belə siyasətlərdən imtina edilməlidir. Belə bir vəziyyətdə problemi müəyyən edən sırf iqtisadiyyat və maliyyə mülahizələri deyil, mövcud siyasi imkanların və risklərin nisbətidir ki, bu da bu siyasətlərin dövlətin gücünə ehtimal olunan təsiridir.

ABŞ Qırmızı Ordunun kölgəsində olan Polşa kimi ölkələrə borc verdikdə və ya yardım göstərdikdə başlıca məqsəd iqtisadi və ya maliyyə marağı deyil. Bu daha çox bu kimi ölkələri Sovet İttifaqının təsir və güc dairəsindən azad olmaq üçün irəli çəkməkdir. Əgər Amerika qurumları və maliyyə təsisatlarına olan borcların geri ödənilməsi ABŞ hökumətinin razılığı ilə təxirə salınırsa, bu yalnız humanitar və xeyriyyə məqsədi daşımır. Bu daha çox Polşa hökumətinin Sovet İttifaqından tam asılılığın qarşısını almaq üçün onun müəyyən seçim imkanlarının açıq saxlanmasına yönəlmiş Amerika siyasətidir. İqtisadi sahədə bu kimi tədbirlər Polşanın coğrafi və siyasi mövqeyinin onu ən azı qısa müddətliyinə Sovet İttifaqının təsir dairəsində peyk mövqeyini qəbul etməsinə məcbur etməyinə baxmayaraq, uzun vədədə onun suveren dövlət kimi mövcudluğunu saxlamasına yönəlmiş siyasi məqsədlərə əsaslanır. Bir sözlə, Amerika iqtisadi siyasətinin Polşaya yönəlik məqsədi Mərkəzi və Şərqi Avropada sovet təsirini və gücünü məhdudlaşdırmaq və bu zaman ABŞ-ın təsir və gücünü artırmaqdır.

SİYASİ GÜCÜN ÖZ DƏYƏRİNİ İTİRMƏSİ

Bütün siyasi sahələr kimi, beynəlxalq siyasətin də fərqləndirici elementi olan gücə can atma səbəbindən beynəlxalq siyasət zərurətdən irəli gələrək güc siyasətidir. Ümumiyyətlə, bu fakt beynəlxalq münasibətlər təcrübəsində qəbul olunduğu halda, alimlərin, publisistlərin və hətta dövlət adamlarının bəyanatlarında daim inkar olunur. Napoleon müharibələri başa çatdıqdan sonra Qərb dünyasında hərzamankından daha çox insan inandırılmışdı ki, güc uğrunda mübarizə beynəlxalq

arenanın müvəqqəti fenomeni, onun yaranmasına rəvac vermiş səciyyəvi tarixi şəraitin aradan qalxması ilə yox olmağa məcbur olan tarixi təsadüfdür. Belə ki, Ceremi Bentam inanırdı ki, bütün beynəlxalq münaqişələrin kökündə müstəmləkələr uğrunda rəqabət durur. O, hökumətlərə məsləhət görürdü ki, "müstəmləkələrinizi azad edin!" və o zaman beynəlxalq münaqişə və müharibə də labüd olaraq aradan qalxacaq.[1] Azad ticarətin tərəfdarı olanlar, məsələn, Kobden[2] və Prudhon[3] əmin idilər ki, ticarət maneələrinin aradan qaldırılması xalqlar arasında daimi harmoniyanın yaradılmasının yeganə şərtidir və hətta bütünlükdə beynəlxalq siyasətin yox olmasına gətirib çıxara bilər. Kobden deyirdi ki, "bəzi gələcək seçkilər"də mümkündür ki, biz müstəqil seçki dairələrinin nümayəndələri olmağa cəhd edənlərin platformalarında "xarici siyasətin ləğvi" bəndini görək".[4] Marksa və onun davamçılarına görə, kapitalizm beynəlxalq qarışıqlıq və müharibənin kökündə durur. Onlar hesab edirlər ki, dünya sosializmi beynəlxalq arenada güc uğrunda mübarizəni ortadan qaldıracaq və daimi sülhü, demək olar ki, bərqərar edəcək. XIX əsr ərzində liberallar hər yerdə belə bir fikri yayırdılar ki, güc siyasəti və müharibə mütləqiyyət üsuli-idarəsi sisteminin qalıqlarıdır və demokratiya və konstitusion üsuli-idarənin mütləqiyyət və avtokratiya üzərində qələbəsi beynəlxalq harmoniya və daimi sülhün güc siyasəti və müharibə üzərində qələbəsini təmin edəcək. Bu liberal düşüncə məktəbinin nümayəndələrinin ən bəlağətli və təsiredici natiqi Vudro Vilson idi.

Son zamanlar güc uğrunda mübarizənin beynəlxalq arenadan qaldırıla biləcəyinə dair inam dünyanı Millətlər Liqası və Birləşmiş Millətlər Təşkilatı formasında təşkilatlandırmağa edilən böyük cəhdlərlə əlaqələndirilib. Belə ki, ABŞ dövlət katibi Kordel Hul 1943-cü ildə BMT-nin bünövrəsinin qoyulduğu Moskva konfransından qayıdarkən bəyan etdi ki, yeni beynəlxalq təşkilat güc siyasətinin

[1] *Emancipate Your Colonies* (London: Robert Heward, 1830)
[2] "Azad ticarət. Bu nədir? Xalqları bir-birindən ayıran baryerləri niyə aradan qaldırmaq lazımdır; həmin baryerlər ki, arxasında vüqar, qisas, nifrət və qısqanclıq kimi hisslər gizlənir və onların hər biri indi də, o zaman da sərhədlərini aşaraq ölkələri qan selində boğub". "Azad ticarət hər şeyə qadir olanın təsis etdiyi beynəlxalq hüquqdur" və azad ticarət və sülh, görünür ki, "bir və eyni məfhumdur", Bax: *Speeches by Richard Cobden* (London: Macmillan, 1870), Vol. I, səh. 79; *Political Writings* (New York: D.Appleton, 1876), Vol. II, səh. 110; Henri Aşvorta 1842-ci il 12 aprel tarixli məktub, götürülüb: John Morley, *Life of Richard Cobden* (Boston: Roberts Brothers, 1881), səh. 154.
[3] "Gəlin tarifləri ləğv edək, o zaman xalqların ittifaqı da bəyan olunacaq, həmrəyliyi də qəbul olunacaq, bərabərliyi də elan olunacaq". *Oeuvres completes* (Paris, 1876), Vol. I, səh. 248.
[4] Götürülüb: A.C.F.Beals, *A Short History of English Liberalism*, səh. 195.

sonu olacaq və beynəlxalq əməkdaşlıqda yeni era açacaq.[1] Britaniyanın o dövrkü dövlət naziri Filip Noel-Beyker 1946-cı ildə Nümayəndələr Palatasında bəyan etdi ki, Britaniya hökuməti "BMT təsisatlarından güc siyasətini iflasa uğratmaq üçün istifadə etməkdə qərarlıdır və bundan ötrü demokratiya üsulları ilə xalqın iradəsi qalib gəlməlidir".[2]

Bu nəzəriyyələr və onlardan qaynaqlanan gözləntilər haqqında irəlidə çox danışmalı olduğumuz üçün[3] güc uğrunda mübarizə zaman və məkandan asılı olmayaraq universaldır və inkaredilməz təcrübi gerçəklikdir. İnkar oluna bilməz ki, tarixən sosial, iqtisadi və siyasi şəraitdən asılı olmayaraq, dövlətlər bir-biriylə güc yarışında üz-üzə gəlib. Hətta antropoloqların bir sıra geridəqalmış xalqların güc ehtirasından azad olduqlarını göstərdiklərinə baxmayaraq, hələ heç kəs güc uğrunda mübarizəni beynəlxalq arenadan qaldırmaq üçün onların düşüncə tərzini və yaşadıqları şəraiti dünya miqyasında yenidən təkrarlama üsulunu göstərə bilməyib.[4] Yer üzündə bu və ya digər xalqı güc ehtirasından azad edib digərlərində bunu saxlamaq da əhəmiyyətsiz və hətta özünüdağıdıcı olardı. Əgər güc ehtirasını dünyanın hər yerində aradan qaldırmaq olmasa, bundan azad olanlar, sadəcə, digərlərinin gücünün qurbanına çevriləcəklər.

Burada yer alan mövqeni o zəmindən tənqid etmək olar ki, keçmişə istinadən yürüdülən mülahizələr tutarsızdır və belə mülahizələrin yürüdülməsi hər zaman inkişaf və tərəqqi düşməni olanların əsas davranış forması olmuşdur. Müəyyən sosial quruluşların və institutların keçmişdə mövcud olduğu bir həqiqət olmasına baxmayaraq, bu mütləq olaraq o anlama gəlmir ki, onlar gələcəkdə də daim mövcud olmalıdırlar. Lakin əgər biz insanların yaratdığı sosial quruluşlardan və institutlardan deyil, öz növbəsində cəmiyyəti yaradan təməl biopsixoloji meyillərdən danışırıqsa, vəziyyət dəyişir. Yaşamaq, təbliğat və ağalıq meyilləri bütün insanlar üçün ümumidir.[5] Onların nisbi qüvvəsi bir meylin xeyrinə olub, digərinə mane olmağa yönəlik, yaxud da digərlərinə dəstək olan zaman həmin meyillərin müəyyən təzahürlərindən sosial təsvibə nail olmayan sosial şərtlərdən asılıdır. Belə ki, güc sahədən götürülmüş nümunələrə nəzər salsaq, əksər cəmiyyətlər

[1] *New York Times*, November 19, 1943, səh. 1.
[2] *House of Commons Debates* (Fifth Series, 1946), Vol. 419, səh. 1262.
[3] Bax: fəsil VIII.
[4] Bu problemin izahlı müzakirəsi üçün bax: Malcolm Sharp, "Aggression: A Study of Values and Law," *Ethics*, Vol. 57, No. 4, Part II (July 1947).
[5] Zooloqlar göstərməyə çalışıblar ki, ağalıq meyli hətta ağalıq iradəsi və bacarığı əsasında sosial iyerarxiya yaradan heyvanlarda da, məsələn, toyuqlarda, meymunlarda da var. Bax: məsələn, Warder Allee, *Animal Life and Social Growth* (Baltimore: Williams and Wilkens, 1932), and *The Social Life of Animals* (New York: W.W.Norton, 1938). Həmçinin müqayisə et: Konrad Lorensin nəzəriyyələri və onlara dair polemikalar.

öz daxilində gücə nail olmanın vasitəsi kimi öldürməyi pisləyir, lakin bütün cəmiyyətlər güc uğrunda müharibə adlanan həmin mübarizədə düşməni öldürməyi təqdir edir. Diktatorlar vətəndaşlar arasında siyasi gücə nail olma cəhdlərinə kəc baxdığı halda, demokratiyalarda siyasi güc uğrunda rəqabətdə fəal iştirakı vətəndaş vəzifəsi hesab edilir. İqtisadi fəaliyyətlərin monopolist təşkilat formasının mövcud olduğu yerlərdə iqtisadi güc uğrunda rəqabət mövcud olmur və rəqabətli iqtisadi sistemlərdə iqtisadi güc uğrunda mübarizənin müəyyən təzahürləri qadağan olunduğu halda, bəziləri təqdir olunur. Ostroqorski Tokvilin fikirlərinə istinadən bəyan edir ki, "amerikalıların ehtirasları siyasi deyil, kommersiya xarakterlidir. Tərəqqi gözləntisində olan bu dünyada güc sevgisi insanlardan daha çox əşyalara sahib olmaqla bağlıdır".[1]

Ayrı-ayrı sosial şərtlərdən asılı olmayaraq, beynəlxalq arenada güc uğrunda mübarizənin, sadəcə, tarixi bir təsadüf olması fikrinə qarşı arqumentlər daxili siyasətin təbiətindən qaynaqlanmalıdır. Beynəlxalq siyasətin mahiyyəti onun dövlət daxilindəki qarşılığı ilə eynidir. Həm daxili, həm də beynəlxalq siyasət güc uğrunda mübarizədir və yalnız həmin mübarizənin daxili və beynəlxalq sahədə yer aldığı müxtəlif şəraitlərə görə fərqlənir.

Xüsusilə hegemonluq tendensiyası ailədən başlamış qardaşlıq assosiasiyaları və peşəkar assosiasiyalar, yerli siyasi təşkilatlar da daxil olmaqla dövlətə qədər bütün insan birliklərinə xas olan elementdir. Ailə səviyyəsində qayınana ilə onun övladının həyat yoldaşı arasında olan tipik münaqişə, öz mahiyyətinə görə güc uğrunda mübarizə artıq kök salmış güc mövqeyinin yeni güc mövqeyinin qurulmasına edilən cəhdlərə qarşı müdafiəsidir. Mahiyyətcə bu, beynəlxalq arenada status-kvo siyasəti ilə imperializm siyasəti arasındakı münaqişənin əlamətidir. Sosial klublar, qardaşlıqlar, fakültələr və biznes təşkilatları ya artıq əlində olan gücü saxlamaq istəyən, ya da daha böyük gücə nail olmağın yollarını axtaran qruplar arasında güc uğrunda aramsız mübarizənin səhnələridir. Biznes müəssisələri arasında rəqabətli yarışlar, eləcə də işçilər və işə götürənlər arasında əmək mübahisələri çox vaxt yalnız və bəzən hətta, ümumiyyətlə, iqtisadi mənfəətlər uğrunda deyil, birinin digəri və ya digərləri üzərində nəzarəti, yəni güc uğrunda aparılır. Nəhayət, bir xalqın, xüsusilə demokratik xalqın siyasi həyatı bütünlükdə lokal səviyyədən milli səviyyəyədək güc uğrunda aramsız mübarizədir. Vaxtaşırı seçkilərdə, qanunvericilik məclislərindəki səsvermələrdə, məhkəmə çəkişmələrində, inzibati qərarlarda və icra tədbirlərində – bütün bu fəaliyyət istiqamətlərində insanlar digər insanlar üzərində güclərini saxlamaq və ya bərqərar etməyə səy göstərirlər. Qanunverici, məhkəmə,

[1] M.Ostrogorsky, *Democracy and the Organization of Political Parties* (New York: Macmillan, 1902), Vol. II, səh. 592.

icra və inzibati qərarların qəbul olunduğu proseslər güc mövqelərini müdafiə etməyə və genişləndirməyə çalışan "təzyiq qrupları" tərəfindən göstərilən təzyiqlərin və əks-təzyiqlərin subyektidir. Ölü dəniz perqamentlərindən birində yazıldığı kimi:

"Hansı xalq daha böyük güc tərəfindən əsarət altına alınmağı istəyər? Yaxud kim əmlakının ədalətsizcəsinə talan olunmasını istəyər? Bəs elə bir xalq varmı ki, qonşusunu əsarətə salmasın? Yaxud dünyanın hansı yerində başqa bir xalqın əmlakını talan etməyən bir xalq tapa bilərsiniz? Həqiqətən, harada?"

Fukididdən sitat: "Allahlardan bilirik və insanlardan inanırıq ki, bacardıqları yerdə hökmranlıq etmək onların təbiətinin zəruri qanunudur".[1] Yaxud Tolstoyun qeyd etdiyi kimi, "digərlərinin iradəsinə ağalıq etmək prosesinin özü Doloxov üçün öz-özlüyündə bir həzz, vərdiş və zərurət idi".[2]

Con Solisberinin sözlərinə görə isə, baxmayaraq ki, insanların hamısına şahzadəlik və ya kral hakimiyyətinə sahib olmaq imkanı verilməyib, tiranlıq meylindən tamamilə azad insan çox azdır və ya mövcud deyil. Ümumən desək, tiran gücə arxalanan idarəçilik üsulu ilə bütün bir xalqa zülm edəndir; lakin bir nəfərin tiranlıq etməsi üçün yalnız bütün bir xalqın olması vacib deyil, o bunu hətta ən adi bir yerdə də edə bilər. Əgər onun tiranlığı bütün bir xalqın üzərində deyilsə də belə, hər bir şəxs öz gücü imkan verdiyi qədər geniş bir dairədə ağalıq edəcək.[3]

Güc uğrunda mübarizənin hər yerdə, bütün sosial münasibətlərdə və sosial təşkilatlanmanın bütün səviyyələrində bu cür mövcud olması baxımından beynəlxalq münasibətlərin labüd olaraq güc siyasəti olması təəccüblüdürmü? Bəs güc uğrunda mübarizənin daxili siyasətin bütün qollarının daimi və zəruri elementi olduğu halda, beynəlxalq siyasətin təsadüfi və ötəri əlaməti hesab olunması daha təəccüblü deyilmi?

SİYASİ GÜCÜN DƏYƏRİNİ İTİRMƏSİNİN İKİ ƏSASI

Gücün beynəlxalq arenada oynadığı rolun öz dəyərini itirməsinin əsasında iki amil durur. Onlardan biri XIX əsrin böyük bir dövründə hakim olmuş və hələ də beynəlxalq proseslərə dair düşüncələrimiz üzərində böyük təsirə malik olan beynəlxalq münasibətlər fəlsəfəsi, digəri isə ABŞ-ın dünyanın qalan hissəsi ilə əlaqələrini təyin edən xüsusi siyasi və elmi proseslərdir.

[1] Thucydides, Book V, §105.
[2] Leo Tolstoy, *War and Peace*, Book Eight, Chapter XI.
[3] John of Salisbury, *Policraticus*, tərcümə: John Dickinson (New York: Alfred A.Knopf, 1927), Vol. VII, səh. 17.

XIX əsr fəlsəfəsi

XIX əsrdə baş verən daxili proseslər gücün öz dəyərini itirməsinə gətirib çıxardı. Bu proseslərin səciyyəvi xüsusiyyəti aristokratiyanın orta siniflər üzərində ağalığı idi. Bu ağalığı istənilən növ siyasi hökmranlıqla eyniləşdirməklə XIX əsr siyasi fəlsəfəsi aristokrat siyasətinə müxalifliyin istənilən növ siyasətə qarşı düşmənçiliklə eyniləşdirilməsinə səbəb oldu. Aristokrat hökumətin məğlubiyyətindən sonra orta siniflər dolayı ağalıq sistemi təşkil etdi. Onlar idarə edən və idarə olunan siniflərinə ənənəvi bölgünü və aristokrat hakimiyyətinin açıq zorakılıq xüsusiyyətinin hərbi metodunu görünməz iqtisadi asılılıq silsiləsiylə əvəz etdilər. Bu iqtisadi sistem güc münasibətlərinin mövcudluğunu ört-basdır edən, zahirən bərabərləşdirici hüquqi qaydalar şəbəkəsi vasitəsilə fəaliyyət göstərirdi. XIX əsr bu qanuniləşmiş əlaqələrin siyasi təbiətini dərk etməyə qadir deyildi. Görünür, onlar bura qədər siyasət adı altında baş verənlərdən mahiyyətcə fərqli idilər. Odur ki siyasət öz aristokrat – yəni açıq və zorakı – formasında bu kimi siyasət ilə eyniləşdirilirdi. Bu halda daxili, eləcə də beynəlxalq proseslərdə siyasi güc uğrunda mübarizə yalnız aristokrat hökumətə uyğun gələn və avtokratik hökumətin yox olması ilə aradan qalxmağa məhkum olan tarixi təsadüf şəklində təzahür edirdi.

Amerika təcrübəsi

Güc siyasətinin aristokrat hökumətlə belə eyniləşdirilməsi Amerika təcrübəsində müdafiə olunur. O bu təcrübəyə xas olan 3 elementdən qaynaqlanır: Amerika təcrübəsinin unikallığı, Amerika qitəsinin XIX əsrdə dünya münaqişə mərkəzlərindən real təcridi və Amerika siyasi ideologiyasının humanitar pasifizm və antiimperializmi.

Britaniya taxt-tacı ilə konstitusional əlaqələrin kəsilməsinin Amerika xarici siyasətinin Avropada xarici siyasət adı altında cərəyan edən proseslərdən fərqinin başlanğıcının işarəsi olduğu anlamına gəldiyi Vaşinqtonun vida nitqində aydın şəkildə bəyan edilir: "Avropanın bizimlə heç bir və ya çox kiçik əlaqəsi olan vacib maraqlar qrupu var. Həmin maraqlar səbəbindən o, tez-tez mübahisələrin subyekti olmalıdır və həmin mübahisələrin motivi bizim maraqlarımıza əsasən yaddır. Ona görə də odur ki bizim süni əlaqələrlə onun siyasətinin ənənəvi gedişatına və ya ənənəvi dostluq və düşmənçilik birləşmələri və toqquşmalarına qarışmağımız ağılsızlıq olar". 1796-cı ildə Avropa siyasəti və güc siyasəti eyni anlam daşıyırdı; Avropa knyazlarının siyasətindən başqa, heç bir digər güc siyasəti yox idi. "Avropa ambisiyası, rəqibliyi, marağı, yumoru və şıltaqlığının gərgin fəaliyyəti" Amerikanın gözləri qarşısında güc uğrunda beynəlxalq mübarizənin yeganə təzahürləri idi. Odur ki, Vaşinqtonun da bəyan etdiyi kimi, Avropa siyasətindən uzaqlaşma həm də güc siyasətindən uzaqlaşma anlamını daşıya bilərdi.

Lakin Amerikanın Avropa güc siyasətinə etinasızlığı siyasi proqramdan daha artıq idi. Bəzi təsadüfi gözləntilərə rəğmən XIX əsrin sonunadək bu, qərarlaşmış siyasi bir fakt idi. Bu fakt düşünülmüş seçimin, eləcə də obyektiv coğrafi şəraitin nəticəsidir. Ola bilsin ki, tanınmış yazıçılar Amerikanın coğrafi mövqeyinin unikallığında Allahın əlini görürdülər və bu, Amerikanın ekspansiya, həmçinin özünütəcrid kursunu sabit şəkildə izah edirdi. Lakin Vaşinqtondan sonra daha məsuliyyətli icmalçılar coğrafi şərait ilə öz məqsədlərini coğrafi şəraitə uyğun seçən, həmin məqsədlərə nail olmaq üçün coğrafi şəraitdən istifadə edən xarici siyasət arasındakı əlaqəni qabardarkən ehtiyatla davranırdılar. Vaşinqton "bizim müstəqil və məsafəli vəziyyətimiz"ə müraciət edir və soruşurdu: "Belə məxsusi bir vəziyyətin faydalarından niyə imtina edəsən?" Amerika xarici siyasətinin bu dövrünün sonu yaxınlaşdığı bir zamanda Con Brayt Alfred Lova yazırdı: "Biz ümid edə bilərik ki, sizin qitənizdə artan milyonlar bundan belə müharibə haqqında heç nə bilməyəcəklər. Heç kim sizə hücum edə bilməz; siz isə digər dövlətlərlə ədavətlərə qoşulmaqdan vaz keçdiyiniz üçün narahatsınız".[1]

Şimali Amerika qitəsinin sahillərində "Yeni dünya"nın vətəndaşları uzaq Avropa, Afrika və Asiya sahillərində güc uğrunda beynəlxalq mübarizənin başlanan qəribə mənzərəsini izləyirdilər. XIX əsrin uzun bir dövründə tutduqları xarici siyasət xətti onlara tamaşaçı rolunu oynamağa imkan verirdi və bu, əslində, baş vermiş tarixi proseslərin amerikalılar üçün özlərinin seçdiyi, eləcə də təbii olaraq formalaşan daimi şərait şəklində təzahür etməsinin nəticəsi idi. Ən pis halda, onlar digərlərinin oynadığı güc siyasəti oyununu izləməyə davam edəcəkdilər. Ən yaxşı halda, hər yerdə demokratiyanın təşəkkül tapacağı, son pərdənin salınacağı və güc siyasəti oyununun bir daha oynanılmayacağı zaman yaxında idi.

Bu məqsədə çatmağa yardım etmək Amerikanın missiyasının bir parçası olaraq təsəvvür olunurdu. Xalqın tarixi boyunca ABŞ-ın milli müqəddəratı antimilitarist, azadlıqpərvər baxışdan dərk edilirdi. Həmin milli missiya haradasa qeyri-aqressiv, çəkinmə quruluşu ilə qarşılaşırsa, Con S.Kalhonun siyasi fəlsəfəsində olduğu kimi bu, daxili azadlığın təbliğatçısı kimi qəbul olunur. Beləliklə, "biz öz nümunəmizlə bu qitə və bütövlükdə dünya üzərində azadlığı genişləndirmək üçün minlərlə qələbənin edə biləcəyindən daha çox işlər görə" bilərik. ABŞ İspaniya-Amerika müharibəsindən sonra bu antiimperialist və demokratik idealdan əl çəkmiş göründüyü zaman Uilyam Qraham Samner həmin idealın mahiyyətini yenidən belə şərh etdi: "Müstəmləkə və imperializm demokratiyaya böyük zərbədir... ekspansiya və imperializm Amerika xalqının ən gözəl ənənələri, prinsipləri və maraqları ilə

[1] Götürülüb: Merle Curti, *Peace and War: The American Struggle 1636-1936* (New York: W.W.Norton, Company, 1936), səh. 122.

ziddiyyət təşkil edir".[1] Avropadakı güc siyasəti tendensiyalarını Amerika ənənələrinin idealları ilə müqayisə edərək, Samner Core Vaşinqtonla birlikdə düşünürdü ki, onlar müqayisəyəgəlməzdirlər. Bununla belə, o, gələcəkdən xəbər verə bilən biri kimi İspaniya-Amerika müharibəsinin həlli ilə Amerikanın qaçılmaz olaraq Avropanı inqilab və müharibəyə çəkən eyni kursa sürüklənəcəyini görürdü.

Beləliklə, XIX əsr güc siyasətinə qoşulmağın qaçılmaz deyil, yalnız tarixi təsadüf olduğuna və xalqların güc siyasəti və xarici siyasətin güc hərisliyi ilə korlanmamış digər formaları arasında seçimə sahib olduğuna inam yaratmaq üçün Amerika təcrübəsinin spesifik elementləri ilə birləşən xarici proseslərin təbiətindən ümumi konsepsiya formalaşdırıldı.

SÜLH ELMİ: ÇAĞDAŞ UTOPİZM

Bu gün siyasi və elmi dairələrdə hələ də nüfuz sahibi olan, beynəlxalq siyasətə rasional yanaşmanın "çoxillik hikməti"nə "elmi alternativ" təklif edən düşüncə məktəbi haqqında bir söz deyilməlidir. Bu düşüncə məktəbini biz termin çatışmazlığından "elmi utopizm" adlandıra bilərik; yuxarıda müzakirə olunmuş siyasi güc inadkarlığına dair özünü aldatma qaynaqları kimi, elmi təfsirin də həm Amerika, həm də Avropanın XIX əsr təcrübəsində dərin kökləri var. Lakin bu halda nə sinfi ağalıq əlaqələri, nə də coğrafi təsadüf "sülh elmi"nə dair utopik ümidlərin baş qaldırmasına əsas verməmişdir. Əksinə, təbiət elminin fantastik inkişafı, ayrı-ayrı mütəfəkkirlərin individual və kollektiv insan davranışına tətbiq olunan eyni növ metodların Herbert Markyuz və digərlərinin adlandırdıqları kimi, "insan varlığının barışdırıcılığı"na doğru tərəqqiyə töhfə verə biləcəyini ehtimal etməsinə gətirib çıxardı.

Müasir sülh elmi dünyanın bütünlükdə elm və mülahizəyə meyilli olduğu və onun özündə bütün insanlığın həmahəng əməkdaşlığı üçün vacib olan elementləri ehtiva etdiyinə dair fərziyyələrdən başlayır. Maraqların uyğunluğu, iqtisadi qanunlar, azad ticarət və müasir kommunikasiyalar kimi müxtəlif cür təyin olunan həmin elementləri aşkar etmək elmin işidir; təbii şəkildə təşəkkül tapmadıqları yerdə onları tətbiq etmək qanunun işidir; və onları görünən münaqişə təbəqəsinin altından üzə çıxartmaq danışıqlar və razılaşmaların işidir.

Belə rasionalizm üçün beynəlxalq münasibətlərin həqiqi təbiətini təşkil edən maraqların bir-birinə uyğunluğunun gizlədilməsi və təhrifi güc siyasətinin atavizmidir. Klassik liberalizm, eləcə də klassik iqtisadiyyatın banisi Adam Smit

[1] "The Conquest of the United States by Spain," *Essays of William Graham Sumner* (New Haven, CT: Yale University Press, 1940), Vol. II, səh. 295.

maraqların bu fundamental uyğunluğunu öz maraqlarını güdən, rəqabətli iqtisadi davranışın səthi təzahürlərinin altından üzə çıxartmışdır. Xudbin meyillər "görünməz əl"in fəaliyyəti ilə hamı üçün daha böyük var-dövlətin əldə olunmasına gətirib çıxarmışdı. Daxili məntiq ilə idarə olunan azad bazar hər şeyin ən yaxşı şəkildə istiqamətləndirilməsi üçün fəaliyyət göstərir.

XIX əsr liberalizminin dövlətlər arasında harmonik münasibətlərin qurulması yollarının axtarışında hətta belə möcüzə qalıqlarının izlərinə ehtiyacı yox idi. Yalnız sərt rasional prinsiplərin buna ehtiyacı ola bilərdi; bütün beynəlxalq münaqişələrin ya razılaşma, ya da arbitraj vasitəsilə qaneedici həllə nail ola biləcəyi hesab edilirdi. Bütün insanlar mülahizədə iştirak etdiyinə görə onlar gec-tez münaqişələrinin həqiqətdən daha çox görüntü olduğunu və hamı üçün qəbul olunan rasional formul ilə həll edilə biləcəyini üzə çıxaran ümumi zəmində görüşməli olacaqlar. Bütün dövrlərdə xalqlar öz həqiqi maraqlarından agah olsaydı, dərk edərdilər ki, zahirən toqquşan maraqlar, əslində, eynidir və bir ölkə üçün yaxşı olan labüd olaraq bütün digər ölkələr üçün də yaxşıdır və münaqişə yalnız cəhalət və yanlışlığın məhsuludur.

Bu halda xalqlar arasında münaqişələrin səbəbi fəhmsizlik və siyasi ehtirasın təsirindən qaynaqlanan uyğunsuzluqdur. Cahillik və emosiyadan başqa, mülahizə təbiət elmlərinin əksər problemləri kimi, beynəlxalq münaqişələri də asan və rasional şəkildə həll edər. Prudhon beynəlxalq düzəndə elmin açdığı imkanları tərənnüm edən ilk insanlar arasından idi.

Həqiqət hər yerdə özü ilə eynidir: elm insanlığın birliyini təmsil edir. Odur ki əgər elm hər bir ölkədə din, yaxud hakimiyyətin əvəzinə sosial norma, maraqların suveren arbitri kimi qəbul olunsa, hökumətin heç bir dəyərə sahib olmadığı şəraitdə dünyanın bütün qanunları uzlaşma içərisində olar. Milliyyətçilik və ya Vətən daha sözün siyasi mənasında mövcud olmayacaq; yalnız doğum yerləri olacaq. İnsan irqindən və rəngindən asılı olmayaraq, əslində, dünyanın sakini olacaq; vətəndaşlıq hüququnu o, hər yerdə əldə edəcək. Milli ərazinin müəyyən bir rayonunda bələdiyyə bir qrup insanı təmsil etdiyi və onun hakimiyyətini həyata keçirdiyi kimi, eynilə Yer kürəsinin bütün xalqları da bəşəriyyəti təmsil edəcək və öz təbii sərhədləri daxilində onun uğrunda fəaliyyət göstərəcək. Xalqlar arasında heç bir diplomatiya və şuranın olmadığı harmoniya hökmranlıq edəcək; bundan etibarən heç nə onu narahat etməyəcək.[1]

C.E.M.Coada görə, "Pasifist vəzifəsi, hər şeydən öncə, dərrakəli olmaqdır. O, belə deyək, müraciətlərində öz mühakiməsinə güvənməli və digərlərinin də öz mühakiməsini yürüdəcəyini ehtimal etməlidir. ...Həqiqət, əslində, o zaman üzə

[1] "*Idée générale de revolution au dix-neuviémesiéecle*," *Aeuvres completes*, IX (1868), səh. 300; həmçinin bax: Proudhon, *La Guerre et la paix* (Paris: E.Dentu, 1861).

çıxır ki, insanlara onu tapmaq üçün kifayət qədər imkan verilir".[1] Mühakimənin gücünə həmin inam nəticəsi idi ki, Klerens Streit 1941-ci ildə belə bir fikir irəli sürürdü: "ABŞ Senatı və Britaniya Parlamentində həqiqətən böyük gücə sahib insanlar bunu anlasalar, [iki ölkənin] birliyi uğrunda mübarizə apararlar".[2]

Bu halda siyasi tarix elmi həll yollarına sahib ola bilən, lakin cahil və ehtiras əsiri olan insanlar tərəfindən idarə edilmiş elmi problemlərin varisidir. Hətta Homer Lii kimi realist bir icmalçı üçün beynəlxalq münasibətlər problemi dəyişərək, elmi problem forması aldı; əgər "cahillik hünəri" müvafiq faktların öyrənilməsiylə əvəz olunarsa, insan beynəlxalq arenada uğurla fəaliyyət göstərə bilər. Məşhur pasifist Berta fon Satner yazırdı ki, "siyasət elminin bugünkü dövlətçiliyi əvəz edəcəyi yalnız elmin hüquqi və siyasi gücə sahib olacağı vaxt gələ bilər və gələcək ...O yalnız həqiqəti axtarır və həqiqət vasitəsilə yalnız yaxşıya – bütün sivil xalqların qavradığı universal yaxşıya nail olmağa cəhd edir".

Robert S.Lində görə, sırf elmə yiyələnmə müşahidə olunduğundan Satnerin bəhs etdiyi dövr artıq gəlib çatıb: "Diaqnoz". O yazır: "Artıq milliyyətçilik, imperializm, beynəlxalq maliyyə əməliyyatları və ticarət, müharibəyə yol açan mədəniyyətimizə xas digər amillərin uzun bir siyahısı hesabına, əsasən, tamamlanıb. Müharibə problemi bir neçə elm sahəsinin diqqətini əksər digər problemlərdən daha çox cəlb edib və tədqiqat kifayət qədər aydın olan biliklərin mövcud olduğu nöqtəyə qədər davam etmişdir. Müharibə mövzusu mütəfəkkir tədqiqatçıların böyük bir qrupu tərəfindən öyrənilir və qəbul olunur. Lakin atılmalı addımlar haqqında fikir söyləmək yubanır, çünki sosial elm elmi monoqrafiyaların ciddi tapıntıları əsasında qərar qəbul etmək səviyyəsindən qaba fəaliyyət proqramı səviyyəsinə qədər kiçilir. ...Buna bənzər vəziyyətdə, yəni problemin kökündə elmi məlumatlar boşluğu dayanmırsa, sosiologiya elminin meydana çıxan ehtiyacı öz tapıntılarını elə formada bir araya toplamaq iradəsidir ki, onların daşıdığı həqiqət humanitar elmin müxtəlif parçaları kimi dağılıb getməsin. Biz müharibə və onun səbəbləri haqqında bu tapıntıları təqdim etmək, onların mənasını izah etmək və bu dağıdıcı hadisəni ən sadə vətəndaşın gözü qarşısında qəti surətdə və amiranə şəkildə dayandırmaq üçün kifayət qədər məlumatlıyıq".[3]

Güc siyasətinin, gizli diplomatiyanın və müharibənin köhnə üsullarının yeni, elmi yanaşma ilə əvəz olunması bu "zəka əsri"nin məhsuludur. Ərazi iddiaları, milli azlıqlar üzərində suverenlik, xam məhsulların paylanması, bazarlar uğrunda mübarizə, tərk-silah, "sahib olunanlar" və "sahib olunmayanlar" arasında nisbət, dinc

[1] "Pacifism: Its personal and Social Implications," in G.P.Gooch, *In Pursuit of Peace* (London: Methuen, 1933), səh. 61, 63.
[2] *Union Now with Britain* (New York: Harper and Brothers, 1941), səh. 197.
[3] *Knowledge for What?* (Princeton: Princeton Inoversity Press, 1939), səh. 241.

dəyişikliklər və dünyanın ümumilikdə dinc şəkildə idarə olunması – bunlar müvəqqəti və münaqişə edən xalqlar arasında güc bölgüsü və onun mümkün tarazlığına görə həmişə birtəhər həll olunmalı "siyasi" problemlər deyil. Onlar mühakimə yolu ilə hər bir vəziyyət üçün düzgün həll yolu tapıla bilən "texniki" problemlərdir.

Beləliklə, XIX əsr elmin ayrıca bir sahəsi kimi "sülh elmi"ni yaratdı. Bu başlıq altında çoxsaylı kitablar yazıldı. Onlardan biri hətta elmi müsabiqədə ilk mükafatı qazandı.[1] XVI-XVII əsrlərdə strateji və siyasi məna kəsb edən, lakin heç bir elmi mənası olmayan "təbii sərhəd" anlayışı fransız inqilabçıları və Napoleon tərəfindən coğrafi cəhətdən "düzgün" sərhəd kimi izah edilmişdir. XIX əsrin 70-80-ci illərində Böyük Britaniya ictimai fikri "elmi sərhəd" məsələsini ciddi şəkildə müzakirə etdi və belə bir qənaətə gəldi ki, bu, mühakiməyə uyğun gələn sərhəddir və nəticə etibarilə bu coğrafi regionda bütün digər sərhədləri elmi cəhətdən yanlış edir. 1878-ci il noyabrın 9-da Menşn Hauzda çıxışında Dizraeli II əfqan müharibəsini belə əsaslandırırdı ki, Hindistanın sərhədi "elmi sərhəd deyil, təsadüfdür".

Belə "elmi" sərhədlərin axtarışına XVIII əsrin ikinci yarısında, ərazi bölünmələri və ilhaqları xüsusunda, bölüşdürülməli ərazi hissələrinin nisbi dəyəri məhsuldarlıq, əhalinin sayı və tərkibi və bu kimi digər müəyyən "obyektiv" standartlar əsasında təyin olunduğu zaman başlandı. Bu tendensiyaya müvafiq olaraq, Vyana Konqresi Metternixin təklifiylə xüsusi statistika komissiyası təyin etdi; komissiyanın vəzifəsi mübahisəli əraziləri əhalinin sayı, tərkibi və tipi kimi "obyektiv" standartlara görə qiymətləndirmək idi.[2] Beləliklə də, sərhədlərin delimitasiyası riyazi çalışma forması aldı. XIX əsrin sonuncu onilliklərində Rusiyanın ərazi cəhdlərinə istinadən Almaniyada yaranmış "yaxşı sərhəd" anlayışı müəyyən dərəcədə eyni məna kəsb edirdi. "Elmi tarif" anlayışı müəyyən qədər XIX əsrin əvvəlində Fridrix List tərəfindən irəli sürülən ideyalara əsaslanaraq, elmi xarici ticarətə gətirmək cəhdi idi. Beynəlxalq səsvermələr nəzəriyyəsi və təcrübəsi də beynəlxalq məsələlərə rasionalist yanaşmanın tipik təzahürləridir. Burada əksəriyyətin iradəsi ərazi üzərində suverenliyi təyin etməli olan elmi analizdir. 30-cu illərdə mayor Lefebur "elmi tərk-silah"a dair nəzəriyyəsini təkmilləşdirdi. "Geosiyasət" bütövlükdə xarici siyasəti elmi əsaslar üzərinə qoymağa təşəbbüs etdi.

Yalnız Birinci Dünya müharibəsindən sonra siyasi problemləri elmi mühakimələrə qədər kiçiltmə tendensiyası ümumi təqrir qazandı. "Mühakimə, nəhayət ki, müstəqil bir qurum olur, – lord Alen Hartvud yazırdı, – o, insanların davranışına təsir edir. Bu, elmin gəlişinə görədir. ... O, indi özünü təbiətin hökmdarı kimi hiss edir, onun beyni xurafat əvəzinə ağılla işləməyə başlayır. Bir fikri

[1] Louis Bara, *La Science de la paix* (1872).

[2] Ətraflı bax: Charles Dupus, *Le Principed'equilibre et le Concert Européen* (Paris: Perrin et Cie, 1909), səh. 38 və növbəti səhifələr

formalaşdırarkən o, ətrafındakı hadisələri müşahidə edir və öz nəticələrini çıxarır. Həmin andan başlayaraq beyin müstəqil təsir qurumu olmağa başlayır. Odur ki o, indi siyasi qüvvə hesab oluna bilər, halbuki əvvəllər sivilizasiya tarixində bu, heç vaxt mümkün olmamışdır. Son 30 ildə bu, ictimai fikrə təsir etməyə başlamışdır".[1]

Beləliklə, haqlı olaraq beynəlxalq proseslərə elmi yanaşma dövrü adlandıra biləcəyimiz dövr başladı və onun sonu hələ ki görünmür. Haaqa konfransları və yüzlərlə kiçik sülh konfransları ilə başlayan bu dövrdə hökumətlər bütün beynəlxalq problemləri elmi metodlarla həll etmək məqsədilə qeydə alınmış tarixdə görünməmiş qızğın fəaliyyət planına girişdi. Hökumətlər, Millətlər Cəmiyyəti və özəl qruplar bəşəriyyətin xəstəliklərini elmi üsullarla sağaltmaq yolunda beynəlxalq konfransların təşkili, tədris və tədqiqatın təşviqi və yüzlərlə cild əsərlərin çap olunması üçün bir-biriylə yarışdı. Son zamanlar biz müharibədən sonrakı dünyanın problemlərinin elmi həll yollarının tapılmasına yönəlik geniş yayılmış cəhdlərin şahidi olmuşuq. Bu, müasir elmi tendensiyanın axırıncı, lakin, güman ki, sonuncu olmayan təzahürüdür.[2]

Bizim dövrümüz daim mexaniki tətbiq olunub, arzu olunan nəticəni verəcək və bununla da siyasi fəaliyyətin qeyri-müəyyənlikləri və risklərini rasional hesablamaların labüdlüyü ilə əvəz edəcək, hər şeyi dəyişə bilən, möcüzəli formul axtarışındadır. Lakin axtarışda olanların istədiyi möcüzəvi formul sadə, rasional və mexaniki, qarşılaşmalı olduqları isə mürəkkəb, irrasional və hesabagəlməzdir. Nəticədə onlar ən azından elmi həll görüntüsü yaratmaq məqsədilə beynəlxalq siyasətin gerçəkliklərini sadələşdirmək və "tək səbəb metodu" adlandırıla biləcək üsula bel bağlamaq məcburiyyətindədirlər.

Görünür ki, müharibənin aradan götürülməsi beynəlxalq düşüncəni üz-üzə qoyan fundamental problemdir. Problemi həll etmək üçün ilk növbədə onun səbəbi və ya səbəbləri aydın şəkildə müəyyən edilməlidir. Qeyri-rasional düşüncə üçün həlli belə çətin edən əlaqədar səbəblərin – o səbəblərin ki, kökləri insan

[1] "Pacifism: Its Meaning and ItsTask," in *Pursuit of Peace*, səh. 22, 23.

[2] Müqayisə et: Charles A.Beard, *A Foreign Policy of America* (New York: Alfred A.Knopf, 1940), səh. 98-99:
Elm institutlarında, yeni maraqlarla bir sırada beynəlxalq hüquq və diplomatiyanın tədqiqi də təşviq edilirdi. Diplomatiyaya dair köhnəlmiş kurslara – quru, elmi fəaliyyətdər – diqqəti dünya sülhü və onun təşəkkülü üsullarına yönəldən beynəlxalq münasibətlərə dair kurslar əlavə olundu. Sülhyaratmaya dair kitablar, broşürlər və məqalələr yazılır, dərc edilir və geniş şəkildə yayılırdı və bunlar çox vaxt sülh fondlarının maliyyə yardımı ilə edilirdi. Beynəlxalq sülh konfransları təşkil olunur və onlar səyahət və geniş müzakirə imkanları yaradırdı. Bəzən kollec rəhbərləri, professorlar, din xadimləri və qadınlar arasında liderlər də bu imtiyazlardan istifadə edir və ümumi kütlənin qarşısında görkəmli rəğbət qazanırdılar. Belə görünürdü ki, böyük fəaliyyətdər düzənində onlar üçün sanki yeni lazımlılıq və tanınma dövrü açılıb və onun yaratdığı imkanlardan ən yaxşı şəkildə istifadə edirdilər.

qəlbinin gizli dərinliklərindədir – *müxtəlifliyidir*. Bütün bu çoxşaxəli, mürəkkəb amilləri tək səbəbə sığışdırmaq olsaydı, – rasional xülasə ilə bu, edilə biləndir, – müharibə probleminin həlli artıq qeyri-mümkün görünməzdi. Bu, liberal xarici siyasətin öz başlanğıcından etibarən etməyə çalışdığıdır; və əgər dövlət adamı və siyasi düşüncə sahibi "tək səbəb"ə əlac üçün "konstruktiv" plana sahib olmasaydı, Millətlər Cəmiyyətinin çiçəklənmə dövründən başlayaraq əksər insanlar onun yaradıcı düşüncə çatışmazlığının olduğunu hesab edəcəkdilər.

Feodalizmin qalıqları bu dünyada müharibəni törədən əsas tək səbəb deyilmi? Klassik liberallar deyərlər ki, gəlin hər yerdə aristokrat hökumətləri ortadan qaldıraq və o zaman biz sülhə nail olacağıq. Təcrübi siyasətdə bu ümumi fikir çox vaxt ayrı-ayrı vəziyyətlərə cavab vermək məqsədilə daha xüsusi üsullar səviyyəsində daraldılır. Beləliklə, gördüyümüz kimi, Bentham və onun tərəfdarları müstəmləkələr uğrunda mübarizəni müharibənin əsas səbəbi olaraq qeyd edirdilər; onlar müharibənin əlacı kimi müstəmləkə siyasətindən çəkinmənin tərəfdarı idilər. Digərləri üçün beynəlxalq sahədə bütün pisliklərin mənbəyi tariflər idi; onlara görə, bütün yaxşılıqların mənbəyi azad ticarət idi. Digərləri məxfi müqavilələri və məxfi diplomatiyanı ümumiyyətlə ortadan qaldırar və beynəlxalq siyasətin xalq tərəfindən idarə olunması üsulu ilə sülhü təmin edərdilər. Müasir müharibə öz növbəsində monopoliya kapitalizminin ziddiyyətlərinin nəticəsi olan imperializmin törəməsi deyilmi? Onda marksistlər deyəcəklər ki, gəlin kapitalizmi ortadan qaldıraq və biz daha müharibə şahidi olmayacağıq: sülh sosializmdədir.

Belə birtərəfli düşüncə üsuluna daxili siyasətdə də rast gəlinir. Sosial yanlışlıqlar bizim iqtisadiyyat qanunlarını bilməməyimizdən qaynaqlandığı halda, "vahid vergi" bu qanunları nəzərə alır və o bütün sosial problemləri həll edəcək. İqtisadi sistemimiz nizamsızdır, çünki hökumət topladığından daha çox xərcləyir; büdcəni balanslaşdırın, onda iqtisadi problemlərimiz də həll olacaq. Sosial qüsurlarımızın kökündə yanlış dil vərdişləri durur; düzgün dil vərdişlərinin kəsb edilməsiylə sosial problemlərimiz öz həllini tapacaq. Emerson "Yeni İngiltərə islahatçıları"nda bu növ düşüncəni belə təsvir edir:

"Bir əshabə fikirləşirdi ki, bütün insanlar əkinçiliklə məşğul olmalıdırlar; digəri fikirləşirdi ki, heç kim alqı-satqı ilə məşğul olmamalıdır; və pulun istifadəsi ən böyük nöqsandır; digər biri fikirləşirdi ki, zərər bizim qidamızdadır, biz lənətlənmiş şeyləri yeyib-içirik. Onlar acıtmasız çörək bişirirdilər və sonadək acıtmanın düşməni idilər... Digərləri kənd təsərrüfatı sistemini, əkinçilikdə heyvan peyininin istifadəsini və insanın vəhşi təbiət üzərində tiranlığını tənqid edirdilər; bu cür yanlış hərəkətlər onun qidasını çirkləndirib... Hətta həşəratlar dünyası da müdafiə olunmalıdır – buna çox uzun müddət laqeyd yanaşılıb və yubanmadan soxulcanların,

ilbizlərin və ağcaqanadların müdafiəsi cəmiyyəti təsis olunmaldır. Bununla homeopatiya, hidropatiya, hipnoz, frenologiya mütəxəssisləri və onların xristian möcüzələrinə dair heyrətamiz nəzəriyyələri peyda oldu! Digərləri ayrı-ayrı peşə sahiblərinə, məsələn, hüquqşünaslara, tacirlərə, sənayeçilərə, ruhanilərə, alimlərə hücuma keçdilər. Digərləri sosial qüsurların mənbəyi kimi nikah institutunu tənqid etdilər. Digərləri özlərini kilsə əziyyətlərinə və əhalinin ibadətinə həsr etdilər; və yaşlı puritanlar arasında antinomiyanın səmərəli formaları, görünür ki, yeni islahatlar dalğasında geniş şəkildə öz əksini tapmışdır".[1]

Bununla belə, daxili düzəndə "tək səbəb metodu" daha məhdud nəzəri və praktiki əhəmiyyət kəsb etmişdir; burada birbaşa şəxsi təcrübə, ümumi şüursuzluq dövrləri istisna olmaqla həmin yanaşmanın mənasızlığını üzə çıxarır; və zərər görən maraqların təzyiqi yanılmalara imkan vermir.

Digər tərəfdən, utopik beynəlmiləlçinin beynəlxalq arena ilə birbaşa əlaqəsi yoxdur. Əgər onun düşüncəsi kifayət qədər ümumidirsə, siyasətin mütləq gerçəkliklərilə heç bir toqquşma riskinə girmədən bütün Yer kürəsində yayıla bilər. ABŞ üçün "dörd azadlığ"ı elan edəcək şəxs özü tezliklə şəxsi təcrübəsiylə həmin böyük prinsiplərin gerçəkləşməsinə edilən istənilən cəhdin doğuracağı sosial və siyasi problemlərin nəhəngliyini dərk edəcək. Əksinə, "dörd prinsip"in "dünyanın hər yerində" elan olunması tarixi reallıqlar və siyasi gerçəkliklərlə toqquşmadan yayına bilmək üçün kifayət qədər ümumidir.

İslahatçı heç bir öhdəliksiz müasir beynəlxalq düşüncənin arsenalında axtardığı hər şeyi tapır. Bir universal həll üsulunun çox vaxt digəriylə uyğun gəlməməsi onu narahat etməməlidir. "Tək səbəb" əsl səbəblərin çoxluğunun dəyişkən abstraksiyası olduğundan bir abstraksiya odur ki həm də bir "tək səbəb", növbəti biri qədər yaxşıdır. Bundan əlavə, "tək səbəb" axtarışı daha çox insan münasibətlərinin yaxşılaşdırılmasına hansısa töhfəni vermək kimi qeyri-müəyyən arzudan qaynaqlanır, nəinki müəyyən siyasi vəziyyətə hər hansı bir üsulla müdaxilə etməyə dair qərarlaşmış niyyətdən. Mahiyyət etibarilə dünyanın başına gələn bəlaların istənilən ümumi izahı və onlara əlac olacaq istənilən ümumi plan əlaqədar ruhi ehtiyacı qane edəcək.

Beləliklə, iki dünya müharibəsi arasındakı iki onillikdə "tək səbəb" və ona əlac olacaq "elmi formul" öz böyük mövsümlərini keçirdikləri bir vaxtda onlar üçün böyük axtarış zəmini beynəlxalq arena olmuşdur.[2] Beynəlxalq ictimaiyyət mütəşəkkil deyil; odur ki öz mücərrəd rasionallığına görə XVIII-XIX əsrlər fəlsəfəsinin utopik sistemlərinin hüquqi əks forması olan "beynəlxalq təşkilat" görkəmli pasifist və Nobel mükafatının qalibi A.H.Frayd əsrin əvvəlində onu müzakirəyə təklif

[1] Ralph Waldo Emerson, *Essays: Second Series* (Boston: Houghton Mifflin, 1899), səh. 204-205.
[2] Bax: Kenneth W.Thompson, *Ethics, Functionalism and Power in International Politics: The Crisis in Values* (Baton Rouge: Louisiana State University Press, 1979), səh. 35-45.

etdikdən sonra bütün bir düşüncə məktəbinin kredosuna çevrilən elmi formul oldu. Digərləri maddi üsullara müraciət edərdilər. Müharibələr silahlar vasitəsilə aparılmır? Gəlin silahlanmanı ya qadağan edək, ya da ən azı azaldaq, onda müharibə artıq mümkün olmayacaq, yaxud ən azından az mümkün olacaq. Digərləri yenidən müxtəlif həll üsullarını birləşdirərdilər və belə birləşməni "elmi zəmində" ən uyğun üsul kimi müdafiə edərdilər. Belə ki, Fransa Radikal-Sosialist Partiyası "təhlükəsizlik, arbitraj, tərk-silah"ı daimi sülhün bərqərar olması yolunda məntiqi ardıcıl addımlar kimi təbliğ edirdi; əksinə, Fransa sosialistləri bu ardıcıllığı dəyişdi və "arbitraj və tərk-silah üsulu ilə təhlükəsizlik" formulunun müstəsna elmi dəyərinə and içdilər. Fransa xarici siyasəti mücərrəd layihələrin, məsələn, "Brayn planı", "Laval planı", "Tardyu planı", "Heriot planı", yaxud "Paul-Bonkur planı" irəli sürülməsində xüsusilə fəal olub və bunlar Avropa təhlükəsizlik məsələlərinin elmi həll üsullarına hüquqi forma verməyə iddia edirdi.

Digər rüblərdə, xüsusilə 1929-cu il böhranından sonra beynəlxalq iğtişaşların "tək səbəb"i iqtisadi düzəndə aşkar edildi. Beynəlxalq ticarət məhdudiyyətləri, xam materialların çatışmazlığı və qeyri-kafi satınalma güclü xalqları müharibəyə sürükləyir, bununla da dəlil meydana çıxır. Onda gəlin qarşılıqlı ticarət razılaşmaları, xam materialların yenidən bölünməsi və beynəlxalq istiqrazların paylanması üçün elmi formullar tapaq, o zaman sülh də olacaq. 30-cu illərdə imperialist cəhdləriylə üz-üzə qalarkən belə bir mülahizə yürüdüldü ki, xalqlar status-kvonu dinc üsulla dəyişdirə bilməyəndə onu müharibə ilə dəyişdirməyə cəhd edəcək; bu halda elmi cəhətdən müəyyən olunmuş dinc dəyişiklik müharibəni lüzumsuz edəcəkdi. Bankirlərin investisiyaları üçün keçirdikləri həyəcan bizim Birinci Dünya müharibəsinə qoşulmağımızın səbəbkarı idi; gəlin müharibə aparan tərəflərə istiqrazların verilməsini qadağan edək: bununla biz növbəti müharibədə iştirakdan xilas olacağıq. Bu yaxınlarda "kəşf edilib" ki, müharibənin səbəbkarı milli suverenlikdir; buradan belə bir nəticəyə gəlinir ki, milli suverenliklərin dünya federasiyası, yaxud ən azından demokratiyaların federasiyası şəklində bir araya gətirilməsi sülh və müharibə probleminin elmi həll üsuludur. Beləliklə, bizim eramız hər zaman elmi formulun axtarışındadır, lakin dəfedilməz reallıq yenə də və yenə də bu günün həll üsulunu sabahın xətasına çevirir.

Beynəlxalq münasibətlərin "elmi" erası həqiqi siyasi dəyərləndirmələrin ehtimalının elmi standartlarla əvəz olunması ilə nəticələndi; bəzi hallarda bu o qədər uzağa getdi ki, ümumiyyətlə, ağıllı siyasi qərarların verilməsi bacarığını tamamilə məhv etməsə belə, çətinləşdirdi. Güc məhdud və səlahiyyətli olmasından asılı olmayaraq, beynəlxalq siyasətin ali qəbul etdiyi bir dəyərdir. Odur ki beynəlxalq siyasi qərarların analizi həmin qərarların güc bölgüsünə təsiri dərəcəsinə əsaslanır. Rişelyenin, Hamiltonun (bu məsələdə Ceffersondan geri qalmır) və ya Dizraelinin beynəlxalq arenada hər hansı addımı atmazdan əvvəl verəcəkləri sual bu idi: bu qərar bu və ya digər xalqın gücünü artırır, yoxsa azaldır? Beynəlxalq münasibətlərlə

məşğul olan "alim"in verdiyi sual isə fərqlidir. Beynəlxalq münasibətlər tarixi onun üçün məlumatlı və ya yanlış məlumatlı rəsmilər tərəfindən düzgün və ya səhv idarə olunan siyasi problemlərin silsiləsinə bərabər olduğundan burada ali dəyər güc deyil, həqiqətdir. Onda güc axtarışı və gücün müdafiəsi səbəbləri və çıxış yollarını axtaran elmi yanaşmadan yayınmalara çevrilir. Əgər gedişatı bəyənmiriksə, gəlin onun səbəbini axtaraq və səbəbi dəyişməklə gedişatı da dəyişək. Burada, əslində, uğrunda mübarizə aparılmalı heç nə yoxdur; hər zaman analiz edilməli, dərk olunmalı və dəyişdirilməli nəsə var.

Müasir düşüncə üçün elmin hər şeyi əhatə etmək gücünə inamı xarici siyasətin *idarəedici qüvvəsinə* çevirmək necə mümkün oldu? Burada cavabı yenə rasional fəlsəfənin universal ehtimalları zahirən daxili təcrübədə yoxlanılmış ümumi mühakimələrində axtarmaq lazımdır. Daxili düzəndə liberalizmin qələbəsi siyasi sahənin qeyri-adi şəkildə daralmasına, həmçinin qeyri-siyasi sahənin buna müvafiq olaraq genişlənməsinə gətirib çıxardı; və beləliklə, sonuncu ayrıca rasional araşdırma üçün açıq oldu. Əvvəllər siyasi güc uğrunda mübarizənin mükafatı hesab edilən məqsədlərə indi soyuqqanlı formada reallıq kimi yanaşılır və onlar üzərində iqtisadiyyat, idarəetmə, yaxud hüquqa məxsus üsullara uyğun idarəetmə təmin olunurdu. Əvvəlcə təbiət elmləri və din siyasi ağalıqdan azad oldu və öz muxtariyyətini yaratdı. Sonra liberalizm dövləti ələ keçirərək, daim genişlənən hakimiyyəti birbaşa siyasi ağalıqdan azad etdi; nəhayət, görünür ki, liberalizm hətta siyasəti dövlət hakimiyyətindən kənarlaşdırdı və dövlətçiliyin özünü elmə çevirdi. Ticarət və sənaye mülahizə altında muxtariyyətlərini ilk qazananlardan oldu.

Fiziokratlar üçün hələ də siyasi proqram olub, gününün siyasi güclərinə uğursuz şəkildə təklif olunan Adam Smit üçün artıq təcrübədə yoxlanılmış elmi həqiqətlər sistemi idi və onun *təcrübi nəticələrindən heç bir dərrakəli* insan qaça bilməzdi. Siyasi tribunallar ədaləti hüquq elminin prinsiplərinə uyğun olaraq bərqərar etmək üçün təlim keçmiş hakimlərdən təşkil olunan müstəqil məhkəmələrlə əvəz olundu. Müəyyən siyasi qrupların maraqlarına xidmət edən köhnəlmiş və özbaşına seçki sistemləri bütün vətəndaşlar üçün tam və bərabər təmsilçiliyi təmin edəcək elmi mexanizmlərə yol verdi. Sivil xidmət sistemi hökumət personalının seçimini obyektiv, qeyri-siyasi əsaslar üzərinə keçirdi. Bu gün qanunverici islahatlar get-gedə daha çox ekspert komitələri tərəfindən hazırlanır və görünür ki, onlar, əsasən, siyasi mülahizələr əvəzinə elmi mülahizələrdən təsirlənirlər. Vergiqoyma, idarəetmə və sığorta "elmi" yanaşma tərzinə yiyələnir; və nəhayət, hökumət fəaliyyətinin "siyasət elmi"nin tətbiqi üçün münasib hesab olunmayacaq heç bir sahəsi yoxdur.

Siyasətdə siyasi metodun istifadəsi, hansına ki müasir düşüncə liberal təcrübənin qavrayışı ilə gəlib çatıb, daxili proseslərdə siyasi yanlış olub və indi də belədir. Bununla belə, orada sırf siyasi təzyiq mexanizmi və mənfəətpərəstlik ehkamçı ifratçılıq üzərində avtomatik nəzarət xidmətini göstərir. Beynəlxalq düzəndə birbaşa fərd

üzərində fəaliyyət göstərən belə bir mexanizm mövcud deyil. Ona görə də burada elmi formulun hədsiz gücünə inam xüsusilə məhsuldar – və həmçinin xüsusilə təsirsizdir. Çünki burada həmin inamdan törəyən universal vasitələrin hadisələrin həqiqi gedişini təyin edən qüvvələrlə hər hansı əlaqəsi yoxdur. Odur ki hadisələr öz məcrasını beynəlxalq ekspert komissiyalarının bütün təkliflərinin və digər rasional-utopik mexanizmlərin heç vaxt uydurulmadığı kimi davam etdirəcək. Ya da həmin mexanizmlər müstəsna formada tətbiq olunacaq, ona görə də havadarlarının qabaqcadan görmədikləri və çox vaxt onların fəlakətinə səbəb olan effektlər gətirəcək – məsələn, İtaliya-Efiopiya müharibəsi zamanı İtaliyaya qarşı sanksiyalar kimi. Lakin ən böyük kinayə olaraq bu düşüncə məktəbi "praktiki"liyi özünə xas məziyyət kimi təqdim etməyə cəhd edir; o, beynəlxalq fəaliyyəti mücərrəd mülahizənin ideal postulatlarından daha çox siyasi reallığı təyin edən qüvvələrin həqiqi idrakı zəminində[1] əsaslandırmağa edilən nadir cəhdlərə etinasız yanaşır.

[1] Hələ 1877-ci ildə James Lorimer yazırdı: "Le Probléme final dudroitinternational," *revue do droit international et de legislation compare*, IX (1877), səh. 184. Olduqca qəribədir ki, bununla belə, ingilis utilitarizminin bu fərziyyələri bütövlükdə bu mövzuda yazılmış mənim bildiyim dissertasiyaların təcrübi nöqteyi-nəzərdən ən gərəksizidir. Müqayisə et: Beard, *A Foreign Policyin America*, səh. 129: "1919-cu il beynəlmiləlçi ideologiyasında ağlasığmaz olan, demək olar ki, hər bir uğursuzluq 20 illik zaman müddətində ötüb-keçdi. Sonralar məlum olacaqdı ki, bu düşüncə tərzi təbiətə və insanların və xalqların meyillərinə dair bəzi səhv təsəvvürlərə əsaslanırdı, yaxud da əgər bu izah düzgün deyilsə, beynəlmiləlçilər qarşılarına qoyduqları məqsədə düzgün "yanaşma" seçməmişdilər. Onların dünya haqqında təsəvvürü onun reallıqları ilə kafi dəqiqlikdə uyğunluq təşkil etmirdi, yaxud da texniki baxımdan onların metodları natamam idi. Onlar məğlubiyyətlərini insanların və xalqların ağılsızlığının ayağına yaza bilərdilər və bəziləri belə də edirdilər, lakin bu onların əvvəlki mühakimə və fəaliyyətlərində yanlış hesablamalara əsaslandıqlarının etirafıdır. Dünyanın ən böyük günah keçisi kimi təqsir amerikalıların üzərinə qoyulmalı olmayana qədər istənilən hadisədə verilən hökm eyni idi".

4. Güc uğrunda mübarizə: status-kvo siyasəti

Daxili və beynəlxalq siyasət eyni fenomenin iki müxtəlif təzahürüdür: güc uğrunda mübarizə. Onun təzahürləri iki müxtəlif sahədə ona görə müxtəlifdir ki, onların hər birində müxtəlif əxlaqi, siyasi və sosial şəraitlər hökm sürür. Qərb milli cəmiyyətləri öz daxillərində öz aralarında olduğundan daha böyük sosial birlik səviyyəsi nümayiş etdirir. Daha sabit olur və zorakı dəyişikliyə daha az məruz qalır.

Bütün tarix göstərir ki, beynəlxalq siyasətdə fəal olan xalqlar müharibə formasında olan mütəşəkkil zorakılığa daimi olaraq hazırlaşır, ona fəal şəkildə qoşulur və ondan sonra yenidən özünə gəlir. Digər tərəfdən, Qərb demokratiyasının daxili siyasətində mütəşəkkil zorakılıq geniş həcmdə istifadə olunan siyasi fəaliyyət aləti kimi nadir müstəsnaya çevrilib. Lakin mümkün istifadə üsulu kimi o, burada mövcuddur və onun inqilab formasında özünü göstərən mədəni eynilik, texnoloji birləşmə, xarici təzyiq və ən əsası da iyerarxik siyasi təşkilat milli cəmiyyəti digər milli cəmiyyətlərdən ayrı, bütöv birləşmiş quruluş kimi formalaşdırmaq üçün bir araya gəlir. Nəticədə, məsələn, daxili siyasi nizam, beynəlxalq nizamın xofu zaman-zaman siyasi düşüncə və fəaliyyət üzərində önəmli təsirə malik olub.[1] Bu baxımdan daxili və xarici siyasət arasındakı fərq növ məsələsi deyil, dərəcə məsələsidir.

Bütün siyasət növləri – daxili, xarici – 3 əsas formanı üzə çıxarır; yəni bütün siyasi hadisələr bu 3 əsas formadan birinə sığır. Siyasi siyasətin hədəfi ya gücü saxlamaq, ya gücü artırmaq, ya da güc nümayiş etdirməkdir.

Siyasətin bu 3 səciyyəvi formasına beynəlxalq siyasətin 3 tipik forması uyğun gəlir. Xarici siyasəti qüvvələr bölgüsünü öz xeyrinə dəyişdirməyə deyil, gücü saxlamağa yönəlmiş xalq status-kvo siyasəti yürüdür. Xarici siyasəti mövcud güc münasibətlərini dəyişməklə həqiqətdə sahib olduğundan daha böyük güc qazanmaq məqsədi daşıyan, başqa sözlə, güc statusunda öz xeyrinə dəyişiklik etməyə çalışan xalq imperializm siyasəti yürüdür. Xarici siyasəti sahib olduğu gücü onu qorumaq və ya artırmaq məqsədilə nümayiş etdirməyə yönəlmiş xalq nüfuz

[1] Bu, Guglielmo Ferreronun (*The Principles of Power* (New York: G.P.Putnam's Sons, 1942) göstərdiyi kimi xüsusilə XIX əsrin reallığıdır.

siyasəti yürüdür.[1] Qeyd olunmalıdır ki, bunlar ilk formullardır və irəlidə təfərrüatlı müzakirələrin mövzusu olacaq.[2]

"Status-kvo" anlayışı *status quoantebellum* ifadəsindən götürülüb və həmin ifadə sülh müqavilələrində ərazinin düşmən qoşunları tərəfindən təxliyəsi və onun üzərində müharibədən əvvəlki suverenliyin bərpasına dair ənənəvi müddəaları nəzərdə tutan diplomatik termindir. Belə ki, İtaliya[3] və Bolqarıstan[4] ilə imzalanmış, İkinci Dünya müharibəsinə xitam verən sülh müqavilələri "İttifaq və Birləşmiş Qüvvələrin bütün silahlı birləşmələri"nin ayrı-ayrı xalqların ərazisindən "mümkün qədər tez və istənilən halda bu müqavilənin qüvvəyə mindiyi gündən 90 gündən gec olmayaraq" "çıxarılacağı"nı təmin etdi. Yəni həmin zaman məhdudiyyəti ərzində verilmiş əraziyə münasibətdə *status quoantebellum* yenidən bərqərar olunmalı idi.[5]

Status-kvo siyasətinin məqsədi tarixin müəyyən bir anında mövcud olan qüvvələr bölgüsünün qorunmasıdır. Deyə bilərik ki, status-kvo siyasəti beynəlxalq

[1] Bəzən bir xalq fiziki cəhətdən buna vadar edilmədiyi halda gücündən imtina edirsə, məsələn, Böyük Britaniya 1947-ci ildə Hindistana münasibətdə və ABŞ bir neçə halda Latın Amerikası ölkələrinə münasibətdə etdiyi kimi, bu, beynəlxalq siyasətin həmin 3 növlü formasından kənara çıxmaq anlamı daşımır. Belə hallarda xalq müəyyən şərtlər altında geri çəkilə bilən hərbi komandan kimi hərəkət edir, çünki onun cəbhəsi həddindən çox gərgindir, yaxud onun kommunikasiya xətləri təhlükə altındadır, yaxud da o, qüvvələrini hücum üçün cəmləmək istəyir. Eynilə bir xalq da çox uzun müddət saxlaya biləcəyinə ümid etmədiyi aşkar güc mövqeyindən imtina edə bilər. Yaxud o, bir növ idarəetməni başqa növə dəyişə bilər, məsələn, hərbi idarəetməni siyasi idarəetməyə, siyasi idarəetməni iqtisadi idarəetməyə, yaxud tərsinə ("yaxşı qonşuluq" siyasətinin "böyük dəyənək" siyasətiylə əvəz olunması dediklərimizə nümunədir). Yaxud da xarici siyasət məqsədlərində dəyişiklik səylərin başqa nöqtədə cəmlənməsini tələb edə bilər. İstənilən halda onun könüllü şəkildə gücdən imtina etməsi onun güclə maraqlanmadığı anlamı daşımır, necə ki, hərbi komandanın gücdən imtinası onun hərbi qələbədə maraqlı olmadığı anlamını daşımır.

[2] Xüsusilə qeyd olunmalıdır ki, xarici siyasətin bu müxtəlif beynindəki növləri mütləq şəkildə dövlət adamlarının, yaxud da müvafiq xarici siyasətin tərəfdarlarının düşünülmüş motivlərə uyğun gəlmir. Dövlət adamı və tərəfdarlar hətta yürütdükləri və tərəfdarı olduqları siyasətin həqiqi xarakterindən xəbərdar olmaya da bilərlər. Daha da xüsusiləşdirsək, xalq status-kvo siyasəti yürütmək niyyətində olar, lakin bu zaman, əslində, özünün də xəbəri olmadan imperializm siyasətinə girişmiş olar. Belə ki, britaniyalılar haqqında deyilirdi ki, onlar öz imperiyalarını "diqqətsizlik tutması" ilə qurublar. Bu baxımdan mətndən çıxan nəticə budur ki, biz sırf yürüdülən siyasətin həqiqi xarakteri ilə maraqlanırıq, onu yürüdənlərin motivləri ilə deyil.

[3] Bax: məqalə 73, *The new York Times*, January 18, 1947, səh. 26.

[4] Bax: məqalə 20, yenə orada, səh. 32.

[5] Daha çox köhnə nümunələr üçün bax: Coleman Phillipson, *Termination of War and Treaties of Peace* (New York: E.P.Dutton, 1916), səh. 223 və növbəti səhifələr

siyasət üçün mühafizəkar siyasətin daxili siyasət üçün oynadığı rolu oynayır. Tarixdə status-kvo siyasəti üçün istinad nöqtəsi rolu oynayan ən çox vaxt qüvvələr bölgüsünün sülh müqaviləsində müddəa formasına salındığı vaxt olan müharibənin sonudur. Bu ona görə belədir ki, sülh müqavilələrinin əsas məqsədi keçən müharibədəki qələbə və məğlubiyyətin doğurduğu güc dəyişikliyini hüquqi formada təsbit etmək və hüquqi qeyd-şərtlər vasitəsilə yeni qüvvələr bölgüsünün sabitliyini təmin etməkdir. Beləliklə, status-kvo siyasəti üçün sonuncu ümumi müharibəyə xitam verən sülh razılaşmasının müdafiəçisi kimi çıxış etmək xarakterikdir. 1815-ci ildən 1848-ci ilədək status-kvo siyasəti yürüdən Avropa hökumətləri və siyasi partiyalar bunu Napoleon müharibələrinə son qoyan 1815-ci il sülh müqaviləsini qorumaq üçün edirdi. Bu hökumətlərin 1815-ci ildə yaratdıqları "Müqəddəs ittifaq"ın əsas məqsədi status-kvonu Napoleon müharibələrinin sonunda mövcud olduğu kimi saxlamaq idi. Nəticədə o, əsasən, sülh müqaviləsinin, yəni 1815-ci il Paris müqaviləsinin təminatçısı kimi fəaliyyət göstərdi.

Bu baxımdan 1815-ci il status-kvosunun, yəni Paris müqaviləsinin müdafiəsinə yönəlmiş siyasətlə "Müqəddəs ittifaq" arasındakı əlaqə 1918-ci ilin status-kvosu, 1919-cu ilin sülh müqavilələri naminə yürüdülən siyasətlə Millətlər Cəmiyyəti arasındakı əlaqə ilə eynidir. I Dünya müharibəsinin sonunda mövcud olmuş qüvvələr bölgüsü öz hüquqi ifadəsini 1919-cu il sülh müqavilələrində tapdı. 1919-cu il sülh müqavilələrində əksini tapmış 1918-ci il status-kvosunu saxlamaqla sülhü qorumaq Millətlər Cəmiyyətinin əsas məqsədinə çevrildi. Cəmiyyətin Nizamnaməsinin onun üzvləri üzərinə "Cəmiyyətin bütün üzvlərinin ərazi bütövlüyü və mövcud siyasi müstəqilliyinə hörmət etmək və onları xarici təcavüzə qarşı qorumaq" öhdəçiliyini qoyan 10-cu maddəsi 1919-cu il sülh müqavilələri ilə bərqərar olmuş ərazi status-kvosunun müdafiəsini Cəmiyyətin məqsədlərindən biri kimi qəbul etdi. Nəticədə iki dünya müharibəsi arasındakı dövrdə status-kvo uğrunda və ona qarşı mübarizə Versal müqaviləsinin ərazi təsbitetmələri və onların Millətlər Cəmiyyətinin Nizamnaməsinin 10-cu maddəsindəki təminatlarının ya müdafiəsi, ya da onlara qarşı çıxılması formasında aparılırdı. Odur ki onların nöqteyi-nəzərindən 1919-cu ildə qurulmuş status-kvoya əsas etibarilə qarşı çıxan xalqların Millətlər Cəmiyyəti ilə əlaqələrini kəsməli olduqları münasib hesab olunurdu – necə ki, 1932-ci ildə Yaponiya, 1933-cü ildə Almaniya, 1937-ci ildə İtaliya etdi.

Status-kvo siyasəti yalnız sülh müqavilələri və onlara dəstək olan beynəlxalq təşkilatlarda təzahür etmir. Müəyyən qüvvələr bölgüsünü qoruyub saxlamağı arzu edən xalqlar xüsusi müqavilələrdən alət kimi istifadə edə bilər, məsələn, 1922-ci il fevralın 6-da Vaşinqtonda imzalanmış "Çinə aid məsələlərdə riayət olunmalı

prinsiplər və siyasətə dair "9 dövlət" müqaviləsi"[1], 1925-ci il oktyabrın 16-da Lokarnoda imzalanmış "Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya arasında qarşılıqlı təminat müqaviləsi".[2]

"9 dövlət" müqaviləsi Amerikanın Çindəki "açıq qapı" siyasətini, əsasən, Çin ilə ticarətdə maraqlı olan xalqların, həmçinin Çinin özünün yürütmək öhdəliyini götürdükləri çoxtərəfli siyasətə çevirdi. Onun əsas məqsədi həmin dövrdə razılığa gələn xalqlar arasında Çinə münasibətdə mövcud qüvvələr bölgüsünü sabitləşdirmək idi. Bu o demək idi ki, bəzi xalqların, xüsusilə Böyük Britaniya və Yaponiyanın Çinin müəyyən ərazi hissələrində, məsələn, Mancuriya və müxtəlif limanlarda əldə etdikləri xüsusi hüquqlar yalnız toxunulmaz qalmamalı idi, həmçinin Çin tərəfindən razılaşmada iştirak edən dövlətlərə heç bir yeni xüsusi hüquq verilməməli idi.

Qarşılıqlı təminata dair Lokarno müqaviləsi Millətlər Cəmiyyətinin Nizamnaməsinin 10-cu maddəsində nəzərdə tutulan 1918-ci il ərazi status-kvosunun ümumi təminatına Almaniyanın qərb sərhədinə dair ayrıca təminat əlavə etməyə cəhd etdi. Müqavilənin 1-ci maddəsi xüsusi olaraq "Almaniya və Belçika, eləcə də Almaniya və Fransa arasındakı sərhədlərə uyğun gələn ərazi status-kvosunun qorunması"na təminatı nəzərdə tuturdu.

Xüsusilə ittifaq müqavilələri çox vaxt müəyyən vəziyyətlərə dair status-kvonun mühafizəsi funksiyasını həyata keçirirdi. Belə ki, Fransaya qarşı zəfərlə bitmiş müharibədən və 1871-ci ildə Almaniya imperiyasının əsasının qoyulmasından sonra Bismark Almaniyanın Avropada yeni qazandığı hegemonluq mövqeyini Fransa tərəfindən revanş müharibələrinin qarşısını almaq məqsədilə yaradılmış ittifaqlar vasitəsilə qorumağa çalışırdı. 1879-cu ildə Almaniya və Avstriya Rusiyaya qarşı qarşılıqlı müdafiə ittifaqı yaratdı və 1894-cü ildə Fransa və Rusiya Almaniya-Avstriya birləşməsinə qarşı müdafiə ittifaqına daxil oldu. Digər ittifaqın status-kvonu qoruyacağını bəyan etdiyi halda, onu dəyişmək niyyətinə düşə biləcəyindən yaranan qarşılıqlı xof Birinci Dünya müharibəsinin ümumən alovlanmasına səbəb olan əsas amillərdən biri idi.

Fransanın Sovet İttifaqı, Polşa, Çexoslovakiya və Rumıniya ilə iki dünya müharibəsi arasında imzaladığı ittifaq müqavilələri, əsasən, Almaniyanın status-kvonu dəyişməyə mümkün cəhdləri nəzərə alınaraq, onu qorumaq məqsədi daşıyırdı. Çexoslovakiya, Yuqoslaviya və Rumıniya, həmçinin Çexoslovakiya və Sovet İttifaqı arasında imzalanmış oxşar müqavilələr eyni məqsədə xidmət edirdi. Həmin ittifaqların 1935-1939-cu illərdə sınaqdan keçirilərkən üzə çıxan səmərəsizliyi Almaniyanın 1939-cu ildə Polşaya hücum etməsinin səbəblərindən biri idi.

[1] United States *Treaty Series*, No. 671 (Washington, 1923).
[2] *American Journal of International Law*, Vol. 20 (1926), Supplement, səh. 22.

1939-cu il aprelin 5-də yaradılmış Britaniya-Polşa İttifaqı hərbi əməliyyatlar başlamazdan əvvəl heç olmasa Almaniyanın qərb sərhədlərindəki ərazi status-kvosunu saxlamağa yönəlmiş son cəhd idi. Bu gün Sovet İttifaqının Şərqi Avropa ölkələri və Qərbi Avropa ölkələrinin öz aralarında və ABŞ ilə yaratdıqları ittifaqlar da eynilə həmin müvafiq Avropa regionlarında İkinci Dünya müharibəsinin sonunda qüvvələrin bölgüsü ilə yaradılmış status-kvonu qorumaq məqsədi daşıyır.

ABŞ üçün böyük əhəmiyyət daşıyan status-kvo siyasətinin bəyan edilməsi həm də onun Monro doktrinasında əks olunmuş xarici siyasətinin təməl daşı idi. Prezident Monronun 1823-cü il dekabrın 2-də Konqresə illik müraciətində yer alan birtərəfli bəyanat olan doktrina istənilən status-kvo siyasətinin iki başlıca prinsipini müəyyən edir. Bir tərəfdən o, ABŞ tərəfindən Qərb yarımkürəsində mövcud qüvvələr bölgüsünə hörməti şərtləndirir: "istənilən Avropa dövlətinin müstəmləkələri və asılılıqlarının mövcudluq vəziyyətində biz heç bir müdaxilə etməmişik və etməyəcəyik". Digər tərəfdən o, ABŞ tərəfindən hər hansı qeyri-Amerika dövlətinin mövcud qüvvələr bölgüsündəki istənilən dəyişikliyinə müqavimət göstəriləcəyini bəyan edir: "Lakin azadlığını elan etmiş və onu müdafiə edən hökumətlərə gəlincə, ...biz hər hansı Avropa dövləti tərəfindən ABŞ-a yönəlik düşmən mövqedən başqa hər hansı digər nəzər nöqtəsindən olsa belə, onların əsarət altına alınması, yaxud müqəddəratlarına hər hansı digər tərzdə nəzarət edilməsi məqsədilə hər hansı müdaxiləyə tamaşaçı qala bilməzdik". Prezident Franklin D.Ruzvelt 1933-cü il aprelin 12-də Panamerika İttifaqının rəyasət qurumuna müraciətində ifadə etdiyi kimi: "Bunun [Monro doktrinasının] məqsədi bu yarımkürədə hər hansı qeyri-Amerika dövləti tərəfindən əlavə ərazi üzərində hər hansı formada nəzarəti ələ keçirməyə qarşı çıxmaq olub və indi də belədir".[1]

Biz söylədik ki, status-kvo siyasətinin məqsədi tarixin müəyyən bir anında mövcud olan qüvvələr bölgüsünü qoruyub saxlamaqdır. Bu o demək deyil ki, status-kvo siyasəti mütləq hər hansı dəyişikliyə qarşı çıxır. O hər dəyişikliyə qarşı çıxmır, iki və daha artıq dövlət arasında qüvvələr nisbətinin pozulmasına səbəb olan dəyişikliyə qarşı çıxır, məsələn, A dövlətinin gücünü birinci sıradan ikinci sıraya salmaq və B dövlətini A dövlətinin əvvəl tutduğu üstün mövqeyə qaldırmaqla. Bununla belə, əlaqədar xalqlar arasında qüvvələr bölgüsündəki nisbi güc mövqelərinə zərər vurmayan kiçik uzlaşmalar tamamilə status-kvo siyasətinə uyğundur. Məsələn, 1867-ci ildə Alyaska ərazisinin ABŞ tərəfindən satın alınması o zaman ABŞ və Rusiya arasındakı status-kvoya təsir etmədi, çünki o zaman kommunikasiya və hərb texnologiyaları baxımından ABŞ tərəfindən həmin vaxt

[1] *Roosevelt's Foreign Policy, 1933-1941. F.D.R.'s Unedited Speeches and Messages* (New York: Wilfred Funk, 1942), səh. 4.

keçilməz olan bir ərazinin əldə edilməsi ABŞ və Rusiya arasında qüvvələr bölgüsünə elə bir əhəmiyyətli təsir göstərmədi.

Eynilə ABŞ 1917-ci ildə Danimarkadan Virciniya adalarını alarkən Mərkəzi Amerika respublikalarına münasibətdə status-kvonu dəyişmək məqsədi daşıyan bir siyasət yürütməyə çalışmırdı. Virciniya adalarının əldə edilməsi ABŞ-ın strateji mövqeyini Panama kanalına yanaşma yollarının müdafiəsinə təhlükə yaradacaq qədər əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı halda, o, ABŞ və Mərkəzi Amerika respublikalarının nisbi qüvvələr mövqeyini dəyişmədi. Virciniyanın əldə edilməsi, ola bilsin, ABŞ-ın Karib regionunda artıq sahib olduğu hegemonluq mövqeyini gücləndirmiş ola bilərdi, lakin bu mövqeni o yaratmamışdı və odur ki status-kvo siyasətinə uyğun idi. Hətta, demək olar ki, ABŞ-ın Mərkəzi Amerika respublikaları üzərindəki üstünlüyünü gücləndirməklə o, əslində, mövcud qüvvələr bölgüsünü möhkəmləndirdi və bununla da status-kvo siyasətinin məqsədlərinə xidmət etdi.

1962-ci ildən başlayaraq Sovet İttifaqı Kubada raketlərini yerləşdirməklə öz təsir dairəsini əhəmiyyətli dərəcədə genişləndirməyi qarşısına məqsəd qoymuşdu. Kennedi administrasiyası raketlərin oradan çıxarılması üçün həyata keçirə biləcəyi mümkün alternativ fəaliyyət kurslarını, o cümlədən hava zərbələri endirməyi götür-qoy etdi; və sonda o, blokada və təcridetmə siyasətini seçdi. Sovetlər Kennedi-Xruşşov razılaşmasının nəticələrinə görə raketlərini çıxardı, lakin iqtisadi və siyasi yardımlar vasitəsilə Kastro rejimini dəstəkləməyə davam etdi. 1980-ci illərdə Qrenada və Nikaraqua kimi ölkələrə Kuba və sovet hərbi yardımının göstərildiyi və bu ölkələrdə onların hərbi personalının olduğu müəyyən edildi. Bu ölkələrdə Kuba müdaxiləsinə əhali tərəfindən dəstəyin verilməsi məsələsini bir tərəfə qoysaq, ABŞ siyasətçilərini üz-üzə qoyan məsələ status-kvonun hansı dərəcədə təhlükə altında olması idi. Kubanın sərbəst müdaxiləsi status-kvoya təhlükə yaradırdı? Kubanın sovetlər üçün surroqat olan fəaliyyəti real təhlükə idi? Sovetlərin cəlbi Monro doktrinasının və Kennedi-Xruşşov razılaşmasının pozulması və öz-özlüyündə status-kvoya təhlükə idi? Con F.Kennedidən başlayaraq gələn növbəti administrasiyalar bu məsələyə xitab etməyə məcbur edilirdi. 1983-cü il oktyabrın 25-də Reyqan administrasiyası guya adadakı təxminən 1000 amerikalının həyatını qorumaq üçün Qrenadaya hücum etdi, lakin, əslində, bu ona görə baş verdi ki, Qrenada Karib regionunun istənilən nöqtəsində Kuba və sovet müşavirlərinin göstərişləriylə idarə olunan hərbi əməliyyatlar üçün arsenal hesab edilirdi. İcmalçılar Kuba və sovet fəaliyyətlərinin regiondakı status-kvoya həqiqətən təhlükə yaradıb-yaratmadığını soruşmaqda davam edirdilər; Avropa və Amerikada bir-birinə zidd cavablar irəli sürüldü, prezident Reyqanın siyasəti tənqidi tədqiqatların mövzusu oldu. Kuba-sovet əməkdaşlığının və Amerika siyasətçilərinin onlara cavabının müəyyən edilməsinin qiymətləndirilmə meyarı qüvvələr bölgüsündə, demək ki, status-kvoda əhəmiyyətli dəyişikliyin baş verib-verməməsi idi.

5. Güc uğrunda mübarizə: imperializm

İMPERİALİZM NƏ DEYİL?

Virciniya adalarının ABŞ tərəfindən ələ keçirilməsinin obyektiv analizi bunun həmin regionda status-kvo siyasətinin bir hissəsi olduğunu göstərə bilər. Bununla belə, ABŞ-ın Karib regionunda mövqeyini möhkəmləndirməyə yönəlmiş bu kimi və buna oxşar hərəkətlərinin əhəmiyyəti müşahidəçilər tərəfindən imperialist hərəkətlər olaraq azaldılır. Bu kimi icmalçılar "imperialist" terminindən xarici siyasətin xüsusi bir növünü obyektiv şəkildə xarakterizə etmək məqsədilə deyil, icmalçının qarşı çıxdığı siyasəti etibardan salmaq üçün həqarət termini kimi istifadə ediblər. Termindən polemik məqsədlər üçün əsassız istifadə o qədər genişləndi ki, bu gün "imperializm" və "imperialist" terminləri fərq qoyulmadan, istifadəçinin əks çıxdığı siyasətin həqiqi xarakterindən asılı olmayaraq, istənilən xarici siyasətə tətbiq olunur.

Anqlofoblar 1914-cü və ya 1940-cı ildə etdikləri kimi, 1980-ci ildə də Britaniya imperializminə bir reallıq kimi baxacaqlar. Rusofoblar rusların xarici siyasətdə atacaqları istənilən addımı imperialist adlandıracaqlar. Sovet İttifaqı 1941-ci ildə Almaniya tərəfindən hücuma məruz qalanadək II Dünya müharibəsinin bütün iştirakçılarının imperialist müharibə apardıqlarını hesab edirdi; o zaman onun aparmalı olduğu müharibə təyinatına görə antiimperialist müharibə oldu. ABŞ-ın düşmənləri və tənqidçiləri üçün "Amerika imperializmi" hər yerdə standart termindir. Bu dolaşıqlığa əlavə olaraq, müəyyən iqtisadi və siyasi sistemlər və iqtisadi qruplar, məsələn, bankirlər və sənayeçilər fərq qoyulmadan imperialist xarici siyasət ilə eyniləşdirilirlər.

"İmperializm" termini bu dolaşıq istifadə prosesində tam konkret mənasını itirmişdir. Hər kəs onun xarici siyasətinə etiraz edən üçün imperialistdir. Belə bir vəziyyətdə nəzəri analizin vəzifəsi terminə etik cəhətdən bitərəf, obyektiv və tərif verilə bilən, eyni zamanda beynəlxalq siyasətdə nəzəri və təcrübi baxımdan faydalı məna vermək üçün məlum ənənəni sındırmaqdır.[1]

[1] Termin çox vaxt istənilən növ müstəmləkə ekspansiyası ilə sinonim kimi istifadə olunur. Məsələn, bax: Parker Tomas Moon, *Imperialism and World Politics* (New York: Macmillan, 1926). Nəzəri nöqteyi-nəzərdən belə istifadə qeyri-obyektivdir, çünki o bu kimi ekspansionist siyasətlərin təbiətinə dair ümumi nəzəriyyə irəli sürmür. Biz mətndə ekspansiya siyasətinin ümumi xarakterindən bəhs etdiyimiz üçün, aydın məsələdir ki, anlayışın müstəmləkə ekspansiyası fenomeni ilə məhdudlaşdırılması bizim məqsədlərimiz üçün çox dardır.

İmperializmin, əslində, nə olduğunu soruşmazdan əvvəl gəlin imperializmin nə olmadığı, lakin əksər hallarda o olduğu güman edildiyini soruşaq. Üç ən məşhur yanlış təsəvvür diqqətimizi cəlb edir:

Xalqın gücünü artırmaq məqsədini hədəf alan hər xarici siyasət mütləq şəkildə imperializmin təcəssümü deyil. Biz artıq bu yanlış təsəvvürü status-kvo siyasətinə dair müzakirəmizdə aradan qaldırmışıq.[1] Biz imperializmi status-kvonu pozan, iki və daha artıq xalq arasında güc münasibətlərini dəyişən siyasət kimi təyin etmişdik. Yalnız uzlaşma axtarışında olan, bu güc münasibətlərinin mahiyyətinə zərər vurmayan və hələ də status-kvo siyasətinin çərçivəsində fəaliyyət göstərən siyasət kimi.

İmperializmin və istənilən məqsədyönlü güc artımının eyni olduğuna dair baxışlar, əsasən, iki müxtəlif qrupa məxsusdur. Prinsip etibarilə ayrıca bir xalqa və onun siyasətinə qarşı çıxanlar, məsələn, anqlofoblar, rusofoblar, antiamerikalılar öz qorxu obyektlərinin mövcudluğunun özünü dünya üçün təhlükə hesab edirlər. Belə qorxuya düşmüş bir xalq öz gücünü nümayişkaranə şəkildə artırdığı vaxt onu qorxudanlar güc artımını dünya istilası yolunda istinad nöqtəsi kimi qiymətləndirməlidir ki, bu da imperialist siyasətin təzahürüdür. Digər tərəfdən, XIX əsr siyasi fəlsəfəsinin varisləri kimi istənilən fəal xarici siyasəti təxmin edilə bilən gələcəkdə yox olmağa məhkum pislik hesab edənlər güc artımına can atan siyasəti qınayırlar. Onlar bu xarici siyasəti onlar üçün pisliyin paradiqması olan imperializm ilə eyniləşdirirlər.

Artıq mövcud olan imperiyanı qoruyub saxlamaq məqsədi güdən hər xarici siyasət imperializm deyil. Geniş yayılmış belə bir inam mövcuddur ki, müəyyən regionlarda öz üstün mövqeyini müdafiə məqsədilə bir xalqın, məsələn, Böyük Britaniya, Çin, Sovet İttifaqı, yaxud ABŞ-ın atdığı istənilən addım imperialistdir. Beləliklə, imperializm yeni bir imperiya yaratmağa yönəlik dinamik prosesdən daha çox, artıq mövcud olan bir imperiyanın qorunub saxlanması, müdafiəsi və sabitləşdirilməsi kimi müəyyənləşdirilir. Lakin "imperializm" terminini mövcud imperiyanın daxili siyasətinə tətbiq etmək bir məna kəsb etsə də, həmin termini mahiyyət etibarilə statik və mühafizəkar xarakter daşıyan beynəlxalq siyasətə tətbiq etmək çaşdırıcı və yanıldıcıdır, çünki beynəlxalq siyasətin imperializmi status-kvo siyasətiylə təzad təşkil edir və odur ki dinamik məna çalarına malikdir. Bu mənada, adətən, "Britaniya imperializmi" adlandırılan bir mövcudluğun tarixi ibrətvericidir.

Britaniya imperializmi ideyası mənbəyini Böyük Britaniyanın özündən götürür. Bu, ilk dəfə Dizraelinin rəhbərliyi altında olan mühafizəkarlar tərəfindən

[1] Məsələyə dair bax: IV fəsildəki müzakirələr

1874-cü ilin seçki kampaniyasında istifadə olunub. Britaniya imperializmi ideyası Dizraeli tərəfindən irəli sürülüb və sonralar Cozef Çemberlen və Uinston Çörçill tərəfindən inkişaf etdirilib və o, liberalların kosmopolitizm və beynəlmiləlçilik adlandırdıqları məfhumların əleyhinə çıxıb. O, dəqiq ifadəsini "imperiya federasiyası" kimi tanınan siyasi proqramda tapıb. Bu proqramın ən əhəmiyyətli müddəaları bunlardır: (1) Böyük Britaniyanın və onun mülklərinin qoruyucu tariflər vasitəsilə bir birləşmiş imperiyada unifikasiyası və inteqrasiyası, (2) ingilislər üçün boş müstəmləkə torpaqlarının saxlanması, (3) birləşmiş silahlı qüvvələr və (4) Londonda mərkəzi nümayəndəli orqan.

Bu "imperialist proqram" irəli sürüləndə və gerçəkləşdiriləndə Böyük Britaniyanın ərazi ekspansiyası, əsasən, sona çatdı. Odur ki Britaniya "imperilizmi" proqramı mahiyyətinə görə ekspansiya proqramı deyil, birləşdirmə proqramıdır. O artıq əldə olunanları mühafizə və istismar etməyə cəhd edirdi. O, Britaniya imperiyasının yaranması ilə təşəkkül tapmış qüvvələr bölgüsünü sabitləşdirməyə çalışırdı.

Kiplinq Britaniya imperializmini "ağ adamın boyunduruğu" kimi qiymətləndirəndə boyunduruq artıq çiyinə alınmışdı. 1870-ci illərdən başlayaraq Britaniya "imperializmi", yəni Britaniyanın dənizin arxasındakı mülklərinə yönəlik siyasəti, sözün əsl mənasında, əsas etibarilə imperialist deyil, status-kvo siyasəti idi. Lakin Britaniyada və başqa yerlərdəki antiimperialistlər Dizraeli və Çemberlenin imperialist şüarlarını göründüyü kimi qəbul edərək və imperializmin onun özü üçün təsirlərini düzgün dərk etməyərək, "imperialist" olduğu üçün xüsusilə Afrika və Hindistanda Britaniyanın istismar və birləşmə siyasətinə qarşı çıxdılar. Əslində, Çörçill 1942-ci ildə "Britaniya imperiyasının ləğvinə rəhbərlik etməyə" etiraz edəndə o bir imperialist deyil, xarici siyasətdə imperiya status-kvosunun müdafiəçisi olan bir mühafizəkar kimi çıxış edirdi.

Britaniya "imperializmi" və onun opponentləri bir tərəfdə imperiyanın birləşməsi və müdafiəsi ilə, digər tərəfdə imperializm arasında qarışıqlığın məşhur nümunələridir. Lakin onlar yeganə nümunə deyil. Biz Roma imperiyası və Roma imperializmi haqqında danışanda təbii olaraq Roma tarixinin hökmdarlıq edən birinci imperator Avqust ilə başlayan, o zaman ilk dəfə *imperium Romanum* adlanan dövrünü nəzərdə tuturuq. Lakin Avqust Romaya və onun mülklərinə imperiyanın konstitusiyasını verəndə Romanın ekspansiyaları, demək olar ki, sona çatdı. Respublikanın Pun müharibələrindən başlayıb onun Yuli Sezar tərəfindən ləğvinədək olan dövrdəki xarici siyasəti, sözün həqiqi mənasında, əsl imperialist siyasət idi. Bu dövrdə Yer kürəsinin siyasi görüntüsü dəyişmiş və bir Roma havasına bürünmüşdü. İmperatorların xarici siyasəti və arasıkəsilməz müharibələri əvvəllər istila olunanları mühafizə və müdafiə etməkdən ibarət olan əsas məqsədə

xidmət edirdi. Böyük Britaniyanın Dizraelidən Çörçillə qədər olan "imperialist" siyasətindən fərqli olmayaraq, Roma xarici siyasəti də status-kvonun mühafizəsinə yönəlmiş siyasət idi. Məsələn, Troyanın hakimiyyəti altında istilaların həyata keçirildiyi vaxt yürüdülən siyasət imperiyanın qurulmasına və Romanın hökmranlığının mühafizəsinə xidmət edirdi.

Qeyd olunanlar XX əsrin başlanğıcından İkinci Dünya müharibəsinədək Amerika "imperializmi"nin ərazi aspektləri üçün də, əsasən, həqiqətdir. Amerika imperializmi və ona qarşı əsrin birinci onilliklərində başlayan böyük müzakirə XIX əsrin böyük imperialist ekspansiyası ilə müşayiət olundu. Müzakirələrin mövzusu olan siyasət mahiyyət etibarilə birləşmə, müdafiə, öyrənmə siyasəti, yəni status-kvo siyasəti idi. Uilyam Qraham Samner 1898-ci ildə Amerikanın ərazi ekspansiyası siyasətindən "ABŞ-ın İspaniya tərəfindən istilası"[1] kimi bəhs edərkən o artıq başa çatdırılmış bir siyasəti nəzərdə tuturdu. Senator Albert C.Beveric bəyan edəndə ki, "Allah bizi dövlətçilik sahəsində ona görə bacarıqlı edib ki, vəhşi və zəif xalqlar arasında dövləti idarə edə bilək"[2], o, gələcək üçün planlaşdırılmış ekspansiyaya dəstək verməkdən daha çox, artıq qurulmuş ağalığa haqq qazandırmağa çalışırdı.

Beləliklə, həm Böyük Britaniyada, həm də ABŞ-da imperializmə dair müasir müzakirələrin çoxu imperialist ekspansiyalar prosesindən sonra başlayır və burada proseslərə sonradan nəzər yetirməklə o məzəmmət olunur, yaxud əsaslandırılır. Gələcəkdə yürüdülməli olan real siyasət baxımından müzakirələr, əsasən, imperialist siyasətlər, yəni imperiyanın idarə olunması və mühafizəsi ilə bağlıdır. İzah tapmaq çətin deyil. Böyük debat Böyük Britaniyada Britaniya imperiyasında mühafizəkarlar hakimiyyətə gəldikdən, qitə milliyyətçiliyinin Britaniya nümunəsi yarandıqdan sonra başladı. Nəticədə müstəmləkələrin qəsbi və istismarı imperiya ilə sinonim oldu və bununla da müstəsna hallar nəzərə alınmasa, əsasən, iqtisadi məna çaları qazandı. Bu iqtisadi məna çaları müasir günümüzdə imperializmi izah etməyə çalışan ən geniş, ən sistematik və həmçinin ən populyar düşüncə məktəbinin yüksəlişinə səbəb oldu: imperializmə dair iqtisadi nəzəriyyələr. Burada biz imperializmin həqiqi təbiətinə kölgə salan üçüncü yanlış təsəvvürü üzə çıxarmış oluruq.

[1] Bax: əvvəlki iqtibas, səh. 87, qeyd 1.
[2] Senatdakı nitq, 9 yanvar 1900-cü il, təkrar çap olunub: Ruhl J.Bartlett, *The Record of American Diplomacy*, 4thed. (New York: Alfred A.Knopf, 1964), səh. 385.

İMPERİALİZMƏ DAİR İQTİSADİ NƏZƏRİYYƏLƏR

İmperializmə dair marksist, liberal və "iblis" nəzəriyyələri

İmperializmə dair iqtisadi nəzəriyyələr 3 müxtəlif fikir məktəbində ərsəyə gəlmişdir: marksizm, liberal və tutarlı olaraq imperializmə dair "iblis" nəzəriyyəsi[1] adlandırılan nəzəriyyə.

İmperializmə dair marksizm nəzəriyyəsi marksist düşüncənin əsasını təşkil edən belə bir hökmə dayanır ki, bütün siyasi proseslər iqtisadi güclərin inikasıdır. Nəticə etibarilə imperializm siyasi fenomeni də qaynaqlandığı iqtisadi sistemin məhsuludur ki, həmin sistem də kapitalizmdir. Marksizm nəzəriyyəsinə görə, kapitalist cəmiyyətlər daxildə öz məhsulları üçün kifayət qədər bazar və kapitalları üçün kifayət edə biləcək investisiyalar tapmaq iqtidarında deyil. Ona görə də onlar hətta böyük qeyri-kapitalist və son anda hətta kapitalist ərazilərini onları öz artıq məhsulları üçün bazarlara çevirmək və artıq kapitalları üçün investisiya imkanları yaratmaq məqsədilə əsarət altına almaq meylinə malikdir.

Mötədil marksistlər, məsələn, Kautski və Hilferdinq inanırdılar ki, imperializm kapitalizm siyasətidir və ona görə də imperialist siyasət kapitalizmin şəraitə uyğun olaraq az və ya çox dərəcədə meyillənə biləcəyi seçim məsələsidir. Digər tərəfdən, Lenin[2] və onun davamçıları, xüsusilə Buxarin[3] imperializm və kapitalizmi tamamilə eyniləşdirdilər. İmperializm kapitalizm ilə onun sonuncu, yəni monopoliya inkişaf mərhələsində eyniləşir. Leninə əsasən, "imperializm öz inkişafının o fazasında kapitalizmdir ki, monopoliyalar və maliyyə-kapitalın ağalığı təşəkkül tapıb; kapitalın ixracı böyük əhəmiyyət kəsb edir; dünyanın böyük beynəlxalq konsernlər arasında bölünməsi başlayıb; Yer kürəsinin bütün ərazisinin böyük kapitalist dövlətləri arasında bölünməsi başa çatıb".[4]

Marksistlərin gözündə əsas pislik kapitalizmdir, imperializm isə onun yalnız zəruri və ehtimali təzahürüdür. Əsas təmsilçisi Con A.Hobson[5] olan liberal

[1] Charles A.Beard, *The Devil Theory of War* (New York: Vanguard Press, 1936); Həmçinin bax: *The New Republic*, Vol. 86 (March 4, 11, 18, 1936)
[2] *Collected Works* (New York: International Publishers, 1927), Vol. XVIII; *Selected Works* (New York L International Publishers, 1935), Vol. V.
[3] *Imperialism and World Economy* (New York: International Publishers, 1929). Mətndə adı çəkilən yazıçılardan başqa, imperializmə dair marksizm nəzəriyyəsinin inkişafına xüsusilə təsir göstərmiş yazıçılardan Roza Lüksemburq və Frits Şternberqin adı çəkilməlidir. Sonuncunun işi: *The Coming Crisis* (New York: John Day, 1946).
[4] *Imperialism, the Highest Stage of Capitalism* (New York: International Publishers, 1933), səh. 72.
[5] *Imperialism* (London: G.Allen and Unwin, 1938)

məktəb imperializmdən kapitalizmə dair sonda belə nəticəyə gəlməklə deyil, kapitalist sistem daxilində müəyyən yanlış tənzimləmələr formasında bəhs edir. Marksizmə uyğun olaraq, liberal məktəb imperializmin kökü kimi xarici bazarlara yol tapmağa çalışan artıq məhsullar və kapitalı təyin edir. Lakin Hobsona və onun məktəbinə görə, imperialist ekspansiya həmin artıqlıqları yönəltmənin qaçılmaz və hətta ən rasional üsulu deyil. Artıqlıqlar alıcılıq qabiliyyətinin yanlış bölüşdürülməsinin nəticəsi olduğundan əlac daxili bazarın islahatlar yolu ilə genişləndirilməsindədir, məsələn, alıcılıq qabiliyyətinin artırılması və ifrat qənaətin aradan qaldırılması. İmperializmə belə bir daxili alternativə bu cür inam liberal məktəbi marksizm məktəbindən fərqləndirən əsas cəhətdir.

İmperializmə dair "iblis" nəzəriyyəsi ona həmkar olan digər iki nəzəriyyə ilə müqayisədə daha aşağı intellektual səviyyədə fəaliyyət göstərir. O, pasifistlər tərəfindən geniş şəkildə müdafiə olunur və kommunist təbliğatının istifadə vasitəsinə çevrilib. Deyə bilərik ki, o, 1934-1936-cı illərdə ABŞ Senatı adından ABŞ-ın Birinci Dünya müharibəsinə qoşulmasına maliyyə və sənaye maraqlarının təsirini araşdıran Nay Komitəsinin rəsmi fəlsəfəsi olub. Bu komitənin araşdırmalarının səbəb olduğu səs-küyün hesabına imperializmə dair "iblis" nəzəriyyəsi bir müddət ABŞ-da xarici işləri izah edən ən populyar nəzəriyyə oldu. Nəzəriyyənin bəsitliyi onun daha çox populyar olmasına töhfə vermişdir. O, müharibədən açıq xeyir götürən müəyyən qrupları aşkar etdi, məsələn, hərbi texnika istehsalı ilə məşğul olanlar, beynəlxalq bankirlər ("Wall Street") və bu kimi digərləri. Bununla da müharibədən xeyir götürənlər "müharibə alverçiləri"nə, varlanmaq məqsədilə müharibələr planlaşdıran "iblislər"ə çevrilirlər. İfratçı marksistlər kapitalizm və imperializmi birləşdirdikləri və mötədil marksistlər və Hobsonun davamçıları imperializmi kapitalist sistemi daxilində yanlış tənzimləmələrin nəticəsi kimi gördükləri halda, "iblis" nəzəriyyəsinin tərəfdarlarına görə, imperializm və müharibə mənfur kapitalistlərin şəxsi mənfəət məqsədilə törətdikləri qəsddən başqa bir şey deyil.

Bu nəzəriyyələrin tənqidi

İmperializmə dair bütün işlənmiş, həmçinin primitiv iqtisadi şərhlər tarixi təcrübə sınağında uğursuzluğa uğrayıb. İmperializmin iqtisadi şərhi bir neçə təcrid olunmuş hadisəyə əsaslanan məhdud tarixi təcrübədən tarixin universal qanununu yaradır. Doğrudan da, XIX əsrin sonu-XX əsrdə az sayda müharibələrin, müstəsna hallar nəzərə alınmasa, əsasən, iqtisadi məqsədlərlə aparıldığı həqiqətdir. 1899-1902-ci illər Bur müharibəsi və Boliviya və Paraqvay arasında 1932-1935-ci illər Cako müharibələri bunun klassik nümunələridir. Bur müharibəsi üçün əsas məsuliyyət daşıyıcılarının Britaniya qızıl hasilatı maraqları olduğu şübhəsizdir.

Bəziləri Cako müharibələrinin başlıca olaraq iki neft şirkəti arasında neft mədənləri üzərində nəzarət uğrunda aparıldığını hesab edirlər.

Lakin yetkin kapitalizmin bütöv bir mərhələsində Bur müharibəsi istisna olmaqla aparıcı dövlətlər tərəfindən aparılan heç bir müharibə müstəsna formada, yaxud əsas etibarilə iqtisadi məqsədlər daşımayıb. Məsələn, 1866-cı il Avstriya-Prussiya müharibəsi, 1870-ci il Fransa-Almaniya müharibəsi heç bir əhəmiyyətli iqtisadi məqsədə malik olmayıb. Onlar siyasi, daha dəqiq desək, imperialist müharibələr olub, birinci müharibədə Almaniya daxilində Prussiyanın xeyrinə və daha sonra Avropa dövlətləri sistemi daxilində Almaniyanın xeyrinə yeni qüvvələr bölgüsü formalaşdırmaq məqsədilə aparılıb. 1854-1856-cı illər Krım müharibəsi, 1898-ci il İspaniya-Amerika müharibəsi, 1904-1905-ci illər rus-yapon müharibəsi, 1911-1912-ci illər Türkiyə-İtaliya müharibəsi və bəzi Balkan müharibələri əgər, ümumiyyətlə, hər hansı iqtisadi məqsəd nümayiş etdiribsə də belə, bunlar yalnız ikinci dərəcəli rola malik olub. İki dünya müharibəsi, heç bir şübhəsiz, istiqamətverici qüvvəsi dünyada olmasa belə, Avropada hegemonluğa yiyələnmək olan siyasi müharibələr idi. Təbii ki, bu müharibələrdə qələbə iqtisadi mənfəətlər də gətirdi, daha da dəqiqləşdirsək, məğlubiyyət özündən sonra iqtisadi itkilər miras qoydu. Lakin bu nəticələr məsələnin əsli deyildi, yalnız qələbə və məğlubiyyətin siyasi nəticələrinin ikinci dərəcəli məhsulu idi. Daha da azı, bu iqtisadi nəticələr cavabdeh dövlət adamının beynində müharibə və sülh məsələsini təyin edən motivlər deyildi.

Beləliklə, imperializmə dair iqtisadi nəzəriyyələr imperializm, yəni kapitalizm dövrü ilə eyniləşdirilməsə belə, sıx bağlı olduqları güman edilən tarixi dövrün təcrübəsi ilə təsdiq olunmur. Bundan əlavə, iqtisadi nəzəriyyələrin imperializm ilə eyniləşdirməyə cəhd etdikləri müstəmləkə ekspansiyalarının əsas mərhələsi yetkin kapitalizm dövründən daha əvvələ təsadüf edir və dağılmaqda olan kapitalist sisteminin daxili ziddiyyətlərinə aid edilə bilməz. XVI, XVII və XVIII əsrlərlə müqayisədə XIX və XX əsrlərin müstəmləkə qəsbləri kiçik idi. Kapitalizmin sonuncu fazası hətta imperiyanın Böyük Britaniya, Fransa, Portuqaliya və Hollandiyanın Asiya və Afrikadan geri çəkilməsi formasında geniş miqyasda ləğvinin şahidi olur.

Əgər iqtisadi nəzəriyyələri kapitalizmdən əvvəlki imperiya qurulması proseslərinin təqdim etdiyi dəlillərə qarşı sınaqdan keçirsək, tarixin dəlillərinin həmin nəzəriyyələrə məxsus baxışlar üçün hələ də çox əlverişsiz olduğunu görərik. Qədim dövrlərdə Misir, Assuriya və fars imperiyalarının yaradılmasına gətirib çıxaran siyasətlər siyasi mənada imperialist idi. Bu sözləri Böyük İsgəndərin istilaları və xristian erasından əvvəl sonuncu əsrdə Romanın siyasətləri haqqında da söyləmək olar. VII-VIII əsrlərdə ərəb ekspansiyaları imperializmin bütün fərqləndirici

xüsusiyyətlərini nümayiş etdirdi. Papa II Urban 1095-ci ildə Klement şurası qarşısında I Xaç yürüşünün səbəblərini ifadə edən zaman imperialist siyasətin müdafiəsi məqsədilə tipik ideoloji arqumentlərdən istifadə etdi: "Sizin məskunlaşdığınız, bütün tərəflərdən dənizlərlə qapanan və dağ zirvələri ilə əhatə olunan bu torpaq çoxsaylı əhaliniz üçün çox darısqaldır; o, var-dövlətlə zəngin deyil və əkinçiləri güclə lazımi qədər yeməklə təmin edir. Ona görə də siz bir-birinizi öldürməli və yeməli, müharibə aparmalı və sizin aranızdan çoxu sivil mübarizədə tələf olmalıdır".[1] XIV Lüdoviq, Böyük Pyotr və I Napoleon müasir kapitalizmdən öncəki dövrün böyük imperialistləri olub.

Kapitalizmdən əvvəlki dövrün bütün imperializmləri kapitalist dövrün imperializmləri ilə təşəkkül tapmış güc münasibətlərinin aradan qaldırılması və onların yerində imperialist gücün ağalığının qurulması meylini bölüşür. Bundan əlavə, həmin iki imperializm mərhələsi, həmçinin iqtisadi məqsədlərin siyasi mülahizələrə tabe etdirilməsində ortaq cəhətə malikdir.

Böyük İsgəndər və I Napoleon şəxsi mənfəət məqsədilə və yaxud iqtisadi sistemlərinin yanlış təzimləmələrindən qaçmaq üçün imperialist siyasətə Adolf Hitlerdən çox girişməyiblər. Onların qarşılarına qoyduqları məqsəd sənaye rəhbərinin fəaliyyət göstərdiyi sənaye sahəsində monopolist, yaxud yarımmonopolist tərzdə ağalıq edə bilənədək müəssisə üzərinə müəssisə əlavə etməklə, sənaye "imperiyası" yaratmağa cəhd edən zaman qarşısına qoyduğu məqsədlə eynidir. Kapitalizmdən əvvəlki imperialistin, kapitalist imperialistin və "imperialist" kapitalistin istədiyi gücdür, iqtisadi mənfəət deyil. Sənaye rəhbəri artıq "imperialist" məqsədinə doğru I Napoleon qədər iqtisadi zərurət və şəxsi hərislikdən çıxış edərək irəliləmir. Şəxsi mənfəət və imperialist ekspansiya vasitəsilə iqtisadi problemlərin həlli onların hamısı üçün xoşagələn bir kələk, arzuolunan yad məhsuldur, lakin imperialist meyli cəlb edən məqsəd deyil.

Gördük ki, imperializm kapitalizm və ya digər növ iqtisadiyyat ilə təyin edilmir. İndi isə görəcəyik ki, kapitalistlər də öz-özlüyündə imperialist deyillər. İqtisadi nəzəriyyələrə, xüsusilə də "iblis" nəzəriyyəsinə əsasən, kapitalistlər hökumətlərdən imperialist siyasətin yürüdülməsi üçün təhrikedici alət kimi istifadə edirlər. Bununla belə, iqtisadi şərhə yardım etmək üçün istinad olunan tarixi nümunələrin tədqiqi göstərir ki, əksər hallarda dövlət adamları və kapitalistlər arasında, həqiqətən, qarşılıqlı əks-əlaqə mövcuddur. İmperialist siyasətlər ümumən hökumətlər tərəfindən düşünülüb və onlar kapitalistləri bu siyasətləri dəstəkləməyə çağırıblar. Bu tarixi fakt siyasətin iqtisadiyyat üzərində üstünlüyünə

[1] F.A.Ogg. editor, *A Source Book of Medieval History* (New York: American Book Company, 1907), səh. 286.

işarə edir və "maliyyəçinin ... beynəlxalq siyasət üzərində rəhbərliyi", əslində, professor Şumpeterin sözləriylə desək, "qəzet nağılı, demək olar ki, faktlara uyğun gəlməyən cəfəngiyyatdır".[1]

Bununla belə, təhrikedici olmaqdan uzaq olan bir qrup kapitalist – bəzi fərdi kapitalistlərdən fərqli olaraq – imperialist siyasətlərin həvəskar tərəfdarı belə deyildi. Müasir cəmiyyətlərdə kapitalist elementi təmsil edən qrupların və siyasi partiyaların ədəbiyyatı və siyasəti ticarətçi və istehsalatçı siniflərin, məsələn, imperializm kimi müharibəyə apara biləcək istənilən xarici siyasətə ənənəvi müxalifliyinin sübutudur. Professor Vayner yazırdı:

"Pasifizm, beynəlmiləlçilik, münaqişələrə dair beynəlxalq barışıq və razılaşma, tərk-silah tərəfdarı olanlar əsas etibarilə orta siniflər idi. Ekspansionist, imperialist, şovinist olanlar əsas etibarilə aristokratlar, aqrarilər və çox vaxt şəhərli fəhlə sinifləri idi. Napoleon müharibələri, Krım müharibəsi, Bur müharibəsi zamanı, eləcə də Hitlerin yüksəlişindən Polşanın işğalına qədər olan dövrdə barışıq yaratmağa çalışanlar Britaniya Parlamentində "maliyyə dairələri"nin, şimal sənaye rayonlarında yaranmağa başlayan orta siniflərin və Londonda Sitinin sözçüləri idi. Bizim öz ölkəmizdə Amerika inqilabı, 1812-ci il müharibəsi, 1898-ci il imperializmi və Ruzvelt administrasiyasının Pörl-Harbordan əvvəlki antinasist siyasətinə ən ciddi müxaliflik biznes dairələrinə məxsus idi".[2]

XVIII əsrin əvvəlində *"Spectator"*da ser Endryu Friportdan başlamış bizim dövrümüzdə Norman Ancelin *"Böyük illüziya"*sına qədər bir sinif olaraq, eləcə də fərdi olaraq kapitalistlər belə bir inamdan çıxış edirlər ki, "müharibə haqqını ödəmir", müharibə sənaye cəmiyyəti ilə müqayisəyə gəlmir, kapitalizmin maraqları müharibə deyil, sülhdür. Çünki yalnız sülh kapitalist fəaliyyətlərin əsaslandığı rasional hesablamalara şərait yaradır. Müharibə irrasionallıq və xaos elementi

[1] Joseph Schumpeter, *Business Cycles* (New York and London: McGraw-Hill, 1939), Vol. 1, səh. 495, n. 1

[2] Jacob Viner, "Peace as an Economic Problem," *International Economics* (Glencoe: Free Press, 1951), səh. 255. Müqayisə et: Nyu-York və Nyu-İnqland tacirlərinin Vətəndaş müharibəsinə müxalifliyinə dair, Philip S.Foner, *Business and Slavery: The New York Merchants and the Irrepressible Conflict* (Chapel Hill: Uiversity of North Carolina Press, 1941) və Dizraelinin lord Solisberiyə 26 sentyabr 1876-cı il tarixli müraciəti: "Bütün ölkələrdə bütün maliyyə və kommersiya sinifləri müharibənin əleyhinədir..." Bu baxımdan, həmçinin Britaniyanın Almaniyadakı şəfirinin Birinci Dünya müharibəsi ərəfəsində, 1914-cü il iyunun 30-da Xarici Siyasət İdarəsinə göndərdiyi məlumat da əhəmiyyətlidir: "Əslində, mənə bütün tərəflərdən xəbər gəlir ki, maliyyə və sənaye sinifləri istənilən halda müharibəyə qəti şəkildə qarşıdır..." *British Documents on the Origin of War, 1898-1914* (London: His Majesty's Stationary Office, 1926), Vol. XI, səh. 361.

daşıyır ki, bu da kapitalizmin ruhunun özünə yaddır. İmperializm isə mövcud güc münasibətlərini aradan qaldırmaq cəhdi kimi qaçılmaz müharibə riski daşıyır. Bu halda kapitalistlər müharibəyə qarşı çıxdılar; onlar müharibəyə gətirib çıxara biləcək və çox vaxt da gətirib çıxaran imperialist siyasətlərin təşəbbüskarı olmadılar, yalnız tərəddüdlərlə və təzyiq altında onu dəstəkləyirdilər.

Necə olur ki, təcrübi faktlarla heç bir şəkildə uyğun gəlməyən, imperializmə dair iqtisadi nəzəriyyələr kimi bir təlim insan düşüncəsinə hakim kəsilə bilib? Bu təlimin uğuru üçün iki amil məsuliyyət daşıyır: Qərb dünyasında düşüncə mühiti və təlimin özünün xarakteri. Biz artıq dövrün siyasi problemlərini iqtisadi problemlər səviyyəsinə qədər kiçiltməyə yönəlmiş ümumi tendensiyadan bəhs etmişik.[1] Kapitalistlər və onların tənqidçiləri bu fundamental səhv üçün bərabər dərəcədə günahkardırlar. Birincilər kapitalizmdən əvvəlki dövrün atavist buxovlarından azad olmuş və yalnız özünəməxsus qanunlara riayət edən kapitalizmin inkişafından ümumi rifah və sülh gözləyirdilər. İkincilər inanırdılar ki, bu məqsədlərə yalnız islahatlar və kapitalist sistemin ləğvi ilə nail olmaq olar. Hər iki düşərgə siyasi problemlərin həlli üçün iqtisadi çarələr axtarırdı. Bentam müstəmləkələrin azad edilməsini müharibəyə aparan imperialist münaqişələrin aradan qaldırılması vasitəsi kimi təbliğ edirdi. Proudhon, Kobden və onların tərəfdarları beynəlxalq münaqişələrin yeganə mənbəyini tariflərdə görürdülər və belə bir mülahizə ilə çıxış edirdilər ki, sülh artan azad ticarətdədir.[2]

Zəmanəmizdə eşitmişik ki, Almaniya, İtaliya və Yaponiya imperializmi iqtisadi ehtiyaclardan doğulub, bu ölkələr borc pul, müstəmləkələr və xammal ehtiyatlarına giriş əldə edə bilsəydi, imperialist siyasətlərdən də imtina edərdi. Arqument belədir ki, kasıb xalqlar iqtisadi fəlakətdən qaçmaq üçün müharibəyə gedir; əgər zəngin xalqlar iqtisadi çətinliklərini yüngülləşdirsə, onların müharibəyə getmək üçün heç bir səbəbi olmaz. Kapitalizmin klassik dövründə kapitalist sistemin həm tərəfdarları, həm də əleyhdarları inanırdılar ki, biznesmenlərin hərəkətlərini təyin etdikləri görünən iqtisadi motivlər bütün insanların hərəkətlərini yönləndirir.

İmperializmin iqtisadi şərhinin asanlıqla qəbul edilməsinin digər səbəbi onun həqiqətə uyğunluğundadır. Professor Şumpeterin imperializmə dair marksist nəzəriyyə haqqında söylədikləri, ümumiyyətlə, qüvvəsini saxlayır: "Dövrümüzün həyati faktlar silsiləsi, görünür ki, mükəmməl şəkildə izah olunur. Beynəlxalq siyasətin bütöv bir labirinti, görünür ki, yeganə bir güclü analiz üsulu ilə izah

[1] Bax: səh. 33 və növbəti səhifələr. Həmçinin bax: Hans J.Morgenthau, *Scientific Man vs. Power Politics* (Chicago: University of Chicago Press, 1946; Phoenix Edition, 1965), səh. 75 ff.
[2] Bax: səh. 112

olunur".[1] İmperializm kimi belə hədələyici, qeyri-insani və çox vaxt öldürücü bir tarixi qüvvənin sirri, onu beynəlxalq siyasətin xüsusi bir növü kimi təyin etməyin nəzəri problemi və hər şeydən əvvəl, onu konkret bir vəziyyətdə dərk etmənin və ona qarşı adekvat üsullarla tədbir görmənin praktiki çətinliyi – bütün bunlar kapitalist sistemin ya məxsusi tendensiyaları, ya da yanlış yönləndirmələri səviyyəsinə qədər kiçildilir. İmperializm fenomeninin özü nəzəri düşüncə və praktiki fəaliyyət kəsb etdikdə adi bir sxem düşüncələrə aydınlıq gətirən, demək olar ki, avtomatik cavabı təmin edəcək.

İMPERİALİZMİN MÜXTƏLİF NÖVLƏRİ

Status-kvonu aradan qaldırmaq üçün düşünülüb tapılmış bir siyasət olaraq imperializmin həqiqi təbiəti ən yaxşı imperialist siyasətin xeyrinə olan bir neçə tipik vəziyyətin nəzərdən keçirilməsi ilə izah oluna bilər və fəal xarici siyasət üçün zəruri subyektiv və obyektiv şərtlərin təmin edilməsi, demək olar ki, hökmən imperializm siyasəti doğuracaq.

İmperializmin 3 səbəbi

Qalibiyyətlə bitən müharibə

Bir xalq digər bir xalq ilə müharibə edəndə çox ehtimal olunur ki, qələbəyə ümid edən xalq məğlub edilmiş düşmən ilə güc münasibətlərini uzun müddətliyinə dəyişmək məqsədi güdən siyasət yürüdəcək. Həmin xalq bu siyasəti müharibənin başlanmasında məqsədlərin nə olmasından asılı olmayaraq yürüdəcək. Bu dəyişiklik siyasətinin məqsədi qalib və məğlub arasında mövcud münasibətləri müharibənin sonunda sülh nizamlamasının yeni status-kvosuna çevirməkdir. Beləliklə, qalib tərəfindən müdafiə müharibəsi kimi – müharibədən əvvəlki status-kvonu qorumaq üçün – başladılan müharibə yaxınlaşan qələbə ilə imperialist, yəni status-kvoda uzunmüddətli dəyişikliklər etmək üçün aparılan müharibəyə çevrilir.

Romalıların karfagenlilər ilə güc münasibətlərini uzun müddətliyinə öz xeyirlərinə dəyişdikləri "Karfagen sülhü" qarşıdurmaların sonunda qalib ilə məğlub arasında mövcud sülhü əbədiləşdirməyə xidmət edən sülh razılaşması növünün nümunəsi oldu. Birinci Dünya müharibəsinə xitam verən Versal müqaviləsi və

[1] Joseph Schumpeter, *Capitalism, Socialism, and Democracy* (New York and London: Harper and Brothers, 1947), səh. 51.

ona əlavə müqavilələr əksər icmalçıların gözündə eyni xarakterə malik idi. İkinci Dünya müharibəsindən sonra sovet təsir dairəsinin Şərqi Avropaya yayılması xüsusilə Helsinki aktında qəbul edilmiş formada digər bir nümunədir. Bu növ sülh tənzimləmələrini qarşıya məqsəd qoymuş bir siyasət, bizim verdiyimiz təyinə görə, imperialist adlanır. O ona görə imperialistdir ki, təxminən bərabər və yaxud ən azından o qədər də qeyri-bərabər olmayan dövlətlər bir-birinə qarşı çıxanda müharibədən əvvəl mövcud olmuş status-kvonu müharibədən sonrakı, qalibin məğlub üzərində uzunmüddətli ağalığa sahib olduğu status-kvo ilə əvəz etməyə çalışır.

Məğlubiyyətlə bitən müharibə

Daimilik niyyəti daşıyan həmin bu tabeçilik statusu asanlıqla məğlub olan tərəfdə qalib üzərində üstünlüyü yenidən ələ keçirmək, onun qələbəsiylə yaranmış status-kvonu aradan qaldırmaq və güc iyerarxiyasında yerini onunla dəyişmək arzusu doğura bilər. Başqa sözlə, qalib tərəfindən qələbə ümidi ilə yürüdülən imperializm siyasəti, güman ki, məğlub olan tərəfdə imperializm siyasəti doğuracaq. Əgər o, yer üzündən silinməyibsə, yaxud qalib onu öz tərəfinə çəkməyibsə, məğlub olan itirdiklərini geri qaytarmağı və mümkündürsə, daha çoxunu əldə etməyi arzu edəcək.

Digərləri tərəfindən yürüdülən uğurlu imperializm siyasətinə qarşı reaksiya kimi nəzərdə tutulan tipik imperializm nümunəsi 1935-ci ildən İkinci Dünya müharibəsinin sonunadək mövcud olmuş alman imperializmidir. 1914-cü ildə Avropada mövcud olmuş status-kvo Avstriya, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya və Rusiyadan ibarət böyük dövlətlər konsertiylə xarakterizə olunurdu. Müttəfiqlərin qələbəsi və nəticədə imzalanan sülh müqavilələri Fransanın imperialist siyasətinin bəhrəsi olan yeni status-kvo yaratdı. Bu yeni status-kvo Fransanın Şərqi və Mərkəzi Avropanın əksər yeni yaranmış dövlətləriylə birlikdə həyata keçirilən hegemonluğunu təşkil etdi.

Almaniyanın 1919-1935-ci illər xarici siyasəti zahirən status-kvonun çərçivəsində fəaliyyət göstərdiyi halda, gizli olaraq onu dağıtmağa hazırlıq görürdü. O, Almaniya üçün imtiyazlar əldə etməyə çalışırdı, lakin, bununla belə, ən azından hələlik və qərarsızlığını açıq bəyan etmədən Versal müqaviləsiylə təşəkkül tapmış status-kvonu qəbul edirdi. O bu güc münasibətlərinə açıq şəkildə etiraz etmirdi; daha çox onların mahiyyətinə ziyan vurmayan nizamlamaları hədəf alırdı. Xüsusilə Veymar respublikasının yürütdüyü "icra siyasəti" – yəni Versal müqaviləsinin icrası – belə bir xüsusiyyətə malik idi. Milliyətçilərdə və milli sosialistlərdə kəskin etiraz doğuran da Versal müqaviləsiylə yaranan status-kvonun müvəqqəti olsa da belə, qəbul olunması

şəraitində Almaniyanın beynəlxalq mövqeyinin yaxşılaşdırılmasına edilən cəhd idi. 1933-cü ildə milli sosialistlər hakimiyyətə gəldikdən və daxildəki rejimlərini sabitləşdirdikdən sonra 1935-ci ildə onlar Versal müqaviləsinin tərk-silaha dair müddəalarından imtina etdilər. 1936-cı ildə həmin müqaviləni pozaraq Reyn zonasını işğal etdilər və Almaniya-Fransa sərhədinə bitişik Almaniya ərazisinin demilitarizasiya rejiminin ləğv olunduğunu elan etdilər. Bu gedişlərlə milli sosialist Almaniyasının xarici siyasəti açıq şəkildə imperialist forma aldı; çünki bunlar Almaniyanın Versal müqaviləsiylə təşəkkül tapan status-kvonu artıq öz xarici siyasəti üçün təməl olaraq qəbul etməmək, əksinə, həmin status-kvonu aradan qaldırmaq istiqamətində fəaliyyət göstərmək qərarını əks etdirən tədbirlər silsiləsində birinci idi.

Zəiflik

İmperialist siyasətlərin xeyrinə olan tipik şəraitlərdən biri də zəif dövlətlərin, yaxud da güclü dövlətlər üçün cəlbedici və əlçatan olan siyasi cəhətdən boş ərazilərin mövcudluğudur. Bu, müstəmləkə imperializmini cücərdən şəraitdir. Bu, həmçinin 13 Amerika dövlətinin əzəli federasiyasının qitə gücünə çevrilməsini mümkün edən şəraitdir. Napoleonun, eləcə də Hitlerin imperializmi, sonuncunun xüsusilə 1940-cı ildə "blitzkriq" zamanı qismən bu xüsusiyyətə malik idi. İkinci Dünya müharibəsinin axırıncı fazası zamanı və onu müşayiət edən onillikdə güclü və zəif dövlətlər arasında münasibətlərdən cücərən imperializmin nümunəsi Sovet İttifaqı və Şərqi Avropa ölkələri arasındakı münasibətlərdir. İmperializmin sövqedici motivi olaraq güc vakuumlarının cazibəsi ən azından gücün vacib elementlərindən məhrum olmuş yeni Asiya və Afrika dövlətlərinin əksəriyyətinin mövcudluqları üçün potensial təhlükədir.

İmperializmin 3 məqsədi

İmperializm 3 tipik şəraitdən cücərdiyi üçün o, 3 tipik məqsədə doğru hərəkət edir. İmperializmin məqsədi siyasi cəhətdən təşkil olunmuş bütün Yer kürəsi üzərində hökmranlıq, yəni dünya imperiyasıdır. Bu, təxminən qitə miqyasında imperiya və ya ağalıq da ola bilər. Bu, həmçinin gücün sərt şəkildə lokallaşmış üstünlüyü də ola bilər. Başqa sözlə, imperialist siyasətin gözlənilən qurbanların müqavimət gücü ilə müəyyən edilmiş hüdudlardan başqa, hədləri yoxdur, yaxud o, coğrafi cəhətdən müəyyən edilmiş hüdudlara malik ola bilər, məsələn, qitənin coğrafi sərhədləri, yaxud o, imperialist gücün özünün lokal məqsədləri ilə məhdudlaşa bilər.

Dünya imperiyası

Hüdudları olmayan imperializmin məşhur tarixi nümunələri Böyük İsgəndərin, Romanın, VII-VIII əsrlərdə ərəblərin, I Napoleonun və Hitlerin ekspansionist siyasətləridir. Onların hamısını rasional hüdudlar tanımayan, öz uğurları ilə qidalanan və böyük bir güc tərəfindən dayandırılmazsa, siyasi dünyanın sərhədləri üzərinə gedəcək ekspansiya istəyi birləşdirir.[1] Bu istək haradasa mümkün bir ağalıq obyekti – öz müstəqillikləri ilə istilaçının güc ehtirasına etiraz edən siyasi təşkilatlanmış insanlar qrupu – qalmayanadək davam edəcək. Qarşıda da şahidi olacağımız kimi, hüdudu olmayan imperializmin keçmişdə bu növ imperialist siyasətlərin məhvinə səbəb olan xüsusiyyəti məhz birbaşa olaraq insafsızlıq, istilaya uyğun gələn hər şeyi istila etmək cəhdidir. Yeganə istisna, irəlidə müzakirə edəcəyimiz səbəblərə görə, Romadır.[2]

Qitə imperiyası

Coğrafi cəhətdən təyin olunan imperializm növü Avropa dövlətlərinin Avropa qitəsində üstün mövqe qazanmaq üçün yürütdükləri siyasətdə aydın şəkildə əksini tapır. XIV Lüdoviq, III Napoleon və II Vilhelm buna nümunədir. Kavurun hakimiyyəti altında Piyemont Krallığı, 1912 və 1913-cü illər Balkan müharibələrinin Balkanlarda hegemonluğa can atan müxtəlif iştirakçıları, Aralıq dənizini İtaliya gölünə çevirməyə çalışan Mussolini –bunlar coğrafi cəhətdən təyin olunan imperializmin qitə ilə müqayisədə daha kiçik miqyasda olan nümunələridir. Amerika hakimiyyətinin tədricən Şimali Amerika qitəsinin böyük bir hissəsinə yayılması ilə müşahidə olunan XIX əsr Amerika siyasəti müəyyən istisnalar nəzərə alınmazsa, əsasən, qitənin coğrafi hüdudları ilə təyin olunur; çünki ABŞ Kanada və Meksikanı hökmranlığı altına salmağa cəhd etmədi, baxmayaraq ki, bunu edə bilərdi. Bu halda qitə imperializmi hüdudlarına görə qitənin lokallaşmış bir bölgəsi uyğunlaşdırılır.

[1] Hobbs *"Leviafan"* əsərinin XI fəslində ("Hər kəsin kitabxanası"), səh. 49 və növbəti səhifələr bu məhdudiyyətsiz güc arzusunun klassik analizini verib: "Odur ki mən birinci yerə bütün bəşəriyyətin ümumi meyli olan və yalnız ölümün dayandırdığı əbədi və aramsız güc ardınca güc arzusunu qoyuram. Bunun səbəbi hər zaman insanın artıq nail olduğundan daha yüksək məmnunluğa çatmaq ümidi, yaxud mötədil güclə qane ola bilməməsidir: lakin daha çoxunu əldə etmədən hazırda əlində olanlarla yaxşı yaşamaq üçün güc və vasitə təmin edə bilmir. Bu səbəbdən böyük gücə sahib olan krallar öz səylərini bunun daxildə qanunlarla, xaricdə müharibələrlə təmin etməyə yönəldirlər: və bu artıq baş verəndə yeni arzu yaranır, onların bəzisi yeni istilanın gətirəcəyi şöhrət ilə, bəziləri rahat və şəhvani məmnuniyyət, bəziləri idarəetmə, yaxud müəyyən sahədə üstünlükdən doğan özündənrazılıq və beyinin digər bacarıqlarından yaranır".

[2] Bax: səh. 618 və növbəti səhifələr

İmperializmin həmin qarışıq növü Amerikanın bütövlükdə Qərb yarımkürəsinə münasibətdə xarici siyasətinin mahiyyətini təşkil edir. Monro doktrinası qeyri-Amerika dövlətlərinə münasibətdə Qərb yarımkürəsi üçün status-kvo siyasətini müəyyən etməklə ABŞ-ın arxasında bu region daxilində üstünlüyünü bərqərar edə biləcəyi müdafiə sipəri qurdu. Lakin bu coğrafi hüdudlarda Amerika siyasəti həmişə eyni dərəcə imperialist olmayıb. Mərkəzi Amerika respublikalarına və Cənubi Amerikanın bəzi ölkələrinə münasibətdə o, zaman-zaman açıqcasına imperialist idi, lakin Argentina və Braziliya kimi bəzi başqa dövlətlərlə münasibətlərində o yalnız ABŞ-ın düşünülmüş siyasətin deyil, daha çox təbii proseslərin nəticəsi olan mövcud üstünlüyünü mühafizə etməyə cəhd edirdi. Hətta baxmayaraq ki, ABŞ öz üstünlüyündən bu ölkələr üzərində həqiqi hegemonluq formasında istifadə etmək gücündə idi, o bunu etməmək yolunu seçdi. Burada biz yenə coğrafi cəhətdən məhdud siyasətin ümumi çərçivəsində lokallaşmış imperializm ilə qarşılaşırıq.

Lokal üstünlük

Lokallaşmış imperializmin prototipi XVIII-XIX əsrlər monarxiya siyasətləri arasında tapıla bilər. XVIII əsrdə Böyük Fridrix, XV Lüdoviq, Mariya Tereza, Böyük Pyotr və II Katerina bu növ xarici siyasətin hərəkətverici qüvvələri idi. XIX əsrdə Bismark status-kvonu aradan qaldırmaq və öz seçdiyi hüdudlar daxilində siyasi üstünlük təşkil etməyə cəhd edən imperialist siyasətin müəllifi oldu. Belə bir lokallaşmış imperialist siyasət, qitə imperializmi və hüdudsuz imperializm arasındakı fərq Bismark, II Vilhelm və Hitlerin xarici siyasəti arasındakı fərqdir. Bismark Almaniyanın üstünlüyünü Mərkəzi Avropada, Vilhelm bütün Avropada, Hitler isə bütün dünyada təşkil etmək istəyirdi. Rusiya imperializminin Finlandiya, Şərqi Avropa, Balkanlar, Dardanel bölgəsi və İran üzərində nəzarət kimi ənənəvi məqsədləri də lokallaşmış xarakter daşıyır.

Bu növ imperializmin hüdudları coğrafi cəhətdən məhdud imperializm növü kimi əsas etibarilə arxasına keçməyin ya texniki cəhətdən çətin, ya da siyasi cəhətdən ağılsızlıq olacağı obyektiv təbii gerçəkliklərin məhsulu deyil. Əksinə, onlar, əsasən, bir neçə alternativ arasında azad seçimin nəticəsidir ki, onlardan biri status-kvo siyasəti, digəri qitə imperializmi, üçüncüsü isə lokallaşmış imperializmdir. XVIII əsrdə üçüncü alternativ özünü təklif etdi, çünki hər biri eyni gücdə olan qüvvələrin mövcud konserti qitə imperializminə edilən istənilən cəhdi ümidsizliyə düçar etdi. XIV Lüdoviqin təcrübəsi belə bir cəhdin nə qədər təhlükəli ola biləcəyini göstərdi. Bundan əlavə, XVIII əsrin imperializmi müasir milliyyətçiliyə məxsus kütləvi emosiyalardan deyil, əsas etibarilə monarxiya gücünə dair mülahizələrdən və şöhrətdən qaynaqlanırdı. Bu mülahizələr monarxiya

ənənələrinin və Avropa sivilizasiyasının ümumi çərçivəsində fəaliyyət göstərirdi ki, bu da siyasi səhnənin aktorları üzərinə dini və milli Səlib yürüşləri dövrlərində qətiyyən çatışmayan əxlaqi təmkinlilik öhdəliyi qoyurdu.

XIX əsrdə lokallaşmış imperializm üçün xarakterik olan seçim elementi Bismarkın xarici siyasət tarixində önəmli yer tutur. O, ilk növbədə Almaniya daxilində hegemonluq məqsədilə status-kvo siyasətinə Bismarkın lokallaşmış imperializm siyasətindən daha çox meyil edən Prussiya mühafizəkarlarının müxalifliyini dəf etməli idi. Qalibiyyətlə bitən müharibələr Bismarkın siyasətini mümkün etdi, indi isə onu Bismarkın Prussiya və sonralar Almaniya üçün müəyyən etdiyi hüdudları aşmaq istəyənlərə qarşı qorumaq lazım gəldi. 1890-cı ildə II Vilhelmin Bismarkı işdən çıxarması lokallaşmış imperializmin sonu və Almaniyanın xarici siyasəti kimi qitə imperializminin ən azı tendensiyasının başlanğıcı oldu.

İmperializmin 3 metodu

İmperializmin tipik olaraq baş qaldırdığı vəziyyətlərə uyğun olaraq 3 növü, həmçinin məqsədlərinə uyğun imperializmin 3 növü olduğu kimi, imperialist siyasətlərin istifadə etdiyi tipik vasitələrə münasibətdə də üçlü fərqləndirmə aparılmalıdır. Müvafiq olaraq hərbi, iqtisadi və mədəni imperializmi fərqləndirməliyik. Geniş yayılmış, populyar yanlış təsəvvür bu 3 metodu imperializmin məqsədləriylə qarışdırır, məsələn, guya ki iqtisadi imperializmin məqsədi başqa xalqların iqtisadi istismarından başqa bir şey deyil. Bu yanlış təsəvvür imperializmə dair iqtisadi nəzəriyyələrdən, həmçinin əvvəldə qeyd olunduğu kimi, beynəlxalq münasibətlərdə güc elementinə qarşı etinasızlıqdan qaynaqlanır.[1] Əslində, hərbi imperializm hərbi istilaya, iqtisadi imperializm başqa xalqların iqtisadi istismarına, mədəni imperializm bir mədəniyyətin digəri ilə əvəz olunmasına can atır – lakin onlar hər zaman eyni imperialist məqsədin vasitələridir. Bu məqsəd isə hər zaman status-kvonu aradan qaldırmaq, yəni imperialist xalq ilə onun gözlənilən qurbanları arasında güc münasibətlərini dəyişməkdir. Hərbi, iqtisadi və mədəni vasitələr təklikdə və ya birlikdə bu məqsədə xidmət edir. Bizim burada bəhs etdiyimiz bu vasitələrdir.

Hərbi imperializm

İmperializmin ən bariz, ən qədim və həmçinin ən qaba forması hərbi istiladır. Bütün dövrlərin böyük istilaçıları, həmçinin böyük imperialistlər olub. İmperialist

[1] Bax: səh. 74 və növbəti səhifələr

xalqın nöqteyi-nəzərindən bu metodun üstünlüyü ondadır ki, hərbi istilanın nəticəsində təşəkkül tapan yeni güc münasibətləri, bir qayda olaraq, yalnız məğlub olmuş xalqın başladığı başqa bir müharibə ilə dəyişdirilə bilər və bu müharibənin nəticələri, adətən, sonuncunun əleyhinə olur. I Napoleon, ola bilsin ki, Fransanın Avropada hegemonluğunu qurmaq üçün yalnız Fransa inqilabının ideyalarının gücünə arxalanmışdı; yəni o, yəqin ki, hərbi istila əvəzinə mədəni imperializm yolunu seçmişdi. Digər tərəfdən, əgər o, hərbi istilalar həyata keçirə bilsəydi və bu yolu davam etdirsəydi, imperialist məqsədinə daha tez çatar və istila prosesində hərbi əməliyyatlarda qələbənin qalibə verdiyi şəxsi məmnuniyyətdən maksimum həzz alardı.

Lakin bu fikrin özünü doğrultduğu həmin şərait hərbi istilanın imperializm metodu kimi böyük nöqsanına işarə edir; müharibə bir qumardır; onda qalib gəlmək də olar, məğlub olmaq da. İmperialist məqsədlərlə müharibəyə başlayan xalq imperiyaya sahib ola və onu əlində saxlaya bilər, məsələn, Roma kimi. Yaxud o buna sahib ola bilər və daha çoxuna nail olmağa cəhd etmək prosesində onu itirə bilər, məsələn, Napoleon kimi. Yaxud o bunu əldə edə bilər, itirər və digərlərinin imperializminin qurbanı olar, məsələn, milli sosialist Almaniyası və Yaponiya kimi. Hərbi imperializm ən yüksək mərclərlə oynanılan qumardır.

İqtisadi imperializm

İqtisadi imperializm daha az gözəçarpan və həmçinin, ümumiyyətlə, hərbi qarşılığı ilə müqayisədə daha az səmərəli və güc əldə etmənin rasional üsulu, müasir dövrün məhsuludur. Mahiyyət etibarilə bu, merkantilist və kapitalist ekspansiyası dövrü ilə üst-üstə düşür. Onun müasir bariz nümunəsi "dollar diplomatiyası"dır. Bu, həmçinin Britaniya və Fransa imperializminin tarixində də mühüm rol oynayıb. XVIII əsrin əvvəllərindən etibarən iqtisadi nəzarət üsulu Britaniyanın Portuqaliyadakı nüfuzuna güclü dəstək göstərmişdir. Ərəb dünyasında Britaniya hökmranlığı "neft diplomatiyası" termini ilə dəqiq ifadə olunan iqtisadi siyasətin nəticəsi idi. Eynilə ərəblərin neftdən siyasi məqsədlərlə istifadə üsullarını müəyyən etməsi neft istehsalı ilə məşğul olan ərəb dövlətlərinə ərəb neftini idxal edən sənaye dövlətləri üzərində görünməmiş güc bəxş etdi. Fransanın iki dünya müharibəsi arasındakı dövrdə Rumıniya kimi ölkələr üzərində üstün təsiri önəmli dərəcədə iqtisadi amillərə əsaslanırdı.

Bizim iqtisadi imperializm adlandırdığımız siyasətlərin ümumi xüsusiyyəti bir tərəfdən imperialist dövlət ilə digərləri arasında güc münasibətlərini dəyişməklə mövcud status-kvonu aradan qaldırmaq tendensiyası, digər tərəfdən bunu ərazi istilası deyil, iqtisadi nəzarət yolu ilə etməkdir. Əgər bir dövlət digər bir dövlət

üzərində hakimiyyətini qurmaq məqsədini ərazi istilası ilə həyata keçirə bilmirsə və ya keçirməyəcəksə, o həmin məqsədə ərazini idarə edənlər üzərində idarəetmə qurmaqla nail olmağa çalışa bilər. Məsələn, Mərkəzi Amerika dövlətlərinin hamısı suveren dövlətlərdir; onlar suverenliyin bütün atributlarına malikdir və suverenliyin alətlərini nümayiş etdirir. Lakin iqtisadi həyatları, demək olar ki, tamamilə ABŞ-a ixracdan asılı olan bu dövlətlər əgər başqa mənbələrdən əhəmiyyətli dəstək almazsa, qısa müddətliyinə ABŞ-ın etiraz edə biləcəyi hər hansı növ daxili və ya xarici siyasət yürüdə bilməz.

Digər dövlətlər üzərində hegemonluq əldə etməyin və onu mühafizə etməyin gözəçarpmayan, dolayı, lakin olduqca effektiv metodu kimi iqtisadi imperializmin təbiəti iki rəqib imperializm eyni bir hökumət üzərində nəzarət uğrunda iqtisadi üsullarla rəqabət aparanda xüsusilə diqqətəlayiq olur. Böyük Britaniya və Rusiya arasında İran üzərində nəzarət uğrunda bir əsrlik rəqabət uzun müddət əsas etibarilə hərbi üsullarla aparılsa da, bunun nümunəsi ola bilər. Professor P.E.Roberts Birinci Dünya müharibəsindən əvvəl o zaman Persiya adlanan İranda bu vəziyyəti belə təsvir edib:

"Rusiya ona şimaldan, Böyük Britaniya cənubdan təzyiq edir, bu iki dövlətin təsiri isə çox müxtəlifdir. Böyük Britaniya cənubi İranın xarici ticarətinin böyük hissəsini əlində saxlayır və Ədəndən üzü şərqə Bəlucistana qədər bütün Asiya sahil xəttinin ümumi nəzarətinə iddia edir... Volqa çayında gəmiçiliyin inkişafı və transxəzər dəmir yolunun çəkilməsi Rusiyaya Şimali İranda ticarətin böyük hissəsini ələ keçirmək imkanı verib. Lakin Rusiyanın ticari silahları monopoliya və qadağalardır. O, İran ərazisində dəmir yollarının çəkilişinə qadağa qoyub və çox vaxt ölkənin dirçəlişi naminə atılan addımlara etiraz edir".[1]

Görünür ki, yalnız "Böyük Britaniyanın ticarət və siyasi rəqibliyi" İranın tamamilə Rusiyanın təsir dairəsinə düşməsinə maneə olurdu.

Böyük Britaniya və Rusiya arasında həmin regionda iqtisadi və siyasi rəqabətin mövcud olduğu dövrdə İran hökumətinin xarici, həmçinin daxili siyasəti birbaşa olaraq tez-tez rəqib dövlətlərin tətbiq etdiyi iqtisadi və bəzən də hərbi təzyiqlərin gücünü əks etdirirdi. Rusiya iqtisadi mənfəət vədi verəndə və ya onu təmin edəndə və Britaniya onu qarşılaya bilməyəndə, yaxud təmin etdiyi iqtisadi mənfəətləri geri çəkməklə hədələdikdə Rusiyanın təsiri artırdı və əksinə. Rusiya İrana qarşı ərazi iddialarını gerçəkləşdirməyə cürət etmirdi. Böyük Britaniya isə belə bir iddiaya malik deyildi. Lakin hər ikisi öz növbəsində neft yataqları, eləcə də Hindistana gedən yol üzərində nəzarət edən İranı öz nəzarətləri altına

[1] *Cambridge Modern History* (New York: Macmillan, 1910), Vol. XII, səh. 491.

salmağa cəhd edirdi.

Mədəni imperializm[1]

Bizim mədəni imperializm adlandırmağı təklif etdiyimiz imperialist siyasətlərin ən hiss edilməyən, əgər nə zamansa o özü təklikdə müvəffəq olarsa, ən uğurlusudur. Onun məqsədi ərazi istilası, yaxud iqtisadi həyat üzərində nəzarət deyil, iki dövlət arasında güc münasibətlərinin dəyişdirilməsi aləti kimi insan beyinlərinin ələ keçirilməsi və onlar üzərində nəzarətdir. Əgər mədəniyyəti və daha da dəqiqləşdirsək, siyasi ideologiyanı bütün konkret imperialist məqsədləriylə təsəvvür edə bilsək, A dövləti B dövlətinin siyasətini təyin edən bütün vətəndaşlarının beynini ələ keçirərək, istənilən hərbi istilaçı və iqtisadi rəhbərdən daha bütöv qələbə qazana və öz üstünlüyünün bünövrəsini daha sabit əsaslar üzərində qoya bilər. A dövlətinin öz məqsədlərinə nail olmaq üçün hərbi güc ilə hədələmək və ya onu tətbiq etmək, yaxud da iqtisadi təzyiqdən istifadə etmək ehtiyacı yoxdur; bu məqsəd üçün B dövlətinin onun iradəsinə tabe edilməsi artıq yüksək mədəniyyət və cəlbedici siyasi fəlsəfənin inandırıcılığı vasitəsilə gerçəkləşmiş olacaq.

Lakin bu, bir fərziyyədir. Mədəni imperializm, adətən, məqsədə çatmaqda imperializmin digər metodlarını kənara qoya biləcək qədər tam qələbə çalmaqda uğursuz olur. Müasir dövrdə mədəni imperializmə xas olan xarakterik rol digər metodlara yardımçı olmaqdır. O, düşməni yumşaldır, hərbi istila, yaxud iqtisadi müdaxilə üçün zəmin yaradır. Onun tipik müasir təzahürü beşinci kolonnadır və onun iki müasir məşhur uğurundan biri İkinci Dünya müharibəsindən əvvəl və onun başlanğıcında Avropada milli sosialistlərin beşinci kolonnalarının fəaliyyətlərində özünü göstərir. Onun uğuru ən çox Avstriyada nəzərəçarpan idi, 1938-ci ildə burada milli sosialist hökumətinin tərəfdarları alman qoşunlarını ölkəni işğal etməyə dəvət etdilər. Onun Fransadakı uğuru diqqətəlayiqdir, burada hökumətin daxilində və ondan kənarda bir neçə nüfuzlu vətəndaş milli sosialist fəlsəfəsini və onun beynəlxalq məqsədlərini qəbul etdi. Hərbi istila qarşıya qoyulmuş tapşırığı sona çatdırmazdan əvvəl bu ölkələrin artıq mədəni imperializm üsulları

[1] Bu başlıq altında bəhs edilənlər çox vaxt ideoloji imperializm adı altında təqdim olunur, "ideoloji" termini xüsusilə siyasi fəlsəfələrin müzakirələrinə aiddir. Bununla belə, bunun əvəzinə "mədəni" termininin istifadəsinin məsləhət görülməsinin iki səbəbi görünür. Bir tərəfdən "mədəni" termini imperialist məqsədə xidmət edən bütün növ intellektual – siyasi və digər – təsirləri əhatə edir. Digər tərəfdən biz 7-ci fəsildə "ideoloji" terminini özünəməxsus sosioloji mənada istifadə edirik və əgər eyni termini burada ümumi qəbul edilmiş mənasında istifadə etsəydik, bu yalnız çaşqınlıq yaradardı.

ilə qismən istila olunduğunu söyləmək mübaliğə olmaz. Böyük Britaniya İkinci Dünya müharibəsinin başlanğıcında hamının tanıdığı milli sosialistləri və onların öz sərhədləri daxilindəki canıyananlarını zərəsizləşdirməklə mədəni müdaxilənin alman imperializminin potensial qurbanları üçün yaradacağı təhlükələrə qarşı lazımi tədbiri görmüşdü.

Sovet İttifaqının Şərqi Avropa ölkələri üzərində nəzarət qurmaq üçün istifadə etdiyi üsullar mədəni imperializmlə imperializmin digər istila üsulları arasında qarşılıqlı əlaqənin klassik nümunəsidir. Bu ölkələrdə Moskva tərəfindən yönləndirilən kommunist partiyaları vasitəsilə kommunizmin təbliğatı Sovet İttifaqının hegemonluğu məqsədini gerçəkləşdirməyin sadə bir vasitəsi idi və eyni məqsədə xidmət edən digər vasitələrlə əlaqələndirilirdi. Beləliklə, hərbi istila Sovet İttifaqının Şərqi Avropadakı hegemonluğunun bünövrəsi idi. Ona dəstək verən və onu qismən aradan qaldıran Şərqi Avropanın iqtisadi həyatı üzərində sovet nəzarəti və bunun nəticəsi olaraq Şərqi Avropanın Sovet İttifaqından iqtisadi asılılığı idi. Nəhayət, Sovet İttifaqı kommunizmə və bununla da Sovet İttifaqına sədaqəti Şərqi Avropa xalqlarının mənsub olduqları dövlətlərə, dinlərə və partiyalara münasibətdə ənənəvi olaraq sahib olduqları sədaqət ilə əvəz etməyə və bununla da onları Rusiya siyasətinin canıyanan alətinə çevirməyə çalışırdı.

Sovet İttifaqı və Çin arasında kommunist hərəkatı dünyası üzərində ağalıq, həmçinin təsir dairəsindən kənar dövlətlərdə üstün təsirə sahib olmaq uğrunda rəqabətdə də mədəni imperializmin alətlərindən istifadə olunur. İki əsas kommunist dövlətin hakim təsirə sahib olmaq iddiaları belə bir müddəadan qaynaqlanır ki, onların hər biri Marks və Leninin həqiqi varisi, digəri isə kommunizmin düşmənlərinə dəstək verən dönükdür. Hökumətlərin və siyasi hərəkatların kommunist doktrinasına əməl etdikləri istənilən yerdə bu arqument iki əsas kommunist dövlətindən birinin güc mənbəyidir və bu həmin arqumenti ağlabatan edə bilir.

Totalitar hökumətlərin mədəni imperializmi yaxşı nizamlanmış və yüksək təşkilatlanmışdır; çünki belə hökumətlər totalitar xarakterinə görə vətəndaşlarının və meyilli əcnəbilərin düşüncələri və hərəkətləri üzərində ciddi nəzarət qura bilir. Mədəni imperializm üsulları totalitarlar tərəfindən təkmilləşdirildiyi və beşinci kolonnanın səmərəli siyasi silahına çevrildiyi bir zamanda mədəni rəğbətin və siyasi meyillərin mədəni imperializmin aləti kimi istifadəsi, demək olar ki, imperializmin özü qədər qədimdir. Qədim Yunanıstan və İntibah İtaliyasının tarixi imperializm siyasətləri hərbi istiladan daha çox, düşmən sıralarında siyasi meyillilərin təşkilatları vasitəsilə həyata keçirildiyi epizodlarla zəngindir. Müasir dövrdə hökumətlərlə əlaqəli, yaxud həmfikir olan dini təşkilatlar mədəni xarakterli imperialist siyasətlərdə əhəmiyyətli rol oynayıb. Çarın həm Rusiya dövlətinin, həm də ortodoks kilsəsinin ikili mövqeyindən Rusiyanın hakimiyyətini ortodoks etiqadının xarici ölkələrdəki tərəfdarları üzərində genişləndirmək məqsədilə istifadə edən çar Rusiyasının imperialist siyasəti bu baxımdan səciyyəvidir. Rusiyanın XIX əsrdə Balkanlarda Türkiyəni üstün bir güc olaraq əvəz edə bilməsinin səbəbi əsas etibarilə ortodoks kilsəsindən Rusiya xarici siyasətinin silahı kimi istifadə edən mədəni imperializmdir.

Dünyəvi düzəndə Fransanın *la mission civilisatrice* Fransa imperializminin güclü bir silahıdır. Fransa sivilizasiyasının cəlbedici xüsusiyyətlərindən məqsədyönlü istifadə I Dünya müharibəsindən əvvəl Fransa Şərqi Aralıq dənizi regionuna bitişik ölkələrdə imperializmin məhək daşı idi. Hər iki dünya müharibəsində Fransanın köməyinə gələn dünyadakı ictimai rəğbət dalğası mədəni imperializmin bəhrəsi idi və o öz növbəsində sonralar hər iki dünya müharibəsinin zəfər illərində Fransa hərbi imperializmini gücləndirdi. Milli mədəniyyətin sirayət etməsi formasında özünü göstərən mədəni imperializm totalitar imperializm formasından müqayisəyə gəlməyəcək dərəcədə daha az mexaniki və nizamlıdır, lakin əhəmiyyətli dərəcədə daha az səmərəli deyil. Sonuncu başlıca olaraq siyasi fəlsəfənin meyillərindən istifadə etdiyi halda, birinci sivilizasiyanın cəlbedici keyfiyyətləriylə əcnəbi ölkənin intellektual cəhətdən nüfuzlu qruplarına təsir edir və bu həmin qruplar bu sivilizasiyanın məqsəd və metodlarını eyni dərəcədə cəlbedici hesab edənə qədər davam edir.

Biz artıq qeyd etmişik ki, mədəni imperializm imperializmin hərbi və iqtisadi növlərinə yardımçı rolunu oynayır. Eynilə iqtisadi imperializm bəzən öz ayaqları üzərində duranda tez-tez hərbi siyasətə dəstək verir. Digər tərəfdən, hərbi imperializm qeyri-hərbi üsulların dəstəyi olmadan istila etmək iqtidarında olduğu halda, heç bir hegemonluq hərbi gücdən başqa heç nəyə əsaslanmırsa, davam edə bilməz. Beləliklə, istilaçı iqtisadi və mədəni müdaxilə yolu ilə yalnız hərbi istilaya hazırlaşmır. O, həmçinin imperiyasını da yalnız hərbi güc üzərində deyil, əsasən, istila olunanın yaşayış vasitələri və düşüncələrə ağalıq üzərində qurur. Roma istisna olmaqla İsgəndərdən Napoleona və Hitlerə qədər bütün böyük imperialistlərin uğursuzluğa düçar olduğu ən hiss edilməyən, bununla belə, ən mühüm məsələ bu idi. Başqa sözlə, istila etdikləri insanların düşüncələrini istila etməkdəki uğursuzluq onların imperiyalarının məhvi demək oldu. Napoleona qarşı hər zaman yenilənən koalisiyalar, XIX əsrdə polşalıların ruslara qarşı qiyamları, Hitlerə qarşı yeraltı mübarizə, İrlandiya və Hindistanın Britaniya hakimiyyətindən azad olmaq uğrunda mübarizələri çox az imperialist siyasətin həll edə bildiyi bu əsas problemin müasir dövrdə klassik nümunələridir.

İqtisadi və mədəni imperializmin hökumətlərin ümumi beynəlxalq fəaliyyətində payı İkinci Dünya müharibəsindən sonra olduqca artmışdır. Bunun iki səbəbi var. Bir tərəfdən açıq və böyük miqyasda yürüdülən hərbi imperializm artıq xarici siyasətin rasional aləti deyil, çünki o özündə nüvə müharibəsində

özünüməhvə gətirib çıxaracaq gərginlik təhlükəsi daşıyır. Odur ki hakimiyyətini imperialist formada genişləndirməyə cəhd edən dövlət hərbi üsulları çox vaxt iqtisadi və mədəni üsullarla əvəz edir.

Digər tərəfdən müstəmləkə imperiyalarının əksəriyyətinin mövcudluğu üçün xarici yardıma arxalanan çoxsaylı zəif dövlətlərə parçalanması imperialist dövlətlər üçün iqtisadi və mədəni vasitələrlə hakimiyyətini genişləndirməkdə yeni imkanlar açır. Belə ki, Çin, Sovet İttifaqı və ABŞ bir-biriylə öz müvafiq hakimiyyətlərini dünyanın tabe edilməmiş hesab edilən üçdəbirinə yaymaq, yaxud da digər dövlətlərin onlar üzərində hakimiyyəti genişləndirməsinin qarşısını almaq uğrunda rəqabət aparmaq üçün iqtisadi və mədəni resurslarından istifadə edir. Yeni dövlətlərin zəifliyi onlar üçün imkan açır və qəbuledilməz nüvə müharibəsi təhlükəsi həmin imkanı rasional zərurətə çevirir.

İMPERİALİST SİYASƏTİ NECƏ MÜƏYYƏN ETMƏLİ VƏ ONA QARŞI NECƏ MÜBARİZƏ APARMALI

Əvvəldə irəli sürülmüş mülahizələr xarici siyasəti həyata keçirmək üçün məsuliyyət daşıyan dövlət rəsmiləri, eləcə də beynəlxalq məsələlərə dair ağıllı fikir formalaşdırmağa çalışan vətəndaşları üz-üzə qoyan fundamental bir məsələyə gətirib çıxarır. Bu məsələ digər bir xalq tərəfindən yürüdülən xarici siyasətin xarakterinə və bunun nəticəsi olaraq da ona dair qəbul edilməli xarici siyasət formasına aiddir. Digər xalqın xarici siyasəti imperialistdir, yoxsa yox? Başqa sözlə, o, mövcud qüvvələr bölgüsünü aradan qaldırmağa cəhd edir, yoxsa mövcud status-kvonun ümumi çərçivəsi daxilindəki tənzimləmələri yalnız seyr edir? Bu sualın cavabı dövlətlərin müqəddəratını təyin edib və yanlış cavab çox vaxt ölümcül təhlükə və gerçək məhv anlamı daşıyıb; çünki həmin cavabın düzgünlüyündən ondan qaynaqlanan xarici siyasətin uğuru asılıdır.

Status-kvo siyasətinə məxsus tədbirlərlə imperialist planlara qarşı çıxmaq fəlakətli ola biləcəyi halda, yalnız status-kvo daxilində guya o, imperialist siyasətdirmiş kimi tənzimləmələrə cəhd edən siyasət yürütmək daha az təhlükəli ola bilər. Birinci yanlışın klassik nümunəsi 30-cu illərin sonunda Almaniya ilə barışıq siyasəti oldu. Digər yanlış Birinci Dünya müharibəsindən əvvəlki onilliklərdə böyük Avropa dövlətlərinin xarici siyasətlərinə həlledici təsir göstərdi.

Siyasət məsələsi: çəkindirmə, barışıq, qorxu

İmperializm və status-kvo siyasətləri əsaslı şəkildə fərqli olduqları kimi, onların qarşısının alınmasına yönəlmiş siyasətlər də əsaslı şəkildə fərqli olmalıdır. Status-kvo siyasətinə qarşı çıxmaq üçün müvafiq olan siyasət imperializm siyasəti ilə üz-üzə gəlmək üçün kifayət etməyə bilər. Mövcud ümumi qüvvələr bölgüsü daxilində tənzimləmələrə cəhd edən status-kvo siyasətinə qarşılıqlı güzəştlər siyasəti, tarazlıq siyasəti, kompromis siyasəti – bir sözlə, maksimum xeyir əldə etmək və minimum itki ilə ötüşmək məqsədilə verilən ümumi qüvvələr bölgüsü daxilində tənzimləmə mexanizmlərindən istifadə edən siyasət şamil edilə bilər. Mövcud qüvvələr bölgüsünü aradan qaldırmağa çalışan imperializmə ən azı çəkindirmə siyasəti ilə qarşı çıxmaq lazımdır ki, mövcud qüvvələr bölgüsünün müdafiəsində imperialist dövlət tərəfindən növbəti təcavüz, ekspansiya və status-kvoda digər pozuntular dayandırılsın. Çəkindirmə siyasəti ya Böyük Çin səddi, yaxud Fransa Majino xətti kimi real divar, ya da sovet təsir dairəsi və Qərb dünyası arasında 1945-ci ildə çəkilmiş hərbi demarkasiya xətti kimi xəyali divar tikir. O, əslində, imperialist dövlətə deyir ki, "bu qədər, bundan o tərəf olmaz" və onun çəkilmiş xəttin arxasına keçən addımı müharibənin faktiki qaçılmazlığına səbəb olacaq.

Barışıq imperializm təhlükəsinə qarşı status-kvo siyasətinə xas üsullarla tədbir görən xarici siyasətdir. Barışıq imperializm siyasətiylə guya o, status-kvo siyasətidirmiş kimi rəftar edir. O, güzəşt siyasətini onun aid olduğu, status-kvo üçün əlverişli siyasi mühitdən onun aid olmadığı, imperialist hücum üçün açıq olan mühitə köçürməklə yanlışa yol verir. Deyə bilərik ki, barışıq təhrif olunmuş güzəşt siyasətidir və imperializm siyasətini status-kvo siyasətiylə səhv salmaqla yol verilən yanlışlıqdan yaranır.

"Barışıq" termininin heç bir şeyə fərq qoymadan həqarət termini kimi istifadəsinə dair çağdaş meyillilik baxımından qeyd etmək vacibdir ki, barışıq və imperializm məntiqi cəhətdən nisbi məfhumdur. Başqa sözlə, bir tərəf üçün barışıq siyasəti, digər tərəf üçün imperializm siyasətini nəzərdə tutur. Əgər A dövlətinin B dövlətinə münasibətdə barışıq siyasəti yürütdüyünü söyləsək, eyni zamanda B dövlətinin A dövlətinə münasibətdə imperializm siyasəti yürütdüyünü söyləmiş oluruq. Sonuncu fikir düzgün deyilsə, birinci fikir mənasızdır.

Barışan tərəf imperialist dövlətin tələblərində rasional baxımdan məhdudlaşdırılmış məqsədlər görür ki, bunlar da öz-özlüyündə status-kvonun müdafiəsiylə üst-üstə düşür və ya özlərinin daxili dəyərləri, ya da kompromis üsulu ilə yoluna qoyulmalıdır. Onun yanlış uydurmaları nəfsini saxlaya bilməkdən uzaq olan və ayrıca narazılıqlardan törəyən ardıcıl tələblərin yalnız sonunda status-kvonun aradan qalxması duran zəncirin halqaları olduğunu görmür. Antaqonist siyasətlərin hüquqi və ya əxlaqi prinsiplər əsasında, yaxud diplomatik sövdələşmə yolu ilə barışdırılması, əslində, status-kvonun qəbul edilmiş hüdudları çərçivəsində hər

iki tərəfdə fəaliyyət göstərən diplomatiyanın mühüm vəzifəsidir. Hər iki tərəf mövcud qüvvələr bölgüsünü qəbul etdiyi üçün onların hər ikisi fərqliliklərini ya prinsiplər əsasında, ya da güzəşt yolu ilə razılaşdırmaq imkanına sahib ola bilir; çünki həll yolunun nə olmasından asılı olmayaraq, bu onlar arasında əsas qüvvələr bölgüsünə təsir etməyəcək.

Lakin tərəflərdən biri və ya hər ikisi imperialist niyyətlərə sahib olanda, yəni mövcud qüvvələr bölgüsündə əsaslı dəyişikliklərə can atanda vəziyyət dəyişir. Bu halda qüvvələr bölgüsünə təsiri nəzərə alınmadan müvafiq tələblərin hüquqi və əxlaqi prinsiplər əsasında, yaxud diplomatik sövdələşmə üsulları ilə nizamlanması güc münasibətlərinin tədricən imperialist dövlətin xeyrinə dəyişməsinə bərabər olur. Çünki sonuncu hər zaman güzəştlərdən xeyir götürəcək və tələbləri üçün zəmini seçərkən ehtiyatlı olacaq ki, prinsip də onun xeyrinə olsun. Nəticədə bu tədrici dəyişikliklər üst-üstə toplanıb güc münasibətlərini imperialist dövlətin xeyrinə dəyişəcək. İmperialist dövlət güzəşt və barışıq arasında fərqi anlamayan rəqib üzərində qansız, lakin həlledici qələbə çalmış olacaq.

Almaniya 1935-ci ildə digər dövlətlərin tərk-silahın aparılmasında uğursuzluqlarını və Fransa və Sovet İttifaqının silahlarını artırmasını əsas gətirərək, Versal müqaviləsinin tərk-silaha dair müddəalarından imtina edərək, açıq şəkildə imperialist siyasətini bəyan etdi. Öz-özlüyündə və gizlin məqsədə əhəmiyyət verməsək, arqument bərabərliyin hüquqi prinsipini nəzərə aldıqda əsassızdır. Kağız üzərində olan etirazlardan və ittifaqlardan başqa, Almaniyanın imperiya yolunda ilk addımına yeganə diqqətçəkən reaksiya üç ay sonra İngiltərə və Almaniya arasında dəniz razılaşmasının imzalanması oldu və bu razılaşmaya görə, Böyük Britaniya Almaniyaya Böyük Britaniyanın dəniz qüvvələrinin 35 faizindən çox olmamaq şərtilə donanma yaratmaq məsələsində güzəştə getdi. Tələblərin açıq bəyan olunan rasional hüdudlarının həqiqət kimi qəbul olunduğu nəzərə alınarsa, həm 1936-cı ildə Reyn zonasının Almaniya tərəfindən təkrar işğalı, həm də həmin il onun su yollarının üzərində beynəlxalq nəzarətin ləğvi bərabərliyə dair hüquqi prinsip tərəfindən müdafiə olundu. 1938-ci ildə Avstriyanın ilhaqı asanlıqla Birinci Dünya müharibəsində müttəfiq dövlətlərin bəyan etdikləri məqsədlərdən biri olan xalqın öz müqəddəratını təyinetmə prinsipi ilə müdafiə oluna bilərdi.

Daha sonra 1938-ci ildə Almaniya Çexoslovakiyanın almanlar məskunlaşmış ərazilərini tələb etdi. Münhen razılaşması Almaniyanın tələblərini təmin etdi. Hitler Münhen razılaşmasından qısa zaman əvvəl Çexoslovakiyanın almanlar məskunlaşan ərazilərinin Almaniyanın Avropadakı ərazi iddialarının sonuncusu olduğunu bəyan edəndə, əslində, deyirdi ki, bu ərazilərin ilhaqı öz-özlüyündə son, öz rasional hüdudları daxilində qaneedicidir. O iddia edirdi ki, Almaniya siyasəti Avropa sta-

tus-kvosunun ümumi çərçivəsində həyata keçirilir və onu aradan qaldırmaq niyyəti daşımır və gərəkdir ki, digər Avropa dövlətləri də Almaniya xarici siyasətini bu nəzərdən qiymətləndirsin və onunla müvafiq formada rəftar etsin. Yalnız 1939-cu il martın sonunda, İkinci Dünya müharibəsinin başlanmasından 5 ay əvvəl bütün Çexoslovakiyanın ilhaqı və Polşaya yönəlmiş ərazi tələbləri Qərb dövlətlərini əmin etdi ki, status-kvo kimi özünü göstərən siyasət, əslində, elə əvvəldən dünya miqyasında olmasa da belə, qitə miqyasında imperializm siyasəti idi.

Bu məqamda Avropada qüvvələr bölgüsü artıq Almaniyanın xeyrinə dəyişmişdi. O həm də elə bir dərəcədə dəyişmişdi ki, Almaniyanın gücünün yüksəlişinin qarşısı müharibəsiz alına bilməzdi. Almaniya Versal sülhü ilə yaranmış status-kvoya açıq şəkildə meydan oxumaq üçün kifayət qədər güclənmişdi və dövlətlərin Versal sülhünün qurduğu nizamla müəyyən edilmiş nüfuzu, yəni gücün etibarı o qədər aşağı düşmüşdü ki, onlar status-kvodan qalanları yalnız diplomatik vasitələrlə müdafiə etmək iqtidarında deyildilər. Onlar ya təslim ola, ya da müharibəyə gedə bilərdilər. Beləliklə, 1938-ci ildə barışdırıcı rolunu oynayanlar ya satqınlar (əgər onlar alman imperializminə qarşı müqaviməti ümidsiz hesab edirdilərsə), ya da 1939-1945-ci illərin qəhrəmanları (əgər onlar nəticəsindən və hətta uğur qazanmaq imkanının olub-olmamasından asılı olmayaraq, müqavimətin əxlaqi cəhətdən gərəkli olduğunu düşünürdülərsə) oldular. Sonuncu fəlakət və onun beynəlxalq arenadakı aktorları üz-üzə qoyan faciəli seçimləri əvvəlcədən – imperializm siyasətiylə onun guya status-kvo siyasəti olduğu kimi rəftar olunan zaman yol verilən ilkin yanlışlarla təyin olunmuşdu.

Çəkindirmə siyasəti imperializm siyasətini dayandırmağa müvəffəq olduqda, yaxud ikinci artıq ya məqsədlərinə nail olduğu, ya da tükəndiyi üçün tutduğu kursdan imtina etdikdə çəkindirmə (güzəştsiz müqavimət siyasəti) mütləq şəkildə güzəştə (qarşılıqlı güzəştlər siyasəti) yol verməlidir. Belə bir siyasət imperializm ilə barışığa cəhd edərkən mənfur olduğu halda, imperialist iddialarını geridə qoyan status-kvo siyasətinə xidmət etmək məqsədi daşıdıqda məziyyətə çevrilir. Ser Uinston Çörçillin 1950-ci il dekabrın 14-də Nümayəndələr Palatasında haqqında bəhs etdiyi fərqlilik də bu idi:

"Baş nazirin heç bir barışığın olmayacağı haqqında bəyanatı da, demək olar ki, ümumxalq dəstəyi tələb edir. Bu, ölkə üçün yaxşı bir şüardır. Lakin mənə elə gəlir ki, bu Palatada onun daha dəqiq təyin olunmasına ehtiyac var. Mən düşünürəm ki, bizim, əslində, bəhs etdiyimiz zəiflik və qorxudan irəli gələn barışıq deyil. Şəraitdən asılı olaraq, barışıq öz-özlüyündə, yaxşı və ya pis ola bilər. Zəiflik və qorxudan irəli gələn barışıq eyni dərəcədə faydasız və öldürücüdür. Qüdrətdən irəli gələn barışıq mərhəmətli və alicənabdır və dünya sülhünə gedən ən etibarlı və bəlkə də, yeganə yoldur".

Xarici siyasəti həyata keçirmək üçün məsuliyyət daşıyanların tez-tez yol verdikləri digər əsas yanlışlıq bu vaxta qədər müzakirə olunanların qarışıq salınmasıdır. Belə ki, o, imperializm siyasətiylə status-kvo siyasətini səhv salır. Belə etməklə A dövləti B dövlətinə münasibətdə müəyyən müdafiə niyyətli tədbirlərə, məsələn, silahlanma, bazaların yaradılması, ittifaqların təsis edilməsinə əl atır. Sonuncu da öz növbəsində əks tədbirlərə əl atır, çünki o, indi A dövlətinin hərəkətlərində imperializm siyasəti görür. Bu əks tədbirlər A dövləti tərəfindən B dövlətinin hərəkətlərinə dair ilkin yanlış anlaşılmalarını daha da gücləndirir və s. Sonda ya hər iki dövlət bir-birinin siyasətinə münasibətdə səhvlərini düzəldir, ya da bir-birini qidalandırmaqla daim yüksələn qarşılıqlı şübhələr müharibə ilə sonuclanır. Yol verilən ilkin yanlış çıxılmaz bir vəziyyət doğurur. Yalnız status-kvonu qorumağa çalışan, lakin hər biri digərinin imperialist planlara malik olduğuna əmin olan iki və daha artıq dövlət öz yanlış mühakimə və hərəkətlərinin istinad nöqtəsini digərlərinin yanlışlarında tapır. Belə bir vəziyyətdə hadisələrin faciəli sona doğru istiqamətini, demək olar ki, yalnız fövqəlbəşər səydən başqa heç nə dəyişməyəcək.

1870-ci il Fransa-Almaniya müharibəsiylə 1914-cü ildə Birinci Dünya müharibəsinin başlaması arasındakı dövrdə Avropa diplomatiyasının tarixi bu vəziyyəti təsvir edir. 1870-ci il müharibəsini qələbə ilə başa vurduqdan və Almaniya imperiyasının yaradılmasından sonra Almaniyanın xarici siyasəti, əsasən, müdafiə siyasəti idi. Bu, Almaniyanın Avropada qazandığı mövqenin müdafiəsi və Bismarkın məşhur *cauchemar des coalitions* adlandırdığı düşmən bir koalisiyanın, xüsusilə Fransa və Rusiya arasında qurulan koalisiyanın bu mövqeni şübhə altına ala biləcəyi təhlükəsiylə bağlı idi. Almaniya, Avstriya və İtaliya arasında yaradılan "Üçlər ittifaqı" həmin müdafiə siyasətinin aləti idi. Rusiya ilə imzalanan Rusiya və Almaniyanın bir-birinə biri müharibəyə qoşularkən digərinin bitərəf qalacağına dair söz verdikləri təminat müqaviləsi də buna xidmət edirdi. Bismarkın vəzifədən azad edilməsindən sonra II Vilhelm təminat müqaviləsini pozmaq qərarına gəldi, əsasən, ona görə ki onun davam etməsi Avstriyanı ondan soyudar və beləliklə də, "Üçlər ittifaqı"nın dağılmasına gətirib çıxarardı. Sonralar (1891 və 1894-cü illərdə) Rusiya Fransa ilə müdafiə xarakteri daşıyan və açıq-aşkar "Üçlər ittifaqı"nın məramlarından doğan qorxudan təsirlənən razılaşmaya daxil oldu. 1894-cü il Hərbi Konvensiyasının müddəaları xüsusilə "Üçlər ittifaqı"nın müdafiə alətindən imperialist alətə mümkün transformasiyasının qarşısını aldı. Belə ki, Konvensiya "Üçlər ittifaqı" mövcud olduğu müddətdə qüvvədə qalmalı idi. Konvensiyanın əsas müddəaları növbəti qeyd-şərtlərə malik idi: əgər Almaniya, yaxud İtaliya Fransaya hücum etsəydi, Rusiya Fransaya hərbi yardım göstərəcəkdi. Əgər Almaniya və ya Almaniyadan dəstək alan Avstriya Rusiyaya hücum etsəydi, Fransa Rusiyaya münasibətdə eyni addımı atacaqdı. "Üçlər ittifaqı"nın qüvvələrinin hərəkətə keçməsi şəraitində Fransa və Rusiyanın da qüvvələri gecikmədən hərəkətə keçəcəkdi.

Əvvəlcə düşmən ittifaq qorxusu "Üçlər ittifaqı"nın yaradılmasına gətirib çıxardı. Sonra "Üçlər ittifaqı"nın dağılması qorxusu Almaniya tərəfindən Rusiya ilə dost münasibətlərin kəsilməsinə səbəb oldu. Nəhayət, "Üçlər ittifaqı"nın niyyətlərindən yaranan qorxu Fransa-Rusiya ittifaqını doğurdu. Bu iki müdafiə ittifaqının qarşılıqlı qorxuları və II Vilhelmin imperialist ruhlu çıxışlarının tərəddüdlü xarakterinin yaratdığı ümumi təhlükə vəziyyəti Birinci Dünya müharibəsindən əvvəlki iki onillikdə diplomatik manevrlərə stimul verdi. Bu manevrlər ya mövcud ittifaqları dağıtmaq üçün yeni birləşmələr yaratmağa, yaxud da bu ana qədər kənar qalmış dövlətlərin mövcud ittifaqları dəstəkləməsinə nail olmağa cəhd edirdi. Sonda öz maraqlarına uyğun bir dəyişikliklə qarşı çıxılmazsa, digər tərəfin güc münasibətlərini qəti şəkildə öz xeyrinə dəyişəcəyi qorxusu 1914-cü il dünya müharibəsini qaçılmaz etdi. İki antaqonist blokda, xüsusilə Rusiya və Avstriya bu xof ilə hərəkətə keçdi. Digərinin şübhə doğuran imperializmi reaksiyada da imperializm toxumu səpdi və bu da öz növbəsində həqiqi bir qorxuya mövcudluq gətirdi.

Qarşılıqlı qorxunun təhrifçi effektləri antaqonist xarici siyasətlər dünyanı əhatə edən ideologiyalar[1] ilə, yürüdülən xarici siyasətlərin onlara uyğun olub-olmamasından asılı olmayaraq, xarakterizə olunduqda özünü xüsusilə hiss etdirir. Belə ki, dünya inqilabının kommunist ideologiyası və dünyanın kommunistləşməsi qeyri-kommunist dövlətlərdə kommunist dövlətlərin xarici siyasətlərinin zərurətdən ümumdünya imperializminə xidmət etdiyi xofunu yaradır. Nəticədə Sovet İttifaqı və ya Çin kimi ölkələrin beynəlxalq siyasətin şahmat lövhəsində hər bir gedişi onun öz dəyərləriylə deyil, imperialist ideologiyalar baxımından dəyərləndirilir. Digər tərəfdən, kommunist fəlsəfəsi kapitalist dövlətlərin təbiətcə müharibəyə meyilli və "imperialist" olduqlarını hesab etdiyindən qanun və qaydaya sadiqliyə dair Qərbdə səsləndirilən bəyanatlar və təcavüz və təxribatçılığa qarşı müxaliflik, kommunist dövlətləri tərəfindən, sadəcə, imperialist siyasətlərin ideologiya ilə pərdələnməsi kimi yozulurdu.

Reallığın mifoloji qavranılması hər iki tərəfdə qarşı tərəfin imperializmini cilovlamağa cəhd edən siyasətin yürüdülməsinə səbəb olur və bu siyasət ilkin mifoloji təfsirə aid bütün düşüncələri təsdiq edir. Bununla böyük dövlətlər çıxılmaz vəziyyətə düşürülür. Əvvəlcə xof onları həqiqəti həmin xofu bəsləyən ideologiya nöqteyi-nəzərindən şərh etməyə məcbur edir. Daha sonra onların xəyali təhlükədən özlərini müdafiə etmək üçün gördükləri tədbirlər digər tərəfin qorxularını təsdiqləyir və həqiqətin yanlış təfsirinə səbəb olur. Sonra bu tədbirlərə qarşı əks-tədbirlər görülür

[1] Anlayışın izahı üçün bax: VII fəsil.

və onlar da həmin əsasları daşıyır və sair və ilaxir. Bununla da bir tərəfin qorxusu digərinin qorxusuna təkan verir və əksinə. Qarşılıqlı qorxu tələsinə düşən və həmin qorxunu sakitləşdirməyə cəhd kimi silahlanma yarışına qoşulan tərəflərin heç biri imperializmə dair ilkin ehtimalları real təcrübədə sınaqdan keçirmək iqtidarında olmur. Başlanğıcda həqiqətin mifoloji qavranılması indi öz hərəkətinə haqq qazandırmaq üçün proqnoza çevrilir: qarşılıqlı qorxudan törəyən siyasətlər ilkin ehtimalın düzgünlüyü üçün empirik sübutu təmin etmiş olur.[1]

Müəyyənləşdirmə məsələsi

İmperialist olduğun halda, belə qəbul olunmayan tərəflə barışıq və olmadığı yerdə imperializmi yaradan qorxu ağılla yürüdülən xarici siyasətin uzaq durmağa çalışmalı olduğu iki yanlış həll üsulu və iki həyati səhvdir. İmperializmin mövcudluğunu düzgün təyin edən və onun məxsusi təbiətini müəyyən edən ağıllı xarici siyasət 5 çətinliklə üzləşir və onların da hamısı qorxulu xarakterlidir.

Birinci və ən başlıca çətinlik kommunist doktrinasının Leninin ölümündən 30-cu illərin ortalarındakı "Böyük təmizləmə"yə qədərki dövrdə ən qabaqcıl nümayəndəsi olan Buxarin tərəfindən təyin edilmişdir. İmperializmin qeyri-iqtisadi izahına qarşı çıxaraq, o bunu belə ümumiləşdirirdi: "İmperializm istila siyasətidir. Lakin hər istila siyasəti imperializm deyil".[2] Bu fikir, əslində, düzdür və bizim mövcud status-kvo daxilində fəaliyyət göstərən istila siyasətiylə onu aradan qaldırmağa cəhd edən istila siyasəti arasındakı fərq haqqında daha əvvəl söylədiklərimizə uyğundur.[3] Konkret bir vəziyyətdə bu fərqi müəyyən etmək böyük bir çətinlik yaradır. Kim Hitlerin son məqsədini hər hansı bir əminlik dərəcəsində müəyyən edə bilərdi? 1935-ci ildən etibarən o, tələb arxasına tələb irəli sürürdü və bu tələblərin hər biri öz-özlüyündə status-kvo siyasətiylə ayaqlaşırdı, lakin onların hər biri imperiyaya gedən yolda bir istinad daşı ola bilərdi. Ayrı-ayrı addımlar öz-özlüklərində ikibaşlı idilər və ona görə də elementlərini təşkil etdikləri siyasətin həqiqi təbiətini üzə çıxarmağa imkan vermirdilər. Belə olduqda sualımıza cavabı haradan ala bilərik?

Cavab imperialist siyasət kimi təyin etdiyimiz üç vəziyyətdən ikisində tapıla bilər ki, o da ehtimala və şübhələrə açıqdır. Versal müqaviləsiylə bərqərar olmuş

[1] Müqayisə et: H.Kautsky, "Myth, Self-fulfilling, Prophecy, and Symbolic Reassurancein the East West Conflict," *The Journal of Conflict Resolution*, Vol. IX, No. 1 (March 1965), səh. 1 və növbəti səhifələr
[2] N.I.Bukharin, *Imperialism and World Economy* (New York: International Publishers, 1929), səh. 114.
[3] Bax: səh. 154 və növbəti səhifələr

status-kvonu aradan qaldırmaq arzusu başlanğıcdan 1933-cü ildə Almaniya hökumətinin rəsmi proqramına çevrilən milli sosialist proqramın əsas xüsusiyyətlərindən biri idi. Bu məqsəd nöqteyi-nəzərindən, Almaniya hökumətinin əlinə imkan düşən kimi, yəni Versal müqaviləsinin yaratdığı status-kvo ilə təyin edilmiş dövlətlər artıq status-kvonu səmərəli şəkildə müdafiə etmək bacarığı və arzusuna malik olmadıqda gerçəkləşdirməyə cəhd edəcəyi xarici siyasətini əvvəlcədən görmək olardı.

Bu ilkin və əsaslı çətinlik həm də o fakt ilə daha da ağırlaşır ki, mövcud qüvvələr bölgüsü daxilində nizamlamalar axtarmağa başlayan siyasət ya uğurunun məcrasında, ya da iflası prosesində xarakterini dəyişə bilir. Başqa sözlə, qərarlaşmış qüvvələr bölgüsü daxilində ilkin məqsədlərə çatmanın rahat üsulları böyüməkdə olan dövlətlərdə belə bir fikir yarada bilər ki, o, zəif və qətiyyətsiz antaqonistlərlə iş birliyindədir və böyük səylər göstərmədən və riskə getmədən mövcud güc münasibətlərini dəyişməyə nail olmaq olar. Beləliklə, yeməkdən iştaha yaranır və status-kvo daxilində uğurlu ekspansiya siyasəti bir gecə içində imperializm siyasətinə dönüşə bilir. Deyilənlər status-kvo daxilində uğursuz siyasətlər üçün də keçərlidir. Mövcud güc münasibətlərində əlçatmaz görünən, məhdud çərçivəyə malik məqsədlərində iflasa uğrayan dövlət belə bir nəticəyə gəlir ki, əgər onun istəyinə nail olmağı təmin etmək üçün lazımdırsa, o bu güc münasibətlərini dəyişməldir.

Siyasət sırf ərazi məsələlərinə aid olanda ərazi hədəflərinin təbiəti bəzən yürüdülən siyasətin təbiətini göstərir. Hədəf, məsələn, strateji əhəmiyyət daşıya bilər və ona nail olmaq öz-özlüyündə verilmiş ayrıca regionda güc münasibətlərini dəyişə bilər. Heç bir yardım gözlənilə bilməz və odur ki xarici siyasətin, əsasən, iqtisadi və mədəni müdaxilə maşınlarından istifadə etdiyi yerlərdə əlavə çətinliklərlə qarşılaşmaq lazım gələcək. Bu üsullar da xidmət etdikləri siyasətin xarakteri baxımından ikimənalıdır, lakin onların ikimənalılığı ərazi hədəflərini təyin edən hərbi üsulun ikimənalılığından daha böyükdür. İqtisadi və mədəni ekspansiyanın, adətən, dəqiq təyin edilmiş ərazisi olmur. Onlar qərarsız insanların geniş müxtəlifliyinə ünvanlanır. Bundan əlavə, onlar geniş həcmdə qeyri-müəyyən sayda dövlətlər tərəfindən həyata keçirilir. Açıq iqtisadi və mədəni siyasət arxasında heç bir güc hədəfi gizlənməyən və buna görə də imperialist olmayan oxşar siyasətlərin əksinə, iqtisadi və mədəni ekspansiyanı imperializmin aləti olaraq təyin etmək, həqiqətən, çətin vəzifədir. Burada yenə imperialist siyasətin xeyrinə olan səciyyəvi vəziyyətlərə istinad etmək yardımçı ola bilər.

İsveçrənin beynəlxalq sahədə yürütdüyü fəal iqtisadi siyasət heç vaxt imperialist çalara malik olmayıb. Britaniyanın xarici ticarət siyasəti zaman-zaman müəyyən ölkələrə münasibətdə imperialist xarakter daşıyıb. Bu gün isə onun məqsədləri sırf iqtisadidir, yəni o, Britaniya adalarının sakinlərinin həyatı üçün zəruri olanları

əldə etməyə çalışır. Onun məqsədi xarici ölkələr üzərində siyasi gücünü qorumaq və artırmaq deyil, sərfəli ticari tarazlıqlar yolu ilə iqtisadi yaşamını təmin etməkdir. İkinci Dünya müharibəsindən sonra yalnız müəyyən strateji regionlara münasibətdə, məsələn, Misir və İran, Britaniya iqtisadi siyasəti zaman-zaman siyasi mülahizələrə tabe etdirilib. Bu mülahizələrin bəziləri imperialist xarakter daşıyıb və ya müəyyən şərtlər altında belə bir xarakter daşıyacaq.

İspaniyanın Latın Amerikasına mədəni müdaxiləsi, adətən, imperialist əhəmiyyət daşımamağa məhkum olub, çünki İspaniyanın ABŞ-a münasibətdə hərbi cəhətdən zəifliyi Latın Amerikasında güc münasibətlərini İspaniyanın xeyrinə dəyişməyə dair istənilən düşüncəyə qadağa qoyub. Fransanın mədəni missiyası müəyyən ölkələrdə müəyyən vaxtlarda öz-özlüyündə bir məqsəd olub. Müxtəlif şərtlər altında və digər ölkələrdə o, imperialist məqsədlərə tabe etdirilib. Burada da iqtisadi və mədəni ekspansiyanın xarakteri siyasi vəziyyətin dəyişməsiylə dəyişə bilər. İmkan yaranan kimi "xoş məram daşıyıcısı", yaxud dövlətin öz məqsədi olaraq təyin etdiyi digər ölkənin xarici ticarətində üstün mövqe qəfildən siyasi gücün mənbəyinə və güc uğrunda mübarizənin güclü alətinə çevrilə bilər. Lakin şərtlər yenidən dəyişəndə onlar həmin xüsusiyyətlərini eynilə qəflətən itirə bilərlər.

Bütün bu çətinliklər dəf edildikdə və xarici siyasətin imperialist xarakteri düzgün müəyyən edildikdə digər bir çətinlik ortaya çıxır. Bu, əlaqədar olmalı olduğumuz imperializmin növünə aiddir. Uğurlu lokallaşdırılmış imperializm öz müvəffəqiyyətində qitə və dünya miqyasına qədər getdikcə genişlənməyə sövq edən motiv tapa bilər. Daha dəqiq desək, bir ölkə lokal üstünlüyünü sabitləşdirmək və qorumaq məqsədilə daha geniş həcmdə güc üstünlüyü əldə etməyi zəruri hesab edə və özünü yalnız dünya imperiyası formasında tam təhlükəsiz hiss edə bilər. Çox vaxt imperializmdə məhdud bir regiondan qitəyə, oradan da dünyaya doğru irəliləyən, təcavüz və müdafiə baxımından rasionallaşdırılmış dinamik bir güc olur. Filip və İsgəndərin hakimiyyəti altında Makedoniya imperiyası və Napoleonun imperializmi bu növə aiddir.

Digər tərəfdən isə ali güc tərəfindən qarşı çıxılan dünya imperializmi siyasəti coğrafi cəhətdən müəyyən edilmiş regiona geri çəkilə və ya lokal üstünlüklə qane ola bilər. Yaxud da o, imperialist meyillərini ümumiyyətlə itirə və status-kvo siyasətinə çevrilə bilər. Coğrafi cəhətdən təyin olunmuş imperializmdən lokallaşdırılmış imperializmə doğru irəliləmək və oradan da imperialist meyillərdən birdəfəlik əl çəkmək prosesi bütövlükdə VII-VIII əsrlər İsveç imperializminin tarixində izlənilə bilər.

Beləliklə, imperialist meyillərin və buna müvafiq olaraq onlara qarşı çıxan siyasətlərin dəyərləndirilməsi heç vaxt dəqiq deyil. Həm siyasətlər, həm də onlara qarşı yürüdülən əks siyasətlər hər zaman təkrar dəyərləndirmə və təkrar təyin olunmanın mövzusudur. Lakin xarici siyasətin çərçivələrini müəyyən edənlər hər

zaman imperialist ekspansiyanın xüsusi bir nümunəsini, yaxud xarici siyasətin digər bir formasını daimi kimi qəbul etmək və nümunə dəyişmiş olsa belə, həmin nümunəyə uyğunlaşdırılmış xarici siyasət yürütmək tələsinə düşürlər.

Ümumdünya imperializmi lokallaşdırılmış imperializmə adekvat olan əks-tədbirlərdən fərqli tədbirlərin görülməsini tələb edir və lokallaşdırılmış imperializmə qarşı ümumdünya imperializminə adekvat üsullarla tədbir görən dövlət elə qaçmağa çalışdığı təhlükələrə səbəb olur. Digər dövlətin imperialist siyasətindəki dəyişikliyi dərhal anlamaq zərurəti digər çətinliyi və öz xarici siyasətini dərhal həmin dəyişikliyə uyğunlaşdırmaqda uğursuzluq digər bir yanlışlıq mənbəyini doğurur.

Nəhayət, imperializm bütün xarici siyasətlərlə bölüşdüyü bir problemi doğurur, lakin onu xüsusilə kəskin formada təqdim edir. Bu, xarici siyasətin ideoloji görüntüsü arxasında gizlənən həqiqi təbiətini müəyyən etmək problemidir. Beynəlxalq arenadakı aktorlar nadir hallarda yürütdükləri xarici siyasəti olduğu kimi təqdim edir və imperializm siyasəti, demək olar ki, heç vaxt onu həyata keçirənlərin bəyanatlarında həqiqi simasını üzə çıxarmır. Yürüdülən siyasətlərin həqiqi təbiəti ideoloji görüntülərin örtüyü arxasında yox olur. Bunun belə olmalı olmasının səbəbləri və həmin ideologiyaların aldığı tipik formalar bu kitabın VII fəslində müzakirə olunacaq. Xarici siyasətin təzahürü ilə onun mahiyyəti arasındakı fərqi müəyyən etməyin necə çətin olduğu müzakirənin bu bölməsində aşkar olunacaq.

5. Güc uğrunda mübarizə: nüfuz siyasəti

Nüfuz siyasəti müasir siyasi ədəbiyyatda nadir hallarda olduğu kimi, yəni beynəlxalq arenada güc uğrunda mübarizənin üçüncü əsas təzahürü kimi qəbul edilib. Bu laqeydliyin 3 səbəbi var. Nüfuz siyasəti bu laqeydliyi, gördüyümüz kimi[1], real və potensial güc formasında qüvvələrin maddi aspektinə dair aparıcı nəzəri və praktiki yanaşmadan əziyyət çəkən bir anlayışa malik hiss edilməyən və əhəmiyyətsiz asılılıq ilə bölüşür. Bundan əlavə, nüfuz siyasəti diplomatiya dünyasında tətbiq olunan sosial əlaqənin aristokratik formalarını əsas alətlərindən biri kimi istifadə edib. Həmin dünya mərasim qaydaları, Çin və birincilik üstündə ədavətləri və boş formalizmi ilə demokratik həyat tərzinə tamamilə ziddir. Hətta güc siyasətinin elitar atavizmdən başqa bir şey olmadığına tam əmin olmayanlar belə diplomatlar tərəfindən həyata keçirilən nüfuz siyasətində mənasız, cəfəng və beynəlxalq siyasət fəaliyyətiylə heç bir üzvi əlaqəsi olmayan anaxronist bir oyun görməyə meyilləniblər.

Nəhayət, nüfuz gücün mühafizəsi və əldə edilməsinin əksinə olaraq, özözlüyündə nadir hallarda məqsəd olur. Nüfuz siyasəti daha çox status-kvo və imperializm siyasətlərinin öz məqsədlərinə nail olmağa çalışdıqları zaman istifadə etdikləri alətlərdən biridir. Bu, asanlıqla belə bir nəticəyə gəlməyə imkan verir ki, nüfuz siyasəti mühüm deyil və sistemli müzakirəyə dəyməz.

Əslində, nüfuz siyasəti, adətən, zaman-zaman nə qədər şişirdilmiş və mücərrəd olmuş olsa da, dövlətlər arasında əlaqələrə xas olan bir elementdir, çünki nüfuz ehtirası insanlar arasındakı əlaqələrə xas xüsusiyyətdir. Burada bir daha aydın olur ki, beynəlxalq və daxili siyasət eyni bir sosial hadisənin iki müxtəlif təzahürüdür. Hər iki sahədə sosial tanınma arzusu sosial münasibətləri təyin edən və sosial təsisatları yaradan güclü dinamik qüvvədir. Fərd özünə qoyduğu qiymətin yoldaşları tərəfindən təsdiq olunmasını gözləyir. Bu yalnız başqalarının onun yaxşılığına, zəkasına və gücünə ödədiyi xəracdır və ona özünün ali fərz etdiyi keyfiyyətlərini tam dərk etməyə və onlardan tam zövq almağa imkan verir. O yalnız bu üstünlüyünün şöhrəti vasitəsilə haqqı hesab etdiyi təhlükəsizlik, zənginlik və güc meyarlarına sahib ola bilər. Beləliklə, sosial dünyanın sanki xammalı olan mövcudluq və güc uğrunda mübarizədə başqalarının bizim haqqımızda düşündükləri bizim

[1] Bax: səh. 75.

həqiqətdə necə olduğumuz qədər əhəmiyyətlidir. Bizim yoldaşlarımızın beynindəki güzgüdəki təsvir (bu bizim nüfuzumuzdur), baxmayaraq ki, güzgüdəki təsvir təhrif olunmuş şəkil ola bilər, həqiqətdə olandan daha çox bizim cəmiyyətin üzvü olaraq kim olduğumuzu müəyyən edir.

Odur ki digər insanların bir insanın cəmiyyətdəki mövqeyinə dair formalaşdırdığı fikri təsvirin, əgər onu üstələmirsə, real vəziyyəti ən azından düzgün təqdim etməsinə göz yetirmək zəruri və mühüm məsələdir. Bu, birbaşa nüfuz siyasətidir. Onun məqsədi digər dövlətləri onun dövlətinin, əslində, sahib olduğu, yaxud da digər xalqların onun sahib olduğuna inanmasına ümid etdiyi və ya istədiyi güc ilə heyrətləndirməkdir. İki xüsusi vasitə bu məqsədə xidmət edir: sözün geniş mənasında, diplomatik protokol və hərbi güc nümayişi.[1]

DİPLOMATİK PROTOKOL

Napoleonun həyatından iki epizod dövləti təmsil edən rəhbərin güc mövqeyinin özünü protokol formalarında ifadə edən əlamətlərini aydın şəkildə nümayiş etdirir. Biri Napoleonu öz gücünün zirvəsində göstərir; digəri isə işarə edir ki, o, zirvəni arxada qoymuşdur.

1804-cü ildə Napoleona Papa tərəfindən imperator tacı qoyulacağı ərəfədə hər iki rəhbər özünün digəri üzərində gücünün aliliyini nümayiş etdirmək kimi həyati bir marağa sahib idi. Napoleon öz üstünlüyünün təsdiqinə yalnız Papaya tacı onun başına qoymağa imkan verməyərək bunu özü etməsiylə deyil, həmçinin Roviqo hersoqu, Napoleonun generallarından biri və daxili işlər naziri öz xatirələrində təsvir etdiyi protokol mexanizmi ilə müvəffəq oldu:

"O, Nemur yolunda Papanı qarşılamağa getdi. Protokoldan qaçmaq üçün ov yığıncağı bəhanəsi nəzərdə tutulmuşdu; müşayiətçilər öz ekipajları ilə meşədə idilər. İmperator öz məziyyətiylə at belində və ov geyimində gəldi. Görüş baş tutan zaman təpənin başında aypara idi. Papanın faytonu yuxarı qalxdı və o, ağ kostyumda sol qapıdan düşdü: yer palçıqlı idi; o, ağ ipəyə tutulmuş ayaqqabılarını onun üstünə qoymaq istəmirdi, lakin əvvəl-axır buna məcbur idi.

Napoleon onu qəbul etmək üçün atından düşdü. Onlar qucaqlaşdılar; imperatorun məqsədyönlü şəkildə yuxarı sürülmüş faytonu guya ki sürücünün diqqətsizliyi üzündən bir neçə addım irəlidə idi; lakin iki qapını açıq saxlamaq üçün adamlar qoyulmuşdu: faytona minən anda imperator sağ qapıya yönəldi və bir

[1] Nüfuz siyasətinə xidmət edən əlavə alət olaraq, təbliğata dair müzakirələr üçün həmçinin bax: səh. 419 və növbəti səhifələr

zabit Papanı sola tərəf elə ötürdü ki, onlar hər ikisi faytona eyni anda mindi. İmperator təbii olaraq sağ tərəfdə oturdu; və bu ilk addım heç bir danışıqsız Papanın Parisdə qalacağı müddətdə əməl edilməli etiketi təyin etdi".[1]

Digər epizod 1813-cü ildə, Rusiyada məğlub olandan sonra, Napoleon bütün Avropa dövlətlərinin koalisiyası – həmin koalisiya ki, qısa müddət sonra ona Leypsiq məğlubiyyətinin acısını yaşadacaqdı – tərəfindən hədələnən zaman Drezdendə yaşandı. 9 saat davam edən söhbətdə Napoleon Avstriya kansleri Metternixi ona qarşı qurulmuş koalisiyaya qoşulmaqdan çəkindirməyə çalışdı. Napoleon 10 il ərzində olduğu kimi Avropanın ağası kimi hərəkət etdiyi halda, Metternix onunla məhkum edilmiş şəxs kimi rəftar edirdi. Xüsusilə qızğın keçən fikir mübadiləsindən sonra Napoleon sanki öz üstünlüyünü yoxlayırmış kimi şlyapasını yerə saldı və düşmən koalisiyanın nümayəndəsinin onu yerdən qaldıracağını gözlədi. Metternix özünü görməzliyə vurduqda hər iki şəxsə aydın olmalı idi ki, Austerlits və Vaqram qələbəsinin nüfuzu və gücündə əsaslı dəyişiklik baş verib. Metternix müzakirənin sonunda Napoleona onun uduzduğuna əmin olduğunu söyləməklə vəziyyəti ümumiləşdirdi.

Diplomatlar arasında əlaqələr təbii olaraq nüfuz siyasətinin aləti olaraq çıxış edir, çünki diplomatlar mənsub olduqları dövlətlərin rəmzi nümayəndələridir.[2] Onlara göstərilən hörmət, əslində, onların ölkələrinə göstərilən hörmətdir; onlar tərəfindən göstərilən hörmət, əslində, onların ölkələri tərəfindən göstərilən hörmətdir; onların etdiyi və məruz qaldığı həqarət, əslində, onların ölkəsinin etdiyi və məruz qaldığı həqarətdir. Tarix bu kimi vəziyyətləri təsvir edən və onların beynəlxalq siyasətdəki əhəmiyyətini göstərən nümunələrlə zəngindir.

Əksər saraylarda xarici səfirlər hökmdara adi rəsmilər tərəfindən təqdim olunduğu halda, kral saraylarının səfirlərinin şahzadələr tərəfindən təqdim olunması ənənəsi mövcud idi. 1698-ci ildə Lotaringiya şahzadəsi Venetsiya Respublikasının səfirini XIV Lüdoviqə təqdim edəndə Venetsiya Ali Şurası Fransa səfirindən xahiş etdi ki, kralı əmin etsin ki, Venetsiya Respublikası bu şərəfə görə daim minnətdar olacaq və şura XIV Lüdoviqə xüsusi təşəkkür məktubu göndərdi. Bu jest ilə Fransa Venetsiya Respublikasının bir krallıq qədər qüdrətli olduğuna işarə etdi və Venetsiya da bu yeni nüfuza görə minnətdarlıq nümayiş etdirdi. Papa sarayında Papa müxtəlif növ dövlətlərin diplomatik nümayəndələrini müxtəlif zallarda qəbul edərdi. Tac qoyulmuş dövlət rəhbərlərinin və Venetsiyanın səfirləri *Sala Regia*da, digər knyazların və respublikaların nümayəndələri isə *Sala Dukale*də qəbul olunurdu. Deyilənə görə, Genuya Respublikası nümayəndələrinin *Sala*

[1] *Memoirs of the Duke of Rovigo* (London, 1828), Vol. 1, Part II, səh. 73.
[2] Diplomatların müxtəlif vəzifələri üçün bax: paraqraf 31.

Dukale əvəzinə *Sala Regiada* qəbul olunması müqabilində Papaya milyonlar təklif etmişdi. Lakin Papa Genuya ilə onunla bərabər şərtlər altında rəftar edilməsini istəməyən Venetsiyanın etirazına görə bu xahişi rədd etdi. Rəftarda bərabərlik nüfuzda, yəni gücün etibarlılığında bərabərlik anlamı daşıyacaqdı və nüfuzda üstünlüyə malik olan dövlət buna razı ola bilməzdi.

XVIII əsrin sonunda İstanbul sarayında səfirlər və onları müşayiət edən heyətin nümayəndələri özlərini sultana təqdim edən zaman saray rəsmilərinin onları silahlarla "zəbt" etməsi və başlarını aşağı əyməsi hələ də bir ənənə idi. Səfir və baş nazir arasında ənənəvi nitq mübadiləsindən sonra saray rəsmiləri ucadan deyirdilər: "Kafirlərin bizim şanlı şəfəqsaçan hakimiyyətimizə gəlib ehtiramlarını bildirmələrinə əbədi həmd olsun".

Xarici ölkələrin nümayəndələrinə həqarət onların təmsil etdiyi ölkələrin hakimiyyətindəki rəzilliyi göstərmək niyyəti daşıyırdı.

Prezident Teodor Ruzveltin hakimiyyəti dövründə bütün diplomatik nümayəndələr hamısı birlikdə prezidentə təbriklərini çatdırmaq üçün yanvarın 1-də qəbul olunurdular. Prezident Taft bu qaydanı dəyişdi və səfir və nazirlərin ayrı-ayrılıqda qəbul olunması haqqında göstəriş verdi. Dəyişiklik haqqında məlumatlandırılmayan ispaniyalı nazir 1910-cu il yanvarın 1-də səfirlərin qəbulu üçün Ağ Evə gələndə onun girişinə icazə verilmədi. Bundan sonra İspaniya hökuməti naziri geri çağırdı və ABŞ hökumətinə etiraz etdi. İmperiyasını yenicə itirmiş və üçüncü dərəcəli dövlət səviyyəsinə düşmüş bir dövlət ən azından öz əvvəlki əzəmətinə müvafiq nüfuzunu saxlamaqda israr edirdi.

1946-cı ildə Sovet İttifaqının xarici işlər naziri Parisdə keçirilən qələbə şənliklərində digər böyük dövlətlərin nümayəndələri birinci sırada oturduldukları halda, ikinci sırada oturduldurğuna etiraz edərək tədbiri tərk etdi. Uzun zaman beynəlxalq birlikdə imperiya olmuş bir dövlət inkaredilməz böyük dövlət mövqeyinə nail olmuşdu və yeni mövqeyinə uyğun nüfuz sahibi olmaqda israrlı idi. 1945-ci il Potsdam konfransında Çörçill, Stalin və Trumen konfrans zalına kimin birinci girəcəyinə dair razılığa gələ bilmirdilər; sonda eyni vaxtda üç müxtəlif qapıdan daxil oldular. Bu üç siyasi lider öz dövlətlərinin müvafiq gücünü təmsil edirdi. Nəticə etibarilə onlardan birinə verilən üstünlük onun dövlətinə digər iki dövlət üzərində üstünlük vermiş olacaqdı ki, sonuncular da bu güzəşti etmək fikrində deyildilər. Onlar güc bərabərliyi iddiasında olduqlarından bu bərabərliyin öz rəmzi ifadəsini tapdığı nüfuzun saxlanmasını nəzərə almaq məcburiyyətində idilər.

Son zamanlara aid iki nümunəyə nəzər salaq: "De Qoll" Avropa cəmiyyətlərinin fövqəlmilli meyillərinə qarşı çıxdığında Fransa Ümumi Bazar Komissiyasının prezidenti Dr. Uolter Halşteynin etimadnamələrini təqdim edən səfirləri ənənəvi qəbul tərzinə – zolaqlı şalvar, vizitka və şampan şərabı – etiraz etdi.

Paris hiss edir ki, belə mərasim elə bir təəssürat yaradır ki, Dr. Halşteyn səfirlərin etimadnamələrini qəbul etmək məqsədinə görə dövlət rəhbərinə, məsələn, prezident de Qoll ilə bərabər mənsəbə malikdir.

Fransızlar mübahisə edirlər ki, komissiya hökumət deyil və həmin mərasim də gərək yumşaldılsın. Bu, fransızların Avropa cəmiyyətlərinin fövqəlmilli adlandırılan xüsusiyyətlərinə etirazının bir aspektidir. Fransa onlara suveren dövlətlər qrupu kimi baxır.[1]

ABŞ, Cənubi və Şimali Vyetnam hökumətləri və Milli Azadlıq Cəbhəsi (Vyetkonq) arasında 1968-ci ilin noyabrında başlanması nəzərdə tutulan sülh danışıqları konfrans zalının stolunun formasına dair mübahisələr səbəbindən 10 həftə gecikdi. Şimali Vyetnam kvadratşəkilli stol, yaxud dairəvi və ya romb şəklində düzülmüş 4 stol, yaxud da bütöv dairə formalı hamar ətraflı stol təklif edirdi. ABŞ digər tərəfdən sındırılmış oval formasında bir-birinin qarşısında yerləşdirilən 2 yarımoval, yaxud sındırılmış dairə formasında 2 yarımdairə şəkilli stol və onları müəyyən qədər bir-birindən ayıran, katiblər üçün 2 dördbucaqlı stol təklif edirdi. Sonuncu təklifə dair ABŞ belə bir güzəştə getdi ki, 2 yarımdairə şəkilli stolu bir-birinə tərəf itələyib katiblərin stollarını onların arasına yerləşdirmək olar. Bununla belə, katiblərin stolları kənarı əyilmiş stolların hər tərəfindən bir neçə düym kənara çıxmalı olacaqdı.[2] Nəhayət, ad lövhələri, bayraqlar, yaxud işarələrin olmadığı dairəvi stola dair razılığa gəldilər. Dairəvi stoldan 18 düym (təxminən 46 sm) aralıda qarşı tərəflərdə 3 futun 4 ½ futa (təxminən 90 santimetrin 137 santimetrə) ölçüsündə iki dördbucaqlı stol yerləşdirilməli idi.

Zahirən belə mücərrəd proseslərin arxasında nə dayanır? Şimali Vyetnam Vyetkonqun danışıqların müstəqil tərəfi kimi tanınmasına israr edirdi. ABŞ özünün müharibəyə dair uzun sürmüş təsəvvürünə əsaslanaraq irəli sürdüyü Vyetkonqun Şimali Vyetnam rejiminin, sadəcə, uzadılması olduğu fikrinin qəbul olunmasını istəyirdi. Beləliklə, stolun formasına dair fikir ayrılıqları münaqişənin mahiyyətinin rəmzi təzahürü idi. Vyetnam müharibəsi Vyetkonqdan öz alətləri kimi istifadə edən şimali vyetnamlıların təcavüzünün nəticəsi idi, yoxsa Vyetkonq şimali vyetnamlıların yardım və təhrik etdiyi, lakin yaratmadığı həqiqi bir xalq qüvvəsi idi? Stolun bu və digər forması bu kimi mühüm məsələni əvvəlcədən təyin edəcəkdi. Sonda razılaşdırılmış forma, görünür ki, həmin məsələni qeyri-müəyyən formada saxladı.

Bütün diplomatların bir-biriylə rəqabət apardıqları qonaqlıqların (əyləncə tədbirlərinin) siyasi əhəmiyyəti Vaşinqtonun sosial səhnəsindən bəhs edən bir məqalədən aşağıda verilmiş parçada ətraflı təsvir olunmuşdur:

[1] *New York Times*, May 4, 1966, səh. 16.
[2] *New York Times*, December 14, 1968, səh. 16.

"İndi xarici səfirliklərin bütün bu əyləncə tədbirləri (qonaqlıqlarla) ilə öz ölkələri üçün, əslində, nə *aldıqları* məsələsi müəmmalıdır. Buna heç kim nəzarət etmir. Lakin əksər səfirlər öz sosial çevrələrini soyuqqanlı ciddiyyətlə təqib edir və buna vəzifələrinin ən mühüm və əhəmiyyətli cəhətlərindən biri kimi yanaşırlar. Onlar, güman ki, haqlıdırlar.

Əvvəl-axır mülkiyyət hüququ səfirin akkreditə olunduğu paytaxtda fəaliyyətini ciddi şəkildə məhdudlaşdırır. Əlbəttə, səfir Hill qəzetinin səhifələrində konqresmenlərə, yaxud qanunvericilik müzakirələrinin formasına və gedişinə açıq qeydə alınan reaksiya haqqında məlumatlara qarışmış şəkildə görünmək istəmir. Lakin o, Amerikanın işləri və rəsmiləri haqqında düzgün təəssürata sahib olmaq üçün kifayət qədər hərəkətli olmalı və öz növbəsində ictimai düşüncədə özü və ölkəsinin xarakteri haqqında müəyyən təəssürat yaratmalıdır. Bunun üçün sosial mühit onun, demək olar ki, yeganə yanaşma yeridir və əgər o, salonda cəlbedici və məharətli olmazsa, o, dəftərxanada da ölkəsi üçün çox da faydalı olmayacaq...

Vaşinqtonda ən böyük və ən bahalı əyləncə məclislərini latın amerikalılar təşkil etdiyindən və bundan mənfəət əldə etmiş göründüklərindən onları veyillər kimi qələmə vermək meyli müşahidə olunur. Bu, səhv yanaşmadır. Latın amerikalıların can atdıqları, hər şeydən öncə, nüfuz Amerika xalqları ailəsində bərabərhüquqluluq mövqeyidir; və kim deyə bilər ki, bənzəri olmayan əyləncə məclisləri silsiləsində yalnız zənginliklərini deyil, həmçinin xoş davranışlarını və parlaq və kəskin zəkalarını nümayiş etdirməklə onlar bu məqsədə doğru nə isə etmirlər?"[1]

Nüfuz siyasəti dövlətin sahib olduğu və ya sahib olduğunu düşündüyü, yaxud digər dövlətlərin onun sahib olduğuna inanmasını istədiyi gücü nümayiş etdirən bir siyasət olaraq, xüsusilə beynəlxalq görüşlər üçün yerin seçilməsində münbit zəmin tapır. Çoxsaylı antaqonist iddialar bir-biriylə rəqabət aparanda və güzəşt yolu ilə barışığa gələ bilməyəndə görüş yeri çox vaxt nüfuz uğrunda yarışda iştirak etməyən ölkədə seçilir. Bu səbəbdən Hollandiyanın Haaqa və İsveçrənin Cenevrə şəhərləri beynəlxalq konfranslar üçün üstünlük verilən görüş yeri olub. Çox vaxt üstünlük verilən bir görüş yerinin digərinə dəyişdirilməsi güc üstünlüyündəki dəyişikliyin göstəricisi olur. XIX əsrin böyük bir dövründə beynəlxalq konfransların çoxu Parisdə keçirilib. Lakin Fransa üzərində qələbədən sonra yenidən qurulmuş Almaniya imperiyasının paytaxtında keçirilən 1878-ci il Berlin konfransı bütün dünyaya Almaniyanın Avropa qitəsində ən üstün güc olmaqla yeni nüfuzunu nümayiş etdirdi. Başlanğıcda Sovet İttifaqı Cenevrənin BMT-nin baş qərargahı olmasına etiraz etmişdi; çünki əvvəllər Millətlər Cəmiyyətinin baş qərargahı olmuş Cenevrə iki

[1] "R.S.V.Politics," *Fortune*, February 1952, səh. 120 (*"Fortune"* jurnalının icazəsiylə istifadə edilmişdir. Müəlliflik hüququ Time Inc., 1952)

dünya müharibəsi arasında Sovet İttifaqının nüfuzunun aşağı səviyyəsinin rəmzini daşıyırdı. Lakin BMT daxilində qüvvələrin bölgüsü İkinci Dünya müharibəsindən sonra Nyu-York görüşü Sovet İttifaqına Amerika liderliyi altında əksəriyyətə qarşı daim azlıqda qalmanın nə demək olduğunu göstərdikdə o, BMT-nin baş qərargahının Amerika ağalığının heç bir rəmzini daşımayan Cenevrəyə köçürülməsinin tərəfdarı oldu. Prezident Niksonun 1972-ci ildə Çinin baş naziri Çou En Lay ilə Vaşinqtonda, yaxud hər hansı bitərəf ərazidə deyil, Pekində görüşməsinin əlaqədar xalqların Asiyada və dünyada qüvvələr bölgüsündə baş verdiyinə inandıqları dəyişikliklər üçün rəmzi əhəmiyyəti var.

Adətən, müəyyən bir sahədə və ya regionda üstünlüyə malik olan bir dövlət həmin sahəyə və ya regiona aid məsələlərə dair beynəlxalq konfransların onun ərazisində, yaxud ən azından ona yaxın ərazidə keçirilməsində israr edir. Belə ki, dənizçilik məsələləriylə bağlı əksər beynəlxalq konfranslar Londonda keçirilib. Yaponiyaya dair beynəlxalq konfranslar ya Vaşinqton, ya da Tokioda baş tutub. İkinci Dünya müharibəsindən sonra Avropanın gələcəyinə dair məsələlərin müzakirə olunduğu əksər beynəlxalq konfranslar ya Rusiya ərazisində, məsələn, Moskvada, Yaltada, ya Rusiyanın işğal etdiyi ərazidə, məsələn, Potsdamda, ya da Rusiya ərazisinin yaxınlığında, məsələn, Tehranda keçirilib. Lakin 1947-ci ilin sonunda siyasi vəziyyət o dərəcədə dəyişmişdi ki, prezident Trumen nəzərəçarpacaq vurğu ilə bəyan etdi ki, o, Stalinlə Vaşinqtondan başqa heç yerdə görüşməyəcək.[1]

HƏRBİ GÜC NÜMAYİŞİ

Nüfuz siyasəti məqsədinə nail olmaq üçün diplomatik fəaliyyətdən başqa, hərbi güc nümayişindən də bir vasitə kimi istifadə edir. Hərbi qüdrəti dövlətin gücünün bariz meyarı olduğundan onun nümayişi başqalarına həmin dövlətin gücü ilə təsir etməyə xidmət edir. Məsələn, xarici dövlətlərin hərbi nümayəndələri dinc dövrdə ordu və donanmanın təlimlərinə hərbi sirlər haqqında məlumatlandırılmaq deyil, onları və onların hökumətlərini həmin dövlətin hərbi hazırlığından təsirləndirmək üçün dəvət olunurlar. 1946-cı ildə Sakit okeanda atom bombasının keçirilən iki sınağına xarici müşahidəçilərin dəvət olunması da eyni məqsədə nail olmaq niyyəti daşıyırdı. Xarici müşahidəçi bir tərəfdən ABŞ-ın donanmasının qüdrətindən və Amerikanın texnoloji nailiyyətlərindən təsirlənməli idi. "*New York Times*" yazırdı: "BMT-nin Atom Enerjisinə Nəzarət Komissiyasının 21 üzvü ...bu

[1] *New York Times*, December 19, 1947, səh. 1; July 27, 1948, səh. 1; February 4, 1949, səh. 1.

gün belə bir fikirdə həmrəy oldu ki, ABŞ bütün dünyanın birlikdə götürülmüş donanmalarından böyük olan gəmilər qrupunu bombaladı".[1] Digər tərəfdən xarici müşahidəçilər atom bombasının suyun üstündə və altında nəyə qadir olduğunu və atom silahında monopoliyaya sahib dövlətin hərbi qüdrətinin ona sahib olmayan dövlətlər ilə müqayisədə necə üstün olmalı olduğunu özləri görməli idilər.

Dövlətin bayrağını və gücünü Yer kürəsinin dörd bir tərəfinə daşımaq imkanına malik donanmaların yüksək hərəkətlilik qabiliyyəti və onların görüntüsünün böyük təsirliliyi səbəbindən donanma nümayişləri keçmişdə nüfuz siyasətinin üstünlük verdiyi bir alət olub. 1891-ci ildə Fransa flotunun Rusiyanın Kronştadt limanına səfəri və 1893-cü ildə Rusiya flotunun Fransanın Tulon limanına qayıdış səfəri dünyanın siyasi tarixində dönüş nöqtəsi olmuşdur; çünki bu qarşılıqlı səfərlər dünyaya Fransa və Rusiya arasındakı siyasi və hərbi ittifaq formasında möhkəmlənə biləcək qədər uzun çəkməyən siyasi və hərbi həmrəyliyi nümayiş etdirdi. Böyük dəniz qüvvələri tərəfindən Uzaq Şərqin limanlarına gəmi eskadralarının müntəzəm yollanışı həmin regionun xalqlarına Qərbin gücünün böyüklüyünü nümayiş etdirirdi. ABŞ Latın Amerikası dövlətlərinə Qərb yarımkürəsində Amerika donanmasının gücünün üstün olduğunu xatırlatmaq üçün zaman-zaman bu regiona hərbi gəmilərini göndərir.

Müstəmləkə və yarımmüstəmləkə regionlarında dəniz dövlətinin tələbləri yerli xalqlar və ya rəqib dövlətlər tərəfindən pozulanda həmin dövlətlər öz ölkələrinin gücünün rəmzi nümunələri kimi bu regiona hərbi gəmilərini göndərərdi. Bu növ nüfuz siyasətinin ən məşhur nümunəsi II Vilhelmin 1905-ci ildə alman hərbi gəmisinin göyərtəsində Mərakeşin Tancer limanına Fransanın bu dövlətə irəli sürdüyü tələblərə qarşı çıxmaq məqsədilə etdiyi səfərdir. İkinci Dünya müharibəsindən sonra Amerika gəmi eskadronlarının Aralıq dənizində İtaliya, Yunanıstan və Türkiyə limanlarına etdiyi dəniz səfərləri bu regionda Rusiyanın təşəbbüslərinə aşkar cavab idi. Qərb müttəfiqlərinin birləşmiş qüvvələri tərəfindən manevrlər üçün Qərbi Avropanın ən müdafiəsiz regionlarının seçilməsi Sovet İttifaqına və müttəfiqlərin özlərinə Atlantika İttifaqının hərbi gücünü və həmin gücün Qərbi Avropada status-kvonun qorunması üçün istifadə edilməsinə dair qətiyyəti nümayiş etdirmək niyyəti daşıyırdı.

Nüfuz siyasətinin hərbi növünün ən kəskin forması qismən və total səfərbərlikdir. Nüfuz siyasətinin bir aləti kimi səfərbərlik bu gün köhnəlmiş hesab oluna bilər, çünki gələcəyin müharibəsi, bütün ehtimallara görə, bütün dövrlərdə total hazırlıq tələb edəcək. Lakin keçmişdə, hələ 1938 və 1939-cu illərdə ya ehtiyatda olanların müəyyən təbəqələrinin, ya da hərbi xidmət subyekti olan hər kəsin

[1] Yenə orada, July 1, 1946, səh. 3.

səfərbərliyinin elan olunması nüfuz siyasətinin işlək bir aləti olub. Məsələn, 1914-cü ildə Rusiya öz ordusunu və onun ardınca Avstriya, Almaniya və Fransa öz qüvvələrini, 1938-ci ilin sentyabrında Fransa və Çexoslovakiya öz ordularını və 1939-cu ilin mart və sentyabrında yenidən Fransa öz ordusunu səfərbər edərkən məqsəd hər zaman həm dost, həm də düşmənə öz hərbi qüdrətini və siyasi məqsədlərinə nail olmaq üçün bu qüdrətindən istifadə qətiyyətini nümayiş etdirmək idi.

Burada nüfuz – gücün etibarı – həm müharibənin qarşısını almaq, həm də ona hazırlıq üçün istifadə olunur. Ümid olunur ki, bir dövlətin nüfuzu digər dövlətləri müharibə etmək niyyətindən daşındırmağa kifayət edəcək. Eyni zamanda ümid olunur ki, əgər bu nüfuz siyasəti uğursuzluğa uğrayarsa, müharibənin realda başlamasından əvvəl silahlı qüvvələrin səfərbərliyi dövlətə mövcud şərtlər altında ən əlverişli hərbi mövqeyə sahib olmaq imkanı verəcək. Bu məqamda siyasi və hərbi siyasət birləşməyə və eyni bir siyasətin iki müxtəlif tərəfi olmağa meyil edir. İrəlidə dinc və müharibə dövründə xarici və hərbi siyasət arasındakı sıx əlaqələri nəzərdən keçirmək imkanımız olacaq.[1]

NÜFUZ SİYASƏTİNİN 2 MƏQSƏDİ

Nüfuz siyasətinin iki mümkün son məqsədi var: məmnuniyyət xətrinə nüfuz və daha çox status-kvo, yaxud imperializm siyasətinə dəstək olmaq üçün nüfuz. Əgər milli cəmiyyətlərdə nüfuza məmnuniyyət xətrinə can atırlarsa, o, nadir hallarda xarici siyasətin əsas məqsədi olur. Nüfuz əksər hallarda son məqsədi gücə görə şöhrət qazanmaq deyil, gücün maddi mövcudluğuna nail olmaq olan xarici siyasətlərin xoşagələn ikinci dərəcəli elementidir. Milli cəmiyyətlərin öz mövcudluğuna və sosial mövqeyinə görə sosial təsisatların və davranış qaydalarının birləşmiş sistemi tərəfindən müdafiə olunan ayrı-ayrı üzvləri zərərsiz sosial oyun növü kimi nüfuz uğrunda rəqabətdə əylənmək imkanına sahibdirlər. Lakin beynəlxalq cəmiyyətin üzvü kimi mövcudluqlarını və güc mövqelərini qorumaq üçün əsas etibarilə öz gücünə arxalanmalı olan dövlətlər nüfuzun qazanılması və ya itirilməsinin onların beynəlxalq arenadakı güc mövqeyinə təsirinə, çətin ki, etinasız qala bilər.

Ona görə də təsadüfi deyil ki, artıq qeyd etdiyimiz kimi, beynəlxalq münasibətlərin gücün əhəmiyyətini lazımi qədər qiymətləndirməyən araşdırmaçıları nüfuz məsələsini xəfifə alırlar. Həmçinin bu da təsadüfi deyil ki, yalnız dəlisov xudbinlər öz məmnuniyyətləri xatirinə nüfuz siyasəti yürütməyə meyilli olurlar. Müasir dövrdə II Uilyam və Mussolini bunun nümunəsidirlər. Onlar yenicə sahib olduqları

[1] Bax: paraqraf: 9, 23, 32.

daxili gücdən sərxoşlanaraq, beynəlxalq siyasətə fərdi idman növü münasibəti bəsləyirlər və öz dövlətinin yüksəlişi və digərinin alçalması halında öz şəxsi üstünlüklərindən həzz alırlar. Lakin belə etməklə onlar beynəlxalq arenanı daxili arena ilə qarışdırırdılar. Daxildə gücün nümayişi, yaxud ən azından özünü göstərməsi, ən pis halda, zərərsiz səfehlikdən başqa bir şey olmayacaq. Sərhəddən kənarda isə belə bir nümayiş od ilə oynamaqdır və inandığına, yaxud iddia etdiyinə uyğun gücə sahib olmayan oyunçunu məhv edəcək. Təkşəxsli hökumətlər, yəni mütləq monarxiya və ya diktaturalar rəhbərin şəxsi şöhrətini dövlətin siyasi maraqları ilə eyniləşdirməyə meyil edir. Xarici siyasətin uğurlu icrası şəraitində belə eyniləşdirmə ciddi bir zəiflikdir, çünki bu, təhlükə altında olan milli maraqlara və onlara yardım edə biləcək gücə etinasızlıq göstərərək, öz məmnunluğu naminə nüfuz siyasətinin yürüdülməsinə gətirib çıxarır. Amerikanın 1965-1975-ci illərdə Hind-Çində həyata keçirdiyi siyasət bu analizə əsasən nəzərdən keçirilə bilərdi.

Nüfuz siyasətinin status-kvo və imperializm siyasətləri naminə yerinə yetirdiyi vəzifə məhz beynəlxalq siyasətin təbiətindən qaynaqlanır. Dövlətin xarici siyasəti hər zaman tarixin müəyyən bir anında müxtəlif dövlətlər arasında mövcud olan güc münasibətləri və onların yaxın və uzaq gələcəkdə mümkün inkişafına dair hesablamaların nəticəsidir. Məsələn, ABŞ-ın xarici siyasəti, deyək ki, Böyük Britaniya, Sovet İttifaqı və Argentinanın gücünə münasibətdə ABŞ-ın gücünün və bu müxtəlif dövlətlərin gücünün gələcək ehtimal olunan inkişafının dəyərləndirilməsinə əsaslanır. Eynilə Böyük Britaniya, Sovet İttifaqı və Argentinanın xarici siyasətləri də dövrə uyğunlaşdırılmaq məqsədilə daimi şəkildə təkrar müzakirələrin mövzusu olan oxşar dəyərləndirmələrə əsaslanır.

Nüfuz siyasətinin başlıca vəzifəsi bu dəyərləndirmələrə təsir etməkdir. Məsələn, əgər ABŞ Latın Amerikası dövlətlərinə öz gücü ilə o dərəcədə təsir edə bilsə ki, bu dövlətlər onun Qərb yarımkürəsində üstünlüyünün danılmaz olduğuna əmin olsun, onun Qərb yarımkürəsindəki status-kvo siyasətinə, çox ehtimal ki, xələl gəlməyəcək və bununla da ABŞ-ın uğuru təmin edilmiş olacaq. Avropada 20-ci illərdə və 30-cu illərin başlanğıcında mövcud olan nisbi siyasi sabitlik, əsasən, Fransanın dünyada ən qüdrətli hərbi güc kimi sahib olduğu nüfuz ilə bağlı idi. Almaniya imperializmi 30-cu illərin sonunda əldə etdiyi zəfərlərə görə əsas etibarilə uğurlu nüfuz siyasətinə borcludur. Bu siyasət status-kvonun qorunmasında maraqlı olan dövlətləri Almaniyanın məğlubedilməzliyinə olmasa da belə, üstünlüyünə inandıra bilmişdi. Məsələn, Polşa və Fransada öncəliklə hərbi və siyasi liderlərdən təşkil olunmuş əcnəbi tamaşaçılara ildırımsürətli müharibə haqqında sənədli filmlərin nümayişi, aydındır ki, bu məqsədə xidmət edirdi. Dövlətin xarici siyasətinin son məqsədinin nə olmasından asılı olmayaraq, onun nüfuzu – gücünün etibarı – onun xarici siyasətinin uğuru və uğursuzluğunu təyin edən hər

zaman mühüm, bəzən isə həlledici amildir. Odur ki nüfuz siyasəti rasional xarici siyasətin zəruri elementidir.

İkinci Dünya müharibəsini müşayiət edən iki onillikdə Qərb dünyası və sovet blokunun əlaqələrinə istiqamət verən "soyuq müharibə" başlıca olaraq nüfuz silahları ilə aparılırdı. ABŞ və Sovet İttifaqı bir-birini mənəvi cəhətdən zəiflətmək və müharibəyə doğru geriyədönməz addım atmaqdan çəkindirmək məqsədilə hərbi qüdrətləri, texnoloji nailiyyətləri, iqtisadi potensialları və siyasi prinsipləriylə bir-birinə təsir etməyə cəhd edirdi. Onlar eynilə öz müttəfiqlərinə, düşmən ittifaqın üzvlərinə və bu kimi keyfiyyətlərə malik, lakin kənarda qalmış dövlətlərə təsir etməyə çalışırdılar. Onların məqsədi müttəfiqlərinin sədaqətini qoruyub saxlamaq, düşmən koalisiyanın birliyini zəiflətmək və kənar qalmış dövlətlərin dəstəyinə nail olmaq idi.

Nüfuz siyasəti, güc uğrunda mübarizə yalnız siyasi təzyiq və hərbi güc kimi ənənəvi üsullarla deyil, həmçinin geniş ölçüdə insanların beyinləri uğrunda mübarizə formasında aparıldıqda siyasi silah kimi xüsusilə əhəmiyyətli oldu. Asiya, Yaxın Şərq, Afrika və Latın Amerikasının geniş ərazilərində "soyuq müharibə" başlıca olaraq iki rəqib siyasi fəlsəfə, iqtisadi sistem və həyat tərzi arasında rəqabət baxımından aparılırdı. Bu həmin regionlarda nüfuzun, yəni fəaliyyət və güc etibarlılığının uğrunda siyasi döyüşlərin aparıldığı əsas dayağa çevrildiyini söyləməyin digər yoludur. Bu mübarizənin əsas alətləri öz tərəfinin nüfuzunu artırmağa və düşmən tərəfinin nüfuzunu azaltmağa çalışan təbliğat və yardımı qəbul edən dövlətə yardım göstərən dövlətin iqtisadi və texnoloji üstünlüyü ilə təsir etmək niyyəti daşıyan xarici yardımdır.

Nüfuz siyasəti zəfərə o zaman nail olur ki, onu həyata keçirən dövlətə güc alətinin real tətbiqindən imtina etməyə imkan verəcək bir etibar qazandırır. Bu zəfəri 2 amil mümkün edir: danılmaz güc etibarı və ondan istifadə etmək təmkinliyinin etibarı. Roma və Britaniya imperiyaları və ABŞ-ın "yaxşı qonşuluq" siyasəti üstünlük əldə etdiyi zamanlarda bu nadir kombinasiyadan klassik nümunələrdir.

Roma imperiyasının ömrünün onunla eyni ölçülərdə olan imperiya strukturlarının, adətən, uğradığı sürətli süqut taleyinin əksinə olaraq, uzun olması, əsasən, Roma adının öz sərhədləri daxilində daşıdığı dərin hörmətlə əlaqədar idi. Roma imperiyasının istənilən tərkib hissəsindən siyasi zəkasına və hərbi qüdrətinə görə üstün idi. Üstünlüyünün boyunduruğunu daşımağı mümkün qədər asanlaşdırmaqla o, subyekti olan xalqları Roma ağalığından xilas olmaq motivindən məhrum etdi. Ən pis halda, subyekt olan bu və ya digər xalq üsyan edə bilərdi, lakin heç vaxt Romaya etiraz etmək üçün kifayət qədər güclü koalisiya yaratmağa bəs edəcək motiv mövcud olmurdu. Təcrid olunmuş iğtişaşlar dərhal və məharətlə üstünlüyə malik olan Roma qüvvələri tərəfindən yatırılacaq və bununla da Romanın nüfuzu daha da artacaqdı. Romaya qarşı etiraz etməyə cürət edənlərin

acı taleyi ilə Romaya sadiq qalanların Roma qanunları altında dinc və tərəqqi içində olan həyatı arasındakı ziddiyyət güc tətbiqində göstərdiyi ehtiyatlılığa görə Romanın etibarlılığını artırdı.

Təmkinlə idarə olunan gücün yaratdığı həmin etibarlılıq Britaniya imperiyasının da təməl daşı idi. Araşdırmaçılar bir neçə min Britaniya rəsmisinin yüz milyonlarla hindlini idarə etmək bacarığından riqqətə gəliblər, hələ özünü idarə edən dominionları imperiya ilə birləşdirən könüllü sədaqət öhdəliklərindən danışmırıq. Lakin Böyük Britaniyanın İkinci Dünya müharibəsində Yaponiya tərəfindən məruz qaldığı rüsvayçı məğlubiyyətlər onun inkaredilməz güc kimi etibarlılığını əbədi olaraq alt-üst etdi. Asiya ərazisində subyekt xalqlar tərəfindən qaldırılan milli azadlıq çağırışları isə illərlə və müdrikliklə yetişmiş tolerant idarəetmə bacarıqlarını tamamilə boğdu. Bu iki elementli nüfuz yox olandan və imperiyanı mütləq güc ilə qoruyub saxlamaq imkanları əldən çıxandan sonra Britaniya imperiyasının Asiya hissəsi Britaniyanın nüfuzunu uzun müddət yaşatmadı.

"Yaxşı qonşuluq" siyasəti dövründə ABŞ-ın Qərb yarımkürəsindəki hegemonluğu da buna oxşar olaraq gücün real tətbiqindən daha çox, onun danılmazlığından irəli gələn etibarına arxalanırdı. ABŞ-ın Qərb yarımkürəsində üstünlüyü o qədər aydın və böyük idi ki, nüfuz təklikdə ABŞ-a Amerika respublikaları arasında öz gücünə uyğun mövqeni təmin etməyə kifayət edirdi. ABŞ hətta zaman-zaman qazandığı nüfuzdan qaynaqlanan tələbkarlıqdan imtina da edirdi, çünki bu şəkildə təzahür edən təmkinlilik onun hegemonluğunu cənubda yaşayan qonşuları üçün dözülən edirdi. Belə ki, ABŞ "yaxşı qonşuluq" siyasətinin başlanğıcından panamerika konfranslarının ABŞ-dan daha çox Latın Amerikası ölkələrində keçirilməsini vacib hesab edirdi. ABŞ Qərb yarımkürəsində danılmaz güc varlığına sahib olduğundan nüfuzun belə böyük gücə məxsus bütün təzahürlərinə israr etməməyi və Qərb yarımkürəsində bəzi digər ölkələrə ən azından gücünün görüntüsündən nüfuz kimi yararlanmağa icazə verməyi böyük bir müdriklik hesab edirdi. Yalnız Amerika Dövlətləri Təşkilatının iflası və Amerika siyasətində dəyişiklik bu mənzərəni dəyişməyə başladı.

NÜFUZ SİYASƏTİNİN 3 TƏHRİFİ

Lakin bir dövlət üçün nüfuz siyasətinin yürüdülməsi kifayət deyil. Bu baxımdan o nəyisə lap çox, ya da lap az edər ki, hər iki halda da uğursuzluq riskinə məruz qalacaq. Öz gücü haqqında məlumatlılığa əmin olmadan nüfuz meyarına istinad edib, həqiqi əhəmiyyətlilik dərəcəsinə uyğun olmayan müəyyən bir addımı atırsa, o, lazım gəldiyindən irəli getmiş olar. Dövlətin nüfuzu tarixin müəyyən bir anında

müəyyən bir hərəkətin uğuru və ya uğursuzluğu ilə təyin olunmur. Tamamilə əksinə, o, dövlətin keyfiyyətlərinin və hərəkətlərinin, uğurlarının və uğursuzluqlarının, tarixi yaşantıları və təşəbbüslərinin bütünlükdə məcmusunu əks etdirir. Dövlətin nüfuzu bankın etibarına çox oxşayır. Geniş, təsdiq olunmuş ehtiyatlara və uğurlar rekorduna malik olan bank kiçik və çox zaman uğursuz olmuş rəqibinin sahib ola bilmədiyi imkanlara sahib olur: məsələn, səhv etmək və ya geriləməyə düçar olmaq. Onun insanlara məlum olan gücü onun nüfuzunun belə uğursuzluqlara dözməsi üçün kifayət qədər böyükdür. Deyilənlər dövlətə də aiddir.

Tarixin səhifələri böyük gücə sahib olduqlarına arxayın olan və həmkarları tərəfindən belə qəbul olunan dövlətlərin məğlubiyyətə düçar olduğu və ya nüfuzlarına xələl gəlmədən aşkar mövqelərindən geri çəkildikləri nümunələrlə doludur. Fransanın nüfuzu nə zaman daha yüksək idi: o, Hind-Çində və Əlcəzairdə nə qalib gələ bildiyi, nə də məğlub ola biləcəyini düşündüyü müharibələri aparan zaman, yoxsa bu uğursuz işlərdən yaxa qurtarandan sonra? Bəs Amerikanın nüfuzu uzun vədədə 1962-ci ildə Donuzlar körfəzindəki məğlubiyyətdən nə qədər zərər çəkdi? Fransa "şərəfi"ni ortaya qoyduğu iki uğursuz fəaliyyətdən əl çəkmək müdrikliyi və cəsarəti nümayiş etdirərkən onun nüfuzu İkinci Dünya müharibəsinin başlanğıcından bəri ən yüksək səviyyəsinə çatdı və Donuzlar körfəzindəki məğlubiyyət Amerikanın gücünün və uğurlarının ağır gəldiyi tərəzidə çox kiçik çəkiyə malik idi. Dövlətlər ictimai fikrin ötəri qərarsızlığı ilə milli gücün və nüfuzun davamlı əsaslarını qarışdırmamaq üçün ehtiyatlı olmalıdır. Belə ki, gücün güzgüsü olan nüfuz xüsusi bir hala münasibətdə dövlətin ümumi gücü və nüfuzu kontekstində nəzərdən keçirilməlidir. İkincinin böyüklüyü birincidə əks olunur və birincinin çatışmazlıqları ikinci ilə doldurulur.

Dövlət öz gücü haqqında şişirdilmiş təsəvvürlər formalaşdıranda və bununla da, əslində, sahib olduğu gücü üstələyən güc etibarı əldə etməyə çalışanda da çox irəli getmiş olur. Bu halda o, nüfuzunu gücünün mövcudluğundan daha çox, görüntüsü üzərində qurur. Burada nüfuz siyasəti blef siyasətinə çevrilir. Yaxın tarixdə bunun məşhur nümunəsi İtaliyanın 1935-ci il Efiopiya müharibəsindən 1942-ci il Afrika kampaniyasına qədərki dövrdə yürütdüyü siyasətdir. Aralıq dənizini İtaliyanın daxili dənizinə çevirmək məqsədilə imperialist ekspansiya siyasətinə ağırlıq verən İtaliya Efiopiya müharibəsi və 1936-1939-cu illər İspaniya vətəndaş müharibəsi zamanı o dövrün dünyanın öndə gedən donanma dövləti və Aralıq dənizində üstünlüyə malik bir dövlət olan Böyük Britaniyaya meydan oxumağa cürət etdi. O bunu birinci dərəcəli hərbi güc olduğu təəssüratını yaratmaqla edirdi. İtaliyanın bu siyasəti digər bir dövlət onun güc iddiasını sınaqdan keçirməyə cürət edənədək davam etdi. Belə bir sınaq yetişəndə İtaliyanın çoxsaylı təbliğat vasitələri tərəfindən məqsədyönlü şəkildə formalaşdırılmış güc etibarı ilə onun

həqiqətdə sahib olduğu güc arasındakı ziddiyyət ortaya çıxdı. Bu onun nüfuz siyasəti ilə pərdələnmiş blef siyasətini üzə çıxardı.

Blef siyasətinin mahiyyəti öz təsvirini bir neçə əlavə insanın əsgərlər kimi geyindirilməsi, səhnə boyunca yeridilməsi, səhnə arxasında yox olması və yenidən təkrar-təkrar geri qaytarılması və bununla da çoxsaylı nizamla addımlayan insanlar görüntüsü yaradan teatr qurğusunda tapır. Avam və sadəlövhlər bu silahlı qüvvə görüntüsünə asanlıqla aldandıqları halda, məlumatlı və qərəzsiz müşahidəçilər bu hiylənin qurbanı olmurlar. Səhnə təlimatları "ordu"nun digər "ordu" ilə döyüşməsini tələb edəndə isə blef hamıya aşkar olacaq. Burada blef siyasəti tərkib hissələrinə bölünür və onun fəaliyyət mexanizmi sadə formada göstərilir. Blef siyasəti üçün qısa vədədə uğur qazanmaq asandır, lakin uzun vədədə o yalnız real fəaliyyət sınağını həmişəlik olaraq təxirə sala bilərsə, uğurlu ola bilər, bunu isə hətta ən yüksək keyfiyyətlərə malik dövlət quruluşları da təmin edə bilməz.

Bu halda bəxtin və siyasi müdrikliyin edə biləcəyi ən yaxşı iş blef siyasətinin ilkin uğurundan dövlətin real gücünü güman edilən səviyyəyə qaldırmaq məqsədilə istifadə etməkdir. Digər dövlətlər aldanıb, gücə layiq olmadığı dəyəri verərkən real gücü və nüfuzu uyğunlaşdırmaq üçün zaman qazanılır. Ona görə də güc uğrunda rəqabətdə, xüsusilə silahlanma sahəsində geri düşən dövlət öz zəifliyini blef siyasəti arxasında gizlətməyə cəhd etməli, eyni zamanda qarşısına çıxan əngəlləri dəf etməyə çalışmalıdır. 1940-cı ilin payızı və 1941-ci ilin qışında Böyük Britaniya real olaraq müdaxilə üçün açıq olanda həmin vaxt onun real hərbi qüdrətini böyük həcmdə aşan nüfuzu almanları onun ərazisinə hücum etmək cəhdindən çəkindirən, demək olar ki, yeganə ən mühüm amil idi. Nəticədə öz müdafiə gücünün görüntüsünü mühafizə edərkən o, real müdafiə gücü əldə edə bildi. Bununla belə, o da qeyd olunmalıdır ki, bəxt Hitlerin hərbi səhvləri formasında həmin blef siyasətinin yardımına gəldi və bu siyasət Böyük Britaniya tərəfindən azad şəkildə seçilməmiş, o, demək olar ki, dəfedilməz zərurət tərəfindən çarəsiz sonuncu üsul kimi buna məcbur edilmişdi.[1]

Beynəlxalq siyasətdə blef siyasətinə qoşulmağın, ümumiyyətlə, yanlış olduğu həqiqiliyini qoruyub saxlayarkən digər ifratçılıqlara əl atmaq və sahib olunan

[1] Əminliklə demək olar ki, Böyük Britaniya tarixinin iki ən böhranlı dövründə qurtuluşu üçün ən azı qismən nüfuz siyasətinə borcludur. 1797-ci ildə bütün Avropa Napoleonun ayaqları altında olanda və Fransa bütün səyini Böyük Britaniyanın məhvinə yönəldəndə Britaniya donanmasında qiyam başladı. Bir müddət qitə və Britaniya adaları arasında cəmi iki sadiq gəmi dururdu. 1940-1941-ci illərin qışında Britaniya fərqli bir səbəbə görə yenə də köməksiz idi. Hər iki vəziyyətdə Britaniya adının daşıdığı zəhm onun düşmənlərini ona qarşı maddi gücün bölgüsünün imkan verdiyi hücumdan çəkindirən amillərdən biri idi.

real güc müqabilində kiçik olan güc etibarı ilə kifayətlənmək də az yanlış deyil. Bu "neqativ nüfuz siyasəti"nin məşhur nümunələri iki dünya müharibəsi arasındakı dövrdə və xüsusilə İkinci Dünya müharibəsinin ilk illərində ABŞ və Sovet İttifaqıdır.

İkinci Dünya müharibəsinin başlanğıcında ABŞ artıq dünyada potensial olaraq ən güclü dövlət idi və o, açıq şəkildə Almaniya və Yaponiya imperializminə qarşı öz müxalifliyini bəyan etdi. Halbuki Almaniya və Yaponiya fəaliyyətlərini daha çox sanki ABŞ kimi birinci dərəcəli bir dövlətin, ümumiyyətlə, mövcud olmadığı kimi davam etdirirdi. Bu müzakirə nöqteyi-nəzərindən, Pörl-Harbor üzərinə hücumun əhəmiyyəti ABŞ-ın hərbi qüdrətinə nifrətin güman edilən ifadəsində yatır. ABŞ-ın gücünün etibarı, yəni onun nüfuzu o qədər aşağı idi ki, Yaponiya öz müharibə planlarını Amerikanın hərbi gücünün Pörl-Harbordakı zərbədən müharibənin nəticələrinə təsir etmək üçün vaxtında özünə gəlməyəcəyi ehtimalına əsaslandıra bildi. Amerikanın nüfuzu o qədər aşağı idi ki, Almaniya və İtaliya ABŞ-ı Avropa müharibəsindən kənar saxlamağa cəhd etmək əvəzinə, 1941-ci il dekabrın 10-da ona müharibə elan etməklə onu bura gətirməyə, demək olar ki, həvəsli görünürdü. Hitlerin 1934-cü ildə bəyanatından bir sitata nəzər yetirək: "Amerikalı əsgər deyil. Bu guya "Yeni dünya"nın keyfiyyətsizliyi və düşkünlüyü onun hərbi bacarıqsızlığından bəllidir".[1]

Belə böyük dəyərdən salınma, əsasən, Amerikanın, demək olar ki, mövcud olmayan nüfuz siyasətiylə əlaqədar idi, bura onun hərbi gücünün etibarlılığı da aiddir. Digər dövlətlərə özünün insan və maddi potensialının hərbi güc nöqteyi-nəzərindən hansı əhəmiyyəti daşıdığını nümayiş etdirməkdən uzaq olan ABŞ bu böyük imkanlarını real müharibə alətinə çevirmək bacarıqsızlığını olmasa belə, istəksizliyini sübut etdirməkdə, demək olar ki, əndişəli görünürdü. Bununla ABŞ düşmənləri tərəfindən etinasızlıq və hücuma, siyasi uğursuzluğa və həyati maraqları üçün ölümcül təhlükəyə yol açırdı.

Sovet İttifaqı eyni nəticələrlə nüfuz siyasətinə etinasızlıq göstərdiyinə görə deyil, bu siyasətində uğursuzluq yaşadığına görə çulğalaşmalı oldu. İki dünya müharibəsi arasındakı dövr ərzində Sovet İttifaqının gücünün etibarı aşağı idi. Almaniya, Fransa və Böyük Britaniya zaman-zaman xarici siyasətdə Sovet İttifaqının dəstəyini təmin etməyə çalışanda onlardan heç biri Sovet İttifaqı haqqında rus siyasi ideologiyasına qarşı ikrahı və onun Avropanın qalan hissəsinə yayılması qorxusunu dəf etməyə kifayət edəcək yüksək fikrə sahib olmurdu. Məsələn, 1938-ci ildə Fransa və Böyük Britaniya Almaniyanın ekspansiyasını təqdir etmək,

[1] Hermann Rauschning, *The Voice of Destruction* (New York: G.P.Putnam's Sons, 1940), səh. 71.

yoxsa Sovet İttifaqının yardımı ilə onun qarşısını kəsmək alternativi ilə üz-üzə qalanda sonuncunun nüfuzu o qədər aşağı idi ki, Qərbi Avropa dövlətləri böyük tərəddüd göstərmədən onun təklif olunan əməkdaşlığından imtina etdi. Sovet İttifaqının hərbi nüfuzu 1939-1940-cı illərdə Finlandiyaya qarşı aparılan kampaniya zamanı kiçik Finlandiyanın Sovet İttifaqı kimi bir nəhəngə qarşı mövqeyindən geri çəkilməmək iqtidarında olduğu məlum olanda özünün ən aşağı səviyyəsinə düşdü. Nüfuz sahəsində boşluq eləcə də müttəfiq dövlətlərin baş qərargahlarını Sovet İttifaqının Almaniyanın hücumuna qarşı müqavimət göstərə bilməyəcəyinə inandıran amillərdən biri idi.

Hər halda, müdrik bir xarici siyasət üçün nüfuz və real güc arasında belə uyğunsuzluq laqeyd yanaşılan bir məsələ olmamalıdır. Əgər Sovet İttifaqı 1938, 1939 və 1941-ci illərdə reallıqda olduğu kimi güclü görünüşə sahib olsaydı, yəni onun nüfuzu gücünə münasib olsaydı, başqa dövlətlərin Sovet İttifaqına qarşı siyasətləri asanlıqla fərqli olardı və Sovet İttifaqı və dünyanın müqəddəratı da başqa olardı. Bu gün Sovet İttifaqının göründüyü kimi güclü, yaxud daha güclü və ya daha zəif olub-olmaması həm Sovet İttifaqı, həm də dünyanın qalan hissəsi üçün zəruri əhəmiyyətli məsələdir. Bu, ABŞ və beynəlxalq siyasətdə fəal rol oynayan istənilən digər dövlətə də aiddir. Dövlətin sahib olduğu gücü dünyaya onu nə çoxaltmadan, nə də azaltmadan nümayiş etdirmək müdrikliklə düşünülən nüfuz siyasətinin qarşısında duran vəzifədir.

7. Beynəlxalq siyasətdə ideologiya elementi

SİYASİ İDEOLOGİYALARIN TƏBİƏTİ[1]

Daxili və beynəlxalq siyasətlər üçün xarakterik cəhət budur ki, onun əsas təzahürləri çox vaxt özünü olduğu kimi – güc uğrunda mübarizənin təzahürləri kimi göstərmir. Yürüdülən siyasətin birbaşa məqsədi kimi güc elementi daha çox əxlaqi, hüquqi və bioloji nöqteyi-nəzərdən izah olunur. Bu o deməkdir ki, siyasətin həqiqi təbiəti ideoloji dəyərləndirmələr və təkmilləşdirmələr ilə gizlədilir.

Fərd güc uğrunda mübarizəyə nə qədər yaxından cəlb olunursa, güman ki, güc uğrunda mübarizənin mahiyyətini o qədər az dərk edir. Hamletin anasına ünvanladığı sözlər eyni uğursuzluqla gücə ac olan hər kəsə ünvanlana bilər:

... Bir Allah eşqinə düşünün, ana,
Elə zənn etməyin qəmimə səbəb
Sizin günahınız, suçunuz deyil,
Yalnız, yalnız mənim dəliliyimdir[2].

Yaxud Tolstoyun *"Hərb və sülh"*də yazdığı kimi:[3]

[1] İdeologiya anlayışı çox vaxt fəlsəfi, siyasi və mənəvi baxışların ümumi mənasında istifadə olunur; ideologiyanın ümumi anlayışından kitabın növbəti hissələrində bəhs edəcəyik. Bu paraqrafda istifadə olunan ideologiya anlayışı Karl Manheymin "xüsusi ideologiya" adlandırdığı məfhum ilə üst-üstə düşür. Bax: Mannheim, *Ideology and Utopia* (New York: Harcourt, Brace, 1936), səh. 49: "İdeologiyanın xüsusi anlayışı terminin bizim opponentimiz tərəfindən irəli sürülən ideya və müddəalara skeptik yanaşdığımıza işarə etdiyi vəziyyəti nəzərdə tutur. Onlar vəziyyətin olduğu kimi qəbul olunması maraqlara uyğun gəlməyən real təbiətinin müəyyən dərəcədə şüurlu şəkildə pərdələnməsi kimi qəbul olunur. Bu təhriflər şüurlu yalanlardan yarımşüurlu və qərəzsiz pərdələmələrə, başqalarını aldatmaq üçün hesablanmış cəhdlərdən özünü aldatmalara qədər yayılır". Həmçinin bax: səh. 238: "İdeologiyaların tədqiqi insanların maraq qruplarının, xüsusilə siyasi partiyaların müəyyən dərəcədə şüurlu yalanlarını üzə çıxarmağı və maskasını cırmağı öz vəzifəsinə çevirib".
[2] Uilyam Şekspir, Seçilmiş əsərləri, "Hamlet", Bakı, 2009, *Tərc.* Sabir Mustafa
[3] Epiloq, II kitab, VII hissə

"Adam təklikdə bir iş görəndə həmişə müəyyən mülahizələrə əsaslanır. Ona elə gəlir ki, bu mülahizələr onun keçmiş fəaliyyətinə rəhbərlik edir, hazırkı fəaliyyətinə bəraət qazandırır və gələcək hərəkətləri haqqındakı fikirlərinə rəhbərlik edir.

Bir yerə toplaşıb işləyən adamlar da belə edirlər, onlar işdə iştirak etməyən adamlara imkan verirlər ki, öz ümumi fəaliyyətləri üçün mülahizələr, bəraətlər və fərziyyələr düşünsünlər.

Bizə məlum olan və olmayan səbəblərə görə, fransızlar bir-birilərini suda batırmağa və öldürməyə başladılar. Bu hadisənin özünə müvafiq və onunla yanaşı bəraətqazandırıcı əsası da vardır. Bu isə xalqların iradəsində ifadə olunur, onlar deyirlər ki, bu hadisə Fransanın səadəti üçün, azadlıq üçün, bərabərlik üçün lazım idi. Adamlar bir-birilərini öldürməkdən əl çəkirlər, bu hadisənin də bəraətqazandırıcı əsası öz yanındadır, bu da hakimiyyətdə vəhdət zərurətindən, Avropaya cavab verməkdən və s. ibarətdir. Adamlar bir-birilərini öldürərək qərbdən şərqə hərəkət edirlər, bunun da bəraəti – Fransanın şöhrəti, İngiltərənin alçaqlığı və s. haqqındakı sözlərdir. Tarix bizə göstərir ki, hadisələrə bəraət qazandıran bu əsasların heç bir ümumi mənası yoxdur, insanın insanı öldürmək hüququnu təsdiq etmək nəticəsində adam öldürmək və İngiltərəni alçaltmaq üçün Rusiyada milyonlarla adam öldürmək kimi öz-özlərinə ziddir, lakin bu bəraətlərin müasir mənada zəruri əhəmiyyəti vardır.

Bu bəraətlər hadisəni əmələ gətirən adamları mənəvi məsuliyyətdən azad edir. Bu müvəqqəti məqsədlər qatarın qabağında relsləri təmizləmək üçün qoyulmuş şotkalara oxşayır, onlar insanların mənəvi məsuliyyət yollarını təmizləyir. Bu bəraətlər olmasaydı, hər bir hadisəni müzakirə zamanı meydana çıxaran ən sadə bir sualı belə izah etmək olmazdı: məsələn, necə olur ki, milyonlarla adam kütləvi surətdə cinayət, müharibə, qətl və s. ilə məşğul olur?"[1]

Siyasi arenadakı aktor siyasi fəaliyyətinin həqiqi təbiətini siyasi ideologiya maskası arxasında gizlətməklə "tamaşanın oynanması"na kömək edə bilməz. Fərd güc uğrunda müəyyən mübarizədən nə qədər kənardırsa, güman ki, o qədər onun həqiqi təbiətini dərk edir. Ona görə də təsadüfi deyil ki, xaricilər bir ölkənin siyasətini yerli əhalidən daha yaxşı başa düşürlər və alimlərin siyasətin ümumilikdə mahiyyətini dərk etmək üçün imkanları siyasətçilərdən daha yaxşıdır. Digər tərəfdən, siyasətçilərdə öz hərəkətlərinə güc baxımından deyil, əxlaqi və hüquqi prinsiplər və bioloji ehtiyaclar baxımından nəzər salmaqla özlərini aldatmağa kök salmış bir meyil var. Başqa sözlə, bütün siyasətlər mütləq şəkildə güc təqibi olduğu halda, ideologiyalar aktorlar və kütlə üçün psixoloji və əxlaqi baxımdan qəbul olunan bu güc yarışına qarışıqlıq gətirir.

[1] Tərcümə edəni: Məmməd Arif, Bakı, 2006

Bu hüquqi və əxlaqi prinsiplər və bioloji ehtiyaclar beynəlxalq siyasət sahəsində ikili funksiya həyata keçirir. Bu ya bizim əvvəllər haqqında bəhs etdiyimiz kimi[1] siyasi fəaliyyətin son məqsədləri, – yəni reallaşması üçün güc tələb olunan son məqsədlər, – ya da arxasında bütün siyasətlərə xas olan güc elementinin gizləndiyi bəhanələr və aldadıcı görüntülərdir. Bu prinsiplər və ehtiyaclar bu və ya digər funksiyanı, yaxud eyni zamanda hər iki funksiyanı həyata keçirə bilər. Hüquqi və əxlaqi prinsip, məsələn, ədalət, yaxud bioloji ehtiyac, müvafiq yaşayış standartları, ya xarici siyasətin məqsədi, ya ideologiya, ya da eyni zamanda hər ikisi ola bilər. Biz burada xarici siyasətin son məqsədlərindən danışmadığımıza görə əxlaqi və hüquqi prinsiplərdən və bioloji ehtiyaclardan yalnız onların ideologiyalar funksiyasını icra etməsi formasında bəhs edəcəyik.

Bu ideologiyalar xarici siyasətin daha ləyaqətlə icrası naminə yalnız daha vicdanlı şəxslərlə əvəz edilmələrinə ehtiyac olan müəyyən şəxslərin riyakarlığının təsadüfi törəməsi deyil. Bu cür gözləntilər hər zaman məyusluqlarla müşayiət olunur. Franklin D.Ruzveltin, yaxud Çörçillin xarici siyasətinin hiyləgərliyini açıb göstərmək üçün ən çox canfəşanlıq göstərən müxalifət nümayəndələri bir gün özləri xarici siyasətin icrası üçün məsuliyyət daşıyanda istifadə etdikləri ideoloji pərdələmələrlə tərəfdarlarını heyrətə saldılar. Siyasi səhnədəki aktoru öz fəaliyyətinin birbaşa məqsədini pərdələmək üçün ideologiyalardan istifadəyə məcbur etmək elə siyasətin təbiətidir. Siyasi fəaliyyətin birbaşa məqsədi gücdür və siyasi güc insanların düşüncələri və hərəkətləri üzərində olan gücdür. Bununla belə, başqalarının gücünün potensial hədəfi seçilənlər özləri də başqaları üzərində gücə sahib olmağa cəhd edirlər. Beləliklə, siyasi səhnədəki aktor həmişə eyni zamanda həm potensial ağa, həm də potensial təbəədir. O, başqaları üzərində gücə can atdığı zaman digərləri də onun üzərində gücə can atırlar.

Siyasi bir varlıq kimi insana bu ikili yanaşma onun şəraiti əxlaqi baxımdan dəyərləndirməyə ikili yanaşmasına uyğundur. O özünün güc istəyini ədalətli hesab edir, digərlərinin onun üzərində gücə sahib olmaq istəyini isə ədalətsiz olduğuna görə pisləyir. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra ruslar gücə sahib olma niyyətlərini təhlükəsizlikləri baxımından əsaslandırırdılar. Lakin Amerika gücünün ekspansiyasını "imperialist" olduğu üçün və dünyanın istilasına hazırlıq kimi pisləyirdilər. ABŞ da Rusiyanın cəhdlərinə eyni damğanı vurur, bununla belə, öz beynəlxalq məqsədlərini milli müdafiənin zərurətləri kimi nəzərdən keçirirdi. Con Adams belə qeyd edir:

[1] Bax: səh. 74 və növbəti səhifələr

"Güclü həmişə düşünür ki, onun zəifi anlamasının arxasında böyük ürək və geniş baxışlar durur və o, Allahın bütün qanunlarını pozarkən Ona xidməti həyata keçirir. Bizim ehtiraslarımız, ambisiyalarımız, hərisliyimiz, sevgimiz, qəzəbimiz və s. o qədər çox metafizik incəliyə və qarşısıalınmaz bəlağətə malikdir ki, anlayış və vicdan qılığına girib onların hər ikisini öz tərəfinə çəkir".

Bu dəyərləndirməyə bütün dövlətlərin güc probleminə yanaşması üçün xarakterik olan ikili yanaşma da məhz beynəlxalq siyasətin təbiətinə məxsusdur. İdeologiyalarsız keçinən və açıq şəkildə güc arzusunda olduğunu bəyan edən, ona görə də digər dövlətlərin oxşar cəhdlərinə qarşı çıxan dövlət həmin an güc uğrunda mübarizədə çox böyük və ola da bilsin, çıxılmaz əlverişsiz vəziyyətə düşər. Bu kimi açıq etiraf bir tərəfdən digər dövlətləri belə aydın bəyan edilmiş xarici siyasətə qarşı kəskin müqavimətdə birləşdirər və bununla əlaqədar olaraq, onu həyata keçirən dövləti digər halda lazım olduğundan daha çox güc tətbiq etməyə vadar edər. Digər tərəfdən belə etiraf beynəlxalq ictimaiyyətin universal şəkildə qəbul olunmuş əxlaq normalarına açıq şəkildə etinasız yanaşmaya bərabərdir və müəyyən bir dövləti öz xarici siyasətini, güman ki, ürəksiz və təmiz olmayan vicdanla yürütməli olacağı bir vəziyyətə salacaq. Bir xalqı hökumətin xarici siyasətinin arxasında birləşdirmək və dövlətin bütün enerji və ehtiyatlarını ona dəstəyə yönəltmək üçün dövlətin nümayəndəsi gücdən daha çox bioloji ehtiyaclara, məsələn, milli mövcudiyyətə və əxlaq prinsiplərinə, ədalətə müraciət etməlidir. Bu, dövlətin qurban vermək şövqü və istəyinə nail ola bilməsinin yeganə yoludur ki, bunsuz heç bir xarici siyasət həlledici güc sınağından keçə bilməz.

Mütləq şəkildə beynəlxalq siyasətlərin ideologiyalarının yaranmasına səbəb olan və onları beynəlxalq arenada güc uğrunda mübarizənin silahlarına çevirən psixoloji qüvvələr belədir. Xarici siyasəti xalqının intellektual əzminə və əxlaqi dəyərlərinə istinad edən hökumət belə bir istinadı olan məqsədlər seçməyə və ya seçilmiş məqsədlərə belə bir görüntü verməyə müvəffəq olmayan rəqibi üzərində ölçüyəgəlməz üstünlüyə sahibdir. İdeologiyalar milli əhvali-ruhiyyəni yüksəldən və bununla da bir dövlətin gücünü artıra bilən silahlardır və elə bununla da rəqibin əhvali-ruhiyyəsi aşağı salına bilər. Birinci Dünya müharibəsində Vudro Vilsonun 14 maddəsinin müttəfiqlərin əhvali-ruhiyyəsini yüksəltmək və "mərkəz dövlətlər"in əhvali-ruhiyyəsini düşürməklə müttəfiqlərin qələbəsinə verdiyi böyük töhfə beynəlxalq siyasətdə əhvali-ruhiyyə amilinin əhəmiyyətinin klassik nümunəsidir.[1]

[1] Ümumiyyətlə, milli əhvali-ruhiyyə məsələsi üçün bax: səh. 209 və növbəti səhifələr

XARİCİ SİYASƏT ÜÇÜN SƏCİYYƏVİ OLAN İDEOLOGİYALAR

İmperialist siyasətlərin faktiki olaraq hər zaman ideoloji pərdələmələrə əl atması, status-kvo siyasətlərinin isə, əksinə, çox vaxt olduqları kimi təqdim olunması beynəlxalq siyasətin təbiətindən irəli gəlir. İdeologiyaların müəyyən növlərinin beynəlxalq siyasətin müəyyən növləri ilə əlaqələndirilməsi də, həmçinin bu təbiətdən qaynaqlanır.

Status-kvo ideologiyaları

Status-kvo siyasəti çox vaxt həqiqi təbiətini üzə çıxara və ideoloji pərdələrsiz keçinə bilir, çünki status-kvo artıq öz mövcudiyyətiylə müəyyən əxlaqi qanunauyğunluğa sahib olub. Mövcud olan öz xeyrinə nəyəsə sahib olmalıdır; əks halda, o mövcud olmaz. Demosfen bunu belə qeyd edir:

"Çünki heç kəs istər qüdrətini artırmaq həvəsi, istərsə də sahib olduqlarının müdafiəsi məqsədilə müharibəyə getməz; lakin hər kəs itirmək təhlükəsində olduqlarını saxlamaq üçün var gücü ilə mübarizə apardığı halda, qüdrətini artırmaq üçün belə etmir; insan, əslində, bunu öz məqsədinə çevirir, lakin onun bu məqsədinin qarşısı alınırsa, o, rəqibi tərəfindən ədalətsizliyə məruz qaldığını düşünmür".[1]

Status-kvo siyasəti yürüdən dövlət artıq sahib olduğu gücü qoruyub saxlamağa cəhd etdiyindən o, digər dövlətlərin narazılıqlarını, eləcə də öz tərəddüdlərini aradan qaldırmaq ehtiyacından uzaq ola bilər. Bu, xüsusilə ərazi status-kvosunun qorunub saxlanması əxlaqi və hüquqi həmlələr üçün açıq olmadıqda və milli güc, adətən, müstəsna olaraq bu status-kvonun qorunub saxlanması üçün istifadə olunduqda belə olur. İsveçrə, Danimarka, Norveç, İsveç kimi belə dövlətlər öz xarici siyasətlərini status-kvonun müdafiəsi nöqteyi-nəzərindən təyin etməkdən çəkinmir, çünki bu status-kvo, ümumiyyətlə, qanuni kimi qəbul olunur. İki dünya müharibəsi arasındakı dövrdə əsas etibarilə status-kvo siyasəti yürüdən Böyük Britaniya, Fransa, Yuqoslaviya, Çexoslovakiya və Rumıniya kimi başqa dövlətlər, sadəcə, bəyan edə bilmirdi ki, onların xarici siyasətinin məqsədi sahib olduqlarını qorumaqdır. 1919-cu il status-kvosunun qanunauyğunluğu bu dövlətlər arasında və onlardan kənarda öz-özlüyündə dəyişməkdə olduğundan onlar bu dəyişikliklərə uyğun gələ bilən əxlaqi prinsiplər yaratmalı idilər. Sülh və beynəlxalq hüquq bu məqsədi yerinə yetirdi.

Sülh və beynəlxalq hüquq yüksələn xətlə status-kvo siyasətinə xidmət edən ideologiyalar kimi ixtisaslaşır. İmperialist siyasətlər status-kvonu pozmaqla çox vaxt

[1] Demosthenes, *Forthe Liberity of the Rhodians*, Section 10-11.

müharibəyə gətirib çıxardığından və hər zaman müharibə ehtimalını nəzərə almalı olduğundan pasifizmi öz rəhbər prinsipi kimi bəyan edən xarici siyasətlər eyni zamanda antiimperialist xətt tutmuş və status-kvonun müdafiəsini dəstəkləmiş olur. Status-kvo siyasətinin məqsədlərini pasifist nöqteyi-nəzərdən ifadə etməklə dövlət adamı imperialist rəqiblərinə müharibəyə təhrikçilik damğası vurur və özünü və həmvətənlərini vicdan əzabından xilas edir və bununla o, həmçinin status-kvonun qorunmasında maraqlı olan bütün ölkələrin dəstəyini qazanmağa ümid edə bilər.[1]

Beynəlxalq hüquq da status-kvo siyasəti üçün eyni ideoloji funksiyanı həyata keçirir. İstənilən hüquqi qayda, hər şeydən öncə, sabit sosial qüvvə olmağa meyil edir. O, müəyyən bir qüvvələr bölgüsü təyin edib konkret şəraitdə onu təsbit etməyin və qorumağın standartlarını və həmin proseslərin gedişini təklif edir. Daxili hüquq yüksək inkişaf etmiş qanunvericilik, məhkəmə qərarları və hüquqi məcburiyyət vasitəsilə ümumi qüvvələr bölgüsü daxilində uyğunlaşmalara, bəzən isə hətta önəmli dəyişikliklərə imkan yaradır. Hüquqi dəyişikliklər üçün belə bir sistemə malik olmayan beynəlxalq hüquq isə, irəlidə də görəcəyimiz kimi[2], məhz öz təbiətindən irəli gələn səbəblərə görə nəinki əsasən, ümumiyyətlə, mahiyyət etibarilə sabitdir. Odur ki hər hansı bir xarici siyasəti müdafiə etmək üçün beynəlxalq hüquqa, "hüquqi nizamlamalar"a, "gündəlik hüquqi proseslər"ə müraciət etmək hər zaman status-kvo siyasətinin ideoloji pərdələnməsi təsirini bağışlayır. Daha dəqiq desək, verilmiş status-kvonu qorumaq üçün beynəlxalq bir təşkilat, məsələn, Millətlər Cəmiyyəti yaradılmışdırsa, həmin təşkilatın müdafiəsi verilmiş status-kvonun müdafiəsiylə bərabər əhəmiyyət daşıyır.

Birinci Dünya müharibəsi başa çatdıqdan sonra status-kvo siyasətinə bəraət qazandırmaq üçün belə hüquqi ideologiyalardan istifadə etmək daha çox ümumi forma aldı. Tarixin əvvəlki dövrlərinin ittifaqları yox olmadığı bir zamanda onlar ümumi hüquqi təşkilatlanma daxilində "regional tənzimləmələr"ə çevrilməyə meyil edirlər. "Status-kvonun müdafiəsi" "beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsi"nə təslim olur. Status-kvonun müdafiəsində bərabər maraqları olan bir çox dövlətlər, görünür ki, ümumi maraqlarını müəyyən bir mənbədən gələn təhlükəyə qarşı "Müqəddəs ittifaq" vasitəsilə deyil, "kollektiv təhlükəsizlik sistemi", yaxud "qarşılıqlı yardım müqaviləsi" vasitəsilə qorumalı olacaq. Status-kvoda dəyişikliklər çox vaxt kiçik dövlətlərin hesabına baş verdiyi üçün kiçik dövlətlərin, məsələn, 1914-cü ildə Belçikanın və 1939-cu ildə Finlandiya və Polşanın hüquqlarının müdafiəsi müvafiq şərtlər altında status-kvo siyasətinə dair digər bir ideologiyaya çevrilir.

[1] Sülh ideologiyasında son vaxtların dəyişiklikləri üçün bax: səh. 160 və 161, həmçinin səh. 314, 346 və növbəti səhifələr

[2] Bax: paraqraf 26.

İmperializm ideologiyaları

İmperializm siyasətinin hər zaman bir ideologiyaya ehtiyacı var; çünki status-kvo siyasətinin əksinə olaraq, imperializm hər zaman sübut olunmaq məcburiyyəti daşıyır. O, yeni qüvvələr bölgüsünə çağırış edərkən aradan qaldırmağa cəhd etdiyi status-kvonun buna layiq olduğunu və çoxlarının düşüncəsində varlıqlara şamil etdiyi əxlaqi qanunauyğunluqların yerini daha yüksək əxlaq normalarına verməli olduğunu sübut etməlidir. Belə ki, Gibonun sözləri ilə desək, "istilaçıların hüquqi düşüncələrində hər bir müharibə üçün asanlıqla təhlükəsizlik, yaxud qisas, şərəf, yaxud həvəs, hüquq, yaxud rahatlıq motivi tapıla bilər".[1]

İmperializmə dair səciyyəvi ideologiyalar hüquqi anlayışlardan istifadə etdiyi üçün onlar, əslində, pozitiv beynəlxalq hüquqa, yəni reallıqda mövcud olan beynəlxalq hüquqa istinad edə bilməz. Artıq şahidi olduğumuz kimi, beynəlxalq hüququn sabit xarakteri onu status-kvonun təbii ideoloji müttəfiqi edir. İmperializmin dinamik xarakteri dinamik ideologiyalar tələb edir. İmperializmin ideoloji tələblərinə hüquq sahəsində təbii hüquq, yəni olmalı olan hüquq nəzəriyyəsi uyğun gəlir. Status-kvonu təmsil edən mövcud beynəlxalq hüququn ədalətsiz hesab etdiklərinə qarşı imperialist xalq ədalət tələblərinə cavab verən daha yüksək hüquqa istinad edəcək. Belə ki, milli sosialist Almaniyası Versal müqaviləsiylə təşəkkül tapmış status-kvonun dəyişdirilməsinə dair tələblərini başlıca olaraq Versal müqaviləsi tərəfindən pozulduğu deyilən bərabərlik prinsipinə əsaslandırırdı. Məsələn, Versal müqaviləsinin Almaniyanı tamamilə məhrum etdiyi müstəmləkələrə dair tələb və həmin müqavilənin birtərəfli tərk-silaha dair müddəalarının dəyişdirilməsi tələbi eyni prinsipdən qaynaqlanırdı.

İmperialist siyasət məğlubiyyətlə bitmiş müharibənin nəticəsi olan müəyyən bir status-kvoya qarşı yönəlməyib, istilaya yol açan güc boşluğundan törəyirsə, istilanı mütləq vəzifəyə çevirən əxlaq ideologiyaları ədalətsiz pozitiv hüquq əvəzinə ədalətli təbii hüquqa müraciət edir. Bu zaman zəif xalqları istila etmək "ağ insanın ağır yükü", "milli missiya", "taleyin qismәti", "müqəddəs inam", "xristianlıq vəzifəsi" görkəmi alır. Müstəmləkə imperializmi xüsusilə tez-tez belə şüarlarla pərdələnmişdir, məsələn, istilaçının yer üzündəki rəngli irqlərə "Qərb sivilizasiyasının xeyir-duası"nı nəsib etmək missiyası. Yaponiyaya məxsus bir ideologiya olan Şərqi Asiyada "birgə inkişaf zonası" humanitar missiyanın oxşar məna çalarını daşıyır. Dini inam coşqusu ilə müdafiə olunan siyasi fəlsəfə imperialist siyasət ilə üst-üstə düşəndə o, ideoloji pərdələmənin hazır alətinə çevrilir. Ərəb ekspansiyası dövründə ərəb imperializmi özünə dini vəzifəni yerinə yetirməsiylə bəraət qazandırırdı. Napoleon imperializmi Avropanı "azadlıq, bərabərlik, qardaşlıq"

[1] *The Decline and Fall of the Roman Empire* (Modern Library Edition), Vol. II, səh. 1235.

bayrağı altında bürümüşdü. Rusiya imperializmi xüsusilə Konstantinopol və Dardanel boğazı uğrunda göstərdiyi səylərin gedişində pravoslav etiqadı, panslavyanizm, dünya inqilabı və kapitalist mühasirəsinə qarşı müdafiədən ardıcıl şəkildə, yaxud eyni vaxtda istifadə edirdi.

Müasir dövrdə, xüsusilə Darvin və Spenserin sosial fəlsəfələrinin təsiri altında imperializm ideologiyaları bioloji arqumentlərə üstünlük verib. Beynəlxalq siyasətə köçürülərsə, ən sağlam olanın sağ qalması fəlsəfəsi güclü dövlətin zəif dövlət üzərində hərbi üstünlüyündə ikincini birincinin gücünün əvvəlcədən müəyyən edilmiş obyektinə çevirən təbii bir fenomen görür. Həmin fəlsəfəyə görə, güclü zəifə ağalıq etməzsə və zəif güclü ilə bərabər olmağa cəhd edərsə, bu, təbiətə zidd olar. Güclü dövlətin "günəşdə yer"ə haqqı var; o, "yerin duzu"dur. Tanınmış alman sosioloqu Verner Sombart Birinci Dünya müharibəsində aşkar etdiyi kimi, alman "qəhrəmanı" Britaniya "dükançısı" üzərində mütləq müvəffəqiyyət qazanmalıdır. Tabelikdə olan irqlərin hakim irqə xidmət etməli olması yalnız yaramazların və axmaqların qarşı çıxacağı təbiət qanunudur; köləlik və tələfolma sonuncunun əsl dəyəridir.

Kommunizm, faşizm və nasizm, eləcə də yapon imperializmi bu bioloji ideologiyalarda inqilabi dönüş etdi. Təbiətin yer üzünün hakimi kimi təyin etdiyi xalqlar təbii olaraq tabelikdə olmalı xalqlar tərəfindən fırıldaqçılıq və zorakılıq yolu ilə tabelikdə saxlanılır. Sağlam, lakin yoxsul "kasıblar" varlı, lakin çürük "zənginlər" tərəfindən Yer kürəsinin sərvətlərindən kənar tutulurlar. İdeyalarından təsirlənən proletar dövlətlər pul kisələrini qoruyarkən kapitalist dövlətlər ilə vuruşmalıdır. Əhalinin əksəriyyətinin ideologiyası İkinci Dünya müharibəsindən əvvəl Almaniya, İtaliya və Yaponiyada xüsusi rəğbət qazandı. Almanlar "ərazisi olmayan xalqdır" və əgər "yaşayış yeri" əldə edə bilməsələr, "boğulmalı", əgər xammal mənbələri əldə edə bilməsələr, "acından ölməli"dirlər. Bu ideologiya müxtəlif variantlarda İtaliya və Yaponiya tərəfindən 30-cu illərdə ekspansiya siyasətinə bəraət qazandırmaq və imperialist məqsədləri pərdələmək üçün istifadə olundu.[1]

[1] İki dünya müharibəsi arasında Almaniya, İtaliya və Yaponiya tərəfindən əhalinin təzyiqi və iqtisadi səfalət ilə əsaslandırılan müstəmləkələr iddiasının təmiz ideoloji xarakteri əhali və iqtisadiyyata dair müvafiq rəqəmlər tərəfindən açıq şəkildə nümayiş olunur. Almaniyanın 4 müstəmləkəsi 930 000 kv. mil (2,4 mln. kv. km – red.) ərazini əhatə edirdi. 1914-cü ildə onun əhalisi 12 milyon idi ki, onun da yalnız 20 000-i ağlar idi. O zaman qeyd olunurdu ki, Paris şəhərində yaşayan almanların sayı Almaniyanın bütün müstəmləkələrində yaşayan almanların sayından daha çoxdur. Eritreya 50 il ərzində İtaliya müstəmləkəsi olduqdan sonra məskunlaşma üçün ən çox münasib olan 2 000 kv. mil (5 000 kv. km) ərazidə təxminən 400 italyan yaşayırdı. Yaponiyanın Koreya və Formozadakı müstəmləkələrində 40 il ərzində yaponların sayı Yaponiyanın bir il ərzində əhali artımından daha az idi.
Müstəmləkələrin metropoliyalar üçün iqtisadi əhəmiyyətinə gəlincə, Almaniya və İtaliyaya dair göstəricilər özləri hər şeyi deyir. 1913-cü ildə Almaniya və müstəmləkələr arasında

Bununla belə, imperializmin ən geniş istifadə olunan pərdələməsi və əsaslandırması hər zaman antiimperializm ideologiyası olub.[1] Bu, ona görə belə geniş istifadə olunur ki, bütün imperialist ideologiyalarının ən səmərəlisidir. Hyui Lonqun faşizmin ABŞ-a antifaşizm cildində gələcəyi haqqında söylədikləri kimi, imperializm də bir çox ölkələrə antiimperializm cildində gəlmişdi. 1914-cü, eləcə də 1939-cu ildə hər iki tərəf müharibəyə özünü digər tərəfin imperializmindən qorumaq üçün qoşuldu. Almaniya 1941-ci ildə Sovet İttifaqına onun imperialist planlarının qarşısını almaq məqsədilə hücum etdi. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra Amerika və Britaniyanın, eləcə də Rusiya və Çinin xarici siyasətləri digər dövlətlərin imperialist siyasətləriylə əsaslandırılır. Həqiqi xarakterindən asılı olmayaraq, öz siyasətini antiimperialist, yəni status-kvonun qoruyucusu və müdafiəçisi kimi təqdim etməklə xalqa dövlətin öz hərəkətlərində vicdanının təmiz olduğu və ədalətə əmin olduğu fikri aşılanır ki, bunsuz heç bir xalq xarici siyasəti sidqi-ürəklə dəstəkləyə və onun uğrunda müvəffəqiyyətlə mübarizə apara bilməz. Eyni zamanda ideoloji cəhətdən yaxşı hazırlaşmamış, ədalətin hansı tərəfdə axtarılmalı olduğuna əmin olmayan düşməni çaşbaş salmaq olar.

"Üçüncü dünya" dövlətlərinin irəli sürdüyü tələblər güclü ideoloji elementə malikdir. Bu dövlətlərin əksəriyyətinin müxtəlif səbəblər, məsələn, təbii ehtiyatların çatışmazlığı, irrasional iqtisadi siyasət, korrupsiya və səriştəsizlik ilə izah edilməli olan iqtisadi səfalətinin məsuliyyəti, adətən, inkişaf etmiş zəngin sənaye dövlətlərin astanasındadır. Bir mütləq və narahatlıq doğuran fakt Şimal-Cənub qarşıdurması anlayışına həqiqətə uyğunluq görkəmi verir: sənaye dövlətləri ilə "üçüncü dünya" dövlətləri arasında yaşayış standartlarında ifrat dərəcədə uyğunsuzluq. Bu səbəbdən qaynaqlandığı hesab olunan məsuliyyət əvvəllər yol verilmiş qüsurları düzəltmək və dünyanın zənginliklərinin gələcəkdə bərabər şəkildə paylanmasına kömək etmək üçün mənəvi məsuliyyətlə müşayiət olunur. Bu cəhətdən diqqəti ən çox cəlb edən vəziyyət ərzağın sənaye dövlətlərində bolluq və acgözlüyə, "üçüncü dünya" ölkələrində isə daimi olaraq qida çatışmazlığına və hətta

idxal və ixracın ümumi həcmi Almaniyanın ümumi idxal və ixracının 0,5 faizini təşkil edirdi. 1933-cü ildə İtaliyanın müstəmləkələrdən idxalı onun ümumi idxalının 1,6 faizi, ixracı isə İtaliyanın ümumi ixracının 7,2 faizi qədər idi; sonuncunun da böyük hissəsi hərbi materialların payına düşməlidir. Yalnız Yaponiya üçün müstəmləkələr çox böyük iqtisadi əhəmiyyət kəsb edirdi, 1934-cü ildə onun ümumi ticarətinin, demək olar ki, 25 faizi koloniyalarla ticarətin payına düşürdü (ümumi idxalın 23,1, ümumi ixracın 22 faizi). Bax: Royal Institute of international Affairs, *The Colonial Problem* (London, New York, Toronto: Oxford University press, 1937), xüsusilə səh. 287.

[1] Antiimperializm ideologiyasının bir variantı əks-güc siyasəti ideologiyasıdır. Bu ideologiyaya əsasən, başqa dövlətlər siyasətdə güc arzuları ilə motivə olunur, halbuki öz dövləti belə əsas motivlərdən azaddır və təmiz ideal məqsədlər daşıyır.

aclığa səbəb olan qeyri-bərabər paylanmasıdır. Bununla belə, sənaye dünyasındakı bolluq ilə "üçüncü dünya"dakı yoxsulluq arasında həm səbəb, həm də mənəviyyat əlaqəsi ciddi müzakirələr üçün açıqdır.

Tarix boyu bəşəriyyət yaşayış meyarlarındakı ciddi fərqlərə görə bölünüb. Bugünkü vəziyyəti xüsusi edən müasir informasiya texnologiyaları hesabına bəşəriyyətin təminatlı və təminatsız üzvlərinin bu fərqlər haqqında məlumatlı olmasıdır. Bu məlumatlılıq dünyada bərabərlik prinsipinin həm imkan, həm də şərait baxımından sahib olduğu üstünlük ilə eyni vaxta təsadüf edir. Beləliklə, təminatsızların zənginlər və yoxsullar arasındakı boşluğu daraltmaq səyləri və bu səylərin simasında zənginlərin mənəvi cəhətdən sıxılması da üst-üstə düşür. Sözsüz ki, bu səylər və onları müşayiət edən mənəvi sıxıntılar – hər ikisi dünya miqyasında qənaətbəxş və yardımçı olmaqdan uzaq olub, geniş şəkildə konkret milli maraqlara xidmət edən xüsusi siyasi məqsədləri ideoloji baxımdan əsaslandırmaq və rasionallaşdırmaq üçün istifadə olunur. Bu məqsədlər təbii olaraq zənginlərin hesabına və yoxsulların xeyrinə status-kvoda dəyişikliklərə doğru yönəlir.

Mövcud ifrat bərabərsizlikdən xəbərdar olan və bunu pisləyən mənəvi prinsiplərlə yola gətirilən birincilər öz maraqlarının müəyyənləşdirilməsi və təbliğində açıq-aşkar əlverişsiz vəziyyətə düşürlər; onlar vicdan ağrısı ilə elə etməlidirlər ki, guya vəziyyətin bu formada düzgünlüyünə tam əmin deyillər. Onlar iqtisadi bərabərlik iddiası ilə üz-üzə qalaraq, mənəvi cəhətdən çıxılmaz vəziyyətə düşürlər. Bu, Qərb demokratiyasının 1938-ci ildə Almaniyanın Çexoslovakiyanın bir hissəsinə iddiası ilə üz-üzə qalarkən mənəvi prinsip naminə xalqların öz müqəddəratını təyin etməni irəli çəkdikləri vəziyyətlə oxşardır.

Dünyada yaşayış standartının bərabərləşdirilməsi naminə aparılan mənəvi müzakirə özünü səfalət içərisində olan dövlətlərə humanitar yardım ətrafında aparılan ümumi müzakirənin xüsusi tətbiqi formasında göstərir. ABŞ bu vəzifəni nəzəriyyə və təcrübədə qəbul edib. Lakin humanitar yardımın mənəvi baxımdan əsaslandırılmasını təmin edən vəziyyət dünyada yaşayış standartlarının bərabərləşdirilməsinə çağırış edən vəziyyətdən əsaslı şəkildə fərqlənir. Humanitar yardım qəfil təbii fəlakətdən ziyan çəkmiş dövlət üçün onun nəticələrini öz ehtiyatları hesabına aradan qaldırmağın çətinliyi ilə əsaslandırılır. Dünyada yaşayış standartlarında fərqlər təbii, mədəni, iqtisadi və siyasi amillərin kompleksinin nəticəsidir. Kənar müdaxilələr xüsusi hallarda bu fərqləri azalda bilər, lakin dünyada onların aradan qaldırılmasını gözləmək olmaz. Mənəvi öhdəliyi heçə endirən, mənəvi baxımdan tələb olunduğu güman edilənə nail olmağın – hətta ən xoş niyyətlərə və geniş ehtiyatlara sahib olma şəraitində belə – qeyri-mümkünlüyüdür. Roma hüququnun *ultra vires nemo obligatur* (heç kəs bacardığından çoxuna məcbur deyil) prinsipi ehtimal olunan mənəvi öhdəliklərə də tətbiq olunur.

Dünyada sənayeləşmiş zəngin dövlətlərin sənayeləşməmiş yoxsul dövlətlərdə yaşayış meyarını qaldırmağa dair güman edilən mənəvi öhdəliyi birincinin siyasəti və yüksək yaşam meyarları ilə ikincinin aşağı yaşam meyarları arasında mövcud olduğu güman edilən səbəbiyyət əlaqəsinə əsaslanır. Lakin bu növ adi bir səbəbiyyət əlaqəsi ehtimalı bir uydurmadır. Müstəmləkəçilər, imperialistlər və kapitalistlər burada zəif inkişafın fəlakətlərini üzərinə yıxmaq mümkün olan iblisin funksiyasını yerinə yetirirlər. Əslində, bu fəlakətlərin çoxsaylı səbəbləri var və müstəmləkəçilik, imperializm və kapitalizm onlardan, ən yaxşı halda, yalnız biridir.

Bu halda ərzaq təminatında bərabərliklərin aradan qaldırılması yalnız və hətta başlıca olaraq kənd təsərrüfatı texnologiyası və kollektiv səxavət məsələsi deyil, siyasi maraq və iradə məsələsidir. Əksər cəmiyyətlərdə nəzərəçarpan təzahürü ərzaq çatışmazlığı olan yoxsulluğun uzun müddət öz mövcudluğunu saxlaması yalnız texnoloji islahatlar vasitəsilə aradan qaldırılmalı hər hansı digər bədbəxt hadisə deyil, həmçinin məqsədli sosial, iqtisadi və siyasi seçimin nəticəsidir. Əgər kimsə dünyanı aclıqdan xilas etmək istəyirsə, həmin cəmiyyətləri buna səbəb olan quruluşlardan xilas etməlidir. Bu, inqilab olmasa belə, radikal islahat formasında ola da bilər, olmaya da bilər. "Üçüncü dünya" dövlətlərinin siyasi elitasının öz ritorikasını izləmək arzusunda olub-olmaması mübahisə mövzusudur.

Beləliklə, dünyanın zəngin və yoxsul dövlətləri arasında Şimal-Cənub münaqişəsinin aparıldığı şərait ənənəvi olaraq güclü olan dövlətlər ilə yeni, siyasi cəhətdən zəif dövlətlər arasında əsas həqiqi məqsədi birbaşa olaraq yeni qüvvələr bölgüsü olan münaqişəni geniş formada gizlədir və eyni zamanda əsaslandırır.

İkili təbiətə malik ideologiyalar

Antiimperializm ideologiyası öz effektivliyini ikili təbiətə malik olmasından götürür. O, imperializm ideologiyası, yoxsa status-kvo siyasətinin həqiqi bir ifadəsi olduğuna dair fikirlərinə hər zaman əmin ola bilməyən müşahidəçini çaşdırır. Belə çaşdırıcı effekt ideologiya müəyyən bir növ siyasəti təyin etmək üçün deyil, status-kvonun müdafiəçiləri, eləcə də imperializmin təbliğatçıları tərəfindən görüntü olaraq istifadə oluna bildiyi vaxtlarda mövcud olur. Adətən və xüsusilə XVIII-XIX əsrlərdə qüvvələr tarazlığı status-kvonun müdafiəçiləri və imperializmin təbliğatçıları tərəfindən ideoloji silah kimi istifadə olunmuşdur.[1] Bizim dövrümüzdə xalqların öz müqəddəratını təyinetmə ideologiyaları və BMT həmin funksiyanı yerinə yetirir. "Soyuq müharibə"nin başlanmasından sonra onların sırası daim genişləndi, bura sülh, gərginliklərin sakitləşdirilməsi və beynəlxalq gərginliyin azaldılması ideologiyaları da qoşuldu.

[1] Daha ətraflı müzakirə üçün bax: səh. 287 və növbəti səhifələr

Vudro Vilson tərəfindən irəli sürülən xalqların öz müqəddəratını təyinetmə prinsipi Mərkəzi və Şərqi Avropa xalqlarının xarici hökmranlıqdan azad olunmalarına bəraət qazandırdı. Nəzəri baxımdan bu yalnız imperiya status-kvosuna deyil, həmçinin istər keçmiş imperiya dövlətləri: Almaniya, Avstriya və Rusiya, istərsə də azadlığa qovuşmuş kiçik dövlətlər tərəfindən imperializmin istənilən növünə qarşı idi. Lakin keçmiş imperiya nizamının dağıdılması dərhal öz müqəddəratını təyinetmə altında yeni imperializmlər doğurdu. Polşa, Çexoslovakiya, Rumıniya və Yuqoslaviya imperializminin meydana gəlməsi qaçılmaz olduğu qədər də nəzərəçarpan idi; çünki keçmiş imperiya nizamının dağılmasından geriyə qalmış güc boşluğu doldurulmalı idi və bunu yeni azadlığa qovuşmuş xalqlar edə bilərdi. Onlar hakimiyyət əldə edən kimi status-kvonun müdafiəsi üçün həmin öz müqəddəratını təyinetmə prinsipini əsas götürdülər. Bu prinsip onların Birinci Dünya müharibəsinin sonundan İkinci Dünya müharibəsinin sonuna qədər ən güclü ideoloji silahları oldu.

Hitlerin öz ərazi ekspansiyası siyasətini pərdələmək və əsaslandırmaq üçün xalqların öz müqəddəratını təyinetmə prinsipindən istifadəni nəzərdə tutması təbliğatçılıq bacarığının bir üsulu idi. Çexoslovakiya və Polşanın alman azlıqları indi xalqların öz müqəddəratını təyin etməsi bayrağı altında Çexoslovakiya və Polşanın milli mövcudluğunun kökünü qazıyarkən çex, slovak və polyak xalqlarının həmin ideoloji bayraq altında Avstriya-Macarıstan imperiyasının milli mövcudluğunun kökünü qazıyarkən oynadığı həmin rolu oynayırdı. Versal müqaviləsiylə təşəkkül tapmış status-kvonun öz ideoloji silahları özlərinə qarşı çevrilmiş havadarlarının status-kvonu qorumaq üçün qanun və nizamdan başqa heç bir ideologiyası yox idi. Beləliklə, Avstriya və Çexoslovakiya təslim oldu və Polşa ölümcül təhlükəyə məruz qaldı. Münhen razılaşması Almaniyanın Çexoslovakiyaya dair tələblərini təmin etdikdən sonra Almaniyanın ideologiyasını öz ideologiyasına çevirən Londonun *"Times"* qəzeti belə bir məlumat verdi: "Versal müqaviləsinin açıq şəkildə bəyan etdiyi prinsip olan öz müqəddəratını təyinetmə, Hitler tərəfindən müqavilənin yazılı mətninə istinadən irəli sürülmüş və onun müraciəti qəbul olunmuşdur".[1] Əgər ümumiyyətlə olubsa da, tarix nadir hallarda ideologiyanın beynəlxalq siyasətdə əhəmiyyətinə və müvafiq tərzdə tətbiq olunan ikimənalı bir ideologiyanın çaşdırıcı effektinə dair belə bariz bir nümunə təqdim edib.

Xalqların öz müqəddəratını təyinetmə ideologiyası İsrail və ərəb dövlətləri arasındakı münaqişədə də həlledici rol oynayır. Xalqların öz müqəddəratını təyin etməsinə dair ədalətin təmin olunması üçün irəli sürülən ərəb iddiaları onların qaynaqlandığı və fəaliyyət göstərəcəyi ehtimal edilən siyasi kontekstdə nəzərdən

[1] London *Times*, September 28, 1938.

keçirilməlidir. Ərəblərin fələstinlilərin öz müqəddəratını təyin etməsi hüququna dair irəli sürdüyü iddialar əksər ərəblərin yalnız İsrail dövlətinin deyil, həmçinin Fələstin ərazisində yəhudi qəsəbələrinin mövcudluğuna qarşı arasıkəsilməz müqaviməti kontekstində baxılmalıdır. Başqa sözlə, İsrailin dövlət kimi tanınması Fələstin ərəblərinin öz müqəddəratını təyinetmə iddiası ilə bir araya sığmır. Çünki onların iddiaları yalnız İordan çayının qərb sahilinə deyil, Fələstin Azadlıq Təşkilatının çoxsaylı rəsmi bəyanatlarında tələb etdikləri kimi İsrail dövlətinin qurulduğu bütün əraziyə aiddir. Beləliklə, Fələstin ərəbləri tərəfindən xalqların öz müqəddəratını təyinetmə prinsipi özünü ərəblərin İsrail dövlətini dağıtmaq və onun yerində ərəb dövləti yaratmaq üçün dəyişməyən cəhdlərinin ideoloji pərdələnməsi formasında büruzə verir. Fransa kralı I Fransisdən Habsburq kralı V Çarlza qarşı niyə müharibə etdiyi soruşulanda onun cavabı belə olmuşdu: "Çünki bizim hər ikimiz eyni şeyi istəyirik – İtaliyanı". Həmin cavabda İtaliyanı Fələstin ilə əvəz etsək, bu, İsrail və FAT-ın liderlərinin verəcəyi cavab da ola bilərdi.

Başlanğıcda BMT Çin, Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ və onların müttəfiqləri üçün bu dövlətlərin İkinci Dünya müharibəsində qazandıqları qələbə ilə yaranmış status-kvonu qoruyan bir alət olaraq nəzərdə tutulmuşdu. Lakin İkinci Dünya müharibəsinin nəticələri müəyyən olunduqdan dərhal sonra bu status-kvonun müvəqqətiliyi və müxtəlif dövlətlər tərəfindən ziddiyyətli şərhlərin və iddiaların subyekti olduğu aşkar olundu. Ona görə də BMT-nin ideologiyası bu müxtəlif dövlətlər tərəfindən ayrı-ayrı şərhlərinə bəraət qazandırmaq və ayrı-ayrı tələblərini pərdələmək məqsədilə istifadə olunur. Bütün dövlətlər özlərini BMT-nin müdafiəçisi kimi göstərir və yürütdükləri ayrı-ayrı siyasi xətlərin müdafiəsi üçün onun Nizamnaməsinə istinad edir. Bu siyasi xətlər ziddiyyətli olduqda BMT-yə və onun Nizamnaməsinə istinad etmək öz siyasətini ümumi qəbul olunmuş prinsiplər nöqteyi-nəzərindən əsaslandırmaq və eyni zamanda onun həqiqi xarakterini gizlətmək üçün istifadə olunan ideoloji alətə çevrilir. İkili təbiətə malik olması bu ideologiyanı düşmənləri çaşdırmaq və dostları gücləndirmək silahına çevirir.

İkinci Dünya müharibəsinin sonundan etibarən sülh, gərginliklərin sakitləşdirilməsi və beynəlxalq gərginliyin azaldılması ideologiyaları daim artan dərəcədə oxşar vəzifəni yerinə yetirir. Müasir kütləvi qırğın silahları ilə aparılacaq üçüncü dünya müharibəsinin xofu fonunda heç bir hökumət xarici siyasəti üçün öz xalqından və digər xalqlardan onları dinc niyyətlərinə inandırmadan dəstəyə nail olmağı gözləyə bilməz. Odur ki "sülh konfransları", "dinc həmlələr", "sülh kampaniyaları" "soyuq müharibə" dövründə təbliğatın standart silahlarına çevrilib. Dinc niyyətlərə dair, demək olar ki, universal olan bəyanatlar yürüdülən real xarici siyasətlər nəzərə alınarsa, mənasızdır, çünki müasir müharibənin ölçüyəgəlməz

dağıdıcılığı ilə əlaqədar olaraq, bütün dövlətlər öz məqsədlərini müharibədən daha çox dinc vasitələr ilə yeridər. Lakin bu bəyanatlar bundan başqa iki mühüm siyasi funksiyanı yerinə yetirir. Onlar bəyan etdikləri dinc məqsədlərin pərdəsi arxasında yürüdülən siyasəti gizlətmək məqsədi daşıyır. Onlar, həmçinin hər yerdə xoşniyyətli insanların, əslində, necə olmasından asılı olmayaraq, bu siyasətə dəstəyini qazanmaq məqsədinə xidmət edir, belə ki, onlar hər yerdə xoşməramlı insanların şövqlə arzu etdikləri bir məqsədə – sülhün qorunmasına xidmət edən kimi təqdim olunur.

Oxşar mülahizələr tərk-silaha dair, xüsusilə onun "ümumi və tam" formasında, demək olar ki, universal olan öhdəliyə də şamil olunur. Silahlanma yarışına son qoymaq humanitar, siyasi və iqtisadi zəmində geniş şəkildə arzuolunan hesab olunur. Lakin son iki onilliyin təcrübəsindən aydındır ki, dünyanın siyasi şərtləri tərk-silahı qeyri-mümkün edir.[1] İstənilən növ tərk-silaha dair bütün cəhdlərin tam uğursuzluğu fonunda hökumətlər "ümumi və tam" tərk-silahı öz siyasətləri kimi elan etdikdə, əslində, sülhün və silahlanma yarışından azad olmağın xiffətini çəkən dünya dövlətlərinə ideoloji müraciət edir. Bu müraciət həqiqətdə yürüdülən xarici siyasətləri digər dövlətlər üçün ola biləcəyindən daha qəbul olunan etmək məqsədinə xidmət edir.

DƏRKETMƏ PROBLEMİ

Bu halda bu ideoloji pərdələmələr və onların arxasında saxlanılanlardan real siyasi qüvvələri və fenomeni görmək beynəlxalq siyasətin tədqiqatçısının ən mühüm və ən çətin vəzifəsidir. Bu vəzifə ona görə mühümdür ki, əgər yerinə yetirilməzsə, içində olduğumuz xarici siyasətin xarakterini düzgün müəyyən etmək qeyri-mümkündür. İmperialist meyillərin və onların ayrı-ayrı xüsusiyyətlərinin dərk edilməsi imperialist cəhdləri ümumiyyətlə bütünlükdə inkar edən ideoloji bəhanə ilə yürüdülən siyasətin həqiqi məqsədləri arasında fərqin aydın şəkildə müəyyən edilməsindən asılıdır. Bu fərqi düzgün müəyyən etmək ona görə çətindir ki, insanın istənilən fəaliyyətinin aktorun onun hansı mənanı kəsb etməsinə dair inancından və uydurmalarından kənar həqiqi mənasını üzə çıxarmaq ümumiyyətlə çətindir. Ən azından ümumiliyinə görə beynəlxalq siyasət üçün səciyyəvi olan iki digər çətinlik bu əsas problemi daha da ağırlaşdırır. Bunlardan biri nüfuz siyasətinin göstəricisi olan lovğalıq, yaxud blefi həqiqi imperializmin ideoloji pərdələnməsindən fərqləndirməkdir.

[1] Tərk-silahın uğursuzluğunun səbəblərinə dair geniş müzakirə üçün bax: paraqraf 23.

Digəri isə status-kvo, yaxud lokallaşdırılmış imperializm ideologiyasının arxasında real olaraq yürüdülən siyasətin həqiqi mənasını üzə çıxarmaqdır.

Biz artıq II Uilyamın xarici siyasətinin, əslində, imperialist planların və əsəbi lovğalığın qəribə qarışığı olduğu halda, ifadə dili və təzahürləri ilə açıq şəkildə imperialist olduğu təəssüratını bağışlamasından bəhs etmişdik. Əksinə, 30-cu illərin sonlarına qədər Hitler və Mussolininin xarici siyasətlərinin həqiqi imperialist mahiyyəti daxili ictimaiyyətə hesablanmış blef və lovğalıq kimi izah olunaraq, ümumi şəkildə qəbul olunmurdu. Xarici siyasətin qərəzli və qeyri-ixtiyari maskası arxasındakı həqiqi xarakterini müəyyən etmək status-kvo ideologiyaları pərdələmə məqsədilə istifadə olunarkən xüsusilə çətin olur. İkinci Dünya müharibəsindən sonrakı dövr ABŞ və Sovet İttifaqının xarici siyasətlərində bu çətinliyin diqqətəlayiq nümunələrini əks etdirir.

Hər iki dövlət öz xarici siyasətinin məqsədlərini, demək olar ki, eyni status-kvo ideologiyası baxımından ifadə edib. Həm Sovet İttifaqı, həm də ABŞ bəyan edib ki, onların Tehran, Yalta və Potsdam razılaşmaları və müharibənin sonunda hərbi komandirlər arasında anlaşma yolu ilə təsbit edilmiş hərbi demarkasiya xəttinin arxasında heç bir ərazi iddiaları yoxdur; onlar hər yerdə azad və demokratik hökumətlər görmək istəyirlər; onlar təhlükəsizlik və milli müdafiəni nəzərə almaqla hərəkət edirlər; və onlar özlərini digər tərəfin kapitalist, yaxud kommunist imperializminə qarşı müdafiə etməyə arzularının əksinə olaraq məcburdurlar.

Görünür ki, əksər amerikalılar və əksər ruslar bu bəyanatların onların ölkəsinin xarici siyasətinin həqiqi xarakterinin düzgün ifadəsi olduğuna arxayındırlar. Lakin onlardan biri, yaxud hər ikisi səhv edə biləcəyi halda, hər ikisi düz ola bilməz. Çünki ola bilər ki, Sovet İttifaqı ABŞ-ın xarici siyasətini düzgün anlamır, yaxud ABŞ Sovet İttifaqının xarici siyasətini düzgün anlamır, yaxud hər ikisi bir-birinin xarici siyasətini düzgün anlamır. Dünyanın müqəddəratının çox asılı ola biləcəyi bu müəmmanın çözümü yalnız ideologiyaların xarakterində deyil, həmçinin dövlətin xarici siyasətini təyin edən amillərin ümumi cəmində axtarılmalıdır. Bu haqda irəlidə daha çox danışacağıq.[1]

[1] Bax: paraqraf 10

III FƏSİL

DÖVLƏTİN GÜCÜ

8. Dövlətin gücünün mahiyyəti

DÖVLƏTİN GÜCÜ NƏDİR?

Qeyd etmişdik ki, güc dedikdə biz insanın digər insanların hərəkətləri və düşüncələri üzərində gücünü, insan varlıqlarının bir-biriylə sosial münasibətdə olduqları vaxt üzə çıxan bir fenomeni nəzərdə tuturuq. Biz "dövlətin (xalqın – red.) gücü", yaxud "milli güc" haqqında elə danışmışdıq ki, sanki anlayış bizim güc haqqında ümumi dediklərimizlə aydın və kifayət qədər izah edilmişdir. Bununla belə, fərdlərin gücə nail olmaq cəhdi asanlıqla anlaşıla bildiyi halda, dövlətlər adlandırılan kollektivlərin gücə can atmasını necə izah etməliyik? Dövlət nədir? Dövlətin cəhdləri və fəaliyyəti dedikdə nəyi nəzərdə tuturuq?

Dövlət mahiyyət etibarilə, aydındır ki, empirik bir varlıq deyil. Dövlət belə nəzərdən keçirilə bilməz. Empirik şəkildə öyrənilə bilənlər yalnız dövlətə aid olan fərdlərdir. Odur ki dövlət müəyyən ortaq cəhətlərə malik olan bir sıra fərdlərdən ibarət bir mücərrədlikdir və onları eyni bir xalqın üzvü edən də həmin cəhətlərdir. Bir xalqın üzvü olub, bu çərçivədə düşünmək, hiss etmək və hərəkət etməkdən başqa, fərd kilsəyə, sosial və iqtisadi sinfə, siyasi partiyaya, ailəyə aid ola və bu çərçivələrdə düşünə, hiss edə və hərəkət edə bilər. Bütün bu sosial qrupların üzvü olmaqdan əlavə, o, həmçinin adi, sadə bir insan varlığıdır və bu çərçivədə düşünür, hiss edir və hərəkət edir. Ona görə də biz müəyyən bir dövlətin gücündən, yaxud xarici siyasətindən empirik baxımdan bəhs etdiyimiz zaman yalnız eyni xalqa mənsub olan müəyyən fərdlərin gücünü və xarici siyasətini nəzərdə tuturuq.

Marsel Proustun qeyd etdiyi kimi: "Bir xalqın həyatı geniş miqyasda onu təşkil edən hüceyrələrin, sadəcə, təkrarıdır; və fərdin hərəkətlərini müəyyən edən sirri, reaksiyaları, qanunları anlamaq qabiliyyətinə malik olmayanların xalqların mübarizəsi haqqında dinləməyə dəyər nəsə söyləyəcəyinə ümid etmək olmaz".

Lakin bu, başqa bir çətinliyi ortaya çıxarır. Məlumdur ki, ABŞ-ın gücü, yaxud xarici siyasəti Amerika Birləşmiş Ştatları adlanan dövlətə mənsub olan bütün fərdlərin gücü, yaxud xarici siyasəti deyil. ABŞ-ın İkinci Dünya müharibəsindən dünyanın ən güclü dövləti kimi çıxması faktı fərdi amerikalıların böyük kütləsinin gücünə təsir göstərmədi. Lakin o, ABŞ-ın xarici siyasətini idarə edən və xüsusilə beynəlxalq arenada onun adından danışan və onu təmsil edən bütün şəxslərin

gücünə təsir etdi. Çünki xalq xarici siyasəti hüquqi bir təşkilat olan dövlət formasında həyata keçirir və onun agentləri beynəlxalq əlaqələrdə xalqın təmsilçiləri kimi çıxış edirlər. Onlar onun adından danışır, onun adından müqavilələr bağlayır, onun məqsədlərini təyin edir, onlara nailolma üsullarını seçir və gücünü qorumaq, artırmaq və nümayiş etdirməyə çalışır. Onlar beynəlxalq arenada öz xalqının nümayəndəsi kimi çıxış edən zaman xalqın gücünü daşıyan və siyasətini həyata keçirən şəxslərdir. Biz empirik nöqteyi-nəzərdən gücdən və dövlətin xarici siyasətindən danışdıqda onlara istinad edirik.

Bu halda necə olur ki, xalqın fərdi gücü milli gücün dəyişik vəziyyətlərindən təsirlənməyən ayrı-ayrı üzvlərinin böyük kütləsi özünü dövlətinin gücü və xarici siyasətiylə ortaq edir, bu gücü və siyasəti özününkü kimi hiss edir və bunu çox vaxt gücə dair fərdi arzuları hissi bağlılığı da aşan emosional qüvvə ilə edir? Bu sualı verməklə biz müasir millətçiliyin problemini ortaya qoyuruq. Tarixin keçən dövrlərində fərdlərin özlərini gücünə və güc arzularına ortaq etdikləri kollektiv qan, din, yaxud feodal ağaya, yaxud knyaza ümumi sədaqət bağları ilə təyin olunurdu. Bizim dövrümüzdə dövlətin gücünə və siyasətinə ortaqlıq geniş şəkildə dəyişmiş, istənilən halda keçmiş ortaqlıqları kölgədə qoymuşdur. Müasir millətçiliyin bu fenomeni necə izah olunmalıdır?

Biz xarici siyasət ideologiyalarına dair müzakirələrdən müəyyən etmişdik ki, digərlərinin güc arzuları fərdin beynində əxlaq normalarından uzaq olma damğası daşıyır. Bu münasibətin bir kökü digərlərinin gücünün potensial qurbanı olan tərəfin öz azadlığını həmin təhlükədən qorumaq istəyi ilə bağlıdırsa, digər kökü ümumilikdə cəmiyyətin ayrı-ayrı fərdlərin güc arzularını yatırtmaq və onları hüdudları daxilində saxlamaq cəhdindən qaynaqlanır. Cəmiyyət fərdi güc meyillərini nəzarətdə saxlamaq üçün idarəetmə qaydaları və təsisati vasitələrin şəbəkəsini yaradıb. Bu qaydalar və vasitələr ya fərdi güc meyillərini cəmiyyət üçün təhlükə yarada bilməyəcək istiqamətlərə yönəldir, ya da onları bütünlükdə boğur, yaxud da zəiflədir. Qanun, əxlaq normaları və adətlər, saysız sosial təsisatlar və nizamlamalar, məsələn, müsabiqələr, seçki müsabiqələri, idman, sosial klublar, qardaşlıq təşkilatları bu məqsədə xidmət edir.

Nəticədə əksər insanlar milli birlik daxilində öz güc arzularını təmin etmək imkanına sahib olmurlar. Bu birlik daxilində yalnız nisbətən kiçik qrup digərləri tərəfindən böyük məhdudiyyətlərin hədəfi olmadan daimi olaraq çoxsaylı insanlar üzərində güc sahibi olur. Əhalinin böyük kütləsi gücün sahibi olmaqdan daha çox gücün hədəfidir. Güc arzularını milli sərhədlər daxilində tam şəkildə təmin edə bilməyərək, əhali həmin təmin olunmamış arzularını beynəlxalq arenaya köçürür. Burada onlar dövlətin güc meyillərinə ortaq olmaqda bunu əvəz edən həzz tapırlar. ABŞ-ın vətəndaşı öz ölkəsinin gücü haqqında fikirləşəndə Roma vətəndaşının özünü Roma və onun gücünə ortaq hesab edən zaman və bundan

əlavə, özünü əcnəbi ilə müqayisə edərkən "*Civis Romanus sum*" deyərkən keçirdiyi həmin vəcd hissini yaşayır. Biz çox güclü, sənaye potensialı və maddi zənginliyi misilsiz olan bir dövlətin nümayəndəsi olduğumuzu dərk edəndə arxayınlaşır və böyük qürur hissi duyuruq. Sanki biz hamımız fərdlər şəklində deyil, kollektiv şəkildə eyni bir xalqın nümayəndələri kimi belə möhtəşəm bir gücün sahibiyik və onu idarə edirik. Bizim nümayəndələrimizin beynəlxalq arenada daşıdığı güc bizim öz gücümüzə çevrilir və bizim milli birlik daxilində yaşadığımız məyusluğun yerini onu əvəz edən, dövlətin gücündən aldığımız həzz tutur.

Ayrı-ayrı fərdlər arasında fəaliyyət göstərən bu psixoloji meyillər idarəetmə qaydalarında və cəmiyyətin özünün təsisatlarında dayaqlara sahib olur. Cəmiyyət milli birlik daxilində fərdi güc uğrunda cəhdləri məhdudlaşdırır və müəyyən güc meyillərinə fərdi böyüməyə işarə edərək, həqarət işarəsi qoyur. Lakin o, əhalinin fərdi güc meyillərində məyusluğa uğramış böyük kütlələrini dövlətin beynəlxalq arenadakı güc uğrunda mübarizəsinə ortaq olmağa həvəsləndirir və bunu tərənnüm edir. Fərd tərəfindən öz məmnuniyyəti naminə təqib olunan güc yalnız müəyyən çərçivədə və müəyyən təzahürlər formasında dözülə bilən pis iş hesab olunur. İdeologiyalar ilə pərdələnmiş və dövlət adından və onun naminə təqib olunan güc isə bütün vətəndaşların can atmalı olduqları yaxşı işə çevrilir. Milli rəmzlər, xüsusilə onlar silahlı qüvvələrə və digər dövlətlər ilə əlaqələrə aiddirsə, fərdi dövlətin gücünə ortaq etməyin alətləridir. Cəmiyyətin əxlaq normaları və adətləri bu ortaqlığı mükafatlar və cəza təhdidlərindən istifadə etməklə cəlbedici etməyə çalışır.

Odur ki əhalinin müəyyən qruplarının ya dövlətin beynəlxalq arenada güc naminə cəhdlərinin ən mübariz müdafiəçiləri olması, ya da ümumiyyətlə, bu işlərə qarışmaqdan imtina etməsi təsadüfi deyil. Bunlar, əsasən, başqalarının gücünün hədəfi olan və öz güc meyillərinin həyata keçirilməsi imkanlarından ən ciddi şəkildə məhrum edilmiş və milli birlik daxilində hər hansı gücə sahib olması ən təhlükəli olan qruplardır. Xüsusilə aşağı orta siniflər, məsələn, ağ yaxalıqlı ofis işçiləri, həmçinin əməkçi kütlənin əsas çoxluğu[1] özlərini dövlətin güc iddialarına tamamilə ortaq edir. Əksinə, onlar özlərini dövlətin iddialarına ümumiyyətlə ortaq etmirlər və burada əsas nümunə xüsusilə Avropada marksizmin çiçəklənən dövründə inqilabçı proletariatdır. İkinci qrup ABŞ-ın xarici siyasəti üçün hələ də az əhəmiyyət kəsb etdiyi halda, birinci qrupa daim böyük əhəmiyyət verilmişdir.

Müasir millətçiliyin və müasir dövrdə xarici siyasət sahəsində artan qəddarlığın köklərini burada axtarmaq lazımdır. Qərb cəmiyyətlərində, xüsusilə onun aşağı təbəqələrində fərdlərə qarşı böyüyən təhlükələr və ümumiyyətlə, Qərb cəmiyyətinin parçalanması fərdlərin güc meyillərinə dair məyusluğunu son dərəcə

[1] Güc nöqteyi-nəzərindən onların millətçi xarici siyasətdən hərbçilərdən başqa, əhalinin hər hansı digər qrupu ilə müqayisədə itirəcəyi az, qazanacağı isə çox şey var.

şişirdib. Bu da öz növbəsində tarazlıq yaratmaq naminə güc uğrunda kollektiv milli iddialara ortaq olmaq həvəsinin çoxalmasına səbəb olub. Bu çoxalma həm kəmiyyət, həmçinin də keyfiyyət baxımından baş verib.

MÜASİR MİLLƏTÇİLİYİN KÖKLƏRİ

Napoleon müharibələri dövrünə qədər yalnız əhalinin kiçik qrupları özlərini öz dövlətlərinin xarici siyasət iddialarına ortaq edirdi. Xarici siyasət, əslində, milli deyil, xanədan siyasəti idi və ortaqlıq daha çox güc və ayrı-ayrı monarxların siyasəti ilə idi, nəinki güc və dövlət kimi bir kollektivin siyasətiylə. Höte avtobioqrafiyasının mühüm bir hissəsində belə qeyd edir: "Biz hamımız [Böyük] Fridrixin qayğısına qalırdıq, bəs Prussiyanın qayğısına necə, qalırdıqmı?"

Tomas Ceferson 1809-cu il fevralın 19-da Con Holinzə yazırdı: "Bu [elmi] cəmiyyətlər həmişə sülh şəraitində olur, halbuki onların xalqları müharibə şəraitində ola bilər. Məktublar respublikası [adlı elmi şəbəkə] kimi onlar bütün dünyaya yayılmış böyük bir qardaşlıq yaradır və heç bir sivil dövlət onların yazışmalarına mane olmur".

Napoleon müharibələriylə milli xarici siyasət və müharibələr dövrü başladı və vətəndaşların böyük kütlələrinin xanədan maraqları ilə ortaqlığı yerini milli güc və milli siyasət ilə ortaqlığa verdi. Talleyran 1808-ci ildə çar Aleksandra ünvanladığı aşağıdakı sözləriylə bu dəyişikliyə işarə edirdi: "Reyn, Alplar və Pireneylər Fransanın istilalarıdır; yerdə qalanları imperatorundur; onların Fransa üçün heç bir əhəmiyyəti yoxdur". Birinci Dünya müharibəsinədək Avropa sosialist partiyalarının üzvlərinin özlərini hansı dərəcədə mənsub olduqları dövlətlərin gücü və siyasətinin ortağı hesab etməsi şübhəli idi. Lakin bu müharibədə bütün döyüşən tərəflərin əsas işçi kütləsinin tam iştirakı bütün əhalinin faktiki olaraq mənsub olduqları dövlətlərin güc və siyasəti ilə ortaqlığını nümayiş etdirdi.

Millətçilikdən geri çəkilmə: görüntü və reallıq

Lakin İkinci Dünya müharibəsi Birinci Dünya müharibəsinin şahid olduğu həmin maksimum ortaqlıqdan müəyyən geriləməyə səbəb oldu. Bu geriləmə sosial piramidanın başında və təməlində baş verdi. Bir tərəfdən Böyük Britaniya və Fransada intellektual, siyasi və hərbi liderlərin kiçik, lakin güclü faşistyönlü qrupları ya öz ölkələri ilə ortaq olmaqdan imtina edir, ya da hətta dövlətlərinə düşmən olanlar ilə ortaq olmağa üstünlük verirdi. Bunu hiss edən liderlər xüsusilə ölkələrinin ilkin siyasi və hərbi zəifliyi fonunda öz güc mövqelərinə əmin deyildilər və görünürdü ki, yalnız düşmən onları sosial piramidanın başındakı mövqelərinə əmin edə bilərdi. Digər tərəfdən həm Fransa, həm də Sovet İttifaqına

sədaqətə and içən Fransa kommunistləri yalnız Almaniya 1941-ci ildə Sovet İttifaqına hücum edəndə hər iki tərəfin bu sədaqəti hərəkətə keçirməsindən sonra öz dövlətləriylə tam həmrəy oldular. Yalnız Almaniyanın Fransaya hücumu onları işğalçıya qarşı qaldıra bilmədi. Lakin Almaniyanın Sovet İttifaqına hücumu Fransa və Sovet İttifaqını ortaq səbəbə görə müttəfiq etdi və Fransa kommunistlərinə Fransanın alman işğalçılarından Fransa və Sovet İttifaqının ortaq düşmənini yaratmağa imkan verdi. Fransa kommunistlərinin Fransanın dövlət siyasətiylə ortaqlığı həmin siyasətin Rusiyanın maraqları və siyasətiylə ortaqlığı baxımından proqnozlaşdırılırdı. Kommunistlərin xarici maraqlara və siyasətlərə loyallığı, onların milli siyasətlər və maraqlardan üstün tutulması mahiyyət etibarilə milli dövlət bütövlüyünü və birbaşa olaraq onun mövcudluğunu sual altına qoyan universal bir fenomen idi.[1]

Milli həmrəyliyin belə parçalanmasını təxminən millətçilikdən geri çəkilmə adlandırmaq olar, çünki burada öz dövlətinə loyallıq xarici dövlətə loyallıqla dəyişdirilir. Kommunist fransız müəyyən mənada Sovet İttifaqının siyasətini dəstəkləyən bir rus millətçiyə çevrilir. Bu, millətçilikdə yeni olan bir xarici dövlətdən ortaqlıq tələb edildiyi halda, digər xarici dövlətlərin həmin dövlətin vətəndaşları tərəfindən loyallığa dair tələblərinin rədd edilməsindən yaranan ziddiyyətdir.

Hətta ümumdünya siyasi hərəkatının ilkin mənbəyi olaraq loyallığın öz dövlətindən başqa bir dövlətə keçməsinin müvəqqəti fasilə olması milli həmrəyliyin gücünə işarə edir. Çünki biz kommunist hökumətləri və hərəkatlarında milli həmrəyliyin yenidən dirçəlməsinin şahidi oluruq və bu onların müvafiq milli maraqlarını Sovet İttifaqının maraqlarından üstün tutmaq dərəcələrindəki fərqlərlə başlayıb. Sovet İttifaqı tərəfindən idarə olunan və ona xidmət edən kommunist hərəkatının monolit dünyası milli loyallıq və maraqların siyasi fəlsəfənin meyilləri üzərində üstünlük əldə etdiyi "polisentrizm" ilə əvəz olunmuşdur.

Lakin İkinci Dünya müharibəsinin nəticəsi millətçilikdən həqiqi geri çəkilməni Qərbi Avropanın birləşməsi istiqamətində hərəkat formasında gerçəkləşdirdi. Təqdirəlayiqdir ki, bu hərəkat Avropa Kömür və Dəmir İttifaqı, Ümumi Bazar (Avropa İqtisadi Birliyi) və Avroatom (Avropa Atom Enerjisi Birliyi)[2] kimi işlək fövqəlmilli təşkilatlar nəzərə alınarsa, indiyə qədər bir neçə konkret nailiyyət əldə etmişdir. Avropanın birləşməsinə doğru hərəkatı iki hadisə doğurmuşdur: İkinci Dünya müharibəsinin dağıdıcılığı və onun nəticəsində Avropanın siyasi, hərbi və iqtisadi iflası. Bu hərəkatın müdafiəçiləri bu hadisələrdən belə bir nəticənin çıxarılmasına mane ola bilməzlər ki, ən azından Qərbi Avropada milli dövlət siyasi təşkilatın öz üzvlərinin təhlükəsizliyini və gücünü təmin etməkdən uzaq

[1] Həmçinin bax: paraqraf 30.
[2] Bu və buna oxşar təşkilatlar haqqında bax: səh. 635 və növbəti səhifələr

olub, onları gücsüzlüyə və son nəticədə ya bir-biriləri, ya da daha güclü qonşuları tərəfindən məhvə məhkum edən köhnəlmiş prinsipdir. Yalnız fərdlərə deyil, həmçinin onların aid olduqları milli cəmiyyətlərə məxsus olan bu həssas təhlükə hissinin Avropanın siyasi, hərbi və milli birləşməsi formasında siyasi yaradıcılığa, yoxsa "bitərəfliy"ə qayıdış, yəni, ümumiyyətlə, fəal xarici siyasətdən imtina etmək formasında siyasi gücsüzlüyə, yaxud da ayrı-ayrı xalqlarla daha qatı ortaqlıq formasında siyasi ümidsizliyə gətirib çıxaracağını yalnız gələcək göstərəcək.

Millətçiliyin yenidən dirçəlməsinə qarşı çıxan qüvvə müasir nəqliyyat, kommunikasiya və silah-sursat texnologiyalarının yaratdığı müəyyən fundamental problemlərin, nə qədər güclü olmasından asılı olmayaraq, tək bir xalqın maraqlarının və həll etmək imkanlarının üstündə olmasının dövlət adamları və texniki ekspertlər tərəfindən hər gün daha da çox qəbul olunmasıdır. Nüvə enerjisinə nəzarət, təbii ətraf mühitin mühafizəsi və bərpası, ərzaq və xammal ilə təminat bu növdən olan problemlərdir. Onlar milli mənfəət uğrunda digər dövlətlər ilə rəqabət aparan ayrı-ayrı dövlətlər tərəfindən həll oluna bilməz. Bütün dövlətlər, yaxud da onların əhəmiyyətli bir hissəsi bu problemlərin həlli üçün ümumi marağa sahibdir və bu maraq ayrı-ayrı milli maraqları üstələyən ümumi siyasətdə öz əksini tapmalıdır. Bəzi kiçik kübar dairələr dünya siyasətinin bu yeni elementi haqqında məlumatlı olduğu və onunla intellektual baxımdan dil tapmağa çalışdığı halda, milli xarici siyasətlərin real icrası bundan çox az təsirlənmişdir. Əksinə, dövlətlərin ümumi maraqlarını gerçəkləşdirmək məqsədilə yaradılmış BMT və onun ixtisaslaşmış qurumları kimi təşkilatların bir-biriylə rəqabət aparan milli maraqlara xidmət etmək məqsədilə yarışan millətçiliklər tərəfindən ələ keçirilməsi millətçiliyin azalmamış gücünə işarə edir.[1]

Fərdin təhlükə altında olması və sosial parçalanma

Kəmiyyət baxımından fərdin öz dövlətiylə ortaqlığının emosional gücü müəyyən bir cəmiyyətin üzvlərinin təhlükəsizlik hissində əks olunmuş sabitliyi ilə tərs mütənasibdir. Cəmiyyətin sabitliyi və onun üzvlərinin təhlükəsizlik hissi nə qədər böyük olarsa, kollektiv emosiyaların çıxış yolunu təcavüzkar millətçilikdə axtarıb tapmaq şansları bir o qədər az olar və əksinə.[2] XVIII əsrin sonuncu onilliyində Fransa inqilabı və 1812-1815-ci illərdə Napoleona qarşı azadlıq müharibələri kütləvi ölkədaxili cəmiyyətlərin qeyri-sabitliyinin səbəb olduğu və təcavüzkar xarici siyasətlər və müharibələrlə coşqun kütləvi ortaqlıq formasında emosional partlayışa gətirib çıxaran kütləvi təhlükələrlə müşahidə olunan vəziyyətin müasir

[1] Həmçinin aşağıdakı müzakirələrə bax: səh. 629 və növbəti səhifələr
[2] Bu kollektiv emosiyalar, əlbəttə ki, çıxış yolunu dövlət daxilində də axtarıb tapa bilər, məsələn, sinfi mübarizə, inqilab və vətəndaş müharibəsi formasında.

dövrdə ilk nümunələridir. XIX əsr ərzində Qərb sivilizasiyalarında sosial qeyri-sabitlik özünü qabarıq şəkildə göstərdi. XX əsrdə fərdin adətlər, xüsusilə din ilə əlaqəli bağlılıqlarından xilas olması, həyat və fəaliyyətin artan rasionallaşması və mütəmadi iqtisadi böhranların nəticəsi olaraq, bu, daimi forma aldı. Bu amillərdən təsirlənən qrupların məruz qaldığı təhlükəli vəziyyətdən emosional çıxış yolu qərarlaşmış və emosional baxımdan nəzərə çarpan millətçi ortaqlıqlarda tapıldı. Qərb cəmiyyətində qeyri-sabit, olduqca təhlükə hissi heç vaxt olmadığı kimi dərinləşdi və fərdin rəmzi əvəzedicisi kimi dövlətə emosional bağlılıq hər zaman olduğundan daha güclü oldu. Dünya müharibələri, inqilablar, iqtisadi, siyasi və hərbi gücün təmərküzləşməsi və XX əsrin iqtisadi böhranlarının təsiri altında bu, dünyəvi din həvəsi səviyyəsinə çatdı. Güc uğrunda rəqabət indi yaxşı və pis arasında mübarizələrin ideoloji aspektlərini öz üzərinə götürdü. Xarici siyasət müqəddəs missiyalara çevrildi. Müharibələr səlib yürüşləri kimi dünyanın qalan hissəsinə həqiqi siyasi dini yaymaq məqsədi uğrunda aparıldı.

Sosial parçalanma, fərdin təhlükəyə məruz qalması və müasir millətçi güc meyillərinin amansızlığı arasındakı bu əlaqə həmin bu üç elementin özünü hər yerdən daha qabarıq göstərdiyi Almaniya faşizmində xüsusilə səmərəli şəkildə öyrənilə bilər. Müasir dövrün sosial parçalanmaya doğru ümumi tendensiyaları, müəyyən elementlərin, mövqelər arasında vasitəçilikdən və razılığa nail olmaqdan daha çox ifratçılaqların xeyrinə milli xarakterdə birləşməsi və Almaniyanın sosial quruluşunu hər yeri bürümüş nasional sosializm alovunun rahat qurbanına çevirəcək dərəcədə zəifləndən üç hadisə Almaniyada ifrat formalara səbəb oldu.

Bu hadisələrdən birincisi Birinci Dünya müharibəsində məğlubiyyət oldu və o yalnız ənənəvi siyasi dəyərlərin və təsisatların dağılması üçün deyil, həmçinin müharibədəki məğlubiyyət üçün məsuliyyət daşıyan bir inqilabla eyni vaxta təsadüf edirdi. İnqilab təbii olaraq güc itkisi və monarxiya altında sosial iyerarxiyanın başında və ya ona yaxın nöqtədə yer alanların sosial statuslarına qarşı təhlükəyə səbəb oldu. Əhalinin geniş kütlələrinin sosial vəziyyəti isə məğlubiyyət və inqilabın hər ikisinin Almaniyanın məhvi üçün fəaliyyət göstərən daxili və xarici düşmənlərin hiyləgər fırıldaqlarının nəticəsi olması fikrindən eyni dərəcədə təsirləndi. Belə ki, geniş yayılmış belə bir fikir mövcud idi ki, Almaniya yalnız xarici düşmənlərlə "əhatə olunmayıb", həmçinin onun özünün siyasi bütövlüyü onun gücünü tükədən və məhvinə yönəldilmiş görünməz düşmən orqanizmlər vasitəsilə yox edilib.

İkinci hadisə 20-ci ilin əvvəllərində baş vermiş, orta siniflərin geniş kəsimlərini iqtisadi cəhətdən proletarlaşdıran və geniş insan kütləsində ənənəvi vicdan və ədalətli davranışla bağlı əxlaq normalarını məhv etməsə belə, zəiflədən inflyasiya oldu. Orta sinfin proletarlaşdırılmasına etiraz edərək, mümkün ən çox antiproletar və millətçi ideologiyalara əl atdılar. Orta sinfin xüsusilə aşağı təbəqələri hər zaman proletariat üzərindəki üstünlüklərindən ən azından məhdud məmnunluq duyub.

Onlar sosial piramidanı bir bütöv kimi nəzərdən keçirdikləri zaman yuxarı baxdıqda aşağıya baxa bildiklərindən çox uzağa baxmalı olurdular. Belə ki, onlar, əslində, sosial piramidanın dibində olmasalar da, ona narahat edəcək dərəcədə yaxın idilər. Onların məyusluqları, təhlükə altında olan vəziyyətləri və millətçi ortaqlıq meyilləri buna görə idi. İndi isə inflyasiya onları dibə yuvarlayıb və onlar nizamsız proletariat kütləsiylə sosial və siyasi ortaqlıqdan qaçmaq uğrunda ümidsiz mübarizə şəraitində nasional sosializmin nəzəriyyə və təcrübəsindən yardım umurdular. Çünki nasional sosializm aşağı irqlərə yuxarıdan aşağı baxmağa, xarici düşmənlər üzərində isə özünü üstün hiss etməyə və onları istila etməyə çağırırdı.

Nəhayət, 1929-cu ilin iqtisadi böhranı Almaniya əhalisinin bütün müxtəlif qruplarını müxtəlif yollarla sosial statusa real və potensial zərbə ilə və intellektual, mənəvi və iqtisadi təhlükələrlə üz-üzə gətirdi. Əməkçi əhali real və potensial daimi işsizliklə üz-üzə qaldı. Orta sinfin inflyasiyanın gətirdiyi iqtisadi viranəlikdən özünə gəlmiş qrupları yenidən qazandıqları ümidi itirməkdə idi. Sənayeçilər artan sosial vəzifələrinin öhdəsindən gəlməli idilər və inqilabın xofu onları kölgə kimi izləyirdi. Nasional sosializm bütün bu xofları, təhlükələri və məyusluqları iki xarici düşmənin üstünə yıxırdı: Versal müqaviləsi və bolşevizm və onların uydurma yerli tərəfdarları. Bu bütün mənfi emosiyaları millətçi fanatizmin vahid güclü axınına doğru istiqamətləndirirdi. Nasional sosializm bununla bir almanın Almaniya dövlətinin məqsədlərinə ortaq olmaq arzularını həqiqi bir totalitar formada uyğunlaşdıra bilirdi. Müasir tarixdə heç yerdə bu ortaqlıq burada olduğundan daha çox tam olmayıb. Heç yerdə fərdin öz xeyri naminə güc arzularını həyata keçirdiyi sahə burada olduğundan daha kiçik olmayıb. Heç bu ortaqlığı beynəlxalq arenada təcavüzkarlığa çevirən emosional təkan gücü də müasir sivilizasiya ilə ayaqlaşmayıb.

Müasir tarixdə heç vaxt fərdi məyusluğun dövlət ilə kollektiv ortaqlığa çevrilməsi daha qənaətbəxş və intensiv olmadığı halda, o zaman nasional sosialist Almaniyasında bu belə idi. Bununla belə, müasir millətçiliyin Almaniya forması Sovet İttifaqı, yaxud ABŞ kimi digər böyük dövlətlərin millətçiliyindən növündən daha çox, dərəcəsinə görə fərqlənir. Sovet İttifaqında əhalinin böyük kütləsinin öz güc meyillərini yerli cəmiyyət daxilində təmin etmək imkanı yoxdur. Adi rus fəhləsinin və ya kəndlisinin yuxarıdan aşağı baxacağı kimsə yoxdur və ona qarşı təhlükələr polis dövlətinin həyata keçirdiyi tədbirlər, eləcə də aşağı yaşayış standartları ilə daha da artır. Burada da, həmçinin totalitar rejim bu məyusluqları, təhlükələri və qorxuları beynəlxalq arenaya köçürür və burada fərdi rus güc arzularını əvəz edən həzz kimi "dünyada ən inkişaf edən ölkə", "sosializmin vətəni" ilə ortaqlığı tapır. Onun özünü ortaq etdiyi dövlətin aramsız olaraq kapitalist düşmənlər tərəfindən hədələndiyinə dair, zahirən tarixi təcrübənin də müdafiə etdiyi fikir öz qorxularını və ona qarşı yönəlmiş təhlükələri kollektiv müstəviyə

qaldırmağa xidmət edir. Bununla da ona məxsus qorxular dövlət üçün təlaşa çevrilir. Beləliklə, dövlət ilə ortaqlıq fərdi güc meyillərini təmin etmək və fərdi qorxularını azaltmaqdan ibarət, beynəlxalq arenaya köçürülmüş ikili funksiyaya xidmət edir.

ABŞ-da milli gücün fərd tərəfindən ələ keçirilməsi və özününkü kimi istifadə olunması prosesi ümumilikdə XIX əsrdə Qərb sivilizasiyasında bu prosesin tipik nümunəsini əks etdirir. Qeyd olunmalıdır ki, fərdin dövlətin gücü və xarici siyasəti ilə ortaqlığı, əsasən, orta sinif üçün səciyyəvi olan məyusluqlar və onun məruz qaldığı təhlükələrdən qaynaqlanır. Bununla belə, Amerika cəmiyyəti Qərb sivilizasiyasının istənilən digər cəmiyyətlə müqayisədə daha geniş həcmdə orta sinif cəmiyyətidir. Daha mühümü, Amerika cəmiyyətində istənilən sinif fərqi orta sinfin dəyərləri və arzularının ortaq məxrəcə gətirilməsiylə, həll edilməsə belə, yumşalmağa meyillidir. Odur ki Amerika cəmiyyətində fərdin özünü dövlətə orta sinfin məyusluqları və iddiaları nöqteyi-nəzərindən ortaq etməsi, demək olar ki, Sovet İttifaqında proletarın ortaqlığı qədər üstünlük təşkil edən və səciyyəvidir. Digər tərəfdən, Amerika cəmiyyətinin nisbətən böyük dəyişkənliyi əhalinin böyük kütlələri üçün sosial və iqtisadi vəziyyətinin yaxşılaşması üçün yollar açır. Bu imkanlar keçmişdə, ən azından normal zamanlarda həmin ortaqlığı Sovet İttifaqı və nasional sosialist Almaniyasında müvafiq vəziyyətlərlə müqayisədə daha az emosional gərginlikdə saxlamağa meyil edirdi.[1]

Lakin son zamanlar cəmiyyətin parçalanması, beynəlxalq kommunizmin timsalında dünya inqilabı təhlükəsi, coğrafi təcridin tədricən yoxa çıxması və nüvə müharibəsi təhlükəsiylə yeni amillər meydana gəlib. Beləliklə, XX əsrin sonuncu rübündə güclənmiş fərdi məyusluqlar və narahatlıqlar fərd tərəfindən dövlətin gücü və xarici siyasətiylə daha güclü ortaqlıqlar doğurmuşdur. Odur ki əgər daim artan daxili məyusluq və beynəlxalq qeyri-sabitliyə doğru mövcud tendensiya dəyişdirilməzsə, ABŞ, görünür ki, özünün ən bariz təzahürünü sovet Rusiyası və milli sosialist Almaniyasında tapan, müasir mədəniyyətdə yer alan və fərdin dövlət ilə ortaqlığını hər zaman olduğundan daha çox bütöv və güclü edən bu tendensiyalarda get-gedə daha çox iştirak edəcək. Ortaqlığın belə bütöv və güclü olması dövlətlərin güc iddialarının bir-biriylə toqquşduğu, tarixin əvvəlki dövrlərində yalnız dini məsələlərin əmr edə biləcəyi mütləq sədaqət və hissin gücü ilə faktiki olaraq, bütün əhali tərəfindən dəstəklənən müasir xarici siyasətin qəddarlığının və amansızlığının köklərindən birini daşıyır.

[1]ABŞ-da güclü milliyyətçi ortaqlıq keçmişdə, əsasən, orta sinfin ən çox təhlükəyə məruz qalan hissəsi tərəfindən müəyyən etnik qruplara, məsələn, qaralar, yaxud proletar immiqrantların sonuncu dalğasına qarşı antaqonizm ilə assosiasiya olunmuşdur.

9. Dövlətin gücünün ünsürləri

Bir dövləti güc uğrunda digər dövlətlər ilə üz-üzə qoyan amillər hansılardır? Bizim dövlətin gücü adlandırdığımız məfhumun komponentləri nələrdir? Əgər bir dövlətin gücünü təyin etmək istəyiriksə, hansı amilləri nəzərə almalıyıq? İki qrup ünsür fərqləndirilməlidir: nisbətən sabit olanlar və daim dəyişikliyə məruz qalanlar?

COĞRAFİYA

Bir dövlətin gücünün asılı olduğu ən sabit amil, aydındır ki, coğrafiyadır. Məsələn, ABŞ-ın qitə ərazisinin digər qitələrdən qərbə doğru 3 min mil (4,8 min km – red.) və qərbə doğru 6 min mildən (9,7 min km – red.) daha çox məsafədə su hövzəsi ilə ayrılması faktı ABŞ-ın dünyada mövqeyini təyin edən daimi amildir. Bu amilin bu gün daşıdığı əhəmiyyətin Corc Vaşinqton, yaxud prezident Mak-Kinli dövründə daşıdığı əhəmiyyətlə eyni olmadığını söyləmək mənasızdır. Lakin çox vaxt edildiyi kimi nəqliyyat, kommunikasiya və hərb texnologiyasının texniki inkişafının ümumilikdə okeanların təcridetmə amilini aradan qaldırdığını düşünmək də yanlışdır. Əlbəttə, bu amil bu gün 50, yaxud 100 il bundan əvvəl olduğundan daha az əhəmiyyətlidir, lakin ABŞ-ın güc mövqeyi nöqteyi-nəzərindən ABŞ-ın birbaşa olaraq, deyək ki, Fransa, Çin, yaxud Rusiya ilə həmsərhəd olması əvəzinə Avropa və Asiya qitələrindən geniş su sahələri ilə ayrılmasında böyük fərq var. Başqa sözlə, ABŞ-ın coğrafi mövqeyi bu gün siyasi qərarlar üzərində təsiri tarixin digər dövrlərindən nə qədər fərqli olsa da, bütün dövlətlərin xarici siyasətinin nəzərə almalı olduğu daimi əhəmiyyətli fundamental amil olaraq qalır.

Eynilə Böyük Britaniyanın kiçik bir su hövzəsi – La-Manş boğazı ilə Avropa qitəsindən ayrılması Yuli Sezarın istilaçı Vilhelm, II Filip, Napoleon, yaxud Hitlerdən daha çox gözə almağa ürək edə biləcəyi amil deyildi. Tarixin gedişində bir çox digər amillər onun əhəmiyyətini nə qədər dəyişmiş ola bilsə də, 2 min il bundan əvvəl əhəmiyyətli olan bu gün hələ də əhəmiyyətini saxlayır və xarici fəaliyyətin icrası ilə əlaqəli olan hər kəs bunu nəzərə almalıdır.

Böyük Britaniyanın ada mövqeyi üçün doğru olanlar İtaliyanın coğrafi mövqeyi üçün də doğrudur. İtaliya yarımadası Avropanın yerdə qalan hissəsindən yüksək Alp dağları massivi ilə ayrılır və Alp vadiləri cənuba – Şimali İtaliya düzənliyinə doğru tədricən alçaldığı halda, şimala doğru yamacların meyilliyi çox kəskindir. Bu coğrafi vəziyyət İtaliyanın siyasi və hərbi mülahizələrində və digər dövlətlərin İtaliyaya dair mülahizələrində əhəmiyyətli rola malik ünsür olmuşdur. Çünki bizə məlum bütün hərbi texnoloji şərtlər altında bu coğrafi vəziyyət İtaliyadan Mərkəzi Avropanı, eləcə də şimaldan İtaliyanı işğal etməyi olduqca çətinləşdirib. Pun müharibələri zamanı Hannibaldan başlamış İkinci Dünya müharibəsində general Klarka qədər bu daimi coğrafi amil siyasi və hərbi strategiyanı təyin edib.

Pireney dağları da İspaniyanın beynəlxalq mövqeyi üçün bir qədər fərqli, lakin azdavamlı olmayan vəzifəni həyata keçirib. Deyirlər ki, Avropa Pireneylərdə qurtarır. İspaniyanın xarici dünyaya çıxışını çətinləşdirən Pireney dağları, əslində, İspaniyanı bütün qalan Avropanı dəyişən elmi, sosial, iqtisadi və siyasi inkişafın ana məcrasından ayıran maneə funksiyasını həyata keçirib. İspaniya həmçinin Avropa qitəsinin əksər böyük siyasi və hərbi toqquşmalarından yan keçib. Qitə siyasətinin kənar xətlərində yer alan bu mövqe ən azından qismən də olsa, Pireney dağlarının yaratdığı maneədən irəli gələn bu coğrafi təcridin nəticəsidir.

Sonuncu olaraq Sovet İttifaqının coğrafi vəziyyətinə nəzər salaq. Sovet İttifaqı Yer kürəsinin quru ərazisinin yeddidəbirinə bərabər çox böyük bir ərazini təşkil edir və onun ərazisi ABŞ-ın ərazisindən 1,5-2 dəfə böyükdür. Bering körfəzindən əvvəllər Şərqi Prussiyanın paytaxtı olmuş, indi Kalininqrad adlandırılan Königsberqə qədər hava nəqliyyatı ilə məsafə 5 min mil (8 min. km – red.), Barens dənizində Murmansk şəhərindən İranin şimal sərhədindəki Aşqabad şəhərinə qədər olan məsafə isə bunun yarısı qədərdir. Bu ərazi genişlənməsi indiki vaxta qədər xaricdən gələn bütün ərazi istilası cəhdlərini boşa çıxarmış böyük gücün daimi mənbəyidir. Bu nəhəng quru ərazi fonunda xarici işğalçılar tərəfindən istila edilmiş ərazi hələ də istila olunmalı ərazilər ilə müqayisədə çox kiçikdir.

Bir ölkənin böyük bir hissəsinin istilası çevik şəkildə özünə gəlmək imkanlarının olmaması səbəbindən, adətən, istila olunan əhalinin müqavimət göstərmək iradəsini qırır. Bu isə, gördüyümüz kimi, hərbi istilanın siyasi məqsədidir. Oxşar istilalar xüsusilə əgər Napoleon və Hitler zamanında olduğu kimi məhdud məqsədə malik olmayıb, Rusiyanın bir dövlət kimi mövcudluğuna yönəlmişdisə, Rusiyanın müqaviməti üzərində böyük sövqedici təsirə malik olub. Yalnız ona görə yox ki Rusiyanın işğal edilmiş əraziləri onun əlində qalmış ərazilərlə müqayisədə kiçik idi, həmçinin ona görə ki irəliyə doğru atdığı hər addımla işğalçının işi daha da çətinləşirdi. O, düşmən ölkənin içərisinə doğru uzunluğu daim çoxalan kommunikasiya xətləriylə təchiz edilmiş artan sayda qoşun saxlamalı idi. Beləliklə, coğrafiya Rusiya ərazinin istilasını bu işğalın məqsədləri düzgün müəyyən

edilməzdisə və hüdudsuz olmağa meyil edərdisə, istilaçı üçün mənfəətdən daha çox məsuliyyətə çevirirdi. İstilaçının ərazini mənimsəməsi və ondan güc alması əvəzinə, daha çox ərazi istilaçını udur və onun gücünü tükədirdi.

Nüvə müharibəsi ehtimalı dövlətin gücünün mənbəyi kimi ərazisinin ölçüsünün əhəmiyyətini artırıb. Nüvə təhdidini inandırıcı etmək üçün dövlətə sənaye və əhali mərkəzlərini, eləcə də nüvə qurğularını paylaşdırmaq üçün kifayət qədər geniş ərazi lazımdır. Nüvə silahının dağıdıcılığının geniş radiusu və ərazilərinin buna nisbətdə kiçik ölçüsü arasındakı əlaqə ənənəvi milli dövlətlərin, məsələn, Böyük Britaniya və Fransanın nüvə təhdidini inandırıcı edə bilmək imkanına ciddi əngəl törədir. Odur ki ABŞ, Sovet İttifaqı və Çin kimi dövlətlərə əsas nüvə dövləti rolunu oynamaq imkanı verən onların ərazilərinin yarımkontinental ölçüsüdür.

Lakin digər bir coğrafi amil Sovet İttifaqının beynəlxalq mövqeyi üçün eyni zamanda həm zəiflik, həm də üstünlük kimi çıxış edir. Biz burada onu nəzərdə tuturuq ki, Sovet İttifaqını onun qərb qonşularından nə hündür dağlar, nə də geniş su hövzələri ayırmır və Polşa və Şərqi Almaniyanın düzənlikləri Rusiya düzənliyinin təbii davamını təşkil edir. Bu halda istər Sovet İttifaqı, istərsə də Sovet İttifaqının qərb qonşuları tərəfindən Rusiyanın qərb sərhədlərində işğal üçün heç bir təbii maneə mövcud deyil. Belə ki, XIV əsrdən bu günə qədər Belarus və Rusiyaya məxsus olan ən qərb hissə aramsız silahlı hücumların və əks-hücumların səhnəsi və Rusiyanın və onun qərb qonşularının görüşdüyü döyüş zonası olub. Təbii sərhədlərin, yəni İtaliya, yaxud İspaniyada olduğu kimi coğrafi amillərlə təyin olunmuş sərhədlərin olmaması Rusiya və Qərb arasında daim münaqişə mənbəyi olub. Eynilə, lakin əks səbəbdən Fransa və Almaniya arasında Reyn çayının timsalında Fransanın hər zaman can atdığı, amma nadir hallarda nail olmağa gücü çatdığı belə bir sərhədin olması ehtimalı Roma imperiyası zamanından bu iki ölkə arasında daim münaqişə mənbəyi olub. Rusiyaya gəlincə, bolşevik xarici işlər naziri Vışinski Dardanel boğazı məsələsində çar dövrünün siyasətini davam etdirdiyinə görə məzəmmət olunarkən dediyi sözlərlə coğrafiyanın üstün əhəmiyyətini belə ümumiləşdirmişdi: "Əgər hərbi gəmi Aralıq dənizindən Qara dənizə üzməlidirsə, Moskvada hökumətin çar hökuməti, yaxud kommunist hökuməti olmasından asılı olmayaraq, Dardanel boğazından keçməlidir".[1]

TƏBİİ EHTİYATLAR

Dövlətin digər dövlətlərə münasibətdə gücünə əhəmiyyətli təsir göstərən digər nisbətən sabit amil təbii ehtiyatlardır.

[1] Götürülüb: Denis Healey, *Neutrality* (London: Ampersand, 1955), səh. 36.

Ərzaq

Bu ehtiyatların ən əsasından başlayaq: özünü ərzaqla təmin edə bilən, yaxud, demək olar ki, təmin edə bilən ölkə bunu bacarmayan və istehsal etmədiyi qida məhsullarını idxal etmək imkanına sahib olmalı, əks halda, aclığa məruz qalmalı olan dövlət üzərində böyük üstünlüyə malikdir. Bu səbəbdən İkinci Dünya müharibəsindən əvvəl Britaniya adalarında istehlak olunan məhsulun yalnız 30 faizini istehsal edən Böyük Britaniyanın müharibə dövründəki gücü və ümumiyyətlə, mövcudluğu hər zaman onun vacib ərzaq təminatını üzərindən həyata keçirdiyi dəniz yollarını açıq saxlamaq bacarığından asılı olub. Onun ərzaq idxalı iki dünya müharibəsində olduğu kimi sualtı hərbi texnika və hava hücumları vasitəsilə dayandırıldığı zaman Böyük Britaniyanın gücü şübhə altına düşür və onun bir dövlət kimi mövcudluğu təhlükəyə məruz qalırdı.

Eyni səbəbdən Almaniya da Böyük Britaniya ilə müqayisədə qida məhsulları sahəsində daha az həcmdə çatışmazlığa malik olsa da, müharibədən çıxa bilmək üçün ayrı-ayrılıqda, yaxud birlikdə üç ümdə məqsədi həyata keçirməyə məcbur idi: birincisi, ərzaq ehtiyatlarını tükətmədən, sürətli qələbə yolu ilə uzunsürən müharibədən qaçmaq; ikincisi, Şərqi Avropanın ərzaq istehsal edən böyük ərazilərini istila etmək; və üçüncüsü, Almaniyanın dənizarxası ərzaq ehtiyatlarına çıxışına mane olan Britaniyanın dəniz gücünü məhv etmək. Hər iki dünya müharibəsində Almaniya birinci və üçüncü məqsədlərinə nail ola bilmədi. İkinci məqsədinə isə o, Birinci Dünya müharibəsində həlledici təsirə malik ola bilmək üçün çox gec çatdı. Odur ki Almaniyanın əhalisinin müqavimət gücünü tükədən yoxsulluğa səbəb olmaqla müttəfiqlərin mühasirəsi onların qələbəsində əsas amillərdən biri oldu. İkinci Dünya müharibəsində Almaniya faktiki olaraq özünü ərzaqla təmin edə bilirdi, lakin bu onun işğalları vasitəsilə deyil, istila olunmuş ərazilərdə məqsədyönlü aclıq və milyonlarla insanın kütləvi şəkildə öldürülməsiylə baş vermişdi.

Beləliklə, daxildə istehsal olunan ərzağın çatışmazlığı Böyük Britaniya və Almaniyanın zəifliyinin daimi mənbəyi olub və onlar bunu hər hansı bir yolla aradan qaldırmalı, yaxud da böyük dövlət statusunun itirilməsi ilə üzləşməli idilər. Özünü təmin edə bilmənin həzzini yaşayan ölkənin isə, məsələn, ABŞ-ın dövlətin fəaliyyətini və xarici siyasətini əhalisinin müharibədə aclıq çəkməməsi üçün əsas məqsədlərindən yayındırmağa ehtiyacı yoxdur. Belə ölkələr bu baxımdan narahatlıqdan kifayət qədər azad olduğu üçün onlar ola biləcəyindən daha inamlı və məqsədyönlü siyasət yürüdə bilib. Bu baxımdan ərzaqla özünü təmin edə bilmə hər zaman böyük gücün mənbəyi olub.

Əksinə, daimi ərzaq çatışmazlığı beynəlxalq siyasətdə daimi zəifliyin mənbəyidir. Bu müşahidənin təsdiqi olaraq yaşıl inqilab adlandırılan inqilab ilə ərzaq təminatını əsaslı şəkildə artırmazdan əvvəlki dövrdə Hindistanı nümunə göstərmək olar. Hindistanın əzab çəkdiyi ərzaq çatışmazlığı iki amilin nəticəsi idi: ərzaq təminatını üstələyən əhali artımı və çatışmazlığı aradan qaldırmağa lazımi ərzaq idxalının dəyərini ödəyə bilmək üçün ixracın kifayət etməməsi. Hər zaman mövcud olan kütləvi aclıq təhlükəsini hökumətin əsas narahatlıqlarından birinə çevirən bu ikili tarazsızlıq Hindistanın yürütmək istəmiş olduğu istənilən fəal xarici siyasətə aradan qaldırıla bilinməyən maneə yaradıb. İxtiyarında olan digər güc vasitələrinə baxmayaraq, ərzaq çatışmazlığı onu xarici siyasətdə güclü olmaqdan daha çox, zəif olmaq baxımından fəaliyyət göstərməyə vadar edib. Eyni araşdırma xüsusi qüvvə ilə, davamlı olaraq daim aclıq təhlükəsi altında və ərzaq qıtlığı mövcudluğunda yaşayan və gücü təşkil edən bir çox digər vasitələrə sahib olmayan "üçüncü dünya" dövlətlərinə də tətbiq olunur. Bunlar xalqlararası sədaqətin onlara növbəti aclıqdan sağ çıxmağa yardım edəcəyinə ümid etməklə kifayətlənən tamamilə çıxılmaz vəziyyətdə olan dövlətlərdir.

Ərzaq təminatı, yaxud onun çatışmazlığı dövlətin gücünün nisbətən sabit amilidir, lakin o, bəzən, məsələn, müasir Hindistanın nümunəsində olduğu kimi, həlledici dəyişikliklərin subyektidir. Qidalanma təsəvvürlərindəki dəyişikliklər ərzaq istehlakında dəyişikliklərə səbəb ola bilər. Kənd təsərrüfatı texnikasında kənd təsərrüfatı məhsullarının istehsalını artıran və ya azaldan dəyişikliklə ola bilər. Əlavə olaraq kənd təsərrüfatı məhsullarının istehsalındakı dəyişikliklərin dövlətin gücü üzərindəki təsirinin məşhur nümunələrini Yaxın Şərqin və Şimali Afrikanın güc mərkəzləri kimi yoxa çıxmasında və İspaniyanın dünya dövlətindən üçüncü dərəcəli dövlət səviyyəsinə düşməsində görmək olar.

Yaxın Şərq və Şimali Afrikanın kənd təsərrüfatı sistemləri bütünlükdə suvarmaya əsaslanırdı. Hətta baxmayaraq ki, Babil, Misir və ərəblərin gücünün süqutunun onların irriqasiya sistemlərinin nizamsızlığı ilə əlaqəli olduğunu sübut etmək çətindir, bu fakt dəyişməzdir; kənd təsərrüfatı sistemlərinin dağılması onların gücünün iflasını qaçılmaz etdi, çünki müntəzəm suvarmanın aradan qalxması bu regionların əkin üçün yararlı torpaqlarının böyük bir hissəsini səhralara çevirdi. Yalnız Misirdə hətta süni suvarma sisteminin sıradan çıxmasından sonra Nil çayının təbii suvarması hesabına məhsuldarlığın müəyyən dərəcəsi saxlanıldı.

İspaniyaya gəlincə, onun süqutu 1588-ci ildə Armadanın Böyük Britaniya tərəfindən məhv edilməsi ilə əlaqələndirilsə də, onun siyasi iflası XVII-XVIII əsrlərdə pis idarəetmənin onun əkin üçün yararlı torpaqlarının böyük hissələrini meşələrin qırılması ilə məhv etməsindən sonra qaçılmaz oldu. Nəticədə Şimali və Mərkəzi İspaniyanın geniş regionları əsl səhralara çevrildi.

Xammal

Ərzaq üçün söylənilənlər, əlbəttə ki, sənaye istehsalı və xüsusilə müharibənin aparılması üçün vacib olan təbii ehtiyatlar üçün də həqiqətdir. Xammal şəklində olan təbii ehtiyatların dövlətin gücü üçün mütləq və nisbi əhəmiyyəti istər-istəməz tarixin müəyyən dövründə tətbiq olunan hərbi texnologiyadan asılıdır. Hərbi texnologiyanın geniş həcmdə mexanikləşdirilməsindən əvvəl, üzbəüz döyüş əsas hərbi üsul olan zaman ayrı-ayrı əsgərlərin fərdi keyfiyyətləri kimi digər amillər onların silahlarının düzəldiyi xammalın mövcudluğundan daha əhəmiyyətli idi. Tarixi mərhələnin başlanğıcından XIX əsrə qədər uzanan bu tarixi dövrdə təbii ehtiyatlar dövlətin gücünün təyin edilməsində ikinci dərəcəli rol oynayıb. Hərbi texnologiyanın sənaye inqilabından başlayaraq bütün keçən tarixi dövr ilə müqayisədə daha sürətli temp ilə irəliləmiş artan mexanikləşməsiylə dövlətin gücü sülh və müharibə dövründə xammal üzərində nəzarətdən davamlı olaraq daha çox asılı olmağa başladı. Təsadüfi deyil ki, bu gün dünyanın iki ən güclü dövləti – ABŞ və Sovet İttifaqı – müasir sənaye istehsalı üçün lazımlı olan xammal ilə özlərini təmin etməyə və özlərinin istehsal etmədikləri xammal ehtiyatlarına girişə ən azından nəzarət etməyə nail olur.

Xammala nəzarətin dövlətin gücü üçün mütləq əhəmiyyəti hərbi texnologiyanın mexanikləşməsinə mütənasib şəkildə artdığı kimi, müəyyən xammal məhsulları digərlərinə nəzərən önəm qazanıb. Bu, texnologiyada fundamental dəyişikliklər yeni materiallardan istifadəyə, yaxud köhnələrdən istifadənin artırılmasına səbəb olduğu zaman baş verdi. 1936-cı ildə bir sıra statistik rəqəmlər vacib mineralların hərbi məqsədlərlə sənaye istehsalında payını qiymətləndirdi və onları növbəti rəqəmlərlə təyin etdi: kömür – 40; neft – 20; dəmir – 15; mis, qurğuşun, maqnezium, kükürd – hər biri 4; sink, alüminium, nikel – hər biri 2.[1] Yarım əsr bundan əvvəl kömürün payı enerji resursu kimi yalnız su və odun ilə kiçik rəqabətə sahib olduğu üçün, neft ilə isə heç bir rəqabətdə olmadığı üçün, şübhəsiz ki, əhəmiyyətli dərəcədə daha böyük olmuş olardı. Bu, o zaman yüngül metallar ilə rəqabəti və plastik əvəzediciləri olmayan dəmir üçün də keçərlidir. Özünü kömür və dəmir ilə təmin edə bilən Böyük Britaniya XIX əsrdə yeganə böyük dünya dövləti idi.

Xammalın dövlətin gücünə göstərə biləcəyi təsir və qüvvələr bölgüsündə səbəb ola biləcəyi dəyişikliklər günümüzdə ən bariz formada uran məsələsiylə nümayiş olunur. Yalnız bir neçə il bundan əvvəl uran yataqları üzərində nəzarət, yaxud nəzarətsizlik dövlətin gücü üçün tamamilə əhəmiyyətsiz idi. Yuxarıda istinad etdiyimiz müəllif 1936-cı ildə mineralların nisbi hərbi əhəmiyyətini dəyərləndirərkən bu mineralı hətta yazısında heç yada da salmırdı. Uran atomundan atom enerjisinin ayrılması və bu enerjinin hərbi texnoloji məqsədləri üçün istifadəsi, dövlətlərin real və potensial iyerarxiyasını onların gücünün nisbəti baxımından dərhal dəyişmişdir. Uran yataqları üzərində nəzarətə malik dövlətlər, məsələn, Kanada, Çexoslovakiya, Sovet İttifaqı, Cənubi Afrika İttifaqı və ABŞ güc hesablamalarında yuxarı qalxmışdır. Bu mineral yataqlarına malik olmayan və ona girişi olmayan digər dövlətlər isə güc nisbəti baxımından aşağı sıralara enmişdir.

[1] Ferdinand Friedensburg, *Diemineralischen Bodenschätze als weltpolitische und militärische Machtfaktoren* (Stuttgart: F.Enke, 1936), səh. 175.

Neftin gücü

Birinci Dünya müharibəsindən etibarən neft enerji ehtiyatı kimi sənaye və müharibə üçün daha çox əhəmiyyətli olmuşdur. Əksər mexanikləşmiş silahlar və nəqliyyat vasitələri neft ilə hərəkətə gətirilir; nəticədə böyük neft ehtiyatlarına malik olan ölkələr beynəlxalq əlaqələrdə müstəsna olmasa da, başlıca olaraq bununla əlaqəli olan təsir imkanına sahib olmuşdur. Klemanso Birinci Dünya müharibəsində deyirdi: "Bir damla neft bizim əsgərlərimizin bir damla qanı dəyərindədir". Neftin əvəzedilməz xammal kimi ortaya çıxması siyasi cəhətdən aparıcı dövlətlərin güc nisbətində dəyişikliyə səbəb oldu. Sovet İttifaqı bu baxımdan özünü təmin edə bildiyi üçün daha da güclü olduğu halda, Yaponiya heç bir neft ehtiyatına sahib olmadığı üçün əhəmiyyətli dərəcədə zəiflədi.

Üç qitə arasında quru körpüsü mövqeyində yerləşməsiylə yanaşı, Yaxın Şərq Ərəbistan yarımadasındakı neft ehtiyatlarına görə strateji cəhətdən vacib regiondur. Onlar üzərində nəzarət ənənəvi olaraq qüvvələr bölgüsünün mühüm amili olmuşdur, o mənada ki, onları öz xammal ehtiyatlarına əlavə edə bilən öz ehtiyatlarına əlavə güc qatır və proporsional surətdə öz rəqiblərini bundan məhrum edir. Böyük Britaniya, ABŞ və müəyyən bir dövr üçün Fransa Yaxın Şərqdə uyğun şəkildə "neft diplomatiyası" adlandırılan fəaliyyətə, yəni müəyyən regionlarda onlara neft ehtiyatlarına müstəsna giriş imkanı verən təsir dairələrinin yaradılmasına başladı.

Lakin neft artıq dövlətin gücünün ölçülməsində vacib olan çoxsaylı xammal növlərindən biri deyil. İndi o ona sahibliyin özünün beynəlxalq siyasətin əsrlərlə yaşı olan nümunələrini devirməklə hədələdiyi maddi amildir. 1973-1974-cü illərin qışında neft istehsal edən ölkələrin neftə qoyduğu qadağa və bununla neftin qiymətində kəskin artım gözlənilmədən dünya siyasətinin bizim nəzəri cəhətdən

[1] Ferdinand Friedensburg, *Diemineralischen Bodenschätze als weltpolitische und militärische Machtfaktoren* (Stuttgart: F.Enke, 1936), səh. 175.

anlamış ola biləcəyimiz, lakin daha geniş nöqteyi-nəzərdən güc münasibətlərində yeni neft siyasətinin səbəb olduğu kəskin dəyişikliklə izah olunan müəyyən əsas aspektlərinə işıq saldı.

Adətən, siyasi, hərbi və iqtisadi güc arasında funksional əlaqə mövcud olub. Başqa sözlə desək, siyasi güc tarix boyu hərbi və xüsusilə son illər iqtisadi gücün funksiyası olub. Nümunə kimi Avropanın, sonralar Qərb yarımkürəsi, Afrika və Asiyanın müstəmləkə ərazilərinə çevrilən ekspansiyalarını göstərmək olar. Həmin ekspansiya başlıca olaraq müstəmləkə dövlətləri və müstəmləkəyə çevrilən xalqlar arasında mövcud olan texnoloji fərqə görə mümkün oldu. Başqa sözlə, Hindistanın Böyük Britaniya (işçi qüvvəsi və gücünün bir çox digər aspektləri baxımdan Hindistandan geri qalırdı) tərəfindən istilası əsas etibarilə Böyük Britaniyanın yüksək texnologiyaya sahib olması ilə mümkün oldu; bu texnologiya hərbi gücə çevriləndə Hindistan dövləti müqavimət göstərə bilmirdi.

Bir tərəfdən texnologiya və iqtisadi güc və digər tərəfdən siyasi və hərbi güc arasında funksional təbiətli həmin münasibətlər son zamanlar neftin siyasi silah kimi istifadəsiylə zərər gördü və hətta, demək olar ki, məhv oldu. Neft istehsal edən dövlətlərin çoxu yalnız semantik nəzakət adlandırıla biləcək üsulla dövlətdir. Təbii ehtiyatlar nöqteyi-nəzərindən onların qum və neftdən başqa heç nələri yoxdur. Lakin neft xəritə üzərindəki dövlət adlandırdığımız həmin kiçik torpaq sahələrini, göründüyü kimi, bir gecənin içində dünya siyasətinin mühüm və hətta qüdrətli amillərinə çevirdi. Başqa sözlə, güc yolu ilə edə biləcəyi heç nə olmayan, yəni dövlətin gücünü təşkil edən bütün ənənəvi ünsürlərdən məhrum olan bir dövlət birdən bir vacib vasitəyə – neftə malik olduğu üçün dünya siyasətinin güclü bir amilinə çevrilir. Bu, dünya siyasəti üçün, doğrudan da, inqilabi əhəmiyyətli hadisədir.

Bizim dövrümüzdə iki əsas amil siyasi gücü hərbi və sənaye-texnoloji gücdən belə ayırmağı mümkün etmişdir. (1) fərdi istehsalçılar və istehlakçılar arasında bir sıra xammal məhsullarının azad ticarəti və istehlakçı hökumətlər tərəfindən müstəmləkə və yarımmüstəmləkə qaydaları ilə monopolist şəkildə idarə olunan ticarət birgə fəaliyyət göstərən istehsalçı hökumətlər tərəfindən monopolist və yarımmonopolist idarəetmə ilə əvəz olundu. Əvvəllər istehlakçılar müstəmləkə qaydaları və istehlakın idarə olunması yolu ilə qiymətləri aşağı həddə saxlaya bilirdilər; indisə istehsalçılar istehsalı idarə etməklə qiymətləri yüksək səviyyədə saxlaya bilirlər. (2) əvvəllər xammal məhsullarının istehsalçı və istehlakçıları əlavə maraqlar ilə bir araya gəlirdilər və bunun tarazlığı istehlakçının xeyrinə idi. İkincilərin ehtiyacları bir sıra potensial istehsalçılar və mövcud xammal məhsullarının həcmi ilə müqayisədə məhdud idi. İstehlakçının bir neçə istehsalçı arasında seçim imkanı vardı. Bu gün bir vaxt alıcının bazarı olan satıcının bazarına çevrilib.

Xammal məhsullarının istehlakı yalnız mütləq göstəricilərə görə deyil, – 1760-1913-cü illər arasında Böyük Britaniyaya ərzaq və xammal məhsullarının idxalı 70 dəfə çoxalmışdı, – həmçinin mövcud ehtiyatlara nisbətdə böyük həcmdə çoxalıb. Beləliklə, neft sənaye baxımından irəli getmiş dövlətlərin damarındakı qana çevrilmişdir və onların çoxu ya tamamilə (Yaponiya), ya da böyük ölçüdə (Qərbi Avropa dövlətləri) digər dövlətlərdən idxaldan asılıdır.

Neftin bəxş etdiyi güc, hər şeydən əvvəl, müasir sənaye dövlətlərinin texnoloji inkişafının nəticəsidir. 20, yaxud 50 il bundan əvvəl neft onu istehsal edən dövlətlərə belə güc bəxş etmirdi, çünki neftin müasir sənayenin damarındakı qan kimi istifadəsi məhdud idi. Böyük neft ehtiyatlarına malik dövlətlər 1973-cü ilin payızında neft ixrac edən dövlətlər kimi siyasətlərini birləşdirə və əlaqələndirə bilsə, istehlakçı dövlətlərin fəaliyyətinə manea törədə bilər; onlar elə siyasi şərtlər irəli sürə bilərlər ki, istehlakçı dövlətlər yalnız böyük siyasi, iqtisadi və sosial qarışıqlıq təhlükəsi altında onlara cavab verməkdən imtina edə bilər.

Bütün digər amillərə münasibətdə gücsüz olan, yəni ənənəvi güc nöqteyi-nəzərindən əsas qüvvə olmayan dövlət ixtiyarında bir vasitədən – neft ehtiyatlarından başqa, gücün bütün alətləri olan dövlətlər üzərində böyük – müəyyən şərtlər altında hətta həlledici – güc təsiri göstərə bilər. Belə ki, Yaponiya kimi dünyanın qabaqcıl sənaye dövlətlərindən biri və potensial olaraq böyük bir dövlət xaricdən gələn neft təminatından tamamilə asılıdır. Əgər neft istehsal edən dövlətlər hər hansı bir səbəbdən Yaponiya üzərinə ümumi embarqo qoymuş olsaydı, onlar onun siyasi, iqtisadi və sosial quruluşunu dağıda və əgər bu ümumi embarqonu siyasi şərtlər ilə əlaqələndirmiş olsaydılar, öz iradələrini Yaponiyaya qəbul etdirə bilərdilər. Onlar Yaponiyanı peyk statusuna, neft istehsal edən dövlətlərdən asılı dövlətə qədər kiçildə bilərdilər. Həmin dövlətlər müəyyən dərəcədə artıq gücü dadıb. 1973-cü ilin oktyabrında Orta Şərq müharibəsi zamanı onlar Yaponiyanı və Qərbi Avropa ölkələrini (onlar neft idxalından yalnız qismən asılı idi) müəyyən siyasi addımlar atmağa məcbur etdilər; həmin dövlətlər bu addımları öz təşəbbüsləri ilə atmayacaqdı, lakin mövcud şərtlər altında bunu etməli olduqlarını, əks halda, siyasi, iqtisadi və sosial dağıntı təhlükəsinə məruz qalacaqlarını dərk edirdilər.

Belə qarışıqlığa səbəb yalnız birgə fəaliyyət göstərən neft istehsal edən dövlətlərin neft təchizatı üzərində yarımmonopoliyası deyil. Bu, xüsusilə və uzun vədədə daha mühümü, onların neftin qiyməti üzərində qurduqları nəzarətdir ki, bu da dünya iqtisadiyyatında qeyri-sabitliyin əsas amillərindən və inflyasiyanın əsas mənbələrindən biridir. Dünyanın sənaye dövlətlərində artıq fəaliyyətdə olan inflyasiya meylləri 1973-cü ildə neftin qiymətində dördqat, daha sonra 1978-ci ildə quyudan çıxan xam neftin qiymətində ikiqat artım ilə olduqca gərginləşdi.

Qeyd etmək vacibdir ki, bu vəziyyət potensial olaraq daimi xarakterlidir. Neft istehsal edən dövlətlər istehlakçı dövlətlərə qarşı əməkdaşlıq etdikcə, onlar arasında bazarlar və iqtisadi və siyasi mənfəət uğrunda rəqabət olmadıqca onlar neft istehlak edən dövlətlərə 1973-cü il müharibəsindən sonra etdikləri kimi faktiki olaraq istənilən şərti irəli sürə biləcək. Yaponiya kimi bir ölkənin vəziyyətində bu şərtlərə etiraz etmək intihara bərabər olardı. Digər dövlətlərin, məsələn, əsas enerji mənbələri ölkə daxilində olan ABŞ-ın vəziyyətində bu artıq 1973-cü ildə təcrübədən keçirildiyi kimi ciddi narahatlıq yaratmış olardı. Əsas neft qaynaqları ölkə xaricində yerləşən Qərbi Avropa dövlətləri, məsələn, Qərbi Almaniya neft üçün asılı olduqları dövlətlərə etiraz edərdisə, fəlakət ilə üz-üzə qalardı.

Müharibəyə əl atmadan bu əngəli aradan qaldırmaq yolu olmadığı halda, onun nəticələrini yumşaltmağın bir yolu var. Bu, neft hasil edən dövlətlərin mövqeyini gücləndirməklə neft istehsal edən monopolist, yaxud yarımmonopolist dövlətlərin mövqeyini zəiflətməkdən keçir. Birincilər 2 kateqoriyaya bölünür: neftin idxalından tamamilə asılı olan və buna görə də xarici neft mənbələrinə girişin onlar üçün həyat və ölüm məsələsi olduğu dövlətlər, məsələn, Yaponiya; və daxili enerji mənbələrinə malik olduğu üçün neft üzərində siyasi manipulyasiyadan narahat olan və zərər çəkə bilən, lakin ölümcül yara almayan dövlətlər, məsələn, ABŞ. Sonuncular neftin idxalını məhdudlaşdırmaq, onun daxildə istifadəsinə nəzarət etmək, ehtiyatları yığıb saxlamaq və səylərini alternativ enerji mənbəyi yaratmaq üçün atom parçalanmasının kəşf edilməsi üzrə Manhetten layihəsinin modeli əsasında təcili tədbirlərə yönəltməklə özlərini belə manipulyasiyanın ağır nəticələrindən qoruya bilir. Belə 4 istiqamətli siyasətin mövcudluğunun özü əlaqədar hər kəsə şəfaverici təsir bağışlayar. Bu, neft hasilatçılarının əhvali-ruhiyyəsini qaldırar və istehsalçılara yenidən düşünmək üçün əsas verər.

Belə siyasət həmçinin böyük daxili enerji ehtiyatlarına malik olan və onlara malik olmayan istehlakçılar arasında paylaşma siyasəti üçün psixoloji və maddi zəmin hazırlayar. Çünki neft istehsalçıları ABŞ kimi istehlakçıya yalnız onun təchizatını birbaşa kəsməklə deyil, həmçinin dolayısı ilə onun əsas müttəfiqlərini, məsələn, Almaniya və Yaponiyanı öz ayağına gətirməklə zərbə vura bilər. Beləliklə, ABŞ-ın neft üzərində siyasi manipulyasiyaya həssaslığı ikitərəflidir və o bu ikili təhlükəni xarici neft təchizatından asılılığını tez və mümkün olduğu qədər aradan qaldırmaq və öz daxili ehtiyatlarının bir hissəsini ən çox təhlükə ilə üz-üzə qalmış müttəfiqləri üçün açmaqla dəf edə bilər.

Sonda neftdən siyasi istifadənin yaratdığı vəziyyətə ümumi nöqteyi-nəzərdən baxsaq, bunun çağdaş dünya siyasətinin daha əvvəl müəyyən etdiyimiz əsas xarakterinin səciyyəvi nəticəsi olduğunu anlayarıq: bir tərəfdən bizim dünya arenasında içində fəaliyyət göstərdiyimiz təşkilati strukturlar və siyasi proseslər arasında

uyğunsuzluq və digər tərəfdən bəşəriyyətin altında yaşadığı obyektiv şərtlər. Belə ki, insanlığı məhv edə biləcək nüvə gücünü suveren milli dövlətlərin idarəetməsinə verməyin mütləq irrasionallığı ilə zərbəyə məruz qalırıq. Eyni şey neft üzərində nəzarətin – bu, yüksək inkişaf etmiş sənaye dövlətlərinin sivilizasiyasını fərqli yolla (daha az dramatik, lakin, demək olar ki, o qədər əsaslı şəkildə) məhv edə bilər – yalnız çox məhdud mənada suveren olan milli-dövlət adlandırılan vahidlərə etibar edilməsinə də aiddir. "Nüvə klubu"na mənsub olan dövlətlər artıq hökumətin yaradılmasında həyata keçirilməsi ilkin məqsədlər olan vəzifələri, yəni vətəndaşlarının həyatını, azadlığını və xoşbəxtliyini mühafizə etməyi və bunlar üçün şərait yaratmağı təmin etməyə qadir deyil və neft istehsal edən dövlətlər də heç vaxt buna qadir olmayıb. Onların gücü mahiyyət etibarilə dağıdıcıdır.

SƏNAYE SAHƏLƏRİNİN İSTEHSAL GÜCÜ

Uran nümunəsi əlavə olaraq digər bir amilin – sənaye sahələrinin istehsal gücünün dövlətin gücü üçün əhəmiyyətini göstərir. Konqo yüksək keyfiyyətli uranın böyük həcmli ehtiyatlarına malikdir. Lakin bu fakt həmin ölkənin hərbi mükafat kimi dəyərini və ona görə də hərbi strategiya nöqteyi-nəzərindən əhəmiyyətini artırdığı halda, Konqonun digər dövlətlərə nisbətdə gücünə təsir etmədi. Çünki Konqo uran ehtiyatlarından sənaye və hərbi məqsədlərlə istifadə etmək üçün sənaye müəssisəsinə malik deyil. Digər tərəfdən, Böyük Britaniya, Kanada və ABŞ, eləcə də Çexoslovakiya və Sovet İttifaqı üçün urana sahib olmaq gücdə böyük yüksəliş əhəmiyyəti daşıyır. Bu ölkələrdə sülh və müharibə dövründə istifadə etmək üçün uranı enerjiyə çevirə biləcək sənaye müəssisələri mövcuddur, yaxud tikilə bilər, ya da onlar asanlıqla qonşu dövlətin imkanlarından istifadə edə bilərlər.

Kömür və dəmir də eyni vəziyyətin nümunəsi ola bilər. ABŞ və Sovet İttifaqı milli qüdrətlərinin böyük bir hissəsini bu iki xammala geniş həcmdə sahib olmaqdan alır, çünki onlar həmçinin bu xammalları sənaye məhsuluna çevirə bilən sənaye müəssisələrinə sahibdir. Sovet İttifaqı öz müəssisələrini böyük insan və maddi qurbanlar hesabına tikib və hələ də tikməkdə davam edir. O, qurbanlar verməyə razıdır, çünki anlayır ki, sənaye müəssisələrinə sahib olmadan xarici siyasəti ilə ayaqlaşa bilən hərbi təsisat qura və saxlaya bilməz. Bu müəssisələr olmadan Sovet İttifaqı beynəlxalq siyasətdə oynamaq niyyətində olduğu mühüm rolu oynaya bilməz.

Hindistan kömür və dəmir ehtiyatlarına görə ABŞ və Sovet İttifaqını yaxından izləyir. Onun dəmir filizi ehtiyatları yalnız iki əyalətdə: Bihar və Orizada

2,7 mlrd. ton qiymətləndirilir. Bundan əlavə, Hindistanda poladın istehsalı üçün gərəkli olan manqanın hasilatı 1939-cu ilin əvvəllərində 1 milyon ton idi və yalnız Sovet İttifaqından geri qalırdı. Lakin müasir dövrdə bir dövlətin ön sıralara çıxa bilmək üçün sahib olmalı olduğu xammal məhsulları ilə zənginliyinə baxmayaraq, Hindistan bu gün birinci dərəcəli və hətta çətinliklə də olsa, ABŞ və Sovet İttifaqı ilə müqayisə oluna bilən dövlət kimi qiymətləndirilə bilməz. Bizim burada müzakirə etdiyimiz (digərləri irəlidə müzakirə olunacaq) gücün imkanları və reallıqları arasındakı bu uyğunsuzluğun səbəbi xammalın zənginliyinə müvafiq olan sənaye təsisatının olmamasıdır. Hindistan mövcud ən müasir sənaye təsisatları arasında olan bir sıra polad zavodları, məsələn, Tata Dəmir İşləmələri ilə öyünə bilsə də, onun xüsusilə hazır məhsullar sahəsində adambaşına düşən istehsal gücü hətta ikinci dərəcəli sənaye dövlətlərinin müvafiq göstəriciləri ilə belə müqayisə oluna bilməz. 1980-ci ildə 6 milyondan daha az hindli – ümumi əhalinin 1 faizi – sənaye sahəsində çalışırdı. Beləliklə, görürük ki, Hindistan bəzi xammal məhsullarının zənginliyi timsalında dövlətin gücünü təşkil edən ünsürlərdən birinə sahibdir və bu baxımdan potensial olaraq böyük dövlət hesab oluna bilər. Lakin, əslində, o, müasir dövrdə bir xalqın böyük dövlət statusuna çatmaq üçün sahib olmalı olduğu digər amillərə sahib olmayana qədər böyük dövlət olmayacaq. Sənaye sahələrinin istehsal gücü bu amillərin ən vacib olanlarından biridir.

Müasir hərbi daşımalar və kommunikasiya texnologiyası ağır sənayenin ümumi inkişafını dövlətin gücünün əvəzedilməz ünsürünə çevirib. İndiki müharibələrdə qələbə avtomagistralların, dəmir yollarının, yük maşınlarının, gəmilərin, təyyarələrin, tankların və ağcaqanad torlarından və avtomatlardan oksigen maskaları və idarə olunan raketlərə qədər bütün növ təchizat və silahların sayından və keyfiyyətindən asılı olduğu üçün dövlətlər arasında güc uğrunda rəqabət geniş şəkildə daha böyük, daha yaxşı və daha çoxsaylı müharibə alətlərinin istehsalı sahəsində rəqabətə çevrilir. Sənaye müəssisəsinin keyfiyyəti və istehsal gücü, orada çalışan insanların işi bilməsi, mühəndisin bacarığı, alimin ixtiraçılıq istedadı, idarəetmə təşkilatı – bütün bunlar dövlətin sənaye sahələrinin istehsal gücünün və beləliklə də, gücünün asılı olduğu amilləridir. Bu halda aparıcı sənaye dövlətlərinin böyük dövlətlər kimi qiymətləndirilməsi və sənaye səviyyəsində yaxşıya və ya pisə doğru dəyişikliklərin güc iyerarxiyasında müvafiq dəyişikliklə müşayiət olunması qaçılmazdır. Böyük Britaniyanın sənaye dövləti kimi bərabəri olmadıqca o, dünyanın ən qüdrətli dövləti və dünya dövləti adlandırıla biləcək yeganə dövlət idi. Fransanın Almaniya ilə müqayisədə bir güc dövləti kimi 1870-ci ildən sonra hər kəsə məlum olan və Birinci Dünya müharibəsindən sonrakı onillikdə isə yalnız zahirən və müvəqqəti durğunluq xarakteri daşıyan iflası qismən də

Fransanın sənayesinin geriləməsinin və Almaniyanın Avropa qitəsində sənaye üstünlüyünün siyasi və hərbi təzahürü idi.

Sovet İttifaqı hər zaman potensial olaraq böyük dövlət olduğu halda, buna faktiki olaraq yalnız 30-cu illərdə qabaqcıl sənaye dövlətləri səviyyəsinə daxil olduqdan sonra çevrilmiş və yalnız 50-ci illərdə nüvə müharibəsi başlatmaq üçün sənaye gücünə malik olduqdan sonra ABŞ ilə rəqabətə daxil olmuşdur. Eynilə Çinin böyük dövlət potensialı da yalnız o, müvafiq sənaye gücünə sahib olarsa və buna sahib olduqdan sonra gerçəkləşəcək. ABŞ 40-cı illərdə gücünün zirvəsində olanda London "*Economist*" jurnalı bu gücü Amerikanın iqtisadi qüdrətiylə aşağıdakı kimi əlaqələndirmişdi:

"Böyük dövlətlərin potensial imkanlarının istənilən müqayisəsində ABŞ hətta Hitlerin müharibəsindən əvvəl maddi qüdrətinə, sənayeləşmənin həcminə və ehtiyatların çəkisinə, yaşam meyarlarına dair bütün hasilat və istehlak indekslərinə görə dünyanın digər dövlətlərini çox qabaqlayırdı. Amerikanın ümummilli gəlirini yalnız ikiqat artırdığı halda, bütün digər böyük dövlətləri darmadağın edən və ya ciddi şəkildə zəiflədən müharibə isə bunun həcmini olduqca artırdı və bunun hesabına ABŞ bu gün bütün dövlətlərdən üstündür. Filin qəfəsində olan siçanlar kimi onlar qorxu içində mamontun hərəkətlərini izləyirlər. O, gücünü göstərməyə başlayarsa, onların hansı şansı qalacaq? Həmin onlar ki, o oturmaq qərarına gəldiyi anda belə hansısa təhlükə ilə üz-üzə qalırlar".[1]

Sənaye istehsalının gücünün dövlətin gücü üçün əhəmiyyətinin belə kəskin artması həmçinin kiçik və böyük dövlətlər arasında ənənəvi fərqi qabartmışdır. "Supergüc" termini bir neçə dövlətin əlində görünməmiş dərəcədə gücün toplanmasını nəzərdə tutur və bu həmin dövlətləri yalnız kiçik dövlətlərdən deyil, eləcə də ənənəvi böyük dövlətlərdən ayırır. Supergücləri bütün digər dövlətlərdən fərqləndirən total nüvə müharibəsi başlatmaq və total nüvə hücumundan az əhəmiyyətli olan bütün digər hücumları dəf etmək imkanından başqa, onların faktiki olaraq sənaye baxımından özlərini təmin edə bilmələri və onların digər dövlətlərlə ayaqlaşmaq üçün texnoloji imkanlarıdır. Bununla bərabər, üçüncü və dördüncü dərəcəli dövlətlərin supergüc adlandıra biləcəyimiz birinci dərəcəli dövlətlərdən asılılığı da kəskin şəkildə artmışdır. Birincilərin hərbi gücü bəzən həlledici dərəcədə ikincilərin onları müasir silahlar və müasir kommunikasiya və nəqliyyat vasitələri ilə təchiz etmək istəyindən asılıdır. Bu şəkildə təchiz olunmadan onların əksəriyyəti belə təchiz olunmuş düşmən ilə qarşıdurmada köməksiz qalar.

[1] *Economist*, May 24, 1947, səh. 785 (icazə ilə təkrar çap olunmuşdur).

HƏRBİ HAZIRLIQ

Coğrafiya, təbii ehtiyatlar və sənaye sahələrinin istehsal gücü kimi amillər dövlətin gücü üçün real əhəmiyyət yükləyən hərbi hazırlıqdır. Dövlətin gücünün hərbi hazırlıqdan asılılığını dərindən öyrənməyə ehtiyac duymaq üçün çox aydındır. Hərbi hazırlıq yürüdülən xarici siyasəti dəstəkləməyə qabil olan hərbi təsisat tələb edir. Bu bacarıq bizim müzakirəmiz nöqteyi-nəzərindən əhəmiyyətli texnoloji yeniliklərdən, rəhbərlik və silahlı qüvvələrin keyfiyyəti və sayı kimi bir sıra amillərdən qaynaqlanır.

Texnologiya

Dövlətlərin və sivilizasiyaların taleyi çox vaxt hərbi texnologiyanın fərqlilik dərəcəsi ilə təyin olunub, çünki onun geri qalan tərəfini başqa yolla tarazlamaq mümkün olmayıb. Avropa XV əsrdən XIX əsrə qədərki ekspansiyası dövründə öz gücünü Qərb yarımkürəsi, Afrika və Yaxın və Uzaq Şərqin gücü üzərində üstünlüyünü hərbi texnologiya baxımdan saxlaya bilirdi. XIV-XV əsrlərdə ənənəvi silahlara piyadaların, odlu silahların və artilleriyanın əlavə olunması qüvvələr bölgüsündə həmin silahlardan düşmənlərindən əvvəl istifadə edənlərin xeyrinə əhəmiyyətli dəyişikliyə gətirib çıxardı. Belə yeni silahların meydana gəlməsinə baxmayaraq, süvari qoşuna və o zamana qədər birbaşa hücuma qarşı praktik olaraq keçilməz olan qalalara güvənməkdə davam edən feodal ağalar və müstəqil şəhərlər indi birdən öz üstün mövqelərindən sıxışdırıldıqlarını gördülər.

Gücdə siyasi və hərbi cəhətdən Orta əsrlərin sonu və tarixdə müasir eranın başlanğıcına işarə edən bu dəyişikliyi 2 hadisə ilə təsvir edək. Birincisi, 1315-ci il Marqarten və 1339-cu il Laupen döyüşlərində İsveçrənin piyada qoşunlarından təşkil olunmuş ordular feodal süvari qoşunlarını fəlakətli məğlubiyyətə uğratdı və bununla göstərdi ki, adi əhali arasından toplanan piyada əsgərlər atlıların zadəgan və böyük xərclər tələb edən ordusundan üstündür. İkincisi 1494-cü ildə Fransa kralı VIII Karlın İtaliyaya hücumudur. VIII Karl piyada qoşunları və artilleriya ilə divarları arxasında qorunan məğrur İtaliya şəhərlərinin gücünü sındırdı. Bu yeni hərbi texnologiyaların zahirən qarşısıalınmaz dağıdıcılığı o dövrün çağdaş insanlarında unudulmaz təəssürat yaratmışdı və onların bəziləri Makiavelli və o dövrün digər florensiyalı yazıçılarının yazılarında öz əksini tapıb.[1]

[1] Feliks Cilbertin şərhinə bax: "Machiavelli: The Renaissance of the Art of War," in *Makers of Modern Strategy*? Edited by Edward Mead Earle (Princeton: Princeton University Press, 1944), səh. 8, 9.

XX əsr bu günə qədər hərbi texnologiyada 4 əsas yeniliyin şahidi olub. Bu yeniliklər onlardan düşmənlərindən əvvəl və ya düşmən özünü bundan qorumağı bacarmazdan əvvəl istifadə edənlərə ən azından müvəqqəti üstünlük verdi. Birincisi, Birinci Dünya müharibəsində Almaniya əvvəlcə Britaniya donanmasının gəmilərinə qarşı sualtı gəmilərdən istifadə etdi və elə görünürdü ki, bu, müharibəni Almaniyanın xeyrinə həll edə biləcək. Lakin Böyük Britaniya bu təhlükəyə gəmilərin qrup halında hərəkəti formasında cavab tapdı. İkincisi, I Dünya müharibəsinin sonuncu mərhələsində almanlar deyil, britaniyalılar tanklardan çoxlu sayda və bir yerə cəmləşdirilmiş formada istifadə etdilər və bu, müttəfiqləri qələbəyə aparan yollardan biri oldu. Üçüncüsü, hərbi hava qüvvələrinin strateji və taktiki cəhətdən quru və dəniz qüvvələri ilə əlaqələndirilməsi II Dünya müharibəsinin ilkin mərhələsində Almaniya və Yaponiyanın üstünlüyünə böyük kömək etdi. Pörl-Harbor və britaniyalı və hollandiyalıların 1941-1942-ci illərdə yaponlar tərəfindən quruda və dənizdə məruz qaldığı dəhşətli məğlubiyyətlər daha qabaqcıl düşmən ilə qarşılaşarkən texnoloji baxımdan geri qalmanın cəzası idi.

Çörçillin 1942-ci il aprelin 23-də parlamentin qapalı iclasında təqdim etdiyi məxfi rəyi[1] oxuyarkən belə bir faktla qarşılaşırıq ki, quruda, suda və havada bütün bu məğlubiyyətlərin bir ümumi məxrəci var: hərbi texnologiyada hava qüvvələrinin səbəb olduğu dəyişikliklərin nəzərə alınmaması və anlaşılmaması. Nəhayət, nüvə silahına və ondan istifadə vasitələrinə malik olan dövlətlər rəqibləri üzərində böyük texnoloji üstünlüyə malikdir.

Lakin nüvə silahlarının mövcudluğu da, yuxarıda qeyd olunduğu kimi, dövlətin gücünə münasibəti baxımından iki mühüm paradoks ilə nəticələnir. Hər iki paradoks nüvə silahının böyük dağıdıcılığından qaynaqlanır. Bu dağıdıcılıq səbəbindən nüvə silahında kəmiyyət artımı adi silahlardan fərqli olaraq, dövlətin gücündə mütləq şəkildə müvafiq artım ilə ifadə olunmur. Əgər bir dövlət seçdiyi bütün düşmən hədəflərini məhv etmək üçün bütün mümkün ehtimallar, məsələn, ilk zərbənin düşmən tərəfindən endirilməsi nəzərə alındığı halda, zəruri olan nüvə silahına malikdirsə, əlavə nüvə silahları dövlətin gücünü artırmayacaq.[2]

Digər paradoks nüvə silahının dağıdıcılıq dərəcəsi və onun rasional istifadəsi arasındakı tərs mütənasiblikdədir. Böyük təsir qüvvəsi olan nüvə silahları heç bir fərq qoymadan kütləvi məhvetmə alətləridir və odur ki rasional hərbi məqsədlər üçün istifadə oluna bilməz. Onlar total məhvetmə ilə hədələməklə müharibədən çəkindirmək üçün istifadə oluna bilər; lakin onlar rasional qaydada müharibə

[1] *Winston Churchill's Secret Speaches* (New York: Simon and Schuster, 1946), səh. 53 və növbəti səhifələr

[2] Yenə orada: səh. 423 və növbəti səhifələr

aparmaq üçün istifadə oluna bilməz. Böyük təsir qüvvəsi olan nüvə silahından başqa heç nə ilə silahlanmayan bir dövlət öz hərbi imkanlarından yalnız çox kiçik siyasi güc əldə edə bilər; çünki onun öz iradəsini digər bir dövlətə qəbul etdirmək üçün total məhvetmə ilə hədələməkdən başqa heç bir hərbi vasitəsi yoxdur.

Əgər bu xalqın nüvə silahı ilə cavab vermək imkanı varsa, o da öz növbəsində total məhvetmə ilə hədələyəcək və bu halda iki təhlükə ya bir-birini neytrallaşdıracaq, ya da düşmən tərəflərin bir-birini məhv etməsinə gətirib çıxaracaq. Əgər təhlükəyə məruz qoyulmuş dövlətin cavab qaytarmaq üçün heç bir nüvə vasitəsi yoxdursa, o ya total məhvetmədən əzab çəkəcək, ya da 1945-ci ildə Yaponiya Hirosima və Naqasaki atom bombası ilə darmadağın edildikdən sonra etdiyi kimi qeyd-şərtsiz təslim olacaq. Başqa sözlə, təhlükəyə məruz qalan dövlət ya hissə-hissə, şəhər-şəhər, ya da bir dağıdıcı zərbə ilə yer üzündən silinəcək, lakin bu, hərbi təzyiqin dərəcəsini məharətlə psixoloji müqaviməti qırmaq üçün istifadə olunmağa uyğunlaşdıra bilməyəcək. Belə məharətli uyğunlaşmalar üçün münasib olan adi silahların yoxluğu və yalnız böyük təsir qüvvəsinə malik nüvə silahlarına arxalanma bir dövləti çəkindirmə məqsədilə böyük təsir qüvvəsinə malik nüvə silahları və ənənəvi hərbi məqsədlər üçün lazımlı adi silahların arsenalının qarışığına malik olarkən ola biləcəyindən daha az güclü edir. Burada paradoks nüvə silahını istifadə oluna bilən etmək üçün onun təsir qüvvəsini təxminən adi silahlarına qədər azaltmaq məcburiyyətidir.

Rəhbərlik

Vaxtlı-vaxtında texnoloji yeniliklərdən istifadə etməkdən başqa, hərbi rəhbərliyin keyfiyyətləri hər zaman dövlətin gücü üzərində həlledici təsirə malik olmuşdur. XVIII əsrdə Prussiyanın gücü, əsasən, Böyük Fridrixin hərbi zəkasının və təqdim etdiyi strateji və taktiki yeniliklərin inikası idi. Hərb sənəti 1786-cı ildə Böyük Fridrixin ölümü ilə 1806-cı ildə Napoleonun o zaman öz-özlüyündə 20 il əvvəl olduğu kimi mükəmməl və güclü olan Prussiya ordusunu darmadağın etdiyi Yena döyüşü arasındakı müddətdə dəyişmişdi. Lakin burada daha əhəmiyyətlisi o idi ki, onun Böyük Fridrixin apardığı döyüşləri yenidən aparan liderlərinin hərbi zəkası çatışmırdı. Digər tərəfdə isə hərbi zəka komandanlığa məxsus idi və o, strategiya və taktikada yeni ideyalar tətbiq edirdi. Bu amil məsələni Fransanın xeyrinə həll etdi.

İki dünya müharibəsi arasındakı dövrdə Fransa baş qərargahının Majino xətti psixologiyası yanlış strateji düşüncənin sinonimi̇nə çevrildi. Müasir texnologiyanın meyilləri, xüsusilə onun nəqliyyat və kommunikasiyaların mexanikləşdirilməsinə doğru yönəlməsi manevr müharibəsi ehtimalına işarə etdiyi halda, Fransa baş qərargahı Birinci Dünya müharibəsinin səngər döyüşləri nöqteyi-nəzərindən

fikirləşməkdə davam edirdi. Digər tərəfdən, mexanikləşdirilmiş hərb işinin potensial strateji imkanları haqqında məlumatlı olan Almaniya baş qərargahı isə öz kampaniyalarını görünməmiş hərəkətlilik nöqteyi-nəzərindən planlaşdırırdı. Yalnız Fransada deyil, həmçinin Polşa və Sovet İttifaqında bu 2 konsepsiyanın toqquşması ildırımsürətli müharibədə Almaniyanın üstünlüyünü təmin etdi və onu həlledici qələbəyə yaxınlaşdırdı. Hitlerin panzerlərinin və şığıyıcı bombardman təyyarələrinin 1939-cu ildə Polşanın süvari qoşunları və 1940-cı ildə hərəkətsiz Fransa ordusu üzərinə qəzəbli hücumunun səbəb olduğu intellektual şok və hərbi və siyasi darmadağın 1494-cü ildə VIII Karlın İtaliyanı işğalı zamanında olduğu kimi hərb tarixinin yeni mərhələsini başlatdı. Lakin İtaliya dövlətlərinin onların gücünü bərpa etmək üçün müraciət etməli kimsələri olmadığı halda, İkinci Dünya müharibəsində ABŞ-ın yüksək səviyyəli texnologiyası və Sovet İttifaqının üstün işçi qüvvəsi Hitlerin yeniliklərini onun öz məhvinə çevirdi.

Silahlı qüvvələrin sayı və səviyyəsi

Hərbi baxımdan dövlətin gücü həmçinin insanların və silahların sayından və onların hərbi təsisatın müxtəlif şaxələri arasında paylanmasından asılıdır. Bir dövlət hərb sahəsində texnoloji yeniliklərə dair dərin biliklərə malik ola bilər. Onun hərbi liderləri müharibənin yeni texnologiyalarına uyğun olan strategiya və taktikası üstün ola bilər. Lakin əgər belə bir dövlət ümumi gücünə və ayrı-ayrı tərkib hissələrinin gücünə görə yerinə yetirməli olduğu vəzifələr baxımından nə olduqca böyük, nə də olduqca kiçik olmayan hərbi təsisata malik deyilsə, hərbi cəhətdən, nəticədə həm də siyasi cəhətdən zəif ola bilər. Qüdrətli olmaq üçün bir dövlət böyük orduya sahib olmalıdırmı, yaxud ən azından sülh dövründə yalnız yüksək təlim görmüş və ağır silahlarla silahlanmış ixtisaslaşmış hissələrdən təşkil olunmuş kiçik quru qüvvələrinə malik olmaq onun gücünü zəiflətmir ki? Mövcud döyüşə hazır qüvvələr təlim görmüş ehtiyat qüvvələrindən daha əhəmiyyətlimi olub? Böyük yerüstü dəniz donanmaları köhnəlibmi, yaxud da aviasiya daşımaları hələ də faydalı məqsəd yerinə yetirirmi? Bir dövlət öz ehtiyatları və öhdəçilikləri baxımından hansı böyüklükdə hərbi təsisata malik olmalıdır? Dövlətin gücünə dair narahatlıq dinc dövrdə təyyarə və digər mexanikləşdirilmiş silahların genişhəcmli istehsalını tələb edirmi, yoxsa dövlət texnologiyada sürətli dəyişikliklər fonunda öz ehtiyatlarını silahların təkmilləşdirilmiş növlərinin məhdud sayının axtarışı və istehsalı üçün istifadə etməlidir?

Aydındır ki, dövlətin kəmiyyət xarakterli bu kimi suallara doğru, yaxud yanlış cavabı dövlətin gücü ilə birbaşa olaraq əlaqəlidir. Müharibənin nəticəsi yeni bir silahın meydana gəlməsiylə təyin oluna bilərmi, məsələn, XV əsrdə artilleriya

haqqında düşünüldüyü kimi, yaxud Birinci Dünya müharibəsində almanlar sualtı gəmilər haqqında düşündükləri kimi, yaxud iki dünya müharibəsi arasındakı dövrdə təyyarə haqqında buna inanıldığı kimi, yaxud bu gün əksəriyyətin qitələrarası raketlər haqqında düşündükləri kimi? İki dünya müharibəsi arasındakı dövrə Böyük Britaniya və Fransa tərəfindən bu sualların bəzilərinə verilmiş yanlış cavablar onlar üçün gücün ənənəvi hərbi anlayışlar nöqteyi-nəzərindən simasını qoruyub saxlayırdı. Lakin həmin yanlışlar onları hərbi texnikası həmin suallara fərqli cavab tələb edən İkinci Dünya müharibəsinin gedişində həlledici məğlubiyyətin kandarına gətirdi. Bu gün bizim bu və buna oxşar suallara verdiyimiz cavabların xüsusiyyətindən ABŞ-ın digər dövlətlərə nisbətdə gələcək gücü asılıdır.

ƏHALİ

Maddi amillərdən və maddi və insan ünsürlərinin qarışığından ibarət amillərdən dövlətin gücünü təyin edən insan amillərinə keçərkən biz kəmiyyət və keyfiyyət komponentlərini fərqləndirməliyik. Keyfiyyət komponentləri sırasına milli xarakter, milli əhvali-ruhiyyə və diplomatiyanın və ümumilikdə hökumətin fəaliyyətinin səviyyəsi daxil olduğu halda, kəmiyyət komponentləri əhalinin sayı baxımından müzakirə olunmalıdır.

Məskunlaşma

Əhalinin sayı nə qədər çoxdursa, ölkənin gücünün də o qədər böyük olacağını söyləmək, əlbəttə ki, düzgün olmaz. Çünki əgər əhalinin sayı ilə dövlətin gücü arasında belə bir əsassız münasibət mövcud olsaydı, əhalisinin sayı 1 milyarddan çox olan Çin[1] dünyanın ən qüdrətli dövləti olar və onu əhalisinin sayı 730 milyon nəfər olan Hindistan müşayiət edərdi. Sovet İttifaqı təxminən 272 milyon və ABŞ isə 234 milyon nəfərlik əhali ilə müvafiq olaraq üçüncü və dördüncü yerləri tutardı. Baxmayaraq ki, əhalisinin sayının əksər digər ölkələrin əhalisinin sayından çox olmasına görə ölkənin çox qüdrətli hesab edilməsinə haqq qazandırılmır, bu, hələ də bir həqiqətdir ki, dünyanın ən çox əhalisinə malik olan dövlətləri sırasında yer almayan heç bir ölkə birinci dərəcəli dövlət ola və belə bir dövlət olaraq qala bilməz. Böyük əhali sayına malik olmadan müasir

[1] Əhali sayına dair bütün rəqəmlər, əgər başqa cür göstərilməyibsə, ABŞ-ın Siyahıyaalma Bürosunun 1983-cü il iyunun ortaları üçün olan məruzəsindən götürülüb, *New York Times*, September 4, 1983, səh. A9.

müharibənin uğurla aparılması üçün vacib olan sənaye müəssisələri yaratmaq və onların fəaliyyətini davam etdirmək; quruda, suda və havada döyüşə çoxsaylı döyüşçü dəstələri çıxarmaq; və nəhayət, qoşunların sayına görə döyüşçü qruplardan böyük olan və sonuncuları ərzaq, nəqliyyat və kommunikasiya vasitələri, döyüş sursatı və silahlarla təmin etməli kadr heyətini doldurmaq mümkün deyil. Bu səbəbdəndir ki, imperialist ölkələr Almaniyada nasistlərin və İtaliyada faşistlərin etdiyi kimi bütün növ həvəsləndirmələrlə əhali artımını stimullaşdırır və sonra bu artımdan imperialist ekspansiyaları üçün ideoloji bəhanə kimi istifadə edir.

ABŞ ilə Avstraliya və Kanadanın əhalisinin sayı arasındakı müqayisə əhalinin sayı ilə güc arasında əlaqəyə aydınlıq gətirəcək. Bu gün ərazisi 3 milyon kv. mildən (7,8 milyon kv. km) az olan Avstraliyanın əhalisinin sayı təxminən 15 milyon olduğu halda, ərazisi 3,5 milyon kv. milə (9 milyon kv. km) yaxın olan Kanadanın əhalisinin sayı 24,5 milyondur. Ərazi sahəsi Avstraliya və Kanadanın ərazisinin ortasında olan ABŞ-ın əhalisinin sayı isə 234 milyon nəfərdir ki, bu da Avstraliyanın əhalisinin sayından 15 dəfə, Kanadanın əhalisinin sayından isə təxminən 10 dəfə çoxdur. Əhalisinin sayı Avstraliyanın və ya Kanadanınkı qədər olsaydı, ABŞ heç vaxt dünyanın ən qüdrətli ölkəsi ola bilməzdi. XIX əsrdə və XX əsrin ilk iki onilliyində kütləvi immiqrasiya dalğaları ABŞ-a gücün bu ünsürünü bəxş etmişdir. ABŞ-a gələn immiqrantların sayını ildə 150 000 nəfər olmaqla məhdudlaşdıran 1924-cü il İmmiqrasiya qanunu 100, yaxud 50 il daha əvvəl qüvvəyə minmiş olsaydı, müvafiq olaraq 36 və 27 milyon nəfər əhalinin ABŞ-da məskunlaşmasının qarşısı alınar və ABŞ onları və onların nəsillərini itirmiş olardı.

1824-cü ildə ABŞ-ın əhalisinin sayı 11 milyon nəfərə yaxın idi. 1874-cü ildə bu, 44 milyon, 1924-cü ildə isə 114 milyon nəfərə qalxdı. Həmin əsrdə immiqrantların Amerikanın əhalisinin sayındakı payı orta hesabla 30 faizə yaxın idi və 1880-1910-cu illər arasındakı dövrdə 40 faizə yaxınlaşdı. Başqa sözlə, Amerika əhalisinin sayında ən nəzərəçarpan artım immiqrasiyanın mütləq və nisbi artımları ilə üst-üstə düşür. 1824-cü ildən başlayaraq, xüsusilə 1874-1924-cü illər ərzində sülh və müharibə dövründə ABŞ-ın gücü üçün böyük əhəmiyyət kəsb edən işçi qüvvəsinin çoxluğu azad immiqrasiyaya borcludur. Bu immiqrasiya olmasaydı, ABŞ-ın əhalisinin bugünkü sayı, güman ki, indi olduğunun yarısından çox olmazdı. Nəticədə ABŞ-ın gücü bu gün 234 milyon insanın yaratdığı gücdən az olardı.

Əhalinin sayı dövlətin gücünün əsaslandığı amillərdən biri olduğu üçün və bir dövlətin gücü hər zaman digər dövlətin gücünə nisbi olduğundan güc uğrunda rəqabət aparan ölkələrin əhalisinin nisbi sayı, xüsusilə bunun nisbi artımı ətraflı diqqətə layiqdir. Əhalinin sayına görə öz rəqibindən geri qalan ölkə artımın azalan tempini rəqibinin əhalisinin sayı daha sürətlə artmağa meyil edirsə, narahatlıqla nəzərdən keçirir. Fransanın 1870-1940-cı illər arasında Almaniyaya münasibətdə vəziyyəti belə idi. Bu müddətdə Fransanın əhalisinin sayı 4 milyon

nəfər artdığı halda, Almaniyada 27 milyon artım qeydə alınmışdı. 1800-cü ildə Avropanın hər 7-ci adamı fransız olduğu halda, 1930-cu ildə yalnız hər 13-cü adam fransız idi. 1940-cı ildə Almaniyanın ixtiyarında hərbi xidmət üçün yararlı 15 milyon nəfər var idi, halbuki Fransada bunun sayı yalnız 5 milyon idi.

Digər tərəfdən, 1870-ci ildə birləşmədən sonra Almaniya Rusiyada əhalinin sayına dair rəqəmləri bəzən narahatlıqla və hər zaman diqqətlə nəzərdən keçirmişdir; bu rəqəmlər Almaniyadan daha böyük artım tempi nümayiş etdirirdi. Birinci Dünya müharibəsinin başlanğıcında mövcud olan vəziyyətə yalnız əhali sayına dair göstəricilər nöqteyi-nəzərindən baxsaq, Almaniya hesab edə bilərdi ki, zaman Rusiyanın xeyrinə işləyir, Fransa isə hesab edə bilərdi ki, zaman Almaniyanın xeyrinə işləyir, lakin bu vaxt həm Rusiya, həm də Avstriya artıq qeyd etdiyimiz digər səbəblərdən[1] güman edə bilərdi ki, münaqişənin uzanması rəqibin xeyrinə olacaq. Beləliklə, Böyük Britaniya istisna olmaqla bütün aparıcı dövlətlərin 1914-cü ildə qaçılmaz hesablaşmadan əvvəl mütləq deyil, yalnız nəfəsalma müddəti olduğunu hesab etdikləri dinc həll yolundan müharibəyə üstünlük vermək üçün öz səbəbləri var idi.

Yaxın keçmişdə Avropada qüvvələrin bölgüsündə dəyişikliklər əhali sayına dair rəqəmlərdə təqribi olaraq təkrarlanır, belə ki, ABŞ-ın Qərbi və Mərkəzi Avropanın yerini tutaraq, Qərbin böyük qüvvə mərkəzi kimi meydana çıxması müvafiq ölkələrin əhali sayına dair rəqəmlərindən görünə bilər. 1870-ci ildə Fransanın, eləcə də Almaniyanın əhalisi ABŞ-ın əhalisini üstələyirdi. Lakin 1940-cı ildə ABŞ-ın əhalisi 100 milyon nəfər artdığı halda, eyni dövrdə Fransa və Almaniyanın əhalisinin birgə artımı yalnız 31 milyon nəfərə bərabər idi.

Beləliklə, aydındır ki, bir dövlət gücün maddi alətlərinin yaradılması və tətbiqi üçün kifayət qədər çoxsaylı əhaliyə malik olmadan birinci dərəcəli ola bilməz. Digər tərəfdən, yalnız son zamanlar aşkar olmuşdur ki, çox böyük əhali sayı da dövlətin gücünə kəskin mənfi təsir göstərə bilər. Bu, inkişaf etməmiş ölkələrdə, məsələn, Hindistan və Misirdə baş vermişdir; onların əhalisi ölüm faizinin azalması səbəbindən xeyli artmış, lakin ərzaq təminatı əhali artımı ilə ayaqlaşmamışdır. Bu ölkələr davamlı olaraq aclıq təhlükəsi və qidasız qalmış və xəstə əhalinin geniş kütlələrinin qayğısına qalmaq ehtiyacı ilə üzləşirdi. Onlar onsuz da kasad olan ehtiyatlarını dövlətin gücünün inkişafından əhalinin qidalandırılması və himayəsinə yönəltməli olurdular. Əhali sayının çoxluğu onların gücünün aləti olmaqdan uzaq olub, inkişafları üçün maneə törədir. Belə dövlətlər üçün əhalinin sayını ehtiyatlarla uyğunlaşdırmaq zərurətdir və əgər resursları çoxaltmaq mümkün deyilsə, əhalinin idarə olunması dövlətin gücünün ilkin şərtidir.[2]

[1] Bax: səh. 127 və 128.
[2] Müqayisə et: səh. 177.

Əhali artımı tendensiyaları

Bu vaxta qədər dediklərimizdən aydın olur ki, qüvvələrin gələcək bölgüsünün təyin edilməsi cəhdində əhali artımına dair proqnozlar vacib rol oynayır. Bütün digər amillər təxminən bərabər olaraq qalarkən dövlətin işçi qüvvəsində onun beynəlxalq arenadakı rəqiblərivlə müqayisədə böyük azalma dövlətin gücünün azalması mənasını verir və eyni şərtlər altında böyük artım dövlətin qüdrətində yüksəlişə bərabər olur. XIX əsrin sonuna doğru yeganə dünya dövləti kimi mövcud olan Britaniya imperiyasında əhalinin sayı 400 milyon nəfər idi – bu, dünyanın bütün əhalisinin sayının təxminən dörddəbiri idi. 1946-cı ildə bu rəqəm 550 milyona yaxınlaşdı. O zaman Hindistanın əhalisinin sayı 400 milyon qiymətləndirildiyindən bu rəqəmlər yalnız əhalinin sayı baxımından Böyük Britaniyanın Hindistanı itirməklə məruz qaldığı böyük güc itkisini təsvir edir.

Əhali nöqteyi-nəzərindən ABŞ-ın mövqeyi Qərbi Avropa ilə müqayisədə sonuncunun proqnozlaşdırılan kiçik artımları səbəbindən üstünlüyünü saxlamaqda davam edəcək. Lakin Latın Amerikasının əhali artımına dair göstəriciləri ilə müqayisədə ABŞ-ın mövqeyi, əslində, geriləmə yolundadır. Latın Amerikası dünyanın istənilən aparıcı regionundan yüksək artım tempi nümayiş etdirir. 1900-cü ildə ABŞ-ın 75 milyonluq əhalisinə qarşı Latın Amerikasının əhalisinin sayı təxminən 63 milyon idi. Yalnız Argentinanın əhalisi 1914-1965-ci illərdə iki dəfə artmış və indi təxminən 28 milyondur. Eyni mərhələdə ABŞ-ın əhalisi 99 milyondan 234 milyona qalxmışdır.

Lakin müxtəlif ölkələrin əhali artımına dair ümumi rəqəmləri bilmək əhali amilinin dövlətin gücünə təsirini düzgün qiymətləndirmək üçün kifayət deyil. Verilən əhalinin yaşa görə bölgüsü güc hesablamalarında mühüm ünsürdür. Bütün digər ünsürlərin bərabərliyi halında, hərbi və istehsalat məqsədləriylə maksimum potensial işə yararlı əhalinin (təxminən 20 və 40 yaşları arasında) nisbətən böyük sayına malik olan dövlət əhalisi daha qoca yaş qrupuna məxsus olan dövlət üzərində üstündür.

Bununla belə, qeyd olunmalıdır ki, əhali artımına dair göstəricilərin layihələndirilməsi hətta müharibə və təbii fəlakətlərin müdaxiləsi olmadan belə risklidir. 40-cı illərdə əhali artımına dair hesablamalar Amerika əhalisinin artımının Sovet İttifaqının əhalisinin artımı ilə müqayisədə olduqca bədbin təsvirini yaratmışdı. Lakin bu gün ABŞ-ın əhalisinin sayı bəzi tanınmış əhali ekspertlərinin 1975-ci ildə təxmin etdikləri rəqəmləri böyük fərqlə üstələmişdir. Hətta elmi sərrastlığının nisbətən yüksək olduğu görünən fəaliyyət sahəsində dövlətin gücünə dair proqnozlar qeyri-müəyyənliklərlə əhatə olunub. Onlar heç dövlət adamının dövlətin əhalisinin artım meyillərinə dair real narahatlığını da azalda bilmir.

Avqustu və onun Roma imperiyası taxtındakı varislərini təkrarlayaraq, ser Uilyam Çörçill Britaniyanın baş naziri kimi 1943-cü il martın 22-də radio müraciətində öz narahatlığını aşağıdakı sözlərlə ifadə etmişdi:

"30, 40 və 50 il bundan irəliyə baxanda bizi bürüyən ən tutqun narahatlıq – bu sahədə isə irəlini yalnız çox aydın görmək olar – azalan doğum əmsalıdır. Əgər bugünkü tendensiyalar dəyişməzsə, 30 ildən sonra daha az işləyən və döyüşən əhali təxminən 2 dəfə çox yaşlı insanı saxlamalı və qorumalı olacaq; 50 ildən sonra vəziyyət daha da pisləşəcək. Əgər bu ölkə dünya liderliyində yüksək mövqeyini saxlamaq və xarici təzyiqlərə qarşı davam gətirməyi bacaran böyük dövlət kimi qalmaq istəyirsə, insanlarımız bütün vasitələrlə böyük ailələrə sahib olmağa həvəsləndirilməlidirlər".

MİLLİ XARAKTER

Onun mövcudluğu

Dövlətin gücü ilə əlaqəsi olan keyfiyyət xarakterli üç insan amilindən milli xarakter və milli əhvali-ruhiyyə həm rasional proqnozlar nöqteyi-nəzərindən dəyişkənliyi, həm də dövlətin çəkisinə daimi və çox vaxt həlledici təsirinə görə beynəlxalq siyasətin tərəzisinə qoyula bilər. Biz burada milli xarakterin inkişafına hansı amillərin cavabdeh olduğu məsələsindən bəhs etmirik. Bizi yalnız o fakt maraqlandırır ki, – xüsusilə "mədəni quruluş"un antropoloji anlamı nöqteyi-nəzərindən müzakirə olunan, lakin (bizə elə gəlir) danılmaz, – intellekt və xarakterin müəyyən keyfiyyətləri özünü daha tez-tez göstərir və bir dövlətdə digər dövlətdə olduğundan daha yüksək qiymətləndirilir. Koleric yazır:

"Bundan başqa bütün əhalinin üstündə gözəgörünməz bir ruhun nəfəsi var və o hamı arasında eyni dərəcədə olmasa da, paylanır; o ruh ki, onların yaxşı və pis hərəkətlərinə rəng və obraz verir, buna görə də eyni bir hərəkət, yəni demək istəyirəm ki, eyni sözlərlə ifadə olunan hərəkət hələ bir ispan üçün daşıdığı mənanı bir fransız üçün daşıyacağı eyni mənada daşımır. Mən burada inkarolunmaz bir həqiqəti nəzərdə tuturam və o etiraf olunmazsa, bütün tarix bir tapmaca olar. Mən eyni şəkildə dövlətlərin fərqini, onların nisbi əzəmətini və bədxahlığını, qısası, olduqları və etdikləri hər şeyi nəzərdə tuturam. (Verilmiş bir mərhələdə bir tək böyük insanın təsiri altındakı təsadüfi dövrü deyil, məsələn, böyük Ksantipin hakimiyyəti və sonralar öz sərkərdələri Hannibalın hakimiyyəti altında olan karfagenliləri deyil). Onların bir xalq olaraq dəyişən fərdlərin varisliklərı şəraitində qətiyyətlə davam etdirdikləri hər şey həmin ruhun nəticəsidir..."[1]

[1] Samuel Taylor Coleridge, *Essays on His Own Times* (London: William Pickering, 1850), Vol. II, səh. 668-669.

Bu xüsusiyyətlər bir xalqı digərindən fərqləndirir və onlar dəyişikliyə yüksək uyğunlaşma dərəcəsi nümayiş etdirir. İxtiyari olaraq seçilmiş bir neçə nümunə bu fikri izah edəcək.

Təkzibedilməz fakt deyil ki, Con Dyui[1] və digərlərinin qeyd etdiyi kimi, Kant və Hegel Almaniyanın fəlsəfi ənənələri üçün Dekart və Volterin Fransa düşüncəsi, Lokk və Börkün Böyük Britaniya siyasi düşüncəsi, Uilyam Ceym və Con Dyuinin intellektual problemlərə Amerika yanaşması üçün olduğu kimi tipikdir? Bəs inkar oluna bilərmi ki, bu fəlsəfi fərqliliklər yalnız düşüncə və fəaliyyətin bütün səviyyələrində özünü göstərən və hər bir dövlətə öz düzgün səciyyəsini bəxş edən fundamental elmi və əxlaqi xüsusiyyətlərin ən yüksək səviyyədə mücərrədləşdirilməsi və sistemləşdirilməsinin ifadəsidir? Dekartın fəlsəfəsinin mexaniki rasionallığı və sistemli mükəmməlliyi Korney və Rasinin faciələrində özünü yakobin islahatının rasionalist hiddətində olduğundan az göstərmir. Onlar Fransanın müasir intellektual həyatının böyük bir kəsimi üçün xarakterik olan akademik formalizmin mənasızlığında üzə çıxırdı. Onlar iki dünya müharibəsi arasındakı dövrdə Fransa dövlətçiliyində üstünlük təşkil edən məntiqi cəhətdən mükəmməl, lakin işlək olmayan çoxsaylı sülh planlarında özünü göstərirdi. Digər tərəfdən, Yuli Sezarın qalliyalılarda aşkar etdiyi intellektual maraq xüsusiyyəti əsrlər boyu Fransa düşüncəsinin fərqləndirici xarakteri olaraq qalıb.

Lokkun fəlsəfəsi Böyük Azadlıq Xartiyası, lazımi hüquqi prosedur, yaxud protestant təriqətçiliyi kimi eynilə Britaniya individualizminin təzahürüdür. Edmund Börkdə onun əxlaq prinsipi və siyasi məqsədəuyğunluğu ehkamsız formada birləşdirməsiylə, XIX əsrdə İslahat aktları, yaxud kardinal Volseyin və Kanninqin qüvvələr tarazlığı siyasətlərində olduğu kimi Britaniya xalqının siyasi zəkası özünü göstərir. Tasit Kornelinin german tayfalarının dağıdıcı siyasi və hərbi meyilləri haqqında söylədikləri Fridrix Barbarossaya, eləcə də II Vilhelm və Hitlerə də aiddir. Bu həmçinin alman diplomatiyasının ənənəvi qabalığı və yersiz hiyləgərliyinə də aiddir. Alman fəlsəfəsinin avtoritarlığı, kollektivçiliyi və dövlətə pərəstişi avtokratik hökumət, istənilən hakimiyyətin o üstün olmaq üçün güc və iradəyə sahib kimi göründüyü müddətdə köləcəsinə qəbul olunması və bununla bərabər, vətəndaş cəsarətinin çatışmazlığı, fərdi hüquqlara etinasızlıq və siyasi azadlıq ənənəsinin olmamasında əks olunur. Tokvilin *"Amerikada demokratiya"* traktatında öz əksini tapan Amerika milli xarakterinin təsviri bir əsrdən çox müddətin keçməsinə baxmayaraq, öz aktuallığından məhrum olmayıb. Amerika praqmatizminin ehtimal olunan ehkamçı idealizm və həqiqət meyarı kimi uğura arxalanma arasındakı qərarsızlığı bir tərəfdə "dörd azadlıq" və "Atlantika xartiyası", digər tərəfdə isə "dollar diplomatiyası" arasında Amerika diplomatiyasının tərəddüdlərində əks olunur.

[1] *German Philosophy and Politics* (NewYork: G.P.Putnam's Sons, 1942), hər yerdə

Rus milli xarakteri

Rusiyaya gəlincə, aralarında, demək olar ki, bir əsrlik fərq olan iki təcrübənin qarşılaşdırılması müəyyən elmi və əxlaqi keyfiyyətlərin davamlılığının diqqətəlayiq isbatını təmin edəcək.

Bismark öz xatirələrində yazırdı:

"1859-cu ildə Sankt-Peterburqa ilk səfərim zamanı mən rus məxsusiyyətinin digər bir nümunəsi ilə qarşılaşdım. Yazın ilk günlərində o zaman sarayla əlaqəli olan hər kəs üçün Pavelin sarayı ilə Neva çayı arasında yerləşən Yay bağında gəzmək bir adət idi. Orada imperator otluğun ortasında dayanmış bir keşikçi görmüşdü; orada niyə durduğu haqqında suala əsgər yalnız belə cavab verə bilmişdi: "Mənə belə əmr olunub". İmperator ona görə adyutantlarından birini məsələni araşdırmaq üçün keşikçi otağına göndərdi; lakin keşikçinin yay-qış orada durmalı olduğundan başqa, heç bir açıqlama gəlmədi. İlkin əmrin mənbəyi qəti olaraq aşkar edilə bilmədi. Məsələ haqqında sarayda danışıldı və söhbət xidmətçilərin qulağına çatdı. Onlardan biri, yaşlı bir təqaüdçü irəli keçib dedi ki, bir vaxtlar atası ilə Yay bağındakı keşikçinin yanından keçəndə atası ona demişdi: "İmperatriçə Yekaterina keşikçinin hələ də durub gülü qoruduğu yerdə bir dəfə adətən olduğundan erkən açan novruzgülü görür və əmr verir ki, onu dərməsinlər". Bu əmr həmin yerdə bir keşikçinin yerləşdirilməsi ilə yerinə yetirilir və həmin vaxtdan bütün il ərzində orada bir nəfər durur. Bu növ tarixçələr bizim nəşəmizi və tənqidimizi coşdurur, lakin bunlar rus təbiətinin qüdrətinin Avropanın qalan hissəsinə münasibətində asılı olduğu elementar gücün və əzmkarlığın ifadəsidir. Bu bizə 1825-ci ildə Sankt-Peterburqda və 1877-ci ildə Şipka aşırımında daşqınlardakı keşikçiləri xatırladır; onlar xidmətdən azad edilməmiş və vəzifə başında birincisi boğulmuş, ikincisi isə donub ölmüşdü".[1]

"Time" jurnalının 21 aprel 1947-ci il nömrəsində belə bir məqalə var:

"Potsdamın palçıqlı Berlinerstrasse küçəsi boyunca əldən düşmüş 12 nəfər ayaqları bir-birinə dolaşa-dolaşa irəliləyirdi... Onların üzündə məhbusların solğun və büzüşmüş görünüşü var idi. Onların arxasında kötüyəbənzər, enlisifət bir rus əsgəri yorğun-yorğun addımlayırdı, onun sağ əlində Tompson avtomatı, mavi gözlərində Ukraynanın geniş çölləri var idi.

Ştatban stansiyasına yaxınlaşarkən dəstə işdən evə tələsən kişilərin və qadınların axını ilə qarşılaşdı.

[1] *Bismarck, the Man and Statesman, Being the Reflections and Reminisecnces of Otto, Prince von Bismarck*, translated under the supervision of A.J.Butler (New York and London: Harper and Brothers 1899), Vol.I, səh. 250.

Bir arıq, ortayaşlı qadının gözü birdən həmin 12 nəfərə sataşdı. O, dayandı və gözlərini geniş açıb tam bir dəqiqə onlara zilləndi. Sonra o, nimdaş bazar çantasını yerə tulladı, ağır-ağır gedən ağac kömürü yandıran yük maşınının qabağından tələsik küçənin o tərəfinə keçdi və boğula-boğula ağlayaraq özünü üçüncü məhbusun üstünə atdı. Məhbuslar və yoldan keçənlər ayaq saxladılar və dinmədən təəccüblə bu bir-birinin cod paltosunun arxasını barmaqları ilə sürtən və isterik şəkildə danışan bu iki rodines fiqura baxdılar: *"Wohin?"* "... *weissnicht*". *"Warum?"* "... *weissnicht*". ("Hara?" "... bilmirəm". "Niyə?" "...bilmirəm" – red.).

Rus yavaş-yavaş dustaqlarının ətrafında gəzişdi və həmin iki nəfərə yaxınlaşdı. Yavaş-yavaş onun üzünü istehzalı bir təbəssüm bürüdü. O, əli ilə arxadan qadına toxundu. O titrəməyə başladı. Seyrçilərin üzünə dəhşətli qorxu yayıldı, lakin rus ovundurucu şəkildə gurultulu səslə dedi: *"Keine Angst. Keine Angst"*. ("Qorxmayın. Qorxmayın".) Sonra o, Tompson avtomatının lüləsini qeyri-iradi olaraq bir addım geri atmış məhbusa doğru yellədə-yellədə soruşdu: *"Dein Mann?"* ("Ərindir?")

"Ja" ("Bəli"), – göz yaşları yanaqlarından aşağı axan qadın cavab verdi.

"Gu-ut ("Lap yaxşı"), – rus burnunu qırışdıraraq donquldandı, – *Nimmmit"* ("Götür") və o karıxıb qalmış məhbusu yumşaq şəkildə səkiyə doğru itələdi.

Cütlük sərsəmləşmiş şəkildə əl-ələ oradan uzaqlaşanda tamaşaçılar dərindən bir nəfəs alıb yüngülləşdilər. 11 məhbus dodaqaltı bir-biriylə danışa-danışa küçə ilə aşağı irəlilədi və dodaqaltı bir-biriylə danışan camaatın yanından keçdilər: "Bu məchul ruslar... İnanılmazdır... Mən başa düşə bilmirəm... Mən rusları başa düşmürəm".

Rus ayaqlarını bir-birinə sürtə-sürtə üzünün ifadəsini dəyişmədən, sarı ləkəli dişlərinin arasında uzun papirosu bərk-bərk sıxaraq, cibində kibrit axtara-axtara irəlilədi. O, Tompson avtomatını qoltuğunun altında sıxdı, şinelinin enli, nimdaş qolundan çirkli bir kağız parçası çıxartdı və qəzəblə ona baxdı. Bir neçə addımdan sonra o, səliqə ilə kağızı əvvəlki yerinə soxdu, bir anlığa gözlərini məhbusların bükülmüş bellərinə zillədi, sonra stansiyanı yenicə tərk edən, evlə iş arasında gedib-gələn insanların yeni qrupu arasında gərgin sifətlər axtardı.

Rus heç bir hay-küy salmadan qoltuğunda portfel olan, çirkli qəhvəyi keçə şlyapasını qulaqlarının üstünə keçirmiş gənc bir kişiyə doğru addımladı və əmr etdi: *"Eeh, dul Komm!"* ("Ey, sən gəl!") Alman çiyninin üstündən görməməyə və eşitməməyə çalışan qorxmuş kişi və qadın axınına dəhşətə gəlmiş bir nəzər salaraq yerində dondu. Rus Tompson avtomatını yellədi və dodağını büzdü. *"Komm!"* ("Gəl!") O, heykəl kimi donmuş yeni dustağını kobud şəkildə sıraya itələdi.

Məhbusların sayı yenə 12 idi. Rusun simasına məmnunluq yayıldı, üz ifadəsi yumşaldı. Çəkdiyi üçüncü kibritlə o, papirosunu yandırdı və tüstünü aramla düşməkdə olan alaqaranlıqda evə tələsən gərgin almanlara doğru üfürdü".[1]

Bu iki epizod arasında böyük bir inqilab baş verdi və xalqın həyatının faktiki olaraq bütün səviyyələrində tarixi davamlılığı pozdu. Bununla belə, rus milli xarakteri üçün səciyyəvi olan xüsusiyyətlər inqilabın qırğınından toxunulmaz çıxdı. Hətta sosial və iqtisadi strukturda, siyasi liderlikdə və təsisatlarda, həyat tərzində və düşüncədə belə əsaslı dəyişiklik, rus xarakterinin Bismarkın öz təcrübəsiylə aşkar etdiyi və eləcə də Potsdamdakı rus əsgərində özünü göstərən "elementar güc və əzmkarlığ"a təsir edə bilmədi.

Milli xarakterin eyni davamlılığını təsvir etmək üçün bir Amerika diplomatının Dövlət Departamentinə göndərdiyi diplomatik məlumatlardan aşağıdakı çıxarışı nəzərdən keçirək:

"Keçən il ərzində məlum oldu ki, Rusiyanın əcnəbilərə və onların imperiyaya daxil olmasına yönəlmiş siyasəti günü-gündən ciddiləşir.

Mən keçən yay viza ala bilməyən bir neçə amerikalıdan bu haqda eşitmişəm... Bu, əsasən, siyasi mülahizələrdən və ictimai düşüncəyə xarici təzyiqlərin olması qorxusundan irəli gəlir. Buna onu da əlavə etmək olar ki, Rusiyada güclü anti-əcnəbi partiyası var və onun siyasəti yalnız müvəqqəti ticarətdən başqa digər məqsədlərlə bura gələn bütün əcnəbiləri ölkədən qova bilər...

Burada nazir vəzifəsi xoşagələn olmaqdan çox uzaqdır. Belə bir fikir üstünlük təşkil edir ki, poçt idarəsində işləmək ən azı ictimai təbiətlidir, heç bir kommunikasiya təhlükəsiz deyil və bir qayda olaraq, təftiş edilir... Belə bir fikir də üstünlük təşkil edir ki, nazirlər daim casusluq sisteminin hədəfidirlər, hətta onların xidmətçiləri onların evlərində baş verənləri, söhbətlərini, əlaqələrini və s. açıb deməyə məcbur edilirlər.

Məxfilik və müəmmalılıq hər şeyi xarakterizə edir. Bilinməyə dəyər heç nə ictimailəşmir.

Ruslar arasında belə qəribə bir mövhumat var ki, onlar dünyanı fəth etmək üçün yaradılıblar. Hərbçilərə müraciətlər bu alın yazısı ideyasına əsaslanırdı və onun şanlı mükafatı nadir hallarda boşa çıxır. Belə bir duyğuya rus əsgərini ən böyük yoxsulluq illərində fərqləndirən diqqətəlayiq səbir və dözümlülük şamil olunur.

Bura ilk dəfə gələn amerikalı üçün polisin ciddiliyindən daha heyrətləndirici heç nə yoxdur".

[1] *Time*, April 21, 1947, səh. 32 (*"Time"* jurnalının icazəsi ilə istifadə olunmuşdur. Copyright Time, Inc. 1947)

Bu təəssüratlar, gözlənildiyi kimi, son illərin Amerika səfirləri Kenan, Bolen, yaxud Tompson tərəfindən deyil, 1851-1852-ci illərdə ABŞ-ın Rusiyadakı naziri Neil S.Braun tərəfindən toplanıb.

Milli xarakter və dövlətin gücü

Milli xarakter dövlətin gücünə təsir göstərməkdə uğursuz ola bilməz. Çünki sülh və müharibə dövründə xalq üçün çalışanlar; onun siyasətinin formasını müəyyən edən, onu həyata keçirən və dəstəkləyənlər; seçən və seçilənlər; qəlibləşmiş ictimai fikir; istehsal və istehlak – hamısı az və ya çox dərəcədə milli xarakteri təşkil edən intellektual və əxlaqi keyfiyyətlərin əlamətini daşıyır. Rusların "elementar gücü və əzmkarlığı", amerikalıların fərdi təşəbbüsü və ixtiraçılığı, britaniyalıların ehkamsız sağlam düşüncəsi və almanların intizamı və dəqiqliyi yaxşı və ya pis formada xalqın nümayəndələrinin iştirak edə bildiyi bütün fərdi və kollektiv fəaliyyətlərdə özünü göstərə biləcək keyfiyyətlərin bəzilərıdir. Milli xarakterdəki fərqliliklərin nəticəsi olaraq, məsələn, Almaniya və Rusiya hökumətləri Amerika və Britaniya hökumətlərinin yürüdə bilmək iqtidarında ola bilməyəcəkləri xarici siyasətlərə əl ata bilib, yaxud da əksinə. Antimilitarizm və daimi orduya və icbari hərbi xidmətə ikrah Amerika və Britaniya milli xarakteri üçün səciyyəvi olan daimi xüsusiyyətlərdir. Lakin həmin institutlar və fəaliyyətlər əsrlər boyu Prussiyanın dəyərlər iyerarxiyasının ən başında yer alıb və onların nüfuzu buradan bütün Almaniyaya yayılıb. Rusiyada hökumətin hakimiyyətinə ənənəvi itaətkarlıq və əcnəbidən ənənəvi qorxu böyük, daimi hərbi təsisatları əhali üçün məqbul edib.

Bununla milli xarakter Almaniya və Rusiyaya onların güc uğrunda mübarizəsində ilkin üstünlük verib, çünki onlar dinc dövrdə milli ehtiyatlarının daha böyük hissəsini müharibə alətinə çevirə bilirdilər. Digər tərəfdən, Amerika və Britaniya xalqlarının xüsusilə geniş həcmdə və insan qüvvəsinə münasibətdə aşkar olan milli fövqəladə hal istisna olmaqla belə bir çevrilişi nəzərdən keçirməyə meyilsizliyi Amerika və Britaniya xarici siyasətləri üçün ciddi maneə yaratmışdır. Militarist dövlətlərin hökumətləri müharibə üsulunu seçdikləri an onu planlaşdıra, ona hazırlaşa və onu apara bilir. Onlar xüsusilə motivləri üçün ən çox münasib üsul hesab olunduğu istənilən anda preventiv müharibə başlada bilirlər. Pasifist dövlətlərin hökumətləri isə, onların ən tanınmış nümunəsi İkinci Dünya müharibəsinin sonunadək ABŞ-dır, bu baxımdan daha mürəkkəb vəziyyətdədir və daha az hərəkət azadlığına malikdir. Onlar xalqlarının içdən gələn antimilitarizmi ilə qarşılaşaraq, xarici əlaqələrdə daha ehtiyatlı kurs yürütməlidirlər. Çox vaxt, əslində, onların ixtiyarında olan hərbi güc milli marağın onların üzərinə qoyduğu siyasi öhdəliklərə uyğun olmur. Başqa sözlə, onlar siyasətə arxa çıxmaq üçün kifayət qədər silahlı gücə sahib

olmurlar. Müharibəyə gedəndə onlar bunu mümkündür ki, düşmənlərinin şərtləri altında etsinlər. Keçmişdə onlar milli xarakterin digər səciyyəvi xüsusiyyətlərinə və coğrafi yerləşmə və sənaye potensialı kimi digər tarazlayıcı amillərə arxalanmalı və ilkin zəiflik və gerilik dövründə onları sonda qələbəyə daşımalı idilər. Xalqın xarakterinin yaxşı, yaxud pis effektləri belə ola bilər.

Müxtəlif dövlətlərin nisbi gücünü qiymətləndirməyə cəhd göstərən beynəlxalq arenanın araşdırmaçısı belə dəyişkən və hiss edilməyən bir amili düzgün qiymətləndirmək nə qədər çətin ola bilsə də, milli xarakteri nəzərə almalıdır. Bu halda uğursuzluq dəyərləndirmə və siyasətdə yanlışlıqlara gətirib çıxaracaq, necə ki, Birinci Dünya müharibəsindən sonra Almaniyanın bərpaedici qüvvələrinin aşağı qiymətləndirilməsi və 1941-1942-ci illərdə Rusiyanın dözümlülüyünün düzgün qiymətləndirilməməsi belə etdi. Versal müqaviləsi Almaniyanı gücün bütün digər vasitələrini: ərazi, xammal mənbələri, sənaye sahələrinin istehsal imkanları və hərbi təsisatları məhdudlaşdıra bildi. Lakin o, Almaniyanı bütün intellekt və xarakter keyfiyyətlərindən məhrum edə bilmədi və bu ona iki onillikdən ibarət bir müddətdə itirdiklərini bərpa etməyə və dünyada yeganə ən güclü hərbi dövlət kimi peyda olmağa imkan verdi. Rusiya ordusunun yalnız bir neçə ay müqavimət göstərə biləcəyi haqqında hərbi ekspertlərin 1942-ci ildə irəli sürdüyü mahiyyətcə yekdil fikir sırf hərbi nöqteyi-nəzərdən, məsələn, hərbi strategiya, manevrlilik, sənaye ehtiyatları və bu kimi digər amillərə əsasən düzgün ola bilərdi.

Lakin bu mütəxəssis rəyi "elementar güc və əzmkarlıq" amilinin dəyərini azaltmaqla açıq-aşkar səhvə yol vermişdi, daha düzgün dəyərləndirmə isə bu amili Rusiyanın Avropa ilə münasibətlərində qüdrətinin böyük mənbəyi kimi qəbul etmişdi. 1940-cı ildə Britaniyanın sağ qalma şansını inkar edən pessimizm də öz kökünü Britaniya xalqının milli xarakterinə eyni şəkildə etinasızlıqdan və onun düzgün şərh edilməməsindən götürür.

Biz artıq kontekstdən Almaniya liderlərinin İkinci Dünya müharibəsindən əvvəl Amerikanın gücünə rişxənd bəsləməsini xatırlatmışdıq.[1] Onu qeyd etmək maraqlıdır ki, eynən həmin səhvə, elə həmin səbəbdən Almaniya liderləri tərəfindən Birinci Dünya müharibəsi zamanı da yol verilmişdi. Belə ki, 1916-cı ilin oktyabrında alman hərbi donanmasının katibi ABŞ-ın müttəfiqlərə qoşulmasının əhəmiyyətini "sıfır"a bərabər qiymətləndirirdi və həmin dövrün digər bir alman naziri ABŞ müttəfiqlər tərəfindən real olaraq müharibəyə qoşulandan sonra parlamentdə çıxışında bəyan etmişdi: "Amerikalılar üzə bilmirlər, amerikalılar uça bilmirlər, amerikalılar heç vaxt gəlməyəcəklər". Hər iki halda Almaniya liderləri diqqəti yalnız verilmiş dövrdə hərbi təsisatın keyfiyyətinə, amerikan xarakterinin antimilitarizminə və coğrafi

[1] Bax: səh. 147.

məsafə amilinə yönəldərək Amerikanın gücünü olduğundan az dəyərləndirmişdirlər. Onlar amerikan xarakterinin keyfiyyətlərinə, məsələn, fərdi təşəbbüs, improvizasiya qabiliyyəti və texniki bacarıqlara tamamilə etinasız yanaşmışdılar, lakin onlar digər maddi amillə birlikdə və əlverişli şərtlər altında coğrafi uzaqlıq və dağılmış hərbi təsisat kimi çatışmazlıqlara üstün gələ bilərdilər.

Digər tərəfdən, əksər ekspertlərin ən azından 1943-cü il Stalinqrad döyüşünə qədər Almaniyanın məğlubedilməzliyinə inamı öz gücünü maddi amillərdən, eləcə də alman xarakterinin yekun qələbənin xeyrinə olduğu görünən müəyyən aspektlərindən alırdı. Həmin ekspertlər alman xalqının milli xarakterinin digər tərəflərini, xüsusilə təmkinsizliyini nəzərə almırdılar. Orta əsrlərin imperatorları və Otuzillik müharibənin knyazlarından başlamış II Vilhelmə və Hitlerə qədər belə təmkinsizliyin alman milli xarakterinin yeganə dəfedilməz zəifliyi olduğu təsdiqlənib. Məqsəd və fəaliyyətlərini imkanların hüdudları daxilində məhdudlaşdıra bilməyən almanlar vaxt qazanırlar və Almaniyanın digər maddi və insan amilləri üzərində yenidən qurulan gücünü israf etdilər və sonda məhv etdilər.

MİLLİ ƏHVALİ-RUHİYYƏ

Daha çox sürüşkən və daha az sabit, lakin dövlətin gücü üzərində təsirinə görə bütün digər amillərdən az əhəmiyyətli olmayan bizim milli əhvali-ruhiyyə adlandırmağı təklif etdiyimiz ünsürdür. Milli əhvali-ruhiyyə bir xalqın hökumətinin sülh və müharibə dövründə xarici siyasətini dəstəkləməsinin qətiyyətlilik dərəcəsidir. O, dövlətin bütün fəaliyyət sahələrini, onun kənd təsərrüfatı və sənaye istehsalını, eləcə də hərbi təsisatı və diplomatik xidmətini ehtiva edir. O, ictimai fikir formasında hissolunmaz elə bir amildir ki, bu amil olmadan demokratik və avtokratik olmasından asılı olmayaraq, heç bir hökumət öz siyasətini, ümumiyyətlə, həyata keçirə bilərsə belə, tam səmərəlilik şəraitində həyata keçirə bilməz. Onun varlığı və ya yoxluğu və onun xüsusiyyətləri xüsusilə milli böhran zamanlarında, ya xalqın mövcudluğu təhlükə altında olduqda, yaxud da xalqın varlığının asılı ola biləcəyi çox vacib əhəmiyyətli qərar qəbul edilməli olduqda özünü göstərir.

Onun qeyri-sabitliyi

Milli xarakterin müəyyən səciyyəvi xüsusiyyətləri tarixin müəyyən bir anında xalqın milli əhvali-ruhiyyəsində özünü asanlıqla büruzə verə bildiyi halda, məsələn, britaniyalıların sağlam düşüncəsi, fransızların fərdiyyətçiliyi, yaxud rusların inadkarlığı formasında, xalqın xarakterinə əsasən onun müəyyən gözlənilməz

vəziyyətdə hansı əhvali-ruhiyyədə olacağı haqqında heç bir nəticəyə gəlmək olmaz. Görünür ki, Amerika xalqının milli xarakteri XX əsrin şərtləri altında müəyyən mənada ABŞ-ı birinci dərəcəli dövlət rolunu oynamaq üçün hazırlamışdır. Lakin heç kəs hər hansı əminliklə Amerika xalqının İkinci Dünya müharibəsinin müəyyən mərhələlərində Avropa və Asiyanın müxtəlif müharibə aparan dövlətlərində olduğu kimi çətinliklər və parçalanma şəraitinə düşən zaman hansı milli əhvali-ruhiyyəyə sahib olacağını əvvəlcədən deyə bilməz. Heç Britaniya xalqının da İkinci Dünya müharibəsinin təcrübəsinin yenidən təkrarlanmasına reaksiyasını əvvəlcədən müəyyən etməyin bir yolu yoxdur. Onlar bir dəfə "bombardman"a və V silahlarına qarşı dözümlülük nümayiş etdirə biliblər. Onlar ikinci dəfə bunu edə bilərlər? Bəs nüvə silahlarına necə? Oxşar suallar bütün dövlətlər haqqında verilə bilər və onlara heç bir rasional cavab gözlənilmir.

Xüsusilə Amerikanın milli əhvali-ruhiyyəsi son illər ölkə daxilində və xaricində mülahizələrin hədəfi olmuşdur, çünki Amerikanın xarici siyasəti və bununla da Amerikanın gücünün beynəlxalq münasibətlərdə çəkisi özünəməxsus dərəcədə Amerikanın ictimai fikrinin ovqatından, onun özünü Konqresə seçkilərdə, seçkilərin nəticələrində, səslərin toplanmasında və buna oxşar digər formalarda necə ifadə etməsindən asılıdır. ABŞ BMT-yə qoşulur və narazılıqlara baxmayaraq orada qalar? Konqres Avropaya iqtisadi və hərbi yardım proqramını dəstəkləyər və o nə vaxta qədər dünyada xarici yardıma milyardların xərclənməsinə səs verəcək? Amerika xalqı Cənubi Koreyanı dəstəkləməkdə nə qədər uzağa getmək fikrindədir və onlar bunu hansı şərtlər altında edəcəklər? Onlar Sovet İttifaqı ilə bağlı olan öhdəliklərin, təhlükələrin və məyusluqların öhdəsindən səylərini azaltmadan, yaxud cəsarətli addımlarla buna son qoymağa çalışmadan qeyri-müəyyən bir tərzdə gəlmək istəyəcəklərmi? Bu suallara cavabların asılı olduğu əsas amil həlledici məqamda milli əhvali-ruhiyyənin vəziyyəti olub və indi də belədir.

İstənilən xalqın milli əhvali-ruhiyyəsi müəyyən bir nöqtədə, aydındır ki, qırılacaq. Qırılma nöqtəsi müxtəlif xalqlar üçün müxtəlif şərtlər altında müxtəlifdir. Bəzi xalqlar qırılma nöqtəsinə müharibədə böyükmiqyaslı və lazımsız itkilərlə yaxınlaşır, məsələn, 1917-ci ildə Şampanda Nevil hücumundan sonra fransızlar kimi. Bir böyük məğlubiyyət digərlərinin milli əhvali-ruhiyyəsini sarsıtmaq üçün kifayət edər, məsələn, italyanların 1917-ci ildə 3 yüz min əsgərinin əsir düşməsi və həmin sayda əsgərin fərari olması bahasına Kaporettoda məruz qaldığı məğlubiyyət kimi. Digərlərinin əhvali- ruhiyyəsi, məsələn, 1917-ci ildə Rusiyada olduğu kimi müharibədə böyükmiqyaslı insan və ərazi itkisi və avtokratik hökumətin bacarıqsızlığının qarışığının təsiri altında pozular. Digərlərinin əhvali-ruhiyyəsi yalnız yavaş-yavaş aşağı düşür və sanki kənarlardan korlanır – hətta hökumətin bacarıqsızlığı, dağılma, qəsbkarlıq və ümidsiz hərbi vəziyyətin nadir birləşməsi ilə baş verən fəlakətə məruz

qalmış olsa belə, qəfil yıxılma ilə sınmır. Almanların İkinci Dünya müharibəsinin sonuncu mərhələsində vəziyyəti belə idi – hərbi liderlər və sabiq yüksək rəsmilər ümidsiz olan vəziyyətdən imtina etdikləri halda, xalq kütləri faktiki olaraq Hitlerin özünə qəsd etdiyi ana qədər döyüşə davam etdi. Almanların əhvali-ruhiyyəsinin 1945-ci ildə ən əlverişsiz şəraitdə sarsılmazlığı belə kollektiv reaksiyanın gözlənilməzliyini təsirli şəkildə təsvir edir. Bundan daha az ağır şəraitdə Almaniyanın milli əhvali-ruhiyyəsi 1918-ci ilin noyabrında tamamilə ruhdan düşdü və bu nümunə nə vaxtsa 1944-cü ilin yayında, Fransa müttəfiqlər tərəfindən tutulandan sonra almanların əhvali-ruhiyyəsinin eyni ruh düşkünlüyünü yaşayacağını qabaqcadan xəbər verməli idi. Tolstoy *"Hərb və sülh"* əsərində əhvali-ruhiyyənin hərbi uğur üçün ayrılıqda əhəmiyyətinin aydın analizini verir:

"Bu ziddiyyət oradan əmələ gəlir ki, hərb elmi qoşunların qüvvəsini onlardakı adamın sayı ilə təyin edir. Hərb elmi deyir ki, qoşun nə qədər çox olsa, qüvvə də bir o qədər çox olar. *Les gros bataillons ont toujours raison.* (Böyük hərbi qüvvələr həmişə qalib gəlir).

Hərb elmi də hərəkət edən cisimləri öz kütlələrinə münasibətdə öyrənən mexanika kimi deyə bilər ki, cisimlərin kütləri bir-birinə bərabər olub-olmadığı üçün onların qüvvələri də bir-birinə bərabər və ya qeyri-bərabərdir.

Qüvvə (hərəkətin kəmiyyəti) kütlənin sürətə vurma hasilidir. Hərbi işdə qoşunların qüvvəsi də kütlənin nəyə isə, başqa məchul bir *x*-ə vurma hasilidir.

Hərbi elm qoşun kütləsinin qüvvəyə müvafiq gəlməsinə, kiçik dəstələrin böyükləri məğlub etməsinə tarixdə saysız-hesabsız misallar tapdığı üçün dumanlı bir şəkildə bu məchul vuranın varlığını təsdiq edir, lakin bunu gah həndəsi quruluşda, gah silahlanmada, gah adi bir şeydə – sərkərdələrin dahiliyində görür. Lakin vuranların bu şəkildə yerlərini dəyişmək tarixi faktlarla uyğun bir nəticəyə gətirib çıxarmır.

Halbuki biz qəhrəmanların xeyrinə olaraq qəbul edilmiş müharibə zamanı yüksək dairələrin həqiqətə düz gəlməyən əmrlərindən əl çəksək, bu məchul *x*-i axtarıb tapa bilərik.

Bu *x* qoşunun əhvali-ruhiyyəsidir, yəni qoşunu təşkil edən bütün adamların az və çox dərəcədə dalaşmaq istəyindən və özünü təhlükəyə salmaq arzusundan ibarətdir. Daha burada adamların dahilər komandası altındamı və ya qeyri-dahilər komandası altındamı döyüşməsinin, üç xətt üzrə və ya iki xətt üzrə döyüşməsinin, dəyənəkləmi və ya dəqiqədə 30 güllə atan tüfəngləmi vuruşmasının heç bir əhəmiyyəti yoxdur. Dalaşmağı həddindən artıq dərəcədə arzu edən adamlar dalaşma zamanı özlərini ən əlverişli bir vəziyyətə qoymağı da bacararlar. Qoşunun əhvali-ruhiyyəsi elə bir vurandır ki, kütləni ona vurduqda hasilində qüvvə əmələ gəlir. Elmin vəzifəsi məchul vuran olan bu qoşun əhvali-ruhiyyəsinin mənasını təyin və ifadə etməkdən ibarətdir.

Bu vəzifə isə o zaman mümkün olar ki, bütün məchul *x*-in mənası əvəzinə qüvvənin təzahür etdiyi şərtləri, məsələn, sərkərdələrin əmrlərini, silahlanmanı və başqalarını qoymayaraq və onları vuranın mənası kimi qəbul etməyərək, həmin bu məchulu bütün varlığı ilə qəbul edək, yəni döyüşməyi və özünü təhlükəyə salmağı çox və ya az dərəcədə arzu etmək kimi qəbul edək. Ancaq o zaman müəyyən tarixi faktları mübadilələrlə ifadə edərək, bu məchulun nisbi mənasını müqayisə yolu ilə məchulun özünün müəyyən olunmasına ümid etmək olar. On adam, on batalyon və ya on diviziya on beş adam, on beş batalyon və ya on beş diviziya ilə döyüşür, on beşə qalib gəlirlər, yəni hamısını öldürür və ya əsir alırlar, özləri də dörd nəfər itirirlər, deməli, bir tərəfdən dörd, o biri tərəfdən isə on beş nəfər məhv olur. Deməli, dörd on beşə bərabərdir və deməli, $4x=15y$. Deməli, $x:y=15:4$. Bu mübadilə məchulun mənasını vermir, lakin o, iki məchul arasındakı nisbəti göstərir. Tarixi cəhətdən müxtəlif vahidlərin (döyüşlərin, gedişatların, müharibə dövrlərinin) belə durumlara salınması nəticəsində rəqəm sıraları əmələ gələr ki, bu rəqəmlər qanunlar olmalıdır və qanunlar kəşf edilə bilər".[1]

Cəmiyyətin və hökumətin xarakteri həlledici amillər kimi

Milli əhvali-ruhiyyə son sınaqdan müharibə zamanı keçsə də, o, dövlətin gücünün beynəlxalq problem üzərində təsiri olduğu istənilən vaxt mühüm əhəmiyyət kəsb edir. O, qismən milli əhvali-ruhiyyənin hərbi güc üzərində təxmin edilən təsirlərinə, qismən də milli əhvali-ruhiyyənin hökumətin öz xarici siyasətini yürütdüyü qətiyyətə təsirlərinə görə əhəmiyyətlidir. Əhalinin özünü daimi olaraq hüquqlarından və dövlətin həyatında tam iştirakdan məhrum edilmiş hiss edən istənilən seqmenti daha aşağı milli əhvali-ruhiyyəyə sahib olmağa, belə məhrumiyyətlərdən əzab çəkməyənlərdən daha az "vətənpərvər" olmağa meyilli olacaq. Deyilənlər vacib təşəbbüsləri əksəriyyət, yaxud hökumət tərəfindən yürüdülən daimi siyasətdən fərqli olanlara də aiddir. Dərin ziddiyyətlərin xalqı parçaladığı istənilən zamanda xarici siyasət üçün toplana bilən ictimai dəstək həmişə etibarsız olar və əgər xarici siyasətin uğurunun və ya uğursuzluğunun daxili mübarizə məsələsinə birbaşa təsiri varsa, ictimai dəstək faktiki olaraq kiçik olar.

Xarici siyasətlərini formalaşdırarkən əhalinin arzularını nəzərə almayan avtokratik hökumətlər xarici siyasətləri üçün böyük ictimai dəstəyə arxalana bilməz. Çar Rusiyası və Avstriya monarxiyası kimi ölkələrdə vəziyyət belə olub. Avstriya nümunəsi xüsusilə ibrətamizdir. Bu ölkənin xarici siyasətinin çox hissəsi xüsusilə slavyan dövlətlərə münasibətdə Avstriya hakimiyyəti altında yaşayan slavyan xalqlarını

[1] Leo Tolstoy, *War and Peace*, Part XIV, Chapter II. Tərc: Məmməd Arif.

daha yaxşı nəzarət altında saxlaya bilmək üçün onları zəiflətməyi qarşıya məqsəd qoymuşdu. Nəticədə bu slavyan xalqları, ən yaxşı halda, öz hökumətlərinin xarici siyasətinə biganəliyə, ən pis halda isə, slavyan hökumətlərinin onların hökumətinə qarşı yönəlmiş siyasətini fəal şəkildə dəstəkləməyə meyil göstərirdi. Odur ki Birinci Dünya müharibəsi zamanı Avstriya-Macarıstan ordusunun bütün slavyan birləşmələrinin Rusiya tərəfinə keçməsi təəccüblü deyil. Hökumət digər belə birləşmələri yalnız slavyan olmayan düşmənlərə, məsələn, italyanlara qarşı istifadə etməyə cəsarət edirdi. Eyni səbəbdən Birinci Dünya müharibəsi zamanı alman ordusu Elzas birləşmələrini ruslara, polyak birləşmələrini isə fransızlara qarşı istifadə edirdi.

Sovet İttifaqı da İkinci Dünya müharibəsində, əsasən, ukraynalılardan və tatarlardan təşkil olunmuş böyük şəxsi heyətlə almanlar tərəfinə keçəndə oxşar əhvali-ruhiyyə düşüklüyünü yaşamışdı. Böyük Britaniya eyni təcrübəni Hindistan ilə yaşamışdı – onun milli qüvvələri İkinci Dünya müharibəsi zamanı Bos və onun tərəfdarları kimi əcnəbi hakimlərinin düşməninə kömək etməsə də, əcnəbi hakimin xarici siyasətini dəstəyi həvəssiz və qeyd-şərtlərlə göstərirdi. Napoleon və Hitler böyük təəssüf içində onu öyrənməli oldular ki, xarici istilanın qənimətləri arasında istilaçının siyasətinə ictimai dəstəyin olması mütləq deyil. Məsələn, Hitlerin istila olunmuş Avropa xalqları arasında sahib olduğu dəstəyin həcmi və gücü ayrıca bir xalqın milli əhvali-ruhiyyəsinin xarakteri ilə tərs mütənasib idi.

Dərin və keçilməz sinfi bölgünün mövcud olduğu ölkədə milli əhvali-ruhiyyə şübhəli vəziyyətdə olacaq. Fransanın gücü 30-cu illərdən etibarən bu zəiflikdən ziyan çəkir. Hitlerin hakimiyyətə gəlməsindən sonra tez-tez varisliklə bir-birini izləyən və acizliklərini qorumaq istəklərinin və bacarıqlarının olmadığı status-kvoya dair ideologiyaların arxasında gizlədən fransız hökumətlərinin qətiyyətsiz xarici siyasətləri bütünlükdə fransız xalqının milli əhvali-ruhiyyəsini artıq zəiflətmişdi. 1938-1939-cu illərin hər zaman yenilənən müharibə təhlükəsinin və onunla üz-üzə gəlmək üçün ümumi səfərbərliyin xarakterik olduğu, eləcə də Hitlerin uğurları, tərxisetmələri və get-gedə aktuallaşan etibarsız sülh şəraiti ilə müşayiət olunan böhranları fransızların əhvali-ruhiyyəsinin ümumi şəkildə pozulmasına güclü təsir etdi. Əhvali-ruhiyyənin pozulmasına hər yerdə rast gəlinsə də, onun real iflası yalnız Fransa cəmiyyətinin iki mühüm sektorunda idi. Bir tərəfdən onların gücünü məhdudlaşdıran sosial qanunvericilik ilə üz-üzə qalan Fransanın yüksək sinifləri "Blumdan [fransız sosialisti] Hitler [düşmən diktator] yaxşıdır!" çağırışında birləşdi. Baxmayaraq ki, Hitler Fransanın Avropadakı mövqeyini və onun bir dövlət kimi mövcudluğunun özünü təhlükə altına salmışdı, bu qruplar Fransanın Hitlerə qarşı xarici siyasətinə səmimi-qəlbdən dəstək vermək iqtidarında deyildi. Fransanın istilasından sonra onlar Hitlerin Fransaya hökmranlıq etməsinə onun əcnəbi diktatordan azad edilməsindən daha çox şərait yaradırdılar. Digər tərəfdən kommunistlər Hitler yalnız Qərbin kapitalistləri

ilə döyüşənə qədər müxtəlif səbəblərdən Fransanın milli əhvali-ruhiyyəsini korlayırdılar. Yalnız o, Sovet İttifaqına hücum edəndən sonra onlar işğalçıya qarşı ön cəbhədə döyüşməklə Fransa xalqının milli əhvali-ruhiyyəsinə yeni güc gətirdilər.

Xalqın əhvali-ruhiyyəsi xüsusilə böyük böhranlar zamanında nə qədər təxminedilməz olsa da, milli əhvali-ruhiyyənin yüksək ola biləcəyi aşkar vəziyyətlər, yaxud müəyyən müxtəlif şərtlər altında qəribəliklərin milli əhvali-ruhiyyənin aşağı səviyyəsinin xeyrinə olduğu hallar var. Ümumiyyətlə, demək olar ki, bir xalq öz hökumətinin fəaliyyətləri və məqsədləri ilə nə qədər çox yaxından ortaq olarsa, – xüsusilə, əlbəttə ki, xarici münasibətlərində – milli əhvali-ruhiyyənin yüksək olma şansları bir o qədər çox olar və əksinə. Odur ki bu yalnız müasir totalitar dövlət haqqında səhvən XVIII-XIX əsrin avtokratiyaları nöqteyi-nəzərindən düşünənləri təəccübləndirə bilər ki, nasist Almaniyasında milli əhvali-ruhiyyə son ana qədər yüksək olmuşdur. O, 1918-ci ilin noyabrında olduğu kimi qəfil dağılma ilə çökmədi, daha çox yavaş-yavaş iflas oldu. Rusiya xalqının böyük çoxluğu müharibə və sülh dövründə ən böyük çətinliklərə rəğmən davamlı olaraq yüksək əhvali-ruhiyyə səviyyəsi nümayiş etdirib.

Müasir totalitar dövlət hökumət və xalq arasındakı boşluğu, o boşluq ki, XVIII-XIX əsrlərin monarxiyaları üçün səciyyəvi olub, demokratik simvollardan istifadə, ictimai fikir üzərində totalitar nəzarət və mahiyyətcə, yaxud zahirən xalqın xeyrinə olan siyasətlər vasitəsilə doldura bilib. Faktiki olaraq xalqın bütün qüvvələri hökumətin seçdiyi kanallara axır və bizim müasir siyasətin xüsusiyyətlərindən biri kimi qəbul etdiyimiz fərdin dövlət ilə ortaqlığı[1] totalitarizmin şirniklərdirməsiylə dini coşqunluq səviyyəsinə çatır. Ona görə də totalitar hökumətlər uğurlu olduqca və ya belə göründükcə, yaxud ən azından uğura inamını saxladıqca öz xalqlarının onların yürütdüyü xarici siyasətə qətiyyətli dəstəyinə güvənə bilər.

Totalitarizmin güc, aldatma və dövləti ilahiləşdirmə ilə nail olduqlarına demokratiya ictimai güclərin müdrik və məsuliyyətli hökumət tərəfindən idarə olunan azad qarşılıqlı fəaliyyəti ilə yerinə yetirməyə çalışmalıdır. Hökumətin bu qarşılıqlı fəaliyyətin milli icmanı barışmaz qruplara parçalamağa meyil göstərərək, sinfi, irqi və dini münaqişələr forması almasının qarşısını ala bilmədiyi yerdə milli əhvali-ruhiyyə bütün əhali arasında olmasa da, ən azından təqib olunan qruplar arasında aşağı olar. Fransanın İkinci Dünya müharibəsindən əvvəl və müharibə zamanı siyasəti bu fikri izah edir. Eləcə də feodal aristokratiyanın və avtokratik diktatorların hökuməti idarə etdiyi və əhaliyə zülm etdiyi ölkələrdə sülh və müharibə dövründə xarici siyasət də bu fikrin reallıqda təsviridir. Belə dövlətlərin hökumətləri heç vaxt öz xarici siyasət məqsədlərini hətta müharibə təhlükəsiylə üz-üzə qaldıqda belə müəyyən qətiyyətlilik dərəcəsiylə seçə və yürüdə bilmir,

[1] Bax: səh. 167 və növbəti səhifələr

çünki ölkə əhalisi tərəfindən dəstəyə heç vaxt əmin ola bilmirlər. Onlar daima qorxurlar ki, daxili müxalifət çətinliklərdən və ziddiyyətlərdən beynəlxalq düzəndə rejimi devirmək üçün sui-istifadə edəcək. Lakin hökumətin ictimai iradənin səsgücləndiricisi kimi danışdığı və icraçısı kimi hərəkət etdiyi ölkələrdə milli əhvali-ruhiyyə də ictimai cəhdlər ilə hökumətin fəaliyyəti arasında real ortaqlığı əks etdirər. Danimarkanın 1940-cı ildən İkinci Dünya müharibəsinin sonunadək Almaniyanın işğalı altında milli əhvali-ruhiyyəsi bu fikri Almaniyanın Stalinqrad məğlubiyyətinə qədər milli əhvali-ruhiyyəsindən az izah etmir.

Bu halda sonuncu analizlərdən belə nəticə hasil olur ki, bir dövlətin gücü onun milli əhvali-ruhiyyəsi baxımından hökumətin xarakteri ilə bağlıdır. Yalnız parlament əksəriyyəti qavramında deyil, həmçinin hər şeydən öncə əhalinin anlaşılmayan inam və arzularını beynəlxalq məqsədlər və siyasətə çevirməyi bacarmaq mənasında həqiqi bir təmsilçi olan hökumət milli qüvvələri həmin məqsəd və siyasətləri dəstəkləməyə səfərbər etmək üçün ən yaxşı imkana sahibdir. Azad insanın quldan daha yaxşı döyüşməsi haqqında zərbi-məsəl belə bir fikrə də şamil oluna bilər ki, yaxşı idarə olunan xalqlar pis idarə olunan xalqlardan daha yüksək əhvali-ruhiyyəyə malik olar. Hökumətin xarakteri milli əhvali-ruhiyyənin asılı olduğu amillərin əksəriyyətinə münasibətdə, xüsusilə hökumətin təbii ehtiyatlar, sənaye istehsalı imkanları və hərbi hazırlıq üzərində malik olduğu təsir baxımından gücün və zəifliyin aşkar olan bir mənbəyidir. Hökumətin xarakteri milli əhvali-ruhiyyənin xarakteri üçün xüsusi əhəmiyyət kəsb edir. Baxmayaraq ki, o, dövlətin gücünün digər ünsürləri üzərində hamısı insan fəaliyyəti vasitəsilə az-çox idarə oluna bilən bir neçə təsir arasında biri kimi əməliyyat aparır, bu, milli əhvali-ruhiyyənin xarakterini izah edən qeyri-maddi amillər arasında yeganə maddi amildir. Milli əhvali-ruhiyyə olmadan dövlətin gücü maddi gücdən, yaxud reallaşmasını əbəs yerə gözləyən potensial bir imkandan başqa bir şey deyil. İstənilən halda milli əhvali-ruhiyyəni məqsədyönlü şəkildə yaxşılaşdırmağın yeganə vasitəsi hökumətin xarakterini yaxşılaşdırmaqdır. Bütün digərləri şans məsələsidir.

DİPLOMATİYANIN XARAKTERİ[1]

Dövlətin gücünü təşkil edən bütün amillərin nə qədər qeyri-stabil olsa da, ən əhəmiyyətlisi diplomatiyanın xarakteridir. Dövlətin gücünü təyin edən bütün digər

[1] Növbəti səhifələrdə istifadə olunan "diplomatiya" termini altında biz xarici siyasətin bütün səviyyələrdə, ən yüksək, eləcə də ikinci dərəcədə formalaşdırılması və icra edilməsini nəzərdə tuturuq. Burada müzakirə olunan mövzu üçün həmçinin bax: fəsil X.

amillər öz-özlüyündə dövlətin gücünü yaradan xammaldır. Dövlətin diplomatiyasının xarakteri həmin müxtəlif amilləri vahid bir bütövdə birləşdirir, onlara çəki və istiqamət verir və onlara əsl güc nəfəsi verərək, yatan imkanlarını oyadır. Dövlətin xarici fəaliyyətinin diplomatlar tərəfindən həyata keçirilməsi sülh dövründə dövlətin gücü üçün nədirsə, hərbi liderlər tərəfindən həyata keçirilən hərbi strategiya və taktika müharibə dövründə dövlətin gücü üçün odur. O, dövlətin gücünün müxtəlif elementlərini beynəlxalq vəziyyətdə milli marağa ən çox birbaşa aid olan məsələlərə maksimum dərəcədə təsir göstərmək üçün bir araya gətirir.

Belə demək olar ki, diplomatiya dövlətin gücünün beyni, milli əhvali-ruhiyyə isə ruhudur. Əgər onun təxəyyülü dumanlı, mühakiməsi qüsurlu və qətiyyəti zəifdirsə, coğrafi yerləşmə, ərzaq ilə özünü təmin edə bilmə, xammal, sənaye istehsalı, hərbi hazırlıq, əhalinin sayı və xarakteri kimi bütün üstünlüklərin son nəticədə xalq üçün faydası az olacaq. Bütün bu üstünlüklərlə öyünən, lakin ona uyğun diplomatiyaya sahib olmayan dövlət təbii imkanlarının mütləq çəkisi hesabına müvəqqəti uğura nail ola bilər. Uzun vədədə isə o, təbii imkanlarını natamam, karıxmış və səmərəsiz şəkildə hərəkətə keçirərək onları israf edər.

Belə bir dövlət uzun vədədə diplomatiyası ixtiyarında olan gücün digər ünsürlərindən tam ölçüdə istifadə etməyə hazır olan və bununla da əlində olan imkanlar hesabına digər sahələrdəki çatışmazlıqlarının yerini dolduran dövlətlə uzlaşmalıdır. Xalqın güc imkanlarından ən yüksək səmərə ilə istifadə etməklə səriştəli diplomatiya dövlətin gücünü digər bütün birləşdirilmiş amillər nəzərə alınmaqla gözləniləndən daha çox artıra bilər. Beyni və ruhu olmayan Qoliaf tarixdə çox vaxt hər ikisinə sahib olan Davud tərəfindən əzilmiş və öldürülmüşdür. Yüksək keyfiyyətlərə malik diplomatiya xarici siyasətin məqsədlərini və vasitələrini dövlətin gücünün mövcud imkanları ilə uzlaşdırır. O, dövlətin qüdrətinin gizli qalmış mənbələrinin üstünü açır və onları büsbütün və təhlükəsiz şəkildə siyasi reallıqlara çevirir. Milli səylərə istiqamət verməklə buna müvafiq şəkildə sənaye istehsalının imkanları, hərbi hazırlıq, milli xarakter və əhvali-ruhiyyə kimi müəyyən amillərin müstəqil çəkisini artırır. Bu səbəbdəndir ki, dövlətin gücü xüsusilə müharibə zamanı, siyasətin məqsədləri və vasitələri açıq-aşkar göz qabağında olarkən öz imkanlarını həyata keçirməklə öz gücünün zirvəsinə qalxmağı bacarır.

ABŞ iki dünya müharibəsi arasındakı dövrdə dünya işlərində kiçik rol oynayan potensial baxımdan güclü dövlətin bariz nümunəsini göstərdi, çünki onun xarici siyasəti beynəlxalq məsələlərə təsir etmək üçün öz potensial qüdrətinin tam gücünü ortaya qoymaqdan imtina etdi. ABŞ-ın beynəlxalq arenadakı gücündən bəhs edərkən onu demək olar ki, coğrafiya, təbii ehtiyatlar, sənaye istehsalı imkanları və əhalinin sayı və xarakteri kimi üstünlüklər heç mövcud olmaya da bilərdi, çünki Amerika diplomatiyası elə fəaliyyət göstərirdi ki, sanki onlar yoxdur.

Amerika xarici siyasətinin İkinci Dünya müharibəsinin sonundan başlayaraq məruz qaldığı transformasiya, görünürdü ki, Amerika diplomatiyasının gücünün imkanlarını siyasi həqiqətlərə çevirmək bacarığı və istəyinin olub-olmaması və nə dərəcədə olması sualına dəqiq cavab tapmışdı. Lakin həmin mərhələnin başlanğıcında Londonun *"Economist"* jurnalı çoxmənalı şəkildə "İmperializm, yoxsa biganəlik" başlığı qoyduğu məqalədə həmin cavaba hələ də şübhə edirdi. ABŞ-ı öz-özlüyündə dünyanın ən güclü dövləti edəcək amilləri sadaladıqdan sonra *"Economist"* belə davam edir:

"Lakin, baxmayaraq ki, bunlar vacib komponentlərdir, böyük dövlət yaratmaq üçün lazım olan hər şey deyil. İqtisadi resurslardan dövlətin siyasətini dəstəkləmək üçün istifadə etməyə həmçinin istək və bacarıq lazımdır. Sovet Rusiyasını idarə edənlərin əlində... yəqin ki, ən azından gələn nəsil üçün təxminən Amerikanınkı qədər yaxşı kartlar yoxdur. Lakin onların bir araya gətirilmiş güc sisteminin təbiəti və dəmir senzura onlara güc oyunu oynamağa imkan verir. Bütün yaxşı kartlar Amerikanın əlindədir; bəs onların hansısa nə vaxtsa oynanılacaq? Və hansı məqsədlə?"[1]

Bütün digər tərəflərdən ümidsizcəsinə çıxdaş edildiyi halda, başlıca olaraq öz parlaq diplomatiyasının kəraməti hesabına gücün zirvəsinə qayıdan ölkənin klassik nümunəsi 1890-1914-cü illərin Fransasıdır. 1870-ci ildə Almaniya tərəfindən məğlubiyyətə uğradılan Fransa ikinci dərəcəli dövlət idi və Bismarkın idarəçiliyi təcrid üsulu ilə onu bu mövqedə saxladı. 1890-cı ildə Bismarkın istefası ilə Almaniyanın xarici siyasəti Rusiyadan üz çevirdi və o həm də Böyük Britaniyanın şübhəsini aydınlatmaq fikrində deyildi. Fransa diplomatiyası Almaniya xarici siyasətinin bu səhvlərindən tam yararlandı. Fransa 1891-ci ildə Rusiya ilə razılığa gələrək, 1894-cü ildə siyasi qavrama hərbi ittifaq anlayışını əlavə etdi; 1904 və 1912-ci illərdə o, Böyük Britaniya ilə qeyri-rəsmi razılaşmalara daxil oldu. Fransaya iki güclü müttəfiqin yardım etməsi və Almaniyanın isə bir müttəfiq (İtaliya) tərəfindən tərk edilməsi və dörd zəif digər müttəfiqin (Avstriya-Macarıstan, Bolqarıstan, Türkiyə) boyunduruğa məruz qalması xarakterizə edilən 1914-cü ilin konfiqurasiyası başlıca olaraq parlaq fransız diplomatlarının qalaktikasının işi idi: İtaliyadakı səfir Kamile Barere, Almaniyadakı səfir Jül Kambon, Böyük Britaniyadakı səfir Paul Kambon və Rusiyadakı səfir Moris Paleoloq.

İki dünya müharibəsi arasındakı dövrdə Rumıniya beynəlxalq arenada öz həqiqi imkanlarını çox aşan rol oynaya bilmək bacarığına görə, əsasən, bir nəfərin – xarici işlər naziri Tituleskunun şəxsiyyətinə borcludur. Eynilə Belçika kimi

[1] *Economist*, May 24, 1947, səh. 785. (icazə ilə təkrar çap olunmuşdur)

kiçik və təhlükəli mövqedə yerləşmiş bir ölkə IX əsrdə reallaşdıra bildiyi gücün böyük hissəsinə görə iki məharətli və fəal krala: I Leopold və II Leopolda borcludur. XVII əsrdə İspaniya diplomatiyası və XIX əsrdə Türkiyə diplomatiyası gücün digər sahələrdə iflasını bir müddət tarazlaya bildi. Britaniyanın gücünün yüksəlişləri və enişləri Britaniya diplomatiyasının xarakteri ilə sıx bağlıdır. Kardinal Vulsi, Kasleri və Kanninq Britaniya diplomatiyasının, eləcə də Britaniyanın gücünün zirvələrini təşkil etdikləri halda, lord Nort və Nevil Çemberlen hər ikisinin iflasının simvoludur. Rişelye, Mazarin və Taleyranın dövlət idarəçiliyi bacarıqları olmasaydı, Fransanın gücünün vəziyyəti necə olardı? Bismarksız Almaniyanın gücünün vəziyyəti necə olardı? Bəs Kavursuz İtaliyanın gücü? Bəs gənc Amerika respublikasının gücü Franklin, Cefferson, Medison, Cey, Adamslar, səfirləri və dövlət katiblərinə necə minnətdar olmasın?

Dövlətlər güclərini təşkil edən müxtəlif amillər üçün katalizator kimi fəaliyyət göstərən diplomatiyanın keyfiyyətinə etibar etməlidir. Başqa sözlə, bu müxtəlif amillər diplomatiya tərəfindən beynəlxalq problemə təsir etmək üçün istifadə ediləndə dövlətin gücü adlanır. Ona görə də diplomatik xidmətin yüksək səviyyəsinin daim saxlanması son dərəcə böyük əhəmiyyət kəsb edir. Daimi keyfiyyət isə daha çox adətlərdən və institutlardan asılılıq ilə daha yaxşı təmin olunur, nəinki görkəmli şəxsiyyətlərin təsadüfi gəlişi ilə. Böyük Britaniyanın gücünün VIII Henrinin dövründən I Dünya müharibəsinədək nisbi sabitliyi adətlərə borcludur. Kralların və nazirlərin səbatsızlığı və nöqsanlarından asılı olmayaraq, onun idarəedici sinfinin və son zamanlar peşəkar xarici xidmətinin adətləri bir neçə diqqətəlayiq istisnanı nəzərə almasaq, Böyük Britaniyaya bəxş olunan güc imkanlarını böyük real güc formasına salmağı bacarmışdır. Təsadüfi deyil ki, Stenli Bolduin və Nevil Çemberlenin yürütdüyü diplomatiya hesabına Britaniyanın gücü əsrlər ərzində ən aşağı səviyyəyə enən zaman Xarici İşlər Nazirliyinin peşəkarları Britaniyanın xarici siyasətinin həyata keçirilməsi üzərində kiçik təsirə malik idilər və əsrlər boyu Britaniyanı idarə etmiş ailə ənənələri, iş adamları və aristokratiyaya yeni daxil olanlar baxımından onun üçün, əsasən, iki insan məsuliyyət daşıyırdı. Uinston Çörçillin zamanında da hakim ailənin varisi, zadəgan ənənələri Böyük Britaniyanın gücünə təsir edirdi. Bu gün Britaniya xarici xidmətinin təsisati mükəmməlliyi özünü Böyük Britaniyanın bütün dünyadakı öhdəliklərini gücünün azalmış resursları ilə uzlaşdırmaq bacarığında göstərir.

Digər tərəfdən, Almaniya öz gücünə görə iki nəfərin: Bismark və Hitlerin məkrli dühasına borcludur. Bismarkın şəxsiyyəti və siyasəti adətlərin və institutların Almaniyanın xarici siyasətini dərrakəli şəkildə həyata keçirmək üçün inkişafını qeyri-mümkün etdiyindən 1890-cı ildə onun siyasi səhnədən çəkilməsi

alman diplomatiyasının keyfiyyətində dərin və uzunmüddətli enişin siqnalı oldu. Bunun ardınca Almaniyanın beynəlxalq mövqeyinin laxlaması I Dünya müharibəsinin onu üz-üzə qoyduğu çətin hərbi vəziyyətlə öz kulminasiyasına çatdı. Hitlerin dövründə Almaniya diplomatiyasının gücü və zəifliyi fürerin özünün düşüncəsindən qaynaqlanır. Almaniya diplomatiyasının 1933-cü ildən 1940-cı ilə qədər qazandığı qələbələr bir insanın beyninin məhsulu idi və həmin beyinin pozulması nasist rejiminin son illərində məruz qaldığı fəlakətlərin birbaşa səbəbi idi. II Dünya müharibəsinin son aylarında hərbi müqavimət yüz minlərlə insanın həyatı və şəhərlərin viran qalması bahasına başa gələn mənasız hərəkətə çevriləndə Almaniyanın milli özünəqəsdi və Hitlerin müharibənin son mərhələsində intiharı – başqa sözlə, Almaniyanın gücünün özünü və öz liderinin həyatını məhv etməsi – hər ikisi bir adamın fəaliyyətinin nəticəsi idi. Həmin insan sağlam siyasi sistemlərin diplomatiyanın keyfiyyətində davamlılığı təmin etməyə çalışan və bununla mütəfəkkirlərin valehedici uğurlarına, eləcə də ağılsızların fəlakət gətirəcək kobud səhvlərinə mane olmağa xidmət edən həmin adətlərin və təsisati təminatların buxovundan çıxmışdı.

Xarici siyasətin həyata keçirilməsinin keyfiyyətinə gəlincə, ABŞ Britaniya diplomatiyasının davamlı yüksək keyfiyyətiylə Almaniya xarici siyasətinin qısamüddətli zəfərlərin yaşandığı ənənəvi aşağı keyfiyyəti arasında yer alır. İxtiyarında olan maddi və insan resurslarının danılmaz üstünlüyü ilə Qərb yarımkürəsində Amerika diplomatiyası xarici siyasətinin keyfiyyətindən asılı olmayaraq, müəyyən bir həddə qədər uğurlu olmaya bilməz. Eyni şey bir qədər az həddə ABŞ-ın dünyanın qalan ölkələri ilə əlaqələrinə də aiddir. ABŞ-ın maddi üstünlük formasında olan "böyük dəyənəyi" Amerika diplomatiyasının yumşaq, yaxud gur səslə, aydın, yaxud dolaşıq terminlərlə danışmasından və aydın düşünülmüş məqsədə sahib olub-olmamasından asılı olmayaraq, öz dilində danışır. Amerika diplomatiyasının ilk onilliklərinin parıltısı uzun müddət, tam cəfəngiyyat olmasa da, ortasəviyyəli fəaliyyət ilə müşayiət olundu və bu mərhələdə üç dəfə: Vudro Vilson, Franklin D.Ruzvelt və Henri Trumenın hakimiyyəti zamanlarında böyük böhranların təsiri altında qısamüddətli böyük nailiyyətlər qeydə alınıb. Amerika diplomatiyası Britaniyanın təsisati üstünlüyünə malik olmasa da, hətta zəif dövlət idarəçiliyinin çətinliklə israf edə biləcəyi maddi imkanlardan qaynaqlanan imtiyazlarına malikdir. Bundan əlavə, o, Vaşinqtonun vida nitqində və daha dəqiqi, Monro doktrinasında müəyyən edilmiş milli ənənəyə müraciət edə bilərdi. Bu ənənənin bələdçiliyi zəif diplomatiyanı fəlakətlə nəticələnəcək kobud səhvlərdən qoruyar və ortasəviyyəli diplomatiyanın əslində olduğundan daha yaxşı görsənməsinə kömək edər. Cavablandırılmamış sual budur ki, belə bir ənənə Amerika diplomatiyasını səlibçi ideoloji yanaşmadan qoruya bilərmi?

HÖKUMƏTİN XARAKTERİ

Ən yaxşı düşünülmüş və ən çox peşəkarcasına icra olunan, zəngin maddi və insan resurslarından qaynaqlanan xarici siyasət əgər yaxşı hökumətdən də qaynaqlanmırsa, boşa çıxmağa məhkumdur. Dövlətin gücünün sərbəst tələbi hesab olunan[1] yaxşı hökumət üç məfhumu nəzərdə tutur: bir tərəfdən dövlətin gücünü təşkil edən maddi və insan resursları arasında, digər tərəfdən onlarla yürüdülən xarici siyasət arasında tarazlıq; və yürüdülən xarici siyasətə ictimai dəstək.

Resurslar və siyasət arasında tarazlıq məsələsi

Bu halda yaxşı hökumət iki fərqli intellektual əməliyyatın həyata keçirilməsindən başlamalıdır. Birincisi, o, xarici siyasətin məqsədlərini və metodlarını seçməli və bu zaman maksimum uğur əldə etmək ehtimalı ilə onları dəstəkləmək üçün mövcud gücü nəzərə almalıdır. Gücünün verdiyi imkanlar çərçivəsində yürüdülə biləcək siyasətdən imtina edərək, öz baxışlarını çox aşağı müəyyən edən dövlət dövlətlər şurasında qanuni rolunu imtina etmiş olur; ABŞ müharibələrarası dövrdə belə bir yanlışlığa uğramışdı. Dövlət həmçinin öz baxışlarını çox yüksək müəyyən edə bilər və elə bir siyasət yürüdər ki, mövcud güc ilə onu müvəffəqiyyətlə icra etmək mümkün deyil; bu isə ABŞ-ın 1919-cu ildə sülh danışıqları zamanı yol verdiyi yanlışlıqdır. Lloyd Corcun dediyi kimi: "Amerikalılar yalnız 10 hökmün müdafiəsi və dağda moizə oxumaq məsuliyyətini öz üzərilərinə götürmək üçün peyda olmuşdular; lakin yardım və məsuliyyətə dair praktiki məsələlərə gələndə onlar bunu qəbul etməkdən qəti şəkildə imtina etdilər". Dövlət bunun üçün lazımi imkanlara sahib olmadan böyük dövlət rolu oynamağa çalışa və müharibələrarası dövrdə Polşa kimi fəlakətə düçar ola bilər. Yaxud o, böyük dövlət olaraq öz gücü qarşısında böyük tələblər qoyub məhdudiyyətsiz istila siyasəti başlada bilər; Isgəndərdən tutmuş Hitlerə qədər uğursuz dünya istilaları buna aiddir.

Beləliklə, dövlətin mövcud gücü xarici siyasətin hüdudlarını müəyyən edir. Bu qaydanın yalnız bir istisnası var və o, dövlətin mövcudluğu təhlükə altında olduğu zamandır. Bu halda dövlətin mövcudluğunu qoruyub saxlamaq siyasəti dövlətin gücünə dair rasional mülahizələri üstələyir və birincini önə çıxarır. O zaman dövlətdən bütün digər maraqlarını mövcudluğun qorunub saxlanmasına tabe etmək və rasional olaraq ondan gözlənilməyən səy göstərmək tələb olunur. Böyük Britaniya 1940-cı ilin payızı və 1941-ci ilin qışında belə etmişdi.

[1] Biz milli əhvali-ruhiyyənin tələbi kimi hökumətin keyfiyyəti haqqında artıq danışmışıq. Bax: səh. 206 və növbəti səhifələr

Resurslar arasında tarazlıq məsələsi

Xarici siyasətini əlində olan güc ilə tarazlaşdırmış olan hökumət dövlətin gücünün müxtəlif ünsürlərini bir-biriylə tarazlaşdırmalıdır. Dövlət təbii ehtiyatları çox zəngin olduğuna, çoxsaylı əhaliyə sahib olduğuna, yaxud nəhəng sənaye və hərbi təsisat qurmuş olduğuna görə onun gücünün maksimuma nail olması mütləq deyil. O bu maksimuma o zaman nail olur ki, onun ixtiyarında mövcud xarici siyasətin maksimum uğur şansı ilə yürüdülməsi üçün düzgün qarışıqlıqda kifayət qədər say və keyfiyyətdə güc ehtiyatları var. Böyük Britaniya gücünün zirvəsində olanda onun gücünün əksər ünsürləri, məsələn, təbii ehtiyatlar, əhalinin sayı və quru qoşunları əskik idi. Lakin dövlətin gücünün bir ünsürü – dəniz donanması hesabına inkaredilməz bir üstünlüyə çatmışdı, bu, Britaniya siyasətinin dənizarxası ekspansiyalarında mükəmməl bir aləti idi və eyni zamanda xaricdən Böyük Britaniya üçün həyati əhəmiyyətli xammal materiallarının və ərzaq ehtiyatının fasiləsiz axınını təmin edirdi. Bu siyasətin fonunda mövcud təbii ehtiyatlar, coğrafi mövqe, çoxsaylı əhali və daimi ordu Böyük Britaniya üçün bir alətdən daha çox maneə olardı. Digər tərəfdən, Böyük Britaniya Orta əsrlərin uzun bir dövründə etdiyi kimi qitə ekspansiyası siyasətini də davam etdirmiş olsaydı, onun bunların hər ikisinə də ehtiyacı olardı.

Çoxsaylı əhalinin mövcud ehtiyatlarla kifayət qədər qidalandırıla bilmədiyi halda gücdən daha çox zəiflik mənbəyi ola biləcəyini biz Hindistanın timsalında gördük.[1] Böyük sənaye və hərbi təsisatların totalitar üsullarla tələsik qurulması dövlətin gücünün müəyyən ünsürlərini yaradır, lakin elə həmin prosesin gedişində digərlərini, məsələn, milli əhvali-ruhiyyə və əhalinin fiziki dayanıqlığını dağıdır; Şərqi Avropanın sovet peyklərində baş verənlər bu qəbildəndir. Mövcud sənaye istehsalı imkanları tərəfindən təmin olunmaq üçün çox böyük olan, buna görə də sürətlə artan inflyasiya, iqtisadi böhran və əhvali-ruhiyyənin pozulması hesabına hərbi təsisat planlaşdırmaq dövlətin gücləndirilməsindən daha çox zəiflədilməsinin planlaşdırılmasıdır. Dövlət birbaşa mövcudluğunun təhlükə altına alınması ilə fövqəladə vəziyyətə düşdükdə, məsələn, Amerika hökuməti əhaliyə yağ əvəzinə silahlar təklif edə bilir və etməlidir; əgər o belə bir fövqəladə vəziyyəti əsaslandıra bilməsə, əhali istehlakı üçün iqtisadi məhsulun ədalətli bölgüsünü aparmaqla hərbi və əhali tələbləri arasındakı tarazlığı təhlükə altına almalıdır. Başqa bir hökumət isə, məsələn, Çin və Koreya hökumətləri əhalinin rifahına dair belə mülahizələri nəzərə almaya bilər. Başqa sözlə, hökumət dövlətin gücünün quruculuğu gedişində idarə etdiyi xalqın xarakterinə biganə qala bilməz. Bir xalq çətinliklərə qarşı üsyan edər, digər biri isə səbirlə onların üstündən keçər, bəzən də bir xalq maraqlarının və mövcudluğunun müdafiəsi üçün öz istəyiylə verdiyi qurbanlarla dünyanı da, özünü də təəccübləndirər.

[1] Bax: səh. 178, 179, 180.

İctimai dəstək məsələsi

Çağdaş hökumət xüsusilə demokratik idarəetmə subyekti olan, yuxarıda müzakirə etdiyimiz iki tarazlıq növünü təşkil etməklə üzərinə düşən vəzifələrin yalnız bir hissəsini həyata keçirir. Digər, bəlkə də, hamısından ən mürəkkəbi hələ qarşıdadır. O, xarici siyasətə və ona arxa durmaq üçün dövlətin gücünün ünsürlərini hərəkətə keçirmək istiqamətində aparılan daxili siyasətə dair xalqın razılığını təmin etməlidir. Bu, çətin bir vəzifədir, çünki xarici siyasət üçün ictimai dəstəyə nail olmağın şərtləri xarici siyasətin uğurla yürüdülə bilməsinin şərtləri ilə mütləq şəkildə eyni olmur. Tokvil xüsusilə ABŞ-a istinad edərək qeyd edirdi:

"Xarici siyasət demokratiyaya xas olan keyfiyyətlərin, demək olar ki, heç birini tələb etmir; əksinə, o, demokratiyaya aid olmayan bütün keyfiyyətlərdən yüksək səviyyədə istifadəni tələb edir. Demokratiya dövlətin daxili ehtiyatlarının çoxaldılması üçün əlverişlidir; o, var-dövləti və rahatlığı yayır, ictimai ruhu təbliğ edir və cəmiyyətin bütün siniflərində qanuna hörməti möhkəmləndirir: bütün bunlar bir xalqın digər xalq ilə saxladığı əlaqələr üzərində yalnız dolayı təsirə malik olan üstünlüklərdir. Lakin demokratiya yalnız böyük çətinliklə mühüm bir öhdəçiliyin detallarını tənzimləyə, onu daimi şəkildə qoruyub saxlaya və ciddi əngəllərə baxmayaraq, onun icrasını həyata keçirə bilər. O onun götürdüyü ölçüləri məxfi şəkildə birləşdirə və səbirlə onun nəticələrini gözləyə bilməz...

Fransa inqilabının başlanğıcında Amerikada demokratiyaları şüurdan daha çox impulslara tabe olmağa və ani ehtirasın məmnuniyyəti üçün kamil plandan imtina etməyə vadar edən meyil aydın şəkildə sezilirdi. Bu, o zaman indi olduğu kimi ən sadə düşüncə sahibinə də aydın idi ki, amerikalıların maraqları Avropanı qana bürüməkdə olan, lakin onların ölkələrinə xətər yetirməyən bir mübarizədə istənilən formada iştirakı qadağan edirdi. Lakin əhalinin rəğbəti Fransanın xeyrinə özünü elə çox şiddətlə bəyan etdi ki, yalnız Vaşinqtonun yenilməz xarakteri və sahib olduğu böyük populyarlıq amerikalıları İngiltərəyə qarşı müharibə elan etməkdən çəkindirə bilərdi. Lakin hətta bu halda bu böyük insanın iti ağlının öz vətəndaşlarının comərd, lakin ehtiyatsız ehtiraslarını yatırtmaq üçün göstərdiyi cəhd onu nə vaxtsa iddiasında olduğu yeganə mükafatdan – ölkənin sevgisindən, demək olar ki, məhrum etdi. Əksəriyyət onun siyasətini qınadı, lakin o, sonralar bütün xalq tərəfindən bəyənildi".[1]

Xarici siyasətin uğurlu şəkildə icrası üçün tələb olunan düşüncə kütlələri və onların nümayəndələrini hərəkətə keçirə bilən ritorika və hərəkət ilə diametrik

[1] Alexis de Tocqueville, *Democracy in America* (New York: Alfred A.Knopf, 1945), Vol. I, səh. 234-235.

şəkildə ziddiyyətli ola bilər. Dövlət adamının düşüncəsinə xas olan xüsusiyyətlər hər zaman ictimai düşüncədə uyğun cavabı tapmaya bilər. Dövlət adamı digər güclər arasında güc hesab olunan milli maraq nöqteyi-nəzərindən düşünməlidir. Dövlət adamının fikirlərinin incə fərqləri haqqında məlumatlı olmayan ictimai düşüncə yalnız mənəvi və hüquqi baxımdan deyil, ümumiyyətlə, çox vaxt mütləq yaxşı və mütləq pis haqqında mühakimə yürüdür. Dövlət adamı aramla və dolayı yollarla irəliləyərək, böyük mənfəətlər üçün kiçik itkilər verməklə gələcək haqqında düşünməlidir; o, zaman qazanmağı, güzəştə getməyi, əlverişli vaxtın yetişməsini gözləməyi bacarmalıdır.

Tokvilin fikirləri çox əsas götürülərsə, xarici siyasətin uğurla icrası üçün tələb olunan düşüncə forması zaman-zaman insanları hərəkətə gətirən mülahizələr tərəfindən inkar olunar. İctimai fikir tərəfindən şövqlə və hədsiz dərəcədə dəstəklənən xarici siyasət yalnız bu səbəbdən yaxşı xarici siyasət hesab oluna bilməz. Əksinə, xarici siyasət ilə ictimai fikir arasında uzlaşmaya əlverişli siyasət prinsiplərini ictimai fikrin əsassız seçimlərinə təslim etmək hesabına nail oluna bilər.

Amerika nümunəsində bu məxsusi çətinliklər belə bir fakt ilə daha da ağırlaşır ki, ABŞ, demək olar ki, fasiləsiz olaraq sonuncu seçkilərdən özünə gəlir, ya da növbəti seçkilərə hazırlaşır. Xüsusilə sonuncu halda hökumət üçün xarici siyasətdən asılı olmayaraq, ictimai fikrin üstünlük verdiklərinə xidmət göstərməklə seçici üstünlüyünə nail olmağa cəhd göstərmək istəyi hədsizdir. Beləliklə, dövlətçilik sənətinin bir tələbi sağlam xarici siyasətin çoxillik prinsipləri ilə ictimai fikrin dəyişkən üstünlükləri arasında orta kursu tapıb həyata keçirməkdir.

Bu mülahizələr 1980-ci ildə seçkilərə Demokrat Partiyasının ilkin seçimlərindən qoşulan prezident Cimmi Karterin aşkar paradoksuna aydınladıcı işıq salır; belə ki, o, seçicilərə müraciətində faktiki olaraq məğlubedilməz idi, lakin onun rəhbərliyi altında ABŞ digər dövlətlər ilə münasibətlərində bir sıra alçaldıcı məğlubiyyətlərə düçar olmuşdu. Bu məğlubiyyətlərin ən təsirlisi İranda 52 girovun davam edən əsirliyi idi. Bu təhqiredici hərəkətə cavab olaraq hər hansı formada zorakılıq aktı başlatmaqdan boyun qaçırmaqla Karter özünü İrana qarşı fəaliyyət rıçaqından məhrum etdi. Onun İranı zərərlərlə hədələməsi, xüsusilə iqtisadi sanksiyalar səmərəsiz olmağa məhkum idi. Onun təklif edə bildiyi mənfəətlər (məsələn, iqtisadi və hərbi yardım) iranlıların gözündə Amerika comərdliyinin doğuracağı təhlükələr və öhdəliklərdən üstün deyildi. Beləliklə, ABŞ elə bir vəziyyətdə köməksiz qaldı ki, Amerika tarixinin əksər başqa dövrlərində, hətta bir çox amerikalının həyatını təhlükə altına qoymaq hesabına belə olsa, məsələnin həlli üçün cəld addımlar irəli atılardı.

Lakin prezident dinc vasitələrlə amerikalıların həyatını xilas etməyə xüsusi əhəmiyyət verməklə Amerika ictimai fikrində rəğbətli ahənglə qarşılandı. Karter

guya ki Vilsonun əvvəl etdiyini etdi: "O, bizi müharibədən kənar saxladı". O, bunu Amerikanın ən çox görünən və həssas məqsədindən əl çəkmədən – həmin 52 amerikalının həyatını xilas etməklə – etdi. Görünür ki, ictimai fikrin və ya prezidentin ağlına gəlmədi ki, Amerikanın xarici siyasəti üçün məsuliyyət daşıyan liderin vəzifəsi yalnız həyatları xilas etmək deyil, həmçinin dövlətin uzun vədəli maraqlarını xilas etməkdir.

Ritorik öhdəlik və siyasi fəaliyyətsizliyin eyni qarışığı bizim Sovet İttifaqına yönəlik siyasətimizə ictimai dəstəyi təmin etdi və eyni zamanda onların səmərəsizliyinə şərait yaratdı. Əfqanıstanın sovet hərbi işğalının əhəmiyyətinin şərhindən asılı olmayaraq, prezidentin şifahi hədələyici reaksiyası həmin işğala cavab olaraq görülən real tədbirlərlə mütənasiblikdən tam kənar idi.

Lakin həmin reaksiya rusları təəccübləndirdiyi halda, bu ritorikaya uyğun fəaliyyətin yoxluğu onları siyasətlərini dəyişməyə vadar etmək üçün heç nə etmədi. Ruslar ABŞ-ı nüvə qarşıdurmasına çəkmədən bacardıqları qədər uzağa gedəcəklər. Kubada raket böhranı və onun ardınca Berlin böhranı bu fikri təsdiqləyir; bu fikrin əks sübutu isə Əfqanıstanın davam edən hərbi işğalıdır.

Lakin prezidentin hədələyici mövqeyi daxili siyasətdə özünü böyük müvəffəqiyyət kimi göstərdi. İnsan hüquqlarının müdafiəsi və təbliğini öz xarici siyasətinin təməl daşına çevirmək niyyətini bəyan etmiş prezident Sovet İttifaqı ilə Con Foster Dallesin dilində danışırdı. İctimai fikir arasında keçirilən sorğular böyük ictimai dəstək qeydə aldı; bir daha səmərəsiz xarici siyasət daxili zəfər ilə tarazlandı. Bununla belə, burada Karter xarici siyasət ilə daxili siyasət arasında olan dilemmanın üzərinə gələn digər bir dilemma ilə üz-üzə qaldı. Bu, nüvə qarşıdurmasının rasional baxımdan yolverilməzliyindən irəli gəlirdi.

Böyük dövlətlərin öz maraqlarını son vasitə kimi gücdən istifadə yolu ilə müdafiə etmək və təbliğ etmək ehtiyacı ABŞ və Sovet İttifaqına münasibətdə nüvə silahlarından istifadə ehtimalını nəzərdə tutur. Lakin nüvə silahlarından yalnız Hirosima və Naqasakidə olduğu kimi təcrid olunmuş nümayiş formasında deyil, adi hərbi silah kimi istifadə bütün döyüşən tərəflərin yaşamağa qadir olan bir cəmiyyət kimi məhv edilməsi anlamını daşıyardı. Belə istifadə olunan nüvə silahları adi silahların əksinə olaraq, xarici siyasətin rasional məqsədlərinə çatmağın rasional vasitələri deyil, intihar və soyqırım ifadə edən ümidsizlik aləti olacaqdı. Bu, Karterin üzləşdiyi ikinci dilemma idi.

Beynəlxalq sistemin anarxik xarakteri onu tarix ilə üst-üstə düşən razılaşmanı yerinə yetirərək, beynəlxalq məsələlərin həllində son amil kimi fiziki zorakılığa əl atılmasına tamaşaçı qalmağa məcbur etdi. Lakin belə zorakılığın total tətbiqinin irrasionallığı onu hətta nüvə müharibəsinə gətirib çıxarmamaq üçün adi zorakılığın tətbiqindən belə yayınmağa məcbur etdi. Beləliklə, bu gün beynəlxalq böhranda

prezident əgər ümumiyyətlə hərəkət edirsə, son dərəcə ehtiyatla hərəkət edir və o, effektiv fəaliyyət boşluğunu hədələyici danışıq ilə doldurur. Bu tendensiyada prezident Karter tək deyildi.

İctimai dəstək prezidentin xarici siyasəti idarəetməsinin ilkin şərtidir. Hətta xarici siyasətin bəzi ünsürlərinin qurban verilməsi hesabına olsa da belə, onu dəstəkləyən ictimai fikir formalaşdırmaq prezidentin yalnız hakimiyyətini və bununla da, ümumiyyətlə, hər hansı xarici siyasət yürütmək bacarığını itirməsi riski ilə gözardı edə biləcəyi bir vəzifədir. Karterin idarəetməsinin qaldırdığı məsələ ağıllı xarici siyasətə dair tələblərlə ictimai fikrin tələbləri arasında kompromis ehtiyacına deyil, kompromisə gedilməli olduğu məsələyə aid idi. Tənqidçilər onu savadsızlıq və səriştəsizlikdə günahlandırmaqdan başqa, hesab edirdilər ki, o, ağıllı xarici siyasətin olduqca çox prinsiplərini ictimai fikrin tələblərinə təslim edib. Məsələ prezidentin nüvə müharibəsi ehtimalından asılı olmayaraq, milli maraqları həyata keçirib-keçirməməsi ilə deyil, milli marağın təmin olunması və nüvə müharibəsi təhlükəsi arasındakı xəttin çəkilməli olduğu yerlə bağlıdır. Məsələ bunda idi ki, Karter nüvə müharibəsindən mümkün qədər uzaq durmaq təşvişi içində vacib milli maraqları lüzumsuz yerə qurban verməmişdi. Düzgün xarici siyasət ilə ictimai fikrin tələb etdiyi düzgün olmayan xarici siyasət arasında dilemma ilə qarşılaşarkən hökumət iki xətaya yol verməkdən çəkinməlidir. O, liderlikdən imtina edərək və qısamüddətli siyasi üstünlüyü ölkənin daimi maraqlarına dəyişərək, düzgün hesab etdiyi siyasəti ictimai fikrin qurbangahına qurban vermək ehtirasına müqavimət göstərməlidir. O həmçinin düzgün xarici siyasətin tələbləri ilə ictimai fikrin istəkləri arasında qaçılmaz boşluğun genişləndirilməsindən çəkinməlidir. O bu boşluğu o zaman genişləndirər ki, ictimai fikrin istəkləri ilə qənaətbəxş kompromisi gözardı edərək, düzgün hesab etdiyi xarici siyasətin hər bir detalı üzərində səylə işləsin və ictimai dəstəyi həmin siyasətin inadcıl icrasına qurban versin.

Bunun əvəzinə hökumət xarici və daxili siyasətində eyni dərəcədə uğurlu olmaq üçün üç başlıca tələb ilə razılaşmalıdır. O qəbul etməlidir ki, düzgün xarici siyasətin tələbləriylə ictimai fikrin istəkləri arasında münaqişə əşyavi xarakterlidir və odur ki qaçılmazdır və ola bilsin ki, yerli müxalifətə güzəştlərlə onu daraltmaq olar, lakin onu aradan qaldırmaq heç vaxt mümkün deyil. İkincisi, hökumət başa düşməlidir ki, o, ictimai fikrin lideridir, qulu deyil və ictimai fikir botaniklər bitkiləri aşkar etdikləri kimi sorğular keçirilməsiylə öyrənilən sabit məfhum deyil; məlumatlı və məsuliyyətli rəhbərlik tərəfindən daim formalaşdırılan və yenidən təşkil edilən dinamik və hər zaman dəyişən məfhumdur; bunu iddia edən rəhbərliyin guya ki demaqoq olmadığını sübut

etmək hökumətin tarixi missiyasıdır.[1] Üçüncüsü, o, xarici siyasətində arzu olunanı vacib olandan fərqləndirməlidir və qeyri-mühüm olan məsələlərdə ictimai fikrə güzəşt edə bildiyi halda, düzgün xarici siyasətin ixtisar oluna bilməyən minimumu hesab etdikləri uğrunda öz müqəddəratını təhlükə altına atmaq bahasına olsa belə, mübarizə aparmalıdır.

Hökumət xarici siyasətin və ona dəstək vermək üçün daxili siyasətin tələblərini düzgün şəkildə anlaya bilər, lakin əgər o, ictimai fikri bunların arxasınca apara bilmirsə, onun əməkləri boşa çıxacaq və gücün dövlətin arxalana biləcəyi bütün digər vasitələri ən yüksək səmərə ilə istifadə olunmayacaq. Bu həqiqətdən irəli gələrək çağdaş demokratik hökumətlər ABŞ-ın hökumətləri də daxil olmaqla çoxsaylı sübutlar irəli sürür.[2]

Yerli hökumət və xarici siyasət

Lakin hökumət üçün ictimai fikri öz xarici siyasətinin arxasınca aparmaq kifayət etmir. O həmçinin öz daxili və xarici siyasəti üçün digər xalqların ictimai fikrinin dəstəyinə nail olmalıdır. Bu tələb xarici siyasətin xarakterində son zamanlar baş vermiş dəyişikliklərin inikasıdır. İrəlidə daha təfsilatlı göstəriləcəyi kimi[3], bizim dövrümüzdə xarici siyasət yalnız diplomatiya və hərbi güc kimi ənənəvi vasitələrlə deyil, həmçinin yeni təbliğat silahı ilə həyata keçirilir. Bu gün beynəlxalq arenada güc uğrunda mübarizə yalnız hərbi üstünlük və siyasi hegemonluq uğrunda mübarizə deyil, həmçinin xüsusi mənada insan beyinləri uğrunda mübarizədir. Bu halda bir dövlətin gücü yalnız diplomatiyanın məharətindən və silahlı qüvvələrin gücündən asılı deyil, həm də dövlətin siyasi fəlsəfəsinin, siyasi institutlarının və siyasi siyasətinin digər xalqlar üçün cazibəsindən asılıdır. Bu,

[1] Cənab Daf Kuper kimi müharibələrarası dövrdə mühüm kabinet vəzifələri tutmuş və digər hökumət vəzifələri daşımış lord Norviç Nevil Çemberlen haqqında xatirələrində (*Old Men Forget* [London: Hart-Davis, 1953]) aşağıdakı fikirləri yazarkən ictimai fikir və hökumətin ona münasibətinə dair ümumi anlaşılmazlığı dəqiq olaraq izah edir: "Mənə elə gəlir ki, baş nazirin iki əsas səhvi var. O inanır ki, ictimai fikir "*Times*" qəzetində əks olunan kimidir və o inanır ki, mühafizəkarların fikri "baş qamçı"nın söylədikləri kimidir". Təəssüf ki, ictimai fikrin istəyi haqqında kiminsə söylədiyinin passiv qəbulu – bu yalnız İngiltərədə belə deyil – düzgün xarici siyasətin çətinliklərindən birinə çevrilib.

[2] Bu mövzu Hans J.Morgentaunun növbəti işlərində ətraflı şəkildə işlənmişdir: "The Conduct of Foreign Policy," in *Aspects of American Government*, edited by Sydney Bailey (London: The Hansard Society, 1950), səh. 99 və növbəti səhifələr; *Indefense of National Interest* (New York: Alfred A.Knopf, 1951; Washington, DC: University Press of America, 1982), səh. 221 və növbəti səhifələr

[3] Bax: səh. 418 və növbəti səhifələr

bir-biri ilə yalnız iki siyasi və hərbi supergüc kimi deyil, həmçinin iki müxtəlif siyasi fəlsəfənin, hökumət sisteminin və həyat tərzinin qabaqcıl nümayəndələri kimi rəqabət aparan ABŞ və Sovet İttifaqı üçün də həqiqətdir.

Beləliklə, bu supergüclərin – bu həmçinin az və ya çox dərəcədə digər dövlətlərə də aiddir – nə edib nəyi etməməsindən, nəyə nail olub nəyə nail ola bilməməsindən asılı olmayaraq, onların daxili və xarici siyasətlərinin belə nümayəndələr kimi onların mövqeyinə və odur ki gücünə birbaşa təsiri var. Məsələn, irqi ayrı-seçkilik siyasətinə ağırlıq verən dövlət dünyada dərisi rəngli olan xalqların beyinləri uğrunda mübarizədə məğlub olmaqdan xilas ola bilməz. İnkişaf etməmiş bir dövlət təsirli bir formada əhalisinin sağlamlığı, təhsili və yaşayış standartını yüksəltməyə nail olubsa, bununla dünyanın inkişaf etməmiş digər regionlarında gücünün böyük artımına nail olmuş olar.

O zaman bu mərhələdə irəlidə digərlərini də yada salacağımız kimi[1] xarici və daxili siyasət arasında ənənəvi fərq aradan qalxmağa meyil edir. Həvəslə söyləmək olar ki, artıq sırf daxili olan işlər yoxdur, çünki dövlətin atdığı hər hansı addım onun siyasi fəlsəfəsinin, hökumət sisteminin və həyat tərzinin inikası kimi onun lehinə, yaxud əleyhinə çevrilir. Göstərdikləri cəhdlərlə əlaqədar daxili nailiyyətlərin digər dövlətlərə məlum olması dövlətin gücünü artırmaya bilməz; eyni dərəcədə məlum olan daxili uğursuzluq isə onu azaltmağa məcburdur.

[1] Bax: səh. 417 və növbəti səhifələr

10. Dövlətin gücünün qiymətləndirilməsi

QİYMƏTLƏNDİRMƏNİN VƏZİFƏSİ

Bu, dövlətin xarici siyasəti üçün cavabdehlik daşıyanların və ictimai fikri beynəlxalq münasibətlərə dair qəlibləşdirənlərin bu amillərin onların dövlətlərinin gücünə təsirini düzgün qiymətləndirmək vəzifəsidir və bu vəzifə həm indiki, həm də gələcək zaman üçün yerinə yetirilməlidir. Silahlı xidmətlərin birləşdirilməsinin ABŞ-ın hərbi təsisatının keyfiyyətinə təsiri nədir? Nüvə enerjisindən istifadənin ABŞ və digər dövlətlərin sənaye istehsalı imkanlarına təsiri necə olacaq? Dengin ölümündən sonra Çinin sənaye istehsalı, hərbi qüdrəti və milli əhvali-ruhiyyəsi necə inkişaf edəcək? Çin və Pakistanın düşmənçiliyi Hindistanın milli əhvali-ruhiyyəsinə necə təsir edib? Alman ordusunun yenidən dirçəlməsinin Almaniyanın milli gücü üçün əhəmiyyəti nədir? İslah edilmələri Almaniya və Yaponiyanın milli xarakterini dəyişib? Argentina əhalisinin milli xarakteri bir-birini əvəz edən hərbi və mülki rejimlərin siyasi fəlsəfəsi, metodları və məqsədlərinə necə reaksiya verib? Rusiyanın təsir dairəsinin Elba çayına qədər genişlənməsi Sovet İttifaqının coğrafi mövqeyinə hansı yollarla təsir edib? Dövlət Departamentinin kadr heyətinin yenidən təşkili və dəyişdirilməsi Amerikanın diplomatiyasını qüvvətləndirər, yoxsa zəiflədər? Bunlar dövlətin xarici siyasətinin uğurlu olması üçün cavablandırılmalı olan suallardan bəziləridir.

Lakin ən çətini ayrıca bir amilin dəyişməsi ilə meydana çıxan sualları cavablandırmaq deyil. Elələri var ki, bir amildəki dəyişikliklərin digər amillərə təsirinə aiddir və burada çətinlik artır və xətalar çoxalır. Məsələn, müasir hərbi texnologiyaların idxalı ABŞ-ın coğrafi mövqeyi üçün nə anlam daşıyır? Başqa sözlə, idarəolunan raketlər və səsdən sürətli təyyarələr ABŞ-ın digər qitələrdən coğrafi təcridinə necə təsir edir? ABŞ dənizarxası hücumlara qarşı öz ənənəvi toxunulmazlığını nə dərəcədə itirə və nə dərəcədə qoruyub saxlaya bilər? Həmin texnoloji irəliləyişlər Rusiya ərazisinin coğrafiyası baxımından hansı əhəmiyyəti kəsb edir? Bu amillər rus düzənliklərinin genişlənməsinin mühafizə funksiyasını nə qədər azaldıb? Bu kontekstdən La-Manş boğazı Britaniya tarixinin əvvəlindən etibarən Böyük Britaniya üçün hansı müdafiə imkanı yaratmışdır? Braziliya, Çin

və Hindistanın sənayeləşməsi bu ölkələrin hərbi qüdrəti üçün hansı əhəmiyyəti kəsb edəcək? Hərbi texnologiyalardakı dəyişikliklər fonunda Amerika ordusunun, donanmasının və hava qüvvələrinin nisbi əhəmiyyəti nədir? Növbəti iki onillikdə Amerika əhalisinin proqnozlaşdırılan artım səviyyəsi və Latın Amerikası, Hindistan və Çinin əhalisinin daha sürətli artımı müvafiq şəkildə bu dövlətlərin sənaye istehsalı imkanları və hərbi qüdrəti üçün nədən xəbər verir? Britaniya milli xarakteri öz ənənəvi keyfiyyətlərini Böyük Britaniyanın sənaye istehsalı imkanları, iqtisadi təşkilatlanması, hərbi qüdrəti və coğrafi təcridinin məruz qaldığı əsaslı dəyişikliklərin təsiri altında saxlayacaqmı?

Lakin dövlətin gücünü analiz edənin vəzifəsi burada bitmir. O daha yüksək çətinlik dərəcəsinə malik olan başqa bir qrup suallara da cavab verməyə çalışmalıdır. Bu suallar dövlətin bir güc amillərindən birinin başqa bir dövlətin eyni, yaxud başqa güc amili ilə müqayisəsinə aiddir. Başqa sözlə, onlar müxtəlif dövlətlərin güclərinin ayrı-ayrı tərkib hissələrində dəyişikliklərin həmin müxtəlif dövlətlərin ümumi güc münasibətlərinə nisbətdə çəkisini nəzərdə tutur. Məsələn, ABŞ və Sovet İttifaqının, deyək ki, 1985-ci ildə nisbi gücünü nəzərdən keçirsək, belə bir sual ortaya çıxır ki, hər iki tərəfdə müxtəlif güc amilləri necə və hansı tərəfə böyüyür və onlar hansı nisbətdə güc üstünlüyü təşkil edirlər. ABŞ-ın kəmiyyət və keyfiyyətinə görə üstün olan sənaye istehsalı onun quru qoşunlarındakı ehtimal edilən geriliyin yerini nə qədər doldura bilir? Amerikanın hava hücumlarına qarşı zəif və kommunikasiyalar sahəsində rahatlığı olan yüksək təmərküzləşmiş əhali və sənaye mərkəzləri və Sovet İttifaqının yerləşməsi və xarakterinə görə qismən gizli, lakin nəqliyyat sahəsində böyük çətinliklərlə üzləşən dağınıq mərkəzlərinin nisbi gücü və zəifliyi nədədir? Sovet İttifaqı Qərbi Avropanı Şərq tərəfdən ideoloji və hərbi müdaxiləyə məruz qoymaqla hansı gücü əldə edir? Sakit okean tərəfdən hava və dəniz hücumlarına məruz qalarkən o hansı zəifliyinə görə çətinlik çəkir? Müvafiq güc mövqeləri baxımından ABŞ-da sovet xarici siyasətinə və sovet ictimai fikrinin məcburi bircinsliyinə rəğbət bəsləyən qrupların plüralist əməliyyatlarının əhəmiyyəti nə qədərdir? ABŞ-ın hökumətinin demokratik formasının və qeyri-totalitar iqtisadi sisteminin Sovet İttifaqının totalitar siyasi və iqtisadi strukturu ilə müqayisədə onun gücünə təsiri necədir?

Beynəlxalq arenada fəal rol oynayan bütün dövlətlərə aid bu və digər suallar qoyulmalı və cavablandırılmalıdır. Beynəlxalq siyasət düzənində bir-biriylə rəqabət aparan bütün dövlətlərə münasibətdə müxtəlif amillərin milli gücə nisbi təsiri müəyyən edilməlidir. Belə ki, Fransanın İtaliyadan güclü olub-olmadığını və bunun hansı amillərə nəzərən olduğunu bilmək lazımdır. Müxtəlif güc amilləri baxımından Hindistan və Çinin Sovet İttifaqına, Yaponiyanın ABŞ-a, Argentinanın Çiliyə nisbətdə hansı vasitələrə və öhdəliklərə sahib olduğunu bilmək lazımdır.

Güc hesablamasının vəzifəsi hələ tamamlanmamışdır. Bir neçə dövlət arasında güc bölgüsünün ən azından təxminən həqiqətə uyğun təsvirini yaratmaq üçün tarixin müəyyən anında mövcud olduğu kimi görünən güc münasibətləri gələcəyə köçürülməlidir. Buna nail olmaq üçün ABŞ və Sovet İttifaqı arasında indiki anda güc münasibətlərinin necəliyi və 2 ildən sonra onların təxminən necə olacağı haqqında suallar vermək kifayət etmir. ABŞ və Sovet İttifaqı arasında güc münasibətlərinə əsaslanan və onlara istinad edən beynəlxalq məsələlərə dair qərarlar gücün hər 2 ildən bir ölçülməsini gözləyə bilməz. Bu ölçülər hər gün aparılmalıdır. İlk baxışdan nə qədər kiçik və əhəmiyyətsiz olsa da, milli gücü təşkil edən amillərdə gündəlik dəyişikliklər həmin tərəfin gücünə zərrə qədər güc qatıb, digərinin gücünü zərrə qədər azaldır.

Milli güc piramidası coğrafiyanın nisbətən sabit olan bünövrəsində müxtəlif qeyri-sabit pillələrlə qalxıb, ötəri milli əhvali-ruhiyyə ünsüründə öz zirvəsinə çatır. Coğrafiyadan başqa, qeyd etdiyimiz bütün amillər bir-birinə təsir etməklə və öz növbəsində insan və təbiətin əvvəlcədən görünə bilməyən müdaxiləsinin təsirinə məruz qalmaqla daimi bir axının içində yer alır. Onlar birlikdə milli gücün axınını yaradır və bu axın ya Böyük Britaniyada olduğu kimi yavaş-yavaş yüksəlib, sonra əsrlər boyu yüksəkdə axır, ya da Almaniyada olduğu kimi birdən yüksəlib öz zirvəsindən sərt şəkildə düşür, yaxud da ABŞ və Sovet İttifaqında olduğu kimi birdən yüksəlib, gələcəyə dair qeyri-müəyyənliklərlə üz-üzə qalır. Axının və onu təşkil edən müxtəlif qolların məcrasını cızmaq və onun istiqaməti və sürətində dəyişiklikləri əvvəlcədən təxmin etmək beynəlxalq siyasətin araşdırılması ilə məşğul olanların ən ideal vəzifəsidir.

Bu, ideal vəzifədir və buna görə də nailiyyətə qabil deyil. Hətta dövlətin xarici siyasəti üçün cavabdehlik daşıyanlar üstün müdrikliyə və düzgün dəyərləndirmə qabiliyyətinə sahib olsalar da və məlumatı ən dəqiq və inamlı mənbələrdən əldə edə bilsələr də, onların hesablamalarını pozacaq naməlum amillər olacaq. Onlar təbii fəlakətlər, məsələn, aclıq və epidemiyalar, texnogen fəlakətlər, məsələn, müharibələr və inqilablar, eləcə də ixtiralar və kəşflər, elmi, hərbi və siyasi liderlərin yüksəlişi və yox olmasını, belə liderlərin düşüncə və hərəkətlərini əvvəlcədən görə bilməzlər, hələ milli əhvali-ruhiyyənin tutarsızlıqlarından danışmırıq. Sözün qısası, insanların ən müdrik və məlumatlısı belə hələ tarix və təbiətin bütün ehtimalları ilə üzləşməli olacaq. Əslində, istənilən halda elm və informasiyanın güman edilən mükəmməlliyi heç vaxt mümkün deyil. Xarici siyasətdə qərar qəbul edənləri məlumatla təmin edənlərin hamısı heç də məlumatlı deyil və qərar qəbul edənlərin hamısı müdrik deyil. Beləliklə, indiki və gələcək üçün dövlətlərin nisbi gücünün ölçülməsi vəzifəsi öz-özlüyündə bir sıra şübhələrə aydınlıq gətirir ki, onların da bəziləri mütləq yanlış olduğu halda, digərlərinin doğruluğu sonrakı hadisələrlə sübut oluna bilər. Nə qədər ki xarici siyasətin uğuru, yaxud uğursuzluğu

belə güc hesablamalarından asılı olacaq, o, dövlətin verilmiş xarici siyasəti üçün cavabdehlik daşıyanların, eləcə də digər dövlətlərin xarici işlərini həyata keçirənlərin doğru və yanlış ehtimallarının nisbi əhəmiyyəti ilə təyin olunacaq. Bəzən bir dövlətin güc münasibətlərinə dair hesablamalarda yol verdiyi yanlışlıqların əvəzi digər dövlət tərəfindən yol verilən yanlışlıqlarla ödənilir. Odur ki bir dövlətin xarici siyasətinin uğuru öz hesablamalarının sərrastlığından daha çox, digər tərəfin yol verdiyi daha böyük yanlışlardan qaynaqlanır.

QİYMƏTLƏNDİRMƏ ÜÇÜN 3 SƏCİYYƏVİ SƏHV

Dövlətin öz gücünü və digər dövlətlərin gücünü qiymətləndirən zaman yol verə bildiyi bütün yanlışların 3 növü o qədər tez-tez baş verir və bu kimi hesablamalara xas olan elmi xətaları və praktiki təhlükələri o qədər yaxşı təsvir edir ki, onları daha geniş müzakirə etməyə dəyər. Birincisi, dövlətin gücünün mütləq kamilliyi təsəvvürünü yaratmaqla gücün nisbiliyi məsələsinə etinasızlıq göstərir. İkincisi, keçmişdə həlledici rol oynamış müəyyən bir amilin dəyişməzliyini sübut olunmuş hesab edir və bununla əksər güc amillərinin məruz qaldığı dinamik dəyişikliyi gözdən qaçırır. Üçüncüsü, tək bir amilə həlledici əhəmiyyət yükləyir və bütün digərlərinə laqeyd yanaşır. Başqa sözlə, birinci yanlışlıq bir dövlətin gücünü digər dövlətlərin gücü ilə nisbi baxımdan əlaqələndirməməkdən, ikinci yanlışlıq müəyyən bir zamandakı real gücü gələcəkdə hər hansı bir zamandakı mümkün güc ilə nisbi baxımdan əlaqələndirməməkdən və üçüncü yanlışlıq bir dövlətin bir güc amilini digər güc amilləri ilə nisbi baxımdan əlaqələndirməməkdən ibarətdir.

Gücün mütləq xarakteri

Biz bir dövlətin gücündən bəhs edib, bu dövlətin çox güclü və o dövlətin zəif olduğunu söyləyərkən həmişə müqayisə aparırıq. Başqa sözlə, güc anlayışı hər zaman nisbi bir anlayışdır. Biz ABŞ-ın bu gün dünyanın ən güclü iki dövlətindən biri olduğunu söyləyərkən, əslində, onun gücünü bütün digər dövlətlərin gücü ilə mövcud olduğu şəkildə müqayisə edirik və bizə məlum olur ki, bütün digər dövlətlərin gücünü üst-üstə toplayanda ABŞ daha güclüdür.

Beynəlxalq siyasətin ən əsas və tez-tez yol verilən yanlışlıqlarından biri gücün bu nisbi xarakterinin nəzərə alınmaması və bunun əvəzinə dövlətin gücünə onun sanki mütləq olduğu kimi yanaşılmasıdır. Fransanın iki dünya müharibəsi arasındakı gücünün qiymətləndirilməsi də bu qəbildəndir. I Dünya müharibəsinin nəticəsində hərbi nöqteyi-nəzərdən Fransa dünyanın ən güclü dövləti idi. Fransaya

belə münasibət 1940-cı ildə dağıdıcı məğlubiyyətdə onun hərbi zəifliyi üzə çıxan ana qədər davam etdi. 1939-cu ilin sentyabrında II Dünya müharibəsinin başlanğıcından 1940-cı ilin yayında Fransanın məğlubiyyətinə qədər qəzetlərin baş xəbərləri olduqca bəlağətlə Fransanın hərbi gücünün yanlış dəyərləndirilməsiylə bağlı hekayələr danışırdı. "Qəribə müharibə" adlandırılan mərhələdə alman orduları, güman olunurdu ki, Fransaya onun üstün gücü səbəbindən hücum etməyə cəsarət etmirdi və bir sıra hallarda məlumat verilirdi ki, fransızlar alman xətləri boyunca dağıntılar törədiblər. Bu yanlış dəyərləndirmənin kökündə Fransanın hərbi gücünün digər dövlətlərin gücünə nisbi deyil, nə isə mütləq bir məfhum olmasına dair yanlış təsəvvür dururdu. Öz-özlüyündə götürüldükdə Fransanın hərbi qüdrəti 1939-cu ildə ən azından 1919-cu ildə olduğu qədər böyük idi; ona görə də belə bir inam var idi ki, 1939-cu ildə Fransa 1919-cu ildə olduğu kimi güclü dövlətdir.

Bu qiymətləndirmənin ən böyük yanlışı 1919-cu ildə Fransanın yalnız digər dövlətlərlə müqayisədə – bu dövlətlərdən Fransanın ən yaxın rəqibi olan Almaniya məğlubiyyətə uğradılmış və tərk-silah edilmişdi – dünyanın ən güclü dövləti olması faktı haqqında məlumatsızlıq idi. Başqa sözlə, Fransanın bir hərbi güc kimi üstünlüyü Fransa xalqına məxsus, Fransanın əhalisinin milli xarakterinin, onun coğrafi yerləşməsinin və təbii ehtiyatlarının aşkar edilməsiylə eyni şəkildə müəyyən edilə bilən bir keyfiyyət deyildi. Bu üstünlük, əksinə, xüsusi bir güc konfiqurasiyasının, yəni Fransanın hərbi bir güc kimi digər dövlətlər üzərində müqayisəli üstünlüyünün nəticəsi idi. Əslində, Fransa ordusunun keyfiyyət göstəriciləri mahiyyət etibarilə 1919-1939-cu illər arasında aşağı düşməmişdi. Qoşunların, artilleriyanın, təyyarələrin və şəxsi heyətin sayına və keyfiyyət göstəricilərinə görə Fransanın hərbi gücü öz dəyərini itirməmişdi. Belə bir vəziyyətdə hətta beynəlxalq münasibətlər sahəsində ser Uinston Çörçill kimi fərasətli bir mütəxəssis 30-cu illərin sonundakı Fransa ordusunu 1919-cu ilin Fransa ordusu ilə müqayisə edərək, 1937-ci ildə bəyan edə bilərdi ki, Fransa ordusu beynəlxalq sülhün yeganə təminatçısıdır.

O və onun əksər müasirləri 1937-ci ilin fransız ordusunu 1919-cu ilin fransız ordusu ilə müqayisə edirdilər; 1919-cu ilin fransız ordusu şöhrətini həmin ildə mövcud olmuş alman ordusu ilə müqayisədə qazanmışdı; bunun əvəzinə 1937-ci ilin fransız ordusunu həmin ilin alman ordusu ilə müqayisə etmək lazım idi. Belə bir müqayisə göstərəcəkdi ki, 1919-cu ildə mövcud olmuş güc konfiqurasiyası 30-cu illərin sonunda aradan qalxımışdı. Fransanın hərbi təsisatı hələ də 1919-cu ildə olduğu kimi mükəmməlliyini saxlasa da, Almaniyanın silahlı qüvvələri indi Fransanınkılardan çox üstün idi. Fransanın hərbi qüdrətinə dair sanki onun mütləq xarakterli olması şəklində müstəsna yanaşmanın üzə çıxara bilmədiklərini Fransa və Almaniyanın hərbi qüdrətinin müqayisəsi göstərə bilərdi və bununla da siyasi və hərbi dəyərləndirmədə ciddi xətalardan qaçmaq olardı.

Xüsusilə tarixin müəyyən bir anında özünü gücünün zirvəsində görən bir dövlət bütövlükdə gücün nisbi olduğunu unutmağın cazibəsinə düçar olur. Bu, təxminən o deməkdir ki, nail olduğun üstünlüyün yalnız axmaqlıq və vəzifəyə laqeydlik ilə itirilə biləcək mütləq xarakterinə inanırsan. Belə lovğalıqlara əsaslanan xarici siyasət ciddi təhlükələr yaradır, çünki o belə bir faktı nəzərdən qaçırır ki, həmin dövlətin üstün gücü yalnız qismən onun şəxsi keyfiyyətlərinin törəməsi olduğu halda, qismən də onunkularla müqayisədə digər dövlətlərin keyfiyyətlərinin nəticəsidir.

Napoleon müharibələrinin sonundan II Dünya müharibəsinin başlanğıcınadək Böyük Britaniyanın ağalığının səbəbi onun bir ada dövləti olaraq hücumlardan qorunması və dünyanın dəniz yolları üzərində sahib olduğu yarımmonopolist nəzarət idi. Başqa sözlə, tarixin həmin mərhələsində Böyük Britaniya digər dövlətlərlə müqayisədə heç bir dövlətin sahib olmadığı iki üstünlüyə sahib idi. Onun ada mövqeyi dəyişməyib və onun donanması hələ də dünyada ən güclü donanmalardan biridir. Lakin digər dövlətlər nüvə bombaları və idarəolunan raketlər kimi silahlar əldə edib və onlar Böyük Britaniyanın gücünün qaynaqlandığı iki üstünlüyü əhəmiyyətli dərəcədə aradan qaldırır. Böyük Britaniyanın güc mövqeyindəki bu dəyişiklik II Dünya müharibəsindən əvvəlki illərdə Nevil Çemberlenin qarşılaşdığı qorxulu dilemmaya aydınlıq gətirir. Çemberlen Britaniyanın gücünün nisbiliyini dərk edirdi. O bilirdi ki, hətta müharibədə qazanılacaq qələbə onun süqutunu dayandıra bilməzdi. Çemberlen üçün taleyin istehzası idi ki, onun nəyin hesabına olursa-olsun, müharibədən uzaq durmaq cəhdləri müharibəni qaçılmaz etdi və o, Britaniyanın gücünün qənimi olacağından qorxduğu müharibəni elan etmək məcburiyyətində qaldı. Lakin Britaniya dövlətçiliyinin müdrikliyinin sübutudur ki, II Dünya müharibəsi başa çatdıqdan sonra Britaniyanın xarici siyasəti bütövlükdə Britaniyanın gücünün digər dövlətlərin gücünə nisbətdə süqutunu dərk edirdi. Britaniyanın dövlət adamlarına məlum idi ki, Britaniya donanması öz-özlüyündə 10 il bundan əvvəlki kimi güclü və La-Manş boğazı hərzamankı kimi geniş və nəzarətdən kənar ola bilər, lakin digər dövlətlər öz güclərini Britaniyanı həmin iki vasitənin səmərəliliyinin böyük hissəsindən məhrum edəcək qədər artırıb.

Gücün daimi xarakteri

Dövlətin gücünün qiymətləndirilməsinə xələl gətirən ikinci səciyyəvi yanlışlıq birinci ilə əlaqəlidir, lakin fərqli elmi prosesdən törəyir. O, gücün nisbiliyi haqqında məlumatlı ola bilsə də, ayrıca bir güc amili və ya güc münasibətini digərlərindən ayırır və bu zaman həmin amil və ya münasibətin dəyişiklikdən mühafizə olunduğu ehtimalına dair hesablamaya əsaslanır.

Bizim artıq 1940-cı ilə qədər Fransanın dünyada bir nömrəli hərbi güc olduğunu hesab edən yanlış hesablamalardan bəhs etmək imkanımız olub. Bu baxışın sahibləri I Dünya müharibəsinin sonunda Fransanın şahidi olduqları gücünə tarixi dəyişikliyə biganə kimi görünən daimi xüsusiyyət anlamı vermişdilər; onlar bu zaman unudurdular ki, 20-ci illərdə həmin gücün üstünlüyü müqayisənin nəticəsi idi və 1940-cı ildə onun səviyyəsini müəyyən etmək üçün o, müqayisə ilə sınaqdan keçirilməli idi. Əksinə, hərbi məğlubiyyət Fransanın zəifliyini ortaya çıxaranda Fransada və digər yerlərdə həmin zəifliyin davamlı olacağının gözlənilməsi tendensiyası yarandı. Fransa ilə etinasızcasına və laqeydliklə, sanki o əbədi olaraq zəifliyə məhkumdurmuş kimi davranırdılar.

Rusiyanın gücünün qiymətləndirilməsi də eyni formada, lakin əks tarixi nizamla getmişdi. 1917-ci ildən 1943-cü il Stalinqrad döyüşünə qədər Sovet İttifaqı ilə elə rəftar olunurdu ki, sanki onun 20-ci illərin əvvəlindəki zəifliyi digər sahələrdə hər hansı dəyişikliyin baş verə bilməsindən asılı olmayaraq, davam etməyə məhkumdur. Belə ki, Almaniya ilə müharibənin yaxınlaşdığı ehtimalı altında 1939-cu ilin yayında Sovet İttifaqı ilə hərbi ittifaq yaratmaq üçün Moskvaya göndərilmiş Britaniya hərbi missiyası öz vəzifəsini Rusiyanın 10, yaxud 20 il əvvəl qiymətləndirilmiş gücü nöqteyi-nəzərindən təyin edirdi. Bu yanlış dəyərləndirmə missiyanın uğursuzluğunun mühüm elementi idi. Digər tərəfdən, Stalinqrad qələbəsindən dərhal sonra və Sovet İttifaqının təcavüzkar xarici siyasətinin təsiri altında Sovet İttifaqının daimi yenilməzliyinə və onun Avropada daimi üstünlüyünə inam geniş şəkildə bir ehkam kimi saxlanıldı.

Bizim Latın Amerikası ölkələrinə münasibətimizdə zahirən dərin kök salmış belə bir meyil var ki, Şimalın Qərb yarımkürəsinin dövlətləri müstəqilliklərini qazandığı vaxtdan etibarən mövcud olmuş nəhəngliyinin təkzibedilməz üstünlüyü, əhali artımı, sənayeləşmə və siyasi və hərbi inkişafın, ola bilsin ki, yumşaldacağı, lakin əsas etibarilə dəyişə bilməyəcəyi bir təbiət qanunu hesab edilir. Eynilə əsrlər boyu rəngli irqlər tarixin əsas obyekti olduğu halda, dünyanın siyasi tarixi ağ irqin nümayəndələri tərəfindən təyin olunduğundan bütün irqlərin nümayəndələri üçün ağ irqlərin siyasi üstünlüyünün daha mövcud ola bilməyəcəyi – əslində, irqlər arasında əlaqələrin hətta əksinə dəyişə biləcəyi məqamını təsəvvür etmək eyni dərəcədə çətindir. Bu, xüsusilə ehtiyatlı analizdən daha çox tələsik proqnoz verənlərin düşüncələrində qəribə məftunluq yaradan zahirən dəfedilməz hərbi gücün nümayişidir. Bu onları inandırır ki, tarix sanki durğunluq dövrünə qədəm qoyub və bu gün təkzibedilməz güc daşıyanlar həmin gücdən sabah və ondan sonrakı gün də yararlanmaya bilməzlər. Beləliklə, 1940 və 1941-ci illərdə Almaniya gücünün zirvəsində olduqda geniş yayılmış belə bir inam var idi ki, Almaniyanın Avropada qurulmuş ağalığı əbədidir. 1943-cü ildə Sovet İttifaqının

gizli gücü dünyanı heyrətə gətirəndə Stalinə Avropa və Asiyanın gələcək sahibi kimi təzim edilirdi. Müharibədən sonrakı illərdə atom bombası sahəsində Amerikanın sahib olduğu monopoliya "Amerika əsri" konsepsiyasının, inkaredilməz Amerika gücünə əsaslanan dünya ağalığının yaranmasına səbəb oldu.[1]

Gücün mütləq xarakterinə inama, yaxud müəyyən bir güc konfiqurasiyasının daimiliyinin qəbul olunmasına dair bütün tendensiyaların kökündə bir tərəfdə dövlətlər arasında güc münasibətlərinin dinamik və daim dəyişən xarakteri, digər tərəfdə isə insan intellektinin dəqiq cavablar formasında əminliyə və təhlükəsizliyə ehtiyacı arasındakı ziddiyyət dayanır. Biz beynəlxalq sistemin təsadüfləri, ikifikirlilikləri və əminsizlikləri ilə üz-üzə qaldığımız bir vəziyyətdə xarici siyasətimizin əsaslandığı güc amillərinə dair dəqiq təsəvvür axtarışındayıq. Biz hamımız beynəlxalq arenada Palmertsonun gözlənilməz addımlarından hiddətlənmiş kraliça Viktoriya onun istefasından sonra yeni baş nazir Con Rasseldən "digər dövlətlər ilə müxtəlif əlaqələri əhatə edən nizamlı proqram hazırlanması"nı xahiş etdiyi zaman olduğu vəziyyətdəyik.

Bizim aldığımız cavab hər zaman Con Rasselin kraliça Viktoriyaya verdiyi cavab kimi ağıllı deyil. Onun cavabı belə olmuşdu: "Tez-tez yayınmaların yol verilməyəcəyi hər hansı prinsipləri müəyyən etmək çox çətindir".[2] Lakin yanlış yönləndirilmiş ictimai fikir qüvvələr bölgüsünü nəzərə almadan prinsiplərlə uyğunluğu qüsurdan daha çox, bir məziyyət hesab edərək, dövlət adamını belə yayınmalar üçün günahlandırmağa çox həvəslidir.

Beynəlxalq siyasətin araşdırılması ilə məşğul olanların güc hesablamalarındakı qaçılmaz yanlışları minimuma endirmək üçün bu anda mövcud olan gücün çox asanlıqla bölünməsinə aludəçilikdən azad, tarixin qaçılmaz tendensiyalarının xurafatından uzaq durmağı bacaran, tarixin inkişaf yollarının doğurduğu dəyişiklik imkanlarına açıq olan yaradıcı təsəvvürə ehtiyacı var. Bu növ yaradıcı təsəvvür ola biləcəklərə dair intuisiyaları birləşdirmək və bütün bu faktları, əlamətləri və bilinməyənləri gələcəyə dair bu gün baş verənlərdən çox da fərqlənməyən mümkün tendensiyalar diaqramına daxil etməklə verilmiş qüvvənin səthi altında gələcək inkişafın rüşeymlərini müəyyən etmək kimi üstün intellektual nailiyyətə qabildir.

[1] Gücün daimi xarakteri xətasının müasir dövrdə ən görkəmli qurbanı Ceyms Bernhamdır. Bax: George Orwell, "Second Thoughts on James Burnham," *Polemic*, No. 3 (May 1946), səh. 13 və növbəti səhifələr; "James Burnham Rides Again," *Antioch Review*, Vol. 7, No. 2 (Summer 1947), səh. 315 və növbəti səhifələr

[2] Robert W.Seton Watson, *Britain in Europe, 1789-1914* (New York: Macmillan, 1937), səh. 53.

Yeganə amil xətası

Müxtəlif dövlətlərin gücünün ölçülməsi zamanı yol verilən üçüncü səciyyəvi yanlışlıq – yeganə bir amilə bütün digər amillərin zərərinə olaraq üstün əhəmiyyət yükləmək – ən yaxşı müasir dövr üçün ən çox əhəmiyyətli olan üç təzahür formasında izah oluna bilər: geosiyasət, millətçilik və militarizm.

Geosiyasət

Geosiyasət coğrafiya amilindən dövlətlərin gücünü, beləliklə də, taleyini müəyyən etməyi nəzərdə tutaraq bir bütövlük yaradan yalançı elmdir. Onun əsas anlayışı ərazidir. Ərazi sabit olduğu halda, həmin dünya ərazilərində yaşayan əhali dinamikdir. Geosiyasətə əsasən, əhalinin "əraziləri işğal etməklə" çoxalmaq, yaxud da məhv olmaq məcburiyyətində olması və dövlətlərin nisbi gücünün işğal olunmuş ərazilərin qarşılıqlı əlaqəsi ilə müəyyən edilməsi tarixin bir qanunudur. Geosiyasətin bu əsas konsepsiyası ilk dəfə 1904-cü ildə ser Harold Makkinder tərəfindən Londonda Kral Coğrafiya Cəmiyyəti qarşısında oxunan "Tarixin coğrafi oxu" məqaləsində öz əksini tapmışdır. "Tarixin daha geniş cərəyanlarının ümumi icmalını nəzərdən keçirərkən coğrafi münasibətin müəyyən bir davamlılığı aşkar olmurmu? Dünya siyasətinin oxunun keçdiyi region gəmilər üçün keçilməz olan, lakin qədim dövrlərdə atlı köçərilər üçün açıq olmuş və bu gün dəmir yolları şəbəkəsi ilə örtülməli olan ucsuz-bucaqsız Avrasiya ərazisi deyilmi?"

Bu, dünyanın Volqadan Yantszıya qədər və Himalay dağlarından Şimal Buzlu okeanına qədər uzanan "Mərkəzi"dir. "Oxun keçdiyi ərazinin kənarında, böyük bir daxili ayparada Almaniya, Avstriya, Türkiyə, Hindistan və Çin yerləşir, xarici ayparada isə Britaniya, Cənubi Afrika, ABŞ, Kanada və Yaponiya yer alır". "Dünya adası" Avropa, Asiya və Afrika qitələrindən ibarətdir və onun ətrafında dünyanın daha kiçik torpaq sahələri qruplaşır. Dünyanın bu coğrafi strukturundan geosiyasət belə bir nəticə hasil edir ki, "Avropanı idarə edən Mərkəzə hökmranlıq edir; Mərkəzi idarə edən Dünya adasına hökmranlıq edir; Dünya adasını idarə edən isə Dünyaya hökmranlıq edir"".[1]

Makkinder bu analizin əsasında Rusiyanın, yaxud da dünyanın yuxarıda təsvir edilən ərazisinə nəzarət edəcək istənilən dövlətin dominant dünya gücü kimi ortaya çıxmasını qabaqcadan görürdü. Nasist rejiminin güc hesablamaları və xarici siyasəti üzərində böyük təsiri olan general Hauzhoferin rəhbərliyi altında alman geosiyasətçiləri daha özünəməxsus idilər. Onlar Almaniyanı dünyada üstün

[1] Sir Harold J.Mackinder, *Democratic Ideals and Reality* (New York: Henry Holt, 1919), səh. 150.

bir gücə çevirmək üçün Sovet İttifaqı və ya başqa bir dövlətlə ittifaqa daxil olan zaman Şərqi Avropanın Almaniya tərəfindən işğalını əsas şərt kimi irəli sürürdülər. Aydındır ki, belə bir tələb birbaşa olaraq geosiyasi zəmində nəzərdə tutula bilməz. Geosiyasət bizə yalnız hansı ərazinin digər ərazilərə nisbətdə yerləşməsinə görə qabaqcadan dünyanın ağasının məkanı kimi təyin olunduğunu söyləyir. O bizə bu ağalığın ayrıca hansı xalqa nəsib olacağını söyləmir. Belə ki, "Mərkəz"i işğal etməyin alman xalqının missiyası olduğunu göstərməyə can atan alman geosiyasi məktəbi geosiyasi nəzəriyyəni əhalinin təzyiqi arqumenti ilə birləşdirirdi. Almanlar "ərazisi olmayan xalq" idi və onların yaşamaq üçün sahib olmalı olduqları "yaşayış ərazisi"nin Şərqi Avropanın boş düzənliklərində işğal edilməli olduğuna işarə edilirdi.

Makkinderin və Ferqrivin yazılarında təqdim olunan geosiyasət milli güc reallığının bir aspektinin həqiqi təsvirini verirdi və bu təsvir coğrafiyanın müstəsna və ona görə də təhrif olunmuş bucağından görünürdü. Hauzhofer və onun davamçılarının əllərində isə geosiyasət Almaniyanın milli arzularına xidmət edən ideoloji silah kimi istifadə olunan siyasi metafizika növünə çevrildi.[1]

Millətçilik

Geosiyasət milli güc problemini müstəsna olaraq coğrafiya nöqteyi-nəzərindən anlamaq cəhdidir və o, prosesin gedişində əslini itirib yalançı elmi jarqonda ifadə olunan siyasi metafizikaya çevrilir. Millətçilik isə milli gücü müstəsna olaraq, yaxud ən azından əsas etibarilə milli xarakter nöqteyi-nəzərindən izah etməyə çalışır və o, prosesin gedişində əslini itirib irqçilik siyasi metafizikasına çevrilir. Coğrafi yerləşmə geosiyasət üçün milli gücün bir təyinedicisi olduğu kimi, bir xalqa mənsubluq da millətçilik üçün eyni təyinedici vəzifəni daşıyır. Bir xalqa mənsubluq din, mədəniyyət, ümumi mənşə, yaxud irq, yaxud da fərdin xalqa mənsub olmaq qərarı baxımından təyin oluna bilər. Lakin bunun necə təyin olunmasından asılı olmayaraq, bir xalqa mənsubluq mahiyyətinə görə hər zaman ayrıca bir xalqın ümumilikdə sahib olduğu və onu digər xalqlardan fərqləndirən milli xarakter adlanan müəyyən keyfiyyətlərdə pay sahibi olmaqla nəticələnir. Milli xarakterin qorunub saxlanması və xüsusilə onun yaradıcı bacarıqlarının

[1] Qərb yarımkürəsinin təcridetmə və həmrəyliyin ideoloji mahiyyətləri geosiyasətə o baxımdan oxşardır ki, onlar xarici siyasət konsepsiyasını təhrif edilmiş və uydurma coğrafi amillərdən götürür. Mətndə təcridetmənin belə təhrifinə işarə edilir; Qərb yarımkürəsinin coğrafi birliyinin uydurma xarakterinə dair isə bax: Eugene Staley, "The Myth of the Contiinents," in *Compass of the World*, edited bay Hans W.Weigert and Vilhjalmur Stefansson (New York: Macmillan, 1944), səh. 89-108.

inkişafı xalqın ali vəzifəsidir. Bu vəzifəni yerinə yetirmək üçün xalqın onu digər xalqlara qarşı qoruyacaq və onun öz inkişafına təkan verəcək gücə ehtiyacı var. Başqa sözlə, xalqın dövlətə ehtiyacı var: buna görə də "Bir xalq – bir dövlət" şüarı millətçiliyin siyasi postulatıdır; milli dövlət isə onun idealıdır.

Lakin baxmayaraq ki, xalqın özünü qoruyub saxlamaq və inkişaf etdirmək üçün dövlətin gücünə ehtiyacı var, dövlətin də öz gücünü qorumaq və artırmaq üçün milli birliyə ehtiyacı var. Xüsusilə Almaniyanın millətçi fəlsəfəsində – məsələn, Fixte və Hegelin yazılarında – milli xarakter və ya ruh milli birliyin qəlbi, dövlətin siyasi təşkilatı isə bədəni kimi göstərilir və milli birliyin digər milli birliklər arasında öz missiyasını yerinə yetirmək üçün bunların ikisinə də ehtiyacı var. Milli ovqat və vətənpərvərliyin mahiyyətini təşkil edən yaxınlıq hissi, ümumi mədəniyyət və adətlərə sahib olmaq, ümumi qismət düşüncəsi millətçilik tərəfindən siyasi mistikaya çevrilir və burada milli birlik və dövlət ayrı-ayrı fərdlərindən kənar və onlardan üstün, mütləq sədaqət göstərilməyə haqqı olan və qədim dövrün bütləri kimi insan və məhsullardan qurbanlara layiq fövqəlbəşər varlıqlar forması alır.

Bu mistika milli xarakterin irqçi pərəstişkarlığı ilə öz zirvəsinə çatır. Burada xalq bioloji mahiyyətinə – irqə görə müəyyən olunur və o, saf qalana qədər bütün gücü və əzəmətiylə milli xarakter istehsal edir. Irqin yad ünsürlərin qarışması ilə zəifləməsi xalqın xarakterini korlayır və dövlətin gücünü zəiflədir. Beləliklə, xalqın homogenliyi və irqin saflığı elə milli gücün mahiyyəti kimi özünü göstərir və milli güc naminə milli azlıqlar ya xalqa qarışmalı, ya da xaric edilməlidir. Sonda öz xalqının milli xarakteri bütün keyfiyyətlərin – cəsarət, sədaqət, intizam, sənaye, dözümlülük, dərrakə və liderlik bacarığının – saxlandığı yerdir və onlara sahiblik digər dövlətlər üzərində üstün gücün tətbiq olunmasını əsaslandırır və eyni zamanda belə gücün tətbiqini mümkün edir. Bütün millətçilik üçün xarakterik olan öz xalqının keyfiyyətlərini olduğundan üstün qiymətləndirmək hakim irqin anlayışında milli xarakterin özünün bütləşdirilməsinə gətirib çıxarır. Hakim irq öz milli xarakterinin üstün keyfiyyəti hesabına dünyanı idarə etmək niyyətinə düşür. Bu keyfiyyətlərin hesabına onun dünya ağalığını həyata keçirmək üçün potensial gücü var və həmin fəaliyyətsiz potensial imkanları dünya imperiyasının həqiqətlərinə çevirmək dövlətçiliyin və hərbi istilanın vəzifəsidir.

Millətçiliyin elmi və siyasi ifratçılığı və onun əslini itirmiş törəməsi olan irqçilik qeyri-millətçi düşüncəni geosiyasətin ifratçılıqlarından daha çox hiddətləndirmiş və onda özünə qarşı nifrət oyatmışdır. Geosiyasətin ifratçılıqları əsas etibarilə Almaniya ilə məhdudlaşmış və məxfi bir dildə ifadə olunmuşdur. Millətçiliyin ifratçılıqları isə məhvetmə, əsarət və yalnız müəyyən ölkələrin dünya istilası formasında müqəddəs müharibələrin fanatizmində yox olmuş, lakin əksər

yerlərdə öz izini qoymuş dünyəvi bir etiqadın məntiqi törəməsidir. Millətçilik milli xarakteri öz siyasi fəlsəfəsi, proqramı və fəaliyyətinin dayaq nöqtəsi kimi qəbul etdiyindən tələbkar araşdırmaçılar çox vaxt digər bir ifratçılığa getməyə meyil etmiş və ümumiyyətlə, milli xarakterin mövcudluğunu inkar etmişlər. Onlar diqqəti millətçiliyin mifik və subyektiv mahiyyətini nümayiş etdirməyə yönəldərək, onun əsassız empirik bünövrəsi olan milli xarakterin mifdən başqa bir şey olmadığını göstərməyə can atıblar.

Milli xarakterin "qan" ilə, yəni müəyyən bir qrupun üzvlərinin ümumi bioloji xüsusiyyətiylə, guya ki zəruri olan təyinatının, əslində, heç bir əsası olmayan siyasi uydurma olduğu haqqında millətçilik və irqçiliyə dair tənqidlərlə asanlıqla razılaşmaq olar. Həmçinin razılaşmaq olar ki, milli xarakterin təmiz irqlərin xüsusiyyətlərinin dəyişməzliyindən irəli gələn mütləq sabitliyi də siyasi mifologiya sahəsinə aiddir. ABŞ-ın bir dövlət kimi mövcudluğu və onun mənimsədiyi qüvvələr hər iki mülahizənin yanlış olduğunun inandırıcı sübutunu ortaya qoyur. Digər tərəfdən, milli xarakterin ümumiyyətlə mövcudluğunu inkar etmək bizim yuxarıda göstərdiyimiz təcrübi faktlara ziddir.[1] Belə bir inkar dövlətin gücünün digər dövlətlərə nisbətdə düzgün ölçülməsinə milli xarakterin millətçi ilahiləşdirilməsindən az zərər vurmur.

Militarizm

Militarizm geosiyasət və millətçiliyin coğrafiya və milli xarakterə münasibətdə də yol verdiyi eyni yanlışa hərbi hazırlığa münasibətdə yol verir. Militarizm dövlətin gücünün tam olmasa da, əsasən, onun xüsusilə kəmiyyət baxımından nəzərdə tutulan hərbi qüdrətindən təşkil olunduğunu irəli sürən konsepsiyadır. Dünyada ən geniş ordu, ən böyük donanma və ən sürətli hava qüvvələri və nüvə silahlarının sayında üstünlük dövlətin gücünün yeganə olmasa da, ən əsas göstəricisidir.

Hərbi qüdrəti daimi ordudan daha çox donanmalarda olan dövlətlər Almaniya, Fransa, yaxud Sovet İttifaqının militarizmi haqqında, onların özlərinə məxsus militarizm növü inkişaf etdirdiklərini qəbul etməyərək, bundan, adətən, ikrahla bəhs edir. Onlar Mehen kimi yazıçılardan təsirlənərək, donanmalarının ölçüsü və keyfiyyətinin onların dövlətinin gücü üçün əhəmiyyətini həddindən çox qabardırlar. ABŞ-da hərbi hazırlığın texnoloji aspektlərinin, məsələn, təyyarələrin sürəti və uçuş məsafəsi və nüvə silahlarının unikallığının həddindən çox qabardılmasına yönəlik geniş yayılmış bir tendensiya var. Qaz addımları ilə yeriyən əsgər kütləsi adi

[1] Bax: səh. 196 və növbəti səhifələr

almanı yanıltdı. Adi rus ərazi və əhalidən qaynaqlanan sovet gücünün üstünlüyünü mayın 1-də Qırmızı meydanın geniş ərazisini dolduran izdihamlarla hiss edir. Tipik ingilis nəhəng drednout formasında gəmilərin varlığında öz mühakimə qabiliyyətini itirərdi. Əksər amerikalılar "atom bombası" sirrinin doğurduğu heyrətamizliyə uydular. Hərbi hazırlığa yönəlmiş bütün bu münasibətlərdə ümumi olan yanlış bir inamı var ki, dövlətin gücü hesab olunan hər şey, yaxud da ən azından əksər şey hərbçilər və silahların sayı və keyfiyyəti baxımından nəzərdə tutulan hərbi amildir.[1]

Hərbi yanlış qaçılmaz olaraq dövlətin gücünün maddi qüvvə ilə bərabərləşdirilməsi ilə müşayiət olunur. Teodor Ruzveltin məşhur kəlamını başqa sözlərlə ifadə etsək, ucadan danışmaq və böyük dəyənək daşımaq, əslində, hərbi diplomatiyanın üstünlük verilən üsuludur. Bu üsulun tərəfdarları bilmirlər ki, bəzən yumşaq danışıb böyük dəyənək daşımaq ağıllı hərəkətdir və bəzən hətta böyük dəyənəyi evdə qoymaq daha ağıllı hərəkətdir; ehtiyacı olanda onu oradan götürmək mümkündür. Hərbi güc ilə müstəsna münasibətinə görə militarizm gücün maddi olmayan dəyərlərinə xor baxır. Onlar olmadan güclü bir dövlət başqa dövlətləri itaət göstərmək üçün hədələyə bilər, yaxud yalnız böyük güc hesabına istila edə bilər, lakin istila etdiyini idarə edə bilməz; çünki o, hakimiyyətinin könüllü şəkildə qəbul olunmasına nail ola bilməz. Sonda militarizm milli gücün səmərəsinə onun hərbi məqsədlə az istifadə olunması ilə nail olan təmkinlə idarə olunan gücə təslim olmalıdır. Sparta, alman və yapon militarizmlərinin uğursuzluqları Roma və Britaniyanın imperiya quruculuğu siyasətlərinin zəfərlərlə müqayisədə bizim militarizm adlandırdığımız elmi yanlışın müsibətli təcrübi nəticələrini göstərir.

Beləliklə, militarizm xətası milli gücün strukturu və çevrəsinə yeni kəskinlik bəxş edir. Militarizm – burada deyəcəklərimiz onun xətasının mahiyyətini təşkil edir – maddi gücün maksimumunun mütləq olaraq ümumilikdə dövlətin gücünün

[1] Militarizmin bu aspektinin mənalı təsviri üçün bax: R.H.Tawney, *The Acquisitive Society* (New York: Harcourt, Brace, 1920), səh. 44. "Militarizm ordunun deyil, cəmiyyətin xüsusiyyətidir. Onun mahiyyətini hərbi hazırlığın hər hansı səviyyəsi və həcmi deyil, diqqəti ictimai həyatın müəyyən bir ünsürünə yönəldərək, sonda onun bütün qalan ünsürlərin hakimi səviyyəsinə qaldırılması ilə nəticələnən psixika təşkil edir. Hərbi qüvvələrin mövcudluğu məqsədi unudulur. Hesab olunur ki, onlar özözlüyündə mövcuddur və heç bir əsaslandırmaya ehtiyacları yoxdur. Onlara kamil olmayan bir dünyada lazımlı alət kimi münasibət göstərilmək əvəzinə, onlar mövhumi ehtiram obyekti səviyyəsinə qaldırılırlar, sanki dünya onlar olmadan zavallı darıxdırıcı bir yer olar və nəticədə siyasi təsisatlar da, sosial qanunlar da, elm də, əxlaq da, din də bir fəaliyyətə uyğun gələn qəlib forması alar ki, bu da normal cəmiyyətdə polis, məhbusların mühafizəsi, yaxud kanalizasiyaların təmizlənməsi kimi ikinci dərəcəli fəaliyyət, militarist dövlətdə isə cəmiyyətin özünün mistik icmal formasıdır". "Militarizm ... fetiş ibadətdir. O, insanların qəlblərinin büt qarşısında itaətkarlığı və onu məmnun etmək üçün bədənlərinə əzab verməsidir". (Naşirin icazəsiylə çap edilib)

maksimumu mənasını vermədiyi paradoksunu anlamağa qabil deyil. Beynəlxalq siyasətin tərəzisinə toplamağı bacardığı maddi gücünün maksimumunu qoyan dövlət bütün rəqiblərinin öz gücünü bərabərləşdirmək və üstün etmək üçün maksimum səyləriylə qarşılaşacaq. Ona məlum olacaq ki, onun dostları yoxdur, yalnız vassalları və düşmənləri var. XV əsrdə müasir dövlət sisteminin yaranmasından sonra heç bir dövlət hər hansı bir zaman kəsiyində öz iradəsini yalnız maddi gücün hesabına dünyanın qalan dövlətlərinə zorla qəbul etdirməyə müvəffəq olmayıb. Militarizm üsullarını sınaqdan keçirmiş heç bir dövlət digər dövlətlərin onun üstün maddi gücündən irəli gələn xofunun yaratdığı birləşmiş müqavimətinə davam gətirmək üçün kifayət qədər güclü olmayıb.

Müasir dövrdə daimi üstün mövqeyini qoruyub saxlaya bilən yeganə dövlət bu mövqe üçün potensial üstün güc, üstün gücün etibarı və həmin üstün gücün azaz istifadə olunmasının nadir kombinasiyasına borcludur. Belə ki, Böyük Britaniya bir tərəfdən onun üstünlüyü üçün bütün ciddi maneələri aradan qaldırmağı bacardı, çünki onun təmkini ona güclü müttəfiqlər qazandırdı və bununla da onu həqiqətən üstün etdi. Digər tərəfdən o buna qarşı çıxmağa yönəlmiş meyli minimuma endirə bildi, çünki onun üstünlüyü digər dövlətlər üçün təhlükə yaratmırdı. Böyük Britaniya özünün ən böyük gücünün astanasında olanda o ən böyük siyasi mütəfəkkirinin xəbərdarlığını nəzərə aldı – həmin xəbərdarlıq ki, bu gün ilk dəfə 1793-cü ildə olduğu qədər yerinə düşür.

İddialara qarşı ehtiyat tədbirləri arasında bir tədbiri bizim *özümüzün* olanlara qarşı həyata keçirmək yerinə düşər. Düzünü desəm, mən bizim *öz* gücümüzdən və *öz* iddiamızdan qorxuram; mən bizim çox qorxulu olmağımızdan qorxuram. Bizim insan olmadığımızı və insan kimi heç vaxt bu və digər üsulla böyüyüb güclənmək istəməyəcəyimizi söyləmək gülməli olar. Deyə bilərikmi ki, biz elə indiki məqamda nifrətdoğuran dərəcədə güclənməmişik? Biz artıq, demək olar ki, dünyanın bütün ticarətini ələ keçirmişik. Bizim Hindistandakı imperiyamız vahiməli bir şeydir. Əgər biz ticarətdə yalnız bütün bu üstünlüyə malik olduğumuz deyil, həmçinin mütləq şəkildə, heç bir nəzarətsiz bütün dövlətləri öz xoş niyyətimizdən asılı halda saxlayacağımız bir mövqeyə gəlsək, deyə bilərik ki, biz bu heyranedici və bu günə qədər misli görünməmiş gücü sui-istifadə etməyəcəyik. Lakin bütün digər dövlətlər düşünəcək ki, biz onu sui-istifadə edirik. Bu, qeyri-mümkündür, lakin qalan digər hallarda hadisələrin belə gedişi gec-tez bizə qarşı bir ittifaq yaradacaq ki, bu da bizim məhv olmağımız ilə nəticələnə bilər.[1]

[1] Edmund Burke, "Remarks on the Policy of the Allies with Respect to France," *Works*, Vol. IV (Boston: Little, Brown, 1899), səh. 457.

IV FƏSİL

DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI:

QÜVVƏLƏR TARAZLIĞI

11. Qüvvələr tarazlığı

Hər biri status-kvonu qorumaq və yaxud aradan qaldırmağa çalışan bəzi dövlətlər tərəfindən güc üçün edilən cəhd zərurətdən qüvvələr tarazlığı[1] adlandırılan konfiqurasiyaya və onun qorunub saxlanması məqsədi daşıyan siyasətə gətirib çıxarır. Biz "zərurətdən" sözünü düşünülmüş şəkildə işlədirik. Çünki burada biz yenidən beynəlxalq siyasətin anlaşılmasına mane olmuş və bizi illüziyaların qurbanına çevirmiş vacib bir yanlış anlaşma ilə qarşılaşırıq. Bu yanlış anlaşılmaya görə, insanlar bir tərəfdə güc siyasəti və onun zəruri törəməsi olan qüvvələr tarazlığı, digər tərəfdə beynəlxalq münasibətlərin fərqli və daha yaxşı növü arasında seçimə malikdirlər. O israr edir ki, qüvvələr tarazlığına əsaslanan xarici siyasət bir neçə mümkün xarici siyasətdən biridir və yalnız ağılsız və bədxah insan birincini seçib, ikincidən imtina edər.

Növbəti səhifələrdə göstərəcəyik ki, beynəlxalq qüvvələr tarazlığı bir sıra muxtar vahidlərdən təşkil olunmuş bütün cəmiyyətlərin tərkib hissələrinin muxtariyyəti üçün borclu olduqları ümumi sosial prinsipin yalnız müəyyən bir təzahürüdür; qüvvələr tarazlığı və onun qorunub saxlanmasına yönəlmiş siyasətlər yalnız zəruri deyil, həmçinin suveren dövlətlərdə vacib sabitləşdirici amildir; və beynəlxalq qüvvələr tarazlığının qeyri-sabitliyinin səbəbi prinsipin qüsurlu olması deyil, prinsipin suveren dövlətlər cəmiyyətində fəaliyyət göstərməli olduğu məxsusi şəraitdir.

SOSİAL MÜVAZİNƏT

Qüvvələr tarazlığı universal anlayış kimi

"Müvazinət" anlayışı "tarazlığ"ın sinonimi kimi, bir qayda olaraq, bir çox elmlərdə istifadə olunur – fizika, biologiya, iqtisadiyyat, sosiologiya və siyasət elmi.

[1] "Qüvvələr tarazlığı" termini mətndə 4 müxtəlif mənada işlədilir: (1) münasibətlərin müəyyən vəziyyətinə yönəlmiş siyasət; (2) münasibətlərin real vəziyyəti; (3) qüvvələrin təxminən bərabər paylanması və (4) qüvvələrin istənilən formada paylanması. Termin dəyişikliksiz istifadə olunanda o, münasibətlərin gücün bəzi dövlətlər arasında təxminən bərabər paylandığı real vəziyyətini nəzərdə tutur. Terminin istənilən qüvvələr bölgüsünü nəzərdə tutduğu hal üçün bax: səh. 287 və növbəti səhifələr

O, bir sıra muxtar qüvvələrdən təşkil olunmuş sistem daxilində sabitliyi ifadə edir. Müvazinət xarici bir qüvvə, yaxud sistemi təşkil edən bu və digər ünsürün dəyişməsiylə pozulan zaman sistem ya ilkin müvazinəti bərpa etməyə, ya da yeni müvazinət yaratmağa meyillik nümayiş etdirir. Belə ki, müvazinət insanın bədənində mövcuddur. İnsanın bədəni böyümə prosesində dəyişən zaman müvazinət bədənin müxtəlif orqanlarında baş verən dəyişikliklər bədənin sabitliyini pozmayana qədər davam edir. Bu, xüsusilə o halda belə olur ki, müxtəlif orqanlarda kəmiyyət və keyfiyyət dəyişiklikləri bir-birinə mütənasib olur. Lakin bədən xarici müdaxilə ilə yaralanmaya və orqanlarından birinin itirilməsinə məruz qalarsa və ya orqanlarından birində bədxassəli böyümə və ya patoloji dəyişiklik baş verərsə, müvazinət pozulur və bədən bu pozğunluğu eyni, yaxud pozulmanın baş verməsindən əvvəl əldə olunmuş müvazinətdən fərqli müvazinət yaratmaqla dəf etməyə çalışır.[1]

Müvazinətin eyni anlamı sosial elmdə də, məsələn, iqtisadiyyatda iqtisadi sistemin müxtəlif ünsürləri, qənaətlər və investisiyalar, ixrac və idxal, təklif və tələb, dəyər və qiymət arasında əlaqələrə münasibətdə istifadə olunur. Çağdaş kapitalizmin özü "tarazlayıcı güc"[2] sistemi kimi təsvir olunub. Bu həmçinin bütövlükdə

[1] Müqayisə et: məsələn, insan bədənindəki və cəmiyyətdəki müvazinət arasında parlaq analogiya üçün: Walter B.Cannon, *The Wisdom of the Body* (New York: W.W.Norton, 1932), səh. 293-294: "Diqqətəlayiqdir ki, başlanğıcda siyasi qurum özü düşünülməmiş avtomatik sabitləşdirmə proseslərinin bəzi əlamətlərini göstərir. Keçən fəsildə mən belə bir postulatdan bəhs etmişdim ki, mürəkkəb bir sistemdə sabitliyin müəyyən dərəcəsi özü qurumların həmin sabitliyi qorumaq üçün etdikləri və ya etməyə hazır olduqlarının sübutudur. Bundan əlavə, sistem sabit qalırsa, bu ona görə baş verir ki, dəyişikliyə doğru istənilən meyillik dəyişikliyə müqavimət göstərən amil və ya amillərin artan təsiri ilə qarşılaşır. Bir çox məlum faktlar təsdiq edir ki, bu fikirlər hətta mövcud qeyri-stabil vəziyyətdə cəmiyyət üçün müəyyən dərəcədə həqiqətdir. Mühafizəkarlığın nümayişi radikal iğtişaşı qızışdırır və bu da öz növbəsində mühafizəkarlığa qayıdışla müşayiət olunur. Hökumətin səriştəsizliyi və onun nəticələri islahatçıları hakimiyyətə gətirir, lakin onların sərt idarəetməsi tezliklə harınlıq və tərxis arzusu doğurur. Müharibənin nəcib coşqunluğu və qurbanları əxlaqi etinasızlıq və arzularının əsiri olmağın işrəti ilə əvəz olunur. Xalqın hər hansı bir güclü meyli çətinliklə fəlakət mərhələsinə çatır; həmin ifrata çatmazdan əvvəl tendensiyanı yoxlayan islahedici qüvvələr meydana çıxır və onlar, bir qayda olaraq, özləri reaksiyaya səbəb olacaq qədər üstün bir dərəcəyə yüksəlirlər. Bu sosial titrəyişlərin təbiətinin və onların aradan qaldırılmasının araşdırılması əhəmiyyətli anlaşmaya və ola bilsin ki, iğtişaşların daha dar hüduda salınması vasitələrinə gətirib çıxara bilər. Bununla belə, bu məqamda biz yalnız onu qeyd edirik ki, iğtişaşlar təxminən məhdudlaşdırılır və bu məhdudlaşdırma, ola bilsin ki, sosial sistemin dəyişikliklərə müqavimət göstərmək və struktur və xarakterinin daimiliyini qorumaq bacarığının – homestazın ilkin mərhələləridir". (Naşirin icazəsiylə təkrar nəşr edilib. Copyright 1932, 1939, by Walter B.Cannon)

[2] John K.Galbraith, *American Capitalism, the Concept of Countervailing Power* (Boston: Houghton Mifflin, 1952)

cəmiyyətə də şamil olunur. Belə ki, biz müvafiq tarazlıq axtarışındayıq: müxtəlif coğrafi regionlar, məsələn, şərq və qərb, şimal və cənub arasında; müxtəlif fəaliyyət növləri, məsələn, kənd təsərrüfatı və sənaye, ağır və yüngül sənaye, böyük və kiçik biznes, istehsalçılar və istehlakçılar, idarəetmə və əmək; müxtəlif funksional qruplar, məsələn, şəhər və kənd, yaşlılar, ortayaşlılar və gənclər, iqtisadi və siyasi sahə və orta, yuxarı və aşağı siniflər arasında.

Bütün bu müvazinətlərin əsasında iki fərziyyə durur: birincisi, tarazlaşdırılmalı ünsürlər cəmiyyət üçün lazımlıdır, yoxsa mövcud olmaq haqqına sahibdir, ikincisi, aralarında müvazinətin olmadığı bir vəziyyətdə bir ünsür digərləri üzərində üstünlük qazanar, onların maraqlarına və hüquqlarına toxunar və nəticədə onları məhv edə bilər. Beləliklə, bütün bu kimi müvazinətlərin məqsədi sistemi təşkil edən ünsürlərin müxtəlifliyini pozmadan onun sabitliyini qoruyub saxlamaqdır. Əgər məqsəd yalnız sabitlik olsaydı, buna bir ünsürün digərlərini məhv etməsi və ya üstələməsi və onların yerini tutması ilə də nail olmaq olardı. Məqsəd sabitlik, üstəgəl sistemin bütün ünsürlərini qoruyub saxlamaq olduğundan müvazinətin məqsədi istənilən ünsürün digəri üzərində üstünlük qazanmasının qarşısını almaq olmalıdır. Müvazinəti qoruyub saxlamaq üçün istifadə olunan üsullar müxtəlif ünsürlərə əks meyillərin birinin meyli digərlərinin meylini üstələyəcək qədər güclü olmadığı, lakin digərlərinin onunkunu üstələməsinin qarşısını almaq üçün kifayət qədər güclü olduğu nöqtəyə çatdırmaq imkanı verməkdən ibarətdir. Robert Bridczin sözləri ilə desək:

"Bizim sabitliyimiz ancaq tarazlıqdır; və gözlənilməyənin məharətlə idarə olunmasında işlədilən müdrik yalanlardır".

Sosial müvazinətin mexanikası heç yerdə *"Federalist"*də olduğu kimi aydın və eyni zamanda daha sadə dildə təsvir edilməmişdir. Amerika hökumətinin nəzarət və tarazlıq sisteminə dair *"Federalist"* jurnalının 51-ci nömrəsi yazır:

"Daha üstün motivlərin qüsurlarının əks və toqquşan maraqlarla belə aradan qaldırılması siyasəti şəxsi, eləcə də ictimai olmaqla insan münasibətlərinin bütün sisteminə şamil edilə bilər. Biz bunun özünü gücün bütün ikinci dərəcəli bölgülərində nümayiş etdirdiyini görürük və burada dəyişməz məqsəd bəzi vəzifələri elə bir tərzdə bölmək və təşkil etməkdir ki, hər biri digərinə nəzarət edə bilsin – hər bir fərdin şəxsi marağı ictimai hüquqlar üzərində keşikçi ola bilsin. Uzaqgörənliklə görülən bu kimi tədbirlər dövlətin ən böyük güclərinin bölgüsündə az əhəmiyyətli ola bilməz.

Con Rendolfun sözləri ilə desək, "Perqament dərilərinin hamısının üstünü məhdudiyyətlərlə örtmək olar, lakin gücü yalnız güc məhdudlaşdıra bilər".[1]

[1] Götürülüb: William Cabell Bruce, *John Randolph of Roanoke* (New York and London: G.P.Putnam's Sons, 1922), Vol. II, səh. 211.

Daxili siyasətdə qüvvələr tarazlığı

Müvazinət, yaxud tarazlıq anlayışı, əslində, ən vacib tətbiqini beynəlxalq arenadan kənarda, daxili idarəetmə və siyasət sahəsində tapır.[1] Parlament qurumları çox vaxt öz daxillərində qüvvələr tarazlığı yaradıb. Xüsusilə çoxpartiyalı sistem belə fəaliyyət üçün şərait yaradır. Burada hər biri qanunverici orqanın bir azlığını təmsil edən iki qrup çox vaxt bir-birinə qarşı çıxır və əksəriyyətin yaranması üçüncü bir qrupun verdiyi səslərdən asılı olur. Üçüncü qrup həmin iki qrupdan potensial və real olaraq daha zəif olanına qoşulmağa meyil edir və bununla daha güclü olan üzərində nəzarəti təmin edir. Hətta ABŞ Konqresinin ikipartiyalı

[1] Yəqin ki, qeyd etməyə ehtiyac yoxdur ki, qüvvələr tarazlığı universal sosial fenomen olduqda onun daxili və beynəlxalq siyasətdəki vəzifələri və nəticələri fərqli olur. Qüvvələr tarazlığı daxili siyasətdə birləşmiş, güclü fikir birliyi və mərkəzi hökumətin, bir qayda olaraq, dəyişməyən gücü vasitəsilə bir arada qalan cəmiyyətin nisbətən sabit fəaliyyət çərçivəsi daxilində fəaliyyət göstərir. Fikir birliyinin zəif olduğu və mərkəzi hakimiyyətin mövcud olmadığı beynəlxalq arenada isə cəmiyyətin sabitliyi və onun tərkib hissələrinin azadlığı qüvvələr tarazlığının fəaliyyətindən daha çox asılıdır. Bu haqda 14-cü paraqrafda daha çox danışacağıq.
Həmçinin müqayisə et: J.Allen Smith, *The Growth and Decadence of Constitutional Government* (New York: Henry Holt, 1930), səh. 241, 242: "Beynəlxalq hüququ şərh edəcək və beynəlxalq münasibətlərə nəzarət edəcək hər hansı ümumi və tərəfsiz qurumun olmadığı bir şəraitdə hər bir dövlət yalnız öz hakimiyyətini artırmaq deyil, həmçinin mümkün olduqca rəqib dövlətinin hakimiyyətində hər hansı yüksəlişin qarşısını almaq üçün təlaş keçirir. Müstəqil dövlətlərdən təşkil edilmiş dünyada özünü mühafizə instinkti özünü xarici təcavüz təhlükəsindən qorumaq üçün hər bir istəyi gücə çevirmək üçün fəaliyyət göstərir. Heç bir ölkənin təklikdə ona qarşı duran dövlətlərin hər hansı mümkün birləşməsinə qarşı özünü təhlükəsiz hiss etmək üçün kifayət qədər güclü olmaması gerçəkliyi ittifaqların və əks-ittifaqların yaradılmasını zəruri edir və hər bir dövlət onların vasitəsilə təhlükəsizliyi xaricdən təhdidə məruz qaldığı halda ehtiyac duyulan dəstəyi təmin etməyə çalışır. Bu, adətən, qüvvələr tarazlığını qoruyub saxlamaq uğrunda mübarizəyə şamil edilir. Bu, sadəcə olaraq, dövlətin nəzarət və tarazlama nəzəriyyəsinin beynəlxalq siyasətə tətbiqidir. Haqlı olaraq hesab edilir ki, əgər hər hansı bir dövlət beynəlxalq münasibətlərdə üstün mövqe əldə edərsə, bu, dünyanın qalan dövlətlərinin maraqları və rifahı üçün açıq təhlükə olar. Güc hətta müdafiə vasitəsi kimi əldə edilmiş olsa da belə, ona sahib olan ölkə özünü istənilən potensial düşmənindən güclü hiss edən kimi beynəlxalq sülh üçün təhdidə çevrilir. Beynəlxalq siyasətdə qüvvələr tarazlığını qoruyub saxlamaq hər hansı xüsusi marağın dövlətdə üstünlük qazanmasının qarşısını almaqdan az əhəmiyyətli deyil. Lakin bu qüvvələr tarazlığı ideyası hücum xofuna əsaslandığına və hər bir dövlətin müharibəyə hazırlığını vacib hesab etdiyinə görə o, həqiqi mənada beynəlxalq sülhün təminatçısı kimi qəbul oluna bilməz". (Naşirin icazəsiylə təkrar nəşr edilmişdir). Həmçinin müqayisə et: *The Cambridge Modern History* (New York: Macmillan, 1908), Vol. V, səh. 276.

sistemi Franklin D.Ruzvelt administrasiyasının son illərində və Trumenin hakimiyyətinin əksər dövründə cənub demokratlar özlərini üçüncü tərəf kimi təqdim edəndə və bir çox məsələlərdə respublikaçı azlıqla birlikdə səs verəndə belə nəzarət və tarazlama prosesinin tipik formasını nümayiş etdirdi. Bununla onlar yalnız Konqresdə demokratların əksəriyyətinə deyil, eləcə də həmçinin Demokrat Partiyası tərəfindən idarə olunan icraçı qanada nəzarət edirdilər.[1]

Amerika hökuməti sabitliyin tərkib hissələri arasındakı müvazinətlə qorunub saxlanılan hökumət sisteminin tanınmış müasir nümunəsidir. Lord Braysın sözləriylə desək:

"Konstitusiya açıq-aşkar nəzarət və tarazlıq aləti kimi yaradılmışdır. Hökumətin hər bir qolu digərlərini məhdudlaşdırmalı və ümumi müvazinətini qoruyub saxlamalı idi. Qanunverici hakimiyyət icraedici hakimiyyəti, məhkəmə hakimiyyəti isə hər ikisini tarazlamalı idi. Qanunverici orqanın iki palatası bir-birini tarazlamalı idi. Milli hökumət bütün bu hakimiyyət qolları ilə ştatların hökumətlərinə qarşı tarazlanırdı. Müvazinət sənədlə, əhalinin özü tərəfindən dəyişməz mühafizə altına alındığından milli hökumətin heç bir qolu digərini mənimsəmək, yaxud üstələmək imkanına malik deyildi... hər bir qol öz müstəqilliyini qoruyub saxlayır və müəyyən hədlər çərçivəsində digərlərinə qarşı çıxa bilər.

Lakin siyasi qurumlar və idarələr arasında (yəni zaman-zaman eyni idarəni təşkil edən şəxslər) zərurətdən aramsız bir nifaq, cənab Darvinin bitkilər və heyvanlar arasında mövcud olduğunu göstərdiyinə oxşar mövcudluq uğrunda bir mübarizə var; bitkilər və heyvanlarda olduğu kimi, siyasi sferada da bu mübarizə hər bir qurum və idarənin öz mümkün gücünü özünü qorumaq üçün tətbiq etməsinə və öz faydalarından inkişafın mümkün olduğu istənilən istiqamətdə istifadə etməsinə rəvac verir. Amerika hökumətinin hər bir qolu öz dairəsini və

[1] Müqayisə et: ümumi məsələnin aydın müzakirəsi üçün: John Stuart Mill, *Considerationson Representative Government* (New York: henry Holt, 1982), səh. 142: "Cəmiyyətin belə təşkil olunmuş vəziyyətində əgər təmsilçi sistem mükəmməl şəkildə bütövləşsəydi və həmin vəziyyətdə onu qoruyub saxlamaq mümkün olsaydı, onun təşkili elə olmalı idi ki, bu iki sinif – bir tərəfdə fiziki əmək işçiləri və onlar kimilər, digər tərəfdə isə işə götürənlər və onlar kimilər – təmsilçi sistemin təşkilində bərabər şəkildə tarazlaşdırılmalı və hər biri parlamentdə təxminən bərabər sayda səs imkanına malik olmalıdır; odur ki hər bir sinfin əksəriyyətinin onlar arasındakı fərqdən asılı olmayaraq, əsasən, onların sinif maraqları tərəfindən idarə olunacağını hesab etsək, hər birinin mülahizəni səbəb, ədalət və ümumun yaxşılığına tabe edəcək bir azlığı olar; və onların istənilən birinin bu azlığı digərinin bütövünə qoşulub tərəzini öz çoxluğunun istənilən tələbinin əksinə çevirər, hansı ki, üstünlük əldə etməli olmaq üçün belə olmazdı". Həmçinin bax: səh. 203 və federal dövlətlər daxilində qüvvələr tarazlığına dair səh. 55 və 251.

gücünü genişləndirməyə can atıb; hər biri müəyyən istiqamətlərdə irəliləyiş əldə edib, lakin digərlərində başqa qollar tərəfindən eyni və ya daha güclü təzyiqin göstərilməsiylə məhdudlaşdırılıblar".[1]

"Federalist" jurnalının 51-ci nömrəsi bu "dinamik müvazinət"in güc strukturunu, yaxud da Çarlz A.Berdin[2] adlandırdığı kimi, "gücün hərəkətdə olan paraleloqramı"nı müəyyən edir: "... qüsur hökumətin daxili strukturunu elə düşünüb tapmaqla aradan qaldırılmalıdır ki, onun bəzi tərkib hissələri qarşılıqlı əlaqələrlə bir-birini onlara məxsus olan yerdə saxlamaq vasitəsi olsun... Lakin eyni idarə daxilində bəzi güclərin tədricən bir yerə toplaşmasına qarşı böyük təhlükəsizlik hər bir idarəni idarə edənlərə digərləri tərəfindən edilən qəsdə müqavimət göstərmək üçün zəruri struktur vasitələri və şəxsi motivlər verməkdən ibarətdir... Bu halda müdafiənin təmini bütün digər hallarda olduğu kimi hücum təhlükəsinə müvafiq olmalıdır... Cəhd cəhdə mane olmaq üçün edilməlidir. İnsanın marağı məkanın struktur qaydaları ilə əlaqələndirilməlidir..." Bu struktur tədbirlərinin məqsədi "cəmiyyətin bir hissəsini digər hissəsinin ədalətsizliyindən mühafizə etməkdir. Vətəndaşların müxtəlif sinifləri mütləq şəkildə fərqli maraqlara sahibdir. Əgər əksəriyyət ümumi maraqla bir araya gələrsə, azlığın hüquqları təhlükə altına düşər".

Yazıçı Medison azlığın hüquqlarını "cəmiyyətdə vətəndaşların, ümumun əksəriyyətinin ədalətsiz birləşməsini qeyri-real olmasa belə, çox ağlagəlməz kimi təqdim edəcək qədər olduqca fərqli çeşidlərini qəbul etməklə" təmin etməyə ümid bəsləyirdi. "...Cəmiyyət özü o qədər çox hissələrə, maraqlara və vətəndaş siniflərinə parçalanacaq ki, fərdlərin, yaxud azlığın hüquqları əksəriyyətin maraqlı olan birləşmələri tərəfindən az təhlükəyə məruz qalacaq". Təhlükəsizlik "maraqların çoxluğu"nda gizlənəcək və təhlükəsizliyin dərəcəsi "maraqların sayından asılı olacaq". Çarlz A.Berd isə Amerika hökumətinin fəlsəfəsini belə ümumiləşdirir: "ABŞ-ı yaradanlar anlayırdılar ki, fəaliyyətdə olan hökumət gücdür. Onlar bəşəri varlıqların cəhdlərini, maraqlarını və güclərini üç idarədə bir-birinə qarşı elə qoymaq istəyirdilər ki, hər hansı bir agentlər qrupunun bütün gücü ələ keçirməsi və təhlükəli dərəcədə güclənməsinin qarşısı alınsın".[3]

Beynəlxalq siyasət terminini yalnız *"Federalist"* jurnalında lord Brays və Çarlz A.Berdin Amerika hökumətinin strukturu və dinamikalarına dair analizlərində istifadə etdikləri anlayışlarla əvəz etmək ehtiyacı var ki, həm Amerika Konstitusiyasının nəzarət və tarazlıq sistemi, həm də beynəlxalq qüvvələr tarazlığı üçün

[1] *The American Commonwealth* (New York: Macmillian, 1891), Vol. I, səh. 390-391.
[2] *The Republic* (New York: Viking Press, 1944), səh. 190-191
[3] Yenə orada. Həmçinin müqayisə et: John C.Calhoun, "A Disquisition on Government," in *the Works of John C.Calhoun* (Columbia: A.S.Johnston, 1851), Vol. I, səh. 35-36, 38-39.

ümumi olan əsas elementlər meydana çıxsın. Başqa sözlə, eyni hərəkətverici qüvvələr Amerika nəzarət və tarazlıq sistemi və beynəlxalq qüvvələr tarazlığı sisteminin meydana gəlməsinə səbəb oldu. Hər iki sistem istifadə etdikləri vasitələrin və onların öz məqsədlərini dərketmə dərəcəsinin nə qədər fərqli ola bilməsindən asılı olmayaraq, öz sabitlikləri və tərkib elementlərinin muxtariyyəti naminə eyni funksiyaları yerinə yetirməyə cəhd edir. Hər ikisi dəyişiklik, müvazinətin pozulması və fərqli bir səviyyədə yeni tarazlığın qurulmasının eyni dinamik proseslərinə məruz qalır.

Beynəlxalq qüvvələr tarazlığının əsas formaları hansılardır? Onun meydana çıxdığı və içində fəaliyyət göstərdiyi səciyyəvi vəziyyətlər hansılardır? O hansı vəzifələri yerinə yetirir? Keçən tarixdə o hansı dəyişikliklərə məruz qalıb?

QÜVVƏLƏR TARAZLIĞININ 2 ƏSAS FORMASI

Beynəlxalq cəmiyyətin bünövrəsində 2 amil durur: onlardan biri müxtəliflik, digəri isə onun ünsürlərinin – ayrı-ayrı dövlətlərin antaqonizmidir. Ayrı-ayrı dövlətlərin güc istəkləri – hamısı olmasa da, bəziləri tarixin müəyyən anında – iki müxtəlif yolla bir-biriylə münaqişəyə girə bilər. Başqa sözlə, beynəlxalq arenada güc uğrunda mübarizə iki səciyyəvi formada aparıla bilər.

Birbaşa müxaliflik forması

A dövləti B dövlətinə münasibətdə imperialist siyasət yürüdür və B dövləti status-kvo, yaxud öz imperialist siyasətiylə bu siyasətə qarşı çıxa bilər. 1812-ci ildə Fransanın və onun müttəfiqlərinin Rusiyaya qarşı çıxması, Yaponiyanın 1931-ci ildən 1941-ci ilə qədər Çinə qarşı çıxması, 1941-ci ildən başlayaraq müttəfiqlərin "Ox ölkələri"nə qarşı çıxması bu formaya uyğun gəlir. Bu, başqa bir dövlət üzərində hakimiyyəti qurmaq istəyən dövlət ilə təslim olmağa etiraz edən birinci dövlət arasında birbaşa müxalifliyin olduğu formadır.

A dövləti də həmçinin C dövlətinə yönəlik imperialist siyasət yürüdə bilər və sonuncu ya müqavimət göstərə bilər, ya da susaraq həmin siyasət ilə razılaşa bildiyi halda, B dövləti C dövlətinə münasibətdə ya imperializm siyasəti, ya da status-kvo siyasəti formasında siyasət yürüdür. Bu halda C dövlətinin üstünlüyü A dövlətinin siyasətinin məqsədidir. B dövləti isə digər tərəfdən A dövlətinin siyasətinə etiraz edir, çünki o ya C dövlətinə münasibətdə status-kvonu qoruyub saxlamaq, ya da özü üçün C dövlətinin ağalığını istəyir. Burada A dövləti və B

dövləti arasında güc uğrunda mübarizənin forması birbaşa müxaliflik deyil, obyekti C dövlətinin üstünlüyü olan rəqabət formasıdır və A dövləti və B dövləti arasında yer alan güc yarışı yalnız həmin rəqabət vasitəsilə aparılır. Bu forma özünü, məsələn, Böyük Britaniya və Rusiya arasında İranda üstünlük uğrunda rəqabətdə göstərir və son 100 ildə bu rəqabətdə iki ölkə arasında güc uğrunda mübarizə özünü təkrar-təkrar büruzə vermişdir. Bu həmçinin II Dünya müharibəsindən sonra Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ arasında Almaniyada üstün təsir uğrunda rəqabətdə də aydın görünür. ABŞ və Çin, yaxud Sovet İttifaqı və Çin arasında Cənub-Şərqi Asiya ölkələrinə nəzarət uğrunda rəqabət eyni formanın digər bir nümunəsini təqdim edir.

Qüvvələr tarazlığı belə vəziyyətlərdə fəaliyyət göstərir və öz səciyyəvi vəzifələrini yerinə yetirir. Birbaşa müxaliflik formasında qüvvələr tarazlığı birbaşa olaraq iki dövlətdən birinin öz siyasətini digərinin siyasətini üstələməyi görmək arzusunun nəticəsidir. A dövləti B dövlətinə münasibətdə öz gücünü o dərəcədə artırmağa çalışır ki, B dövlətinin qərarlarına nəzarət edə bilsin və bununla imperialist siyasətinin uğuruna nail olsun. B dövləti isə digər tərəfdən öz gücünü o dərəcədə artırmağa çalışacaq ki, A dövlətinin təzyiqinə müqavimət göstərə bilsin və bununla A dövlətinin siyasətini uğursuzluğa düçar etsin, yaxud öz imperialist siyasətini uğur ehtimalı ilə həyata keçirsin. Sonuncu halda A dövləti öz növbəsində B dövlətinin imperialist siyasətinə müqavimət göstərə və öz imperialist siyasətini uğur ehtimalı ilə həyata keçirə bilmək üçün gücünü artırmalıdır. Müxalif qüvvələrin belə tarazlaşdırılması o vaxta qədər davam edəcək və bir dövlətin gücünü artırması digərinin də ən azından ona mütənasib şəkildə gücünün artırmasına səbəb olacaq ki, aidiyyəti dövlətlər imperialist siyasətlərinin məqsədlərindən tamamilə əl çəkmiş olmasa belə, onları dəyişəcəklər, yaxud da bir dövlət digəri üzərində həlledici üstünlüyə nail olacaq və ya nail olduğuna inanacaq. Sonra ya daha zəif olan daha güclü olanla razılaşır, ya da məsələni müharibə yolu ilə həll edir.

Qüvvələr tarazlığı belə bir vəziyyətdə müvəffəqiyyətlə fəaliyyət göstərdiyi müddətdə o, iki vəzifəni yerinə yetirir. O, müvafiq dövlətlər arasında əlaqələrdə hər zaman pozulmaq təhlükəsi altında olan və ona görə də hər zaman yenidən qurulmağa ehtiyacı olan möhkəm olmayan bir sabitlik yaradır. Bununla belə, bu, güc formasının ehtimal edilən şərtləri altında nail oluna bilən yeganə sabitlikdir. Çünki biz burada qüvvələr tarazlığının qaçılmaz daxili təzadı ilə qarşılaşırıq. Qüvvələr tarazlığının yerinə yetirdiyi hesab edilən iki vəzifədən biri dövlətlər arasında güc münasibətlərindəki sabitlikdir. Lakin, artıq şahidi olduğumuz kimi, həmin münasibətlər elə öz təbiətlərinə görə daimi dəyişikliklərə məruz qalır. Onlar mahiyyət etibarilə qeyri-sabitdir. Tərəzinin nisbi vəziyyətini müəyyən edən ağırlıqlar daimi olaraq ağırlaşaraq, yaxud yüngülləşərək dəyişməyə meyil etdiyindən

qüvvələr tarazlığının nail ola biləcəyi hər cür sabitlik əsassız olmalı və müdaxilə edən dəyişikliklərə uyğun olaraq daimi nizamlamalara məruz qalmalıdır. Uğurlu qüvvələr tarazlığının bu şərtlər altında yerinə yetirdiyi digər vəzifə bir dövlətin digərinin hegemonluğundan azadlığını təmin etməkdir.

Təsadüfən, yaxud da yalnız zamanın bir qismində deyil, təbiətinə görə və hər zaman qeyri-sabit və dinamik olan tarazlığın mahiyyətcə qeyri-sabit və dinamik xarakteri sayəsində aidiyyəti dövlətlərin müstəqilliyi də mahiyyətcə möhkəm deyil və təhlükə altındadır. Bununla belə, burada bir daha qeyd olunmalıdır ki, güc formasının verilmiş şərtləri altında müvafiq dövlətlərin müstəqilliyi digər dövlətlərin onun azadlığına qəsd etmək gücünün qarşısını almaq üçün ayrı-ayrı dövlətlərin gücündən başqa heç bir digər bünövrəyə söykənə bilməz. Aşağıdakı diaqram bu vəziyyəti təsvir edir:



Rəqabət forması

Mübarizənin digər forması olan rəqabət formasında qüvvələr tarazlığının mexanikası müzakirə olunanlarla oxşardır. B dövlətinin müxalifliyi qarşısında C dövlətinə ağalıq etmək üçün A dövlətinin lazım olan gücü B dövlətinin gücü tərəfindən üstələnməsə də belə, tarazlanır və bu zaman B dövlətinin C dövləti üzərində ağalığa nail olmaq üçün gücü öz növbəsində A dövlətinin gücü tərəfindən üstələnməsə də belə, tarazlanır. Bununla yanaşı, tarazlığın burada A dövlətiylə B dövləti arasında olan münasibətlərdə möhkəm olmayan sabitlik və təhlükəsizlik yaratmaqdan kənar yerinə yetirdiyi əlavə vəzifə C dövlətinin müstəqilliyini A və B dövlətlərinin qəsdlərindən qorumaqdan ibarətdir. C dövlətinin müstəqilliyi A və B dövlətləri arasında mövcud olan güc münasibətlərinin mütləq vəzifəsidir:



Əgər bu münasibətlərdə imperialist dövlətin, yəni A dövlətin xeyrinə həlledici çevriliş baş verərsə, C dövlətinin müstəqilliyi dərhal təhlükəyə məruz qalacaq:



Əgər status-kvo dövləti, yəni B dövləti həlledici və uzunmüddətli üstünlüyə nail olarsa, C dövlətinin azadlığı həmin üstünlüyə uyğun dərəcədə daha təhlükəsiz olacaq:



Nəhayət, əgər imperialist dövlət, yəni A dövləti öz imperialist siyasətindən tamamilə əl çəkər və ya onları həmişəlik C dövlətindən digər bir hədəfə, yəni D dövlətinə yönəldərsə, C dövlətinin azadlığı da həmişəlik təmin edilmiş olar:



Qüvvələr tarazlığının zəif dövlətlərin müstəqilliyini qoruyub saxlamaq üçün bu vəzifəsini heç kim Edmund Berkdən daha aydın izah etməmişdir. O, 1791-ci ildə "Fransa işlərinə dair düşüncələr"ində yazırdı:

"Nə qədər ki bu iki padşah [Prussiya kralı və alman imperatoru] ixtilafdadır, Almaniyanın azadlıqları təhlükədən uzaqdır. Lakin əgər onlar nə vaxtsa mütənasib qarşılıqlı böyümədə bir-birini qarşılıqlı şəkildə kiçiltmə ilə müqayisədə daha düzgün və daha dəqiq təyin olunmuş qarşılıqlı marağa malik olduqlarına inandırılaraq bir-birilərini anlayarlarsa, yəni əgər onlar qənimətin bölünməsindən digərlərinin onlardan biri tərəfindən talan edilməsinin qarşısını almağa yönəlmiş köhnə siyasət xəttini saxlamaqla təhlükəsizliyi təmin etməklə müqayisədə daha çox şey əldə edəcəkləri düşüncəsinə gələrlərsə, həmin andan Almaniyanın azadlıqları daha olmayacaq".[1]

Kiçik dövlətlər hər zaman öz müstəqillikləri üçün ya qüvvələr tarazlığına (II Dünya müharibəsinə qədər Belçika və Balkan ölkələri), ya bir müdafiə qüvvəsinin üstünlüyünə (Mərkəzi və Cənubi Amerikanın kiçik dövlətləri və Portuqaliya), ya da imperialist istəklər üçün cəlbedici olmadıqlarına (İsveçrə və İspaniya) borclu olub. Belə kiçik dövlətlərin öz bitərəfliklərini qoruyub saxlamaq bacarığı hər zaman bu amillərin bu və ya digərindən, ya da hamısından qaynaqlanıb, məsələn, II Dünya müharibəsinin əksinə olaraq, I Dünya müharibəsində Hollandiya, Danimarka və Norveç və hər iki dünya müharibələrində İsveçrə və İsveç.

Bufer dövlətlər adlanan dövlətlərin – güclü dövlətlərə yaxın yerləşib onların

[1] *Works* (Boston: Little, Brown, 1889), Vol. IV, səh. 331.

hərbi təhlükəsizliyinə xidmət edən zəif dövlətlərin mövcudluğunun səbəbi də eyni amillərdir. Mövcudluğu üçün qüvvələr tarazlığına borclu olan bufer dövlətin ən çox tanınmış nümunəsi 1831-ci ildə müstəqillik tarixinin başlanğıcından II Dünya müharibəsinə qədərki Belçikadır. Sovet İttifaqının Finlandiyadan Bolqarıstana qədər uzanan qərb və cənub-qərb sərhədlərində Rusiya təhlükəsizlik kəməri adlandırılan qrupa aid olan dövlətlər hərbi və iqtisadi maraqlarına xidmət etdikləri üstün qonşularının izniylə mövcuddur.

Koreya və qüvvələr tarazlığı

Bütün bu müxtəlif amillər Koreyanın taleyinə ardıcıl şəkildə təsir etmişdir. Çinə yaxın coğrafi mövqeyinə görə o özünün uzun tarixinin əksər dövründə güclü qonşusunun nəzarəti və müdaxiləsi hesabına müstəqil bir dövlət kimi mövcud olmuşdur. Çinin gücü Koreyanın müstəqilliyini müdafiə etmək üçün kifayət etmədiyi vaxtda başqa bir dövlət, adətən, Yaponiya Koreya yarımadasında istinadgah əldə etməyə cəhd edərdi. E.ə. I əsrdən etibarən Koreyanın beynəlxalq statusu ümumilikdə ya Çinin hökmranlığı, ya da Çin və Yaponiya arasında rəqabət ilə təyin olunmuşdur.

VII əsrdə elə Koreyanın birləşməsi də Çinin müdaxiləsinin nəticəsi idi. XIII əsrdən XIX əsrdə Çinin gücünün süqutuna qədər Koreya Çin ilə onun süzereni kimi tabeçilik münasibətlərində olmuş və siyasət və mədəniyyətdə Çinin liderliyini qəbul etmişdir. XVI əsrin sonundan, Yaponiya Koreyanı işğal edib davamlı uğur əldə etməyəndən sonra ölkəni idarə etmək üçün Çinin iddiasına qarşı öz iddiasını qoydu. Yaponiya 1894-1895-ci illər Çin-yapon müharibəsində qazandığı qələbənin nəticəsi olaraq, həmin iddiasını gerçəkləşdirməyi bacardı. Daha sonra Rusiya Yaponiyanın Koreyaya nəzarətinə qarşı çıxdı və 1896-cı ildən başlayaraq Rusiya burada hakim dövlət oldu. Yaponiya və Rusiya arasında Koreyaya nəzarət uğrunda rəqabət Rusiyanın 1904-1905-ci illər rus-yapon müharibəsində məğlubiyyətiylə başa çatdı. Yaponiyanın Koreyada belə möhkəm qurulmuş nəzarətinə Yaponiyanın II Dünya müharibəsində məğlubiyyətiylə xitam verildi. O vaxtdan başlayaraq ABŞ Yaponiyanı Rusiyanın Koreyadakı meyillərinə nəzarətçi qismində əvəz etdi. Çin Koreya müharibəsinə müdaxilə edərək, Koreyaya nəzarət etmək üçün ənənəvi maraqlarına yenidən rəvac verdi. Beləliklə, Koreyanın taleyi 2 min ildən çox ya Koreyaya nəzarət edən bir dövlətin üstünlüyünün, ya da həmin nəzarət uğrunda rəqabət aparan iki dövlət arasında qüvvələr tarazlığının nəticəsi olmuşdur.

12. Qüvvələr tarazlığının müxtəlif üsulları

Tarazlama prosesi ya tərəzinin daha ağır olan tərəfinin çəkisini azaltmaq, ya da daha yüngül olan tərəfinin çəkisini çoxaltmaq ilə həyata keçirilə bilər.

PARÇALA VƏ İDARƏ ET

Birinci üsul öz klassik təzahürünü sülh müqavilələrinin ağır şərtlərinin zorla qəbul etdirilməsi və xəyanət və inqilaba təhrik etməkdən uzaq olaraq, "parçala və idarə et" deyimində tapıb. Bu üsula öz rəqiblərini parçalamaq və ya parçalanmış şəkildə saxlamaqla zəiflətmək və ya zəif olaraq saxlamağa çalışan dövlətlər tərəfindən əl atılıb. Müasir dövrdə bu növdən olan ən ardıcıl və əhəmiyyət kəsb edən siyasətlər Fransanın Almaniyaya münasibətdə və Sovet İttifaqının Avropanın qalan hissəsinə münasibətdə yürütdüyü siyasətlərdir. XVII əsrdən II Dünya müharibəsinin sonuna qədər Fransa xarici siyasətinin dəyişməz prinsipi ya Almaniya imperiyasının bir neçə kiçik, müstəqil dövlətə parçalanmasına şərait yaratmaq, ya da belə dövlətlərin vahid bir dövlətdə birləşməsinin qarşısını almaq olmuşdur. Rişelyenin Almaniyanın protestant hökmdarlarına, I Napoleonun Reyn Konfederasiyasına, III Napoleon tərəfindən isə Cənubi Almaniyanın hökmdarlarına dəstəyin verilməsi və I Dünya müharibəsindən sonra nəticəsiz separatçı hərəkatlar və II Dünya müharibəsindən sonra Almaniyanın birləşməsinə etiraz – bütün bunlar Avropada Fransanın güclü alman dövləti tərəfindən təhlükəyə məruz qoyulduğunu hesab etdiyi qüvvələr tarazlığına dair mülahizələrdə ortaq məxrəcə gəlir. Buna oxşar olaraq Sovet İttifaqı da Avropa dövlətlərinin "Qərb bloku"na parçalanmış gücünün birləşdirilməsinin Sovet İttifaqının düşmənlərinə onun təhlükəsizliyini təhdid edəcək güc verəcəyini hesab edərək, 20-ci illərdən bu günə qədər müvafiq olaraq Avropanın birləşməsinə dair bütün planlara qarşı çıxmışdır.

Bir neçə dövlətin gücünün tarazlanmasının digər üsulu daha zəif olan dövlətlərin gücünə güc qatmaqdır. Bu üsul iki müxtəlif vasitə ilə həyata keçirilə bilər: ya B dövləti gücünü A dövlətinin gücünü üstələyəcək qədər olmasa da belə, kompensasiya edəcək qədər artırır və əksinə; ya da B dövləti öz gücünü

A dövlətinə münasibətdə onunla eyni siyasət yürüdən bütün dövlətlərin gücü ilə birləşdirir və bu halda A dövləti öz gücünü B dövlətinə münasibətdə onunla eyni siyasət yürüdən bütün dövlətlərin gücü ilə birləşdirəcək. Birinci seçim kompensasiya siyasətləri və silahlanma, eləcə də tərk-silah nümunəsində, ikincisi isə ittifaqlar siyasəti nümunəsində izah olunur.

KOMPENSASİYALAR

Ərazi təbiətli kompensasiyalar XVIII və XIX əsrlərdə bir dövlətin ərazi ələ keçirməsiylə pozulan və ya pozulmalı olan qüvvələr tarazlığının qorunub saxlanması üçün ümumi bir alət olub. İspaniya mirası uğrunda müharibəyə xitam verən 1713-cü il Utrext müqaviləsi ərazi kompensasiyaları yolu ilə qüvvələr tarazlığını ilk dəfə açıq şəkildə qəbul etdi. O, İspaniyanın Avropa və müstəmləkə mülkiyyətinin əksəriyyətinin Habsburqlar və Burbonlar arasında müqavilənin müəyyən etdiyi kimi *"ad conservandum in Europa equilibrium"* bölüşdürülməsini təmin etdi.

Müəyyən mənada klassik qüvvələr tarazlığı dövrünə son qoyan Polşanın 1772, 1793 və 1795-ci illərdə 3 dəfə bölüşdürülməsi irəlidə müzakirə edəcəyimiz səbəblərdən[1] kompensasiyalar prinsipinin rəhbərliyi altında onun mahiyyətini bir daha təsdiq edir. Marağı olan dövlətlərdən – Avstriya, Prussiya və Rusiya – hər hansı birinin digərlərinə imkan verməyərək Polşanın hesabına ərazilər ələ keçirməsi qüvvələr tarazlığını pozmuş olardı, ona görə də 3 dövlət Polşanın ərazisini elə bölməyə razılaşdı ki, onlar arasında güc bölgüsü bölüşdürmədən sonra təxminən ondan əvvəl olduğu kimi qalsın. Avstriya və Rusiya arasında 1772-ci il müqaviləsində hətta belə bir şərt qoyulmuşdu ki, "ərazi ələ keçirmələri... tam bərabər olacaq, birinin payı digərinin payını üstələyə bilməz".

Əlaqədar xalqların məskunlaşma yeri, sayı və xarakteri ayrı-ayrı dövlətlərin ərazi ələ keçirmələriylə sahib olduğu gücün artımını müəyyən edən obyektiv standartlar kimi istifadə olunurdu. Bu standart XVIII əsrdə daha çox kortəbii şəkildə tətbiq olunduğu halda, 1815-ci il Vyana konqresi əraziləri əhalinin sayı, xarakteri və tipi standartına görə qiymətləndirmək vəzifəsi daşıyan statistika komissiyası müəyyən etməklə kompensasiyalar siyasətini təkmilləşdirdi.

XIX əsrin sonu, XX əsrin başlanğıcında kompensasiyalar prinsipi müstəmləkə ərazilərinin bölüşdürülməsi və müstəmləkə və yarımmüstəmləkə təsir dairələrinin sərhədlərinin müəyyən edilməsində yenidən məqsədyönlü şəkildə tətbiq olundu. Bu mərhələdə xüsusilə Afrika aparıcı müstəmləkə dövlətlərinin təsir dairələrinin

[1] Bax: səh. 276.

sərhədlərini müəyyən edən çoxsaylı müqavilələrin obyekti idi. Belə ki, Polşanın bölüşdürülməsi modelindən sonra Fransa, Böyük Britaniya və İtaliya arasında Efiopiyaya ağalıq uğrunda rəqabət regionda əlaqədar dövlətlər arasında qüvvələr balansı qurmaq məqsədilə ölkəni üç təsir dairəsinə bölmüş 1906-cı il müqaviləsiylə müvəqqəti olaraq aradan qalxdı. Eynilə Böyük Britaniya və Rusiya arasında İran uğrunda rəqabət 1907-ci il İngiltərə-Rusiya arasında tərəflərin təsir dairəsi və İranın müstəsna ağalığı altında bitərəf zona yaradan müqavilənin imzalanmasına gətirib çıxardı. Burada kompensasiya ərazi suverenliyinin tamamilə güzəştə gedilməsindən deyil, daha çox müəyyən bir dövlətin müstəsna xeyrinə müəyyən ərazilərin qazanc məqsədilə istismar üçün saxlanmasından, siyasi və hərbi nüfuzetmədən və suverenliyin mümkün təsisindən ibarətdir. Başqa sözlə, müəyyən bir dövlət aidiyyəti ərraziyə tam səlahiyyəti olmadan öz təsir dairəsi daxilində hər hansı digər bir dövlət ilə rəqabət və qarşıdurmaya girmədən fəaliyyət göstərmək hüququna malik olur. Digər dövlət öz növbəsində öz təsir dairəsində birincinin tərəfindən eyni çəkinməyə iddia etmək hüququna malikdir.

Bununla belə, yuxarıda qeyd olunmuş müqavilələrdə olduğu kimi, hətta kompensasiyalar prinsipinin məqsədyönlü şəkildə tətbiq olunmadığı heç yerdə qüvvələr tarazlığı sistemində ərazi və digər siyasi ölçülər götürülməmiş deyil. Çünki verilmiş belə bir sistemdə heç bir dövlət qarşılığında mütənasib imtiyazlar almaq gözləntisi – bu gözlənti inandırıcı ola da bilər, olmaya da bilər – olmadan digər bir dövlətə siyasi imtiyazlar güzəştə getməyə razı olmaz. Siyasi kompromislərə dair diplomatik danışıqların sövdələşməsi ən ümumi formasında elə kompensasiyalar prinsipinin özüdür və bu formada o, üzvi surətdə qüvvələr tarazlığı ilə əlaqəlidir.

SİLAHLANMA

İstənilən halda dövlətin ixtiyarında olan gücün vasitəsilə qüvvələr tarazlığını qoruyub saxlamaq və yenidən qurmaq üçün göstərdiyi səyin əsas vasitəsi silahlı qüvvələrdir. A dövlətinin silahlarına görə B dövlətindən geri qalmamağa və daha sonra onu üstələməyə çalışdığı və əksinə, halın qeydə alınması ilə cərəyan edən silahlanma yarışı qeyri-stabil, dinamik qüvvələr tarazlığı üçün səciyyəvi olan üsuldur. Silahlanma yarışının zəruri xülasəsi dövlət büdcəsini hər zaman daha böyük hissələrlə sovuran və hər zaman daha dərin qorxular, şübhələr və təhdidlər yaradan hərbi hazırlıqların daim artan boyunduruğundan ibarətdir. Birinci Dünya müharibəsindən qabaq Almaniya və Böyük Britaniya arasında dəniz donanması yarışı və Fransa və Almaniya orduları arasındakı rəqabətlə müşayiət olunan vəziyyət bu fikri təsvir edir.

Vəziyyətin belə qəbul olunmasının nəticəsi idi ki, Napoleon müharibələrinin sonundan başlayaraq rəqabət aparan dövlətlərin proporsional tərk-silahı yolu ilə daimi sülhü təmin etmək olmasa da, sabit qüvvələr tarazlığının yaradılmasına təkrar-təkrar cəhdlər edilmişdir. Qüvvələr tarazlığının silahların proporsional ixtisarı yolu ilə sabitləşdirilməsi üsulu müəyyən dərəcədə ərazi kompensasiyaları üsulu ilə oxşardır. Çünki hər iki üsul quruluşun ayrı-ayrı dövlətlərin müvafiq gücünə göstərdiyi təsirin kəmiyyət dəyərləndirməsini tələb edir. Belə kəmiyyət dəyərləndirməsini aparmağın çətinlikləri – məsələn, 1932-ci ildə Fransa ordusunun hərbi qüdrəti ilə Almaniyanın sənaye istehsalı imkanlarının təqdim etdiyi hərbi güc arasında qurulan nisbət – tərk-silah üsulu ilə sabit qüvvələr tarazlığı yaratmağa edilən cəhdlərin əksəriyyətinin uğursuz olmasına çox şərait yaratmışdır. Bu üsulun yeganə tanınmış uğuru Böyük Britaniya, ABŞ, Yaponiya, Fransa və İtaliyanın dəniz silahlarının proporsional ixtisarı və məhdudlaşdırılması haqqında gəldikləri razılığa dair 1922-ci il Vaşinqton dəniz müqaviləsi olub. Lakin qeyd olunmalıdır ki, bu müqavilə Sakit okean regionunda güc münasibətlərini ingilislərin və amerikalıların üstünlüyü zəminində sabitləşdirməyə cəhd edən ümumi siyasi və ərazi nizamlamalarının tərkibi idi.[1]

İTTİFAQLAR

Bütün hallarda tarixən qüvvələr tarazlığının ən mühüm təzahürü iki təcrid olunmuş dövlətin müvazinətində deyil, bir dövlət, yaxud dövlətlər ittifaqı ilə digər ittifaq arasındakı münasibətlərdə axtarılmalıdır.

İttifaqların ümumi təbiəti

İttifaqlar çoxdövlətli sistemdə fəaliyyət göstərən qüvvələr tarazlığının zəruri vəzifəsidir. Bir-biriylə rəqabət aparan A və B dövlətlərinin öz nisbi güc mövqelərini qoruyub saxlamaq və yaxşılaşdırmaq üçün 3 seçimi var. Onlar öz güclərini artıra bilərlər, onlar öz güclərinə digər dövlətin gücünü qata bilərlər, yaxud da onlar digər dövlətlərin gücünü düşməndən uzaq tuta bilərlər. Onlar birincini seçəndə səylərini silahlanma yarışına yönəldirlər. İkinci və üçüncünü seçəndə isə ittifaqlar siyasəti yürüdürlər.

Bu halda dövlətin ittifaqlar siyasəti yürüdüb-yürütməyəcəyi prinsip məsələsi deyil, məqsədəuyğunluq məsələsidir. Əgər dövlət kömək göstərilmədən güzəştə

[1] Tərk-silah məsələsi daha ətraflı şəkildə paraqraf 23-də müzakirə olunacaq.

getməmək üçün kifayət qədər güclü olduğuna və ittifaqların yaratdığı öhdəliklərin gözlənilən xeyri aşmalı olduğuna inansa, ittifaqlardan kənar duracaq. Bu səbəblərdən biri, yaxud da hər ikisinə görədir ki, Böyük Britaniya və ABŞ tarixlərinin əksər dövrlərində dinc zamanlarda digər dövlətlərlə ittifaqa daxil olmaqdan çəkinib.

Həmçinin, bununla belə, Böyük Britaniya və ABŞ hətta baxmayaraq ki, 1823-cü ildə Monro doktrinasının bəyan edilməsindən 1941-ci ildə Pörl-Harbora hücuma qədər ən azından digər Avropa dövlətləriylə müqayisədə sanki müttəfiq kimi hərəkət etsə də, bir-biriylə ittifaq yaratmaqdan çəkinib. Həmin dövrdə onların münasibəti dövlətlərin ittifaqsız ötüşdükləri vəziyyətin digər bir nümunəsini təqdim edir. Bu, o zaman baş verir ki, onların maraqları o qədər aydın şəkildə birgə siyasət və fəaliyyət tələb edir ki, bu maraqların, siyasətlərin və fəaliyyətlərin ittifaq müqaviləsi şəklində müəyyən formada təşkilinin gərəksiz olduğu üzə çıxır.

Avropa qitəsinə münasibətdə ABŞ və Böyük Britaniyanın bir ümumi marağı olmuşdur: Avropa qüvvələr tarazlığının qorunub saxlanması. Maraqların bu oxşarlığının nəticəsində onlar real zərurətdən irəli gələrək, özlərini bu tarazlığı təhdid edən bir dövlət ilə qarşı-qarşıya durmuş düşərgədə gördülər. Böyük Britaniya 1914-cü ildə və 1939-cu ildə Avropa qüvvələr tarazlığını qorumaq üçün müharibəyə başlayanda ABŞ ilk dövrlərdə Böyük Britaniyanı açıq sezilən bitərəfə uyğun tərəfsizliklə dəstəklədi, sonra isə döyüş meydanında ona qoşuldu. ABŞ 1914-cü ildə və 1939-cu ildə Böyük Britaniya ilə formal ittifaq müqaviləsiylə birləşmiş olsaydı, o daha əvvəl müharibə elan etmiş olardı, lakin onun ümumi siyasətində və konkret fəaliyyətində verilmiş halda olduğundan əsaslı baxımdan heç bir fərq olmayacaqdı.

Ümumi siyasət və fəaliyyət doğuran hər maraq birliyi müəyyən bir ittifaqın hüquqi kodifikasiyasına gətirib çıxarmır. Digər tərəfdən isə ittifaq zərurətdən irəli gələrək öz zəmini üçün birgə maraqların olmasını tələb edir.[1] Belə olduqda maraqların mövcud birliyi hansı şərtlər altında ittifaqın müəyyən bir formada təşkilini tələb edir? İttifaqın mövcud maraqlar birliyinə etdiyi əlavə nədir?

İttifaq mövcud maraqlar birliyinə və onlara xidmət edən ümumi siyasətə və konkret tədbirlərə xüsusilə məhdudiyyət formasında dəqiqlik əlavə edir.[2] Dövlətlərin sahib olduqları ortaq maraqlar, adətən, Amerika və Böyük Britaniyanın Avropada qüvvələr tarazlığının qorunmasına dair marağı qədər dəqiq və coğrafi region, məqsəd və müvafiq siyasət ilə məhdudlaşdırılmış olmur. Onlar heç potensial ortaq

[1] Bax: Fukididin və lord Solisberinin sitatları, səh. 10.

[2] XVII və XVIII əsrin ittifaq müqavilələrinə nəzər salarkən qoşunların təchiz edilməsi, təchizat, maddi-texniki təminat dəstəyi, ərzaq, maliyyə və bu kimi digər öhdəliklərin müəyyən edilməsindəki incə dəqiqlik insanı heyrətə gətirir.

düşmənə qarşı dəqiqləşdirmə və məhdudlaşdırma aparmağa da qabil deyil. Çünki tipik bir ittifaq xüsusi bir dövlətə və ya dövlətlər qrupuna yönəldiyi halda, ingilis-amerikan maraqlar birliyinin düşməni, təbii ki, qabaqcadan dəqiqləşdirilə bilməz, çünki Avropa qüvvələr tarazlığını təhdid edən hər kəs düşməndir. Cefferson həmin dövrdə, göründüyü kimi, qüvvələr tarazlığını təhdid edənin kim olmasına görə öz rəğbətini Napoleon və Böyük Britaniya arasında o tərəf-bu tərəfə dəyişdiyi üçün Napoleon müharibələrindən sonrakı dövrdə Böyük Britaniya və ABŞ hər zaman dəyişə bilən şərtləri nəzərə alaraq verilmiş anda kimin qüvvələr tarazlığına daha böyük təhlükə törətdiyini müəyyən etməli idi. Düşmənin fərdi qaydada deyil, həyata keçirdiyi fəaliyyətə görə müəyyən edilən bu şərtsiz xarakteri kollektiv təhlükəsizliyin, kim ola bilməsindən asılı olmayaraq, mücərrəd şəkildə müəyyənləşdirilmiş təcavüzkara yönəlmiş oxşar xüsusiyyətini ağıla gətirir.

İki dövləti üçüncü bir dövlətə qarşı birləşdirən səciyyəvi maraqlar həm düşmənin müəyyən edilməsi baxımından daha çox müəyyən, həm də müvəffəq olunmalı məqsəd və yürüdülməli siyasət baxımından daha az dəqiqdir. XIX əsrin sonuncu onilliklərində Fransa Almaniyaya, Rusiya isə Avstriyaya qarşı çıxırdı və bu zaman Avstriya Fransa və Rusiya ilə Almaniyaya qarşı birləşmişdi. Fransa və Rusiyanın maraqları siyasəti müəyyən edən və fəaliyyətə istiqamət verən ortaq məxrəcə necə səbəb ola bilərdi? Başqa sözlə, *casus foederis* necə elə müəyyən oluna bilər ki, həm dost, həm də düşmən onların müvafiq maraqlarına təsir göstərən müəyyən təsadüflərdən nə gözləməli olduqlarını bilsinlər? 1894-cü il ittifaq müqaviləsi bu vəzifələri yerinə yetirməli idi. 1894-cü il Fransa-Rusiya ittifaqının məqsədləri və siyasəti Avropada Britaniya-Amerika əməkdaşlığının məqsədləri və siyasəti qədər aydın olsaydı, heç bir ittifaq müqaviləsi gərəkli olmazdı. Düşmən elə qeyri-müəyyən olsaydı, heç bir ittifaq müqaviləsi mümkün olmazdı.

Deməli, iki və daha artıq dövlət arasında əməkdaşlığı zəruri edən hər maraqlar birliyi bu əməkdaşlığın şərtlərinin ittifaq müqaviləsinin hüquqi qeyd-şərtləriylə dəqiqləşdirilməsini tələb etmir. Yalnız ortaq maraqlar siyasət və fəaliyyət baxımından yeni formalaşmış olanda onları dəqiqləşdirmək və hərəkətə keçirmək üçün ittifaq müqaviləsi tələb olunur. Bu maraqlar, eləcə də onları ifadə edən ittifaqlar və onlara xidmət edən siyasətlər 5 müxtəlif yolla fərqləndirilə bilər: onlara xas təbiətə və münasibətə görə, mənfəətin və gücün bölgüsünə görə, onların aidiyyəti dövlətlərin ümumi maraqları ilə əlaqədar əhatə dairəsinə görə, onların zaman baxımından əhatə dairəsinə görə və onların ortaq siyasət və fəaliyyət baxımından səmərəliliyinə görə. Nəticədə biz eyni, komplementar və ideoloji maraqlara xidmət edən ittifaqları fərqləndirə bilərik. Bundan əlavə, biz qarşılıqlı və birtərəfli, ümumi və məhdud, müvəqqəti və daimi və fəaliyyət göstərən və fəaliyyət göstərməyən ittifaqları fərqləndirə bilərik.

Avropaya münasibətdə ingilis-amerikan ittifaqı eyni maraqlara xidmət edən ittifaqın klassik nümunəsidir: bir tərəfin məqsədi – Avropada qüvvələr tarazlığının qorunub saxlanması – həm də digər tərəfin məqsədidir. ABŞ və Pakistan arasındakı ittifaq komplementar maraqlara xidmət edən ittifaqın çoxsaylı çağdaş nümunələrindən biridir. ABŞ üçün o, çəkindirmə siyasətinin hüdudlarının genişləndirilməsi kimi mühüm məqsədə, Pakistan üçün isə, əsasən, qonşularına münasibətdə siyasi, hərbi və iqtisadi imkanlarını artırmağa xidmət edir.

İdeoloji ittifaqların xalis nümunəsi 1815-ci il "Müqəddəs ittifaq" müqaviləsi və 1941-ci il "Atlantika xartiyası"dır. Hər iki sənəd onları imzalayanların təntənəli şəkildə öz sədaqətlərini vəd etdikləri ümumi əxlaq prinsiplərini və özlərinə gerçəkləşdirməyə müvəffəq olmaq vədi verdikləri ümumi məqsədləri müəyyən etdi. 1945-ci ildə yaradılmış Ərəb Dövlətləri Liqası 1948-ci ildə İsrailə qarşı müharibədən sonra, əsasən, ideoloji həmrəylik ifadə edən ittifaqın nümunəsidir.

Eyni bir ittifaq müqaviləsində maddi öhdəliklərə ideoloji öhdəliklərin əlavə olunması daha çox səciyyəvidir.[1] Belə ki, 1873-cü ildə yaradılmış "Üç imperator ittifaqı" Avstriya, Almaniya və Rusiya arasında onlardan hər hansı birinə hücum olan zaman hərbi yardımı təmin etdi və eyni zamanda 3 monarxiyanın respublikaçılar tərəfindən təxribatçı fəaliyyətə qarşı həmrəyliyinə xüsusi əhəmiyyət verdi. Bizim dövrümüzdə ittifaq müqavilələrinə daxil edilən kommunist təxribatçılığına qarşı ideoloji öhdəlik də eyni vəzifəni yerinə yetirir. İdeoloji amil özünü həm də ittifaqın maddi maraqların hüdudlarını aşan ideoloji həmrəylik baxımından maddi maraqlara əsaslanan rəsmi şərhində də göstərir. İngilis-amerikan ittifaqının 1956-cı ildə Britaniyanın Misirə hücumundan əvvəl üçün hər şeyin daxil olduğu və dünyanı əhatə edən, ümumi mədəniyyət, siyasi institutlar və ideallara əsaslanan formada ümumi olan mahiyyəti müzakirə olunan məsələyə aiddir.

İdeoloji amilin ittifaqa siyasi təsirinə dair üç ehtimal fərqləndirilməlidir. Maddi maraqlarla əlaqəsi olmayan sırf ideoloji ittifaq ölü doğulmuş varlıqdan savayı bir şey deyil; o, siyasəti və istiqamətverici fəaliyyəti müəyyən etməyə qabil deyil və heç bir siyasi həmrəyliyin olmadığı yerdə belə bir siyasi həmrəylik görüntüsü yaradaraq yanlış yol göstərir. İdeoloji amil maraqların real birliyinə əlavə olunarkən ittifaqa dəstək olmaq üçün əxlaqi əminlik və emosional seçimlər təmin etməklə onun gücünə güc qata bilər. O həmçinin ittifaqın müəyyənləşdirəcəyini hesab etdiyi ortaq maraqların təbiətinə və hüdudlarına kölgə salmaqla və boşa çıxmağa məhkum olan gözləntiləri yekdil siyasət və fəaliyyət dərəcəsinə qaldırmaqla ittifaqı zəiflədə bilər. İngilis-amerikan ittifaqı bir daha bu iki ehtimala da nümunə ola bilər.

[1] Qeyd etmək lazımdır ki, "Müqəddəs ittifaq" və "Atlantika xartiyası", adətən, ayrı-ayrı hüquqi alətlərin içində maddi öhdəliklər əlavə edir.

İttifaq daxilində mənfəətlərin bölüşdürülməsi idealda tamamilə qarşılıqlı olanlardan biri olmalıdır; burada tərəflərin bir-birinə göstərdiyi xidmətlər əldə olunan mənfəətlərə müvafiqdir. Bu ideal təxminən daha çox gücünə görə bərabər olanlar arasında yaradılan və eyni maraqlara xidmət edən ittifaqa uyğundur. Mənfəətlərin bölüşdürülməsində digər əks forma birtərəflilik boyunduruğun əsas ağırlığını bir tərəf çəkdiyi halda, mənfəətin ən böyük hissəsini başqa bir tərəfin ələ keçirdiyi *societas leonia* vəziyyətidir. Nə qədər ki belə bir ittifaqın məqsədi mənfəəti ələ keçirən tərəfin ərazi və siyasi bütövlüyünün qorunub saxlanmasıdır, belə bir ittifaq təminat müqaviləsindən fərqlənmir. Bu növ qeyri-mütənasibliyə ən asan uyğunlaşan komplementar maraqlardır, çünki onlar təyinatlarına görə mahiyyətcə fərqlidir və görünür ki, onların müqayisəli qiymətləndirilməsi subyektiv şərhetmə ilə təhrif olunmalıdır. Nəzərəçarpan güc üstünlüyü bu kimi şərhlərə ağırlıq qatmağa məcburdur.

Odur ki mənfəətin bölüşdürülməsi siyasətlərin təyinedicisi kimi ittifaq daxilində gücün bölgüsünü oxşar şəkildə əks etdirməlidir. Böyük dövlətin mənfəətlərə və siyasətə münasibətdə zəif müttəfiqlə dil tapmaq üçün yaxşı imkanı var və bu səbəbdən Makiavelli zəif dövlətləri güclü dövlətlərlə zəruri hallar istisna olmaqla ittifaqlara daxil olmağa qarşı xəbərdar edirdi.[1] ABŞ və Cənubi Koreya arasındakı münasibət belə vəziyyətin nümunəsidir.

Lakin mənfəətlər, siyasət və güc arasında bu qarşılıqlı asılılıq heç bir halda qaçılmaz deyil. Zəif dövlət güclü müttəfiqi üçün əvəzolunmaz formada böyük dəyərə malik bir vasitəyə də sahib ola bilər. Zəif dövlətin göstərə bildiyi və ya göstərməkdən imtina etdiyi unikal dəstək forması ittifaq daxilində ona maddi gücün real bölgüsündən tamamilə uzaq olan bir status verə bilər. Yaxın tarixdə ABŞ və İspaniya arasında bazarlara və ABŞ və Səudiyyə Ərəbistanı arasında neftə münasibətdə əlaqələr ağıla gəlir.

Əvvəl haqqında bəhs etdiyimiz ingilis-amerikan ittifaqına dair yanlış şərh də məhdud və ümumi ittifaqlar arasındakı qarışıqlığı təsvir edir. Ümumi müharibə əsrində müharibə dövrünün ittifaqları o mənada ümumi olmağı nəzərdə tutur ki, onlar müqavilə tərəflərinin hər ikisinin müharibənin aparılması və dinc həll yollarına dair ümumi maraqlarını əhatə edir. Digər tərəfdən dinc dövrünün ittifaqları müqaviləni imzalayanların ümumi maraqlarının və məqsədlərinin bir hissəsiylə məhdudlaşır. Bir dövlət müxtəlif dövlətlərlə xüsusi məsələlərə aid çoxsaylı ittifaqlar yaradır və onlar bir-biriylə üst-üstə düşə və bir-birinə zidd ola bilər.

Tipik bir ittifaq müqavilə tərəflərinin kiçik olan ümumi maraqlar qrupunu ümumi siyasət və tədbirlərə çevirməyə cəhd edir. Bu maraqlardan bəzilərinin

[1] *The Prince*, Chapter 21.

ittifaqın məqsədləriylə əlaqəsi yoxdur, bəziləri həmin məqsədlərə söykənir, bəziləri onlardan uzaqlaşır və bəziləri də onlarla bir araya sığmır. Belə bir tipik ittifaq müxtəlif maraqlar və məqsədlərin dinamik düzənində özünə yer edir. İttifaqın fəaliyyət göstərib-göstərməyəcəyi və hansı müddətdə fəaliyyət göstərəcəyi onun zəminində duran maraqların, əlaqədar dövlətlərin digər maraqlarının gücü qarşısında gücündən asılıdır. İttifaqın əhəmiyyəti və uğurları onun əhatə dairəsinə görə nə qədər məhdud olsa da, fəaliyyət göstərəcəyi gözlənilən ümumi siyasət kontekstində nəzərdən keçirilməlidir.

Ümumi ittifaqlar, adətən, müvəqqəti xarakterli olur və əsasən, müharibə dövrünə təsadüf edir, çünki müharibədə qalib olmaq və uğrunda müharibə aparılan maraqları dinc həll üsulları ilə təmin etməyə dair üstün ortaq maraq qələbə qazanılan və sülh müqavilələri imzalanan kimi ayrı-ayrı dövlətlərin fərqli və çox vaxt bir araya sığmayan maraqlarına təslim olmağa məcburdur. Digər tərəfdən ittifaqın daimiliyi ilə onun xidmət etdiyi maraqların məhdud xarakteri arasında qarşılıqlı əlaqə mövcuddur, çünki yalnız kifayət qədər uzun bir müddətdə davam gətirən belə xüsusi, məhdud bir maraq davamlı bir ittifaq üçün zəmin yarada bilər.[1] Böyük Britaniya və Portuqaliya arasında 1703-cü ildə yaradılmış ittifaq əsrlər boyu ona görə davam gətirdi ki, Portuqaliya limanlarının Britaniya donanması tərəfindən qorunmasında, Britaniya isə Portuqaliyaya Atlantik okeanı tərəfdən yanalmalara nəzarətdə maraqlı olmaqda davam edirdi. Ümumi tarixi müşayiətin nəticəsi olaraq bəyan etmək olar ki, baxmayaraq ki, ittifaq müqavilələri çox vaxt "əbədi", yaxud 10 və ya 20 illiyinə bağlanmaqla uzunmüddətli işləkliyi üzərilərinə götürüb, xidmət etməyi nəzərdə tutduqları ümumi maraqların, adətən, şübhəli və sürüşkən konfiqurasiyasından daha uzunömürlü ola bilməyib. Onlar, bir qayda olaraq, qısaömürlü olub.

İttifaqların bazasını təşkil edən maraqlar birliyindən asılılığı, həmçinin fəaliyyət göstərən və fəaliyyət göstərməyən ittifaqlar arasındakı fərqi izah edir. Bir ittifaqın fəaliyyətdə olan olması, yəni öz üzvlərinin ümumi siyasətini və konkret tədbirlərini əlaqələndirə bilməsi üçün həmin üzvlər yalnız ümumi məqsədlər üzrə deyil, eləcə də siyasət və görüləcək tədbirlər üzrə də razılığa gəlməlidirlər. Çox ittifaqlar kağız parçası olaraq qalıb, çünki belə bir razılıq əldə edilməyib və bu ona görə əldə edilməyib ki, maraqların birliyi ümumi məqsədlərdən o yana, konkret siyasət və tədbirlərə keçməyib. Fəaliyyət göstərməyən ittifaqın klassik nümunəsi ABŞ və Fransa arasında, Fransa və Avropanın monarxiyaları arasında başlanmış

[1] Lakin bu qarşılıqlı əlaqə aradan qaldırıla bilməz. Xüsusilə XVII və XVIII əsrlərdə məhdud ittifaqlar *ad hoc* olaraq – yəni hücumun qarşısını almaq, bir döyüşdə iştirak etmək, yaxud da ayrıca bir ekspedisiyaya başlamaq üçün yaradılırdı. İttifaq yaradılmasının xüsusi səbəbini nəzərdən qaçıraraq öz məqsədini itirir və onun sonu gəlir.

Birinci Koalisiya müharibəsindən sonra, 1793-cü ildə Vaşinqtonun Bitərəflik bəyannaməsi ilə fəaliyyətsizləşmiş ittifaqdır. Hamilton həmin bəyannaməni ümumi faydalılıq arqumenti ilə əsaslandırmışdı: "ABŞ-ın müharibəyə başlamaqla özünü düçar edəcəyi əngəllər və zərərlər ilə onun Fransanın təhlükəsizliyini təmin etmək məqsədilə qoyduğu qeyd-şərtin xarakterinin gətirdiyi mənfəət, yaxud onun tərəf olmaqla, əslində, Fransa üçün edə biləcəyi arasında heç bir mütənasiblik olmayacaq". 1935-ci il və 1944-cü illərdə yaradılmış Fransa-SSRİ ittifaqları və 1942-ci ildə yaradılmış ingilis-sovet ittifaqı bu qəbildən olan digər nümunələrdir. İttifaq müqaviləsinin hüquqi işləkliyi və onun təbliğatçı ovsunu müşahidəçini onun həqiqi əhəmiyyəti haqqında asanlıqla yanılda bilər. Bu əhəmiyyətin düzgün qiymətləndirilməsi müqavilə tərəflərinin ittifaqın reallaşdırılması üçün həyata keçirdikləri konkret siyasət və tədbirlərin araşdırılmasını tələb edir.

Bu mülahizələr xüsusilə nüvə dövləti (A) və qeyri-nüvə dövləti (B) arasında digər bir nüvə dövlətinə (C) yönəlmiş ittifaqlara uyğundur. A dövləti B dövləti ilə ittifaqının şərəfinə C dövlətinin tərəfindən nüvə darmadağını riskinə gedəcəkmi? Mövcud təhlükənin son həddi belə bir ittifaqın fəaliyyət qabiliyyətini təhlükə altına alır. İlk dəfə açıq şəkildə de Qoll tərəfindən dilə gətirilmiş bu şübhə ABŞ ilə onun bir sıra əsas müttəfiqləri arasındakı ittifaqları zəiflətmişdir.

İttifaqlar və dünya ağalığı

Qüvvələr tarazlığı güc uğrunda mübarizənin təbii və labüd töräməsi kimi siyasi tarixin özü qədər qədim olduğu halda, başlanğıcını XVI əsrdən götürmüş və XVIII və XIX əsrlərdə öz kulminasiyasına çatmış sistemli nəzəri düşüncələr qüvvələr tarazlığını, adətən, digər dövlətlərin o zaman universal monarxiya adlanan dünya ağalığına dair planları qarşısında öz müstəqillikləri üçün narahat olan dövlətlərin ittifaqının qoruyucu aləti kimi təsəvvür edib. A dövləti tərəfindən birbaşa olaraq təhlükəyə məruz qalan B dövləti A dövlətinin planlarını pozmaq üçün A dövləti tərəfindən potensial təhlükəyə məruz qalan C, D və E dövlətlərinə qoşulur. Polib romalılar, karfagenlilər və Sirakuz kralı Hieron arasındakı əlaqələrin analizində bu konfiqurasiyanın mahiyyətinə işarə etmişdir.

"Bütün tərəflərdən yolları bağlanmış karfagenlilər dövlətlərə onlarla ittifaq yaratmaq üçün müraciət etmək üsuluna əl atmağa məcbur idilər. Hieron bütün mövcud müharibə dövründə onların xahişlərinə ən cəld cavab verən olmuşdu və indi o bunun onun həm Siciliya dominionlarının, həm də romalılar ilə dostluğunun təhlükəsizliyini təmin etmək marağına uyğun gəldiyinə, Karfagenin qorunub saxlanmalı olduğuna və daha güclü dövlətin öz əsas məqsədini tamamilə cidd-cəhdsiz ələ keçirməməli olduğuna inanaraq hər zaman olduğundan

daha lütfkar idi. Burada o çox müdrik və ağıllı mühakimə yürütdü, çünki belə məsələlərə heç vaxt etinasız yanaşılmamalıdır və biz heç vaxt bir dövlət tərəfindən gücün elə üstün şəkildə ələ keçirilməsinə imkan yaratmamalıyıq ki, heç bir dövlət onunla hətta öz hüquqlarının qəbul edilməsi uğrunda belə mübahisə etməyə cürət etməsin".[1]



Müasir dövrdə Frensis Bekon Florensiya dövlət xadimləri və tarixçiləri Ruçellai və Qviççardinidən sonra ittifaqlar üsulu ilə qüvvələr tarazlığının mahiyyətini ilk dərk edən olmuşdur. O, "*İmperiya haqqında*" essesində yazır:

"Birincisi, onların qonşuları üçün hər zaman tətbiq olunan bir qaydadan başqa, heç bir ümumi qayda qoyula bilməz (hallar çox müxtəlifdir) – həmin qayda ondan ibarətdir ki, dövlət rəhbərləri çalışırlar ki, qonşuları (ərazi böyüməsi, ticarəti ələ keçirmək, yaxınlaşmalar və bu kimi yollarla) onları narahat edə biləcək qədər böyüməsin ... Üç kralın: İngiltərə kralı VIII Henri, Fransa kralı I Fransis və imperator V Karlın eyni zamanda hakimiyyətdə olduğu dövrdə nəzarət olunurdu ki, onların üçündən heç biri qələbə çala bilməsin, belə olardısa, digər ikisi dərhal ya konfederasiyalar, ya da ehtiyac olardısa, müharibə yolu ilə onu tarazlayardı və heç bir halda sülhdə maraqlı olmazdılar; eyni hal Neapol kralı Ferdinand, Lorenso Mediçi, Ludoviko Sforsa, Florensiya və Milan hökmdarları arasında yaradılmış Liqaya da (Qviççardini deyir ki, o, İtaliyanın təhlükəsizliyi idi) aiddir".

[1] Polybus I, 83.

I Fransisin V Karl Habsburqu öz imperiyasını sabitləşdirməsi və genişləndirməsinin qarşısını almaq məqsədilə VIII Henri və türklərlə yaratdığı ittifaqlar bir ittifaq və universal monarxiya yaratmağa cəhd edən bir dövlət arasında fəaliyyət göstərən qüvvələr tarazlığının böyük miqyasda ilk müasir nümunəsidir. XVII əsrin ikinci yarısında Fransa kralı XIV Lüdoviq Habsburqların rolunu öz üzərinə götürdü və Avropa dövlətləri arasında eyni reaksiya doğurdu. Avropanı Fransanın ağalığından qorumaq və Fransa və Avropanın qalan hissəsi arasında yeni qüvvələr tarazlığı yaratmaq məqsədilə İngiltərə və Hollandiyanın ətrafında ittifaqlar yaradıldı.

1789-cu ildə Fransaya və Napoleona qarşı müharibələr dünya hökmranlığına sahib olmaq və öz müstəqilliklərini qoruyub saxlamaq naminə dövlətlərin yaratdığı koalisiya tərəfindən qarşı çıxılan üstünlüyə malik bir dövlətin oxşar konfiqurasiyasını nümayiş etdirir. 1792-ci ildə Birinci koalisiyanın başladığı müharibə bəyannaməsi elan etdi ki, "Avropada qüvvələr tarazlığının qorunub saxlanmasında maraqlı olan heç bir dövlət bir zamanlar bu böyük qüvvələr tarazlığında əhəmiyyətli çəkiyə sahib olmuş, artıq, belə deyək, onun siyasi mövcudluğuna son qoymuş daxili çaxnaşmalar, hərc-mərcliyin dəhşətləri və anarxiya həddinə gətirilib çıxarılmış Fransa Krallığına laqeydliklə baxa bilməzdi".

Bu müharibələr sonuna yaxınlaşdıqda isə müttəfiq dövlətlərin məqsədi hələ də, 23 aprel 1814-cü il Paris Konvensiyasının sözləri ilə desək, "Avropanın iztirablarına son qoymaq və onu təşkil edən dövlətlər arasında qüvvələrin ədalətli şəkildə yenidən bölgüsü zəminində onun rahatlığını təmin etmək" – yəni yeni qüvvələr tarazlığı yaratmaq idi. İkinci Dünya müharibəsində Almaniya və Yaponiyaya qarşı döyüşən koalisiya öz mövcudluğuna görə onun bütün üzvləri üçün ümumi olan, Almaniya və Yaponiyanın imperializminin doğurduğu eyni xofa borcludur və onlar yeni qüvvələr tarazlığında oxşar şəkildə öz müstəqilliklərini qorumaq məqsədi güdürdülər. Eynilə Qərbin ikitərəfli və çoxtərəfli ittifaqları da 40-cı illərin sonlarından başlayaraq dünyada yeni qüvvələr tarazlığı qurmaqla Sovet İttifaqının imperialist ekspansiyasını dayandırmaq məqsədi güdürdü.

İttifaqlar və əks-ittifaqlar

Müstəqilliklərini müdafiə edən dövlətlərin ittifaqı ilə potensial istilaçı arasında mübarizə qüvvələr tarazlığının yaratdığı konfiqurasiyaların ən çox diqqət cəlb edən formasıdır. Biri və ya hər ikisi imperialist məqsədlər güdən və öz üzvlərinin müstəqilliyini digər koalisiyanın imperialist cəhdlərindən müdafiə edən iki ittifaqın qarşıdurması qüvvələr tarazlığı sistemi daxilində ən çox rast gəlinən konfiqurasiyadır.

Bir neçə daha mühüm olan nümunəni yada salaq: Otuzillik müharibə zamanı bir tərəfdə Fransa və İsveçin, digər tərəfdə isə Avstriyanın rəhbərliyi altında birbiriylə mübarizə aparan koalisiyalar xüsusilə İsveç və Avstriyanın imperialist iddialarını təbliğ etməyə, eyni zamanda digər tərəfin iddialarını nəzarət altında saxlamağa çalışırdı. Otuzillik müharibədən sonra Avropanın məsələlərini həll edən bir neçə müqavilə müharibənin sona çatmasına xidmət edən qüvvələr tarazlığı yaratmağa çalışırdı. 1713-cü il Utrext müqaviləsi ilə 1772-ci ildə Polşanın ilk bölüşdürülməsi arasındakı dövrdə baş vermiş koalisiya müharibələrinin hamısı Utrext müqaviləsinin yaratdığı və İsveçin gücünün iflası və Prussiya, Rusiya və Britaniyanın gücünün yüksəlişi ilə pozulmağa meyil edən tarazlığı qoruyub saxlamağa cəhd göstərirdi. Hətta müharibənin gedişində qruplaşmalarda tez-tez baş verən dəyişikliklər tarixçiləri heyrətləndirmiş və XVIII əsrin özünü xüsusilə prinsipsiz və əxlaqi mülahizələrdən məhrum edilmiş şəkildə göstərməsinə gətirib çıxarmışdır. Vaşinqton vida müraciətində Amerika xalqını bu növ xarici siyasətə qarşı xəbərdar edirdi.

Bununla belə, həmin siyasətin çiçəkləndiyi dövr qüvvələr tarazlığının nəzəriyyədə, həmçinin təcrübədə qızıl dövrü olmuşdur. Bu həmin dövr idi ki, qüvvələr tarazlığı haqqında əksər ədəbiyyatlar dərc olunmuş və Avropanın hökmdarları qüvvələr tarazlığına onlar tərəfindən xarici münasibətlərin icrasının idarə edilməsinin ali prinsipi kimi baxırdılar. Böyük Fridrix yazırdı:

"Asanlıqla görmək olar ki, Avropanın siyasi qurumu zorakı vəziyyət içindədir: o, belə deyək, öz müvazinətini itirib və elə bir vəziyyətdədir ki, böyük risk etmədən uzun müddət həmin vəziyyətdə qala bilməz. Onun bu vəziyyəti yalnız turşu və qələvilərin bərabər miqdarının qarışığı ilə yaşayan insan bədəninin vəziyyətinə uyğundur; iki maddədən hər hansı biri çoxluq təşkil edərsə, bədən bundan qəzəblənir və onun sağlamlığına əhəmiyyətli dərəcədə ziyan dəyir. Həmin maddə daha da artanda bu, mexanizmin tamamilə dağılmasına səbəb ola bilər. Beləliklə, Avropanın hökmdarlarının siyasəti və ağılı ağalıq edən dövlətlər arasında ədalətli tarazlığın qorunub saxlanması baxışını itirəndə bütün siyasi təsisatın quruluşu ona qəzəblənir: bir tərəfdə zorakılıq, digər tərəfdə zəiflik olur; birində hər şeyi qəsb etmək arzusu, digərində onun qarşısını almaq imkansızlığı; ən güclü olan qaydaları müəyyən edir, ən zəif olan isə onlara qoşulmağa məcbur olunur; nəhayət, hər şey nizamsızlıq və qarışıqlığın artması ilə üst-üstə düşür; ən güclü olan coşqun sel kimi sahilini aşıb hər şeyi özü ilə aparır və bu bəxtsiz təsisat ən fəlakətli inqilablara düçar olur".[1]

[1] Frederick the Great, "Considerations on the Present State of the Political Body of Europe," *Oeuvres de Frédéricle Grand* (Berlin: Rudolph Decker, 1848), Vol. VIII, səh. 24.

Bu bir həqiqətdir ki, hökmdarlar öz maraqları üçün şərait yaratmaq məqsədilə qüvvələr tarazlığının onları idarə etməsinə icazə verirdilər. Belə etməklə qüvvələr tarazlığının pozulduğunu və onun bərpa edilməsi üçün qüvvələrin yenidən birləşməsinə ehtiyac olduğunu hiss edəndə onların tərəf dəyişdirməsi, köhnə ittifaqları tərk etməsi və yeni ittifaqlar yaratması qaçılmaz idi. Həmin dövrdə xarici siyasət, əslində, kralların olduqca məhdud mərclər uğrunda oynanılan oyundan və qumardan daha ciddi qəbul olunmayan və istənilən növ üstün prinsiplərdən tamamilə məhrum olunmuş idmanı idi. Beynəlxalq siyasətin təbiəti belə olduğundan keçmişdə baş verənlər bu gün xainlik və mənəviyyatsızlıq kimi görünsə də, o zaman hər biri oyunun bütün oyunçular tərəfindən məcburi kimi qəbul olunan qaydalarına uyğun icra edilən incə bir manevr, cəsarətli bir strategiya nümunəsi, yaxud da yaxşı uydurulmuş taktiki addımdan bir qədər artıq idi. Həmin dövrün qüvvələr tarazlığının əxlaq normalarından uzaq olması qərəzli davranışdan daha çox bilməyərək yol verilən bir davranış idi. Siyasət sənətinin texniki qaydaları onun yeganə standartı idi. Texniki nöqteyi-nəzərdən onun üçün səciyyəvi dəyər olan elastiklik vicdan və sədaqət, bizim üçün qınağa layiq görünən əxlaqi bir qüsur kimi əxlaq mülahizələrinin keçilməzliyinin nəticəsidir.

XV əsrin sonundan 1815-ci ildə Napoleon müharibələrinin sonuna qədər olan müasir dövlət sisteminin formalaşmağa başladığı dövrdən Avropa dövlətləri qüvvələr tarazlığının fəal ünsürləri idi. Türkiyə yeganə diqqətçəkən istisna idi. Tarazlığı qoruyub saxlamaq və ya bərpa etmək üçün ittifaqlar və əks-ittifaqlar qurulurdu. 1815-ci ildən Birinci Dünya müharibəsinin başlanğıcınadək keçən əsr Avropa qüvvələr tarazlığının tədricən dünya sisteminə çevrilməsinə şahid oldu. Qeyd olunmalıdır ki, bu epoxa prezident Monronun 1823-cü ildə Konqresə Monro doktrinası kimi tanınan məktubu ilə başlayır. Avropa və Qərb yarımkürəsinin bir-birindən qarşılıqlı asılılığını bəyan etməklə və beləliklə də, dünyanı sanki iki siyasi sistemə bölməklə Monro növbəti mərhələdə Avropa qüvvələr tarazlığı sisteminin dünya qüvvələr tarazlığı sisteminə çevrilməsi üçün bünövrə hazırladı.

Bu çevrilmə ilk dəfə Corc Kanninqin 12 dekabr 1826-cı ildə Britaniyanın xarici işlər naziri kimi İcmalar Palatasındakı çıxışında aydın şəkildə nəzərdən keçirildi və öz ifadəsini tapdı. Kanninq Fransanın İspaniyanı işğal etməsiylə pozulan qüvvələr tarazlığını bərpa etmək üçün Fransa ilə müharibə etmədiyinə görə tənqid olunurdu. Öz tənqidçilərini sakitləşdirmək üçün o, yeni qüvvələr tarazlığı nəzəriyyəsi işləyib-hazırladı. O, Britaniyanın Latın Amerikası respublikalarının müstəqilliyini tanımasını əsas gətirərək, yeni müstəqillik qazanmış bu dövlətləri yeni ünsürlər kimi tarazlığa daxil etdi. O belə fikir yürüdürdü:

"Bəs qüvvələr tarazlığını bərpa etmək üçün müharibədən başqa yol yox idi? – Qüvvələr tarazlığı qərarlaşmış və dəyişməz bir standartdırmı? Yaxud o, sivilizasiya

irəli getdikcə və yeni dövlətlər əmələ gəldikcə və kök salmış siyasi birliklər arasında öz yerlərini tutduqca daim dəyişən bir meyar deyilmi? Qüvvələr tarazlığı bir əsr yarım bundan əvvəl Fransa və İspaniya, Hollandiya, Avstriya və İngiltərə arasında bərqərar olmuşdu. Bundan bir neçə il sonra Rusiya Avropa siyasətində yüksək mövqeyə sahib oldu. Bundan bir neçə il sonra Prussiya yenidən yalnız real deyil, həmçinin üstünlüyə malik olan bir monarxiya oldu. – Beləliklə, qüvvələr tarazlığı prinsip etibarilə eyni qalsa da, onun bərqərar edilməsi vasitələri daha müxtəlif və genişləndirilmiş oldu. Onların genişlənməsi önəmli dövlətlərin çoxalmış sayına – deyə bilərəm ki, tərəzinin bu və digər gözünü dəyişə bilmiş çəkilərin miqdarına uyğun şəkildə baş verirdi... Fransa üzərinə birbaşa hücumdan – və ya İspaniya torpağında başladılmalı olan müharibədən başqa, digər müqavimət üsulu yox idimi? Bəs rəqibin İspaniyaya yiyələnməsi zərərsiz ola bilərsə – bizim üçün zərərsiz – və ona yiyələnən üçün dəyərsiz olarsa, necə olsun? Hörmətsizliyə görə ... müasir dövrə daha yaxşı uyğunlaşdırılmış üsullarla kompensasiya alına bilməzdimi? Əgər Fransa İspaniyanı işğal etdisə, bu işğalın nəticələrindən qaçmaq üçün bizim Kadisi mühasirəyə almağımız zəruri idimi? Xeyr, mən başqa cür fikirləşirdim – mən kompensasiya üçün digər bir yarımkürədə materiallar görürdüm. İspaniya haqqında bizim əcdadlarımızın onu tanıdığı kimi götür-qoy edərək mən belə bir qərara gəldim ki, əgər Fransa İspaniyaya sahib olsa, bu, *"hindlilərli"* İspaniya olmayacaqdı. Mən "Köhnə dünya"nın tarazlığını düzəltmək üçün "Yeni dünya"nı dövriyyəyə saldım".[1]

İttifaqlar və əks-ittifaqlar vasitəsilə fəaliyyət göstərən dünya, qüvvələr tarazlığına doğru bu irəliləyiş bütün dövlətlərin iştirak etdiyi Birinci Dünya müharibəsinin gedişində sona çatdı. Həmin müharibənin "dünya" müharibəsi kimi göstərilməsinin özü bu prosesin başa çatmasına işarədir.

İkinci Dünya müharibəsinin əksinə, Birinci Dünya müharibəsi öz kökünü müstəsna olaraq Avropada qüvvələr tarazlığının pozulması xofundan götürürdü və bu qüvvələr tarazlığı Avropanın iki regionunda təhlükəyə məruz qalmışdı: Belçikada və Balkanlarda. Fransanın şimal-şərqində yerləşən və La-Manş boğazının şərq sahillərinə nəzarət edən Belçika böyük güc yarışında iştirak etmək üçün kifayət qədər qüdrətli olmadan onun mərkəzinə düşdü. Belçikanın müstəqilliyinin Avropada qüvvələr tarazlığı üçün zəruri olduğu aksiom idi. Onun hər hansı bir böyük Avropa dövləti tərəfindən ilhaqı həmin dövləti qaçılmaz olaraq digərlərinin təhlükəsizliyi üçün olduqca güclü edər. Bu, Belçikanın Böyük Britaniya, Avstriya, Rusiya, Prussiya və Fransanın fəal dəstəyi ilə müstəqillik əldə etdiyi andan belə qəbul olundu. 19 fevral 1831-ci ildə London konfransında toplanmış

[1] *Speeches of the Right Honourable George Canning* (London, 1836), Vol. VI, səh. 109-111.

həmin dövlətlər bəyan etdi ki, "onların hüququ var və hadisələr onların üzərinə belə bir vəzifə qoyur ki, Belçika əyalətləri müstəqil olandan sonra ümumi təhlükəsizliyi və Avropa qüvvələr tarazlığını təhlükə altına salmasına nəzarət etsinlər".[1]

Həmin məqsədə yardım etmək üçün 1839-cu ildə əlaqədar 5 dövlət Belçikanı onların kollektiv təminatı altında "müstəqil və əbədi bitərəf dövlət" elan edən müqavilə imzaladı. Bu bəyannamə Belçikanın əbədi olaraq bu və ya digər tərəfdə Avropa qüvvələr tarazlığında iştirak etməsinin qarşısını aldı. 1914-cü ildə Almaniyanın qüvvələr tarazlığı üçün törətdiyi təhlükəyə müəyyən bir forma verən və Böyük Britaniyanın Fransa, Rusiya və onların müttəfiqləri tərəfindən müharibədə iştirakına haqq qazandıran hadisə Belçikanın bitərəfliyinin Almaniya tərəfindən pozulması oldu.

Avstriya, Böyük Britaniya və Rusiyanın Balkanlarda qüvvələr tarazlığının mühafizəsinə dair narahatlığı həmin regionda Türkiyənin gücünün zəifləməsi ilə eyni vaxta düşdü. 1854-1856-cı illər Krım müharibəsi Fransa, Böyük Britaniya və Türkiyənin daxil olduğu ittifaq tərəfindən Balkanlarda qüvvələr tarazlığının qorunub saxlanması məqsədilə Rusiyaya qarşı aparıldı. 13 mart 1854-cü il ittifaq müqaviləsi ilə bəyan edildi ki, "Osmanlı imperiyasının indiki sərhədləri daxilində mövcudluğu Avropa dövlətləri arasında qüvvələr tarazlığı üçün əhəmiyyətlidir". Sonrakı rəqabət və müharibələr, xüsusilə 1878-ci il Berlin konqresi və 1912 və 1913-cü illər Balkan müharibələrinə gətirib çıxaran hadisələrə hamısı belə bir xof ilə yanaşırdı ki, Balkanlarda əsas marağı olan dövlətlərdən biri həmin regionda digər əlaqədar dövlətlərin gücünə münasibətdə qeyri-mütənasib şəkildə artıma nail ola bilər.

Birinci Dünya müharibəsindən əvvəlki bir neçə ildə Balkanlarda qüvvələr tarazlığının əhəmiyyəti artmışdı; çünki Avstriya, Almaniya və İtaliya arasında yaradılmış "Üçlər ittifaqı" Fransa, Rusiya və Böyük Britaniya arasında yaradılmış Antantanı tarazlayıcı kimi gördüyündən Balkanlarda həlledici üstünlük qazanmış güc kombinasiyası Avropada ümumi qüvvələr tarazlığında asanlıqla həlledici üstünlüyə sahib ola bilərdi. 1914-cü ilin iyulunda Avstriyanı Serbiya ilə hesablarını birdəfəlik həll etmək cəhdinə vadar edən və Almaniyanı Avstriyanı qeyd-şərtsiz müdafiə etməyə məcbur edən həmin xof idi. Rusiyanı Serbiyanın tərəfini saxlamağa və Fransanı Rusiyanın tərəfini saxlamağa vadar edən də həmin xof idi. 1914-cü il avqustun 2-də İngiltərə kralı V Corca teleqrafla müraciətində Rusiya çarı vəziyyət haqqında düzgün nəticə çıxararaq bildirmişdi ki, Avstriyanın Serbiya üzərində üstünlüyünün təsiri "Balkanlarda mənim imperiyam, eləcə də Avropada qüvvələr tarazlığının qorunub saxlanmasını arzu edən dövlətlər üçün həyati

[1] *Protocols of Conferencein London Relativetothe Affairs of Belgium* (1830-1831), səh. 60.

aralarında müharibələrini aparmaq üçün şərait yaradır, o, qitəyə ağalıq etmək üçün Avropanı parçalanmış şəkildə saxlayır və onun siyasətinin dönüklüyü o dərəcədədir ki, Böyük Britaniya ilə ittifaq yaratmaq qeyri-mümkündür. "Hiyləgər Albion" ifadəsi çox cəhd etmələrinə baxmayaraq, Böyük Britaniyanın dəstəyinə nail ola bilməyənlərin, yaxud da onlara görə çox böyük dəyər ödədikdən sonra onu itirənlərin ağzında kəlama çevrilmişdir.

Tarazlığın tənzimləyicisinin mövqeyi güc uğrunda mübarizənin nəticəsini təyin etdiyindən onun qüvvələr tarazlığı sistemindəki mövqeyi olduqca mühümdür. Buna görə də onu sistemdə kimin qalib gələcəyi və kimin uduzacağını qərarlaşdıran "arbitr" adlandırıblar. Bir dövlətin, yaxud dövlətlər birliyinin digərləri üzərində üstünlük əldə etməsinə imkan verməməklə o özünün, eləcə də bütün digər dövlətlərin müstəqilliyini qoruyub saxlayır və odur ki beynəlxalq siyasətin ən güclü amilidir.

Tarazlığın tənzimləyicisi bu gücü üç yolla istifadə edə bilər. O özünün bu və digər dövlətə və ya ittifaqa qoşulmasını qüvvələr tarazlığının qorunub saxlanması və ya bərpası üçün müəyyən əlverişli şərtlərdən asılı edə bilər. O, məsələnin dinc yolla həllinə dəstəyini eyni şərtlərdən asılı edə bilər, nəhayət, o hər iki vəziyyətdə qüvvələr tarazlığının qorunub saxlanmasından başqa, öz milli siyasətinin məqsədlərinin digərlərinin gücünün tarazlanması prosesində həyata keçməsini təmin edə bilər.

XIV Lüdoviqin dövründə Fransa və Birinci Dünya müharibəsindən əvvəlki onillikdə İtaliya Avropa qüvvələr tarazlığında həmin arbitr rolunu oynamağa cəhd etdi. Lakin Fransa Avropa qitəsində güc uğrunda mübarizəyə olduqca yaxından cəlb olunmuşdu, o, qitədə qüvvələr tarazlığının olduqca mühüm bir parçası idi və bu rolu uğurla ifa etmək üçün hökmranlıq üstünlüyündə böyük çatışmazlığa malik idi. İtaliya isə qüvvələr tarazlığında onun aparıcı mövqeyini təmin etmək üçün ətrafa saçmağa kifayət qədər gücə malik deyildi. Bu səbəbdən o, Böyük Britaniyanın eyni siyasətinin ona bəxş etdiyi kimi hörmət deyil, yalnız əxlaq məzəmməti qazandı. Yalnız XVI əsrdə Venetsiya və VIII Henrinin hakimiyyətindən etibarən Böyük Britaniya yuxarıda sadalanan üsulları ayrı-ayrılıqda və ya birlikdə tətbiq etməklə digər dövlətlər arasında qüvvələr tarazlığının tənzimləyicisi olmağı öz xarici siyasətlərinin təməl prinsipinə çevirə bilib.

Bu fikir ilk dəfə venetsiyalılara münasibətdə 1553-cü ildə Macarıstan kraliçası Meri tərəfindən İngiltərə imperiyasının səfirinə yazılmış məktubda özünü büruzə verdi. O qeyd edirdi ki, italyanların Fransaya qarşı çıxmaq üçün yaxşı əsasları var, lakin o əlavə edirdi: "Onların iki hökmdardan [V Karl və I Fransis] birinin və digərinin gücündən necə qorxduqları və onların gücünü tarazlamağa necə maraqlı

olduqları sizə məlumdur".[1] Növbəti illərdə Venetsiya Fransanın ittifaq təkliflərini rədd edərkən Fransa dövlət adamları Venetsiyanın xarici siyasətini eyni cür, tərəflərdən biri ilə ittifaqlardan təcrid olunma və uzaqlaşmanın aspektlərinə münasibətdə xarakterizə etdilər. Məsələn, 1554-cü ildə Venetsiya səfiri xəbər verirdi ki, Fransa kralı II Henriyə rədd cavablarını Venetsiyanın belə bir qorxusu ilə izah etmişdi ki, V Karlın vəfat etməsi halında İspaniya Fransaya düşmən ola bilərdi; odur ki Venetsiya "hadisələri tarazlıqda saxlamağa (*tener le cose in equale stato*)" çalışırdı. Digər bir Venetsiya səfiri 1558-ci ildə məlumat vermişdi ki, fransızlar Venetsiyanın xarici siyasətini onun Fransa və İspaniyanın gücünün artmasına dair şübhəsi ilə izah edirdilər. Venetsiya "tarazlığın tərəflərdən birinə tərəf meyil etməsinin (*que la bilancia non pendesse da alcuna parte)*" qarşısını almaq istəyirdi. Səfir əlavə etmişdi ki, "belə bir siyasət ziyalı insanlar tərəfindən təqdir və hətta pərəstiş olunur; belə qarışıq vaxtlarda zəif olan dövlət Venetsiya Respublikasından başqa heç yerdə özünə müdafiə tapmır və ona görə də xüsusilə bütün italyanlar onun müstəqilliyini arzu edir və silahlanmasını alqışlayır".[2]

Bununla belə, tarazlayıcının klassik nümunəsini Böyük Britaniya təqdim etmişdir. *Cui adhaero praeest* (mənim dəstək verdiyim üstün olacaq) deyimi VIII Henriyə aiddir. Xəbər verilir ki, o özünün sağ əlində mükəmməl bir tarazlıqda olan, bir gözündə Fransanın, digər gözündə isə Avstriyanın yer aldığı tərəzi, sol əlində isə tərəzinin gözlərindən birinə qoymaq üçün hazır olan çəki daşı ilə rəsmini çəkmişdi. I Yelizavetanın hakimiyyəti altında olan İngiltərə haqqında deyilirdi ki, "Fransa və İspaniya sanki Avropa qüvvələr tarazlığında tərəzinin gözləri, İngiltərə isə tarazlığın dili, yaxud tənzimləyicisidir".[3] 1624-cü ildə fransız dərgisi kral Yakobu "İmperator V Karl və kral Fransis arasında hər ikisinə görə təşvişə düşməklə və özünü arxayınlaşdırmaqla və onlar arasında tarazlığı, belə deyək, təmin etməklə öz rolunu çox yaxşı oynamış" Yelizaveta və VIII Henrinin şərəfli nümunəsinin yolu ilə getməyə dəvət etdi.

XIV Lüdoviqin universal monarxiyanın yeni namizədi kimi meydana çıxması ilə İngiltərə və digər ölkələrdə Habsburqlar və Fransanı tarazlıqda saxlamaqla "Avropanın arbitri" kimi hərəkət etməyin bir ingilis missiyası hesab olunması daha çox ümumi forma aldı. Bu eyni standart tənqidi şəkildə Hollandiyaya qarşı Britaniya gücünün ən qüdrətli rəqibi olan XIV Lüdoviqlə əlbir olan II Karl və II Ceymsin xarici siyasətlərinə və III Uilyamın antifransa siyasətini dəstəkləmək

[1] *Papiers d'état du Cardinal de Granvelle* (Paris, 1843), Vol. IV, səh. 121.
[2] Eugeno Albéri, *Le Relazionidegli Ambiasciatori Veneti al Senato*, Series I (Firenze, 1862), Vol. II, səh. 287, 464.
[3] William Camden, *Annales of the History of the Most Renowned and Victorious Princess Elizabeth, Late Queen of England* (London, 1635), səh. 196.

üçün də tətbiq olunurdu. İspaniya mirası uğrunda müharibə ilə həmin standart xüsusilə İngiltərədə ehkama çevrildi. Bu, qüvvələrin hər zaman yenilənən kombinasiyalarına tətbiq olunarkən XIX əsrin ortalarından sonra Mançester liberallarının Avropa qitəsinin məsələlərindən – yəni təcridetmədən – Britaniya xarici siyasətinin prinsipi kimi tamamilə və həmişəlik uzaqlaşmağın tərəfdarı olmasınadək müzakirə olunmaz olaraq qaldı. Britaniya diplomatiyasının ənənəsi və təcrübəsi olan qüvvələr tarazlığının bu növü yalnız son illərdə, Britaniyanın gücünün iflasa uğraması və Amerika və Rusiyanın gücünün böyüməsiylə aradan qalxdı.[1] Bu ənənə və təcrübə aradan qalxmaq üzrə olduğu zaman ser Uinston Çörçill 1936-cı ilin martında Xarici Məsələlər üzrə Mühafizəkar Üzvlər Komitəsində çıxışında bunu ən ifadəli şəkildə ümumiləşdirmişdir:

"Dörd yüz il ərzində İngiltərənin xarici siyasəti qitənin ən qüdrətli, ən təcavüzkar və ən hökmran gücünə qarşı çıxmalı və xüsusilə də kiçik ölkələrin belə bir gücün əlinə düşməsinin qarşısını almalı olmuşdur. Çoxsaylı ad və fakt, şərait və vəziyyət dəyişiklikləri arasında ardıcıl məqsədin bu dörd əsri tarixin işığında nəzərdən keçirilərsə, istənilən irqin, millətin, dövlətin və xalqın qeydlərinin nümayiş etdirə biləcəyi ən diqqətəlayiq epizodlarından biri kimi qiymətləndirilməlidir. Bundan əlavə, bütün hallarda İngiltərə daha da çətin kurs götürmüşdür. İspaniya kralı II Filip ilə üz-üzə gələrkən III Uilyamın və Marlboronun dövründə XIV Lüdoviqə qarşı, Napoleona qarşı, Almaniya kralı II Uilyama qarşı çıxarkən daha güclü olanla birləşmək və onun istilasının gətirdiyi mənfəətdən bəhrələnmək asan olmuş olardı və çox şirnikləndirici olmalı idi. Lakin biz hər zaman daha ağır kursu götürmüş, daha zəif olan güc ilə birləşmiş, onlar arasında kombinasiyalar qurmuş və bununla da kim olmasından və hansı dövləti idarə etməsindən asılı olmayaraq, qitədəki hərbi tiranı məğlub etmiş və uğursuzluğa düçar etmişik. Bununla biz Avropanın azadlıqlarını qoruyub saxlamış, onun sağlam və rəngarəng cəmiyyətinin böyüməsini müdafiə etmiş, dörd dəhşətli mübarizədən hər zaman artan şöhrət və genişlənən imperiya və müstəqillikləri qətiyyətlə qorunan kiçik ölkələrlə çıxmışıq. Britaniya xarici siyasətinin heyrətamiz qeyri-adi ənənəsi budur. Bu gün bizim bütün düşüncələrimiz bu ənənəyə söykənir. Mən bizim əcdadlarımızın fəaliyyətlərinin əsasında duran ədaləti, müdrikliyi, hünəri və ağılı dəyişən və ya azaldan heç nə tanımıram. Mən insan təbiətində onların mülahizələrinin doğruluğunu ən kiçik dərəcədə dəyişən heç bir hadisə haqqında məlumatlı deyiləm. Mənim əlimdə heç bir elə hərbi, siyasi, iqtisadi və ya elmi fakt yoxdur ki, bizim daha az bacarıqlı olduğumuzu hiss edim. Mən bizim eyni yolla getməməli olduğumuzu və gedə bilmədiyimizi hiss etdirən heç nə bilmirəm. Mən bu çox

[1] Bu məsələyə dair ətraflı müzakirələr üçün bax: paraqraf 21.

ümumi fikri sizin qarşınıza qoymağa cürət edirəm, çünki mənə elə gəlir ki, əgər bu qəbul olunarsa, başqa hər şey daha bəsit olacaq.

Baxın ki, İngiltərə Avropada vəziyyətin gərginləşməsinə çalışanın hansı dövlət olmasını nəzərə almır. Məsələ onda deyil ki, bu, İspaniyadır, yoxsa Fransa monarxiyasıdır, yoxsa Fransa imperiyasıdır, yoxsa Almaniya imperiyasıdır, yoxsa ki Hitler rejimidir. Onun idarəçilər və xalqlarla heç bir işi yoxdur; onu yalnız kimin ən güclü və potensial olaraq hakim tiran olması maraqlandırır. Odur ki biz fransızyönlü, yaxud antialman olmaqda təqsirləndirilməkdən qorxmamalıyıq. Əgər şərtlər dəyişsəydi, biz eyni şəkildə almanyönlü və antifransız da ola bilərdik. Bu, təsadüfi vəziyyətlərin, ya da istəklərin və ya istəksizliklərin, yaxud da hər hansı digər duyğunun diktə etdiyi adi bir üsul deyil, bizim yürütdüyümüz ictimai siyasətin qanunudur".[1]

[1] Winston Churchill, *The Second World War*, Vol. I, *The Gathering Storm* (Boston: Houghton Mifflin, 1948), səh. 207-208. (Naşirin icazəsiylə istifadə edilmişdir)

13. Qüvvələr tarazlığının strukturu

HAKİM VƏ ASILI SİSTEMLƏR

Biz bu vaxta qədər qüvvələr tarazlığı haqqında sanki beynəlxalq siyasətə aktiv şəkildə qoşulan bütün dövlətləri əhatə edən vahid bir sistem kimi danışmışıq. Lakin daha yaxından aparılan müşahidələr aşkar edir ki, belə bir sistem çox vaxt bir-biriylə qarşılıqlı əlaqədə olan və bundan başqa öz aralarında öz qüvvələr tarazlıqlarını qoruyub saxlayan altsistemlərdən təşkil olunur. Müxtəlif sistemlər arasında qarşılıqlı əlaqə, ümumiyyətlə, tabeçiliyin bir formasıdır, o mənada ki, bir dövlət onun tərəzilərində nisbətən böyük güc toplandığı üçün ağalıq edir, digərləri isə bu halda sanki hakim sistemin tərəzisinə bağlanıblar.

Belə ki, XVI əsrdə Fransa və Habsburqlar arasında hakim qüvvələr tarazlığı fəaliyyət göstərdiyi halda, eyni zamanda muxtar bir sistem italyan dövlətlərini müvazinətdə saxlayırdı. XVII əsrin sonlarında Şimali Avropada Baltik dənizi kənarında yerləşən dövlətlərə qarşı İsveçin gücünün yüksəlməsiylə yaranan qarşıdurmadan kənar bir qüvvələr tarazlığı formalaşdı. XVIII əsrdə Prussiyanın birinci dərəcəli gücə çevrilməsi xüsusi bir alman qüvvələr tarazlığının yaranmasına səbəb oldu və bu tarazlıq tərəzisinin digər gözündə əsas ağırlıq kütləsi kimi Avstriya dururdu. Bu muxtar sistem, "böyük Avropa içərisində kiçik Avropa" yalnız 1866-cı ildə, eyni ildə baş vermiş Avstriya-Prussiya müharibəsinin nəticəsi olaraq Avstriyanın Alman İttifaqından çıxarılması ilə dağıldı. XVIII əsr həmçinin Rusiyanın hakim təsirinin doğurduğu Şərq qüvvələr tarazlığının formalaşmasının şahidi oldu. Polşanın güzəştlər prinsipi əsasında Rusiya, Prussiya və Avstriya arasında bölüşdürülməsi həmin yeni sistemin ilk bariz təzahürləridir.

XIX əsrdən bugünkü günədək Balkanlarda qüvvələr tarazlığı Avropa dövlətlərini narahat edən məsələ olmuşdur. 1790-cı ildə Türkiyə Prussiya ilə müqavilə imzaladı və müqaviləyə əsasən, Prussiya "Dunayın qovşağındakı düşmənlərin arzuolunan və lazımlı qüvvələr tarazlığına gətirdiyi qərəz səbəbi"ndən Avstriya və Rusiya ilə müharibə etməyə söz verdi. XIX əsrin sonlarında böyük dövlətlərin müstəmləkə mənimsəmələri arasında müəyyən müvazinətə əsasən, Afrika qüvvələr

tarazlığı haqqında danışmağa başladılar. Daha sonra diplomatik lüğətə Qərb yarımkürəsində, Sakit okean regionunda, eləcə də Uzaq və Yaxın Şərqdə qüvvələr tarazlığı ifadələri də daxil oldu. Hətta "Avstriya müvazinəti" haqqında da danışırdılar və bir-biriylə ədavət içində olan millətlərə malik Avstriya monarxiyası haqqında deyilirdi ki, o "özünə Avropa dövlətlərinin öz əbədi rəqibləri bir-birinə münasibətdə əməl etdikləri idarəetmə qaydalarını tətbiq etməyə məcburdur".[1]

Təsadüfi deyil ki, belə lokal qüvvələr tarazlığı sistemlərinin muxtariyyəti daha böyükdür və onların hakim sistemə tabeçiliyi daha az nəzərəçarpandır, onlar güc uğrunda mübarizənin mərkəzindən fiziki olaraq nə qədər çox uzaq olarsa, hakim sistemin ətrafında, hakim dövlətlər üçün əlçatmaz yerdə o qədər çox fəaliyyət göstərərlər. Belə ki, XV əsrdə Avropanın böyük dövlətləri digər regionlarda istilaya məruz qaldıqları halda, İtaliya qüvvələr tarazlığı nisbətən müstəqil formada inkişaf edə bildi. Qərb sivilizasiyası tarixinin böyük bir dövründə Asiya, Afrika və Amerikanın müxtəlif qüvvələr tarazlığı sistemləri onların özlərinə də məlum olmayan səbəblərdən Avropa dövlətlərinin konfiqurasiyasından asılı idi.

İkinci Dünya müharibəsinə qədər Qərb yarımkürəsindəki qüvvələr tarazlığı və XVIII əsrin sonuna qədər Şərqi Avropadakı qüvvələr tarazlığı nisbətən müstəqil inkişaflarına görə həmin dövrün güc mərkəzlərindən kənarda yerləşmələrinə borcludur. Polşanın Şərqi Avropada qüvvələr tarazlığını qoruyub saxlamaq məqsədi daşıyan bölünmələri heç bir digər dövlətin müdaxiləsi olmadan, birbaşa olaraq maraqlı dövlətlər tərəfindən həyata keçirildi. Cənubi Amerikada qüvvələr tarazlığını qoruyub saxlamaq üçün 1851-ci ildə Braziliya və Uruqvay arasında Argentinaya qarşı yaradılmış ittifaqın Avropa qüvvələr tarazlığı ilə yalnız çox zəif əlaqəsi var idi. Digər tərəfdən, bu gün artıq müstəqil Afrika qüvvələr tarazlığından danışmaq mümkündür. Afrikanın yerli xalqları güc uğrunda bir-biriylə və qeyri-Afrika dövlətləriylə rəqabət aparmağa başladığından Afrika artıq yalnız mərkəzi başqa bir yerdə olan güc uğrunda mübarizənin obyekti deyil.

Lokal qüvvələr tarazlığı hakim qüvvələr tarazlığı ilə nə qədər sıx bağlı olarsa, onun müstəqil fəaliyyət göstərmək imkanı o qədər azdır və o, hakim qüvvələr tarazlığının, sadəcə, lokallaşmış təzahürü olmağa o qədər çox meyilli olur. II Fridrixdən başlamış 1866-cı il müharibəsinə qədər Alman İttifaqı daxilindəki qüvvələr tarazlığı tam müstəqillik ilə tam inteqrasiya arasındakı aralıq vəziyyəti göstərir. O, müstəqilliyin müəyyən bir dərəcəsi ilə hakim sistemə inteqrasiyanı birləşdirir. Qeyd olunduğu kimi[2], Prussiya və Avstriya arasında tarazlıq Alman İttifaqının üzvlərinin azadlıqlarının mühafizə edilməsinin ilkin şərti olduğu halda,

[1] Albert Sorel, *L'Europe et la révolution française* (Paris: E.Plon, 1885), Vol. I, səh. 443.
[2] Bax: səh. 248.

bu müvazinət həm də bütövlükdə Avropa qüvvələr tarazlığının qorunub saxlanması üçün zəruri idi.

Beləliklə, alman tarazlığı ikili funksiyanı yerinə yetirirdi: bunlardan biri öz çərçivəsi daxilində, digəri isə tərkib hissəsi olduğu ümumi sistem üçün idi. Əksinə, Prussiya və Avstriyanın birləşməsi və ya birinin digəri üzərində ağalığı yalnız ayrı-ayrı alman dövlətlərinin müstəqilliyi üçün zərərli olmayacaqdı, həmçinin digər Avropa dövlətlərinin azadlığını da təhlükə altına atmış olacaqdı. Edmund Berkin qeyd etdiyi kimi, "əgər Avropa imperiyanın müstəqilliyi və müvazinətinin Avropada qüvvələr tarazlığının mahiyyətini təşkil etdiyini dərk etməsə... Avropanın iki əsrdən çox tarixi olan siyasəti miskin şəkildə yanlış olmuş olar".[1] Odur ki Prussiya və Avstriya arasında tarazlığın əbədiləşdirilməsi yalnız Alman İttifaqının digər üzvlərinin deyil, həmçinin bütün Avropa dövlətlərinin marağına uyğun idi.

1866-cı il müharibəsinin nəticəsi olaraq, Prussiya, daha sonra isə Almaniya üzərində daimi üstünlük qazandığı zaman – bu, iki dövlət arasında tarazlığı pozmuş və Almaniyanı Avropanın ağasına çevirmişdi – ən azından Avstriyanın müstəqilliyini onun daha qüdrətli qonşusu tərəfindən pozulmaqdan mühafizə etmək Avropa qüvvələr tarazlığının vəzifələrindən birinə çevrildi. Bu onun nəticəsi idi ki, Birinci Dünya müharibəsindən sonra qalib müttəfiqlər Avropanın daimi maraqlarına müvafiq olaraq, hüquqi, iqtisadi və siyasi tədbirlərlə Avstriyanın Almaniya ilə birləşməsinin qarşısını almağa çalışırdılar. Bundan əlavə, bu vəziyyətin məntiqinə uyğun olaraq, Hitler Avropa qüvvələr tarazlığının dağıdılması yolunda Avstriyanın birləşdirilməsini mühüm addım hesab edirdi.

XIX əsrin sonuncu onilliyindən etibarən Balkanlarda qüvvələr tarazlığı da eyni funksiyanı yerinə yetirirdi. Burada da Balkan dövlətləri arasında qüvvələr tarazlığının qorunub saxlanması Avropada tarazlığın qorunub saxlanması üçün ilkin şərt hesab olunurdu. Lokal tarazlıq təhlükə altına düşən kimi Avropanın böyük dövlətləri onu bərpa etmək üçün müdaxilə edirdi. Birinci Dünya müharibəsinin əvvəlində Rusiya çarının yuxarıda istinad olunmuş[2] fikri bu əlaqəni aydın şəkildə izah edir.

QÜVVƏLƏR TARAZLIĞINDA STRUKTUR DƏYİŞİKLİYİ[3]

Hakim qüvvələr tarazlığı ilə lokal sistemlər arasındakı əlaqələr son zamanlar lokal sistemlərin müstəqilliyinin zərərinə çevrilməyə doğru daim artan meyil

[1] *Works*, (Boston: Little, Brown, 1889), Vol.: V, səh. 330.
[2] Bax: səh. 204.
[3] Digər struktur dəyişiklikləri üçün bax: növbəti səhifələr və paraqraf 21.

nümayiş etdirir. Bu inkişafın səbəbləri hakim qüvvələr tarazlığının Birinci Dünya müharibəsindən başlayaraq məruz qaldığı və İkinci Dünya müharibəsi zamanı təzahür edən struktur dəyişikliklərindədir. Biz artıq hakim qüvvələr tarazlığının Qərbi və Mərkəzi Avropadan bütün qitəyə, oradan da digər qitələrə tədricən yayılması və sonda Birinci Dünya müharibəsində dünyanın bütün ölkələrinin dünya qüvvələr tarazlığında fəal iştirakı haqqında bəhs etmişdik.

Bu yayılmanın sona çatması ilə birlikdə tarazlığın əsas ağırlıqlarının Avropadan digər qitələrə keçməsi də baş verdi. Birinci Dünya müharibəsinin başlanğıcında tarazlıqda əsas ağırlıqlar, əsasən, Avropa dövlətlərinə – Böyük Britaniya, Fransa və Rusiya tərəzinin bir gözündə, Almaniya və Avstriya isə digər gözündə – məxsus idi. İkinci Dünya müharibəsinin sonunda tərəzinin ayrı-ayrı gözlərindəki ağırlıqlar ya tamamilə qeyri-Avropa, – ABŞ-ın nümunəsində olduğu kimi, – ya da, əsasən, qeyri-Avropa – Sovet İttifaqının nümunəsində olduğu kimi – dövlətləri idi. Nəticədə dünya qüvvələr tarazlığının strukturu bütövlükdə dəyişikliyə məruz qalmışdı. Birinci Dünya müharibəsinin sonunda və hətta İkinci Dünya müharibəsinin başlanğıcında tarazlığın hər iki gözü, belə deyək ki, hələ də Avropada idi; yalnız tərəzinin gözlərindəki ağırlıqlar bütün dünyaya məxsus idi. Güc yarışının baş qəhrəmanları və uğrunda mübarizə aparılan əsas mükafat hələ də əsas etibarilə Avropa ilə bağlı idi. Corc Kanninqin artıq sitat gətirdiyimiz fikirləriylə desək, qeyri-Avropa dövlətləri yalnız Avropanın qüvvələr tarazlığını yoluna qoymaq məqsədilə dəvət olunurdu. Çörçill 1940-cı ildə deyirdi ki, ""Yeni dünya" bütün gücü və qüdrətiylə "Köhnə dünya"nın xilası və azadlığı üçün irəli atılır".

Bu gün Avropa qüvvələr tarazlığı artıq dünya siyasətinin ətrafında lokal tarazlıqların yaxın əlaqə, ya da böyük və ya kiçik müstəqillik şəraitində qruplaşdığı mərkəzi deyil. Bu gün Avropa qüvvələr tarazlığı tərəzisinin bir-birinə əks gözlərində əsas ağırlıqları ABŞ və Sovet İttifaqı olan dünya qüvvələr tarazlığının adi bir vəzifəsinə çevrilib. Avropada qüvvələr bölgüsü yalnız ABŞ və Sovet İttifaqı arasında uğrunda güc yarışı gedən konkret məsələlərdən biridir.

Əvvəllər hakim olmuş sistem haqqında həqiqət olanlar həmçinin bütün ənənəvi lokal sistemlər haqqında da həqiqətdir. Balkanlarda qüvvələr tarazlığı Yaxın və Uzaq Şərqdəki tarazlıqlar kimi ümumi Avropa sisteminin taleyini yaşamışdır. Onlar yeni dünya tarazlığının adi vəzifələrinə, iki baş qəhrəman mübarizə apardığı güc yarışının "teatrları"na çevrilmişdir. Qeyd olunmalıdır ki, bütün lokal qüvvələr tarazlığı sistemlərindən yalnız Cənubi Amerika sistemi verilmiş şəraitdə ABŞ-ın ağalığının müdafiəsi altında, müəyyən dərəcədə müstəqilliyini qoruyub saxlamışdır.

14. Qüvvələr tarazlığının qiymətləndirilməsi

Biz qüvvələr tarazlığının, xüsusilə onun dəyişən strukturuna nəzər salarkən necə qiymətləndirməli və onun müasir dünyada sülh və təhlükəsizliyi qorumaq üçün gələcək faydalılığını necə dəyərləndirməliyik?

Biz onun təbiətini və fəaliyyətini izah edərkən çoxdövlətli sistem ilə qaçılmaz əlaqəsi və həmin sistemi müdafiə funksiyasını vurğulamışdıq. Dörd yüz ildən artıq tarixi ərzində qüvvələr tarazlığı siyasəti hər hansı bir dövlətin universal hökmranlıq əldə etməsinin qarşısını almağa müvəffəq olmuşdur. O həmçinin 1648-ci ildə Otuzillik müharibənin sona çatmasından və XVIII əsrin sonunda Polşanın bölüşdürülməsindən sonra müasir dövlət sisteminin bütün üzvlərinin mövcudluğunu mühafizə etməyə nail olmuşdur. Lakin hər hansı bir dövlətin universal hökmranlığının qarşısı yalnız faktiki olaraq 1648-1815-ci illərdə aramsız olmuş və XX əsrdə iki dəfə bütün dünyanı əhatə etmiş müharibələr hesabına alınmışdır. Biri 1648-ci ildən, digəri isə 1815-ci ildən başlamış iki sabitlik dövründən əvvəl kiçik dövlətlərin kütləvi şəkildə aradan çıxması baş verdi və onlar arasındakı dövrdə Polşanın dağıdılmasından başlayaraq, eyni təbiətli çoxsaylı ayrı-ayrı hadisələr qeydə alınmışdır.

Bizim müzakirəmiz üçün mühüm olan bu hadisələrin müasir dövlət sisteminin fundamental prinsipi kimi xidmət etməkdə əsas tələbi ayrı-ayrı dövlətlərin müstəqilliyinin qorunub saxlanması üçün labüdlüyündən ibarət olan həmin qüvvələr tarazlığı prinsipi adından həyata keçirilməsi faktıdır. Polşanın müdafiəsində yalnız qüvvələr tarazlığı uğursuzluğa uğramadı, həmçinin hər hansı digər bir üzvün ərazisinin böyüməsinə görə hər bir üzvə ərazi güzəşti prinsipi də Polşa dövlətinin dağılmasına səbəb oldu. Qüvvələr tarazlığı naminə Polşanın dağıdılması 1815-ci ildən bu günə qədər həmin prinsipin tətbiqində həyata keçirilmiş müstəqil dövlətlərin bölüşdürülməsi, birləşdirilməsi və dağıdılmasından ibarət hadisələr silsiləsinin yalnız ilk və ən bariz nümunəsi idi. Ayrı-ayrı dövlətlər qarşısında vəzifəsini həyata keçirmək uğursuzluğu və real və potensial müharibələrdən başqa, istənilən digər vasitə ilə bütövlükdə dövlət sistemi üçün onu yerinə yetirmək uğursuzluğu qüvvələr tarazlığının beynəlxalq siyasətin rəhbər prinsipi kimi üç əsas zəifliyini göz önünə çıxarır: onun qeyri-müəyyənliyi, onun qeyri-reallığı və onun qeyri-qənaətbəxşliyi.

QÜVVƏLƏR TARAZLIĞININ QEYRİ-MÜƏYYƏNLİYİ

Bir sıra dövlətlər arasında onlardan hər hansı birinin digərlərinin müstəqilliyini təhlükə altına salacaq qədər güclənməsinin qarşısını almaq məqsədilə tarazlıq ideyası mexanika sahəsindən götürülmüş metafordur. Bu, cəmiyyəti və bütün kainatı ilahi saatsaz tərəfindən yaradılan və hərəkət etdirilən nəhəng mexanizm, dəzgah və yaxud saat mexanizmi kimi təsvir edən XVI, XVII və XVIII əsrlərin düşüncə tərzinə xasdır. Belə bir inam var idi ki, bu mexanizm və onu təşkil edən daha kiçik mexanizmlər daxilində ayrı-ayrı hissələrin qarşılıqlı əlaqəsi mexaniki hesablamalar üsulu ilə dəqiq təyin oluna və onların hərəkətləri və reaksiyaları əvvəlcədən düzgün müəyyən oluna bilərdi. Beynəlxalq arenada sabitlik və nizamın qorunub saxlanmasını təmin edən mexanizmin ağırlıqların tərəzinin hər iki gözündə bərabər paylanması ilə tarazlığı təmin edilən tərəziyə bənzədilməsinin kökü həmin mexanika fəlsəfəsindədir. O, beynəlxalq siyasətin təcrübi məsələlərinə həmin fəlsəfənin ruhunda tətbiq olunmuşdur.

Mexaniki şəkildə təsəvvür edilən qüvvələr tarazlığının bir sıra dövlətlərin nisbi gücünün ölçülə və müqayisə edilə biləcəyi, asanlıqla təyin edilə bilən kəmiyyət meyarına ehtiyacı var. Çünki yalnız real tərəzidə istifadə olunan funt və unsiya meyarları ilə müqayisə oluna bilən belə bir meyarın vasitəsilə hər hansı bir dərəcədə əminliklə müəyyən bir dövlətin digərindən daha güclü olmağa və ya onların hər ikisinin öz aralarında qüvvələr tarazlığını qoruyub saxlamağa cəhd etdiyini söyləmək olar. Bundan əlavə, yalnız belə bir meyar vasitəsilə güc dəyişiklikləri tarazlığı yenidən bərqərar etmək üçün tərəzinin bir gözündən digərinə keçirilmək üçün kəmiyyət vahidlərinə çevrilə bilər. Artıq bizim də gördüyümüz kimi, qüvvələr tarazlığının nəzəriyyə və təcrübəsi bu meyarları ərazi, əhali və silahlanma kimi müəyyən edib. Güzəştlər siyasəti və silahlanma yarışı müasir dövlət sisteminin tarixində həmin meyarın təcrübi tətbiqi kimi istifadə olunub.

Bəs dövlətin gücü, həqiqətənmi, onun ərazisinin genişlənməsinə əsaslanır? Dövlət nə qədər çox əraziyə sahib olarsa, o qədər çox güclü olurmu? Bizim dövlətin gücünü təşkil edən amilləri araşdırmamız göstərmişdir ki, cavab yalnız o zaman müsbət ola bilər ki, xüsusiyyətlər cavabın müsbət xarakterini, demək olar ki, heçə endirəcək qədər irəli getmiş olsun. Fransanın ərazisi XIV Lüdoviqin hakimiyyətinin sonunda onun hakimiyyətinin əvvəlində olduğundan böyük idi, lakin Fransa özü onun hakimiyyətinin sonunda hakimiyyətinin əvvəlində olduğundan daha zəif idi. Ərazi ölçüsü ilə dövlətin gücü arasındakı əks mütənasiblik 10 il sonra eyni amillərlə, II Fridrixin 1786-cı ildə ölümü zamanı Prussiyanın

ərazisi və gücünün müqayisəsi zamanı da üzə çıxır. XIX əsrin başlanğıcınadək İspaniya və Türkiyə ölçüsünə görə Avropada istənilən aparıcı dövlətin ərazisini üstələyən geniş ərazilərə sahib idi. Lakin onlar beynəlxalq siyasətdə fəal şəkildə iştirak edən ən zəif dövlətlərdən hesab olunurdu. Ərazi genişlənməsinin bir hissəsi olduğu coğrafiya, əslində, dövlətin gücünü təşkil edən bir amil olsa da, o yalnız digər amillər arasında amillərdən biridir. Hətta XVIII əsrin astanasında güzəştlər modelindən sonra ərazinin xarakteri və orada yaşayan əhalinin xarakteri və sayı nəzərə alınarsa belə, yenə də dövlətin gücünü təşkil edən bütün amillər əskik qalmış olar. Silahların sayı və keyfiyyəti müqayisə meyarına çevrilərkən də həmin fikir həqiqiliyini saxlayır.

Xüsusən xarici siyasətin həyata keçirilməsində milli xarakter və hər şeydən öncə, milli mənəviyyat və hökumətin xarakteri dövlətin gücünün ən mühüm, lakin həm də ən qeyri-müəyyən komponentləridir. Çağdaş arenanın araşdıran və ya gələcək meyilləri tədqiq edən üçün bu ünsürlərin müxtəlif dövlətlərin gücünə verə biləcəyi müvafiq töhfələri təxmini dəqiqliklə olsa da belə, dəyərləndirmək qeyri-mümkündür. Bundan əlavə, bu töhfələrin xarakteri baş verdiyi zaman hiss olunmayan və yalnız real böhran və müharibə sınağı zamanı üzə çıxan daimi dəyişikliklərin hədəfidir. Qüvvələr tarazlığının fəaliyyəti üçün əsas olan bir sıra dövlətlərin nisbi gücünün rasional hesablanması düzgünlüyü yalnız keçmişə nəzər salınmaqla müəyyən edilə bilən ehtimallar silsiləsinə çevrilir.[1] Qüvvələr tarazlığının ən böyük mütəxəssisi Bolinqbrouk belə qeyd edirdi:

"Güc tərəzisinin gözlərinin dəyişdiyi dəqiq məqam tropiklərdən birində gün dönümü kimi adi müşahidə ilə nəzərə çarpmır; və bu və ya digər halda dəyişiklik dərk edilməzdən əvvəl yeni istiqamətdə müəyyən irəliləyiş edilməlidir. Bütün digər hallardan fərqli olaraq, siyasi qüvvələr tarazlığında tərəzinin boş olan gözü aşağı enir, dolu olan gözü isə qalxır; aşağı enən gözdə olanlar nə üstün zənginlik, güc, bacarıq və ya cəsarətin gətirdiyi adət edilmiş qərəzlərdən, nə də bu qərəzlərin oyatdığı inamdan asanlıqla ayrılmır. Qalxan gözdə olanlar isə nə öz güclərini dərhal hiss edir, nə də onda olan, uğurlu təcrübənin sonradan onlara verdiyi inamı təxmin etmir. Bu tarazlığın dəyişmələrini izləməkdə ən çox maraqlı olanlar çox vaxt eyni şəkildə və eyni qərəzlilik səbəblərindən yanlış mühakimə yürüdürlər. Onlar artıq ziyan vermək iqtidarında olmayan gücdən çəkinməyə davam edir, yaxud da hər gün daha təhlükəli olmağa başlayan gücə görə heç bir narahatlıq keçirməməyə davam edirlər".[2]

[1] Bu məsələnin geniş müzakirəsi üçün bax: paraqraf 10.
[2] "On the Study and Use of History," *The Works of Lord Bolingbroke* (Philadelphia: Carey and Hart, 1841), Vol. II, səh. 258.

XVIII əsrdə qüvvələr tarazlığının bir əleyhdarı iki hökmdardan hansının daha güclü olması haqqında sual verməklə o zaman üçün ümumi olan hesablamaların cəfəngliyini nümayiş etdirməyə çalışdı: hansı daha güclüdür: 3 funt hərbi gücə, 4 funt dövlətçiliyə, 5 funt əzmkarlığa və 2 funt ambisiyaya sahib olan, yoxsa 12 funt hərbi gücə və yalnız 1 funt bütün digər keyfiyyətlərə sahib olan? Müəllif birinci hökmdara üstünlük verir, lakin onun cavabının bütün şərtlər altında doğru olub-olmayacağı, əlbəttə ki, sual və hətta bu müxtəlif keyfiyyətlərin nisbi çəkisinin kəmiyyət təyinatının mümkün olmasına dair – aydın şəkildə fərziyyəyə əsaslanan – ehtimal altındadır.

Güc hesablamalarının bu qeyri-müəyyənliyi dövlətin gücünün özünün təbiətinə xasdır. Odur ki qüvvələr tarazlığının hətta ən sadə nümunəsində belə – bir dövlət digərinə qarşı çıxanda – o, dövrəyə daxil olur. Tərəzinin bu və digər gözündəki və ya gözlərinin hər ikisindəki çəkilər tək vahidlərdən deyil, ittifaqlardan ibarət olduqda isə bu qeyri-müəyyənlik ölçüyəgəlməz dərəcədə böyüyür. Bu zaman yalnız özünün və rəqib dövlətin gücünü hesablamaq və onların nisbəti qurmaq deyil, həmçinin bu əməliyyatları özünün və rəqibin müttəfiqlərinin gücünə də tətbiq etmək lazım gəlir. Özünün mənsub olduğu sivilizasiyadan fərqli sivilizasiyalara mənsub olan dövlətlərin gücünü qiymətləndirmək lazım gələndə fərzetmənin riski son dərəcə ağırlaşır. Böyük Britaniya və Fransanın gücünü qiymətləndirmək kifayət qədər çətindir. Çin, Yaponiya və hətta Sovet İttifaqının gücünə dair düzgün dəyərləndirmə aparmaq ondan daha da çətindir. Ən böyük qeyri-müəyyənlik isə kimin öz müttəfiqi, kimin rəqibin müttəfiqi olduğuna heç vaxt əmin ola bilməmək gerçəkliyindədir. İttifaq müqavilələri vasitəsilə yaradılan qruplaşmalar hər zaman real müharibə qarşıdurmasında bir-birinə qarşı çıxan ittifaqlarla üst-üstə düşmür.

Qüvvələr tarazlığının mahir ustalarından biri olmuş II Fridrix pis təcrübələrindən nəticə çıxarmış və öz varisinin diqqətini bu məsələyə çəkmişdir. O, 1768-ci ildə qələmə alınmış siyasi vəsiyyətində deyirdi:

"Çox vaxt aldadıcı olan ehtimal sənəti əksər böyük siyasi planların zəmini kimi xidmət göstərir. Kimsə ona ən yaxşı tanış olan amili özü üçün çıxış nöqtəsi kimi götürür, onu bacardığı kimi haqqında hər şeyi bilmədiyi digər amillərlə birləşdirir və buradan mümkün ən düzgün nəticəni çıxarır. Bunu daha aydın izah etmək üçün mən bir nümunə göstərəcəyəm. Rusiya Danimarka kralının dəstəyini qazanmağa çalışır. O, Danimarkaya Rusiya Böyük knyazlığına məxsus olan Holşteyn-Qottop hersoqluğunu vəd edir və bu yolla onun dəstəyini əbədi

olaraq qazanacağına ümid edir. Lakin Danimarka kralı üzüdönükdür. Bu gəncin başının içindən hansı fikirlərin keçdiyini necə bilmək olar? Onun düşüncəsini ələ keçirib ona digər bir dövlətin Rusiyanın təklif etdiklərindən daha böyük görünən mənfəətlərini təklif edən sevgililər, məşuqələr və nazirlər onun bir müttəfiq kimi tərəfini dəyişməsinə səbəb olmurlarmı? Hər dəfə başqa bir formada özünü göstərən oxşar qeyri-müəyyənlik xarici siyasətin bütün əməliyyatlarına hakimdir və ona görə də böyük ittifaqlar çox vaxt onun üzvlərinin planlaşdırdığının əksinə olan nəticə əldə edir".[1]

Qüvvələr tarazlığının klassik mərhələsi başa çatmaq üzrə olan bir zamanda yazılmış bu fikirlər yaxın keçmişdə baş vermiş hadisələrlə sınaqdan keçirilərkən öz sərrastlığından heç nə itirmədi. 1938-ci ilin avqustunda, Çexoslovakiya böhranı öz kulminasiyasına çatmasından az əvvəl ittifaq və əks-ittifaqların yaradılmasına dair proqnozlar bir il sonra – İkinci Dünya müharibəsi başlanarkən baş verənlərdən və iki ildən çox müddət sonra Pörl-Harbora hücumun nəticəsi olaraq cərəyan edən hadisələrdən mütləq şəkildə tamamilə fərqlənirdi. Sahib olduğu biliklərin, müdrikliyin və tədbirliliyin nə qədər böyük olmasından asılı olmayaraq, heç bir dövlət adamı bütün bu hadisələri qabaqcadan görə və qüvvələr tarazlığı siyasətini onlara əsaslandıra bilməzdi.

Birinci Dünya müharibəsinin başlanmasından az əvvəl 1914-cü ilin iyulunda İtaliyanın "Üçlər ittifaqı"na dair müqavilənin onun üzərinə qoyduğu öhdəlikləri yerinə yetirəcəyi və Fransa, Böyük Britaniya və Rusiyaya qarşı müharibədə Almaniya və Avstriyaya qoşulacağı, yaxud bitərəf qalacağı, yaxud da digər bir tərəfə qoşulacağı heç bir şəkildə müəyyən deyildi. Almaniya və Avstriyanın heç bir məsul dövlət adamı da hələ 1914-cü il iyulun 30-dan tez Rusiyanın Balkanlarda qüvvələr tarazlığını qoruyub saxlamaq üçün Avstriyaya qarşı çıxacağına əmin deyildi. Həmin gün Britaniyanın Almaniyadakı səfiri bu dövlət adamlarının fikirləri haqqında öz hökumətinə məlumat verərək bildirdi ki, "ümumi müharibə müzakirə mövzusu deyil, çünki Rusiya nə müharibə etmək iqtidarındadır, nə də ki onun belə bir istəyi var".[2] Britaniya səfirinin məlumatlarına görə, Vyanada da eyni inam mövcud idi.

Britaniyanın Birinci Dünya müharibəsinə Fransa və Rusiya tərəfindən daxil olacağı da hər kəsə məlum deyildi. 1914-cü il iyunun 1-ə qədər Britaniyanın xarici işlər naziri İcmalar Palatasında baş nazirin ötən ildə verdiyi bəyanatı

[1] *Diepolitischen Tesatamente Friedrichsdes Grossen* (Berlin, 1920), səh. 192.
[2] *British Documents, on the Origins of the War, 1898-1914* (London: His Majesty's Stationery Office, 1926), Vol. XI, səh. 361.

təsdiqləyərək bəyan edirdi ki, Britaniya parlament və ictimaiyyətə məlum olmayan, onu müharibəyə sürükləyəcək heç bir öhdəlik daşımır. Britaniya hökuməti əmin idi ki, 1912-ci ilin noyabrında xarici işlər naziri ilə Fransa səfiri arasında gizlin yazışmalar qitə müharibəsi baş verəcəyi halda onun fəaliyyət azadlığına heç bir xələl gətirmir. Fransa və Rusiya hökumətləri Britaniyanın müdaxilə edəcəyinə əmin olmadan ona bel bağlayırdı.[1]

Berlindəki Britaniya səfiri 1914-cü il iyulun 14-də məlumat verdi ki, "Fransa səfiri məni durmadan İngiltərənin niyyətlərinin qaranlıq saxlanmasına dair qınayır və deyir ki, ümumi müharibənin qarşısını almağın yeganə yolu... İngiltərənin Fransa və Rusiya tərəfindən döyüşəcəyini ... bəyan etməkdir".[2] "Mərkəz dövlətləri"nin hökumətləri Birinci Dünya müharibəsinin həqiqətən başlamasından sonraya qədər bu yazışmalar haqqında ümumiyyətlə xəbərsiz idi. Belə ki, onlar hesab edirdilər ki, Britaniya bitərəf qalacaq; Britaniyanın Berlindəki səfiri məlumat verir ki, "onlar son ana qədər düşünürdülər ki, Britaniya daxil olmayacaq".[3] Ona görə

[1] Bu yazışmaların yaratdığı vəziyyətin necə anlaşılmaz olduğu Britaniya xarici işlər naziri ser Edvard Qreyin 1912-ci il noyabrın 22-də Fransanın Böyük Britaniyadakı səfiri cənab Paul Kambona yazdığı məktubun mətnindən aydındır və Fransa səfirinin növbəti gün verdiyi cavab bunu mahiyyətcə təkrarlayır:
"Son illər Fransa və Britaniyanın dənizçilik və hərbi iş üzrə mütəxəssisləri zaman-zaman birgə məsləhətləşmələr aparıblar. Hər zaman belə anlaşılıb ki, belə məsləhətləşmələr hökumətlərdən birinin gələcəkdə digərinə öz silahlı qüvvələri ilə yardım edib-etməməyə dair qərar vermək azadlığını məhdudlaşdırmır. Biz razılığa gəlmişik ki, mütəxəssislər arasında həmin məsləhətləşmələr hökumətlərdən hər hansı birini baş verməmiş və heç vaxt baş verə bilməyəcək təsadüf nəticəsində hərəkətə keçirən fəaliyyət hesab olunmur və hesab olunmamalıdır. Məsələn, Britaniya və Fransa donanmalarının hazırkı müvafiq yerləşməsi müharibədə əməkdaşlıq etmək yönündə fəaliyyətə əsaslanmır.
Bununla belə, siz qeyd etmisiniz ki, əgər hökumətlərdən birinin üçüncü bir dövlət tərəfindən qəsdən edilməmiş hücum gözləmək üçün ciddi səbəbi olmuş olarsa, bu hadisədə onun digərinin silahlı yardımından asılı olub-olmayacağını bilmək vacib ola bilər.
Mən razıyam ki, hökumətlərdən biri üçüncü dövlət tərəfindən qəsdən edilməmiş hücum, yaxud ümumi sülhü təhlükə altına qoyan bir hadisə gözləmək üçün ciddi səbəbə malik olmuş olarsa, o, dərhal digəriylə təcavüzün qarşısını almaq və sülhü qoruyub saxlamaq üçün hər iki hökumətin birgə hərəkət edib-etməmək və əgər birgə hərəkət etmək lazım gələrsə, hansı birgə tədbirlər görülməsi üçün hazır olmalı olduqları məsələsini müzakirə etməlidir. Əgər bu tədbirlər fəaliyyətə cəlb olunarsa, Baş Qərargahların planları dərhal nəzərə alınır və bu zaman hökumətlər onları necə hərəkətə gətirilməli olduqlarını qərarlaşdırır". *Collected Diplomatic Documents relating to the Outbreak of the European War* (London: His Majesty's Stationery Office, 1915), səh. 80.
[2] *British Documents*, səh. 361.
[3] Yenə orada, səh. 363.

inqilabların, ictimai, eləcə də şəxsi mülkiyyətin, krallıqların və dövlətlərin, həmçinin onları idarə edənlərin və onlarda idarə olunanların aramsız şəkildə yaranması və yox olması belə düşünməyə təhrik edəcək ki, əgər tərəzinin gözləri müharibə vasitəsilə tam olmasa da, təxminən bu böyük yayınmadan əvvəlki vəziyyətə geri qaytarıla bilsə, qalanlar təsadüflərə və düzgün yürüdülən siyasətin onlardan istifadə bacarığına həvalə oluna bilər.[1]

Qabaqlayıcı müharibə diplomatik dildə nə qədər nifrət olunan və demokratik ictimai fikir üçün nə qədər ikrah doğuran olsa da, faktiki olaraq qüvvələr tarazlığının təbii törəməsidir. Burada yenə Birinci Dünya müharibəsinin başlanmasına gətirib çıxaran hadisələrə nəzər salmaq faydalı ola bilər, çünki həmin vaxt xarici siyasət axırıncı dəfə qüvvələr tarazlığının klassik qaydalarına uyğun şəkildə həyata keçirilirdi. Avstriya Balkanlarda qüvvələr tarazlığını birdəfəlik olaraq öz xeyrinə dəyişməyi qət etmişdi. Belə bir inam var idi ki, baxmayaraq ki, Rusiya hələ zərbə endirmək üçün hazır deyildi, onun gücü artmaqda idi və ona görə də qətiyyətli hərəkətin təxirə salınması qüvvələrin bölgüsünü onun özü üçün əlverişsiz edəcəkdi. Oxşar hesablamalar Berlində Rusiya və Almaniya arasındakı qüvvələr bölgüsünə dair aparılırdı. Rusiya digər tərəfdən qət etmişdi ki, Avstriyaya Serbiyanı məhv etməklə qüvvələr tarazlığını öz xeyrinə dəyişməyə imkan verməsin. Rusiya hesablayırdı ki, onun potensial düşməninin gücündə belə bir ani zamanda baş verən artım gələcəkdə onun gücünün istənilən təxmini artımını üstələməkdən daha böyük bir şey ola bilərdi. Qismən Rusiyanın bu hesablamalarının nəticəsi idi ki, Böyük Britaniya son ana qədər Fransa-Rusiya ittifaqına dəstəyini açıq şəkildə bəyan etməkdən imtina etdi. Britaniyanın Almaniyadakı səfiri 1914-cü il iyulun 30-da qeyd edirdi: "İndiki mərhələdə bu mənada bir bəyanat Almaniyanın çəkinməsinə səbəb ola bilsə də, eyni şəkildə Rusiyanı da tələsdirə bilərdi; əgər Rusiya Avstriyaya hücum etsəydi, Almaniya Britaniya donanmasından qorxub-qorxmamasından asılı olmayaraq, müharibəyə daxil olmalı idi".[2]

Almaniyanın Baş Qərargahı 1914-cü il iyulun 29-da imperiya kanslerinə memorandumunda qüvvələr tarazlığının mexanizmini qeyri-ənənəvi bir aydınlıqla analiz edirdi: "Rusiya elan edir ki, Avstriya Serbiyaya hücum edəndə səfərbərlik etmək niyyətindədir, çünki o, Avstriyanın Almaniya tərəfindən məhv edilməsinə icazə verə bilməz, baxmayaraq ki, Avstriya anlatmışdır ki, o heç də belə niyyətdə deyil.

Sonrakı hadisələr necə olmalıdır və necə olacaq? Əgər Avstriya Serbiyaya hücum etsə, o yalnız Serbiya ordusu ilə deyil, həmçinin Rusiyanın son dərəcə böyük gücü ilə üz-üzə qalmalı olacaq; beləliklə, o özünü Rusiya tərəfindən hücuma qarşı müdafiə etmədən Serbiya ilə müharibəyə daxil ola bilməz. Bu o

[1] "On the Study and Use of History," səh. 291.
[2] *British Documents*, səh. 361.

deməkdir ki, o, ordusunun digər yarısını da səfərbər etməyə məcbur ediləcək, çünki o, müharibəyə tam hazır olan bir Rusiyaya, sadəcə olaraq, danışıqsız təslim ola bilməz. Lakin Avstriyanın bütün ordusunu səfərbər etdiyi anda onunla Rusiya arasında toqquşma qaçılmaz olacaq. Almaniya üçün isə bu, *casus foederis* vəziyyətidir. Əgər Almaniya öz sözünə xəyanət etməsə və müttəfiqinin Rusiya üstün gücünün törətdiyi tar-mardan əzab çəkməsinə icazə verməsə, o da səfərbər olmalıdır. Bu isə nəticə etibarilə Rusiyanın qalan hərbi rayonlarının da səfərbər olmasına səbəb olardı. Lakin o zaman Rusiya deyə biləcək ki, mən Almaniya tərəfindən hücuma məruz qalmışam. Bu halda o, Fransanın ona dəstəyini təmin etmiş olacaq, belə ki, ittifaq müqaviləsinə görə, Fransa onun müttəfiqi – Rusiya hücuma məruz qaldığı halda müharibədə iştirak etməyə məcburdur. Beləliklə, çox vaxt yalnız Almaniyanın təcavüzkar planlarından qorunmaq məqsədilə yaradılmış sırf müdafiə müqaviləsi kimi tərifləndən Fransa-Rusiya İttifaqı hərəkətə keçəcək və Avropanın sivil dövlətlərinin qarşılıqlı qırğını başlayacaq".[1]

Qüvvələr tarazlığının öz sabitləşdirici təsiri ilə bir çox müharibələrdən qaçınmağa yardım etmiş olduğu iddiasını təsdiqləmək, yaxud inkar etmək hər zaman qeyri-mümkün olacaq. Ehtimali bir vəziyyəti çıxış nöqtəsi götürərək, tarixin gedişatını izləmək olmaz. Lakin heç kim qüvvələr tarazlığı olmazdısa, nə qədər müharibənin olacağını deyə bilməsə də, müasir dövlət sistemi yaranan vaxtdan aparılan əksər müharibələrin kökünün qüvvələr tarazlığında olduğunu söyləmək o qədər də çətin deyil. Üç növ müharibə qüvvələr tarazlığı ilə sıx bağlıdır: adətən, hər iki tərəfin imperialist məqsədlərə sahib olduğu, artıq haqqında bəhs etdiyimiz qabaqlayıcı müharibə; antiimperialist müharibə; və imperialist müharibənin özü.

Qüvvələr tarazlığı şəraitində bir status-kvo dövləti və ya onların ittifaqı ilə bir imperialist dövlət və onların bir qrupu arasında ziddiyyət, çox ehtimal ki, müharibəyə gətirib çıxarmalıdır. V Karldan Hitlerə və Hirohitoya qədər əksər nümunələrdə onlar, həqiqətən, müharibəyə gətirib çıxardılar. Təyinatına görə özlərini dinc fəaliyyətlərə həsr edən və yalnız əllərində olanı saxlamaq istəyən status-kvo dövlətləri imperialist ekspansiyada qərarlı olan bir dövlətin güc xüsusiyyətində dinamik və sürətli artımla çətinliklə ayaqlaşa biləcək.

1933-cü ildən 1939-cu ildə II Dünya müharibəsinin başlanmasına qədər bir tərəfdən Böyük Britaniya və Fransanın gücündə, digər tərəfdən isə Almaniyanın gücündə nisbi artım status-kvo və imperialist dövlətlərin güc artımındakı fərqli tezliyi və dinamikanı aydın şəkildə təsvir edir. Belə silahlanma yarışlarında status-kvo dövlətləri məğlub olmağa məhkumdur və onların nisbi mövqeyi yarış davam etdiyi müddətcə sürətlənmiş tempdə pisləşmə uğursuzluğuna uğraya bilməz.

[1] Max Montgelas and Walther Schuecking, editors, *Outbreak of the World War: German Documents Collectedby Karl Kautsky* (New York: Oxford University Press, 1924), səh. 307.

Zaman imperialist dövlətin tərəfindədir və zaman keçdikcə tərəzinin onlar olan gözü onların gücünün daim artan çəkisi altında aşağı enir və bu zaman status-kvo dövlətlərinin olduğu göz daim yuxarı qalxır. Belə olduqda status-kvo dövlətləri üçün tarazlığı bərpa etmək daha da çətinləşir və onlar tendensiya zorla dəyişdirilməzsə, imperialist dövlətlərinin mövqeyinin, demək olar ki, əlçatmaz olmalı olduğunu, onların özlərinin tarazlığı bərpa etmək imkanlarının isə birdəfəlik itiriləcəyini anlamaqda səhvə yol verə bilməzlər. Bu, Böyük Britaniya və Fransanın 1939-cu ilin sentyabrında düşdüyü vəziyyət idi. Belə bir vəziyyətdə müharibə öz hesaba gəlməyən imkanları ilə imperialist dövlətin güc orbitinə biabırçı şəkildə daxil olmağın yeganə alternativi kimi görünür. Status-kvo və imperialist dövlətləri arasında cərəyan edən beynəlxalq siyasətin dinamikası zərurətdən qüvvələr tarazlığının elə pozulmasına gətirib çıxarır ki, müharibə status-kvo dövlətlərinə qüvvələr tarazlığını öz xeyirlərinə bərpa etmək üçün ən azından imkan yaradan yeganə siyasət kimi özünü göstərir.

Lakin tarazlığın bərpası fəaliyyətinin özü yeni narahatlıq ünsürləri daşıyır. Güc siyasətinin əvvəl təsvir edilmiş dinamikası bu prosesi qaçılmaz edir. Dünən status-kvonun müdafiəçisi olan qələbə qazanaraq bu gün imperialistə çevrilir və dünən məğlub olan sabah qisas almağa cəhd edəcək. Qüvvələr tarazlığını yenidən bərqərar etmək üçün silaha sarılmış qalibin iddiası, eləcə də onu məğlub etməyi bacarmamış məğlubun narazılığı yeni tarazlığı bir narahatlıqdan digərinə keçidin faktiki olaraq görünməz məqsədinə çevirməyə meyil göstərir. Belə ki, tarazlama prosesi çox vaxt tarazlığı pozan bir üstün gücün digəri ilə əvəz olunmasına gətirib çıxarmışdır. V Karl Habsburqun yalnız oxşar iddiaları bütün Avropanı ona qarşı birləşdirən Fransa kralı XIV Lüdoviq tərəfindən müvəffəq olunacaq Fransanın universal monarxiyası ilə bağlı iddialarına maneə yaradırdı. XIV Lüdoviqə qarşı tarazlıq yenidən bərqərar olunduqda Prussiya kralı Böyük Fridrixin timsalında yeni narahatlıq amili meydana gəldi.

I Napoleonun hakimiyyəti altında Fransanın dünya ağalığına iddiası Napoleonun köhnə düşmənlərindən ən qüdrətliləri olan Avstriya və Rusiyanın rəhbərliyi altında "Müqəddəs ittifaq" tərəfində oxşar iddia ilə müşayiət olundu. Sonuncunun məğlubiyyəti öz ardınca Prussiyanın Almaniyada, Almaniyanın isə Avropada ağalığa yüksəlməsinə səbəb oldu. Birinci Dünya müharibəsində məğlubiyyətindən 20 il sonra Almaniya yenidən Avropada hakim dövlət oldu və onunla eyni vaxtda Yaponiya Asiyada eyni mövqeyə yüksəldi. Bu iki dövlətin qüvvələr tarazlığında fəal faktorlar kimi aradan qalxdığı bir vaxtda bir tərəfdə ABŞ və digər tərəfdə Sovet İttifaqı və kommunist Çin arasında yeni güc yarışı müəyyən bir şəkil aldı. Çin-sovet blokunun dağılması ilə Çin ABŞ və Qərb ilə yaxınlaşdı və eyni vaxtda öz müstəqilliyini qoruyub saxladı və bununla da qüvvələr tarazlığının daha da mürəkkəbləşməsinə səbəb oldu.

Qüvvələr tarazlığı bir ideologiya kimi

Bura qədər bizim müzakirəmiz belə bir ehtimal üzərində davam etmişdir ki, güc müstəqilliyi və mövcudluğu digər dövlətlərin gücünün qeyri-mütənasib şəkildə artması ilə təhlükə altına düşən dövlətlərin özünümüdafiə vasitəsidir. Bizim qüvvələr tarazlığı haqqında söylədiklərimiz yalnız belə bir ehtimal altında həqiqətdir ki, qüvvələr tarazlığı səmimi şəkildə ümumi qəbul olunmuş özünümüdafiə məqsədləri üçün istifadə olunur. Lakin biz artıq dövlətlərin güc meyillərinin ideal prinsiplərinə necə sahib olduğunu və onları fəaliyyətlərini pərdələmək, rasionallaşdırmaq və onlara haqq qazandırmaq üçün ideologiyalara necə çevirdiyini görmüşük. Onlar bunu qüvvələr tarazlığı ilə ediblər. Bizim yuxarıda antiimperialist ideologiyalarının populyarlığı haqqında söylədiklərimiz ümumilikdə qüvvələr tarazlığına şamil olunur.

İmperiyaya can atan bir dövlət çox vaxt iddia etmişdir ki, onun istədiyi yalnız müvazinət olmuşdur. Yalnız qüvvələr tarazlığını qoruyub saxlamağa can atmış bir dövlət isə çox vaxt status-kvodakı dəyişikliyə qüvvələr tarazlığına hücum görüntüsü verməyə çalışmışdır. 1756-cı ildə Yeddiillik müharibə başlananda Fransa və İngiltərə müharibənin içində yer alarkən Britaniya yazarları öz ölkələrinin siyasətinə Avropa qüvvələr tarazlığının zərurətləri nöqteyi-nəzərdən haqq qazandırdıqları halda, Fransa publisistləri iddia edirdilər ki, Fransa "ticarət tarazlığı"nın yenidən bərqərar olması üçün İngiltərənin dənizdə və Şimali Amerikadakı hökmranlığına qarşı çıxmağa vadar oldu.

Müttəfiq qüvvələr 1813-cü ildə Napoleona öz sülh şərtlərini təqdim edən zaman qüvvələr tarazlığı prinsipini əsas götürdülər. Bu şərtləri rədd edərkən Napoleon da "hüquq və maraqların tarazlığı"nı istinad etdi. 1814-cü ilin əvvəlində müttəfiqlər Napoleonun nümayəndələrini Fransanın qüvvələr tarazlığı naminə 1792-ci ildən bəri bütün istilalarından imtina etməsini tələb edən ultimatum ilə qarşılayarkən Fransa nümayəndəsinin cavabı belə oldu: "Müttəfiq suverenlər ... Avropada ədalətli müvazinət qurmaq istəmirdilərmi? Onlar bunu bu gün də istədiklərini bəyan etmirlərmi? Hər zaman sahib olmuş olduğu eyni nisbi gücü qoruyub saxlamaq da Fransanın yeganə həqiqi arzusudur. Lakin Avropa artıq 20 il əvvəlki Avropa deyil". Sonda isə o belə bir nəticəyə gəldi ki, coğrafiya və strategiya nəzərə alınarsa, hətta Reyn çayının sol sahilinin Fransa tərəfindən tutulub saxlanılması da Avropada qüvvələr tarazlığının yenidən bərqərar olması üçün, çətin ki, kifayət edərdi. Müttəfiq nümayəndələr cavab olaraq bəyan etdilər: " Mərkəzi mövqeyi, əhalisi, torpağının sərvətləri, sərhədlərinin xarakteri, güclü məntəqələrinin sayı və paylanması reallığında Fransa 1792-ci il sərhədlərinə qayıdarsa da, qitənin ən güclü dövlətlərindən biri olaraq qalacaq". Beləliklə, hər iki tərəf qüvvələr tarazlığı prinsipini eyni

vəziyyətə tətbiq etməyə çalışdı və elə barışmaz nəticələr əldə etdilər ki, müharibəni başa vurmaq səyləri uğursuzluğa uğradı.

Oxşar vəziyyət 40 il sonra oxşar səbəblərdən yarandı. 1855-ci ildə Krım müharibəsinə son qoymağa çalışan Vyana konfransında Rusiya Qara dənizdə qüvvələr tarazlığının qorunub saxlanmasını nizamlamanın təməlinə çevirməyə dair rəqibləri ilə razılaşdı. Lakin Rusiya bəyan edəndə ki, "Rusiyanın Qara dənizdə üstünlüyü... Avropada müvazinətin bərqərar olması üçün mütləq vacibdir", onun əleyhdarları bu üstünlüyə son verməyə çalışdılar və bəyan etdilər ki, Rusiya Hərbi-Dəniz Qüvvələri "Turkiyə donanması ilə müqayisədə hələ də çox güclüdür". Sülhə dair razılaşma 1856-cı ildə sonuncu şərtlər əsasında əldə edildi.

Dövlətlərin nisbi güc mövqelərinin düzgün qiymətləndirilməsindəki çətinliklər qüvvələr tarazlığına istinad etməyi beynəlxalq siyasətin üstünlük verilən ideologiyalarından birinə çevirmişdir. Beləliklə, belə alınmışdır ki, bu termin çox qeyri-müəyyən və qeyri-dəqiq bir formada istifadə olunur. Bir dövlət beynəlxalq arenada addımlarından birini əsaslandırmaq istəyərsə, o, görünür ki, buna qüvvələr tarazlığının qorunub saxlanılması və ya yenidən bərqərar edilməsinə xidmət edən hərəkət kimi yanaşmalıdır. Bir dövlət digər dövlət tərəfindən yürüdülən müəyyən siyasətləri şübhə altına salmaq istəyərsə, o, görünür ki, onları qüvvələr tarazlığına təhlükə və ya onun pozulması kimi pisləməlidir. Status-kvonu qoruyub saxlamaq, sözün həqiqi mənasında, qüvvələr tarazlığına məxsus tendensiya olduğundan termin status-kvo dövlətlərinin lüğətində status-kvo və hər hansı müəyyən bir anda mövcud olan istənilən qüvvələr bölgüsü ilə sinonimina çevrilmişdir. Ona görə də mövcud qüvvələr bölgüsündə istənilən dəyişikliyə qüvvələr tarazlığının pozulması kimi qarşı çıxılır. Bu halda müəyyən qüvvələr bölgüsünün qorunub saxlanmasında maraqlı olan dövlət marağının özünü müasir dövlət sisteminin fundamental və universal şəkildə qəbul olunan prinsipinin törəməsi kimi və deməli, bütün dövlətlər üçün ümumi olan maraq ilə üst-üstə düşən şəkildə büruzə verməsinə çalışır. Xudbin, müstəsna bir münasibətdən uzaq olan dövlət isə özünü həmin ümumi prinsipin himayəçisi, yəni beynəlxalq birliyin nümayəndəsi kimi təqdim edir.

Bu mənada, məsələn, Qərb yarımkürəsində qeyri-Amerika dövlətləri tərəfindən pozula bilən qüvvələr tarazlığından, yaxud Aralıq dənizi bölgəsində Rusiya tərəfindən müdaxiləyə qarşı müdafiə edilməli olan qüvvələr tarazlığından danışılır. Lakin hər iki halda müdafiə olunmalı kimi nəzərdə tutulan qüvvələr tarazlığı deyil, qüvvələrin müəyyən bir dövlət və ya dövlətlər qrupu üçün əlverişli olan bölgüsüdür. "*New York Times*" qəzeti 1947-ci ildə Moskvada xarici işlər nazirlərinin konfransı haqqında məlumatlarından birində yazırdı: "Fransa, Britaniya və ABŞ-ın yeni birliyi ...yalnız müvəqqəti ola bilər, lakin o, qüvvələr tarazlığını

gözəçarpacaq dərəcədə dəyişir".[1] Əslində, nəzərdə tutulan qüvvələr tarazlığının, sözün həqiqi mənasında, dəyişmiş olması deyil, konfransdan sonra mövcud olan qüvvələr bölgüsünün daha əvvəllər mövcud olmuş qüvvələr bölgüsündən daha çox Qərb dövlətləri üçün əlverişli olması idi.

Qüvvələr tarazlığının bir ideologiya kimi istifadəsi qüvvələr tarazlığının mexanikasına xas olan çətinlikləri vurğulayır. Bununla belə, qeyd olunmalıdır ki, qüvvələr tarazlığına uyğun gələn ideologiyanın mövcud istifadəsi təsadüfi deyil. Bu elə onun mahiyyətinə xas olan bir potensial imkandır. Uydurma dəqiqlik, həqiqətdə isə onun çatışmazlığı arasındakı və uydurma tarazlıq təşəbbüsü, əslində isə üstünlük məqsədi arasındakı ziddiyyət – bu ziddiyyət, artıq gördüyümüz kimi, qüvvələr tarazlığının mahiyyətini təşkil edir – qüvvələr tarazlığını müəyyən dərəcədə başlanğıc üçün bir ideologiyaya çevirir. Beləliklə, qüvvələr tarazlığı, əslində, sahib olmadığı bir həqiqəti və vəzifəni nəzərdə tutur və ona görə də beynəlxalq siyasəti olduğu kimi pərdələməyə, rasionallaşdırmağa və əsaslandırmağa meyil edir.

QÜVVƏLƏR TARAZLIĞININ QEYRİ-ADEKVATLIĞI

Biz qüvvələr tarazlığının XVII, XVIII və XIX əsrlərdə çiçəklənmə dövründə müasir dövlət sisteminin sabitliyi və onun üzvlərinin müstəqilliyinin qorunmasına verdiyi həqiqi töhfəni qeyd etmişik. Bəs belə səmərəli nəticələrin əldə edilməsinin yeganə səbəbkarı qüvvələr tarazlığı idi, yoxsa tarixin həmin mərhələsində elə bir fəaliyyətdə olan aktor var idi ki, qüvvələr tarazlığı o olmadan həmin nəticələrə nail ola bilməzdi?

Əxlaq normalarına dair fikir birliyinin məhdudlaşdırıcı təsiri

Edvard Gibon 1781-ci ildə ölkəsi Amerika müstəmləkələri, Fransa, İspaniya və Hollandiya ilə uğursuz müharibə aparan zaman belə bir amili qeyd etdi. O zaman o təklif edirdi:

"Avropa müxtəlif sakinləri, demək olar ki, eyni qanacaq və inkişaf səviyyəsi əldə etmiş bir böyük respublika hesab olunsun. Qüvvələr tarazlığı möhkəm olmaya bilər və bizim və qonşu dövlətlərin tərəqqisi də ardıcıl şəkildə yüksələ və zəifləyə bilər; lakin bu hadisələr qalan bəşəriyyət, avropalılar və onların müstəmləkələri üzərində belə üstün formada seçilən ümumi xoşbəxtlik durumumuza, sənətlər sisteminə, qanunlara və davranışlara əsaslı şəkildə xələl yetirə bilməz... Tiranlığın özbaşınalığı qorxu və utancın qarşılıqlı təsiri ilə məhdudlaşır; respublikalar

[1] April 27, 1947, səh. E3.

nizam və sabitliyə müvəffəq olub; monarxiyalar azadlıq, yaxud da ən azından mötədillik prinsiplərini mənimsəyib; və müəyyən şərəf və ədalət duyğusu dövrlərin ümumi üsulları ilə ən qüsurlu konstitusiyalara təqdim olunur. Dinc dövrdə elm və sənayenin inkişafı bir çox fəal rəqiblərin yarışı ilə sürətlənir: hərb zamanı isə təmkinli və qərarsız yarışlar Avropa qüvvələrini təşvişə salır".[1]

Professor Toynbi bunu belə şərh edir:

"Lakin Gibbonun inamı bizim eranın 1783-cü ilində baş tutmuş sülh nizamlaması hadisəsiylə təsdiqləndi. Amerika inqilabı müharibəsində Böyük Britaniya sonunda müxalif qüvvələrin nəhəng koalisiyası tərəfindən məğlub edildi; lakin onun rəqibləri onu tamamilə məhv etməyi düşünmürdülər. Onlar Britaniya taxt-tacının qiyamçı müstəmləkələrinin müstəqilliyini bərqərar etmək kimi məhdud və aydın məqsəd uğrunda mübarizə aparırdılar – müstəmləkəçilərə görə, onlar üçün bu müstəqillik öz-özlüyündə bir son idi və müstəmləkəçinin fransalı müttəfiqlərinə görə, təkmilləşmiş Fransa dövlətçiliyinin mülahizələrində belə bir qənaət hasil olunurdu ki, 13 amerikan müstəmləkəsinin Britaniya imperiyasından ayrılması keçən üç müharibədə Britaniyanın bir-birinin ardınca əldə etdiyi qələbələrin ümumi effekti hesabına Böyük Britaniyanın xeyrinə həddən artıq pozulmuş qüvvələr tarazlığını bərpa etmək üçün kifayət edəcəkdi. Eramızın 1783-cü ilində, keçən təxminən 100 il ərzində qələbə yenidən Fransanın tərəfində olarkən Fransa dövlətçiliyi vasitələrin maksimum qənaəti ilə minimum məqsədə nail olmaqdan məmnun idi. Keçən uğursuzluqlarla əlaqədar heç bir kinli xatirə Fransa hökumətini köhnə hesabları ödəmək məqsədilə bu imkandan istifadə etmək üçün başdan çıxarmadı.

[1] *The Decline and Fall of the Roman Empire* (Modern Library Edition), Vol. II, səh. 93-95. Qüvvələr tarazlığının səmərəli nəticələrinin oxşar şərhinə növbəti nəşrdəki qeyri-məlum məqalədə rast gəlinir: *Edinburgh Review*, Vol. I (January, 1803), səh. 348: "Bəs müasir siyasətçilər bir neçə gərəksiz həyatın itirildiyi və müəyyən lazımından artıq milyonun israf edildiyi müharibənin əvəzinə nə qədər istilaların və dominion dəyişikliklərinin baş verəcəyinə ümid bəsləməyi rəqib qonşuların həmin sağlam paxıllığına görə öyrəniblərmi? Məqsəd uğrunda parçalanmış və dövlətlərin mübahisələrinin həll oluna biləcəyi arena kimi müraciət oluna bilən ölkələrdə okeanın bəhərsiz düzəngahlarında zərərsiz şəkildə döyüşən bir neçə yüz dənizçinin və elmi, müntəzəm və sakit hərb sisteminin fəaliyyətini təmin edən bir neçə min əsgərin əvəzinə Yer kürəsinin nə qədər böyük hissəsi qana batmış ola bilərdi? Biz, əslində, daha həlim və sağlam düşüncə, hökumətin işinin təkmilləşdirilməsi və azadlığın bərabər paylanması, hər şeydən öncə, dövlətlər arasında ümumi idarəetmə qaydaları yaradan idarəetmə sənətinə dair mükəmməl biliklərə, imperiyaların məhvinin və zəif dövlətlərin gözü doymayan qonşuların tərkibinə qatılmasının qarşısını almasına, istilanın irəli getməsinə məhdudiyyət qoymasına və qılınc çəkməyi axırıncı götürülən ölçü olaraq təqdim etməsinə – halbuki digər dövrlərdə hər zaman birinci hala müraciət olunurdu – görə keçən əsrin tarixinə insanlığın salnamələrində ən qürurverici, öyrənmə, bacarıq və sənaye üçün ən seçilən mərhələ kimi baxa bilərik".

Onlar hətta Fransa taxt-tacının Amerikadakı ən əsas müstəmləkəsi olmuş, Yeddiillik müharibə zamanı Britaniya taxt-tacı tərəfindən istila edilmiş və yalnız 20 il sonra, eramızın 1783-cü ilində imzalanmış müqavilə ilə kral Lüdoviq tərəfindən rəsmi olaraq kral Corca verilmiş Kanadanın disanneksiyası üçün də mübarizə aparmaq həvəsinə də düşmədilər. 1783-cü ildə imzalanmış müqaviləyə görə, qələbə çalmış Fransa Kanadanı Britaniya mülkiyyətində saxladı; Böyük Britaniya isə, Gibbonun dili ilə desək, 13 müstəmləkəsini itirməklə tamamilə batmadan canını qurtardığına görə özünü təbrik edə bilərdi, qüvvələr tarazlığının axınında onun inkişafının boğulmağının zamanı yetişmişdi, lakin kral Corc və kral Lüdoviqin subyektlərinin ümumi mənəvi evi olan mötədil cəmiyyətin ümumi xoşbəxtlik vəziyyətinə heç bir ciddi xələl gətirməmişdi".[1]

Həmin dövrün böyük siyasi yazarları qüvvələr tarazlığının bünövrəsinin söykəndiyi və onun səmərəli fəaliyyətini mümkün edən bu intellekt və əxlaq birliyindən xəbərdar idilər. Biz bu yazıçılardan yalnız üçünü xatırlayacağıq: Fenelon, Russo və Vattel.

XIV Lüdoviqin hakimiyyəti dövrünün böyük filosofu və onun nəvəsinin müşaviri olmuş Fenelon "Kralhğın vəzifələrinə dair "Düşüncənin tədqiqinə əlavə"də yazırdı:

"Qonşu dövlətlər arasında bərabərlik və müvazinət formasının qorunub saxlanmasına diqqət hamı üçün əmin-amanlığı təmin edir. Bu baxımdan qonşu olan və ticarət əlaqələri olan bütün dövlətlər böyük bir qurum və birlik forması yaradır. Məsələn, xristian dünyası ümumi maraqları, qorxuları və ehtiyat etdikləri olan ümumi bir respublika forması yaradır. Bu böyük qurumu təşkil edən bütün üzvlər ümumi rifahı təmin etmək üçün bir-birilərinə və həmçinin milli təhlükəsizlik marağını təmin etmək üçün özlərinə müvazinəti poza biləcək və eyni qurumun bütün digər üzvlərinin qarşısıalınmaz məhvinə səbəb ola biləcək istənilən üzv tərəfindən istənilən addımın qabağını almağa borcludurlar. Avropanın bu ümumi sistemini dəyişən və zədələyən istənilən hal olduqca təhlükəlidir və özü ilə sonu görünməyən pisliklər gətirir".[2]

Russo eyni mövzunu belə müzakirə edirdi: "Avropa dövlətləri öz aralarında gözəgörünməz bir dövlət təşkil edir... Avropanın real sistemi onu dağıtmadan daimi təşviş içərisində saxlayan dağılmazlıq dərəcəsinə malikdir".[3] XVIII əsrin beynəlxalq hüquq sahəsində ən nüfuzlu yazar Vattelə görə isə:

[1] Arnold Toynbee, *A Study of History* (London: Oxford University Press, 1939), Vol. IV, səh. 149. (Naşirin icazəsiylə təkrar nəşr edilmişdir)
[2] *Oeuvres* (Paris, 1870), Vol. III, səh. 349, 350.
[3] *Oeuvres completes* (Brussels: Th.Lejeune, 1827), Vol. 10, səh. 172, 179.

"Avropa dünyanın bu hissəsində məskunlaşmış xalqların münasibətləri və müxtəlif maraqları ilə əlaqələndirilmiş bütövlükdən ibarət bir qurum, siyasi sistem təşkil edir. Bu, qədimdə olduğu kimi hər biri özünü digərlərinin taleyi ilə çox az əlaqəli hesab edən və nadir hallarda onunla birbaşa bağlı olmayan şeylərlə maraqlanan ayrı-ayrı parçalardan ibarət çaşqın kütlə deyil. Suverenlərin məhdud diqqəti ... Avropanı üzvləri müstəqil olan və nizam və azadlığın qorunması naminə ümumi maraq əlaqələri vasitəsilə birləşən respublika formasına çevirir. Beləliklə, həmin məşhur siyasi müvazinət və qüvvələr tarazlığı sistemi meydana gəldi; bu belə anlaşılır ki, qüvvələrin yerləşməsi elədir ki, heç bir dövlət mütləq şəkildə ağalıq etmək və ya başqaları üçün qanunlar qoymaq imkanına malik olmur".[1]

Yazıçıların şərhləri dövlət adamlarının bəyanatlarında əks olunur. 1648-ci ildən 1789-cu il Fransa inqilabına qədər dövlət rəhbərləri və onların müşavirləri Avropanın mənəvi və siyasi birliyini qeyd-şərtsiz qəbul edir və anlaşılma üçün "Avropa respublikası", "Xristian dövlət rəhbərlərinin birliyi", yaxud "Avropanın siyasi sistemi" kimi ifadələrə istinad edirlər. Lakin Napoleon imperiyasının yaratdığı çıxılmaz vəziyyət onları keçmiş qüvvələr tarazlığının söykəndiyi mənəvi və intellektual əsasları aşkara çıxarmağa məcbur etdi. "Müqəddəs ittifaq" və "Avropa konserti" – onların hər ikisi haqqında irəlidə daha ətraflı bəhs ediləcək[2] – qüvvələr tarazlığının yaşam mənbəyi olmuş bu mənəvi və intellektual qüvvələrə təsisati istiqamət vermək cəhdləridir.

26 sentyabr 1815-ci ildə imzalanmış "Müqəddəs ittifaq"ın yaradılması haqqında imzalanmış müqavilə onu imzalayanların – üçündən başqa Avropanın bütün suverenlərinin – üzərinə bir-biriylə və öz subyektlərinə münasibətdə xristian prinsiplərinə uyğun hərəkət etməkdən başqa bir öhdəlik qoymadı. Lakin həmin ildə imzalanmış, Avropa siyasi sistemini yenidən təşkil etməyə çalışan və geniş kütləyə "Müqəddəs ittifaq"ın adı ilə tanış olan digər müqavilələr istənilən yerdə, xüsusilə, əlbəttə ki Fransada inqilabın yenidən təkrarlanmasına qarşı yönəlmişdi. Fransa inqilabı qüvvələr tarazlığını dağıdan böyük dinamik qüvvə olmuş olduğuna görə belə bir inam var idi ki, istənilən inqilab özü ilə eyni təhlükəni gətirəcəkdi. Beləliklə, qanunilik prinsipi və 1815-ci il sərhədlərinin toxunulmazlığı ən azından Avstriya, Prussiya və Rusiyanın üzərində Avropanın siyasi strukturunu yenidən qurmağa çalışdıqları təməl daşları oldu.

Hələ 1860-cı ildə, Fransa Italiyada Sardiniya tərəfindən əldə edilmiş ərazinin genişləndirilməsinin əvəzinə Savoyya və Nitsanın ona güzəştə gedilməsinə nail olan zaman İngiltərə 1815-ci ilin prinsiplərindən birinə əl ataraq hadisələrin

[1] *The Law of Nations* (Philadelphia, 1829), Book III, Chapter III, səh. 377-378.
[2] Bax: paraqraf 27.

gedişinə müdaxilə etdi. "Ülyahəzrətin hökuməti", Britaniya xarici işlər naziri qraf Rassel Britaniyanın Fransadakı səfirinə yazırdı: "Qeyd olunmalıdır ki, Fransa kimi qüdrətli və keçmiş və çox da uzaq olmayan bir dövrdə ərazisinin böyüdülməsi siyasəti Avropaya saysız müsibətlər gətirmiş bir dövlət tərəfindən qonşunun ərazisinin ona verilməsi tələbi qüvvələr tarazlığında və ümumi sülhün qorunmasında maraqlı olan hər bir dövlətdə inciklik yarada bilər".

"Avropa konserti" – böyük dövlətlər arasında siyasi sistemə bütün təhdidləri yekdil fəaliyyət ilə qarşılayacaq konfranslar diplomatiyası – əvvəlcə "Müqəddəs ittifaq"ın prinsiplərini, daha sonra onun 1848-ci il liberal inqilabları zamanı kulminasiyaya çataraq dağılmasından sonra Avropanın ümumi maraqlarını həyata keçirməli olan alətə çevrildi. "Avropa konserti" təsis olunduğu 1814-cü ildən Birinci Dünya müharibəsinin başladığı 1914-cü ilə qədər keçən əsrdə bir çox xüsuslarda fəaliyyət göstərdi. Onun əsasını təşkil edən konsepsiyaya, yəni Avropanın siyasi birliyinə, yaxud Britaniya dövlət xadimi Keslerinin təbirincə desək, "ümumi Avropa sistemi"nə bir çox rəsmi bəyanatlarda müraciət olunurdu. Belə ki, müttəfiq dövlətlər 1813-cü ilin sonuna doğru bəyan etdi ki, "Avropanın siyasi statusu yenidən təsdiqlənməyənə və Avropada həqiqi sülhü təmin etmək məqsədilə dəyişməz prinsiplər haqsız iddialar üzərində üstünlük əldə etməyənə qədər ... onlar silahlarını yerə qoymayacaqlar". "Avropa konserti"nin, ümumiyyətlə, başlanğıcını götürdüyü 5 fevral 1814-cü il bəyanatında Avstriya, Böyük Britaniya, Prussiya və Rusiya nümayəndələri bəyan etdilər ki, onlar yalnız mənsub olduqları ölkələrin adından deyil, "vahid bir bütövlük təşkil edən Avropanın adından" danışırlar.

Fransanın da qoşulduğu həmin dövlətlər qüvvələr tarazlığı naminə 1831-ci il London konfransının 19 saylı protokolu ilə Belçikanın müstəqilliyini təsis etdi və onun bitərəfliyini öz birgə təminatları altına aldılar. Bunun əsaslandırılması olaraq onlar bəyan etdilər ki, "hər bir dövlətin öz qanunları var, həmçinin Avropanın da öz qanunları var və bunu onlara sosial nizam bəxş edib". 1870-ci il Fransa-Prussiya müharibəsi zamanı fransalı nazir Tyer qüvvələr tarazlığının Almaniya tərəfindən dağıdılmasının qarşısını almaq üçün əbəs yerə digər Avropa dövlətlərindən yardım axtararkən gileylənirdi ki, "Avropanı görmək olmur". Həmin ifadəsində o, 1648-ci ildən bəri qüvvələr tarazlığının yaşam mənbəyi olmuş Avropanın birliyi prinsipinə hörmətini izhar edirdi. Britaniya xarici işlər naziri ser Edvard Qrey Birinci Dünya müharibəsi ərəfəsində Avropa dövlətlərini fərqliliklərini aradan qaldırmaq üçün konfransa dəvət edərkən yenə əbəs yerə həmin prinsipə müraciət etdi. Hətta deyə bilərik ki, 1938-ci ildə Britaniya baş naziri Nevil Çemberlen Çexoslovakiyanı Sudet vilayətini nasist Almaniyasına verməyə məcbur edərkən belə bir yanlış təsəvvür altında hərəkət edirdi ki, Avropanın mənəvi, intellektual və siyasi birliyi hələ də mövcuddur və nasist Almaniyası onun ayrılmaz hissəsidir.

Müasir dövlət sisteminin mənəvi həmrəyliyi

Qeyd olunmalıdır ki, müasir dövlət sisteminin sabitliyinə bütün bu bəyanatlar və hərəkətlərdən irəli gələn inam qüvvələr tarazlığından deyil, həm qüvvələr tarazlığının, həm də müasir dövlət sisteminin söykəndiyi bir sıra intellektual və mənəvi xarakterli ünsürlərdən qaynaqlanır. Con Stüart Millin qeyd etdiyi kimi, "siyasətdə də mexanikada olduğu kimi mühərrikin işini təmin etməli olan güc maşından *kənarda* axtarılmalıdır; və əgər düşünülmüş şəkildə gözlənilə bilən çətinlikləri aradan qaldırmaq üçün bu, yaxın zamanda gözlənilmirsə, yaxud kifayət etmirsə, qurulan kələk uğursuzluğa uğrayacaq".[1] Məsələn, Gibonun xüsusi bəlağət və

[1] *Considerations on Representative Government* (New York Henry Holt, 1882), səh. 21. Həmçinin daxili siyasətdə qüvvələr tarazlığının qorunmasında əxlaq amilinin əhəmiyyətinə dair səh. 235-236-dakı dərin mülahizələri müqayisə et: "Məsələnin yalnız siyasi əxlaq məsələsi olduğu deyildikdə bu onun əhəmiyyətini azaltmır. Konstitusion əxlaq məsələləri konstitusiyanın özü ilə əlaqəli məsələlərdən az praktiki əhəmiyyətli deyil. Bəzi hökumətlərin mövcudluğunun özü və digərlərinə dözümlülük göstərənlərin hamısı konstitusion əxlaq nəzəriyyələrinin təcrübi tətbiqinə, bir çox konstitusiyalı hakimiyyətlərin düşüncəsindəki ənənəvi anlayışlara – onlar digər bir halda onların gücünü təhrif edən istifadə formasını dəyişirlər – söykənir. Tarazlığın olmadığı hökumətlərdə – sırf monarxiya, sırf avtokratiya və sırf demokratiya – bu kimi prinsiplər hökuməti öz səciyyəvi meyilləri istiqamətində kəskin ifratçılıqdan çəkindirən yeganə maneədir. Tarazlığın mükəmməl formada qurulduğu hökumətlərdə ən güclü dövlətin həmlələrinə konstitusion məhdudiyyətlərin qoyulmasına müəyyən cəhdlərin edildiyi, lakin həmin dövlətin həmin məhdudiyyətləri ən azından müvəqqəti cəzasızlıqla da olsa, aşmaq üçün kifayət qədər qüdrətli olduğu yerlərdə konstitusiyanın nəzarəti və məhdudiyyətlərinə dair, ümumiyyətlə, istənilən münasibət yalnız mülahizə ilə qəbul edilən və fəaliyyətini davam etdirən konstitusional əxlaq nəzəriyyələri vasitəsilə qorunub saxlanılırdı".
Bu məsələyə dair həmçinin müqayisə et: hərbi sənaye məhsulları və beynəlxalq qüvvələr tarazlığı arasındakı analogiyaya dair: R.H.Tawney, *The Acquisitive Society* (New York: Harcourt, Brace, 1920), səh. 40-41: "Həmin motiv hərbi sənaye məhsullarını təəssüf doğuracaq hadisə kimi deyil, qaçılmaz nəticə kimi hasilə gətirir. O, sənaye müharibəsini ona görə meydana gətirir ki, onun nəzəriyyəsinə görə, hər bir fərd və qrupun əldə edə biləcəyinə haqqı çatır və o inkar edir ki, onların nəyi ələ keçirməli olduğunu bazar mexanizmindən başqa heç bir prinsip təyin etmir. Çünki bölgü üçün mövcud gəlir məhdud və ona görə də müəyyən hədlər aşıldığı zaman bir qrupun əldə etdiyini digər qrup itirməli olduğundan, aydındır ki, müxtəlif qrupların nisbi gəlirləri onların vəzifələri ilə təyin olunmamalıdır, onları təyin etmək üçün öz hüquqlarını qarşılıqlı şəkildə qorumaqdan başqa bir üsul yoxdur. Əslində, şəxsi maraqları onların öz iddialarını həyata keçirmək üçün bütün güclərindən istifadə etməyə çəkinməsinə səbəb ola bilər və bu baş verən zaman insanlar beynəlxalq münasibətlərdə qüvvələr tarazlığı vasitəsilə təmin etməyə çalışdıqları kimi, sənayedə də sülh təmin olunur. Lakin belə bir sülhün qorunub saxlanması tərəflərin açıq mübarizədə itirdiklərinin qazandıqlarından çox olmasına dair apardıqları hesablamalardan asılıdır və onların hər hansı mükafat meyarını iddialarının ədalətli şəkildə təminatı kimi qəbul etmələrinin nəticəsi deyil. Odur ki o, şübhəli, qeyri-səmimi və qısadır. Bunun sonu yoxdur, çünki gəlirlərin çoxalmasının sadə artımı maddi məhsullarla bağlı istənilən digər arzunun təminatı ilə ayaqlaşa bilməz. Tələblər

uzaqgörənliklə qüvvələr tarazlığının mühərrikinin hərəkətini təmin edən yanacaq kimi göstərdiyi Qərb sivilizasiyasının intellektual və mənəvi bünövrəsi XVIII əsr cəmiyyətinin simalarının içində fəaliyyət göstərdiyi və bütün fikir və hərəkətlərini yaydığı intellektual və mənəvi mühitdir. Bu insanlar Avropanı ümumi "qanacaq və inkişaf " meyarlarına və ümumi "sənətlər sistemi, qanunlar və davranışlar"a malik olan "bir böyük respublika" kimi tanıyırlar. Bu ümumi meyarların ümumi şəkildə dərk olunması onların iddialarını "qorxu və utancın qarşılıqlı təsiri" vasitəsilə məhdudlaşdırdı, onları hərəkətlərində "təmkinliliy"ə vadar etdi və onların hamısına "müəyyən şərəf və ədalət duyğusu" təlqin etdi. Nəticədə beynəlxalq arenada güc uğrunda mübarizə "mülayim və qərarsız yarışlar" xarakterli oldu.

1648-ci ildən Napoleon müharibələrinə qədər və yenidən 1815-ci ildən 1914-cü ilə qədər qüvvələr tarazlığı siyasi yarışların təmkinliliyi və qərarsızlığının yalnız səbəbi deyil, həmçinin məcazi və rəmzi ifadəsi, eləcə də reallaşma üsulu oldu. Qüvvələr tarazlığı əks qüvvələrin mexaniki qarşılıqlı əlaqəsi vasitəsilə dövlətlərin güc istəklərinə məhdudlaşdırıcı təsir göstərməyi bacarmazdan əvvəl yarışan dövlətlər ilk öncə qüvvələr tarazlığı sistemini səylərinin ümumi çərçivəsi kimi qəbul edərək özləri öz fəaliyyətlərini məhdudlaşdırmalıdır. Onlar sanki tərəzinin gözlərindəki çəkilərin bölgüsünü dəyişməyi nə qədər çox arzu etsələr də, sakitcə razılaşmalı idilər ki, yarışın nəticəsinin necə olmasından asılı olmayaraq, sonda tərəzinin gözləri yenə də orada olacaq. Onlar razılaşmalı idilər ki, tərəzinin gözlərindən biri nə qədər yuxarı qalxsa da və digəri nə qədər aşağı ensə də, onlar eyni tarazdan asılmış bir cüt kimi hələ də bir-birilərinə bağlıdırlar və ona görə də gələcəkdə çəkilərin müəyyən edəcəyi kimi yenidən qalxa və enə bilərlər. Dövlətlər qüvvələr tarazlığında hansı dəyişikliyə cəhd etsə də, onların hamısı ən azından bir amilin dəyişməz olduğunu qəbul etməlidir: bir cüt tərəzi gücünün, qüvvələr tarazlığı "status-kvo"sunun özünün mövcudluğu. Dövlət müstəqillik və sabitliyin bu zəruri ilkin şərtini unutmağa başladığı istənilən anda 1756-cı ildə Avstriya Prussiyaya münasibətdə, yaxud 1919-1923-cü illərdə Fransa Almaniyaya münasibətdə etdiyi kimi bütün digər dövlətlərin həmrəyliyi ona bunu uzun zamanlığına unutmağa imkan verməyəcək.

rəvac verəndə köhnə mübarizə yeni səviyyəyə yüksəlir və insanlar kiçik və ya böyük olmasından asılı olmayaraq, bütün mükafatların əsaslana biləcəyi prinsipi tapmadan, buna, sadəcə, mükafatı artırmaqla son verməyə çalışdıqca bu belə də olacaq".
Həmçinin bax: səh. 50: "Beynəlxalq siyasətdə və ya sənayedə olmasından asılı olmayaraq, tarazlıq qeyri-sabitdir, çünki o, dövlətlərin və fərdlərin iddialarını məhdudlaşdıran prinsipin ümumi şəkildə qəbuluna deyil, hüdudu olmayan iddiaların müdafiəsindən geri çəkilmədən münaqişədən qaçmağa imkan verə bilən müvazinəti tapmaq cəhdinə söykənir. Belə bir müvazinəti tapmaq mümkün deyil, çünki artan hərbi və sənaye gücünün imkanlarının hüdudunun olmadığı bir dünyada belə bir müvazinət mövcud ola bilməz". (Naşirin icazəsiylə təkrar dərc edilmişdir)

Bu həmrəylik dövrün intellektual və mənəvi mühitində ərsəyə gəldi və gücünü normal şərtlər altında qüvvələr tarazlığı sisteminin özünü devirmək cəhdini ümidsiz təşəbbüsə çevirən real güc münasibətlərindən aldı. Bu həmrəylik də öz növbəsində intellektual və mənəvi qüvvə kimi mötədillik və müvazinət tendensiyalarını gücləndirərək, intellektual və mənəvi mühitə təsir göstərdi. Kuinsi Rayt bunu belə şərh edir:

"Dövlətlər elə sərhədlənmiş və təşkil olunmuşdu ki, təcavüz, baxmayaraq ki, güclərin yayğın fikri onu təqdir olunacaq qədər yumşaltmamış və istiqamətləndirməmişdi, uğur qazana bilmirdi. Bir qayda olaraq, Balkanlarda Osmanlı imperiyasını tədricən parçalayan iğtişaşlar, Belçikada baş qaldırmış həmin ölkəni Hollandiyadan ayıran üsyan, müasir Almaniya və İtaliyanı birləşdirən Prussiya və Sardiniya istilaları, Afrika, Asiya və Sakit okean regionunda Avropa imperiyalarını genişləndirən və Avropa sivilizasiyalarını bu ərazilərə yayan çoxsaylı təcavüzlər bu şəkildə təqdir olunurdu".[1]

Bildiyimiz kimi, potensial olaraq bütün imperializmlərə xas olan hüdudsuz güc arzusunu nəzarətdə saxlayan və onun siyasi realığa çevrilməsinin qarşısını alan bu həmrəylik – ümumi mənəvi meyarların və ümumi sivilizasiyanın, eləcə də ümumi maraqların sanki həm övladı, həm də atası – idi. Belə bir həmrəyliyin artıq mövcud olmadığı, yaxud zəiflədiyi və ya özünə əmin olmadığı yerdə Polşanın bölüşdürülməsindən başlayıb Napoleon müharibələriylə bitən dövrdə olduğu kimi qüvvələr tarazlığı beynəlxalq sabitlik və milli müstəqilliyə xidmət edən vəzifələrini yerinə yetirmək iqtidarında olmur.

Belə bir həmrəylik 1648-ci ildən 1772-ci ilə və 1815-ci ildən 1933-cü ilə qədər hakim oldu. Daha əvvəlki dövrdə dövlət sistemi hər biri milli marağı (*raisond'État*), yəni müəyyən əxlaq məhdudiyyətləri daxilində ayrı-ayrı dövlətlərin rasional cəhdini dövlətin davranışlarının başlıca meyarı kimi qəbul edən dövlət rəhbərlərinin rəqabətli cəmiyyətindən artıq bir şey əks etdirmirdi. Onların hər biri digər hər kəsin bu standartı bölüşməsini gözləyirdi və bunu gözləməkdə haqlı idi. Dini müharibələrin ehtirasları rasionalizmə və maarifçiliyin skeptik mötədilliyinə gətirib çıxardı. Həmin tolerant mühitdə istənilən növ prinsiplərlə qidalanan milli nifrətlər və kollektiv düşmənçiliklər, çətin ki, böyüyə bilərdi. Hər kəs əminliklə hesab edirdi ki, onun hərəkətlərini şövqə gətirən xudbin motivlər digər hər kəsi də həmin hərəkətlərə sövq edir. Bu halda kimin zirvəyə qalxacağı bacarıq və bəxt məsələsi idi. Beynəlxalq siyasət, əslində, kübar məşğuliyyətinə, bütün dövlət rəhbərlərinin eyni oyun qaydalarını qəbul etdiyi və eyni məhdud mərclər üçün oynanılan oyununa çevrildi.

[1] "The Balance of Power," in *Compass of the World*, edited by Hans Weigert and Vilhjalmur Stefansson (New York: Macmillan, 1944), səh. 53-54.

Napoleon müharibələrinin fasiləsindən sonra inqilab və Fransa imperializminin təkrarlana bilməsindən irəli gələn ikili qorxu xristianlıq, monarxiya və Avropa prinsiplərinin qarışığından ibarət "Müqəddəs ittifaq" əxlaqını meydana gətirdi. XIX əsrin sonunda "Avropa konserti" və Birinci Dünya müharibəsindən sonra Millətlər Cəmiyyəti bu irsə milli dövlət ideyasını əlavə etdi. Bu ideya milli öz müqəddəratını təyinetmə prinsipi kimi 1848-ci ildə baş vermiş liberal inqilablardan İkinci Dünya müharibəsinin başlanğıcınadək növbəti nəsillərin üzərində sabit siyasi struktur qurmağa çalışdıqları təməl daşlarından birinə çevrildi. Fransa xarici işlər naziri de la Valettin 1866-cı ildə bir Fransa diplomatik nümayəndəliyinə yazdığı məktub tarixin bu mərhələsinin əsas etiqadlarından birinə çevrildi və bir daha Vudro Vilson tərəfindən elan edildi və 1919-cu il müqavilələrinin meyarlarından biri oldu: "İmperator ... həqiqi müvazinəti yalnız Avropa dövlətlərinin məmnun edilmiş arzularında görür".[1]

Bu irsdən bu gün nə qalıb? İkinci Dünya müharibəsindən sonrakı mərhələdə dünya xalqlarını necə bir həmrəylik birləşdirir? Bu həmrəyliyin tərkib elementlərinin tədqiqi bu gün qüvvələr tarazlığının xalqların birliyi, azadlığı və sabitliyi üçün oynayacağı rolun əhəmiyyətindən asılı olacaq.

[1] Əxlaq amilinin kiçik dövlətlərin müstəqilliyinin qorunub saxlanması üçün əhəmiyyəti haqqında ətraflı qeyd olunub: Alfred Cobban, *National Self-Determination* (Chicago: University of Chicago Press, 1948), səh. 170-171: "Hətta böyük imperiyaların siyasəti belə fikir mühitinin təsirinə məruz qalır və uzun müddət kiçik müstəqil dövlətlərin hüquqlarının xeyrinə bir qərəz olmuşdur. Bu qərəzin mənbəyi üçün narahat olmağımıza ehtiyac yoxdur, lakin onun mövcudluğu beynəlxalq münasibətlərin araşdırmaçısının etinasız yanaşa bilməyəcəyi bir faktdır. Qeyd etdiyimiz müxtəlif amillərin hamısı, şübhəsiz ki, əhəmiyyət kəsb edir, lakin, fikrimizcə, Avropanın bəziləri tək bir şəhərdən böyük olmayan əksər kiçik dövlətlərini böyük dövlətlər tərəfindən ehtiva edilməkdən son nəticədə müdafiə edən daha kiçik olan dövlətlərdəki milli hissiyyatın gücü, yaxud hətta qüvvələr tarazlığının təsirindən daha çox müstəqil bir suverenliyin dağıdılmasının müstəsna və adətən, bağışlanılmaz hərəkət olduğunun ümumi şəkildə qəbul olunması idi. Hətta XVIII əsrdə daha böyük dövlətlərin gücü sürətlə artdığı bir dövrdə klassik şəhər-dövlət idealından təsirlənən çağdaş fikir daha kiçik dövlətlərə pərəstişlə dayaq oldu və onların müstəqilliyinə inandı. XIX əsrdə milliyyətçi qayənin böyüməsi bu baxışı sarsıtmaq üçün çox iş gördü, lakin 1919-cu ildə, bizə də məlum olduğu kimi, o, böyük təsirə malik idi". (Çikaqo Universiteti Nəşriyyatının icazəsi ilə dərc edilmişdir)

V FƏSİL

DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI: BEYNƏLXALQ ƏXLAQ NORMALARI VƏ DÜNYA İCTİMAİ FİKRİ

15. Əxlaq normaları, adətlər və hüquq gücün hüdudları kimi

Əvvəlki paraqrafda gördük ki, güc beynəlxalq arenada güc istəklərini məhdudlaşdırmağın qaba və etibarsız üsuludur. Güc uğrunda mübarizənin arxasında duran motivlər və onun fəaliyyət göstərdiyi mexanizmlər beynəlxalq münasibətlər haqqında bilinməli olan yeganə şeylər olsaydı, beynəlxalq arena, əslində, Hobbsun "hər kəsin hər kəsə qarşı müharibəsi"[1] kimi təsvir etdiyi təbii vəziyyəti əks etdirərdi. Beynəlxalq siyasət müstəsna şəkildə ən dəqiq və qərəzsiz şərhi Makiavelli tərəfindən verilən siyasi məqsədəuyğunluğa dair mülahizələrlə idarə olunardı. Belə bir dünyada zəif olan güclü olanın mərhəmətindən asılı olardı. Haqlını güc təyin edərdi.

Lakin, əslində, məhz gücün yalnız ali deyil, həmçinin rəqibsiz hökm sürdüyü dünyanın qorxusu güc istəyinin özü kimi universal olan gücə qarşı üsyanla nəticələnir. Gücə can atanlar, artıq gördüyümüz kimi, bu üsyanın qarşısını almaq, gücün təqibinin əsl mahiyyəti etiraf olunarkən yüksələn narazılıq və müqaviməti sakitləşdirmək üçün öz məqsədlərini ört-basdır etməkdən ötrü ideologiyalara əl atırlar. Bu halda, əslində, güc istəyi olan özünü fərqli formada, ağıl, əxlaq və ədalət ilə həmahənglik şəklində göstərir. Beynəlxalq münasibətlərə dair ideologiyaların yalnız inikası olduğu reallıq əxlaq normaları, adətlər və hüquqa dair normativ qayda-qanunda axtarılmalıdır.

Tövratdan başlamış müasir demokratiyanın əxlaq normaları və konstitusion nizamlamalarına qədər normativ sistemlərin əsas vəzifəsi güc istəklərini sosial baxımdan dözülə bilən sərhədlər daxilində saxlamışdır. Qərb sivilizasiyasında üstün olan bütün əxlaq normaları, adətlər və hüquqi sistemlər güc meyillərinin hər yerdə mövcud olduğunu etiraf edir və bunu pisləyir. Güc meyillərinin hər yerdə mövcud olduğunu, əksinə, sosial həyatın pislənilməkdən və məhdudlaşdırılmaqdan daha çox qəbul edilməli olan əsas reallığı hesab edən Makiavelli və Hobbs kimi siyasi filosoflar isə geniş yayılmış həmin fikri narazılıqla qarşılayıblar. Onlar Avqustin Avrelius və Lokkun əzəmətli gücünün Qərb sivilizasiyasında sahib olduğu intellektual və təcrübi təsirlərə müvəffəq olmayıblar.

[1] *Leviathan*, Chapter XIII.

Digər tərəfdən, Qərb sivilizasiyasının güclünün gücünü zəifin xeyrinə məhdudlaşdırmaq adətinin özü qadınsayağı, həssas və çürük olduğuna görə inkar olunub. Əleyhdarlar, məsələn, Nitsşe, Mussolini və Hitler güc istəyini və güc uğrunda mübarizəni yalnız təbii sosial gerçəkliklər kimi qəbul etmirdilər, həmçinin onun qarşısıalınmaz təzahürlərini vəsf edir və bu təmkinsizliyi cəmiyyətin qayəsi və fərdlər üçün idarəetmə qaydası olaraq postulat kimi qəbul edirlər. Güc həvəsi və güc uğrunda mübarizəni öz istinad nöqtələrinə çevirən uzun tarixə malik fəlsəfələrdə və siyasi sistemlərdə isə bunun acizlik və özünü məhvetmə olduğu isbat olunub. Onların zəifliyi güc meyillərini aradan qaldırmasa belə, tənzimləməyə və məhdudlaşdırmağa cəhd edən Qərb adətlərinin gücünü göstərir; əks halda, bu güc meyilləri ya cəmiyyəti parçalayar, ya da zəif olanın həyatı və xoşbəxtliyini güclünün zalım iradəsinə təslim edər.

Əxlaq normaları, adətlər və hüquq cəmiyyəti dağılmadan və ayrı-ayrı fərdləri köləlikdən və məhvdən qorumaq məqsədilə bu iki məqamda müdaxilə edir. Cəmiyyət və ya onun üzvlərinin bəziləri öz gücləri hesabına özlərini başqalarının güc meyillərinə qarşı müdafiə edə bilmədikdə – başqa sözlə, gec-tez olmalı olduğu kimi güc siyasəti mexanizminin yetərsizliyi üzə çıxdıqda – bu normativ sistemlər güc siyasətini öz idarəetmə qaydaları ilə tamamlamağa çalışır. Bu, normativ sistemlərin həm güclüyə, həm də zəifə verdiyi mesajdır: üstün güc nə mənəvi, nə də hüquqi baxımdan ondan fiziki cəhətdən bütün edilə bilənlər üçün istifadə etməyə heç bir haqq vermir. Bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin marağına uyğun olaraq, gücün hüdudları var və bu, güc uğrunda mübarizənin mexanizmi deyil, cəmiyyətin öz üzvlərinin iradəsiylə idarəetmə normaları və qaydaları formasında həmin mübarizəyə əlavədir.

Bütün yüksək cəmiyyətlərdə üç növ idarəetmə norma və qaydaları fəaliyyət göstərir: əxlaq normaları, adətlər və hüquq. Onların səciyyəvi xüsusiyyətləri fəlsəfə və hüquqşünaslığa dair ədəbiyyatlarda geniş şəkildə müzakirə edilmişdir. Bu tədqiqatın aparılması məqsədilə hər bir idarəetmə qaydasının iki ünsürünün olduğunu qeyd etmək kifayətdir: əmr və sanksiya. Heç bir xüsusi əmr hər hansı xüsusi norma növünə aid deyil – "Öldürmə!" bir əxlaq, adət və hüquq əmri ola bilər. Bu üç müxtəlif idarəetmə qaydasını bir-birindən fərqləndirən sanksiyadır.

"Öldürmə" əxlaq, adətlər və hüquqa xas olan əmrdir və o pozularsa, onu pozanı cəzalandırmaq və gələcəkdə belə halların qarşısını almaq üçün əxlaq, adətlər və hüquqa xas olan sanksiyalar tətbiq olunur. Əgər A B-ni öldürürsə və bundan sonra vicdan əzabı çəkirsə, biz əxlaqa xas olan sanksiyanın, yəni əxlaq normasının şahidi oluruq. Əgər A B-ni öldürürsə və təşkil olunmamış cəmiyyət buna işin boykotu, sosial ostrakizm və bu kimi digər kortəbii etiraz nümayişləri ilə reaksiya verirsə, biz adətlərə xas olan sanksiya, yəni adət norması ilə üz-üzə qalırıq. Nəhayət, əgər

A B-ni öldürürsə və təşkil olunmuş cəmiyyət buna əvvəlcədən müəyyən edilmiş polis fəaliyyəti, ittiham, məhkəmə, hökm və cəza formasında rasional prosedurlar şəklində reaksiya verirsə, sanksiyalar hüquqi təbiətli olur və odur ki normalar da hüquq kateqoriyasına məxsus olur.

Bütün yerli cəmiyyətlər bir-birini dəstəkləyən və ya təkzib edən və ya müstəqil fəaliyyət göstərən bu növ idarəetmə qaydalarının mürəkkəb qarışıqlığı ilə tənzimlənir. Cəmiyyət idarəetmə qaydaları ilə təmin etməyə çalışdığı maraqları nə qədər əhəmiyyətli hesab edərsə, onun qaydalarına riayət etməməyə görə təhdiddə istifadə etdiyi sanksiyalar bir o qədər güclü olar. Ən böyük təzyiqi cəmiyyət göstərir və ona görə də onun qaydalarını pozanlara təzyiq göstərmək üçün ixtiyarında olan bütün müxtəlif növ sanksiyaları eyni vaxtda bir araya gətirməklə öz idarəetmə qaydalarını həyata keçirmək üçün ən yaxşı imkanlara sahibdir. O ən zəif olandır və ona görə də yalnız bir növ sanksiya onun maraqlarını və dəyərlərini müdafiə edən zaman onun sanksiyaları əsas etibarilə faydasızdır. Bir idarəetmə qaydası digər idarəetmə qaydasının inkar etdiyi bir fəaliyyət tələb edərsə, müvafiq maraq və ya dəyərin taleyi ziddiyyətli əmrləri müdafiə edən sanksiyaların nisbi gücündən asılı olur.

Cəmiyyət xəyanətkarlıq və ya inqilab tərəfindən onun öz mövcudluğuna, yaxud qatil tərəfindən onun ayrı-ayrı üzvlərinə yönəlmiş təhlükəyə qarşı hər üç növ sanksiyanı hərəkətə keçirir. Belə ki, biri digərinə güc verən əxlaq normaları, adətlər və hüquq cəmiyyətin və onu təşkil edən ayrı-ayrı üzvlərin həyatının üçqat mühafizəsini təmin edir. Potensial xəyanətkar və qatil vicdan əzabı, cəmiyyətin, məsələn, ostrakizm və hüquqi cəza kimi formalarda təbii reaksiyası ilə üzləşir. Cəmiyyətin və ya onun üzvlərinin mövcudluğu deyil, onların mülkiyyəti təhlükə altında qalarkən də eyni vəziyyət hakim olur. Mülkiyyət də həmçinin əxlaq normaları, adətlər və hüquqdan ibarət üçqat divar ilə əhatə olunur. Cəmiyyət potensial oğru və dələduz və onun can atdığı mülkiyyət arasında istifadə edə bildiyi bütün sanksiyaları yerləşdirir.

Daha az əhəmiyyətli maraqların və dəyərlərin təhlükə altında olduğu yerlərdə cəmiyyət yalnız bir növ sanksiya irəli sürə bilər. Belə ki, işgüzar mühitdə və siyasətdə müəyyən növ rəqabət üsulları, məsələn, yalan yalnız əxlaq normaları ilə inkar olunur. Adətlər yalnız fövqəladə vəziyyətlərdə, məsələn, yalanın qədəri və dərəcəsi cəmiyyətin dözülə bilən hesab etdiyi ölçünü aşarsa, dövriyyəyə daxil olur. Adi yalan vəziyyətində əgər o yalnız hüquqla qadağan olunmadığına görə həyata keçirilə bilirsə, hüquq səssiz qalacaq. O yalnız o halda dilə gələcək ki, yalan çox böyük olacaq, məsələn, yalançı şahidlik və dələduzluq formasında və yalan sadə həqiqətin arxasında maraq və dəyərləri təhdid edəcək. Digər tərəfdən, davranış qaydaları müstəsna olaraq adətlər tərəfindən yerinə yetirilir, çünki əlaqədar məsələlər əxlaq normaları və hüququn onlarla məşğul olması üçün kifayət qədər əhəmiyyətli deyil. Nəhayət,

nəqliyyat nizamlamalarının pozulması ilə yalnız hüquq əlaqədar olur. Əxlaq normaları və adətlər onların yerinə yetirilməsində iştirak etmir, çünki hüquq sanksiyaları nəqliyyat sahəsində müəyyən mexaniki nizamın qurulması üçün, adətən, kifayət edir.

Müxtəlif qadağanedici normaların nisbi gücü məsələsi müxtəlif idarəetmə qaydaları arasında ziddiyyət əmələ gələrkən kəskinləşir. Eyni hüquqi sistemin iki qaydası arasında ziddiyyətin hüquq ədəbiyyatında geniş müzakirə olunan klassik nümunəsi müəyyən Avropa ölkələrinin cinayət məcəlləsində duelin qadağan olunması və eyni zamanda həmin ölkələrin hərbi məcəlləsində zabitlərdən müəyyən mübahisələri duel vasitəsilə həllinin tələb edilməsidir. Bizə insan övladından daha çox Allaha itaət etməyi və eyni zamanda Sezarın haqqını Sezara verməyi əmr edən əxlaq normaları sistemi dövlətin hüquq sistemi Allahın əmrləri ilə ziddiyyət təşkil edən zaman eyni qarşıdurmanı ortaya çıxarır. Bu növ ziddiyyətlər siyasət sahəsində xüsusilə tez-tez yer alır. Rəqib hökumətlər – inqilab hökuməti və legitim hökumət, mühacirətdə olan hökumət və xain hökumət – eyni qrup insanlardan itaətkarlıq tələb edir. Siyasətçinin əməl edəcəyi gözlənilən idarəetmə qaydaları çox vaxt cəmiyyətin bütün üzvlərinə ünvanlanan normalarla üst-üstə düşmür. Siyasətin əxlaq normaları və adətlərinin müəyyən fəaliyyətlərdə, məsələn, "seçkiqabağı çıxışlar"da və ümumiyyətlə, vədlərdə, adətən, cəmiyyətin ümumi əxlaq normaları və adətlərindən daha böyük fəaliyyət azadlığına imkan verdiyi hesab olunur.

Müxtəlif idarəetmə qaydaları arasında ziddiyyətlər həmin ziddiyyətli qaydaların sanksiyalarının ayrı-ayrı fərdlərin iradəsi üzərində göstərə bildiyi nisbi təzyiq ilə həll olunur. Ona ünvanlanmış bütün normalara eyni zamanda riayət etmək iqtidarında olmadığından o əməl etmək üçün onlardan birini seçməli, digərlərini isə pozmalıdır. Bu təzyiqlərin nisbi gücü öz növbəsində dəyər və maraqların bir qrupunu digər qrupa qarşı qoruyan sosial qüvvələrin nisbi gücünün ifadəsidir. Məqsədi ayrı-ayrı üzvlərinin güc istəklərini sosial baxımdan dözülə bilən sərhədlər çərçivəsində saxlamaq olan cəmiyyətin normativ düzəni öz-özlüyündə müəyyən ölçüdə bir-biriylə, belə deyək, qanunvericilik, yaxud məhkəmə qərarları üzərində təsir imkanları vasitəsilə üstünlük uğrunda mübarizə aparan sosial qüvvələrin nəticəsidir.

Sosial həyat başlıca olaraq cəmiyyətin idarəetmə qaydaları vasitəsilə öz üzvlərinə göstərdiyi təzyiqlərə yönəlmiş, əsasən, avtomatlaşmış davamlı reaksiyalardan ibarətdir. Bu idarəetmə qaydaları səhərdən axşamadək fərdə nəzarət edir və onun hərəkətlərinə cəmiyyətin meyarları ilə uyğun forma verir. Hətta, demək olar ki, cəmiyyət dinamik bir qüvvə olaraq öz üzvləri üzərinə fəaliyyət formaları qoyan idarəetmə qaydalarının toplusundan başqa bir şey deyil. Bizim sivilizasiya adlandırdığımız isə mahiyyət etibarilə öz üzvlərinin müəyyən obyektiv meyarlara uyğunlaşmasını təmin etməyə, onların güc istəklərini məhdudlaşdırmağa və onları sosial baxımdan bütün mühüm məsələlərdə əhliləşdirməyə və sakitləşdirməyə çalışan cəmiyyətin üzvlərinin

idarəetmə qaydalarına göstərdiyi avtomatik reaksiyadan başqa bir şey deyil. Əlbəttə, bizim burada, əsasən, haqqında bəhs etdiyimiz sivilizasiya – Qərb sivilizasiyası – bu cəhdində geniş ölçüdə uğurlu olmuşdur. Bununla belə, Qərb sivilizasiyası XIX-XX əsrlərin bir çox yazıçılarının inandıqları kimi güc uğrunda mübarizəni ümumilikdə daxili səhnədən çıxarmamış və onu nə isə fərqli və daha yaxşı bir şey, məsələn, əməkdaşlıq, harmoniya və daimi sülh ilə əvəz etməmişdir və heç bu yolda da deyil. Güc istəklərinin və güc uğrunda mübarizənin siyasətdə oynadığı rola dair anlaşılmazlıq haqqında bu kitabın III fəslində bəhs edilir.

Bizə məlum olanlara görə, Qərb sivilizasiyasının nail ola bildiyi ən yaxşı şey – istənilən sivilizasiyanın nail ola bildiyinin ən yaxşısı – daxili səhnədə güc uğrunda mübarizəni yumşaltmaq, onun üsullarını sivilləşdirmək və güc uğrunda mübarizənin cəmiyyətin ayrı-ayrı üzvlərinin həyatı, azadlığı və xoşbəxtlik axtarışına təsir dairəsini kiçiltmək olmuşdur. Daha da dəqiqləşdirsək, şəxsi mübarizənin qaba metodları sosial, kommersiya və peşəkar rəqabətin zərif alətləri ilə əvəz olunmuşdur. Güc uğrunda mübarizə öldürücü silahlarla deyil, rəqabətli təhqiqatlar, sosial fərqlənmə uğrunda yarışma, ictimai və özəl vəzifələr üçün keçirilən dövri seçkilər və hər şeydən öncə, maliyyə vəsaiti və maliyyə ilə ölçülə bilən şeylərə sahib olmaq uğrunda yarışlar vasitəsilə aparılır.

Qərb sivilizasiyasının yerli cəmiyyətlərində maliyyə vəsaitinə sahib olmaq gücə sahib olmanın görkəmli rəmzinə çevrilmişdir. Fərdin güc istəkləri maliyyə vəsaiti əldə etmək uğrunda yarış vasitəsilə cəmiyyətin müəyyən etdiyi idarəetmə qaydaları ilə ahəngdar olan sivil çıxış yolu tapır. Qətl və istənilən növ fərdi və kollektiv zorakılığa qarşı müxtəlif normativ göstərişlər güc uğrunda mübarizənin yenidən belə bir sivil yönləndirilməsinin ilkin normativ şərtlərini yaratmağa cəhd edir. Cəmiyyətin müxtəlif rəqabət mexanizmlərinə aid olan bütün sosial alətlər və təsisatlar güc uğrunda mübarizənin aradan qaldırılması deyil, güc uğrunda hüdudsuz və tənzimlənməyən mübarizənin qəddarlığı və qabalığının sivil əvəzedicilərini yaratmaq məqsədinə xidmət edir.

Qısaca ümumiləşdirsək, əxlaq normaları, adətlər və hüquq Qərb sivilizasiyasının yerli cəmiyyətlərində güc uğrunda mübarizəni belə məhdudlaşdırır. Bəs beynəlxalq cəmiyyətdə bu necə baş verir? Beynəlxalq arenada hansı növ əxlaq, adət və hüquq normaları səmərəlidir? Onlar beynəlxalq arenada hansı funksiyaları yerinə yetirirlər? Dövlətlər arasında güc uğrunda mübarizəni yerli normativ sistemlər yerli cəmiyyətin üzvləri arasında güc uğrunda mübarizəyə təsir etdiyi kimi məhdudlaşdırmaq, tənzimləmək və sivilləşdirmək üçün dünya ictimai fikri və beynəlxalq hüquq formasında hansı növ beynəlxalq əxlaq normaları, beynəlxalq adətlər var?

16. Beynəlxalq əxlaq normaları

Beynəlxalq əxlaq ətrafında müzakirələr iki ifratçılıqdan çəkinməlidir: əxlaq normalarının beynəlxalq siyasət üzərində təsirinin həddindən artıq qiymətləndirilməsi və dövlət adamları və diplomatların yalnız maddi güc mülahizələrindən yola çıxdığını qəbul etməyərək beynəlxalq əxlaqın olduğundan aşağı dəyərləndirilməsi.

Bir tərəfdən insanların həqiqətən riayət etdiyi əxlaq qaydaları ilə onların özlərini riayət etdikləri kimi göstərdikləri, eləcə də yazıçıların onların riayət etməli olduğunu elan etdikləri əxlaq qaydalarını qarışıq salmaq kimi ikili bir yanlış var. Professor Con Çipman Qrey deyirdi ki, "ilahiyyat istisna olmaqla insan marağına dair heç bir fəndə beynəlxalq hüquqda olduğu qədər qeyri-dəqiq yazı və anlaşılmaz düşüncə olmayıb".[1] Eyni sözlər beynəlxalq əxlaq haqqında deyilməlidir. Yazıçılar əxlaqa dair dövlətlər arasında əlaqələri daha çox sülhyönümlü və daha az anarxik etmək, məsələn, vədlərin yerinə yetirilməsi, başqasının sözünə inanma, ədalətli rəftar, beynəlxalq hüquqa hörmət, azlıqların müdafiəsi və müharibədə dövlət siyasətinin aləti kimi imtina edilməsi məqsədilə dövlət adamları və diplomatların böyük əhəmiyyət verməli olduqları tövsiyələr irəli sürmüşdürlər. Lakin onlar nadir hallarda özlərinə belə tövsiyələrin öz-özlüyündə nə qədər arzuolunan olsa da, insanların hərəkətlərini müəyyən edib-etmədiyi və hansı dərəcədə müəyyən etdiyinə dair sual veriblər. Bundan əlavə, dövlət adamları və diplomatlar öz hərəkətlərini və məqsədlərini əxlaqi nöqteyi-nəzərdən əsaslandırmağa adət etdiyindən onların real motivlərindən asılı olmayaraq, qərəzsiz və dinc məramların, humanist məqsədlərin və beynəlxalq idealların belə açıq elanını olduğu kimi qəbul etmək də eyni dərəcədə yanlış olardı. Onların fəaliyyətin həqiqi motivlərini gizlədən adi ideologiya olduğu, yaxud beynəlxalq siyasətin əxlaq meyarları ilə uyğunlaşdırılmasına həqiqi marağı ifadə etdiyini soruşmaq daha münasibdir.

Digər tərəfdən, daha əvvəl müzakirə edildiyi kimi[2], adətən, güc siyasətinə ümumi etinasızlıq və onun əxlaqi baxımdan qınanması ilə əlaqələndirilən belə

[1] *Nature and Source of the Law* (New York: Macmillan, 1927), səh. 127.
[2] Bax: səh. 80 və növbəti səhifələr

bir anlaşılmazlıq var ki, beynəlxalq siyasət o qədər ciddi şəkildə nöqsanlıdır ki, beynəlxalq arenada güc istəklərinin mənəvi hüdudlarını müəyyən etmək üçün əhəmiyyətsizdir. Lakin özümüzdən soruşsaq ki, dövlət adamları və diplomatlar öz xalqlarının güc məqsədlərini genişləndirmək üçün nə etmək iqtidarındadırlar və əslində, nə edirlər, başa düşürük ki, onlar təxminən bacardıqlarından və tarixin digər mərhələlərində həqiqətdə etdiklərindən daha az iş görürlər. Onlar müəyyən nəticələri nəzərdən keçirməkdən və müəyyən vasitələrdən istifadə etməkdən ya ümumiyyətlə, ya da müəyyən şərtlər altında imtina edirlər və bu onların məqsədəuyğunluğunun hesablanması zamanı səmərəsiz və ya düşünülməmiş olduqlarının üzə çıxması səbəbindən deyil, müəyyən əxlaq qaydalarının mütləq maneə yaratması səbəbindəndir.

Əxlaq normaları müəyyən siyasət formalarının məqsədəuyğunluq baxımından nəzərdən keçirilməsinə ümumiyyətlə icazə vermir. Müəyyən işlər, hətta baxmayaraq ki, məqsədəuyğundur, əxlaq normalarına əsaslanaraq həyata keçirilmir. Bizim dövrümüzdə belə əxlaqi qadağalar fərqli səviyyələrdə fərqli səmərəliliklə fəaliyyət göstərir. Sülh dövründə onların məhdudlaşdırma funksiyası ən çox insan həyatının müqəddəsliyini iqrar etməkdə aşkar və səmərəlidir.

İNSAN HƏYATININ MÜDAFİƏSİ

Dinc dövrdə insan həyatının müdafiəsi

Gördüyümüz kimi, beynəlxalq siyasət öz dövlətinin gücünü qoruyub saxlamağa, artırmağa və digər dövlətlərin gücünü nəzarətdə saxlamaq və ya azaltmağa göstərilən ardıcıl səy kimi təyin oluna bilər. Bununla belə, yenə də artıq qeyd etdiyimiz kimi[1], dövlətlərin nisbi gücü əhalinin sayı və xarakteri, hərbi təsisatın ölçüsü və səviyyəsi, hökumətin və xüsusilə diplomatiyanın xarakteri baxımından bəşər varlıqlarının sayından və xüsusiyyətindən asılıdır. Mənəvi mülahizələrin daxil edilmədiyi texniki vəzifələr silsiləsi kimi nəzərdən keçirilərsə, beynəlxalq siyasət rəqib dövlətin əhalisinin, onun ən görkəmli hərbi və siyasi liderlərinin və ən fərasətli diplomatlarının sayının kəskin azalmasını və hətta yox olmasını öz ağlabatan məqsədlərindən biri hesab etməli olardı. Beynəlxalq siyasət müstəsna olaraq əxlaqi əhəmiyyəti olmayan, gücü qoruyub saxlamaq və əldə etmək üsulu hesab olunduğu zaman belə metodlardan mənəvi tərəddüd göstərmədən adi hal kimi istifadə olunurdu.

[1] Bax: səh. 185 və növbəti səhifələr

Rəsmi məlumatlara görə, Venetsiya Respublikası 1415-1525-ci illərdə xarici siyasətdəki məqsədləri naminə 200-ə qədər sui-qəsd planlaşdırmış və ya həyata keçirmişdir. Nəzərdə tutulan qurbanlar arasında iki imperator, iki Fransa kralı və üç sultan var idi. Sənədlər heç bir sui-qəsd sifarişinin faktiki olaraq Venetsiya hökuməti tərəfindən rədd edildiyini qeydə almamışdır. 1456-1472-ci illərdə o həmin dövrdə Venetsiyanın əsas düşməni olmuş Sultan II Mehmedi qətlə yetirmək üçün 20 sifariş qəbul etmişdir. 1514-cü ildə Raqusalı Con illik 1500 dukat müqabilində Venetsiya hökumətinin seçdiyi istənilən şəxsi zəhərləməyi təklif etdi. Venetsiya hökuməti, bugünkü dillə desək, həmin adamı "sınağ"a çəkdi və ona imperator Maksimiliana nə edə biləcəyini göstərməyi söylədi. Həmin dövrdə kardinallar Papanın tacqoyma naharına zəhərləndirilə biləcəkləri qorxusundan öz şəxsi eşikağaları və şərabları ilə gəlirdilər; deyildiyinə görə, bu adət Romada ümumi hal almışdı və ev sahibləri bundan incimirdilər.

Siyasi məqsədlərə nail olmanın belə üsulları bu gün artıq geniş həcmdə istifadə olunmur. Lakin bu gün həmin növ metodların istifadə olunduğu zamanda olduğu kimi onlardan istifadə üçün siyasi motivlər mövcuddur. Güc uğrunda mübarizəyə qoşulmuş dövlətlər üçün onların rəqibinin görkəmli hərbi və siyasi liderlərin xidmətlərindən yararlanıb-yararlanmaya biləcəyi etinasız yanaşıla bilən məsələ deyil. Belə ki, onlar ümid edə bilərlər ki, görkəmli lider, yaxud hakim qrup ya siyasi çevriliş, ya da acizlik və ölüm yolu ilə gücə nəzarətdən əl çəkməyə vadar ediləcəklər. İndi bizə məlumdur ki, İkinci Dünya müharibəsi zamanı Hitler və Mussolininin nə qədər müddətə sağ qalacaqlarına və ya ən azından hakimiyyəti əldə saxlaya biləcəklərinə dair fərziyyələr antifaşist ittifaqının güc hesablamalarının mühüm hissəsini təşkil edirdi və prezident Ruzveltin ölüm xəbəri Hitlerin qələbə ümidlərini yenidən dirçəltmişdi. "Soyuq müharibə" zamanı Sovet İttifaqına münasibətdə Amerika siyasətinin bir amili sovet rejiminin rəhbərlərin hakimiyyətdə qala bilməməsi səbəbindən daxildən parçalana biləcəyi gözləntisi olmuşdur. Zorakı üsullarla hakimiyyətdən belə məhrumetmələri təşkil etməyin texniki çətinlikləri bu gün tarixin daha əvvəlki mərhələlərində olduğu qədər böyük deyil. Belə məhrumetmələr hələ də hər zaman olduğu kimi arzu olunan və mümkün ola biləndir. Dəyişən sivilizasiyanın təsiridir və o bəzi arzu olunan və mümkün siyasətləri əxlaq qınağına tuş edir və ona görə də, adətən, onların həyata keçirilməsi qeyri-mümkün olur.

Mənəvi məhdudiyyətlərin mövcudluğu və səmərəliliyi ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CIA) sui-qəsd planlarına reaksiyalarda özünü göstərdi. Amerika ictimai fikrinin böyük qisminin etirazına səbəb olan həmin cəhdlərin uğursuz olması deyil, onların əxlaq məhdudiyyətlərini pozması idi. Ümumiyyətlə, belə cəhdlərin edilməsi məxfi şəkildə fəaliyyət göstərən səlahiyyətli şəxslərin kiçik sayında əxlaq

məhdudiyyətlərinin zəiflədiyini göstərir. Mənəvi qanun pozuntularının əxlaqi zəmində geniş etirazla qarşılanması belə əxlaq normalarının davamlı reallığına işarə edir.

Eyni növ mənəvi məhdudiyyətlər sülh dövründə yalnız görkəmli insanların deyil, həmçinin məhvi siyasi cəhətdən həm arzu olunan, həm də məqsədəuyğun olacaq böyük qrupların, hətta bütün xalqın həyatını da qoruyur. Həm almanların, həm də bütün dünyanın fikrincə, Almaniya məsələsində müasir tarix əxlaq normalarının beynəlxalq siyasətə təsirinin parlaq təsvirini təqdim edir. Bismarkdan Hitlerə qədər alman nöqteyi-nəzərincə beynəlxalq siyasətin fundamental amili Almaniyanın şərqdə və qərbdə qüdrətli dövlətlər tərəfindən "mühasirə"yə alınması olmuşdur. Bismarkın beynəlxalq siyasət şahmat lövhəsindəki gedişləri nə qədər amansız və əxlaqdan kənar olsa da, o, nadir hallarda XVIII əsrdə xristian dövlət başçılarının cəmiyyətində hakim olmuş oyun qaydalarından kənara çıxırdı. Bu, aldadıcı və hiyləgər bir oyun idi, lakin bir neçə hərəkətlər var idi ki, həmin kübar cəmiyyətin heç bir üzvü özlərini onları edəcək qədər alçaltmazdı. Belə ki, Almaniyanın siyasi mövcudluğunun şərti kimi Rusiya və Fransa ilə qonşuluq məsələsiylə üz-üzə qalan Bismark belə bir amilin qaçılmazlığını qəbul etdi və Rusiya ilə yaxın münasibətlər saxlamaq və Fransanı təcrid etməklə bunu Almaniyanın xeyrinə çevirməyə çalışdı.

Digər tərəfdən Hitler isə Otuzillik müharibənin sonundan faktiki olaraq onun özünün hakimiyyətə gəlişinə qədər beynəlxalq siyasətin hüdudları daxilində fəaliyyət göstərdiyi sosial çərçivəni qəbul etmədi. O, Bismarkı Fransa və Rusiyanın mövcudluğunu Almaniya xarici siyasətinin əsaslanmalı olduğu qaçılmaz reallığı qəbul etməyə vadar edən mənəvi tərəddüdlərdən azad idi. Hitler Almaniyanın şərq və qərb qonşularını fiziki olaraq məhv etməklə bu reallığı dəyişməyi qarşısına məqsəd qoydu. Əxlaqi əhəmiyyətdən məhrum olmuş adi siyasi üsul kimi qəbul edildikdə Hitlerin bu həll yolu Bismarkın yolundan daha mükəmməl və siyasi baxımdan daha əlverişli idi, çünki o, Almaniyanın beynəlxalq mövqe məsələsini ən azından şərq və qərb qonşularına münasibətdə birdəfəlik həll etməyi vəd edirdi. Bundan əlavə, Hitlerin həll üsulunun həyata keçirilməsi öz-özlüyündə Bismarkın dövründə ola biləcəyi qədər mümkün idi. Hitleri və onun yürütdüyü siyasəti məhvə sürükləyən və Bismarkın siyasi zəkasının uzaq durmuş ola biləcəyi müəyyən siyasi və hərbi nöqsanlar olmasaydı, o uğur qazanmış ola bilərdi.

Alman məsələsi qeyri-alman dünyasına və xüsusilə Almaniyanın hegemonluğu ilə təhdid olunan dövlətlərə özünü göstərdiyi Birinci Dünya müharibəsi ilə əlaqədar 20 milyon almanın olduqca çox olduğunu bəyan edən Fransa dövlət xadimi Klemanso tərəfindən amansız bir ürək açıqlığı ilə irəli sürüldü. Bu bəyanat Almaniyanın və dünyanın 1870-ci il Fransa-Almaniya müharibəsindən sonra

üzləşdiyi belə bir qaçılmaz gerçəkliyə işarə edir ki, ərazisinin ölçüsünə və əhalisinin sayına görə Almaniya Avropanın ən güclü dövlətidir. Bu gerçəkliyi digər Avropa dövlətləri və dünyanın qalan dövlətlərinin təhlükəsizliyi ilə uzlaşdırmaq dünyanın Birinci Dünya müharibəsindən sonra üzləşdiyi və İkinci Dünya müharibəsindən sonra yenidən qarşılaşdığı siyasi yenidənqurmanın vəzifəsi idi. Klemansodan başlayaraq alman məsələsinin hər zaman "20 milyon almanın olduqca çox olması" fikrinin mövcudluğunun şübhəsizliyi baxımından izah edilmiş olması güc təqibinə dair Bismarkın siyasətində rast gəldiyimiz, Hitlerin siyasətində isə rast gəlmədiyimiz eyni əxlaq məhdudiyyətlərini üzə çıxarır. Çünki alman məsələsi kimi beynəlxalq bir məsələ ilə məşğul olmağın iki yolu var.

Bunlardan biri romalıların Karfagen məsələsini birdəfəlik həll etdiyi üsuldur. Bu, texniki siyasi məsələni hər hansı qeyri-adi əxlaq mülahizələrini nəzərə almadan münasib üsullarla həll etmək üsuludur. Romanın güc istəkləri nöqteyi-nəzərindən karfagenlilərin sayı olduqca çox olduğundan Katon hər nitqini bu sözləri bəyan etməklə bitirərdi: *"Ceterumcenseo Carthaginem esse delendam"* ("Bütün qalanlara gəlincə, mənim fikrim belədir ki, Karfagen viran edilməlidir"). Romanın fikrincə, Karfagenin viran edilməsiylə Karfagen məsələsi həmişəlik olaraq həll edildi. Bir vaxt Karfagenin olduğu viranə qalmış yerdən bir daha heç vaxt Romanın təhlükəsizliyi və iddialarına heç bir təhlükə baş qaldırmamalı idi. Eynilə əgər almanlar da ümumi planlarında müvəffəq olsaydılar və onların atıcı dəstələri və ölüm düşərgələri öz vəzifələrini başa vursaydı, "koalisiyalar kabusu" həmişəlik olaraq alman dövlət adamlarının beynindən silinmiş olardı.

Məqsədlərinə gedən yolda bir vasitə kimi kütləvi qırğınlara icazə verməyən xarici siyasət bu məhdudiyyəti siyasi məqsədəuyğunluq mülahizələri səbəbindən özünə yaxın qoymur. Əksinə, məqsədəuyğunluq belə mükəmməl və səmərəli əməliyyatı tövsiyə edərdi. Məhdudiyyət milli mənfəətə dair mülahizələrdən asılı olmayaraq, riayət edilməli olan mütləq əxlaq prinsipindən qaynaqlanır. Ona görə də bu növ xarici siyasət, əslində, ardıcıl icrası əxlaq prinsipinin, məsələn, dinc dövrdə kütləvi qırğınların qadağan edilməsi prinsipinin pozulmasını zəruri edəcəyi məqamda milli marağı qurban verir. Bu vəziyyəti tutarlı şəkildə sübut etmək mümkün deyil, çünki çox vaxt belə fikir irəli sürülür ki, insan həyatına belə hörmət "digər bəşəri varlıqların *qeyri-zəruri* ölüm və əzabına, yəni ümumi öhdəlikdən uzaqlaşmağı əsaslandırmaq üçün doğru və ya yanlış şəkildə istinad olunan daha ali məqsədə nail olmaq üçün zəruri olmayan ölüm və əzaba səbəb olmamaq öhdəliyi"nin[1] nəticəsidir. Əksinə, reallıq belədir ki, dövlətlər belə bir hərəkəti "daha ali məqsəd", məsələn, milli maraq nöqteyi-nəzərindən əsaslandırmaq

[1] E.H.Carr, *The Twenty Year's Crisis, 1919-1939* (London: Macmillan, 1939), səh. 196.

imkanına baxmayaraq, mənəvi öhdəliyi müəyyən vəziyyətlərdə ölüm və əzaba səbəb olmaqdan çəkinmək üçün qəbul edir.

Beynəlxalq siyasətin biri əxlaq çərçivəsində, digəri ondan kənarda fəaliyyət göstərən bu iki konsepsiyası arasındakı fundamental münaqişə ser Uinston Çörçillin öz xatirələrində yer ayırdığı bir epizod ilə əyani şəkildə təsvir olunur. Tehran konfransında Stalin müharibədən sonra almanlara verilməli olan cəza məsələsini qaldırdı:

"Stalin dedi ki, Almaniya Baş Qərargahı ləğv edilməlidir. Hitlerin qüdrətli ordusunu təşkil edən bütün qüvvələr təxminən 50 min zabit və texniki işçidən asılı idi. Əgər bunlar hamısı bir yerə toplansa və müharibənin sonunda güllələnsə, Almaniyanın hərbi qüdrətinin kökü kəsilər. Mən düşündüm ki, bu haqda növbəti fikirləri səsləndirmək düzgündür: "Britaniya Parlamenti və ictimaiyyəti heç vaxt kütləvi güllələnmələrə yol verməyəcək. Hətta əgər müharibə ehtirası altında onlara ilk addımı atmağa imkan versələr də, ilk qırğın baş verən kimi qəzəbli şəkildə buna məsul olanlara qarşı çevrilərdilər. Sovetlər bu məsələdə heç bir xülyada olmamalıdır".

Lakin Stalin, ola bilsin ki, mövzunu yalnız qəzəb içində tədqiq etmişdi. O dedi: "50 min güllələnməlidir". Mən bərk qəzəbləndim və dedim: "Daha yaxşı olar ki, məni bağa çıxartsınlar və mən elə buradaca və elə indi özümü güllələyim, nəinki öz şərəfimi və ölkəmin şərəfini belə bir rüsvayçılıqla ləkələyim".[1]

Müharibə zamanı insan həyatının müdafiəsi

Müharibə zamanı da beynəlxalq siyasətə oxşar əxlaq məhdudiyyətləri qoyulur. Onlar döyüşə bilməyən və ya döyüşmək istəməyən mülki əhaliyə və hərbçilərə şamil edilir. Tarixin əvvəlindən başlamış Orta əsrlərin böyük bir dövrü ərzində əxlaq normaları, eləcə də hüquqa görə müharibə edən tərəflər silahlı qüvvələrin üzvü olub-olmamasından asılı olmayaraq, bütün düşmənləri öldürməkdə və ya onlarla özlərinin uyğun bildikləri formada davranmaqda azad idi. Kişilər, qadınlar və uşaqlar çox vaxt qalib tərəfindən əleyhinə hər hansı əxlaq reaksiyası göstərilmədən qılıncdan keçirilir, yaxud qul kimi satılırdılar. Hüqo Qrotsi *"Müharibə və sülh hüququ haqqında"* əsərinin III kitabının IV fəslində "ictimai müharibədə düşmənləri öldürmək hüququ və şəxsə qarşı digər zorakılıq haqqında" başlığı altında qədim tarixdə ayrı-seçkilik qoyulmadan düşmən kəslərə qarşı törədilən zorakılıq hərəkətlərinin dərin təsir oyadan bir siyahısını təqdim edir. XVII əsrin

[1] Winston S.Churchill, *The Second World War*, Vol. V, *Closing the Ring* (Boston: Houghton Mifflin, 1951), səh. 373-374. (Naşirin icazəsiylə təkrar dərc edilmişdir)

üçüncü onilliyində yazan Qrotsinin özü onların əksəriyyətini hələ də hüquq və əxlaqla əsaslandırılmış hesab edir, müharibənin ədalətli səbəbdən aparıldığını nəzərdə tuturdu.[1]

Müharibədə öldürməkdən mənəvi çəkinmələrin olmaması müharibənin özünün təbiətinin nəticəsidir. Həmin dövrlərdə müharibə müharibə tərəfi olan dövlətlərin ərazisindəki bütün əhali arasında mübarizə hesab olunurdu. Mübarizə aparılan düşmən müasir dövrdə *dövlət* adlanan hüquqi mücərrədliyin silahlı qüvvələrindən daha çox, müəyyən bir rəhbərə sədaqət andı içmiş və ya müəyyən bir ərazidə yaşayan fərdlərin ümumi sayı idi. Belə ki, düşmən dövlətin hər bir ayrı-ayrı vətəndaşı digər tərəfin hər bir ayrı-ayrı vətəndaşının düşməninə çevrilirdi.

Otuzillik müharibə başa çatdıqdan sonra belə bir təsəvvür hakim olmağa başladı ki, müharibə bütün əhali arasında deyil, yalnız müharibə tərəfi olan dövlətlərin orduları arasında mübarizədir. Nəticədə hərbçilər ilə hərbçi olmayanlar arasında fərq müharibə aparan tərəflərin hərəkətlərinə hakim olan fundamental hüquq və əxlaq prinsiplərindən birinə çevrildi. Müharibə müharibə tərəfi olan dövlətlərin silahlı qüvvələri arasında mübarizə hesab olunur və mülki əhali silahlı mübarizədə fəal şəkildə iştirak etmədiyindən onlar onun obyekti olmamalıdır. Beləliklə, məqsədyönlü şəkildə hərbçi olmayan mülki əhaliyə hücum etməmək, onları yaralamamaq, yaxud öldürməmək mənəvi və hüquqi bir vəzifədir. Onların şəhərin bombalanması, yaxud əhalinin məskunlaşdığı ərazilərdə gedən döyüşlər kimi hərbi əməliyyatlarda yaralanması və ya həlak olması müharibənin bəzən qaçılmaz reallıqları kimi təəssüf doğurur.

Bununla belə, mümkün qədər belə hallara yol verməmək də mənəvi və hüquqi vəzifə hesab olunur. Quruda müharibə qanunları və adətlərinə dair 1899 və 1907-ci illər Haaqa konvensiyaları və 1949-cu il Cenevrə konvensiyası həmin prinsipə ifadə və faktiki olaraq universal hüquqi sanksiya verdi.

Silahlı qüvvələrin döyüşmək istəməyən və ya döyüşməyi bacarmayan üzvlərinə münasibətdə də müvafiq şərhlər verilmişdir. Bu, qədim dövrdə və Orta əsrlərin böyük bir mərhələsində bütün düşmənləri öldürməyə mənəvi və qanuni hüquqa əlil hərbçilərin xüsusi kateqoriyaları üçün istisnaların edilməsinə dair hakim olmuş müharibə təsəvvüründən irəli gəlir. Belə ki, Qrotsi öz dövrünün hakim mənəvi və qanuni hökmü kimi hələ də bəyan edə bilirdi ki, "zərər yetirmək hüququ hətta əsirlər üzərində də keçərlidir və bunun zaman məhdudiyyəti yoxdur... Zərər yetirmək hüququ hətta təslim olmağı arzu edənlər, lakin bu arzusu qəbul olunmayanlar üzərində də keçərlidir".[2]

[1] Xüsusilə bax: § III
[2] Yenə orada, § X, XI.

Lakin müharibənin silahlı qüvvələr arasında mübarizə olmasına dair təsəvvürün məntiqi nəticəsi olaraq, belə bir fikir yarandı ki, məqsədyönlü silahlı fəaliyyətin obyekti yalnız hərbi əməliyyatlarda fəal iştirak edə bilən və bunu arzu edənlər olmalıdır. Xəstəlik, yara, yaxud əsir düşməsi və ya əsir düşmək istəməsi səbəbindən artıq real hərbi əməliyyatlarda iştirak etməyənlərə xətər yetirilməməlidir. Hərb işinin humanistləşdirilməsinə doğru bu meyil XVI əsrdə başladı və XIX əsrdə və XX əsrin əvvəllərində imzalanmış böyük çoxtərəfli müqavilələrlə öz zirvəsinə çatdı. Demək olar ki, bütün sivil dövlətlər bu müqavilələrə sadiq qalıb. 1581-1864-cü illərdə yaralıların və xəstələrin həyatını qorumaq üçün 291 beynəlxalq razılaşma imzalanmışdır.

1864-cü ildə imzalanmış, daha sonra 1906, 1929-cu illərdə imzalanmış konvensiyalar və 1949-cu il Cenevrə konvensiyası dövrün əxlaq etiqadlarını yaralı, xəstə və onlara qulluq edən tibb heyətinə uyğunlaşdırılmalı olan rəftarla bağlı konkret və təfsilatlı hüquqi öhdəliklərə çevirmişdir. Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti həmin mənəvi etiqadın həm rəmzi, həm də məşhur təsisati reallaşma şəklidir.

Müharibə əsirlərinə gəlincə, hətta XVIII əsrdə onların durumu hələ də acınacaqlı idi, baxmayaraq ki, onlar artıq, bir qayda olaraq, öldürülmürdülər, onlarla cinayətkarlar kimi rəftar olunur və onlar yalnız pul müqabilində azad edilərək, istismar obyekti kimi istifadə olunurdular. 1785-ci ildə ABŞ və Prussiya arasında imzalanmış Dostluq müqaviləsinin 24-cü maddəsi ilk dəfə olaraq açıq şəkildə bu məsələyə dair mənəvi etiqadlara dəyişiklik gətirdi. O, müharibə əsirlərinin həbsxanalarda dustaq edilməsini, eləcə də zəncirlərdən istifadəni qadağan etdi və onlarla hərbçi kimi rəftar olunması şərtini qoydu. 1899 və 1907-ci illər Haaqa konvensiyaları, həmçinin 1929 və 1949-cu illər Cenevrə konvensiyaları müharibə əsirləri ilə insani rəftarı təmin etmək məqsədi daşıyan hüquqi qaydaların müfəssəl sistemini yaratdı.

Müharibənin dağıdıcılığına düçar olmuş bəşəri varlıqların həyatı və əzabları üçün eyni humanist narahatlıqlar XIX əsrin ortalarından etibarən müharibənin humanistləşdirilməsi məqsədilə imzalanmış bütün beynəlxalq müqavilələrin kökündə durur. Onlar müəyyən silahlardan istifadəni qadağan edir, digərlərinin istifadəsini məhdudlaşdırır, bitərəflərin hüquq və vəzifələrini müəyyən edir – qısası, müharibəyə alicənablıq və bütün potensial qurbanları üçün ümumi olan insanlıq xüsusiyyətinə hörmət ruhu aşılamağa və zorakılığı müharibənin məqsədinə uyğun gələ biləcək şəkildə minimuma endirməyə, yəni düşmənin müqavimət iradəsini sındırmağa cəhd edir. 1856-cı il Paris bəyannaməsi dəniz müharibəsini məhdudlaşdırdı. 1868-ci il Sankt-Peterburq bəyannaməsi partlayıcı, yaxud tezalışan maddələrlə doldurulmuş yüngülçəkili mərmilərdən istifadəni qadağan etdi. 1899-cu il Haaqa konvensiyası insan bədənində asanlıqla parçalanan güllələrdən (dum-dum)

istifadəni qadağan etdi. Bir sıra beynəlxalq konvensiyalar qaz, kimyəvi və bakterioloji müharibəni qadağan etdi. 1899 və 1907-ci illər Haaqa konvensiyaları quruda və dənizdə müharibə qanunlarını və bitərəflərin hüquq və vəzifələrini sistemləşdirdi. 1936-cı il London protokolu ticarət gəmilərinə qarşı sualtı qayıqlardan istifadəni qadağan etdi. Bizim dövrümüzdə isə nüvə müharibəsini məhdudlaşdırmağa cəhdlər edilir. Bütün bu səylər qeyri-məhdud zorakılıqdan xarici siyasətin aləti kimi istifadəyə mənəvi meyilsizliyin faktiki olaraq universal artımının şahidi olur.

Bu beynəlxalq müqavilələrin etibarlılığı və səmərəliliyinə qarşı onların müəyyən etdiyi qadağalara etinasızlıqdan və həmin qadağaların pozulmasından qaynaqlanan hüquqi arqumentlər ola bilər. Lakin bu, beynəlxalq arenada zorakılıq, yaxud ən azından zorakılığın müəyyən növləri özünü göstərdiyi halda özünü narahat hiss edən əxlaq vicdanının mövcudluğuna qarşı olan arqument deyil. Belə bir vicdanın mövcudluğu dövlətlərin fəaliyyətini beynəlxalq razılaşmaların vasitəsilə əxlaq prinsipləri ilə uzlaşdırmağa edilən cəhdlərlə təsdiqlənir. Bu özünü həm də bu razılaşmaların əsassız şəkildə pozulmasını əxlaqi baxımdan müdafiə edən ümumi əsaslandırma və bəhanələrdə büruzə verir.

Əksər dövlətlər bu növ hüquqi razılaşmalara qoşulur və ən azından müəyyən bir ölçüdə də olsa, onlara sadiq qalmağa çalışır. Ona görə də belə məsələlərdə ittihamlara cavab kimi, bir qayda olaraq, təqsirsizlik və əxlaqi əsaslandırmanın yüksək səslə bəyan edilməsi adi ideologiyadan daha artıqdır. Onlar dövlətlərin zaman-zaman tamamilə inkar etdiyi və çox vaxt pozduğu müəyyən əxlaq məhdudiyyətlərinin dolayı şəkildə qəbuludur. Nəhayət, qarşıdurmanın getdiyi dövlət daxilində bir-biriylə döyüşən böyük qrupların əxlaq vicdanı müharibənin aparılmasında mənəvi və hüquqi məhdudiyyətlərin qaçılmaz və qanqaraldıcı pozulmasına qarşı çıxa bilər. Belə qruplar müharibəyə qarşı nümayiş edə, onu dəstəkləməkdən imtina edə bilər, beləliklə də, əxlaqi məhdudiyyətlərdən xəbərdar olan əxlaq və vicdanın mövcudluğunu təsdiqləyərlər.

Müharibənin mənəvi mühakiməsi

Nəhayət, əsrin sonundan etibarən müharibəyə münasibətin özü əksər dövlət adamlarının müəyyən əxlaqi məhdudiyyətlərin müharibəni xarici siyasətin aləti kimi məhdudlaşdırdığına dair daim dərinləşən düşüncəsini əks etdirmişdir. Dövlət adamları müharibənin dağıdıcı qabiliyyətinin əhəmiyyətini azaltmış və tarixin başlanğıcından etibarən müharibədə öz iştiraklarını özünümüdafiə və dini borc baxımından əsaslandırmışlar. Müharibədən, yəni onun istənilən növündən çəkinmənin özü yalnız əsrin sonundan etibarən dövlətçiliyin məqsədinə çevrilmişdir. Müharibədən uzaq durmağın özü 1899 və 1907-ci illər iki Haaqa konfransı, 1919-cu

il Millətlər Cəmiyyəti, təcavüzkar müharibəni qeyri-qanuni elan edən 1928-ci il Brian-Kelloq paktı və bizim dövrümüzdə BMT-nin əsas məqsədi olmuşdur.

Bu kitabın VIII fəslində haqqında təfərrüatlı bəhs edəcəyimiz bu və digər hüquqi alətlərin və təşkilatların zəminində belə bir əminlik durur ki, müharibə, xüsusilə müasir müharibə yalnız məqsədəuyğunluq baxımından uzaq durulmalı dəhşətli bir hadisə deyil, həmçinin əxlaqi zəmində uzaq durulmalı bədxah hadisədir. Birinci Dünya müharibəsinin səbəblərinə aid diplomatik sənədlərin müxtəlif toplularını araşdıran tədqiqatçı, demək olar ki, bütün məsul dövlət adamlarının – bəlkə də, Vyana və Sankt-Peterburqdakılar istisna olmaqla – qaçılmaz şəkildə müharibəyə gətirib çıxara biləcək addımların atılmasında göstərdikləri qətiyyətsizlikdən heyrətə gəlir. Nəhayət, müharibənin qaçılmazlığı məlum olduqdan sonra dövlət adamları arasında bu qətiyyətsizlik və demək olar ki, ümumi olan təşviş müharibələrin planlaşdırılması və müharibəni qaçılmaz etmək məqsədilə hadisələrin quraşdırılması və bütün bunları başlatmağın günahını digər tərəfin üzərinə qoymaq üçün göstərilən qərəzli əndişə ilə kəskin ziddiyyət təşkil edirdi.

II Dünya müharibəsindən əvvəlki illərdə Qərb dövlətlərinin siyasəti, nə hesabına olursa olsun, müharibədən uzaq durmaq arzusundan şövqə gəldi və bu onlara böyük siyasi və hərbi zərərə başa gəldi. Bu arzu milli siyasətin bütün digər mülahizələrinin üstündən xətt çəkdi. Eynilə heç bir istisnasız bütün böyük dövlətlərin Koreya müharibəsini yarımada hüdudlarında saxlamaq və beləliklə də, bunun üçüncü dünya müharibəsinə çevrilməsinin qarşısını almaq üçün keçirdikləri təşviş və II Dünya müharibəsi başa çatdıqdan sonra ortaya çıxan çoxsaylı beynəlxalq böhranlar zamanı onların hamısının göstərdikləri təmkinlilik müharibəyə münasibətdə fundamental dəyişikliyin diqqətçəkən nümunəsidir. Qabaqlayıcı müharibə ehtimalını onun milli maraq üçün məqsədəuyğun olub-olmamasından asılı olmayaraq, ciddi şəkildə nəzərdən keçirmək xüsusilə qəbul olunmur və müharibənin bu şəkildə mənəvi mühakiməsi son illərdə özünü Qərb dünyasında büruzə vermişdir. Müharibə baş verəndə xarici siyasətin qabaqcadan düşünülmüş və planlaşdırılmış kulminasiyası kimi deyil, təbii fəlakət və ya digər bir dövlətin bədnam əməli kimi baş verməlidir. Ümumiyyətlə, müharibənin baş verməməli olduğu ilə bağlı əxlaq normasının pozulmasından qaynaqlanan mənəvi tərəddüdlər əgər ümumiyyətlə sakitləşə bilərsə, yalnız belə sakitləşə bilər.

Beynəlxalq əxlaq normaları və total müharibə

Qədim dövr və Orta əsrlərin böyük bir dövründən fərqli olaraq, müasir dövr xarici əlaqələrin həyata keçirilməsinə əxlaqi məhdudiyyətlər qoyur, çünki bu növ fəaliyyət ayrı-ayrı fərdlərin və fərdlər qrupunun həyatına təsir edə bilər. Bununla

belə, bəşəriyyətin indiki vəziyyətdəki müəyyən vacib amillər bu əxlaqi məhdudiyyətlərdə müəyyən zəifləməyə işarə edir. Yada salaq ki, insan həyatının məhv edilməsinə dair əxlaqi məhdudiyyətlərin olmaması bütün əhalinin şəxsi düşmən kimi bir-biriylə üz-üzə qaldığı müharibənin total xarakteri ilə müşayiət olunurdu. Həmçinin yada salaq ki, müharibədə öldürmənin tədricən məhdudlaşdırılması və onun müəyyən şərtlərə bağlanması fəal qarşı duran tərəflər kimi yalnız orduların üz-üzə gəldiyi məhdud müharibənin formalaşmışı ilə üst-üstə düşdü. Son zamanlar müharibə hər zaman olduğundan böyük dərəcədə və fərqli baxımlardan total xarakter aldığından öldürməyə qoyulan əxlaqi məhdudiyyətlər də hər zaman olduğundan az müşayiət olunur. Əslində, onların siyasi və hərbi liderlərin, eləcə də adi insanların vicdanında mövcudluğunun özü getdikcə daha da şübhəli olur və ümumiyyətlə, yoxolma təhlükəsi ilə üzləşir.

Bizim dövrümüzdə müharibə 4 müxtəlif amil baxımından total forma alıb:

(1) müharibənin aparılması üçün zəruri olan fəaliyyətlərə cəlb olunan əhali zümrəsinə görə, (2) aparılan müharibənin təsirinə məruz qalan əhali zümrəsinə görə, (3) müharibənin aparılması ilə tamamilə ortaq etiqad və emosiyalara sahib əhali zümrəsinə görə, (4) müharibənin məqsədinə görə.

Mülki əhalinin əksəriyyətinin səmərəli səyi ilə dəstəklənən böyük ordular keçən əsrin milli məhsulun yalnız kiçik bir hissəsi ilə saxlanılan nisbətən kiçik ordular ilə əvəz olundu. Mülki əhalinin silahlı qüvvələri təmin etməkdə müvəffəqiyyətli olması müharibənin nəticəsi üçün hərbi səyin özü qədər əhəmiyyətli ola bilər. Ona görə də mülki əhalinin basılması (onun istehsal qabiliyyəti və iradəsinin sındırılması) silahlı qüvvələrin basılması (onların müdafiə qabiliyyəti və iradəsinin sındırılması) qədər əhəmiyyətli ola bilər. Odur ki silahlarını nəhəng sənaye maşınından alan müasir müharibənin xarakteri hərbçilər və mülki əhali arasındakı fərqə kölgə salır. Fəhlə, mühəndis və alim silahlı qüvvələrə kənardan cəsarət verən məsum tamaşaçılar deyillər. Onlar əsgərlər, dənizçilər və təyyarəçilər kimi hərbi təşkilatın çox mühüm və əvəzedilməz parçasıdırlar.

Belə ki, müharibə vəziyyətində olan müasir dövlət öz düşməninin istehsalat prosesini dağıtmalı və məhv etməlidir və müasir müharibə texnologiyaları bu məqsədin gerçəkləşdirilməsi üçün vasitələri təmin edir. Müasir müharibə üçün mülki istehsalın və düşmənin istehsal prosesinə zərər vurmağın əhəmiyyəti artıq Birinci Dünya müharibəsində ümumi şəkildə qəbul olundu. Lakin o zaman mülki istehsal proseslərinə birbaşa təsirin texnoloji vasitələri yalnız özünün erkən inkişaf mərhələsində idi. Müharibə tərəfləri mühasirə və sualtı müharibə kimi dolayı vasitələrə əl atmalı olurdu. Onlar yalnız təsadüfi hallarda və fərqli nəticələrlə mülki əhalinin həyatına hava hücumları və uzunsürən bombardman vasitəsilə birbaşa müdaxilə etməyə cəhd edirdilər.

İkinci Dünya müharibəsi birbaşa müdaxilə üsulunu dövlətin istehsalat qabiliyyəti və müqavimət bacarığını məhv etməyin ən səmərəli üsuluna çevirdi. Mülki əhalinin və onların əmlakının kütləvi şəkildə məhv edilməsinə maraq belə kütləvi məhvi maneəsiz həyata keçirmək imkanı ilə üst-üstə düşdü və bu üst-üstəlik müasir dünyanın əxlaqi hökmlərinin ona müqavimət göstərməsi üçün olduqca güclü idi. Əsrin birinci onilliyinin əxlaqi hökmlərini dilə gətirən dövlət katibi Kordel Hul 11 iyun 1938-ci ildə Kantonun Yaponiya tərəfindən bombalanmasından bəhs edərkən bəyan etdi ki, hökumət mülki əhalinin bombalanmasında iştirak edən ölkələrə təyyarə və aviasiya silahının satışını təqdir etmir.

1939-cu il dekabrın 2-də prezident Ruzvelt çıxışında Sovet İttifaqının Finlandiyanın dinc əhalisinə qarşı hərbi əməliyyatları nəzərə alaraq, ona qarşı oxşar mənəvi embarqolar elan etdi. Yalnız bir neçə il sonra bütün müharibə iştirakçıları Amerika dövlət adamlarının əxlaqi zəmində mühakimə yürütmək kimi fəaliyyət formalarına qoşuldular və bu sahədə Amerikanın fəaliyyətini kölgədə qoydular. Varşava və Rotterdam, London və Koventri, Köln və Nürnberq, Hirosima və Naqasaki yalnız müasir müharibə texnologiyasının inkişafında deyil, həm də müasir müharibə əxlaq normalarının inkişafında irəliyə doğru təkan oldu. Hind-Çin müharibəsi bütün real məqsədlərinə görə hərbçilər və mülki əhali arasındakı fərqi büsbütün aradan qaldırdı.

Müasir müharibənin xarakterindən qaynaqlanan dövlətin düşmənin məhsuldarlığını və müqavimət iradəsini məhv etmək marağı və müasir hərbi texnologiyanın bu marağı təmin etmək üçün sahib olduğu imkan beynəlxalq əxlaq normalarına korlayıcı təsir göstərmişdir. Bu korlanma sonralar döyüşən xalqların böyük kütlələrinin emosional şəkildə müasir müharibəyə qoşulması ilə daha da dərinləşdi. XVI-XVII əsrlərin dini müharibələri XVII əsrin sonu və XVIII əsrlərdə sülalə müharibələri ilə müşayiət olunduğu və sonuncu XIX və XX əsrin əvvəlində dövlətlərarası müharibə ilə əvəz olunduğu kimi, bizim dövrümüzdə də müharibə ideoloji xarakter kəsb etməklə dini formanı qaytarmağa meyil edir. Müharibə aparan müasir dövlətin vətəndaşı XVIII və XIX əsrlərdəki əcdadlarının əksinə olaraq, öz rəhbərinin şöhrəti, yaxud dövlətinin birliyi və böyüklüyü uğrunda döyüşmür, bir "qayə", "prinsiplər" qrupu, "həyat tərzi" uğrunda "səlib yürüşünə çıxır" və onlar üçün həqiqət və ləyaqət inhisarı tələb edir. Nəticədə o, son nəfəsinə, yaxud digər dövlətin, yalançı və bədnamın, "qayə" və "həyat tərzi"nin tərəfdarı olan hər kəsin "qeyd-şərtsiz kapitulyasiyası"na qədər mübarizə aparır. Onun mübarizə apardığı hansı şəxsdə özünü büruzə verməsindən asılı olmayaraq, bu "qayə" və "həyat tərzi" olduğundan döyüşən və şikəst olmuş əsgər, hərbçilər və mülki əhali arasındakı fərqlər – əgər onlar ümumiyyətlə aradan qaldırılmayıbsa – həqiqi əhəmiyyət kəsb edən bir fərqə tabe edilir: doğru və yanlış fəlsəfənin və həyat tərzinin nümayəndələri

arasındakı fərq. Yaralıya, xəstəyə və təslim olmuş və silahsız düşmənə rəvac vermək və ona yalnız hasarın digər tərəfində olduğuna görə düşmən olan bəşəri bir varlıq kimi hörmət bəsləmək mənəvi borcu pisliyin icraçıları və peşəkarlarını cəzalandırmaq və yer üzündən silmək mənəvi borcu ilə əvəz olunur.

Əxlaqi məhdudiyyətləri məhv edən bu meyillər müasir müharibənin şəxssiz xarakteri ilə güclü şəkildə möhkəmlənmişdir. Tarix boyu Birinci Dünya müharibəsinə qədər əsgərlər döyüşdə üz-üzə gəliblər. Bu öldürücü toqquşmalar insan ünsüründən məhrum deyildi: insanlar öldürməyə və öldürülməkdən qaçmağa çalışaraq bir-birinin gözünün içinə baxırdılar. Bu toqquşmalarda insanların nümayiş etdirdiyi və qavradığı bəşəri emosiyalara, məziyyətlərə və nöqsanlara yer var idi. Axil Likaosu ölümcül yaralayandan sonra Homerin təsvirində o, məhkum düşmənin üstünə əyilir və belə deyir: "Öl, dostum".

Müasir müharibə düymə basma müharibədir və heç vaxt düşmənin üzünü canlı, yaxud ölü görməyən və heç vaxt kimi öldürmüş olduğunu bilməyəcək insanlar tərəfindən anonim şəkildə aparılır. Heç qurbanlar da heç vaxt düşmənin üzünü görməyəcəklər. Düşmənlər arasında yeganə əlaqə onların bir-birini öldürməyə çalışdığı maşınlardır. Texnoloji baxımdan insansızlaşdırılmış müharibə əxlaqi cəhətdən də insansızlaşdırılmağa məhkumdur. Bu maşının operatoru üçün təlim atışı təcrübəsi real hücumdan, çətin ki, fərqlənsin və hərbi təsisat üzərinə hücum onun üçün mülki hədəf üzərinə hücumdan fərqli deyil. Vyetnamda bombalama missiyalarını həyata keçirən pilotun qeyd etdiyi kimi: "Bu bir texnik kimi televizorları təmir etməyi öyrənməyə oxşayır". Beləliklə, müasir müharibə texnologiyası bu real fərqlilikləri görmək qabiliyyətini tamamilə məhv etməsə də, kökündən zəiflədir və bunsuz müharibənin əxlaq normalarına cavab verən və cavab verməyən tərəflərini fərqləndirmək mümkün deyil.

Müharibə təsəvvüründəki bu fundamental dəyişikliklərin təsiri altında İkinci Dünya müharibəsi zamanı yalnız müharibədə öldürməyə qoyulan yuxarıda haqqında bəhs etdiyimiz əxlaqi məhdudiyyətlər geniş şəkildə pozulmurdu, həmçinin müharibə tərəfləri əsir götürməkdən boyun qaçırmağı, əsirləri öldürməyi və silahlı qüvvələrin üzvləri ilə mülki əhali arasında fərq qoymadan öldürməyi əxlaqi zəmində əsaslandırmağa və beləliklə də, mənəvi vicdan əzabından tamamilə azad olmasalar da, onu nisbətən yüngülləşdirməyə meyil edirdilər. Belə olduqda dinc dövrdə öldürməyə qoyulan əxlaqi məhdudiyyətlər toxunulmaz qaldığı halda, müharibədə öldürməyə qoyulan əxlaqi məhdudiyyətlərin, əsasən, faydasız olduğu sübut olunmuşdur. Bu müzakirənin məqsədləri üçün ümumi şəkildə daha əhəmiyyətli olan odur ki, müharibənin fundamental şəkildə dəyişən təsəvvürünün təsiri altında onlar zəifləməyə və idarəetmə qaydası kimi ümumiyyətlə yox olmağa meyil nümayiş etdiriblər.

Yarım əsrdən də çox bundan əvvəl, ümumi optimizm dövründə böyük bir alim belə inkişaf ehtimalını aydın şəkildə gördü və onun elementlərini analiz etdi. Kembric Universitetində beynəlxalq hüquq üzrə professor Con Uestleyk 1894-cü ildə yazırdı:

"Müharibənin yüngülləşdirilməsinin onun tərəflərindən asılı olmalı olduğunu söyləmək, demək olar ki, çeynənmiş bir şeydir və həmin tərəflər müvafiq tayfa və dövlətlərdən daha çox böyük bir bütövlüyə – düşmənin də daxil olduğu və odur ki bu geniş mənsubiyyətdən irəli gələn vəzifələrin hətta ona borclu olduğu bütövlüyə mənsub olduqlarını hiss edirlər. Bu duyğu tarixi dövrün başlanğıcından etibarən Avropada heç vaxt əskik olmamışdır, lakin böyük mənsubiyyətin hiss olunduğu bütövlüyün təbiətində və həcmində böyük dəyişikliklər olmuşdur... Bizim dövrümüzdə kosmopolit bir duyğu, stoiklərin birliyinə oxşar, lakin zəmini xristianlıq və gücü, əsasən, bərabər və sivilizasiyası oxşar olan böyük dövlətlərin bir-birinə qarşı hiss etməyə bilmədikləri qarşılıqlı hörmət tərəfindən hazırlandığından daha güclü bir bəşəri birlik mövcuddur. ...Elə dövrlər olub ki, səviyyə düşüb və belə dövrlərdən biri haqqında məlumat vermək bizim mövzumuzun üzərinə düşür. Reformasiyanı müşayiət edən din müharibələri insanın içindəki yırtıcının nə zamansa nəzarətdən çıxdığı ən dəhşətli hadisələr arasında idi, baxmayaraq ki, nisbi maariflənmə dövründə baş verirdi. Səbəb axtarmaq cəhdi səbəb nə qədər dəyərli ola bilsə də, insan ehtirasının məruz qaldığı ən güclü və təhlükəli qıcıqlandırıcı amillərdən biridir; dövlət əlaqəsini zəiflətmədən daha əsaslı bir formada əhatə etmək əvəzinə, onu parçalayan protestantın protestant və katolikin katolik ilə əlaqəsi ehtirasa nəzarətin ən çox lazım olduğu vaxtda onu zəiflətdi. Əgər sosializm mübariz əqidənin daimiliyinə və gücünə nail olardısa, müharibənin bu şəkildə aşınması yenidən təkrarlanmağa meyil edər və bugünkü dövlət ideyasını döyüş meydanında qarşılayardı. Mümkündür ki, o zaman biz müharibədə sülh dövründə anarxizmin bizə nümayiş etdirdiyi kimi bir fəaliyyət azadlığı görək".[1]

UNİVERSAL ƏXLAQ NORMALARI VƏ MİLLƏTÇİ UNİVERSALİZM

Beynəlxalq əxlaq normalarında insan həyatının mühafizəsinə münasibətdə son illər qeydə alınan korlanma yalnız keçmişdə xarici siyasətin gündəlik əməliyyatları üzərinə məhdudiyyətlər qoyan, lakin bu gün artıq bunu etməyən əxlaq sisteminin ümumi və bu müzakirənin məqsədi üçün daha ciddi nəticələr doğura

[1] *Chapters on the Principles of International Law* (Cambridge: Cambridge University Press, 1894), səh. 267 və növbəti səhifələr

biləcək tənəzzülünün xüsusi nümunəsidir. Bu tənəzzülə iki amil səbəb olmuşdur: xarici işlərdə zadəgan məsuliyyətinin demokratik məsuliyyətlə əvəz olunması və fəaliyyətin millətçi meyarlarının universal meyarlarla əvəz olunması.

Zadəgan beynəlmiləlçiliyinin şəxsi əxlaq normaları

XVII-XVIII əsrlərdə və azalan dərəcədə Birinci Dünya müharibəsinə qədər beynəlxalq əxlaq normaları dövlət suverenini, yəni hər hansı ayrıca dövlət rəhbərini və onun varislərini və zadəgan hakimlərin nisbətən kiçik, əlaqədar və həmcins qrupunu maraqlandıran məsələ idi. Hər hansı bir dövlətin rəhbəri və zadəgan hakimləri digər bir dövlətlərin rəhbərləri və zadəgan hakimləri ilə daimi, yaxın əlaqədə olurdular. Onları ailə bağları, ortaq dil (fransız), ortaq mədəni dəyərlər, ortaq həyat tərzi və bir centlmenin digər centlmenlərlə əlaqələrdə edə bildikləri və bilmədiklərinə dair, özünə, yaxud xarici dövlətə mənsub olmasından asılı olmayaraq, ortaq əxlaqi əqidələr birləşdirirdi. Güc uğrunda rəqabət aparan dövlət rəhbərləri özlərini qaydaları bütün digər rəqiblər tərəfindən qəbul olunan oyunun iştirakçıları hesab edirdilər. Onlara məxsus diplomatik və hərbi xidmətin üzvləri özlərini öz rəhbərlərinə ya doğuluşdan gələn qismət (çox vaxt, lakin heç bir halda hər zaman hökmdara şəxsi sədaqət hissi ilə möhkəmlənən) səbəbindən və ya onun onlara məvacib, nüfuz və şöhrət ümidi verdiyinə görə xidmət edən qulluqçu kimi görürdülər.

Maddi qazanc arzusu xüsusi şəkildə bu zadəgan cəmiyyəti üçün sülalə əlaqələri və milli sədaqətdən daha güclü olan ümumi öhdəlik yaradırdı. Belə ki, bir hökumət üçün digər ölkənin xarici işlər naziri və ya diplomatına təqaüd, yəni rüşvət vermək münasib və ümumi hərəkət idi. Yelizavetanın naziri lord Robert Sesil belə bir təqaüdü İspaniyadan almışdı. XVII əsrdə Britaniyanın Venetsiyadakı səfiri ser Henri Voton İspaniyaya belə bir təqaüd üçün müraciət etdiyi halda onu Savoyyadan almışdı. Fransa inqilab hökumətinin 1793-cü ildə dərc etdirdiyi sənədlərdən görünür ki, Fransa 1757-1769-cu illər arasında Avstriya dövlət adamlarına 82 652 479 livr miqdarında maliyyə yardımı edib və bunun 100 000 livrini Avstriya kansleri Kaunits qəbul edib. Hökumətin əcnəbi dövlət adamlarına müqavilələrin bağlanmasındakı əməkdaşlıqlarına görə mükafat vermək də az münasib və ya az ənənəvi hesab olunmurdu. 1716-cı ildə Fransa kardinalı Dyubua Britaniya naziri Stanhoupa Fransa ilə ittifaq müqabilində 600 000 livr təklif etdi. O bildirirdi ki, Stanhoup həmin vaxt təklifi qəbul etməsə də, "narazılıq etmədən onu lütfkarlıqla dinlədi". Prussiyanın Fransaya qarşı müharibədən çəkilməsini təmin edən 1795-ci il Bazel müqaviləsi imzalanandan sonra Prussiya naziri Hardenberq Fransa hökumətindən 30 000 frank dəyərində qiymətli əşya almışdı və hədiyyələrin azlığından gileylənmişdi. 1801-ci ildə Badenmark qrafi

"diplomatik bəxşiş" kimi 500 000 frank xərclədi və bunun 150 000 frankı xarici işlər naziri Taleyrana çatmışdı. Ümumiyyətlə, ona 100 000 frank vermək nəzərdə tutulurdu, lakin məlum olandan sonra ki, o, Prussiyadan 66 000 frank dəyərində tütünqabı və 100 000 frank nağd pul alıb, məbləğ artırıldı.

Prussiyanın Parisdəki səfiri öz hökumətinə aşağıdakı məlumatı çatdırarkən oyunun əsas qaydasını düzgün qiymətləndirirdi: "Təcrübə diplomatik fəaliyyətlə məşğul olan hər kəsə öyrədib ki, sövdələşmə tamamilə başa çatmadan heç vaxt heç nə vermək lazım deyil, lakin dəfələrlə sübut olunub ki, qazanc cazibəsi çox vaxt faydalı təsirə malik olur".

Bu növ sövdələşmələrdə iştirak edən dövlət adamlarının maraqları onların səlahiyyətlərinə daxil olan ölkələrin işlərinə həvəslə əmək sərf edəcəklərini gözləmək olmaz. Aydın məsələdir ki, onların onları qulluğa götürən ölkə qarşısında daşıdıqları öhdəliklərdən başqa, onların üstündə olan sədaqət öhdəlikləri də var. Bundan əlavə, müqavilənin bağlanmasının sonunda maddi qazanc gözləntisi danışıqları tez başa çatdırmaq üçün güclü sövqedici kimi fəaliyyətdə əhəmiyyətsiz ola bilməz. Çıxılmaz vəziyyətlər, qeyri-müəyyən müddətə təxirəsalmalar, uzunsürən müharibələr müqavilələrin bağlanmasında mütləq şəxsi payı olan dövlət adamları tərəfindən, güman ki, qəbul olunmamalı idi. XVII-XVIII əsrlərdə dövlətçiliyin kommersiyalaşması bu iki baxımdan beynəlxalq münaqişələrin kəskinliyini azaltmağa və ayrı-ayrı dövlətlərin güc istəklərini nisbətən dar hüdudlar daxilində saxlamağa borclu idi.

Tarixin bu dövründə Avstriyanın Fransadakı səfiri Versal sarayında özünü qeyri-zadəgan həmyerliləri arasında olduğundan daha çox evindəki kimi hiss edirdi. Onun Fransa zadəganlığının nümayəndələri və diplomatik korpusun digər zadəgan nümayəndələri ilə adi avstriyalılar ilə olduğundan daha sıx sosial və mənəvi əlaqələri var idi. 1757-ci ildə qraf Stenvil Avstriyanın Parisdəki səfiri olan zaman onun sonralar (Şauzel kimi) XIV Lüdoviqin dövründə baş nazir olmuş oğlu Vyana sarayında Fransanın səfiri idi. Eyni zamanda onun digər bir oğlu Xorvat alayının Macarıstandakı rəhbəri idi. Belə vəziyyətdə diplomatik və hərbi personalın iş yerini əhəmiyyətsiz olmayan bir şəkildə bir monarxiya ağasından digərinə dəyişməsi təəccüb doğurmurdu. Bir fransız diplomatı və ya zabitinin öz şəxsi marağı səbəbindən Prussiya kralının xidmətinə daxil olması, Prussiyanın məqsədlərinin reallaşmasına yardım etməsi, yaxud da Prussiya ordusunda Fransaya qarşı döyüşməsi nadir rast gəlinən hallar deyildi. XIV Lüdoviq Mazarininin qardaşı qızının oğlu, Savoyya knyazı Yevgeniyə vəzifə verməkdən imtina etdi və nəticədə knyaz Avstriya xidmətinə daxil oldu və Avstriyanın ən böyük generallarından olub, Fransanın İtaliyada hegemonluq xülyasına son qoydu. XVIII əsr ərzində çoxsaylı almanlar Rusiya hökumətinin bütün sahələrinə daxil oldular; onların çoxu sonralar təmizləmə formasında tərxis olundu və öz ölkələrinə qayıtdı.

1756-cı ildə, Yeddiillik müharibə başladıqdan az sonra Böyük Fridrix Şotlandiya qrafı Marişalı Ispaniyanın niyyətləri haqqında informasiya toplamaq üçün öz səfiri kimi İspaniyaya göndərdi. Prussiyadakı şotland səfirin İspaniyada Uol adlı, İspaniyanın xarici işlər naziri olan bir irland dostu var idi və o ona bilmək istədiklərini söylədi. Şotland bu informasiyanı Britaniya baş nazirinə ötürdü, o isə öz növbəsində bunu Prussiya kralına çatdırdı. 1792-ci ildə, Fransaya qarşı Birinci Koalisiya müharibəsindən bir az əvvəl Fransa hökuməti Fransa qüvvələrinə ali komandanlığı Brusvik hersoquna təklif etdi, lakin o, Prussiya kralının Fransaya qarşı Prussiya ordusuna rəhbərlik etmək təklifini qəbul etdi. 1815-ci ildə Vyana konfransında Rusiya imperatoru I Aleksandrın xarici siyasət işlərində səfir və müşavir kimi iki alman, bir yunan, bir korsikalı, bir isveçli, bir polşalı və bir rus fəaliyyət göstərirdi. Hətta XIX əsrin sonunda Hohenloy-Şillinqsfürst knyazı Xlodviq üçün Almaniya kansleri olmaq imkanı var idi, çünki onun qardaşlarından biri Roma kuriyasının kardinalı, qardaşı oğullarından biri Avstriya naziri, digər biri sonralar Berlində səfir olmuş Avstriya generalı və diplomatı idi. Bunları nəzərə alaraq, Fransanın keçmiş baş naziri Gizo XIX əsrin sonunda aşağıdakıları yaza bilirdi:

"Peşəkar diplomatlar Avropa icması daxilində öz prinsipləri, adətləri, ziyalıları və istəkləri ilə yaşayan və dövlətlər arasındakı müxtəliflikləri və hətta münaqişələr içərisində öz sakit və daimi birliyini qoruyub saxlayan cəmiyyətlərini yaradırlar. Qərəzləri və ani həvəsləri ilə deyil, dövlətlərin fərqli maraqları ilə hərəkətə gətirilən həmin kiçik diplomatik dünya böyük Avropa icmasının ümumi marağını kafi aydınlıqla qəbul edə və onu fərqliliklər üzərində qələbə çalmaq üçün kafi güc ilə təmin edə və nə vaxtsa öz aralarında savaşmadan uzun müddət çox fərqli siyasətlər yürütmüş və demək olar ki, hər zaman eyni atmosfer və bilikləri paylaşmış insanları eyni bir siyasətin uğuru yolunda ürəkdən çalışdıra bilir".[1]

Zadəganlığın bu beynəlxalq həmrəyliyinin davamlılığı üçün 1862-ci ildə Prussiyanın Rusiyadakı səfiri kimi geri çağırılması ərəfəsində Bismarkın səriştəsi böyük əhəmiyyət kəsb edir. O, çara Sankt-Peterburqu tərk etmək zərurətindən təəssüfləndiyini ifadə edəndə çar onun bu qeydini yanlış anlayaraq Bismarkdan onun rus diplomatik xidmətinə daxil olmaq istəyində olub-olmadığını soruşdu. Bismark xatirələrində yazır ki, təklifdən "nəzakətlə" imtina etdi.[2] Bizim müzakirələrimizin məqsədi üçün mühüm və əhəmiyyətli olan Bismarkın təklifdən imtina etməsi deyil, – şübhəsiz ki, əvvəllər çox belə təkliflərdən və o zamandan bəri bir neçə belə təklifdən imtina olunub, – onun bunu "nəzakətlə" etməsi və

[1] *Memoires* (Brussels, 1858-1867), Vol. II, səh. 266-267.
[2] *Bismarck, the Man and Statesman, Being the Reflection and Reminiscences of Otto, Prince von Bismarck* (New York and London: Harper and Brothers, 1899), Vol. I, səh. 341.

hətta bu hadisədən 30 il sonra yazılmış xatirələrində belə mənəvi hiddət işarəsinin nümayiş olunmamasıdır. Yalnız yarım əsrdən bir az artıq müddət bundan əvvəl, yenicə baş nazir təyin edilmiş bir səfirə öz sədaqət öhdəliklərini bir ölkədən digərinə dəyişmək təklifi onun tərəfindən heç bir halda əxlaq meyarlarının pozulmasına dəlalət etməyən bir iş təklifi hesab olunurdu.

Təsəvvür edək ki, zəmanəmizdə oxşar təklif Rusiya baş naziri tərəfindən Amerika səfirinə, yaxud Amerika prezidenti tərəfindən Vaşinqtonda akkreditə olunmuş hər hansı bir diplomata edilmişdir və həmin şəxsin çaşqınlığını və bu hadisəni müşayiət edən ictimai hiddəti gözümüzün qarşısına gətirək, bu zaman son illərdə xarici siyasətin əxlaq normalarını kökündən dəyişmiş dəyişikliyin dərinliyinin ölçüsünü dərk edirik. Bu gün belə bir təklif xəyanətə, yəni beynəlxalq fəaliyyətdə bütün mənəvi öhdəliklərin ən fundamentalı olan normanın – öz ölkənə sədaqətin pozulmasına çağırış hesab olunardı. XIX əsrin sonlarında belə bir təklif edilərkən və hətta ondan bəhs olunarkən bu heç bir mənəvi baxımdan düzgünlüyündə nöqsan olmayan, qəbul, yaxud imtina edilməli bir təklif hesab olunurdu.

Beynəlxalq zadəganlığın həyata keçirdiyi idarəetmənin əxlaqi meyarları zərurətdən fövqəlmilli xarakter daşıyır. Onlar bütün prussiyalılara, avstriyalılara, yaxud fransızlara deyil, doğuluş və təhsil səbəbindən onları anlayan və onlara uyğun hərəkət edən bütün insanlara şamil olunur. Bu kosmopolit cəmiyyət əxlaqi öyüdlərin mənbəyini təbii hüququn konsepsiyası və qaydalarında tapdı. Ona görə də bu cəmiyyətin ayrı-ayrı üzvləri özlərini idarəetmənin həmin əxlaq normaları ilə ayaqlaşmağa şəxsən məsul hiss etdilər; çünki bu əxlaq məcəlləsi rasional bəşəri varlıqlar və ayrı-ayrı fərdlər kimi onlara ünvanlanırdı. XV Lüdoviqə təklif olunanda ki, İngiltərə Bankının banknotlarını saxtalaşdırsın, kral "burada yalnız layiq olduğu hiddət və dəhşət ilə nəzərdən keçirilə bilən" belə bir təklifi rədd etdi. 1792-ci ildə XVI Lüdoviqi xilas etmək üçün Fransanın pul vahidinə dair eyni təklif irəli sürüləndə Avstriya imperatoru II Fransis bəyan etdi ki, "belə bir rüsvayçı plan qəbul oluna bilməz".

Son dərəcə şəxsi olan mənəvi öhdəliyin xarici siyasət üçün məsul olanlar tərəfindən digər ölkələrdəki həmkarlarına münasibətdə qarşılanmalı olan bu şəkildə qavranılması XVII-XVIII əsrlərdə yazıçıların hökmdara öz "şərəfi" və "nüfuzu"nu ən dəyərli varlıqları kimi mühafizə etməyi vurğulanmış şəkildə tövsiyə etməsini izah edir. XV Lüdoviqin beynəlxalq arenada atdığı istənilən addımda onun mənəvi öhdəlik haqqında şəxsi qavrayışı özünü göstərir və buna görə də onun şərəfini də özündə əks etdirir. Onun digər hökmdarlar tərəfindən öz-özlüyündə qəbul olunmuş mənəvi öhdəliklərini pozması yalnız onun vicdanını deyil, həmçinin fövqəlmilli zadəgan cəmiyyətinin qeyri-iradi reaksiyalarını hərəkətə gətirər və bu onu öz adətlərini pozmağa məcbur edərək, nüfuzunun, yəni gücünün itirilməsinə səbəb olar.

Beynəlxalq əxlaq normalarının dağılması

XIX əsr ərzində hökumət rəsmilərinin demokratik seçimi və məsuliyyəti zadəgan hökumətinin yerini tutduqda beynəlxalq cəmiyyətin strukturu və bununla da beynəlxalq əxlaq normaları fundamental dəyişikliyə uğradı. Faktiki olaraq XIX əsrin sonunadək əksər dövrdə xarici siyasətin həyata keçirilməsinə zadəgan rəhbərlər məsul idi. Yeni dövrdə onların yerini sinif fərqindən asılı olmayaraq seçilən və ya təyin olunan rəsmilər tutdu. Bu rəsmilər öz vəzifələri üçün rəsmi və hüquqi olaraq hökmdar (yəni ayrıca bir şəxs) qarşısında deyil, kollektiv (yəni parlament əksəriyyəti, yaxud ümumilikdə xalq) qarşısında cavabdehlik daşıyırdılar. İctimai fikirdə ciddi dəyişiklik asanlıqla xarici siyasətin həyata keçirilməsi ilə məşğul olan heyətdə dəyişikliyə səbəb olur. Onlar əhalinin verilmiş anda üstünlük verdiyi istənilən qrupdan təşkil olunmuş digər bir heyət ilə əvəz olunur.

Hökumət rəsmiləri artıq müstəsna şəkildə zadəgan qruplarından deyil, faktiki olaraq daxilində "təsisat"ın üzvlərinin imtiyazlı mövqeyə malik olduğu bütün əhali arasından toplanır. Əlbəttə ki, bu, ABŞ-da bir ənənə olmuşdur, lakin Böyük Britaniya və Sovet İttifaqı kimi ölkələrdə rast gəlinmir. Nəqliyyat və İxtisassız İşçilər Birliyinin keçmiş baş katibi cənab Bevin 1945-ci ildə Britaniyanın xarici işlər üzrə dövlət katibi oldu. Keçmiş peşəkar inqilabçı cənab Molotov uzun illər Rusiyanın xarici siyasətinə məsul oldu.

Hökumətin hakimiyyətdə qalmaq üçün parlamentdə əksəriyyətin dəstəyinə ehtiyacının olduğu Böyük Britaniya, Fransa və İtaliya kimi ölkələrdə parlament əksəriyyətində istənilən dəyişiklik hökumətin təşkilində dəyişiklik zərurəti doğurur. Hətta Konqresin deyil, yalnız ümumi seçkilərin hökuməti hakimiyyətə gətirdiyi və hakimiyyətdən saldığı ABŞ kimi bir ölkədə Dövlət Departamentində siyasəti müəyyən edən şəxslərin dəyişdirilməsi önəmli ola bilər. 1945-ci ilin iyulundan 1947-ci ilin yanvarına qədər 18 ay ərzində ABŞ-da üç dövlət katibi dəyişdirildi. 1945-ci ilin oktyabrında hakimiyyətə gələn Dövlət Departamentinin siyasəti müəyyən edən rəsmilərinin, yəni dövlət katibinin müavinləri və köməkçilərinin heç biri iki il sonra artıq hakimiyyətdə deyildi. Karter administrasiyasında başlayan tendensiya Reyqan administrasiyasında bütün Dövlət Departamentində yuxarıdan başlayaraq katib köməkçisinin müavini səviyyəsinə qədər vəzifələrdə siyasi təyinatlarla nəticələndi. Beynəlxalq məsələlərdə siyasəti müəyyən edən şəxslərin və onların məsuliyyətinin nizamsız kollektiv varlığa çevrilməsi beynəlxalq əxlaq nizamının səmərəliliyi və hətta mövcudluğu üçün böyük əhəmiyyət kəsb edən nəticələr doğurur.

Ayrı-ayrı dövlətlərin daxilində bu dəyişiklik beynəlxalq əxlaq normalarını əxlaqi məhdudiyyətlər sistemi kimi reallıqdan adi nitq fiquruna çevirdi. Biz İngiltərə kralı III Corcun Fransa kralı XVI Lüdoviq və Rusiya imperatriçəsi II Yekaterina ilə

münasibətlərdə müəyyən əxlaqi məhdudiyyətlərini gözlədiyini söyləyəndə nə isə real, bəzi xüsusi şəxslərin vicdanı və hərəkətləri ilə müəyyən edilə bilən bir şeyi nəzərdə tuturuq. Britaniya Dövlətlər Birliyinin və hətta Britaniyanın təklikdə ABŞ, yaxud Fransaya münasibətdə əxlaqi öhdəliklər daşıdığını söyləyəndə isə biz uydurmadan istifadə edirik. Bu uydurma səbəbindən beynəlxalq hüquq dövlətlərlə onlar sanki ayrı-ayrı şəxslərmiş kimi rəftar edir, lakin əxlaqi öhdəliklər sahəsində heç nə bu hüquqi konsepsiyaya uyğun gəlmir. Britaniya Birliyinin və Böyük Britaniyanın konstitusion rəhbəri kimi monarxın vicdanı Böyük Britaniya və Britaniya Birliyinin xarici siyasətinin idarəçiliyindən nə tələb edirsə etsin, bu, siyasətin real şəkildə həyata keçirilməsində əhəmiyyətsizdir, çünki monarx onun üçün məsuliyyət daşımır və onlar üzərində heç bir real təsirə malik deyil. Bəs Böyük Britaniya və dominionların baş nazirləri və xarici işlər üzrə katibləri necə? Onlar birbaşa kollektiv orqan olaraq istənilən digər sahədə olduğu kimi xarici siyasəti əksəriyyətdə müəyyən edən kabinetin üzvləridir. Kabinet bir bütöv şəklində siyasi seçimlərini siyasi fəaliyyətə çevirdiyi, əksəriyyətə sahib partiya qarşısında siyasi məsuliyyət daşıyır. Qanuna uyğun olaraq, o, konstitusion şəkildə danışsaq, yalnız bir komitəsi olduğu parlament qarşısında məsuliyyət daşıyır. Parlament isə idarə etmək üçün ona mandat verən seçicilər qarşısında məsuliyyət daşıyır və onun ayrı-ayrı üzvləri növbəti ümumi seçkilərdə yenidən həmin mandatı almağa ümid bəsləyirlər.

Nəhayət, ayrı-ayrı seçicilər seçki günü və həmin dönəmdə onların hərəkətini müəyyən edən fövqəlmilli xarakterli əxlaq normalarına dair, ümumiyyətlə, heç bir təsəvvürə malik olmaya bilərlər, yaxud onlar belə təsəvvürlərə malik olduqda da bu təsəvvürlər mahiyyət etibarilə, əsasən, müxtəlifcinsli olur. Başqa sözlə, "səhv də olsa, düz də olsa, hər şeyin önündə mənim ölkəm gəlir" əxlaq prinsipinə uyğun hərəkət edənlər olacaq. Beynəlxalq fəaliyyətə münasibətdə öz hərəkətlərinə, eləcə də hökumətin fəaliyyətinə xristian əxlaqının meyarlarını tətbiq edənlər olacaq. BMT-nin, yaxud dünya hökumətinin və ya humanitar əxlaq normalarının meyarlarını tətbiq edənlər olacaq. Siyasəti müəyyən edən qrupun, yaxud Xarici İşlər Nazirliyinin davamlı bürokratiyasının qərarsız nümayəndələri oxşar fikir ayrılıqlarını əks etdirə və ya etdirməyə bilərlər. İstənilən halda idarəetmənin əxlaq qaydasına istinad etmək onu doğuran şəxsi vicdan tələb edir və elə bir şəxsi vicdan yoxdur ki, bizim Böyük Britaniyanın, yaxud hər hansı digər dövlətin beynəlxalq əxlaq normaları adlandırdığımız məfhumu doğursun.

Ayrıca bir dövlət adamı həyata keçirdiyi xarici siyasətdə öz vicdanının hökmlərinə əməl edə bilər. Əgər o belə edirsə, bu əxlaqi təsəvvürlərin onun mənsub olduğu və hətta faktiki olaraq adından danışdığı xalqa aid olmaması bir şəxs olaraq onunla bağlıdır. Belə ki, lord Morli və Con Bernz Böyük Britaniyanın Birinci Dünya müharibəsində iştirakının onların əxlaqi təsəvvürlərinə uyğun

gəlmədiyini sezdikləri anda Britaniya kabinetindən istefa verdilər. Bu onların şəxsi addımı idi və bu onların şəxsi təsəvvürləri idi. Həmin vaxt Almaniya kansleri Almaniya hökumətinin başçısı kimi Belçikanın bitərəfliyinin yalnız zərurət ilə izah olunan pozulmasının qeyri-qanuniliyi və əxlaq normalarından uzaq olduğunu etiraf etdikdə yalnız öz adından danışırdı. Onun vicdanının səsi Almaniya adlanan kollektivin vicdanı ilə eyniləşdirilə bilməzdi və eyniləşdirilmirdi. İkinci Dünya müharibəsi zamanı Almaniya yönümlü Vişi hökumətinin xarici işlər naziri və baş naziri Lavala fəaliyyətində istiqamət verən əxlaq prinsipləri Fransaya deyil, onun özünə məxsus idi və heç kim bunun əksini iddia etmirdi.

Əxlaq qaydaları ayrıca bir insanın vicdanı daxilində fəaliyyət göstərir. Ona görə də səmərəli beynəlxalq əxlaq normaları sisteminin mövcudluğunun ilkin şərti öz hərəkətləri üçün şəxsən məsuliyyət daşıya bilən, mövqeyi aydın müəyyən edilə bilən insanlardan təşkil olunmuş hökumətdir. Hökumətdə məsuliyyət beynəlxalq fəaliyyətdə əxlaqi baxımdan tələb olunanlar haqqında fərqli təsəvvürlərə malik olan, yaxud, ümumiyyətlə, bu haqda heç bir təsəvvürü olmayan insanlar arasında bölüşdürülürsə, beynəlxalq siyasətin məhdudiyyətlərinin səmərəli sistemi kimi beynəlxalq əxlaq normaları yaratmaq qeyri-mümkün olur. Bu səbəbdəndir ki, dekan Rosko Pound hələ 1923-cü ildə deyirdi: "XVIII əsrin ortalarında dövlətlər arasında əxlaqi... nizamın bu gün olduğundan uğura daha yaxın olduğu ağlabatan hesab oluna bilər".[1]

Beynəlxalq cəmiyyətin dağılması

Hökumət rəsmilərinin demokratik seçimi və məsuliyyəti səmərəli məhdudiyyətlər sistemi kimi beynəlxalq əxlaq normalarını dağıtdığı kimi, millətçilik də əxlaq normalarının daxilində fəaliyyət göstərdiyi beynəlxalq cəmiyyətin özünü dağıtdı. 1789-cu il Fransa inqilabı kosmopolit zadəgan cəmiyyətinin və onun əxlaq normalarının xarici siyasətə məhdudlaşdırıcı təsirinin tədrici tənəzzülünün şahidi olan yeni tarixi epoxanın başlanğıcını qoydu. Professor C.P.Quç yazırdı:

"Vətənpərvərlik insan birliyi instinkti qədər qədim olduğu halda, millətçilik aydın anlaşılan əqidə kimi Fransa inqilabının vulkanik alovlarından yarandı. Döyüşün gedişi Valmidə dəyişdi; toqquşmanın axşamı Hötedən... fikirlərini soruşanda o, tarixi sözləri ilə cavab verdi: "Bu gündən yeni era başlayır və siz deyə biləcəksiniz ki, onun doğuluşunu görmüsünüz".[2]

[1] "Philosophical Theory and Internatinal Law," *Bibliotheca Visseriana*, Vol. I (Leyden, 1923), səh. 74.
[2] *Studies in Diplomacy and Statecraft* (London, New York, Toronto: Longmans, Green, 1942), səh. 300, 301.

Bu, yavaş gedən aşınma prosesi idi və köhnə nizam "Müqəddəs ittifaq"ın və yuxarıda 1862-ci ildə Rusiya çarının Bismarkı Rusiya diplomatik xidmətinə daxil olmaq dəvətinə dair bəhs etdiyimiz kimi hadisələrin timsalında qəhrəmancasına müqavimət göstərirdi".[1] Lakin xristian dünyasının hökmdarlarını və zadəganlığını bir araya gətirən beynəlxalq cəmiyyət və onun əxlaq normalarının XIX əsrin sonlarına doğru tənəzzülü aydın məsələdir. Bu tənəzzül heç yerdə II Uilyamın onu tutub saxlamaq üçün etdiyi şifahi cəhdlərin nümayişkaranə ikiüzlülüyü qədər ağrılı şəkildə aydın deyildi. O, 1895-ci ildə fransız xalqı haqqında Rusiya çarına yazırdı:

"Respublikaçılar təbiətcə inqilabçıdırlar. Əlahəzrətlərin qanı hələ də bu ölkənin üstündədir. O zamandan o nə vaxtsa xoşbəxtlik və sükunət içində olubmu? O bir qırğından digər qırğına sürüklənməyibmi? Niki, səni əmin edirəm, bu xalq Allahın ömürlük lənətinə düçar olub. Biz xristian kralları və imperatorlarının üzərinə Tanrı xanəgahı tərəfindən müqəddəs bir vəzifə qoyulub ki, bu da Allahın lütfü prinsipini mühafizə etməkdir".

II Vilhelmin Avropa dövlətlərini İspaniya monarxiyasını Amerika respublikasına qarşı müdafiə etməyə dair İspaniya-Amerika müharibəsi ərəfəsində ölümə məhkum planının tarixi səhvi onun müşavirlərini qorxuya saldı.

Lakin hətta 1914-cü ildə Birinci Dünya müharibəsi ərəfəsində dövlət adamları və diplomatların bir çox bəyanat və məlumatlarında ortaq çox şeyi olan, lakin indi parçalanmaya və cəbhənin müxtəlif tərəflərində barışmaz qruplarda birləşməyə vadar edilən insanların təəssüfünün gizli qəmgin işarəsi var. Hətta Almaniyanın Böyük Baş Qərargahı yuxarıda istinad edilmiş memorandumda yaxınlaşan Birinci Dünya müharibəsindən "Avropanın sivil dövlətlərinin qarşılıqlı qırğını" kimi bəhs edilir və narahat və pis duyğu ruhunda davam edir: "Qeyd olunmalıdır ki, əgər sonuncu məqamda on illər boyu, demək olar ki, bütün Avropa sivilizasiyasını məhv edəcək müharibənin qarşısını almaq üçün bir möcüzə baş verməzsə, ardınca bu cür şeylər baş verməlidir və baş verəcək".[2] Bu artıq insanların hərəkətinə təsir göstərmək iqtidarında olmayan kiçik bir xatirə idi. O vaxta qədər bu insanlar bir-biriləri ilə təbii olaraq gücün zirvələrinə yüksəldikləri və digər dövlətlər ilə əlaqələrində iradəsi və maraqlarını təmsil etdikləri müvafiq xalqlarla olduğundan daha az ortaqlığa malik idilər. Fransa xarici işlər nazirini Berlindəki həmkarından fərqləndirən amil onları birləşdirən amildən daha əhəmiyyətli idi. Əksinə, Fransa xarici işlər nazirini Fransa xalqı ilə birləşdirən amil onları ayıra bilən istənilən amildən daha əhəmiyyətli idi. Müxtəlif hakim qrupların mənsub olduğu və müxtəlif milli cəmiyyətlər üçün ümumi bir fəaliyyət çərçivəsi

[1] Bax: səh. 322.
[2] Bax: səh. 370.

təşkil edən beynəlxalq cəmiyyətin yerini milli cəmiyyətlər özləri tutdu. Milli cəmiyyətlərin beynəlxalq arenadakı nümayəndələrinə əvvəllər beynəlxalq cəmiyyətlərin təmin etdiyi fəaliyyət meyarlarını indi milli cəmiyyətlərin özləri verirdi.

XIX əsr ərzində beynəlxalq zadəgan cəmiyyətinin milli seqmentlərə parçalanması başa çatmaq üzrə olduqda millətçiliyin tərəfdarları əmin idilər ki, hadisələrin bu cür gedişi beynəlxalq əxlaq normalarını zəiflətməkdən daha çox gücləndirir. Çünki onlar inanırlar ki, azad xalqların milli istəkləri təmin olunarkən və zadəgan idarəetməsi ictimai hökumət ilə əvəz olunarkən heç nə dünya dövlətlərini parçalaya bilməz. Onlar eyni kütlənin üzvləri olduqlarını dərk edərək və eyni azadlıq, dözüm və sülh ideallarından ilhamlanaraq milli müqəddəratlarını ahəngdar şəkildə təqib edirlər. Əslində, millətçilik ruhunun milli dövlətdə maddiləşərkən ümumi və humanitar deyil, xüsusi və müstəsna olduğu təsdiq olunub. XVII-XVIII əsrlərin beynəlxalq cəmiyyətləri dağılarkən məlum oldu ki, real cəmiyyətin ayrı-ayrı milli cəmiyyətlərin boynuna qoyduğu həmin birləşdirici və məhdudlaşdırıcı ünsürün yerini tutacaq heç nə yoxdur. İşçi sinfin sosializm bayrağı altında beynəlxalq həmrəyliyinin illüziya olduğu sübut olundu. Mütəşəkkil din milli dövləti üstələməkdən daha çox onunla birləşməyə meyil edirdi. Beləliklə, dövlət fərdin sədaqəti üçün son istinad nöqtəsinə çevrildi və müxtəlif xalqların nümayəndələrinin hamısı özlərinə xas sədaqət obyektinə malik idi.

Klemansonun lord Keyns tərəfindən çəkilən portretində yeni millətçi əxlaq normalarının parlaq şəklini görürük:

"Onun Fransa ilə bağlı hiss etdikləri Periklin Afina ilə bağlı hiss etdikləri ilə eyni idi – heç bir digər əhəmiyyət kəsb etmədən onun unikal əhəmiyyəti... Onun bir xəyalı var idi – Fransa və bir ümidsizliyi var idi – fransızlar və xüsusilə öz həmkarları da daxil olmaqla bəşəriyyət... Dövlətlər birini sevdiyimiz və qalanlarına qarşı biganəlik və ya nifrət duyduğumuz real varlıqlardır. Sevdiyimiz dövlətin şöhrəti arzuolunan bir məqsəddir – lakin, adətən, qonşumuzun hesabına nail olunur. Düşüncə ağılsız amerikanların və riyakar ingilislərin "sövdələşmələri"nin dildə müəyyən qədər dəstəklənməsini lazım bilirdi, lakin dünyada belə fəaliyyətlər üçün Millətlər Cəmiyyəti kimi çoxsaylı məkanların olduğuna, əslində, belələri var, yaxud qüvvələr tarazlığını öz maraqlarına uyğun yenidən qurmaq üçün ağıllı formuldan başqa, öz müqəddəratını təyinetmə prinsipinə dair hər hansı düşüncənin olduğuna inanmaq ağılsızlıq olardı".[1]

Əvvəllər vahid bir bütövlük təşkil edən beynəlxalq cəmiyyətin mənəvi cəhətdən müstəqil olan və əxlaq prinsiplərinin vahid çərçivəsi daxilində fəaliyyəti dayandırmış çoxsaylı hissələrə parçalanması yalnız son illər universal əxlaq prinsipləri

[1] *The Economic Consequences of the Peace* (New York: Harcourt, Brace, 1920), səh. 32, 33.1.

ilə milli əxlaq normalarının xüsusi sistemi arasında əlaqələri kökündən dəyişmiş əsaslı dəyişikliyin zahiri əlamətidir. Dəyişiklik iki fərqli yolla baş verir. Bu, millətçilik əsrindən əvvəl ayrı-ayrı dövlətlərin xarici siyasəti üzərinə nə qədər etibarsız və geniş boşluqlu olsa da, məhdudiyyətlər sistemi qoymuş universal və fövqəlmilli əxlaq qaydalarını səmərəsizlik dərəcəsinə qədər zəiflətmişdir. Bunun əksinə olaraq, o, ayrı-ayrı dövlətlərin öz məxsusi milli əxlaq normaları sistemlərini universal qanunauyğunluqla təmin etmək tendensiyasını son dərəcə gücləndirmişdir.

Millətçiliyin beynəlmiləlçilik üzərində qələbəsi

Əxlaq normaları sisteminin fəaliyyət qabiliyyətliliyi onun insanların vicdanları və hərəkətlərinə nəzarəti digər bir əxlaq normaları sistemi tərəfindən etirazla qarşılananda həlledici sınaqdan keçir. Belə ki, "dağda moizə"nin irəli sürdüyü mütilik və canından keçmə əxlaq normalarının və müasir Qərb cəmiyyətinin özünütərəqqi və güc əxlaq normalarının nisbi gücü hər bir əxlaq normaları sisteminin insanların hərəkətlərini və ya ən azından vicdanlarını hansı dərəcədə öz prinsiplərinə uyğun formaya salmaq bacarığı ilə təyin olunur.

Hər bir bəşəri varlıq əxlaqi çağırışlara tamamilə cavab verənə qədər zaman-zaman vicdanın belə ziddiyyəti ilə qarşılaşır və bu, ziddiyyətli mənəvi hökmlərin nisbi gücünü sınaqdan keçirir. Bənzər sınaq xarici siyasətin yürüdülməsinə münasibətdə fövqəlmilli əxlaq normalarının və millətçi əxlaq normalarının müvafiq gücünü müəyyən etməlidir. Xristian, kosmopolit və humanitar ünsürlərdən təşkil olunmuş fövqəlmilli əxlaq normalarına dövrün diplomatik dili öz haqqını verir və bir çox ayrı-ayrı yazıçılar bunu mühakimə üçün əsas götürürlər. Lakin millətçi əxlaq normaları keçən bir əsr yarımlıq dövrdə bütün dünyada hakim olub.

Bu, həqiqətdir ki, hətta millətçi əxlaq normalarının hakim olduğu dövrdən əvvəl milli əxlaq normaları, məsələn, XVII-XVIII əsrlərin milli maraq fəlsəfəsində işlənib-hazırlandığı kimi əksər münaqişəli vəziyyətlərdə idarəetmənin universal əxlaq qaydalarından üstün olduğunu sübut etmişdir. Bu qəbildən olan ən sadə və həmçinin ən mühüm münaqişə vəziyyətinin – universal əxlaqi prinsip olan "Öldürmə!" prinsipi ilə ayrıca bir əxlaq norması olan "Öz ölkənin düşmənlərini müəyyən şərtlər altında öldür!" əmri arasındakı münaqişənin mülahizəsindən bu aydın olur. İdarəetməyə dair bu iki əxlaq qaydasının ünvanlandığı şəxs özünü milli mənsubiyyətindən və digər bir məxsusi xarakterindən asılı olmayaraq, insan həyatına hörmətdə büruzə verən bütövlükdə insanlığa sədaqət ilə digər bir xalqın nümayəndələrinin həyatı bahasına maraqlarını təbliğ etməyə təyin olunduğu ayrıca bir dövlətə sədaqət arasında ziddiyyətlə qarşılaşır. Paskalın sözləri ilə desək:

"Sən məni niyə öldürürsən? Nə! Sən suyun o tərəfində yaşamırsan? Dostum, əgər sən bu tərəfdə yaşasaydın, mən sui-qəsdçi olardım və səni bu şəkildə öldürmək ədalətsizlik olardı. Lakin sən digər tərəfdə yaşadığından mən qəhrəmanam və bu, ədalətlidir... Enliyin 3 dərəcəsi bütün hüquqşünaslığı alt-üst edir; bir meridian həqiqəti müəyyənləşdirir... Qəribə bir ədalət çay ilə sərhədlənir! Pireneyin bu tərəfində həqiqət olan digər tərəfində yanlışdır.[1]

Əksər şəxslər fövqəlmilli və milli əxlaq normaları arasındakı bu münaqişəni bu gün dövlətə sədaqətin xeyrinə həll edirlər və bütün müasir tarix boyu belə ediblər. Bu baxımdan müasir dövrü keçmiş dövrlərdən üç amil fərqləndirir.

Birincisi, milli dövlət öz vətəndaşlarının üstünə mənəvi məcburiyyət qoymaq üçün son dərəcə genişləndirilmiş imkana sahibdir. Bu imkan qismən bizim dövrümüzdə dövlətlərin faydalandığı, demək olar ki, müqəddəs xarakter daşıyan nüfuzun, qismən də iqtisadi və texnoloji inkişafın dövlətin ixtiyarına verdiyi, ictimai fikri qəlib formasına salan alətlər üzərində nəzarətin nəticəsidir.

İkincisi, dövlətə sədaqətin fərddən idarəetməyə dair universal əxlaq normalarına etinasız yanaşmaq icazəsi verdiyi müəyyən bir dərəcə var. Müasir müharibə texnologiyası əvvəlki dövrlərdə məlum olmayan, ayrı-ayrı insanlar tərəfindən həyata keçirilə bilən kütləvi qırğın imkanları yaratmışdır. Bu gün dövlət bir tək insandan bir növə başlıqlı raketdən atəş açmaqla Yüz minlərlə insanın həyatını məhv etməyi xahiş edə bilər. Belə böyük nəticələri olan tələbə razılıq vermək fövqəlmilli əxlaq normalarının zəifliyini növə əsrindən əvvəlki dövrlərdə idarəetməyə dair tətbiq olunan universal əxlaq meyarlarının məhdud pozulmalarından daha təsirli şəkildə nümayiş etdirir.

Nəhayət, bu gün iki digər amilin nəticəsi olaraq, ayrı-ayrı insanların dövlətin əxlaq normalarına dair tələbləri ilə ziddiyyətdə olduğu halda, fövqəlmilli əxlaq normalarına sadiq olması üçün daha az imkan var. Dövlətin adından dəhşətli cinayət hadisəsi törətmək tələbi və xalqın mənəvi təzyiqinin olduqca ağır yükü ilə üz-üzə qalan insana bu tələblərə müqavimət göstərmək üçün fövqəladə güc lazım olar. Dövlət adından həyata keçirilən universal əxlaq normalarının pozulması və onların xeyrinə qoyulan mənəvi məcburiyyətlərin həcmi əxlaq normalarının iki sisteminin keyfiyyət nisbətinə təsir göstərir. O, universal əxlaq normalarının xalqın əxlaq normaları ilə ziddiyyətdə ümidsiz zəifliyini aydın şəkildə göstərir və bu qarşıdurmanı o hələ başlamazdan əvvəl xalqın xeyrinə həll edir.

[1] *Pensées*, translated by W.F.Trotter, Modern Library (New York: Random House, 1941), Section V. (Naşirin icazəsiylə təkrar dərc edilmişdir)

Millətçiliyin transformasiyası

Bu, universal əxlaq normalarının fövqəlmilli və milli əxlaq normaları sistemləri arasında əhəmiyyətli və ciddi nəticələri olan dəyişikliklərə səbəb olan mühüm amilə çevrildiyi mərhələdir. Bu onların hər ikisinin müəyyənləşdirilməsinə gətirib çıxaran amillərdən biridir.[1] İnsan belə bir qənaətə gəlir ki, beynəlxalq əxlaq normaları meyarlarına etinasızlıq bir neçə mənəviyyatsız insanın əməli deyil, dövlətlərin içində mövcud olduqları və öz məqsədlərini həyata keçirdikləri şəraitin qarşısıalınmaz törəməsidir. O öz vicdanında universal meyarların zəifliyini və milli əxlaq normalarının beynəlxalq arenada insanların fəaliyyətlərini motivə edən qüvvələr kimi üstünlüyünü hiss edir və onun vicdanı pərtlikdən qurtulmur.

Bir tərəfdən daim əzab çəkən vicdanın davamlı narahatlığına dözmək onun üçün ağır olur; digər tərəfdən o, universal əxlaq normaları konsepsiyasına o qədər güclü bağlanır ki, onlardan ümumiyyətlə imtina etmək çətin olur. Bu ziddiyyəti aradan qaldırmaq üçün onun 2 imkanı var. O öz dövlətinin əxlaqi tələblərini universal əxlaq normaları naminə qurban verə bilər. Əslində, bir azlığın daha ali universal əxlaq normaları naminə öz dövlətinin müəyyən xarici siyasətini dəstəkləməkdən imtina etməklə bu qurbanı verməsinə gətirib çıxaran çağdaş münaqişənin kəskinliyidir. Əksəriyyət isə həmin münaqişəni dəf etmək üçün ayrıca bir dövlətin əxlaq normalarını fövqəlmilli əxlaq normalarının hökmləri ilə eyniləşdirir. Sanki o, müəyyən milli əxlaq normalarının məğzini universal əxlaq normalarının hazırda boş olan şüşə qabına doldurur. Beləliklə, hər bir xalq universal əxlaq normaları, yəni bütün digər xalqların özününkü kimi qəbul etməli olduğu norma kimi götürülmüş öz milli əxlaq normaları ilə tanış olmuş olur. Bütün xalqların əməl etdiyi əxlaq normalarının universallığı universal şəkildə qəbul edilmək haqqına iddia edən və can atan milli əxlaq normalarının xüsusiliyi ilə əvəz olunur. Bu zaman potensial olaraq siyasi baxımdan dinamik xalqlar qədər universallığa iddia edən əxlaq prinsipləri olur.

Dövlətlər artıq onların güc uğrunda mübarizəsinin məqsəd və vasitələrinə effektiv məhdudiyyətlər qoyan ümumi inamlar və ortaq dəyərlər çərçivəsində Vestfaliya sülhündən Napoleon müharibələrinə və sonuncular başa çatandan sonra Birinci Dünya müharibəsinə qədər olan dövrdəki kimi bir-birinə qarşı çıxmır. İndi onlar bir-birinə qarşı əxlaq normaları sistemlərinin hər biri milli mənşəli olan və hər biri əxlaq meyarlarının bütün digər dövlətlərin qəbul etməli və daxilində xarici siyasətlərini həyata keçirməli olduqları fövqəlmilli çərçivəsini

[1] Digər amillər üçün bax: paraqraf 20.

yaratmağa cəhd edən və can atan bayraqdarı kimi mübarizə aparırlar. Bir dövlətin əxlaq normaları sistemi öz universallığa iddiasını məsih coşqunluğu ilə digərinin üzünə vurur. Qədim diplomatiyanın məziyyəti hesab olan kompromis yeni diplomatiyada satqınlıq hesab olunur; çünki əxlaq normalarının meyarlarının ortaq çərçivəsi daxilində mümkün və qanuni olan ziddiyyətli iddiaların qarşılıqlı uyğunlaşması əxlaq normaları meyarlarının özləri münaqişənin hədəfi olduqda təslimə bərabər olur. Beləliklə, hədəfləri artıq hamı tərəfindən qəbul olunmuş siyasi və əxlaq normaları sistemi daxilində nisbi mövqelər deyil, digər rəqiblərinin boynuna qalib dövlətin siyasi və mənəvi təsəvvürlərinin timsalında yenidən yaradılan yeni universal siyasi və əxlaq normaları sistemi qoymaq bacarığı olan dövlətlər arasında mübarizə üçün səhnə qurulur.

Həqiqətən universal olan bir sistemdən universallığa iddia edən və bunun uğrunda mübarizə aparan ayrı-ayrı əxlaq normaları sistemləri çoxluğuna keçmənin ilk əlaməti Napoleon və ona qarşı birləşmiş dövlətlər arasında mübarizədə aşkar oluna bilər. Hər iki tərəfdə mübarizə universal işləkliyə iddia edən xüsusi prinsiplər naminə aparılırdı: bir tərəfdə Fransa inqilabının prinsipləri, digər tərəfdə qanunilik prinsipi. Lakin Napoleonun məğlub edilməsi və "Müqəddəs ittifaq"ın öz prinsiplərini yüksələn millətçilik hərəkatı ilə rəqabətdə qoruyub saxlamaqda uğursuzluğa uğraması ilə ayrı-ayrı əxlaq normaları sistemini universal əxlaq normaları sisteminə çevirmək cəhdinə son qoyuldu və bu, sadə bir tarixi fasilə olaraq qaldı.

İdarəetməyə dair universal əxlaq qaydalarının ümumiyyətlə və göründüyü kimi, həmişəlik universallığa iddia edən xüsusi əxlaq qaydaları ilə əvəz olunduğu müasir tarixi dövr Vudro Vilsonun "dünyanı demokratiya üçün təhlükəsiz yerə çevirmək" üçün mübarizəsi ilə diqqəti cəlb edir. Vilsonun fəlsəfəsini bölüşənlərin həmin mübarizəni demokratiya uğrunda "Səlib yürüşü" hesab etməsi təsadüfi deyil və dərin əhəmiyyət kəsb edir. Məsələyə Vilsonun nəzərindən baxdıqda Birinci Dünya müharibəsinin Orta əsrlərin Səlib yürüşləri ilə, həqiqətən, ortaq tərəfi var idi və bu həmin mübarizənin bir qrup tərəfindən saxlanılan əxlaq norması sisteminin bütün dünyada üstünlüyünü təmin etmək məqsədilə aparılması idi. Robert S.Binklinin fikirlərinə nəzər salaq:

"Dünya müharibəsi yalnız filosof olan dövlət adamlarını yüksək mövqeyə gətirmədi; o həmçinin peşəkar filosofları elmi pedestallarından aşağı düşürdü. Hər ölkədə bu kimi insanlar öz yüksək istedadlarından müharibənin "məsələləri"nə olduqca böyük əhəmiyyət yükləmək üçün istifadə edirdilər. Onlar sübut edirdilər ki, düşmənin qanunsuz hərəkətləri milli fəlsəfə və mədəniyyətin tərkibi kimi hər zaman mövcud olmuşdur və onların qrupunun qələbəsi dünyanın əxlaqi quruluşunda zəruridir. Ədavətlər başlayandan dərhal sonra Berqson üzə çıxardı ki, müharibə "həyat" və "materiya" arasında münaqişədir və Antanta

dövlətləri həyatın tərəfindədir və "mərkəz dövlətləri" materiyanı müdafiə edir. Şeler bəyan etdi ki, ingilis fəlsəfəsi və xarakteri riyakarlığın oxşar təzahürləridir; Santayana "Alman fəlsəfəsində lovğalıq" haqqında yazdı; öz baxışlarına görə Hegel qarşısında böyük borcu olan nəcib Cosayya Roys isə belə bir nəticəyə gəldi ki, "Almaniya insan irqinin inadcıl və qərəzli düşmənidir; bu ədavəti bölüşən istənilən insanın almanyönlü olmaq imkanı var". Filosoflar adi siyasi münaqişədən "böyük nifaq" yaradırdılar. Bu halda sanki fəlsəfə sənətinin yolundan çıxmasının daimi qeydini aparmaq üçün qalib dövlətlər ordularının hər bir əsgəri üçün üzərində "Sivilizasiya uğrunda "böyük müharibə" yazısı olan bürünc medal buraxdı".[1]

Demokratik Səlib yürüşü başlayandan bir neçə ay sonra 1917-ci ilin oktyabrında Rusiyada digər bir siyasi və mənəvi strukturun bünövrəsi qoyuldu və o da öz növbəsində bəşəriyyətin yalnız bir fraksiyası tərəfindən qəbul olunduğu halda, bütün bəşəriyyətin altında ədalət və sülh içərisində birgə yaşayacağı ümumi bir çətir yaratmaq iddiasında idi. Odur ki 20-ci illərdə bu son iddia kiçik bir qüvvə tərəfindən dəstəkləndiyi və nəzəri postulatdan bir qədər böyük olduğu halda, demokratik universalizm fəal siyasət səhnəsindən uzaqlaşdı və onun yerini izolyasionizm tutdu. Yeni Marks universalizminin tərəfdarlarının demokratik dünyadan imtina etməsi və sonuncunun iki universalizm arasındakı o zaman özünü beynəlxalq siyasət düzənində hiss etdirən ziddiyyətə qarşı etirazı mənəvi, siyasi və iqtisadi ostrakizmlə qarşılaması yalnız nəzəri çağırış idi.

30-cu illərdə ayrıca bir dövlətin ərazisində ərsəyə gələn milli sosializm fəlsəfəsi zərərli bolşevizm əqidəsini və demokratiyanın çürük əxlaq normalarını əvəz edəcək və bəşəriyyət üzərində ciddi nəzarət quracaq yeni əxlaq normaları sistemi kimi elan olundu. Hazırkı müzakirəmiz işığında nəzər saldıqda İkinci Dünya müharibəsi bu universallıq iddiasının inandırıcılığını silahlı münaqişə formasında sınaqdan keçirdi və milli sosializm sınaqdan çıxmadı. Lakin BMT tərəfində olanların çoxunun düşüncəsində "Atlantika xartiyası"nın və Yalta razılaşmasının prinsipləri İkinci Dünya müharibəsini həm də universal demokratiyanın yarışına çevirdi və demokratiya da sınaqdan çıxmadı. İkinci Dünya müharibəsinin başa çatmasından etibarən universal işləkliyə iddia edən qalan iki mənəvi və siyasi sistem: demokratiya və kommunizm dünyada hegemonluq uğrunda fəal rəqabətə girdi və bu, bu gün bizim içində yaşadığımız vəziyyətdir.

Bu vəziyyət və dini müharibələrin sona çatmasından ABŞ-ın Birinci Dünya müharibəsinə qoşulmasınadək olan dövrdə müasir dövlət sisteminin vəziyyəti

[1] *Selected Papers of Robert C.Binkley*, edited by Max H.Fish (Cambridge: Harvard University Press, 1948), səh. 328.

arasında mövcud olan fərqin dərinliyinin üstündən keçmək və hətta onu kiçiltmək illüziyaların ən təhlükəlisi olardı. Bu fərqin önəmini dərk etmək üçün yalnız sonuncu qeyd etdiyimiz dövrdə Napoleon müharibələri istisna olmaqla baş vermiş hər hansı bir münaqişəni götürmək və onu sonuncu üç onillikdə dünyanı parçalamış münaqişələrlə müqayisə etmək lazımdır.

Gəlin dövrümüzün beynəlxalq məsələləri ilə XVI əsrin əvvəlindən XVIII əsrin ortalarına qədər Fransa və Habsburqları, demək olar ki, aramsız münaqişələrə çəkmiş, yaxud XVIII əsrdə Böyük Britaniya və Prussiyanı Fransaya qarşı qızışdırmış məsələləri müqayisə edək. Bunlar ərazi böyüməsi və sülalə rəqabəti məsələləri idi. O zaman hədəf olan şöhrət, var-dövlət və gücün artımı və ya azalması idi. Nə Avstriya, nə Britaniya, nə Fransa, nə də Prussiya "həyat tərzi", yəni onların etiqadları və əxlaqi təsəvvürləri hədəf deyildi. Bu gün hədəfdə olan da elə budur. XVII-XVIII əsrlərdə beynəlxalq arenadakı rəqiblərin heç biri öz məxsusi əxlaq normalarını, əgər belə bir normaya sahib idisə, digərlərinin boynuna qoymağa can atmırdı. Belə bir istəyin mümkünlüyünün özü heç vaxt mövcud olmurdu, çünki onlara yalnız bir universal əxlaq sistemi məlum idi və onlar hamısı ona şübhəsiz sədaqətlə bağlı idilər.

Gibbonun "dövlətin ümumi davranışları"nda üzə çıxardığı, Fenelon, Russo və Vattel üçün yaşanmış və yaşanılan həqiqət olan və siyasi nəticələri Arnold Toynbi tərəfindən qeyd olunan[1] həmin ümumi "sənətlər, qanunlar və davranışlar sistemi", "nəzakət və tərəqqinin eyni səviyyəsi" və "şərəf və ədalət" hissi bu gün əsas etibarilə elmi əsərlərdə, utopik traktatlarda və diplomatik sənədlərdə qorunub saxlanmış, lakin artıq insanları fəaliyyətə sövq etmək iqtidarında olmayan tarixi xatirəyə çevrilib. Gördüyümüz kimi, beynəlxalq siyasətə məhdudlaşdırıcı təsirini yalnız, məsələn, dinc dövrdə və qabaqlayıcı müharibədə öldürmək kimi təsadüfi nümunələrdə göstərən bu fövqəlmilli əxlaq normaları sistemindən ayrı-ayrı parçalar və hissələr qalmışdır. Həmin fövqəlmilli əxlaq normaları sisteminin beynəlxalq arenadakı aktorların vicdanına təsirinə gəlincə, bu daha çox artıq batmış günəşin görünən üfüqdə çətinliklə seçilən zəif şüalarına oxşayır. Birinci Dünya müharibəsindən etibarən beynəlxalq arenadakı hər bir rəqib öz "həyat tərzi"ndə digərlərinin yalnız özlərini təhlükəyə ataraq etiraz edə biləcəkləri əxlaq normaları və siyasətin bütün həqiqətinə yiyələnməyə iddia edir. Çox nadir istisna ilə bütün rəqiblər öz mənəviyyat konsepsiyalarını bütün insanlığın qəbul etməli və son nəticədə qəbul edərək sağ qalacağı normalar

[1] Bax: səh. 299-300.

ilə eyniləşdirirlər. Burada beynəlxalq siyasətin əxlaq normaları traybalizm, Səlib yürüşləri və dini müharibələr siyasəti və əxlaq normalarına qayıdır.[1]

Millətçi universalizmin bugünkü əxlaq normalarının mahiyyəti və məqsədləri ibtidai tayfaların, yaxud Otuzillik müharibəninkilərdən nə qədər fərqlənsə də, onlar beynəlxalq siyasət üçün yerinə yetirdikləri vəzifəyə və yaratdıqları mənəvi mühitə görə fərqlənmirlər. Xüsusi bir qrupun beynəlxalq arenada güc uğrunda mübarizəni məhdudlaşdırmaqdan uzaq olan əxlaq normaları mübarizəyə digər dövrlərdə məlum olmayan bir amansızlıq və gərginlik bəxş edir. Çünki xüsusi bir qrupun əxlaq normaları sisteminə dəstək verən universallıq iddiası digər bir qrupun oxşar iddiası ilə bir yerə sığmır; dünyada yalnız biri üçün yer var, digəri isə ya təslim olmalı, ya da məhv olmalıdır. Beləliklə, dövrümüzün bütlərini qarşılarında daşıyan millətçi kütlələr beynəlxalq arenada görüşür və onların hər biri əmindir ki, tarixin tapşırığını icra edir, kənardan görünən və özü üçün etdiklərini bəşəriyyət naminə həyata keçirir və ilahi qüvvə tərəfindən onların üzərinə qoyulmuş müqəddəs adlandırıla biləcək missiyanı yerinə yetirir. Onlar allahların tərk etmiş olduqları boş səma altında görüşdükləri haqqında isə az şey bilirlər.

İnsan hüquqları və beynəlxalq əxlaq normaları

Biz gördük ki, xarici siyasətin həyata keçirilməsi əxlaqi əhəmiyyətdən məhrum edilmiş bir fəaliyyət sahəsi deyil; o, hər zaman birbaşa fəaliyyət göstərən və sadəcə, müşahidə edən aktorun mühakiməsinə məruz qalır. Xarici siyasətdə əxlaq ünsürünün hər yerdə mövcudluğundan bir ölkənin öz əxlaq prinsiplərini bütün

[1] Əxlaq normalarının universal prinsiplərinin açıq şəkildə bəyan edilməsi prinsiplərin aşkar pozulması ilə nə qədər yanaşı gedə bildiyi XIV əsrdə Cənubi Asiyanı və Kiçik Asiyanı işğal və məhv etmiş, dünyanın fatehi ola biləcək monqol Teymurun nümunəsində aydın şəkildə görmək olar. Yüz minlərlə insanı Allah və Məhəmməd yolunda öldürdükdən sonra – 1398-ci il dekabrın 12-də o, Dehlinin qarşısında 100 min hindi əsiri kütləvi şəkildə qətlə yetirmişdi – o, istila edilmiş Hələbin nümayəndəsinə deyir: "Mən qan tökən insan deyiləm və Allah şahidimdir ki, mən apardığım bütün müharibələrdə heç vaxt təcavüzkar olmamışam və düşmənlərimin başına gələn müsibətlərin müəllifi hər zaman onların özləri olub".
Bu nümunəni çəkən Gibbon əlavə edir: "Bu sakit danışıq zamanı Hələb küçələrində qan su yerinə axırdı və anaların və uşaqların nalələrinə, zorlanmış qadınların qulaqbatıran fəryadına bürünmüşdü. Əsgərlərin öhdəsinə buraxılmış zəngin qənimət onların hərisliyini oyada bilərdi; lakin onlar adətlərinə müvafiq olaraq, həvəslə kolonna və piramidaların üstünə hücum çəkən lazımi sayda insan hazırlayan sərt komandanlıq tərəfindən qəddarlığa vadar olunurdular". *The Decline and Fall of the Roman Empire* (Modern Library Edition), Vol.II, səh. 1243.

bəşəriyyətə və ya bəşəriyyətin müəyyən seqmentlərinə tətbiq etmək missiyasına sahib olduğuna dair nəticə çıxarmaq tamamilə fərqli bir şeydir. Çünki özümüzə və öz hərəkətlərimizə tətbiq etdiyimiz mühakimə ilə fəaliyyət meyarlarımızı universal şəkildə digərlərinə tətbiq etmək arasında böyük bir boşluq var. Götürək insan həyatına hörmət kimi bir fəaliyyətin əsas və təməl prinsipini və insan həyatını ən fövqəladə və bəraətverici şərtlər altında müdafiə etməkdən imtina etməyi. Aydındır ki, Qərb sivilizasiyasında elə sivilizasiyalar və hətta qruplar var ki, insan həyatının müqəddəsliyinə dair daha az ciddi təsəvvürə malikdir və insan həyatının qurban edilməsinə bizim eyni şərtlər altında edəcəyimizdən daha az diqqət yetirir.

Odur ki əxlaq prinsipləri ilə xarici siyasət arasında zərurətdən irəli gələn müəyyən bir nisbilik mövcuddur; beynəlxalq siyasətdə əxlaq normaları prinsiplərinə qarşı ədalətli olmaq istəyiriksə, buna etinasız yanaşa bilmərik. Burada nisbilik ikiqatlıdır. Bu, zamana görə nisbilikdir; müəyyən prinsiplər tarixin bir dövründə tətbiq oluna bilsə də, digər bir dövründə tətbiq oluna bilmir. Bu həmçinin mədəniyyət – çağdaş mədəniyyət – baxımından nisbilikdir və burada müəyyən prinsiplərə bəzi xalqlar, siyasi sivilizasiyalar tərəfindən riayət olunduğu halda, digərləri tərəfindən riayət olunmur.

Son illərdə xarici siyasət ilə beynəlxalq əxlaq normaları arasındakı əlaqə tez-tez insan hüquqları rubrikası altında müzakirə olunub. Bu məsələnin mərkəzində duran problem liberal demokratik prinsipləri bir sıra səbəblərdən onlar üçün keçilməz olan dövlətlərə tətbiq etməyin həm mənəvi baxımdan ədalətlilik, həm də elmi baxımdan ağlabatanlıq dərəcəsidir. Aydın məsələdir ki, insan hüquqları adlandırılan məfhumu digərlərinin boynuna qoymaq və onları insan hüquqlarına riayət etmədiklərinə görə cəzalandırmaq cəhdi hesab edir ki, insan hüquqları universal qanunauyğunluğa sahibdir –başqa sözlə, bütün dövlətlər və müxtəlif dövlətlərdə yaşayan xalqlar insan hüquqlarının mövcudluğu haqqında məlumatlı olsaydı, onlara hörmətlə yanaşardılar və onlar bütün insanlar üçün istənilən hadisənin onların Müstəqillik bəyannaməsinin amerikalılar üçün olduğunu bəyan etdiyi kimi ayrılmaz tərkibidir.

Burada insan hüquqları haqqında nəzəri və dərin fəlsəfi xarakterli müzakirələr açmaq vacib deyil. Nəzəri və fəlsəfi xüsusiyyəti haqqında təsəvvürlərdən asılı olmayaraq, insan hüquqlarının insanlar tərəfindən qavranıldığı formada müxtəlif vaxtlarda və müxtəlif şəraitlərdə fərqli nəticələrə gətirib çıxaran tarixi və sosial vəziyyətlərdə mütləq şəkildə süzgəcdən keçdiyini söyləmək kifayət edir. Yalnız Amerika dövlətinin unikal xarakterinə və insan hüquqlarının ABŞ sərhədləri daxilində çox məxsusi və başqa heç yerdə rast gəlinməyən xüsusiyyətlərinə nəzər yetirmək lazımdır. Bütün bunlara əlavə olaraq, bir çox və hətta əksər dövlətlərdə

insan hüquqlarına, demək olar ki, heç bir hörmət göstərilmir: nəzərə alaq ki, Afrikanın yalnız bir neçə ölkəsində, məsələn, plüralist siyasi sistem var. Qalan digərləri bur və digər qəbildən olan diktatorluqlardır. Belə düşüncə bizə insan hüquqlarına bəslədiyin hörməti dünyanın qalan dövlətlərinin boynuna qoymağa, yaxud xüsusilə digər dövlətləri həmin hüquqlara hörmət nümayiş etdirmədiklərinə görə cəzalandırmağa çalışmağın nə qədər cəsarətli – yaxud nə qədər qaba, əgər istəsən, o da cəsarətli ola bilər – addım olduğunu anlamağa kömək edir. Burada bizim gördüyümüz yüksək dəyərləndirdiyimiz mücərrəd bir prinsipdir və biz onu bütün bəşəriyyətə imitasiya üçün deyil, məcburi şəkildə qəbul etdirmək üçün təqdim edərək əhəmiyyətli dərəcədə praktikada tətbiq etməliyik.

Bunun uzun müddət Amerika ənənəsi olduğunu hesab etmək tamamilə yanlışdır. Bu, ümumiyyətlə, Amerika ənənəsi olmayıb. Con Kvinsi Adams əsaslandırırdı ki, ABŞ-ın işi öz hökumət prinsiplərini bütün bəşəriyyətin boynuna qoymaq deyil, daha çox ABŞ-ın nümunəsində bütün bəşəriyyəti bu prinsiplərə cəlb etməkdir. Əslində, bu, ABŞ-ın adətən riayət etdiyi prinsip olmuşdur. Tomas Peynə istinad etsək, Amerika inqilabı "yalnız Amerika üçün deyil, bəşəriyyət naminə" həyata keçirilmişdi; bununla belə, Amerikanın siyasəti belə olmuşdur ki, ABŞ-ın təcrübədə tətbiq etdiyi universal prinsiplər dünyaya atəş və qılınc ilə deyil, uğurlu nümunələrlə ixrac edilməlidir. Bu bir tərəfdən Amerikanın erkən təsəvvürü və onun dünya ilə əlaqələri arasındakı böyük fərq, digər tərəfdən Vilson konsepsiyası adlandırıla bilən təsəvvür idi.

Vudro Vilson dünyanı demokratiya üçün təhlükəsiz yerə çevirmək istəyirdi; o, dünyanı ABŞ-ın iradəsi ilə kökündən dəyişmək istəyirdi. ABŞ-ın ataları insanın dünya dövlətlərini eyni yolla gedib, eyni cür hərəkət etməyə çağırmaqla həmin dövlətlərə nələr edə biləcəklərinin nümunəsini təqdim etmək istəyirdilər. Beləliklə, universal prinsip kimi insan hüquqlarının lehinə müasir müzakirələr ilə bu sahədə daha uzun tarixə malik Amerika ənənəsi arasında həm fəlsəfi, həm də siyasi fundamental fərq var.

Vilson konsepsiyasına iki digər etiraz da bildirilə bilər. Onlardan biri insan hüquqlarının məcburi universal tətbiqinin qeyri-mümkünlüyüdür. Biz Sovet İttifaqına deyə bilərik ki və zaman-zaman deməliyik ki, onun azlıqlarla davranışı bizim insan hüquqlarına dair təsəvvürlərimizə uyğun deyil. Lakin bunu deyəndə görəcəyik ki, bizim məsələləri dəyişmək üçün edə biləcəyimiz çox az şey var. Tarix göstərib ki, Sovet İttifaqı müəyyən şərtlər altında şəxsi təzyiqə güzəştə gedə bilər. Şəxsi təzyiqin, məsələn, Sovet İttifaqının yüksək rəsmilərini rüsvay etməyin bariz nəticələrə nail olduğu nümunələr mövcuddur. Lakin ümumi zəmində belə təzyiqin açıq şəkildə göstərildikdə səmərəli ola biləcəyi ağlasığmazdır. Daha dəqiq desək, Sovet İttifaqı hökumətinin təbiəti baxımından – o, xarici təzyiqin

hər bir işarəsini daxildəki repressiyanı əsaslandırmaq üçün istifadə edir – Amerika təlaşının səmərəli ola bilmək şansı yoxdur. Beləliklə, bizim xüsusilə digər dövlətlərə münasibətdə insan hüquqlarına dair nəzəriyyə və təcrübəmizdə böyük bir çaşqınlıq var.

Vilsonun yanaşmasında ikinci bir zəiflik də var. ABŞ dünyada çoxşaxəli maraqları olan böyük bir dövlətdir – insan hüquqları bunlardan yalnız biridir, lakin və ən önəmlisi deyil. Belə ki, ABŞ məharətlə idealist mövqeyə nail olmadan ardıcıl şəkildə insan hüquqlarının müdafiəsi xəttini izləyə bilməz. Bu bizim Cənubi Koreya, Çin və Sovet İttifaqına fərqli münasibətlərimizdən aydındır. ABŞ münasibətlər, barışdırma dövrü olmasına baxmayaraq, xüsusən dostyana olmadığı üçün Sovet İttifaqını tənqid etməyə və alçaltmağa cəsarət edir.

ABŞ qitədə yerləşən Çin ilə münasibətləri normallaşdırmağı davam etdirməkdə maraqlıdır və bu səbəbdən də çinlilərin hisslərinə toxunmamağa çalışır; Karter və Reyqan hökumətində Çində insan hüquqlarına dair qeydiyyatın aparılması haqqında danışılırdı. Cənubi Koreya ABŞ-ın müttəfiqidir; o, Amerikanın siyasətini müəyyən edənlər üçün böyük hərbi əhəmiyyətə nail olub, odur ki Amerika siyasəti bu dövlət ilə münasibətlərinə zərər vuracaq heç nə etməyəcək.

Başqa sözlə, insan hüquqlarının müdafiəsi müvafiq şəkildə xarici siyasətə tətbiq oluna bilməz, çünki o, müəyyən xüsusi hallarda daha əhəmiyyətli ola bilən digər maraqlarla toqquşa bilər və toqquşma qaçılmazdır. İnsan hüquqlarının müdafiəsinin Amerika xarici siyasətinin tərkibinə daxil edilməli olduğunu söyləmək istənilən belə cəhdin əhəmiyyət kəsb edən uyğunsuzluqlarının, sadəcə, üstünü örtməkdir.

Beləliklə, bütövlükdə insan hüquqlarının müdafiəsi üçün xarici siyasətin qarşısında iki əsas maneə var. Bir tərəfdən belə müdafiədə uzlaşma qeyri-mümkündür, çünki insan hüquqlarının müdafiəsi digər dövlətlərlə lazımi formada qarşılıqlı fəaliyyət göstərən dövlətin əsas fəaliyyət xətti deyil. Digər tərəfdən başqa dövlətlərlə münasibətlərin insan hüquqları ilə əlaqəli aspektlərdən daha əhəmiyyətli ola bilən digər aspektlərini nəzərə almadan insan hüquqlarını təqib etmək mümkün deyil.

İnsan hüquqlarının xarici siyasətdə rolunun digər aspekti başqalarının insan hüquqlarının pozulması üçün daşıdığı cavabdehliklə bağlı təsəvvürə aiddir. 1970-ci illərin sonu, 1980-ci illərin əvvəlində "qırmızı kxmerlər" tərəfindən həyata keçirilmiş Kamboca soyqırımı bu məsələni xüsusilə kəskin formada qaldırdı. Kamboca cəmiyyətinin darmadağın edilməsiylə sona çatan hadisələr silsiləsi Amerikanın Vyetnam müharibəsini Kamboca ərazisinin kütləvi bombardmanı vasitəsilə Kambocaya genişləndirməsiylə başladı. Kamboca rəhbəri kral Sihanokun siyasəti Kambocanı ABŞ və Şimali Vyetnam arasındakı silahlı münaqişədən kənar saxlamaqdan ibarət idi. ABŞ-ın siyasəti isə Vyetnam müharibəsində qələbəni

təmin etmək üçün Kamboçanı fəal hərbi əməliyyatlara cəlb etmək idi. Amerikanın Kamboçaya münasibətdə siyasəti ilə bu ölkəyə üz vermiş fəlakət arasında təsadüfi əlaqə mövcuddur. Başqa sözlə, əgər ABŞ Kamboçanı Vyetnam müharibəsinin fəal iştirakçısına çevirmiş olmasaydı, Kamboça, bütün ehtimallara görə, fəlakətdən qorunmuş olardı. Bu o demək deyil ki, ABŞ Kamboçada baş verənlər üçün birbaşa mənəvi məsuliyyət daşıyırdı; bu daha çox dövlət adamının fəaliyyətlərinin qabaqcadan görünməyən və görünə bilməyən nəticələri üçün daşıdığı sürəkli məsuliyyəti nümayiş etdirir. ABŞ-ın bu təsadüfi əlaqə səbəbindən Kamboçada baş verənlərin qarşısını almaq və Kamboça əhalisinin əzablarını yüngülləşdirmək üçün mənəvi öhdəliyə malik olduğunu hesab etmək tamamilə başqa məsələdir. Göründüyü kimi, mənəvi və hüquqi öhdəliklər daha çox Roma hüququnun heç kəsin imkanları xaricində öhdəlik daşımaması ilə bağlı prinsipində ifadə olunmuş qeyd-şərtin subyektidir *(ultra vires nemo obligatur)*. Beləliklə, ABŞ hətta Kamboçada baş verənlər üçün mənəvi cavabdehlik daşımış olsaydı belə, həmin mənəvi öhdəliyin yerinə yetirilməsi üçün hər hansı xüsusi siyasətin həyata keçirilməsi üçün cavabdehlik daşıya bilməzdi. Hətta ABŞ bu sahədə hərəkət etməyi qərarlaşdırmış olsaydı belə, bunu qeyri-mütənasib risklər və itkilərə yol vermədən edə bilməzdi.

"Şahin" fraksiyası hesab edirdi ki, əgər ABŞ "sonuna qədər getmək" qərarını qoruyub saxlamış olsaydı və Cənub-Şərqi Asiyada müharibədə qalib gəlsəydi, Kamboça heç vaxt belə bir iztirab və darmadağından əzab çəkməzdi. Lakin Vyetnam müharibəsində məğlubiyyətin bütün nəticələrinin əvvəlcədən müəyyən edilməsinin qeyri-mümkünlüyündən başqa, nəyin hesabına olursa olsun, qələbə çalmaqla məğlubiyyətin bütün mümkün nəticələrinin qabağını almaq xarici və hərbi siyasətin əsas prinsiplərini pozmuş olardı: müəyyən bir fəaliyyətdə alınan risklər və məruz qalınan itkilər fəaliyyətin uğurlu şanslarına mütənasib olmalıdır.

Xarici siyasət və əxlaq normalarının bu mülahizəsində səciyyəvi və fövqəladə bir vəziyyət deyil, ümumi insan vəziyyətinin xüsusi təzahürlərini görürük. Biz hamımız müəyyən dərəcədə mənəvi varlıqlarıq, sadəcə, ona görə ki biz insanıq. Biz hamımız bizə uyğun mənəvi prinsipləri az və ya çox dərəcədə gerçəkləşdirməyə çalışırıq. Hər dəfə isə ziddiyyətlər və çətinliklərlə qarşılaşırıq. Bəlkə də, bizim edə biləcəyimiz ən yaxşı şey Avraam Linkolnun siyasi əxlaqın əsasları kimi təklif etdikləridir.

O bizim özümüz üçün iddia etdiyimiz mənəvi əxlaq qaydalarını şişirtməyimizə qarşı xəbərdarlıq edirdi və insanın əxlaq normalarına uyğun fəaliyyət göstərməyi və eyni zamanda uğur qazanmaq imkanlarına malik olmağı bacarmasının hüdudlarının konturunu cızırdı. Linkolnun bu fikirləri Vətəndaş müharibəsi dövrünə təsadüf edirdi və ondan bütün qulları dərhal azad etməyi xahiş edən presvitarian keşişlərin nümayəndələrinin müraciətinə cavab idi:

"Böyük mübarizələrdə hər bir tərəf Allahin iradəsinə uyğun hərəkət etdiyini iddia edir. Bunların hər ikisi də yanlış *ola bilər* və biri *mütləq* yanlışdır. Allah eyni vaxtda bir şeyin həm *lehinə*, həm də *əleyhinə* ola bilməz...

Mənə ən ziddiyyətli fikir və məsləhətlərlə yanaşıblar və bunu İlahinin iradəsini təmsil etdiyinə eyni dərəcədə əmin olan din adamları ediblər. Mən əminəm ki, bu və digər qruplardan biri və bəzi məqamlarda hər ikisi öz əqidəsində səhvə yol verir. Ümid edirəm ki, bu sözləri söyləmək mənim üçün hörmətsizlik olmayacaq: əgər Allahın öz iradəsini başqalarında zühur etdirməsi mümkündürsə, mənim vəzifəm ilə əlaqədar iradəsini birbaşa olaraq məndə zühur etdirəcəyi də güman oluna bilər; çünki əgər mən öz-özümü tez-tez etdiyimdən çox aldatmıramsa, ilahi qüvvənin bu məsələdə iradəsini öyrənmək mənim ən səmimi arzumdur. *Kaş mən görəcəyim işin nə olduğunu bilsəydim!* Lakin bu günlər möcüzələr zamanı deyil və güman edirəm, bu, şübhəsizdir ki, mən birbaşa vəhy gözləməməliyəm. Mən vəziyyətin aşkar maddi dəlillərini araşdırmalı, nəyin mümkün olduğunu müəyyən etməli və nəyin ağıllı və düzgün olduğunu öyrənməliyəm".[1]

[1] *The Collected Works of Abraham Loncoln*, edited by Roy P.Basler (New Brunswick: Rutgers University Press), Vol. V, səh. 403 və növbəti səhifələr, 419 və növbəti səhifələr

17. Dünya ictimai fikri

Əvvəlki paraqrafda müzakirədə nəzərdə tutulmamış dünya ictimai fikri haqqında danışmağa ehtiyac azdır. Lakin bizim beynəlxalq əxlaq normaları haqqında müzakirəni başladığımız narahatlıq burada xüsusi vurğu ilə təkrarlanmalıdır. Biz dünya ictimai fikrinin gerçəkliyini nəzərdə tuturuq. Biz onun nədən ibarət olduğunu, özünü necə büruzə verdiyini, beynəlxalq siyasət üçün yerinə yetirdiyi vəzifələri və xüsusilə onun beynəlxalq arenada gedən güc uğrunda mübarizəyə məhdudiyyətlər qoymaq üsullarını öyrənmək istəyirik. Lakin son dörd onillikdə beynəlxalq fəaliyyətə dair ədəbiyyatlarda, çətin ki, dövlət adamları və yazıçılar tərəfindən dünya ictimai fikri anlayışından daha böyük çılğınlıq və daha az analitik dəqiqliklə müzakirə edilən bir anlayış olsun.

Dünya ictimai fikrinin Millətlər Cəmiyyətinin bünövrəsini təşkil etdiyi hesab olunurdu. Bu, Brian-Kelloq paktı, Daimi Beynəlxalq Ədalət Məhkəməsi və ümumilikdə beynəlxalq hüquq üçün məcburiyyət amili olmalı idi. Lord Robert Sesil 1919-cu il iyulun 10-da Nümayəndələr Palatasında çıxışı zamanı bəyan etdi ki, "bizim bel bağladığımız böyük silah ictimai fikirdir... və əgər biz onunla bağlı yanlışlığa yol veririksə, deməli, fəaliyyətimiz bütünlükdə yanlışdır".[1] 1939-cu il aprelin 17-də, İkinci Dünya müharibəsi başlamazdan beş ay əvvəl Amerikanın o zamankı dövlət katibi Kordel Hal belə bir fikir irəli sürdü ki, "sülhün bütün qüvvələrinin ən qüdrətlisi olan ictimai fikir dünyada daha qüdrətli şəkildə inkişaf edir".[2] Bu gün belə fikirlər eşidirik ki, dünya ictimai fikri BMT-nin öz aləti kimi istifadə edir və ya əksinə. Xüsusilə bəyan edilir ki, BMT Baş Assambleyası "dünyanın açıq vicdanıdır".[3] *"The New York Times"* qəzeti daha uzağa gedərək danılmaz bir amil kimi bəyan edir ki, BMT Baş Assambleyası "Nizamnamə altında böyük ehtiyatlara sahibdir ... ən azından dünya ictimai fikrini hərəkətə gətirəcək dərəcədə və o, son analizlərdə beynəlxalq qüvvələr tarazlığını müəyyən edir".[4]

[1] *The Parliamentary Debates:* Official Report. Fifth Series.Vol. 118. House of Commons, səh. 992.
[2] *The New York Times,* April 18, 1939, səh. 2.
[3] Leland M.Goodrich and Edward Hambro, *Charter of the United Nations* (Boston: World Peace Foundation, 1949), səh. 151.
[4] November 15, 1947, səh. 16.

Bu və buna oxşar saysız müddəa və müraciətin mümkün mənası müəyyən edilməzdən əvvəl iki çox əhəmiyyətli suala cavab verilməlidir: dünya ictimai fikri haqqında danışarkən nəyi nəzərdə tuturuq və bu dünya ictimai fikri keçən XX əsrin mənəvi və sosial şərtləri altında özünü necə büruzə verir?

Aydındır ki, dünya ictimai fikri milli sərhədləri aşan və müxtəlif dövlətlərin vətəndaşlarını ən azından müəyyən fundamental beynəlxalq məsələlərə münasibətdə fikir birliyinə gətirən ictimai fikirdir. Bu fikir birliyi dünyada beynəlxalq siyasətin şahmat taxtasında istənilən gedişə qarşı həmin fikir ayrılığı tərəfindən göstərilən spontan reaksiyalarda özünü hiss etdirir. İstənilən bir dövlətin hökuməti beynəlxalq arenada bəşəriyyətin fikrinə zidd olan müəyyən bir siyasət bəyan edəndə, yaxud müəyyən bir addım atanda milli mənsubluqdan asılı olmayaraq, insanlıq səsini ucaldacaq və ən azından spontan sanksiyalarla öz iradəsini itaətsiz hökumətə qəbul etdirəcək. Belə olduqda itaətsiz hökumət özünü öz milli cəmiyyətinin, yaxud onun altqruplarının adətlərini pozmuş bir şəxs və ya şəxslər qrupu ilə, demək olar ki, eyni vəziyyətdə hiss edəcək. Cəmiyyət onları ya öz meyarları ilə uyğunlaşmağa vadar edəcək, ya da itaətsizliklərinə görə yox edəcək.

Əgər dünya ictimai fikrinə dair ümumi rəylərin mənası belədirsə, belə bir dünya ictimai fikri hal-hazırda mövcuddurmu və o, milli hökumətlərin xarici siyasətinə məhdudlaşdırıcı təsir göstərirmi? Cavabın mənfi olması qaçılmazdır. Müasir tarix hansısa hökumətin fövqəlmilli ictimai fikrin spontan reaksiyası ilə hansısa xarici siyasətindən geri çəkildiyi bir halı qeydə almamışdır. Yaxın tarixdə dünya ictimai fikrini müəyyən bir hökumətin xarici siyasətinə qarşı hərəkətə keçirmək cəhdləri olub – 30-cu illərdə Yaponiyanın Çinə qarşı təcavüzkarlıqları, 1935-ci ildən etibarən Almaniyanın xarici siyasəti, 1936-cı ildə İtaliyanın Efiopiyaya hücumu, 1956-cı ildə SSRİ-nin Macarıstan inqilabını boğması. Lakin hətta arqument naminə bu cəhdlərin müəyyən dərəcədə uğurlu olduğunu və dünya ictimai fikrinin göstərilən nümunələrdə həqiqətən hər hansı rola malik olduğunu güman etsək belə, onun qarşı çıxdığı siyasətlər üzərində heç bir məhdudlaşdırıcı təsirinin olmadığı şübhəsizdir. Lakin irəlidə də görəcəyimiz kimi, bu gümanın özü də faktlarla müdafiə olunmur.

O zaman bu kimi suallara niyə çox vaxt müsbət cavab verilir? Səbəb beynəlxalq vəziyyətdə dünya ictimai fikrinin mümkün inkişafını nəzərdə tutan iki amilin yanlış şərhində və belə bir inkişafı hal-hazırda qeyri-mümkün edən üçüncü bir amilə etinasız yanaşılmada axtarılmalıdır. Dünya ictimai fikrinin mövcudluğuna yanlış inamın qaynaqlandığı iki amil müəyyən səciyyəvi psixoloji xüsusiyyətlərin ümumi olması və bütün insanlığı birləşdirən təməl istəklər və dünyanın texnoloji birləşməsidir. Etinasız yanaşılan o amildir ki, dünyanın hər yerində beynəlxalq məsələlərə dair ictimai fikir milli siyasət qurumları tərəfindən qəlibləşdirilir. Bu

qurumlar, daha əvvəl də qeyd edildiyi kimi[1], əxlaq normalarına dair öz milli təsəvvürlərinin fövqəlmilli – yəni universal – səviyyədə qəbuluna iddia edir.

DÜNYANIN PSİXOLOJİ BİRLİYİ

Bütün siyasi çəkişmə və toqquşmaların altında bütün bəşəriyyətə ümumi şəkildə məxsus olan səciyyəvi psixoloji xüsusiyyətlər və istəklər durur. Bütün bəşəri varlıqlar yaşamaq istəyirlər, ona görə də həyat üçün zəruri olan şeyləri istəyirlər. Bütün bəşəri varlıqlar azad olmaq istəyirlər, ona görə də məxsusi mədəniyyələtlərinin arzuolunan hesab etdiyi özünüifadə və özünüinkişaf imkanlarına sahib olmaq istəyirlər. Bütün bəşəri varlıqlar gücə can atırlar və ona görə də mədəniyyətlərinə xas olub onları bütün insanlardan qabağa və üstə qoyan nümunə ilə fərqlənən sosial fərqlərə can atırlar.

Bütün insanlar üçün oxşar olan bu psixoloji zəmin üzərində psixoloji baxışların, əxlaqi postulatların və siyasi istəklərin baxışlar sistemi ucalır. Bunlar da həmçinin bütün insanlar arasında müəyyən şərtlər altında bölüşdürülməlidir, əslində isə bölüşdürülmür. Əgər insanların yaşamaq, azad olmaq və gücə sahib olmaq arzularını gerçəkləşdirə bilmək şərtləri bütün dünyada eyni olsaydı və həmçinin belə bir gerçəkləşmənin təmin edilməsi və ona can atılması şəraiti hər yerdə eyni olsaydı, onlar hamı tərəfindən bölüşdürülə bilərdi. Əgər bu belə olsaydı, bütün insanlar üçün ümumi olan insanın nəyəsə can atmaq, nəyəsə nail ola bilmək, nədənsə imtina etmək və nəyinsə uğrunda mübarizə aparmaq təcrübəsi, əslində, dünya ictimai fikrinin dəyərləndirilməsinin ümumi meyarlarını təmin edəcək inamlar, postulatlar və istəklər birliyi yaradar. İstənilən şəxs tərəfindən və istənilən şəxsə qarşı həyata keçirilən bu dünya ictimai fikrinin meyarlarının istənilən pozuntusu bəşəriyyət tərəfindən spontan reaksiyalara səbəb olar; çünki bütün şərtlərin təxmini oxşarlığı baxımından bütün insanlar bir qrupun başına gələnlərin istənilən qrupun başına gələ biləcəyindən qorxuya düşürlər.

Lakin reallıq bizim bütün dünyada şərtlərin eyniliyi haqqında ehtimalımız ilə üst-üstə düşmür. Yaşayış səviyyəsi meyarının kütləvi aclıqdan zənginliyə qədər müxtəlifliklər; azadlığın tiranlıqdan demokratiyaya, iqtisadi əsarətdən bərabərliyə qədər müxtəlifliklər; kəskin qeyri-bərabərlik və başıpozuq bir nəfərin idarəetməsindən hakimiyyətin geniş bölüşdürülməsinə qədər hakimiyyətdə müxtəliflikər konstitusion məhdudiyyətlərə məruz qalır. Bir dövlət azadlığın səfasını sürür,

[1] Bax: səh. 328 və növbəti səhifələr

lakin acından ölür; digərinin qida təminatı yaxşıdır, lakin azadlığın həsrətindədir; daha biri həyat təhlükəsizliyi və fərdi azadlığa malikdir, lakin avtokratik hökumətin rəhbərliyi altında əzab çəkir. Nəticədə fəlsəfi baxımdan meyarların oxşarlığı dünyada əhəmiyyətli hesab olunduğu halda, – əksər siyasi filosoflar onların ümumi xeyirin, qanun, sülh və nizamın, həyat, azadlıq və xoşbəxtliyin təqib olunmasının dəyərləndirilməsində razılığa gəlirlər, – əxlaqi mühakimələr və siyasi dəyərləndirmələr geniş kənara çıxmalar nümayiş etdirir. Eyni mənəvi və siyasi anlayışlar fərqli mühitlərdə fərqli məna kəsb edir. Ədalət və demokratiya bir yerdə bir mənanı, başqa bir yerdə tamamilə fərqli mənanı daşıyır. Beynəlxalq arenadakı bir gediş bir qrup tərəfindən qeyri-əxlaqi və ədalətsiz kimi təsvir olunduğu halda, başqa biri tərəfindən əksinə təqdir olunur. Beləliklə, bir tərəfdən səciyyəvi psixoloji xüsusiyyətlər birliyi ilə təməl istəklər arasındakı ziddiyyət, digər tərəfdən birgə təcrübələrin, universal əxlaq təsəvvürlərinin və ümumi siyasi istəklərin olmaması dünya ictimai fikrinin mövcudluğuna dair sübut təqdim etməkdən uzaq olub, daha çox dövrümüzdə bəşəriyyətin hazırkı vəziyyətində onun qeyri-mümkünlüyünü nümayiş etdirir.

TEXNOLOJİ BİRLƏŞMƏNİN İKİ TƏRƏFİ

Bununla belə, həmin dövr dünya ictimai fikrini həqiqətdə yaratmasa da belə, gerçəkləşdirməyə yaxınlaşdıran kimi görünən bir inkişafa – dünyanın texnoloji birliyinə şahidlik edir. Deyəndə ki, bu, "bir dünya"dır, biz yalnız kommunikasiyaların müasir inkişafının fiziki əlaqələrə və insan irqinin nümayəndələri arasında informasiya və ideya mübadiləsinə münasibətdə coğrafi məsafələri faktiki olaraq aradan qaldırdığını nəzərdə tutmuruq. Biz həmçinin fiziki və intellektual kommunikasiyanın faktiki olaraq bu hüdudsuz imkanının bütün bəşəriyyəti əhatə edən və dünya ictimai fikrini doğura bilən təcrübə birliyini nəzərdə tuturuq. Lakin həmin nəticəyə faktlarla gəlinməmişdir. İki mülahizə nümayiş etdirir ki, mənəvi və siyasi sahədə heç nə dünyanın texnoloji birliyinə uyğun gəlmir və tam əksinə, dünya bu gün mənəvi və siyasi birlikdən daha az əlverişli texnoloji şəraitdə olduğundan daha çox uzaqlaşmışdır.

Hər şeydən əvvəl, müasir texnologiyalar müxtəlif ölkələr arasında kommunikasiyaları olduqca asanlaşdırdığı kimi, həm də onların hökumətləri və özəl qurumlarının ixtiyarına belə kommunikasiyaları qeyri-mümkün etmək üçün görünməmiş güc verir. 200 il bundan əvvəl təhsilli bir rus üçün Fransanın siyasi düşüncəsi və fəaliyyəti haqqında öyrənmək bu gün olduğundan daha asan idi. Öz siyasi ideyalarını

fransızlar arasında yaymaq istəyən bir ingilis bu gün olduğundan daha yaxşı imkana sahib idi. O zaman bir ispan üçün Şimali Amerika qitəsinə miqrasiya və hətta səyahət etmək bu gün olduğundan daha sadə idi. Çünki müasir texnologiya yalnız ayrı-ayrı insanların digər insanlar ilə coğrafi məsafədən asılı olmayaraq əlaqə saxlamasını texnoloji cəhətdən mümkünləşdirməyib, həmçinin hökumətlər və özəl kommunikasiya qurumları üçün uyğun gördükdə bu kimi kommunikasiyaları ümumiyyətlə kəsməyi texnoloji baxımdan mümkün edib. Beləliklə, ayrı-ayrı insanlar arasında kommunikasiyalar geniş şəkildə texniki imkanların təsiri altında qalmış olduğu halda, hökumət və özəl nəzarət texniki və siyasi reallığa çevrilib.

Beş il bundan əvvəl xarici bir ölkəyə səfər etmək istəyən Amerika vətəndaşının ora getmək üçün yalnız nəqliyyat vasitəsi sifariş etməyə ehtiyacı var idi. Bu gün isə əgər o, hökumət sənədlərindən hər hansı birinə – heç bir insan varlığının onlar olmadan sərhədi keçə bilməz – sahib deyilsə, texnologiyanın "bir dünya"sı ona heç bir köməklik edə bilməz. Lakin hələ 1914-cü ildə ölkə ərazisini tərk etmək və ora daxil olmaq üçün pasport tələb edən iki əsas ölkə olan Türkiyə və Rusiyaya gerilik və demək olar ki, barbarlıq damğası vurulmuşdu. Unutmamalıyıq ki, totalitar hökumətlərə öz vətəndaşlarını müəyyən ideya və məlumatlar ilə təmin etmək və onların digərləri ilə əlaqəsini kəsməklə onları mənəvi və intellektual məhdudiyyətlərə məruz qoymaq imkanı verən müasir texnologiyadır. Xəbərlərin və ideyaların toplanması və yayılmasını böyük kapital toplanışı tələb edən fəaliyyətə çevirən də müasir texnologiyadır.

Çapın əl ilə həyata keçirildiyi texnoloji baxımdan ibtidai dövrdə orta imkanlara sahib olan hər bir kəs öz hesabına çap olunmuş və yayılmış kitab, kitabça, yaxud qəzet əldə etməklə fikirlərini ictimaiyyətə çatdırmaq imkanına sahib idi. Bu gün isə hər yerdə əhalinin böyük kütləsi ictimai fikri səsləndirənlər üzərində heç bir təsir imkanına sahib deyil. Bir neçə istisna ilə yalnız böyük imkanlara sahib insanlar və təşkilatlar və fikirləri onlar tərəfindən müdafiə olunanlar öz fikirlərini ictimaiyyətə çatdıra bilərlər. Faktiki olaraq bütün ölkələrdə bu kimi fikirlərin böyük hissəsi müvafiq hökumətlərin digər hökumətlər ilə münasibətlərində milli maraq hesab etdiyinin tərəfində olur. Milli nöqteyi-nəzərdən xoş olmayan az informasiya və ideyanın ictimaiyyətə çatmasına icazə verilir. Bu, texnoloji baxımdan əsl "bir dünya"dır, lakin onun mənəvi və siyasi baxımdan da "bir dünya" olduğunun və ya olacağının səbəbi deyil. Texniki baxımdan mümkün olan texnoloji dünyanın müxtəlif dövlətlərin vətəndaşları arasında informasiya və ideyalar mübadiləsi gedən mövcud şəraitdə rəqibi yoxdur.

Lakin hətta əgər informasiya və ideyaların Yer kürəsində azad hərəkətinə icazə verilsəydi belə, dünya ictimai fikrinin mövcudluğu heç bir halda təmin oluna bilməzdi. Dünya ictimai fikrinin xəbər və ideyaların azad axının birbaşa nəticəsi

olduğuna inananlar ötürmənin texniki prosesi ilə ötürülməli şeylər arasında fərqi müəyyən etməyi bacarmırlar. Onlar yalnız birinciyə diqqət yetirir, ikinciyə isə əhəmiyyət vermirlər. Ötürülməli informasiya və ideyalar müxtəlif xalqların fəlsəfələrini, əxlaq normalarını və siyasi təsəvvürlərini formalaşdıran təcrübələrin inikasıdır. Bu təcrübələr və onların elmi törəmələri bütün bəşəriyyətdə eyni olsaydı, informasiya və ideyaların azad axını öz-özlüyündə dünya ictimai fikrini yaradardı. Əslində isə, artıq şahidi olduğumuz kimi, insanlığı bütün insanlar üçün təməl olan istəklər üzərində birləşdirən təcrübə ortaqlığı yoxdur.

Bu belə olduğundan amerikalılar, hindlilər və ruslar hər biri eyni informasiyanı öz məxsusi fəlsəfi, mənəvi və siyasi baxışlarından çıxış edərək nəzərdən keçirəcəklər və fərqli baxışlar informasiyaya fərqli rənglər verəcək. Vyetnam müharibəsi, yaxud 1968-ci il inqilabı haqqında eyni bir məlumat onun haqqında formalaşmış fikirdən başqa, müxtəlif müşahidəçilərin gözündə maraqlı xəbər kimi müxtəlif çəkiyə malik olacaq.

Fərqli baxışlar yalnız eyni informasiya parçasını müxtəlif cür rəngləməyəcək, onlar həmçinin dünyada baş verən gündəlik hadisələrin qeyri-müəyyən sayı arasından maraqlı olan məlumatın seçilməsinə təsir göstərəcək. "Dərc edilməyə dəyən bütün xəbərlər" *"The New York Times"* üçün bir məna, *"Pravda"* üçün başqa, *"Hindustan Times"* üçün isə başqa bir məna kəsb edir. İstənilən bir gündə həmin müxtəlif qəzetlərin əsl məzmununun müqayisəsi həmin fikri təsdiq edir. Xəbərlərin fəlsəfə, mənəviyyat və siyasət nöqteyi-nəzərindən izah olunduqda müxtəlif dövlətlərin nümayəndələrini bir-birindən ayıran fikir fərqliliyi tamamilə aşkara çıxır. Eyni bir məlumat və ideya amerikalı, rus və hindli üçün nə isə fərqli bir məna kəsb edir; çünki həmin məlumat və həmin ideya müxtəlif təcrübələrin doğurduğu düşüncələrlə qavranılır, mənimsənilir və süzgəcdən keçirilir və düzgün, xeyirli və siyasi cəhətdən arzuolunan və məqsədəuyğun olan haqqında fərqli təsəvvürlərlə qəlibləndir.

Beləliklə, hətta biz əgər müasir texnologiya ilə birləşmiş bir dünyada milli sərhədlərdən asılı olmayaraq azad hərəkət edən insanlar, xəbərlər və ideyalar ilə birgə yaşasaydıq belə, biz dünya ictimai fikrinə sahib olmayacaqdıq. Çünki insanların düşüncələri siyasi maneələr olmadan bir-biriylə əlaqə saxlamaq imkanına sahib olsaydı, onlar yenə də görüşməzdilər. Hətta amerikalı, rus və hindli bir-biriylə söhbət edə bilsəydi belə, müxtəlif dillərdə danışacaqdılar və əgər onlar eyni sözləri tələffüz etsəydilər də, həmin sözlər onların hər biri üçün müxtəlif şeyləri, dəyərləri və istəkləri ifadə edəcəkdi. Demokratiya, azadlıq və təhlükəsizlik anlayışları belədir. Onların gözlənilən qaneedici cavabı almadan ən çox müdafiə etdikləri təsəvvürləri, ən dərin emosiyaları və ən çılğın istəklərini təcəssüm etdirən eyni sözlərlə əlaqə saxlayan, fərqli şəkildə formalaşan düşüncələrin

ümidsizliyi müxtəlif dövlətlərin nümayəndələrini birləşdirməkdən daha çox daha da bir-birindən uzaq salmışdır. Bu, müxtəlif milli ictimai fikirlər dünyanın ictimai fikri formasında birləşdirməkdən daha çox, onların mahiyyətini sərtləşdirmiş və müstəsnalıq iddialarını gücləndirmişdir.

MİLLƏTÇİLİK BARYERİ

Sonuncu müşahidəni təsvir etmək üçün Vudro Vilsonun 14 maddəsini nəzərdən keçirək. Birinci Dünya müharibəsinin son aylarında 14 maddə milli sərhədlərdən və münaqişənin bu və ya digər düşərgəsinə loyallığından asılı olmayaraq, bəşəriyyətin əhəmiyyətli bir hissəsi tərəfindən ədalətli və davamlı dinc həll prinsipləri olaraq qəbul olundu və belə görünürdü ki, onlar dünya ictimai fikri tərəfindən müdafiə olunurdu. Lakin cənab Uolter Lippmanın 14 maddəni müdafiə edən ictimai fikrə dair parlaq analizindən aydın olduğu kimi:

"14 maddəni qarşılayan yekdil coşqunluğun proqrama dair razılığı təmsil etdiyini güman etmək yanlış olardı. Görünürdü ki, hər kəs ürəyinə yatan, bu və digər aspekti və detalı xüsusi olaraq vurğulayan nə isə tapırdı. Lakin heç kim müzakirə etməyə risk etmirdi. Sivilləşmiş dünyanın zəminində duran münaqişələrini doğuracaq ifadələr qəbul olundu. Onlar əks ideyaları müdafiə edirdilər, lakin ümumi emosiya oyadırdılar. Həmin ölçüdə isə onlar Qərb xalqlarının hələ də davam gətirməli olduqları müharibənin ümidsiz 10 ayında hərəkətə keçirilməsində böyük rola malik oldular. İztirab sona çatmaq üzrə olanda 14 maddə tutqun və xoşbəxt gələcəkdən bəhs etdikcə təfsirə dair real ziddiyyətlər özünü büruzə vermirdi. Onlar tamamilə görünməz olan mühitin nizamlanması planları idi və bu planlar hər birinin özünəməxsus ümidi olan bütün qruplara stimul verdiyindən bütün ümidlər birlikdə ictimai ümid kimi meydana çıxırdı... Daha çox qruplar cəlb etmək məqsədilə iyerarxiyada yüksəldikcə bir müddətliyinə intellektual əlaqəni itirsən də, emosional əlaqəni qoruyub saxlaya bilərsən. Lakin hətta emosional əlaqə də getdikcə nazilir. Təcrübədən uzaqlaşdıqca daha yüksəyə qalxıb ümumiləşdirmə, yaxud kəskinliyə daxil olursan. Hava şarında yuxarı qalxdıqca daha çox ağır yükü bortdan kənara tullayırsan və "bəşəriyyətin hüquqları" və "demokratiya üçün təhlükəsizləşdirilmiş dünya" kimi bəzi ifadələrin yer aldığı ən yüksək zirvəyə çatanda uzaq və geniş dairə gözünün qarşısında olur, lakin çox az görürsən. Lakin emosiyaları dolub daşan insanlar hərəkətsiz qalmırlar. İctimai çağırış bütün insanlar üçün hər şeyə çevrildikcə və emosiya mənasını itirdiyi halda

coşduqca onların çox özəl mənası universal şəkildə tətbiq olunur. Sənin çox istədiyin "bəşəriyyətin hüquqları"dır. Bu ifadə hər zaman daha çox mənasızlaşdığı və demək olar ki, istənilən şeyi nəzərdə tuta bildiyi üçün tezliklə az qala hər şeyi nəzərdə tutmağa başlayır. Cənab Vilsonun ifadələri dünyanın hər bir bucağında sonsuz müxtəlif yollarla anlaşıldı... Beləliklə, nizamlama günü gəlib çatdığında hər kəs hər şey gözləyirdi. Müqavilənin avropalı müəllifləri geniş seçimə malik idilər və onlar o gözləntiləri seçdilər ki, onların daxildə ən çox gücü əlində saxlayan həmvətənləri müdafiə edirdilər.

Onlar iyerarxiyada "bəşəriyyətin hüquqları" səviyyəsindən Fransanın, Britaniyanın və İtaliyanın hüquqları səviyyəsinə düşdülər. Onlar rəmzlərin istifadəsindən imtina etmədilər. Onlar yalnız seçicilərinin təsəvvüründə müharibədən sonra daimi kökləri olmayanlardan imtina etdilər. Onlar rəmzlərdən istifadə etməklə Fransanın birliyini qoruyub saxladılar, lakin Avropanın birliyi üçün nəyisə təhlükəyə atmazdılar. Fransanın rəmzi onunla dərindən bağlı idi, Avropanın rəmzi isə yalnız yaxın tarixə dayanırdı".[1]

Cənab Lippmanın Vilsonun 14 maddəni dəstəkləyən aşkar olan dünya ictimai fikri haqqında analizi problemin mahiyyətini – millətçiliyin bütün elmi, mənəvi və siyasi xüsusiyyətləri ilə bəşəriyyətin təsəvvür və istəkləri və insanların dünyanın hər yerində üz-üzə gəldiyi məsələlər arasında yerdəyişməsini üzə çıxarır. Hər yerdə insanlar 14 maddənin müddəalarına qoşulduğu halda, insanların düşüncələrini formalaşdıran və istiqamətləndirən, bu sözlərə məxsusi mənalarını verən, onları məxsusi rəngləri ilə boyayan və onları məxsusi istəklərin rəmzinə çevirən xüsusi millətçilik idi.

Bununla belə, millətçilik, insanlığın yalnız əlaqədar ümumi verbal ifadələr – məsələn, 14 maddə, demokratiya, azadlıq və təhlükəsizlik – deyil, həmçinin vəziyyətin mahiyyətinə dair real fikir birliyi yaratdığı məsələlər üzərində eyni təsirə malikdir. Müasir beynəlxalq siyasətdə dünyanın istənilən yerində müharibəyə nifrət, ona müxaliflik və ondan qaçmaq arzusu qədər geniş şəkildə müdafiə olunan heç bir fikir yoxdur. Onlar müharibə haqqında bu kontekstdən çıxış edərək düşündükdə və danışdıqda Vaşinqton, Moskva, Pekin, Nyu-Dehli, London, Paris və Madrid küçələrindəki insanların düşüncəsində, demək olar ki, eyni fikir var – bu odur ki, müharibə müasir kütləvi qırğın vasitələri ilə aparılır. Bu halda müharibəyə münasibətdə həqiqi dünya ictimai fikrinin mövcud olduğu

[1] Walter Lippmann, *Public Opinion*, səh. 214 və növbəti səhifələr. Müəlliflik hüququ 1922-ci ildə "Macmillan" şirkəti tərəfindən əldə edilmişdir və onların icazəsi ilə təkrar dərc edilmişdir.

üzə çıxır. Bəşəriyyət müharibəyə müxalifliyində o baxımdan birləşir ki, müxaliflik özünü fəlsəfi terminlərdə, əxlaqi postulatlarda və mücərrəd siyasi meyillərdə büruzə verir, yəni müharibəyə onun mücərrəd mənasında münasibət göstərilir. Lakin bu şəkildə bir araya gəlmiş bəşəriyyət acizliyini üzə çıxarır və aşkar olan dünya ictimai fikri öz milli ünsürlərinə parçalanır, bu zaman məsələ artıq belə mücərrəd müharibə olmur, xüsusi bir müharibə olur, bu müharibə olur, başqa bir digəri deyil, indi və burada baş verən müharibə.

Dövrümüzdə 60-cı illərin əvvəlində Berlin üzərində vaxtaşırı böhranlarda olduğu kimi müharibə təhlükəsi yarandıqda bəşəriyyət müharibə xofunda və müharibəyə müxaliflikdə birliyini bu şəkildə qoruyur. Lakin insanlar müharibəyə belə mücərrəd müxalifliklərini verilmiş müharibəyə qarşı konkret hərəkətlərə çevirməyə qabil deyillər. İnsan irqinin əksər nümayəndələri müharibəni XX əsrin şərtləri altında qalibi məğlubdan yalnız az daha çarəsiz vəziyyətə salan bəla hesab etdiyi halda, insan irqinin amerikalılar, çinlilər, ingilislər və ruslar kimi nümayəndələri hər zaman olduğu kimi verilmiş müharibəyə nəzər yetirirlər və bunu öz dövlətlərinin nöqteyi-nəzərindən edirlər.

Onlar öz milli maraqları hesab etdiyi dəyərlərə təsir göstərməyən müharibələrə qarşı çıxırlar, məsələn, İtaliyanın Efiopiya müharibəsi kimi, lakin onlar müharibənin qarşısının alınması və ya sona çatdırılmasında səmərəli olan hər hansı bir tədbir görmək və ya görülən tədbiri dəstəkləmək həvəsində deyillər. Çünki əgər səmərəli olmalıdırsa, belə bir tədbir milli maraq hesab olunan dəyərlərə müəyyən zərərləri və təhlükələri nəzərə almaqla cəsarətli olmaq məcburiyyətindədir. Hətta milli məqsədlərdən başqa, hədəflər uğrunda aparılan müharibə təhlükəsi ilə qarşılaşmalı ola bilərlər və həmin milli məqsədlər özləri təhlükə altına düşə bilər.

İtaliya 1935-ci ildə Efiopiyaya hücum etdikdən sonra ona qarşı tətbiq olunan sanksiyalar müharibənin dünya ictimai fikri adlandırılan məfhum tərəfindən belə ümumi pislənilməsinin və onun milli maraq hesab edilənlərin zahirən tələb etmədiyi halda səmərəli tədbirlər görməkdə həvəssiz olmasının ən klassik nümunəsidir. Çörçill dünya ictimai fikrinin Britaniya nümunəsindən bəhs edərkən müharibənin mücərrəd şəkildə pislənməsi və konkret vəziyyətdə səmərəli tədbirlər görmək həvəssizliyi arasındakı dilemmanı dəqiq şəkildə müəyyənləşdirdi: "Əvvəlcə baş nazir bəyan etdi ki, sanksiyalar müharibə mənasını kəsb edir; sonra belə bir qərara gəldi ki, müharibəyə yol verilməməlidir; daha sonra isə sanksiyalar qərarını qəbul etdi. Bu üç şərtə əməl etməyin qeyri-mümkün olduğu aydın məsələ idi".[1]

1 *London Evening Standard*, June 26, 1936.

İstənilən halda bir neçə dövlətin maraqlarına zərər vuran müharibə təhlükəsi yarananda və ya müharibə başlayanda dünya ictimai fikri birləşmiş bir qüvvə kimi, ümumiyyətlə, fəaliyyətini dayandırır. Belə şərtlər altında müharibənin universal pislənməsi açıq şəkildə əhəmiyyətli dəyişikliyə uğrayır. Belə olduqda müharibəyə müxaliflik konkret bir müharibəni başlamaq ilə hədələyən, yaxud artıq başlamış dövlətə müxalifliyə çevrilir və bu ona görə baş verir ki, bu dövlət hər zaman hədələyici münasibəti milli marağı təhdid edən və ona görə də müharibə alverçisi kimi münasibət göstərilməli olan milli düşmən ilə eynidir. Başqa sözlə, müharibənin universal pislənilməsinin ortaq zəminindən ayrıca bir dövlətin maraqlarını müharibə ilə təhdid edən istənilən kəsə qarşı yönəlmiş xüsusi pislənmə tədbirləri ərsəyə gəlir. Bu halda başqalarının maraqlarını müharibə ilə təhdid edən dövlətlərin sayı qədər milli ictimai fikirlər tərəfindən pislənən müharibə alverçisi olacaq.

1938-ci ildən bəri dünyada hökm sürən vəziyyət bu baxımdan ibrətamizdir. Tarixin həmin dövrü ərzində bütün dövlətlər ümumilikdə müharibəyə qarşı eyni şəkildə etiraz edib. Lakin ayrıca bir müharibənin qarşısını almaq və ya ona qarşı çıxmaq məqsədilə tədbirlər görəcək fəal ictimai fikrin formalaşmasına gəlincə, hüdudlar verilmiş vəziyyət ilə əlaqədar milli maraqlara görə müəyyən edilmişdir. Belə ki, həmin dövrdə Böyük Britaniya və Fransa Almaniyanı potensial və real müharibənin vasitəçisi kimi qınayırdı, lakin Sovet İttifaqını həmin ittihamla yalnız 1939-cu ilin avqustundan 1941-ci ilin iyununa qədər olan dövrdə, yəni SSRİ-Almaniya paktının fəaliyyəti dövründə qınadılar. 1945-ci ilin sonundan etibarən bu iki ölkədə ictimai fikir yenidən dünyada sülhü təhdid kimi Sovet İttifaqının xarici siyasətinə qarşı çıxdı.

Sovet ictimai fikri isə digər tərəfdən 1939-cu ilin avqustunda Almaniya ilə pakt imzalanana qədər sülhün əsas təhdidçisi kimi Almaniyaya qarşı çıxırdı. O vaxtdan 1941-ci ilin iyununda Almaniyanın Sovet İttifaqına hücumuna qədər Qərb demokratiyalarına müharibə alverçisi münasibəti bəslənirdi. Almaniyanın hücumu rusların ictimai fikrini ona qarşı çevirdi və təxminən 1945-ci ilin sonuna qədər Almaniya rusların ictimai fikrində sülhün təhdidedicisi kimi əvvəlki yerini qoruyub saxladı. 1945-ci ilin sonundan etibarən Rusiya ictimai fikri hər zaman artan vurğu ilə ABŞ-ı sülhün əsas təhdidedicisi hesab etməyə başladı. Amerika ictimai fikri 1945-ci ilin sonunadək müxtəlif tezliklərdə Britaniya və Fransanın nəzər nöqtəsi ilə uyğunlaşdı. Daha sonra Rusiyanın "lütfkarlığına" cavab olaraq Sovet İttifaqını sülhün əsas maneəsi hesab etməyə başladı. ABŞ-da bu fikrin tezliyi Sovet İttifaqındakı fikrin artan tezliyinə paralel tempdə yüksəlmişdir.

Müxtəlif dövlətlərin Koreya müharibəsinə münasibəti bu analizi təsdiq edir. Koreya müharibəsi universal şəkildə "dünya ictimai fikri" tərəfindən pisləndi. Lakin Sovet İttifaqı və onun tərəfdarları ABŞ-ı və onun müttəfiqlərini günahlandırdığı halda, ABŞ Şimali Koreya və Çini Sovet İttifaqından dəstək alan təcavüzkarlar hesab etdi, "bitərəflər", məsələn, Hindistan isə günahı iki düşərgə arasında bölüşdürdü. Müxtəlif dövlətlərin həmin müharibədə real iştirakı da eyni şəkildə onların milli maraq haqqında təsəvvürləri ilə təyin olunurdu. Maraqları birbaşa olaraq müharibədən zərər görən və hindistanlıları müdafiə gücünə sahib olan Çin və ABŞ kimi dövlətlər müharibənin əsas ağırlığının əziyyətini çəkdi. Fransa kimi məhdud maraqlara və ehtiyatlara malik olan digər dövlətlər isə müvafiq olaraq müharibədə məhdud rol oynadı. Danimarka kimi heç bir marağa və ehtiyata malik olmayan və Hindistan kimi uzaq durmaqda maraqlı olan dövlətlər isə, ümumiyyətlə, heç bir şəkildə onda iştirak etmədi.

Beləliklə, sülhə qarşı hər hansı konkret təhdid baş qaldıranda müharibə dünya ictimai fikri tərəfindən deyil, maraqları müharibədən zərər çəkən dövlətlərin ictimai fikri tərəfindən müxalifliklə üzləşir. Belə nəticə hasil olunur ki, bu gün olduğu kimi dünyada sülhün qorunub saxlanması ümidlərini təhdidedici müharibənin qarşısını almaq iqtidarında olan fəaliyyət mənbəyi deyil, yalnız ümumi bir münasibət kimi mövcud olan dünya ictimai fikrinə əsaslandırmaq əbəsdir.

Populyar frazeologiyanın zahiri altında olanı araşdırarkən məlum olur ki, milli hökumətlərin xarici siyasətini məhdudlaşdıran dünya ictimai fikri mövcud deyil. İctimai fikrin təbiətinin cəmiyyətin adətlərində fəallaşdığı kimi əsaslı ümumi mülahizəsi göstərəcək ki, dünyadakı mövcud şəraitdə başqa cür ola da bilməz. Cəmiyyəti fəal ictimai fikirsiz təsəvvür etmək mümkün olduğu halda və şübhəsiz ki, keçmişdə və hələ də ictimai fikri beynəlxalq siyasətdə aktiv qüvvə kimi fəaliyyət göstərməyən avtoritar cəmiyyətlər mövcud olduğu halda, aydın məsələdir ki, heç bir ictimai fikir cəmiyyətsiz mövcud ola bilməz. Belə ki, cəmiyyət müəyyən zəruri mənəvi və sosial məsələlərə dair fikir birliyini nəzərdə tutur. Cəmiyyətin adətləri siyasi məsələlərə aid olduğu halda, fikir birliyi əsas etibarilə mənəvi xarakterlidir. Başqa sözlə, adətlər formasında olan ictimai fikir siyasi məsələlərə münasibətdə fəaliyyət qabiliyyətli olduğu zaman insanlar, əsasən, öz əxlaq meyarlarını həmin problemə uyğunlaşdırmağa və problemi həmin meyarlara uyğun şəkildə nizamlamağa çalışırlar. Siyasi fəaliyyətə məhdudlaşdırıcı təsir göstərmək imkanına sahib olan ictimai fikir cəmiyyəti və onun öz fəaliyyət meyarlarını götürdüyü ümumi əxlaq normalarını əvvəlcədən ehtimal edir və bu növ dünya ictimai fikri dünya cəmiyyəti və bəşəriyyətin ümumilikdə beynəlxalq arenada

siyasi fəaliyyəti mühakimə etmək üçün istifadə etdiyi əxlaq normaları tələb edir.[1]

Gördüyümüz kimi, belə bir dünya cəmiyyəti və universal əxlaq normaları mövcud deyil. İnsanlığı birləşdirən və dünya cəmiyyəti və universal əxlaq normaları üçün bünövrə yaradan həyat, azadlıq və güc uğrunda təməl istəklər və insan irqinin nümayəndələrinin faktiki olaraq sahib olduğu siyasi fəlsəfələr, əxlaq normaları və məqsədlər arasında dövlət durur. Dövlət hər yerdə insanların beynini və ürəyini xüsusi təcrübələr və onlardan irəli gələn xüsusi siyasi fəlsəfə konsepsiyaları, siyasi əxlaq normalarının xüsusi meyarları və siyasi fəaliyyətin xüsusi məqsədləri ilə doldurur. Belə olduqda insan irqinin nümayəndələri qaçılmaz olaraq universal əxlaq normalarının meyarlarını tətbiq edən bir dünya cəmiyyətinin nümayəndələri kimi deyil, əxlaq normalarının milli meyarları tərəfindən yönləndirilən müvafiq milli cəmiyyətlərin nümayəndələri kimi siyasi xarakter daşıyan həyat sürür və fəaliyyət göstərirlər. Siyasətdə əsas amil insan deyil, dövlətdir. 1799-cu ildə bir irland pamfletçi yazırdı ki, "dövlətlər bir-birinə münasibətdə olmasa da, özlərinə münasibətdə incə hisslər daşıyır. Siyasi təsisatın ürəyi yoxdur... Siyasi humanistlik deyilən bir məfhum yoxdur".[2]

Bu halda real olan müvafiq dövlətlərin siyasi fəlsəfələri, əxlaq normaları və istəklərinin obrazında formalaşan milli ictimai fikirdir. Milli hökumətlərin beynəlxalq siyasətlərini məhdudlaşdıran dünya ictimai fikri adi bir postulatdır; beynəlxalq fəaliyyətlərin reallığı hələ də onun əlamətini nümayiş etdirmir.

Dövlət özünü, eləcə də digər dövlətləri xarici siyasətinin hər yerdəki insanların bölüşdüyü meyarlara uyğun gəldiyinə əmin etmək məqsədilə "dünya ictimai fikri"ni və ya "bəşəriyyətin vicdanı"nı oyadan zaman o, real olan heç nəyə müraciət etmir. O, ayrıca bir əxlaq normaları konsepsiyasını bütün bəşəriyyətin üzərinə öhdəlik kimi qoyulan universal hüquqlar səviyyəsinə qaldırmaq məqsədilə yalnız haqqında əvvəl bəhs etdiyimiz ümumi tendensiyaya meyil edir. Beynəlxalq arenadakı bütün düşmən tərəflərin eyni bir məsələyə münasibətdə dünya ictimai fikri tərəfindən dəstəklənməli olan özünəəminlik yalnız müraciətin məntiqsizliyinin vurğulanmasına xidmət edir. Gördüyümüz kimi, bizim əsrdə insanlar inanmaq istəyirlər ki, mübarizə aparan yalnız onlar və onların şəxsi

[1] Hökumətlərin BMT Baş Assambleyasında səslərin bölgüsü haqqında təşvişə düşərkən – keçmiş müstəmləkə dövlətləri daimi olaraq bu haqda təşvişə düşür – əslində, dünya ictimai fikrinin mövcud olmaması ilə deyil, belə bir keçmiş müstəmləkə dövlətinin necə az tərəfdarının olduğunu göstərən düşmən tərəfindən zərər görə bilən, digər hökumətlər qarşısında nüfuzu ilə bağlıdır.

[2] Considerations on the Expediency və s. (Dulin 1779), götürülüb: L.B.Namier, *England in the Age of the American Revolution* (London: Macmillan, 1930), səh. 42.

milli maraqları deyil – hətta əsas rol da onlara məxsus deyil – həm də bəşəriyyətin ideyalarıdır. Elmi sivilizasiya insanların nə düşündüyü haqqında əksər məlumatları ictimai fikrə dair aparılan sorğulardan aldığı üçün dünya ictimai fikri şəxsi, eləcə də digər hər kəsin istək və hərəkətlərini müdafiə etmək üçün güvənilə bilən mifik vasitəçiyə çevrilir. Daha çox fəlsəfi meyli olanlar üçün "tarixin mühakiməsi" eyni vəzifəni yerinə yetirir. Dindarların öz motivlərini müdafiə etməsi üçün "Tanrının iradəsi" var və möminlər döyüş xəttinin hər iki tərəfində silahlar rolunu oynayan və hər iki ordunu ya layiq olduğu qələbəyə, ya da layiq olmadığı məğlubiyyətə aparan keşişlər vasitəsilə eyni bir Tanrının qəribə və qeyri-adi tamaşasının şahidi olurlar.

VI FƏSİL

DÖVLƏTİN GÜCÜNÜN HÜDUDLARI: BEYNƏLXALQ HÜQUQ

18. Beynəlxalq hüququn əsas problemləri

BEYNƏLXALQ HÜQUQUN ÜMUMİ TƏBİƏTİ

Bizim ifratçılıqlara qarşı beynəlxalq əxlaq normaları və dünya ictimai fikri haqqında müzakirəmizi başladığımız eyni xəbərdarlıq beynəlxalq hüquq haqqında müzakirəyə də tətbiq olunmalıdır. Getdikcə sayı artan müəlliflər belə bir fikri ifadə edirlər ki, beynəlxalq hüquq deyilən bir şey yoxdur. Getdikcə sayı azalan müşahidəçilər isə belə bir fikri müdafiə edirlər ki, əgər beynəlxalq hüquq dövlətlərin siyasi münasibətlərini tənzimləmək üçün lazımi qaydada məcəllələşdirilərsə və yayılarsa, öz daxili qüvvəsi hesabına beynəlxalq arenada güc uğrunda mübarizənin əvəzedicisi olmasa da, ən azından onu məhdudlaşdıran vasitəyə çevrilə bilər. C.L.Brirli qeyd edir:

"Bir çox insanlar, adətən, xarakteri və tarixinə ciddi əhəmiyyət vermədən hesab edirlər ki, beynəlxalq hüquq saxtakarlıqdır və hər zaman da belə olub. Digərləri, görünür, düşünürlər ki, o, özünəməxsus gücü olan bir qüvvədir və əgər biz də hüquqşünasları dövlətlər üçün mükəmməl məcəllənin layihəsini hazırlamağa yönləndirmək dərrakəsinə malik olsaydıq, sülh içində yaşayar və hamımız dünya ilə yaxşı yola gedərdik. Abırsız və yalançı alimlərin az faydalı olduğunu söyləmək çətindir, lakin onların ikisi də eyni səhvə yol verir. Onların hər ikisi hesab edir ki, beynəlxalq hüquq elə bir sahədir ki, hər kəs ona dair düşüncələrini digər sahələrdə olduğu kimi, müvafiq faktları araşdırmaq məcburiyyətində olmaqla, çətinliyə düşmədən intuitiv şəkildə formalaşdıra bilər.[1]

Müasir beynəlxalq hüquq sistemi Orta əsrlərdən tarixin müasir dövrünə keçidi göstərən böyük siyasi dəyişikliyin nəticəsidir. Bu, feodal sistemdən ərazi dövlətləri sisteminə keçid kimi qiymətləndirilə bilər. Sonuncunu özündən əvvəlkindən fərqləndirən əsas xüsusiyyət səlahiyyətlərin dövlətin ərazisi daxilində ali hakimiyyətin hökuməti tərəfindən ələ keçirilməsidir. Hökmdar, əsasən, real rəhbərindən daha çox, əsasən, yalnız adı olan rəhbəri olduğu dövlətin ərazisi daxilində artıq

[1] J.L.Brierly, *The Outlook for International Law* (Oxford: Clarendon Press, 1944), səh. 1, 2. (Naşirin icazəsiylə təkrar dərc edilmişdir)

hakimiyyəti feodal ağalar ilə bölüşmürdü. O bunu heç Orta əsrlər boyu xristian dünyasında müəyyən məsələlərdə ali hakimiyyətə iddia etmiş kilsə ilə də bölüşmürdü. Qanuni danışsaq, bu dəyişiklik XVI əsrdə sona çatdıqda siyasi dünya öz müvafiq ərazilərində bir-birindən tamamilə müstəqil olan, özündən üstün heç bir dünyəvi hakimiyyəti qəbul etməyən bir sıra dövlətlərdən ibarət idi. Bir sözlə, onlar suveren idi.

Əgər öz ərazilərində ali hakimiyyət ilə təmin edilmiş və bir-biriylə daimi əlaqəsi olan belə mövcudluqlar arasındakı əlaqələrdə ən azından müəyyən ölçüdə sülh və nizam olmalı olsaydı, şübhəsiz ki, həmin əlaqələrdə müəyyən hüquqi qaydalar hakim olardı. Bu o deməkdir ki, pozulması, bir qayda olaraq, müəyyən sanksiyalar doğuran, həmçinin təbiəti və tətbiq şərtləri və metoduna münasibətdə əvvəlcədən müəyyən edilən idarəetmə qaydaları olmalıdır. Dövlətlər, məsələn, ərazilərinin quruda və dənizdə sərhədlərinin harada olduğunu bilməlidir. Onlar, ümumiyyətlə, heç kimə məxsus olmayan (kəşf edilmiş ərazi nümunəsində olduğu kimi), yaxud başqa bir dövlətə məxsus olan (güzəşt, yaxud ilhaq nümunəsində olduğu kimi) əraziyə hansı şərtlər altında qanuni mülkiyyət hüququ əldə edə biləcəklərini bilməlidirlər. Onlar digər dövlətlərin onların ərazisində yaşayan vətəndaşları və özlərinin digər dövlətin ərazisində yaşayan vətəndaşları üzərində hansı səlahiyyətlərinin olduğunu bilməlidirlər. A dövlətinin bayrağı altında üzən gəmi B dövlətinin limanına daxil olan zaman dövlətinin həmin gəmiyə münasibətdə hansı hüquqları var? Bəs əgər gəmi döyüş gəmisidirsə necə? Xarici hökumətlərdə akkreditə olunmuş diplomatik nümayəndələrin hüquqları hansılardır və bir dövlətin başçısının xarici ərazidə hüquqları hansılardır? Bir dövlət müharibə zamanı hərbçilərə, mülki əhaliyə, əsirlərə və bitərəflərə münasibətdə, dənizdə və quruda hansı səlahiyyət və öhdəliklərə malikdir? İki və daha artıq dövlət arasındakı müqavilə hansı şərtlər altında məcburidir və o, məcburilik qüvvəsini hansı şərtlər altında itirir? Əgər müqavilə və digər beynəlxalq hüquq qaydasının pozulduğu iddia olunursa, bu pozuntunu müəyyənləşdirmək kimin hüququdur və kimin hansı şərtlər altında hansı növ təzyiq tədbirləri görmək hüququ var? Suveren dövlətlər arasındakı münasibətlərdən zərurətdən irəli gələrək bu və oxşar xüsusiyyətli bir çox digər məsələlər doğur və əgər zamanın düzəni anarxiya və zorakılıq deyilsə, belə vəziyyətlərdə qarşılıqlı hüquq və öhdəlikləri hüquqi qaydalar müəyyən etməlidir.

Dövlətlərin bir-biriylə münasibətlərində hüquq və vəzifələrini müəyyən edən beynəlxalq hüquq qaydalarının özəyi XV-XVI əsrlərdə inkişaf edib. Beynəlxalq hüququn bu qaydaları əsaslı şəkildə 1648-ci ildə – Vestfaliya müqaviləsinin dini müharibələrə son qoyduğu və ərazi dövlətlərini müasir dövlət sisteminin təməl daşına çevirdiyi zaman bərqərar oldu. Hüqo Qrotsinin 1628-ci ildə çap olunmuş

"Sülh və müharibə hüququ haqqında" əsəri həmin erkən beynəlxalq hüquq sisteminin klassik sistemləşdirilməsidir. XVIII, xüsusilə XIX və XX əsrlər onun bünövrəsində minlərlə müqavilədən, beynəlxalq tribunalların yüzlərlə qərarından və yerli məhkəmələrin saysız qərarından ibarət olan təsirli bir struktur qurdu. Bu müqavilə və qərarlar çox vaxt öncəliklə dövlətlər arasında müasir kommunikasiyaların, əmtəə və xidmətlərin beynəlxalq mübadiləsinin nəticəsi olan beynəlxalq əlaqələrin çoxluğundan və müxtəlifliyindən və əksər dövlətlərin ortaq maraqlarına yardım etmək üçün daxilində əməkdaşlıq etdikləri beynəlxalq təşkilatların çoxluğundan irəli gələn münasibətlərini tənzimləyir. Belə təşkilatlara Beynəlxalq Qırmızı Xaç, Beynəlxalq Ədalət Məhkəməsi, BMT ixtisaslaşmış qurumları, Beynəlxalq Əmək Təşkilatı (BƏT), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Ümumdünya Poçt İttifaqı, Beynəlxalq Valyuta Fondu və bir çox digər təşkilatlar aiddir.

Həmçinin bu baxımdan geniş yayılmış yanlış təsəvvür fonunda qeyd etməyə dəyər ki, mövcud olduğu 400 il ərzində beynəlxalq hüquq əksər hallarda təfərrüatlı şəkildə araşdırılmışdır. Lakin onun qaydalarından biri pozulan zaman o, hər zaman zorla tətbiq edilməmiş və zorla tətbiq olunduqda isə hər zaman səmərəli olmamışdır. Lakin, ümumiyyətlə, beynəlxalq hüququn məcburi hüquqi qaydalar sistemi kimi mövcudluğunu inkar etmək bütün dəlillərin əksinədir. Beynəlxalq hüququn mövcudluğuna münasibətdə bu yanlış təsəvvür ən azından qismən ictimai fikrin son zamanlar beynəlxalq hüququn əsas hissəsinə etinasız yanaşdığı halda, kiçik bir hissəsinə göstərdiyi qeyri-mütənasib diqqətin nəticəsidir. İctimai fikir beynəlxalq hüququn, əsasən, Brian-Kelloq paktı, Millətlər Cəmiyyətinin müqaviləsi və BMT Nizamnaməsi kimi görkəmli alətləri ilə məşğul olub. Bu alətlər, əslində, şübhəli təsirli (yəni onlar tez-tez pozulur) və bəzən hətta şübhəli etibarlıdır (yəni onlar pozulduğu halda, çox vaxt zorla tətbiq edilmir). Bununla belə, onlar əlaqədar beynəlxalq hüququn ənənəvi qaydalarının səciyyəvi olanı, məsələn, ərazi yurisdiksiyasının hüdudları, əcnəbi sularda gəmilərin hüququ və diplomatik nümayəndələrin statusu deyil.

Beynəlxalq hüququn mövcud olduğunu qəbul etmək onun milli hüquqi sistemlər kimi səmərəli hüquqi sistem olduğunu və xüsusilə onun beynəlxalq arenada güc uğrunda mübarizəni tənzimləmək və məhdudlaşdırmaqda səmərəli olduğunu bəyan etməyə bərabərdir. Beynəlxalq hüquq hüququn, məsələn, Avstraliya aborigenləri və Şimali Kaliforniyada yuroklar kimi bəzi yazıyaqədərki cəmiyyətlərdə hakim olan hüquq formasını əks etdirən primitiv növüdür.[1] O, beynəlxalq hüququn ona görə primitiv növüdür ki, demək olar ki, tamamilə mərkəzləşdirilməmiş hüquqdur.

[1] Bax: A.R.Radcliffe-Brown, "Primitive Law," *Encyclopedia of the Social Sciences*, Vol. IX, səh. 203-204; ədəbiyyat üçün bax: səh. 262.

Beynəlxalq hüququn mərkəzləşdirilməmək xüsusiyyəti beynəlxalq cəmiyyətin mərkəzləşdirilməmiş strukturunun qaçılmaz nəticəsidir. Daxili hüquq təşkilatlanmış qüvvə üzərində inhisarı əlində saxlayan qrup, yəni dövlət rəsmiləri tərəfindən təsirə məruz qala bilər. Heç bir mərkəzi qanunverici və hüquq-mühafizə hakimiyyətinin mövcud ola bilməməsi təyinatına görə öz müvafiq əraziləri daxilində ali hüquqi hakimiyyət olan suveren dövlətlərdən təşkil olunmuş beynəlxalq cəmiyyətin əsas xüsusiyyətidir. Beynəlxalq hüquq mövcudluğuna və fəaliyyətinə görə iki amilə borcludur: ayrı-ayrı dövlətlərin üst-üstə düşən və kənar məqsədləri və onlar arasında qüvvələrin bölgüsü. Nə maraqlar birliyi, nə də qüvvələr tarazlığının olmadığı yerdə beynəlxalq hüquq olmur. Daxili hüquq dövlətin qurumlarının qərarsız iradəsindən qaynaqlandığı və onun tərəfindən məcburən həyata keçirildiyi halda, beynəlxalq hüquq, əsasən, qərəzsiz sosial qüvvələrin nəticəsidir.

Qüvvələr tarazlığının belə bir sosial qüvvə olması beynəlxalq hüququn müasir qabaqcıl müəllimlərindən biri tərəfindən qəbul olunub. L.Openhaym qüvvələr tarazlığını "Beynəlxalq hüququn mövcudluğunun özünün zəruri şərti"[1] adlandırır. O qeyd edir:

"Deyə bilərik ki, dövlət hüququnun inkişaf tarixi əsasında 6 əxlaq norması əldə edilir:

(1) İlk və əsas əxlaq norması budur ki, "dövlətlər hüququ" yalnız "dövlətlər ailəsi"nin üzvləri arasında müvazinət, qüvvələr tarazlığı olarsa, mövcud ola bilər. Əgər dövlətlər bir-biri üzərində nəzarəti saxlaya bilməzsə, heç bir hüquq qaydasının heç bir qüvvəsi olmaz, çünki fövqəlgücə sahib olan dövlət təbii olaraq hüquqdan uzaq durmaq və ona tabe olmamaq əsasında fəaliyyət göstərməyə çalışacaq. Suveren dövlətlərin üstündə dövlət hüququnun qaydalarını məcburi şəkildə yerinə yetirən mərkəzi siyasi hakimiyyətin olmaması və heç vaxt olmayacağı səbəbindən qüvvələr tarazlığı dövlətlər ailəsinin istənilən üzvünün hər şeyə qadir olmasının qarşısını almalıdır.[2]

Qüvvələr tarazlığı mərkəzdənqaçıran qüvvə kimi yalnız beynəlxalq hüququn pozulmalarına qarşı əsas çəkindirici formasında və müstəsna hallarda beynəlxalq hüququn pozulması hüquq mühafizə tədbiri tələb edən zaman fəaliyyət göstərir. Digər tərəfdən ortaq və kənar maraqlar mərkəzdənqaçıran amil kimi daim fəaliyyətdədir; onlar beynəlxalq hüququn yaşam mənbəyidir. Onlar öz mərkəzdənqaçırma təsirlərini istənilən hüquqi sistemin yerinə yetirməli olduğu üç əsas vəzifəyə göstərirlər: qanunvericilik, hökm vermə və məcburiyyət.

[1] L.Oppenheim, *International Law*, 2nd ed. (London: Longmans, Green, 1912) Vol. 1, səh. 193. Onu qeyd etmək maraqlıdır ki, qüvvələr tarazlığı haqqında bu və növbəti fikir sonuncu nəşrin redaktoru tərəfindən çıxarılmışdır.
[2] Yenə orada, səh. 80.

BEYNƏLXALQ HÜQUQUN QANUNVERİCİLİK FUNKSİYASI

Onun dağınıq xarakteri

Müasir daxili cəmiyyətlərimizdə ən mühüm hüquqi qaydalar qanunvericilər və məhkəmələr tərəfindən yaradılır; yəni ya ABŞ-da Konqres və Ali Məhkəmə dövlətin bütün vətəndaşları üçün etdiyi kimi, ya da ştat qanunverici orqanı, şəhər şuraları və regional və yerli məhkəmələr müəyyən regional qruplar üçün etdiyi kimi. Beynəlxalq sahədə isə qanun yaradan iki qüvvə var: zərurət və qarşılıqlı razılıq. Beynəlxalq hüquq ayrı-ayrı dövlətlərin razı olub-olmamasından asılı olmayaraq, məcburi olan, məsələn, milli suverenliyin hüdudları, onun öz qaydalarının şərhi və buna oxşar məsələlərə aid azsaylı qaydalar ehtiva edir; çünki bu qaydalar olmadan, ümumiyyətlə, heç bir hüquqi nizam, yaxud ən azından çoxsaylı dövlət sistemini tənzimləyən heç bir hüquqi nizam mövcud ola bilməz. Ümumi və zəruri beynəlxalq hüquq adlandırıla bilən azsaylı qaydalardan başqa, beynəlxalq hüquq qaydalarının əsas kütləsi mövcudluğuna görə beynəlxalq hüququn ayrı-ayrı subyektlərinin özlərinin – ayrı-ayrı dövlətlərin qarşılıqlı razılığına borcludur. Hər bir dövlət beynəlxalq hüququn yalnız o qaydaları tərəfindən məcbur edilə bilər ki, onlara razılıq verib.

Beynəlxalq hüququ yaradan ən əsas vasitə beynəlxalq müqavilədir. Beynəlxalq müqavilə beynəlxalq hüququ yalnız o xalqlar üçün yaradır ki, onun bir parçasıdırlar. Amerika dövlətləri arasında bağlanmış müqavilə yalnız onlar üçün məcburidir, başqa heç bir dövlət üçün deyil. Sovet İttifaqı və İran arasında bağlanmış müqavilə, bir qayda olaraq, hər hansı üçüncü bir dövlət üçün heç bir hüquqi təsirə malik deyil. Odur ki beynəlxalq hüquq sahəsində qanunvericilik funksiyasının fəaliyyət göstərdiyi şərait, ABŞ daxilində qanunvericilik funksiyası, *stare decisis*, yəni əvvəlki qaydalara söykənmək məcburilik qaydası altında fəaliyyət göstərən qanunverici orqan və məhkəmələrin olmasına baxmayaraq, ayrı-ayrı vətəndaşların özləri tərəfindən şəxsi müqavilələr formasında yerinə yetirilməli olduğu halda daxili arenada mövcud ola biləcək vəziyyət ilə eynidir. Baxmayaraq ki, müəyyən bir bələdiyyədə çirkab sularının təmizlənməsi, yaxud rayonlaşmanı tənzimləyən bələdiyyə qanunu var, bu məsələlər müxtəlif küçələrin sakinləri arasında əldə edilmiş bir sıra şəxsi razılaşmalarla da həll oluna bilərdi. Bu halda bələdiyyədə küçələrin sayı qədər tənzimləmə qaydası olardı. Belə bir qanunvericilik sisteminin zəruri nəticəsi bir tərəfdən bütün aidiyyəti olanların yekdil razılığı gözlənilmədiyi zaman, ümumiyyətlə, hüquqi tənzimləmənin olmamasıdır. Digər tərəfdən xüsusi bir hala münasibətdə qanunun, əslində, necə olduğuna dair qeyri-müəyyənlik və müxtəlif şəxslərə münasibətdə

eyni vəziyyəti tənzimləyən qaydaların müxtəlif qrupları arasında ziddiyyətlər mövcud ola bilər. Bu, beynəlxalq hüquqda yalnız öz aralarında müqavilələr bağlamaqla beynəlxalq hüquq yarada bilən subyektlərin nisbətən az sayı – təxminən 160 suveren dövlət – ilə yüngülləşən mövcud vəziyyətdir.

Qanunverici funksiyanın bu dağınıq xarakterindən beynəlxalq hüquq üçün iki nəticə doğur. Birincisi, beynəlxalq əlaqələrə dair əksər məsələlər, məsələn, immiqrasiya və iqtisadi siyasətin əksər aspektləri beynəlxalq hüquq ilə tənzimlənmir. Müxtəlif dövlətlərin bu məsələlərdə maraqları o qədər çox fərqlidir ki, hüquqi qaydalara dair razılığa gələ bilmirlər. Digəri, razılığın əldə edilməsi mümkün olan məsələlərdə çox vaxt təhlükəsizlik və iğtişaş üstünlük təşkil edir. Əgər ABŞ-ın hansı beynəlxalq hüquq qaydalarını özü üçün məcburi hesab etdiyini bilmək istəyiriksə, ABŞ-ın nə vaxtsa bağladığı bütün müqavilələri araşdırma zamanı hələ də qüvvədə olanları müəyyən etdikdən sonra diqqətlə nəzərdən keçirməliyik. Daha sonra beynəlxalq tribunalların ABŞ tərəf olduğu hallarda qəbul etdiyi qərarları və beynəlxalq hüququn qaydalarını tətbiq edən Amerika məhkəmələrinin qərarlarını gözdən keçirməliyik. Nəhayət, ABŞ nümayəndələrinin beynəlxalq danışıqlarda ABŞ-ın beynəlxalq münasibətlərdə yerinə yetirilməsini boynuna götürdüyü müəyyən beynəlxalq hüquq qaydalarının əks olunduğu diplomatik sənədləri araşdırmalıyıq. Bütün bu qaydaların ümumilikdə cəmi Çarlz K.Haydın adlandırdığı *"Əsasən, ABŞ tərəfindən şərh və tətbiq edilən beynəlxalq hüquq"*[1]dur.

Digər dövlətlər tərəfindən qəbul olunmuş beynəlxalq hüquq qaydaları da eyni yorucu proseslə tərtib olunmuşdur. Tarixin müəyyən bir mərhələsində dünyada məcburi olan beynəlxalq hüquq qaydalarının ümumilikdə cəmini öyrənmək üçün nəzəri olaraq dünyanın bütün dövlətlərinə münasibətdə faktlar oxşar şəkildə toplanmalıdır. Əgər belə bir tapşırıq, həqiqətən, qarşıya qoyulsaydı, onun nəticələri ümumi prinsiplərə, eləcə də ayrı-ayrı qaydalara münasibətdə böyük fərqlər nümayiş etdirərdi. Beynəlxalq hüququn məhdud sahələrinə dair bütün dünyada aparılan araşdırmalar bu razılaşma boşluğunu izah edir. Əksər tədqiqatçılar anqlo-amerikan beynəlxalq hüququ, Amerika beynəlxalq hüququ və beynəlxalq hüququn rus nəzəriyyəsi əvəzinə qitə hüququndan bəhs edirlər.[2]

Xüsusi nümunə kimi dənizkənarı zonanın enini götürsək, – yəni qonşu dövlətin ərazi yurisdiksiyasının dənizdə hansı məsafəyə qədər uzandığı məsələsini, – bu sahədə müxtəlif dövlətlər tərəfindən qəbul olunmuş beynəlxalq hüququn nə

[1] İki cilddə. (Boston: Little, Brown, 1946).

[2] Beynəlxalq hüquqa dair bu müxtəlif nəzəriyyələr və onlara aid ədəbiyyatlar üçün müqayisə et: L.Oppenheim and H.Lauterpacht, *International Law*, 8th ed. (London: Longmans, Green, 1955), Vol. I, səh. 48 və növbəti səhifələr

qədər kəskin fərqləndiyinin şahidi olarıq. Bir sıra dövlətlər 3 millik hüdud prinsipinə əməl edir, Finlandiya və Norveç digər dövlətlərin etirazına baxmayaraq, dənizkənarı zona üçün 4 mil enində olan zolağa iddia edir. Digər nümunə kimi İtaliya, İspaniya, Yuqoslaviya, Hindistan, Meksika, İslandiya, İndoneziya, Sovet İttifaqı, Misir, Fransa və Polşa 12 millik zolağa iddia edir. Albaniyanın iddiası 15 mil, Ekvadorun iddiası 200 mildir. Almaniya, Belçika və Böyük Britaniya yalnız 3 millik zolağa iddia edir; lakin Britaniya ona məxsus olan ərazi sularının arxasındakı bitişik zona adlanan sulara iddia edir. Digər dövlətlər bu dövlətlərin bitişik zonaya iddiasını inkar etsə də, qəbul edirlər ki, müəyyən şərtlər altında dövlətin öz yurisdiksiyasını 3 millik hüdudun arxasına genişləndirmək və xarici dövlətlərin ticarət gəmilərini müəyyən qədər nəzarətə cəlb etmək hüququ var. 1982-ci il Dəniz hüququ müqaviləsinin II fəslinin 2-ci bölümünün 3-cü maddəsi müqaviləni ratifikasiya edən dövlətlərdən, əgər başqa hal nəzərdə tutulmayıbsa, 12 millik hüduda əməl etməyi tələb edir, lakin bir-birindən fərqli yurisdiksiya hüdudlarına malik dövlətlərin həmin qərarları ratifikasiya edib-etməyəcəyi və ratifikasiya edənlərin nə vaxtsa belə qərarlardan imtina edib-etməyəcəyi problem olaraq qalır.

Birtərəfli iddiaların çaşdırıcı çoxluğunun nəticəsi olan belə qeyri-dəqiqlik qanunvericilik funksiyasının dağınıq xarakterinin reallığında dövlətlər hüququnun əksər sahələrinə az və ya çox dərəcədə aiddir. Bununla belə, hökumətlər hər zaman beynəlxalq hüququn onların xarici siyasətinə göstərəcəyi məhdudlaşdırıcı təsirdən qurtulmağa, bunun əvəzinə, beynəlxalq hüquqdan milli maraqlarının təmin edilməsi və onlar üçün zərərli ola biləcək hüquqi öhdəliklərdən boyun qaçırmağa çalışır. Onlar beynəlxalq hüququn qeyri-dəqiqliyindən məqsədlərinin gerçəkləşməsinə şərait yaratmaq üçün hazır alət kimi istifadə ediblər. Onlar bunu dəstəklənməyən hüquqi iddialarını irəliyə çəkməklə və beynəlxalq hüququn ümumi şəkildə qəbul olunan qaydalarının mənasını təhrif etməklə ediblər. Beləliklə, beynəlxalq hüququn dağınıq təbiətinə xas olan qeyri-dəqiqlik bu qeyri-dəqiqliyi hər zaman olduğundan daha da artırır və onun yaranışında mövcud olmuş çatışmazlıq onun gücünü tükətməkdə davam edir.

Beynəlxalq hüququn yalnız ümumi razılaşmalarda məcəllələşmiş, adətən, texniki və humanitar xarakterli sahələri müəyyən qədər bu zəiflikdən qurtulur.[1] Beynəlxalq hüququn məcəllələşdirilməsi hüquqi təsirlərinə görə burada beynəlxalq

[1] Bunun nümunələri kommunikasiyalar sahəsində məcəllələşdirmələr, məsələn, 1874-cü il Ümumdünya Poçt Konvensiyası, 1944-cü il Beynəlxalq Mülki Aviasiya Konvensiyası və bir çox digərləri, eləcə də səh. 300 və növbəti səhifələrdə haqqında bəhs edilən, müharibənin humanistləşməsinə cəhd edən ümumi beynəlxalq razılaşmalardır.

qanunvericiliyin həqiqi bir parçasına ekvivalent olduğundan o, demək olar ki, beynəlxalq hüququn bütün subyektlərini birləşdirir. Beynəlxalq hüququn məcəllələşdirilməsini həqiqi qanunvericilik prosesindən kənarlaşdıran yalnız – demokratik qanunvericilik prosesinin tələb etdiyi çoxluq qaydasının əksinə – onunla bir araya gəlməli olanların hamısının razılığının olması tələbidir.

Təfsir və məcburiyyət qüvvəsi

Beynəlxalq hüququn bütün subyektlərinin yekdil razılığını həqiqi beynəlxalq qanunvericilik ilə əvəz etmək ehtiyacı beynəlxalq hüquq üçün səciyyəvi olan daha bir çətinliyin ortaya çıxmasına səbəb olur. Bu, beynəlxalq müqavilələrin verdiyi hüquqlar və qoyduğu öhdəliklər haqqında qərarların mənasını müəyyənləşdirmək problemidir. Daxili sahədə bu problem qəbul etdikləri hüquqi qaydaları mümkün qədər dəqiqləşdirməyə çalışan qanunvericilik qurumlarının özləri, qanunları konkret hallara tətbiq etməklə hər zaman onların şərhi prosesinə cəlb olunan məhkəmələr və eyni funksiyanı yerinə yetirən göstərişlər verən icraçı və idarəetmə qurumları tərəfindən həll olunur. BMT-nin Nizamnaməsi həmçinin sırf texniki xarakter daşıyan bir çox digər sənədlər kimi beynəlxalq hüquqi sənədlər təsadüfən, yaxud Amerika Konstitusiyası kimi xüsusi və müstəsna səbəblərdən deyil, müntəzəm olaraq və zərurətdən qeyri-dəqiq və ikimənalıdır. Çünki belə sənədlər hüquqi qüvvə əldə etmək üçün zəruri olan hüququn bütün subyektlərinin razılığına nail olmaq məqsədilə qəbul olunan qaydalardan təsirlənəcək və ya təsirlənə biləcək bütün fərqli olan milli maraqlara əhəmiyyət verməlidir. Bütün bu müxtəlif milli maraqların ahəngdar şəkildə bir araya gəlməsi üçün ümumi zəmin tapmaq məqsədilə ümumi müqavilələrdə öz əksini tapmış beynəlxalq hüquq qaydaları bütün onu imzalayan dövlətlərin öz milli maraqlarını razılaşdırılmış hüquqi sənəddə tapmasına imkan vermək üçün çox vaxt qeyri-dəqiq və ikimənalı olmalıdır. Əgər bu, ABŞ-ın Konstitusiyasına münasibətdə, həqiqətən, əhəmiyyətli dərəcədə baş verdiyi kimi daxili sahədə baş verməli olsaydı, müvafiq dövlət qurumu tərəfindən verilən qərar – ABŞ-da Ali Məhkəmə, yaxud Böyük Britaniyada Parlament – hüququn qeyri-dəqiq və ikimənalı qərarlarına konkret məna verərdi.

Beynəlxalq düzəndə hüququn subyektləri yalnız özləri üçün qanunlar dərc etmir, onlar həmçinin öz qanunvericilik tədbirlərini şərh edən və onlara konkret məna verən ali hakimiyyətdir. Onlar beynəlxalq hüququn qərar və göstərişlərini təbii olaraq milli maraqlarının xüsusi və fərqli təsəvvürü fonunda şərh və tətbiq edəcəklər. Onlar bu qərar və göstərişləri təbii olaraq öz məxsusi beynəlxalq siyasətlərinə dəstək olmaq üçün istifadə edəcək və beləliklə də, beynəlxalq hüququn bu qaydalarının qeyri-dəqiq və ikimənalı olmalarına baxmayaraq, sahib

ola biləcəkləri hamıya tətbiq edilə bilən məhdudlaşdırıcı qüvvəsini məhv edəcəklər. Cənab Jan Rey Millətlər Cəmiyyətinin Nizamnaməsi haqqında bəhs edərkən bu vəziyyəti yaxşı analiz etmişdir: "Lakin təhlükə aşkardır. Cəmiyyətin ayrı-ayrı üzvləri şərh məsələlərində qəti səlahiyyətə malik olsalar, səlahiyyətdilik baxımından bərabər olan bütün fərqli şərhlər daimi bir forma alacaq; və iki dövlət arasındakı münaqişədə ikili məna daşıyan bir mətnə müraciət olunan zaman çıxılmaz bir vəziyyət yaranacaq".[1] Millətlər Cəmiyyətinin tarixində belə hallar dəfələrlə baş verib və BMT-nin tarixi də bizə eyni təbiətli bir sıra nümunələr bəxş edib.[2]

Nəhayət, qanunvericilik nöqteyi-nəzərindən beynəlxalq hüququn zəifliyinə xidmət edən digər bir nöqsan da var və o, lazımi qaydada imzalanmış və ratifikasiya edilmiş müəyyən bir beynəlxalq müqavilənin, əslində, bütövlükdə, yaxud qismən beynəlxalq hüququn onu imzalayanların üzərinə məcburiyyət qoyan işlək qaydalara sahib olub-olmamasına dair qeyri-müəyyənlikdir. ABŞ daxili qanunvericiliyinin hər hansı bir sənədinə münasibətdə belə bir problemin üzə çıxacağını söyləmək çətindir. Çünki federal qanun konstitusion tələblərə uyğun olaraq, ya Konqres tərəfindən qəbul olunmuş və prezidentin tərəfindən imzalanmış olur və Məhkəmə onu ya qeyri-qanuni hesab edir, ya da yox.

Ali Məhkəmə son qərarı verənə qədər onun konstitusion olub-olmamasına, yaxud şərhinə dair qeyri-müəyyənlik ola bilər, lakin onun işlək bir hüquqi qayda kimi mövcudluğuna dair heç bir qeyri-müəyyənlik ola bilməz. Faktiki olaraq beynəlxalq birliyin bütün üzvləri tərəfindən lazımi qaydada imzalanmış və ratifikasiya edilmiş müəyyən hüquqi qaydaların mövcudluğuna münasibətdə belə qeyri-müəyyənlik beynəlxalq hüququn birbaşa kökünü qazıyır.

Bu növ beynəlxalq hüququn ən bariz nümunəsi kimi bütün dövlətlərin "birbiriylə münasibətlərdə müharibədən milli siyasətin aləti kimi imtina etməyə" dair razılığa gəldikləri, 1928-ci ildə imzalanmış Brian-Kelloq paktını nəzərdən keçirək. Bu razılaşma imzalandığı gündən onu imzalayanlar üçün məcburi olan beynəlxalq hüquq qaydası idi, yoxsa əxlaq prinsipinin hüquqi təsiri olmayan sadə bir bəyanat idi? Nürnberq məhkəmələrinin yaratdığı beynəlxalq hüquq – həmin

[1] *Commitair edu Pactedela Sociétedes Nations* (Paris: Sirey, 1930), səh. 44.

[2] Bu vəziyyəti aradan qaldırmaq məqsədilə BMT Baş Assambleyası 1947-ci il noyabrın 14-də keçirilmiş II sessiyasında Nizamnamənin və ixtisaslaşmış qurumlarının nizamnamələrinin şərhinin beynəlxalq hüququn qəbul edilmiş prinsiplərinə əsaslanmasının vacib əhəmiyyətini bəyan edən qətnamə qəbul etdi. Qətnamə xüsusilə BMT-nin qurumlarını fəaliyyətləri məcrasında ortaya çıxan hüquqi məsələlərə dair Beynəlxalq Ədalət Məhkəməsi ilə məşvərətləşməyə çağırdı (*BMT-nin sənədləri, A/459*). Baş Assambleyanın xahişi ilə Məhkəmə Nizamnamənin və digər beynəlxalq müqavilələrin şərhinə dair bir sıra məşvərətçi fikirlər ilə çıxış etdi.

hüquqa əsasən təcavüzkar müharibəyə hazırlıq və belə bir müharibə aparmaq beynəlxalq cinayətdir – artıq mövcud olan Brian-Kelloq paktının tətbiqi idi, yoxsa əvvəllər mövcud olmayan bir beynəlxalq hüquq yaratmışdı?[1] Bu, Nürnberqdə qərarlaşdırılmış bu və digər xüsusi hal üçün yaradılmışdı, yoxsa gələcəkdə baş verə biləcək istənilən oxşar hallar üçün də nəzərdə tutulmuşdu?

Müxtəlif düşüncə məktəbləri bu suallara müxtəlif cür cavab verib və mübahisə burada həll olunmur. Bu müzakirənin kontekstində qeyd olunması vacib olan müəyyən məqsədlər üçün kollektiv zorakılıq hərəkətlərini qadağan edib-etməməsinə münasibətdə belə bir fundamental suala dəqiq cavab vermək iqtidarında olmayan hüquqi sistemin zəifliyidir. Beləliklə, bu gün 1929-cu ildən sonra milli siyasətini həyata keçirmək üçün müharibə etmiş hər hansı dövlətin beynəlxalq hüququ pozduğunu və buna görə beynəlxalq hüququn qarşısında məsuliyyət daşıdığını, yaxud İkinci Dünya müharibəsinə hazırlıq və onu başlamaq üçün yalnız həmin şəxslərin bu şəkildə məsuliyyət daşıdığını, yaxud da gələcəkdə təcavüzkar müharibəyə hazırlaşan və onu aparan bütün dövlətlər və şəxslərin belə səlahiyyət daşıyacağını hər hansı ixtiyarla bəyan etməyin heç bir yolu yoxdur.

Quruda müharibənin qanunları və adətləri haqqında 1899 və 1907-ci illər konvensiyası və II Dünya müharibəsində və gələcək müharibədə onu imzalayanlar üzərində məcburiyyət qüvvəsinin qanuniliyi haqqında nə demək olar? Gördüyümüz kimi, I Dünya müharibəsində ədalətlə riayət olunan və o zaman pozulması müntəzəm olaraq qeyd olunan bu konvensiya[2] II Dünya müharibəsi zamanı bütün müharibə iştirakçıları tərəfindən müntəzəm və kütləvi şəkildə pozulurdu. Etiraz edilməyən və cəzalandırılmayan bu pozuntular konvensiyanın məcburedici qüvvəsinə son qoyubmu, yaxud həmin konvensiya irəli sürülə, həyata keçirilə bilən və gələcək müharibədə fəaliyyətin meyarına çevrilə bilən hüquqi alət kimi II Dünya müharibəsinə tab gətirə bildimi? Bəs II Dünya müharibəsi zamanı məcburi olmasına, demək olar ki, heç bir cəhd edilməyən və bir qayda olaraq, pozulan dəniz müharibəsi qaydalarına münasibətdə eyni məsələlər haqqında nə demək olar? "Ox dövlətləri" müttəfiq dövlətlər kimi düşmən gəmilərini heç bir fərq qoymadan və xəbərdarlıq etmədən batırırdı və hər iki tərəf mülki əhalini bombardman edirdi və müharibə qaydalarının bütün bu pozuntularını hərbi zərurət ilə əsaslandırırdı. Əgər beynəlxalq hüququn qaydaları davamlı olaraq pozulursa və bu pozulmalar hüququn bütün subyektləri tərəfindən başadüşülən kimi qəbul edilirsə, – buna görə də əgər hüquqi qaydalara riayət edilməsinə məcbur

[1] Müqayisə et: Hans J.Morgenthau, Erich Hula and Moorhouse F.X.Millar, *America*, Vol. 76. No. 10 (December 7, 1946), səh. 266-268.

[2] Bax: səh. 314 və növbəti səhifələr

etməli olanlar onlara sanki onlar mövcud deyillərmiş kimi münasibət göstərirlərsə, – belə bir sual meydana gəlir: onlar hələ də məcburi hüquqi qaydalar kimi mövcuddurlarmı? İndiki anda bu suallara heç bir dəqiq cavab verilə bilməz. Lakin müharibə texnologiyasının və beynəlxalq əxlaq normalarının təxmin edilən inkişafı fonunda ehtimallar həmin qaydaların mövcudluğunu qoruyub saxlayacağına qarşıdır.

1936-cı ildə Millətlər Cəmiyyətinin İtaliyaya qarşı sanksiyaları uğursuzluğa uğradı və növbəti illərdə Nizamnamənin ən mühüm müddəalarının kütləvi pozuntusuna aidiyyəti dövlətlərin münasibəti laqeyd oldu. Bu halda Millətlər Cəmiyyətinin bütövlükdə Nizamnaməsinə və onun müəyyən müddəalarına münasibətdə eyni suallar meydana gəldi. Hökumətlər elə hərəkət edirdi ki, bu müddəalar sanki öz məcburedici qüvvəsini itirib. Lakin onlar bu qüvvəni həqiqətən itirmişdilər, yoxsa onların hüquqi etibarlılığı yalnız 1946-cı ildə Cəmiyyətin rəsmi olaraq buraxılması ilə onların vaxtının bitməsinə qədər 30-cu illərin sonu və II Dünya müharibəsində yaşanmış böhrana davam gətirə bilmişdi? Bu suallar ilk dəfə meydana çıxan zaman onlara heç bir aydın və dəqiq cavab verilmirdi, heç indi də onların cavabı yoxdur. BMT-nin hüquqi qaydalarla müşahidə olunan etinasızlıqla Nizamnamənin onu nəzərdə tutduğundan hər hansı tam bir fərqli quruma çevrilməsinin tədqiqatçını oxşar suallar ilə qarşılaşdırdığı və onun cavablarının yalnız qeyri-müəyyən, ikimənalı və qətiyyətsiz olduğu az şübhə doğurur. Belə mühüm və fundamental suallara qənaətbəxş olmayan cavablar da beynəlxalq hüququn hüquqi nöqteyi-nəzərdən qüsurlu olduğunun ölçüsüdür.

BEYNƏLXALQ HÜQUQUN MÜHAKİMƏ FUNKSİYASI

Hüquqi qaydanın mövcudluğuna və ya sistemə daxil edilməsinə münasibətdə fikir ayrılığı yarananda səlahiyyətlə danışa biləcək məhkəmə orqanları mövcud idisə, qanunvericilik funksiyasının dağınıq xarakterinin nəticəsi olan bu çatışmazlıqlara baxmayaraq, hüquqi sistem öz subyektlərinin güc istəklərini nəzarətdə saxlamaq iqtidarında olmalı idi. Belə ki, konstitusion şərh məsələlərində Amerika Konstitusiyasının ikimənalı müddəaları və qeyri-müəyyənlikləri Ali Məhkəmənin məcburi yurisdiksiyası vasitəsilə, əsasən, zərərsiz olurdu. Xüsusilə ingilis ümumi hüququ əsas etibarilə məhkəmələrin qərarları və yalnız az miqdarda rəsmi qanunvericilik tədbirləri vasitəsilə müəyyənlik və dəqiqlik əldə etmişdir. Məhkəmə orqanlarının iyerarxiyası inkişaf etmiş bütün hüquq sistemlərində hüququn subyektlərinin hüquq və vəzifələrini rəsmi və qəti şəkildə təyinetmə vəzifəsini yerinə yetirir.

Əgər ABŞ-ın bir vətəndaşı digər bir vətəndaşına qarşı federal qanun, ya konstitusion nöqsanlara görə, yaxud da qanunun özünün məzmunu baxımından ona tətbiq olunmadığı fikri ilə çıxış edirsə, hər iki vətəndaş müəyyən prosedur şərtləri altında öz iddiasını məsələnin rəsmi həlli üçün federal məhkəməyə göndərə bilər. Məhkəmənin yurisdiksiyası tərəflərdən biri iddia ilə çıxış edərkən təyin olunur; bu, digər tərəfin razılığından asılı deyil. Başqa sözlə, bir Amerika vətəndaşı hüquqi münasibətlərini rəsmi şəkildə təyin etmək üçün digər vətəndaşı məhkəmə qarşısına çağıra bilir və bununla məhkəmənin yurisdiksiyasını birtərəfli şəkildə təyin etmək imkanına malik olur. Qərardan narazı olan tərəf son instansiya məhkəməsi, Ali Məhkəmə vəziyyətə dair qəti qərarı söyləyənə qədər daha yüksək məhkəməyə müraciət edə bilər. Həmin qərar *stare decisis* qaydası reallığında qanunvericilik fəaliyyəti səviyyəsinə malikdir, çünki o yalnız tərəflər arasında və xüsusi bir məsələyə münasibətdə deyil, qərarın əsaslarının tətbiq olunduğu bütün gələcək şəxslərə və hallara münasibətdə qanun yaradır.

Beynəlxalq hüquq səmərəli məhkəmə sisteminin üç əsasının hamısından məhrumdur: məcburi yurisdiksiya, məhkəmə qərarlarının iyerarxiyası və *stare decisis* qaydasının ən azından ən yüksək məhkəmə instansiyasının qərarlarına tətbiqi.

Məcburi yurisdiksiya

Beynəlxalq məhkəmələrin yurisdiksiyasının yeganə mənbəyi mübahisələri haqqında hökm çıxarılmaq üçün həmin məhkəmələrə göndərən dövlətlərin iradəsidir. Beynəlxalq hüquqda bir aksiomdur ki, heç bir dövlət öz iradəsinin əksinə digər bir dövlət ilə mübahisəsini beynəlxalq tribunala göndərməyə məcbur edilə bilməz. Başqa sözlə, heç bir beynəlxalq məhkəmə beynəlxalq mübahisələr üzərində aidiyyəti dövlətlərin razılığı olmadan yurisdiksiya əldə edə bilməz. Daimi Beynəlxalq Ədalət Məhkəməsi *Şərqi Kareliya hadisəsi* haqqında qeyd edirdi ki, "beynəlxalq hüquqda belə təsbit olunub ki, heç bir dövlət öz razılığı olmadan başqa dövlət ilə mübahisəsini baxılmaq üçün vasitəçilik, yaxud arbitraj, yaxud da digər hər hansı dinc həll üsuluna təqdim etməyə məcbur edilə bilməz. Belə razılıq azad şəkildə üzərinə götürülən öhdəlik formasında birdəfəlik verilə bilər, lakin o həmçinin, əksinə, hər hansı öhdəlikdən kənar xüsusi bir hal üçün də verilə bilər".[1]

[1] P.C.I.J. Series B. No. 5, səh. 27. (Daimi Beynəlxalq Ədalət Məhkəməsi, B seriyası, №.5, səh. 27).

Təcrid olunmuş arbitraj[1] nümunəsində – yəni tərəflər ayrıca bir münaqişəni o baş verəndən sonra beynəlxalq tribunalın yurisdiksiyasına göndərməyə razılaşdıqları zaman – bu prinsip özünü, sadəcə olaraq, məhkəmənin yurisdiksiyasını müəyyən edən tərəflər arasında müqavilədə göstərilmiş öhdəlik tələbində büruzə verir. Belə ki, ABŞ və Böyük Britaniya Vətəndaş müharibəsindən qaynaqlanan *Alabama* iddialarını diplomatik danışıqlar vasitəsilə yoluna qoymağı bacarmadıqda münaqişəni beynəlxalq tribunala göndərmək haqqında müqavilədə razılığa gəldi. Tribunal bu məsələyə dair hökmünü verdikdən sonra ona xitam verildi; çünki onun ABŞ və Böyük Britaniya arasındakı müqavilədən irəli gələn yurisdiksiyası yalnız bu məsələyə dair qərarın verilməsi ilə bitirdi. Əgər ABŞ və Böyük Britaniya arasında beynəlxalq "hökm çıxarma" ilə həll edilməli olan digər mübahisə ortaya çıxardısa, digər bir müqavilə imzalanmalı və oxşar prosedur ilə müşayiət olunmalı idi. Əgər tərəflər arasında mübahisənin təyinatına tribunalın təşkili və proseduru və tətbiq olunmalı hüquqi qaydalara dair razılıq əldə oluna bilməzdisə, məhkəmə yolu ilə heç bir həll mümkün olunmazdı.

Təsisati arbitraj nümunəsində – yəni bütöv bir münaqişələr sinfi (məsələn, hüquqi xarakterli olanlar, yaxud sülh və ya ticarət müqaviləsindən irəli gələnlər) baş verməzdən əvvəl ümumi razılaşma ilə beynəlxalq səviyyədə qərarın verilməsi üçün baxılmağa təqdim olunarkən – bir qayda olaraq, hadisələrin gedişinin iki fərqli mərhələsində tərəflərin razılığı tələb olunur. Birincisi, o, müəyyən mübahisələr sinfini baxılmaq üçün beynəlxalq məhkəmənin yurisdiksiyasına təqdim etmək haqqında ümumi razılıq üçün tələb olunur.

İkincisi, o, mübahisə ortaya çıxdıqdan sonra əldə olunan xüsusi razılıq üçün tələb olunur – bu razılaşmada tərəflər bəyan edir ki, həmin xüsusi mübahisə o mübahisələr sinfinə mənsubdur ki, ümumi razılaşma onlar üçün beynəlxalq hökm verməni təmin edir. Məsələn, iki dövlət arasında arbitraj müqaviləsi gələcəkdə onlar arasında baş verəcək bütün hüquqi mübahisələrin baxılmaq üçün beynəlxalq tribunala təqdim olunacağını təmin etdikdə heç bir dövlət, bir qayda olaraq, ayrıca bir hüquqi mübahisəni baxılmaq üçün, sadəcə, hökm verməyə təqdim etməklə məhkəmənin yurisdiksiyasını birtərəfli şəkildə təyin etmək hüququna malik olmur. Məhkəmənin yurisdiksiyasının təyin edilməsi üçün ayrıca bir mübahisəyə aid xüsusi razılaşmanın əldə olunması zəruridir.

[1] Biz "arbitraj" və "hökm çıxarma" terminlərini fərq qoymadan istifadə edirik. Birinci termin Daimi Beynəlxalq Ədalət Məhkəməsi təsis edilməzdən əvvəl ikitərəfli razılaşmalar ilə yaradılan məhkəmə qurumları üçün istifadə edilir, "hökm çıxarma" termini isə hal-hazırda, bir qayda olaraq, təşkil edilmə üsulundan asılı olmayaraq, beynəlxalq xarakterli bütün məhkəmə qurumları üçün istifadə edilir.

Dövlətlərin beynəlxalq məhkəmənin yurisdiksiyasının müqavilədə əksini tapan xüsusiyyətini mühafizə etmək üçün yaşadıqları narahatlıq ser H.Lauterpaxt tərəfindən izah olunur:

"...Daimi Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən verilən qərarların əksəriyyəti "məhkəmə yurisdiksiyasına etirazlar" adlandırılan, yəni aidiyyəti arbitraj razılaşmalarının sərt və hiyləgər şərhi ilə müdafiə olunan bir tərəfin etirazı ilə digər tərəfə, Hobbsun hətta təbii vəziyyətdə elementar hesab etdiyi qərəzsiz hökm çıxarma hüququ vermək məsələsinə aid olmuşdur. Bu, bir qayda olaraq, digər beynəlxalq qurumun məsələni həll etmək iqtidarında olması səbəbindən deyil, müzakirə olunan məsələnin hər hansı bir öhdəliklə məhkəmə tərəfindən nizamlanma üçün təqdim edilməyə məcbur edilməməsi zəminində edilmişdir.

Müəllif əlavə edir ki, "hətta haqqında hökmün verilməsi üçün təqdim etməklə bağlı elementar öhdəlik qəbul olunanda belə [yəni ümumi razılaşmada] o, təcrübədə çox vaxt onu hər hansı hüquqi öhdəlikdən məhrum, adi bir formul səviyyəsinə salan, diqqətlə hazırlanmış qeyd-şərtlərlə müşayiət olunur".[1]

Məcburiyyətsizlik qeyd-şərti

Aydın məsələdir ki, belə şərtlər altında mübahisələr baş verməzdən əvvəl onların məhkəmə yolu ilə həlli üçün müraciət etməyə dair dövlətlərin ümumi öhdəliyindən danışmaq çətindir. Haqqında hökm verilməli xüsusi bir mübahisəyə aid ayrıca razılaşma tələbi və qeyd-şərtlər tərəfindən ümumi razılaşmanın xarakteri faktiki olaraq icbari məhkəmə iddiasının qarşısını alır. Əgər o arzu edirsə, onlar dövlətə ilkin fəaliyyətin bütün mərhələlərində hərəkət azadlığını saxlamaq imkanı verir. Daimi Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinin 36-cı maddəsində məcburi olmayan qeyd-şərt adlandırılan anlayışın yaradılması beynəlxalq məhkəmə funksiyasını ən azından müəyyən mübahisə siniflərinə münasibətdə daxili məhkəmə iddiasının ciddi məcburiyyətinə uyğunlaşdırmaq məqsədi daşıyır. Bu hiyləgər vasitə heç bir dəyişiklik olmadan yeni Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinin 36-cı maddəsinə daxil edilir. Bu müddəa Nizamnaməni imzalayanlar üçün "bütün hüquqi mübahisələrdə Məhkəmənin yurisdiksiyasını eyni öhdəliyi qəbul edən istənilən dövlətə münasibətdə *ipsofacto* məcburi prinsipi kimi və xüsusi razılaşma olmadan qəbul etmək" imkanı yaradır.

Əvvəlki Məhkəmə rejimində qeyd-şərt 50-yə yaxın dövlət üçün bu və ya digər məqamda məcburi idi. Yeni Nizamnaməni imzalayan dövlətlərin sayı 45-dir.

[1] H.Lauterpacht, *The Function of Law in the International Community* (Oxford: Clarendon Press, 1933), səh. 427. (Naşirin icazəsiylə təkrar nəşr edilmişdir)

Lakin çox az dövlət onu qeyd-şərtsiz imzalayıb. ABŞ-ın Beynəlxalq Ədalət Məhkəməsinin məcburi yurisdiksiyasını qəbul etdiyinə dair 14 avqust 1946-cı il tarixli bəyannaməsi ciddi hüquqi öhdəliklərin yoxolma dərəcəsinə qədər azaldılmasına münasibətdə uzaq gedən qeyd-şərtlərlə bu şəkildə cılızlaşdırılan qəbul prosesinin prototipidir. Onun şərtlərinə görə:

...bu bəyannamə aşağıdakı hallara tətbiq olunmayacaq:

a. tərəflərin həlli artıq mövcud olan, yaxud gələcəkdə imzalana biləcək razılaşmalar vasitəsilə digər tribunallara etibar edəcəkləri mübahisələr; yaxud

b. Amerika Birləşmiş Ştatları tərəfindən müəyyən edildiyi kimi, əsasən, Amerika Birləşmiş Ştatlarının daxili yurisdiksiyasının daxilində olan məsələlərə münasibətdə mübahisələr; yaxud

c. çoxtərəfli müqavilədən irəli gələn mübahisələr əgər (1) qərarın təsirinə məruz qalan bütün müqavilə tərəfləri, həmçinin Məhkəmə qarşısına çıxarılmış hadisənin tərəfləri deyilsə, yaxud (2) Amerika Birləşmiş Ştatları xüsusi olaraq yurisdiksiya ilə razı deyilsə...[1]

a qeyd-şərti kiçik əhəmiyyət kəsb etdiyi halda, pərdələnmək üçün *b*, yaxud *c* qeyd-şərtlərindən biri ilə şərh edilməyən bir beynəlxalq mübahisə təsəvvür etmək çətindir. Beynəlxalq mübahisənin obyektinə çevrilməyə məruz qalmış çox az məsələ var ki, aidiyyəti ölkələrin daxili yurisdiksiyası onlar üzərində hər hansı təsirə malik olmasın. ABŞ və xarici bir ölkə arasında bağlanmış ticarət müqaviləsi tənzimlədiyi məsələləri "əsasən, Amerika Birləşmiş Ştatlarının daxili yurisdiksiyası"na daxil olan məsələlər kateqoriyasından çıxarır? İmmiqrasiya, xarici borc, yaxud silahların məhdudlaşdırılmasına aid beynəlxalq müqavilələr haqqında nə demək olar? Beynəlxalq hüquqla bu şəkildə əlaqədar olan məsələlər, əlbəttə ki, artıq "yalnız" ABŞ-ın daxili yurisdiksiyası daxilində deyil. Bəs onlar nə zaman, "əsasən", həmin yurisdiksiyaya daxil olmağı dayandırırlar? Görünür, o zaman ki, ABŞ bu kimi məsələlərə münasibətdə məhkəmə nəzarətindən azadlığını qoruyub saxlamaqda artıq maraqlı olmur. Nəyin, "əsasən", ABŞ-ın daxili yurisdiksiyasına daxil olduğu və nəyin daxil olmadığı siyasi fikir məsələsi olduğuna və *b* qeyd-şərtinə görə ABŞ-ın fikri bu məsələni heç bir müraciətsiz qərarlaşdıracağına görə, ABŞ əgər arzu edərsə, yalnız *b* qeyd-şərti hesabına tərəfi ola biləcəyi əksər mübahisələri Məhkəmənin yurisdiksiyasından kənarlaşdıra biləcək. Hətta əgər ABŞ-ın bu məsələyə dair fikri aydın şəkildə qərarsız və real zəminsiz olarsa, bəyannamənin şərtləri ABŞ-ı bu məsələdə son hakimə çevirir. 1984-cü ilin aprelində Reyqan administrasiyası bəyan etdi ki, o, 2 illik müddətdə Mərkəzi Amerika

[1] Document United States/International Court of Justice/5, *Department of State Bulletin*, Vol. 15, No. 375 (September 8, 1946), səh. 452.

da daxil olmaqla heç bir məsələyə münasibətdə Məhkəmənin yurisdiksiyasını qəbul etməyəcək. Bununla ABŞ yalnız daxili yurisdiksiya məsələsini irəli sürmədi, həmçinin onu birbaşa cənubunda yerləşən regiona da genişləndirdi.

c qeyd-şərti *b* qeyd-şərtinin Məhkəmənin məcburi yurisdiksiyasına buraxmış ola biləcəyi məsələlərin qayğısına qalır. Müasir dövrdə xüsusilə beynəlxalq siyasətə təsirləri baxımından daha əhəmiyyətli olan müqavilələrin çoxu çoxtərəflidir, məsələn, Panamerika müqaviləsi, BMT-nin Nizamnaməsi və İkinci Dünya müharibəsinə son qoyan sülh müqavilələri. Məcburi olmayan qeyd-şərtin tərəfdarlarının məhdud sayını nəzərə alaraq və qeyd-şərtlərin köməyi ilə yayınma imkanlarını nəzərə alaraq, belə bir müqavilə altında yaranan mübahisə halında sayı onlarla dövlətə çatan müqaviləyə imza atmış tərəflərin hamısı eyni zamanda Məhkəmədə tərəflərə çevrilə bilər. Bu halda ABŞ çoxtərəfli müqavilələrə münasibətdə Məhkəmənin məcburi yurisdiksiyasını qəbul etdiyi əksər hallarda öz fəaliyyət azadlığını qoruyub saxlayır.

Beləliklə, sonda məcburi olmayan qeyd-şərt altında məcburi yurisdiksiyanın inkişafı başlandığı yerə geri dönür: beynəlxalq məhkəmələrin yurisdiksiyasına münasibətdə milli fəaliyyət azadlığının böyük ölçüdə və ən mühüm mübahisələrdə qorunub saxlanılması. Həmin azadlığın qorunub saxlanması üçün yaradılmış hüquqi alətlər məcburi olmayan qeyd-şərt rejimi altında daha da təkmilləşib. Mübahisələrin ən mühüm olan siniflərinin hökm vermədən açıq şəkildə azad edilməsi əvəzinə onlar indi, əsasən, məcburi yurisdiksiyaya şifahi tərəfdarlıq ilə realda onu qəbul etmək həvəssizliyi arasındakı ziddiyyətin aradan qaldırılması və gizlədilməsi məqsədinə xidmət edir. Ona görə də təsadüfi deyil ki, Daimi Beynəlxalq Ədalət Məhkəməsi əsas etibarilə beynəlxalq arenada güc uğrunda mübarizəni məhdudlaşdırmaq deyil, tərəflərin, ümumiyyətlə, məsələni baxılmaq üçün Məhkəməyə göndərmək öhdəliyi daşıyıb-daşımaması ilə bağlı ilkin məsələ ilə məşğul olub. Yalnız bir dəfə Daimi Beynəlxalq Ədalət Məhkəməsi dövlətin güc istəklərinin məhdudlaşdırılması məsələsi ilə birbaşa olaraq üzləşməli olub. Bu, 1931-ci il Almaniya-Avstriya Gömrük İttifaqı məsələsi[1] idi və burada da Məhkəmənin yurisdiksiyası tərəflərin azad şəkildə imzaladıqları müqaviləyə deyil, Millətlər Cəmiyyətinin Nizamnaməsinin Cəmiyyətin şurasına Məhkəmənin məşvərətçi fikirlərini istəmək səlahiyyəti verilməsini nəzərdə tutan 14-cü maddəsinə əsaslanırdı. Həmçinin qeyd olunmalıdır ki, İkinci Dünya müharibəsinin sonundan etibarən dövlətlər birliyinin müxtəlif növdən olan çoxsaylı mübahisələrlə parçalanmaya məruz qalmasına baxmayaraq, Beynəlxalq Ədalət Məhkəməsi mövcud olduğu ilk 35 il ərzində yalnız 29 məsələ haqqında qərar qəbul edib.

[1] P.C.I.J. Series A/B, No. 41. (Daimi Beynəlxalq Ədalət Məhkəməsi, A/B seriyası, №.41).

Bütün nəzəri və praktiki mülahizələr belə nəticəyə gəlir ki, məcburi olmayan qeyd-şərt məcburi yurisdiksiya məsələsinin mahiyyətini elə onu tapdığı yerə qoyub. Hökm vermə sahəsində qanunvericilik sahəsində olduğundan yalnız cüzi miqdarda az şəkildə ayrı-ayrı dövlətlərin iradəsi proseslərin bütün mərhələlərində həlledicidir. Ona görə də beynəlxalq hökm vermə beynəlxalq arenada güc uğrunda mübarizə üzərində səmərəli məhdudiyyətlər qoymaq iqtidarında deyil. Məhkəmədə baxılmaq üçün təqdim etməklə əlaqəli ümumi olan vəzifənin qeyri-dəqiq və ikimənalı formulları və xüsusilə qeyri-müəyyən və əsassız qeyd-şərtin böyük müxtəlifliyi bütün dövlətləri hər hansı xüsusi mübahisəni öz iradələrinin əksinə beynəlxalq məhkəmədə baxılmaq üçün təqdim etməyə məcbur edilmək təhlükəsindən qoruyur. Odur ki ən azından vacib xarakterli mübahisələr üzərində məcburi yurisdiksiyaya münasibətdə məhkəmə funksiyasının dağınıqlığı öz növbəsində qeyd-şərtlərlə mənasızlaşdırılan hüquqi formul ilə, sadəcə, pərdələnərək baş verir. 1957-ci il baş katib Hamarşöld öz məruzəsində qeyd edirdi: "...Mən belə bir ehtimal haqqında narahatlığımı ifadə etməyə bilmərəm ki, indiki tendensiya əgər tezliklə dayandırılmazsa, məcburi yurisdiksiyasının bütöv sistemini faktiki olaraq xəyali bir məfhuma çevirə bilər".

Beynəlxalq məhkəmələr

Heç bir hüquqi sistem mübahisələr üzərində məcburi yurisdiksiya olmadan öz subyektlərinin fəaliyyətlərini məhdudlaşdırmaqda səmərəli ola bilmədiyinə görə hökm vermənin iki digər fundamental problemi – məhkəmə orqanlarının təşkili və onların qərarlarının səmərəsi – əhəmiyyətinə görə ikinci dərəcəlidir. Daimi Beynəlxalq Ədalət Məhkəməsinin və onun işini davam etdirən qurumun – Beynəlxalq Ədalət Məhkəməsinin təşkili beynəlxalq hüquq sahəsində vəzifələrin mərkəzləşdirilməsinə doğru atılan addımların, bəlkə də, ən mühümüdür. 1920-ci ildə Daimi Məhkəmənin təşkilinə qədər beynəlxalq aləmdə məhkəmə funksiyası tamamilə dağınıq idi. Bu o deməkdir ki, iki dövlət ayrıca bir mübahisənin məhkəmə yolu ilə həllinə dair razılığa gəlibsə, həmçinin bu ayrıca məsələ haqqında qərarın verilməsində tribunal vəzifəsini yerinə yetirəcək xüsusi bir şəxsə, məsələn, Papa, dövlət başçısı, tanınmış beynəlxalq hüquqşünas, yaxud şəxslər qrupuna dair də razılığa gəlib. Bu mübahisənin həlli ilə həmin tribunalın məhkəmə funksiyası da avtomatik şəkildə başa çatmış olur. Digər bir mübahisənin məhkəmə yolu ilə həlli digər bir tribunalın müəyyən edilməsini tələb edirdi. 1871-ci ildə yuxarıda göstərdiyimiz *Alabama* məsələsi[1] haqqında qərar vermiş Cenevrə tribunalı bu vəziyyəti təsvir edir.

[1] Bax: səh 364.

Beynəlxalq mübahisələrin dinc yolla həllinə dair 1899 və 1907-ci illər Haaqa konvensiyaları Daimi Arbitraj Məhkəməsi adlandırılan qurumu yaratmaq yolu ilə məhkəmə təşkilatçılığının bu dağınıqlığını aradan qaldırmağa cəhd etdi. Həmin qurum yalnız konvensiyanı imzalayan müxtəlif dövlətlər tərəfindən təyin olunan 120-yə qədər hakimdən təşkil olunmuş paneldən ibarətdir. Ayrı-ayrı mübahisələrin tərəfləri bu paneldən həmin mübahisə haqqında hökmün verilməsi üçün təsis edilməli olan tribunalın üzvlərini seçə bilər. Ona görə də əminliklə demək olar ki, bu təsisat nə daimidir, nə də məhkəmədir. Məhkəmə adlandırılan bu qurum bir orqan olaraq mövcud deyil; çünki mahiyyət etibarilə o, məhkəmə, yaxud hər hansı digər funksiyaları yerinə yetirmir. Bu, əslində, "Beynəlxalq hüquqa dair məsələlərdə səlahiyyəti qəbul olunmuş və ən yüksək mənəvi nüfuzdan faydalanan"[1] şəxslərin siyahısından başqa bir şey deyil. O, ayrıca bir mübahisə haqqında hökmün verilməsi üçün təşkil olunmuş tribunallardan birinə hakimlərin seçilməsinə yardım edir. Daimi Arbitraj Məhkəməsi adlandırılan qurum heç vaxt hər hansı bir məsələ haqqında qərar verməyib; bunu yalnız onun panelinin ayrı-ayrı üzvləri ediblər. O, beynəlxalq düzəndə məhkəmə təşkilatının dağınıqlığını daimiləşdirir və eyni zamanda adının iddiası ilə mərkəzləşmiş məhkəmə hakimiyyətinə olan ehtiyacı qəbul edir.

Həqiqətən, daimi olan beynəlxalq məhkəmənin təsis edilməsi üçün əsas çaşqınlıq yaradan maneə məhkəmənin tərkibi idi. Dövlətlər hər bir xüsusi hal üçün hakimlərin seçilməsində hərəkət azadlıqlarını qoruyub saxlamaq üçün narahat olduqları qədər, hər bir ayrıca mübahisə haqqında hökm verilmə üçün təqdim etməkdə azadlıqlarının qorunub saxlanması üçün də narahat idi. Dövlətlər xüsusilə mübahisə haqqında qərarın nə onların həmvətənlərinin, nə də onların nəzər-nöqtələrinin təmsilçilərinin üzvü olmadığı beynəlxalq tribunal tərəfindən verilməsinə icazə verməkdə həvəssiz idi. Yurisdiksiyası dövlətlərin məhdud sayından daha çoxu üzərinə yayılan heç bir daimi beynəlxalq məhkəmə belə bir tələbin yer aldığı məktubu təmin edə bilməzdi; çünki dünya məhkəməsinin yurisdiksiyasının subyekti olan dövlətlərin sayı zərurətdən irəli gələrək hakimlərin sayını üstələyəcəkdi. Xüsusilə dövlətlər qorxurdu ki, bu şərtlər altında onların əksəriyyəti belə bir məhkəmədə təmsilçilikdən daimi olaraq məhrum ediləcək və bununla da onlar asanlıqla böyük dövlətlərin alətinə çevriləcək.

Daimi Beynəlxalq Ədalət Məhkəməsinin və onun işini davam etdirən qurumun Nizamnaməsi bu məsələnin həllini tapdı. Məhkəmə 15 üzvdən ibarətdir və onlar arasında eyni bir dövlətdən olan iki üzv ola bilməz (Maddə 3). Digər tərəfdən, "Seçicilər nəzərə alacaqlar ki, ... bütövlükdə qurumda sivilizasiyanın əsas formalarının və dünyanın başlıca hüquqi sistemlərinin təmsilçiliyi təmin olunmalıdır"

[1] Konvensiyanın 44-cü maddəsi

hər zaman qanunun qorunması iddiası ilə çıxış edən istənilən şəxsin müraciəti ilə hərəkətə keçməyə hazır olan bir əlaqəli hüquq orqanı yaradır.

Beynəlxalq aləmdə heç nə bu vəziyyəti azacıq da olsa belə, əks etdirmir. Beynəlxalq Ədalət Məhkəməsi potensial olaraq ümumdünya yurisdiksiyasına malik olan tək məhkəmədir. Ayrı-ayrı tərəflər üçün mübahisələrin xüsusi növü, yaxud ayrıca bir məsələnin həlli məqsədilə xüsusi müqavilələr ilə yaradılan digər çoxsaylı məhkəmələrin nə bir-biri, nə də Beynəlxalq Ədalət Məhkəməsi ilə ümumiyyətlə heç bir hüquqi əlaqəsi yoxdur. Beynəlxalq Ədalət Məhkəməsi heç bir halda dünyanın, digər beynəlxalq tribunalların qərarlarından verilən apelyasiyalar haqqında son məhkəmə qərarı verə bilən ali məhkəməsi deyil. O yalnız çoxsaylı beynəlxalq məhkəmələr arasında təşkilatının daimiliyi, yurisdiksiyasının potensial zənginliyi və adətən, qərarlarının yüksək hüquqi keyfiyyəti ilə tanınan yeganə məhkəmədir. Lakin o heç bir halda iyerarxik olaraq digər beynəlxalq məhkəmələr üzərində ali mövqeyə sahib deyil. Beynəlxalq Ədalət Məhkəməsinin qərarları peşəkar kamillikləri hesabına digər beynəlxalq məhkəmələrin qərarlarında öz izlərini buraxa bilər. Lakin həmin qərarlar *staredecisis* qaydasına riayət etməyə məcbur olmadığından digər beynəlxalq məhkəmələrin öz qərarlarını Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına uyğunlaşdırmaq üçün daşıdığı hüquqi öhdəlik həmin qərarları bir-birinin qərarlarına uyğunlaşdırmaq üçün daşıdıqları hüquqi öhdəlikdən daha böyük deyil. Burada dağınıqlıq yenidən məhkəmə funksiyasının fərqli əlaməti kimi özünü göstərir.

BEYNƏLXALQ HÜQUQUN TƏTBİQ EDİLMƏSİ

Onun dağınıq xarakteri

Qanunvericilik və məhkəmə funksiyalarının nəyə görə ətraflı düşünülmüş sübut tələb etdiyi icraedici funksiya halında hamıya aydın görünür: bu onun tamamilə və açıq-aydın dağınıqlığı ilə bağlıdır. Beynəlxalq hüquq hətta öz qaydalarının tətbiqi məqsədilə milli hökumətlərin qurum və vasitələrindən başqa qurum və vasitə nəzərdə tutmur. Brirli vəziyyəti belə təsvir edir:

"Beynəlxalq qanuni hüquqların bu şəkildə tətbiqi üçün beynəlxalq sistem mərkəzi orqana malik deyil və belə hər hansı bir ümumi sanksiyalar sxeminin yaradılması indiki zaman üçün çox uzaq bir perspektivdir... İcraedici hakimiyyətin olmaması o anlama gəlir ki, hər dövlət ... öz hüquqlarını tətbiq etmək üçün uyğun hesab etdiyi tədbiri görməkdə azadlığını qoruyub saxlayır. Bu o demək deyil ki, beynəlxalq hüququn sanksiyası yoxdur, – burada sanksiya sözü hüquqa

riayət olunmanın təmin edilməsi vasitəsi mənasında istifadə edilir, – lakin bu bir həqiqətdir ki, onun sahib olduğu sanksiyalar sistemli və mərkəzi şəkildə idarə olunan deyil və buna müvafiq olaraq da öz fəaliyyətlərində etibarsızdır. Aydın məsələdir ki, sistemin bu çatışmazlığı xüsusilə öz hüquqlarını səmərəli şəkildə müdafiə etməkdə daha az bacarıqlı olan dövlətlər üçün qeyri-qənaətbəxşdir".[1]

Hər bir dövlət özü öz qanunvericisi və tribunal və yurisdiksiyasının yaradıcısı olduğu kimi, o həm də özü özünün şerifi və polisidir. Dövlətin icması daxilində A şəxsi B şəxsinin hüquqlarını pozan zaman həmin dövlətin qanunların tətbiqini həyata keçirən orqanları müdaxilə edəcək, B şəxsini A şəxsinə qarşı müdafiə edəcək və A şəxsini B şəxsini qanunauyğun şəkildə razı salmağa vadar edəcək. Beynəlxalq dairədə bu növdən olan heç nə mövcud deyil. Əgər A dövləti B dövlətinin hüquqlarını pozursa, B dövlətinin köməyinə qanun tətbiq edilməsini həyata keçirən heç bir qurumu gəlməyəcək. B dövlətinin, əgər bacarırsa, – yəni o, A dövləti ilə müqayisədə qanunun tətbiqi sahəsində öz həyata keçirdiyi tədbirlər vasitəsilə hüquqlarının pozulmasına qarşı çıxmaq üzrə gəlmək üçün kifayət qədər güclüdürsə, – öz-özünə yardım etmək haqqı var. Daxili hüquq qanun pozuntusunun qurbanına yalnız çox müstəsna və məhdud şərtlər altında, özünəyardım və özünümüdafiə formalarında qanunun icrasına nəzarəti həyata keçirmək və qanunu pozana qarşı onu tətbiq etmək hüququ verir. Daxili hüquqda dar şəkildə məhdudlaşdırılan istisna beynəlxalq hüquqda qanunun tətbiq edilməsinin normasıdır. Bu normaya əsasən, qurban heç kim deyil, yalnız qanun pozuntusunun qurbanı qanunu onu pozana qarşı tətbiq etmək *hüququna* sahibdir. Onu tətbiq etmək *öhdəliyi* isə, ümumiyyətlə, heç kimə məxsus deyil.

Bundan daha primitiv və daha zəif heç bir hüquq tətbiqetmə sistemi ola bilməz; çünki o, hüquq tətbiqetməni qüvvələr bölgüsünün hüququ pozan və hüququ pozmanın qurbanı olan arasında dəyişmələrinə həvalə edir. Bu, güclü olan tərəf üçün həm hüququn pozulması, həm də onu tətbiq etməyi asanlaşdırır və nəticə etibarilə zəif olanın hüquqlarını təhlükə altına qoyur. Böyük dövlət kiçik dövlətin hüquqlarını sonuncu tərəfindən effektiv sanksiyaların olacağından qorxmadan poza bilir. O, beynəlxalq hüququn əsassız şəkildə pozulmasının həqiqətən baş verib-verməməsindən və ya onun ciddiyyəti görülən tədbirlərin sərtliyini əsaslandırıb-əsaslandırmamasından asılı olmayaraq, kiçik dövlət haqqında hüquqlarının pozulması bəhanəsi ilə hüquq tətbiqetmə tədbirləri ilə məhkəməyə müraciət edə bilər.

Kiçik dövlət hüquqlarının mühafizəsi üçün güclü dostlarının yardımına göz dikməlidir; o yalnız belə uğur ehtimalı ilə hüquqlarının pozulmasına qarşı çıxmağa

[1] *The Laws of Nations*, səh. 92, 93. (Klarendon Pres (Oksford) nəşriyyatının icazəsiylə təkrar dərc edilmişdir)

ümid edə bilər. Belə yardımın göstərilib-göstərilməməsi beynəlxalq hüquq deyil, bunun ayrı-ayrı dövlətlərin düşüncəsinə görə milli maraqlara uyğun olub-olmaması məsələsidir və bu, beynəlxalq birliyin zəif olan üzvünü dəstəkləyib-dəstəkləməyəcəyini müəyyənləşdirməlidir. Başqa sözlə, beynəlxalq hüququn tətbiq edilməsi üçün cəhdin edilib-edilməməsi və cəhdin uğurlu olub-olmayacağı əsas etibarilə hüquqi mülahizələrdən və hüquq tətbiqetmə mexanizmlərinin təmənnasız fəaliyyətindən asılı deyil. Həm cəhd, həm də onun uğuru siyasi mülahizələrdən və verilmiş vəziyyətlə əlaqədar real qüvvələr bölgüsündən asılıdır. Bu halda güclü dövlət tərəfindən təhdid olunan zəif dövlətin hüquqlarının müdafiəsi həmin verilmiş vəziyyətdə fəaliyyət göstərən qüvvələr tarazlığı ilə təyin olunur. Belə ki, 1914-cü ildə Belçikanın hüquqları onların Almaniya tərəfindən pozulmasına qarşı ona görə mühafizə olunurdu ki, həmin hüquqların müdafiəsi güclü qonşuların milli maraqları üçün lazımlı hesab olunurdu. Eynilə 1950-ci ildə Şimali Koreya Cənubi Koreyaya hücum edən zaman Uzaq Şərqdə qüvvələr tarazlığının qorunub saxlanılması və Asiyada ərazi sabitliyinə dair narahatlıqları ABŞ və onun Fransa və Böyük Britaniya kimi bəzi müttəfiqlərini Cənubi Koreyaya yardım göstərməyə təhrik etdi. Digər tərəfdən isə 1903-cü ildə ABŞ-ın inqilabı dəstəkləməsiylə Panama Respublikasının yaradılması zamanı Kolumbiyanın hüquqları və 1939-cu ildə Sovet İttifaqının hücumu ilə Finlandiyanın hüquqları ya cəzasız qalaraq, ya da Finlandiya məsələsində olduğu kimi effektiv sanksiyalarla müdaxilə olunmadan pozuldu. Bu dövlətləri müdafiə edə biləcək bir qüvvələr tarazlığı yox idi.

Bununla belə, qeyd olunmalıdır ki, real vəziyyət yuxarıda apardığımız analizlərin irəli sürdüyündən daha az ağırdır. Beynəlxalq hüququn qaydalarının böyük əksəriyyətinə, adətən, bütün dövlətlər tərəfindən real məcburiyyət olmadan riayət olunur, çünki bu, adətən, beynəlxalq hüquq altında öz öhdəliklərinə əməl etmək üçün narahat olan bütün dövlətlərin maraqlarına uyğundur. Dövlət öz paytaxtında məskunlaşmış xarici diplomatların hüquqlarına xələl gətirməkdən çəkinəcək; çünki o, xarici dövlətlərin paytaxtlarındakı diplomatik nümayəndəliklərinin, eləcə də öz paytaxtındakı xarici diplomatların müdafiəsi sahəsində beynəlxalq hüququn qaydalarına universal şəkildə riayət olunmasında bütün digər dövlətlərin maraqları ilə üst-üstə düşən maraqlara sahibdir. Eyni şəkildə dövlət ticarət müqaviləsinə əsasən daşıdığı öhdəliklərə etinasızlıq göstərməyə də meyil etməyəcək, çünki onun müqavilənin digər tərəflərinin müqaviləni yerinə yetirməsindən gözlədiyi mənfəət müqavilənin digər tərəflərinin proqnozlaşdırdığı mənfəət ilə bir-birini tamamlayır. Beləliklə, onun sövdələşməni öz tərəfindən yerinə yetirməməklə itirəcəkləri əldə edəcəklərindən daha çoxdur. Bu, xüsusilə uzun müddət üçün belədir, çünki öz ticarət öhdəliklərindən geri çəkilməkdə məşhurlaşmış dövlət özü üçün faydalı ticarət müqavilələri imzalamaqda çətinlik çəkəcək.

Beynəlxalq hüququn əksər qaydaları hüquqi baxımdan üst-üstə düşən və bir-birini tamamlayan maraqlar formalaşdırır. Bu səbəbdəndir ki, onlar, adətən, sanki öz-özlərini tətbiq edir və adətən, hüququn tətbiq olunması üçün xüsusi tədbirlərə ehtiyac olmur. Maraqların əsasında duran birliyə baxmayaraq, beynəlxalq hüquq qaydalarının həqiqətən pozulduğu halların əksəriyyətində, adətən, ya könüllü olaraq, ya da aparılan mühakimənin nəticəsi olaraq zərərçəkmiş tərəf razı salınır. Qeyd etməyə dəyər ki, keçən əsr yarımda çıxarılmış minlərlə belə məhkəmə qərarının uduzmuş dövlət tərəfindən könüllü şəkildə icrasından imtina edilməsi hallarının sayı ondan azdır.

Beləliklə, beynəlxalq hüquq qaydalarının böyük əksəriyyəti onların tətbiq olunması sisteminin zəifliyindən zərər çəkmir, çünki könüllü razılıq hüququn tətbiq olunması probleminin, ümumiyyətlə, ortaya çıxmasının qarşısını alır. Buna baxmayaraq, hüququn tətbiq olunması problemi azlıq təşkil edən vacib və adətən diqqəti cəlb edən, bizim müzakirəmiz kontekstində xüsusən vacib olan o hallarda kəskinləşir ki, beynəlxalq hüquq ilə uyğunluq və onun tətbiq olunması aidiyyəti dövlətlərin nisbi gücü üzərində birbaşa təsirə malik olur.

Gördüyümüz kimi, həmin hallarda hüquqa uyğunluq və hüququn tətbiq olunması hüquq haqqında mülahizələrdən daha çox güc haqqında mülahizələrlə təyin olunur. Bu vəziyyəti düzəltmək və beynəlxalq hüquqda icraedici funksiyaya ən azından obyektivlik və mərkəzləşmə görkəmi vermək üçün iki cəhd edilib. Bu cəhdlərdən biri olan təminat müqavilələri formasının izləri müasir dövlət sisteminin başlanğıcına aiddir; digər cəhd olan kollektiv təhlükəsizlik isə ilk dəfə Millətlər Cəmiyyətinin Nizamnaməsi ilə irəli sürülüb.

Təminat müqavilələri

Acı təcrübə öyrədib ki, müqavilələrə müqəddəs və pozulmaz hesab olunan sədaqət borcu hər zaman onlara riayət olunacağına etibarlı zəmanət deyil, insanlar xəyanətə qarşı qorumalara, müqavilə tərəflərinin xoş məramından asılı olmayaraq, ona riayət etmənin təmin olunması üsullarına nail olmağa cəhd ediblər. Təminat bu üsullardan biridir. Sülh müqaviləsi, yaxud digər hər hansı bir müqavilə bağlayanlar ona riayət olunacağından tamamilə əmin deyillərsə, onlar ona qüdrətli bir suveren tərəfindən təminatın verilməsini istəyirlər. Təminatçı müqavilənin şərtlərinin təmin ediləcəyinə və onlara riayət olunacağına dair söz verir. Müqavilə tərəflərindən biri öz vədlərini yerinə yetirməkdən boyun qaçırmağa cəhd edərsə, təminatçı güc tətbiq etmək məcburiyyətində qala biləcəyindən təminatçı vəzifəsi heç bir suverenin asanlıqla və kifayət qədər əsası olmadan üzərinə götürəcəyi vəzifə deyil. Dövlət rəhbərləri nadir hallarda, əgər müqaviləyə riayət olunmaqda

dolayı maraqlara malik deyillərsə, yaxud dostluq motivlərindən çıxış edirlərsə, belə edirlər.[1]

Beynəlxalq hüquq sahəsində XVIII əsrin ən böyük mütəfəkkiri olan Vattelin bu fikri təminat müqavilələrinin motivlərini və hüquqi mahiyyətini dolğun şəkildə təyin edir və beynəlxalq hüququn tətbiq edilməsinin, həqiqətən, mərkəzləşmiş təşkilatlanmasının əvəzedicilərinin problematik təbiətinə eyham vurmağı unutmur.

Təminat müqaviləsinin ən sadə növü hamı tərəfindən belə müqavilələrin müasir tarixdə ən erkən nümunəsi hesab olunan – 1505-ci ildə Fransa və Araqon arasında imzalanmış və İngiltərənin təminat verdiyi Blois müqaviləsi nümunəsində izah edilir. Bu təminat o anlamı daşıyır ki, İngiltərə müqavilənin icrasına münasibətdə polis vəzifəsini yerinə yetirməyə dair hüquqi öhdəliyi öz üzərinə götürür və söz verir ki, hər iki tərəfin ona sadiq qalacağına nəzarət edəcək.

Beynəlxalq təminatın daha mütərəqqi nümunələrinə, məsələn, 1856-cı il Paris və 1878-ci il Berlin müqaviləsini imzalayan dövlətlər tərəfindən Türkiyənin ərazi bütövlüyünə verilən təminat, yaxud müvafiq olaraq 1831, 1839 və 1867-ci illər müqavilələrini imzalayan dövlətlər tərəfindən Belçika və Lüksemburqun bitərəfliyinə verilən təminatda rast gəlinir. Lokarno paktı adlanan müqavilələr silsiləsinin bir hissəsini təşkil edən qarşılıqlı təminat haqqında 16 oktyabr 1925-ci il müqaviləsində Böyük Britaniya, Belçika, Fransa, Almaniya və İtaliya "Almaniya və Belçika, Almaniya və Fransa arasındakı sərhədlərin nəticəsi olan *status-kvonun* qorunub saxlanmasına və adı çəkilən sərhədlərin toxunulmazlığına ... kollektiv şəkildə və ayrı-ayrılıqda təminat verir". Bu növ təminat müqaviləsində yalnız bir dövlət deyil, dövlətlər qrupu – böyük dövlətlərin hamısı olmasa da, əksəriyyəti – ya kollektiv şəkildə, ya da ayrı-ayrılıqda kimliyindən asılı olmayaraq, istənilən hüquq pozana qarşı təminat verdikləri hüquqi təminatları yerinə yetirmək öhdəliyi götürür.

Mərkəzləşmiş icraetmə qurumlarının əvəzedicisi kimi öz funksiyalarını yerinə yetirə bilmək üçün hər iki növ müqavilə iki ilkin şərtə cavab verməlidir: onlar icraetmədə səmərəli olmalı və icraetmə avtomatik olmalıdır. Bununla belə, icraetmənin səmərəliliyi yenə də qüvvələr tarazlığının vəzifəsidir; bu o deməkdir ki, bu, təminatçı ilə qanunu pozan arasında qüvvələr bölgüsündən asılıdır. Qüvvələr bölgüsü təminatçı dövlətlərin xeyrinə ola bilər, lakin bu, mütləq belə olmur.

[1] Emmerich de Vattel, *The Law of Nations* (Washington, DC: Carnegie Institution, 1916), Book II, §235, səh. 193.

Xüsusilə müasir müharibə şərtləri altında hüququ pozan böyük bir dövlətin hüquqa əməl edən təminatçı dövlətlərin böyük sayının birləşmiş təzyiqinə qarşı dura biləcəyi vəziyyətlər asanlıqla təsəvvür edilə bilər.

Lakin ümumilikdə onun səmərəliliyinə xələl gətirən təminatın tətbiqindəki qeyri-müəyyənlikdir. Beynəlxalq hüquq sahəsində qabaqcıl dərsliklərdən biri təminatçının müqaviləni pozmadan onun yerinə yetirilməsindən yayına bilmək üçün çoxsaylı hiylələrə müvafiq formada göstərmişdir. Openhaym-Lauterpaxtın kitabından oxuyuruq:

"Təminatçıların ... təminat verdikləri dövlətə yardım etmək vədinə əməl etmək vəzifəsi bir çox şərtlərdən və vəziyyətlərdən asılıdır. Belə ki, birincisi, təminat verilmiş dövlət təminatçıdan yardımın göstərilməsini xahiş etməlidir. İkincisi, təminatçı kiritik məqamda vəd edilmiş yardımı göstərmək imkanına malik olmalıdır. Məsələn, onun başı üçüncü bir dövlət ilə müharibə etməyə qarışıbsa, yaxud onu zəiflətmiş daxili narahatlıqlar, yaxud müdaxiləsi ona ciddi təhlükə yaradacaq digər amillər varsa, o, yardım xahişinə qarşılıq vermək məcburiyyətində deyil. Həmçinin əgər təminat verilmiş dövlət onun davranış xəttinə dair təminatçının əvvəllər verdiyi məsləhətləri yerinə yetirməyibsə, yardım göstərmək təminatçının borcu deyil".[1]

Başqa sözlə, tətbiqetmə üsulları ilə beynəlxalq hüquqa uyğunluğu təmin etmək öhdəliyi mübahisələrin mühakimə üçün beynəlxalq məhkəməyə təqdim edilməsindən daha çox tutarlı deyil – və əgər mümkündürsə, daha azdır. Hər iki halda öhdəlik faktiki olaraq bütün mümkün ehtimalları əhatə edən məhdudiyyətlər, qeyd-şərtlər və istisnalar ilə dəyərsizləşdirilir. Təminat müqavilələri beynəlxalq düzəndə bütün təcrübi məqsədlər üçün icraetmə funksiyasını onların olmadığı bir düzəndə olacağı kimi dağınıq saxlayır.

Kollektiv təhlükəsizlik

Kollektiv təhlükəsizlik hüquq tətbiqetmənin tamamilə dağınıq olan sisteminin nöqsanlarını aradan qaldırmaq üçün qeydə alınmış ən uzaq gedən cəhddir. Ənənəvi beynəlxalq hüquq öz qaydalarının tətbiq edilməsini incidilmiş dövlət üçün saxladığı halda, kollektiv təhlükəsizlik beynəlxalq hüququn qaydalarının verilmiş halda incidilib-incidilməməsindən asılı olmayaraq, dövlətlər birliyinin bütün üzvləri tərəfindən yerinə yetirilməsini nəzərdə tutur. Bu halda potensial

[1] *International Law*, Vol. I, səh. 966. (Lonqmens, Qrin&Co. Inc. nəşriyyatının icazəsi ilə təkrar dərc edilmişdir)

qanun pozucusu hər zaman beynəlxalq hüququn müdafiəsi üçün avtomatik olaraq kollektiv tədbirlər görən bütün dövlətlərin ümumi cəbhəsi ilə üzləşəcəyini gözləməlidir. İdealda kollektiv təhlükəsizlik qüsursuzdur; o, həqiqətən, suveren dövlətlər birliyində hüququn tətbiq olunması probleminə ideal həll üsulu təqdim edir. Lakin kollektiv təhlükəsizlik ideyasını həyata keçirmək üçün edilən iki cəhd – Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsi və Birləşmiş Millətlər Təşkilatının VII fəsli – idealdan uzaqdır. Öz növbəsində bu iki təşkilatın üzvlərinin həmin iki sənədin verdiyi səlahiyyətlə realda həyata keçirdikləri də kollektiv tədbirlərdən uzaqdır.

Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsi

Millətlər Cəmiyyətinin Nizamnaməsi bu gün yalnız tarixi maraq kəsb etsə də, onun 16-cı maddəsinin ilk üç bəndi[1] kollektiv təhlükəsizlik sistemini reallaşdırmağa ilkin cəhd olaraq qalır. Bu üç bənddə nəzərdən keçirilən kollektiv təhlükəsizlik sistemi əvvəldən beynəlxalq hüququn pozulmasının bir növü ilə

[1] Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsində oxuyuruq:

1. Cəmiyyətin hər hansı bir üzvü 12, 13, yaxud 15-ci maddələrə əsasən razılaşmalara əhəmiyyət verməyərək müharibəyə əl atarsa, bu, *ipsofacto* olaraq Cəmiyyətin bütün üzvlərinə qarşı müharibə aktı həyata keçirmiş hesab olunacaq və onlar bunun nəticəsi olaraq həmin üzvü dərhal bütün ticarət və maliyyə əlaqələrinin dayandırılması, öz vətəndaşları ilə Nizamnaməni pozan dövlətin vətəndaşları arasında ünsiyyətin qadağan edilməsi və razılaşmanı pozan dövlətin vətəndaşları ilə Cəmiyyətin üzvü olub-olmamasından asılı olmayaraq, istənilən dövlətin vətəndaşları arasında bütün maliyyə, ticarət və şəxsi münasibətlərin qadağan edilməsi tədbirlərinə məruz qoymağı öz üzərilərinə götürürlər.
2. Belə vəziyyətdə bəzi əlaqədar hökumətlərə Cəmiyyətin üzvlərinin ayrı-ayrılıqda hansı effektiv hərbi, dəniz və hava qüvvələri ilə Cəmiyyətin razılaşmalarını qorumaq üçün istifadə olunmalı silahlı qüvvələrə yardım edəcəyi haqqında tövsiyələr vermək Şuranın vəzifəsidir.
3. Əlavə olaraq, Cəmiyyətin üzvləri razılığa gəlirlər ki, yuxarıda qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində yaranan itki və narahatlığı minimuma endirmək üçün bu maddəyə əsasən görüləcək maliyyə və iqtisadi tədbirlərdə bir-birinə qarşılıqlı dəstək verəcək, razılaşmanı pozan dövlət tərəfindən onlardan birinə qarşı yönəlmiş hər hansı xüsusi tədbirə müqavimət göstərmək üçün bir-birinə qarşılıqlı dəstək verəcək və Cəmiyyətin razılaşmalarını müdafiə etmək üçün əməkdaşlıq edən Cəmiyyətin hər hansı bir üzvünün qüvvələrinin onların ərazisindən keçməsinə şərait yaratmaq üçün zəruri addımları atacaqlar.
4. Cəmiyyətin istənilən razılaşmasını pozmuş Cəmiyyətin istənilən üzvünün Şuranın, Cəmiyyətin bütün digər üzvlərinin orada təmsil olunan nümayəndələrinin üst-üstə düşən səsi ilə artıq Cəmiyyətin üzvü olmadığı elan edilə bilər.

məhdudlaşırdı, yəni beynəlxalq mübahisələrin dinc həlli üçün müddəaların pozulmasında müharibəyə əl atılması Nizamnamənin 12, 13 və 15-ci maddələrinin təməlində dururdu.[1]

[1] 12, 13 və 15-ci maddələrdə oxuyuruq:

Maddə 12

1. Cəmiyyətin üzvləri razılığa gəlirlər ki, onlar arasında nifaqa gətirib çıxara biləcək hər hansı mübahisə baş qaldırarsa, onlar məsələni arbitraja, yaxud məhkəmə yolu ilə həll edilmək üçün, yaxud da Şura tərəfindən istintaqa təqdim edəcəklər və razılığa gəlirlər ki, heç bir halda arbitrlər qərar verəndən, yaxud məhkəmə qərarı çıxandan, yaxud da Şura tərəfindən hesabat verildikdən sonra 3 ay ərzində müharibəyə əl atmayacaqlar.
2. Bu maddəyə əsasən, istənilən halda arbitrlərin və məhkəmənin qərarı ağlabatan müddət ərzində verilir, Şuranın hesabatı isə mübahisə baxılmaq üçün təqdim olunandan sonrakı 6 ay ərzində təqdim edilir.

Maddə 13

1. Cəmiyyətin üzvləri razılığa gəlirlər ki, onlar arasında arbitraja, yaxud məhkəmə yolu ilə həll edilmək üçün təqdim etməyə uyğun gördükləri və diplomatiya yolu ilə qənaətbəxş şəkildə həll edilə bilməyən hər hansı mübahisə baş qaldıran zaman mübahisə mövzusunu bütünlükdə arbitraja və məhkəmə yolu ilə həll edilmək üçün təqdim edəcəklər.
2. Müqavilənin şərhinə, beynəlxalq hüquq haqqında hər hansı məsələyə, əgər mütəşəkkil olarsa, istənilən beynəlxalq öhdəliyin pozulmasına gətirib çıxaracaq hər hansı faktın mövcudluğuna, yaxud hər hansı belə pozuntunun düzəldilməsinin ölçüsü və xarakterinə dair mübahisələr, adətən, arbitraja və məhkəmə yolu ilə həll edilməyə təqdim edilməsi uyğun hesab olunan hallar arasındadır.
3. Hər hansı belə bir mübahisənin nəzərdən keçirilməsi üçün məsələnin təqdim olunacağı məhkəmə 14-cü maddəyə uyğun olaraq yaradılan Daimi Beynəlxalq Ədalət Məhkəməsi, yaxud mübahisə tərəflərinin razılaşdığı və ya onlar arasında mövcud olan istənilən razılaşmada şərtləndirilən tribunaldır.
4. Cəmiyyətin üzvləri razılığa gəlirlər ki, onlar çıxarılmış istənilən qərarı tam vicdanla yerinə yetirəcək və Cəmiyyətin onları icra edən üzvünə qarşı müharibəyə əl atmayacaqlar. Belə bir qərarın yerinə yetirilməsində hər hansı uğursuzluq halında Şura onun həyata keçirilməsi üçün hansı addımların atılmalı olduğunu təklif edir.

Maddə 15

1. Cəmiyyətin üzvləri razılığa gəlirlər ki, Cəmiyyətin üzvləri arasında nifaqa gətirib çıxara biləcək hər hansı mübahisə baş qaldırarsa və həmin mübahisə baxılmaq üçün 13-cü maddəyə əsasən arbitraja, yaxud məhkəmə yolu ilə həll edilmək təqdim olunmazsa, onlar məsələni Şuraya təqdim edəcəklər. Mübahisənin istənilən tərəfi onun baxılmaq üçün bu şəkildə təqdim edilməsinə məsələnin tam təhqiqi və müzakirəsi üçün bütün zəruri nizamlamaları həyata keçirəcək baş katibə mübahisənin mövcudluğu haqqında xəbərdarlıq məktubu göndərməklə təsir göstərə bilər.
2. Mübahisə tərəfləri bu məqsədlə mümkün olduğu qədər təcili surətdə öz məlumatlarını mübahisəyə dair bütün əlaqədar faktlar və sənədlərlə birlikdə baş katibə çatdırır və Şura təxirə salmadan mübahisənin dərc edilməsini nəzarətə götürə bilər.
3. Şura mübahisənin həllinə təsir etməyə səy göstərəcək və əgər belə səylər uğurlu olacaqsa, Şura uyğun hesab edərsə, ictimaiyyət üçün mübahisəyə və onun həlli şərtlərinə dair faktlar və izahatlar təqdim edən bəyanat veriləcək.

Beynəlxalq hüququn bütün digər pozulmaları üçün yalnız ümumi beynəlxalq hüquq tərəfindən həyata keçirilən fərdiləşmiş və dağınıq hüquq tətbiqetmə sistemi mövcuddur.

16-cı maddənin ilk üç bəndini hərəkətə keçirən beynəlxalq hüquq pozulmaları aşağıdakı 4 hüquqi nəticəni doğurur: (1) Hüquq pozan dövlət "Cəmiyyətin bütün digər üzvlərinə qarşı müharibə xarakterli hərəkət etmiş hesab olunur". (2) Cəmiyyətin üzvləri hüququ pozan dövləti tamamilə boykot etməklə dövlətlər birliyinin hər hansı digər üzvü ilə hər hansı formada əlaqədən təcrid etmək üçün hüquqi öhdəlik daşıyırlar. (3) Cəmiyyətin Şurası üzv dövlətlərə Nizamnamənin pozulmuş müddəalarının müdafiəsi üçün onlar tərəfindən verilə biləcək hərbi yardıma dair tövsiyə vermək üçün hüquqi öhdəlik daşıyır. (4) Cəmiyyətin üzvləri kollektiv fəaliyyətin həyata keçirilməsində bir-birilərinə iqtisadi və hərbi yardım göstərmək üçün hüquqi öhdəlik daşıyırlar.

Tam mənası ilə görünür ki, bu müddəaların mətni (1), (2) və (4) bəndlərinə münasibətdə kollektiv xarakterli avtomatik öhdəliklər yaradır. Lakin, göründüyü kimi, ən vacib müddəa olan (3) bəndinə münasibətdə o, üzv dövlətlərə tövsiyələrin verilməsi ilə kifayətlənir və üzv dövlətlər öz mülahizələrinə əsasən onu qəbul,

4. Əgər mübahisə belə həll olunmazsa, Şura ya yekdil səsvermə, ya da səs çoxluğu ilə mübahisəyə dair faktların bəyanından və mübahisəyə münasibətdə ədalətli və münasib hesab olunan tövsiyələrdən ibarət məruzə hazırlayacaq və onu dərc edəcək.
5. Cəmiyyətin Şurada təmsil olunan istənilən üzvü mübahisəyə aid faktlara dair bəyanatı və ona münasibətdə gəldiyi nəticələri ictimailəşdirə bilər.
6. Əgər Şuranın məruzəsi onun mübahisənin tərəfləri olan bir və daha artıq dövlətin nümayəndələrindən başqa üzvləri tərəfindən yekdilliklə qəbul olunarsa, Cəmiyyətin üzvləri mübahisənin məruzənin tövsiyələrini yerinə yetirən hər hansı tərəfinə qarşı müharibə etməyəcəkləri haqqında razılığa gəlirlər.
7. Əgər Şura mübahisənin tərəfləri olan bir və daha artıq dövlətin nümayəndələrindən başqa üzvləri tərəfindən yekdilliklə qəbul olunan məruzənin hazırlanmasına nail olmazsa, Cəmiyyətin üzvləri hüquq və ədalətin qorunub saxlanması üçün zəruri hesab edəcəkləri bu kimi addımların atılması hüququnu özlərində saxlayırlar.
8. Əgər tərəflərdən biri mübahisənin beynəlxalq hüququn müəyyən etdiyini, əsasən, yalnız daxili məsələdən qaynaqlandığını iddia edirsə və Şura da bunu belə müəyyən edirsə, Şura bu haqda məruzə hazırlayır və onun həllinə dair heç bir tövsiyə ilə çıxış etmir.
9. Şura bu maddəyə əsasən istənilən halda mübahisəni Assambleyaya göndərə bilər. Mübahisə onun tərəflərindən birinin istəyi ilə o şərtlə göndərilir ki, belə bir istək mübahisə Şuraya təqdim olunduqdan sonrakı 14 gün ərzində irəli sürülsün.
10. Assambleyaya göndərilən istənilən məsələdə bu maddənin və 12-ci maddənin Şuranın fəaliyyəti və səlahiyyətləri ilə əlaqədar bütün müddəaları Assambleyanın fəaliyyəti və səlahiyyətlərinə o şərtlə tətbiq olunur ki, Assambleya tərəfindən edilən məruzə hər bir halda mübahisə tərəflərinin nümayəndələri istisna olmaqla Cəmiyyətin Şurada təmsil olunan üzvlərinin nümayəndələri və Cəmiyyətin digər üzvlərinin əksəriyyətinin təqdir etdiyi məruzə Şuranın mübahisə tərəflərindən biri və daha çoxunun nümayəndələrindən başqa üzvləri tərəfindən təqdir olunan məruzə ilə eyni qüvvəyə malik olsun.

yaxud rədd etməkdə azad olmalıdır. Lakin (1), (2) və (4) bəndlərinin görüntüsü də aldadıcıdır. 1921-ci ildə Cəmiyyətin Assambleyasının qəbul etdiyi və qanunda olmasa da, həqiqətdə nüfuzlu hesab olunan şərhedici qətnamələr faktiki olaraq 16-cı maddənin məcburi və avtomatik ünsürlərini aradan qaldırmış və mətnin aşkar öhdəliklərini Cəmiyyətin Şurasının mənəvi nüfuzundan başqa heç nə ilə dəstəklənməyən adi tövsiyələr səviyyəsinə qədər azaltmışdır.[1]

Qətnamələr, hər şeydən öncə, 16-cı maddənin aşkar mahiyyətinin əksinə olaraq, beynəlxalq hüquq pozuntusunun baş verib-vermədiyi və buna görə də 16-cı maddənin ümumiyyətlə tətbiq edilməli olub-olmadığı haqqında qərar verməyin

[1] Müvafiq qətnamələrdə aşağıdakıları oxuyuruq:
3. Qaydalara əməl etməyən dövlətin birtərəfli fəaliyyəti müharibə vəziyyəti yarada bilməz: o, sadəcə, Cəmiyyətin digər üzvlərinə müharibə aktlarına əl atmaq və razılaşmanı pozan dövlətdə müharibə vəziyyətində olduqlarını bəyan etmək ixtiyarı verir; lakin Nizamnamənin ruhuna uyğun olan budur ki, Millətlər Cəmiyyəti ən azından başlanğıcda müharibədən qaçmağa və sülhü iqtisadi təzyiq yolu ilə bərqərar etməyə cəhd etməlidir.
4. Nizamnamənin pozuntusunun baş verib-vermədiyini özlüyündə müəyyən etmək Cəmiyyətin hər bir üzvünün vəzifəsidir. Cəmiyyətin üzvlərindən 16-cı maddəyə əsasən vəzifələrin yerinə yetirilməsi Nizamnamənin qəti şərtləri ilə tələb olunur və onlar müqavilə öhdəliklərini pozmadan onları yerinə yetirməyə bilməzlər.
9. İqtisadi təzyiq tədbirlərinin tətbiqinə gəlincə, bütün dövlətlərə eyni münasibət göstərilməli və bu zaman aşağıdakı qeyd-şərtlərə əməl edilməlidir:
(a) Müəyyən dövlətlər tərəfindən xüsusi tədbirlərin yerinə yetirilməsini tövsiyə etmək zəruri ola bilər.
(b) Müəyyən dövlətlərə münasibətdə 16-cı maddədə yer alan iqtisadi sanksiyaların effektiv tətbiqini tamamilə və ya qismən təxirə salmaq arzuolunan hesab olunursa, ümumi fəaliyyət planının uğuru üçün arzuolunan olması baxımından, yaxud sanksiyaların tətbiqi ilə Cəmiyyətin müəyyən üzvlərinə münasibətdən qaynaqlanan itki və çətinlikləri minimuma endirmək istisna olmaqla belə təxirəsalmaya imkan verilməyəcək.
10. İqtisadi təzyiqin tətbiq olunmalı olduğu hər bir vəziyyətdə görülməli iqtisadi, ticari və maliyyə xarakterli müxtəlif tədbirləri əvvəlcədən və təfsilatı ilə müəyyənləşdirmək mümkün deyil. Vəziyyət yarananan zaman Şura Cəmiyyətin üzvlərinə birgə fəaliyyət planı tövsiyə edəcək.
11. Diplomatik əlaqələrin kəsilməsi ilk öncə missiya rəhbərlərinin geri çağırılması ilə məhdudlaşa bilər.
12. Konsul münasibətləri mümkün qədər saxlanıla bilər.
13. Razılaşmanı pozan dövlətə məxsus şəxslər və digər cəmiyyətin digər üzv dövlətlərinə məxsus şəxslər arasında əlaqələrin kəsilməsi məqsədilə aparılan yoxlamada meyar millət deyil, məskunlaşma olmalıdır.
14. İqtisadi təzyiqin uzadılması hallarında sərtliyin artırılması tədbirləri görülə bilər. Öhdəliyini yerinə yetirməyən dövlətin mülki əhalisinin ərzaq təminatının kəsilməsi yalnız mövcud digər tədbirlər açıq-aydın kifayət etmədikdə görüləcək son dərəcə kəskin tədbir hesab olunur.
15. Yazışma və əlaqənin bütün digər üsulları xüsusi nizamlamalarla tənzimlənəcək.
16. Humanitar əlaqələr davam etdiriləcək.
Tam mətn üçün bax: League of Nations *Official Journal*, Special Supplement No.6 (October 1921), səh. 24 və növbəti səhifələr. (Millətlər Cəmiyyəti *Rəsmi Jurnal*, xüsusi əlavə № 6 (oktyabr, 1921), səh. 24 və növbəti səhifələr – red.).

hər bir üzv dövlətin öz vəzifəsi olduğunu bəyan edərək, Cəmiyyətin sanksiyalarının fərdiləşmiş, dağınıq xarakterini formalaşdırır. Əlavə olaraq, Qətnamədə göstərildiyi kimi, 1-ci bənd Cəmiyyətin üzvlərinə hüququ pozan dövlət ilə müharibə etmək səlahiyyəti verir, lakin bu münasibətlə, sözün birbaşa mənasında ifadə edildiyi kimi, hüquqi öhdəlik yaratmır. 2 və 4-cü bəndlərinə münasibətdə Qətnamə ayrı-ayrı dövlətlərin hüququnu pozan dövlətə qarşı və bir-birilərinə dəstək olmaq üçün hansı tədbirləri görəcəklərinə dair qərar verməyi onların özünə həvalə edir. Şura görülməli olan tədbirlərə, onların nə zaman və hansı dövlətlər tərəfindən həyata keçirilməsinə dair tövsiyələr vermək səlahiyyətinə malik olan, lakin ayrı-ayrı üzvləri öz iradələrinin əksinə məcbur etmək səlahiyyəti olmayan adi əlaqələndirici qurum kimi fəaliyyət göstərir.

Ümumiyyətlə, 16-cı maddəyə əsasən tədbirlər görmək öhdəliyi dağınıq olaraq qaldığı halda, ayrı-ayrı dövlətlər tərəfindən müəyyən edilmiş tədbirlər Cəmiyyətin Şurasının mərkəzləşmiş rəhbərliyi altında icra edilməlidir. Qətnamələr ayrı-ayrı çoxsaylı dövlətlər tərəfindən qərarlaşdırılmış tədbirlərin həyata keçirilməsi texnikasının mərkəzləşdirilməsində irəliyə doğru addım atır. Lakin həyata keçirmə fəaliyyətinin məcburi və avtomatik xarakterinə münasibətdə onlar qeyd-şərtlərin məcburi mühakimə üçün və istisna və məhdudiyyətlərin təminat müqavilələri üçün icra etdiyi funksiya ilə eyni olan funksiyanı yerinə yetirirlər – onlar hüquqi öhdəlik olmağı nəzərdə tutan məcburi xarakteri yoxaçıxma nöqtəsinə qədər azaldırlar.

16-cı maddənin Assambleyanın qətnamələri tərəfindən yenidən şərhi hüququn tətbiq olunmasının dağınıq xarakterinin təkrarən təsdiq edilməsinə bərabərdir. Millətlər Cəmiyyətinin təcrübəsi üzv dövlətlərin sanksiyaları yenidən şərh edilmiş 16-cı maddənin təklif etdiyi kimi mərkəzləşdirilmiş formada icra etmək üçün hətta məhdud imkanları qənimət bilməyə meyil etmədiyini göstərir. 16-cı maddəyə əsasən hüququn tətbiqi üçün görülən kollektiv tədbirlər yalnız beş haldan birində tətbiq olunurdu və orada da üzv dövlət, şübhəsiz ki, Nizamnaməni pozaraq müharibəyə əl atırdı. 1931-ci ildə başlamış Çin-yapon münaqişəsinə münasibətdə Millətlər Cəmiyyətinin Assambleyası yekdilliklə aşkar etdi ki, "müharibə elan olunmadan Çinin ərazisinin bir hissəsi zorla ələ keçirilib və Yaponiya hərbi hissələri tərəfindən işğal edilib"[1] və Çin və Yaponiya hökumətinin hərbi birləşmələri arasında Yaponiya tərəfindən başladılmış genişhəcmli düşmənçiliklər qeydə alınıb. Lakin Assambleya həmçinin aşkar etdi ki, Yaponiya Nizamnaməni pozaraq müharibəyə əl atmayıb və ona görə də 16-cı maddə tətbiq olunmadı.

1932-1935-ci illər Cako müharibəsi dövründə 1934-cü ildə Paraqvay Nizamnaməni pozaraq Boliviyaya qarşı düşmənçiliyi davam etdirən zaman Cəmiyyətin əksər

[1] "League of Nations Assembly Report on the Sino-Japanese Dispute," *American Journal of International Law*, Vol. 27 (1933), Supplement, səh. 146.

üzvləri, əslində, müharibə edən hər iki tərəfə qoyulmuş silah embarqosunu Paraqvayla məhdudlaşdırdı. Bu, 16-cı maddənin birinci bəndinin ruhu və birbaşa mənasından uzaq olan ayrı-seçkilik salan tədbir idi. O zamana qədər Cəmiyyətdən çıxmış Yaponiya 1937-ci ildə Çini işğal etdikdə Assambleya müəyyən etdi ki, Yaponiya 1922-ci il "9 dövlət" müqaviləsini və Brian-Kelloq paktını pozub, 16-cı maddə tətbiq oluna bilər və Cəmiyyətin üzvlərinin həmin müddəaya əsasən ayrı-ayrılıqda hüququ tətbiqetmə tədbirləri görmək haqqı var. Belə tədbirlər heç vaxt görülmədi. Sovet İttifaqı 1939-cu ildə Finlandiya ilə müharibə edən zaman o, 16-cı maddənin 4-cü bəndinə əsasən Cəmiyyətdən xaric edildi, lakin buna qarşı heç bir kollektiv hüquq tətbiqetmə tədbiri görülmədi.

Bu halların əksinə Assambleya 1935-ci ildə müəyyən etdi ki, Efiopiyanın İtaliya tərəfindən işğalı məzmununa və Nizamnaməni pozduğuna görə müharibəyə əl atmaq əsasını yaradırdı və ona görə də 16-cı maddənin birinci bəndi tətbiq olunmalı idi. Nəticədə İtaliyaya qarşı kollektiv iqtisadi sanksiyalar müəyyən edildi və tətbiq olundu. Lakin 16-cı maddənin birinci bəndi ilə müəyyən olunan və verilmiş şərtlər altında beynəlxalq hüququn üstün olması üçün ən yaxşı imkan olan və bütün ehtimallara görə İtaliyanı Efiopiyaya hücumu dayandırmağa vadar etməli olacaq iki tədbir – dəqiq desək, İtaliyaya gedən neft gəmilərinə embarqonun qoyulması və Süveyş kanalının bağlanması – həyata keçirilmədi. Ser H.Lauterpaxtın qeyd etdiyi kimi, "bununla belə, baxmayaraq ki, 16-cı maddənin birinci bəndinin sanksiyaları formal olaraq hərəkətə gətirildi və onların ardıcıl və tədrici tətbiq edilməsi məqsədilə diqqətlə işlənib-hazırlanmış mexanizm təşkil edildi, görülən tədbirlərin təbiəti belə fikir söyləməyə əsas verirdi ki, cəza tədbirləri daha çox mənəvi qınağın təzahürü kimi qəbul olunurdu, nəinki səmərəli məcburiyyət üsulu kimi".[1]

Ona görə də Nizamnamənin 16-cı maddəsinə əsasən hüququn tətbiq edilməsinin mərkəzləşmiş sisteminin qurulması cəhdləri haqqında fikirləri belə ümumiləşdirə bilərik ki, əksər hallarda o, sanksiyaların tətbiqini əsaslandıra bilərdi, lakin sanksiyalar ümumiyyətlə tətbiq olunmazdı. Tətbiq olunduqları nadir hallarda isə onlar elə səmərəsiz formada tətbiq olunurdu ki, faktiki olaraq həm öz uğursuzluqlarını, həm də itaətsiz dövlətin uğurunu təmin edirdi.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin VII fəsli

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 39-51-ci maddələrdən ibarət olan VII fəsli beynəlxalq hüquq tətbiqetmənin dağınıq sisteminin zəifliyini aradan qaldırmaq cəhdi kimi Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsinin

[1] Oppenheim-Lauterpacht, *International Law* (6th ed., 1944), Vol. II, səh. 139-140. (Longmans, Green&Co., Inc. nəşriyyatının icazəsiylə təkrar dərc edilmişdir)

surətini əmələ gətirir. Bu formada o, mərkəzi hüquq tətbiqetmə orqanının yaradılmasına doğru geniş bir addım atır. Birləşmiş Millətlər Təşkilatının hüquq tətbiqetmə sisteminin ürəyini təşkil edən Nizamnamənin 39, 41 və 42-ci maddələri Millətlər Cəmiyyətinin Nizamnaməsinin, yaxud beynəlxalq hüququn istənilən digər müddəasının nəzərdə tutmuş olduğu istənilən şeydən daha çoxuna nail olur. Lakin onlar üç mühüm məhdudiyyətin və istisnanın subyektidir və görəcəyimiz kimi, həmin maddələrin mətninin müəyyən etdiyi kimi hüququn tətbiq edilməsinin mərkəzləşdirilməsini məhdudlaşdırır və müəyyən şərtlər altında hətta sıfıra endirir.

Millətlər Cəmiyyətinin Nizamnaməsi Nizamnamənin pozulub-pozulmadığını müəyyən etməyi ayrı-ayrı dövlətlərə həvalə edir. 16-cı maddəni şərh edən 4 nömrəli Qətnamədə oxuyuruq: "Nizamnamənin pozulması halının baş verib-vermədiyini özlüyündə müəyyən etmək Cəmiyyətin hər bir üzvünün öz vəzifəsidir". 6 nömrəli Qətnaməyə əsasən Cəmiyyətin Şurası bu məsələyə dair heç bir qərar çıxarmır, yalnız mənəvi nüfuzundan başqa heç bir təsiri olmayan tövsiyə verir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 39-cu maddəsində isə, əksinə, belə deyilir: "Təhlükəsizlik Şurası sülhə hər hansı bir təhlükənin, sülhün pozulması, yaxud təcavüz aktının mövcudluğunu müəyyən edir və ... beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görüləcəyi haqqında qərar qəbul edir". Rəsmi olaraq hansı hallarda hüquq tətbiqetmə tədbirlərinin görülməli olduğunu müəyyən edən ayrı-ayrı üzv dövlətlər deyil, Təhlükəsizlik Şurasıdır. Belə bir qərar icrası ayrı-ayrı üzv dövlətlərin mülahizəsindən asılı olan tövsiyə deyil, Nizamnamənin 25-ci maddəsində "verilmiş Nizamnaməyə uyğun olaraq, Təhlükəsizlik Şurasının qərarlarını qəbul etməyə və yerinə yetirməyə razı olan" ayrı-ayrı üzv dövlətlərin üzərində məcburiyyətdir.

Təhlükəsizlik Şurası tərəfindən eyni növ məcburi, rəsmi qərar xüsusi bir hala tətbiq edilməli olan hüquq tətbiqetmə tədbirini müəyyən edir və burada da ayrı-ayrı üzv dövlətlərin mülahizələri ümumiyyətlə nəzərə alınmır. 41-ci maddədə haqqında bəhs edilən iqtisadi sanksiyalara gəlincə, Təhlükəsizlik Şurası "qərar qəbul edə" və üzv dövlətləri onun qərarları ilə razılaşmağa çağıra bilər. 42-ci maddədə nəzərdə tutulan hərbi sanksiyalara münasibətdə isə Təhlükəsizlik Şurası "...tədbir görə bilər". Təhlükəsizlik Şurası tərəfindən hərbi tədbirin görülməsini mümkün etmək üçün 43-cü maddə üzv dövlətlərin üzərinə "...beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması üçün ...Təhlükəsizlik Şurasının ixtiyarına zəruri olan ...silahlı qüvvələr, yardım və vasitələr vermək" öhdəliyi qoyur və 45-ci maddə bu öhdəliyi "birləşmiş beynəlxalq hüquq tətbiqetmə tədbirləri üçün" xüsusilə hərbi-hava qüvvələri kontingentinə münasibətdə vurğulayır. Bu öhdəliklər üzv dövlətlər və Təhlükəsizlik Şurası arasında razılaşma yolu ilə yerinə yetirilməli idi. Razılaşmalar "qüvvələrin sayını və növünü, onların hazırlıq dərəcəsini və ümumi yerləşməsini və vasitələrin təbiətini və göstərilməli yardımı təyin edəcək".

Bu razılaşmalar Nizamnamənin VII fəslinin hüquq tətbiqetmə sxemində yeganə dağınıqlıq ünsürünü təqdim edir; çünki Təhlükəsizlik Şurasının hərbi cəhdinə kiçik bir yardımdan daha böyük bir töhfə verməyə razılıq verməkdən imtina etməklə dövlət Təhlükəsizlik Şurasının qərarlarına əsasən sonrakı öhdəliklərini müvafiq olaraq məhdudlaşdırmaq mövqeyi tutur. Yaxud, ümumiyyətlə, razılaşmadan imtina etməklə Təhlükəsizlik Şurasının müəyyən etdiyi hərbi hüquq tətbiqetmə tədbirlərində iştirak etmək öhdəliyindən ümumiyyətlə boyun qaçıra bilər. Başqa sözlə, VII fəslin hüquq tətbiqetmə mexanizminin hərbi amili yalnız o şərtlə həyata keçə və fəaliyyət göstərə bilər ki, ayrı-ayrı üzv dövlətlər ayrı-ayrılıqda onun mövcudluğuna və fəaliyyətinə icazə versin. Ayrı-ayrı müqavilələr vasitəsilə hərbi kontingentlər yaradılmış olduqda ali hakimiyyət Təhlükəsizlik Şurasına keçir və müqavilə imzalamış dövlətlərin mülahizə yürütmək səlahiyyətinə ən *azından Nizamnamənin hüququ hüdudları çərçivəsində* son qoyulur.

Əslində, üzv dövlətlər hətta müqavilələr imzalandıqdan sonra da 43-cü maddəyə əsasən üzərilərinə düşən öhdəliyi pozaraq Təhlükəsizlik Şurasının "çağırışı"nı diqqətə almaqdan və razılaşdırılmış kontingentləri və hərbi vasitələri onun ixtiyarına verməkdən imtina edə bilər. Onlar bununla Təhlükəsizlik Şurasını fəaliyyət qabiliyyətindən məhrum edə bilərlər. Lakin bu, "qiyam"ın bir növü və bu şəkildə də ehtimalını bütün hərbi təsisatların nəzərə almalı olduğu qeyri-qanuni hərəkət olar. Bununla belə, digər hərbi təsisatlardan fərqli olaraq, Birləşmiş Millətlər Təşkilatının hərbi təsisatı, əgər hüququn subyektləri onu könüllü razılaşmalar yolu ilə həyata keçirməyi öz üzərilərinə götürməsə, ümumiyyətlə, mövcud olmamaq ehtimalı ilə üzləşir.

Nizamnamənin hüququ tətbiqetmənin hərbi tədbirləri ilə əlaqədar müddəaları bu günə qədər kağız üzərində qalmışdır, çünki 43-cü maddəyə əsasən heç bir razılaşma imzalanmamışdır. Bunun nəticəsi olaraq, Nizamnamənin 106-cı maddəsi tətbiq olunur. Bu maddə nəzərdə tutur ki, belə razılaşmalar olmadığı halda ABŞ, Böyük Britaniya, Sovet İttifaqı, Çin və Fransa "təşkilatın adından beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan birgə tədbirlər görmək məqsədilə bir-biriylə və zərurət olduqda Birləşmiş Millətlər Təşkilatının digər üzvləri ilə məsləhətləşəcək". Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi bununla Millətlər Cəmiyyətinin Nizamnaməsinin 16-cı maddəsində və ümumiyyətlə, beynəlxalq hüquqda güc tətbiqetmənin dağınıqlığına geri dönür. Bununla qanunvericilik və mühakiməyə münasibətdə beynəlxalq hüququn zəminində qarşımıza çıxan ayrı-ayrı dövlətlərin iradəsi – yəni dağınıqlıq – hal-hazırda hələ də hüquq tətbiqetmənin mahiyyətini təşkil edir, belə ki, Birləşmiş Millətlər Təşkilatının hərbi təsisatının mövcudluğu və onun yoxluğunda Nizamnamənin müdafiəsi üçün güc tətbiqi problemli məsələlərdir.

mübarizəyə səmərəli məhdudiyyətlərin qoyulmasını – həyata keçirmək imkanından məhrum edir. Bu baxımdan vetonun üç şərtini xüsusi qeyd etməyə dəyər.

Hər şeydən əvvəl, veto istənilən daimi üzvə qarşı tətbiq olunan mərkəzləşdirilmiş hüquq tətbiqetmə tədbirlərinin istənilən ehtimalını aradan qaldırır. Daimi bir üzv belə tətbiqetmə tədbirlərinin potensial qurbanı kimi 39-cu maddə ilə Təhlükəsizlik Şurasından tələb edildiyi kimi qərarı, sadəcə, veto edər ki, "sülhə hər hansı təhlükə, sülhün pozulması və təcavüz aktı" mövcuddur və ona görə də hüquq tətbiqetmə tədbirlərinin tətbiq olunması üçün hansısa hüquqi əsas mövcuddur. Hətta bu kimi tədbirlər məsələsinin qaldırılmasının qarşısı bu şəkildə alınar.

İkincisi, 27-ci maddənin 3-cü bəndinə əsasən Təhlükəsizlik Şurası, ümumiyyətlə, Nizamnamənin hüquq tətbiqetmə mexanizmini həyata keçirmək iqtidarındadır, o bunu kiçik və orta dövlətlərə münasibətdə edə bilər, o dövlətlərə ki, onlar Təhlükəsizlik Şurasının daimi üzvləri arasında deyil və ona görə də mərkəzləşmiş hüquq tətbiqetmə tədbirlərini veto yolu ilə mümkünsüz edə bilmirlər. Lakin böyük dövlətlərin vetosu baxımından belə tədbirlər hətta kiçik və orta dövlətlərə qarşı yalnız fövqəladə şərtlər altında tətbiq olunur. Beynəlxalq siyasətin bugünkü təşkilatlanmasına görə kiçik və orta dövlətlərin çoxu beynəlxalq arenada ağalıq edən böyük dövlətlərdən bu və ya digəri ilə yaxın əlaqədədir. Onların əlaqədə olduqları böyük dövlətin dəstəyi, yaxud ən azından razılığı olmadan Nizamnamənin VII fəslinə əsasən hüquq tətbiqetmə tədbirləri görülməsini tələb edəcək beynəlxalq hüququn pozuntusu həyata keçirmələri ağlabatan deyil. Hətta belə əlaqə olmadan dünyanın istənilən bir yerində iki kiçik dövlət arasında status-kvoda istənilən dəyişiklik Təhlükəsizik Şurasının daimi üzvləri olan böyük dövlətlərin nisbi güc mövqeləri üzərində birbaşa təsirə malik olacaq. Qlobal siyasi və hərbi strategiya bunu günümüzdə qaçılmaz edir.

Ona görə də həmin daimi üzvlərin kiçik və orta dövlətlərə qarşı hüquq tətbiqetmə tədbirlərinə yekdil razılıq verib-verməyəcəkləri beynəlxalq hüquq məsələlərindən daha çox daimi üzvlər arasındakı güc münasibətlərindən asılı olacaq. Əgər daimi üzvlər bir-birinə qarşı real güc yarışında mübarizə aparmırlarsa, onlar mərkəzləşdirilmiş hüquq tətbiqetmə tədbirləri üzrə razılığa gələ bilərlər. Çünki belə olduqda onlar çəkişən dövlətlər arasında güc münasibətlərində hər hansı gələcək dəyişikliyi nisbi soyuqqanlılıqla nəzərdən keçirə bilərlər. Lakin iki və daha artıq daimi üzv güc uğrunda mübarizə apardıqları və buna görə də belə hüquq tətbiqetmə tədbirləri onların güc mövqeləri üzərində birbaşa təsirə malik olduğu zaman daimi üzvlərin yekdil razılığına nail olmaq qeyri-mümkün olur. Hüquq tətbiqetmə tədbirlərinə razılıq verməklə bir daimi üzv ən azından öz dostu və müttəfiqinin, yəni hüquq tətbiqetmə tədbirlərinin nəzərdə tutulan obyektin güc mövqeyini zəiflətməklə öz güc mövqeyini zəiflədir. Həmin daimi

üzv milli marağı hesab etdiyi amilə görə öz nöqteyi-nəzərini müdafiə edəcək. Əlbəttə ki, belə bir mümkün hala əhəmiyyət verilməməlidir. İstənilən halda VII fəslin mərkəzləşdirilmiş hüquq tətbiqetmə tədbirlərinin həyata keçirilməsi Təhlükəsizlik Şurasının ayrı-ayrı fərdlər kimi fəaliyyət göstərən daimi üzvlərinin mülahizəsindən asılıdır. Ona görə də VII fəslin böyük ölçüdə nail olduğu hüquq tətbiqetmənin mərkəzləşdirilməsi 27-ci maddənin 3-cü bəndi ilə heçə endirilir.

Nəhayət, veto 51-ci maddənin kollektiv təhlükəsizlik hüququnu VII fəslin mərkəzləşdirilmiş hüquq tətbiqetmə sisteminə tabe etdirmək üçün istifadə etməyə cəhd etdiyi məhdudiyyətləri bütün praktiki məqsədlər üçün aradan qaldırır. Çünki bir neçə dövlət tərəfindən Təhlükəsizlik Şurasının daimi üzvlərindən ən azından birinin bu və digər tərəfə qoşulmadığı kollektiv hərbi fəaliyyət vəziyyəti ehtimal etmək çətindir. Lakin belə şərtlər altında 27-ci maddənin 3-cü bəndinə uyğun olaraq, daimi üzvlərin yekdilliyi tələbi ya Təhlükəsizlik Şurasının hər hansı tədbir görməsinin qarşısını alır, bu halda dağınıq özünümüdafiə tədbirləri sanki Birləşmiş Millətlər Təşkilatı mövcud deyilmiş kimi üstünlük təşkil edəcək, ya da görülən dağınıq tədbirlərinin Təhlükəsizlik Şurası tərəfindən bəyənilməsini təmin edəcək. Hər iki halda veto təhlükəsi və ya onun reallığı Təhlükəsizlik Şurası üçün artıq dağınıq şəkildə görülmüş tədbirlərin mövcudluğu şəraitində müstəqil olaraq mərkəzləşdirilmiş hüquq tətbiqetmə tədbirlərinin görülməsini qeyri-mümkün edəcək.

Ona görə də Birləşmiş Millətlər Təşkilatının təqdim etdiyi mənzərə ümumi beynəlxalq hüquqdan hüquq tətbiqetmə sisteminin real fəaliyyətinə görə deyil, yalnız dünyadakı mövcud şəraitdə çətin anlaşılan potensial hüquqi imkanlarına görə fərqlənir. İstənilən belə sistemin ən vacib vəzifəsi güc uğrunda mübarizəyə effektiv məhdudiyyətlərin qoyulmasıdır. Birləşmiş Millətlər Təşkilatı bu vəzifəni onun icrasına ehtiyacın ən çox olduğu yerdə – yəni böyük dövlətlərə münasibətdə, ümumiyyətlə, həyata keçirmək iqtidarında deyil. Çünki Nizamnamənin 27-ci maddəsinin 3-cü bəndi böyük dövlətləri Nizamnamə əsasında həyata keçirilən istənilən hüquq tətbiqetmə tədbirinin fəaliyyət dairəsindən kənar qoyur. Digər dövlətlərə gəlincə, Nizamnamənin 51 və 106-cı maddələri 39, 41 və 42-ci maddələrə əsasən ümumi öhdəliklər üçün qeyd-şərtlər kimi fəaliyyət göstərir. Ümumi siyasi vəziyyət Təhlükəsizlik Şurasının daimi üzvləri arasındakı münasibətlərə təsir göstərdiyi kimi, 27-ci maddənin 3-cü bəndi ilə birləşib sonuncunun hüquq tətbiqetmə sahəsində səmərəli fəaliyyət göstərməsinə əngəl törədir.

"Sülh uğrunda birləşmə" qətnaməsi

Birləşmiş Millətlər Təşkilatının kollektiv təhlükəsizlik sisteminin bu zəifliklərı 1950-ci ilin iyununda Şimali Koreyanın Cənubi Koreyaya qarşı təcavüzü zamanı

tətbiq olunan zaman aşkara çıxdı. Təhlükəsizlik Şurası Nizamnamənin kollektiv təhlükəsizliyə dair müddəalarını Şimali Koreyaya qarşı yalnız o gerçəklik əsasında tətbiq edə bildi ki, Sovet İttifaqı müvəqqəti olaraq qurumdan çıxdı və ona görə də aidiyyəti qətnaməni veto edə bilmədi. Sovet İttifaqının Təhlükəsizlik Şurasına qayıtması ilə Baş Assambleyaya Birləşmiş Millətlər Təşkilatının kollektiv fəaliyyətini təşkil etmək yükünü daşımaq tapşırıldı. Baş Assambleyanın kollektiv təhlükəsizlik tədbirlərinə münasibətdə vəzifələri Nizamnamənin 10-cu və 28-ci maddələrinin müəyyən etdiyi kimi üçdə iki səs çoxluğu ilə üzv dövlətlərə tövsiyələr verməklə məhdudlaşır. Tövsiyəyə əməl edib-etməməyin onun ünvanlandığı dövlətin mülahizəsinə həvalə edilməsi tövsiyənin xarakterindən irəli gəlir. Odur ki belə tövsiyələr əsasında görülən kollektiv təhlükəsizlik tədbirləri tamamilə dağınıqdır.

Şimali Koreya təcrübəsi Birləşmiş Millətlər Təşkilatının əksər üzvlərini Təhlükəsizlik Şurasının kollektiv təhlükəsizlik qurumu kimi öz vəzifələrini icra etməkdə gücsüzlüyü – dünyadakı mövcud şərtlər altında bu gücsüzlük daimidir – haqqında xəbərdar etdi. Birləşmiş Millətlər Təşkilatının gələcəkdə görə biləcəyi kollektiv təhlükəsizlik tədbirləri Baş Assambleya tərəfindən həyata keçirilməli idi. Nəticədə 1950-ci ilin noyabrında Baş Assambleya Assambleyanı kollektiv təhlükəsizliyi təşkil edən başlıca qurum kimi gücləndirməyə cəhd edən "Sülh uğrunda birləşmə" adlanan qətnamə qəbul etdi. Onun 5 əsas xüsusiyyəti aşağıdakılardır:

1. Təhlükəsizlik Şurasının beynəlxalq sülh və təhlükəsizlik üçün ilkin öhdəliyini yerinə yetirməsinin qarşısı veto ilə alınarsa, Baş Assambleyanın 24 saat içində toplana bilməsi haqqında müddəa.

2. Belə halda Baş Assambleyanın üzv dövlətlərə silahlı qüvvələrdən istifadə də daxil olmaqla kollektiv tədbirlər görməyi tövsiyə etməsi haqqında müddəa.

3. Hər bir üzv dövlətin milli silahlı qüvvələrinin daxilində Birləşmiş Millətlər Təşkilatının bölməsi kimi mümkün xidmət üçün dərhal sərəncama verilə biləcək vahidlər saxlaması haqqında müddəa.

4. Beynəlxalq gərginliyin mövcud olduğu istənilən ərazidə vəziyyəti müşahidə etmək və məruzə etmək üçün Sülh Müşahidə Komissiyasının yaradılması.

5. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, beynəlxalq sülh və təhlükəsizliyi gücləndirmənin üsul və vasitələrini tədqiq edib məlumat vermək üçün Kollektiv Tədbirlər Komitəsinin yaradılması.

Kollektiv Tədbirlər Komitəsi müntəzəm olaraq Baş Assambleyaya məruzə etmiş, o isə öz növbəsində Komitənin işini təsdiq edən və üzv dövlətlərin diqqətini buna cəlb edən qətnamələr qəbul etmişdir.

Baş Assambleya üzv dövlətlərin fəaliyyəti ilə əlaqədar əmr etmək deyil, yalnız tövsiyələr vermək hüququna sahib olması faktı baxımından "Sülh uğrunda birləşmə"

qətnaməsi və Kollektiv Tədbirlər Komitəsinin fəaliyyəti Baş Assambleya tövsiyə etdiyi halda yalnız üzv dövlətlərin sürətli və səmərəli fəaliyyət istəyini və bacarığını gücləndirmək məqsədinə sahib ola bilər. Bu halda Kollektiv Tədbirlər Komitəsinin, əsasən, ayrı-ayrı üzv dövlətlər tərəfindən belə tədbirlərin əlaqələndirilməsinin və onların Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları tərəfindən məsləhət və əlavə tədbirlərlə dəstəklənməsinin həvəsləndirilməsi ilə məşğul olması təbiidir.

Belə vəziyyətdə "Sülh uğrunda birləşmə" qətnaməsi və Kollektiv Tədbirlər Komitəsi əsasında fəaliyyət göstərdikləri konstitusion məhdudiyyət baxımından Baş Assambleyanın üzv dövlətlərə tövsiyə edə biləcəyi hüquq tətbiqetmə tədbirlərinin dağınıq xarakterini dəyişməyə cəhd edə bilməz. Üzv dövlətlər hər zaman olduğu kimi bu tövsiyələrlə uyğun bildikləri kimi razılaşıb-razılaşmamaqda azad olaraq qalır. Həmin dağınıqlıq "Sülh uğrunda birləşmə" qətnaməsinin əsaslandığı və Kollektiv Tədbirlər Komitəsinin üzərində fəaliyyət göstərdiyi həmin konstitusional zəmini yaradır. Qətnamə və Komitə sanki həmin dağınıqlığı təsdiq edir və dağınıq hüquq tətbiqetmə tədbirlərini bacardığı qədər effektiv etməyə cəhd edir.[1]

Ona görə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində beynəlxalq hüququn tətbiq edilməsi reallıqda Millətlər Cəmiyyətinin Nizamnaməsinə əsasən və ümumiyyətlə, beynəlxalq hüquqda aşkar etdiyimiz kimi dağınıq olaraq qalır. Beynəlxalq hüquqa mərkəzləşmiş hüquqi sistemin effektivliyini vermək cəhdinin edildiyi hallar qeyd-şərtlər, məhdudiyyətlər və müasir dövlət sistemində dövlətlərin fəaliyyət göstərməli olduğu şərtlər altında mərkəzləşmiş funksiyalar yaratmaq məqsədilə yaradılmış hüquqi öhdəlikləri heçə endirmişdir.

Beynəlxalq hüququn qanunvericilik funksiyasında islahatlar etmək üçün heç bir kollektiv cəhd edilməmişdir. Lakin məhkəmə və icraetmə funksiyalarında islahatlar aparmaq üçün ardıcıl cəhdlər edilib. Beynəlxalq hüququn dağınıq xarakteri özünü hər belə cəhdə qarşı göstərmişdir. Bu halda, görünür ki, dağınıqlıq beynəlxalq hüququn öz mahiyyətidir. Dağınıqlığı qaçılmaz edən əsas prinsip isə suverenlik prinsipində axtarılmalıdır.

1 Bununla belə, dağınıqlığı aradan qaldıran siyasi dəyişiklik haqqında bax: səh. 360 və növbəti səhifələr

19. Suverenlik

SUVERENLİYİN ÜMUMİ XARAKTERİ

Suverenlik prinsipi, bu prinsip və dağınıq beynəlxalq hüquq sisteminin zəifliyi arasındakı yaxın əlaqəni dərk edənlər tərəfindən ifşa edilməsi onun xarakteri və müasir dünya sistemi üçün həyata keçirdiyi funksiyanın dərk edilməsinə göstərilən ciddi səylərdən daha tez-tez qeydə alınır. Nəticədə bir neçə görkəmli alimin göstərdiyi ciddi səylərə baxmayaraq, terminin mənası və verilmiş dövlətin suverenliyi ilə nəyin uyğunlaşması, nəyinsə uyğunlaşmaması haqqında böyük bir çaşqınlıq yaradır.

Müasir suverenlik anlayışı ilk dəfə XVI əsrin sonunda yeni ərazi dövləti fenomeninə münasibətdə istifadə edilib. O, hüquqi mənada həmin dövrün təməl siyasi vəziyyətinə – müəyyən ərazi daxilində qanun yaratma və qanun tətbiqetmə hakimiyyətini həyata keçirən mərkəzləşmiş qüvvənin meydana gəlməsinə şamil olunurdu. Həmin dövrdə hökmən olmasa da, əsasən, mütləq monarx formasında qanuniləşən bu qüvvə həmin ərazidə özünü göstərən digər qüvvələrdən üstün idi. Bir əsrlik müddət ərzində o istər ərazi daxilində, istərsə də ərazisiz təkzibedilməz oldu. Başqa sözlə o, ali forma aldı.

Otuzillik müharibənin sonunda suverenlik müəyyən bir ərazi üzərində ali hakimiyyət kimi siyasi bir gerçəklik idi və o ərazi bir tərəfdən dövlət rəhbərlərinin, bir tərəfdən imperator və Papanın universal hakimiyyəti, digər tərəfdən feodal baronların müstəsna istəkləri üzərində qələbəsinin ifadəsi idi. Fransanın sakini öyrəndi ki, kral hakimiyyətindən başqa heç kim ona əmrlər verə və onları tətbiq edə bilməz. Fransanın fərdi vətəndaşının bu təcrübəsi İngiltərə kralı və İspaniya kralının təcrübəsi ilə təkrarlandı; bu o deməkdir ki, Fransa kralının ölkə ərazisi daxilində ali hakimiyyəti onların həmin ərazidə özlərinin hər hansı hakimiyyət sürməsinin qarşısını alır, yalnız o haldan başqa ki, kral özü hakimiyyəti tərk etsin, yaxud o, müharibədə məğlub edilsin. Lakin İngiltərə kralı və İspaniya kralının Fransada heç bir hakimiyyəti yox idisə də, onlar öz əraziləri daxilində müstəsna hakimiyyətə malik idilər.

Müasirlərin təcrübəsində mövcud olan bu siyasi faktlar dövlət haqqında Orta əsrlər nəzəriyyəsi ilə izah oluna bilməzdi. Suverenlik təlimi bu siyasi faktları

hüquqi nəzəriyyə səviyyəsinə qədər təkmilləşdirdi və bununla onlara həm mənəvi sanksiya, həm də hüquqi zərurət görüntüsü verdi. Monarx artıq öz ərazisi daxilində yalnız siyasi reallıq baxımından deyil, həmçinin hüquqi baxımdan ali hakim idi. O, bəşəri qanunun, yəni bütöv pozitiv hüququn yeganə mənbəyidir, lakin o özü ona tabe deyildi. O, qanun üstündə idi – *legibus solutus*. Bununla belə, onun hakimiyyəti hüdudsuz deyildi, çünki o onun vicdanında üzə çıxan və insan təfəkküründə özünü təbii hüquq şəklində büruzə verən ilahi hüquq ilə bağlı olaraq qalırdı.

Suverenlik təlimi tarixin müasir mərhələsində öz əhəmiyyətini qoruyub saxlamış və kütləvi suverenlik anlayışı ilə o, milli demokratik dövləti təsirli bir siyasi silah ilə təmin etmişdir. Lakin o həmçinin xüsusilə beynəlxalq hüquq düzənində təkrar şərhlərə, dəyişikliklərə və hücumlara məruz qalmışdır. Bu şübhələrin və çətinliklərin mənbəyi müasir beynəlxalq hüququn mahiyyətində duran iki təsəvvürün aşkar məntiqi uyğunsuzluğundadır: beynəlxalq hüququn ayrı-ayrı dövlətlərə hüquqi məhdudiyyətlər qoyması ilə bağlı təsəvvür və həmin dövlətlərin suveren, yəni ali hüquq yaradan və hüquq tətbiq edən hakimiyyətlər olması, lakin özlərinin hüquqi məhdudiyyətlərə məruz qalmaması təsəvvürü. Lakin, əslində, suverenlik yalnız mərkəzləşmiş olduğu üçün güclü və səmərəli olan beynəlxalq hüquq sistemi ilə uyğun gəlmir. O, dağınıq, buna görə də zəif və səmərəsiz olan beynəlxalq hüquqi nizam ilə heç bir uyğunsuzluq təşkil etmir. Çünki milli suverenliyin özü həmin dağınıqlığın, zəifliyin və səmərəsizliyin mənbəyidir.

Beynəlxalq hüquq iki mənada dağınıq hüquqi nizamdır. Birincisi, onun qaydaları prinsip etibarilə yalnız o dövlətlər üçün məcburidir ki, həmin qaydalarla razılaşıblar. İkincisi, razılıq əsasında məcburi olan qaydaların çoxu o qədər qeyri-dəqiq, ikimənalı və şərtlər və qeyd-şərtlərlə məhdudlaşmışdır ki, ayrı-ayrı dövlətlərdən beynəlxalq hüququn qaydasına riayət etmək tələb olunanda onlar üçün böyük fəaliyyət azadlığı imkanı yaranır. Dağınıqlığın ikinci növü beynəlxalq hüququn məhkəmə və icraetmə funksiyalarında öz izini buraxdığı halda, birinci növü qanunvericilik sahəsində əhəmiyyətlidir.

Beynəlxalq hüququn yalnız nisbətən azsaylı qaydaları öz mövcudluqlarına görə beynəlxalq birliyin üzvlərinin razılığına borclu deyil. Onlar ya hər hansı hüquqi sistemin mövcudluğunun məntiqi olaraq ilkin şərti, məsələn, şərhetmə qaydaları və sanksiyalar qoymaq qaydaları kimi, ya da çoxsaylı dövlət sisteminin mövcudluğunun məntiqli ilkin şərtidir, məsələn, ayrı-ayrı dövlətlərin yurisdiksiyasını məhdudlaşdıran qaydalar kimi. Bu növ qaydalar razılıq verməsindən asılı olmayaraq, bütün dövlətlər üçün məcburidir və müasir dövlət sisteminin ümumi və məcburi beynəlxalq hüququ *jus necessarium* adlandırıla bilərdi. Onların məcburiyyət qüvvəsi ayrı-ayrı dövlətlərin suverenliyinə təsir göstərmir. Əslində, o,

suverenliyi hüquqi konsepsiya kimi mümkün edir. Çünki ayrı-ayrı dövlətlərin ərazi yurisdiksiyasına qarşılıqlı hörmət olmadan və həmin hörmət hüquqi şəkildə tətbiq edilmədən beynəlxalq hüquq və ona əsaslanan dövlət sistemi, şübhəsiz ki, mövcud ola bilməz.

Beynəlxalq hüququn bu ümumi və zəruri qaydaları istisna olmaqla hər bir ayrıca dövlət beynəlxalq hüququn onun üçün məcburi olan qaydaları ilə uyğun olduğu qədər ən yüksək qanunverici hakimiyyətdir. Yalnız öz razılığı ilə özü üçün yaratdığı qaydalardan başqa, beynəlxalq hüququn heç bir qaydası onun üçün məcburi deyil. Onun üstündə heç bir qanunverici hakimiyyət yoxdur. Ona görə də beynəlxalq hüquqda qanunvericilik funksiyasının dağınıqlığı qanunvericilik məsələsinə tətbiq olunan suverenlik prinsipindən başqa bir şey deyil.

Yuxarıda qeyd olunmuş tək məhdudiyyət qanunvericilik funksiyası üçün həqiqət olan mütləq şəkildə məhkəmə və icraetmə funksiyalarına da tətbiq olunur. Ayrıca dövlət mübahisənin beynəlxalq mühakiməyə təqdim edilib-edilməməsi və hansı şərtlər altında təqdim edilməsini müəyyənləşdirən ali hakimiyyət olaraq qalır və heç bir digər dövlət onu razılığı olmadan beynəlxalq məhkəmə qarşısına çağıra bilməz. Belə razılığın ümumi formada verildiyi hallarda qeyd-şərtlər, adətən, konkret vəziyyətdə beynəlxalq hüququ pozmadan beynəlxalq məhkəmənin yurisdiksiyasını yayındırmağa imkan verir. Burada yenidən beynəlxalq mühakimənin dağınıqlığı milli suverenlik üçün məhkəmə funksiyasına münasibətdə digər bir anlayışdır.

Hüquq tətbiqetmə sahəsində suverenliyin müzakirəsində iki vəziyyət fərqləndirilməlidir. Hüquq tətbiqetmə qurumu kimi dövlətin suverenliyi məhkəmə sahəsində suverenlik ilə eynidir; yəni hüquq tətbiqetmə fəaliyyətinə qoşulub-qoşulmamaq və necə qoşulmaq haqqında son qərar vermək ayrıca dövlətə məxsusdur. Digər tərəfdən, hüquq tətbiqetmə fəaliyyətinin nəzərdə tutulmuş obyekti kimi dövlətin suverenliyi dövlətin "keçilməzliyi" adlanan halda özünü büruzə verir. Bu, verilmiş ərazidə yalnız bir dövlətin suverenliyə – ali hakimiyyətə – malik ola biləcəyini və onun ərazisində onun razılığı olmadan heç bir digər dövlətin hökumət fəaliyyəti göstərmək hüququnun olmadığını söyləməyin digər bir yoludur. Nəticədə, müharibə istisna olmaqla, beynəlxalq hüquq ilə nəzərdə tutulmuş bütün hüquq tətbiqetmə tədbirləri tabesizlik göstərən hökumətə təzyiqin göstərilməsi ilə məhdudlaşır – məsələn, diplomatik etirazlar, müdaxilə, cavab tədbirləri, mühasirə – və bütün bunlar hüququ pozan dövlətin ərazi suverenliyini toxunulmaz buraxır. Müharibə beynəlxalq hüquqa əsasən hüquq tətbiqetmənin fövqəladə forması kimi bu qaydada yeganə istisnadır; çünki öz ərazinin "keçilməzliyi"ni təmin etmək üçün düşmənin ərazisinə daxil olmaq elə müharibənin mahiyyətini təşkil edir və beynəlxalq hüquq işğalçı dövlətə hərbi qüvvələri ilə işğal etdiyi xarici ərazidə suveren hüquqlarını həyata keçirmək icazəsi verir.

Qanunverici, məhkəmə və icraetmə funksiyalarının tamamilə dağınıqlığı suverenliyin bir çox təzahürləri olduğu kimi, beynəlxalq hüququn üç digər prinsipi də suverenlik anlayışı ilə sinonim, əslində, həmin anlayışın törəmələridir. Bu prinsiplər müstəqillik, bərabərlik və yekdillikdir.

SUVERENLİYİN SİNONİMLƏRİ: MÜSTƏQİLLİK, BƏRABƏRLİK, YEKDİLLİK

Müstəqillik ayrıca bir dövlətin ali hakimiyyətinin hər hansı digər dövlətin hakimiyyətini kənarlaşdırmaqdan ibarət olan xüsusi aspektini ifadə edir. Dövlətin ali hakimiyyəti, yəni müəyyən bir ərazi daxilində suveren olması fikri məntiqi olaraq onu nəzərdə tutur ki, o, müstəqildir və onun üstündə heç bir hakimiyyət yoxdur. Nəticədə hər bir dövlət öz daxili və xarici fəaliyyətini müqavilə, yaxud əvvəldə ümumi və zəruri beynəlxalq hüquq adlandırdığımız fenomen ilə məhdudlaşdırıldığı qədərincə öz mülahizələrinə uyğun olaraq idarə etməkdə azaddır. Ayrıca dövlət özü üçün məqbul hesab etdiyi istənilən konstitusiyanı qəbul etmək, öz vətəndaşları üçün təsirindən asılı olmayaraq, arzu etdiyi istənilən qanunu müəyyən etmək və istənilən idarəetmə sistemini seçmək hüququna sahibdir. O, xarici siyasət məqsədləri üçün zəruri hesab etdiyi istənilən növ hərbi təsisata sahib olmaqda azaddır – xarici siyasəti isə öz növbəsində uyğun bildiyi kimi təyin etməkdə azaddır.

Müstəqillik müqavilə şərtləri ilə əksi nəzərdə tutulmayıbsa, bütün dövlətlərin zəruri xassəsi olduğu kimi, həmin müstəqilliyə hörmətlə yanaşmaq öhdəliyi də beynəlxalq hüququn zəruri qaydasıdır. Əgər müqavilələr ilə ləğv edilmirsə, müdaxiləni qadağan edən bu qayda bütün dövlətlərə şamil olunur. 1931-ci ildə Millətlər Cəmiyyəti Almaniya və Avstriya arasında gömrük ittifaqı yaradan müqaviləyə müdaxilə etdi. Bu müdaxilə yalnız Avstriyanın onun müstəqilliyini təhlükə altına salacaq heç bir hərəkət etməyəcəyinə dair üzərinə götürdüyü müəyyən müqavilə şərtləri ilə əsaslandırıla bilərdi. Avstriyanın özünün öz fəaliyyət azadlığını məhdudlaşdırdığı belə xüsusi öhdəlikləri olmasaydı, o, seçdiyi istənilən tərəflə arzuladığı istənilən müqaviləni imzalamaqda azad olardı.

Müzakirəmizin məqsədləri baxımından yalnız ümumi beynəlxalq hüquqda ayrı-ayrı dövlətlərin xarici siyasətləri üzərində məhdudiyyətlərin olmaması deyil, həmçinin ümumi beynəlxalq hüquq tərəfindən digər dövlətlərin xarici siyasət fəaliyyətlərinin həyata keçirilməsinə müdaxilə etməməyə dair bütün dövlətlərin üzərinə qoyulan müsbət öhdəlik də qeyd olunmalıdır.

Bərabərlik də suverenliyin onun xüsusi aspektinə işarə edən sinonimindən başqa bir şey deyil. Əgər bütün dövlətlər öz əraziləri daxilində ali hakimiyyətə sahib olarsa, heç bir dövlət bu hakimiyyəti həyata keçirmək üçün hər hansı digər dövlətdən asılı edilə bilməz. Heç bir dövlət müqavilə şərtləri ilə əksi nəzərdə tutulmayıbsa, hər hansı digər dövlətə hansı qanunu qəbul etməli və tətbiq etməli olduğunu söyləmək hüququna sahib deyil, o ki qaldı onun ərazisində qanun qəbul etmək və orada qanun tətbiq etmək. Suveren olduqları zaman dövlətlər birbaşa olaraq öz ərazilərində fəaliyyət göstərən qanunvericilik və qanun tətbiqetmə hakimiyyətinin hədəfi ola bilməz. Beynəlxalq hüquq bir-birindən asılı olan deyil, bir-biriylə əlaqələndirilən varlıqlar arasında olan hüquqdur. Dövlətlər bir-birinə deyil, beynəlxalq hüquqa tabedir; yəni onlar bərabərdir. Ona görə də Nizamnamənin 2-ci maddəsi bəyan edəndə ki, "Təşkilat bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır", onun uzun-uzadı dili suverenlik prinsipinə və onun məntiqi xülasəsi olan bərabərlik prinsipinə verdiyi əhəmiyyəti vurğulayır.

Bərabərlik prinsipindən beynəlxalq hüququn qanunvericilik və müəyyən ölçüdə qanun tətbiqetmə funksiyasının dağınıqlığı üçün cavabdehlik daşıyan fundamental bir prinsipi doğur: bərabərlik qaydası. Bu onu ifadə edir ki, qanunvericilik funksiyasına münasibətdə ərazisinin ölçüsündən, əhalisinin sayından və gücündən asılı olmayaraq, bütün dövlətlər bərabərdir. Beynəlxalq birlik üçün yeni hüquq yaradan istənilən beynəlxalq konfransda Panamanın səsinin çəkisi ABŞ-ın səsinin çəkisinə bərabərdir və onların hər ikisi üçün məcburi olan qaydanın qəbul edilməsi üçün onların hər ikisinin səsi tələb olunur. Başqa cür olsaydı, geniş və güclü bir dövlət təmsilçilikdə sahib olduğu real üstünlükdən zəif və kiçik dövlət üzərində onun razılığı olmadan hüquqi öhdəliklər qoymaq üçün istifadə edə bilərdi. Beləliklə, güclü dövlət kiçik dövlətin suverenliyini pozaraq öz hakimiyyətini kiçik dövlətin ərazisində ali hakimiyyətə çevirərdi. Bütün şəraitlərdə bərabərlik qaydası müşavirələrdə iştirak edən hər bir dövlətə qərarın müəyyən etdiyi öhdəliyi daşımağı istəyib-istəmədiyini özlüyündə müəyyənləşdirmək hüququ verir. Qərara qanuni qüvvə vermək üçün bütün iştirakçı dövlətlərin razılığı tələb olunduqda hər bir dövlət qərarı ya onun əleyhinə səs vermək, ya da onun qəbuluna razılıq verməməklə, ümumiyyətlə, veto etmək hüququna malikdir.

Bu halda sərt yekdillik qaydasının əksinə olaraq, veto nəinki razılıq verməyən dövləti qərara əsasən hər hansı hüquqi öhdəlikdən azad etmək, həmçinin, ümumiyyətlə, qanunvericilik və qanun tətbiqetmə prosesini dayandırmaq təsirinə malikdir. Yekdillik qaydası suverenliyin məntiqi nəticəsi olduğu halda, veto haqqında bunu söyləmək olmaz. Yekdillik qaydası bu deməkdir: mənim razılığım olmadan sizin qərarınız mənim üçün məcburi deyil. Vetonun mənası isə belədir: mənim razılığım olmadan ümumiyyətlə heç bir qərar qəbul edilə bilməz. Veto, başqa sözlə, dövlətlərin müşavirələrdə ya hamı tərəfindən əməl olunan kollektiv qərar

ilə razılaşmaq, ya da ümumiyyətlə heç bir qərarı olmamaq alternativi ilə iştirak etməsinin qarşısını alır. Eyni zamanda həm dağıdıcı, həm də yaradıcı olan bu ikili funksiyaya münasibətdə veto suverenliyin adi təzahüründən daha böyükdür. Bu haqda irəlidə daha geniş söhbət açılacaq.[1]

SUVERENLİK NƏ DEYİL?

Suverenliyin nə olduğunu öyrəndikdən sonra biz indi suverenliyin nə olmadığı, lakin çox vaxt belə olduğu düşünüldüyünü müzakirə edəcəyik.

1. Suverenlik hüquqi məhdudiyyətlərdən azadlıq deyil. Dövlətin öz fəaliyyət azadlığını məhdudlaşdırdığı hüquqi öhdəliklərin sayı onun suverenliyinə bu şəkildə təsir göstərmir. Ona görə də müəyyən müqavilənin dövlətin üzərinə onun suverenliyini pozacaq dərəcədə ağır öhdəliklər qoyacağı haqqında tez-tez eşitdiyimiz arqument mənasızdır. Dövlətin suverenliyinə təsir göstərən öhdəliklərin sayı deyil, məzmunudur. Dövlət üzərinə istənilən sayda öhdəlik götürə, lakin həmin hüquqi məhdudiyyətlərin onun ali qanunvericilik və hüquq tətbiqetmə hakimiyyətinin keyfiyyətinə xələl gətirməməsini təmin etməklə suveren qala bilər. Lakin həmin hakimiyyətə xələl gətirən tək bir hüquqi müddəa öz-özlüyündə dövlətin suverenliyini pozmaq üçün kifayətdir.

2. Suverenlik, adətən, ayrı-ayrı dövlətlərin mülahizəsinə buraxılan, yaxud Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 7-ci bəndi, 15-ci maddəsinin 8-ci bəndi[2] ilə müəyyən edildiyi kimi dövlətin daxili yurisdiksiyasına aid olan bütün məsələlərdə beynəlxalq hüquq ilə tənzimləmələrdən azadlıq deyil. Beynəlxalq hüququn tənzimlədiyi və onun əlaqədar olmadığı məsələlər arasında əlaqə dəyişkəndir. O, ayrı-ayrı dövlətlər tərəfindən yürüdülən siyasətlərdən və beynəlxalq hüququn inkişafından asılıdır. Ona görə də ayrı-ayrı dövlətlərin immiqrasiya siyasətlərinin beynəlxalq səviyyədə tənzimlənməsinin onların suverenliyi ilə uyğun olmadığını bəyan etmək yanıldıcıdır. Bu yalnız əlaqədar dövlətlərin əvvəlcədən razılıq vermədikləri beynəlxalq tənzimləmələr üçün doğrudur. İmmiqrasiya məsələlərinə aid beynəlxalq müqavilələrin bağlanması müqavilə bağlayan dövlətlərin suverenliyinə xələl gətirmir.

3. Suverenlik beynəlxalq hüquqa əsasən hüquq və öhdəliklərin bərabərliyi deyil. Bu baxımdan böyük bərabərsizliklər suverenlik ilə eyni zamanda mövcud ola bilir.

[1] Bax: paraqraflar 27, 30.
[2] Mətn üçün bax: səh. 381-382, qeyd 1.

Sülh müqavilələri çox vaxt hərbi təsisatın həcmi və keyfiyyətinə, silahlanmaya, istehkamlara, kompensasiyalara, iqtisadi siyasətlərə və ümumilikdə xarici siyasətin icrasına münasibətdə məğlub olanın üzərinə ağır öhdəliklər qoyur. Bu halda məğlubiyyətə uğradılmış dövlət suverenliyindən məhrum edilmir. Almaniya, Avstriya, Macarıstan və Bolqarıstan 1919-cu il sülh müqavilələrinin onların üzərinə qoyduğu birtərəfli hüquqi öhdəliklərə baxmayaraq, suveren dövlətlər olaraq qaldı. Eyni sülh müqavilələri Çexoslovakiya, Polşa və Rumıniya kimi digər dövlətləri öz subyektləri arasında müəyyən irqi və dini azlıqlara münasibətdə hüquqi öhdəliklərə görə ayırdı. Rumıniya Bolqarıstan, Qaradağ və Serbiya ilə birlikdə 1878-ci ildə onu suveren dövlət kimi tanımış həmin müqavilə ilə belə beynəlxalq öhdəliklərə məruz qaldı. Çox vaxt digər dövlətlərin azad olduğu hüquqi öhdəlikləri yerinə yetirməli olan dövlətlər bu hüquqi boyunduruqdan azad olmaq tələblərini əsaslandırmaq üçün suverenlik və bərabərlik prinsiplərinə əl atıb. Belə hallarda hər zaman məsələ suverenliyin deyil, müqavilələrin dəyişdirilməsi olmuşdur.

4. Suverenlik siyasi, hərbi, iqtisadi, yaxud texnoloji məsələlərdə real müstəqillik deyil. Həmin məsələlərdə dövlətlərin real qarşılıqlı asılılığı və müəyyən dövlətlərin digərlərindən real siyasi, hərbi və iqtisadi asılılığı müəyyən dövlətlər üçün müstəqil daxili və xarici siyasət yürütməyi çətinləşdirə və qeyri-mümkün edə bilər, lakin bu, adətən, onların öz əraziləri daxilində ali qanunvericilik və hüquq tətbiqetmə hakimiyyətinə, yəni onların suverenliyinə xələl gətirmir.[1] Onlar hakim olan real şərtlər səbəbindən arzu edəcəkləri və daha güclü dövlətlərin qəbul və tətbiq edə bildikləri qanun növlərini qəbul və tətbiq etməyə bilərlər. Lakin onların beynəlxalq hüquqa əsasən öhdəlikləri hüdudlarında istədikləri qanunu qəbuletmə və tətbiqetmə hakimiyyəti bu şəkildə ləğv olunmur. Dövlətlərin real bərabərsizliyi və bir-birindən asılılığı suverenlik adlanan hüquqi status ilə heç bir uyğunluğa malik deyil. Panama ABŞ kimi suveren bir dövlətdir, baxmayaraq ki, siyasi xətlərinin və hüquqlarının seçimində onun imkanları ABŞ-ın imkanlarından daha məhduddur.

SUVERENLİK NECƏ İTİRİLİR?

Bəs dövlət suverenliyini hansı şəraitdə itirir? Onların yaratdığı hansı beynəlxalq hüquq qaydaları və beynəlxalq təsisat növləri, əslində, suverenlik ilə bir araya sığmır? Suverenliyi toxunulmaz edən hüquqi və real bərabərsizliklər ilə və

[1] Suverenliyin bu şəkildə itirildiyi fövqəladə vəziyyət haqqında bax: səh. 405 və növbəti səhifələr

dövlətin müstəqilliyini məhv edən hakimiyyətinin zədələnməsi faktı arasındakı fərqləndirici xətt haradadır?

Nəzəri baxımdan bu suallara cavab vermək heç bir çətinlik yaratmır. Suverenlik dövlətin müəyyən bir ərazi daxilində qanunvericilik və qanun tətbiqetmə sahəsində ali hüquqi hakimiyyəti və bunun nəticəsində hər hansı digər dövlətin hakimiyyətindən azadlığı və beynəlxalq hüquqa əsasən onunla bərabərliyidir. Buna görə də dövlət öz suverenliyini başqa bir dövlətin hakimiyyəti altına salınan zaman itirir, belə vəziyyətdə birincinin ərazisində qanunvericilik və qanun tətbiqetmə sahəsində ali hakimiyyəti həyata keçirən ikincidir. Bu halda suverenlik iki müxtəlif yolla itirilə bilər.

Dövlət öz üzərinə elə hüquqi öhdəliklər götürə bilər ki, digər dövlətə öz qanunvericilik və qanunu tətbiqetmə fəaliyyətləri üzərində həlledici səlahiyyət verər. A dövləti B dövlətinə öz konstitusion hakimiyyətləri tərəfindən qəbul edilən hər hansı qanunvericilik sənədini, yaxud öz icraedici qurumları tərəfindən həyata keçirilməli olan hər hansı hüquq tətbiqetmə fəaliyyətini veto etmək hüququnu güzəştə getməklə suverenliyini itirir. Bu halda A dövlətinin hökuməti A ərazisində faktiki olaraq fəaliyyət göstərən yeganə qanunverici və qanun tətbiqetmə hakimiyyəti olaraq qalır, lakin o artıq ali hakimiyyət deyil, çünki o da öz növbəsində B dövlətinin hökumətinin nəzarətindədir. Həmin nəzarəti həyata keçirməklə B dövlətinin hökuməti ali hakimiyyətə, ona görə də A ərazisində suverenə çevrilir.

Suverenliyin itirilə biləcəyi digər yol dövlətin ərazisinin "keçilməzliyi" adlandırdığımız xüsusiyyətin itirilməsindən ibarətdir. Burada qanunverici və qanun tətbiqetmə hakimiyyəti kimi A dövlətinin hökumətinin yerini B dövlətinin hökuməti tutur, o isə öz qurumları vasitəsilə A ərazisində qanunvericilik və qanun tətbiqetmə funksiyalarını həyata keçirir. A ərazisində hakimiyyətini tamamilə itirən A dövlətinin hökuməti yalnız adını və görüntüsünü saxlayır, hökumətin real funksiyaları isə B dövlətinin qurumları tərəfindən yerinə yetirilir.

Lakin bu mücərrəd meyarların real vəziyyətlərə və konkret məsələlərə tətbiq olunması böyük çətinliklərlə qarşılaşır. Suverenliyin itirilməsi məsələsini müşayiət edən çətinliklərin kökündə müasir hüquqi və siyasi nəzəriyyədə suverenlik anlayışının həmin anlayışın hüquqi ifadə verdiyi hesab edilən siyasi reallığa uyğun gəlməməsidir.

Bu gün suverenlik ilk dəfə XVI əsrdə meydana gələn zaman olduğu kimi siyasi bir reallığa işarə edir. Həmin reallıq verilmiş ərazinin hüdudları daxilində istənilən rəqabət aparan şəxs və şəxslər qrupundan daha güclü olan və davamlı olacaq şəkildə təşkil olunmuş gücü həmin ərazi daxilində hüquqi qaydalar qəbul etmək və tətbiq etmək üçün ali hakimiyyət şəklində özünü büruzə verən şəxsin, yaxud şəxslər qrupunun mövcudluğudur. Beləliklə, XVI və ondan sonrakı əsrlərdə

mütləq monarx nəzəri fərziyyə ilə, yaxud hüquqi baxımdan şərhinə görə deyil, siyasi reallığa əsasən ali hakimiyyət idi, yəni o, suveren idi. O bir tərəfdən Papa və imperatordan, digər tərəfdən feodal baronlardan daha güclü idi və ona görə də onların hər hansı birinin müdaxiləsi olmadan qanunlar qəbul edə və onları tətbiq edə bilirdi.

Eynilə bu gün ABŞ ərazisi daxilində federal hökumət suverendir; çünki onun gücünə qarşı çıxa biləcək heç bir fövqəlmilli hakimiyyət, həmçinin ərazisi daxilində bunu edəcəyini düşündüyü qrup və funksional hakimiyyətlər yoxdur. XVI əsrdə Fransa monarxiyasının suverenliyindən kiçik olmayan bu suverenlik dövlətdə qüvvələrin real bölgüsünün nəticəsidir. Ona görə də bu başlıca olaraq Vətəndaş müharibəsində İttifaqın Konfederasiya üzərində qələbəsinin nəticəsidir. Əgər federal hökumətin Amerika Birləşmiş Ştatları daxilində ali hakimiyyəti federal hökumət tərəfindən effektiv nəzarət olmadan özləri üçün qanunlar qəbul etmək və onları tətbiq etmək üçün kifayət qədər güclü olan siyasi və iqtisadi təşkilatlar tərəfindən azaldılmalı olsaydı, Orta əsrlərin sonunda ərazi dövlətləri öz ali hakimiyyətlərini Müqəddəs Roma imperiyasının imperatoruna tabe etdikləri zaman yaranan vəziyyətə oxşar vəziyyət yarana bilərdi. Bu halda federal hökumət bir müddətliyinə imperator kimi suveren hakimiyyətin hüquqi atributları və nüfuzunu saxlasa da, Amerika Birləşmiş Ştatları, əslində, suveren olan bir sıra ərazi və funksional vahidlərə parçalanardı.

Apardığımız bu müzakirədən 4 nəticə çıxır:

1. Suverenliyin məkanı iki suala verilən cavablardan asılıdır: (a) Dövlətin hökuməti hansı hallarda digər bir hökumət tərəfindən hüquqi olaraq idarə olunur? və (b) Hansı hökumət dövlətin ərazisi daxilində hökumət funksiyalarını yerinə yetirir?

2. Suverenliyin məkanı siyasi mühakimə, eləcə də hüquqi şərh məsələsidir.[1]

3. Əgər ərazi daxilində qüvvələrin real bölgüsü məsələsi həll edilməmiş qalırsa, suverenliyin məkanı müvəqqəti olaraq şübhəli ola bilər.

4. Eyni bir ərazi üzərində suverenlik eyni vaxtda iki müxtəlif hakimiyyətə məxsus ola bilməz; yəni suverenlik bölünməzdir.

Bir sıra tarixi vəziyyətlərin bu 4 nəticənin fonunda aparılan analizi ilə hansı beynəlxalq öhdəliklərin suverenlik ilə uyğun gəlib, hansı öhdəliklərin isə uyğun gəlmədiyinə dair çox əhəmiyyətli məsələ baxımından bu səhifələrdə izah edilən suverenlik anlayışının gərəksizliyini sınaqdan keçirəcəyik.

1 Müqayisə et: Justice Holmes, *American Banana Co. vs United Fruit Co.*, 213 U.S. 347 at 358 (19090): "... suverenlik təbii reallıqdır"; və *Western Maid*, 257 U.S. 419 at 432 (1921): "Suverenlik güc məsələsidir və heç bir insan gücü hüdudsuz deyil".

1. 1947-ci ildə Hindistanın müstəqilliyi elan olunmazdan əvvəl hind dövlətləri və Böyük Britaniya arasındakı münasibətlər müqavilələr ilə tənzimlənirdi. Bu müqavilələr həmin dövlətlərin daxili müstəqilliyinə təminat verdiyi halda, Böyük Britaniyaya onları təcavüzə qarşı qorumaq, onların xarici işlərini idarə etmək və daxili idarəetməsinə ümumi nəzarət haqqı verirdi. Baxmayaraq ki, bu hökumətlərin əksəriyyəti faktiki olaraq öz əraziləri daxilində tam nəzarətə sahib idi, öz növbəsində onlar da Britaniya hökuməti tərəfindən nəzarət altında idilər və ona görə də onlar suveren deyildilər. Həm Britaniya, həm də hind məhkəmələri belə qərara gəlmişdir.

2. Bunu ABŞ və Kuba arasında 1901-ci il Havana müqaviləsinə edilmiş Platt düzəlişi ilə yaranan vəziyyət ilə qarşılaşdırmaq faydalıdır. Dəyişiklik Kubanın üzərinə onun müstəqilliyinə xələl gətirəcək hər hansı müqaviləyə daxil olmamaq, yaxud Kubanın ərazisinin hər hansı bir hissəsi üzərində hər hansı xarici dövlətə nəzarət hüququ verməmək öhdəliyi qoyurdu. Kuba onun orta gəliri ilə qarşılana bilməyəcək dövlət borcu haqqında müqavilə imzalamamalı idi. O, yoluxucu və infeksion xəstəliklərin təkrarlanmasının qarşısını almaq üçün şəhərlərinin sanitar şəraitinin yaxşılaşmasını təmin etməli idi. O, ABŞ-ın prezidenti ilə razılaşdırılmış yerlərdə kömürçülük və dəniz stansiyaları üçün lazım olan torpaqları ABŞ-a satmalı, yaxud icarəyə verməli idi. Bu müddəalar Kuba hökumətinin xarici və daxili işlərdə mülahizələrini qeyri-adi dərəcədə məhdudlaşdırırdı və hətta onun üzərinə Kuba ərazisinin müəyyən hissələrində öz suverenliyini təslim etmək öhdəliyi qoyurdu. Lakin Kubanın qalan ərazisi daxilində ali qanunverici və icraedici hakimiyyət kimi Kuba hökumətini ABŞ hökuməti ilə əvəz etmədiyindən bu müddəalar bu şəkildə Kubanın suverenliyinə xələl gətirmirdi.

Lakin vəziyyət Havana müqaviləsinin "...Kuba hökuməti razılıq verir ki, ABŞ Kubanın müstəqilliyinin mühafizəsi, həyatın, mülkiyyətin və fərdin azadlığının müdafiəsinə... təmin etməkdə səriştəli olan hökumətin dəstəklənməsi üçün müdaxilə etmək hüququnu həyata keçirə bilər" müddəasının yer aldığı 3-cü maddəsinə münasibətdə belə sadə deyil. Bu müddəa ABŞ hökumətinə Kuba hökumətini ələ keçirmək və bununla da ABŞ hökumətinin mülahizəsini bu baxımdan faktiki olaraq hüdudsuz edən ümumi şərtlər altında onun suverenliyini məhv etmək hüququ verdi. ABŞ hökuməti bu hüquqdan tam həcmdə və Kuba hökuməti üzərində daimi nəzarət qurmaq üçün yararlanmağı seçsəydi, Kuba Britaniya dominionluğu altında olan hind dövlətlərindən daha suveren olmazdı. Digər tərəfdən ABŞ Havana müqaviləsinin 3-cü maddəsində əksini tapmış hüquqdan heç vaxt istifadə etməsəydi, Kubanın suverenliyi toxunulmaz qalmış olardı; çünki o zaman Kuba hökuməti qanunvericilik və qanun tətbiqetmə fəaliyyətlərində daimi olaraq xarici nəzarətdən azad olacaqdı. O, xarici nəzarətin hüquqi ehtimalından asılı olmayaraq, dövlətin ərazisi daxilində ali hakimiyyət olaraq qalacaqdı.

Lakin reallıqda ABŞ hökuməti Havana müqaviləsinin 3-cü maddəsinə əsasən sahib olduğu hüquqdan yararlandı və 1906-cı ildən 1909-cu ilə qədər Kuba ərazisini hərbi işğala məruz qoydu. Həmin dövrdə Kuba ərazisi daxilində ali hakimiyyət Kuba hökuməti tərəfindən deyil, ABŞ silahlı qüvvələri tərəfindən həyata keçirilirdi. Ona görə də Kuba hökuməti artıq suveren deyildi. Kubanın 1909-cu ildə Amerika qoşunlarının təxliyəsindən dərhal sonra yenidən suverenliyini qazanıb-qazanmadığı cavabı ABŞ-ın Kubaya münasibətdə gələcək siyasi planlarını dəyərləndirməsindən asılı olan bir sualdır. Bu suala o halda qeyd-şərtsiz müsbət cavab vermək olar ki, ABŞ hökuməti 1909-cu ildə bəyan edərdi ki, o, gələcəkdə Havana müqaviləsinin 3-cü maddəsinin istifadəsindən əl çəkəcək. Gələcək planların bu şəkildə açıq bəyan edilməməsi halında 1909-cu ildə bizim sualımızın cavabı yalnız ABŞ-ın siyasətinin necə ola biləcəyinə dair intuisiyalardan qaynaqlana bilərdi. ABŞ Kubanın işlərinə müdaxilə etməyə dair müqavilədə əksini tapmış hüququna baxmayaraq, çəkinmə siyasəti yürüdə bilərdimi? Belə olardısa, suverenlik Kuba hökumətinə geri qayıdardı.

Digər tərəfdən, ABŞ-ın ən azından özü ilə Kuba arasındakı bütün əhəmiyyətli fikir ayrılıqlarını öz xeyrinə həll etmək üçün Havana müqaviləsinin 3-cü maddəsinə əl atacağı gözlənilən idimi? O halda Kuba ərazisi daxilində ali hakimiyyət ABŞ-a keçməli idi. Suala dəqiq cavab yalnız Havana müqaviləsinin 3-cü maddəsini ləğv etmiş və heç bir qeyri-müəyyənliyə yol vermədən Kuba hökumətinin suverenliyini yenidən bərqərar etmiş 31 may 1934-cü il müqaviləsi tərəfindən verildi.

Beləliklə, suverenliyin həyata keçirilməsi hüquqi terminlərlə müəyyən edilmiş və məhdudlaşdırılmış siyasi gerçəklikdir. Onun təyinatı siyasi gücün həyata keçirilməsinin bir hökumətdən digər hökumətə keçməsindən də asılı ola bilər. Bu daha çox siyasi vəziyyətin dəyərləndirilməsi ilə müəyyən edilməlidir, nəinki hüquqi mətnlərin şərhi ilə.[1]

3. Yuxarıda qeyd etmişdik ki, dövlətin digər dövlətlər ilə münasibətlərində üzərinə götürdüyü hüquqi öhdəliklərin sayı mahiyyət etibarilə onun suverenliyinə xələl yetirə bilməz. Bu fikrin müzakirəmiz fonunda dəqiqləşdirilməyə ehtiyacı var. Dövlətin çoxsaylı beynəlxalq müqavilələr imzalayaraq fəaliyyət azadlığını məhdudlaşdırmaqla suverenliyini itirməyəcəyi həqiqət olduğu halda, əgər onun fəaliyyət azadlığı artıq qanunvericilik və qanun tətbiqetmə kimi fundamental funksiyalara şamil olunmursa, – müasir şərtlər altında heç bir hökumət bu funksiyalara sahib olmadan dövlətin ərazisi daxilində hakimiyyətini qoruyub saxlaya bilməz, – o, suverenliyini itirmiş olacaq. Başqa sözlə, suverenlik məsələsini təyin

[1] Mətndə izah edilən meyarın dəyəri Britaniya dominionları, Misir və Filippin kimi ölkələrin tarixin müxtəlif mərhələlərində statusunun analizi ilə yoxlanıla bilər.

edən hüquqi öhdəliklərin sayı deyil, onların hökumətin siyasi nəzarətinin səviyyəsi üzərində təsiridir.

Atom enerjisi üzərində onun real hərbi və potensial iqtisadi və sosial əhəmiyyəti baxımından səmərəli beynəlxalq nəzarət bu nəzarəti həyata keçirən qurumun gücünü onun fəaliyyəti ərazisində önəmli edər. Siyasi reallığa uyğun olaraq, belə bir qurum aidiyyəti ərazi daxilində ali hakimiyyəti həyata keçirər; belə bir nəzarət daha çox fövqəlmilli olar, nəinki beynəlxalq. Atom enerjisindən kənar bütün digər sahələrdə muxtariyyətinin nə qədər olmasından asılı olmayaraq, milli hökumətlər öz suverenliklərini itirər.

İki tarixi nümunə bu məsələni aydınlaşdırır: Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Birləşmiş Millətlər Təşkilatının digər üzvləri arasında əlaqə və ayrı-ayrı dövlətlərin Təhlükəsizlik Şurasından başqa beynəlxalq təşkilatlarda yekdillik prinsipindən yayınmalara münasibətdə mövqeyi.

Beynəlxalq təşkilatlarda əksəriyyət səsverməsi

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 24-cü maddəsinin 3-cü bəndi baxımından çox vaxt belə bir fikir səsləndirilib ki, Təhlükəsizlik Şurasının daimi üzvləri suverenliklərini qoruyub saxladığı halda, Təşkilatın digər üzvləri öz suverenliklərini itiriblər. 27-ci maddənin 3-cü bəndinin mətninə belə bir şərh uyğun gəlir: çünki Təhlükəsizlik Şurasının daimi və qeyri-daimi üzvləri arasında və Təhlükəsizlik Şurasının üzvləri ilə Birləşmiş Millətlər Təşkilatının digər üzvləri arasında əlaqələrə gəlincə, əksəriyyət prinsipi yekdillik prinsipini əvəz edir. Başqa sözlə, Təhlükəsizlik Şurasının "səsi üst-üstə düşən 5 daimi üzv də daxil olmaqla 9 üzvünün təsdiqləyici səsi" Təhlükəsizlik Şurasının, eləcə də Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri üçün məcburi olur. Əgər səslərin belə əksəriyyəti ayrı-ayrı dövlətlərin hüquq tətbiqetmə alətlərini tabesizlik göstərən dövlətə qarşı istifadə etmək üçün Birləşmiş Millətlər Təşkilatının ixtiyarına versəydi, o zaman Təhlükəsizlik Şurası onun daimi üzvləri olmayan üzv dövlətlər üzərində, həqiqətən, ali hakimiyyətə malik olardı. O həmin dövlətlərin hökumətlərinin əvəzinə suveren olardı. Nizamnamənin 27-ci maddəsinin 3-cü bəndi onun 39, 41 və 42-ci maddələri[1] ilə birlikdə bu nəticəni hüquqi olaraq mümkün etdiyi halda, onun real gerçəkləşməsi siyasi şəraitdən asılıdır; hal-hazırda isə belə bir şərait mövcud deyil və eyni zamanda yaxın gələcəkdə mövcud olacağı da görünmür.

Təhlükəsizlik Şurasının, ümumiyyətlə, fəaliyyətdə olan hüquq tətbiqetmə qurumu kimi mövcud olması üçün ilk öncə Təhlükəsizlik Şurasının 5 daimi

[1] Bu müddəaların mətni üçün bax: səh. 780 və ss. 782-783.

üzvü arasında siyasi ahəngin hüquqi göstəricisi olaraq yekdillik mövcud olmalıdır. İkincisi, üzv dövlətlərin 43-cü və ondan sonra gələn maddələrə əsasən Təhlükəsizlik Şurasının sərəncamına verməyə razılaşdıqları hərbi qüvvələri Birləşmiş Millətlər Təşkilatının istənilən məqamda istifadə edilə biləcək qüvvələrinə qanunsuzluq qüvvələri üzərində danılmaz üstünlük vermək üçün kifayət qədər əhəmiyyətli olmalıdır. Üçüncüsü, hər bir üzv dövlət Nizamnaməyə və xüsusilə hərbi razılaşmalara əsasən öhdəliklərini vicdanla yerinə yetirməlidir. O, Təhlükəsizlik Şurası tərəfindən müəyyən edildiyi kimi milli maraqları Birləşmiş Millətlər Təşkilatının ümumi xeyri naminə qurban verməlidir. Əgər bu şərtlər bu gün gerçəkləşdirilsəydi, yaxud yaxın gələcəkdə onların gerçəkləşdirilməsi mümkün olsaydı, həqiqətən demək olardı ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi Təhlükəsizlik Şurasının daimi üzvləri olmayan üzv dövlətlərin milli suverenliyini aradan qaldırıb və ya aradan qaldırmaq üzrədir.

Eynilə çox vaxt belə bir baxış irəli sürülür ki, beynəlxalq qurumlarda qeyri-bərabər təmsilçilik və əksəriyyətin qərarı əlaqədar dövlətlərin suverenliyi ilə uyğun gəlmir. Haaqada keçirilmiş iki sülh konfransında həqiqi beynəlxalq məhkəmənin təşkil edilməsi üçün irəli sürülən təklifləri rədd edən bu arqument idi. Bundan ABŞ-ın Millətlər Cəmiyyətinə və Daimi Beynəlxalq Ədalət Məhkəməsinə qoşulmasına qarşı geniş şəkildə istifadə edildi. Burada da yenə belə əsassız bir iddia siyasi fərqləndirmələrlə şərtləndirilməlidir. Bu fərqləndirmələrə əsasən qeyri-bərabər təmsilçilik və əksəriyyət qaydası suverenliyə uyğun gələ və ya gəlməyə bilər. Cavab yekdillik qaydasından yayınmanın ali hakimiyyəti milli hökumətlərdən beynəlxalq qurumlara ötürüb-ötürməməsindən asılı olardı.

Gördüyümüz kimi, yekdillik prinsipinin gerçəkləşdirilməsinin qeyri-mümkün olduğu Beynəlxalq Ədalət Məhkəməsindən başqa, qanunvericilik, idarəetmə və icraetmə funksiyalarını həyata keçirən beynəlxalq qurumların böyük sayı bərabər təmsilçilik və yekdillik prinsiplərindən yayınır. Avropa Birliyi qeyri-bərabər təmsilçiliyi və geniş həcmdə əksəriyyət səsverməsinin müxtəlif formalarını nəzərdə tuturdu. Əksər beynəlxalq təşkilatlar üzvlərinin səsvermə gücünü onların maliyyə dəstəyi əsasında təyin edir. Həmin əsaslarda Beynəlxalq Kənd Təsərrüfatı Təşkilatını təsis edən saziş Böyük Britaniyaya 22, ABŞ-a 21, Fransaya 19 və s. səs verdi. Beynəlxalq Valyuta Fondunu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankını təsis edən razılaşmalar səsvermə gücünü maliyyə dəstəyinə uyğunlaşdırır. Əksəriyyət qaydası Beynəlxalq Poçt İttifaqı, Beynəlxalq Dunay Komissiyası, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, İqtisadi və Sosial Şura və Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurasında tam şəkildə təmin olunub. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 18-ci maddəsinə uyğun olaraq, Baş Assambleyanın hər bir üzvü bir səsə malik olacaq və qərarlar

iştirak edən və səs verən dövlətlərin əksəriyyətinin səsi ilə qəbul olunacaq. 18-ci maddənin 2-ci bəndində "vacib" adlandırılan məsələlərə dair qərarlar üçdə iki səs çoxluğu tələb edir.

Təhlükəsizlik Şurası həm təşkilinə, həm də səsvermə proseduruna görə bərabər təmsilçilik prinsipindən çıxış edir. 27-ci maddəyə uyğun olaraq, Təhlükəsizlik Şurasının hər bir üzvü bir səsə malik olacaq və onun prosedur məsələləri ilə əlaqədar qərarları 15 üzvdən 9-unun lehinə səsverməsi ilə qəbul olunacaq. Lakin 23-cü maddəyə uyğun olaraq, Çin, Fransa, Böyük Britaniya, Sovet İttifaqı və Amerika Birləşmiş Ştatlarının daimi təmsilçiliyi onlara Təhlükəsizlik Şurasının qərarlarında Baş Assambleya tərəfindən müntəzəm olaraq seçilən 10 qeyri-daimi üzv üzərində avtomatik üstünlük verir. Bu üstünlük daimi üzvlərin 27-ci maddənin 3-cü bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurasının qeyri-prosedur qərarlarını veto etmək hüququ ilə əhəmiyyətli dərəcədə güclənir.

Bərabər təmsilçilik prinsipindən bu kənara çıxmaların aidiyyəti dövlətlərin suverenliyi üçün əhəmiyyəti də bu yayınmaların nəticəsində bu dövlətlərin ərazisi daxilində ali qanunvericilik və qanun tətbiqetmə hakimiyyətinin harada yerləşməsi meyarı ilə istiqamətlənir. Bu mənada da həlledici olan dövlətin digər dövlətlər qarşısında necə və nə qədər fərqli məsələlərdə və təşkilatlarda deyil, hansı məsələlərdə səs üstünlüyünə malik olmasıdır. Burada da həmçinin meyar say deyil, məzmundur. Dövlətin beynəlxalq hərəkətdə məktublar üzərində poçt xərclərinə dair beynəlxalq təşkilatın əksəriyyət ilə qəbul olunmuş qərarını icra etmək üçün hüquqi öhdəlik daşıması faktı onun ərazisi daxilində ali qanunvericilik hakimiyyətinin səviyyəsinə xələl yetirmir. Dövlət müvafiq razılığı olmadığı halda suverenliyinə uyğun olaraq, hərəkət azadlığının ola biləcəyi yerdə fəaliyyət azadlığından imtina etməyə razılıq vermişdir. Lakin o öz suverenliyindən imtina etməmişdir.

Əgər dövlət konstitusiyaya dəyişikliklər, müharibənin elan edilməsi və sülhün bağlanması, silahlı qüvvələrin sayı, təşkili və fəaliyyəti, hökumətin təşkili və maliyyə siyasəti kimi məsələləri baxılmaq üçün fəaliyyətdə olan beynəlxalq qurumun əksəriyyət səsverməsinə təqdim etməyə razılaşmış olsaydı, o, suverenliyindən imtina etmiş olardı. Bu halda əksəriyyət qaydasını təsis edən beynəlxalq razılaşmaya əsasən, həlledici siyasi güc milli hökumətdən beynəlxalq quruma keçərdi. Bundan sonra ali hakimiyyəti milli hökumət deyil, beynəlxalq qurum daşıyar, ona görə də dövlətin ərazisi daxilində ali qanunverici və qanun tətbiqetmə hakimiyyətini həyata keçirər.

Deyilənlərdən aydın olmalıdır ki, müasir beynəlxalq arenada heç yerdə yekdillik qaydasından yayınmalar ayrı-ayrı dövlətlərin suverenliyinə xələl yetirmir. Beynəlxalq mühakimədən siyasi əhəmiyyətli məsələlərə dair beynəlxalq məhkəmədə

əksəriyyət səsverməsi ilə qərar verilməsinin qarşısını alan düşünülmüş tədbirlərlə imtina olunur. Beynəlxalq idarəetmə təşkilatında əksəriyyət səsverməsi yalnız texniki məsələlərdə, milli hökumətlər arasında və milli hökumətlər ilə beynəlxalq qurumlar arasında qüvvələr bölgüsü üçün əhəmiyyət daşımayan məsələlərdə istifadə oluna bilər. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında əksəriyyət səsverməsi tövsiyə xarakterlidir və ona görə də üzvlər üzərində məcburiyyət gücünə sahib deyil. Nizamnamənin 27-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurasının sərt əksəriyyət səsverməsi ilə qəbul olunan qərarı yalnız üzv dövlətlərin öz əraziləri daxilində ali hakimiyyətinə münasibətdə əhəmiyyət daşımayan prosedur məsələlərinə aiddir. Dövlətlərin suverenliklərinin Təhlükəsizlik Şurasının suverenliyi ilə əvəz olunması ehtimallarının, – bunlar hüquqi olaraq 27-ci maddənin 3-cü bəndində nəzərdə tutulurdu, – qeyd etdiyimiz kimi, indiki zamanda və təxmin edilə bilən gələcəkdə gerçəkləşməsi mümkün deyil.

SUVERENLİK BÖLÜNƏNDİR?

Müzakirələrimiz bizi müasir dünyada suverenlik məsələsinə kölgə salan sonuncu və bəlkə də, ən vacib anlaşılmazlığa gətirib çıxarır – bu, suverenliyin bölünən olduğuna dair inamdır. Bu anlaşılmazlığın aydınlaşdırılması bizə suverenliyin və ümumiyyətlə, beynəlxalq hüququn müasir beynəlxalq siyasətdə rolunu qiymətləndirməkdə kömək edə bilər. Zaman-zaman belə fikirlər eşitmişik ki, dünyada sülhün bərqərar olması naminə "suverenliyimizin bir hissəsindən imtina edib" onu beynəlxalq təşkilata verməliyik, suverenliyimizi belə bir təşkilat ilə "bölüşməliyik", biz suverenliyin əsas hissəsinə malik olduğumuz halda, belə bir təşkilat "məhdud suverenliy"ə malik ola bilərdi, yaxud, əksinə, "yalançı suveren" və "yarımsuveren" dövlətlər var. Biz göstərməyə çalışacağıq ki, bölünən suverenlik anlayışı məntiqə zidd və siyasi baxımdan qeyri-realdır, lakin o, müasir dövlət sistemində beynəlxalq hüquq ilə beynəlxalq siyasət arasında mövcud olan real və iddia edilən əlaqələr arasında uyğunsuzluğun mühüm bir əlamətidir.

Əgər suverenliyin mənası ali hakimiyyətdirsə, bu, öz-özlüyündə nəzərdə tutur ki, iki və daha artıq vahid – şəxslər, şəxs qrupları, yaxud qurumlar – eyni vaxtda eyni yerdə suveren ola bilməzlər. Ali olan məntiqi zərurətdən irəli gələrək alan hər kəsdən üstündür; heç kim onun fövqündə ondan üstün, yaxud yanında ona bərabər ola bilməz. Əgər ABŞ-ın prezidenti silahlı qüvvələrin ali baş komandanıdırsa, digər bir kimsənin, deyək ki, müdafiə nazirinin silahlı qüvvələr üzərində ali hakimiyyəti onunla bölüşdüyünü söyləmək məntiqi cəhətdən absurddur. Konstitusiya bu ali hakimiyyəti iki rəsmi arasında funksional xətlər üzrə bölə bilər, necə

ki, Orta əsrlər təliminə əsasən ali hakimiyyət imperator və Papa arasında bölünmüşdü; belə olduqda prezident silahlı qüvvələrin təşkili və təminatında, müdafiə naziri isə onların hərbi əməliyyatları üzərində ali hakimiyyətə malik ola bilərdi. Əgər bu hakimiyyətin real bölgüsü və vəzifələrin real paylanması olsaydı, heç kim ali baş komandan olmazdı, çünki heç kim silahlı qüvvələr üzərində ümumi ali hakimiyyətə sahib olmazdı. Məntiqi nəticə olaraq, ali baş komandan vəzifəsi mövcud ola bilməzdi. Ya prezident tam hakimiyyət ilə silahlı qüvvələr üzərində komandanlıq edir, ya bunu başqa kimsə edir, ya da heç kim etmir. Göründüyü kimi, bu alternativlərin hamısı siyasi cəhətdən mümkün ola bilən deyil, onlar məntiqi olaraq ağlasığandır. Lakin həm prezidentin, həm də bir başqasının eyni vaxtda silahlı qüvvələrə tam hakimiyyət ilə komandanlıq etməsi həm məntiqi baxımdan əsassız, həm də siyasi baxımdan qeyri-realdır.

Suveren hakimiyyət tərəfindən dövlət daxilində həyata keçirilən real siyasi funksiyaların mülahizəsi göstərəcək ki, siyasi reallıqda suverenlik bölünə bilməz. Suverenlik ali qanunvericilik və qanun tətbiqetmə hakimiyyətini ifadə edir. Başqa sözlə, o hakimiyyət dövlət daxilində suverendir ki, müxtəlif qanun yaradan amillər arasında fikir ayrılığı yarandıqda əsas məcburedici qərarın verilməsi üçün və hüquq tətbiqetmənin böhran vəziyyətlərində, məsələn, inqilabda, yaxud vətəndaş müharibəsində ölkənin hüquqlarının tətbiq olunması üçün əsas məsuliyyəti daşıyır. Həmin məsuliyyət ya harasa aid olmalıdır, ya da heç yerə aid olmamalıdır. Lakin o eyni zamanda həm burada, həm də orada ola bilməz. Cənab Yustis Sazerlend *"ABŞ Kurtis Rayt İxrac Korporasiyasına qarşı" ("United States vs. Curtiss Wright Corporation")* məhkəmə işində dediyi kimi: "Siyasi suverenlik ali iradə olmadan haradasa davam gətirə bilməz. Suverenlik heç yerdə şübhə altında olmur".[1]

Əgər o harasa aid edilmirsə, – elə konstitusiyalar var ki, məsələn, IV Fransa Respublikasının Konstitusiyası, ona heç bir yeri təyin etməyiblər, – konstitusiya böhranları zamanında konstitusional hakimiyyətlərdən biri həmin məsuliyyəti qeyri-qanuni olaraq ələ keçirəcək, necə ki, 1958-ci ildə Fransa ordusu etdi, yaxud inqilab xaosa son qoymaq və nizamı və sülhü bərqərar etmək üçün ali hakimiyyəti kiməsə, Napoleona, yaxud hər hansı Xalq Komissarları Şurasına verəcək. Əgər suverenliyin məkanı konstitusiyanın bu baxımından özünü müxtəlif şərhlərə uyğunlaşdırmasına görə qeyri-müəyyən qalırsa, ali hakimiyyətə iddia edənlər arasında siyasi, yaxud hərbi mübarizə məsələni bu və ya digər şəkildə həll edəcək. Bizim federal hökumət ilə ştatlar arasında məsələni federal hökumətin xeyrinə həll etmiş vətəndaş müharibəsi ilə nəticələnən mübarizə bu vəziyyətin klassik nümunəsidir.

[1] 299 U.S. 304 at 316, 317 (1936).

Monarxiya, yaxud demokratiya olmasından asılı olmayaraq, federal dövlətlərdə ayrı-ayrı dövlətlərə ideoloji məmnuniyyət verilməlidir ki, bir zaman suveren olmuş, indi isə artıq belə olmayan onu qəbul etməyə artıq həvəssiz olsun. Bu məqsədlə siyasi təcrübə ayrı-ayrı dövlətlərin rəsmiləri və rəmzlərinə suveren dövlətlərin rəsmiləri və rəmzlərinə aid şərəf bəxş edən və yalnız suveren dövlətlərə münasibətdə məna kəsb edən anlayışları və konstitusion vasitələri istifadə edən bütöv bir konstitusion yaltaqlıq sistemi yaradır.[1]

Federal hökumətin suveren olduğunu inkar etmək konstitusion və siyasi baxımdan və ayrı-ayrı dövlətlərin artıq suveren olmadıqlarını qəbul etmək psixoloji baxımdan qeyri-mümkün olduğuna görə konstitusion nəzəriyyə siyasi reallıqları siyasi seçimlərlə barışdırmağa çalışaraq suverenliyi, sadəcə olaraq, federal hökumət və dövlətlər arasında bölür. Belə vəziyyət yarandı ki, 1787-ci il Konventinin iclasında suverenliyin bölünməzliyini qətiyyətlə bəyan etmiş Hamilton və Medison bir il sonra *"Federalist"* jurnalında konstitusiyada nəzərdə tutulduğu kimi ştatlar hətta öz suveren hakimiyyətlərini federal hökumətə versə də, onların suverenliklərini saxlaya biləcəklərini sübut etməyə çalışanda suverenliyin bölünən olduğuna dair təkidlərində eyni dərəcədə qətiyyətli idi.[2]

Siyasi reallıqlar və siyasi seçimlər arasında ideoloji körpü qurmağa yaranan eyni ehtiyac səbəbindən bölünmüş suverenlik təlimi beynəlxalq münasibətlər sahəsində geniş təqdir qazanmışdır. Bir tərəfdən milli dövlət hər zaman olduğundan daha yüksək dərəcədə fərdin əxlaqi və hüquqi dəyərlərinin və onun dünyəvi sədaqətləri üçün son istinad nöqtəsinin əsas mənbəyidir. Nəticədə onun digər dövlətlər arasında gücü və onun suverenliyinin qorunub saxlanması fərdin beynəlxalq fəaliyyətində ən öndə gedən siyasi marağıdır. Digər tərəfdən sivilizasiyanın və bununla da milli dövlətlərin özünün mövcudluğunu təhlükəyə məruz qoyan elə müasir sivilizasiya şəraitində digər dövlətlərin gücü və suverenliyi ilə toqquşan həmin güc və suverenlikdir.

Beləliklə, Napoleon müharibələrinin sonundan etibarən humanistlər və dövlət adamları hər zaman olduğundan daha çox artan tezlik və ciddiyyətlə müasir milli

[1] ABŞ, Sovet İttifaqı və Almaniyanın konstitusiya təcrübəsi bu fikri izah edir.
[2] Müqayisə et: C.E.Merriam, *History of the Theory of Sovereignty Since Rousseau* (New York: Columbia University Press, 1900), səh. 161: "Ona görə də konstitusiya dövrün siyasi reallıqları və siyasi nəzəriyyəsini yerli və mərkəzi hökumətlər arasında qüvvələrin səciyyəvi bölgüsündə və suveren hakimiyyətin əsas mənbəyinin aydın və aşkar şəkildə təyin edilməsinin uğursuzluğunda əks etdirirdi".
Suverenlik nəzəriyyələri və suverenliyin siyasi reallığı arasında ümumi uyğunsuzluq haqqında həmçinin bax: Ernest Barker, *Essays on Government* (Oxford: Oxford University Press, 1945), səh. 88, 89.

dövlətlər arasında güc uğrunda mübarizənin doğurduğu dağıdıcı müharibələrdən qaçmaq üçün vasitələr axtarırlar. Bununla yanaşı, xüsusilə son illər daha çox aydın olub ki, beynəlxalq arenada güc uğrunda mübarizəni məhdudlaşdırmağa bu günə qədər edilən bütün cəhdləri uğursuzluğa uğradan əsas maneə milli suverenliyin özüdür. Ali qanunverici və qanun tətbiqetmə hakimiyyəti milli hökumətlərə mənsub olduqca müharibə təhlükəsi xüsusilə dövrümüzün əxlaqi, siyasi və texnoloji şərtləri altında, demək olar ki, qaçılmazdır. Belə ki, dağıdıcı müharibə ehtimalının siyasi reallığı milli suverenliyin mühafizəsi üçün siyasi seçimə qarşı çıxır. Hər yerdə insanlar müharibə təhlükəsindən azad olmağa can atmaqla yanaşı, müvafiq olaraq dövlətlərinin suverenliyini mühafizə etməyə də can atırlar. Lakin əgər sülhün qiyməti bütün suverenlik deyil, onun bir parçasıdırsa, əgər müharibə ehtimalını azaltmaq üçün milli dövlətə suverenliyindən ümumiyyətlə imtina etmək deyil, onu yalnız beynəlxalq təşkilat ilə bölüşmək lazımdırsa, eyni zamanda həm sülhə, həm də suverenliyə sahib olmaq olar.

1947-ci ilin yazında keçirilmiş ictimai fikir sorğusunda "Siz ABŞ-ın dünyada sülhün qorunub saxlanılması üçün beynəlxalq polis qüvvəsinin yaradılması hərəkatına qoşulmasını istərdiniz?" sualına əhalinin 75 faizi müsbət cavab verdi. Lakin bütün əhalinin yalnız 15 faizi və beynəlxalq polis qüvvəsinin lehinə səs verənlərin 17 faizi ABŞ-ın polis qüvvələrinin beynəlxalq polis qüvvəsindən kiçik olması ilə razılaşmaq istəmədi. "Bütün əhalinin yalnız 13 faizi ABŞ-ın beynəlxalq polis qüvvəsinə qoşulmasını və həmçinin polis qüvvəsinin sayının bu ölkənin silahlı qüvvələrinin sayını ötməsini istəyir".[1]

Başqa sözlə, Amerika əhalisinin böyük bir əksəriyyəti müharibənin qarşısını almaq iqtidarında olan beynəlxalq təşkilatın lehinə olduğu halda, belə bir təşkilatın lehinə olanların (eləcə də bütün əhalinin) yalnız kiçik bir azlığı ali qanun tətbiqetmə hakimiyyətinin ABŞ-dan beynəlxalq təşkilata ötürülməsinin tərəfdarı deyildi. Əksəriyyət bunu hər iki yolla etmək istəyirdi: onlar suverenliyi "bölmək" istəyirdilər. Bu o baxımdan əhəmiyyətlidir ki, beynəlxalq polis qüvvəsinin lehinə olanların 32 faizi Amerikanın qüvvələrinin beynəlxalq polis qüvvəsindən daha böyük olmasını, 41 faizi – sorğuda fikrini ifadə edənlərin ən böyük qrupu onların bərabər ölçüdə olmasını istəyirdi. Onlar suverenliyin 50 faizini ABŞ-a, 50 faizini beynəlxalq təşkilata verməklə onu ədalətli və bərabər şəkildə "bölmək" istəyirdilər.

[1] *UNESCO and Public Opinion Today* (Chicago: National Opinion Research Centre, 1947), Report No. 35, səh. 12 və növbəti səhifələr. İkinci Dünya müharibəsindən sonra bu ölkədə və Böyük Britaniyada keçirilən bir sıra digər sorğular eyni ziddiyyətli nəticələrə malik olub. Müqayisə et: xüsusilə *Peace and Public: A Study by Mass-Observation* (London, New York, Toronto: Longmans, Green, 1947).

Bölünməz suverenliyə inam siyasi reallıq və siyasi seçim arasındakı ziddiyyətin ideoloji təzahürü idi. Suverenliyin bölünən olması təlimi yalnız məntiqin uyğunsuz hesab etdiyi, yəni suverenliyi mühafizə edərkən ondan imtina etmək ilə deyil, həmçinin təcrübənin müasir sivilizasiya şəraitində barışmaz kimi göstərdiyi – milli suverenlik və beynəlxalq düzən – ilə razılaşmağı elmi cəhətdən mümkün edir. Nəzəri bir həqiqəti ifadə etməkdən, yaxud siyasi təcrübənin reallığını əks etdirməkdən uzaq olaraq, sülhün qorunması naminə "suverenliyin bir hissəsi"ndən imtina etməyi məsləhət görmək gözlərimizi yumub həm piroqumuzu yeyə biləcəyimizi, həm də ona sahib ola biləcəyimizi xəyal etməyə bərabərdir.

VII FƏSİL

ÇAĞDAŞ DÜNYADA BEYNƏLXALQ SİYASƏT

20. Millətçi universalizmin yeni mənəvi qüvvəsi

KÖHNƏ VƏ YENİ MİLLƏTÇİLİK[1]

İndi Qərb dünyasının elmi və mənəvi ənənəsindən dini müharibələrdən Birinci Dünya müharibəsinə qədər qüvvələr tarazlığı vasitəsilə müasir dünya sistemini bir arada tutan qüvvə kimi bəhs edərkən verdiyimiz suala cavab verə bilərik. Biz o zaman soruşmuşduq: bu gün o mirasdan nə qalıb? İkinci Dünya müharibəsindən sonrakı dövrdə dövlətləri necə bir konsensus birləşdirir?[2]

Cavab yalnız belə ola bilər ki, beynəlxalq arenada güc uğrunda mübarizə üzərinə qoyulan məhdudiyyətlər bu gün müasir dövlət sisteminin tarixinin istənilən dövründə olduğundan daha zəifdir. XVII-XVIII əsrlər beynəlxalq cəmiyyəti öz üzvləri üçün ən yüksək sosial inteqrasiya meyarı təmin edən bir sıra milli cəmiyyətlər ilə əvəz olunub. Nəticədə keçən əsrlərdə ayrı-ayrı dövlətlərin güc istəklərini müəyyən sərhədlər çərçivəsində saxlayan beynəlxalq əxlaq normaları, müəyyən parçalar istisna olmaqla ayrı-ayrı dövlətlərin əxlaq dəyərləri dövlətlərin güc mövqeləri normalarına güzəştə gedib. Bu əxlaq normaları nəinki yalnız özündən üstün və ondan ayrı hər hansı mənəvi öhdəliyi qəbul etmir, hətta bütün dünyada universal şəkildə qəbul olunmağa iddia edir. Dünya ictimai fikri hətta digər dövrlərdə ən azından beynəlxalq zadəganlığın paylaşdığı ümumi dəyərlərin və münasibətlərin mahiyyətini kəsb etməyən yeganə ideoloji kölgədir.

Beynəlxalq hüquq qaydalarının əsas kütləsi mövcudluğuna görə ayrı-ayrı dövlətlərin suverenliyinə borcludur. Suverenliyi hüquqi təhlükəsizlik tədbirləri ilə əhatəyə almaq beynəlxalq hüquq qaydalarının əsas vəzifəsidir. Ayrı-ayrı dövlətlərin güc istəklərini məhdudlaşdırmaqdan uzaq olaraq, onlar dövlətlərin digər dövlətlər ilə münasibətlərində üzərilərinə götürdükləri hüquqi öhdəliklərin onların güc mövqelərinə xələl gətirməməsinə çalışırlar. Milli əxlaq normaları əxlaq normaları sahəsində, milli ictimai fikir adətlər sahəsində nədirsə, beynəlxalq

[1] Bu fəsildə millətçilik və millətçi universalizmə dair səh. 294 və növbəti səhifələrdə başladılmış müzakirə yenidən aparılır.
[2] Bax: səh. 294.

hüquqda suverenlik odur. Suverenlik hüquqi baxımdan fərdlərin əsas dünyəvi loyallıqlarının ünvanı, ən qüdrətli sosial qüvvə, ayrı-ayrı vətəndaşlar üçün qanun qəbul edən və qanun tətbiq edən ali hakimiyyət kimi dövlətə aiddir.

Ayrı-ayrı fərdləri milli sərhədlərdən kənarda birləşdirən fövqəlmilli qüvvələr, məsələn, ümumdünya dini, humanizm, kosmopolitik və bütün digər şəxsi əlaqələr, təsisatlar və təşkilatlar bu gün insanları ayrıca milli sərhədlər daxilində birləşdirən və onları bütün qalan bəşəriyyətdən ayıran qüvvələrdən həddindən artıq zəifdir. Dövlətlərin xarici siyasətinə effektiv məhdudiyyətlər qoymaq üçün güclü olmalı olan fövqəlmilli qüvvələrin bu zəifliyi dövrümüzün siyasi simasını formalaşdıran böyük müsbət qüvvənin – millətçiliyin özü ilə gətirdiyi mənfi nəticədir. Ayrı-ayrı dövlətlərin xarici siyasətləri kimi təyin edilən millətçilik bu siyasətləri məhdudlaşdıra bilməz; onun özünün məhdudiyyətə ehtiyacı var. O nəinki bizə keçən dövrlərdən miras qalmış məhdudiyyətləri tamamilə məhv etməsə də, ölümcül dərəcədə zəiflətmiş, həmçinin ayrı-ayrı dövlətlərin güc istəklərini təmiz vicdan və məsih coşqunluğu ilə təchiz etmişdir. O onları XIX əsr millətçiliyinin haqqında heç nə bilmədiyi ümumdünya ağalığına həvəs və onun uğrunda güc ilə ruhlandırmışdır.

XX əsrin sonlarının millətçiliyi, adətən, bu ad altında nəzərdə tutulan və XIX əsrdə milli hərəkatların və milli dövlətin yaranması ilə nəticələnən məfhumdan mahiyyət etibarilə fərqlidir. Ənənəvi millətçilik milləti yadelli ağalığından azad etməyə və ona öz dövlətini verməyə cəhd edirdi. Bu məqsəd yalnız bir dövlət üçün deyil, bütün dövlətlər üçün doğru məqsəd hesab olunurdu. Millət öz üzvlərini bir dövlətdə birləşdirdikdə milli cəhdlər təmin olundu və öz dövlətlərini qurmaq, yaxud qoruyub saxlamaq istəyən millətlər qədər millətçiliklər üçün məkan var idi.

Ona görə də XIX əsr millətçiliyinin cəlb olunduğu beynəlxalq münaqişələrin mahiyyətcə iki növü var: millət ilə yadelli ağa arasında münaqişələr – Balkan xalqları və Türkiyə, Dunay hövzəsinin slavyan xalqları və Avstriya-Macarıstan monarxiyası, polyaklar və Rusiya – və müxtəlif millətlər arasında müvafiq ağalıq sahələrinin həddinin müəyyən edilməsi üçün aparılan münaqişələr, məsələn, bir tərəfdə almanlar, digər tərəfdə isə polyak və fransızlar arasında mübarizə. XIX əsrdə beynəlxalq münaqişələr ya milli prinsipin fərqli şərhlərindən, ya da onu qəbul etməkdən ümumiyyətlə imtinadan törəyirdi. Birinci Dünya müharibəsinin sonunda belə bir ümid var idi ki, bütün millətlərin öz milli dövlətini qurmaq istəkləri yerinə yetirildikdə qane olmuş millətlərin cəmiyyəti milli öz müqəddəratını təyinetmənin hüquqi və mənəvi prinsiplərində onun özünün mühafizə edilməsi vasitələrini aşkar edəcəklər.

XIX əsrin əzilmiş və rəqabət aparan millətlərini ruhlandıran və XX əsrin sonunda supergücləri amansız mübarizəyə sürükləyən məfhumu eyni adla adlandırmaq

bizim dövrü əvvəlki dövrlərdən fərqləndirən fundamental dəyişikliyə kölgə salmaqdır. Bu günün, həqiqətən, millətçi universalizm olan millətçiliyinin XIX əsrin millətçiliyi ilə yeganə ortaq cəhəti var – siyasi loyallıq və fəaliyyətlərin əsas istinad nöqtəsinin dövlət olması. Lakin oxşarlıq burada bitir. XIX əsr millətçiliyi üçün dövlət siyasi fəaliyyətin əsas məqsədi, siyasi inkişafın son nöqtəsidir və onun arxasında oxşar və bərabər şəkildə əsaslandırıla bilən məqsədlər durur. XX əsrin sonunda millətçi universalizm üçün dövlət əsas məqsədi siyasi dünyanın hüdudlarına uzanan universal missiyanın yalnız başlanğıc nöqtəsi idi. Millətçilik bir dövlətdə tək millət – başqa heç nə istəmədiyi halda, dövrümüzün millətçi universalizmi bir millət və bir dövlətin öz fəaliyyət dəyər və meyarlarını bütün digər dövlətlərə qəbul etdirmək hüququna iddia edir.

Bu mənfi cəhət hökmən yumşaldılmaz, lakin bir sıra dövlətlərin fövqəlmilli birliyə qoşulması ilə kəskinləşə bilər. Qərbi Avropa dövlətləri, məsələn, təklikdə yeni millətçi universalizmin təsirli öncüllərinə çevrilmək üçün çox zəifdir. Fransızlar və almanlar öz təsəvvürlərində dünyanı yenidən qurmaq xəyalları qura bilərkən zaman keçdi. Lakin əgər Qərbi Avropa dövlətləri birləşə və böyük imkanlara malik olan siyasi və hərbi birlik yarada bilsəydi, digər dövlətlərin millətçi universalizmi ilə rəqabət aparmaq məqsədilə bütün Avropa dövlətləri üçün ümumi olan yeni səlib ruhunun güc mənbəyini əldə etmiş olardılar. Müasir dünyanın texnoloji və hərbi şərtləri baxımından ənənəvi milli dövlətin sıradan çıxdığı göz qabağındadır. Lakin onu bu şərtlərə uyğunlaşan daha böyük bir vahid ilə əvəz etməyə çalışarkən dövrümüzün səlibçi millətçiliyi üçün daha işlək vasitə ilə əvəz edilməkdən qorumaq lazımdır. Millətçi universalizmin universal xarakterindən və istəklərindən qaynaqlanan xarakterik xüsusiyyətlərindən biri budur ki, o, dövlət ilə bağlı olsa da, ayrıca bir dövlət ilə bağlı deyil. Sovet İttifaqı, əslində, kommunizmin dünyanı dəyişmək istədiyi bir alət idi. Lakin kim deyə bilər ki, Çin, yaxud digər bir dövlət sabah bu mənada ən azından Asiyada Sovet İttifaqının yerini tutmayacaq?

XIX əsrin millətçiliyi, əslində, ayrıca bir dövlətə xas olan xüsusiyyət və istəklərdən ərsəyə gəldi və mənasını və funksiyalarını itirmədən ondan ayrıla bilməzdi. Dövrümüzün millətçi universalizmi bu mənada fərqlidir. O, dünyəvi bir dindir, insanın təbiəti və müqəddəratının şərhində və bütün bəşəriyyətin qurtuluşu üçün verdiyi məsih vədində universaldır. Bir dövlət müəyyən bir dövrdə onun fənərini daşıya bilər və prinsipcə bunu istənilən dövlət edə bilər. Beləliklə, yeni səlibçi millətçilik adından universal ağalığa iddialar ruhi vəziyyətə və güc şəraitinə uyğun olaraq, bir dövlətdən digərinə keçə bilir.

İNSANLARIN DÜŞÜNCƏLƏRİ UĞRUNDA MÜBARİZƏ[1]

Millətçi universalizmin bu yeni əxlaqi qüvvəsi beynəlxalq siyasətin strukturuna yeni ölçü əlavə etdi: bu, psixoloji müharibə, yaxud təbliğatdır. Təbliğatın xarici siyasətin məqsədləri üçün istifadəsində, əlbəttə ki, yeni heç nə yoxdur; ondan çox qədim zamanlardan ayrı-ayrı hallarda bu kimi məqsədlər üçün kiçik həcmdə istifadə olunmuşdur. Yunan və italyan şəhər-dövlətlərində hakim fraksiyalar siyasi mübarizələrini xarici siyasətləri üçün siyasi fəlsəfələrinə əcnəbilərin simpatik dəstəyini cəlb etməklə və onlar arasında əqidə dəyişikliklərinə nail olmaqla qazanmağa çalışırdı.

XVI-XVII əsrlərin dini münaqişələrində və inqilabi Fransanın müharibələrində əcnəbilər arasında dini və fəlsəfi meyillərin istifadəsi və dini və fəlsəfi meyillərin toplanması siyasi və hərbi müharibənin güclü silahı kimi tətbiq edilmişdir. Katolik rəqibinin əhalisinə öz dinini qəbul etdirən, yaxud protestant azlıqların dini meyillərindən öz siyasi və hərbi məqsədləri üçün istifadə etməyi bacaran protestant dövlət başçısı müharibədə olmasa da, döyüşdə bir güllə atmadan qələbə qazana bilər. Görünür ki, Fransa inqilabının ideyalarına yönəlmək inqilabi Fransanın xarici siyasətini fəal şəkildə dəstəkləmək forması idi.

Müasir təbliğat kəmiyyətcə və keyfiyyətcə ötən dövrlərin təbliğatından fərqlənir. Müasir texnologiya səbəbindən onun dairəsi və effektivliyi İkinci Dünya müharibəsindən etibarən kəskin şəkildə artmışdır. O, xarici siyasətin ənənəvi alətlər olan diplomatiya və hərbi qüvvə ilə uzlaşdırılan müstəqil vasitəsinə çevrilmişdir. Belə ki, kommunizmin güclü olduğu dövrdə hər yerdə kommunistlər Sovet İttifaqının xarici siyasətini dəstəkləyirdilər və demokratiya tərəfdarları ABŞ-ın xarici siyasətini fəal şəkildə müdafiə etməsələr də, ən azından Sovet İttifaqının xarici siyasətinə qarşı çıxırdılar. Kommunistlərin sayı nə qədər çox idisə, Sovet İttifaqının xarici siyasətinə dəstək bir o qədər böyük idi; və ABŞ-ın xarici siyasətinin uğuru böyük ölçüdə dünyada kommunist təsəvvürlərin qüdrətindən və yayılmasından asılı idi. Seçkilərin, yaxud vətəndaş müharibəsinin nəticəsi dövlətin xarici siyasətinin gələcək kursunu təyin edəcəkdi. Əgər Kommunist Partiyası qalib gəlsəydi, ölkə Sovet İttifaqının tərəfində ola bilərdi; əgər demokratik partiyalar qalib gəlsəydi, o ya tərəfsiz qala, ya da ABŞ-ı dəstəkləyə bilərdi. Digər dövlətlərdə qüvvələrin daxili bölgüsündə belə əlverişsiz irəliləyişlərin qarşısını almaq və əlverişli formaları təbliğ etmək siyasi fəlsəfələrin insanların sədaqəti uğrunda mübarizəsində rəqiblərin həyati vacib marağına çevrilir.

[1] Həmçinin bax: səh. 219, 220.

Psixoloji müharibə və ya təbliğat xarici siyasətin öz məqsədlərinə nail olmasında üçüncü bir alət kimi diplomatiya və hərbi qüvvəyə qoşulur. İstifadə edilən alətdən asılı olmayaraq, xarici siyasətin son məqsədi hər zaman eynidir: rəqibin düşüncəsini dəyişməklə öz maraqlarını təbliğ etmək. Bu məqsədlə diplomatiya maraqların təmin, yaxud inkar edilməsindən çıxış edərək, vədlərin və təhdidlərin inandırıcılığından, hərbi qüvvə rəqibin müəyyən maraqlarını həyata keçirmək bacarığına real zorakılıq yolu ilə təsir etməkdən, təbliğat isə öz məqsədlərinə dəstək olmaq üçün elmi təsəvvürlər, mənəvi dəyərlər və emosional seçimlərdən yararlanmaq və onları yaratmaq kimi üsullardan istifadə edir. Bu halda xarici siyasət bütövlükdə insanların düşüncələri uğrunda mübarizədir; təbliğat isə xüsusi mənada belədir və o, insanların düşüncələrini maraqların manipulyasiyası və fiziki zorakılıq vasitəsilə olmaqdan daha çox, birbaşa olaraq qəlibləşdirməyə cəhd edir.

Diplomatiya və müharibə uzun və sürəkli bir tarixə söykənir; bu səbəbdən onların prinsiplərinin nəzəri cəhətdən anlaşılması xeyli irəliləyib. Təbliğat xarici siyasətin müstəqil aləti kimi yenilikdir; onun nəzəriyyə və təcrübəsi təcrübəsizliyin nəticələrindən əziyyət çəkir.

TƏBLİĞATIN 3 PRİNSİPİ

İnsanların düşüncələri uğrunda təbliğat silahı ilə aparılan mübarizəni yönləndirməli olan fundamental prinsiplər hansılardır? Nəzəriyyədə kölgədə qalan və təcrübədə düzgün idarə edilməyən üç məsələnin aydınlaşdırılmağa ehtiyacı var: birincisi, təbliğatın məzmunu ilə onun effektivliyi arasındakı əlaqə; ikincisi, təbliğat, həyat təcrübəsi və təbliğatın yetişməyə çalışdığı insanların maraqları arasındakı əlaqə; üçüncüsü, təbliğat ilə onun aləti olaraq xidmət göstərdiyi xarici siyasət arasındakı əlaqə.

1. İnsanların təsəvvürlərini, məsələn, Amerika və Fransa inqilablarının ideyaları və bolşevizm və faşizmin şüarlarını mənimsəyib onları siyasi fəaliyyətə köçürmüş keçmişin böyük filosofları haqlı olduqlarına görə deyil, onların haqlı olduğuna inamın mövcudluğuna görə uğurlu oldular, çünki onlar müraciət etdikləri insanlara həm elmi, həm də fəaliyyət nöqteyi-nəzərindən gözlədiklərini verdilər. Millətçi Sosialist Partiyasının irq nəzəriyyələrinin tamamilə yanlış olduğuna heç kim şübhə etmir; lakin nüfuzlu antropoloqların arqumentləri insan düşüncəsi üzərində üstünlük uğrunda həmin nəzəriyyələrlə mübarizədə tamamilə boşa çıxdı. İmperializm və müharibənin iqtisadi şərhi bütün məlum faktlarla açıq-aşkar ziddiyyət təşkil edir; lakin insanların ona inamı, demək olar ki, qırılmazdır.

Bu nəzəriyyələrin aşkar etibarsızlığının onların uğuru və uğursuzluğuna aidiyyəti yoxdur. Onların uğuru üçün həlledici olan elmi və siyasi ehtiyaca hiss olunan dərin ehtiyacı ödəmək bacarığıdır. Bütün təzahürlər əksini göstərsə də, onlar təbii olaraq bütün digər millətlərdən üstündür və əgər düzgün siyasət aparmış olsaydılar, həqiqətən üstün olacaqdılar. Lakin özlərini təsdiq etmək üçün bir alət kimi irqi nəzəriyyələrdən bərk-bərk yapışdılar. Almaniyanın belə hakimliyinin proqnozunu vermək üçün irqi nəzəriyyələr öz üstünlüyünü sərhədləri daxilindəki azlıqlar üzərində sınaqdan keçirməyi alman xalqı üçün faktiki olaraq zəruri etdi və görünür ki, bu sınağın labüd uğuru irqi nəzəriyyələrin özünün həqiqiliyi üçün təcrübi sübutu təmin etdi.

Eynilə imperializm və müharibənin iqtisadi şərhi elmi və siyasi ehtiyaclara duyulan dərin ehtiyacı təmin edir. Dövrümüzdə beynəlxalq münasibətlərin çıxılmaz vəziyyətə salınmış mürəkkəbliyi ilə alt-üst olmuş ictimai düşüncə həm sadə, həm də ağlabatan olan bir izahata ehtiyac hiss edir.

İqtisadi şərh bunu təmin etməklə ictimai düşüncənin narahatlığını aradan qaldırır. O, siyasi fəaliyyət üçün irqi nəzəriyyələr tərəfindən həyata keçirilən eyni vəzifəni yerinə yetirir. O, "Uoll stritin müharibə tərəfdarları", yaxud "silah-sursat istehsal edənlər" ilə siyasi fəaliyyətin sanki təlim atışı məqsədləriylə istifadə edə biləcəyi asanlıqla əldə edilə bilən bir simvol ərsəyə gətirir. Nəzəriyyəyə uyğun olaraq, "müharibədən mənfəət götürmək üçün", yaxud müharibə aparan tərəflər ilə ticarəti məhdudlaşdırmaq üçün tədbirlər görülə bilər. Həyata keçirilən bu tədbirlərlə müharibə və imperializmin öz təhlükələrini itirdiyi görünür və ictimai fikrin beynəlxalq siyasətin ümumiyyətlə nə olduğunu bilərək və bu biliyə uyğun olaraq hərəkət etmiş olduğunu dərk edərək sakitləşə bilər.

Siyasi fəlsəfə və onun siyasi təbliğat kimi effektivliyi arasında heç bir dəqiq qarşılıqlı münasibət mövcud deyil. Ehtimal və mülahizələri yanlış olan siyasi fəlsəfə bəzən insanların böyük kütləsinin düşüncəsini əsir götürür və insanların düşüncələri uğrunda mübarizədə qalib gəlmək üçün yalnız öz həqiqətlərinin daxili qüvvəsinə arxalana bilməz. O daha çox öz həqiqətləri ilə təsir göstərmək istədiyi insan düşüncələri arasında spesifik əlaqə qurmağa çalışmalıdır. Bu əlaqə insanın siyasi ideyaları qavramasını təyin edən həyat təcrübəsi və maraqlarla təmin olunur.

2. Siyasi fəlsəfələr hər yerdə bütün zamanlarda işlək olan həqiqətlərə iddia edir, lakin insanlar yalnız içində yaşadıqları şəraitə uyğun olaraq, müəyyən dövrlərdə mövcud olan ideyaları qəbul edə bilirlər. Gördüyümüz kimi, bu şərait[1] yalnız zamana görə deyil, həmçinin tarixin eyni bir mərhələsində insanların müxtəlif qruplarına münasibətdə fərqlənir.

[1] Bax: səh. 342-343.

Kommunizmin insanlara ünvanladığı ən vacib istəyi olan sosial, iqtisadi və siyasi qeyri-bərabərliyin ləğvi ehkamları istənilən yerdə uğurlu olmuşdur. Qərb fəlsəfəsi ictimai istəklərdə siyasi azadlığın bütün digər ehtiyacları üstələdiyi istənilən yerdə məqsədinə nail olmuşdur. Beləliklə, kommunizm Mərkəzi və Şərqi Avropada insanların düşüncələri uğrunda mübarizədə, əsasən, uduzmuş, demokratiya isə Asiyada, ümumiyyətlə, məğlubiyyətə uğradılmışdır. Mərkəzi və Şərqi Avropada kommunistlərin bərabərlik vədləri Şərqi və Mərkəzi Avropanın xalqlarının Qırmızı Ordu və Rusiya məxfi polisinin zülmü ilə qazandığı həyat təcrübəsini üstələyə bilmədi. Həmin regionlarda kommunizm yalnız əhalinin o seqmentlərinə münasibətdə məqsədinə nail oldu ki, əsasən, iqtisadi sahədə bərabərliyə can atmaqda həyat təcrübəsi azadlıq marağını üstələmişdi.

Digər tərəfdən, demokratiyanın Asiyada məğlubiyyətə uğradığı yerlərdə bu ona görə baş vermişdi ki, onun müraciəti Asiya xalqlarının həyat təcrübəsi və maraqlarından əhəmiyyətli dərəcədə uzaq idi. Asiya xalqlarının hər şeydən çox istədiyi Qərb müstəmləkəçiliyindən azad olmaq idi. Demokratik fəlsəfə Asiya xalqlarının maraqlarına zidd oluncaya qədər demokratiyanın ideyaların mübarizəsində məqsədinə nail olması üçün hansı imkan var idi? Adi insanın həyat təcrübəsindən uzaq olan siyasi təbliğatın əhəmiyyəti 30 sentyabr 1950-ci ildə *"Çikaqo Deyli Nyuz" ("Chicago Daily News")* qəzetində Fred Sparks imzası ilə dərc olunmuş məlumatda çox gözəl aşkar edilir:

"O biri gün mən Sayqon yaxınlığında kiçik bir fermeri ziyarət etdim...

Mən tərcüməçim vasitəsilə ondan amerikalıların Hind-Çinə gəlməsi haqqında nə düşündüyünü mənə söyləməsini xahiş etdim. O dedi: "Ağ insanlar ağ insanlara kömək edirlər. Siz fransızlara mənim xalqımı öldürməyə kömək etmək üçün silah verirsiniz. Biz bütün əcnəbilərdən və Vyet Mindən yaxa qurtarmaq istəyirik... Yavaş-yavaş fransızları ölkədən çıxarırdıq".

Mən dedim: "Siz bilmirsiniz ki, Vyet Minin arxasında ağ adam durur? Siz bilmirsiniz ki, Ho Çi Min Rusiyadan əmrlər alır?"

O dedi: "Sayqonda mən amerikalıları görmüşəm və fransızları görmüşəm. Mən heç vaxt Vyet Min ilə birgə olan ağ adamlar haqqında eşitməmişəm"".

Bu epizodu əhəmiyyətli edən o faktdır ki, o, Asiyanın Qərb ideyalarına münasibətini geniş həcmdə təcəssüm etdirir. Bu münasibət Qərb üçün heç yerdə Çində olduğundan daha kəskin və daha qorxunc nəticələr doğura biləcək deyildi; çünki fəlsəfə və xalqın həyat təcrübəsi arasında ziddiyyət heç yerdə burada olduğundan daha kəskin deyildi. ABŞ-ın bir əsr yaşı olan antiimperialist xarakteri və onun ABŞ üçün Çində yaratdığı xoş məram Amerika silahları çinliləri öldürmək üçün istifadə edilən zaman və Amerika təyyarələri Çinin sahil şəhərlərinə bomba atdıqda bir həmlə ilə silindi. Londonun *"Ekonomist" ("Economist")* jurnalındakı bir məlumat Şanxay üzərində millətçi hava reydlərinə istinadən qeyd olunurdu.

Mətbuatda bu reydlər Tayvanın "mürtəce, sağ qalmış nökərləri" qədər "Amerika imperialistləri"nin də işi kimi təqdim olunurdu və reydlər Çianqa daha az təhsillilər arasında qala bilmiş istənilən etimadı yox etdiyi zaman hələ də müəyyən dairələrdə Amerikaya qalmış etiqadın da yox olmasına az təsir göstərmədi.

Burada da Amerika ideyalarının səciyyəvi xüsusiyyətləri həqiqətləri və ehtiva etdikləri müsbət cəhətlər baxımından ideyaların müharibəsində uğur, yaxud uğursuzluq üçün heç bir təsirə malik deyildi. Məsələni müəyyən edən demokratik təbliğatın adi insanların təcrübələri fonunda aşkar görünən yersizliyi idi. ABŞ-ın dəstəklədiyi, yaxud dəstəklədiyi kimi görünən siyasətlər ideyalar müharibəsində uğuru mümkünsüz etdi.

3. Siyasət psixoloji müharibə üçün üç funksiyanı yerinə yetirməlidir. Birincisi, o onun məqsədlərini və onlara nail olmaq üçün təklif etdiyi üsulları aydın şəkildə müəyyən etməlidir. İkincisi, o, təbliğatın yönəlməli olduğu insanların onun məqsədləri və üsullarına münasibətdə ictimai istəklərini müəyyən etməlidir. Üçüncüsü, o, psixoloji müharibənin siyasəti hansı dərəcədə dəstəkləmək iqtidarında olduğunu müəyyən etməlidir.

Qərbin Asiyada artıq qeyd olunmuş səbəblərdən başqa, psixoloji zəifliyi onun siyasətinin zəifliyinin nəticəsidir. Qərb öz məqsədlərindən və onlara çatmaq üsullarından əmin olmadığı üçün onun psixoloji siyasəti demokratik əksəriyyətdə siyasətin qeyri-müəyyənliklərindən sığınmağa olduqca çox meyilli idi. Beləliklə, Qərb təbliğatı bolşevizmin məziyyət və həqiqətlərini, eləcə də qüsur və yalanlarını xüsusi olaraq nəzərə çatdırmağa meyil edirdi.

Belə mənəvi və fəlsəfi mücərrədliklərə oxşar meyil digər insanların nə istədiklərini obyektiv şəkildə araşdırmağa maneçilik törətdi. Biz, ümumiyyətlə, həyatlarımızın zorakılıq, yaxud ərzaq və sığınacaq çatışmazlığı ilə ölümdən mühafizəsinə əmin olaraq, bu bioloji ehtiyacların təmin olunduğunu hesab edirik. Həyatın mühafizəsini böyük ölçüdə təmin edərək düşüncə və səylərimizi azadlığın qorunub saxlanması və xoşbəxtliyə nail olmağa yönəldirik. Bu bizdə təbii bir proses olduğundan biz zaman və məkan şərtlərinin hədəfi olan bu məhdud təcrübədən bütün məkanlar və bütün zamanlar üçün doğru olmağa iddia edən universal prinsip yaradırıq. Beləliklə, biz ən azından dolayısı ilə belə düşünməyə meyil göstəririk ki, bizə inanmağa imkan verilənə başqaları da inana bilər və bizim can atdığımız bütün insanlığın istəklərinin obyektidir. Lakin səciyyəvi ortaq psixoloji cəhətlərin əsasında insanların necə müxtəlif həyat təcrübələrinin, müxtəlif siyasi istəklər strukturunun formalaşdığı artıq göstərilmişdir.

O zaman Qərb demokratiyasının Avropa və Asiya xalqları ilə effektiv söhbəti onun iki fərqli münasibəti qurmaq bacarığından asılıdır: bunlardan biri həmin

xalqların istəkləri ilə Qərbin siyasi xətləri arasında, digəri isə həmin siyasi xətlərlə onların şifahi şəkildə təbliği arasında. Bu üç amil arasında uyğunluğun nisbətən asanlıqla əldə oluna bildiyi vəziyyətlər mövcuddur. İkinci Dünya müharibəsi zamanı işğal olunmuş Avropada millətçi sosialist Almaniyaya qarşı siyasi müharibənin aparılması nisbətən sadə bir məsələ idi. İctimai istəklər aydın şəkildə müəyyən olunmuşdu, Birləşmiş Millətlər Təşkilatı tərəfindən yürüdülən siyasətə münasibətdə də vəziyyət belə idi. Onların hər ikisi millətçi sosializmin dağılmasına cəhd edirdi və bu məqsədi sözlərlə ifadə etmək asan idi.

Eynilə Avropada sovet ekspansiyasına qarşı ərazi status-kvosunu qoruyub saxlamaq məqsədi daşıyan siyasi və hərbi siyasətlər Qərbi Avropa əhalisinin istəklərini ifadə edirdi və həmin istəklər Trumen doktrinası, Marşall planı və Atlantik İttifaqı ilə əlaqəli şifahi formullarda ifadə olundu. Nə Şərqi Avropada, nə Asiyada, nə də Sovet İttifaqının özündə psixoloji müharibə vəzifəsi elə də sadə deyil. İki zəruri dilemma ona qarşı çıxır. Bunlardan biri bir regionda yürüdülən müəyyən siyasətin digər bir regionda aparılan psixoloji siyasət ilə uyğunsuzluğuna aiddir. Digər dilemma verilmiş siyasətin yalnız psixoloji müharibə üsulları ilə dəstəklənməsinin mümkünsüzlüyündən irəli gəlir.

Birinci dilemma, adətən, Şərqi Avropada Amerikanın məqsədi hesab olunan ilə bizim Sovet İttifaqına münasibətdə psixoloji müharibəmizin məqsədi arasındakı əlaqələrdə öz əksini tapır. Bizim Şərqi Avropadakı siyasətimizin məqsədi 50-ci illərdə Şərqi Avropa əhalisinin Rusiya ağalığından azad edilməsi kimi müəyyən olundu. O zaman bizim Sovet İttifaqına münasibətdə siyasi müharibəmizin məqsədi sovet hökumətinin başı üzərindən real məqsədlərimizdən çıxış edərək Rusiya xalqına müraciət etmək və bununla da Rusiya ictimai fikrinin təzyiqi ilə sovet siyasətini dəyişməyə məcbur etmək idi.

Lakin Şərqi Avropanın azadlığı xüsusilə Polşa və Balkan dövlətlərinə münasibətdə Rusiyanın əsrlərlə yaşı olan istəkləri ilə toqquşur; bu istəklərə münasibətdə hökumət və əhali arasında heç vaxt heç bir fikir ayrılığı mövcud olmayıb. Şərqi Avropada həm Rusiya hökumətinin, həm də Rusiya əhalisinin istəklərinə mane olmağa cəhd edən siyasət nə ola biləcəyindən asılı olmayaraq, psixoloji müharibə vasitəsilə Rusiya əhalisini Rusiya hökumətindən ayırmaq imkanlarını heçə endirməyə məcbur idi. Bu kimi vəziyyətlərdə məqsədlərin prioritetini təyin etmək və ya siyasi müharibənin məqsədlərini siyasi siyasətin məqsədlərinə tabe etmək, yaxud əksinə, ümumi siyasətin vəzifəsidir.

Digər dilemmanın bariz təsviri Amerikanın Hind-Çinə müdaxiləsinin təbliğat effekti tərəfindən verilir. Bu müdaxilənin birbaşa psixoloji təsirləri ABŞ üçün əlverişsiz idi. Hind-çinli kəndlinin cənab Sparksa dedikləri böyük əks-səda doğurdu. Bu müzakirə kontekstində vacib olan ABŞ-ın həmin müdaxilənin psixoloji

məsuliyyətinə birbaşa psixoloji əks-tədbirlər ilə qarşı çıxmamağı bacarmaması idi. Asiyanın məsələlərinə Qərb imperializmi üçün ənənəvi olan tərzdə ağ müdaxilənin psixoloji təsirləri siyasi müharibə üsulları deyil, yalnız ağ müdaxilənin Hind-Çindəki təcrübələrinə əks olan siyasi, hərbi və iqtisadi siyasətləri ilə təkzib edilə bilər. Bu kimi vəziyyətlərdə verilmiş siyasi və hərbi qərarların psixoloji məsuliyyətinə birbaşa cavab təbliğat deyil, uğurlu təbliğatın ilkin psixoloji şərtlərini formalaşdıracaq siyasətlərdir.

Bu kontekstdə inkişafdan qalmış ərazilərə iqtisadi və texniki yardım xüsusi əhəmiyyət kəsb edir. Çünki belə yardım adi təbliğatdan məhz onunla fərqlənir ki, o, görülən işdir, vəd deyil. Başqa xalqlara nə edilə biləcəyini, yaxud haradasa nəyinsə edildiyini deməkdənsə, bu, təbliğatın vədlərini həmin anda daha faydalı edir. Lakin təbliğat aləti olaraq tam effektli olmaq üçün iqtisadi və texniki yardım iki tələbə cavab verməlidir.

Birincisi, o, göstərildiyi xalqa yalnız uzun vədədə deyil, həmçinin dərhal və onlar üçün anlaşılan tərzdə xeyir verməlidir. Çox vaxt xarici yardım bu tələbə cavab verməkdə uğursuz olur; çünki o, iqtisadi inkişafa siyasi və mədəni müqavimət problemi ilə üz-üzə qalır. İqtisadi inkişaf geriliyi çox vaxt təbii səbəblərin deyil, geriləmənin saxlanılmasında payı olan siyasi sistemin nəticəsidir. Məsələn, öz gücünü torpaq üzərində mülkiyyətin mövcud olmamasından alan siyasi sistem, ehtimal ki, torpaq islahatı proqramına girişməklə özünü məhv etməz. Xarici yardım iqtisadi inkişafa qarşı çıxan sosial qruplar tərəfindən mənimsənilməklə status-kvo qüvvələrini həqiqətən gücləndirə və varlılar və kasıblar arasında parçalanmanı artıra bilər. İqtisadi geriləmə həmçinin mədəni amillərdən, məsələn, irəliləyişin mümkünlüyünə və qənaətin faydalılığına inamsızlıqdan qaynaqlana bilər və bunun dəf edilməsi xarici yardım vasitəsilə pulun və texniki bacarığın ötürülməsi yolu ilə mümkün deyil.

İkincisi, yardımın xarici mənbəyi onu qəbul edən üçün aşkar olmalıdır. Burada lazımi formada aparılan təbliğat yenidən dövrəyə daxil olur və yardımın gəldiyi xarici təşkilata inam formalaşdırır və həmin yardımı və onun xeyirlərini xarici təşkilatın ümumi fəlsəfəsi, xarakteri və siyasəti ilə əlaqələndirir.

Bu halda insanların düşüncələri uğrunda mübarizə sonsuz məharətin və mürəkkəbliyin vəzifəsidir. Öz ölkəndə ictimai dəstəkdən daha asan, daha müəyyən, həmçinin belə bir müəmmalı vəzifəyə 4 iyul nitqinin ruhunda və onun texnikaları ilə yanaşmaqdan daha dəqiq yanlış olan heç nə yoxdur. Mənəvi səlibin sadə fəlsəfəsi və texnikası ölkə daxilində verilmiş siyasətin arxasında ictimai fikri təmin etmək vəzifəsi üçün faydalı və hətta əvəzedilməzdir; onlar dövlətlərin insanların düşüncələri üzərində ağalıq üçün mübarizəsində yeganə küt silahlarıdır. Təbliğat yalnız yaxşı və pis, həqiqət və yalan arasında deyil, həmçinin gücün güc

ilə mübarizəsidir. Belə bir mübarizədə yaxşı olan və həqiqət, sadəcə, haqqında danışılmaqla üstün olmur. Onlar siyasətin daimi axınına uyğun olaraq yerinə yetirilməlidir ki, bu da onları həm yerində, həm də ağlabatan edir. Başlıca olaraq "dəmir pərdə"ni dəlib keçməyin texnoloji problemi baxımından demokratiyanın bolşevizm ilə mübarizədə psixoloji vəzifəsini təsəvvür etmək və demokratiyanın əzəli həqiqətlərini bütün dünyaya çatdırmaq böyük ölçüdə məsələnin mahiyyətindən uzaqlaşmaqdır.

Siyasi müharibə ideyalar sahəsində dəstəkləməyə cəhd etdiyi siyasi və hərbi siyasətlərin inikasıdır. O bu siyasətlərdən daha pis ola bilər, lakin heç vaxt onlardan daha yaxşı ola bilməz. Bu siyasətlərin xarakterindən onun gücü doğur. O onlara ya qalib gəlir, ya da uğursuzluğa uğrayır. İnsanların düşüncələri uğrunda mübarizədə qələbəyə çağırışın səmərəliliyi başlıca olaraq qələbə çalmaq üçün imkanlara sahib olan siyasi və hərbi siyasətlərə çağırış kimi təsəvvür edilməlidir. Burada da həmçinin görülən işlər sözlərdən daha yüksək səslə danışır.

İnsanların düşüncələri uğrunda mübarizə müxtəlif dövlətlər tərəfindən universal ağalığa rəqib iddiaları irəli çəkərək daxilində, demək olar ki, üç əsr ərzində daimi rəqabət şəraitində, lakin ortaq dəyərlərin və universal yaşam meyarlarının ümumi çətiri altında birgə yaşayan dövlətlərin beynəlxalq qarşılıqlı fəaliyyətinin sosial sisteminə həlledici, öldürücü zərbə vurmuşdur. Həmin çətirin dağılması dünya dövlətlərinin ortaq təbii şəraitini məhv etmişdir və onların ən güclü olanlarının hər biri öz nümunəsinə uyğun yenisini qurmaq hüququnu bəyan edir. Həmin çətirin dağıntılarının altında dövlətlərin evinin divarlarını ayaq üstə saxlayan mexanizm basdırılıb: qüvvələr tarazlığı.

21. Yeni qüvvələr tarazlığı

Demək olar ki, üç əsr ərzində güc uğrunda mübarizəni məhdudlaşdırmış elmi və mənəvi konsensusun məhvi qüvvələr tarazlığını onu beynəlxalq siyasətin yaşam prinsipinə çevirən həyati qüvvədən məhrum etdi. Həmin həyati enerjinin çəkilməsi ilə eyni vaxtda qüvvələr tarazlığı sistemi onun fəaliyyətini əhəmiyyətli dərəcədə zədələyən üç struktur dəyişikliyinə məruz qalmışdır.[1]

YENİ QÜVVƏLƏR TARAZLIĞININ SƏRTLİYİ

Böyük dövlətlərin sayının azalması

Qüvvələr tarazlığının fəaliyyətinə zərbə vuran bu struktur dəyişikliklərinin ən barizi oyundakı iştirakçıların sayında kəskin azalmadır. Məsələn, Otuzillik müharibənin sonunda Almaniya imperiyası 900 suveren dövlətdən ibarət idi, 1648-ci il Vestfaliya sülh müqaviləsi onların sayını 355-ə endirdi. Ən əhəmiyyətlisi 1803-cü ildə Regensburq Reyxstaqında tələb edilən islahatların aparılması və Napoleon müdaxilələri 200-dən çox suveren alman dövlətini ortadan qaldırdı. 1815-ci ildə Alman Konfederasiyası yaradılarkən ona qoşulmaq üçün yalnız 36 dövlət qalmışdı. 1859-cu ildə İtaliyanın birləşdirilməsi 7, 1871-ci ildə Almaniyanın birləşdirilməsi isə 24 suveren dövləti ortadan qaldırdı. 1815-ci ildə Napoleon müharibələrinin sonunda 8 dövlət – Avstriya, Fransa, Böyük Britaniya, Portuqaliya, Rusiya, İspaniya və İsveç – böyük dövlət diplomatik rütbəsinə sahib idi. Portuqaliya, İspaniya və İsveçə belə rütbə yalnız ənənəvi nəzakət qaydası olaraq bəxş edilmişdi və nəzərə alsaq ki, onlar tezliklə layiq olmadıqları bu statusu ümumiyyətlə itirəcəkdilər, həqiqi böyük dövlətlərin sayı 5-ə düşürdü. 60-cı illərdə İtaliya və ABŞ onlara qoşuldu və əsrin sonlarına doğru onların arxasınca Yaponiya gəldi.

Birinci Dünya müharibəsi başlayanda yenə də 8 böyük dövlət var idi və onların 2-si ilk dəfə olaraq, ümumiyyətlə, Avropadan kənarda yerləşirdi – Amerika

[1] Əsrin əvvəllərində baş vermiş digər dəyişikliklər üçün bax: səh. 257 və növbəti səhifələr, 272-274.

Birləşmiş Ştatları, Almaniya, Avstriya, Böyük Britaniya, Fransa, İtaliya, Rusiya və Yaponiya. Birinci Dünya müharibəsinin sonunda Avstriya birdəfəlik, Almaniya isə müvəqqəti olaraq bu siyahıdan silindi. İki onillik sonra İkinci Dünya müharibəsi başlayanda yenidən 7 böyük dövlətin adını çəkmək olardı, Almaniya və Sovet İttifaqı yenidən birinci dərəcəli dövlətlərə çevrilmişdi, digərləri isə öz statuslarını mühafizə etmişdilər. İkinci Dünya müharibəsinin sonu bu rəqəmin 3-ə düşməsinin şahidi oldu – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Sovet İttifaqı. Bu zaman Fransa və Çin ilə keçmişləri və potensialları baxımından danışıqlarda və təşkilatlarda elə rəftar olunurdu, guya ki onlar da böyük dövlət idi. Lakin Britaniyanın gücü o dərəcəyə qədər azalmışdı ki, o, nəzərəçarpacaq dərəcədə ABŞ və Sovet İttifaqından geri qalırdı və onlar özlərindən sonrakı pillədə yer almış dövlətdən üstünlüklərinin böyüklüyü baxımından supergüclər adlandırılmağa layiq idi.

Beynəlxalq siyasətdə əsas rol oynamaq iqtidarında olan dövlətlərin sayındakı bu azalma qüvvələr tarazlığına mənfi təsir göstərmişdir. Bu təsir 1648 və 1803-cü illər birləşmələri və XIX əsrdə milli birləşmələr ilə dövlətlərin mütləq sayında azalma ilə daha da artdı. Bu azalmalar yalnız 1919-cu ildə Şərqi və Mərkəzi Avropada yeni dövlətlərin yaranması ilə müvəqqəti olaraq kompensasiya olundu; çünki bu dövlətlər həmin ərəfədə ya yoxa çıxdı, – məsələn, Balkan dövlətləri kimi, – ya da istənilən halda beynəlxalq arenada müstəqil amillər olmağı dayandırdı. Bu hadisələr qüvvələr tarazlığını elastiklik və qeyri-müəyyənliyinin böyük hissəsindən və nəticədə güc uğrunda mübarizəyə fəal şəkildə qoşulmuş dövlətlər üzərindən məhdudlaşdırıcı təsirdən məhrum etdi.

Gördüyümüz kimi, əvvəlki dövrlərdə qüvvələr tarazlığı, əsasən, bir sıra dövlətlər arasında koalisiyalar yolu ilə fəaliyyət göstərirdi. Əsas dövlətlər gücünə görə fərqləndikləri halda, hələ də eyni böyüklük sırasında idi. Məsələn, XVIII əsrdə nisbi güclərinə gəlincə, Avstriya, Böyük Britaniya, Fransa, İsveç, Prussiya və Rusiya eyni sinfə mənsub idi. Onların gücündə enib-qalxmalar dövlətlər iyerarxiyasında müvafiq mövqelərinə təsir göstərə bilərdi, onların böyük dövlət mövqeyinə təsir göstərə bilməzdi. Eynilə 1870-ci ildən 1914-cü ilə qədər olan müddətdə güc siyasəti oyunu birinci dərəcəli 8 iştirakçı tərəfindən oynanılırdı və onlardan 6-sı daimi olaraq Avropadan olurdu. Belə şərtlər altında heç bir iştirakçı ən azından bu və digər oyunçu yoldaşının dəstəyinə əmin olmadan güc istəklərində çox uzağa gedə bilməzdi və heç kim də bu dəstəyin göstəriləcəyindən çox əmin ola bilməzdi. XVIII-XIX əsrlərdə faktiki olaraq elə bir dövlət yox idi ki, digər dövlətlərdən ümid etdiyi diplomatik, yaxud hərbi dəstəyi almaması səbəbindən qabaqcıl mövqeyindən geri çəkilməyə və addımlarını geri atmağa vadar edilməsin. Bu, xüsusilə XIX əsrdə Rusiyaya aiddir. Digər tərəfdən, əgər 1919-cu ildə Almaniya oyunun qaydalarını pozaraq, Avstriyaya Serbiya ilə əlaqədar işlərində fəaliyyət azadlığı

verməsəydi, Avstriyanın o qədər uzağa getməyə cəsarət etməyəcəyinə və Birinci Dünya müharibəsindən qaçmağın mümkün olacağına şübhə azdır.

Fəal iştirakçıların sayı nə qədər çox olarsa, mümkün kombinasiyaların, həmçinin faktiki olaraq bir-birinə qarşı çıxacaq kombinasiyalara və ayrı-ayrı iştirakçıların onlarda oynayacağı faktiki rola dair qeyri-müəyyənliklərin sayı da o qədər çox olar. Həm 1914-cü il Uilyam, həm də 1939-cu ildə Hitler Böyük Britaniyanın və nəticədə həmçinin ABŞ-ın onların düşmənləri sırasına qoşula biləcəyinə inanmaqdan imtina edirdilər və hər ikisi də Amerikanın müdaxilələrinin təsirini düzgün qiymətləndirmirdi. Aydındır ki, kimin kimə qarşı döyüşəcəyinə dair yanlış hesablamalar Almaniya üçün qələbə və məğlubiyyət arasındakı fərqin mənasını daşıyırdı. Gücünə görə müqayisə oluna bilən dövlətlərin koalisiyaları bir-birinə qarşı duranda bu növ hesablamaların aparılması labüddən qaçılmaz olur, çünki gözlənilən bir üzvün dönüklüyü, yaxud gözlənilməz birinin əlavə olunması qüvvələr tarazlığına həlledici olmasa da, əhəmiyyətli təsir göstərməyə bilməz. Beləliklə, XVIII əsrdə dövlət başçıları öz qruplaşmalarını çox asanlıqla dəyişdiyi zamanlarda belə hesablamalar çox vaxt yanlış ehtimallardan, demək olar ki, seçilmirdi. Nəticədə qüvvələr tarazlığının ittifaqların aşkar etibarsızlığından irəli gələn ifrat elastikliyi beynəlxalq siyasətin şahmat taxtasındakı gedişlərində ehtiyatlı olmağı bütün iştirakçılar üçün zəruri etdi və riskləri hesablamaq çətin olduğundan onları mümkün qədər kiçik risklər etməyə vadar etdi.

Birinci Dünya müharibəsində münaqişənin son nəticəsinə təsir etməsi baxımından İtaliyanın bitərəf qalacağı, yoxsa İttifaq dövlətləri tərəfindən müharibəyə qoşulacağı əvvəlki kimi çox böyük əhəmiyyət kəsb edirdi. Bu əhəmiyyətin qəbul edildiyinin göstəricisi idi ki, hər iki tərəf ərazisinin böyüdülməsinə dair vədlərin verilməsində bir-biriylə yarışaraq İtaliyanın qərarına təsir etmək üçün böyük səylər göstərirdi. Eyni vəziyyət daha kiçik dərəcədə hətta nisbətən zəif dövlət olan Yunanıstana münasibətdə də hakim oldu.

Gücün ikiqütblülüyü

Qüvvələr tarazlığının bu aspekti ötən illərdə radikal dəyişikliyə məruz qalmışdır. İkinci Dünya müharibəsində İtaliya, İspaniya, yaxud hətta Fransa kimi ölkələrin bu və digər tərəfə qoşulub-qoşulmamaq haqqında qərarları, əminliklə demək olar ki, müharibə iştirakçıları tərəfindən yaxşı və ya pis qarşılanmasından asılı olmayaraq, adi hadisələr idi. Lakin heç bir halda qələbəni məğlubiyyətə, yaxud əksinə çevirməkdə hətta kiçik bir imkana sahib deyildi. Bir tərəfdən ABŞ, Sovet İttifaqı, Böyük Britaniya, Yaponiya və Almaniya kimi birinci dərəcəli dövlətlərin, digər tərəfdən bütün qalan dövlətlərin gücündə uyğunsuzluq o zaman

artıq o qədər böyük idi ki, bir müttəfiqin dönüklüyü, yaxud digər bir dövlətin yeni daxil olması artıq qüvvələr tarazlığını dəyişə və bununla da mübarizənin son nəticəsinə əhəmiyyətli təsir göstərə bilməz. Qruplaşmalarda dəyişikliklərin təsiri altında tərəzinin bir gözü müəyyən dərəcədə yuxarı qalxa, digər gözü isə ağır yükün altında daha da aşağı enə bilər. Lakin bu dəyişikliklər tərəzinin gözləri arasında birinci dərəcəli dövlətlərin üstünlük təşkil edən çəkiləri ilə təyin olunmuş əlaqəni əksinə dəyişə bilmədi. Yalnız böyük dövlətlərin – bir tərəfdən ABŞ, Sovet İttifaqı, Böyük Britaniya, digər tərəfdən Almaniya və Yaponiya – mövqeyi, həqiqətən, əhəmiyyət kəsb edirdi. İlk dəfə İkinci Dünya müharibəsi zamanı qeydə alınan bu vəziyyət indi ABŞ və Sovet İttifaqı arasında qütbləşmə fonunda daha çox nəzərə çarpır və beynəlxalq siyasətin önəmli cəhətinə çevrilib. ABŞ və Sovet İttifaqının gücü onların real və potensial müttəfiqlərinin gücü ilə müqayisədə o qədər böyüyüb ki, onlar öz üstün çəkiləri ilə aralarındakı qüvvələr tarazlığını təyin edirlər. Bu tarazlıq indiki məqamda onların müttəfiqlərindən bu və ya digərinin qruplaşmasını dəyişməsi ilə ən azından qısa müddətliyinə ciddi xələl görə bilməz. Qüvvələr tarazlığı çoxqütblü formadan ikiqütblü formaya çevrilib.

İkibloklu sistemə doğru təmayül

Nəticə etibarilə qüvvələr tarazlığının elastikliyi və onunla birlikdə onun beynəlxalq arenadakı baş rol oyunçularının güc istəkləri üzərində təsiri yoxa çıxmışdır. Hər biri istənilən digər dövlətdən və ya digər dövlətlərin mümkün birliyindən müqayisəyə gəlməyəcək dərəcədə güclü olan iki superdövlət üz-üzə durub. Böyük və kiçik dövlətlərin gücü arasında uyğunsuzluq o qədər böyükdür ki, kiçik dövlətlər superdövlətlərin kölgəsində nəinki tərəzinin gözlərini yerindən tərpətmək imkanını, həmçinin əvvəlki dövrlərdə onlara qüvvələr tarazlığında mühüm və çox vaxt həlledici rol oynamaq imkanı verən hərəkət azadlıqlarını əhəmiyyətli dərəcədə itirib. Əvvəllər yalnız nisbətən azsaylı dövlət üçün həqiqət olan, məsələn, müəyyən Latın Amerikası ölkələrinin ABŞ ilə, Portuqaliyanın isə Böyük Britaniya ilə münasibətlərində olduğu kimi bu gün əksər dövlətlər üçün keçərlidir: onlar iki nəhəngdən biri və ya digərinin orbitindədir və həmin nəhənglərin siyasi, hərbi və iqtisadi üstünlüyü onları hətta iradələrinin əksinə belə orada saxlaya bilər. Odur ki digər tərəfin könülsüz və aciz müttəfiqlərindən bəhs edərkən "peyklər"dən danışmağımız təsadüfi deyil.

Bu gün nə ABŞ, nə də Sovet İttifaqının əvvəllər İkinci Dünya müharibəsi zamanı olduğu kimi bir əsas müttəfiqin dönüklüyünün qüvvələr tarazlığını pozmasından çəkinməyə ehtiyacı yoxdur. XVIII əsrdə öz kulminasiyasına çatmış və yalnız İkinci Dünya müharibəsi zamanı sonu gəlmiş, hər zaman dəyişən

ittifaqlar və daimi sayıqlıq, ehtiyatlılıq və tədbirlilik tələb edən yeni birliklər dövrü artıq yoxdur.

Lakin bu proses o anlamı daşımır ki, superdövlətlərin öz müttəfiqlərindən çəkinməsinə, ümumiyyətlə, heç bir əsas yoxdur. Hətta həmin müttəfiqlər müvafiq orbitlərini öz istəkləri ilə tərk etmirlərsə də, onlar orada ya superdövlətlərin siyasətinin həvəsli və səmərəli müdafiəçisi kimi, ya da inadkar və güvənilməz əsirlər kimi qala bilərlər. Onlar, ən yaxşı halda, orbitin mərkəzindən onun periferiyasına çəkilə bilər və bununla superdövlətin öz orbiti daxilində tətbiq etdiyi nəzarətdən kənarlaşar və özlərinin onun daxilində faydalılığını azaldarlar.

Sərt qüvvələr tarazlığı daxilində hər iki tərəfdə qruplaşmalara gəlincə, superdövlətlər öz müttəfiqlərində ya zəiflik, ya da güc mənbəyi tapa bilər. İkinci Dünya müharibəsindən əvvəl böyük dövlətlərin qarşısında duran ən mühüm suallardan biri bu idi: "Qazandığımız müttəfiqləri necə əlimizdə saxlaya bilərik?" Bu gün superdövlətlərin öz müttəfiqlərinə münasibətdə üz-üzə qaldığı əsas sual isə, əksinə, belədir: "Biz onları öz siyasətimizdə necə həvəsli və səmərəli iştirakçılara çevirə və bunu belə saxlaya bilərik?"

Bu narahatlıq superdövlətlər tərəfindən elastik və üzüyola siyasət tələb edir. Onların gücü müttəfiqlərinə münasibətdə böyükdür, lakin o, hüdudsuz deyil. Bu bir həqiqətdir ki, onlar misilsiz dərəcədə öz siyasətlərinin və öz müqəddəratlarının sahibidirlər; lakin onlar bunun tam sahibi deyillər. Əgər onlar öz müttəfiqlərinin dəstəyindən maksimum güc almaq istəyirlərsə, müəyyən hüdudlar daxilində öz siyasətlərini onların istəklərinə uyğunlaşdırmalıdırlar.

Öz müvafiq orbitlərinə sıx bağlanmış dövlətlərin olduğu bir şəraitdə qüvvələr tarazlığının əsas elastiklik elementi orbitə bağlanmamış dövlətlərin gözlənilən gedişləri ilə təmin edilir. Məsələn, Afrika və Latın Amerikası dövlətləri hansı tərəfə müraciət etməyi düşünür? Yaxın gələcəkdə dünya qüvvələr tarazlığının inkişafı, əsasən, öhdəlikdən azad bu və digər dövlətlərin hansı kursu seçməsindən asılı olacaq. Yalnız bir qədər uzaq gələcəkdə siyasi və texnoloji şərtlərin, məsələn, nüvə silahına sahib olmanın yenidən müstəqil şəkildə bir tərəfdən digər tərəfə hərəkət edən yeni güc mərkəzlərinin yaranmasına gətirib çıxarıb-çıxarmayacağına dair suala cavab veriləcək. Bu yeni güc mərkəzləri həmin iki blokun daxilində, yaxud da ondan kənarda formalaşa bilər. Fransa ABŞ ilə ənənəvi ittifaqın möhkəm olmayan çərçivəsi daxilində belə bir müstəqil güc mövqeyinə can atmışdır; Çin də Sovet İttifaqı ilə rəqabət və ziddiyyət şəraitində belə etmişdir. Belə bir proses baş tutmuş olsaydı, dünya siyasətinin bugünkü ikiqütblü sistemi ənənəvi çoxqütblü sistemə geri dönmüş olardı.

TARAZLAYICININ YOXA ÇIXMASI[1]

Qüvvələr tarazlığı strukturunda bu gün şahidi olduğumuz ikinci dəyişiklik bizim bundan əvvəl müzakirə etdiyimiz dəyişikliyin qaçılmaz nəticəsidir. Bu, tarazlayıcının, tarazlığın "tənzimləyicisi"nin yoxa çıxmasıdır. Həm hərbi-dəniz qüvvələrindəki üstünlüyü, həm də xarici hücumlardan faktiki toxunulmazlığı Böyük Britaniyaya üç əsrdən çox bir müddətdə qüvvələr tarazlığının bu funksiyasını yerinə yetirmək imkanı vermişdir. Bu gün Böyük Britaniya artıq bunu icra etmək iqtidarında deyil, çünki müasir müharibə texnologiyası hərbi-dəniz qüvvələrini dənizdə rəqabətsiz ağalıqdan məhrum etmişdir. Hava qüvvələri yalnız Britaniya adalarının toxunulmazlığına son qoymayıb, həm də qitə yaxınlığında nisbətən kiçik ərazidə əhali və sənayenin bir yerə toplanmasını üstünlükdən məsuliyyətə çevirib.

Ətrafında müasir dövlət sisteminin təkamül etdiyi böyük mübarizədə Fransa və Habsburqlar arasında (ən azından 1756-cı ildə Fransanın Prussiyaya qarşı Habsburqlarla müttəfiq olduğu "diplomatik inqilab"a qədər) Böyük Britaniya nəzarətçi və məhdudlaşdırıcı tarazlayıcı rolunu oynaya bilirdi, çünki o, mübarizənin iki tərəfi və onların müttəfiqləri ilə müqayisədə qoşulduğu istənilən tərəfin qələbəsini mümkün etmək üçün kifayət qədər güclü idi. Bu, Napoleon müharibələri, XIX əsr və XX əsrin əvvəli üçün də realdır. Bu gün Böyük Britaniya artıq həlledici mövqeyə sahib deyil. Onun tarazlığın "tənzimləyicisi" rolu sona çatıb və bu, müasir dövlət sistemini əvvəlki dövrlərdə həmin sistemə bəxş edilən məhdudiyyət və sakitliyin faydalarından kənar qoyub. Hətta İkinci Dünya müharibəsində Böyük Britaniyanın bitərəfliyi, yaxud onun Birləşmiş Millətlər Təşkilatı əvəzinə Almaniya və Yaponiya ilə qruplaşmaya daxil olması Birləşmiş Millətlər Təşkilatı üçün asanlıqla qələbə və məğlubiyyət arasındakı fərqi ifadə edə bilərdi. İndi müharibə texnologiyasında və ABŞ və Sovet İttifaqı arasında qüvvələr bölgüsündə ehtimal edilən tendensiyalar fonunda bu 2 dövlət arasında silahlı münaqişədə Böyük Britaniyanın mövqeyi son nəticəyə həlledici təsir göstərməyə bilər.

Yuxarıda deyilənlərdən belə bir nəticə hasil olur ki, Böyük Britaniyanın nisbi gücünün tənəzzülü və onun qüvvələr tarazlığında aparıcı mövqeyini saxlamaqda meydana çıxan bacarıqsızlığı yalnız Böyük Britaniyaya aid edilə bilən təsadüfi hadisə deyil. Bu daha çox qüvvələr tarazlığının bütün təzahürlərində fəaliyyətinə təsir göstərən struktur dəyişikliyinin nəticəsidir. Ona görə də Böyük Britaniyanın uzun müddət tutduğu imtiyazlı və üstün mövqeyin bu gün digər bir dövlətə keçməsi mümkün deyil. Bu ona görə belə deyil ki, mövqeyin ənənəvi sahibi ənənəvi

[1] Həmçinin tarazlığın "tənzimləyicisi" haqqında müzakirələr üçün bax: səh. 267.

rolunu yerinə yetirmək qabiliyyətini itirərək tənəzzül edib; bu ona görə belədir ki, həmin mövqenin özü artıq mövcud deyil. Tərəzinin gözlərinin mövqeyini yalnız öz çəkiləri ilə təyin etmək üçün kifayət qədər güclü olan iki nəhəngin olduğu bir şəraitdə üçüncü bir dövlətin və ya üçüncü bir qüvvənin həlledici təsirə malik olmağa heç bir şansı yoxdur. Ona görə də indiki məqamda digər bir dövlətin, yaxud dövlətlər qrupunun Böyük Britaniya tərəfindən boşaldılmış mövqeyi tutacağına ümid etmək mənasızdır.

"Üçüncü qüvvə" problemi

Belə ümidlər zaman-zaman özlərini müəyyən dərəcədə, yaxud tamamilə Qərb və ya Şərq blokuna aid etməmiş bir sıra dövlətlər və dövlətlər qrupu tərəfindən bəslənmişdir. Belə dövlətlər, əslində, Şərq və Qərb arasında əsas siyasi və hərbi mübarizələrdən kənar qalaraq və özünü müəyyən dərəcədə, yaxud tamamilə bu və ya digər tərəfə aid olmayan mövqeyini qoruyub saxlayaraq "üçüncü qüvvə" mövqeyinə sahib ola bilər. Onlar və iki superdövlət arasında gücün uyğunsuzluğu fonunda onların hal-hazırda daha çoxuna ümid bəsləməsi çətindir. Onların dünya qüvvələr tarazlığında "üçüncü qüvvə" kimi həlledici rola sahib olmaq ümidlərinin xüsusilə təxmin edilə bilməyən texnoloji dəyişikliklər fonunda heç vaxt doğrulmayacağını demək, əlbəttə ki, təkəbbürlülük olduğundan onların əvvəlcədən görünə bilən gələcəkdə məyus olmağa məhkum olduqlarını demək daha doğru olar. Məsələn, general de Qoll bir sıra kəskin və ifadəli çıxışlarında belə bir fikri müdafiə etmişdir ki, birləşmiş Avropa "üçüncü qüvvə" kimi nəhəng Şərq ilə nəhəng Qərb arasında tarazlığın "tənzimləyicisi"nin sülh yaradıcı və məhdudlaşdırıcı vəzifəsini icra etməlidir. O, 28 iyul 1946-cı ildə etdiyi çıxışında söylədiyi aşağıdakı fikirləri sonrakı bəyanatlarında da, xüsusilə 1958-ci ildə yenidən hakimiyyətə gəldikdən sonra dəfələrlə təkrarladı:

"Bu, dəyişməyən bir həqiqətdir ki, bu 30 illik müharibə dövründən əvvələ münasibətdə dünyanın siması hər tərəfdən dəyişmişdir. 30 il bundan əvvəl biz gücünə görə göründüyü kimi bərabər olan, hər biri fərqli və incə uyğunluqlar ilə digərləri ilə birləşən, hər yerdə pozucu mənəvi və maddi maraqların birliyi ilə üzləşəcəyindən daha az güclü olanın özünü nisbətən təminatlı hiss etdiyi və beynəlxalq hüququn qəbul edildiyi tarazlıq qurmağı bacaran 6, yaxud 8 böyük dövlətin olduğu, sonuncu analizlərdə strategiyanın yalnız sürətli və məhdud dağıntı ilə müşahidə olunan gələcək münaqişələr fonunda təsəvvür edildiyi və hazırlandığı dünyada yaşayırdıq.

Lakin qasırğa artıq gəlib keçib. İnventarizasiya artıq aparıla bilər. Almaniya və Yaponiyanın süqutunu və Avropanın zəifləməsini nəzərə alsaq, sovet Rusiyası

və ABŞ indi təklikdə birinci pilləni tutur. Müasir dövrdə bir-birinin ardınca Müqəddəs Roma imperiyası, İspaniya, Fransa, Britaniya və alman reyxinin üzünə gülümsəmək, bir-birinin ardınca onlara üstünlük bəxş etmək, indi isə öz lütfünü iki dövlət arasında bölməyi qərarlaşdırmaq sanki dünyanın müqəddəratı hesab olunur. Son qərardan keçmişin tarazlığını əvəz edən bölgü amili doğur".

ABŞ və Sovet İttifaqının ekspansionist meyillərindən irəli gələn narahatlıqlardan bəhs etdikdən sonra de Qoll sabit qüvvələr tarazlığının yenidən bərpa edilməsi məsələsini gündəmə gətirdi:

"O zaman "Köhnə dünya"nın olmasa da, iki yeni güc arasında müvazinəti kim yenidən bərqərar edə bilər? Uzun əsrlər boyu dünyanın bələdçisi olmuş qoca Avropa özünü iki yerə bölməyə meyil edən dünyanın qəlbində tarazlıq və anlaşmanın zəruri ünsürünü yaratmaq mövqeyindədir.

Qədim Qərbin dövlətləri həyati əhəmiyyətli əsas yollar kimi Şimal dənizi, Aralıq dənizi, Reyn çayına sahibdir; onlar coğrafi cəhətdən iki yeni kütlə arasında yerləşir. Onlar toqquşma halında ciddi şəkildə müdafiəsiz qalan müstəqilliyi qorumağı qərarlaşdıraraq, rusların kütləvi səyləri, eləcə də amerikanların liberal təraqqisi tərəfindən fiziki və mənəvi olaraq bir araya gətirilir. Resurslarından irəli gələn qlobal gücləri və taleyin onlara qismət etdiyi böyük əraziləri hesabına öz təsirlərini və fəaliyyətini uzaqlara yayarkən aralarında zaman-zaman baş verən çətinliklərə baxmayaraq, siyasətlərini birləşdirməyi bacarsalar, onların çəkisi necə böyük olar!"[1]

Lakin Avropa dövlətlərinin bu vəzifəni yerinə yetirmək qabiliyyətini əlindən alan yalnız onların ABŞ və Sovet İttifaqı ilə müqayisədə zəifliyi deyil. Hər şeydən öncə, general de Qollun arqumenti bir həlledici amili nəzərdən qaçırır ki, Böyük Britaniya sülh və sabitliyə faydalı töhfəsini verməyi ona görə bacardı ki, o, coğrafi baxımdan toqquşma və münaqişə mərkəzlərindən uzaq idi, onun bu münaqişələrin hədəflərinə dair həyati maraqları yox idi, o, güc istəklərini təmin etmək üçün, bir qayda olaraq, gücün əsas iddiaçıları üçün əlçatmaz olan dənizlərarxası ərazilərdə imkanlara sahib idi.

Bu üçlü kənarlaşma onun güc resursları ilə birləşib Böyük Britaniyanın tarazlığın "təminedicisi" rolunu oynamasını təmin etdi. Bu üç aspektin heç birinə görə Avropa dövlətləri münaqişə mərkəzlərindən uzaq deyil. Tam əksinə, onlar bütün aspektlərə görə bu münaqişələrlə dərin şəkildə əlaqəlidir. Çünki onlar ABŞ və Sovet İttifaqı arasındakı mübarizədə eyni zamanda həm döyüş meydanı, həm də

[1] *The New York Times*, July 29, 1946, səh. 1; müqayisə et: son çıxışlar, yenə orada, June 30, 1947, səh. 1; July 10, 1947, səh. 3; mətbuat konfransı, July 23, 1964; və Strasburqda müraciət, November 22, 1964.

qələbənin mükafatıdır. Onlar daim və əhəmiyyətli dərəcədə bu və digər tərəfin qələbəsində maraqlıdır. Onlar həm də vacib siyasi maraqlarını Avropa qitəsindən kənarda hər hansı bir yerdə təmin etməyə cəhd etmək imkanına sahib deyil. Bu səbəblərdən Avropa dövlətləri həmin kənarlılıq və manevr azadlığından faydalana bilmədi və bunsuz nə öhdəliklərdən azad müşahidəçi, nə də qüvvələr tarazlığının "tənzimləyicisi" kimi "üçüncü qüvvə" mövcud ola bilməz.

MÜSTƏMLƏKƏ SƏRHƏDİNİN YOX OLMASI

Burada biz qüvvələr tarazlığının strukturunda üçüncü bir dəyişiklikdən, daha dəqiq desək, müstəmləkə sərhədinin yox olmasından söhbət açırıq. Qüvvələr tarazlığı klassik mərhələsində göstərdiyi yumşaldıcı və məhdudlaşdırıcı təsirinə görə yalnız içində fəaliyyət göstərdiyi mənəvi mühitə və öz mexanizmlərinə deyil, həmçinin böyük ölçüdə onda iştirak edən dövlətlərin onlara məxsus bütün qüvvələrini bir-biri ilə apardıqları hərbi və siyasi mübarizələrə yönəltməyə nadir hallarda ehtiyac duymasından irəli gələn şəraitə borcludur. Bu mərhələdə dövlətlər gücə ərazilər əldə etmək yolu ilə can atırdı; o zaman ərazi milli gücün rəmzi və mahiyyəti hesab olunurdu. Güclü bir qonşunun ərazisini əlindən almaq güc əldə etməyin üsulu idi. Lakin bu məqsədə nail olmaq üçün daha az riskli bir imkan var idi. Bu imkan üç qitənin geniş ekspansiyaları ilə mümkün idi: Afrika, Amerika və Asiyanın Şərq okeanları ilə sərhəd olan hissəsi.

Qüvvələr tarazlığının tarixi boyunca Böyük Britaniya bu imkanı öz gücünün və digər dövlətləri aramsız münaqişəyə çəkən məsələlər ilə əlaqəsizliyinin əsas mənbəyi hesab edib. İspaniya bu imkanı ələ keçirmək üçün öz gücünü səmərəsiz yerə sərf etdi və bununla da güc uğrunda mübarizədə hesablaşılmalı qüvvə kimi sıradan çıxdı. Böyük Britaniya və İspaniya üçün dəyişməz və əsas maraq olan digər dövlətlərin fəaliyyətini daha az, yaxud yalnız ayrı-ayrı hallarda cəlb edirdi. XVIII əsrdə Fransanın siyasəti müstəmləkə ekspansiyasının və imperialist hücumların mövcud qüvvələr tarazlığına əks-təsirinin ibrətamiz nümunələrini təqdim edir; Fransa imperializmi nə qədər kəskin idisə, Fransa müstəmləkə ekspansiyasına bir o qədər az diqqət yetirirdi və əksinə. ABŞ və Rusiya tarixlərinin böyük bir mərhələsində öz sərhədlərini yerləşdikləri qitənin siyasi cəhətdən boş olan ərazilərinə doğru itələmək vəzifəsini yerinə yetirməklə məşğul olmuşdur və həmin dövrlər ərzində onlar qüvvələr tarazlığında çox da fəal iştirak etməyib. Avstriya monarxiyası xüsusilə XIX əsrdə Mərkəzi və Cənub-Şərqi Avropanın inadcıl qeyri-alman xalqları üzərində nəzarəti qoruyub saxlamaqla olduqca çox məşğul olub və bu onun imperiyasının böyük hissəsinə güc siyasətinə

məhdud ekskursiyadan daha çoxuna qadir olmaq görüntüsü verib. Bundan əlavə, XVIII əsrin sonuna qədər türk təcavüzü təhlükəsi Avstriyanın beynəlxalq siyasətin şahmat taxtasında gediş azadlığını məhdudlaşdırdı. Nəhayət, Prussiya böyük dövlətlər dairəsinə sonuncu qoşulan dövlət olaraq böyük dövlət kimi öz mövqeyinin müdafiəsini və möhkəmləndirilməsini təmin etməli idi. Bundan başqa, hüdudu olmayan ekspansiya proqramı düşünmək üçün o, daxilən olduqca zəif və coğrafi mövqeyi isə olduqca əlverişsiz idi. Hətta Bismark Prussiyanın gücünü Almaniyada, Almaniyanın gücünü isə Avropada üstün etdikdən sonra onun siyasətinin məqsədi artıq həmin gücün genişləndirilməsi deyil, qorunub saxlanması oldu.

1870 və 1914-cü illər arasındakı dövrdə Avropada status-kvonun sabitliyi bir tərəfdən böyük dövlətlərin özlərinin sərhədlərdə hətta ən kiçik hərəkətində gizlənən təhlükələrin, digər tərəfdən ümumi toqquşma təhlükəsi doğurmadan hüdudlarda yerləşən regionlarda status-kvonu dəyişmək imkanının birbaşa nəticəsi idi. Arnold Toynbi aşağıdakı kimi müşahidə etmişdi:

"[Qüvvələr tarazlığını təşkil edən dövlətlər qrupunun] mərkəzində hər bir dövlətin öz genişlənməsi üçün etdiyi hər hərəkət bütün qonşular tərəfindən qısqanclıqla müşayiət olunur və məharətlə qarşı çıxılır və bir neçə kv. metr ərazi və bir neçə yüz "can" üzərində suverenlik ən acı və ən inadcıl mübahisələrin obyektinə çevrilir... Əyalətin rahat şərtlərində ən kiçik siyasi istedad çox vaxt möcüzələr yarada bilir... Fransa, yaxud Almaniyanın ən mükəmməl dövlətçilikləri etirazla qarşılanmadan Elzas, yaxud Pozenə sahibliyi əldə etmək üçün heç nə edə bilmədikləri bir zamanda ABŞ-ın ağalığı Atlantik okeanından Sakit okeana qədər Şimali Amerika boyunca, Rusiyanın ağalığı isə Baltik dənizindən Sakit okeana qədər Asiya boyunca hiss olunmadan yayıla bilir".[1]

1870-ci ildə Almaniyanın birləşməsiylə böyük milli dövlətlərin birləşməsi prosesi başa çatdı və bu vaxtdan etibarən Avropada ərazi əldəetmələri yalnız böyük dövlətlər və onların müttəfiqləri hesabına baş verə bilərdi. Bundan sonra, 40 ildən çox bir müddətdə dünya siyasətinin böyük məsələləri Misir, Tunis, Mərakeş, Konqo və Cənubi Afrika kimi Afrika ölkələri və Asiyanın taqətdən düşmüş imperiyaları olan Çin və İran ilə bağlı oldu. Bu məsələlərin nəticəsi olaraq lokal müharibələr baş verdi: Böyük Britaniya və bur respublikaları arasında 1899-1902-ci illər ingilis-bur müharibələri, 1904-1905-ci illər rus-yapon müharibələri və 1877, 1911-1912-ci illərdə müvafiq olaraq Rusiya-Türkiyə və İtaliya-Türkiyə müharibələri. Lakin qeyd olunmalıdır ki, böyük dövlətlərdən biri "əyalət" dövləti adlana bilən, ya böyük dövlətin ekspansiyasının təyin olunmuş

[1] Arnold Toynbee, *A Study of History* (London, New York, Toronto: Oxford University Press, 1934), Vol. III, səh. 302. (Naşirin icazəsi ilə təkrar dərc edilmişdir)

obyekti, ya da Yaponiya kimi müstəsna hallarda kənar rəqib olan dövlətə qarşı döyüşürdü. Heç bir halda böyük dövlətin Afrika və Asiyanın siyasi cəhətdən boş olan ərazilərində genişlənmək üçün digər böyük bir dövlətə qarşı silaha əl atmasına zərurət olmadı.

Kompensasiyalar siyasəti burada maksimum uğur ilə fəaliyyət göstərə bildi, çünki siyasi baxımdan heç kimin olmayan ərazilər o qədər çox idi ki, həm özünün ələ keçirməsi, həm də digərlərinə bunu icazə vermək mümkün idi. Hər zaman öz həyati maraqlarını güzəştə getmədən başqaları üçün güzəştlər etmək, öz simasını qoruyaraq geri çəkilmək, kənara çəkilmək və təxirə salmaq imkanı var idi. Odur ki 1870-ci ildən 1914-cü ilə qədər olan dövr diplomatik sövdələşmələr və başqalarının torpaqlarını alıb-satmaq, təxirə salınmış münaqişələr və kənara qoyulmuş məsələlər dövrü idi və bu həmçinin böyük dövlətlər arasında aramsız davamlı sülh dövrü idi.

Həmin dövrün böyük məsələlərinin ən inadcılı və ən qəzəblisi hələ də böyük dövlətlərin dairəsinin hüdudlarında yerləşdiyi halda, coğrafi cəhətdən ona daha yaxın idi və həmin dövrün istənilən böyük məsələsindən daha çox həmin dairə daxilində siyasi və hərbi qüvvələrin bölgüsünə birbaşa təsir edirdi. Həmin məsələ (həmçinin Şərq, yaxud Balkan məsələsi də adlanırdı) türk imperiyasının Avropa hissəsinin mirasını necə bölüşdürmək məsələsi idi.

Bu məsələ Birinci Dünya müharibəsini alovlandırdı. Balkan məsələsi həmin dövrün istənilən digər məsələsindən daha çox böyük dövlətlər arasında açıq münaqişəyə aparan məsələ oldu – xüsusilə ona görə ki həmin dövlətlərdən biri olan Avstriyanın çox vacib maraqları Serbiyanın milli istəkləri tərəfindən birbaşa olaraq zərər görürdü. Bununla belə, bu nəticənin qaçılmaz olmadığı şübhəlidir. Hətta həqiqətə uyğun şəkildə iddia etmək olar ki, əgər digər böyük dövlətlər, xüsusilə Almaniya 1914-cü ildə Balkan məsələsi ilə 1878-ci ildə Berlin konfransı zamanı uğurla etdikləri kimi – yəni onun ikinci dərəcəli olmaq xüsusiyyətini qəbul edərək – əlaqədar olsaydı, Birinci Dünya müharibəsindən qaçmaq mümkün olardı.

Bismark 1876-cı ildə[1] bəyan edəndə ki, Almaniyanın maraqlarından çıxış etsək, Balkanlar bizim üçün heç bir əhəmiyyət kəsb etmir, o, Balkan məsələsinin Almaniyanın siyasi və hərbi maraqlarına münasibətdə ikinci dərəcəli olmasını qətiyyətlə təsdiqlədi. Almaniya hökuməti 1914-cü ildə Avstriyanı Serbiyaya qarşı atacağı istənilən addımda dəstəkləyəcəyinə dair söz verdikdə Bismarkın mövqeyinə tam əks mövqe tutdu və bunu heç bir əsaslı səbəb olmadan etdi. Almaniya Avstriyanın Serbiyanın taqətdən salınması ilə əlaqədar marağına sanki öz marağı imiş kimi ortaq olduğu zaman Rusiya da Serbiyanın öz müstəqilliyini qorumaq

[1] Alman Reyxstaqının 5 dekabr 1876-cı ildə keçirilmiş iclasında

marağına ortaq oldu. Beləliklə, Avropa dövlət sistemi üçün ikinci dərəcəli olan bir münaqişə həmin sistem daxilində qüvvələrin bölgüsünə xələl gətirmək təhlükəsi yaradan bir mübarizəyə çevrildi.

Öz vacib maraqları ilə sövdələşmək məcburiyyəti yaranmasa da, sövdələşmənin özü qeyri-mümkün oldu. Artıq başqa birinin hesabına güzəştlər edilə bilməzdi, çünki öz marağını daha kiçik əlaqədar bir dövlətin marağına ortaq etmək açıq şəkildə başqasının hesabına güzəştləri öz hesabına güzəştlərə çevirmişdi. Münaqişə təxirə salına bilmirdi, çünki, gördüyümüz kimi, böyük dövlətlərin əksəriyyəti ehtiyat edirdi ki, qaçılmaz hesab olunan silahlı münaqişə digər tərəfi gücləndirər. Çünki əgər məsələlər əyalətdən böyük dövlətlərin dairəsinin mərkəzinə daşınmışdısa, onlardan yan keçməyin heç bir yolu yox idi; sanki məsələdən qaçmaq üçün ayaq qoyacaq boş ərazi yox idi. Rusiya Serbiya məsələsini Avstriyanın şərtlərinə uyğun həll etməyə çalışanda Avstriya-Almaniya ittifaqının bu məsələyə eyni mövqedən yanaşması faktı ilə üzləşməli oldu. Nəticədə Fransa Rusiya tərəfindən Fransa-Rusiya ittifaqının yaradılması təşəbbüsü, Almaniya həmin ittifaqın aktivləşməsi və Böyük Britaniya isə Belçika təhlükəsi ilə üzləşməli oldu. Dövlətin həyati maraqları hesab etdiyini güzəştə getməkdən başqa, bu məsələlərdən yan keçməyin heç bir yolu yox idi.

1914-cü ilin iyulunda ən azından məharətsiz şəkildə yürüdülən diplomatiya tərəfindən baş verənlər bu gün qüvvələr tarazlığında struktur dəyişikliklərinin qaçılmaz nəticəsinə çevrilib. Birinci Dünya müharibəsindən əvvəlki mərhələdə böyük dövlətlər üçün düşmənçiliklərini öz ortaq sərhədlərindən əyalətə və siyasi cəhətdən boş olan ərazilərə daşımaq mümkün idi. Çünki, gördüyümüz kimi, faktiki olaraq qüvvələr tarazlığının bütün fəal iştirakçıları Avropa dövlətləri idi və bundan əlavə, tarazlığın əsas ağırlıqları Avropada yerləşirdi. Həmin mərhələdə siyasi baxımdan boş ərazilərin olduğunu söyləmək qüvvələr tarazlığının kəmiyyət və keyfiyyət baxımından coğrafi hüdudlar ilə məhdudlaşdığını söyləməyin, sadəcə, əks formasıdır. Bu gün əsas ağırlıqları 3 müxtəlif qitədə olan qüvvələr tarazlığı ümumdünya forması alıb, bir tərəfdə böyük dövlətlərin dairəsi və onun mərkəzi, digər tərəfdə isə əyalət və kənarda yerləşən boş ərazilər olmaqla aradakı haçalanma labüddən yox olmalıdır. İndi qüvvələr tarazlığının əhatə dairəsi dünyanın hüdudları ilə üst-üstə düşür.

Müstəmləkə inqilabı

Beləliklə, əvvəllər dünya siyasətinin ikinci dərəcəli məsələsi olan indi onun mərkəzlərindən birinə – əraziyə və insanların düşüncəsinə nəzarətdən çıxış edərək iki superdövlət arasında aparılan mübarizədə əsas təhlükələrdən birinə çevrilir. Bu dəyişikliyə iki amil səbəb olur: dünyanın müstəmləkə və yarımmüstəmləkə

ölkələrinin əvvəlki ağalarına qarşı inqilabı və ikiqütblü sistemə xas olan ikibloklu sistemə çevrilmə tendensiyası.

Müstəmləkə sərhədinin yox olması – yəni müstəmləkə ekspansiyasının başa çatması – dərhal müstəmləkə ekspansiyasının obyektlərinin öz müstəqilliklərini geri qaytarmağa, ağ və rəngli irqlər arasında əlaqələrdə fundamental dəyişikliyə nail olmağa çalışdığı əks hərəkatlarla müşayiət olunur və böyük ölçüdə onunla üst-üstə düşür. Dalğanın ən hündür nöqtəsi okeanın qabaqdakı dalğasının son mərhələsi və özünün çəkilməsinin isə başlanğıc mərhələsi olduğu kimi, müstəmləkə ekspansiyasının başa çatması da müstəmləkəçiliyin özünün sonunun başlanğıcına işarə edir. Çünki böyük müstəmləkə dövlətləri ekspansiyalarının hüdudlarına çatanda həm də dünyada üstün güclərinin hüduduna çatmış oldu. Daha dəqiq desək, Avropa dövlətlərinin siyasi və hərbi tənəzzülü müstəmləkə inqilabının səbəbi və daha sonra isə, əsasən, nəticəsi oldu.

Əgər müstəmləkə sərhədlərinin yox olması prosesi Avropanın dünyanın güc mərkəzi kimi tənəzzülü ilə üst-üstə düşməsəydi, bu gün müstəmləkə inqilabı kimi dünya tarixinin böyük dönüş nöqtələrindən birinə çevrilmiş hadisə keçmişə nəzər saldıqda özündən əvvəl əksər baş verənlərə oxşar olaraq uğursuz olmuş müstəmləkə üsyanları silsiləsi kimi görünərdi. Lakin aparıcı Avropa dövlətlərinin II Dünya müharibəsinin sonunda Yaponiya tərəfindən məğlubiyyətə uğradılması ilə açıq-aşkar tənəzzülə başlaması müstəmləkə inqilablarını doğurdu və ya onu uğurlu etdi, ya da yaxın gələcəkdə uğurunu qaçılmaz etdi. Beləliklə, II Dünya müharibəsinin sonunda ağlagəlməz olan yalnız 20 il sonra real bir fakta çevrildi: Böyük Britaniyanın Birma, Seylon, Hindistan, Pakistan, Malayya, Sinqapur və Misirdən könüllü şəkildə geri çəkilməsi və İran, İraq və İordaniyadan qovulması; Niderlandın İndoneziyadan məcburi şəkildə geri çəkilməsi; Fransanın Hind-Çindən qovulması; Belçika, Britaniya, Fransa və Portuqaliya imperiyalarının Afrikada müstəqil dövlətlərə parçalanması.

Keçmişə nəzər saldıqda görmək olar ki, II Dünya müharibəsinin nəticəsində baş vermiş bu müstəmləkə inqilabı XVIII əsrdə Böyük Britaniyaya qarşı Amerika inqilabı ilə başlamış, Latın Amerikasının İspaniya və Portuqaliyaya qarşı və XIX əsrin başlanğıcında Türkiyənin Avropa mülklərinin ona qarşı inqilabları ilə davam etmiş və Birinci Dünya müharibəsindən sonra Avstriya-Macarıstan imperiyasının, Rusiya imperiyasının Avropa hissəsinin və Türkiyənin ərəb komponentlərinin parçalanması ilə irəliyə doğru böyük bir addım atmış müstəmləkə sisteminin dağılması prosesinin son mərhələsi, eləcə də kulminasiyası idi. Müstəmləkə inqilabının Avropanın zəifliyindən doğan sonuncu fazası öz növbəsində Avropanı daha da zəiflətdi. Müasir dövr ərzində Avropanın siyasi üstünlüyü, əsasən, onun rəngli irqlər üzərində üstünlüyünün nəticəsi idi. Avropaya dünya üzərində hökmranlığı

ələ keçirmək və onu əlində saxlamaq imkanı verən Avropanın ağ insanları ilə Afrika və Asiyanın rəngli insanları arasındakı texnoloji, iqtisadi və hərbi baxımdan fərqlilik idi. Bu fərqin aradan qalxması Avropa dövlətlərinin saylarında, ərazidə və təbii ehtiyatlarda çatışmazlıqlarının yerini doldurmaq üçün əl ata biləcəyi hərbi, iqtisadi və siyasi gücün əsas mənbəyini qurutdu.

Lakin Avropanın gücünün tənəzzülü müstəmləkə inqilabına müvəffəqiyyət əldə etmək şansı versə də, ona təkan vermədi. Bütün həqiqi inqilablar kimi, müstəmləkə inqilabı da verilmiş şəraitdə dünyaya mənəvi çağırışdan atıldı. Bu, xüsusilə onun mükəmməl təzahürü olan Asiya inqilabı baxımından həqiqətdir.

Asiyadan qaynaqlanan mənəvi çağırış mahiyyətinə görə Qərbin mənəvi ideyalarının qələbəsidir. Bu, iki mənəvi prinsipin bayrağı altında irəli aparılır: milli öz müqəddəratını təyinetmə və sosial ədalət. Bunlar bir əsrdən çox müddətdə Qərbdə daxili və beynəlxalq siyasətə bələdçilik etmiş, yaxud da ən azından siyasi fəaliyyətin əsaslandırılması üçün istifadə edilmiş ideyalardır.

İstilalarının nəticəsində Qərb Asiyaya yalnız öz texnologiyası və siyasi institutlarını deyil, həm də siyasi əxlaq prinsiplərini gətirdi. Qərb dövlətləri öz təcrübələri əsasında Asiyanın xalqlarına öyrətdi ki, fərdin bacarıqlarının tam inkişafı onun mənsub olduğu xalqın azad iradəsi ilə öz siyasi və mədəni müqəddəratını təyin etmək bacarığından asılıdır və bu milli azadlıq uğrunda mübarizə aparmağa dəyər; və Asiya əhalisi bu dərsi öyrəndi. Qərb Asiya əhalisinə həm də onu öyrətdi ki, yoxsulluq və səfalət Allahdan gələn, insanın passiv şəkildə qəbul etməli olduğu fəlakət deyil, onlar insanın fəaliyyətinin nəticəsidir və insan tərəfindən aradan qaldırıla bilər; Asiyanın xalqlarının əksəriyyəti bu dərsi də öyrəndi. Asiyanın bu gün Qərbin öz mənəvi meyarları ilə onun siyasi və iqtisadi siyasətini pisləməsi və onlara qarşı qiyam etdiyi zaman əsaslandığı prinsiplər milli öz müqəddəratını təyinetmə və sosial ədalət prinsipləridir.

QƏRBİN TƏNƏZZÜLÜ

Qərbin tənəzzülü ilə yaranan indiki narahatlıq həm də Amerikanın gücünün açıq-aşkar tənəzzülünün nəticəsidir. ABŞ siyasətinin Hind-Çində yaşadığı məğlubiyyət yalnız total deyildi, həm də rüsvayçı idi. Hətta Amerika sahillərindən 7 min mil (1 mil = 1,60934 km – red.) uzaqda məğlubiyyət qaçılmaz olaraq proqnozlaşdırılmalı olsa da, Amerikanın çox kiçik olsa da, soyuqqanlılıqla müdafiə üçün yararsız mövqedən geri çəkilə bilməməsi ilə bağlı heç nə yox idi. Amerikanın tənəzzülü ilə bağlı təbii narahatlıq onunla Qərbin ümumi tənəzzülü arasında əlaqəyə kölgə salır. Bu, xüsusilə ABŞ-ın İkinci Dünya müharibəsindən sonrakı

üstünlüyə yüksəlmək üçün bu gün əsas nümunəsi olduğu Qərbin həmin tənəzzülünə borclu olması faktına kölgə salır. Başqa sözlə, Qərbin tənəzzülü Qərbi Avropanın ənənəvi milli dövlətlərinin tənəzzülünün davamı idi və bu prosesdən ən çox faydalanan ABŞ oldu.

İkinci Dünya müharibəsinin nəticəsi ya tamamilə, ya da, əsasən, Avropadan kənarda yerləşən dövlətlər tərəfindən təyin olundu. ABŞ-ın, bütün digər döyüşən tərəflərin sisteminin əksinə olaraq, zərər görməmiş, həmçinin müharibə tərəfindən yüksək dərəcədə stimullaşdırılmış maddi istehsalı və texniki ixtiraçılığı qələbə və yenidənqurmanın həlledici amili idi. Beləliklə, Qərbin ənənəvi milli dövlətinin tənəzzülü ilə ABŞ-ın ağalığı arasındakı əlaqə – bunların hər ikisi iki dünya müharibəsinin nəticəsi idi – Qərbin tənəzzülü kontekstində ABŞ-ın yüksəlişini izah edir.

Qərbin ənənəvi milli dövləti ilə ABŞ arasında oxşar yerdəyişmə mənəvi müstəvidə də müşahidə oluna bilər. Birinci Dünya müharibəsi ənənəvi mənəvi nizamda iki çağırışı irəli çıxardı: kommunizm və faşizm. Seçim ilə üz-üzə qalan hakim elitanın böyük hissəsi kommunizmə qarşı müdafiə və hətta radikal islahat kimi faşizmi seçdi. Hətta düşmənin üzünə qapıları açmağa bərabər olsa da, onlar faşizmi seçdilər. "Hitler Blumdan yaxşıdır" – bu, fransız sağçıların şüarı, Vişi rejimi isə bu mənəvi seçimin siyasi təzahürü oldu.

ABŞ heç vaxt faşizm ilə kommunizm arasında seçim etmək məcburiyyətində olmayıb, çünki Amerika demokratiyası hər iki təhlükədən hər zaman uzaq olub – baxmayaraq ki, makkartizmin yayılması müvəqqəti olaraq kommunizmi Amerika üçün ölkə daxilində və xaricində əsas təhlükəyə çevirmişdi. Beləliklə, Qərbi Avropa dövlətləri demokratiya ilə iki totalitarizm arasında mübarizədə milli parçalanma riskini yaşadığı halda, Amerika iki xarici düşmənə – birinci faşizm totalitarizminə, daha sonra kommunizmə qarşı – birləşmiş milli cəbhə nümayiş etdirə bildi. Dövlət katibi Con Foster Dallesin dünyanı xoşniyyətli dövlətlər, pisniyyətli dövlətlər və mənəvi cəhətdən korlanmış bitərəf dövlətlərə bölən sadələşdirici mənəvi mövqeyi "soyuq müharibə"nin siyasi və hərbi qarşıdurmasını mənəvi müstəvidə ifadə etdi. Beləliklə, ABŞ həm siyasi qüvvənin real bölgüsü, həm də "azad dünya"nın düşmənlərə münasibətdə tutmağı özünə rəva görə bildiyi sadə mənəvi mövqeyə görə "azad dünyanın lideri"nə çevrildi. ABŞ-ın yalnız "azad dünya"da deyil, həmçinin geniş dünyada zahirən danılmaz liderliyə bu yüksəlişi kollektiv surətdə Qərb dünyası adlanan siyasi coğrafiyanın real tənəzzülünün və ABŞ-ın özünün daxilində vəziyyətin pisləşməsinə doğru meyillərin üstünü effektiv şəkildə örtdü. Qərbin tənəzzülü və çaxnaşması Reyqan administrasiyasının, çox vaxt artıq zəifləmiş Şimali Atlantika Birliyinin birləşməsinə münasibət göstərmədən sovet kommunizminin "bədnam imperiyası"na qarşı apardığı ideoloji kampaniyada təzahür etdi.

ABŞ-ın mənəvi gücünü zəiflədən milli maraq ilə sinif marağı arasındakı ziddiyyət (Avropada olduğu kimi) deyil, bir tərəfdən mürəkkəb siyasi məsələlərin kommunizm ilə adi mənəvi tutuşdurma səviyyəsinə qədər kiçildilməsi və digər tərəfdən daxildə və xaricdə onun mənəvi səfehliyinin dərin təsir bağışlayan nümayişləri idi. İkinci Dünya müharibəsinin nəticəsində Qərbi Avropa dövlətlərinin həm bir təhlükə, həm də bir etiraz kimi qarşı-qarşıya qaldığı Reyn çayından 100 kilometr şərqdə Qırmızı Ordunun hərbi mövcudluğu, onların sərhədləri daxilində böyük kommunist partiyalarının və üzərində kommunizmin çiçəkləndiyi fikir ayrılıqları yaradan və onları müdafiə edən siyasi, iqtisadi və sosial strukturların və siyasətlərin siyasi mövcudluğu idi.

Sadələşdirici amerikan antikommunizmi sovet hərbi təhlükəsinə qarşı çəkindirmə siyasəti vasitəsilə qarşı çıxmaq üçün müvafiq idi. Lakin Amerikanın Qərbin demokratik ölkələrində həyata keçirdiyi əks-təxribatçı proqramlar yalnız ümumiyyətlə səmərəsiz olmadı, həm də əks-səmərəli oldu. Amerika məxfi xidmətinin əks-təxribatçı texniklərinin anlamaqda çətinlik çəkdikləri bu idi ki, kommunizmin Qərb xalqlarının çoxu üzərində sahib olduğu hökm müstəsna olaraq xarici kommunist hökumətlərinin fitnələrinin deyil, xaricdən gətirilən – lakin yaradılmayan – yerli şəraitlərin nəticəsi idi. Beləliklə, ehkamçı antikommunizm üzərinə qoyulan sərt ideoloji öhdəlik mürəkkəb reallığı yaxşı və pis arasında sadə tutuşdurma səviyyəsinə qədər kiçildərək fəlsəfi və tarixi zəminlərdə yararsız hesab olunmuşdur – burada heç nə siyasi və mənəvi fəlakətdən əskik deyil.

Əsasən, inqilabi və inqilab ərəfəsində olan dünyada uğursuzluğa düçar olmasa da, etibarsız olan status-kvoya məhkum edilmiş ABŞ elə öz öhdəliyinin məntiqi ilə antaqonist ritorikası arzu olunan heç nə buraxmayan və kommunizm ilə ədalətli, yaxud çirkin olmasından asılı olmayaraq, bütün üsullarla mübarizə aparmağı arzu edən hökumət formasını dəstəkləməyə və qurmağa məcbur edildi. Belə olduqda ABŞ özünü dünyada siyasi fəlsəfəsi və təcrübəsi Amerikanın hökumət prinsiplərinə zidd olan hökumətlər tərəfindən dəstəklənən və həmin hökumətləri dəstəkləyən bir vəziyyətdə gördü. "Azad dünya"nın kommunizmdən müdafiəsi Amerika xarici siyasətinin istər Avropa, istər Asiya, istərsə də Mərkəzi Amerikada əsas məqsədinə çevrildi. Onun adı, yaxud ləqəbi ilə hökumət nəzəriyyəsi və təcrübəsinin, adətən, mühakimə edilmiş olduğu mənəvi meyarlara əhəmiyyət verməyən milli təhlükəsizlik siyasətləri yürüdüldü və pozuntular həyata keçirildi.

Amerikanın mənəvi və siyasi antikommunizm öhdəliyi yalnız o yerlərdə uğur qazanırdı ki, orada ABŞ-ın hərbi və iqtisadi gücü səmərəli şəkildə dövriyyəyə daxil edilirdi. Sadəcə, onun mənəvi qüvvəsinə müraciət edildikdə o, uğursuzluğa uğrayırdı. Paradoksal olaraq, o ona görə uğursuzluğa uğramırdı ki, azadlığı təhlükə altında olan xalqlar onun ismarıcına qulaq asmaq istəmirdi, ona görə uğursuzluğa

uğrayırdı ki, ismarışın daşıyıcısı olan Amerika ona necə haqq qazandırmaq lazım olduğunu bilmirdi. Kommunizm xofu azadlığın yoluna sədd çəkmişdi. Avropanın müstəmləkəçi dövlətləri ilə onların müstəmləkələri arasında mübarizədə ABŞ çox vaxt birincilərin tərəfini tuturdu, ona görə yox ki o, müstəmləkəçiliyin lehinə idi, ona görə ki o qorxurdu ki, kommunizm müstəmləkəçiliyin alternativi ola bilərdi. Azadlığın müdafiəçisi müstəmləkə status-kvosunun müdafiəçisi və bərpaçısına çevrildi. O, müstəmləkə dövlətləri ilə birlikdə hərəkət edərək, onlarla müstəmləkəçiliyin mənəvi xislətini bölüşdü. Beləliklə, Amerika onu bütün digər dövlətlərdən ayırdığını düşündüyü özünəməxsus mənəvi auranı itirdi.

Lakin Amerikanın kommunizmə, kommunizm kimi görünən ideologiyaya ayrıseçkilik qoymayan ehkamçı müxalifliyi onu qüvvələri status-kvo ilə birləşdirməyə vadar edərkən onun libertarianlığı və antimüstəmləkəçi ənənəsi onda "üçüncü dünya"nın istəklərinə rəğbət doğurdu. Həmin dünya öz vəziyyətinin şəklini özünə qulluq göstərən və öz əvvəlki ağalarına və bütünlükdə sənaye dövlətlərini hörmətdən salan formada çəkmişdi. Onun səfaləti və uğursuzluğu onların yanlışını düzəltmək üçün mənəvi öhdəlik daşıyan inkişaf etmiş dövlətlərin məsuliyyəti kimi təqdim olunurdu. "Üçüncü dünya"nın "xoşniyyətli" üzvləri ilə "pisniyyətli" müstəmləkə istismarçıları arasında bu mənəvi haçalanma Amerikada "xoşniyyətli" demokratik kapitalistlər ilə "pisniyyətli" kommunistlər arasında haçalanma yaratdı. Çünki "azad dünya"nın əksər dövlətləri kommunizmin bu və digər növünə – yaxud ən azından "kommunizm", yaxud "sosializm" adı daşıyan avtoritarizmin hər hansı növünə – rəğbət bəsləyir.

Bu halda mənəvi müstəvidə baş verənlər güc səhnəsində baş verənlərə əks idi. Sonuncuda ABŞ öz müttəfiqləri hesabına fayda götürdü. Birincidə isə onların pis nüfuzundan yararlandı. Danılmaz gücün doğurduğu narazılığı nəzərə alsaq, ABŞ-ın misilsiz gücünün gücdən xeyirxah məqsədlərlə istifadə reputasiyası ilə uyğun gəlməməsi, yəqin ki təəccüblü deyil. Həmin uyğunsuzluq Amerikanın tutduğu mənəvi mövqeyin itirilməsinə səbəb oldu. "Üçüncü dünya" ABŞ-a dostları tərəfindən əbədiləşdirilən müstəmləkəçiliyi, irqçiliyi və istismarçılığı haqqında, adətən, mübahisə etməsiylə bağlı oxşar arqumentlərlə hücum edirdi. Ənənəvi mənəvi çərçivəsi daxilində mübahisə edən ABŞ öz arqumentləri özünə tərəf çevriləndə cavab verə bilmirdi. O, incidilən və istismar ediləni bərabərlik və azadlıq naminə müdafiə edən kimi danışmışdı, indi isə öz hərəkətləri ilə antikommunizm naminə müstəmləkəçilik və istismarçılıq status-kvosunu müdafiə edirdi.

Düşmən tərəfindən digər tərəfin məqsədləri naminə mənəvi arqumentlərini doğuran bu mənəvi tərk-silah yenilik deyil; bu, 1938-ci ildə Çexoslovakiya böhranı zamanı Hitler tərəfindən məharətlə istifadə edilmişdir.[1]

[1] Bax: səh. 160.

Qərbin ənənəvi milli dövlətləri ilə birləşməsi faktiki olaraq təhdid olunan və mənəvi cəhətdən zəiflədilmiş ABŞ sonda maddi gücünün elə böyüklüyü ilə zəiflədilmiş vəziyyətə düşür. Nüvə dövrünün əsas paradokslarından biridir ki, bütün keçən tarixin təcrübəsinin əksinə olaraq, hərbi gücün çoxalması artıq mütləq şəkildə siyasi gücün çoxalmasına bərabər olmur.[1] Müasir texnologiyanın Qərb dövlətlərinin əlinə verdiyi misilsiz güc yalnız fövqəladə məhdud şərtlər altında faydalı olur. Həmin güc bütün mümkün və real şərtlər altında boş təhdiddir və maddi gücünə görə geri qalan dövlətlər tərəfindən həvəslə rədd olunur. Beləliklə, real olaraq əhəmiyyət kəsb edən güc əksinə olan bir neçə fövqəladə istisnaya rəğmən adi ənənəvi gücdür və burada ABŞ və Qərb dövlətləri ilə qeyri-Qərb dövlətləri arasındakı boşluq nüvə silahının tərəzinin gözlərinə qoyulması ilə yaranan fərq qədər böyükdür. Nəticədə Qərbin adi gücü ilə qeyri-Qərb dövlətlərin adi gücünü müqayisə etdikdə Qərb dövlətlərinin əvvəllər göründüyündən daha az güclü olduğunu görürük. Bu təəssürat Qərb dövlətlərinin uğur ehtimalı ilə adından adi gücü istifadə etmək istəyə biləcəkləri mənəvi prinsipləri nəzərdən keçirən zaman daha da güclənir. ABŞ-ın Hind-Çində məğlubiyyəti Qərbin gücünün həm maddi, həm də mənəvi tənəzzülünü açıq şəkildə göstərir.

Qərbin maddi və mənəvi tənəzzülünün böyük ölçüdə onun maddi və mənəvi qələbələrinin vasitəsilə həyata keçməsi müasir tarixin böyük istehzalarından biridir. "Üçüncü dünya" Qərbin elan etmiş olduğu və həyata keçirməyə cəhd etdiyi öz müqəddəratını təyinetmə və sosial ədalət prinsiplərini irəli sürərək Qərbin boyunduruğundan canını qurtardı. Bu prosesdə milli öz müqəddəratını təyinetmənin yeni imperializmin ideologiyasına və sosial ədalətin yeni və köhnə köləliklərin ideoloji pərdələnməsinə çevrilməli olduğu gözlənilməli idi. Qərbin mənəvi yorğunluğunun göstəricisi düşmənlərə və iftiraçılara qarşı öz mövqelərini və maraqlarını əsaslandırmaq üçün onun mənəvi prinsipləri şərtləndirmək bacarığının olmaması idi.

Qərbin mənəvi prinsiplərinin onun düşmənləri tərəfindən istifadəsi ilə mübarizə aparmalı olduğu zamanlardakı bu mənəvi köməksizliyi – bu özünü 1938-ci il Çexoslovakiya böhranı zamanı aydın şəkildə göstərdi – onun fəaliyyətdəki zəifliyinin əsas mənbələrindən biridir. Bu zəifliyi ayrıca bir epizodda çıxış edən ayrıca bir nəfər ilə müəyyən etmək və bununla da xarici siyasətdə "Münhenin ruhu"nu Qərbin mənəvi münasibətindən təcrid etmək asan və rahatdır. Xarici siyasətdə əvəzinə düşməni barışmaz şəkildə çəkindirməyə arxalanaraq, istənilən növ razılaşma və güzəştin "barışıq yolu" kimi əhəmiyyətini azaltmaq eyni dərəcədə asan və rahatdır. Bu fəaliyyətə istiqamət verə bilən inandırıcı mənəvi meyarların

[1] Bax: səh. 67-68, 190.

olmaması dövlət adamının ya mənəvi məsələni ümumiyyətlə inkar etməsi, ya da onu uyğunsuzluq dərəcəsinə qədər universallaşdırması ilə nəticələnir.

Gördüyümüz kimi, Qərb maddi müstəvidə neftin siyasi silah kimi istifadəsi qarşısında həssaslaşıb.[1] Qərbin yüksək inkişaf etmiş sənaye dövlətlərinin bu həssaslığı onların sənaye sahəsində əldə etdikləri irəliləyişin vəzifəsidir. Gücün neft istehlak edən ölkələrdən neft istehsal edən ölkələrə keçməsi birincilərin sənaye gücünün özü ilə gətirdiyi nəticədir. Sənaye inkişafı qabaqcıl və geri qalmış dövlətlər arasında boşluğu birincilərin xeyrinə genişləndirdi, lakin ikincilərin bəzilərini yeni bir silah ilə təchiz etdi: neft üzərində yarıminhisarçılıq. İstehzalı şəkildə bu həm də bəzi geri qalmış dövlətlərin digər geri qalmış dövlətlərə qarşı istifadə etmiş olduğu silah idi və bu, beynəlxalq siyasətin qeyri-mütəşəkkil təşkilinin nümunələrindəndir.

Həmin silah öldürücü ola bilər, lakin o, nüvə gücü ilə o mənada oxşarlıq təşkil edir ki, o, sırf dağıdıcıdır. Neft istehsal edən ölkə neft hasil edən ölkəni dizləri üstə gətirə bilər, lakin o, neft inhisarçılığı vasitəsilə ona ağalıq edə bilməz. Beləliklə, neft silahının qüdrəti Qərbin gücünün tənəzzülünü bariz şəkildə nümayiş etdirir. Lakin o həmin tənəzzül edən gücün əvəzedicisi kimi – dağıdıcılıq gücü istisna olmaqla – çıxış edə bilmir.

Qərbin mənəvi və maddi tənəzzülü müşahidə oluna bilən bir faktdır. Müşahidə edilməyən olan Qərbin tədricən yox olan nizamın yerini tuta bilmək üçün yaratdığı və müdafiə etdiyi nizam formasıdır. Yeni güc mərkəzi tərəfindən yaradılmış və dəstəklənmiş yeni nizamın konturlarının əvəzinə sivil dünyanın üfüqündə görünən dövrün obyektiv texnoloji şərtlərinə tamamilə uyğun gəlməyən hüquqi nizamlamalar, təsisatlar və prosedurlara malik anarxiyanın əlamətidir.

İKİQÜTBLÜ SİSTEMİN POTENSİAL İMKANLARI

Müstəmləkə inqilabı Afrika, Asiya və Latın Amerikasının dünyanın qalan hissəsi ilə mənəvi, hərbi və siyasi əlaqələrini əsaslı şəkildə dəyişmişdir. Müasir dünya siyasətinin ikiqütblülüyü nöqteyi-nəzərindən baxılarsa, o nə tamamilə, nə də həmişəlik olaraq kimsənin tərəfində olmayan, sanki insanın olmadığı bir mənəvi, hərbi siyasi ölkə yaratmışdı. Bu dövlətlər kommunizmə, yoxsa demokratiyaya qucaq açacaq: onlar siyasi və hərbi cəhətdən Moskva, Pekin, yoxsa Vaşinqtonun tərəfində olacaq? O zaman bu, dünyada heç bir tərəfə aid olmayan dövlətlərin iki superdövlətə göndərdikləri çağırışdır.

[1] Bax: səh. 181-182.

Sonuncu həmin çağırışı qəbul etməkdə yubanmadı, çünki ikiqütblü siyasi sistem ikibloklu sistemə çevrilməyə doğru qarşısıalınmaz bir tendensiya daşıyırdı. Keçmiş çoxqütblü sistemin elastikliyi və öz orbitlərinə möhkəm bağlanmış müttəfiqləri ilə iki superdövlət nüfuz, ərazi, əhali və təbii ehtiyatlar baxımından gücünü yalnız heç bir tərəfə aid olmayan dövlətləri öz tərəfinə çəkməklə artıra bilərdi. Onların elastikliyi o regionlarla məhdudlaşır ki, hələ ki bu və digər orbitə daimi olaraq qoşulmayıb, yaxud da yalnız hərbi işğal məcburiyyəti altında qoşulub. Bu halda superdövlətlər hələ də irəli gedə və geri çəkilə, sövdələşə və manevr edə bilər. Burada hələ də mənəvi, hərbi və siyasi işğal üçün imkanlar var. Əgər Sovet İttifaqı Hindistanı öz orbitinə çəkə bilsəydi, Şərq və Qərb arasındakı mübarizədə mühüm qələbə əldə etmiş olardı. Beləliklə, iki superdövlət öz mənəvi, iqtisadi, hərbi və siyasi güc ehtiyatlarını heç bir tərəfə aid olmayan ərazilərə yönəltdi və bununla həmin əraziləri dünyanın dörd bir yanında bir-biri ilə sərhəd olan və bir-birinə qarşı çıxan iki nəhəng bloka keçirməyə çalışdı.

Onun dağılması ehtimalı

Bununla belə, ikiqütblü sistemin ikibloklu sistemə çevrilməsini superdövlətlər üçün cazibədar edən həmin təsəvvürlər heç bir tərəfə mənsub olmayan dövlətlər və yaxud bu və ya digər bloka şəraitdən irəli gələn məcburiyyət ilə daxil olan dövlətlər və öz fəaliyyət azadlığını bərpa etmək istəyən dövlətlər üçün bunu nifrətdoğuran edir. Bir ehtimal kimi ikiqütblü sistemə xas olan bu çevrilməyə müxaliflik digər bir ehtimalı ortaya çıxarır.

Bu ünsürlər sistemində Asiya, xüsusən Çin inqilabı dünyanın qalan hissəsi üçün uzun vədədə ən ağır nəticələr doğura bilər. Bu məqamda əraziyə, təbii ehtiyatlara və böyük insan kütləsinə malik olan dövlətlər siyasi gücdən, müasir texnologiyadan və müasir mənəvi ideyalardan öz məqsədləri üçün istifadə etməyə başlayır. Bu günə qədər başqalarının siyasətinin obyekti olmuş 1 milyard yarımdan çox əhali, hələ Çinin 1 milyarda yaxın əhalisini nəzərə almırıq, indi dünya siyasətinə fəal iştirakçılar kimi daxil olub. Asanlıqla təxmin etmək olar ki, bu oyanmış kütlələr gec-tez son vaxtlara qədər Qərbin faktiki inhisarında olmuş müasir texnologiyanın alətlərinə, xüsusilə nüvə sahəsində tam sahib olacaq.

Hadisələrin qüvvələr bölgüsündə köklü dəyişikliyə bərabər olmuş belə inkişafı dünyanın gələcəyi üçün bu vaxta qədər adı çəkilmiş bütün digər amillərdən daha əhəmiyyətli ola bilər. Bu, indi dünya siyasətinə öz möhrünü qoyan, mərkəzləri Moskva və Vaşinqtonda yerləşən ikiqütblülüyün sonu demək ola bilər. Son nəticədə Sovet İttifaqı dünya kommunizminin artıq siyasi, texnoloji və mənəvi liderliyində tək deyil; rəqəmlər və güc potensialı baxımından dünyada aparıcı kommunist ölkəsi Sovet İttifaqı deyil, Çindir.

Uzun vədədə ikiqütblü sistemin dağılması ehtimalı da sistemin özünə xas olan bir ehtimal ilə irəli sürülür. Heç bir tərəfə mənsub olmayan, yaxud həvəssiz mənsub olan dövlətlərin iki siyasi qütbün – Moskva və Vaşinqtonun – cazibəsinə müqaviməti eyni istiqamətdə gedir: bacara bilsələr, bu cazibəni dəf etmək. Bu dövlətlər arasından nüvə silahı ilə silahlanmış müstəqil güc mərkəzlərinin yaradılması ikiqütblü sistemin özünün ölüm marşı kimi səslənir.

Bu halda ikiqütblü sistem özündə bir-birinə zidd iki ehtimal ehtiva edir: dünyanın heç bir tərəfə mənsub olmayan dövlətlərini cəlb etməklə ikibloklu sistemə genişlənmək tendensiyası və daxildən mərkəzdənqaçan qüvvələrin təhriki ilə və yaxud xaricdən yeni güc mərkəzlərinin cəlb edilməsiylə parçalanmaq tendensiyası.

"Soyuq müharibə"nin davamı

Uzun vədəli ehtimallardan qısa vədəli ehtimallara yönələrkən təxminən belə bir mənzərəni müəyyən edirik ki, iki superdövlətdə cəmləşmiş iki güc bloku dünya siyasəti arenasına ağalıq etməyə davam edəcək. İkinci Dünya müharibəsinin sonundan etibarən bu iki blok bir-biri ilə qısa və dar cığırda iki döyüşçü kimi üz-üzə gəlib. Onlar irəli çıxaraq döyüşməyə, yaxud geri çəkilərək digər tərəfə onlar üçün təhlükəli olan zəminə daxil olmağa imkan verməyə meyil edib. Qüvvələr tarazlığının ağalarının silahlı münaqişələrin ümumiyyətlə qarşısını almaq, yaxud da ən azından onları qısamüddətli və həlledici, lakin həcminə görə məhdud etmək üçün istifadə etdikləri həmin çoxsaylı və müxtəlif manevrləri – ittifaqlar və əks-ittifaqlar, daha böyük təhlükənin və daha yaxşı imkanın hansı tərəfdən gələ biləcəyinə görə ittifaqları dəyişmək, məsələlərdən yan keçmək, yaxud onları təxirə salmaq, düşmənçilikləri müdafiə olunmayan ön xətdən müstəmləkə arxa xəttinə keçirmək – davam etdirmək çətinləşib. Onlarla birlikdə bu oyunun iştirakçılarından tələb olunan düşüncəyə xas olan incəlik və məharət, hesablama və hərtərəfli tədqiqat, cəsarətli, lakin ehtiyatlı qərarlar vermək xüsusiyyətləri də itirilmişdir. Bu fəaliyyət və elmi yanaşma tərzləri ilə haqqında əvvəldə bəhs etdiyimiz[1] güc münasibətlərinin ya köhnə müvazinətinə qayıtmaq, ya da yeni birini qurmaq üçün həmin özünütənzimləyən elastikliyi, tendensiyası da mexaniki yox olmuşdur.

Bu gün dünyanın işlərinin gedişatını təyin edən iki nəhəngi üçün yalnız bir siyasi xəttin qaldığı görünür – bu da özünün və müttəfiqlərinin gücünü artırmaqdır. Hesaba alınan iştirakçıların əksəriyyəti öz yerini tutub və yaxın gələcəkdə bir tərəfdən digərinə heç bir keçidin baş verməyəcəyi görünür. Hər yerdə məsələlər hər iki tərəfin özü üçün həyati əhəmiyyətli maraq hesab etdiyi ərazilərə dönməsi,

[1] Bax: səh. 427-430.

yaxud daxil olmasına, mövqelərin saxlanılmalı olduğuna gətirib çıxarır və qarşılıqlı güzəştlər hər iki tərəfin qaçmaq istədiyi zəif nöqtəyə çevrilir.

Əvvəllər müharibə alman filosofu fon Klauzevits tərəfindən klassik təyinatına görə diplomatiyanın başqa üsullarla davamı hesab olunduğu halda, indi diplomatiya sənəti müharibə sənətinin bir formasına çevrilib. Bu o deməkdir ki, biz "soyuq müharibə" zamanı müharibə məqsədlərinin həmin müddətdə zorakılıqdan başqa yollarla yürüdüldüyü bir dövrdə yaşamışıq. Belə bir vəziyyətdə diplomatik düşüncənin səciyyəvi xüsusiyyətlərinin əhəmiyyəti azaldılır, çünki onların təsir etməli olduğu heç nə yoxdur və nəticə etibarilə hərbi düşüncə forması ilə əvəz olunur. Qüvvələr tarazlığı pozulduqda, əgər ümumiyyətlə bərpa oluna bilərsə, yalnız zəif tərəfin hərbi gücünün artırılması yolu ilə bərpa oluna bilər. Lakin mövcud vəziyyətdə heç bir əhəmiyyətli dəyişiklik iki nəhəngin özünə xas olan gücdən kənar qəbul edilmədiyindən hər iki tərəf müvəqqəti olaraq daha güclü olan rəqibin öz üstünlüyündən digər tərəfdən gələn təhlükəni hərbi və iqtisadi təzyiqi boşa çıxartmaq, yaxud məhvetmə müharibəsi ilə aradan qaldırmaq üçün istifadə edəcəyindən ehtiyat etməlidir.

Beləliklə, beynəlxalq vəziyyət iki nəhəngin şübhəli şəkildə gözünü bir-birinə zilladiyi primitiv tamaşa səviyyəsinə düşüb. Onlar hərbi potensiallarını artırmaq üçün ən yüksək səviyyədə bütün səyləri göstərir, çünki bu onların bel bağlamalı olduqları hər şeydir. Onların hər ikisi ilk həlledici zərbəni vurmağa hazırlaşır, çünki biri bunu etməsə, digəri edəcək. Beləliklə, daxil et, yaxud daxil ol, işğal et, yaxud işğal edil, dağıt, yaxud dağıl "soyuq müharibə" diplomatiyasının parollarına çevrilir.

Dünyanın siyasi vəziyyətinin belə olması mütləq şəkildə yeni qüvvələr tarazlığının mexanizminin nəticəsi deyil. Qüvvələr tarazlığının dəyişən strukturu bir-birinə düşmən olan iki nəhəng qüvvə blokunun yaranmasını mümkün etmişdir, lakin onu qaçılmaz etməmişdir. Tam əksinə, yeni qüvvələr tarazlığı özündə heç olmamış müsbət imkanlar, eləcə də görünməmiş zərərli cəhətlər ehtiva edir. Bunlardan hansının reallaşacağı qüvvələr tarazlığının mexanizmindən deyil, bu mexanizmdən öz məqsədlərinin reallaşması üçün istifadə edən maddi və mənəvi qüvvələrdən asılıdır.

Yeni hərəkətlilik diplomatiyası

Bugünkü dünya siyasətini 1960-cı illərin dünya siyasəti ilə müqayisə edəndə baş vermiş əsaslı dəyişikliklərdən və mövcudluğunu qoruyub saxlamağı bacaran cəhətlərdən heyrətə gəlirsən. Bu dəyişikliklərin əksər güclü dövlətlər tərəfindən planlaşdırılmaması və hətta təxmin edilməmə dərəcəsi heyrət doğurur. Bu gün siyasi dünya, kobud dillə desək, 1969-cu ildə Riçard M.Niksonun hakimiyyətə

gəlməsiylə bitən dövrün siyasi dünyasından daha az idarə oluna biləndir – və buna görə də daha çox təhlükəlidir.

İkinci Dünya müharibəsindən sonra siyasi dünyanı qəlizləşdirmiş konfiqurasiya nisbətən sadə və kifayət qədər asan idarə olunurdu. İdeoloji nöqteyi-nəzərdən təyin olunmuş və sərt şəkildə iki supergüc ətrafında qruplaşmış iki güc bloku var idi və onlar bir-birini qarşılıqlı olaraq nüvə silahından istifadə edərək məhv etməklə hədələyirdi; bu qruplaşmalar "üçüncü dünya" adlanan dövlətlərin, yəni bu və digər güc bloklarından birinə qoşulmamış dövlətlərin tərəfdarlığı uğrunda daha çox zərərsiz və səmərəsiz rəqabət aparırdı. İki güc blokunu bir-birinə qarşı salışdıran İkinci Dünya müharibəsinin xüsusilə Mərkəzi Avropada ərazi nizamlamaları idi; həmin həll edilməmiş məsələdən "soyuq müharibə" meydana gəldi.

Həmin məsələ faktiki olaraq Almaniya Federativ Respublikasının "*Ostpolitik*" (Şərq siyasəti – red.) siyasi xətti ilə aradan qalxdı. Həmin siyasətin nailiyyətləri 1970 və 1972-ci illər müqavilələri ilə təsdiq olundu; həmin müqavilələr Mərkəzi Avropada ərazi status-kvosunu qəbul etdi və Federativ Respublikanın bir zamanlar onun hakimiyyəti altında birləşəcək bütün – Şərqi və Qərbi Almaniyanın yeganə təmsilçisi olduğunu irəli sürən Halşteyn doktrinasından imtina etdi. Həmin nizamlama, demək olar ki, tamamilə olmasa da, iki səbəbdən irəli gəlirdi; biri "soyuq müharibə"nin mərkəzi məsələsinin mövcudluğu, digəri isə onun birbaşa törəməsi. Sözlərlə nə qədər açıq şəkildə ifadə olunsa da və vicdanla yerinə yetirilsə də, heç bir razılaşma Qərbi Berlinin düşmən dövlətin ərazisi ilə əhatə olunmuş anklav olması faktını dəyişə bilmir. Həmin geosiyasi vəziyyət AFR-ə (Şərqi Almaniya) Qərb dövlətlərinin uyğunlaşa bilmədiyi xoşniyyətli, yoxsa pisniyyətli olmasından asılı olmayaraq, bir güc bəxş etdi. Bu, xüsusilə daha böyük məsələlərlə birləşərək, əsaslı münaqişə mənbəyinə çevrilə bilən vəziyyətdir.

Digər tərəfdən, Federativ Respublika "soyuq müharibə"nin qeyri-real mövqelərindən imtina etdiyi halda, o, hələ də belə bir mövqeyini qoruyub saxlayır ki, Şərqi və Qərbi Almaniya bir xalqdır – "bir xalq, iki dövlət" – və nə vaxtsa birləşməlidir. İndiyədək "soyuq müharibə"nin meydana gəldiyi ərazidə gərginliyin azaldılması siyasətinə uyğun gələn real hadisə bir müddət Şərq-Qərb münasibətlərinin ideoloji cəhətdən yumşalması ilə müşayiət olundu və onunla möhkəmləndi. Qruplaşmaların "soyuq müharibə" üçün xarakterik olmuş sərtliyi yalnız mövcud siyasi məsələlərin yolagəlməzliyinin deyil, həmçinin ideoloji mövqelərin barışmaz təbiətinin işi idi. Xarici siyasətin ideoloji yönləndirmədən qismən azad olması erkən "soyuq müharibə" münaqişələrinin əsrliyini əvəz etmiş yeni hərəkətlilik diplomatiyasının yolunu açdı.

Yeni diplomatiya siyasi cəhətdən fəal dövlətlərə yeni imkanlar təklif etdi və onları yeni risklərlə üz-üzə qoydu – beynəlxalq siyasətdə bir dövlətin imkanı,

adətən, digər dövlət üçün riskə çevrilir. Beləliklə, köhnə məsələlərin nizamlanması yeni məsələlərin meydana çıxmasına səbəb olur və üstünlüyü yeni məsələni qəbul edən və ona uyğun siyasi xətlər seçən dövlət əldə edir. Avropa, xüsusilə Atlantik İttifaqı bu ümumi fikirlərin empirik təsvirini təqdim edir.

Atlantik İttifaqı daxilində parçalanmaya yönəlik müşayiət olunan tendensiyalar, əlbəttə ki, uzun tarixə malikdir. Amerikanın nüvə silahından istifadə ilə çəkindirməsinin sabitliyinə dair şübhələr, sovet hərbi təhlükəsi haqqında dəyişən təsəvvürlər, silahlar üzərində nəzarətə dair aparılan danışıqlarda Amerika yanaşması ilə bağlı narahatlıq, Qərbi Avropanın iqtisadi dirçəlişi, müxtəlif milli maraqlar – bunların hamısı onun üçün məsuliyyət daşıyır. 1960-cı illərin əvvəllərində və yenidən 1970-1980-ci illərdə ittifaq üzvlərinin üz-üzə qaldığı beynəlxalq məsələlərin araşdırılması bütün müttəfiqlərin haqqında eyni baxışlara malik olduğu yalnız bir məsələnin üstünü açmır. ABŞ-ın liderliyi və onunla sıx əməkdaşlıq – 1940-cı illərin sonunda bunlar seçim məsələsi deyil, sağ qalmağın şərti idi – indi Atlantik okeanının hər iki tərəfində xüsusi milli maraqların həyata keçirilməsi ilə yüngülləşdirilməli olan ağır yük kimi geniş şəkildə təcrübədən keçirilir.

Atlantik İttifaqında birliyin zəifləməsi və onun daxilində Amerikanın gücünün və təsirinin azalması şəraitində Qərbi Avropanın işlərində Sovet İttifaqının gücü və nüfuzu, görünür ki, daha böyük təsirə malik olmalı oldu. Baxmayaraq ki, Sovet İttifaqı artıq 1940-cı və 1950-ci illərdə olduğu kimi təhlükə olaraq qəbul edilmir, o, hələ də Avrasiyanın torpaqları üzərində sahibliyi olan inkaredilməz bir nəhəngdir və ona qarşı Avropada yaşam qabiliyyətli qüvvələr tarazlığı yalnız Qərbi Avropa dövlətləri ilə əməkdaşlıq edən ABŞ-ın Avropada daimi hərbi mövcudluğu yolu ilə qorunub saxlana bilər. Başqa sözlə, Atlantik İttifaqı ABŞ və Qərbi Avropa dövlətlərinin Avropada qüvvələr tarazlığını əvvəlcə bərpa etmək, daha sonra isə qoruyub saxlamaq üçün istifadə etdikləri alət olmuşdur.

Ona görə də Amerikanın gücünün və nüfuzunun tənəzzülü qüvvələr tarazlığını Sovet İttifaqının xeyrinə dəyişir və nəticədə Avropada təhlükəni artırır. Əgər fərqlilik davam edərsə, Amerika siyasətçilərinin Avropadan geri çəkilmək haqqında söhbətləri narahatlığı artırır. Yardımına ehtiyac duyduqları, lakin qəzəbləndikləri ABŞ-a qarşı ikiüzlü olan bu dövlətlər bu halda özlərini ABŞ tərəfindən tərk edilmiş və hərbi gücünə görə dəfedilməz olan Sovet İttifaqı ilə təklikdə üzləşməli olduqlarını hesab edə bilər. Sovet İttifaqına, özünün adlandırdığı kimi, "Avropa" təhlükəsizliyi"ni sabitləşdirmək üçün – həqiqətdə isə o bunu öz şəxsi maraqlarının evfemizmi kimi istifadə edirdi – çoxdan gözlənilən imkanı verən bu düşüncə tərzidir. Kremlin əlverişli mövqeyindən baxanda Avropa təhlükəsizliyi Amerikanın qitədə gücünün tam çıxarılmasa da belə, azaldılmasını, bunun nəticəsində NATO-nun zəiflədilməsini və Almaniya Federativ Respublikasının təcrid

edilməsini tələb edir. O zaman bir-birindən və ABŞ-dan canlarını qurtarmış Qərbi Avropa dövlətləri Sovet İttifaqı ilə nisbətdə yaşam qabiliyyətli qüvvələr tarazlığını qoruyub saxlaya bilməz və Avrasiya torpaqlarında sovet hegemonluğu ilə razılaşmalı olar.

Bu razılıq – əgər Almaniya Federativ Respublikası ona qoşulsaydı – dünyada qüvvələr bölgüsündə əsaslı dəyişiklik mənasını verərdi. AFR-in qərbyönlülüyü müqayisəli siyasi, hərbi və iqtisadi üstünlüyün hesablanmasından irəli gəlir. Lakin Sosial-Demokratik Partiyasının qanadlı raketlərin və "Perşinq II" raketlərinin istifadəsinə qarşı böyük əksəriyyəti ilə keçirilən 21 noyabr 1983-cü il səsverməsi tövsiyə edir ki, hətta rasional hesablamalar bunun xeyrinə olsa da, *Bundesrepublika* daxilində bu yönlülük etirazsız qalmasın. Əgər yuxarıda təsvir edilən gedişat baş tutarsa, Şərq yönümlülüyünün dəstəklənməsi üçün rasional arqumentlər hazırlanar. Adətən, "rus ayısı"ndan qorxan, Amerikanın əmin olduğu müdafiəsindən məhrum edilmiş Qərbi Almaniya yüksələn şərq qonşusuna münasibətdə dost olmasa da, bitərəf siyasi və hərbi mövqeyə çəkilər. Həmin mövqe Qərbi Almaniya və sovet iqtisadiyyatlarının tamamlayıcı münasibətləri ilə olduqca güclənər. 1980-ci illərin əvvəllərində Avropa boru kəməri müzakirəsi üzə çıxardığına qədər Sovet İttifaqının sənaye modernləşməsi üçün göstərdiyi səylərə Qərb texnologiyasının kütləvi axınını əlavə etməyə qərar verdiyi aşkar idi. Federativ Respublika yüksək inkişaf etmiş sənaye dövlətlərindən biri idi və onun inkişafı böyük miqyaslı ixracatlardan asılı idi. Qərbi Avropa dövlətləri arasında və onlarla ABŞ arasında siyasi, hərbi və iqtisadi əlaqələr zəiflədiyindən Sovet İttifaqı xeyirli alternativ ola bilərdi.

Bu cür gedişat həmçinin Sovet İttifaqının dünya siyasətində onun mövqeyinə ən azından qısa müddətliyinə təsir göstərmiş Çin təhlükəsinə dair narahatlıqlarını son dərəcə yüngülləşdirər. ABŞ ilə gərginliyin azaldılması kimi tanınan siyasət öz mövcudluğuna görə yalnız iqtisadi mülahizələrə və Avropa qüvvələr tarazlığının təməl daşı kimi Atlantik İttifaqını dağıtmaq arzusuna deyil, həmçinin Sovet İttifaqının həm qərb, həm də şərq sərhədlərində qarşıdurmada yaxalanma xofuna borcludur. Sovet İttifaqı Çin ilə barışığın qeyri-mümkünlüyünə – nəticədə Çin ilə müharibənin ehtimal olmasa da, mümkün olduğuna – əmin oluncaya qədər Atlantik İttifaqının onun qərb sərhədlərinə "çəkindirmə" siyasəti ilə göstərdiyi təzyiqi zəiflətməyə çalışmalıdır.

Bu çalışmada Amerikanın Çinə münasibətdə yeni siyasəti həm imkan, həm də risk yaradır. Qeyd etməyə ehtiyac yoxdur ki, ABŞ ilə Çin arasında münasibətlərin normallaşması 1971-ci ildə bu istiqamətdə ilk addımlar atılanda 20 il gecikmişdi. ABŞ Tayvan hökumətini tanımağı və sözlərində və hərəkətlərində həmin hökumətə bağlılığının etibarlılığını davam etdirdikcə bu addımlar Çin və ABŞ arasında ikitərəfli münasibətlər üçün çox az əhəmiyyət daşıyırdı. Lakin

onlar ABŞ, Çin və Sovet İttifaqı arasında yeni üçbucaqlı münasibətlər üçün böyük əhəmiyyət kəsb edə bilərdi. ABŞ digər iki dövlət arasında müəyyən manevr azadlığına sahibdir və bu ona onlar arasındakı barışmaz düşmənçilikdən faydalanmağa imkan verir. Onların hər ikisi Amerikanın dəstəyi uğrunda bir-birinə qarşı mübarizə aparmalıdır. Bu maraqlar daha dar hüdudlar daxilində ABŞ-ın qarşı çıxa biləcəyi siyasətlərin yürüdülməsində (daha dəqiqi, Şimali Vyetnama və ümumiyyətlə, "milli azadlıq müharibələri"nə hərbi dəstək) və yenə də daha dar hüdudlar daxilində Amerikanın seçimləri ilə razılaşmaya hazır olan zaman təmkinlilik tələbi qoyur. ABŞ öz növbəsində heç bir halda Böyük Britaniyanın VIII Henridən ser Edvard Qreyə qədər Avropa qüvvələr tarazlığının "tənzimləyicisi" kimi faydalandığı fəaliyyət azadlığına sahib olmasa da, öz maraqlarının xeyrinə yürüdülən siyasətləri təşviq etmək üçün iki digər dövlət arasındakı mövqeyində ən azından kiçik dəyişikliklər etmək azadlığına malikdir.

Münasibətlərin normallaşmasından ən çox xeyir götürən ölkə Çindir. O, iki mühüm aspektdən xeyir götürür. Onun dövlətlər ailəsinə, xüsusilə Birləşmiş Millətlər Təşkilatına qəbulu ona iki superdövlətə qarşı "üçüncü dünya" adlanan inkişafdan qalmış dövlətlərə liderliyə cəhd etmək üçün yeni imkan verdi. 1917-ci ildən etibarən Sovet İttifaqı özünü imperializmə qarşı həm milli, həm də sinfi səviyyədə "yoxsulların dünya inqilabı"nın müəllifi kimi təqdim etdiyi halda, Çin iki superdövləti eyni batan imperialist qayığına qoyur və Sovet İttifaqının tərk etmiş olduğu ənənəvi mövqeyi (ən azından Çin ritorikasına görə) ələ keçirir. Bundan əlavə, Amerikanın Çinə yeni yanaşması Yaponiyanı onun əvvəllər Çin ilə münasibətlərini xarici siyasətinin ABŞ-ın xarici siyasəti ilə sıx uzlaşması səbəbindən çətinləşdirən ağır məhdudiyyətlərdən azad etdi. Yaponiya Çin ilə münasibətlərinin normallaşmasına özü təşəbbüs etməyə cəsarət etmədiyi halda, ABŞ belə etdikdə Yaponiya da onun yolu ilə getdi. Yaponiya ilə Çin arasında bu yeni münasibətlərin potensialını qiymətləndirərkən Qərbi Almaniya ilə Sovet İttifaqı arasında daha yaxın əlaqələri mümkün edən maraqlarla eyni olmayan bir-birini tamamlayan maraqlar üzə çıxır. Yaponiya yaşamaq üçün böyük həcmli ixracatlar həyata keçirməli olan yüksək inkişaf etmiş müasir sənaye dövlətidir. Çin xüsusilə uzun vədədə sənaye maşınları və məhsulları üçün geniş inkişaf etməmiş bazar təqdim edir. Birlikdə iki ölkə, əslində, Asiyada iqtisadi, siyasi və hərbi cəhətdən ağalıq edə bilərdi. Belə bir birlik Yaponiyanın işğal yolu ilə əbəs yerə qurmağa çalışdığı "Asiya birgə inkişaf zonası"nı xatırladardı, lakin indi bir-birini tamamlayan maraqların qarşılıqlı şəkildə qəbuluna əsaslanır.

Yaponiyanın Amerikanın təşəbbüsünün özü ilə gətirdiyi yeni hərəkətliliyindən faydalanması onun Çin ilə münasibətləri ilə məhdudlaşmır. ABŞ indi Sovet İttifaqı və Çin arasında dar hüdudlar daxilində manevr edə bildiyi kimi, Yaponiya da

bunu edə bilər. Sovet İttifaqının sənaye və texnoloji inkişafında əcnəbi iştirakçılara ehtiyacı Qərbi Almaniya kimi, Yaponiya üçün də son tarixi olmayan dəvətdir.

Yeni hərəkətlilik diplomatiyası yalnız böyük dövlətlər arasında birbaşa əlaqələri deyil, həmçinin onların kiçik dövlətlər vasitəsilə dolayı münasibətlərini xarakterizə edir. Bunun ən bariz nümunəsi Yaxın Şərqdir. 1973-cü il oktyabr müharibəsinə qədər Yaxın Şərqin ərəb dövlətləri İsrailə qarşı mövqe tutmuşdu və hər biri superdövlətlərin biri tərəfindən təchiz olunur və dəstəklənirdi. Həmin qruplaşmanın sərtliyi indi Amerika siyasətinin görünməmiş elastikliyinə yol açmışdır. ABŞ nəinki yalnız Kemp-Deviddə əldə edilmiş İsrail-Misir sülh razılaşmalarını dəstəkləyib və müdafiə edib, o həmçinin İordaniya və Səudiyyə Ərəbistanına yardım edib və Suriya qəbul etmək istəyərsə, onun üçün də eynisini etməyə hazır olduğunu nümayiş etdirib. Amerikanın siyasəti açıq şəkildə Sovet Ittifaqının Yaxın Şərqdə gücünü və təsirini aradan qaldırmaq mümkün olmasa da, məhdudlaşdırmağa səy göstərir, necə ki, sovet siyasəti Qərbi Avropada Amerikanın gücünü və təsirini aradan qaldırmaq mümkün olmasa da, məhdudlaşdırmağa çalışır. Sovet İttifaqı belə dəyişikliklərin arxasında bütün Avropada hökmran güc kimi peyda ola bilərsə, ABŞ da Yaxın Şərqdə eyni mövqeyə müvəffəq ola bilər.

Diplomatik manevr üçün bu imkanlar bir vaxt xarici siyasətin əsas dayaqları idi. Onların dərrakəli tətbiqi bir vaxt dövlətlərin öz məqsədlərinə nail olmağa çalışarkən müharibədən başqa, istifadə etdikləri əsas vasitə idi. Onların faydalılığı heç bir halda aradan qalxmayıb; çünki güc və digər üstünlüklər uğrunda mübarizə aparmaq, fərqli maraqları uyğunlaşdırmaq və barışdırmaq və münaqişələri dinc yolla həll etmək dövlətlər üçün hələ də zəruridir. Lakin həmin faydalılıq keçən tarixdə bənzəri olmayan iki amil tərəfindən azaldılıb: (1) hərbi gücün iqtisadi və siyasi gücdən ayrılması, belə ki, ikinci birincidən qaynaqlanır; və (2) müharibəni xarici siyasətin rasional davamı işindən düşmənin tam məhvi alətinə çevirən nüvə silahlarının mövcudluğu.

Yaxşı silahlanmış və digər formada güclü olan dövlətlərin hər baxımdan zəif olan dövlətlər ilə müqayisədə yalnız iki amilə görə (neft üzərində yarıminhisarçı nəzarət və onların əldə etdiyi böyük maliyyə resursları) hərbi acizliyi müasir dünya siyasətinin əsas nöqsanını, qlobal nizamsızlığın əsas mənbəyini və sivilizasiyanın mövcudluğuna əsas təhlükəni kəskinləşdirir. Bu, milli dövlətin siyasi təşkilatın əsas vahidi kimi nəqliyyat texnologiyası, rabitə və hərbi sahədə fəaliyyətdə olan sosial qüvvələrlə və nisbətən azsaylı dövlətlər tərəfindən sivilizasiyanı və həyatın özünü qoruyub saxlamaq üçün zəruri olan təbii məhsullar üzərində yarıminhisarçı nəzarət ilə bir araya sığmamasıdır.

Beynəlxalq nizamsızlıq və onun nüvə fəlakəti ilə sonuclanması ehtimalı müasir dünya siyasətində əsl narahatlıq yaradan potensial şəraitdir. Son zamanlara qədər bu

şərait bir tərəfdən superdövlətlərin liderlik etdiyi iki blokun əlaqəli bağlılığı, digər tərəfdən isə "üçüncü dünya" dövlətlərinin zəifliyi ilə ört-basdır edilmişdir. Məhz yeni hərəkətlilik diplomatiyası anarxiya və nüvə qırğınına doğru bu gizli meyillərin üzə çıxması təhlükəsini daşıyır. Bu parçalayıcı və dağıdıcı meyillərdən "sülh struktur"u yaratmaq hətta ən görkəmli dövlət adamlarının bacarığını sınaqdan keçirəcək.

Gərginliyin azaldılması və sülh şəraitində birgə yaşamaq

Siyasi ideyalar nəzəriyyədən təcrübəyə keçməyə cəhd edərkən anlaşılmazlıq və təhrif təhlükələrinə xüsusilə həssas olur. 1970-ci illərdə prezident Riçard M. Nikson superdövlətlər arasında gərginliyin azaldılması xarici siyasəti ilə vəziyyəti normallaşdırmağa cəhd etdi. 1976-cı ildə prezident Cimmi Karter gərginliyin azaldılması siyasətinin mənasını və mahiyyətini yenidən təyin etməyə cəhd etdi. Gərginliyin azaldılması siyasətinin tənqidçiləri və müdafiəçiləri arasında müzakirələr başladı. Həmin müzakirənin dumanı – qismən həqiqi çaşqınlıq, qismən məqsədyönlü fikir dolaşıqlığı – xarici siyasətin adekvat şəkildə anlaşılması üçün zəruri olan fərqlilikləri bulandırmaqda davam edir.

İki nümunə ilə bu mürəkkəbliyi izah edəcəyik. (1) 1972-ci ildə Moskvadan qayıdan prezident Nikson bəyan etdi ki, ABŞ və Sovet İttifaqı "sülh strukturu" qurmaq yolunda "geriyədönməz" addım atıb. Lakin beynəlxalq münasibətləri araşdırarkən öyrəndiyimiz ilk dərs hər şeyin geriyə dönməsidir: dostluqların, ədavətlərin, qruplaşmaların, maraqların, vasitələrin və məqsədlərin. Sovet-Amerika münasibətlərinin (1972-ci ildən əvvəl və sonra), Sovet İttifaqının Almaniya və Çin ilə münasibətlərinə səthi baxış bu fikrin aydın təsvirini verir. Sülhün "strukturu"na gəlincə, adi və sadə sülhün əksinə olaraq, hanı o? Hanı gərginliyin azaldılması siyasətini günün şüarına çevrilməzdən əvvəl olduğundan daha möhkəm edən institut və prosedurlar? İki superdövlət arasında sülh gərginliyin azaldılması siyasəti vasitəsilə deyil, terrorun nüvə tarazlığı vasitəsilə təmin olunub. Həmin tarazlıq hər iki superdövlətin xarici siyasəti üzərinə səmərəli məhdudiyyətlər qoyub. Məsələn, götürək 1956-cı il Macarıstan inqilabı zamanı Amerikanın hər hansı addım atmaqdan özünü saxlamasını və 1968-ci ildə Sovet İttifaqının Çexoslovakiyanı işğal etməsini, yaxud 1962-ci il Kuba raket böhranı və 1973-cü il Yaxın Şərq müharibəsi zamanı Sovet İttifaqının geri çəkilməsini. Ona görə də gərginliyin azaldılması siyasəti ehtimalının da həmin tarazlığın nəticəsi olduğunu söyləmək qeyri-adi deyil. Beləliklə, sülhə səbəb olan gərginliyin azaldılması siyasəti deyil, gərginliyin azaldılması və sülhə səbəb olan nüvə tarazlığıdır.

(2) Rəhmətlik senator Henri Cekson bir dəfə belə bir fikir ilə çıxış etmişdi ki, ABŞ-ın Sovet İttifaqından daha çox Çin ilə uzlaşması lazımdır, çünki buna nail

olmaq daha asandır. Bu fikrin əsasını təşkil edən beynəlxalq siyasətin mahiyyətcə mexaniki konsepsiyasıdır. Bu onu nəzərdə tutur ki, bir dövlət başqa bir dövlətin yerini digəri ilə şahmat lövhəsindəki piyadalar kimi dost, yaxud düşmən olaraq dəyişə bilər. Əgər gərginliyin azaldılması siyasəti Sovet İttifaqına münasibətdə nəticəsizdirsə, sadəcə, Sovet İttifaqını Çin ilə əvəz edin və hər şey yaxşı olacaq. Çinin hərbi zəifliyi və kəskin ziddiyyət nöqtələrinin olmaması səbəbindən ABŞ ilə Çin arasında gərginliklər aşağıdır; ona görə də yumşaldılması, yaxud aradan qaldırılması reallıqda asan olar. Lakin bu dəqiq olaraq ona görə asan *idi* ki, – o mənada ki, o artıq baş vermiş bir reallıq idi, – Çin ilə ABŞ arasında həmin gərginliyin azaldılması siyasəti Amerika xarici siyasətinin təxirəsalınmaz məsələsi deyildi. Əksinə, bu dəqiq olaraq ona görə *çətindir* ki, Sovet İttifaqı ilə ABŞ arasında gərginliyin azaldılması siyasəti təxirəsalınmazdır; çünki iki superdövlət düşmən qruplaşmalarda birbaşa, yaxud dolayısı olaraq bir-birinə qarşı duranda qarşılıqlı nüvə çəkindirməsi siyasəti sınağa məruz qalır. Əgər çəkindirmə bu sınaqda hətta bir dəfə də olsa belə, uğursuzluğa uğrasa, nəticə qarşılıqlı təminatlı məhvetməni, strateqlərin ona qoyduqları ad kimi MAD-ı (sözlərin ingilis dilində baş hərfləri ilə – red.) hərəkətə keçirəcək.

Mənzərənin təsvirini əldə etmək üçün gərginliyin azaldılması siyasətinin hərfi mənasını yenidən xatırlamaq, yəqin ki, artıq olmaz. Bu, yumşaldılmış, yaxud aradan qaldırılmış gərginliyin əvvəlki mövcudluğunu nəzərdə tutur. ABŞ ilə Sovet İttifaqı arasında sosial qarşılıqlı əlaqənin müxtəlif səviyyələrində və müxtəlif coğrafi mövqelərdə çoxsaylı gərginliklər olduğundan gərginliyin azaldılması siyasətinin mücərrəd və müfəssəl konsepsiya kimi işləyib-işləməməsi məsələsini qaldırmaq əbəsdir. Yalnız əvvəllər mövcud olmuş məxsusi gərginliklərin Sovet İttifaqı və Amerika tərəfindən yumşaldılıb-yumşaldılmaması, yaxud aradan qalxıb-qalxmamasını soruşmağın mənası var. Sual belə konkret, xüsusi nöqteyi-nəzərlərdən qoyulanda o, ən azından 1970-ci illərə qədər superdövlətlər arasında münasibətləri əvvəllər korlanmış üç növ gərginliyə münasibətdə müsbət cavaba layiqdir.

Gərginliyin azaldılması siyasətinin bir təzahürü, ümumiyyətlə, sovet-amerikan əlaqələrindən "soyuq müharibə"nin əvvəllərində – və yenidən 1980-ci illərdə – hər bir mübarizəni yaxşı və pis arasında Mani münaqişəsinə çevirən, danışıqlar üsulu ilə nizamlanmanı qeyri-mümkün etməsə də, çətinləşdirən səlibçi ideoloji coşqunluğun aradan qaldırılmasıdır. Belə ideoloji zərərsizləşdirmə 1960-cı illərin bir hissəsi və 1970-ci illərdə beynəlxalq siyasi atmosferi yaxşılaşdırdı və bu, real məsələlərin danışıqlar yolu ilə nizamlanmasının imkanlarını hissedilməz formada yaxşılaşdırdı. Gərginliyin azaldılması siyasətinin digər bir təzahürü Mərkəzi Avropada, xüsusilə Şərqi Almaniyanın ərazi status-kvosunun Qərbi Almaniya tərəfindən qəbulu və Qərbi Berlinin beynəlxalq statusuna dair razılaşma yolu ilə

Almaniya məsələsinin əsaslı həlli oldu. Nəhayət, strateji silahların məhdudlaşdırılmasına dair danışıqların birinci mərhələsinin (SALT I) nüvə hücum silahlarının yarışını tənzimləyən və faktiki olaraq onları müdafiə silahları kimi istisna edən razılaşmaları və ikinci mərhələsinin dövrü keçmiş (SALT II) müqaviləsinin nəzərdə tutulan icrası və nüvə silahlarına dair davam edən danışıqlar – bütün bunlar nüvə silahlarının tənzimlənməyən yarışını müşayiət edən gərginlikləri ən azından qismən də olsa, azaltdı.

Gərginliyin azaldılması siyasətinin uğurlarının qısa siyahısı onun təsir göstərə bilmədiyi məsələlərin uzun siyahısı ilə əks tarazlıq təşkil edir; bir çox hallarda onun yarımçıq nailiyyətlərinin kütləsi ilə ağırlaşır. Bu, xüsusilə Avropa təhlükəsizliyi və qüvvələrin qarşılıqlı tarazlaşdırılmasına dair keçirilən konfransların nəticəsiz olduğu Avropa üçün həqiqətdir. Bu nümunələrdə Mərkəzi Avropada gərginliyin azaldılması siyasəti faktının özü və ABŞ və Sovet İttifaqı arasında ziddiyyətlərin aşkar görünən ümumi azalması NATO daxilində parçalanma meyillərini dərinləşdirdi. İki superdövlət Yaxın Şərqdə, eləcə də Hind okeanının sahilində yerləşən ölkələrdə güc və nüfuz uğrunda mübarizə aparır. Şərqi Aralıq dənizindən Yaxın Şərqdən keçərək Cənubi Asiyaya qədər yayılan və sürətlə böyüyən dəniz və hərbi gücün müdafiə etdiyi sovet ekspansiyasının müstəmləkə imperiyalarının aradan qaldırılması ilə "boş" qalmış ərazilərə keçməyi planlaşdırdığı görünür; ona görə də SSRİ-nin xarici siyasəti yeni gərginlik nöqtələri yaratmaqda davam edir. Son zamanlarda Sovet İttifaqının strateji silahların azaldılmasına dair danışıqları (START) tərk etməsi sovet-Amerika münasibətlərinin 1940-cı illərin sonundan etibarən ən aşağı səviyyəyə qədər pisləşdiyini bir daha göstərir.

Mücərrəd olaraq gərginliyin azaldılması siyasəti əvvəllər Sovet İttifaqı tərəfindən başladılmış sülh konfransları ilə təşviq edilən sülh, ümumi və tam tərk-silah, gərginliklərin yumşaldılması və kollektiv təhlükəsizlik kimi ideyaların eyni universal psixoloji birliyində yer alır. Heç bir ağıllı düşüncə sahibi mücərrəd məqsədlər kimi təqdim olunduqda belə anlayışlara qarşı çıxa bilməz. Lakin amerikalılar bu mücərrədlikləri zahiri görüntüsünə görə qəbul etdikləri halda, sovetlər onların adından konkret siyasi maraq və məqsədlərə xidmət edən təbliğat kampaniyası başlatdı. Onlar gərginliyin azaldılması siyasətinin universal mücərrədlik kimi üstünlük və faydalarını birdən kəşf etməyiblər. Onların aşkar etdikləri bu idi ki, onların həm qərb, həm də şərq sərhədlərində böyük hərbi təzyiqlərə dəstək vermək və eyni vaxtda ABŞ ilə nüvə və ümumi texnoloji bərabərlik uğrunda yarışmaq boyunduruğunu daşımaq çox ağırdır. Ona görə də onlar Qərbi Almaniyanın Mərkəzi Avropadakı ərazi status-kvosunu tanımasını – bu, "soyuq müharibə"nin düz ürəyində həqiqi gərginliyin azaldılması siyasətinin yürüdülməsi idi – anlayışla qarşıladılar. Onlar digər Avropa dövlətləri, eləcə də NATO-nun qeyri-avropalı

üzvləri tərəfindən Avropa Təhlükəsizlik Konfransı vasitəsilə, yenə də onların öz təhlükəsizliyinə xidmət edən siyasətlərini pərdələmək üçün Avropa təhlükəsizliyi mücərrədliyindən istifadə edərək eyni tanınmaya uğurla nail oldular. Sonuncusu və ən əhəmiyyətlisi, onlar Qərb texnologiyasının və sənayesinin geri qalan sovet iqtisadi sisteminə kütləvi axınına nail oldular.

Gərginliyin azaldılması siyasətinin əvvəllər düşmən olmuş dövlətlərin ümumi münasibətlərinə sirayət edən və bununla da onları dəyişən bədənsiz ruh kimi çağırılması maraqların və gücün obyektiv amillərinin ayrılıqda öyrənilməsi üçün bədələ çevrilib. Hətta dövlət katibi Henri Kissincer kimi uzaqgörən bir dövlət adamı həmin nöqsandan yan keçə bilməmişdi. Cənab Kissincer Sovet İttifaqının 1973-cü il Yom-Kippur müharibəsindən əvvəl, onun ərzində və onun sonunda "gərginliyin azaldılması siyasətinin ruhunda" hərəkət edəcəyini gözləyirdi, lakin o bu ruhda heç nə etmədi. O öz milli maraqlarına dair təsəvvürlərinə uyğun olaraq hərəkət etdi. O, ərəblərin müharibəyə hazırlaşmasına yardım etdi və onları qızışdırdı. ABŞ-ı münaqişənin yaxınlaşması haqqında məlumatlandırmadı və bütün ərəb dövlətlərini 1973-cü il sammitində əldə edilmiş razılaşmaları pozaraq müharibədə iştirak etməyə çağırdı. O, ərəblər qalib gələnədək müharibənin yekunlaşmasına qarşı çıxır və onlar uduzanda ədavətin dərhal dayandırılmasına təkid edirdi. O belə dayandırmanın alternativi kimi birbaşa hərbi müdaxilə ilə hədələyir və ona hazırlaşırdı. ABŞ və Sovet İttifaqı arasında birbaşa hərbi qarşıdurmanın qarşısını alan "gərginliyin azaldılması siyasətinin ruhu" deyil, Amerika strateji qüvvələrinin mübarizənin böhran nöqtəsində nümayiş etdirdiyi sayıqlıq idi. ABŞ və Sovet İttifaqı arasında sülhü qoruyub saxlayan 1962-ci ildə Kubada raket böhranı zamanı olduğu kimi hərbi qüvvə ilə hədələmə və əks-hədələmə idi.

İki amil gərginliyin azaldılması siyasəti vasitəsilə əldə olunan real nailiyyətlərin bir balaca əsası olmayan nümunələrini sual altına qoymağa məcburdur: 1972-ci ildən etibarən silahlar üzərində nəzarətə dair aparılan danışıqların, əsasən, uğursuzluğu və Sovet İttifaqının müəyyən daxili siyasətlərinə Amerikanın reaksiyası. Yenidən alovlanan nüvə silahı yarışı gərginliyin azaldılması siyasətinin mümkün etdiyi məhdud nailiyyətlərin əksəriyyətini silib atan gərginliklər yaratmışdır. Hər bir tərəf digərinin birinci zərbəni endirmək imkanına can atacağından şübhələndiyinə görə hazırkı silah yarışı mövcud terror tarazlığına yeni qeyri-sabitlik gətirir və gördüyümüz kimi, indiyə qədər nüvə müharibəsinin, əslində, qarşısını alan gərginliyin azaldılması deyil, bu, tarazlıqdır.

Digər diqqətəlayiq amil Sovet İttifaqının yürütdüyü daxili siyasətin gərginliyin azaldılması siyasətinə mənfi təsiridir. Vudro Vilsonun dövründən etibarən dövlətin daxili siyasətinin (xüsusilə onun hökumətinin xarakteri) onun yürütdüyü xarici siyasət formasına uyğunluğu ABŞ-da gərgin müzakirələrin mövzusu olub.

Bu suala iki fərqli cavab verilib. Onlardan biri Vilsonun cavabı, digəri isə yalnız demokratik rejimlərin öz öhdəliklərinə əməl etməsinə və dinc siyasət yürütməsinə inanıla biləcəyinə – avtokratiyalar təbiət etibarilə etibarsız və daxili narazılıqları xarici sərgüzəştlərə və müharibəyə köçürməyə meyillidir – dair ümumi liberal müddəa. Bu səbəbdən ABŞ-ın missiyası dünyada demokratik hökumətləri dəstəkləmək və avtokratik hökumətlərdə islahat aparmaqdır.

Bu baxışın əsasını təşkil edən "xalq"ın təbiətcə xoşniyyətli və sülhpərvər olduğuna və odur ki xarici siyasət üzərində demokratik nəzarətin təmkinli və dinc beynəlxalq münasibətlərə meyil etdiyinə dair, ən effektiv şəkildə Russo tərəfindən irəli sürülən ümumi liberal təsəvvürdür. Belə ki, diktatorlar ilə iş görmək mümkün deyil, lakin demokratlar ilə münasibət qurmaq olar. (Yeri gəlmişkən, qeyd olunmalıdır ki, Bismark Prussiyanın İngiltərə ilə iş görə bilməyəcəyini düşünürdü, çünki parlamentli hökumətin xarici siyasəti təbiətcə güvənilməzdir).

İkinci cavab bundan ibarətdir ki, daxili siyasətlərindən, yaxud hökumətlərinin xarakterindən asılı olmayaraq, dövlətlər öz maraqlarını rasional formada yeritməyə çalışır və istənilən halda xarici siyasətin özünün daxili şəraitdən təsirlənməyən qanunları var. Bu səbəbdən ABŞ kimi demokratik bir ölkə bütün növ hökumətlər, hətta xarakter və siyasətini mənəvi cəhətdən pislədiyi hökumətlər ilə münasibət qurmalıdır və öz siyasəti üçün meyar kimi əlaqədar dövlətlərin maraqları və gücünü götürməlidir. O öz maraqlarını daxili siyasi seçimlərini və digər dövlətlərin əxlaqi mühakimələrini görməzliyə vurmaqla təhlükə altına qoymaq iqtidarında deyil. Çörçilldən sitat gətirək: "Əgər dövlətin maraqları tələb edirsə, o, şeytanın özü ilə də razılığa gəlməlidir". Heç şübhəsiz ki, bu, düzgün cavabdır. Dövlətlər, əslində, bu mövqeyə məqsədəmüvafiq formada gəlib, çünki rasional xarici siyasət başqa cür mümkün deyil. Lakin cavabın düzgün olduğu və ondan irəli gələn təcrübənin ağlabatan olduğu görünsə də, məsələ burada bitmir.

Beynəlxalq sülh və nizam qüvvələr tarazlığının vəzifəsidir – yəni qüvvələrin bir neçə dövlət və ya dövlətlər birliyi arasında onlardan hər hansı birinin digər üzərində üstünlük əldə etməsinin qarşısını alan təxminən bərabər bölgüsüdür. Milli dövlətlər dünyasında mövcud olan istənilən sülh və nizamı təmin edən bu təqribi, incə müvazinətdir.

Lakin müvazinət "tarazlıq" metaforunun ifadəsindən görünə biləcəyi kimi mexaniki şəkildə fəaliyyət göstərmir. O, əksinə, qüvvələr tarazlığının mühafizə olunması, yaxud əgər pozularsa, bərpa olunması naminə əlaqədar dövlətlər arasında fikir birliyi tələb edir. Başqa sözlə, nizamlamanın dinamikaları mənəvi çərçivəyə salınır və uzun vədədə o bunsuz fəaliyyət göstərə bilməz. Qüvvələr tarazlığını fəaliyyətə keçirmək üçün iştirakçılar qüvvələr tarazlığının özünün prinsiplərinə nəzəriyyədə və daha mühümü təcrübədə öz mənəvi razılıqlarını

verməlidirlər. XVIII əsr məhz ona görə klassik qüvvələr tarazlığı dövrlərindən biri idi ki, bu konsepsiyanı siyasi bir mexanizm kimi güclü bir mənəvi konsensus dəstəkləyirdi.

Bu gün cavab tələb edən praktiki məsələ budur: dünya dövlətlərini, yaxud ən azından ABŞ və Sovet İttifaqını XVIII əsrdə olduğu kimi ortaq bir mənəviyyat birləşdirirmi? Bu suala kim müsbət cavab verə bilər? Superdövlətləri birləşdirən ortaq mənəviyyat deyil, yalnız onların hər ikisini məhv edə biləcək nüvə müharibəsi xofudur. Birinci zərbə səviyyəsinə çatacaq qədər güclü olan ikinci zərbə imkanına can atmaqla hətta bu adi özünümühafizə cəhdi digərinin məhvi hesabına özünün sağ qalmasını təmin etməklə həlledici üstünlüyə nail olmaq üçün gizli nəzərdə tutulan səy ilə məhdudlaşır.

Sovet İttifaqında və bir qədər az dərəcədə ABŞ-da yaşamaq qabiliyyətli qüvvələr tarazlığı üçün labüd olan ortaq əxlaq normaları və gərginliyin həqiqi azaldılması siyasətinin yerində hökumətin həqiqət və ləyaqət inhisarına malik olduğuna və insanların hökumətin əmrini yerinə yetirməyə məcbur edilməsə də, istiqamətləndirilməli olan uşaqlar olduğuna dair inama əsaslanan milli əxlaq normaları gördüyümüz haqqında nəticəyə gəlməkdən heç bir qaçış yoxdur. Bundan başqa, Sovet İttifaqı çar despotizminin ənənəvi təcrübələrinə müasir totalitarizm alətləri əlavə edib. Bu alətlər bütün əhalini faktiki olaraq öz ölkələrində və dünyanın qalan yerlərində baş verənlərdən məlumatsız saxlayır və xarici dünya ilə fiziki və intellektual əlaqələri minimuma endirir. Onlar reallıqda – Marks və Leninə qarşı olduqca ədalətsiz şəkildə – marksizm-leninizm adlanan metafizik təsəvvürlərin qarışığını əvəz edir.

Özünün və əhalisinin xarici dünya ilə mövcud əlaqəsini kəsən hökumət öz təbliğatının əsirinə çevrilir; o, yaşama qabiliyyətli qüvvələr tarazlığının özülünü təşkil edən öz-özünə tətbiq etdiyi həmin mənəvi məhdudiyyətlərə nəinki hörmət etmək, heç onları qəbul etmək iqtidarında olan xarici siyasət yürüdə bilməz. O, daxili totalitarizmin yumşaldılmasının avtomatik olaraq daha rasional xarici siyasət doğuracağına dair baxışları bölüşmür. Lakin o, Amerika xarici siyasətində mühüm qərarlar verməmişdən əvvəl müşayiət olunan böyük müzakirələr modelinə uyğun olaraq, Sovet İttifaqı daxilində müxtəlif düşüncə məktəbləri arasında dialoqun başlamasını mümkün etməklə belə bir siyasət qarşısındakı önəmli bir maneəni aradan qaldırar. Belə bir dialoq ən azından mövqeləri aydınlaşdırmaq və siyasi və mənəvi konsensusun ləng və ağrılı inkişafına dünyanın qalan hissəsi ilə konsensusu təmin edib daha çox töhfə vermək imkanına sahib olar.

Sovet hökumətinin daxili siyasəti və xarakterini xarici dünya üçün əhəmiyyətli edən onun qüvvələr tarazlığı üçün həyat mənbəyi olan və həqiqi gərginliyin azaldılması siyasətinin həyata keçirilməsini mümkün edən "sənətlər, qanunlar və davranışlar

sistemi"nin bir parçası olmaqdan imtina etməsidir. Sovet İttifaqı belə bir sistemin parçası olsaydı, əslində, onun hökumətinin nə qədər avtokratik və despotik ola biləcəyinə dair siyasi zəmində narahat olmağa ehtiyac olmazdı. Lakin Sovet İttifaqı, ən yaxşı halda, laqeyd, ən pis halda isə düşmən olaraq belə bir sistemin kənarında qaldıqca dünyanın qalan hissəsi sovet hökumətinin xarakteri və onun daxili siyasətinə dair əhəmiyyətli maraqlara sahib olacaq. Əgər Kreml əhalisinə zərrə qədər ifadə və hərəkət azadlığı imkanı verməklə mövcud totalitar fəaliyyətinin kəskinliyini azaldarsa, o, öz-özlüyündə gərginliyin azaldılması siyasətinin təzahürü olan sistemə qoşulma və müəyyən mənada onu yenidən qurmaq istiqamətində ilk addımı atmış və qüvvələr tarazlığının mənəvi çərçivəsini təmin etmiş olar.

Beləliklə, sovet hökumətinin totalitar ifratçılığına ciddi maraq, sadəcə, liberal islahatın yanlış yönləndirilən ruhu ilə digər bir suveren dövlətin işlərinə əsassız şəkildə qarışmaq deyil. Bu heç, sadəcə, humanitar narahatlığı da ifadə etmir, yaxud daxildə ictimai fikrin sakitləşməsinə də xidmət etmir. Hər şeydən öncə, bu, ABŞ və Sovet İttifaqının ortaq şəkildə malik olduğu əsas marağa xidmət edir: etibarlı qüvvələr tarazlığı və həqiqi gərginliyin azaldılması siyasəti vasitəsilə nüvə əsrində sağ qalmaq.

Fransız filosofu Fenelon nəvəsi XIV Lüdoviqə əvvəldə istinad etdiyimiz[1] məsləhətində qüvvələr tarazlığının müxtəlif növlərinin şərhini verdi. Onların nisbi üstünlüyü və zəifliyini qiymətləndirərək, o, qüvvələr tarazlığının mükəmməl növü kimi ən yüksək dəyəri iki bərabər gücə malik dövlət arasında ziddiyyətə verdi. O deyirdi:

"Sistemin dörddəbiri digər gücə təxminən bərabər olan və onu ictimai təhlükəsizlik naminə müvazinətdə saxlayan gücdür. Belə bir vəziyyətdə olmağın və onu tərk etmək istəyinə gətirib çıxaran heç bir həvəsə sahib olmamaq – bu, əslində, dövlət üçün ən müdrik və ən xoş haldır. Sən ümumi hakimsən; bütün qonşuların sənin dostundur və sənin dostun olmayanlar isə bu faktın özü ilə özlərini bütün digərləri üçün şübhəli vahidə çevirirlər. Qonşuların və eləcə də əhalin üçün edilmiş kimi görünməyən heç nə etmirsən. Sən hər gün daha da güclənirsən; və əgər sənə qısqanclıq edən dövlətdən daha çox daxili gücə və daha çox müttəfiqlər əldə etməyə müvəffəq olursansa, – müdrik siyasətin yürüdüldüyü yerdə bu uzun vədədə qaçılmazdır, – gərək müvazinətin və ümumi təhlükəsizliyin qorunub saxlanması ilə fəaliyyətini məhdudlaşdıran həmin müdrik təmkinliyə daha çox əməl edəsən. Dövlətin öz istilaları zamanı və onlarsız ödəməli olduğu zərərləri, həmin istilaların bəhrə verməməsi gerçəkliyini, onları təmin etmək üçün edilən risklər və nəhayət, böyük imperiyaların necə fani, necə faydasız, necə

[1] Bax: səh. 291.

qısaömürlü olduğunu və süqut edən zaman hansı dağıntılara səbəb olduqlarını hər zaman xatırlamaq lazımdır.

Lakin bütün digər dövlətlərdən üstün olan dövlətlərin həmin üstünlüyü yaxın zamanlarda sui-istifadə etməyəcəyinə ümid etmək mümkün olmadığından müdrik və ədalətli dövlət başçısı bütün təzahürü ilə ondan daha az təmkinli olan varislərinə olduqca aydın hiss olunan bir üstünlüyə sürəkli və şiddətli tamah miras qoymağı heç vaxt arzu etməz. Öz varislərinin və əhalisinin yaxşılığı üçün özü belə bir bərabərlik ilə kifayətlənməlidir".[1]

Fenelonun nəzərdə tutduğu qüvvələr bölgüsü birmənalı formada ABŞ və Sovet İttifaqı arasında mövcud olan qüvvələr bölgüsünü əks etdirir. Müvazinəti təmkinli rəqabət yolu ilə qoruyub saxlayan iki müstəqil dövlət arasında müvazinətin potensial səmərəli nəticələri tarixin analizi üsulu ilə fransız filosofunu mütəəssir etdi və onlar müasir təcrübə yolu ilə bizə təsir ediblər. Lakin gücün ikiqütblülüyü və siyasi sabitliyi arasındakı əlaqə müasir tapıntı deyil. Qədim xalqların bundan xəbəri var idi və onlar bunu konstitusion tənzimləmələr məharəti ilə yaratmağa çalışırdılar. Belə ki, Sparta iki hökmdar tərəfindən idarə olunurdu və Roma Respublikasının eyni hakimiyyətə malik iki konsulu var idi. İrokez Konfederasiyasının iki hərbi lideri və Orta əsrlər şəhəri Auqsburqun iki mülki başçısı arasında da eyni münasibətlər var idi.[2]

Belə bir müvazinət hər zaman ona xas olan qeyri-sabitlik tərəfindən təhdid olunur. Bu qeyri-sabitlik güc uğrunda mübarizənin dinamikalarının nəticəsidir. Bu, ABŞ və Sovet İttifaqı arasında ikiqütblü tarazlığın daim məruz qaldığı təhlükədir. Bu təhlükə millətçi universalizm və müasir texnologiyanın təsiri altında, həqiqətən, inqilabi dəyişikliklərə məruz qalmış müasir müharibənin xarakteri ilə böyüyür. Burada müasir dünya siyasətini keçən dövrlərin beynəlxalq siyasətindən fərqləndirən fundamental dəyişiklərlə qarşılaşırıq.

[1] *Oeuvres* (Paris, 1870), Vol. III, səh. 349-350.

[2] Müqayisə et: Kurt H.Wolf, editor, *The Sociology of Georg Simmel* (Glencoe: Free Press, 1950), səh. 138 və növbəti səhifələr. "Gərginliklərin yumşaldılması" və "gərginliyin azaldılması" terminləri, əslində, "sülh içində birgə mövcudluğ"un sinonimləridir və təxminən bərabər gücə malik iki superdövlət arasında səciyyəvi münasibəti nəzərdə tutmaq üçün istifadə olunur.

22. Total müharibə

Biz artıq qeyd etmişdik ki, bizim dövrümüzdə müharibə 4 baxımdan total xarakter alıb: (1) emosiyalarına və etiqadına görə dövlətinin apardığı müharibə ilə tam ortaq olan əhali zümrəsi; (2) müharibədə iştirak edən əhali zümrəsi; (3) müharibənin təsirinə məruz qalan əhali zümrəsi; və (4) müharibənin yürütdüyü məqsədlər. Fenelon XVIII əsrin əvvəllərində yazanda müharibə bütün bu sadalananlara münasibətdə məhdud idi və müasir dövlət sisteminin başlanğıcından belə məhdud olmuşdu.

Bu növ məhdud müharibənin müstəsna nümunəsi kimi XIV-XV əsrlərin italyan müharibələrinə nəzər yetirək. Bu müharibələr, əsasən, maliyyə maraqları güdən muzdlu əsgərlər tərəfindən aparılırdı və onlar döyüşdə ölməyə və ya olduqca çoxsaylı düşmənlərini öldürməklə belə bir riskə getməyə can atmırdılar. Bundan əlavə, *condottieri* – qarşılaşan orduların hərbi liderləri – öz əsgərlərini qurban verməkdə maraqlı deyildilər, çünki əsgərlər onların çalışan kapitalını təşkil edirdi. Onlar öz ordularına maliyyə vəsaiti yatırmışdılar və onların fəaliyyət göstərən bir müəssisə olaraq qalmağını istəyirdilər. *Condottieri* heç düşmənin də çox əsgərini öldürmək istəmirdi, çünki onlar əsirlər kimi pul müqabilində satıla bilər, yaxud orduda əsgər kimi muzdla işə götürülə bilərdilər, lakin onları qırandan sonra onlar maliyyə gəliri gətirə bilməzdilər. *Condottieri* həlledici döyüşlərdə və məhvedici müharibələrdə maraqlı deyildilər, çünki müharibə olmayanda və düşmən olmayanda iş də yox idi. Bu səbəbdən həmin italyan müharibələri böyük ölçüdə düşməni öz mövqelərini tərk etməyə və yaralı və ölü itkisinin əvəzinə əsir verərək geri çəkilməyə vadar etmək üçün bacarıqlı manevrlərdən və taktiki hiyləgərlikləri ehtiva edirdi.[1] Belə ki, Makiavelli XV əsrdə baş tutmuş bir sıra,

[1] Təsvir üçün bax: Charles Oman, *A History of the Art of War in the Middle Ages* (London: Methuen, 1924), Vol. II, səh. 304: "Baxmayaraq ki, bəzi *condottieri* digərlərinə qısqanclıqla yanaşırdı, yaxud onlara qarşı keçmişdə yol verilmiş xəyanət və ya həqarətdən irəli gələn qərəzlərə malik idi, döyüşçüləri bir-birilərinə heç bir milli, yaxud dini nifrəti və ümumiyyətlə, hətta şəxsi nifrəti belə bəsləmirdilər. Lakin hər bir sahibin hərbi qulluqçuları həmin andakı düşmənləri ilə dəfələrlə yan-yana döyüşmüşdülər, çünki dəstələr hər zaman ödəniş müqabilində yeni bir işə götürənə keçirdi. Onlar çox vaxt döyüşdükləri hər hansı bir qrupun köhnə dostları ola bilərdi. Hətta belə bir hal olmazdısa da, bütün

bəziləri böyük tarixi əhəmiyyət kəsb edən döyüşlər haqqında məlumat verir ki, onlarda ya ümumiyyətlə heç kim ölmürdü, ya da bir nəfər həlak olurdu, o da düşmənin davranışına görə deyil, atdan yıxıldığına görə.

Makiavellinin fikri şişirdilmiş ola bilər, lakin şübhə yoxdur ki, dini müharibələr və Napoleon müharibələri istisna olmaqla həmin müharibələr[1] Birinci Dünya müharibəsinə qədər müasir tarixdə geniş yayılmış məhdud müharibənin bir növünün təzahürüdür. XVIII əsrin böyük liderlərindən biri olmuş Saksoniyalı Moris növbəti fikri səsləndirərkən XIV-XV əsrlərdə *condottieri*ni yönləndirmiş eyni müharibə prinsiplərini bəyan etdi: "Mən, ümumiyyətlə, döyüşlərin lehinə deyiləm, xüsusən müharibənin başlanğıcında. Mən hətta inanıram ki, bacarıqlı general döyüşməyə məcbur edilmədən bütün ömrü boyu müharibə apara bilər". Həmin əsrin sonunda Daniel Defo qeyd edirdi: "İndi bir-birinin gözü qarşısında 50 min nəfərlik orduya sahib olmaq və kələkbazlıqla tam bir kampaniya keçirmək, yaxud kübarca desək, bir-birini müşahidə etmək və sonra da qış mənzilinə çəkilmək halları tez-tez baş verir".[2] 12 yanvar 1757-ci ildə öz oğluna məktubunda qraf Çesterfild öz dövrünün müharibələrini belə təsvir edirdi:

"...bu pozulmuş dövrdə hətta müharibə qorxaqcasına aparılır; aman verilir; şəhərləri tuturlar və əhaliyə qıymırlar: hətta böyük təşviş içində olan qadın belə, çətin ki, zorlamanın faydasına ümid edə bilər".[3]

Digər tərəfdən, həmin məhdud müharibə dövrü sona çatanda marşal Foş 1917-ci ildə Fransa Hərbi Kollecində söylədiyi mühazirələrdə köhnə və yeni total müharibə növlərini ümumiləşdirmişdir:

"Həqiqətən, yeni bir dövr başlamışdı və bu, dövlətin bütün resurslarını mübarizəyə cəlb etməli olan, sülalə maraqları və hər hansı bir vilayətin işğalı və

muzdlu döyüşçülər az və ya çox dərəcədə silahdaş idilər və onlara pul ödəyən tiran, yaxud *burjuaya* həqarətlə baxırdılar. Bundan əlavə, əsir onu əsir götürən üçün yalnız öz atı və silahı deyil, həmçinin onun üçün ödənilən məbləğ dəyərində idi, ölü insan isə heç nə ödəyə bilmirdi. Ona görə də qələbələr gülünc görünürdü – taktiki baxımdan məğlub edilmiş korpus qaçmaq üçün böyük səy göstərmirdi, çünki təslim olmaq maliyyə itkisindən artıq heç bir məna kəsb etmirdi. Həm də ehtimal var idi ki, qalib onlara öz sıralarına daxil olmaq imkanı təklif edəcək – bu halda əsir düşən heç atını və silahını da itirməyəcəkdi".

[1] Müasirləri "yaxşı" və "pis" müharibələri fərqləndirirdilər, birinci burada haqqında bəhs edilən müharibələrdir, ikincilər isə isveçlilərin amansızlığına, xüsusilə onlara eyni formada cavab verən alman landsknextləri ilə toqquşmalarına şamil olunurdu.

[2] Götürülmüşdür: John U.Nef, "Limited Warfare and the Progress of European Civilization, 1640-1740," *The Review of Politics*, Vol. 6 (July 1944), səh. 277.

[3] Charles Strachey, editor, *The Letters of the Earl of Chesterfield to His Son* (New York: G.P.Putnam's Sons, 1901), Vol. II, səh. 321.

sahiblənməsi deyil, əvvəlcə fəlsəfi ideyaların, daha sonra isə müstəqillik, birlik, müxtəlif növ qeyri-maddi mənfəət prinsiplərinin müdafiəsi və yayılması məqsədini daşımalı olan milli müharibələr dövrü idi. Onlar hər bir əsgərin maraqlarını və bacarıqlarını üzə çıxarmağı, əvvəllər heç vaxt güc elementi hesab olunmayan duyğu və ehtiraslardan məqsədləri naminə istifadə etməyi nəzərdə tuturdular. ... Bir tərəfdən insan kütlələrindən intensiv istifadə cəmiyyətin hər bir fəaliyyətini canına çəkən və sistemin istehkamlar, ehtiyatlar, torpağın istifadəsi, silahlanma, düşərgələr və s. kimi maddi hissələrini onların ehtiyaclarına uyğunlaşdıran güclü hisslər tərəfindən rədd olunur.

Digər tərəfdən XVIII əsr baxımından: əlbəttə ki, zamanla dəyişən, lakin hər zaman qoşunların istifadəsinə nəzarət məqsədi daşıyan müxtəlif sistemlərin bünövrəsinə çevrilən bu maddi hissələri uğrunda döyüşdüyü səbəbdən asılı olmayaraq, xüsusilə hərbi ruha və ənənələrə münasibətdə bəzi peşəkar keyfiyyətlərə sahib, suverenin mülkiyyəti olan ordunu mühafizə etmək üçün müntəzəm və metodiki istifadə etmək".[1]

Bu kontekstdən Fenelonun XVIII əsrin əvvəlində dini müharibələrin döyüşlərini xarakterizə etmək üçün istifadə etdiyi ifadə – "Ya sən qalib gəlirsən, ya da sənə qalib gəlirlər" – Foş XX əsrin yeni dünya müharibələrini xarakterizə edən zaman yenidən peyda olur:

"Əgər məğlub olan tərəf elə bir vəziyyətə düşürsə ki, müzakirədə iştirak etmək üçün heç bir üsulu qalmır, məqsəd müzakirə üsullarını puç etmək olmalıdır. Silahlarla gəlinən qərar hesaba alınan yeganə hökmdür, çünki o, qalibi və məğlubu müəyyən edən yeganə qərardır; yalnız bu, rəqiblərin müvafiq vəziyyətlərini dəyişə bilər, biri öz fəaliyyətlərinin ağası olduğu halda, digəri düşməninin iradəsindən asılı olmaqda davam edir".[2]

XALQLARIN TOTAL MÜHARİBƏSİ

Müharibənin yeni dövründə ayrı-ayrı vətəndaşların ölkələrinin daxil olduğu müharibələrə özlərini tamamilə ortaq etməsi mənəvi və empirik olmaqla iki amillə aydın şəkildə izah olunur.

Mənəvi amil XX əsrdə ədalətli müharibə təliminin, yəni müharibədə iştirakı əxlaq normaları və hüquq ilə əsaslandırılan və silaha əl atmağa hüquqi və mənəvi

[1] Ferdinand Foch, *The Prinsiples of War,* translated by J. de Morinni (New York: H.K.Fly, 1918), səh. 31-32.

[2] Yenə orada, səh. 42-43.

haqqı olmayan müharibə tərəflərinin fərqləndirilməsinin yenidən dirçəlməsi idi. Bu təlim Orta əsrlərdə hakim bir təlim olmuşdu, lakin müasir dövlət sisteminin hakim olması ilə o da yoxolma dərəcəsinə qədər zəiflədildi. Professor Ballis bu təlimin XVI əsrdə inkişafına dair belə qeyd etmişdir: "Orta əsr aliminin ədalətli müharibə haqqında anlayışı – bir tərəfdən günah, digər tərəfdən xoş əməl hesab olunması – faktiki olaraq yox olub. Onun yerini suverenin müharibəni şikayətçi kimi və hakim kimi aparmalı olduğu ideyası tutub".

Nəticədə yeni təlim "istənilən növ müharibəni söz oyunu vasitəsilə faktiki olaraq ədalətli etmək imkanlarını genişləndirib".[1]

Məhdud müharibə dövründə ədalətli və ədalətsiz müharibə arasındakı fərq, ən yaxşı halda, anlaşılmaz olaraq qaldı və XIX əsrdə müharibə icrası müəyyən mənəvi və hüquqi qaydalara məruz qalan, lakin bütün dövlətlərin onlardan yararlanmağın hüquqi və mənəvi haqqını öz ixtiyarlarında saxladıqları adi gerçəkliyə çevriləndə aradan qalxdı. Bu baxımdan müharibə milli və daha dəqiqi sülalə siyasətinin hökumətin uyğun gördüyü kimi diplomatiyaya alternativ, yaxud onunla eyni zamanda istifadə edilməli olan aləti idi.

Əhali kütlələri üçün belə bir müharibəyə tamamilə ortaq olmaq, aydın məsələ idi ki, qeyri-mümkün idi. Belə bir ortaqlıq üçün mənəvi məsələyə ehtiyac var idi, onun müdafiəsi və nailiyyəti üçün isə müharibə aparılmalı idi. Başqa sözlə, motivin və düşmənə qarşı sərt qızğınlığın müdafiəsinə mənəvi entuziazm oyatmaq üçün müharibə sənin tərəfindən ədalətli, düşmən tərəfindən isə ədalətsiz olmalıdır. Ola bilsin ki, muzdlu əsgərlər və peşəkarlar bu mühakimə olmadan öz həyatlarını müharibəyə həsr etməyi arzu edərlər, lakin silahlı vətəndaşlar bunu etməzlər. Napoleon müharibələrində və XIX əsrdə Almaniya və İtaliyada milli birlik uğrunda aparılan müharibələrdə millətçilik və XX əsrin iki dünya müharibəsində millətçi universalizm bu ədalət prinsipini və onunla birlikdə döyüşən insanlara ideya uğrunda istilaçılıq etmək və ölmək həvəsi verən ehtiras və entuziazmı təmin etmişdir.

Millətçilik və milli universalizm ideyalarını qələbəyə doğru hərəkətə keçirən əsgəri mükəlləfiyyət yolu ilə universal hərbi xidmət oldu. Nə muzdlu əsgərlər, cəmiyyətin pozğun ünsürləri hərbi xidmətə zorla məcbur edilmədi, nə də yaxşı insanlar oğurlanaraq onun sıralarına daxil edilmədilər, XIX əsrdən əvvəl məhdud müharibə dövründə orduların sıravi heyətini təşkil edənlərin hamısının mənəvi və ideoloji mülahizələrdən ilhamlandığını gözləmək olardı. Onların döyüşdən uzaq durmaq və sağ qalmaqdan ibarət olan əsas maraqları onların liderlərinin müharibələrdə döyüşməkdən daha çox manevr etmək vasitəsilə qələbə qazanmaqla

[1] William Ballis, *The Legal Position of War: Changes in Its Practice and Theory from Plato to Vattel* (The Hague: Nijhoff, 1937), səh. 102-103.

maliyyə sərmayələrini və riskləri aşağı səviyyədə saxlamaq arzusu ilə üst-üstə düşürdü. Böyük Fridrixin hakimiyyəti altında Prussiya ordusunun üçdə ikisi əcnəbi muzdlu əsgərlərdən təşkil olunmuşdu. 1792-ci ildə Fransa inqilabının ordularına qarşı mübarizə aparan Prussiya ordusunun üçdəbiri hələ də muzdlu əsgərlərdən ibarət idi və onun, əsasən, döyüşlərdən uzaq qalmaq məqsədi daşıyan səmərəsiz manevri onun nə uğrunda və kimə qarşı vuruşduqlarını dərk etməyən əsgərlərinin ruhunu ifadə edirdi. Vellinqton hersoqu həmin dövrün fransız və ingilis orduları haqqında deyirdi ki, "fransız əsgəri mükəlləfiyyət sistemi bütün siniflərin üstün fərdlərini bir araya gətirir; bizim ordumuz isə cəmiyyətin tör-töküntülərindən – adi tör-töküntülərdən təşkil olunur".

Məhdud müharibə dövründə yalnız ayrı-ayrı fərdlərin deyil, həmçinin bütöv vahidlərin də fərariliyi ümumi forma almışdı. Muzdlu əsgər, yaxud muzdlu əsgərlər ordusu gözlənilən mənfəətlərə uyğun olaraq yazda bir sahibkara, payızda isə başqa birinə xidmət edərdi. Əgər onun müqaviləsi yalnız bir mövsümlük idisə, bu prosedur tamamən müntəzəm şəkildə həyata keçirdi; lakin əgər o, əməkhaqqından və köhnə ağasının rəhbərliyi altında iş şəraitindən məmnun deyildisə, müqavilə öhdəliklərindən asılı olmayaraq, o, müqaviləyə əməl etməməyə tərəddüd etməzdi.

Muzdlu əsgərlər kontingenti üçün bu növ əmək münaqişələrində döyüşdən əvvəl və mühasirə zamanı başqa bir iş verən axtarmaq xüsusilə səmərəli idi. Belə ki, 1521-ci ildə Parmanın mühasirəsində üç min italyan Fransa ordusundan fərari oldu və digər tərəfə keçdi. 1521-ci ilin oktyabrında İtaliyadakı Fransa ordusunun isveçli heyəti fərarilik ilə bir neçə həftə ərzində 20 min nəfərdən 6 min nəfərə qədər azaldı. Növbəti yazda Bikokka döyüşündən əvvəlki gün yeni isveçli heyət tətil elan edərək faktiki olaraq Fransanın döyüş planını diktə etdi və nəticədə isveçlilərin hücumu dəf edildi və döyüş uduzuldu. Həmin gün qarşı düşərgədə alman heyətin əks-hücum təşkil etmək üçün ikiqat ödəniş tələb etdiyi haqqında məlumatlar var və bunların heç biri gözlənilən deyildi. 1525-ci il Paviya döyüşündən bir neçə gün əvvəl ödənişlərini tam almalarına baxmayaraq, 6 min isveçli və 2 min italyan Fransa ordusunu tərk etdi. Onların fərariliyi Fransa ordusunun gücünün, demək olar ki, üçdəbirini azaltdı.

XVI-XVII əsrlərin dini müharibələri zamanı bütöv ordular dəfələrlə tərəflərini dəyişirdi. XVIII əsrdə orduların fərarilikdən əziyyət çəkdikləri itkilər döyüşdəki itkiləri üstələyirdi və bu təcrübə o qədər geniş yayılmışdı ki, ordular üçün gözlə görünən ərazidə və sıx cərgələmədən başqa formada düşərgə salmaq və ya manevr etmək məsləhət deyildi. Döyüş meydanında kifayət qədər insanın olması üçün Böyük Fridrix 6 ay ərzində öz bölmələrinə qayıdan fərarilərə mükafat verməyə məcbur oldu.

Hərbi xidmət geniş şəkildə cinayətə görə cəzanın alternativi kimi tətbiq olunurdu. Məsələn, kapital cəzasına qarşı olan Hesseland qrafı ölümə məhkum edilmiş caniləri öz polklarına göndərərdi və borcunu ödəyə bilməyənlərə cəzalarını çəkmək və orduda hərbi qulluğa daxil olmaq arasında seçim vermək ümumi təcrübə idi. Bu növ ordulara bəslənilən ümumi nifrət onların əxlaq normalarına müvafiq idi. Onlar, Böyük Fridrixin müasirinin qeyd etdiyi kimi, "nə vətənpərvərlik ruhu, nə də dövlət başçısına sədaqət ilə ruhlanmırdılar". Onları bir arada saxlayan yalnız polad intizam və mükafat gözləntisi idi; və sosial mənşələri, sosial nüfuzları və apardıqları müharibələrin xarakteri baxımından başqa cür ola da bilməzdi.[1]

Özünü müharibənin motivinə tam ortaq etmək iqtidarında olan orduya sahib olmaq üçün arxasında böyük insan kütləsinin birləşə biləcəyi motivə və həmin motiv nöqteyi-nəzərindən yekcins orduya sahib olmaq zəruri idi. Protestant və katoliklər kimin dininin üstün olmalı olduğu məsələsi üstündə bir-biri ilə döyüşən zaman birləşdirici motiv və həmin motiv altında birləşə bilən insan kütləsi artıq maddiləşmişdi. Məhdud müharibə dövründə taxt-taca varislik uğrunda müharibələr aparılarkən hərbi xidməti başqa heç kəs deyil, monarx uğrunda öz irsi imtiyazları hesab edən zadəgan zümrəsi üçün iki ilkin şərti mövcud idi – hər hansı vilayət və şəhərə yiyələnmək, yoxsa monarxın şöhrəti. Xarici təcavüzə qarşı inqilabi azadlıqların silahlı Fransa dövləti tərəfindən müdafiə olunan yekcins ordu yenə də sadiq ola biləcəyi və uğrunda ölmək istədiyi motivə sahib idi. Hərbi xidməti 18-25 yaş arasında bütün sağlam insanlar üçün məcburi edən 1793-cü il Fransa qanunu müharibənin yeni xarakterinin qanunvericilik zəminində ilk qəbulu idi.

Hətta universal hərbi xidmətdən qaynaqlanan bir ordu özünü döyüşdüyü müharibənin motivi ilə tam ortaq etməyə bilsə də, əminliklə demək olar ki, bu şəkildə təşkil olunmuş ordu, bir qayda olaraq, bu ortaqlığı qurmağa tam qabil

[1] Məhdud müharibənin Britaniyaya məxsus olan digər bir forması anonim müəllif tərəfindən təsvir olunmuşdur. Bax: *Edinburgh Review*, Vol. I (January 1803), səh. 357: "Müharibə əməliyyatlarından ən çox zərər görən dövlətlər həm də lazım olduğundan artıq ehtiyatla zəngindir. Onlar müharibənin maddi əvəzi üçün hərbi xidmətin əvəz edilməsinə oxşar şəkildə metal pullar icad ediblər və bu, nizami ordular dövrünün başlanması üçün yol açıb: onlar daha az varlı olan müttəfiqlərinə təhlükəsiz məsafədə onların motivi uğrunda döyüşmək üçün ödəniş etməklə döyüşləri qapılarından geri döndərməyi bacarıblar. Müharibənin əməliyyatları bu üsulla çox zərərsiz şəkildə yerinə yetirilir və onların tədricən istifadədən çıxarılması üçün bünövrə qoyulur. Bir neçə lazımsız milyon və daha bir neçə milyon çox insan həyatı qurban verilir; sülh istiqamətində işlər çiçəklənir və bu, bəzən artan müvəffəqiyyətlə baş verir; və evdə qələbədən daha çox uzaq məsafədə məğlubiyyəti satın almağa üstünlük verən siyasət – öz ərazində ən parlaq qələbəni çalmaqdansa, müttəfiqlərə məğlub olmaq üçün pulun ödənilməsi – təhlükəsizlik, resursların çoxalması və gücün real artımı ilə kifayət qədər qarşılığını almışdır və bu, zəruri müharibənin real faydaları ilə sülhün gətirdiyi bütün əhəmiyyətli nemətlərdən faydalanmaqla nəticələnir".

olacaq. Ona görə də təsadüfi deyil ki, məhdud müharibə dövrü, əsasən, başlıca birləşmə qüvvəsi məcburiyyət və macəra və pul sevgisi olan yekcins ordular tərəfindən aparılan müharibənin mənəvi baxımdan əhəmiyyətsiz təsəvvürü ilə üst-üstə düşür. Digər tərəfdən, total müharibə apardığı müharibənin ədalətinə inamla ilhamlanan silahlı dövlət ilə yaşıd idi.

Beləliklə, Napoleon dövrünün başa çatması və Burbonların və onların sülalə xarici siyasətlərinin bərpa olunması ilə Fransada əsgəri mükəlləfiyyətin yalnız III Respublika tərəfindən yenidən bərqərar edilmək üzrə ləğv olunması məntiqli idi. 1793-cü il qanunu Fransa üçün hansı əhəmiyyəti kəsb edirdisə, 1807-ci il və növbəti illərdəki qanunlar da Prussiya üçün həmin əhəmiyyəti kəsb edirdi. Onlar muzdlu əsgərlərin tutulmasını ləğv etdilər, əcnəbilərin ordu sıralarına daxil olmasını qadağan etdilər və 1814-cü ildə öz ölkəsini müdafiə etməyin hər bir vətəndaşın borcu olduğunu elan etməklə kulminasiyaya çatdılar. Həm inqilabi Fransa, həm də azadlıq müharibəsi aparan Prussiya əsgəri mükəlləfiyyəti milli ruhun xarici təcavüzə qarşı aləti kimi istifadə etdi – Fransa *ancien régime* Prussiyasına qarşı, Prussiya isə Fransanın Napoleon imperializminə qarşı.

XALQLAR TƏRƏFİNDƏN TOTAL MÜHARİBƏ

XX əsrdə müharibənin xarakteri yenidən dəyişəndə və onun məqsədi milli azadlıqdan və birləşmədən millətçi universalizmə çevriləndə əhalinin müharibədə iştirakı müvafiq şəkildə genişləndi. İndi yalnız sağlam insanlar deyil, totalitar ölkələrdə qadınlar və uşaqlar da əsgəri mükəlləfiyyətli idi. Totalitar olmayan ölkələrdə qadınların yardımçı xidmətləri – qadın ordu korpusları, dəniz qüvvələrinə xidmət edən qadınlar və buna oxşar digərləri – könüllülük əsasında təmənna olunur. Bununla belə, dövlətin məhsuldar qüvvələri hər yerdə müharibənin məqsədlərinin istifadəsinə verilir. Məhdud müharibə dövründə müharibə, əsasən, vergilərin artırılması ilə təsir etdiyi əhalinin geniş kütlələrini az narahat etdiyi halda, XX əsrin müharibələri yalnız milli ortaqlıq deyil, həmçinin hərbi və iqtisadi iştirak mənasında hər kəsin işinə çevrildi.

Hadisələrin belə inkişafı üçün iki amil məsuldur: orduların həcminin artması və müharibənin mexanikləşməsi. XX əsrdə orduların həcmi həm mütləq şəkildə, həm də bütün əhaliyə nisbətdə son dərəcə artımışdı. XVI, XVII və XVIII əsrlərdə orduların ölçüsü tədricən artdığı zaman on minlərlə hesablanırdı. Napoleon müharibələri zamanı bəzi orduların sayı bir neçə yüz min nəfərə çatırdı. Birinci Dünya müharibəsində orduların sayı ilk dəfə milyonu keçdi və İkinci Dünya müharibəsi 10 milyon nəfərlik hərbi təsisatın şahidi oldu.

Müasir tarixin müxtəlif dövrlərində əhalinin hərbi xidmətə cəlb edilmiş hissəsi təxminən bu mütləq rəqəmlərə uyğun gəlir. XVII-XVIII əsrlərdə əhalinin 1 faizini hərbi xidmətə səfərbər etmək nadir hallarda nail olunmuş böyük bir öhdəlik idi; həmin dövrdə əhalinin orta hesabla 1 faizinin üçdəbirindən daha çoxu səfərbər edilmədi. Birinci Dünya müharibəsində böyük Avropa dövlətləri əhalisinin 14 faizini silaha sarılmağa çağırdı. İkinci Dünya müharibəsində onun əsas iştirakçılarının müvafiq göstəricisi bir qədər aşağı idi. O yalnız ABŞ, Sovet İttifaqı və Almaniyada təxminən 10 faizi keçdi. Bu azalma müharibənin böyük həcmdə mexanikləşməsi ilə izah edilir.

Əgər hərbi təsisat müharibəyə hazır vəziyyətdə saxlanılmalıdırsa, silahların, təchizatın, nəqliyyatın və kommunikasiyanın sayının artması (hansı ki, əhalinin hətta 10 faizi əvvəlki əsrlərdə çatılmış maksimum saydan yenə də 10 dəfə çox idi) ilə birlikdə mexanikləşməsi faktiki olaraq bütün işləyən əhalinin məhsuldar səyini tələb edir. Təxminən hesablanıb ki, bir nəfərin döyüş xəttində saxlanması üçün ən azından bir düjün insanın məhsuldar səyinə ehtiyac var. İkinci Dünya müharibəsində Almaniya, Sovet İttifaqı və ABŞ kimi böyük hərbi dövlətlərin silahlı qüvvələri 10 milyonu keçirdi. Hətta nəzərə alsaq ki, həmin qüvvələrin yalnız bir zümrəsi, həqiqətən, döyüşçülər idi və əksəriyyəti xidməti qoşunlar idi, onların hamısını silahlar, nəqliyyat, kommunikasiyalar, geyim və qida ilə təmin edən mülki əhalinin sayı işləyən əhalinin böyük əksəriyyətini təşkil etmiş olmalı idi. Beləliklə, müasir müharibə, əslində, xalqların total müharibəsinə çevrildi.

XALQLARA QARŞI TOTAL MÜHARİBƏ

Müharibə yalnız o mənada total xarakter almadı ki, hər kəs onun potensial iştirakçısı idi, həmçinin o mənada total xarakter aldı ki, hər kəs onun potensial qurbanı idi. Müharibədə itkilərin müqayisəli göstəriciləri detallı olaraq etibarsız olsa da, bu baxımdan tutarlıdır. Fransanı müasir tarixdə müntəzəm olaraq dövrün ən böyük münaqişələrinə cəlb olunmuş dövlət kimi və nümunə kimi 1603-1919-cu illərdə müharibədə həlak olmuş, yaxud yaralanmış Fransa əhalisinin onilliklərlə hesablanmış faizini nümunə kimi götürsək, məlum olur ki, 1630-cu ildən 1789-cu ildə Fransa inqilabının başlanmasına qədər maksimum göstərici 0.58, minimum göstərici isə 0.01 faizdir. 1790-1819-cu illər dövründə bu – təxminən Napoleon müharibələri dövrüdür – rəqəm kəskin artaraq, 1.48, 1.19 və 1.54 faiz olur, müvafiq olaraq 1820-1829-cu illər dövründə bu, sülalə siyasətlərinin yenidən dirçəlməsi ilə 0.001 faizdən aşağı düşdü. XIX əsrin qalan dövrü üçün olan göstəricilər bütün dövrün təqdim etdiyi ümumi mənzərəyə yaxından uyğun gəldiyi halda,

Birinci Dünya müharibəsi dövrünün rəqəmləri bütün dövrlər üçün ən yüksək göstəriciyə qalxıb 15 faizə yaxınlaşır. Bu da əhəmiyyətlidir ki, 1630-1829-cu illər arasındakı dövrdə yalnız bir onillikdə – 1720-1729-cu illərdə heç bir müharibə itkisi olmayıb. Amma tək XIX əsrdə – müstəmləkə ekspansiyası dövründə – 5 belə onillik var.

Hərbi xidmətdəki ölüm hallarına dair rəqəmləri əsrlərə görə nəzərdən keçirərkən də oxşar mənzərə ilə qarşılaşırıq. Böyük Britaniyanın göstəriciləri XIX əsrdə kəskin enən və XX əsrdə kəskin qalxan tipik dövrəni nümayiş etdirir. Böyük Britaniyada bütün əhali arasında 1000 nəfər ölüm halından XVII əsrdə 15-i, XVIII əsrdə 14-ü, XIX əsrdə 6-sı, XX əsrdə 1930-cu ilə qədər 48-i hərbi xidmətdə qeydə alınan ölüm hallarıdır. Fransa üçün müvafiq göstəricilər XVIII əsrdə nəzərəçarpan yüksəliş və XIX əsrdə Napoleon müharibələri ilə məhdud müharibə dövrünə son qoyulması səbəbindən heç bir kəskin eniş nümayiş etdirmir. Bu göstərici XVII əsr üçün 11, XVIII əsr üçün 27, XIX əsr üçün 30, XX əsrin 30-cu illərinə qədər 63-dür. Müasir müharibənin bu rəqəmlərdə ifadə olunan dağıdıcılığı keçən əsrlərdə xəstəliklərin silahlı əməliyyatlardan daha çox hərbi itkilərə səbəb olduğu faktı ilə daha bariz şəkildə üzə çıxır. Nəticədə hərbi əməliyyatlarda verilən itkilər XX əsrdə nisbi və mütləq şəkildə böyük miqdarda artmışdır.

Dini müharibələr sona çatdıqdan sonra görünməmiş olan mülki əhalinin XX əsr müharibələrində hərbi əməliyyatlarda verdikləri itkilərdir. Şübhə azdır ki, İkinci Dünya müharibəsində hərbi əməliyyatlara görə total mülki əhali arasında itkilərin sayı ümumi hərbi itkilərin sayını ötüb-keçir. Yalnız qəsdən törədilən qırğın yolu ilə almanlar tərəfindən öldürülən mülki əhalinin sayı 12 milyona yaxındır. Birinci Dünya müharibəsində Fransanın ümumi əhalisinin 15 faizə yaxını öldürülmüş və yaralanmış olması haqqında faktlar Fransa tərəfindən İkinci Dünya müharibəsində gözlənilmədiyi halda, ümumi itkilər içində mülki əhalinin payı olduqca çoxaldı. Eyni sözlər İkinci Dünya müharibəsində ümumi əhalisinin 10%-ə yaxını öldürülmüş və yaralanmış Sovet İttifaqı üçün də həqiqətdir.[1] Beləliklə, mülkilərə gəlincə, müasir müharibənin dağıdıcılığının böyük artımına doğru meyillər davam etmişdir. Müharibənin bakterioloji silah kimi əvvəlki müharibələrdə heç istifadə olunmamış, yaxud da zəhərli qaz və nüvə silahları kimi kiçik həcmdə istifadə olunmuş yeni dağıdıcı üsullarının ixtirası həm mülki, həm də hərbi heyət üçün həmin meylin davam etməsini və daha da sürətlənməsini təmin edir.

[1] Rusiyanın itkilərinə aid ziddiyyətli göstəricilər üçün bax: Dudley Kirk, *Europeas Populationinthe Interwar Years* (Series of League of Nations Publications. II. Economic and Financial. 1946. II. A. 8), səh. 69, qeyd 24, səh. 70, qeyd 28; *The World almanac* (1946), səh. 44; (1947), səh. 521; (1948), səh. 552; (1949), səh. 326. Mətndəki hesablama bu mənbələrdə üstünlük təşkil edən hesablamalardan qaynaqlanır.

MÜHARİBƏNİN MEXANİKLƏŞMƏSİ

XX əsr müharibəsinin hərbçilər və mülkilər üçün eyni dərəcə olduqca artmış dağıdıcılığı müharibənin mexanikləşməsinin nəticəsidir. Bu baxımdan onun təsirləri ikiqatdır: düşmənlərin görünməmiş sayını silahın tək bir hərəkəti, yaxud da sürətlənmiş çoxdəfəli hərəkəti ilə aradan qaldırmaq bacarığı və bunu uzaq məsafədən etmək imkanı. Hər iki inkişaf XIV əsrdə barıtın ixtirası və onun artilleriyada istifadəsi ilə başladı. Lakin yalnız XIX əsrdə bu irəliləyişlər əhəmiyyətli dərəcədə sürətləndirildi və bizim dövrümüz bu meyillərin müharibə texnologiyası sahəsində inqilab dərəcəsinə qədər böyük sürətinin şahidi oldu.

Silahların mexanikləşməsi

Tarixinin ilk 6 əsrində bu irəliləyişlərin son dərəcə ləngliyi və yeddinci əsrində son dərəcə sürətlənməsi artilleriyanın tarixində öz əksini tapır. Türklərin 1453-cü ildə Konstantinopolun mühasirəsində istifadə etdikləri silahlar 800 funt ağırlığında artilleriya topu ilə 1 mil məsafədən atəş açа bilirdi, onların atəş sürəti bir günə 7 dövriyyə və bir gecəyə 1 dövriyyə idi. 1650-ci ildə 9 funtluq zərbəsi olan top 175 yardlıq tuşlama məsafəsinə malik idi, 200 il sonra isə həmin məsafə ingilis 9 funtluq yivsiz lüləli topu üçün 300 yard idi. Artilleriya yeni icad olunanda Servantes belə qeyd edirdi:

"O uğurlu dövrlər xoşbəxtdir ki, rəzil və qorxaq silah üçün cəsur bir cənabın həyatını əlindən almağı asanlaşdıran artilleriyanın müdhiş mühərriklərinin qorxunc qəzəbi haqqında heç nə bilmirdi – mən əminəm ki, onun ixtiraçısı cəhənnəmdə iblisanə ixtirasının mükafatını alır; və o dövrlər ki, cəsur ürəkləri alovlandıran və şövqə gətirən atəş və entuziazmın zirvəsində, yəqin ki, öz lənətə gəlmiş aparatından atəş açan zaman atəşin parlaq işığında vahimə içində qaçmış bir nəfər tərəfindən atılmış və bir göz qırpımında layihələrə son qoyan və gələn illərdə yaşamağa layiq olan bir nəfərin həyatını qırıb atan hər hansı təsadüfi güllənin necə və haradan gəlməli olduğunu bilmirdi".[1]

XVIII əsrin sonunda artilleriya diqqəti cəlb edəcək şəkildə Fransa istisna olmaqla əksər ölkələrdə ikinci dərəcəli və müəyyən dərəcədə münasib olmayan silah hesab olunurdu və nəcib insanın onunla heç bir işi olmazdı. Hətta Böyük Fridrix artilleriyanın hansı dəyərə malik olduğu və yaxşı atəş açmağın hansı sənət ola biləciyi haqqında təkəbbürlü suallar verirdi. Lakin yalnız bir neçə onillik sonra Napoleon belə deyə bilirdi: "Müharibə artilleriya ilə aparılır". Hesablanmışdır ki, bu fikirdən sonrakı əsrdə artilleriyanın effektivliyi 10 dəfə artdı.

[1] Miguel De Cervantes, *The History of Don Quixote de la Mancha*, Part I, Chapter 38.

Birinci Dünya müharibəsi dövrünün rəqəmləri bütün dövrlər üçün ən yüksək göstəriciyə qalxıb 15 faizə yaxınlaşır. Bu da əhəmiyyətlidir ki, 1630-1829-cu illər arasındakı dövrdə yalnız bir onillikdə – 1720-1729-cu illərdə heç bir müharibə itkisi olmayıb. Amma tək XIX əsrdə – müstəmləkə ekspansiyası dövründə – 5 belə onillik var.

Hərbi xidmətdəki ölüm hallarına dair rəqəmləri əsrlərə görə nəzərdən keçirərkən də oxşar mənzərə ilə qarşılaşırıq. Böyük Britaniyanın göstəriciləri XIX əsrdə kəskin enən və XX əsrdə kəskin qalxan tipik dövrəni nümayiş etdirir. Böyük Britaniyada bütün əhali arasında 1000 nəfər ölüm halından XVII əsrdə 15-i, XVIII əsrdə 14-ü, XIX əsrdə 6-sı, XX əsrdə 1930-cu ilə qədər 48-i hərbi xidmətdə qeydə alınan ölüm hallarıdır. Fransa üçün müvafiq göstəricilər XVIII əsrdə nəzərəçarpan yüksəliş və XIX əsrdə Napoleon müharibələri ilə məhdud müharibə dövrünə son qoyulması səbəbindən heç bir kəskin eniş nümayiş etdirmir. Bu göstərici XVII əsr üçün 11, XVIII əsr üçün 27, XIX əsr üçün 30, XX əsrin 30-cu illərinə qədər 63-dür. Müasir müharibənin bu rəqəmlərdə ifadə olunan dağıdıcılığı keçən əsrlərdə xəstəliklərin silahlı əməliyyatlardan daha çox hərbi itkilərə səbəb olduğu faktı ilə daha bariz şəkildə üzə çıxır. Nəticədə hərbi əməliyyatlarda verilən itkilər XX əsrdə nisbi və mütləq şəkildə böyük miqdarda artmışdır.

Dini müharibələr sona çatdıqdan sonra görünməmiş olan mülki əhalinin XX əsr müharibələrində hərbi əməliyyatlarda verdikləri itkilərdir. Şübhə azdır ki, İkinci Dünya müharibəsində hərbi əməliyyatlara görə total mülki əhali arasında itkilərin sayı ümumi hərbi itkilərin sayını ötüb-keçir. Yalnız qəsdən törədilən qırğın yolu ilə almanlar tərəfindən öldürülən mülki əhalinin sayı 12 milyona yaxındır. Birinci Dünya müharibəsində Fransanın ümumi əhalisinin 15 faizə yaxını öldürülmüş və yaralanmış olması haqqında faktlar Fransa tərəfindən İkinci Dünya müharibəsində gözlənilmədiyi halda, ümumi itkilər içində mülki əhalinin payı olduqca çoxaldı. Eyni sözlər İkinci Dünya müharibəsində ümumi əhalisinin 10%-ə yaxını öldürülmüş və yaralanmış Sovet İttifaqı üçün də həqiqətdir.[1] Beləliklə, mülkilərə gəlincə, müasir müharibənin dağıdıcılığının böyük artımına doğru meyillər davam etmişdir. Müharibənin bakterioloji silah kimi əvvəlki müharibələrdə heç istifadə olunmamış, yaxud da zəhərli qaz və nüvə silahları kimi kiçik həcmdə istifadə olunmuş yeni dağıdıcı üsullarının ixtirası həm mülki, həm də hərbi heyət üçün həmin meylin davam etməsini və daha da sürətlənməsini təmin edir.

[1] Rusiyanın itkilərinə aid ziddiyyətli göstəricilər üçün bax: Dudley Kirk, *Europeas Populationinthe Interwar Years* (Series of League of Nations Publications. II. Economic and Financial. 1946. II. A. 8), səh. 69, qeyd 24, səh. 70, qeyd 28; *The World almanac* (1946), səh. 44; (1947), səh. 521; (1948), səh. 552; (1949), səh. 326. Mətndəki hesablama bu mənbələrdə üstünlük təşkil edən hesablamalardan qaynaqlanır.

MÜHARİBƏNİN MEXANİKLƏŞMƏSİ

XX əsr müharibəsinin hərbçilər və mülkilər üçün eyni dərəcə olduqca artmış dağıdıcılığı müharibənin mexanikləşməsinin nəticəsidir. Bu baxımdan onun təsirləri ikiqatdır: düşmənlərin görünməmiş sayını silahın tək bir hərəkəti, yaxud da sürətlənmiş çoxdəfəli hərəkəti ilə aradan qaldırmaq bacarığı və bunu uzaq məsafədən etmək imkanı. Hər iki inkişaf XIV əsrdə barıtın ixtirası və onun artilleriyada istifadəsi ilə başladı. Lakin yalnız XIX əsrdə bu irəliləyişlər əhəmiyyətli dərəcədə sürətləndirildi və bizim dövrümüz bu meyillərin müharibə texnologiyası sahəsində inqilab dərəcəsinə qədər böyük sürətinin şahidi oldu.

Silahların mexanikləşməsi

Tarixinin ilk 6 əsrində bu irəliləyişlərin son dərəcə ləngliyi və yeddinci əsrində son dərəcə sürətlənməsi artilleriyanın tarixində öz əksini tapır. Türklərin 1453-cü ildə Konstantinopolun mühasirəsində istifadə etdikləri silahlar 800 funt ağırlığında artilleriya topu ilə 1 mil məsafədən atəş açа bilirdi, onların atəş sürəti bir günə 7 dövriyyə və bir gecəyə 1 dövriyyə idi. 1650-ci ildə 9 funtluq zərbəsi olan top 175 yardlıq tuşlama məsafəsinə malik idi, 200 il sonra isə həmin məsafə ingilis 9 funtluq yivsiz lüləli topu üçün 300 yard idi. Artilleriya yeni icad olunanda Servantes belə qeyd edirdi:

"O uğurlu dövrlər xoşbəxtdir ki, rəzil və qorxaq silah üçün cəsur bir cənabın həyatını əlindən almağı asanlaşdıran artilleriyanın müdhiş mühərriklərinin qorxunc qəzəbi haqqında heç nə bilmirdi – mən əminəm ki, onun ixtiraçısı cəhənnəmdə iblisanə ixtirasının mükafatını alır; və o dövrlər ki, cəsur ürəkləri alovlandıran və şövqə gətirən atəş və entuziazmın zirvəsində, yəqin ki, öz lənətə gəlmiş aparatından atəş açan zaman atəşin parlaq işığında vahimə içində qaçmış bir nəfər tərəfindən atılmış və bir göz qırpımında layihələrə son qoyan və gələn illərdə yaşamağa layiq olan bir nəfərin həyatını qırıb atan hər hansı təsadüfi güllənin necə və haradan gəlməli olduğunu bilmirdi".[1]

XVIII əsrin sonunda artilleriya diqqəti cəlb edəcək şəkildə Fransa istisna olmaqla əksər ölkələrdə ikinci dərəcəli və müəyyən dərəcədə münasib olmayan silah hesab olunurdu və nəcib insanın onunla heç bir işi olmazdı. Hətta Böyük Fridrix artilleriyanın hansı dəyərə malik olduğu və yaxşı atəş açmağın hansı sənət ola biləciyi haqqında təkəbbürlü suallar verirdi. Lakin yalnız bir neçə onillik sonra Napoleon belə deyə bilirdi: "Müharibə artilleriya ilə aparılır". Hesablanmışdır ki, bu fikirdən sonrakı əsrdə artilleriyanın effektivliyi 10 dəfə artdı.

[1] Miguel De Cervantes, *The History of Don Quixote de la Mancha*, Part I, Chapter 38.

Prussiya ordusunda, adətən, müharibənin mexanikləşməsinin ən təsirli və muşket ilə birlikdə tək nümunəsinə aşağı dəyər verilirdi. XVIII əsrdə belə münasibət yükləmənin son dərəcə yavaşlığı, hədəfin qeyri-dəqiqliyi və məhdud məsafə (ən çox 2000 yard (1 yard = 0.9144 m – red.)) baxımından əsaslandırmaya söykənirdi. Lakin XIX əsr atəşin tezliyində və odlu silahların atış məsafəsində artımın şahidi oldu. Məsələn, 1850-ci ildə lülədən doldurulan yivsiz silahdan bir dəqiqədə min nəfər tərəfindən atılan güllələrin sayı 500, məsafəsi isə XVI, XVII və XVIII əsrlərin muşketinin müvafiq göstəricisi ilə təxminən eyni, yəni 300 yarda yaxın idi; iynəli silah üçün müvafiq göstəricilər 1000 dövriyyə və 2200 yard, 1866-cı il modeli üçün 2000 dövriyyə və 2700 yard, 1866-cı il modeli üçün 6000 dövriyyə və 3800 yard və 1913-cü il daraqlı tüfəngi üçün 10000 dövriyyə və 4400 yarddır. 1850-1913-cü illərdə atəşin tezliyi 20 dəfə artdı, atəş məsafəsi isə 16 dəfə uzandı. Bu gün isə biz dəqiqədə 1000 dövriyyə atəş açan və 1000 insana görə bunu 1 000 000 edən – 1913-cü ildə bu yalnız 10 000 idi – pulemyotlara malikik və hətta, məsələn, Qarand kimi yarımavtomatik çiyin tüfəngləri dəqiqədə 10 hədəfli atəş açа bilir – bu, 1913-cü ilin ən sürətli kiçik silahlarının müvafiq göstəricisindən 10 dəfə çoxdur.[1]

Bu baxımdan əldə olunan inkişafın 1850-1913-cü illərdə nə qədər böyük və 1913-1938-ci illərdə nə qədər misilsiz olduğu 1550-1850-ci illərdə əldə edilən inkişafın zəifliyi ilə müqayisədə əyani şəkildə görünür. XVI əsrin ortalarında əltopunun atış məsafəsi təxminən 100 yard idi və 2 dəqiqədə dövriyyə isə əl altında olan silahlar arasında, demək olar ki, ən yaxşısı idi. Birinci Dünya müharibəsində ağır artilleriyanın – o, hədəfdə böyük qeyri-dəqiqliyə və yalnız ən çoxu 30 dövriyyədən sonra çıxarılan artıq üstlüyə malik idi – ən uzun atəş məsafəsi 76 mili keçmirdi (buna yalnız almanların 18.4 düymlük silahları nail olmuşdu). Bu gün isə, əksinə, məsafədən idarə olunan raketlər – yəni özləri hərəkət edə bilən partlayıcı maddə daşıyıcıları –faktiki olaraq hüdudu olmayan atəş məsafəsinə malikdir. İkinci Dünya müharibəsində missiyasını yerinə yetirdikdən sonra öz bazasına qayıda bilən tam doldurulmuş bombadaşıyanın atəş məsafəsi 1500 mil həddində idi və bu, o vaxtdan böyük ölçüdə artaraq 6000 milə çatıb. Beləliklə, əsrin sonunda dövlətin düşmən ərazisində hücum edə bildiyi maksimum məsafə bir neçə mil olduğu halda, Birinci Dünya müharibəsində bu, artilleriya üçün 76 milə və zəif güclü və yüngül yüklənmiş təyyarə üçün bir neçə yüz mil, İkinci Dünya

[1] Bu göstəricilər nəzəridir; o mənadakı ideal şərtlər altında əldə oluna bilən optimal göstəriciləri nəzərdə tuturlar. Aydındır ki, real döyüş şərtləri altında bu göstəricilər olduqca aşağıdır; lakin onlar arasında əlaqə təxminən nəzəri şərtlər altında olduğu kimidir.

müharibəsində isə 1500 mil idi; indi isə onun həddi yoxdur. Bu halda XX əsrin ikinci yarısında müharibə o gerçəkliyə görə total xarakter alıb ki, bütün dünya dövrün texnoloji alətləri ilə tam təchiz edilmiş istənilən ölkə tərəfindən əməliyyatlar səhnəsinə çevrilməyə meyillidir.

Müharibənin dağıdıcılığının artmasının onun silahlarının atəş məsafəsinin artması ilə ayaqlaşıb-ayaqlaşmamasına uyğun olaraq, müharibə alətlərinin atəş məsafəsinin bütün dünyaya yayılması müasir müharibənin xarakteri üçün və müasir dünya siyasətinə təsirinə görə az, yaxud çox əhəmiyyətli ola bilər. Bu əsrdə, xüsusilə İkinci Dünya müharibəsindən etibarən müasir müharibə, həqiqətən, qeydə alınmış dağıdıcılığın yüksək artımı vasitəsilə silahının total ölçüsünün imkanlarını total müharibə reallığına çevirib.

Artilleriyanın ixtirasına qədər və dəniz müharibəsindən savayı bir tək adam tərəfindən həyata keçirilən bir hərbi hərəkət tək bir düşməndən çoxunu məhv etmək iqtidarında olmayan prinsipial məsələ idi. Bir qılınc ilə bir zərbə, bir nizə, yaxud bir cida ilə bir zərbə, bir muşketdən bir atəş, ən yaxşı halda, bir əlil düşmən ilə nəticələnər. Orta əsrlərin sonunda barıt müharibədə istifadə olunarkən mexanikləşməyə doğru ilk addım atılanda ilk əvvəl hərbi hərəkət ilə məhv edilmiş düşmən arasında nisbəti birə-bir artırdı. Əksinə, tərsinə hal hakim idi. Məsələn, ilk muşketin doldurulması və ondan atəş açılması, adətən, bir nəfərdən daha çox insan tərəfindən yerinə yetirilən 60 müxtəlif hərəkət tələb edirdi və daha sonra tuşlama o qədər zəif idi ki, açılan atəşlərin yalnız kiçik bir hissəsi hədəfə dəyərdi və bir nəfəri məhv edərdi. Topa gəlincə, onu mövqeyə gətirmək və doldurmaq üçün çoxsaylı insana ehtiyac var idi və tuşlamanın qeyri-dəqiqliyi həmin kollektiv səyin əksəriyyətini puç edirdi. Atəş hədəfə dəyəndə bir atəşin qurbanlarının sayı, ən yaxşı halda, çətinliklə 20-ni keçirdi.

Vəziyyət yalnız XIX əsrin sonlarında təkmilləşmiş pulemyotun ixtirası ilə sürətlə dəyişdi. Bir nəfər silahla etdiyi bir hərəkətlə real döyüş şərtləri altında heç vaxt müvəffəq olunmayan optimal nəticə ilə – bir hərəkəti ilə təxminən açılan atəşlərin sayı qədər düşmənin məhvi – yüzlərlə dövriyyə atəş açа bilirdi. Təxminən eyni dövrdə artilleriyada qeydə alınan radikal təkmilləşmə və hava və qaz müharibəsi sahələrində nail olunan irəliləyişlər bir, yaxud çox az insan tərəfindən bir hərəkət ilə məhv oluna biləcək düşmənlərin sayında nəzərəçarpan artıma səbəb oldu. Son dərəcə sarsıdıcı itkiləri, əsasən, piyada qoşunu sıradan çıxaran pulemyot ilə izah olunan Birinci Dünya müharibəsində bu say, şübhəsiz ki, hələ də yüzlərlə ölçülməli idi. Hətta faktiki olaraq bütün İkinci Dünya müharibəsi ərzində aviabomba tərəfindən bir birbaşa zərbənin qurbanlarının sayı çətinliklə mini keçə bilirdi və təxmin edilib ki, atılmış bombaların ümumi sayı təxminən havadan bombardman ilə itirilən həyatların ümumi sayına bərabər idi.

Nüvə müharibəsi və ehtimal olunan bakterioloji müharibə bu mənada pulemyotun bir neçə onillik bundan əvvəl nail olduğu inqilaba oxşar inqilabı həyata keçirmişdir. İkinci Dünya müharibəsinin sonunda bir atom bombasını atan şəxs düşmənin 100 mindən çox adamını şikəst etdi. Gücü kəskin şəkildə artan atom bombaları və onlar qarşısında bugünkü kimi gücsüz müdafiə ilə əhalinin sıx məskunlaşdığı regiona atılmış bir nüvə bombasının potensial qurbanlarının sayı milyonlarla ölçüləcək. Ən güclü nüvə bombalarının bir neçəsinin dağıdıcı gücü İkinci Dünya müharibəsi zamanı atılmış bütün bombaların gücünə bərabərdir. Bakterioloji müharibə üçün səciyyəvi olan kütləvi qırğın imkanları hətta ən güclü nüvə bombalarının imkanlarını ötüb-keçir, belə ki, strateji olaraq yerləşdirilmiş bir, yaxud bir neçə bakterioloji material qurğusu asanlıqla hədsiz sayda insana zərər verən epidemiyalar yaya bilər.

Lakin dünyanın istənilən yerində milyonlarla insanı məhv etmək iqtidarında olan silahlar bundan artığına qadir deyil və həmin mənada onlar hərbi və siyasi varlıqların yer aldığı strukturun, sadəcə, mənfi bir ünsürüdür. Onlar düşmənin müqavimət göstərmək iradəsini sındıra bilər, lakin öz-özlüyündə istila həyata keçirə və istila edilmişi əllərində saxlaya bilməz. Total müharibənin bəhrələrini toplayaraq və onları daimi siyasi qazanclara çevirmək nəqliyyat və kommunikasiyanın mexanikləşməsini tələb edir.

Nəqliyyat və kommunikasiyanın mexanikləşməsi

Əslində, son onilliklərdə mexanika sahəsində inkişaf heç yerdə nəqliyyat və kommunikasiyanın rahatlığı və sürətinə münasibətdə olduğundan daha heyrətləndirici olmamışdır. Əminliklə demək olar ki, XX əsrin birinci yarısında bu baxımdan nail olunan inkişaf keçən bütün tarixdə qeydə alınmış inkişafdan daha böyükdür. Müəyyən olunmuşdur ki, ser Robert Pilin 1834-cü ildə kabinetin iclasında iştirak etmək üçün Romadan Londona tələsməsi 13 gün çəkdi və bu, 17 əsr bundan əvvəl Roma rəsmisinə eyni səyahət üçün icazə verilən vaxtla tam eynidir. Qeydə alınmış tarix ərzində təxminən XIX əsrin ortalarına qədər quruda və dənizdə ən yaxşı səyahət sürəti saatda 10 mil idi və bu sürətə nadir hallarda quruda nail olunurdu. XX əsrin əvvəllərində dəmir yolları səyahət sürətini ən sürətli qatarda saatda 65 milə çatdırdı və bu tarixdəki sürətdən 6 dəfə yarım çox idi. Buxar gəmiləri dənizdə səyahətin sürətini saatda 36 milə çatdırdı və bu, əvvəlki maksimum sürətdən 3 dəfə yarım çox idi. Bu gün sərnişin təyyarəsinin maksimum sürəti saatda 600 mili keçir və bu, dörd onillik bundan əvvəl ən yaxşı səyahət sürətindən müvafiq olaraq 10-20 dəfə çoxdur. Ultrasəsli sərnişin təyyarəsi bu göstəriciləri iki dəfədən çox artırır.

1790-cı ildə, ən əlverişli mövsümdə Bostondan Nyu-Yorka təxminən 200 mildən çox məsafəni getmək 4 gün çəkirdi. Bu gün həmin müddət mövsümdən asılı olmayaraq, Yer kürəsini dövrə vurmaq üçün kifayət edir. Səyahət sürəti baxımından bu gün Moskva Nyu-Yorka bir əsr yarım bundan əvvəl Filadelfiya qədər yaxındır və dünyada ABŞ-ın əsasını qoyan 13 ştatın birləşmiş ərazisindən olduqca kiçikdir. Xüsusən son bir neçə ildə bu irəliləyişin hətta peşəkar araşdırmaçıların gözləntilərini arxada qoyaraq nə qədər sürətli olması professor Steylinin 1939-cu ildə bizim burada haqqında bəhs etdiyimiz məsələləri müzakirə edərkən verdiyi sualla aydın şəkildə izah olunur: "25 ildən sonra saatda 300 mil sərnişin nəqliyyatının qeyri-mümkün sürətidir?"[1] 1960-cı ildə ən sürətli sərnişin təyyarəsinin orta sürəti professor Steylinin gözlədiyi 1964-cü il üçün gözlədiyindən iki dəfə çox idi. "General Motors" 1939-cu ildə belə bir proqnoz irəli sürmüşdü ki, 1960-cı ilə qədər yollarda 38 milyon avtomobil olacaq; həmin rəqəm 1960-cı ildə bundan iki dəfə çox idi.

Sərnişin səyahəti üçün mexaniki tərəqqinin əhəmiyyəti faktiki olaraq əmtəə nəqliyyatının əhəmiyyəti ilə eynidir, çünki hər ikisinin mexaniki vasitələri faktiki olaraq eynidir. Yalnız quruda əmtəə nəqliyyatının başlanğıcda daha aşağı səviyyədə olması səbəbindən mexaniki inkişafının daha böyük sürətindən söz açmaq olar. Bu gün maksimum ağırlığa malik əmtəə məhsulları istisna olmaqla əmtəələr insanlarla eyni sürətdə daşına bildiyi halda, dəmir yolu ixtira olunmazdan əvvəl ərazi və güc məhdudiyyətləri insanlarla müqayisədə əmtəənin quruda daşınması sürətinə daha böyük məhdudlaşdırıcı təsir göstərirdi. XIX əsrin ortalarından əvvəl Almaniyada dəmir yollarının dövriyyəyə daxil olması əmtəələrin daşınması sürətini 8 dəfə çoxaltdı, bu zaman insanlar üçün müvafiq artım 5 dəfədən bir az çox idi.

Bununla belə, şifahi və yazılı kommunikasiya sahəsində müvafiq inkişaf müqayisəedilməz dərəcədə çoxdur. Burada mexaniki inkişaf insanların və əmtəələrin daşınmasındakı inkişafı çox qabaqlayır. XIX əsrdə teleqraf, telefon və sualtı kabelin ixtirasından əvvəl şifahi və yazılı kommunikasiyaların ötürülməsi sürəti səyahətin sürəti ilə eyni idi. Bu o deməkdir ki, bu kimi kommunikasiyaları ötürməyin gözlə görünə bilən siqnallardan başqa, yeganə yolu ənənəvi nəqliyyat üsulları idi. XIX əsrin ixtiraları belə kommunikasiyaların ötürülməsi üçün tələb olunan sürəti əvvəllər olduğu kimi günlərdən və həftələrdən saatlara qədər azaltdı. Radio və televiziya isə ötürülməni sözün tələffüzü kimi ani etmişdir.

[1] Eugene Staley, *World Economy in Transition* (New York: Council on Foreign Relations, 1939), səh. 13.

MƏQSƏDLƏR UĞRUNDA TOTAL MÜHARİBƏ

Bu mexaniki irəliləyişlər dünyanın istilasını texniki cəhətdən mümkün etdi və onlar dünyanı belə istila edilmiş vəziyyətdə saxlamağı mümkün etdi. Bu bir həqiqətdir ki, əvvəllər böyük imperiyalar mövcud olub. Makedoniya imperiyası Adriatik dənizindən Hind çayına, Roma imperiyası Britaniya adalarından Qafqaza, Napoleonun istilaları isə Cəbəllütariq sərhədlərindən Moskvaya qədər uzanırdı. Lakin bu böyük imperiyaların mövcudluğu davam etmədi, ya da yalnız texniki və ya digər növ sivilizasiyada hakim dövlətin təbəə xalqlar üzərində böyük üstünlüyünə görə davam etdi. Roma imperiyasının genişlənməsi bu fikri izah edir. Onun hərəkətlərinin əksəriyyəti birinci dərəcəli rəqiblərin üstünlüyündən daha çox, siyasi cəhətdən boş ərazilərə müstəmləkə ekspansiyasını əks etdirir. Bununla belə, digər imperiyalar mövcudluqlarını davam etdirə bilmədi və bütövlükdə bilinən siyasi dünyanın istilasından uzaq oldu, çünki geniş ərazi ekspansiyalarında yaşayan böyük insan kütlələrinin tabe edilməsi və daim nəzarətdə saxlanması üçün onların zəruri texnoloji resursları çatışmırdı.

Sabit dünya imperiyasının ilkin texnoloji şərtləri, əsasən, üçdür: (1) imperiyaların təbəələrinin düşüncəsi üzərində mərkəzləşdirilmiş nəzarət vasitəsilə məcburi sosial inteqrasiya; (2) imperiya daxilində mümkün parçalanmanın istənilən anında üstün təşkilatlanmış qüvvənin mövcudluğu; (3) imperiya ərazisində bu nəzarət və məcburiyyət üsullarının daimiliyi və hər yerdə mövcudluğu. Bu üç ilkin hərbi və siyasi şərtlərin heç birinə keçmişdə nail olunmayıb, lakin onlar bizim dövrümüzdə əlçatandır.

O zaman kommunikasiya vasitələri qeyri-mexaniki, yaxud da mexaniki olduqları yerdə sərt şəkildə fərdiləşmiş və ona görə də dağınıq idi. Xəbərlər və ideyalar yalnız ağızdan çıxan söz, məktublar, yaxud da bir nəfərin evində işlətdiyi çap olunan mətbuat ilə ötürülə bilirdi. O zaman dünyanın ola biləcək istilaçısı bu sahədə saysız rəqiblərlə təxminən bərabər addımlayaraq rəqabət aparmalı idi. O əgər rəqiblərini müəyyən edə və qabaqcadan tanıya bilsəydi, onları zindana sala, yaxud onları ölümə məhkum edə bilərdi.

Lakin xəbərlərin toplanması və yayılması, mətbuat, radio və hərəkət edən şəkillər üzərində inhisarçılıq və inhisar təhlükəsi vasitəsilə onların səslərini boğa bilməzdi. 19 əsr bundan əvvəl Müqəddəs Pavel şəhərdən şəhərə gedə və korinflilərə və romalılara məktublar yazaraq Roma imperiyasının rəsmi çoxallahlı dininin nümayəndələrinin əməl edə biləcəkləri hər şeyi ehtiva edən İncili yaya bilirdi və bu yerinə yetirildikdə onun əməllərini dövlətin nümayəndələri ilə daha səmərəli və geniş yayılmış rəqabət içində davam etdirən minlərlə davamçıları meydana gəldi. Müqəddəs Pavel ismarışlarını çap etmək üçün qəzet və jurnal,

moizələrini çatdırmaq üçün radio şəbəkəsi, ictimaiyyət qarşısında onun mücəssəməsini saxlamaq üçün kinoxronika və televiziya və əlbəttə ki, dövlət sərhədlərini keçmək üçün icazəsi olmadan sabahın dünya imperiyasında nə edə bilərdi.

Artıq qeyd etdiyimiz kimi, zorakılıq üsulları əvvəlki dövrlərdə, əsasən, qeyri-mexaniki və hər zaman fərdiləşmiş və dağınıq olub. Burada da dünya imperiyasının ola biləcək banisi üstün təşkilatlanma və təlim istisna olmaqla onunla təxminən bərabər addımlayan gələcək təbəələri ilə qarşılaşır. Tərəflərin hər ikisi faktiki olaraq kəsmək, sancmaq və atəş açmaq üçün eyni silahlara sahibdir. İstilaçı öz imperiyasını qoruyub saxlamaq üçün hər yerdə bütün mümkün rəqiblərinə qarşı, həqiqətən, üstün və təşkilatlanmış qüvvə bərqərar etməklə qeyri-mümkünə nail olmuş ola bilərdi. Belə ki, Madrid sakinləri 1808-ci il mayın 3-də fransız istilaçılarına qarşı onun ixtiyarında olan silahların eynisini qaldırırlar və onu şəhərdən qovurlar. Bu gün isə radio vasitəsilə eyni bir vəziyyət haqqında xəbər alan bir dünya imperiyasının hökuməti bir neçə saat ərzində qiyamçı şəhərə bombardmançı eskadron və paraşütçülər, minaatanlar və tanklar yüklənmiş çoxsaylı nəqliyyat vasitəsi göndərər – o vasitələri ki, onlar üzərində inhisara, yaxud təxmini inhisara sahibdir – və qiyamı asanlıqla yatırar. İstənilən anda istənilən yerə zərbə endirməyə hazır olan belə üstün bir qüvvənin müdaxiləsi təhlükəsinin özü müvafiq tərəfi qiyam fikrindən belə daşındırar.

Nəhayət, nəqliyyatın mexanikləşməsi dünya imperiyasının ola biləcək banisinin əlverişli iqlim və coğrafi mövqedən asılılığını yüngülləşdirmişdir; bu asılılıq Napoleonun məhvinə səbəb olmuş və daha az səyli və daha az tamahı olan liderlərin dünya istilası ideyasını hətta fikirlərindən keçirməsinin qarşısını almışdır. Bu baxımdan dünya istilasının bir böyük maneəsi – o, XIX əsrə qədər mövcud olmuşdur – payızın sonu, qış və yazın əvvəlində döyüşü dayandırmaq zərurətidir; çünki döyüş meydanında ordunu iqlim şəraitindən müdafiə etmək və onu həyati zərurətlər və müharibə avadanlığı ilə təmin etmək qeyri-mümkün idi. Əgər bir kampaniyada qüvvələri bərpa edilməyə ümid bəslənilmirdisə, bununla düşmənə növbəti döyüş mövsümündə yeni kampaniyaya hazırlaşmaq üçün imkan verilirdi. Bu zaman müharibə, əgər daha zəif rəqibə onu huşsuz vəziyyətə salacaq zərbə vurulmayıbsa, hər raunddan sonrakı fasilələrin faktiki olaraq onun yenidən oyuna qayıda bilməsini təmin etməyə kifayət edəcək qədər uzun olduğu boks oyununu xatırladırdı. Belə şərtlər altında dünyanın istilasını düşünmək ağılsızlıq olardı, çünki bir döyüş mövsümündə həyata keçirilmiş istila fəaliyyəti növbəti mövsümdə geniş miqyasda yenidən həyata keçirilməlidir. Qələbə istila və məhvetmədən daha artıq məğlub edilənin müqayisədə daha çox tükənmiş olmasının nəticəsi olduğuna görə hətta qalib belə dünyanı istila edənə qədər hər yaz yeni düşmənlərin üzərinə yerimək üçün lazım olan resurslara sahib olmaqdan uzaq olmuş olardı.

Lakin hətta o, dünya istilası yoluna qədəm qoymaq üçün olduqca həyasız olmuş olsaydı belə, çox uzağa gedə bilməzdi. O, istila edilmiş ərazilərdə silahlı gücün real üstünlüyünü qoruyub saxlamaq iqtidarında olmayaraq, daim vaxtında qarşılaya bilməyəcəyi qiyamlar ehtimalı ilə üzləşmiş olacaq. Kommunikasiyaların yavaşlığı və texniki nəqliyyat çətinlikləri dünyanın ola biləcək istilaçısı üçün əldə edə biləcəyi daimi istilaları birləşdirməyi qeyri-mümkün etmişdir. O, imperiyasının hüdudlarını nə qədər çox genişləndirərsə, onun dağılma ehtimalı bir o qədər böyük olar. Napoleonun imperiyası 1812-ci ildə öz gücünün zirvəsinə çatanda həm də parçalanmaya hər zaman olduğundan daha yaxın idi. Çünki Napoleon öz ərazisindən kənarda vuruşduqca, bu onu gücünün Fransadakı mənbəyindən uzaq saldıqca onun istilasının qurbanları onun arxasından azadlığa hazırlaşırdılar. Onlar, əsasən, Böyük Britaniya və Rusiyanın tabe və istila edilməmiş ehtiyatlarından yardım alaraq zərbə endirdikdə Napoleonun qüvvələrinin əsas kütləsi uzaqlarda olur və qış mövsümü olmasına baxmayaraq, saysız itkilər verərək qiyamın baş qaldırdığı əraziyə qayıtmalı və istilaçının deyil, istila olunanların seçdiyi yerdə məğlub olmalı olurdular.

Bu gün dünyanın gözlənilən istilaçısının ixtiyarında bir zaman əldə etdiklərini bir daha geri qaytarmamaq üzrə möhkəmləndirmək üçün texniki vasitələr var, çünki istila olunmuş ərazi daxilində mütəşəkkil qüvvənin, haqqında yuxarıda bəhs etdiyimiz üstünlüyü hər yerdə və hər zaman mövsümdən və məsafədən asılı olmayaraq, onun ixtiyarındadır. Onun hava qüvvəsinin növbəti toplanma yerindən min mil uzaqda başlayan qiyam Napoleonun nəqliyyat texnologiyasına görə təxminən 5 millik məsafədə yerləşir və Napoleonun kommunikasiyalar texnologiyasına görə isə çox yaxındadır. Başqa sözlə, istilaçı bütün müasir kütləvi təbliğat üsullarını narazıları öz təşəbbüslərindən daşındırmaq üçün, demək olar ki, ani şəkildə hərəkətə keçirmək imkanına malikdir. Bir neçə saat intervalında o, mütəşəkkil qüvvədə öz üstünlüyü ilə qiyamçılara təsir edə bilir.[1]

Beləliklə, bir dəfə həyata keçirilmiş istila texnoloji imkanlar nöqteyi-nəzərindən və əlbəttə ki, hökumət tərəfindən yol verilən kobud səhvlər, xarici müdaxilə, yaxud imperiya daxilində gözlənilməyən siyasi və hərbi vəziyyətlər istisna olmaqla əbədi olur. Bu şərtlər altında bir dəfə istila altına salınmış bir xalq istila altında da qalacaq, çünki onun artıq qiyam etmək üçün vasitələri yoxdur və şanslar isə

[1] 1944-cü ildə Hitlərə qarşı gizli planın uğursuzluğu hökumətin bu böyük üstünlüyünü hətta silahlı qüvvələr tərəfindən təşkil olunsa belə, baş tutmamış bir qiyamın timsalında izah edir. O, xüsusilə hökumət tərəfindən idarə olunan müasir kütləvi kommunikasiyanın həlledici əhəmiyyətini göstərir; çünki o faktiki olaraq radio ilə xalqa və qiyamın bəzi liderlərinə müraciət edərək danışan Hitlerin səsi idi və bu, məsələni hökumətin xeyrinə həll etdi. Növbəti kitabdakı mükəmməl şərh ilə müqayisə et: Allen W.Dulles, *Germany'sUnderground* (New York: Macmillan, 1947).

belədir ki, istilaçı kommunikasiyalar üzərində inhisarçı nəzarət ilə onu qiyam etmək iradəsindən məhrum etmiş olacaq. Edmund Berk belə demişdir: "Əgər istənilən bir şəxsə çox yox, 12 ay səhər-axşam bizə öz hekayəsini danışmaq imkanı versək, o bizim ağamıza çevriləcək".[1]

Bu gün əgər hakim dövlət ağalığın texnoloji vasitələri üzərində üstünlüyünü saxlaya bilirsə, dünya imperiyasının yolunda onun qarşısına heç bir manea çıxmır. Nüvə silahı və nəqliyyat və kommunikasiyaların başlıca vasitələri üzərində inhisara sahib olan dövlət əgər bu inhisarı və nəzarəti əldə saxlamaq iqtidarındadırsa, dünyanı istila edə və onu istila altında saxlaya bilir. O, hər şeydən əvvəl, öz dünya imperiyasının vətəndaşlarının düşüncəsini eyni mütilik formasında qəlibləşdirir, yaxın keçmişin və indinin totalitar cəmiyyətləri bizə bunun parlaq nümunələrini göstərib. Effektiv hökumət ehtimalında qiyam, ən yaxşı halda, dağıldılacaq və istənilən halda heç bir siyasi və hərbi əhəmiyyət kəsb etməyəcək. İkincisi, istənilən qiyam cəhdi üstün dövlətin çevik reaksiyası ilə qarşılaşacaq və bununla da başdan uğursuzluğa düçar olacaq. Nəhayət, müasir texnologiya düşüncəyə və fəaliyyətə nəzarəti coğrafiya və mövsümdən asılı olmayaraq, Yer kürəsinin istənilən bucağında mümkün edir.

TOTAL MEXANİKLƏŞMƏ, TOTAL MÜHARİBƏ VƏ TOTAL HEGEMONLUQ

Müasir müharibənin və onun hərbi və siyasi nəticələrinin mexanikləşməsinin bu analizi müharibənin mexanikləşməsinin yalnız xüsusi bir təzahürü olan Qərb mədəniyyətinin ümumi mexanikləşməsini nəzərdən keçirmədən tamamlanmaz. Çünki həmin ümumi mexanikləşmə olmadan müasir dövlətlər heç vaxt kütləvi orduları döyüş meydanına daxil edə və onların tədarük və silahlarla təchizatını təmin edə bilməzdi. Total müharibə total mexanikləşməni nəzərdə tutur və müharibə yalnız onu aparan dövlətlərin mexanikləşməsi dərəcəsində total ola bilər.

Tarixin başlanğıcından Amerika Vətəndaş müharibəsi və 1870-ci il Fransa-Prussiya müharibəsinə qədər bütün hərbi hərəkatlar əzələ gücü hesabına həyata keçirdi. İnsanlar avadanlıqlarını ya öz əzələləri, ya da heyvanlar vasitəsilə daşıyırdılar. Bütün hərbi hərəkatların, eləcə də silahların və orduların ölçüsü və keyfiyyəti mövcud insan qüvvəsinin və heyvanların təbii sayı və keyfiyyəti ilə məhdudlaşırdı. Vətəndaş müharibəsi zamanı hərdənbir dəmir yollarından istifadə olunduqdan sonra, ilk dəfə 1870-ci ildə alman ordusu onlardan nəqliyyat vasitəsi

[1] "Thoughts on French Affairs," *Works*, Vol. IV (Boston: Little, Brown, 1889), səh. 328.

kimi sistemli şəkildə istifadə etdi. Almanlar bununla fransızlar üzərində böyük strateji və taktiki üstünlük əldə etdilər.

1899-cu ildə Bur müharibəsi zamanı 5 düymlük bir silahı dartıb sürümək üçün nə az, nə çox – düz 32 öküzdən istifadə olunurdu. Hərəkətin ləngliyi, sayların heç bir insan səyinin dəf edə bilmədiyi təbii hüdudları, heyvanlar üçün yem tədarükü və daşınması müharibənin aparılmasını ləng və məşəqqətli edirdi. İnsanın müharibə və sülh zamanı məhsuldarlığını bir çox dəfə artıran əzələ ilə deyil, kömür, su və neftlə təchiz olunan buxar mühərriki, turbin, elektrik mühərriki və daxiliyanma mühərriki idi. Professor Ceyms Feerqriv, əsasən, Böyük Britaniyadan söhbət açaraq, kömürün bu inkişafa töhfəsini aydın şəkildə təsvir edir:

"Belə halda bir neçə limanı olan kiçik bazar şəhərləri və hökumət şəhərlərinin olduğu bu kənd təsərrüfatı və örüş dünyasına bir əsr yarımdan bir az əvvəl sənaye inqilabının qədəmləri qoyuldu. O vaxta qədər hər yerdə yalnız adi məişət məqsədləri üçün istifadə olunan kömürdən bir insanın və ya heyvanın, yaxud hətta çoxsaylı insanların və heyvanların görə biləcəyi işdən daha çox iş görəcək dəzgahların hərəkətə gətirilməsi üçün istifadə olunmağa başladı. İnsan o zamana qədər öz əlləri ilə görməli olduğu işləri görmək üçün özündən kənar enerji cəlb etdi. Əvvəllər görülə bilməyən işləri görmək üçün yeni nəhəng bir enerji qaynağı var idi və bu heç bir halda yeməklə gələn enerji deyildi. İnsan enerjidən daha geniş həcmdə yararlanmağa başlamışdı... İnsan üçün geyim son tikişinə qədər hazırlanır, ona görə də evdə hazırlanan çox az geyim var. Onun qidası stoluna, əsasən, hazır gəlir, nəticədə hətta onun evində də ərzaq istehsalı aparılmır. Böyük şəhərlərdə ərzaq istehsalı böyük həcmdə elə bir sənaye sahəsidir ki, insan günün gecə və gündüz olmasından asılı olmayaraq, demək olar ki, istənilən saatında cibinə və damağına uyğun yemək əldə edə bilər.

Hesablanmışdır ki, yalnız bizim fabriklərimizdə istifadə olunan kömür bütün digər istənilən vasitələr istisna olmaqla 175 000 000 çalışqan insanın enerjisinin ekvivalentini verir. Yunanıstanın bəşəriyyətin inkişafının bütün istiqamətlərində belə böyük nailiyyətləri əldə etməsinə səbəb olmuş gücü ilk növbədə, əsasən, kölə sinfi tərəfindən görülən işlərə əsaslanır. Orta hesabla hər bir azad yunan ailəsi 5 qula sahib idi; yunanlardan danışarkən biz onları heç nəzərə almırıq, lakin onlar yunanların enerjisinin böyük hissəsini təşkil edən insanlar idi. Britaniyada, demək olar ki, hər bir ailə enerji təminatı üçün 20-dən çox qula sahibdir və onlara heç bir ərzaq lazım deyil və onlar qul həyatının geyimi, göz yaşı və ümidsizliyi haqqında heç bir hissə malik deyillər. 45 milyon kişi, qadın və uşağın işlədiyi Britaniya fabrikləri 175 milyon insan gücündə çalışır. Qurğuların sırf mexaniki üsullarla hərəkətə gətirildiyini təmin edən enerji ilə müqayisədə 20 milyondan az kişi və qadın tərəfindən təmin olunan fiziki enerji gücü ona bərabər olur.

Biz mühəndislər, sıxılan düymələr və itələyən linglər, yağlama və qablaşdırma dövlətinə çevrilmişik və buna görə də böyük sosial mexanizm rahat və mümkün qədər asan fəaliyyət göstərəcək. Cansız kölələr dənimizi üyüdür, geyimlərimizi tikir, ərzağımızı dünyanın qurtaracağından gedib gətirir, bizi işləmək və oynamaq üçün o tərəf-bu tərəfə daşıyır, xəbərlərimizi və hikmət kitablarımızı çap edir və yunanların heç vaxt xəyal etmədikləri saysız xidmətlər yerinə yetirirlər... ABŞ-da hər bir kişi, qadın və uşaq üçün 50 soba qulu var..."[1]

Bu mexanikləşmə yolu ilə əməyə qənaətin həcmi olduqca böyükdür. Yenidən professor Feerqrivdən sitat gətirəcəyik: "1855-1894-cü illərdə 1 buşel hind taxılının istehsalı üçün lazım olan insan əməyi vaxtı ortalama 4 saat yarımdan saatın 45 dəqiqəsinə qədər azaldı. 1830-1896-cı illərdə 1 buşel buğdanın istehsalı üçün lazım olan insan əməyinin vaxtı 3 saatdan 10 dəqiqəyə qədər azaldı".[2]

1952-ci ildə Amerikada kənd təsərrüfatı məhsullarının istehsalı tarixdə ən yüksək nöqtəsinə çatdığı bir zamanda həmin ildə kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində çalışan insanların sayı 80 ildən çox müddət ərzində ən aşağı səviyyədə oldu. Texnoloji baxımdan geri qalmış ölkələrdə əhalinin 90 faizə qədəri kənd təsərrüfatı sahəsində çalışdığı halda, ABŞ-da ümumi əhalinin kənd təsərrüfatı sahəsində çalışan hissəsi 1870-ci ildə 50 faizdən, 1940-cı ildə 20 faizdən aşağı düşdü. 1910-1914-cü illərdə ABŞ-ın əhalisinin təxminən üçdəbiri kənd təsərrüfatı ilə məşğul olurdu və onlar milli gəlirin 12,4 faizini istehsal edirdilərsə, müvafiq göstəricilər 1941-ci ildə əhalinin 22,7 faizi və milli gəlirin 7,8 faizi, 1952-ci ildə əhalinin 15,9 faizi və milli gəlirin 6,4 faizi, 1964-cü ildə əhalinin 6,8 faizi və milli gəlirin 2,5 faizi, 1981-ci ildə əhalinin 3,1 faizi və milli istehsalın 2,8 faizi idi.

Professor Hornel Hart sənayedə eyni tendensiyanı izah edən aşağıdakı nümunələri gətirir:

"1730-cu ilə qədər, məsələn, ipəyirmə yalnız əllə həyata keçirilirdi: əyirici asta-asta və əziyyətlə birdəfəyə bir ip çəkirdi. Keçən 200 il ərzində mexaniki avadanlıq bu prosesdə elə bir inqilab etmişdir ki, bir operator hər biri 1 dəqiqədə 10 000 dövrə sürəti ilə fırlanan 125 ipi idarə edir. Sənayenin hələ də qədim insan gücü mərhələsində olduğu Filippində kopra yükü 200-dən 300-ə qədər qara fəhlə tərəfindən yüklənir, maşın əsri iqtisadiyyatının hökm sürdüyü San-Fransiskoda isə həmin gəmi 16 adam tərəfindən onu yükləmək üçün lazım gələn vaxtın dörddəbiri qədər vaxt ərzində boşaldır. Aparatın gücü ilə işləyən insanların işinin effektivliyi insan gücü ilə yükləmədən 50 dəfə çoxdur. Bir buxar kürəyi 200 sərişdəsiz insanın işini görür;

[1] *Geography and World Power*, 8th ed. (London: University of London Press, 1941), səh. 314-317, 326. (Naşirin icazəsi ilə təkrar dərc edilmişdir)
[2] Yenə orada, səh. 323-324.

bir şüşə üfürən aparat 600 bacarıqlı insanın yerini tutur; bir avtomatik elektrik lampası aparatı əvvəllər 200 fəhlənin gördüyü işi görür.[1]

XIX əsrin ortalarında ABŞ-da fiziki işin 22 faizi kişilər, 51 faizi heyvanlar və 27 faizi mexaniki qurğular tərəfindən görülürdü. 1900-cü ildə müvafiq göstəricilər 15, 33 və 48 faiz idi. 1948-ci ildə insanlar fiziki işin 4, heyvanlar isə 2 faizini görürdü, qalan 94 faiz isə mexaniki qurğular tərəfindən yerinə yetirilirdi. Bu mexaniki inqilabın nəticəsi olaraq işin hər insan saatına görə məhsulların istehsalı həmin dövrdə 5 dəfə çoxalmışdır. 1966-cı ildə kənd təsərrüfatı sahəsində bir insan saatı əməyi 1920-ci ildə olduğundan 5 dəfə çox ərzaq istehsal edirdi və 1 kənd təsərrüfatı işçisi 32 insanı yedizdirirdi, halbuki 1945-ci ildə o yalnız 12 adamı yedizdirirdi.

Bir sıra sənaye prosesləri insan əməyini faktiki olaraq aradan qaldırdı; burada mexanikləşmə avtomatikləşməyə çevrilmişdi. Bu, xüsusilə su-elektrik enerjisinin istehsalına aiddir; bu proses heç bir işçinin iştirakı olmadan baş verir və avtomatik elektrik siqnalları ilə idarə olunur. Ağacdan kağızın istehsalı cihaza ağac mayesinin tökülməsindən rulon kağızın alınmasına qədər tamamilə avtomatikdir. Eyni hal boş kağızın aparata qoyulması və qatlanmış son məhsulun alınması qədər qəzet nəşrinə də aiddir. Viskozanın və ipəyin, poladın və avtomobilin istehsalı və qida məhsullarının istehsalı və qablaşdırılması, xüsusilə onun emalı məhsuldarlığın artması və əzələ əməyinin əvəz edilməsi üzərində oxşar səmərələrlə mexanikləşdirilmişdir. Bir çox istehsal proseslərində mexanikləşmənin aşağı səviyyəsinin hesabına mexanikləşmənin ümumi nəticələri bu ən bariz nümunələrin göstərə biləcəyindən əhəmiyyətli dərəcədə az təsirli olduğu halda, istehsalın bəzi ən əhəmiyyətli sahələrində tendensiyalar bəşəriyyətin istehsalat proseslərində inqilabi – məlum tarixdə ən böyük – adlandırılacaq qədər ümumi və radikaldır.

Total müharibəni və dünya hegemonluğunu mümkün edən bu kəşflər müasir dövrün istehsalat proseslərindəki inqilabdır. Əvvəllər onun hücum müharibəsi texnoloji aspektlərinə görə məhdudlaşdırılmağa məhkum idi. Dövlətin məhsuldarlığı öz vətəndaşlarının qidalandırılması, geyindirilməsi, məskunlaşdırılması və böyük orduların müharibə ləvazimatı ilə təchiz edilməsi üçün kifayət etmirdi. Xüsusilə dövlətlərin iqtisadiyyatları adi yaşayış minimumu üzərində olan elə kiçik gəlir üçün fəaliyyət göstərirdi ki, dövlətin mövcudluğunun özünü təhlükə altına salmadan silahlı qüvvələrin milli istehsalda payını əhəmiyyətli həcmdə artırmaq mümkün deyildi. XVII-XVIII əsrlərdə hökumət üçün dövlətin milli büdcəsinin üçdə ikisini və ondan çoxunu milli məqsədlər üçün xərcləməsində qeyri-adi heç nə yox idi. Həmin dövr ərzində hərbi xərclər bir neçə dəfə hökumətin ümumi xərclərinin 90 faizindən çoxunu təşkil etmişdir; çünki hərbi xərclər, əlbəttə ki, bütün digər xərclərdən üstün idi və milli məhsul digər məqsədlər üçün geniş şəkildə vergi

[1] *The Technique of Social Progress* (New York: Henry Holt, 1931), səh. 134 (Naşirin icazəsi ilə təkrar dərc edilmişdir)

qoyulmaq üçün çox kiçik idi. Beləliklə, təsadüfi deyil ki, XIX əsrdən əvvəl universal hərbi xidmətə edilən bütün cəhdlər uğursuz oldu; çünki milli istehsalı davam etdirmək üçün əhalinin istehsalçı sinifləri hərbi xidmətdən azad edilməli idi. Yalnız istehsalat müəssisələrinə cəlb edilə bilməyən cəmiyyətin tullantı ünsürləri və ora cəlb edilmək arzusunda olmayan zadəganlıq rahatlıqla səfərbər oluna bilirdi.

XX əsrdə sənaye inqilabı və xüsusilə kənd təsərrüfatı və sənaye proseslərinin mexanikləşməsi müharibə və beynəlxalq siyasətin xarakteri üzərində üçqat təsirə malik olub. Onlar böyük sənaye dövlətlərinin ümumi məhsuldarlığını olduqca artırıb. Bundan əlavə, onlar insan əməyinin istehsalat proseslərində nisbi payını kəskin şəkildə azaldıb. Nəhayət, onlar tibdə və gigiyenada yeni üsullarla birlikdə bütün dövlətlərin əhalisinin sayında görünməmiş artıma səbəb olub. Məhsuldarlıqda bu şəkildə əldə olunan artım, sözsüz ki, daha yüksək yaşam standartı və istehlakçıların sayının daha çox olması səbəbindən milli məhsul üzərinə qoyulan artan tələbləri üstələyir. Məhsuldarlıqda ifratçılıq indi yeni məqsədlər üçün üfüq açır və o, total müharibə yollarına gətirib çıxara bilər. Aparat tərəfindən yaradılan yeni enerji və bir əsr yarım bundan əvvəl hələ də insanın sağ qalması üçün istifadə olunan enerji indi ya birbaşa hərbi xidmət üsulu, ya da dolayı olaraq sənaye istehsalı üsulu ilə hərbi məqsədlər üçün tətbiq oluna bilərdi.

İndi müharibə üçün yararlı olan insan enerjisi yalnız əzələ enerjisi deyil. Maşın əsri dövlətin özünün və təbəələrinin ərzaq və geyim təminatı və fəlakət və xəstəliklərdən mühafizəsinin təmin edilməsi üçün hələ bir əsr bundan əvvəl cəhdləri əksər insanların həyati enerjilərini sorub canına çəkən elmi və mənəvi boyunduruğu son dərəcə yüngülləşdirmişdir. Bundan əlavə, maşın əsri əksər insanlar üçün əvvəllər yalnız az insanların sahib olduğu asudə vaxt imkanı yaratmışdır. Lakin kifayət qədər paradoksal olsa da, belə etməklə o daha yaxşı dünyanın tikilməsinə sərf edilən çox böyük elmi və mənəvi qüvvələri bundan azad etdi, amma onları total müharibəyə hazırlığa və onun aparılmasına yönəltdi. İnsan və maddi qüvvələr arasında maşın əsrinin azad buraxdığı və yaratdığı bu qarşılıqlı əlaqə müharibəyə onun total xarakterini vermişdir.

O, total müharibəyə həmçinin dünya ağalığından başqa heç nə ilə qane olmayacağı görünən dünyanı əhatə edən həmin vahimələndirici təkanı vermişdir. Müasir insan öz elmi və mənəvi qüvvəsi ilə artıq başlıca olaraq nə bu həyat üçün narahat olmur, nə də bundan sonrakı həyat üçün narahat olmağa yönləndirilə bilməz, müasir insan istilalar – təbiətin istilaları və digər insanların istilası axtarışındadır. İnsanın özünə arxayın düşüncəsindən qaynaqlanmış maşın əsri müasir insana belə bir inam təlqin etmişdir ki, o, köməksiz olan səyləri ilə indiki halda özünü xilas edə bilər. Beləliklə, həmin inamı inkar edən və ilahi müdaxiləyə arxalanan ənənəvi dinləri özlərinin cansız təsvirlərinə çevrilib. Müasir insanın elmi və mənəvi yaşam mənbəyi elm, inqilab, yaxud da millətçiliyin müqəddəs müharibəsi vasitəsilə qurtuluş

vəd edən siyasi məzhəblərə axır. Maşın əsri öz uğurlarını yaradır və irəliyə doğru atılmış hər bir addım texnoloji inkişaf yolunda arxasınca daha iki addım gətirir. O həmçinin öz hərbi və siyasi qələbələrini yaradır; çünki dünyanı istila etmək və onu istilası altında saxlamaq imkanı ilə o onu istila etmək arzusunu doğurur.

Lakin o həmçinin öz dağıntılarını da yarada bilər. Total xalqlar tərəfindən total paylar uğrunda aparılan total müharibə müasir qüvvələr tarazlığının şərtləri altında dünya ağalığı, ya da dünyanın məhvi, ya da hər ikisi ilə nəticələnə bilər. Çünki dünya ağalığına iki iddiaçıdan hər biri özü üçün nisbətən kiçik itkilərlə istila həyata keçirə bilər; yaxud da onlar bir-birini məhv edərək, heç biri istila həyata keçirmək iqtidarında olmaz, yaxud da ən az zəiflədilən universal dağıdıcılığa rəhbərlik edərək istila həyata keçirə bilər. XX əsrin ikinci yarısında dünya siyasətinə kölgə salan perspektivlər belədir.

Beləliklə, biz tam bir dövrəni başa vurduq. Biz müasir dünya siyasətinin millətçi universalizmin yeni mənəvi qüvvəsində hərəkətverici elementini müəyyən etdik. Biz iki dəyişməz blok arasında fəaliyyət göstərən sadələşdirilmiş qüvvələr tarazlığının böyük xoş hadisə, yaxud böyük pis hadisənin müjdəçisi olduğunu üzə çıxardıq. Biz total müharibənin imkanlarında təhlükə aşkar etdik. Lakin total müharibəni mümkün edən ünsür – müasir həyatın mexanikləşməsi – həmçinin total müharibə vasitəsilə total ağalığa nail olmaq məqsədi daşıyan mənəvi qüvvənin meydana çıxmasına şərait yaradır. Dövrümüzün mənəvi, siyasi və texniki olmaqla üç böyük inqilabı növbəti ortaq xüsusiyyətə malikdir: onlar bir-birini dəstəkləyir və eyni istiqamətə, yəni qlobal toqquşmaya doğru hərəkət edir. Onların vaxta görə uyğunluğu və paralel inkişafı Qərb sivilizasiyasının mövcudluğu üçün onların hər birinin ayrılıqda daşıdığı təhlükəni ağırlaşdırır.

Bu inqilabların qarşılıqlı əlaqəsi üç mühüm nəticəyə malik olmuşdur: Avropanın siyasi dünyanın mərkəzi kimi həmişəlik süqutu, iki superdövlətin şübhə doğurmayan görkəmli mövqeyə yüksəlməsi və Asiyanın müstəqil siyasi və mənəvi amil kimi peyda olması. Asiyanın Avropadan siyasi azadlığı onun Qərbə mənəvi müxalifliyinin ehtimalı ilə üst-üstə düşdüyü kimi, Vaşinqton və Moskvanın dünyanın siyasi mərkəzləri kimi yüksəlişi onların universal siyasi məzhəblərə çevrilməsi ilə üst-üstə düşür. Avropanın dünyanın siyasi, mənəvi və texnoloji mərkəzi kimi süqutu onun dünya ekspansiyası vasitəsilə məhvinin, müasir dövlət sisteminin kövrək sosial mexanizminin, müasir texnologiyanın Avropadan dünyanın dörd bir yanına yayılmasının, Avropanın mənəvi ideyalarının Asiyada zəfərinin özü ilə gətirdiyi nəticə idi. Avropa öz siyasi, texnoloji və mənəvi nailiyyətlərini dünyaya verdi, dünya isə onlardan Avropanın üstünlüyünə son qoymaq üçün istifadə etdi.

Çağdaş dünya siyasətinin və onun potensiallarının bu tutqun mənzərəsinin müqabilində biz dövrümüzün ən mühüm problemini – sülh problemini nəzərdən keçirməliyik.

VIII FƏSİL

SÜLH PROBLEMİ: MƏHDUDİYYƏTLƏR VASİTƏSİLƏ SÜLH

23. Tərk-silah

DÖVRÜMÜZDƏ SÜLH PROBLEMİ

Bir nəsildə iki dünya müharibəsi və nüvə müharibəsinin potensial imkanları beynəlxalq nizamın qurulması və beynəlxalq sülhün qorunub saxlanmasını Qərb sivilizasiyasının birinci dərəcəli narahatlığına çevirib. Müharibəyə həmişə bir fəlakət kimi nifrət bəslənilib. Ərazi dövlətlərinin meydana gəlməsi Müqəddəs Roma imperiyasını xristianlığın real siyasi təşkilatından boş zirehə və hüquqi uydurmaya çevirdiyi zaman yazıçılar və dövlət adamları Qərb dünyasının itirilmiş siyasi birliyi üçün əvəzedicilər haqqında daha çox düşünməyə başladılar. XVI əsrdə Erasmus, XVII əsrdə Suli, Emerik Kryus, Hüqo Qrotsi və Uilyam Pen və XVIII əsrdə abbat Müqəddəs Pyer, Russo, Bentam və Kant XIX-XX əsrlərdə beynəlxalq nizam və sülh problemlərini həll etmək üçün edilmiş təcrübi cəhdlərin böyük intellektual carçıları olublar.

"Müqəddəs ittifaq", 1899 və 1907-ci illər Haaqa sülh konfransları və Birləşmiş Millətlər Təşkilatı bu cəhdlərin məşhur nümunələridir. Bu təşkilatlar və konfranslar, eləcə də dinc dünya formalaşdırmağa edilən digər daha az diqqət cəlb edən cəhdlərlə XIX əsrin əvvəlində bir nöqtədə birləşməyə başlamış və iki dünya müharibəsi arasındakı dövrdə beynəlxalq münasibətlərə dair hakim olmuş nəzəriyyə və təcrübədə kulminasiyasına çatmış dörd: ilahi, mənəvi, elmi və siyasi amilin köməyi ilə mümkün olmuşdur.

Stoiklərin dövründən və erkən xristianlıqdan etibarən Qərb sivilizasiyasında bəşəriyyətin özünə uyğun siyasi təşkilat tapmağa can atan mənəvi birlik hissi mövcud olmuşdur. Roma imperiyası universal çərçivəli belə siyasi təşkilat idi. Onun süqutundan sonra Roma imperiyası əsrlər boyu Qərb dünyasının birliyinin rəmzi xatırladıcısı və Böyük Karlı Napoleondan daha az ilhamlandırmayan əsas məqsəd və meyar oldu və dini müharibələrin başlanğıcına qədər Müqəddəs Roma imperiyasının siyasətini təyin etdi. Təsadüfi deyil ki, 1806-cı ildə Müqəddəs Roma imperiyasının parçalanması Napoleonun onu yenidən dirçəltmək cəhdi ilə üst-üstə düşürdü və müasir tarixin beynəlxalq nizamın bərpasını öz əsas məqsədlərindən birinə çevirmiş dövrünün başlanğıcından 10 ildən bir az əvvələ təsadüf edirdi.

Sabit və dinc beynəlxalq nizamın yaradılmasına edilən bu cəhdlərin mənəvi kökləri Qərb dünyasının keçən əsrlərdə şahidi olduğu insanpərvərlikdə və insan münasibətlərinin sivilləşmiş xarakterində axtarılmalıdır. Maarifçilik fəlsəfəsi və liberalizmə dair siyasi nəzəriyyə insan həyatına hörmət və insanın rifahının təbliğini postulat kimi qəbul edir. XIX-XX əsrlərin böyük siyasi və iqtisadi islahatları ilhamını bu postulatlardan alır. Hüququn, sülhün və nizamın ağalığını beynəlxalq dairəyə yaymaq o zaman müasir dövrün həll etməli olduğu böyük humanitar məsələ idi.

Bu inkişafı təbliğ etməli olan intellektual amil kommersiya siniflərinin əvvəlcə sosial, daha sonra isə siyasi əhəmiyyətə yüksəlməsi ilə əlaqəlidir. Onlarla birlikdə müharibə və beynəlxalq anarxiyadan bazarın ölçülə bilən əməliyyatlarının irrasional narahatlıqları kimi ehtiyat edən kommersiya və elm ruhu da görkəmli yerə yüksəldi. Fransız filosofu Diderot yazırdı: "Ticarət edən müxtəlif xalqlar arasında müharibə hamı üçün faydasız olan oddur. Bu, böyük tacirin taleyini təhdid edən və borclu olduqlarının bənizini qaçırır".[1]

Kanta görə, "kommersiya ruhu müharibə ilə birlikdə mövcud ola bilməz".[2] Beləliklə, XVIII əsrin sonuna doğru çox insanda belə bir əminlik yarandı ki, müharibə artıq aktuallığını itirmişdir, yaxud istənilən halda atavizmdir və bəşəriyyətin yekdil rasional səyi ilə o, yer üzündən nisbətən asanlıqla silinə bilər.

Lakin Napoleon müharibələrinin kataklizmi beynəlxalq nizam və sülh probleminin həlli üçün nəzəri axtarışın təcrübi tədbirlərlə tamamlanmasına ehtiyac olduğunu nümayiş etdirdi. Bu baxımdan Napoleon müharibələrinin əhəmiyyəti ikiqatdır. Onlar qüvvələr tarazlığını məhv etdi və onun müvəqqəti olaraq universal imperiya ilə əvəzlənməsi təhlükəsini yaratdı. Bu amil 1815-ci ildə Napoleonun qəti məğlubiyyəti ilə ötüb-keçdiyi halda, digər element müasir dövlət sisteminin sabitliyini bir əsr yarım təhdid etmiş və hələ də öz qüvvəsini itirməmişdir. Həmin digər element millətçilikdir. Millətçilik ideyasını doğuran Fransa inqilabı olmuşdur və o, Napoleonun istilaları ilə Avropaya daşınmış, müasir dövlət sisteminin təşkilati prinsipi olmuş və 1815-ci ildə hələ də sülh tənzimləmələrinin bünövrəsində duran sülalə hüquqiliyi prinsipinə kölgə saldı.

XIX əsrin əvvəlində bu dörd təcrübənin bir nöqtədə birləşməsi və onların Napoleon müharibələrinin gətirdiyi sarsıntı ilə dinamik şəkildə siyasi səhnəyə daxil olması keçən əsr yarım ərzində müharibə və beynəlxalq anarxiyaya alternativlərin axtarışına kömək etmiş elmi və mənəvi enerjini təmin etdi. Bu axtarış sadə ideyalar, ümidlər və xəbərdarlıqlar sahəsini tərk edənə və beynəlxalq xarakterin həqiqi tədbirlərini və təsisatlarını maddiləşdirənə qədər (bizim burada haqqında bəhs

[1] "Fragments politiques," *Œuvrescomplètes*, Vol. IV (Paris: Garnier Fréres, 1875), səh. 42.
[2] *Perpetual Peace* (New York: Macmillan, 1917), səh.157.

etdiyimiz yalnız sonuncudur) üç müxtəlif daşıyıcı vasitəsilə davam etdirilmişdir: (1) beynəlxalq siyasətin dağıdıcı və anarxik meyillərinin məhdudlaşdırılması; (2) dağıdıcı və anarxik meyillərin tamamilə aradan qaldırılması ilə beynəlxalq siyasətin transformasiyası; (3) beynəlxalq siyasətin dağıdıcı və anarxik meyillərini rasional məqsədlərdən məhrum etməklə fərqli maraqları bir-birinə uyğunlaşdırmaq.

Məhdudiyyətlər qoymaq üsulu ilə sülhə nail olmaq cəhdlərinin ən çox davamlısı tərk-silah olmuşdur.

TƏRK-SİLAHIN TARİXİ

Tərk-silah silahlanma yarışına son qoymaq məqsədilə müəyyən, yaxud bütün silahların azaldılması, yaxud da məhv edilməsidir. Belə bir inam mövcuddur ki, güc uğrunda mübarizənin bir səciyyəvi təzahürünü ortadan götürməklə həmin mübarizənin səciyyəvi nəticələrini: beynəlxalq anarxiya və müharibəni aradan qaldırmaq olar.

Dörd əsas fərq nəzərdə saxlanılmalıdır: tərk-silah və silahlara nəzarət arasındakı fərq, ümumi və lokal tərk-silah arasındakı fərq, kəmiyyətə görə və keyfiyyətə görə tərk-silah arasındakı fərq və adi və nüvə tərk-silahı arasındakı fərq. Tərk-silah silahların azaldılması, yaxud da məhv edilməsi olduğu halda, silahlara nəzarət hərbi sabitlik tədbiri həyata keçirmək məqsədilə silahlanma yarışını tənzimləməyə aiddir. Ümumi tərk-silahdan danışan zaman biz bütün əlaqədar dövlətlərin iştirak etdiyi tərk-silahı nəzərdə tuturuq. Nümunə kimi 1922-ci ildə bütün dəniz dövlətləri tərəfindən imzalanmış dəniz silahlarının azaldılmasına dair Vaşinqton müqaviləsini və dövlətlər birliyinin faktiki olaraq bütün üzvlərinin təmsil olunduğu 1932-ci il Dünya tərk-silah konfransını göstərmək olar. Dövlətlərin yalnız məhdud sayının ehtiva olunduğu tərk-silah isə lokal tərk-silahdır. ABŞ və Kanada arasında 1817-ci il Raş-Baqot razılaşması bu növ tərk-silahın nümunələrindəndir. Kəmiyyətə görə tərk-silah əksər, yaxud bütün növ silahların tam tərk-silahı məqsədini daşıyır. Bu, 1932-ci ildə Dünya tərk-silah konfransında iştirak etmiş əksər dövlətlərin məqsədi olmuşdur. Keyfiyyətə görə tərk-silah yalnız müəyyən xüsusi növ silahların azaldılması, yaxud məhvini nəzərdə tutur, məsələn, 1932-ci il Dünya tərk-silah konfransında Böyük Britaniyanın təcavüzkar silahların qeyri-qanuni elan edilməsinə etdiyi cəhd, yaxud nüvə silahlarının məhvi və onlar üzərində nəzarət haqqında Birləşmiş Millətlər Təşkilatının Atom Enerjisi Komissiyasında müzakirələrin aparılması və həmin silahların ABŞ və Sovet İttifaqı Arasında SALT (Strateji Silahların Məhdudlaşdırılmasına dair Müqavilə) razılaşmalarının və START (Strateji Silahların Azaldılmasına dair Danışıqlar)

danışıqlarının obyekti olması kimi. Nüvə və adi silahlar arasındakı fərq silahlar üzərində nəzarət və tərk-silaha dair ilkin siyasi və hərbi şərtlərə təsir göstərir.

Tərk-silah cəhdlərinin tarixi çoxsaylı uğursuzluqlar və sayı az olan uğurlar hekayəsidir. Həm uğursuzluqlar, həm də uğurlar beynəlxalq nizam və sülhü təmin etmək aləti kimi tərk-silahın qaldırdığı fundamental problemləri ciddiləşdirir.

Uğursuzluqlar

Ümumi sülhün təmin edilməsi tədbiri kimi[1] tərk-silahın xeyrinə atılan ilk əməli addım beynəlxalq münasibətlərin elə bir dövrünün başlanğıcı ilə üst-üstə düşür ki, həmin dövrdə dövlət adamları öz səylərini hər zaman olduğundan geniş həcmdə beynəlxalq sülh və nizamın bərqərar edilməsinə həsr ediblər. 1816-cı ildə Rusiya çarı Britaniya hökumətinə "bütün növ silahlı qüvvələrin sayının eyni vaxtda azaldılması"nı təklif etdi. Britaniya monarxı buna belə bir təkliflə cavab verdi ki, Rusiyanın təklifi hər bir dövlətin ordusunun nisbi gücünün bütün dövlətlərin hərbi nümayəndələri tərəfindən müəyyən edilməli olduğu beynəlxalq konfrans formasında yerinə yetirilsin. Avstriya və Fransa təklifi rəğbətlə qarşıladı, lakin təklif heç bir hökumət tərəfindən ciddi şəkildə nəzərdən keçirilmədi və heç bir əməli nəticə hasil etmədi. 1831-ci ildə Fransa hökuməti böyük dövlətlərin nümayəndələri qarşısında oxşar təkliflərlə çıxış etdi. Bu təkliflər iltifatla qəbul olundu, lakin onlar haqqında daha heç nə eşidilmədi. Eyni sözləri III Napoleonun 1863, 1867 və 1869-cu illərdə silahların ümumi azaldılmasına dair təklifləri haqqında da söyləmək olar. 1870-ci ildə Fransa-Prussiya müharibəsi başlamazdan bir az əvvəl Böyük Britaniya Fransanın təhriki ilə iki dəfə silahların azaldılması məsələsi ilə əlaqədar Prussiya hökumətinə yanaşdı, lakin uğursuz oldu.

1877-ci ildə İtaliya tərəfindən edilmiş digər belə bir yanaşma eyni formada Almaniya tərəfindən rədd edildi. 1899-cu il I Haaqa sülh konfransının əsas məqsədlərindən biri silahların və hərbi büdcənin məhdudlaşdırılması idi. Orada aralarında bütün aparıcı dövlətlərin də olduğu 28 dövlətin nümayəndələri iştirak edirdilər. Konfransın tərk-silaha dair müşavirələrinin nəticələri iki qətnamədə ifadə olunur və onlar öz-özlüyündə hər şeyi deyir. Həmin müşavirələrin keçirildiyi komitə bəyan etdi ki, "bu gün dünyanın üstündə ağır boyunduruq olan hərbi xərclərin məhdudlaşdırılması bəşəriyyətin maddi və mənəvi rifahının artırılması üçün olduqca arzuolunan olması fikrindədir".[2] Bütün konfrans bu qətnaməni qəbul

[1] XVIII əsrdə lokal tərk-silah sahəsində azsaylı addımlar atılıb.
[2] James Brown Scott, *The Proceedings of the Hague Peace Conference. The Conference of 1899* (New York: Oxford University Press, 1920), səh. 390.

etməklə "hökumətlərin konfransda irəli sürülmüş təklifləri nəzərə alaraq, quruda və dənizdə silahlı qüvvələrin, eləcə də müharibə büdcələrinin məhdudlaşdırılmasına dair razılaşmanın qəbul edilməsinin mümkünlüyünü nəzərdən keçirə biləcəkləri arzusu"nu ifadə etdi.

42 dövlətin iştirak etdiyi 1907-ci il II Haaqa sülh konfransı "1899-cu il konfransı tərəfindən hərbi xərclərin məhdudlaşdırılmasına dair qəbul olunmuş qətnamə"ni təsdiq etdi "və həmin dövrdən, demək olar ki, hər bir ölkədə hərbi xərclər əhəmiyyətli dərəcədə artdığına görə konfrans bəyan edir ki, hökumətlərin bu məsələnin ciddi araşdırılmasını davam etdirməli olması xüsusilə arzuolunandır".[1] Konfransın Rusiya nümayəndəsi olan prezidenti hər iki konfransın tərk-silaha dair yekun qətnaməsini aşağıdakı qeyd ilə ümumiləşdirdi: "Əgər məsələ 1899-cu ildə yetişmədisə, o, 1907-ci ildə artıq yetişə bilməz. Bu istiqamətlərdə nəsə etmək mümkün olmayıb və konfrans bu gün onlara əl atmaq üçün özünü 1899-cu ildəki kimi az hazır hesab edir".[2]

Versal müqaviləsi "bütün dövlətlərin silahlarının ümumi şəkildə məhdudlaşdırılmasının qəbulunu mümkün etmək üçün"[3] Almaniyanın silahlarının kəskin şəkildə məhdudlaşdırılması şərtini irəli sürərək ümumi sülhün təmin edilməsi üsulu kimi tərk-silaha doğru digər bir addım atdı. Millətlər Cəmiyyətinin Nizamnaməsinin 8-ci maddəsi daha xüsusiləşmiş şəkildə bəyan etdi ki, "sülhün qorunub saxlanması dövlətin silahlarını milli təhlükəsizliyə uyğun şəkildə ən aşağı səviyyəyə qədər azaltmağı və ümumi fəaliyyətlə beynəlxalq öhdəliklərin yerinə yetirilməsini tələb edir". O, Millətlər Cəmiyyətinin Şurasına belə azaltma üçün planlarının hazırlanmasını tapşırdı. Bu qeyd-şərtlərin yerinə yetirilməsi üçün Şura 1925-ci ildə tərk-silah konfransına hazırlıq komissiyası təsis etdi. Onun gəldiyi ilkin və natamam nəticələr 1932-ci ildə Cenevrədə çağırılmış Beynəlxalq tərk-silah konfransına göndərildi. 1933-cü ildə Almaniyanın iştirakdan imtina etməsi ilə konfransın sonu göründü. Onun ümumi komissiyası 1933-cü ildə axırıncı dəfə toplandı. Beynəlxalq tərk-silah konfransı tam bir uğursuzluq oldu və hər hansı formal razılaşma əldə edə bilmədi.

Ümumi tərk-silah üçün göstərilən bu səylər İkinci Dünya müharibəsi ilə dayandırıldı. Millətlər Cəmiyyətinin Nizamnaməsinin yarımçıq qoyduğu işi Birləşmiş Millətlər Təşkilatı davam etdirdi. Nizamnamənin 11-ci maddəsinin 1-ci maddəsinə uyğun olaraq, "Baş Assambleya tərk-silahın idarə edilməsi və silahlanmanın nizamlanması prinsipləri də daxil olmaqla beynəlxalq sülh və

[1] Yenə orada, *The Conference of 1907*, Vol. I, səh. 89, 90.
[2] Yenə orada, səh. 92.
[3] Versal müqaviləsinin V fəslinin girişi

təhlükəsizliyin qorunub saxlanması sahəsində əməkdaşlığın prinsiplərini nəzərdən keçirə və bu prinsiplərə dair üzvlərə, yaxud Təhlükəsizlik Şurasına, ya da hər ikisinə tövsiyələr verə bilər". Nizamnamənin 26-cı maddəsində göstərilir ki, "beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsi və qorunub saxlanmasının dünyanın insan və iqtisadi resurslarının silahlanmaya ən az meyil ilə təbliği üçün Təhlükəsizlik Şurası silahlanmanın tənzimlənməsi sisteminin qurulması üçün Birləşmiş Millətlər Təşkilatının üzvlərinə ...göndərilməli planların hazırlanması üçün məsuliyyət daşıyır".

Nizamnamənin bu müddəalarının yerinə yetirilməsi üçün Baş Assambleya 24 yanvar 1946-cı il tarixli qətnaməsi ilə "atom enerjisindən yalnız dinc məqsədlər üçün istifadə olunduğuna nəzarət etmək; dövlətlərin silahları sırasından atom silahlarının və bütün digər kütləvi qırğın silahlarına uyğun əsas silahların çıxarılması"[1] üçün xüsusi təkliflər verməli olan Atom Enerjisi üzrə Komissiya yaratdı. Adi silahlara dair Baş Assambleya 14 dekabr 1946-cı ildə "Silahlanmanın ümumi tənzimlənməsi və silahların azaldılmasının idarə edilməsinin prinsipləri"[2] haqqında qətnamə qəbul etdi. Baş Assambleya bununla "silahlanmanın erkən ümumi tənzimlənməsi və silahların və silahlı qüvvələrin azaldılmasının zəruriliyi"ni bəyan etdi və Təhlükəsizlik Şurasını bu məqsədlə zəruri əməli üsulları təxirə salmadan nəzərdən keçirməyə çağırdı. Nəticədə 13 fevral 1947-ci ildə Təhlükəsizlik Şurası Adi Silahlara dair Komissiyanın yaradılması haqqında qətnamə qəbul etdi. Bu komissiyanın məqsədi "(a) silahlanmanın ümumi tənzimlənməsi və silahların və silahlı qüvvələrin azaldılması və (b) silahlanmanın ümumi tənzimlənməsi və silahların azaldılması ilə əlaqədar praktiki və səmərəli təminatlar üçün təkliflər"[3] hazırlamaq idi.

Birləşmiş Millətlər Təşkilatı atom silahları və adi silahlar arasında bu fərqi müəyyən etməklə atom tərk-silahı üzrə ayrılıqda əldə olunan irəliləyişin adi silahlar sahəsində tərk-silaha təkan verəcəyi ümidi ilə hərəkətə keçdi. Nə Adi Silahlara dair Komissiya, nə də ki Atom Enerjisi üzrə Komissiya qarşılarında duran ciddi məsələlərə dair heç bir razılaşma əldə etməyə müvəffəq olmadı. Bununla da Baş Assambleya 11 yanvar 1952-ci ildə iki komissiyanın fəaliyyətini birləşdirməyi və Təhlükəsizlik Şurasının üzvləri və Kanadadan təşkil olunmuş yeni Tərk-silah Komissiyasının yaradılmasına qərar verdi. O, razılaşmaya nail ola bilməyərək, Baş Assambleyanın 28 noyabr 1953-cü il tarixli, "başlıca olaraq cəlb edilmiş dövlətlər tərəfindən" danışıqlara çağıran qətnamənin icrasına uyğun olaraq, Çin, Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ-dan təşkil olunmuş

[1] Baş Assambleyanın qətnaməsi, *Atomic Energy Official Record, Supplement No. 1*; həmçinin *U.N. doc.* A/64, səh. 9.
[2] *Journal of the United Nations*, No.75, Supp. A-64, add. 1, səh. 827.
[3] *U.N. doc.* S/P.V. 105.

altkomitə ilə əvəz olundu. Sovet İttifaqının qarşı olduğu bu altkomitə 29 avqust 1957-ci ildə tərk-silah razılaşmasının layihəsini hazırlayıb Baş Assambleyaya göndərdi və sonuncu 14 noyabr 1957-ci ildə onu qəbul etdi.

Sovet İttifaqı Tərk-silah Komissiyasının, yaxud onun altkomitəsinin gələcək hər hansı danışıqlarında iştirak etməkdən imtina etdi və Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərindən təşkil edilmiş Tərk-silah Komissiyasının yaradılmasına çağırış etdi. Güzəşt addımı olaraq Baş Assambleya 19 noyabr 1957-ci ildə komissiyanın üzvlərinin sayını 25-ə qaldırdı. Yeni komissiya fəaliyyətsiz qaldı; və 1958-ci ilin əvvəlindən etibarən tərk-silaha dair danışıqlar – onlar, əsasən, nüvə sınaqlarının dayandırılması və gözlənilməz hücumların qarşısının alınmasına aid idi – Birləşmiş Millətlər Təşkilatı Komissiyasından kənarda Albaniya, Kanada, Çexoslovakiya, Fransa, Böyük Britaniya, İtaliya, Polşa, Rumıniya, Sovet İttifaqı və ABŞ tərəfindən davam etdirildi. 1959-cu ildə həmin dövlətlər tərk-silaha dair ümumi problemi müzakirə etmək üçün Birləşmiş Millətlər Təşkilatından kənarda yeni tərk-silah komissiyası yaratdı və Albaniyanın Bolqarıstan tərəfindən əvəz olunması ilə 1960-cı ildə konfrans çağırıldı. Konfransın davamlı durğunluğundan sonra sovet bloku həmin ilin iyununda onu tərk etdi. 1962-ci ilin martında Birləşmiş Millətlər Təşkilatının himayəsi altında 18 dövlətin iştirak etdiyi ümumi tərk-silah konfransı çağırıldı. Lakin o, vaxtaşırı toplansa da, heç bir nəticə əldə edilmədi və Fransa tərəfindən də əvvəlcədən boykot edilmişdi.

Uğurlar

XIX əsrin yeganə uğurlu tərk-silah müddəalarına 1817-ci ildə ABŞ və Kanada arasında sərhəd xəttinə dair imzalanmış Raş-Baqot razılaşmasında rast gəlinir. O, Böyük Göllərin dəniz qüvvələrini hər bir dövlət üçün bərabərtutumlu və bərabər silahlanmış üç gəmi ilə məhdudlaşdırır. Kanadaya "Ox dövlətləri"nə qarşı istifadə etmək üçün Böyük Göllərdə gəmilər düzəltməyə icazə vermək üçün İkinci Dünya müharibəsində dəyişdirilmiş razılaşma bu günə qədər qüvvədə qalmışdır.[1]

Uğur və uğursuzluqdan ibarət olan tərk-silah üzrə görülən tədbirlərin məşhur nümunəsi 1922-ci ildə dəniz silahlarının məhdudlaşdırılmasına dair Vaşinqton müqaviləsidir. Bu müqavilə ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa və İtaliya arasında böyük döyüş gəmilərində təxmini bərabərliyi təmin etdi və ingilisdilli ölkələri öz arxasınca apardı. Nəticədə Britaniya imperiyası, ABŞ və Yaponiya döyüş gəmilərində olan güclərinin təxminən 40 faizini itirdi. Bundan əlavə, belə bir

[1] Onun davamlı pozulmaları üçün bax: James Eayrs, "Arms Control on the Great Lakes," *Disarmament and Arms Control*, Vol. II, No. 4 (Autumn 1964), səh. 372 və növbəti səhifələr

qeyd-şərt qoyuldu ki, 1931-ci ildə başlamalı olan yerdəyişmələr 1942-ci ilə qədər Britaniya imperiyası, ABŞ, Yaponiya, Fransa və İtaliyanın böyük gəmiləri üçün 5:5:3:1, 67:1, 67 nisbətini bərqərar etməli idi. Bununla belə, Vaşinqton konfransı döyüş gəmilərindən başqa, kreyserlər, eskadra mina gəmisi və sualtı qayıqlar kimi istənilən dəniz nəqliyyatı vasitəsinə dair razılaşma hasilə gətirməkdə uğursuz oldu.

Yalnız Böyük Britaniya, Yaponiya və ABŞ-ın iştirak etdiyi 1927-ci il dəniz konfransı da eyni şəkildə bu məsələdə razılıq əldə etməyə nail olmadı. Nəhayət, 1930-cu il London dəniz konfransında ABŞ, Böyük Britaniya və Yaponiya ABŞ və Britaniya arasında kreyser, eskadra mina gəmisi və sualtı qayıqlara görə tarazlığa dair razılıq əldə olundu, Yaponiya isə bu kateqoriyalarda ABŞ və Böyük Britaniyanın gücünün üçdə ikisi ilə məhdudlaşdı. Fransa və İtaliya müqaviləyə qoşulmadı, çünki İtaliya Fransa ilə bərabərlik tələb edirdi, Fransa isə güzəştə getməkdən imtina edirdi.

1934-cü ilin dekabrında Yaponiya 1922-ci il Vaşinqton müqaviləsindən imtina etmək niyyətini rəsmi şəkildə bəyan etdi. O, 1935-1936-cı illər London dəniz konfransına bütün dəniz silahları kateqoriyasında bərabərlik tələbini göndərdi. Həmin tələb ABŞ və Böyük Britaniya tərəfindən rədd edildi. Nəticədə Yaponiya fəaliyyət azadlığına yenidən sahib oldu. Konfransın dəniz silahlarının ölçüsünə təsirinə görə əldə etdiyi yeganə nəticə ABŞ, Böyük Britaniya və Fransa arasında əldə edilmiş, 1937-ci ildə Almaniya və Sovet İttifaqının qoşulduğu, gəmilərin maksimum ölçüsünü məhdudlaşdırmış, heç bir digər dövlətin həmin maksimumu keçməməsini təmin etmiş razılaşma oldu. 1935-ci ildə imzalanmış ayrıca ingilis-alman razılaşması Almaniyanın ümumi dəniz qüdrətini Britaniyanın dəniz qüdrətinin 35 faizi qədərində müəyyənləşdirdi və sualtı qayıqlarda Almaniyaya Britaniya imperiyasının gücünə bərabər güc toplamaq icazəsi verdi və təmin etdi ki, Almaniyanın sualtı tonnajı 35 faiz limiti çərçivəsində qalsın.

Nüvə tərk-silahı və nüvə silahlarına nəzarət sahəsində uğurlar 1972 və 1975-ci illər SALT razılaşmaları hesab olunur. Raket əleyhinə müdafiə (ABM – antiballistic missiles) sistemlərinin məhdudlaşdırılmasına dair müqavilə həqiqi tərk-silahı nəzərdə tutur. O, ABM sistemlərinin ABŞ və Sovet İttifaqının ərazisinin müdafiəsi üçün cəbhə boyu yerləşdirilməsini qadağan edir. O, ABM-in yerləşdirilməsini radiusu 150 km olan iki ərazinin hər birində – onlardan biri iki dövlətin müvafiq paytaxtı olmaqla – 100 sayında məhdudlaşdırır. Müdafiə raketləri haqqında ilkin razılaşma o mənada silahlara nəzarət tədbiridir ki, strateji nüvə hücum silahlarının müxtəlif növlərinə say məhdudiyyəti qoyur. O, qitələrarası ballistik raketlərin (ICBM – intercontinental ballistic missiles) sayını razılaşmanın imzalandığı anda istifadə olunan və hazırlananların sayı ilə məhdudlaşdırdı. Əgər eyni sayda köhnə qurudan buraxılan ICBM-lər, yaxud köhnə qayıqlar və raket

buraxan sualtı qayıqlar sökülübsə, o, əlavə sualtı qayıqların və sualtı qayıqlardan buraxılan ICBM-lərin müəyyən sayının istehsalına icazə verir. 1979-cu ildə prezident Karter və baş katib Brejnev tərəfindən imzalanmış SALT II müqaviləsi Senat tərəfindən ratifikasiya edilmədiyi halda, hər iki superdövlət 1984-cü ildə kağız üzərində rəsmiləşdirilməmiş razılaşma ilə onun şərtlərinə sadiq qaldı.

TƏRK-SİLAHIN 4 PROBLEMİ

Uğursuzluqlar haqqında uzun, uğurlar haqqında qısa olan bu məlumat 4 fundamental sual doğurur. Tərk-silah üçün edilən hər hansı xüsusi cəhdin uğuru, yaxud uğursuzluğu bu suallara verilə bilən cavablardan asılıdır:

1. Müxtəlif dövlətlər arasında silahlanmanın nisbəti necə olmalıdır?
2. Bu nisbət daxilində silahların müxtəlif növü və sayı müxtəlif dövlətlər arasında hansı meyarlara uyğun olaraq bölüşdürülür?
3. Bu suallara cavab verildiyi halda silahların nəzərdə tutulan azaldılması baxımından cavabların real nəticəsi nədir?
4. Tərk-silahın beynəlxalq düzən və sülh məsələlərinə təsiri nədən ibarətdir?

Nisbət

Silahlanma və silahlanma yarışı beynəlxalq arenada güc uğrunda mübarizənin təzahürü, həm də ən vacib təzahürlərindən biridir. Tərk-silaha dair texniki arqumentlər, təkliflər, əks-təkliflər və ziddiyyətlər öz əhəmiyyətini bu fundamental amildən alır. Dövlətlər ona görə silahlanır ki, ya özlərini digər dövlətlərə qarşı müdafiə etmək istəyirlər, ya da onlara hücum etmək istəyirlər. Siyasi cəhətdən fəal olan bütün dövlətlər öz təbiətlərinə görə silahlanmanın da zəruri elementi olduğu güc uğrunda mübarizəyə cəlb olunur. Buna görə də siyasi cəhətdən bütün fəal dövlətlər bacardıqları qədər çox güc əldə etmək niyyətində olmalıdır, yəni digər məsələlərlə yanaşı, bacardıqları qədər yaxşı silahlanmalıdır. A dövləti, hansı ki, silahlanmada B dövlətindən geri qaldığını hiss edir, ən azından B dövlətinə bərabər olmağa və mümkün olsa, B dövlətini üstələməyə çalışmalıdır. Digər tərəfdən, B dövləti gücünü artırmasa da, ən azından A dövlətindən üstünlüyünü qoruyub saxlamağa çalışmalıdır. Artıq gördüyümüz kimi[1], silahlanma sahəsində qüvvələr tarazlığının qaçılmaz nəticələri belədir.

A dövləti ilə B dövləti arasında silahlanma yarışında uğrunda mübarizə aparılan məsələ hər iki dövlətin silahlanmasının nisbətidir. Silahlanmada A dövləti B

[1] Bax: səh. 252-253.

dövlətinə bərabər olacaq, yoxsa A dövləti B dövlətini üstələyəcək, yaxud əksinə və əgər belə olacaqsa, hansı həcmdə? Bu sual tərk-silah komissiyaları və konfranslarının gündəliyində birinci yerdə gəlir. O yalnız aşağıdakı alternativ şərtlər altında qaneedici cavab ala bilər: (a) əlaqədar dövlətlər güc uğrunda digər dövlətlər ilə mübarizəyə qoşulmur; (b) dövlət, yaxud dövlətlər qrupu digər dövlət və dövlətlər qrupu üzərində elə bir üstünlüyə malik olur ki, öz xeyirlərinə olan nisbəti qəbul etdirə bilir; (c) iki və daha artıq verilmiş məqamda güc uğrunda azad rəqabətdən daha çox tənzimlənən rəqabətə cəlb olunmağı və hərbi gücün artırılması üçün yırtıcı mübarizədən daha çox razılaşdırılmış hüdudlar daxilində silahlanma yarışına daxil olmağı daha sərfəli hesab edir.

Aydın məsələdir ki, bu alternativlər yalnız lokal tərk-silah şərtləri altında maddiləşə bilər. Çünki, görünür ki, güc uğrunda rəqabət yalnız bu şərtlər altında ya ümumiyyətlə aradan qalxmalıdır, ya da tənzimlənmiş, nisbətən sabit şəklə salınmalıdır və bu, silahlanmanın nisbətində əks olunur. Tərk-silahda azsaylı uğurlu tədbirlərin hamısı, həqiqətən, lokal növdən olub.

Raş-Baqot razılaşması, Vaşinqton müqaviləsi, ingilis-alman dəniz razılaşması

(a) formasının klassik nümunəsi ABŞ və Kanada arasındakı Raş-Baqot razılaşmasıdır. İki ölkənin münasibətlərində bir-birinin ərazisində silahlı axtarışa çevrilə biləcək güc uğrunda rəqabət üçün faktiki olaraq heç bir ehtimal yoxdur. Silahlı münaqişə ehtimalının olmaması 3800 mil uzunluğunda Kanada-Amerika sərhədini dünyanın ən uzun silahlanmamış sərhədi edib. O həmçinin Böyük Göllərdə dəniz tərk-silahının daimi uğuru üçün ilkin siyasi şərtləri təşkil edir.

1922-ci il Vaşinqton müqaviləsi ABŞ və Böyük Britaniya arasındakı əlaqələrə münasibətdə (a) formasının, ABŞ və Böyük Britaniya ilə Yaponiya arasında əlaqələrə münasibətdə isə (b) formasının nümunəsini təmin edir.

ABŞ döyüş gəmilərinin gücünə münasibətdə Böyük Britaniya ilə bərabərliyə cəhd edirdi. O, üstün və hərbi mükəlləfiyyətdən azad sənaye ehtiyatlarına görə bu bərabərliyə nail olmağı qaçılmaz etdi. Yeganə problem onun bu bərabərliyə acı və böyük xərclər hesabına başa gələn rəqabət, yoxsa qarşılıqlı razılaşma yolu ilə nail olacağı idi. İki ölkə arasında belə bir rəqabəti əsaslandıra biləcək siyasi münaqişə mövcud olmadığından iki ölkə hər ikisinin döyüş gəmilərinin faktiki olaraq eyni maksimum tutumu haqqında razılıq əldə etdi.

Bundan əlavə, Birinci Dünya müharibəsi Yaponiyanı Uzaq Şərqdə üstünlüyə malik dəniz dövlətinə çevirmiş və bununla ABŞ və Böyük Britaniyanı dəniz silahlanması yarışına cəlb edərək, onların bu regiondakı maraqlarını təhlükə altına salmışdı. Lakin ABŞ maliyyə və psixoloji səbəblərdən belə bir yarışdan uzaq durmaq üçün narahatlıq keçirirdi. Digər tərəfdən, Böyük Britaniyanı isə Yaponiya

ilə hərbi müttəfiqlik əlaqəsi bağlayırdı. Xüsusilə Britaniya dominionları Yaponiya ilə ABŞ arasında münaqişənin baş verəcəyi halda Yaponiyanın tərəfində olmaq ehtimalından qorxuya düşürdülər. Beləliklə, ABŞ və Böyük Britaniya arasında nəinki müharibəyə gətirib çıxaracaq heç bir siyasi münaqişə yox idi, həmçinin onların hər ikisi də Yaponiya ilə silahlanma yarışına girməkdən uzaq olmaq kimi ortaq marağa sahib idi. Böyük Britaniya Yaponiya ilə müttəfiqliyi pozaraq və ABŞ ilə imkan verildiyi qədər bərabərlik məsələsində razılıq əldə edərək, dəniz silahlanması sahəsində siyasi-hərbi problemlərini həll etdi. ABŞ da həmçinin Böyük Britaniyanı Yaponiyadan ayıraraq və Böyük Britaniya ucuz başa gələn bərabərlik əldə edərək bu sahədə istədiklərinə nail oldu.

ABŞ və Böyük Britaniya arasında bu şəkildə anlaşma Yaponiyanı yalnız təcrid etmədi, həmçinin eyni zamanda onu ağır dəniz silahlarına münasibətdə ümidsiz gerilik mövqeyinə yerləşdirdi. Yaponiya qalib gəlmək şansının olmadığı dağıdıcı silahlanma yarışı başlatmaq əvəzinə, əlverişsiz və alçaldıcı vəziyyətdə ən yaxşı olanını etdi: o həmin vaxt üçün gerilik statusunu qəbul etdi və bu geriliyi yuxarıda qeyd olunmuş nisbətdə sabitləşdirməyə razılaşdı. 30-cu illərin əvvəlində Yaponiyanın Çini işğalına ingilis-amerikan reaksiyası göstərdi ki, Uzaq Şərqə münasibətdə Böyük Britaniya və ABŞ-ın 1922-ci il Vaşinqton müqaviləsini mümkün edən birləşmiş cəbhəsi artıq mövcud deyildi, Yaponiya özünü həmin müqavilənin buxovundan birdəfəlik xilas etdi. Yaponiyanın ingilis-amerikan dəniz hökmranlığına münasibətdə mövqeyinə gəlincə, Vaşinqton müqaviləsinin tərk-silaha dair müddəaları xüsusi siyasi vəziyyətin məhsulu idi. Bu müddəalar onları yaradan siyasi şəraitə dözə bilmədi.

(c) formatının səciyyəvi nümunəsi 1935-ci il ingilis-alman dəniz razılaşması idi. Həmin vaxt Dünya tərk-silah konfransının dağılması və Almaniya hökumətinin siyasəti sonuncunun digər aparıcı hərbi dövlətlər ilə "bərabərlik" adlandırdığı münasibətlərə nail olmaq məqsədilə yenidən silahlanmaq üçün sarsılmaz əzmini göstərdi. Böyük Britaniyaya münasibətdə yenidən silahlanma yalnız Britaniyanın böyük döyüş gəmilərindəki üstünlüyü qarşılamaq üçün daha kiçik qayıqlarda kafi edəcək qədər güc mənasını verə bilərdi.

Digər tərəfdən, Britaniya hökuməti Almaniyanın dənizdə silahlanmasına münasibətdə status-kvonun qorunub saxlanmasına hesablanmış siyasətlərə daxil olmamaqda bərk israrlı idi. Çünki belə siyasətlər müharibə riski, yaxud ən azından Almaniya ilə nəzarətdən çıxmış silahlanma yarışı doğurar və istənilən halda Avropada Almaniyanın hesabına Fransa və Rusiyanın təsirini gücləndirərdi. Belə şərtlər altında Britaniya hökumətinin qarşısında duran məsələ Almaniyanın təkrar silahlanmasının qarşısını necə almaq deyil, təkrar silahlanmaya dair böyük xərclər tələb edən proqram həyata keçirmədən Almaniyanın qarşısında Britaniyanın dənizdəki üstünlüyünü necə qoruyub saxlamaq idi.

1935-ci il ingilis-alman dəniz razılaşması Böyük Britaniya və Almaniyanın bir-birini tamamlayan maraqlarının müqavilə formasına salınması idi. Böyük Britaniya Almaniyanın tutumluluq baxımından dəniz qüdrətini təhlükəsiz məsafədə saxladı. O hətta ehtiyac olduğu təqdirdə öz gəmilərinin tutumunu o qədər və o sürətlə artıra bilərdi ki, gecikmiş və məhdud resurslara malik olan Almaniyanın nə vaxtsa Britaniyanın gəmilərinin tutumunun razılaşdırılmış maksimum 35 faizinə çatması qeyri-mümkün olardı. Almaniyanın məhdudiyyətlər çərçivəsində təkrar silahlanmaq hüququ elə müəyyən edilmişdi ki, onun resursları və digər hərbi öhdəlikləri baxımından o, yaxın gələcəkdə bu hüququnu heç bir halda aşıb keçə bilməzdi.

Xüsusilə razılaşma Almaniyaya sualtı qayıqlarda bərabərlik hüququ vermişdi, sualtı qayıqlar isə Almaniyanın strateji mövqeyi baxımından ümumi tutumda və dəniz gəmilərinin gücündə üstünlüyü inkaredilməz olan bir donanmaya qarşı hücum və müdafiənin təbii üsulları olan dəniz silahları idi. 1939-cu ilin yazında Böyük Britaniya və Almaniyanın yaxınlaşmaqda olan qaçılmaz müharibəyə hazırlıq üçün ümumi silahlanma yarışına daxil olduğu inkaredilməz bir həqiqət idi. Siyasi vəziyyətdə bu dəyişikliyə uyğun olaraq, Almaniya 1939-cu ilin aprelində 1935-ci il razılaşdırmasını qüvvədən düşmüş elan etdi və siyasi məqsədlərinin onu artıq reallıqda gerçəkləşdirməyə vadar etmiş olduğu fəaliyyət azadlığını hüquqi formaya saldı.

SALT razılaşmaları da (c) formasının nümunəsidir. Onlar nüvə silahlarını adi silahlardan fərqləndirən iki əsas reallığın etiraf edilməsindən qaynaqlanır: istifadəsi istənilən halda strateji hücum silahları sahəsində rəqabətə böyük təkan verəcək müdafiə sistemlərinin ikibaşlı təsiri və hər iki superdövlətin potensial düşmənin zəmanət verilmiş məhvi üçün kifayət qədər geniş imkanlara sahib olması. Birinci reallığın etirafı baxımından məhdud ABM-lər müqaviləsi raket əleyhinə müdafiə sistemlərini ümumiyyətlə aradan qaldırmaq əvəzinə, özünü onların nüfuzunu xilas edən alət kimi göstərdi. O, ABM-lərin istifadəsinin yanlış olduğunu qəbul etmək istəməyərək, hər bir dövlətə iki simvolik sistem icazəsi verərək ideyaya haqq qazandırır.

Bütün bu hallarda tərk-silahın iki dövlət, yaxud da dövlətlərin məhdud sayı tərəfindən razılaşdırıldığı və ona görə də lokal xarakter daşıdığını qeyd edəcəyik. Həmçinin qeyd edəcəyik ki, razılaşdırılmış nisbət ya güc uğrunda rəqabətin olmamasında, yaxud bir dövlətin verilmiş zaman üçün digəri üzərində inkaredilməz üstünlüyündə, yaxud da hər iki tərəfin silahlanma rəqabəti formasında güc uğrunda tənzimlənmiş əvəzinə tənzimlənməmiş rəqabətə müvəqqəti üstünlük verməsində əks olunacaq.

Onda əksər, yaxud bütün aparıcı dövlətlərin ümumi tərk-silaha cəhd edərkən eyni zamanda güc uğrunda yarışda iştirak etdikləri halda silahlanmanın nisbətinə dair əldə olunacaq razılaşmanın şansları necədir? Düzünü desək, şanslar sıfırdır. Ümumi tərk-silaha edilmiş bütün cəhdlərin, məsələn, iki Haaqa konfransı, 1932-ci il

Cenevrə konfransı və Birləşmiş Millətlər Təşkilatının tərk-silah komissiyası, eləcə də keçən əsr yarımda həyata keçirilən lokal tədbirlərin əksəriyyətinin uğursuzluğunun səbəbi başlıca olaraq hazırlıqda və heyətdə nöqsanlar, yaxud bəxtsizlik olmamışdır. Onlar hətta ən sərfəli şərtlər altında belə uğur qazana bilməzdilər; çünki əlaqədar dövlətlər arasında güc uğrunda yarışın davam etməsi silahların nisbətinə dair razılığın əldə edilməsini qeyri-mümkün etdi. Bu fikri izah etmək üçün iki nümunə gətirəcəyik: 1932-ci ildə keçirilən Dünya tərk-silah konfransında Fransa və Almaniya arasında ziddiyyətlər və Birləşmiş Millətlər Təşkilatının Atom Enerjisi Komissiyasında ABŞ ilə Sovet İttifaqı arasındakı münaqişə.

Dünya Tərk-silah Konfransı

Birinci Dünya Müharibəsi Fransanı Avropada və dünyada üstünlüyə malik olan dövlətə çevirdi. O, Almaniyanı nəinki Fransa, ümumiyyətlə, heç bir birinci dərəcəli hərbi dövlət ilə müharibə edə bilməyəcək dərəcədə tam tərk-silah etdi. Lakin 1932-ci ildə Dünya tərk-silah konfransı çağırılanda qüvvələrin prinsip olaraq saxlanılmış bu bölgüsü Almaniyanın gizli təkrar silahlanması və Fransa hərbi təsisatının texnoloji və strateji cəhətdən geri qalması ilə dəyişdi. Almaniyanın konfransda hamıya məlum olan məqsədi bunu müdafiə etmək idi. Almaniya öz məqsədinə Fransa ilə özü arasında "hüquq bərabərliyi"nin qəbul edilməsinə nail olmaqla çatmağa çalışırdı; bu, tədricən – yəni bir neçə il ərzində – silahlanmada real bərabərliyə çevrilməli idi. Fransa isə digər tərəfdən öz məqsədlərini Almaniyanın bərabərlik prinsipinə qarşı təhlükəsizlik prinsipi ilə çıxmaqla reallaşdırmağa çalışırdı. Fransanın təhlükəsizlik konsepsiyası təcrübədə o mənanı kəsb edirdi ki, Almaniyanın hərbi qüdrətində istənilən artım Fransanın hərbi gücünə uyğun artımla müşayiət olunacaqdı. Bununla belə, Fransanın hərbi imkanları artıq tükənməyə yaxın idi, lakin Almaniya isə onun Fransa ilə münasibətləri baxımından ən bariz və ən əhəmiyyətli hərbi üstünlüklərindən yalnız ikisi olan əhali resurslarını və sənaye istehsalı imkanlarını hətta istifadəyə belə başlamamışdı.

Belə şərtlər altında Fransa üstün dövlət olmaq potensialına malik olan Almaniya ilə münasibətlərində "təhlükəsiz" olmaq üçün gücünə güc qatmaq üçün sərhədlərinin arxasına üz tutmalı idi. Fransa belə gücü 3 amildə tapdı: Polşa və Kiçik Antanta dövlətləri: Çexoslovakiya, Yuqoslaviya və Rumıniya ilə hərbi ittifaqda; Versal müqaviləsinin ərazi status-kvosunun yeni kollektiv təminatında; və bütün beynəlxalq mübahisələrin Versal müqaviləsinin beynəlxalq hüquqi əsasında məcburi hüquqi nizamlanmasında. Əgər Fransanın təklifləri konfransda qəbul olunsaydı, Almaniyanın hərbi qüdrətindəki artım heçə endiriləcək və o, Almaniya üçün əlverişli siyasi nəticələrdən məhrum ediləcəkdi. Bu, Versal müqaviləsinin status-kvosunu saxlayan

və faktiki olaraq dünyanın bütün dövlətlərinin birləşmiş gücünü onun müdafiəsinə çağıran məhkəmə qərarları ilə yerinə yetiriləcəkdi. Bu səbəbdən Fransanın təkliflərinin qəbul olunmaq üçün heç bir şansı yox idi. Digər tərəfdən, əgər konfrans Almaniyanın planını qəbul etsəydi, Versal müqaviləsinin yaratdığı beynəlxalq nizam və Birinci Dünya müharibəsində müttəfiqlərin qələbəsi ilə bərqərar olmuş status-kvo tədricən, lakin dayanmadan, Almaniya üstün hərbi potensialı hesabına məğlub olunmuş dövlətdən qalib dövlətə çevrilənə qədər iflasa uğrayacaqdı.

Ona görə də Fransa və Almaniya arasında müvafiq silahların nisbətinə münasibətdə ziddiyyət mahiyyətinə görə qüvvələr bölgüsünə görə münaqişə idi. Keçmişə aid analiz nümayəndə heyətlərinin konfransda təhlükəsizliyin bərabərliyə qarşı ideoloji mənasında ifadə etdiklərinin arxasında beynəlxalq siyasətin hərəkətverici qüvvəsini aşkara çıxarır: bir tərəfdə mövcud qüvvələr tarazlığını özünü status-kvo siyasətində büruzə verən qoruyub saxlamaq arzusu, digər tərəfdə mövcud qüvvələr tarazlığını özünü imperializm siyasətində büruzə verən aradan qaldırmaq arzusu. Ona görə də Fransa və Almaniyanın müvafiq silahlarının nisbətinə dair razılığa gələcəklərini gözləmək onların aralarındakı qüvvələr bölgüsünə dair razılığa gələcəklərini gözləməyə bərabər idi. Real üstün olan Fransa ilə potensial üstünlüyə malik Almaniya arasında sonuncu məsələyə dair kompromis formasında razılaşmanın əldə olunması, bəlkə də – şübhə çoxdur – 20-ci illərdə mümkün ola bilərdi. Hitlerin hakimiyyətə gəlməsi ərəfəsində bu, müzakirə mövzusu deyildi və beləliklə, bunun kimi, silahların nisbətinə dair razılaşma da müzakirə mövzusu deyildi.

Almaniya üçün bərabərlik tələbindən əl çəkmək gücdə geriliyini daimi və hüquqi şəkildə qəbul etmək və yenidən Avropada üstün olmaq üçün bütün istəklərindən imtina etmək demək olardı. Fransa üçün təhlükəsizlik tələblərindən əl çəkmək isə öz üstünlük mövqeyini tərk etmək və Almaniyanın birinci dərəcəli dövlət kimi geri qayıtması ilə susaraq razılaşmaq olardı. Ona görə də Almaniya və Fransa arasında müvafiq silahlarının nisbətinə münasibətdə çıxılmaz vəziyyətin tərk-silah baxımından həlli mümkün deyildi. Bu, iki ölkə arasında üstünlük uğrunda mübarizənin təzahürü olduğundan həmin çıxılmaz vəziyyət əgər ümumiyyətlə həll oluna bilərdisə, yalnız ölkələr arasında qüvvələrin ümumi bölgüsü baxımından həll oluna bilərdi.

İkinci Dünya müharibəsindən sonra tərk-silaha dair danışıqlar

Birləşmiş Millətlər Təşkilatının bir neçə komissiyasının və onların Birləşmiş Millətlər Təşkilatından kənardakı davamçılarının səhnə olduğu tərk-silaha dair danışıqlar 1932-ci ildə keçirilmiş Dünya tərk-silah konfransı üçün zəruri zəminin hazırlanmasını olduqca sadələşdirdi. Hər iki tərəf – yəni başlıca olaraq ABŞ və

Sovet İttifaqı – ya həmin tərəf üçün əlverişli olduğu müddətcə hərbi qüvvələrin bölgüsünü sabitləşdirəcək, ya da onu öz xeyrinə dəyişəcək təkliflər irəli sürdü. Adi silahlar sahəsində Sovet İttifaqı onun üstünlüyünü toxunulmaz edəcək mütənasib azalma təklif etdi, bu zaman Qərb dövlətləri həmin üstünlüyü aradan qaldıracaq, yaxud ən azından kəskin şəkildə azaldacaq təkliflər irəli sürdü.

Nüvə silahları sahəsində məsələ müvafiq olaraq həmin silahların qadağan edilməsi və onlar üzərində nəzarət, həmçinin sonuncunun təbiəti üzərində cəmləşmişdir. Sovet İttifaqı qadağanın nəzarət üzərində üstünlüyünü və istənilən halda nəzarətə münasibətdə dövlətin suverenliyini müdafiə edirdi. Bu planın Sovet İttifaqının hərbi mövqeyini yaxşılaşdıracağı mütləq idi və yalnız elə bu səbəbə görə Qərb müttəfiqləri tərəfindən qəbul oluna bilməzdi. Çünki nüvə silahlarının qadağası bütün əlaqədar dövlətlər tərəfindən vicdanla yerinə yetiriləcəyi halda Qərb dövlətlərini Rusiyanın adi silahlarda üstünlüyünə qarşı yeganə təsirli əks çəkidən məhrum etmiş olacaqdı. Fəaliyyəti və nəticələri sonuncu mərhələdə Sovet İttifaqının özü tərəfindən yoxlanacaq nəzarət sistemi Rusiyada hökumətlərin əsrlər boyu təkid etdikləri məxfiliyi qoruyub saxlayacaqdı; üzə çıxarılmamış nüvə silahları Sovet İttifaqına həlledici üstünlük verə bilərdi, Qərb müttəfiqlərinin isə hökumətlərinin və cəmiyyətlərinin demokratik xarakteri baxımından bununla ayaqlaşmağı çətin olacaqdı.

Digər tərəfdən Qərb müttəfiqləri səmərəli – yəni, həqiqətən, fövqəlmilli – nəzarət sistemi olmadan nüvə tərk-silahını nəzərdən keçirməkdən imtina ediblər. Belə bir sistem Sovet İttifaqının məxfi qurğu və fəaliyyətlərini xarici müşahidəçilərin araşdırması üçün açaraq Qərb müttəfiqlərinə böyük hərbi üstünlük verəcəkdi. Bu üstünlük nüvə tərk-silahının ilkin mərhələlərində, Qərb müttəfiqləri hələ də nüvə silahları və onların daşınması sisteminə malik olduqları zaman nəzarət sistemi tam gücü ilə fəaliyyət göstərdikdə həlledici ola bilərdi.

Belə olduqda ABŞ və Sovet İttifaqı arasında münaqişə 30-cu illərin əvvəllərində Fransa və Almaniya arasındakı münaqişə kimi iki səviyyədə aparılır: tərk-silahın səthi səviyyəsində və güc uğrunda mübarizənin fundamental səviyyəsində. Tərk-silah səviyyəsində münaqişə iki nəzəri konsepsiya – birinci təhlükəsizlik, daha sonra tərk-silah və birinci tərk-silah, daha sonra təhlükəsizlik – arasında ziddiyyətə çevrilir. Güc uğrunda mübarizə səviyyəsində münaqişə hərbi üstünlük uğrunda mübarizə baxımından təqdim olunur və hər bir tərəf ən pis halda mövcud qüvvələr tarazlığını qoruyub saxlamağa, ən yaxşı halda isə onu öz xeyrinə dəyişməyə çalışır. 1980-ci illərin əvvəllərində Reyqan administrasiyası Sovet İttifaqının Avropada yerin üstündə yerləşən SS-20 raketlərinin hamısını, yaxud əksəriyyətini sökməsini təklif etdi, bunun əvəzində ABŞ qanadlı və "Perşinq" raketlərindən istifadə etməyəcəkdi. Sovetlər isə öz növbəsində Amerikanın olduqca

məhdud istifadəsinə icazə verdiyi halda, özünün Avropada belə raketlərdə üstünlüyünü qoruyub saxlayacaq təkliflərlə çıxış etdi. Münasibətlər getdikcə pisləşdikcə tərəflər fərdi danışıqlarda çətin sövdələşmələrə getməkdən daha tez-tez ictimai müraciətlərində və televiziya çıxışlarında öz mövqelərini bəyan edirdilər. Nüvə tərk-silahı ətrafında ziddiyyət bu mübarizənin yalnız tökmə gil içinə qəlibləndiyi formanın şəklini aldığı kimi münaqişənin konturlarının şəklini alan üzdə olan ifadəsidir. Tökmə gil şəklini yalnız qəlibin dəyişməsi ilə dəyişdiyi kimi, nüvə tərk-silahı problemi də yalnız onun qaynaqlandığı güc münaqişəsinin nizamlanması ilə həll oluna bilər.

Bölüşdürmə meyarları

Müxtəlif dövlətlərin silahları arasındakı nisbət tərk-silah cəhdinin həll etməli olduğu ən vacib problemdir. O həll olunduqda digər bir suala cavab vermək lazım gəlir. Bu, nisbət problemindən daha az fundamental, lakin praktiki çətinliklərlə doludur və yenə də əlaqədar dövlətlərin güc münasibətlərini əks etdirir. Bu sual müxtəlif dövlətlər arasında razılaşdırılmış nisbət daxilində silahların müxtəlif növünün və müxtəlif sayının bölgüsünü müəyyən edən meyarlar ilə bağlıdır.

Cenevrədə keçirilmiş Dünya tərk-silah konfransı və ona hazırlıq konfransı dəfələrlə bu məsələ ilə üzləşməli olmuşdur. Bu konfransların özlərindən sonra qoyduqları çoxcildli ədəbiyyat öz faydasızlığı və nəticəsizliyinə görə məsələnin irəli sürüldüyü şərait baxımından ümidsizliyin abidəsidir.

Gördüyümüz kimi, Dünya tərk-silah konfransında Almaniya silahlanmada Fransa ilə bərabərlik tələb etdi. Fransa təhlükəsizlik problemi onu qane edəcək şəkildə həll oluna biləcəyi halda bu nisbətlə mücərrəd bir prinsip kimi razılaşdı. Lakin nisbət mücərrəd şəkildə razılaşdırıldıqdan sonra bərabərlik konkret olaraq, deyək ki, silahlı heyətə, ehtiyatda olan təlim keçmiş hərbi qüvvələrə, ağır artilleriyaya, aviasiyanın ümumi sayı və növünə və s. münasibətdə nəyi nəzərdə tuturdu?

Aydın məsələdir ki, tətbiq olunmalı meyar iki ölkənin hərbi ehtiyaclarında axtarıldı. Həmin hərbi ehtiyaclar müdafiə nöqteyi-nəzərindən təyin olunurdu. Kimdən müdafiə? Birbaşa və dolayısı ilə verilən cavab belə idi: başlıca olaraq bir-birindən müdafiə. Həmin təyinatın qaçılmaz nəticəsi idi ki, iki ölkənin hərbi ehtiyacları üst-üstə düşə bilmirdi. Burada çoxsaylı amillər arasında yalnız bir amili – iki ölkənin fərqli strateji mövqelərini yada salsaq, o, müxtəlif sayda və xarakterdə olan müdafiə silahları tələb edirdi. Bu halda silahlanmada bərabərlik Fransa və Almaniyanın kəmiyyət və keyfiyyətinə görə mütləq şəkildə bərabər silahlı heyətə, ehtiyatda olan təlim keçmiş hərbi qüvvələrə, artilleriyaya və hava qüvvələrinə malik olmalı olduğu mənasında riyazi bərabərliyi nəzərdə tuta bilməzdi.

Bərabərlik yalnız hər bir ölkənin xarici hücuma qarşı müdafiə mövqeyindəki bərabərliyi nəzərdə tuta bilərdi.

Bu halda Dünya tərk-silah konfransının üzərinə, birincisi, hər bir ölkəyə qarşı hücum təhlükələrini, ikincisi, silahlanmadan başqa müdafiə üsullarını, məsələn, coğrafi mövqeyi, ərzaq ehtiyatı və xammalla zənginliyi, sənaye istehsalı imkanlarını, əhalinin sayı və xarakterini, üçüncüsü, digər iki amil baxımından silahlanmaya ehtiyacı qiymətləndirmək vəzifəsi qoyulmuşdu.

Birincisi, həmin vəzifə bir dövlətin gücünü digər dövlətlərin gücü ilə müqayisədə qiymətləndirmədən yerinə yetirilə bilməzdi. Biz bu kitabda əvvəldə[1] belə müqayisəli qiymətləndirmənin necə çətin, mücərrəd və müəyyən sahələrdə, demək olar ki, qeyri-mümkün olduğunu göstərməyə çalışmışıq. Belə bir qiymətləndirmənin məlumatları silahların bölüşdürülməsi meyarları hesab olunsa, həmin meyarlar olduqca subyektiv olmalı və ona görə də razılaşma əvəzinə ziddiyyət yaratmalıdır.

İkincisi, həmin vəzifə əlaqədar hökumətlərin siyasi məramlarının müəyyən edilməsini tələb edir. Bütün dövlətlər, adətən, dinc məramlarını açıq şəkildə elan edir. Lakin bütün dövlətlər bəyan edir ki, onlar hücuma qarşı özlərini müdafiə etməyi bacarmalıdırlar; onlar bununla öz təcavüzkar məramlarını hər hansı digər dövlətin üzərinə yıxırdılar. Əlaqədar dövlətlər arasında kimin özünü kimə qarşı müdafiə etməli olduğu məsələsində razılığa nail olmaq, aydındır ki, ziddiyyətin təbiətinin özünə görə qeyri-mümkündür.

Nəhayət, ən mühümü, bu şəkildə qaldırılmış məsələlərə dair yaranması qaçılmaz olan ziddiyyətlər istər-istəməz əlaqədar dövlətlərin real və proqnozlaşdırılan siyasətlərini əks etdirəcək. Digər dövlətə qarşı təcavüzkar meyilləri olan, yaxud digəri tərəfindən təcavüzkar meyillərdən ehtiyat edən dövlət – bütün dövlətlər sonuncu kateqoriyaya aiddir – maraqlarının mülahizəsi ilə öz müdafiə ehtiyaclarının dəyərini mümkün qədər yüksək tutmağa və rəqiblərinin həmin göstəricisini mümkün qədər ən aşağı səviyyəyə salmağa vadar edilir. Başqa sözlə, müxtəlif dövlətlərin xarici siyasətdə nail olmaq istədiyi – gücünün qorunub saxlanması və çoxaldılması və rəqiblərinin gücünün məhdudlaşdırılması və azaldılması – onların və digər dövlətin hərbi ehtiyaclarının qiymətləndirilməsinə dair rəqəmlərlə ifadə olunur. Onların tətbiq etdiyi meyarlar obyektiv kriteriyanı uzaqdan əks etdirən nə iləsə deyil, onların siyasi məqsədləri ilə təyin edilir.

Ona görə də bu meyarlar yalnız əlaqədar dövlətlər onları parçalayan siyasi məsələlərin nizamlanmasına dair razılıq əldə olunduqdan sonra həmin dövlətlərin sərbəst razılığı ilə müəyyən oluna bilər. Onda silahların bölüşdürülməsi meyarları haqqında məsələ özünü nisbət məsələsi ilə eyni formada göstərir: tərk-silahdan

[1] Bax: paraqraf 10.

əvvəl siyasi nizamlama həyata keçirilməlidir. Siyasi nizamlama olmadan tərk-silahın uğur üçün heç bir şansı yoxdur.

Siyasi nizamlama və silahların bölüşdürülməsi meyarlarına dair razılaşma arasında bu münasibətin ən parlaq nümunəsi yenə də Dünya tərk-silah konfransında Fransa və Almaniya arasındakı münaqişədir. Onların Versal müqaviləsinin status-kvosuna dair nizamlanmamış münaqişəsi fonunda Fransa mücərrəd bərabərlik nisbətini real silahlanma meyarlarına çevirdi və görünür ki, bu, Fransanın üstünlüyünü əbədiləşdirməli idi. Digər tərəfdən Almaniya eyni nisbəti konkret meyarlara çevirdi və səmərəli olacağı təqdirdə onlar Almaniyanın Fransa üzərində üstünlüyünə gətirib çıxaracaqdı. Beləliklə, Fransa Almaniyanın əhalisinin sayının çox, artım səviyyəsinin isə daha yüksək olduğuna görə Almaniyanın ordusundan daha böyük orduya ehtiyacı olduğuna israr edirdi.

Almaniya Fransanın ehtiyatda olan təlim keçmiş hərbçilərin sayına görə daha üstün olduğunu və Fransa müstəmləkə imperiyasında böyük canlı qüvvə və xammal ehtiyatlarının olduğunu qeyd edərək buna qarşı çıxırdı. Almaniya potensial olaraq düşmən dövlətlərlə əhatə olunmuş coğrafi mövqeyinə görə müəyyən sayda artilleriya və təyyarə tələb edirdi. Fransa konfransa Almaniya ilə təbii strateji sərhədlərinin olmaması baxımından müdafiəyə olan ehtiyaclarını və Fransanın bir əsrdə üç dəfə Almaniyanın işğalçılığının qurbanı olduğu faktını xatırladaraq bu ehtiyacı inkar etdi. Dünya tərk-silah konfransının tarixini Fransa və Almaniya arasında güc uğrunda mübarizə, hətta ən kiçik detallarda belə razılaşmanın qarşısını alan bir mübarizədən çıxış edərək yazmaq olardı. Rəqabət aparan dövlətlərin gücə iddiaları onların silahlara ziddiyyətli iddialarında əks olunurdu.

Fransa və Almaniya arasında duran siyasi məsələlərdən başqa, müqayisəli qiymətləndirmə məsələsi Dünya tərk-silah konfransının faydasız yerə mübarizə apardığı böyük bir çətinliyi üzə çıxardı. Ehtiyatda olan 100 000 təlim keçmiş fransız hərbçisi alman ordusunun hərbi heyətinin müvafiq sayı baxımından hansı dəyərə malik idi? Bu, 50 000, 60 000, 80 000, 100 000, yoxsa, ola bilsin, 120 000 idi? Almaniyanın sənaye istehsalı potensialının Fransanın fransız tankları, artilleriyası və aviasiyasının sayına görə təyin olunan sənaye istehsalı potensialından üstün olduğunu göstərən fərq nə idi? Fransa əhalisindən çox olan nə qədər alman nə qədər fransız müstəmləkə əhalisinə bərabər idi? Yaxud müasir nümunələrdən birinə nəzər yetirsək, Rusiyanın neçə piyada diviziyası Almaniyanın neçə idarə olunan raketinə bərabərdir? Yaxud Sovet İttifaqının neçə yerüstü raketi Amerikanın raketlərin uçuşunu təmin edə bilən neçə təyyarə və sualtı qayığa bərabər idi? Aydın məsələdir ki, belə suallara Dünya tərk-silah konfransının nəzərdə tutduğu kimi riyazi dəqiqliklə cavab verilə bilməz. Belə suallara cavablar siyasi sövdələşmə və diplomatik kompromis üsulları ilə axtarılmalıdır. Nəzərdən keçirdiyimiz tarixi

nümunədə belə üsullardan istifadə siyasi münaqişənin nizamlanmasını nəzərdə tuturdu. Həmin münaqişənin davam etməsi silahların müxtəlif sayı və növünün bölüşdürülməsi meyarlarına dair barışdırıcı diplomatiya üsulları ilə razılıq əldə etməyi Fransa və Almaniya üçün qeyri-mümkün etdi.

Beləliklə, əgər məsələ müxtəlif dövlətlərin ümumi silahlanma nisbətindən biridirsə, yaxud məsələ silahların müxtəlif növləri və sayını bölüşdürmək üçün meyardırsa, belə məsələlər onların qaynaqlandığı güc uğrunda mübarizələr həll edilməmiş qaldığı müddətcə öz-özlərinə həll olunmaq iqtidarında deyil.

Tərk-silah silahların azaldılmasıdır?

Bu məsələlərin həqiqətən həll olunduğu və silahların nisbəti və bölüşdürülməsinə dair razılığın əldə olunduğu azsaylı nümunələr fonunda bu razılaşmaların əlaqədar dövlətlərin silahlarının xarakteri və sayı üzərində hansı təsirə malik olduğuna baxaq. Üç müqaviləni nəzərdən keçirəcəyik: 1922-ci il Vaşinqton müqaviləsi, 1930-cu il London müqaviləsi və 1935-ci il ingilis-alman razılaşması.

Vaşinqton müqaviləsi ilə Amerika, Britaniya və Yaponiyanın döyüş gəmilərindəki gücü 40 faiz azaldıldı. Müqaviləni imzalayanlar tərəfindən ümumilikdə 70 gəmi məhv edildi. Həmin göstəriciyə görə Vaşinqton müqaviləsi silahların ümumi şəkildə azaldılmasını təmin etdi. Bununla belə, iki amil qeyd olunmalıdır. Bir tərəfdən sayın belə azaldılması yalnız müvəqqəti oldu. Müqavilə belə bir şərt qoydu ki, müqaviləni imzalayan 5 dövlət 1931-ci ildə məhv edilmiş silahların əvəzinə yenilərini yaratmağa başlaya bilərdi və beləliklə, 1942-ci ilə qədər 5:5:3:1, 67:1, 67 nisbətini bərqərar edərdi. 1931-ci ildə böyük döyüş gəmilərinə münasibətdə silahların azaldılması dövrü başa çatdı və nizamlanan silahlanma rəqabəti dövrü ilə əvəz olundu.

Bir tərəfdən xüsusilə atəşaçma gücü və aviasiya ilə əlaqədar müharibə texnologiyasının sürətli inkişafı səbəbindən Birinci Dünya müharibəsində istifadə olunan döyüş gəmiləri növü təyyarələr istisna olmaqla istənilən digər silah növündən daha sürətlə köhnəlmək üzrə idi. Birinci Dünya müharibəsinin dərslərini yaddan çıxarmayan sayı çoxalan mütəxəssislər inanırdılar ki, bu növdən olan döyüş gəmilərinin vaxtı keçmişdi, ən yaxşı halda, bu, pul israfı idi və gələcəkdə dəniz gücündən istifadə etmək üçün yüngül və sürətli, lakin böyük atəşaçma gücünə malik qayıqlar tədarük edilməlidir. Əgər bu mülahizələrin Vaşinqton müqaviləsini imzalayan dövlətlər üçün həqiqət olduğu hesab edilsə, döyüş gəmilərinin gücünün azaldılmasını döyüş gəmilərinin bir silah kimi iflasa uğradığını qəbul edilməsi kimi təqdim etmək olar. Müqaviləni imzalayan dövlətlər istənilən halda böyük sayda döyüş gəmisini məhv etmiş olduqlarından onlar bunu həmçinin

birlikdə və tənzimlənməyən rəqabət planına uyğun olaraq, eləcə də tənzimlənməmiş rəqabətlə də edə bilərdilər.

Sanki həmin fikri təsdiqləyərək, Vaşinqton müqaviləsi onu imzalayan dövlətlər arasında müqavilənin əhatə etmədiyi gəmilər, xüsusilə kreyserlər, eskadra mina gəmiləri və sualtı qayıqlar üzrə silahlanma yarışı üçün siqnal oldu. Gördüyümüz kimi, onlar o zaman nəzərdə tutulan dəniz müharibələri forması üçün ən mühüm gəmilər idi. Ona görə də Vaşinqton müqaviləsi ən azından öz nəticələrinə görə dəniz silahlanmasının rəqabətin kəskin olmadığı görünən bu sahəsindəki rəqabəti neytrallaşdırdı. Bundan əlavə, o, qüvvələri və maddi ehtiyatları sərbəst buraxdı və bununla da dəniz silahlanmasının dəniz dövlətlərinin bir-biriylə rəqabət apardığı sahəsinə təkan verdi.

Müqaviləni imzalayanların motivlərinin nə olmasından və onların nəticələrinin necə olmasından asılı olmayaraq, Vaşinqton müqaviləsi müəyyən dəniz silahlarını həqiqətən məhdudlaşdırdı. Eyni sözləri 1930-cu il London müqaviləsi və 1935-ci il ingilis-alman razılaşması haqqında demək olmaz. London müqaviləsinin əsas nailiyyəti ABŞ, Böyük Britaniya və Yaponiya arasında kreyser, eskadra mina gəmiləri və sualtı qayıqların tutumuna dair razılaşma oldu. London müqaviləsi müvafiq dövlətlərin gəmilərin bu kateqoriyasındakı dəniz qüdrətinin məhdudlaşdırılmasını təmin etdi. Lakin, əslində, o, ABŞ və Yaponiyanın yenidən silahlanmasını Britaniya donanmasının bu kateqoriyadakı maksimum gücü ilə təyin olunmuş hüdudlar daxilində müəyyənləşdirdi.

Müqavilə ABŞ və Böyük Britaniyaya bərabərlik verdi, Yaponiyanın payını isə onların donanmalarının həcminin maksimumun həddinin təxminən üçdə ikisi miqdarında müəyyən etdi. Bununla belə, müqavilə Böyük Britaniyanın dənizdə, xüsusilə kreyserlərdə mövcud üstünlüyünü, sadəcə, qanuni kimi qəbul etdi və bu üstünlüyü bütün praktiki məqsədlər üçün əbədiləşdirdi. Çünki müqavilə ilə bölüşdürülmüş tutum o qədər böyük idi ki, Yaponiya ona çata bilməzdi və ABŞ-ın ona nail olması böyük xərc (5 ildə 1 milyard dollar) hesabına başa gələcəkdi ki, bunu da o zaman Amerika ictimai fikri dözülməz hesab edirdi. Başqa sözlə, müqavilə ABŞ-a əgər pul vəsaiti ayırmaq istəyərdisə, öz donanmasını Böyük Britaniyanın donanması səviyyəsinə qaldırmaq icazəsi verdi, lakin ABŞ, aydın məsələdir ki, buna pul xərcləmək istəmirdi.[1] Müqavilə Yaponiyaya əgər bacarardısa, ABŞ və Böyük Britaniyanın donanmalarının həcminin təxminən üçdə ikisi həcmində donanma qurmaq icazəsi verdi, lakin aydın məsələ idi ki, Yaponiya bunu bacarmayacaqdı. Bu

[1] 1931-1935-ci maliyyə illərində ABŞ bütün növ gəmilərin istehsalına ümumilikdə təxminən 324 milyondan çox bir maliyyə vəsaiti xərcləyir ki, bu da 1 milyardın 1/3 hissəsindən az idi. (*The World Almanac* for 1947, səh. 812)

halda London müqaviləsinin dəniz silahlarının məhdudlaşdırılmasına verdiyi yeganə töhfə müqaviləni imzalayan heç bir tərəfin keçmək icazəsinin olmadığı – ABŞ və Yaponiya buna heç çata da bilməzdi – maksimum həddin müəyyən edilməsi oldu. Beləliklə, müqavilə silahların sayının azaldılmasından uzaq olaraq, onların müəyyən hüdudlar daxilində artırılmasına icazə verdi.

Bundan əlavə, hətta maksimum tutum haqqında bu razılaşma da öz mövcudluğu ilə onu imzalamayan Fransa və İtaliyanın müvafiq kateqoriyalarda silahlarını istədikləri kimi artırmaq azadlığı ilə məhdudlaşırdı. Müqavilə onu imzalayan ölkələrin hər hansı birinin, xüsusilə Aralıq dənizindəki Böyük Britaniyanın maraqlarına bu regiondan gələ biləcək mümkün təhlükənin qarşısını almaq üçün onlara müqaviləni imzalamayan dövlətin yeni gəmilər istehsal etməsinin milli təhlükəsizliyinə mənfi təsir göstərdiyini hesab etdiyi halda tam fəaliyyət azadlığını geri qaytarırdı. Müqaviləni imzalayan dövlət bu zəmində öz hərbi dəniz tutumunu müqavilənin müəyyən etdiyi hüdudlardan artıq çoxaltdığı halda digər iki dövlətində öz dəniz qüdrətlərini mütənasib şəkildə artırmaq icazəsi var idi. Belə kəskin bir zərurət halında London müqaviləsindən geriyə qalan silahlanma yarışından başqa bir şey olmaz və onun sürəti bu və ya digər dəniz dövləti tərəfindən təyin olunan müəyyən tempi izləyər. 1935-ci il ingilis-alman dəniz razılaşması haqqında bir sözdən artıq heç nə deməyə ehtiyac yoxdur.

Məhdudiyyət terminologiyası ilə müəmmalı şəkildə izah olunan bu razılaşmanın tərk-silah ilə heç bir əlaqəsi yoxdur. O, açıq şəkildə Almaniyanın dənizdə təkrar silahlanmasını Almaniyanın həmin zaman aşıb keçə bilmədiyi və aşıb keçmək istəmədiyi və Böyük Britaniyanın onun həmin hüdudlara çatmasının qarşısını müharibədən başqa heç bir yolla ala bilmədiyi hüdudlar daxilində müəyyən etdi.

Tərk-silah sülh deməkdir?

Tərk-silah yalnız fövqəladə şərtlər altında reallaşmışdır. Hətta onun reallaşmış olduğu hesab olunanda, adətən, çox vaxt tərk-silah silahların azaldılması əvəzinə, onların artırılması mənasını kəsb edib. Bununla belə, bu mülahizələr bizim müzakirəmizin kontekstində həlledici olan məsələlərə – tərk-silahın beynəlxalq nizam və sülh məsələləri üzərində təsirinin nədən ibarət olması məsələsinə doğru atılan ilk addımlardır. Dünya dövlətləri kəmiyyət və keyfiyyət tərk-silahına dair razılığa gələ bilsəydi və razılaşmaya uyğun olaraq, həqiqətən, tərk-silah olsaydı, bütün silahların azaldılması, yaxud müəyyən silahların aradan qaldırılması beynəlxalq düzən və sülhə necə təsir edə bilərdi?

Tərk-silahın müasir fəlsəfəsi belə bir təsəvvürdən çıxış edir ki, insanlar ona görə döyüşürlər ki, onların silahları var. Bu təsəvvürdən məntiqi olaraq belə bir

nəticə hasil olur ki, əgər insanlar bütün silahlardan imtina edərlərsə, heç bir döyüş baş verə bilməz. Beynəlxalq siyasətdə yalnız Sovet İttifaqı 1932-ci ildə Dünya tərk-silah konfransına və 1959-cu ildə Birləşmiş Millətlər Təşkilatına tam və universal tərk-silah haqqında (polisin fəaliyyəti üçün zəruri olan yüngül silahlar istisna olmaqla) təkliflərini göndərməklə bu nəticəni ciddi qəbul etdi – ümumiyyətlə, bu ciddiyyətin özü də sual doğurur. Nüvə tərk-silahına dair müasir rus yanaşması həmin mövqeyi qoruyub saxlamaq kimi bir şeydir. Tərk-silahın fəlsəfəsi ABŞ-ın Birləşmiş Millətlər Təşkilatının Tərk-silah Komissiyasındakı nümayəndəsinin müavininin 12 yanvar 1953-cü il tarixində prezidentə hesabatında aşağıdakı kimi ifadə olunmuşdu:

"Tərk-silah proqramının məqsədi müharibədə istifadə olunan silahları tənzimləmək deyil, müharibənin qarşısını almaq olmalıdır. Biz izah etməyə çalışdıq ki, ABŞ müharibənin qaçılmaz olduğunu qəbul etmir; işimiz heç bir dövlətin uğurlu silahlı təcavüz aktı həyata keçirmək üçün vasitələrə sahib olmamasını təmin etməklə müharibə ehtimalını azaltmaqdır. Məqsəd müharibə və silahlı təcavüzün başvermə imkanını azaltmaqla müharibə ehtimalını azaltmaqdır.

Lakin ən az kəskin nəticələrin çıxarıldığı yerdə belə fikrən qəbul olunur ki, silahlara, yaxud ən azından onların müəyyən növü və sayına sahib olmaq ilə müharibə və sülh məsələsi arasında əlaqə var.

Belə bir əlaqə, həqiqətən, mövcuddur, lakin o, tərk-silahın tərəfdarlarının onu təsəvvür etdikləri formanın əksinədir. İnsanlar ona görə döyüşmürlər ki, onların silahları var. Onların silahları ona görə var ki, onlar döyüşməyi vacib hesab edirlər. Onların silahlarını əllərindən al, onlar ya yalın əlləri ilə döyüşəcəklər, ya da özləri döyüşmək üçün silah tapacaqlar. Müharibə üçün imkan yaradan şərait insanların düşüncələrindədir və burada müharibə özünü iki pislikdən daha az pis olan kimi göstərir. Belə şəraitdə silahlara sahib olmaq arzusunun və onlara sahib olmağın yalnız bir əlaməti olduğu xəstəlik axtarılıb tapılmalıdır. Nə qədər ki insanlar birbirinə ağalıq etməyə və bir-birinin mülkiyyətini əlindən almağa can atırlar və nə qədər ki onlar bir-birindən qorxur və bir-birinə nifrət edirlər, onlar öz həvəslərini təmin etməyə və emosiyalarını sakitləşdirməyə çalışacaqlar. Həmin həvəslərin və emosiyaların təzahürlərini qeyri-zorakı yollara istiqamətləndirmək üçün kifayət qədər güclü olan hakimiyyətin mövcud olduğu yerdə insanlar öz məqsədlərinə çatmaq üçün yalnız qeyri-zorakı alətlərə can atacaqlar. Təyinatına görə müvafiq milli ərazi daxilində ən ali hakimiyyəti təşkil edən suveren dövlətlərin birliyində həmin həvəslərin təminatı və emosiyaların sakitləşdirilməsi üçün dövrün texnologiyasının təqdim etdiyi və hakim olan idarəetmə qaydalarının icazə verdiyi bütün üsullara əl atılacaq. Tarixin müxtəlif mərhələlərində həmin üsullar oxlar və qılınclar, tüfənglər və bombalar, qaz və idarə olunan raketlər, bakteriya və nüvə silahları ola bilər.

Müəyyən bir dövrdə real və potensial olaraq mövcud olan silahların sayının azaldılması müharibənin əhatə dairəsinə heç bir təsir göstərə bilməz; o, ehtimal ki, müharibənin aparılmasına təsir göstərərdi. Silahların və canlı qüvvənin məhdud sayına malik olan dövlətlər bütün qüvvələrini malik olduqları silahların və canlı qüvvənin keyfiyyətini artırmağa yönəldərdi. Bundan əlavə, onlar canlı qüvvənin say baxımından geriliyini kompensasiya edə və rəqibləri üzərində üstünlüklərini təmin edə biləcək silahlar axtarardılar.

Müəyyən silah növlərinin, ümumiyyətlə, ortadan qaldırılmasının müharibə texnologiyası və bununla da ədavətlərin aparılması üzərində təsiri ola bilərdi. Onun müharibənin tezliyinə və onun ümumiyyətlə aradan qaldırılmasına necə təsir edə biləcəyini demək çətindir. Təsəvvür edək ki, məsələn, nüvə silahlarının istehsalı və istifadəsini qadağan etmək mümkündür. Əgər belə bir qadağaya universal şəkildə əməl olunsa idi, bunun nəticəsi nə olardı? Bu, xüsusi halda müharibə texnologiyasını, sadəcə, 1945-ci il 16 iyun səhəri Nyu-Meksikoda ilk atom bombası partladılan anadək olan səviyyəyə endirərdi. Bu qadağaya əməl edən dövlətlər öz insan qüvvələrini və maddi ehtiyatlarını nüvə silahından başqa, az və ya çox dərəcədə dağıdıcı olan silahların inkişafı və ixtirasına yönəldərdi. Müharibənin texnologiyası dəyişərdi, lakin əhatə dairəsi dəyişməzdi. Lakin həqiqətəuyğun şəkildə əsaslandırmaq olar ki, atom dövründə total nüvə müharibə təhlükəsi ümumi müharibənin başladılmasının qarşısını almış yeganə ən əhəmiyyətli amil olmuşdur. Həmin təhlükənin nüvə tərk-silahı vasitəsilə aradan qaldırılması, irəlidə görəcəyimiz kimi, müharibənin əvvəlində qeyri-nüvə silahlarından istifadə edən tərəflərin müharibənin gedişində belə silahlara əl atmayacağını sığortalamadan müharibənin təhlükəsini artıra bilər.

Böyük Britaniyanın Dünya tərk-silah konfransında müdafiə silahlarının əksinə, təcavüz silahlarının qeyri-qanuni elan edilməsinə etdiyi faydasız cəhdlər problemin kəmiyyət tərk-silahı yolu ilə həllinin qeyri-mümkünlüyünü göstərir. Böyük Britaniyada hesab edirdilər ki, təcavüzkar müharibə aparmaq bacarığı təcavüz silahlarına sahib olmağın nəticəsi idi. Buradan belə bir nəticə hasil olur ki, təcavüz silahları olmadan təcavüzkar müharibə də mövcud ola bilməz. Nəticə təsəvvürə uyğundur. Silahlar xarakterlərinə görə müdafiə və təcavüz növlərində qruplaşmır, onlar xidmət etdikləri məqsədə görə bu növlərə bölünür. Qılınc onu istifadə edənin niyyətlərinə uyğun olaraq, avtomat və tankdan daha az hücum və müdafiə silahı deyil. Bıçaqdan ət kəsmək, cərrahiyyə əməliyyatı həyata keçirmək, hücumçunu qorxu altında saxlamaq üçün də istifadə etmək olar, yaxud da kiməsə arxadan zərbə vurmaq üçün də. Təyyarə sərnişinləri və yükü daşımaq, düşmən mövqelərinin kəşfiyyatını aparmaq, müdafiəsiz şəhərlərə hücum etmək məqsədinə də xidmət edə bilər, düşmənin hücum planlarını dağıtmaq məqsədinə də.

Britaniyanın təklifləri, həqiqətən, status-kvonu aradan qaldırmaq üçün istifadə oluna biləcək silahların qeyri-qanuni elan edilməsi ilə onu təmin etmək cəhdinə bərabər idi. Onlar siyasi məsələni onun zorakı yollarla həllinə xidmət edə biləcək bəzi alətləri manipulyasiya etməklə həll etməyə çalışırdılar. Təcavüzkar silahların xüsusiyyətləri haqqında razılığa gəlmək mümkün olsaydı belə, siyasi məsələ özünü mövcud istənilən silahın istifadəsində yenidən göstərmiş olacaqdı. Lakin, əslində, bu məsələdə razılığın əldə olunması da müzakirə mövzusu deyildi. Çünki Böyük Britaniyanın təcavüzkar hesab etdiyi silahlar status-kvoya qarşı olan dövlətlərin siyasi məqsədlərinə nail olmaq üçün, əsasən, bel bağladıqları silahlarla eyni idi. Məsələn, Böyük Britaniyada hesab olunurdu ki, döyüş gəmiləri müdafiə, sualtı qayıqlar isə hücum silahıdır, lakin kiçik donanmaya sahib olan dövlətlər isə əksini düşünürdü. Ziddiyyətlərlə əhatə olunan və faydasızlığa məhkum olan bir müəssisənin parçası kimi Britaniyanın keyfiyyət tərk-silahına dair təklifləri Dünya tərk-silah konfransını biabırçı sonluğa gətirmiş siyasi fəhmsizliyin səviyyəsinə səciyyəvi dərəcədə təsir edir.

Nəhayət, təsəvvür edək ki, daimi ordular, yaxud nüvə silahları tamamilə qeyri-qanuni elan edilib və nəticə etibarilə yox olacaq. Belə bir qadağanın müharibə üzərində yeganə mümkün təsiri onun başlanğıcının məhdud və bəsit xarakteri olardı. Düşmən dövlətlər arasında silahlanma yarışı ədavətlər başlamazdan əvvəl başlayaraq, onlar başlayanda ən yüksək nöqtəsinə satmaq əvəzinə, sadəcə olaraq, onların başlanılmasına qədər təxirə salınardı.

Bu halda müharibənin elan edilməsi müharibə elan edən dövlətlər üçün insan ehtiyatları və maddi resurslarını xüsusilə onların texnoloji imkanlarını müharibənin bütün alətlərinin texnoloji imkanın mümkün etdiyi qədər sürətli istehsalı üçün hərəkətə keçirməyə bir siqnal olardı. Nüvə silahlarını qanundankənar elan etmək, əslində, mümkündür, lakin onları istehsal etmək üçün texnoloji bilikləri və bacarıqları qanundankənar etmək mümkün deyil. Bu aşkar səbəbdəndir ki, müəyyən silahların qadağan olunmasının, adətən, müharibə üçün səmərəsi olmayıb. Bu qadağa, məsələn, partlayıcı və tezalışan maddələr ilə doldurulmuş yüngülçəkili mərmilərə, mülki əhalinin təyyarələrdən bombardman edilməsinə və hüdudu olmayan sualtı müharibəyə tətbiq olunanda uğursuzluğa uğrayıb.[1]

Qələbə müharibə edən dövlətlərin ən böyük marağıdır. Onlar müharibənin qurbanlarına münasibətdə müəyyən qaydalara əməl edə bilərlər; onlar texnologiyalarının istehsal edə bildiyi bütün silahların istifadəsindən boyun qaçırmayacaqlar. İkinci Dünya müharibəsində zəhərli qazdan istifadə qadağasına riayət olunması yalnız üzdə olan bir istisnadır. Bütün aparıcı müharibə tərəfləri zəhərli qaz istehsal edirdi;

[1] Müvafiq beynəlxalq müqavilələr üçün bax: səh. 312.

onlar onun istifadəsi və ondan qorunmada qoşunlara təlim keçirdilər və səmərəli olacağı təqdirdə ondan istifadə etməyə hazır idilər. Yalnız hərbi məqsədəuyğunluğa dair mülahizələr bütün müharibə tərəflərinin zəruri olduqda istifadəsini özləri üçün qənimət hesab etdikləri silahın istifadəsindən çəkindirirdi.

Həmin kəmiyyət və keyfiyyət tərk-silahının müharibənin əhatə dairəsinə deyil, texnologiya və strategiyasına təsir etdiyi Versal müqaviləsi vasitəsilə Almaniya üzərinə qoyulan tərk-silahla aydın şəkildə izah olunur. Həmin tərk-silah həm kəmiyyət, həm də keyfiyyət tərk-silahı idi və elə əsaslı idi ki, Almaniya üçün Birinci Dünya müharibəsi ilə eyni növdən olan müharibə aparmağı qeyri-mümkün edirdi. Əgər məqsəd bu idisə, o, tamamilə gerçəkləşdi. Lakin əgər məqsəd Almaniyanı əbədi olaraq müharibə aparmaq iqtidarından məhrum etmək idisə, – əslində, əsas məqsəd bu idi, – Versal müqaviləsinin tərk-silaha dair müddəaları açıq-aşkar iflas idi. Onlar Almaniya Baş Qərargahını Birinci Dünya müharibəsində hakim olmuş müharibə üsullarından uzaqlaşmağa və onların məharətindən Versal müqaviləsi ilə qadağan olunmayan yeni üsullara yönəltməyə məcbur etdi, çünki onlar Birinci Dünya müharibəsi zamanı geniş istifadə olunmamış, ya da heç istifadə olunmamışdı. Beləliklə, Almaniyanı yenidən müharibə etmək bacarığından məhrum etməkdən uzaq olan Versal müqaviləsi faktiki olaraq Fransanı Birinci Dünya müharibəsi üçün məşq etməyə vadar etdiyi kimi, Almaniyanı da İkinci Dünya müharibəsinə hazırlaşmağa vadar etdi. O zaman Birinci Dünya müharibəsinin texnologiyası və strategiyası baxımından tərk-silah Almaniya üçün, əslində, öz fəaliyyətini pərdələmək üçün kömək idi. Tərk-silah Almaniya üçün hərbi siyasətini keçmiş əvəzinə gələcək konturlar üzrə yenidən işləyib-hazırlamağı qaçılmaz etdi.

Belə bir fikir irəli sürülmüşdür ki, tərk-silah öz-özlüyündə müharibəni aradan qaldıra bilməsə də, asanlıqla müharibəyə gətirib çıxara biləcək siyasi gərginliyi böyük dərəcədə azalda bilər. Xüsusilə tənzimlənməyən silahlanma yarışı – o, qorxu yaradır və həmçinin özü də qorxu ilə qidalanır, eləcə də hər zaman artan maliyyə boyunduruqları qoyur – elə bir dözülməz vəziyyətə gətirib çıxara bilər ki, yarışın bütün, yaxud da bəzi tərəfləri onun qeyri-müəyyən şəkildə davam etməsini istənilən yolla, hətta müharibə riski ilə də olsa, dayandırmaq yolunu seçər.

Tərk-silah, yaxud ən azından silahlanmanın tənzimlənməsi beynəlxalq münaqişələrin ümumi nizamlanmasında əvəzedilməz addımdır. Lakin o, atılmalı ilk addım ola bilməz. Silahlanma rəqabəti güc uğrunda rəqabəti əks etdirir və onun bir alətidir. Nə qədər ki dövlətlər güc yarışında ziddiyyətli iddialar irəli sürür, onlar gücün öz məntiqi ilə silahlanma üçün ziddiyyətli iddialar irəli sürməyə məcburdur. Ona görə də güc yarışının qarşılıqlı qaneedici nizamlanması tərk-silahın ilkin şərtidir. Aidiyyəti dövlətlər öz aralarında qüvvələrin qaneedici bölgüsü haqqında razılıq əldə etmiş olduqda onlar öz silahlarını azaltmağın və məhdudlaşdırmağın

öhdəsindən də gələ bilirlər. Tərk-silah öz növbəsində ümumi sülhü bərqərarətmə prosesinə böyük töhfə verir. Dövlətlərin tərk-silah məsələsini həll edə bilmək səviyyəsi onların nail ola biləcəyi siyasi anlaşmanın ölçüsüdür.

Tərk-silah aidiyyəti dövlətlər arasında güc münasibətlərinin silahlanma yarışından kiçik olmayan inikasıdır. Silahlanma yarışı yaratdığı qorxu və qoyduğu boyunduruq vasitəsilə güc uğrunda mübarizəni kəskinləşdirdiyi kimi, tərk-silah da siyasi gərginlikləri azaltmaqla və müvafiq dövlətlərin məramlarında əminlik yaratmaqla siyasi vəziyyətin yaxşılaşdırılmasına töhfə verir. Tərk-silahın beynəlxalq nizamın bərqərar edilməsinə və beynəlxalq sülhün mühafizə edilməsinə verdiyi töhfə budur. Bu, əhəmiyyətli bir töhfədir, lakin aydın məsələdir ki, o, beynəlxalq nizam və sülh probleminin çözümü deyil.

NÜVƏ DÖVRÜNDƏ SİLAHLARA NƏZARƏT

Niyə silahlara nəzarət və hərbi sabitliyi artırmaqla beynəlxalq sülhün möhkəmləndirilməsinə göstərilən səy nüvə sahəsində yalnız az uğurlu və adi silahlara münasibətdə isə, ümumiyyətlə, uğursuz oldu? Sonuncuya münasibətdə uğursuzluğun səbəbləri tərk-silahın uğursuzluğunun səbəbləri ilə eynidir. Adi silahların sayı və yerləşməsi hərbi qüvvələrin bölgüsü üzərində birbaşa təsirə malikdir. Aidiyyəti dövlətlər hərbi üstünlük uğrunda yarışdığından adi silahlar üzərində nəzarətə dair razılığın əldə olunması rəqabətin sona çatdığına işarə etmiş olar. Lakin hərbi rəqabətin dayandırılması qarşıda duran siyasi məsələlərin nizamlanmasından asılı olur.

Nüvə silahlarına nəzarət nəzəriyyədə ən azından aparıcı nüvə dövlətlərini ötüb-keçməyin irrasional olduğu dağıdıcı optimala çatması imkanı ilə mümkün olur. Bu ölçü çoxsaylı nüvə başlıqlarının və potensial düşmənin hərbi qurğularını və əhali və sənaye mərkəzlərini məhv etmək üçün zəruri olan toxunulmaz çatdırma sistemlərinin mövcudluğu kimi təyin oluna bilər. Bu imkana malik olan dövlət maksimum hərbi potensialını həm çəkindirmə, həm də reallıqda nüvə müharibəsinin aparılması baxımından reallaşdırmışdır. Əlavə başlıqların və çatdırma vasitələrinin əldə edilməsi israfçılıqdır, çünki o, aidiyyəti dövlətin hərbi gücünə heç nə qatmır. Nəticədə burada hərbi üstünlük və gerilik haqqında adi təsəvvürlər müəyyən çərçivədə əhəmiyyətsiz olur. Öz potensial düşməninə ən pis şərtlər altında 10 dəfə çox yolverilməz zərər vurmaq imkanına malik olan dövlət artıq çox olan nüvə imkanını artırmaqla hərbi cəhətdən heç nə əldə etmir, onun digər dövlətə "yalnız" 6 dəfə çox zərər vurmaq imkanına malik olan potensial düşməni

isə hərbi cəhətdən digər dövlətdən geri qalmır və nüvə imkanını artırmaqla əlavə hərbi güc əldə etmir. Hər iki dövlət bu dağıdıcı optimala çatmış olduqda onlar istifadə oluna bilən nüvə imkanlarında bərabərləşir: müəyyən hüdudlar daxilində kəmiyyət fərqləri keyfiyyət tarazlığına xələl gətirmir. Bu hüdudlar o zaman pozulmuş olar ki, bir dövlət digər dövlətin cavab vermək imkanını ilk zərbə ilə məhv etmək iqtidarında ola biləcək qədər böyük üstünlüyə nail olar.

Bərabərsizliyin bu hüdudlar daxilində qalmalı olduğunu dərk edən ABŞ və Sovet İttifaqı nüvə silahı yarışını tənzimləməklə onu sabitləşdirməyə dair ortaq maraqlara malikdir. Onlar bunu 3 yolla edə bilərlər. Birincisi, onlar birtərəfli fəaliyyət ilə nüvə silahlarının istehsalını və çatdırılma vasitələrini çəkindirmə və real nüvə müharibəsi baxımından öz qiymətləndirmələri əsasında məhdudlaşdıra bilər. ABŞ bunu müəyyən raket və təyyarə növlərinin istehsalını azaltmaq və dayandırmaq yolu ilə etmişdi və hesab oluna bilər ki, Sovet İttifaqı da eyni cür etmişdir.

İkincisi, dövlətlər silahlarına kağız üzərində yazılmamış razılaşma, bir tərəfin digər tərəfin nümunəsi üzərində təxmin edilən fəaliyyəti, yaxud fəaliyyətsizliyi və əks vasitə ilə nəzarət edə bilir. Həmin əsaslarda ABŞ və Sovet İttifaqı 1958-1961-ci illərdə nüvə silahlarını atmosferdə sınaqdan keçirməkdən çəkindi; 1964-cü ildə isə parçalana bilən maddələrin istehsalını azaltdı.

Üçüncüsü, dövlətlər silahlarına formal razılaşmalar ilə nəzarət edə bilir. 1963-cü ildə Böyük Britaniya və Sovet İttifaqı arasında nüvə silahının sınağının qismən qadağan edilməsi haqqında imzalanmış müqavilə bu qəbildəndir. O, nüvə qurğularının quruda və su altında sınaqdan keçirilməsini qadağan edir, lakin torpaq altında sınağının davam etdirilməsinə icazə verir. Bununla o, nüvə silahları texnologiyasını o dərəcədə sabitləşdirir ki, onların inkişafı atmosferdə və su altında keçirilən sınaqlardan asılı olur. Müdafiə Raketləri haqqında Müvəqqəti Razılaşma (SALT I) nüvə silahlarının özünəməxsus təbiətindən bu günə qədər silahlara nəzarət üçün ən uzaq gedən nəticələri doğurur. O, nüvə silahlarının sayını təxminən sabitləşdirir, lakin keyfiyyətinin yaxşılaşdırılmasına imkan verir. Xüsusilə sualtı qayıqların və sualtı qurğulardan buraxılan raketlərin sayında cüzi artımı təmin etməklə o, texnoloji dəyişikliyi kəmiyyət və keyfiyyətcə təkmilləşdirilmiş müdafiə raketlərinə qarşı həssas olan yerüstü raketlərdən kənar nəzərdən keçirir.

Silahlar üzərində nəzarət müəyyən silahları, yaxud silahların hamısını müəyyən coğrafi regionlardan və ya dövlətlər qrupundan istisna etmək formasını da ala bilər. 1961-ci ildə imzalanmış Antarktika müqaviləsi, 1967-ci ildə imzalanmış Kosmos müqaviləsi, 1967-ci ildə imzalanmış Latın Amerikasında nüvədən azad zona haqqında müqavilə, 1970-ci ildə imzalanmış nüvə silahlarının yayılmaması haqqında müqavilə, 1971-ci ildə imzalanmış dənizin dibi haqqında müqavilə və 1972-ci ildə imzalanmış bakterioloji (bioloji) və zəhərli silahların inkişaf etdirilməsi, istehsalı və

yığılmasının qadağan edilməsi haqqında konvensiya bu kateqoriyaya aiddir. Lakin qeyd olunmalıdır ki, bu müqavilələrin əksəriyyəti aidiyyəti dövlətlərin hər hansı formada həyata keçirmək istəyində və iqtidarında olmaması ilə əlaqədar hüquqi qeyd-şərtlərlə təsdiq olunmaqdan başqa bir iş görmür. ABŞ və Sovet İttifaqı, İran və İraq arasında pis münasibətlərin davam etməsi ilə müəyyən ərazilərdə əksinə dəyişikliklərlə müvəffəqiyyətin təhlükə altına düşdüyü görünür.

Nüvə müzakirəsi ABŞ və Sovet İttifaqı arasında hal-hazırda və gələcəkdə hərbi qüvvələrin tarazlığı da daxil olmaqla bir sıra zahirən vacib məsələləri, müəyyən silah sistemlərinin imkanlarını və Sovet İttifaqının silahlara dair müqavilələrə əməl etməsini yoxlamaq imkanlarını üzə çıxarır. Lakin müzakirə həmçinin müxtəlif düşərgələrin bölüşdüyü və uzun vədədə ABŞ-ın gələcəyi üçün bu günə qədər diqqətimiz mərkəzində olan bütün ssenarilərdən, detallardan və texniki təfsilatlardan daha əhəmiyyətli olduğu görünən bir ünsür irəli çıxarmışdır: nüvə silahlarına münasibətdə düşüncə tərzlərimizin və fəaliyyətimizin *geriliyi*. Eynşteynin bir əsr yarım bundan əvvəl söylədikləri bu gün də həqiqətdir: "atomun açılıb buraxılmış gücü düşüncəmizdən başqa hər şeyi dəyişib". Başqa sözlə, açıb buraxılmış atom bizi görünməmiş yenilik ilə üz-üzə qoyur və onların həlli üçün eyni yenilikdə düşüncə tərzi və fəaliyyət tələb edir. Lakin hər iki tərəfdə əksər qruplar sanki 1945-ci ildə atom inqilabı baş verməyib kimi düşünür və hərəkət edir.

Nüvə silahlarının mövcudluğu siyasi məqsədlər və fiziki zorakılıq arasındakı ənənəvi əlaqəni əsaslı şəkildə dəyişib. 1945-ci ilə qədər böyük dövlət, məsələn, ABŞ digər dövlətlər ilə münasibətlərində məqsədlərinə çatmaq üçün zorakılıq və qeyri-zorakılıq arasında rasional seçimə malik idi. Əgər o, müəyyən bir nəticəyə nail olmağı olduqca çox istəyirdisə və buna dinc yollarla nail ola bilmirdisə, əgər risk və xeyirin hesablaması lehinə olardısa, o, zorakılığa əl ata bilərdi. Belə bir hesablama həm yaxın, həm də uzaq vədədə dağıdıcılığına görə nüvə silahlarından istifadənin apriori əleyhinə olan belə hesablama bütün xeyirləri aradan qaldırır. Nüvə silahlarından hətta ilk başda məhdud həcmə istifadə tam bir fəlakətdir və nəticədə hər iki tərəfin yalnız məhvinə gətirib çıxara bilir.

Bu minvalla sözdə yalnız adi istifadə qaydaları ilə "silahlar" və "müharibə" baxımından nüvə fenomenindən bəhs edərkən müəyyən atavistik tutarsızlıqla qarşılaşırıq. "Silahlar" və "müharibə" kimi ifadələr həmin anlayışlar və insan məqsədləri arasında rasional əlaqə ifadə edir. "Silah", adətən, müəyyən rasional bir məqsədə xidmət edir və "müharibə", adətən, belə bir rasional məqsəd üçün aparılır; onların hər ikisi iki nüvə dövləti arasında nüvə münasibətlərində mövcud deyil. Beləliklə, nüvə silahlarından və nüvə müharibəsindən bəhs edərkən adi sözdən istifadə yeniliyə uyğun müvafiq sözlərin hələ tapılmadığı yeni reallığın üstünü örtür.

Yeni bir fenomen üçün adi sözlərdən istifadə yalnız həqiqəti ört-basdır etməyə meyil etmir, o həm də məsləhət görür ki, həqiqət adi sözlərin adi mənalarında axtarılsın. Bu sözlər tarixin uzun dövrlərində assosiasiyalar, təsəvvürlər və mülahizələrin şəbəkəsini bir araya toplayıb, belə sözlərin nüvə fenomeninə tənqidsiz tətbiqi adekvat anlaşma və uğurlu fəaliyyətə manea törədir. Beləliklə, nüvə silahlarına nəzarət və tərk-silah prosesi üçün nüvə silahları və nüvə müharibəsi ilə onların sanki adi silahlar və müharibənin kəmiyyət genişlənməsi olduğu şəkildə davranmaq qaçılmazdır. Əslində, onlar növlərinə görə müxtəlifdir, çünki onlar total məhvin məkana və zamana görə alətləridir; ona görə də onlar tarixin bizə silahlara və müharibəyə aid etməyi öyrətmiş olduğu vəzifələri yerinə yetirmək iqtidarında deyil.

İrrasionallığın qəbulu olaraq superdövlətlər nüvə silahları yarışına nəzarət etməyə çalışıb, belə nəzarət, ümid olunur ki, sonda nüvə tərk-silahı ilə nəticələnəcək. Prosesin gedişində onlar tələşlı şəkildə nüvə silahı və adi silahların üzərində nəzarət və onların tərk-silahı arasındakı fərqə təcrübədə nə qədər laqeyd olduqlarını göstəriblər. Onlar illər boyu adi silahlarla əlaqədar ola bilən, lakin əksər hallarda nüvə sahəsinə aidiyyəti olmayan məsələlər üzərində sövdələşmiş və mübahisə etmişlər. Məsələn, Rusiyanın müəyyən raketlərinə yalnız müəyyən sayda sərbəst hədəf ala bilən başlıqlar daşımaq icazəsinin verilməsi nə deməkdir? Başlıqların sayı qarşılıqlı zəmanətli məhvetmə prinsipinə xələl gətirmədikcə qarşılıqlı məhvetmə üsullarının sayı və xarakterinin məsələyə aidiyyəti yoxdur. Adi metafordan istifadə etsək, nə qədər ki mənim düşmənimin məni öldürmək üçün bir tüfəngi var, onun şəhərdə tüfənglərin ən gözəl kolleksiyasına malik olmasının bizim qarşılıqlı əlaqələrimizə heç bir aidiyyəti yoxdur. Bir daha təkrar edirik: *ABŞ və Sovet İttifaqı arasında, həqiqətən, qorunub saxlanılmalı olan strateji nüvə tarazlığı qarşılıqlı büsbütün məhvetmə bacarığına söykənir, o isə öz növbəsində sayların və fəaliyyətin bərabərliyinə deyil, yalnız malik ola biləcəyi nüvə silahlarının sayından və xarakterindən asılı olmayaraq, düşməni məhv etmək bacarığına söykənir.*

Müqayisə oluna bilən hərbi qüdrət ənənəvi şəkildə müqəddəsləşdirilmiş bir çox anlayışlar arasında nüvə inqilabı tərəfindən gerilik kimi təqdim olunmuş yeganə anlayışdır. Müdafiə, məhdud müharibə, qələbə, ittifaqlar, yoxlama, hərbçilər və hərbçi olmayanlar arasında fərq nüvə silahlarının mövcudluğu ilə eyni şəkildə qüvvəsini itirmiş digər tanış anlayışlardır. Narahatlıq yaradan və təhlükəli olan bizim bu məsələlərdə düşüncəmizi köhnəlmiş düşüncə tərzindən və fəaliyyətin tətbiqindən dövrlərin yeni şərtlərinə yönəldənlərin əksəriyyətinin bu işdə könülsüz olmasıdır. Çıxılmaz vəziyyətə düşmüş və özü də çıxılmaz vəziyyət yaradan SALT II müzakirəsi və sonrakı danışıqların tərəddüdlü və uğursuz xarakteri mədəni geriliyi olan fəaliyyətin əsas nümunələridir və bu nümunələr nüvə dövrünün

məsələlərinin keçən dövrün düşüncə tərzləri və fəaliyyət forması ilə həllinə cəhd etməyimizə gətirib çıxarır.

Fundamental formada bu mədəni gerilik 1945-ci ildən etibarən nüvə silahları nəzəriyyəsi və təcrübəsində hakim olub. Hərbi nüvə təliminin və təcrübəsinin tarixi nüvə silahlarını milli dövlətin ənənəvi məqsədlərinə uyğunlaşdırmaq üçün edilmiş faydasız cəhdlərin ardıcıllığının tarixidir. 30 ildən çox bir müddətdə – təmiz hidrogen bombasından əks-təsir strategiyasına qədər – üzərilərində adi üsullarla manipulyasiya etmək üçün nüvə silahlarının açıq-aydın şəkildə yalnız adi silahlar olduğunu göstərməyə çalışmışıq.

Müzakirənin mərkəzi ABŞ və Sovet İttifaqı arasında strateji üstünlük məsələsidir. Müzakirədə hər iki tərəf bu anlayışın nüvə silahlarına tətbiq olunan zaman yersizliyini mücərrəd şəkildə qəbul edir. Henri Kissincer 1974-cü ilin iyununda mətbuat konfransı zamanı aşağıdakı bəyanatı səsləndirən zaman həmin yersizliyi izhar edirdi: "Allah xatirinə, strateji üstünlük nədir? ...Bu saylar səviyyəsində onun nə əhəmiyyəti var? Onunla nə edəcəksiniz?" Lakin 31 iyul 1979-cu ildə Senatın Xarici Əlaqələr Komitəsinə göndərdiyi bəyannaməsində o, 1974-cü ildə hansısa səbəbdən strateji üstünlüyün əhəmiyyəti olmayan bir anlayışa çevrilmiş olduğuna dair fikir söyləmiş olduğuna dair təəssüfünü dilə gətirdi:

"Mənim bəyanatım analizi deyil, yorğunluğu və qəzəbi əks etdirirdi. Əgər hər iki tərəf tarazlığı müdafiə edirsə, onda yarış, həqiqətən, faydasızdır və SALT-ın sabitliyin möhkəmləndirilməsində öz yeri var. Lakin əgər biz yarışdan birtərəfli şəkildə boyun qaçırsaq, güman ki, sonda strateji üstünlük ilə necə davranmalı olduqlarını düşünüb tapan sovet liderlərinin gənc qrupu ilə üzləşəcəyik".

Qeyd etməyə, yəqin ki, ehtiyac yoxdur ki, bu, strateji üstünlüyün xeyrinə olan az-çox inandırıcı arqumentdir.

Kissincer və digərləri üstünlük anlayışına yeni siyasi məna verməyə cəhd göstərərkən onun adi hərbi anlamda mənasızlığını qəbul ediblər. Dövlət zəmanətli məhvetmə baxımından nüvə optimalına nail olmuş olduqda belə bir arqument irəli sürülür ki, əgər güc hesablamasında hesablanan yalnız mövcud real güc deyil, digər dövlətlər tərəfindən mövcud gücün necə qəbul edilməsidirsə, nüvə silahları onun siyasi gücünə əhəmiyyətli bir əlavə ola bilər. Bu o deməkdir ki, əgər Sovet İttifaqı ABŞ-dan daha çox başlığa malikdirsə, o bununla hərbi cəhətdən ABŞ-dan daha güclü olmur, lakin o, ABŞ ilə münasibətlərində siyasi gücünü artırır, çünki əhali – yanlış olaraq – onun hərbi cəhətdən daha da güclənmiş olduğunu görür.

Bu nöqtədə dayandırılan arqument tamamlanmamış olur: o bunu belə görən əhaliyə dair qeyd-şərti ehtiva etmir. Açıq danışsaq, arqument bunu belə görən əhalini avam hesab edir. Çünki yalnız adi və nüvə silahları arasındakı fərqdən

bixəbər olan avam insanlar hərbi optimaldan artıq nüvə silahlarına sahib olmağa hərbi, yaxud siyasi əhəmiyyət yükləyə bilər.

Zəkaya əsaslanan status-kvonun müdafiəçiləri həmçinin geri qalmış düşüncənin tipik nümunəsi olan hərbi və siyasi bir arqument irəli sürmüşlər. Qarşılıqlı zəmanətli məhvetmə strategiyası arqumentindən çıxış etsək, o, ABŞ prezidentinin seçim imkanlarını kəskin şəkildə məhdudlaşdırır. ABŞ hökuməti eyni dərəcədə qəbulolunmaz iki seçimlə üz-üzə qalır: ya on milyonlarla insanın qırğını, ya da əgər bu barbar alternativdən imtina olunarsa, barışıq. Zəmanətli məhvetmə üçün optimal həcmi ötüb-keçən nüvə silahları məhdudlaşdırılmış nüvə müharibəsi, yəni başlanğıcında müasir adi müharibənin bizi tanış etdiyi "sadəcə", məhdudlaşdırılmış məhvetmə forması olan atom müharibəsi növü aparmağı mümkün edir.

Nüvə silahları ilə adi qaydada davranmaq üsulunun axtarışı 1945-ci ildən etibarən nüvə strategiyasının müxtəlif təzahürlərdə *leytmotivi* olub. Nüvə silahından universal, idarəolunmaz dağıdıcı təsirləri – nəzəriyyədə bunu düzgün olaraq nüvə silahları ilə əlaqələndiririk – olmadan istifadə etmək imkanı verə biləcək yeni strategiya hazırlamaq üçün edilən müxtəlif cəhdlərin sadalanması faydalı olar. Məsələn, götürək 1950-ci illərin əvvəllərində meydana çıxmış hidrogen bombası adlandırılan silahı, yəni hətta Hirosima və Naqasakiyə atılmış kilotonluq bombaların sahib olduğu dağıdıcı, heç bir şeyə fərq qoymayan təsirlərə malik ola bilməyəcək hidrogen bombasını. O, radioaktiv çöküntüsü az olan, yaxud da heç olmayan və nəticələri adi bomba qədər çox böyük olan bomba idi.

Amerika Hərbi-Hava Qüvvələrinin keçmiş qərargah rəisi general Kurtis Li Meyin sözləri ilə desək, nüvə bombası, "sadəcə, digər bir bombadır". ABŞ-ın Atom Enerjisi Komissiyası 1962-ci ildə çap olunmuş *"Nüvə silahlarının təsirləri"* başlıqlı nəşrində bu ideyaya qısa düzəliş etdi. Komissiya bildirdi ki, təmiz hidrogen bombası deyilən bir şey yoxdur və bütün hidrogen bombaları – hətta partlayışının paylanması, yanğın və radiasiya müxtəlif cür hazırlanmış bombalara görə müxtəlif ola bilsə də – az və ya çox dərəcədə "çirkli"dir. Adi bombadan əsaslı şəkildə fərqlənməyən hidrogen bombası icad etməyin mümkün olduğu fikri tamamilə yanlışdır.

Digər bir nümunə kimi "dərəcələnmiş çəkindirmə" anlayışını nəzərdən keçirək. Bu, demək olar ki, dərhal total müharibəyə keçməyən nüvə müharibəsi aparmaq üsuludur. Bunun əvəzinə – şahmat oyununda olduğu kimi rasional və əvvəlcədən müəyyən olunmuş üsulla – bir tərəf bir şəhəri "oyundan çıxararaq" bir gediş edir, digər tərəf isə öz rəqibinin şəhərini "oyundan çıxararaq" başqa bir gediş edir. Beləliklə, hər iki tərəf tamamilə uzaqgörən şəkildə, rasional üsulla digərinə müəyyən dərəcədə zərər yetirir. Bu ideya sağ qalma oyunlarının yüksək inkişaf etdiyi bəzi beyin mərkəzlərində geniş şəkildə qəbul olunmuşdur. Fərziyyəyə əsaslanan mövcud ehtimalların nəzərdən keçirilməsinin lehinə arqument irəli sürülə

bilər. Lakin Sovet İttifaqı, ABŞ və Çindəki siyasətçilərin sahib olduğu ideoloji təsəvvürlər və dəyərlərlə yaşayan bəşəri varlıqların, məsələn, deyək ki, Çikaqonun Sovet İttifaqı tərəfindən dağıdılmasına, yaxud Minskin ABŞ tərəfindən dağıdılmasına şahmatçıların piyadaları dəyişməsinə baxdığı eyni uzaqgörənliklə baxacağı təcrübi baxımdan ağlabatan deyil. Onlar tez-tələsik – hesablamaları çətinləşdirən yüksəlmiş emosiyalardan tamamilə uzaq şəkildə – elə bir nöqtəyə varid olurlar ki, bu və digər tərəf şahmat oyununun istənilən rasional simulyasiyasında bir tərəfin digəri üzərində üstünlüyü elə keçirəcəyini hiss edir. Nəzəri baxımdan Minsk və Çikaqo arasında nəzərdə tutulan bərabərlik bu şərtlər altında oyunun iştirakçıları üçün öz-özlüyündə aydın olmazdı. Sovet İttifaqı mütləq Minskin Çikaqodan daha əhəmiyyətli olduğunu hesab edəcək. ABŞ isə hesab edəcək ki, Çikaqo Minskdən daha əhəmiyyətlidir. Əslində, onlar bu formada dərəcələnmiş çəkindirmənin, ümumiyyətlə, çəkindirmə olmadığını hesab edəcəklər, çünki o öz dinamizmi ilə mütləq şəkildə vəziyyətin kəskinləşməsinə və total strateji müharibəyə gətirib çıxarır. Lakin bu fəaliyyət formasının məqsədi isə ilk növbədə belə vəziyyətlərə yol verməmək idi. ABŞ belə bir nəticəyə gələndə ki Çikaqo Minskdən daha əhəmiyyətlidir, o, Sovet İttifaqının digər bir amerikan şəhərinə bərabər hesab olunan iki şəhərini sıradan çıxaracaq və bu zaman Sovet İttifaqı bir sovet şəhərinə bərabər hesab olunan iki amerikan şəhərini sıradan çıxaracaq. Bundan əlavə, biz bütünlükdə əhalinin və siyasətçilərin istəklərini nəzərə almalıyıq, çünki rasional şəkildə başlamış belə bir fəaliyyətdə hər iki tərəfdən böyük ehtiraslar yüksəlir. ABŞ-ın əhalisi Amerika şəhərlərinin və onların sakinlərinin bir-birinin ardınca, lakin rasional şəkildə yer üzündən silinməsini, yaxud qismən məhv edilməsini sakitliklə seyr etməyəcək; heç Sovet İttifaqı hökuməti və əhalisi də belə etməyəcək. Bir daha qeyd edirik, bizim əlimizdə, demək olar ki, mütləq şəkildə vəziyyətin kəskinləşməsinə və dərəcəli çəkindirmənin, əslində, uzaq durmaq niyyətində olduğu müxtəlif nəticələrə gətirib çıxaracaq bir qüvvə var.

Biz nüvə müharibəsi ehtimalı ilə üz-üzə qaldığımızdan onu mümkün qədər ağrısız, mümkün qədər məhdud və hətta deyə bilərik ki, mübaliğəli tutuşdurmanın imkan verdiyi qədər, mümkün qədər humanist etmək istəyirik. Digər tərəfdən, Sovet İttifaqının rəsmi hərbi doktrinası hesab edir ki, adi, yaxud məhdud nüvə müharibəsi kimi başlayan müharibə, xüsusilə Avropa müharibəsi total nüvə müharibəsi səviyyəsinə yüksəlməyə məcburdur. Beləliklə, atəşin dayandırılması ideyası – adi, yaxud məhdud nüvə müharibəsi ilə ümumi nüvə müharibəsi arasında pauza – Sovet İttifaqının hərbi doktrinasına yaddır.

İlk dəfə 1962-ci ildə müdafiə naziri Robert S.MakNamara tərəfindən elan edilən əks-təsir strategiyası nüvə müharibəsinə dair fundamental anlaşılmazlığın digər bir nümunəsi idi. Bu, nüvə müharibəsinin məhdudlaşdırılmasına və bununla

da onun milli siyasətin bir aləti kimi qəbul edilməsinə edilən bir cəhd idi. Əks-təsir strategiyası sadə idi; hesab olunurdu ki, nüvə müharibəsi əhaliyə və sənaye mərkəzlərinə qarşı deyil, yalnız və yalnız hərbi məqsədlərə qarşı aparıla bilərdi və aparılmalı idi. Son zamanlar bu doktrinanın yenidən meydana çıxması nüvə silahlarının artan təkmilləşdirilməsi ilə möhkəmlənən eyni təsəvvürə arxalanır. 1962-ci ildə nüvə silahlarının xarakteri baxımından təcrübədə hərbi və mülki məqsədlər arasında dəqiq fərqi müəyyən etməyin qeyri-mümkünlüyünün xeyrinə belə bir əsaslı dəlillər gətirmək olardı ki, nüvə silahlarının heç bir şeyə fərq qoymayan və geniş yayılmış dağıdıcılığı o qədər böyük idi ki, hərbi məqsəd güdən nüvə silahı mülki məqsədlərin, sadəcə, yaxınlığı səbəbindən sonuncuları da məhv etməyə məcbur idi. Bu arqument hələ də keçərlidir.

Yalnız iki nümunəni nəzərdən keçirsək, əgər Sovet İttifaqı "Simurq" və "Şayen"ə yaxın raket start meydançasını dağıtmağa çalışırsa, sovet raketləri raket meydançalarını yaxınlıqdakı əhali və sənaye mərkəzlərinə heç bir mənfi təsir göstərmədən məhv edə biləcək dəqiqliyə malik deyil. Dəqiqlikdəki son irəliləyişlər, bəlkə də, vəziyyəti bir qədər düzəltmiş ola bilər və onun əks-təsir strategiyasının yenidən meydana çıxmasına onun ilkin tərtibatından zərrə qədər çox xidməti ola bilər.

Lakin əks-təsir strategiyası haqqında verilə biləcək daha əsaslı sual, dəqiq desək, son hərbi məqsədə dair verilən sualdır. Əks-təsir strategiyasının ən çox tanınmış versiyası olmuş Amerika versiyasına görə, ABŞ nüvə müharibəsinin başladılması üçün ilkin zərbəni vuran ölkə olmayacaq. O, digər tərəfin birinci zərbə ilə nüvə müharibəsini başlatmasını gözləyəcək; yalnız bundan sonra o, qarşı tərəfin yalnız, sadəcə, raket start meydançaları deyil, həmçinin raketlərin özü kimi təqdim etdiyi hərbi hədəflərə hücum edəcək. Lakin birinci zərbə artıq onların raketlərinin yerləşdiyi raket start meydançaları və raketlərin artıq start götürmüş olduğu meydançalar arasındakı fərqin əhəmiyyətini aradan qaldırmış olar.

Lakin gəlin belə fərz edək ki, bu fərq istənilən halda müəyyən oluna bilir və bu mübadilə nəzərdə tutulduğu kimi baş tutur. Bu, əlbəttə ki, müharibəni başlamış düşmənin özünün bütün raket start meydançalarını məhv etmiş olmadığını və düşmənin hələ də raketlərin olduğu start meydançalarını məhv etmək üçün kifayət edəcək sayda raketə malik olduğunu əvvəlcədən nəzərdə tutur. Bütün bunları qəbul edək və fərz edək ki, müharibənin iki tərəfi yerüstü raketlərini qarşılıqlı şəkildə ərazidən çıxarır; bəs onda onlar nəyə nail olurlar? Onlar başlanğıcda olduqları eyni mövqedədirlər, istisna olaraq onlar indi yalnız dənizdən və ola bilsin ki, havadan həyata keçirilən çəkindirmə fəaliyyətinə bel bağlamalıdırlar. Beləliklə, bir tərəf yalnız mexanizmin yerüstü raketlərdən dənizdən hərəkətə gətirilən raketlərə keçməsi ilə yaranan fərqə malik olmuş olduqda müharibənin başlanğıcında eyni çəkindirmə təsirinə malik olan dağıdıcı qüvvənin eyni bölgüsünə

malik olmuş olar. Bəzi hakimiyyətlər belə bir arqument ilə çıxış edir ki, yerüstü raketlər istənilən halda köhnəlmişdir və onlar ABŞ və Sovet İttifaqı arasında silahlar üzərində nəzarətə dair aparılan danışıqlarla tədricən istifadədən çıxmalıdır. Əgər bu mövqe düzgündürsə, onda layihələndirilmiş əks-təsir mübadiləsində biz bir-birimizin yerüstü raketlərini gündəmdən çıxarmaqla, sadəcə, qarşılıqlı tərk-silah tədbirinə qoşulmuş olarıq. O zaman biz əvvəllər olduğu kimi eyni bir mövqedə olmuş olarıq – bu o deməkdir ki, heç bir qalib, heç bir məğlub olmaz.

Bu digər bir nöqtəyə – qalib və müharibədə məğlub olmuş arasında əsas fərqə gətirib çıxarır və bu, yenə də şüura dərin şəkildə həkk edilmiş fərqdir, çünki o, minillik tarixi təcrübədən qaynaqlanır. Beləliklə, xüsusilə hərbçilər həm Koreyada, həm də Vyetnamda adi müharibənin motivi ədalətli hesab olunan – əlbəttə ki, özü tərəfindən – tərəfin təmiz qələbəsi ilə bitməyəcəyini qəbuledilməz hesab edirdilər. Qələbə və məğlubiyyət arasındakı fərqdən imtina etməyə eyni meyilsizlik nüvə müharibəsinə dair düşüncələrdə aydın hiss olunur. Nüvə müharibəsinin mütləq olaraq pat vəziyyəti, yaxud da müharibə tərəflərinin qarşılıqlı məhvi ilə bitməli olması zəfərlə bitəcək müharibələrə hazırlaşmağı öz peşəsinə çevirənlər üçün qəbuledilməzdir. Onlar həyatda əsas məqsədi şirkəti üçün qazanc əldə etmək olan biznesmenin mövqeyindədirlər; və o, birdən belə bir reallıq ilə üz-üzə qalır ki, onun ümid edə biləcəyi ən yaxşı hal zərərə uğramamaqdır. O, heç vaxt qazanc əldə etməyəcək və bir daha heç vaxt divident ödəməyəcək; aydın məsələdir ki, belə bir fikir onun təbiətinə ziddir. Bununla belə, nüvə müharibəsinə gəlincə, bu bizim üzləşdiyimiz bir vəziyyətdir və bu vəziyyət keçmişdəki bütün vəziyyətlərdən kəskin şəkildə fərqlənir: müharibə özü tamamilə mənasız, irrasional müəssisəyə çevrilir. Hətta onu məhdud şəkildə saxlamaq mümkün olsa belə (əks-təsir strategiyası), o, yenə də, sadəcə, olaraq, başladığı eyni cür müvazinət ilə başa çatacaq, yalnız müvazinəti yaradan qüvvələrin təşkili fərqli olacaq.

Yaxud da götürək müdafiə konsepsiyasını. Tarix boyunca bu bir aksioma olmuşdur ki, istənilən yeni silah gec-tez ona əks olan yeni silahı doğurur – ondan müdafiə silahını. Fərz edək ki, bu aksioma tarixi təcrübə ilə təsdiqlənmişdir. Lakin nüvə silahının dağıdıcılığı o qədər böyükdür ki, müasir texnologiya və xüsusilə Reyqan administrasiyasında bəziləri tərəfindən qeyri-ciddi şəkildə diqqət yetirilən xərclər baxımından nüvə silahlarına qarşı səmərəli müdafiə üsulu fikirləşib tapa bilmək ağlabatan deyil. Odur ki strateji silahların məhdudlaşdırılmasına dair müqavilə üzrə aparılan danışıqlar tərəfindən raket əleyhinə müdafiə silahlarının (ABM) bütün təcrübi məqsədlər üçün ləğv edilməsi nüvə dövrünün obyektiv amillərinin qəbul edilməsidir. Əgər biz nüvə silahlarından müdafiə oluna biliriksə, deməli, nüvə müharibəsinə qarşı əsas çəkindirmə vasitəsini aradan qaldırmışdıq. Ulduz müharibələrindən müdafiə sistemlərinə dair təkliflərə etinasızlığın

səbəbi bu reallıqdır. Əgər bəşəriyyət nüvə müharibəsindən sağ çıxmağı gözləyirsə, nüvə müharibəsi aparıb-aparmamaq məsələsinə adi müharibə ilə oxşar yanaşma məqsədəuyğunluğun praqmatik hesablanmasını ehtiva etməlidir.

Taktiki nüvə müharibəsi strategiyası hər iki tərəfin məhvinə gətirib çıxarmayacaq, lakin bir tərəfin qələbəsi ilə nəticələnəcək nüvə müharibəsini mümkün etməyə edilən digər bir cəhddir. Taktiki nüvə müharibəsi anlayışı, yəni nüvə silahlarından döyüş meydanında istifadə bir sıra təcrübə və nəzəri çətinliklərlə üzləşir. Birincisi, taktika ilə strategiya arasında obyektiv, ümumi şəkildə qəbul olunmuş və qəbul oluna bilən xətt çəkmək mümkün deyil. Bütün ölkələrdə hərbi düşüncə məktəbləri müəyyən bir nəticəyə gəlmədən bu məsələ ətrafında müzakirə aparıb. Döyüş meydanının real şəraitdə bu fərqi hərbi əməliyyatların planlaşdırıcısı və rəhbərinin beynindəki fərq qədər böyük deyil. Hirosima və Naqasakinin bombalanması bu gün taktiki nüvə silahları kimi təsnif edilməsi faktı taktikanın ümumi şəkildə strategiya hesab olunan məfhumu əhatə etmək üçün nə qədər genişləndirilə biləcəyini göstərir. Bir tərəfin taktiki manevr hesab etdiyini digər tərəf strateji gediş hesab edə bilər və digər tərəfin cavabı birinci tərəfindən ya taktiki, ya da strateji baxımdan şərh oluna bilər. Belə vəziyyətlərdə hər iki tərəf problemlərə ən pis hal kimi yanaşma nümayiş etdirməyə meyil etdiyindən, yəni düşmənin niyyətləri baxımından ən pis halı ehtimal etdiyindən fərqi olduqca tez aradan qaldırmağa məcburdur. Bu adi, eləcə də nüvə müharibəsi baxımından həqiqət olduğu halda, sonuncunun təbiəti problemi kəskinləşdirir.

Bir anlığa fərz edək ki, Mərkəzi Avropada ABŞ Sovet İttifaqını da əhatə edən adi müharibə başlayır. Avropada təxminən 9000 taktiki nüvə başlıqları adlandırılan silahlarına malik olan ABŞ əvvəlcə onların bir qismini sovet hərbi hədəflərinə – körpülərə, bir araya toplanmış hərbi qüvvələrə, səhra anbarlarına və təchizat qurğularına – qarşı istifadə edir. Lakin nüvə silahlarının hətta məhdud istifadəsi, məsələn, deyək ki, Belarusun bəzi şəhərlərinin məhvinə gətirib çıxarır. Sovet İttifaqı Qərb ordularına amerikalıların Sovet İttifaqına vurduğu eyni taktiki zərərləri vurmaq üçün Brest, Şerburq, Havr və s. kanal limanlarına hücum edərək eyni taktiki ruhda cavab verir. Lakin taktiki hədəf təbiətinə görə fərqli, hər iki tərəfdə qeyri-adi dərəcədə asimmetrik olduğundan Havr, Brest və Şerburqu alovlar içində görən amerikalılar öz-özlərindən soruşacaqlar ki, sovetlər bundan sonra nə edəcək? Bu, taktiki gedişdir, yoxsa strateji? Amerikalılar ən pis hala dair apardıqları şərhi tətbiq edərək, bir neçə rus şəhərini məhv edirlər. Sovetlər də eyni şəkildə cavab verir: əgər amerikalılar bizim bir neçə şəhərimizi məhv edirsə, biz də onların bir neçə şəhərini məhv edirik. Hər iki tərəf total strateji müharibəyə qoşulmuş olduğunu görür, ona görə yox ki hər iki tərəf bunu istəyirdi, ona görə ki ilkin addımın real dinamizmi heç bir tərəfə seçim imkanı qoymur. Leon Uiseltir bunu belə izah edir:

"Əgər ABŞ nə vaxtsa Sovet İttifaqı ilə nüvə müharibəsi aparsa, əminliklə demək olar ki, bu, Sovet İttifaqının ABŞ-a hücumu səbəbindən baş verməyəcək. Bu ona görə baş verəcək ki, Sovet İttifaqı ABŞ-ın müttəfiqlərindən birinə hücum edəcək. Müharibə strateji nüvə mübadiləsi ilə başlamayacaq, yəqin ki, onunla eskalasiya nöqtəsinə çatacaq. Atlantik İttifaqının müdafiə siyasəti eskalasiyanın amansızlığına əsaslanır. Vəziyyətin kəskinləşməsi üçün istifadə olunan rəsmi bənzətmələr "çəkindirmə zənciri", "çəkindirmə toru", "çəkindirmənin aramsızlığı" kimidir; bu zənciri, toru və aramsızlığı tamamlamaq üçün yeni raketlər quraşdırılacaq".[1]

Dövrün ən pis nüvə xofu gəlib-keçməyənədək çəkindirmə bütün səviyyələrində saxlanılmalıdır. Belə ki, adi müharibədən imtina edilməli, daha az taktiki nüvə silahı meydanları istifadə olunmalı; taktiki nüvə silahlarından imtina edilməli, daha az strateji nüvə silahları istifadə olunmalı; və nüvə silahlarından faktiki olaraq, nəyin bahasına olursa olsun, imtina edilməlidir. Vəziyyətin eskalasiyası vədi hər kəsi fəaliyyətdən çəkindirir. Sülhün hakim olduğu dövrdə bu, yaxşılığın vədidir. Lakin müharibə dövründə isə bu, pisliyin vədidir. Çəkindirmənin bənzətmələri nəticəsində çətin vəziyyətin bənzətmələridir. Çəkindirmə uğursuz olanda bütün səviyyələrdə uğursuz ola bilər. Bu onun qaranlıq tərəfidir.

ABŞ məşhur "birinci istifadə" siyasətində dəfələrlə nüvə silahlarından istifadə etməklə, yəni adi müharibəni nüvə müharibəsi "səviyyəsinə qaldırmaqla" Avropa ordularını xilas etmək niyyətini bəyan edib. Sovet İttifaqı isə NATO tərəfindən istənilən nüvə hücumunu ABŞ tərəfindən hücum kimi şərh etmək, yəni müharibə səhnəsini strateji nüvə müharibəsi kimi şərh etmək və buna uyğun olaraq hərəkət etmək niyyətini bəyan edib.

Lakin vəziyyətin eskalasiyasını amansız edən yalnız doktrina deyil. Bu, zəmindəki real vəziyyətdir. Həmin vəziyyət haqqında yeganə ən həlledici amil müttəfiqlərimizin adi müdafiə sistemlərinin qənaətbəxş olmamasıdır. NATO və Varşava Müqaviləsi Təşkilatı canlı qüvvəsinə görə təxminən bərabərdir, lakin Varşava Müqaviləsi Təşkilatı xüsusilə tanklara (2,64:1), artilleriya silahlarına (2,07:1), yerüstü bombalara (4,83:1), döyüşçülərə (5,07:1) və qırıcılara (7,14:1) görə böyük üstünlüklərə malikdir; onun təchizat xətləri isə NATO-nun xətlərindən daha az problemlidir. Əgər adi müharibənin gedişi bu səbəblərdən xoşagəlməz olarsa, əminliklə vəziyyətin eskalasiyaya çatıb nüvə müharibəsinə keçəcəyini demək olar. Bu halda "birinci istifadə", həqiqətən, sonuncu ümid yeridir. Nüvə müdafiəsi sistemini daha etibarlı (xüsusilə demokratik cəmiyyətlərin müdafiə olunmalı vətəndaşları üçün) etmək üçün birinci istifadənin dağıdıcı nəticələri bir müddət "çevik cavab" doktrinası arxasında gizlədildi və ona uyğun olaraq,

[1] *Nuclear War, Nuclear Peace* (New York: Holt, Rinehart and Winston, 1983), səh. 65-66.

ən dəhşətli nüvə zərbələrinə əl atılacaq, yaxud istənilən halda onlar sona saxlanılacaqdı. Lakin çevik cavab doktrinasının çatışmazlıqları müfəssəl şəkildə izah edilmişdir. Daha az dəhşətli olan zərbələr belə kifayət qədər dəhşətlidir. Dərhal nüvə zərbələrinə başlanılmalı olardı.[1]

Düşüncəmizi nüvə silahları fenomeninə uyğunlaşdırmaq əvəzinə, biz nüvə silahlarından təklif olunan istifadəni adi düşüncə tərzimizə uyğunlaşdırmağa çalışmışıq. Lakin üç onillikdən çox çəkən müzakirə bunu yerinə yetirməyin mümkün olmadığını göstərmişdir. Məhdud zərərləri olan məhdud nüvə müharibəsi yalnız o şərtlə ağlabatandır ki, müharibədəki paylar eyni dərəcədə məhdud olsun.

Lakin nüvə silahlarına birinci dərəcəli olmayan maraqlar naminə, rasional şəkildə başlanğıcda, yaxud eskalasiya zamanı hüdudu olmayan nüvə siyasəti xətti və potensial olaraq hüdudu olmayan zərəri əsaslandıraraq əl atmağı təsəvvür etmək çətindir. 1945-ci ildən etibarən nüvə silahlarının istifadə olunmamasının əsas səbəbi budur. Onların məhdud şəkildə tətbiqi növbəti şərt baxımından ziddiyyət təşkil edir: nüvə silahları nəzarət olunmayan və potensial olaraq hüdudu olmayan dağıdıcılığa malik vasitələrdir və birinci dərəcəli maraqlarla əlaqələndirilir. Beləliklə, sovet hərbi doktrinasına görə, məhdud maraqlar naminə aparılan nüvə müharibəsi başlanğıc mərhələdə mümkün olsa da, ehtimal ki, eskalasiyasında total nüvə müharibəsinə çevriləcək. Əgər nüvə silahlarından, məsələn, Avropada birinci dərəcəli maraqlar naminə istifadə olunsa, onda onlar total müharibənin aləti kimi istifadə olunacaq.

Bu günə qədər nüvə müzakirələrində hakim olmuş adi düşüncə tərzləri təsadüfi deyil. Onlar bütün tarix boyu ehtiramla əməl olunmuş müqavilələrdən ayrılmağa vüsət almış istəksizliyin və nüvə silahlarına keçən dövrlərə xas olan düşüncə tərzləri və fəaliyyətin tətbiq olunmasına dair qərarlılığın əlamətləridir. Nüvə silahları üzərində nəzarət yalnız superdövlətlər və onların müttəfiqləri üçün deyil, bütün bəşəriyyət üçün, sözün həqiqi mənasında, həyati məsələdir. Çünki indi ciddi cəhdlər cərəyan edən yayılma fonunda nüvə silahlarının artıq birbirindən ölümünə qorxan ehtiyatlı hökumətlərə malik iki superdövlət ilə məhdudlaşmayan, bütün dünyaya yayılan yarışın gec-tez sözlə ifadə edilə bilməyən fəlakətə gətirib çıxarmalı olduğuna şübhə azdır. Çünki tarix göstərir ki, – əgər tarix nə isə göstərirsə, – bütün dövlətlər zaman-zaman axmaqlar və dələduzlar tərəfindən, bəzən hətta hər ikisi tərəfindən idarə olunub. Nüvə silahları mövcud olmağa başlamazdan əvvəl bu baxımdan vəziyyət kifayət qədər ağır olub. Lakin təsəvvür edin ki, dövləti axmaq, yaxud dələduz, yaxud hər ikisi idarə edir, nüvə silahları artıq mövcuddur və nüvə müharibəsi qaçılmazdır. Beləliklə, nüvə

[1] *Nuclear War, Nuclear Peace* (New York: Holt, Rinehart and Winston, 1983), səh. 63-65.

silahlarına nəzarəti və sonunda nüvə tərk-silahını bütün bəşəriyyətin həyat və ölüm məsələsinə çevirən real nüvə müharibəsinin ümumiləşdirilmiş hüdudsuz nüvə silahları yarışının dinamizminə xas olan, demək olar ki, qaçılmaz zərəridir.

Lakin nəzəri cəhətdən tələb olunana nail olmaq xüsusilə çətindir. Nüvə silahlarına nəzarət aparıcı nüvə dövlətlərinin aşıb keçməyin irrasional olacağı zəmanətli məhv optimalına çatmaq bacarığı ilə mümkündür. Lakin təcrübədə bu, nüvə texnologiyasının sabitliyi ilə əsaslandırılır; çünki yalnız bu ehtimal əsasında aidiyyəti dövlətlər rəqabətdən əl çəkmək imkanı əldə edə bilər.

Beləliklə, aparıcı nüvə dövlətləri atmosferdə və su altında sınaqları dayandırmaq haqqında ona görə razılığa gələ bildi ki, həmin vaxt bu sahələrdə sınaqların keçirilməsindən heç bir texnoloji irəliləyiş gözləmək olmazdı. Lakin onlar yerin altında və kosmosda sınaqların keçirilməsini və mövcud silah texnologiyalarını təkmilləşdirmək və yeni silahlar ixtira etmək imkanlarını axtararaq tədqiqat və təcrübələri davam etdirdilər. Texnoloji sabitlikdən asılılığı baxımından nüvə silahlarına nəzarət həm məhdud, həm də müvəqqəti olaraq qalmaqdadır. Nə qədər ki adi silahlara münasibətdə hərbi rəqabətə siyasi stimul qalmaqda davam edir və adi və nüvə silahları arasında əsas fərq müvafiq qaydada qəbul edilmir, tərk-silah qeyri-mümkündür və silahlar üzərində nəzarət ən yaxşı halda etibarsızdır.

24. Təhlükəsizlik

Daha diqqətli müşahidəçilər anlayıblar ki, tərk-silah məsələsinin həlli yolu tərk-silahın özündə deyil. Onlar bunu təhlükəsizlikdə tapıblar. Silahlanma müəyyən psixoloji amillərin nəticəsidir. Nə qədər ki bu amillər mövcudluğunu mühafizə edir, dövlətlərin silahlanma qətiyyəti tərk-silahı qeyri-mümkün edəcək. Silahlanma üçün ümumi şəkildə etiraf edilən və ən çox tez-tez rast gəlinən motiv hücuma məruz qalmaq xofu, yəni təhlükə hissidir. Ona görə də belə bir arqument irəli sürülüb ki, ehtiyac duyulan dövlətlərin təhlükəsizliyini hər hansı yeni mexanizm vasitəsilə həqiqətən təmin etmək və bununla da ona təhlükəsizlik olduğu hissini vermək-dir. Bu zaman silahlanmaya səbəb olan qüvvə və silahlanmaya real ehtiyac aradan qalxar; çünki dövlətlər həmin yeni mexanizmdə əvvəllər silahlanma ilə cəhd etdik-ləri təhlükəsizliyi tapar. Birinci Dünya müharibəsinin sonundan etibarən dünyanın siyasi cəhətdən fəal olan bütün dövlətləri bu və digər vaxtda qanuni olaraq iki belə mexanizmdən istifadə edib: kollektiv təhlükəsizlik və beynəlxalq polis qüvvəsi.

KOLLEKTİV TƏHLÜKƏSİZLİK

Biz artıq kollektiv təhlükəsizlik məsələsinin hüquqi aspektlərini Millətlər Cə-miyyətinin Nizamnaməsinin 16-cı maddəsində, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin VII fəslində və Birləşmiş Millətlər Təşkilatı Baş Assamble-yasının "Sülh uğrunda birləşmə" qətnaməsində yer almış müddəalara əsasən müzakirə etmişik.[1] Qalır beynəlxalq nizam və sülh məsələsinə xüsusi istinad ilə kollektiv təhlükəsizliyin doğurduğu siyasi məsələləri müzakirə etmək.

İşlək kollektiv təhlükəsizlik sistemində təhlükəsizlik məsələsi artıq ayrıca bir dövlətə aid silahlanma və milli gücün digər ünsürləri ilə tədbir görülməli məsələ deyil. Təhlükəsizlik bütün dövlətlərin narahatlığına çevrilir və onlar hər bir dövlə-tin təhlükəsizliyi üçün sanki öz təhlükəsizlikləri təhlükə altındadırmış kimi tədbirlər görürlər. Əgər A dövləti B dövlətinin təhlükəsizliyini təhdid edirsə, C, D, E, F,

[1] Bax: səh: 379 və növbəti səhifələr

G, H, İ, J və K dövlətləri B dövlətinin adından A dövlətinə qarşı sanki A dövl-əti onların özlərini, eləcə də B dövlətini təhdid edibmiş kimi tədbirlər görəcək və əksinə.[1] Bir nəfər hamı üçün və hamı bir nəfər üçün kollektiv təhlükəsizliyin şüarıdır. Britaniya səfiri lord Loftusun 17 aprel 1869-cu ildə Britaniya xarici işlər naziri qraf Klarendona göndərdiyi məlumatda Bismarkın 12 aprel 1869-cu ildə ona belə dediyini qeyd edirdi: "Əgər siz, sadəcə, Avropada sülhü özbaşına pozacaq dövlətin ortaq düşmən hesab olunacağını bəyan etsəniz, biz həmin bəyanatın tərə-fində olacaq və sizə qoşulacağıq və əgər belə bir kurs digər dövlətlər tərəfindən də dəstəklənərsə, bu, Avropada sülh üçün ən etibarlı zəmanət olar".

Artıq qeyd etmişik ki, əgər beynəlxalq arenadakı şərtlər altında fəaliyyət göstərməyə məcbur edilə bilərsə, kollektiv təhlükəsizliyin məntiqi qüsursuzdur.[2] Kollektiv təhlükəsizliyin müharibənin qarşısını alan mexanizm kimi fəaliyyət göstərməsi üçün üç ehtimal həyata keçməlidir: (1) kollektiv sistem bütün dövr-lərdə istənilən potensial təcavüzkara və ya təcavüzkarlar birliyinə qarşı elə böyük güc toplamalıdır ki, sonuncular kollektiv sistemin müdafiə etdiyi nizamı təhlükə altına salmağa heç vaxt cürət etməsin; (2) ən azından birləşmiş qüvvələri (1) şər-tindəki tələbi yerinə yetirəcək dövlətlər müdafiə etməli olduqları nəzərdə tutulan təhlükəsizliyə dair eyni təsəvvürə malik olmalıdır; (3) həmin dövlətlər toqquşan siyasi maraqlarını bütün üzv dövlətlərin kollektiv müdafiəsinə nəzərən təyin olu-nan ümumi xeyirə tabe etməyi istəməlidir.

Bütün bu ehtimalların xüsusi bir şəraitdə reallaşması ağlabatandır. Bununla belə, çətinliklər belə bir ehtimalın güclü şəkildə əleyhinədir. Keçmiş təcrübə-də və beynəlxalq siyasətin ümumi təbiətində belə bir vəziyyətin meydana gələ biləcəyinə işarə edəcək heç nə yoxdur. Müharibənin indiki şərtləri altında onun keçmiş şərtlərində olduğu kimi heç bir dövlətin bütün digər dövlətlərin birli-yinin hər hansı uğur ehtimalı ilə qabağında durmaq üçün kifayət qədər güclü olmadığı, doğrudan da, həqiqətdir. Lakin real şəraitdə yalnız bir dövlətin təca-vüzkar mövqeyində olacağı ehtimalı olduqca azdır. Adətən, fəal şəkildə kollektiv təhlükəsizliyin qorumağa çalışdığı nizama qarşı çıxan dövlətlərin sayı birdən çox olur və ona rəğbət bəsləyən digər dövlətlər də olur.

Belə vəziyyətin səbəbi kollektiv təhlükəsizlik tərəfindən qorunan nizamın xa-rakterindədir. Bu nizam zərurətdən irəli gələrək müəyyən bir anda mövcud olan status-kvodur. Belə ki, Millətlər Cəmiyyətinin kollektiv təhlükəsizliyi 1919-cu ildə Millətlər Cəmiyyəti qurulan zaman mövcud olan ərazi status-kvosunu qoruyub saxlamağa çalışırdı. Lakin artıq 1919-cu ildə bir çox dövlətlər – Birinci Dünya

[1] Bax: səh. 529-dakı diaqram
[2] Bax: ss. 379-380.

müharibəsində məğlub edilmiş dövlətlər, eləcə də qələbənin bəzi vəd edilmiş nəticələrindən özünü məhrum hesab edən İtaliya – kəskin şəkildə həmin ərazi status-kvosuna qarşı çıxırdı. ABŞ və sovet Rusiyası kimi digər dövlətlər, ən yaxşı halda, status-kvoya biganə idi. 1919-cu il status-kvosundan ən çox faydalanan və onu kollektiv təhlükəsizlik üsulları ilə müdafiə etməkdə ən çox maraqlı olan Fransa və onun müttəfiqləri üçün təhlükəsizlik 1919-cu il sülh müqavilələri ilə təsbit edilmiş sərhədlərin müdafiə olunması və onların Avropa qitəsindəki ağalığının əbədiləşdirilməsi idi. Narazı dövlətlər üçün isə təhlükəsizlik tam əksini ifadə edirdi: həmin sərhədlərə düzəlişlərin edilməsi və onların gücünün Fransa və onu müttəfiqlərinin gücünə nisbətdə ümumi artımına nail olmaq.

Dövlətlərin status-kvonun lehinə və əleyhinə olanlar şəklində qruplaşması yalnız Birinci Dünya müharibəsindən sonrakı dövr üçün səciyyəvi deyil. Bildiyimiz kimi, bu, beynəlxalq siyasətin təməl formasıdır. Bu formada o, tarixin bütün dövrlərində təkrarlanır. O, status-kvo və imperialist dövlətlər arasında antaqonizm vasitəsilə tarixi proseslərin dinamikasını təmin edir. Bu antaqonizm ya kompromis, ya da müharibə yolu ilə həll olunur. Yalnız güc uğrunda mübarizənin beynəlxalq siyasətin hərəkətverici qüvvəsi kimi əhəmiyyəti azalacağı, yaxud daha yüksək bir prinsip tərəfindən əvəz oluna biləcəyi şəraitdə kollektiv təhlükəsizlik uğur imkanına malik ola bilər. Lakin beynəlxalq siyasətin reallığında heç nə bu ehtimala uyğun gəlmədiyindən xüsusi bir status-kvo vəziyyətini kollektiv təhlükəsizlik üsulları ilə dondurmaq cəhdi uzaq vədədə uğursuzluğa məhkumdur. Qısa vədədə kollektiv təhlükəsizlik, rəqiblərin müvəqqəti zəifliyi səbəbindən müəyyən bir status-kvonun mühafizə edilməsində uğurlu ola bilər. Uzun vədədə onun uğursuzluğunun səbəbi isə kollektiv təhlükəsizliyin uğurlu olması üçün irəli sürdüyümüz üçüncü ehtimalın çatışmazlığıdır. 1980-ci ilin əvvəllərində Britaniya və Argentina Folklend adaları üstündə bir-biriylə toqquşdu, İsrail Livanı işğal etdi, ABŞ Qrenadaya qoşun göndərdi. Birləşmiş Millətlər Təşkilatı hansı qətnaməni qəbul etdisə də, nə o, nə də üzv dövlətləri belə fəaliyyətlərə qoşulan dövlətləri dayandıra bilmədi.

Tarixi təcrübənin və beynəlxalq siyasətin həqiqi təbiətindən çıxış edərək qəbul etməliyik ki, beynəlxalq arenada maraq münaqişələri davam edəcək. Nə qədər güclü və beynəlxalq hüquqa nə qədər sadiq olsa da, heç bir dövlət və ya dövlətlər birliyi kollektiv təhlükəsizlik üsulları ilə bütün dövrlərdə, kim tərəfindən və kimə qarşı yeridilməsindən asılı olmayaraq, bütün təcavüzlərə qarşı çıxmaq imkanına malik ola bilməz. 1950-ci ildə Cənubi Koreyaya hücum olan zaman ABŞ və Birləşmiş Millətlər Təşkilatı onun köməyinə gələ bildi, çünki onların buna marağı və gücü var idi. Əgər sabah İndoneziya, yaxud Çili, yaxud da Misir təcavüzün qurbanı olarsa, onlar yenə də kollektiv təhlükəsizliyin mübariz dövlətinə çevrilərmi? İki müxtəlif təcavüzkar eyni zamanda hərəkətə keçərsə, ABŞ və

Birləşmiş Millətlər Təşkilatı nə edər? Onlar əlaqədar maraqlardan və mövcud gücdən asılı olmayaraq, ayrı-seçkilik qoymadan hər iki təcavüzkara qarşı çıxarmı və kollektiv təhlükəsizlik prinsipini pozmaqdan imtina edər və yalnız ya daha təhlükəli olan, yaxud da öhdəsindən gəlməyin daha asan olduğu tərəfi üzərinə götürməkdən çəkinərmi? Bəs əgər sabah Cənubi Koreya qisas almağa qalxarsa və Cənubi Koreya və Çinə qarşı təcavüz aktı həyata keçirərsə, ABŞ və Birləşmiş Millətlər Təşkilatı da mövqeyini dəyişər və Cənubi Koreyaya qarşı döyüşərmi?

Cavab ya sonuncu fərziyyədə olduğu kimi "xeyr", ya da sual işarəsi olmalıdır. Lakin kollektiv təhlükəsizlik prinsiplərinə əsasən, cavab gərək birmənalı şəkildə "bəli" olsun. Bu prinsiplər güc və maraq şərtlərindən asılı olmayaraq, bütün təcavüzlərə qarşı kollektiv tədbirlərin görülməsini tələb edir. Xarici siyasətin prinsipləri isə təcavüzün və təcavüzkarın müxtəlif növləri arasında fərqin qoyulmasını tələb edir. Kollektiv təhlükəsizlik idealda mücərrəd olaraq bütün təcavüzlərə qarşı yönəlir; xarici siyasət isə yalnız xüsusi konkret təcavüzkara qarşı fəaliyyət göstərir. Kollektiv təhlükəsizliyin verə bildiyi yeganə sual belədir: "Təcavüzü kim törədir?" "Təcavüzkara qarşı çıxmaqda mənim hansı marağım və ona qarşı çıxmaq üçün hansı gücüm var?" sualını verən xarici siyasət isə ona yardımçı ola bilməz.

Bu halda kollektiv təhlükəsizlik yalnız belə bir ehtimalda uğur qazana bilər ki, bütün, yaxud faktiki olaraq bütün dövlətlər şəxsi maraqları baxımından əsaslandırıb-əsaslandıra bilməyəcəklərindən asılı olmayaraq, hətta müharibə riski altında olsa da belə, ayrıca bir dövlətin təhlükəsizliyinin pozulması ilə təhlükə altına düşən status-kvonun müdafiəsinə qalxsın. Başqa sözlə, kollektiv təhlükəsizliyin ayrı-ayrı dövlətlərdən tələb etdiyi öz milli eqoizmlərindən və onlara xidmət edən milli siyasətlərdən imtina etməkdir. Kollektiv təhlükəsizlik ayrı-ayrı dövlətlərin siyasətlərinin qarşılıqlı yardım və özünü qurban vermək ruhundan ilhamlanacağını gözləyir, sonuncu isə hətta həmin idealda tələb olunacağı halda ən böyük müharibə qurbanı vermək qarşısında belə güzəştə gedilməyəcək.

Bu üçüncü ehtimal həqiqətdə Qərb sivilizasiyasının tarixində baş verən istənilən mənəvi dəyişiklikdən sonsuz dərəcədə çox fundamental olan mənəvi inqilab ehtimalına bərabərdir. Bu yalnız öz ölkələrini təmsil edən dövlət adamlarının fəaliyyətlərində deyil, həmçinin adi vətəndaşların fəaliyyətlərində baş verən mənəvi inqilabdır. Sonunculardan yalnız zaman-zaman dövlətin maraqlarına zidd getməli olan milli siyasətləri dəstəkləmək tələb olunmur, onlardan həmçinin dünyanın hər hansı bir yerində yerləşən hər hansı bir dövlətin təhlükəsizliyi naminə öz həyatlarını sərf etmək və nüvə müharibəsində total məhv olma riskinə getmək tələb olunur. Hesab oluna bilər ki, əgər hər yerdə insanlar belə düşünüb, belə hərəkət etsəydilər, bütün insanların həyatı əbədi olaraq təhlükəsiz olardı. Bu qənaətin doğruluğu mühakimənin fərziyyəvi xarakteri kimi şübhəsizdir.

İnsanlar, adətən, istər öz aralarında fərdlər, istərsə də digər dövlətlərə münasibətdə öz dövlətlərinin vətəndaşları olaraq kollektiv təhlükəsizliyin uğuru üçün lazım olduğu kimi düşünmür və fəaliyyət göstərmirlər. Göstərməyə çalışdığımız kimi[1], bu gün əgər sözügedən hərəkət onların dövlətlərinin maraqları üçün zərərlidirsə, fövqəlmilli xarakterli mənəvi çağırışlara uyğun hərəkət etmək ehtimalı müasir tarixin istənilən mərhələsində olduğundan azdır.

Ayrı-ayrı dövlətlərin üstündə olan qanun tətbiqetmə qurumu və onların məruz qala biləcəyi böyük mənəvi və sosial təzyiq mexanizmləri yoxdur. Odur ki onlar hər zaman öz maraqlarına uyğun hesab etdikləri hərəkətləri yerinə yetirməli olurlar. Kollektiv təhlükəsizliyin reallaşması üçün tələb oluna biləcək istənilən ağlabatan şərtlər altında ən azından bəzi dövlətlər üçün milli və fövqəlmilli maraqlar və əxlaq normaları arasında münaqişələr qaçılmazdır. Həmin dövlətlər belə bir münaqişəni öz maraqlarının xeyrinə həll etməyə bilmir və bələliklə də, kollektiv təhlükəsizliyin fəaliyyətini iflic edir.

Bu müzakirədən çıxış edərək, belə bir qənaətə gəlməli oluruq ki, kollektiv təhlükəsizlik müasir dünyada ideal təsəvvürlərə uyğun fəaliyyət göstərməyə məcbur edilə bilməz. Lakin kollektiv təhlükəsizliyin ideala yaxın mükəmməlliklə fəaliyyət göstərməsinə edilən istənilən cəhdin onun nail olacağı güman edilənə əks nəticə vermiş olacağı onun ən böyük paradoksudur. Kollektiv təhlükəsizliyin məqsədi status-kvonun müdafiəsinə heç bir dövlətin status-kvonu dəyişmək üçün gücə əl atmağa cürət etməməsinə səbəb olacaq qədər böyük qüvvə cəlb etməklə müharibəni qeyri-mümkün etməkdir. Lakin kollektiv təhlükəsizliyin fəaliyyətini təmin etmək üçün şərait ideala nə qədər az yaxındırsa, status-kvonu müdafiə etmək istəyən dövlətlərin birləşmiş gücü bir o qədər az qorxuludur.

Əgər dövlətlərin çoxu status-kvoya qarşıdırsa və əgər onlar kollektiv təhlükəsizlik baxımından təyin olunan ortaq marağa müxaliflik etməkdən daha çox, üstünlük vermək istəmirlərsə, status-kvonun lehinə olan dövlətlərlə onun əleyhinə olan dövlətlər arasında qüvvələrin bölgüsü artıq böyük ölçüdə birincinin xeyrinə olmayacaq. Daha dəqiq desək, qüvvələrin bölgüsü qüvvələr tarazlığının hələ də status-kvonun lehinə olan dövlətlərin xeyrinə ola bilən aspektlərinə əhəmiyyət verəcək, lakin bu əhəmiyyət artıq status-kvonun əleyhinə olan dövlətlərə qarşı mütləq çəkindirmə üsulu kimi fəaliyyət göstərə biləcək həcmdə olmayacaq.

Kollektiv təhlükəsizliyi bu şərtlər altında əhəmiyyətli etmək cəhdi – bildiyimiz kimi, o yalnız bu şərtlər altında əhəmiyyətli ola bilər – sülhü qoruyub saxlamayacaq, lakin müharibəni qaçılmaz edəcək. O həm də yalnız müharibəni qaçılmaz etməyəcək, həmçinin lokallaşmış müharibələri mümkünsüzləşdirəcək

[1] Bax: səh. 251 və növbəti səhifələr

və bununla da universal müharibəni qaçılmaz edəcək. Çünki müasir şərtlər altında həqiqətən fəaliyyət göstərə biləcək kollektiv təhlükəsizlik rejimində əgər A dövləti B dövlətinə hücum edirsə, C, D, E və F dövlətləri kollektiv öhdəliklərinə əməl edərək B dövlətinin köməyinə gələ, bu zaman G və H dövlətləri kənarda durmağa çalışa və İ, J və K dövlətləri A dövlətinin təcavüzünü dəstəkləyə bilər. Əgər kollektiv təhlükəsizlik sistemi mövcud olmazdısa, A dövləti B dövlətinə onların hər ikisi üçün hansı nəticələrin ola biləcəyindən asılı olmayaraq hücum edər və heç bir dövlət bu müharibəyə qoşulmazdı.

İdeala yaxın şərtlər altında fəaliyyət göstərən kollektiv təhlükəsizlik sistemində A və B dövlətləri, yaxud dünyanın istənilən yerindəki iki dövlət arasında müharibə zərurətdən irəli gələrək dünyanın bütün, yaxud, ən yaxşı halda, əksər dövlətləri arasında müharibə təhlükəsi doğurur.



İdealda kollektiv təhlükəsizlik



Reallıqda kollektiv təhlükəsizlik

Müasir dövlət sisteminin başlanğıcından Birinci Dünya müharibəsinə qədər iki dövlət arasında real və potensial münaqişənin digər dövlətlərə yayılmasının qarşısını almaq üçün onu lokallaşdırmaq diplomatiyanın əsas vəzifəsi idi. 1914-cü ilin yayında Britaniya diplomatiyasının Avstriya və Serbiya arasındakı münaqişəni bu iki dövlət ilə məhdudlaşdırmağa etdiyi cəhdlər bunun təsirli, lakin uğursuz nümunəsidir. Elə ona dair təsəvvürlərin məntiqi ilə kollektiv təhlükəsizlik diplomatiyasının bütün lokal münaqişələri dünya münaqişələrinə çevirmək məqsədi daşımalıdır. O bir sülh dünyası ola bilmirsə, bir müharibə dünyası da olmaya bilmir. Sülhün bölünməz olduğu hesab edildiyindən belə nəticə çıxır ki, müharibə də bölünməzdir. Kollektiv təhlükəsizliyə dair təsəvvürlərə əsasən dünyanın istənilən yerində istənilən müharibə potensial olaraq dünya müharibəsidir.

Beləliklə, müharibəni qeyri-mümkün etmək məqsədi daşıyan bir mexanizm sonda müharibəni universallaşdırır. Kollektiv təhlükəsizlik iki dövlət arasında sülhü qoruyub saxlamaq əvəzinə, müasir dünyada həqiqətən fəaliyyət göstərdiyi şəraitdə bütün dövlətlər arasında sülhü aradan qaldırmalı olur.[1]

Sülhün qorunub saxlanmasının praktiki mexanizmi kimi kollektiv təhlükəsizlik haqqında bu şərhlər kollektiv təhlükəsizliyin iki konkret hala tətbiqinə edilmiş

[1] Kollektiv təhlükəsizliyin regional səviyyədə – yəni böyük dövlətlərin kölgəsində – necə uğurla fəaliyyət göstərə biləcəyi yuxarıda göstərilmişdir. Bax: səh. 186 və növbəti səhifələr; həmçinin bax: səh. 530 və növbəti səhifələr

cəhdlərin təcrübəsi ilə öz təsdiqini tapır: 1935-1936-cı illərdə Millətlər Cəmiyyətinin İtaliyaya qarşı sanksiyaları və 1950-1953-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Cənubi Koreyanın ərazi bütövlüyünün müdafiəsi üçün etdiyi müdaxilələr.

İtaliya-Efiopiya müharibəsi

İtaliya Efiopiyaya hücum etdikdən sonra Millətlər Cəmiyyəti Cəmiyyətin Nizamnaməsinin 16-cı maddəsinə uyğun olaraq, kollektiv təhlükəsizlik mexanizmini hərəkətə keçirdi. Tezliklə məlum oldu ki, kollektiv təhlükəsizliyin uğurunun asılı olduğu şərtlərin heç biri mövcud deyil və dünya siyasətinin real şərtləri altında mövcud ola bilməz.

ABŞ, Almaniya və Yaponiya Cəmiyyətin kollektiv təhlükəsizlik sisteminin üzvləri deyildi və bundan əlavə, fərqli meyillərə sahib idi. Almaniya artıq ağırlığı açıq şəkildə Avropadakı status-kvonu aradan qaldırmağa hesablanmış siyasətə verirdi. Yaponiya Uzaq Şərqdəki status-kvonu aradan qaldırmaq yolunda uğurla addımlayırdı. Ona görə də onların hər ikisi də uzaq regionda status-kvonu aradan qaldırmaqla Avropada və Uzaq Şərqdə status-kvonun qorunub saxlanmasında böyük marağı olan Böyük Britaniya və Fransanın mövqeyini zəiflədəcək fəaliyyətə yalnız rəğbətlə baxa bilərdi. Digər tərəfdən, ABŞ status-kvonun müdafiəsi tədbirlərinin gücləndirilməsi cəhdlərini təqdir etdisə də, ölkədə ictimai fikrin mövqeyi onun belə cəhdlərdə fəal iştirakının qarşısını aldı. Cəmiyyət eksperimentinin uğurlu olması üçün bacardıqları hər şeyi etməyə hazır olan dövlətlər ya, məsələn, Skandinaviya ölkələri kimi nəticəyə təsir edə bilmək üçün çox zəif idi, ya da, məsələn, Sovet İttifaqı kimi onların aydın olmayan motivləri şübhə doğururdu. Bundan əlavə, Sovet İttifaqının verilmiş şərtlər altında əvəzedilməz olan dəniz qüdrəti yox idi və o, dövlətlərə coğrafi baxımdan müdaxilə etmədən – bu isə gözlənilmirdi – həlledici əməliyyatlar səhnəsinə çıxışa malik deyildi.

Belə halda İtaliyaya qarşı kollektiv təhlükəsizlik vəziyyəti mahiyyəti etibarilə Böyük Britaniya və Fransanın İtaliyaya qarşı durması idi. Bu heç bir potensial qanun pozucusunun etiraz etməyə cürət edə bilməyəcəyi böyük bir gücün bir araya toplanmasına dair ilkin ideal şərtdən çox fərqli idi. Böyük Britaniya və Fransanın birləşmiş qüvvələrinin İtaliyanı əzmək üçün kifayət edə biləcəyi, şübhəsiz, bir həqiqətdir. Lakin İtaliya və Fransa yalnız Cəmiyyətin kollektiv təhlükəsizlik sisteminin üzvləri deyildi, onlar həm də mənəvi, hüquqi və siyasi öhdəliklər daşıyırdı. Onlar yalnız İtaliyaya qarşı status-kvonun müdafiəsinə qoşulmamışdılar. Onlar dünyada güc uğrunda gedən mübarizədə iştirak edirdilər və İtaliya ilə münaqişə bu mübarizənin yalnız bir parçası idi və heç ən əhəmiyyətli parçası da

deyildi. Onlar İtaliyanın status-kvoya qarşı hücumuna qarşı çıxarkən Yaponiyanın irəliləyən hücumunu gözdən qaçıra, yaxud Reyn çayının şərqinə doğru hücum üçün hazırlıqlara laqeyd qala bilməzdilər. Nəhayət, onlar heç daxili status-kvonu təhdid edən inqilabi hərəkat olan kommunizmdən qorxuları kimi, Sovet İttifaqına yönəlik siyasətlərindən də əl çəkə bilməzdilər. Böyük Britaniya və Fransanın milli maraqlar kimi qəbul etdikləri kollektiv təhlükəsizliyin onlardan tələb etdikləri ilə ziddiyyət təşkil edirdi. Onlar xüsusilə Efiopiyanın müdafiəsində İtaliya ilə müharibə riskinə qədər uzağa getməməkdə qətiyyətli idilər və bu qətiyyətlərini açıq şəkildə bəyan edirdilər. Ser Uinston Çörçillin artıq istinad etdiyimiz sözlərinə nəzər salsaq, "Baş nazir birinci bəyan etmişdi ki, sanksiyalar müharibə deməkdir; sonra o belə qərara gəldi ki, müharibə olmamalıdır; və daha sonra sanksiyalar qərarı verdi. Şübhəsiz ki, bu üç şərtə əməl etmək mümkün deyildi".[1]

Milli maraqlarını kollektiv təhlükəsizliyin tələblərinə tabe etmək istəməyən Böyük Britaniya və Fransa həm də öz milli maraqlarını kollektiv təhlükəsizliyi diqqətə almadan həyata keçirmək istəmirdi. Bu, Britaniya və Fransa xarici siyasətlərinin fəlakət doğuracaq səhvi idi. Maraqlarını həm qətiyyətsiz, həm də uzlaşma əldə etmədən həyata keçirməklə onlar hər ikisində uğursuzluğa uğradılar. Onlar nəinki Şərqi Afrikada status-kvonu xilas etmədilər, həmçinin İtaliyanı Almaniya ilə müharibəyə sürüklədilər. Onlar Millətlər Cəmiyyətinin kollektiv təhlükəsizliyini, eləcə də status-kvonun müdafiəçiləri kimi öz nüfuzlarını məhv etdilər. 30-cu illərin sonunda status-kvonun əleyhinə olan dövlətlərin təcavüzkar müharibə ilə nəticələnən artan cəsarəti üçün səbəblər arasında bu nüfuz itkisi görkəmli yer tutur.

İtaliyanın Efiopiyaya qarşı təcavüzünə tətbiq olunduğu formada kollektiv təhlükəsizliyin uğursuzluğa düçar olmasından iki mühüm dərs çıxarmaq olar. O, islahatın ideal dərəcədə mükəmməl sxemi ilə həmin sxemin uğurunun əsaslandığı heç bir elementə malik olmayan siyasi reallıq arasındakı ziddiyyəti göstərir. O həmçinin necə müəyyən edilməsindən asılı olmayaraq, milli maraqlar, yoxsa dövlətlər birliyinin ortaq xeyri hesab olunanları təcəssüm etdirən fövqəlmilli prinsiplər tərəfindən yönləndirilməli olduğunu qərarlaşdırmağı bacarmayan xarici siyasətin fəlakət doğuran zəifliyini nümayiş etdirir.

Koreya müharibəsi

Kollektiv təhlükəsizliyə dair nəzəri analizlərlə gəlinə bilinmiş və İtaliya-Efiopiya müharibəsinin təcrübəsi ilə sübut olunmuş nəticələr Koreya müharibəsinin təcrübəsiylə tamamilə təsdiq olundu.

[1] *London Evening Standard*, June 26, 1936.

Şimali Koreyanın 25 iyun 1950-ci ildə Cənubi Koreyaya hücumu – həmin ilin noyabrında Çin də ona qoşuldu – təsəvvür edilə bilən aşkar təcavüz halı idi. Hadisənin hüquqi xüsusiyyətlərinə dair hətta ən kiçik şübhənin belə olmaması halında kollektiv təhlükəsizlik Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinin təcavüzün qurbanı olmuş Cənubi Koreyanın köməyinə gəlməsini tələb edərdi. Təcavüzün xarakteri və hərbi nəticələri baxımından bu kömək səmərəli olmaq üçün yalnız döyüş meydanına silahlı qüvvələrin göndərilməsi formasında həyata keçirilə bilərdi. Lakin Birləşmiş Millətlər Təşkilatının yalnız 60 üzvü hər hansı bir formada silahlı qüvvə göndərdi və onlardan yalnız ABŞ, Kanada, Böyük Britaniya və Türkiyənin rəmzi qüvvədən daha çox qüvvə ilə köməyə gəldiyini demək olardı. Koreyada döyüşən silahlı qüvvələrin təxminən 90 faizi münaqişənin birbaşa aidiyyəti olduğu ölkə olan Cənubi Koreyaya və ABŞ-a məxsus idi. Müharibənin gedişində böyük bir dövlət – Çin təcavüzün özünün fəal iştirakçısı kimi təcavüzkara qoşuldu. Birləşmiş Millətlər Təşkilatının hərbi potensiala malik digər üzvləri, məsələn, Argentina, Braziliya, Çexoslovakiya, Hindistan, Meksika və Polşa kənarda qaldı və hərbi əməliyyatlarda heç bir tərəfdən fəal iştirak etmədi. Beləliklə, kollektiv təhlükəsizliyin Koreya müharibəsinə tətbiq olunan reallığı kollektiv təhlükəsizliyin yuxarıda verilmiş ümumi təsvirinə tam uyğundur. Müasir dünya siyasətinin verilmiş şərtləri altında başqa cür mümkün də deyil.

Müxtəlif dövlətlərin Koreya müharibəsinə müxtəlif münasibətlərini anlamaq üçün kollektiv təhlükəsizlik sisteminə üzv dövlətlərin üzərinə qoyulmuş öhdəliklər haqqında hüquqi mətnlərə nəzər salmaq kifayət deyil və bu heç zəruri də deyil. Lakin onların maraqlarını və bu maraqları müdafiə etmək üçün sahib olduqları gücə nəzər yetirmək kifayətdir və bu, əslində, zəruridir.

Yuxarıda göstərildiyi kimi[1], 2 min ildən çox müddətdə Koreyanın müstəqil bir dövlət kimi mövcudluğunun özü Uzaq Şərqdə ya Koreyanı idarə və müdafiə etmiş bir dövlətin üstünlüyü, ya da Koreya yarımadasında qarşılaşan və orada, adətən, qısamüddətli, olduqca qeyri-stabil müvazinət quran rəqib imperialistlər baxımından mövcud olmuş qüvvələr tarazlığının fəaliyyətinin nəticəsidir. İdarə və müdafiə edən dövlət, adətən, Çin olub və zaman-zaman uğur qazanan Yaponiya bu işdə ona qarşı çıxıb. XIX əsrin sonlarına doğru Koreya üzərində idarəçilik məsələsində Rusiya Yaponiyanın rəqibi kimi Çini əvəz etdi. İkinci Dünya müharibəsinin sonunda Çin və Yaponiya Koreyaya münasibətdə tarixi vəzifələrini yerinə yetirmək üçün çox zəif olduqda Sovet İttifaqı və ABŞ bu vəzifəni üzərilərinə götürdü, sanki ABŞ Yaponiyanın, Sovet İttifaqı isə Çinin yerini tutdu. Nə ABŞ, nə də Sovet İttifaqı digər bir dövlətə bütün Koreyanı idarə etmək imkanı verə bilməzdi.

[1] Bax: səh. 189.

Müdafiəsi ABŞ-ın vacib maraqlarından olan Yaponiyanın nöqteyi-nəzərindən baxdıqda potensial düşmənin əlində olan Koreya qınından çıxarılmış qılınca bənzəyir və Sovet İttifaqının və xüsusilə Çinin nöqteyi-nəzərindən də bu belədir. Beləliklə, İkinci Dünya müharibəsinin sonunda Koreyanın Amerika və Sovet İttifaqı zonalarına bölünməsi iki əlaqədar dövlətin həm maraqlarının, həm də onların malik olduğu gücün ifadəsi idi, çünki həmin dövrdə onların heç biri bütün Koreyanın idarəçiliyini ələ keçirmək üçün böyük münaqişə riskinə gedə biləcək mövqedə deyildi.

Bütün Koreya üzərində idarəçiliyi ələ keçirmək məsələsi Şimali Koreya Sovet İttifaqının dəstəyi ilə Cənubi Koreyaya hücum edən zaman yenidən gündəmə gəldi. ABŞ-ın Cənubi Koreyaya hərtərəfli dəstəyi onun Yaponiyanın təhlükəsizliyinin təmin edilməsi və Uzaq Şərqdə ümumi sabitlikdə maraqlı olması ilə əsaslandırılırdı. Kanada və Böyük Britaniyanın əhəmiyyətli dərəcədə dəstəyi də ikinci maraq ilə əsaslandırılırdı. Avstriya, Belçika, Kolumbiya, Fransa, Lüksemburq və Türkiyə kimi dövlətlərin rəmzi xarakter daşıyan yardımları ya həmin eyni maraqla, ya da onların ABŞ-ın xoş məramından məxsusi asılılığı ilə izah oluna bilər. Əksər dövlətlərin belə bir yardımda iştirak edə bilməməsi ya onların bunda maraqlı olmaması, ya gücünün olmaması, ya da eyni zamanda hər ikisindən irəli gəlir.

Lakin hətta Birləşmiş Millətlər Təşkilatının üzvlərinin ümumi hərbi qüdrəti ilə müqayisədə çox kiçik olan bu yardım da böyük həcmli müharibə aparmadan Şimali Koreyanın təcavüzünün qarşısının alınması üçün kifayət etmiş olardı. Başqa sözlə, kollektiv təhlükəsizlik Çinin müdaxiləsindən əvvəl hətta ideal olmayan şərtlər altında da uğurla fəaliyyət göstərmiş ola bilərdi. Çinin müdaxiləsi Koreya müharibəsinin xarakterini tamamilə dəyişdi. Bundan əvvəl müharibə hələ də kollektiv təhlükəsizlik müharibəsi, yaxud təcavüzkara qarşı çıxan üstün hərbi qüvvələrin hesabına həyata keçirilən polis fəaliyyəti adlandırıla bilərdi. Həmin müdaxilə ilə münaqişə təxminən bərabər qüvvələrə malik iki koalisiyanın birbirinə qarşı çıxdığı ənənəvi müharibə xarakteri aldı. Bir tərəfin digərini məğlub etməsinin ümumi toqquşmadan başqa heç bir mümkün üsulu yox idi, çünki Cənubi Koreya Şimali Koreyanı Birləşmiş Millətlər Təşkilatının qüvvələrinin köməyi ilə məğlub etmiş ola bilərdi. Böyük bir dövlətin təcavüzkara qoşulduğu andan yalnız təcavüzün miqyasına uyğun olan kollektiv təhlükəsizlik səyi, yəni böyük dövlətə qarşı ümumi müharibə təcavüzkarları məğlub etmiş ola bilərdi.

Koreya müharibəsi kollektiv təhlükəsizliyin bu paradoksunu tam sınaqdan keçirmədi, çünki burada iştirak edən böyük dövlətlərin maraqları müharibəni Koreya yarımadası ilə məhdudlaşdırdı. Çin Birləşmiş Millətlər Təşkilatının Şimali Koreyaya daxil olmasına qarşı ABŞ-ın Şimali Koreyanın Cənubi Koreyaya

daxil olmasına qarşı müdaxiləsinə gətirib çıxaran eyni səbəbdən müdaxilə etdi: Koreyanın potensial düşmən əlində birləşməsi qorxusu. Kollektiv təhlükəsizlik yalnız təcavüzün ani şəkildə dəf edilməsini deyil, həmçinin gələcək üçün təhlükəsizliyin bərqərar edilməsini tələb edirdi, bu isə yalnız Çinin total müharibədə məğlub edilməsi ilə əldə olunacaq bir məqsəd idi. Eynilə Koreya yarımadasında Çinin ənənəvi nəzarətinin bərqərar edilməsi ABŞ-ın total müharibədə məğlub edilməsini tələb etmiş olacaqdı. Nə ABŞ, nə də ki Çin üzərinə belə bir işin boyunduruğunu və tələb etdiyi riski götürmək istəyində deyildi. Belə olduqda hər iki dövlət nə qədər təhlükəli və qeyri-sabit olsa da, Koreyanın Uzaq Şərqdə qüvvələr bölgüsünü əks etdirən iki təsir dairəsinə müvəqqəti bölgünün davam etməsi ilə razı idi.

Əvvəldə müzakirə edilmiş digər məsələlərdə olduğu kimi, bu halda da kollektiv təhlükəsizlik fəaliyyəti hesab olunan Koreya müharibəsinin doğurduğu dilemma və ziddiyyətlər müasir dünyanın siyasi şərtləri altında həyata keçirilən zaman kollektiv təhlükəsizlik ideyası üçün səciyyəvi olan ziddiyyətlərdən qaynaqlanır.

BEYNƏLXALQ POLİS QÜVVƏLƏRİ

Beynəlxalq polis qüvvəsi ideyası kollektiv təhlükəsizliyi o mənada bir addım qabaqlayır ki, real və ya potensial qanun pozucusuna qarşı kollektiv gücün tətbiqi artıq ayrıca bir dövlətin nəzarəti çərçivəsində olmur. Beynəlxalq polis beynəlxalq qurumun əmri altında fəaliyyət göstərər və həmin qurum onun nə zaman və necə tətbiq edilməli olduğunu müəyyən edər. Nə vaxtsa daimi beynəlxalq təşkilat formasında belə bir polis qüvvəsi fəaliyyət göstərməyib. Lakin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 42-ci və növbəti maddələrinə əsasən onun üzvlərinin üzərinə Birləşmiş Millətlər Təşkilatının Silahlı Qüvvələrini yaratmaq öhdəliyi qoyulub. Bu öhdəliyin icra edilməsi istiqamətində irəliyə doğru hələ heç bir addım atılmayıb.

Birinci Dünya müharibəsi başa çatdıqdan sonra sülhün qorunub saxlanmasına beynəlxalq polis qüvvəsi ilə bağlı olan ümidlər polisin yerli cəmiyyətlərdə həyata keçirdiyi sabitliyi təminetmə funksiyası ilə aparılan analoqdan qaynaqlanır. Lakin bu analoq üç zəmində yanıldıcıdır.

Yerli cəmiyyətlər, adətən, hər hansı bir zamanda yalnız kiçik bir zümrəsi qanun pozuculuğunda iştirak edən milyonlarla insandan təşkil olunur. Yerli cəmiyyətlərin üzvləri arasında gücün paylanması kəskin fərqlərlə müşahidə olunur, çünki çox güclü və çox zəif insanlar var; lakin qanuna əməl edən vətəndaşların birləşmiş qüvvəsi, adətən, hətta ən güclü qanun pozucularının birləşmiş qüvvəsindən

çox üstün olur. Qanuna əməl edən əksəriyyətin mütəşəkkil qurumu kimi polisin qanuna və nizama gözlənilən təhdidin öhdəsindən gəlmək üçün nisbətən kiçik qrupları əzməyə ehtiyacı yoxdur.

Bu üç xüsusiyyət baxımından beynəlxalq şərait əhəmiyyətli dərəcədə fərqlidir. Beynəlxalq cəmiyyəti təşkil edən üzvlərin sayı nisbətən az olub, 150 suveren dövlətdən çoxdur. Onların arasında ABŞ və Sovet İttifaqı kimi nəhənglər, Lüksemburq və Nikaraqua kimi cırtdan dövlətlər var. Burada əhəmiyyət kəsb edən odur ki, nəhənglərdən hər hansı birinin gücü dövlətlərin birliyinin ümumi gücünün olduqca böyük bir hissəsini təşkil edir. Bir və ya iki ikinci dərəcəli dövlət, yaxud bir neçə kiçik dövlət ilə birləşən nəhəng dövlət digər dövlətlərin birləşmiş gücünü asanlıqla üstələyə bilər. Aydın məsələdir ki, belə bir təhlükəli qarşıdurma fonunda qanun və nizamın pozulmasını, hər bir polis əməliyyatını tammiqyaslı müharibəyə çevirmədən dayandıra bilmək üçün, həqiqətən, nəhəng ölçülərdə olan polis qüvvəsi tələb olunur. Bu ümumi tərk-silah ayrı-ayrı dövlətlərin silahlı qüvvələrini kəskin şəkildə azaldarsa da, belə olacaq, lakin miqyası müvafiq şəkildə kiçik olacaq. Çünki beynəlxalq polis bu halda da böyük dövlətlərin münaqişə vəziyyətində asanlıqla real hərbi qüdrətə çevrilə biləcək döyüş ruhu və hərbi hazırlığı, sənaye istehsalı potensialını və strateji üstünlükləri – sözün qısası, güc potensialında böyük üstünlüyü ilə tarazlığı təmin etməlidir.

Dövlətlərin öz maraqlarını müdafiə etmək və onlara dəstək olmaq üçün sahib olduğu vasitələri beynəlxalq polis qüvvələrinə təslim etdiyini ehtimal etsək, – bu, əslində, sadəcə olaraq, bir fərziyyədir, – belə bir polis qüvvəsi necə təşkil olunmalıdır? Beynəlxalq cəmiyyətin xarakteri, əslində, olduğu kimi bu suala heç bir qaneedici cavab verməyə imkan vermir.

Yerli cəmiyyətlərdə polis qüvvəsi təbii olaraq mövcud qanun və nizam ilə tam ortaq olan cəmiyyət üzvlərindən təşkil olunur. Lakin gəlin təsəvvür edək ki, onların arasında mövcud qanun və nizamın əleyhinə olanlar da var və onların sayı ümumi əhalinin onların əleyhinə olan hissəsi ilə mütənasibdir; narazıların sayı o qədər az olacaq ki, faktiki olaraq əhəmiyyətsiz olacaq və polisin zərbə gücünə xələl gətirə bilməyəcək. Beynəlxalq polis qüvvəsi mütləq şəkildə müxtəlif dövlətlərin mütənasib və bərabər sayda vətəndaşlarından təşkil edilməli olar. Lakin, gördüyümüz kimi, bu dövlətlər hər zaman faktiki olaraq mövcud status-kvonun, yəni mövcud qanun və nizamın müdafiəçiləri və əleyhdarlarına bölünür. Lakin onların vətəndaşları beynəlxalq polis qüvvəsinin üzvləri kimi bu baxımdan milli seçimləri bölüşə bilməzlər. Onlardan mənsub olduqları dövlətin vətəndaşı kimi əleyhinə çıxmalı olduqları status-kvonun müdafiəsi üçün öz dövlətlərinə qarşı döyüşməyi gözləmək olar? Müasir dünyada milli və beynəlxalq loyallıqların nisbi möhkəmliyini əsas gətirmək olar, lakin münaqişə vəziyyətində milli loyallıqlar

beynəlxalq polis qüvvəsinin müvafiq üzvlərini maqnit kimi çəkə bilməz və bununla da beynəlxalq polis qüvvəsi nə vaxtsa mövcud qanun və nizama yaranan təhlükəyə cavab verməyə macal tapmadan onun fəaliyyətinə son qoyular.

Bu ümumi mülahizələr bütövlükdə beynəlxalq cəmiyyətə və xüsusilə onun ən güclü üzvlərinə tətbiq olunarkən beynəlxalq polis qüvvəsinin qanunun kəskin şəkildə məhdudlaşdırılmış yerli pozuntularının qarşısını alması kimi müstəsna ehtimala münasibətdə, əgər birbaşa əlaqədar dövlətlər pozuntuların qarşısının alınmasında maraqlıdırsa, əlbəttə ki, qüvvəsini itirmir. Bu ehtimalın klassik nümunəsi 1956-cı ildə Süveyş kanalına hücumdan sonra Misir və İsrail arasında Qəzza sektoru ətrafında sərhədlərin müdafiəsi və Tiran boğazının demilitarizasiyasını həyata keçirmək üçün yaradılmış Birləşmiş Millətlər Təşkilatının Xüsusi Təyinatlı Qüvvələridir. Bu nümunə həmçinin Misirin 1967-ci ildə qüvvələri geri çəkmək haqqında xahişinin dərhal yerinə yetirilməsindən imtina edildiyi məqamda əks mövqedə olan dövlətlər tərəfindən yaradılan məhdudiyyətləri də təsvir edir.

Beynəlxalq polis qüvvəsi suveren dövlətlər cəmiyyətində məntiqi uyğunsuzluqdur. Dünya dövlətinin daha geniş kontekstində biz bu problem ilə yenidən qarşılaşacağıq. Beynəlxalq polis qüvvəsi problemi bütövlükdə həll edilmək üçün, öz üzv dövlətlərinin mütləq dünyəvi sədaqətinə sahib olan və onu təşkil edən ayrı-ayrı dövlətlərin ayrı-ayrı iddialarının qanuniliyini yoxlamaq üçün istifadə etməyə hazır olduğu ədalət konsepsiyası yaratmış dünya cəmiyyəti çərçivəsi daxilində həll olunmalıdır.[1]

[1] Daha detallı şəkildə müqayisə etmək üçün bax: Hans J.Morgenthau, "The Political Conditionsfor International Police Force," *International Organization*, Vol. XVII, No. 2 (Spring 1963), səh. 393 və növbəti səhifələr; və "The Impartiality of the International Police," in Salo Engel and B.A.Métall, *Law, State, and International Legal Order: Essaysin Honor of Hans Kelsen* (Knoxville: University of Tennessee Press, 1964), səh. 209 və növbəti səhifələr

25. Məhkəmə yolu ilə nizamlama

MƏHKƏMƏ FUNKSİYASININ XARAKTERİ

Dövlətlər arasında münaqişələrin mövcud olması beynəlxalq sülhün tərk-silah, kollektiv təhlükəsizlik və beynəlxalq polis qüvvəsi yolu ilə təmin olunmasını qeyri-mümkün edir. A dövləti B dövlətindən nə isə istəyir, B dövləti isə güzəştə getmək istəmir. Nəticədə A dövləti ilə B dövləti arasında silahlı münaqişə ehtimalı hər zaman qalır. Əgər A dövləti ilə B dövləti üçün aralarındakı münaqişəni sülh yolu ilə həll etməyin məqbul bir yolu olarsa, o, dövlətlər arasındakı münaqişənin ali arbitri kimi müharibəni lazımsız bir hadisəyə çevirər. Burada yenə də yerli cəmiyyətlə analogiya aparılır.

Primitiv cəmiyyətlərdə ayrı-ayrı fərdlər münaqişəli iddialarını çox vaxt döyüşmək yolu ilə yoluna qoyurlar. Onlar məsələnin zorakı yollarla həllindən yalnız o hallarda çəkinirlər ki, tərəfsiz hakimlərin onun haqqında hökmlü qərarın verilməsi üçün müraciət edən zaman silaha əl atmalarını əvəz edə biləcək nəticə əldə edirlər. Buradan belə nəticə çıxarmaq mümkündür ki, beynəlxalq mübahisələr haqqında tərəfsiz şəkildə qərar verə bilən hakimlər də mövcud olarsa, müharibənin əsas səbəbi aradan qaldırılmış olar.

XIX əsrin ortalarından etibarən reallıqda əksər humanistlərin və dövlət adamlarının gəldiyi nəticə əslində də belədir və bunun tezliyi və ciddiyyəti getdikcə artır. Həmin əsrin sonlarına doğru əsas qayəsi bütün beynəlxalq mübahisələrin beynəlxalq tribunallar yolu ilə məcburi həlli olan Arbitraj hərəkatı adlanan proses qazandığı əhəmiyyətli dərəcədə kütləvi dəstək və həvəslə nümayiş olunan sədaqət ilə öyünə bilərdi. Onun ictimai təsiri sonralar ümidlərini Millətlər Cəmiyyəti, Birləşmiş Millətlər Təşkilatı və dünya dövlətlərinə bağlamış kütləvi hərəkatlarla müqayisə olunurdu. Biz, əks halda, müharibəyə gətirib çıxara biləcək beynəlxalq mübahisələrin dinc yolla həlli üçün beynəlxalq məhkəmələrin məcburi yurisdiksiyasının yaradılması üçün edilmiş uğursuz cəhdlərin tarixini artıq nəzərdən keçirmişik.[1] Qalır əksər dövlətlərin, xüsusilə böyük dövlətlərin beynəlxalq

[1] Bax: səh. 365 və növbəti səhifələr

məhkəmələrin məcburi yurisdiksiyasını qəbul etmələrində düçar olunan uğursuzluğun səbəblərini araşdırmaq. Bu uğursuzluğun məsuliyyəti dövlət adamlarının ağılsızlığı və mənfurluğunun deyil, beynəlxalq cəmiyyətin və onun içində fəaliyyət göstərdiyi cəmiyyətin təbiətinin üzərinə düşür.

Yerli məhkəmələrin barışdırıcı təsiri ilə beynəlxalq məhkəmələrin gözlənilən oxşar təsiri arasında analogiya aparmaq yanlışdır. Məhkəmələr mübahisələri mövcud qanunlar əsasında nizamlayır. Mövcud qanun isə şikayətçinin və müttəhimin görüşdüyü ortaq zəmini təmin edir. Hər iki tərəf iddia edir ki, qanun onun mövqeyini müdafiə edir, onun tərəfindədir və məhkəmədən məsələni həmin zəmində həll etməyi xahiş edirlər. Onların məhkəmədən nizamlanmasını xahiş etdikləri mübahisələr – fakt məsələsindən başqa – şikayətçi və müttəhim tərəfindən müvafiq iddiaların uyğun olaraq fərqli formada şərh olunan mövcud qanunun təsir dairəsinə aiddir.

Yerli və beynəlxalq məhkəmələrin məşğul olmalı olduğu fundamental məsələ belədir və beynəlxalq məhkəmələrin də, əslində, məşğul olmalı olduğu faktiki olaraq bütün məsələlərin xarakteri belədir. Lakin bunlar dövlətləri bir-birinə qarşı amansız münaqişələrə sürükləyən və müharibə təhlükəsi doğuran məsələlər deyil. Həmin beynəlxalq münaqişələrdə müstəviyə gətirilən, haqlı olaraq "siyasi" hesab olunan və böyük müharibələrin səbəbi olmuş məsələlər qanunun necə olduğu ilə deyil, necə olmalı olduğu ilə bağlıdır. Burada məsələ qanuniliyini hər iki tərəfin qəbul etdiyi mövcud hüququn ən azından məhkəmə çəkişməsinin məqsədləri üçün şərh edilməsi deyil, mövcud hüququn dəyişiklik tələbinin qarşısında qanuniliyidir.

Son dövrlərə aid bir neçə nümunəyə nəzər salaq: 1938-ci ildə Çexoslovakiyaya münasibətdə hüquqi vəziyyətin necə olduğunu hamı bilirdi. 1939-cu ildə Dantsqin və Almaniya-Polşa sərhədinin statusu ilə əlaqədar beynəlxalq hüququn söylədiklərinə heç kimin heç bir şübhəsi yox idi. Bu gün Dardanel boğazına münasibətdə Sovet İttifaqı və Türkiyənin hüquq və öhdəliklərinə tətbiq olunan beynəlxalq hüquqi qaydalara dair heç bir narazılıq yoxdur. Müharibə kabusuna səbəb olan bütün bu ziddiyyətlərdə mübahisə doğurmuş, yaxud doğuran beynəlxalq hüququn mövcud olduğu kimi tətbiqi, yaxud şərhi deyil, mövcud hüquqi nizamın qanuniliyi və onun dəyişdirilməsi tələbinin əsaslandırılmasıdır. Almaniyanın Çexoslovakiya, Dantsiq və Polşaya münasibətdə etiraz etmiş olduğu və Sovet İttifaqının Dardanelə münasibətdə etiraz etdiyi bu məsələlərə dair beynəlxalq hüququn müstəsna bir şərhi deyil, mövcud hüquqi nizamın özünün belə olmasıdır. Almaniyanın və Sovet İttifaqının istədiyi köhnə hüquqi nizamın yenisi ilə əvəz olunmasıdır. Almaniya məsələsində Böyük Britaniya və Fransanın müqavimət göstərdikləri tələb budur. Yeni hüquqi nizam tələbi və köhnə nizamın müdafiəsi arasındakı uyğunsuzluq İkinci

Dünya müharibəsinə gətirib çıxardı. Bu gün də beynəlxalq atmosferi zəhərləyən Sovet İttifaqı tərəfindən milli azadlıq müharibələri formasında özünü göstərən və Qərb dövlətlərinin müqavimət göstərdiyi eyni tələbdir.

Siyasi dillə desək, mövcud hüquqi nizam ilə onun dəyişdirilməsi tələbi arasındakı toqquşmalar, sadəcə, status-kvo ilə imperializm arasındakı antaqonizmin digər bir təzahürüdür. Qüvvələrin hər hansı məxsusi bölgüsü nə vaxtsa sabitlik səviyyəsinə çatanda hüquqi nizam formasında möhkəmlənir. Bu hüquqi nizam yalnız yeni status-kvoya ideoloji don geyindirmir və onu mənəvi əsaslarla təmin etmir, o həmçinin yeni status-kvonu pozulması hüquq tətbiqetmə mexanizmini hərəkətə gətirəcək hüquqi zəmanətlər istehkamı ilə əhatə edir. Məhkəmənin funksiyaları nəzərdən keçirilən konkret halın mövcud hüquqi qaydalara uyğun olaraq belə bir fəaliyyəti əsaslandırıb-əsaslandırmadığını təyin etməklə hüquq tətbiqetmə fəaliyyətini hərəkətə keçirməlidir. Beləliklə, istənilən mövcud hüquq sistemi zərurətdən status-kvonun müttəfiqidir və məhkəmələr onun mühafizəçisi kimi fəaliyyətlərində uğursuzluğa uğraya bilməz. Bu, beynəlxalq sahədə daxili arenada da olduğu kimi belədir.

Məsələ hüquqların müəyyən edilməsi, yaxud maraqların ümumi şəkildə qəbul edilmiş status-kvo çərçivəsində uyğunlaşdırılması olduqda məhkəmələr şikayətçi və müttəhim üçün mümkün ola biləcək halı müəyyən edir. Məsələ status-kvonun qorunub saxlanması, yaxud əsaslı şəkildə dəyişdirilməsi olduqda isə məhkəmənin cavabı sual hələ verilməmişdən əvvəl artıq hazır olur: onlar mövcud status-kvonun xeyrinə qərar verməlidirlər və dəyişiklik tələbini rədd etməlidirlər. Fransa məhkəmələri 1790-cı ildə feodal monarxiyanı ləğv edə və Fransanı orta sinif respublikasına çevirə bilərdi, lakin beynəlxalq məhkəmə 1800-cü ildə Napoleona Avropa üzərində ağalıq bəxş edə bilməzdi. Şübhə yoxdur ki, beynəlxalq məhkəmə 1938-ci ildə Çexoslovakiya, 1939-cu ildə Dantsiq və Polşa və 1956-cı ildə Cənubi Koreya üçün müvafiq olaraq Almaniya və Şimali Koreyanın əleyhinə qərar çıxarardı. Status-kvo mahiyyətinə görə hüquqi məna kəsb etdiyindən mövcud hüquq status-kvonun xeyrinədir və məhkəmələr baxdıqları məsələlərə yalnız mövcud hüququ tətbiq edə bilər.

Hüquqların müəyyən edilməsi və maraqların status-kvo daxilində uyğunlaşdırılması deyil, status-kvonun özünün mövcudluğunun təhlükə altında olması ilə bağlı yaranan böhranlarda beynəlxalq hüquqa və beynəlxalq məhkəmələrə müraciət etmək status-kvo dövlətlərinin üstünlük verdiyi üsullardır. Beynəlxalq hüquq və beynəlxalq məhkəmələr onların təbii müttəfiqləridir. İmperialist dövlətlər mütləq şəkildə mövcud status-kvoya və onun hüquqi nizamına qarşı çıxır və ziddiyyəti haqqında hökmlü qərarın verilməsi üçün beynəlxalq məhkəməyə təqdim etməyi düşünmür. Çünki məhkəmə səlahiyyətinin söykəndiyi bünövrənin özünü dağıtmadan onların tələblərini təmin edə bilməz.

BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN TƏBİƏTİ: GƏRGİNLİKLƏR VƏ MÜBAHİSƏLƏR

Status-kvonun dəyişdirilməsi ilə bağlı ziddiyyətlər nəinki məhkəməyə göndərilmir, adətən, heç məhkəmənin mühakiməsində əsas götürə bildiyi yeganə əsas olan hüquq baxımından da ifadə olunmur. 1938-ci ilin sentyabrında Almaniya və Çexoslovakiya arasında əsl məsələ Sudet vilayəti üzərində suverenlik deyil, Mərkəzi Avropada hərbi və siyasi ağalıq idi. Sudet vilayəti üzərində mübahisə bu məsələnin bir neçə təzahüründən biri idi. Bu təzahürlərdən ən çox diqqəti cəlb edən Avstriya ilə 1938-ci ildə Avstriyanın Almaniya tərəfindən ilhaq edilməsi ilə bitən mübahisə və Çexoslovakiya ilə 1939-cu ildə bu ölkə üzərində Almaniyanın protektoratının qurulması ilə nəticələnən mübahisə idi.

Bütün bu təzahürlərin əsasında duran yeganə səbəb isə obyektiv qəbul edilmiş status-kvo çərçivəsində ərazi imtiyazları və hüquqi uzlaşmalar deyil, status-kvonun özünün mövcudluğunun qorunub saxlanması qüvvələrin ümumi bölgüsü, Mərkəzi Avropada ya hər şey, ya da heç nə prinsipinə söykənən ağalıq olan münaqişə idi. Güc münaqişəsinin əlamətləri olan mübahisələr iddiaların, əks-iddiaların və təkziblərin hüquqi şərtləri baxımından tərtib oluna və bu şəkildə hüquq məhkəməsi tərəfindən qəbul, yaxud rədd edilə bilərdi. Əsasda duran səbəbi hətta hüquqi baxımdan ifadə etmək belə mümkün deyildi, çünki mövcudluğu dəyişiklik iddiası ilə təhlükə altına düşən hüquqi nizam nəinki iddianı təmin etmək üçün hüquqi mexanizmə, heç həmin iddianı ifadə etmək üçün hüquqi anlayışlara da malik deyildi.

Müharibə təhlükəsi doğuran mübahisələrin kökündə mövcud qüvvələr bölgüsünü qoruyub saxlamaq arzusu ilə onu aradan qaldırmaq arzusu arasındakı gərginlik durur. Bu toqquşan arzular artıq müzakirə olunmuş səbəblərdən[1] nadir hallarda öz həqiqi mahiyyətləri, yəni güc baxımından ifadə olunur, lakin mənəvi və hüquqi baxımdan ifadə edilir. Dövlətlərin nümayəndələri mənəvi prinsiplər və hüquqi iddialar haqqında danışırlar. Onların danışarkən nəzərdə tutduqları isə gücdür. Biz hüquqi olaraq ifadə edilməyən güc münaqişələrini "gərginliklər", hüquqi baxımdan ifadə olunan münaqişələri isə "mübahisələr" adlandırmağı təklif edirik. Gərginliklər və mübahisələr arasındakı səciyyəvi əlaqələrin müzakirəsi beynəlxalq məhkəmələrin beynəlxalq sülhün qorunub saxlanması üçün yerinə yetirə biləcəyi funksiyanı aydınlaşdıracaq.

[1] Bax: paraqraf 7.

Xalis mübahisələr

Bəzən iki dövlət arasında ümumiyyətlə heç bir gərginlik olmur, lakin mübahisələr olur. Yaxud bəzən gərginliyin mövcud olmasına baxmayaraq, mübahisənin gərginlik ilə heç bir əlaqəsi olmur. Bu halda haqqında danışılan "xalis mübahisə"dir.

Fərz edək ki, ABŞ və Sovet İttifaqı iki ölkənin diplomatik personalı üçün dollar və rubl arasında mübadilə qiyməti haqqında mübahisə edir. ABŞ və Sovet İttifaqı arasında mövcud olan gərginliyə baxmayaraq, belə bir mübahisənin iki dövlət tərəfindən haqqında hökmlü qərarın verilməsi üçün beynəlxalq məhkəməyə göndərilməsi ağlabatandır. Deməli, xalis mübahisələr haqqında məhkəmə qərarının verilməsinə imkan verirlər.

Gərginlik mahiyyəti daşıyan mübahisələr

Bununla belə, gərginlik və mübahisə arasında əlaqə mövcud ola bilər. Belə bir əlaqə iki müxtəlif formada ola bilər. Mübahisənin mövzusu gərginliyin mövzusunun müəyyən bir qismi ilə eyni ola bilər. Gərginlik əsas hissəsi suyun altında olan, başı isə okeanın səthinə çıxan aysberq ilə müqayisə oluna bilər. Gərginliyin həmin kiçik qismi hüquqi baxımdan təyin oluna və mübahisənin mövzusuna çevrilə bilər. Biz bu növü "gərginlik mahiyyəti daşıyan mübahisə" adlandırırıq.

ABŞ və Sovet İttifaqı arasında əsas gərginlik məsələləri Avropada qüvvələrin bölgüsü ilə bağlıdır. Potsdam razılaşması həmin məsələnin Almaniyanın müttəfiqlər tərəfindən işğalı və idarə edilməsi ilə bağlı olan aspektlərini nizamlamağa cəhd etmiş hüquqi sənəddir. Bu halda Potsdam razılaşmasının mövzusu ABŞ və Sovet İttifaqı arasında gərginliyin mövzusunu təşkil edən məsələnin bir qismi ilə üst-üstə düşürdü. Potsdam razılaşmasının şərhi ilə əlaqədar mübahisə ABŞ və Sovet İttifaqı arasındakı ümumi güc münasibətləri üzərində birbaşa təsirə malikdir. Bir dövlətin xeyrinə olan şərh bir tərəfin gücünə o qədər çox güc qatacaq və həmin əlavə gücü digər tərəfdən alacaq, çünki bu elə bir məsələdir ki, iki ölkə arasındakı güc mübarizəsi onun üzərinə əsas hədəflərindən birini qoymuşdu.

Belə bir mübahisə haqqında beynəlxalq məhkəmənin istənilən hökmlü qərarını əvvəlcədən qəbul etmək güc yarışının özünün nəticəsi üzərində nəzarətdən imtina etməyə bərabərdir. Heç bir dövlət belə uzağa getməkdə həvəsli olmayıb. Hüquq məhkəməsi hüquqi baxımdan müəyyən edilmiş status-kvonun müdafiəçisi olmaya bilmədiyindən onun qərarı, ehtimal çoxdur ki, status-kvonun xeyrinə olan hüquqi sənədin şərhinin tərəfində olacaq. Belə etməklə məhkəmə mübahisənin məqsədini təmin, gərginliyin məğzini müəyyən edə bilər, lakin o, gərginliyin

məğzini itirir. Gərginliyə münasibətdə Potsdam razılaşması kimi hüquqi sənədin şərhi obyekti mövcud qanunun şərhi deyil, onun mövcudluğunun ədalətliliyi olan mübarizədə yalnız bir mərhələdir.

Mövcud qanunun məhsulu və carçısı olan məhkəmə mövzusu gərginliyin mövzusu olan mübahisənin əsl məsələsini həll etmək üçün heç bir üsula sahib deyil. Məhkəmə müəyyən mənada belə bir mübahisənin tərəfidir. Mövcud status-kvo ilə ortaq olan məhkəmə və onu təmsil edən hüquq status-kvonun müdafiəsi ilə dəyişiklik tələbi arasındakı münaqişənin hüdudlarını aşan heç bir mühakimə meyarına sahib deyil. O həmin münaqişəni həll edə bilməz. Real məsələnin birtərəfli nizamlanmasının zahiri görünüşünə görə məhkəmə aşkar olan məsələ haqqında status-kvonun xeyrinə olan qərar verməyə, demək olar ki, məcburdur. Məhkəmənin öz mənbəyinin və funksiyalarının hüdudlarını aşa bilməməsi onun status-kvonun nisbi dəyərləri və yeni qüvvələr bölgüsü arasında qərar verə bilməməsinin əsl səbəbini təşkil edir.

Gərginliyi təcəssüm etdirən mübahisələr

Mübahisənin gərginlik ilə əlaqəli olan digər bir növü buradakı müzakirə baxımından ən vacib olan mübahisə növüdür. Biz bu növ mübahisələri "gərginliyi təcəssüm etdirən mübahisələr" adlandırırıq. Əslinə baxsaq, xalis mübahisələr çox vaxt gərginliyi təcəssüm etdirən mübahisələrə çevrilir və əksinə. Belə bir mübahisənin mövzusunun gərginliyin mövzusu ilə, ümumiyyətlə, heç bir əlaqəsi yoxdur. Gərginlik və mübahisə arasındakı əlaqəni təşkil edən yalnız təmsilçi və rəmzi funksiyadır.

Yenə də ABŞ və Sovet İttifaqı arasında hər iki ölkənin diplomatik nümayəndələri üçün dollar və rublun mübadilə dəyərinə dair mübahisə nümunəsinə nəzərə salaq. Qeyd etdiyimiz kimi, bu mübahisə ABŞ və Sovet İttifaqı arasında mövcud olan gərginliklə hər hansı əlaqəyə malik deyil. Lakin ola da bilər ki, qüvvələrin ümumi bölgüsü uğrunda mübarizəyə qoşulmuş bu iki dövlət bu mübahisəyə kilidlənər və onu müvafiq güclərini sınaqdan keçirəcəkləri konkret məsələyə çevirər.

ABŞ və Sovet İttifaqını ayıran fundamental məsələ – dünyada qüvvələrin ümumi bölgüsü – artıq xatırlatdığımız mənəvi və ideoloji səbəblərdən[1] iddialar və əks-iddialar baxımından rasional şəkildə ifadə olunmağa qabil deyil. Müasir psixologiyanın dili ilə desək, o, "boğulmuş"dur. Sanki iki ölkə arasında münasibətlərin nizamlanmamış bünövrəsinə varmaqla gərginlik öz coşqun tələşını növündən və

[1] Bax: paraqraf 7.

həqiqi əhəmiyyətindən asılı olmayaraq, istənilən mübahisəyə keçirə bilər. Bu baş verdikdə iki ölkə arasındakı gərginliyin yerini mübahisə tutur. Güc uğrunda rəqabətin bütün hissi gərginliyi və barışmaz amansızlığı – dövlətlər dinc dövrdə gərginliyi belə şəraitdə nəzərdən keçirir və müharibəni belə şəraitdə aparır – mübahisəyə ötürülür.

Dövlətlər dinc dövrdə gərginliyə münasibətdə edə bilmədiklərini indi mübahisəyə münasibətdə edir. Mübahisə iddia və əks-iddianın dövlətlərin güc mövqelərini təmsil edir və təcəssüm etdirir. Güzəştlər müzakirə mövzusu deyil. İddiaçı üçün, deyək ki, mübahisə obyektinin ondabirini güzəştə getmək onun üçün ümumi güc mövqeyində mütənasib zəifliyini üzə çıxarmağa bərabər olar. Digər tərəf üçün isə məğlubiyyət, ümumiyyətlə, ağlagəlməzdir. Güc uğrunda bu ümumi mübarizə özünü mübahisələr səviyyəsində büruzə verincəyə qədər həmin mübarizədə məğlubiyyəti ifadə edəcək. Beləliklə, hər bir dövlət sanki dövlətin milli mövcudluğu təhlükə altındadırmış kimi prosedur və nüfuz məsələsində güzəştə getməyən qətiyyətlə mübarizə aparacaq. Rəmzi mənada o, həqiqətən, təhlükə altındadır.

Arada böyük bir səbəb olmadan
Döyüşə atılmaq böyüklük deyil.
Əgər şərəf, ismət ləkələnirsə,
Adicə bir saman çöpündən ötrü
Vuruşmaq insana böyüklük verir.[1]

Mübahisə gərginlik ilə belə bir təmsilçi münasibətdə olduqda mübahisə baxımından nizamlama, aydın məsələdir ki, qeyri-mümkün olur. Bu, zərurətdən qarşılıqlı kompromis ilə həyata keçirilməli olan diplomatik danışıqlar yolu ilə nizamlama üçün həqiqətdir. Əlavə olaraq bu, hökmlü məhkəmə qərarı yolu ilə nizamlamaya da aiddir. Gərginliyin mövzusuna sahib olan mübahisələr haqqında söylənilənlər mübahisənin bu kateqoriyasına tətbiq olunur. Gərginliyi təcəssüm etdirən mübahisə əlaqədar dövlətlər tərəfindən sanki gərginliyin özüdürmüş kimi nəzərdən keçirilir. Belə bir mübahisənin məhkəmə yolu ilə həlli onun gərginliyə təsiri baxımından qiymətləndirilir. Heç bir dövlət, xüsusilə status-kvoya qarşı olan heç bir dövlət artıq müzakirə olunmuş səbəblərdən bu növ mübahisəni və bununla da gərginlik məsələsinin özünü haqqında hökmlü məhkəmə qərarının verilməsi üçün təqdim etməyə risk etməyəcək.

[1] *Hamlet*, IV pərdə, IV səhnə. (İngilis dilindən tərcümə edəni: Sabir Mustafa)

MÜHAKİMƏ FUNKSİYASININ HÜDUDLARI

Bu halda biz belə bir nəticəyə gəlirik ki, siyasi mübahisələr – gərginlik ilə əlaqədə olan, ona görə də iki dövlət arasında qüvvələrin ümumi bölgüsünü təhlükə altına salan mübahisələr – məhkəmə üsulları ilə həll oluna bilməz. Analizlər yolu ilə gəlinmiş bu nəticə dövlətlərin real davranışı ilə təsdiqlənir. Biz artıq dövlətlərin mübahisələri beynəlxalq məhkəmələrə göndərmək üçün öhdəliklərini təyin edərkən və dəqiqləşdirərkən, adətən, nümayiş etdirdikləri ifrat ehtiyatlılıq haqqında bəhs etmişik.[1] Onlar bunu mübahisələrinə tətbiq olunan nizamlama forması üzərində son nəzarəti əllərində saxlamaq üçün edirdilər. Hindistanın rəhmətlik baş naziri Nehru Birləşmiş Millətlər Təşkilatını Təhlükəsizlik Şurasının Hindistan-Pakistan Kəşmir münaqişəsini beynəlxalq arbitraja təqdim etməyə çağıran qətnaməsinə etiraz edərkən belə demişdi: "Böyük siyasi problemlər – bu, böyük siyasi problemdir – xarici ölkələrdən, yaxud hər hansı bir ölkədən olan arbitrlərə bu şəkildə təqdim olunmur".[2]

Bu, əhəmiyyətli bir cəhətdir ki, heç bir qeyd-şərtsiz arbitraj müqavilələri imzalamış və bununla da istənilən növ mübahisələri mühakimə prosesinə göndərən dövlətlər o dövlətlərdir ki, aralarında qüvvələrin ümumi bölgüsünə dair münaqişənin və buna görə də siyasi münaqişənin olması faktiki olaraq qeyri-mümkündür. Belə müqavilələr, məsələn, Kolumbiya və Salvador, Peru və Boliviya, Danimarka və Niderland, Danimarka və İtaliya, Danimarka və Portuqaliya, Niderland və Çin, Niderland və İtaliya, Avstriya və Macarıstan, Fransa və Lüksemburq, Belçika və İsveç, İtaliya və İsveçrə arasında bağlanıb. Uzaq olmayan gələcəkdə bir-biriylə siyasi münaqişə ehtimalı proqnozlaşdırmaq üçün ən kiçik bir səbəbi olan heç bir iki dövlət siyasi mübahisələri məhkəmə yolu ilə həll edilmək üçün təqdim etməyə dair hüquqi öhdəliklər götürməyib.

Bundan əlavə, Daimi Arbitraj Məhkəməsinin çıxardığı 20 qərar arasında bizim istifadə etdiyimiz mənada siyasi adlandırıla bilən heç bir qərar yoxdur. Daimi Beynəlxalq Ədalət Məhkəməsinin çıxardığı 30 hökm və 27 tövsiyə xarakterli rəy arasında[3] bir qərar var ki, siyasi adlandırıla bilər: Avstriya-Almaniya Gömrük İttifaqı məsələsinə dair tövsiyə xarakterli rəy. Biz artıq qeyd etmişik ki, bu halda məhkəmənin yurisdiksiyası Millətlər Cəmiyyətinin Nizamnaməsinin Cəmiyyətin şurasına məhkəmədən tövsiyə xarakterli rəylər xahiş etmək səlahiyyəti verən 14-cü

[1] Bax: səh. 365 və növbəti səhifələr
[2] *London Times*, August 8, 1952, səh. 4.
[3] Müxtəlif müəlliflər müxtəlif rəqəmlərdən istifadə edirlər. Bizim istifadə etdiyimiz rəqəmlər Oppenheym-Lauterpaxtın istinad olunmuş əsərindəndir. (7th ed., 1952), Vol. II, səh. 80-88.

maddəsinə əsaslanırdı.[1] Tövsiyə xarakterli olduğundan rəy şura üçün məcburi deyil və onu vəziyyəti hüquqi və siyasi dəyərləndirməsinə görə uyğun bildiyi istənilən tədbiri görməkdə azad buraxır. Millətlər Cəmiyyətinin şurası bu halda bir status-kvo qurumu kimi hərəkət etdi. Şuranın həm təşkili, həm də Millətlər Cəmiyyətinin siyasi icraçısı kimi yerinə yetirməli olduğu hesab edilən vəzifəsi baxımından belə bir rol oynaması qaçılmaz idi.

Tövsiyə xarakterli rəylər xahiş etmək müddəası məhkəməni çaşqınlığa sürüklədi ki, bu da bu məhkəmə orqanının tarixində ən böyük intellektual uğursuzluğa gətirib çıxardı. 4 müxtəlif rəyin olması faktı – 15 hakimdən 7-si məhkəmənin 2 üst-üstə düşən rəyini dəstəkləmək ehtiyacını hiss etdi, 7-si isə əks olan rəyi imzaladı – çaşqınlığın miqyasını göstərir. İntellektual uğursuzluğun ölçüsü yalnız rəylərin özünün diqqətlə oxunması ilə təsəvvür edilə bilər. Belə yüksək səlahiyyətli bir tribunalın Avstriya-Almaniya Gömrük İttifaqı ilə əlaqədar bir vəziyyəti müvafiq şəkildə tənzimləmək iqtidarında olmaması vəziyyətin özünün xarakterinin qaçılmaz nəticəsi idi.

Gömrük İttifaqı təklif etməklə Almaniya və Avstriya 1919-cu ilin status-kvosunu sual altına qoydu. Daimi Beynəlxalq Ədalət Məhkəməsi mövcud status-kvo çərçivəsində meydana gələn istənilən hal ilə məşğul olmağa intellektual baxımdan hazır idi. Həmin status-kvonun hüquqi nizamı onu bu vəzifəni yerinə yetirmək üçün elmi alətlərlə təchiz etmişdi. Həmin status-kvoya qarşı təhlükə ilə üz-üzə qaldıqda məhkəmə tərəflərin çəkişmələrinin üstündə iddia və əks-iddialar haqqında mühakimə yürütmək üçün zəminlər tapmaqda bacarıqsızlıq göstərərək öz cığırından çıxdı. Status-kvo orqanı olan və həmin status-kvonun qanuniliyini təmin etmək funksiyalarını yerinə yetirən məhkəmə heç bir hüquq məhkəməsinin icra etməyi bacarmadığı bir vəzifə ilə üz-üzə qaldı: layihəsi hazırlanmış Avstriya-Almaniya Gömrük İttifaqının qanunauyğun tərəfini tapmaqla status-kvonun özünün qanuniliyi üzərində mühakimə yürütmək.

Hakim Antsilotti öz parlaq və əsaslı xarakter daşıyan məhkəmə rəyində məhkəmənin üzləşdiyi və ixtiyarında olan mühakimə vasitələri ilə həll edə bilmədiyi mahiyyətcə siyasi problemə işarə etdi. "Hər şey belə bir fakta işarə edir ki, cavab tamamilə olmasa da, əsasən, siyasi və iqtisadi xarakter daşıyan mülahizələrdən asılıdır. Ona görə də Şuranın, həqiqətən, Məhkəmənin problemin bu aspektində rəyini almaq istəyib-istəmədiyi və Məhkəmənin bununla məşğul olmalı olub-olmadığı sual doğura bilər... Mən razılıq verərəm ki, Məhkəmə onu bir tribunal kimi fəaliyyətini idarə edən mühüm qaydalardan üz döndərməyə vadar edə biləcək bir rəyi verməkdən imtina etsin".[2]

[1] Bax: səh. 369-370.
[2] *P.C.I.J.* Series A/B, No. 41, səh. 68, 69.

Beynəlxalq Ədalət Məhkəməsi Daimi Beynəlxalq Ədalət Məhkəməsinin düşdüyü bu xətadan uzaq durdu. 1951-ci ildə Böyük Britaniya İngilis-İran Neft Şirkəti ilə əlaqədar məsələsini baxılmaq üçün ona təqdim edəndə o bunu yurisdiksiyasına götürməkdən imtina etdi. İran hökuməti mövcud müqavilələri açıq şəkildə pozaraq İngilis-İran Neft Şirkətinin əmlakını milliləşdirmişdi. İran və Böyük Britaniya arasındakı mübahisə mövcud hüququn tətbiq edilə bilməsinə aid deyildi; o daha çox mövcud hüquqda qanun halına salınmış, yeni hüquqi nizamın qanuniliyinə qarşı çıxan status-kvonun qanuniliyinə aid idi. Görmüş olduğumuz kimi, məhkəmə mövcud hüquqi nizamın qanuni olduğunu hesab etməli və öz hökmləri ilə onu müdafiə etməlidir.

Ona görə də status-kvonun qorunub saxlanılmasında maraqlı olan Böyük Britaniyanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciət etməsi, status-kvonun dəyişdirilməsində maraqlı olan İranın isə məhkəmənin yurisdiksiyasından imtina etməsi tamamilə məntiqlidir. Məhkəmə məsələni yurisdiksiyasına götürməklə onun əsl mahiyyətini nəzərə almadan yalnız Britaniyanın tərəfində ola bilərdi. O, yurisdiksiyasını tətbiq etməkdən texniki zəmində imtina edərək, mühakimə funksiyasının burada haqqında bəhs etdiyimiz hüdudunu qeyd-şərtsiz qəbul etmiş oldu.

Nəhayət, yuxarıda aparılan analizlərin ən təsirli empirik sübutu İkinci Dünya müharibəsindən sonra ABŞ və Sovet İttifaqı arasında formalaşmış münasibətlərdir. ABŞ və Sovet İttifaqını bir-birindən ayırmış fundamental məsələni müəyyən etməyin olduqca çətin olması ətrafında çoxsaylı şərhlər aparılmışdır. Bu, Almaniya, Kuba, yaxud Vyetnam deyil. Bu heç ayrı-ayrı məsələlərin toplusu da deyil. İki antaqonist fəlsəfə və hökumət sistemi arasında heç fundamental bir problem də təyin edilə bilmir, çünki bu münaqişə 25 ildən artıq müddətdə beynəlxalq səhnədə bu gün şahidi ola biləcəyimiz hər hansı bir təzahür forması olmadan mövcud olmuşdur. Ayrı-ayrılıqda, yaxud birlikdə xatırlanılan məsələlər ABŞ və Sovet İttifaqı qarşılaşdıqlarında onları ağuşuna alan münaqişələrin dərinliyi və amansızlığı və onların həmin münaqişələrin dinc üsullarla nizamlamaq üçün etdikləri hər bir cəhdin boşa çıxması üçün cavabdehlik daşımır.

Bütün dünyanı ağuşuna alan bir gərginliyin mövcudluğu ayrı-ayrı münaqişələrin bu məxsusiyyətlərini izah edə bilər. Həmin gərginlik ABŞ və Sovet İttifaqı arasındakı böyük və ya kiçikliyindən asılı olmayaraq, bütün məsələlərin mövcudluq səbəbini təmin edir və onlara eyni rəng, eyni hərarət və eyni məxsusiyyətlər verir. Yuxarıda qeyd olunan ayrı-ayrı məsələlər, əslində, həmin fundamental məsələnin yalnız şaxələri və rəmzi təcəssümləridir. ABŞ və Sovet İttifaqı arasında dünyada qüvvələrin bölgüsünə dair fikir ayrılığı iki ölkə arasında həllini gözləyən istənilən mübahisənin öz mahiyyətinə uyğun həllinə maneə törədir. Bundan əlavə, o həm də belə mübahisələrin məhkəmə yolu ilə həllinə də maneə törədir.

Analitik və empirik mülahizələrlə belə bir nəticəyə gəlmişik ki, müharibəyə gətirib çıxarma ehtimalı böyük olan mübahisələr məhkəmə yolu ilə həll oluna bilməz. Çünki onlar gərginliyin şaxələri və rəmzi təcəssümləridir, onların həqiqi mahiyyəti isə status-kvonu onu aradan qaldırmağa yönəlmiş fəaliyyətlərdən qorumaqdır. İstər yerli, istərsə də beynəlxalq olmasından asılı olmayaraq, heç bir məhkəmə bu məsələni nizamlayacaq üsullarla təchiz olunmayıb. Bu məsələnin daxili sahədə adətən necə nizamlandığının nəzərdən keçirilməsi yerli və beynəlxalq məhkəmələrin sülhyaratma funksiyası arasındakı analogiyanın yanlışlığını daha başqa bir bucaqdan göstərir.

26. Dinc dəyişiklik

DÖVLƏT DAXİLİNDƏ DİNC DƏYİŞİKLİK

Gərginliklər sosial həyatın universal fenomenidir. Onlar ölkədaxili sahədə beynəlxalq sahədən az baş vermir. Verilmiş status-kvo ölkədaxili sistemdə sabitləşir və möhkəmlənir. Bu status-kvoya düşmən olan sosial qüvvələr meydana çıxır və hüquqi sistemi dəyişməklə onu aradan qaldırmağa cəhd edir. Bu, məhkəmələrin həll edəcəyi məsələ deyil. Məhkəmələr status-kvonun nümayəndəsi kimi hərəkət etməlidir. Status-kvo və dəyişiklik arasındakı mübarizədə dəyişikliyin səbəbi əgər ümumiyyətlə dəstəklənirsə də, qanunvericilər və bəzən də icraedici hakimiyyət tərəfindən dəstəklənir. Beləliklə, status-kvo və dəyişiklik tələbi arasındakı gərginlik ölkədaxili sahədə çox vaxt status-kvonun müdafiəçisi olan məhkəmələr və dəyişiklik tərəfdarı olan qanunvericilik arasında münaqişə forması alır.

Bu, müasir tarixin gərginliyin özünü büruzə verdiyi böyük ziddiyyətlərinin çoxu üçün həqiqətdir. Belə ki, feodalizm status-kvosu ilə orta siniflərin xeyrinə dəyişiklik arzusu arasındakı gərginlik XIX əsrdə özünü məhkəmələr və parlament arasında rəqabət formasında ifadə etmişdir. İntellektual sahədə bu rəqabət qanunvericilik yolu ilə islahat tərəfdarı olan Bentam ilə ümumi hüququn və onun məhkəmələrinin mühafizəkar müdafiəçisi olan Blekstoun arasında polemikada özünü göstərmişdir. Oxşar münaqişə ABŞ-da XX əsrin ilk onilliklərində məhkəmələr sosial və tənzimləyici qanunvericiliyə qarşı qarışmama siyasətini müdafiə edən zaman meydana çıxdı. Hər iki halda dəyişiklik qalib gəldi və məhkəmələr yeni nizamın müdafiəçisinə çevrildi.

Belə dinc dəyişikliyi mümkün edən 3 amil var idi: (1) ictimai fikrin özünü sərbəst ifadə edə bilməsi; (2) sosial və siyasi təsisatların ictimai fikrin təzyiqini mənimsəyə bilməsi və (3) dövlətin yeni status-kvonu zorakı dəyişikliklərdən qoruya bilməsi.

Həm XIX əsrdə İngiltərədə, həm də XX əsrdə Amerikada ictimai fikir dəyişiklik arzusunu təşkilatlanmış səylər və kortəbii reaksiyalar vasitəsilə şifahi və yazılı şəkildə ifadə edirdi. Bu ifadə formalarının təsiri altında birliyin mənəvi mühiti dəyişir və bu zaman dəyişiklik arzusuna öz razılığını həkk edir, status-kvonu

və onun müdafiəçilərini gözdən salırdı. Heç bir sosial və siyasi qurum bu mənəvi mühitin hər kəsə və hər şeyə nüfuz edən bu təsirindən kənarda qala bilməzdi. Mənəvi dəyərlərin hiss olunmayan belə transformasiyasında status-kvonun transformasiyasına təşviq edən ən güclü qüvvə ilə rastlaşırıq.

İctimai fikir yalnız dəyişiklik arzusunu səsləndirmək imkanına malik deyildi; o həmçinin status-kvonu ya dəstəkləyəcək, ya da dəyişdirəcək hüquqi qaydalar hazırlamaqla status-kvonun müdafiəçiləri ilə rəqabət aparmaq imkanına sahib idi. Bu rəqabət ya qanunverici orqana seçkilər, ya da bu orqan daxilində müəyyən qanunvericilik sənədləri üçün kampaniyalar formasında olurdu. Beləliklə, dəyişiklik tələb edən sosial qüvvələr parlament institutlarına yönəlirdi. Burada onlar öz rəqibləri ilə dinc mübarizədə qarşılaşırdılar və bu mübarizə əvvəlcədən hamı tərəfindən qəbul edilmiş əksəriyyət səsverməsinin obyektiv standartlarına uyğun olaraq qalibi müəyyən edirdi. Status-kvo bu yolla hüquqi proseslərin axarını pozmadan və cəmiyyətdəki sülhü və nizamı təhlükə altına salmadan həmin iki təsirli fəaliyyət formasına çevrilirdi.

Nəhayət, dövlətin səlahiyyəti və gücü yetirdi ki, sosial qruplar və sıravi zümrələr arasındakı mübarizədən doğan istənilən hüquqi nizamı həyata keçirə bilsin, bir şərtlə ki, həmin hüquqi nizam ictimai institutların bütün strukturunun əsaslandığı mənəvi həmrəyliyin minimum tələblərinə cavab versin. Dövlətin belə hazırlığı və onun istənilən mümkün müqavimət qarşısında təkzibedilməz üstünlüyü yalnız azlıqda qalan qrupları zorakı üsullarla verilmiş status-kvoya qarşı çıxmaq fikrindən daşındırmır, həm də ictimai fikir üzərində iki vacib məhdudiyyət qoyur. Onlar ictimai fikrin nüfuzlu təbəqələrinin istənilən digər nüfuzlu təbəqə üçün qəbuledilməz olacaq və odur ki dövlət tərəfindən yalnız silahlı müqavimət təhlükəsi altında həyata keçirilə biləcək qədər kəskin tələblər irəli sürməkdən çəkindirir. Onlar dövlətin gücü və onun hüdudları haqqında məlumatlı olan qanunverici orqanlarda kompromisə güclü sövqedici kimi fəaliyyət göstərirlər. Çünki dövlət o qanunları həyata keçirə bilir və həyata keçirəcək ki, dövlətin özünün mənəvi nizamının minimum tələbinə etinasızlıq göstərmir. Lakin dövlət öz strukturunu anarxiya və vətəndaş müharibəsində parçalanma təhlükəsi altına atmadan həmin minimum tələblərə riayət etməyən qanunları həyata keçirməyə çalışa bilməz.

Azad cəmiyyətdə normal sosial dəyişiklik prosesi belə olur. Bu prosesin öz müntəzəm vəzifələrindən uzaqlaşan hər hansı ayrıca bir qurum tərəfindən həyata keçirilmədiyi aydın məsələdir. Öz ehtiyaclarını ədalət prinsipləri səviyyəsinə yüksəldən sosial qüvvələr ictimai fikri ələ keçirir. Qanunverici orqanların mənəvi dəyərlərini və hüquqi qərarlarını müəyyən edən əvvəl-axır məhkəmələrdə və icraedici hakimiyyətdə də bunu etdiyi kimi hər şeyi və hər kəsi öz təsiri altına

alan ictimai fikirdir. Qanunverici, məhkəmə və icraedici qurumlar ictimai fikrin alətləridir. Onlar hamısı ictimai fikir üçün eyni funksiyanı yerinə yetirir: tələblərinin təqdimatı və onlara nəzarət etmək, onların ümumi şəkildə paylaşılan ədalət prinsiplərinə görə qiymətləndirilməsi və artıq qanuniliyi qəbul olunmuş tələblərin reallığa çevrilməsi üçün dinc və nizamlı üsulların təmin edilməsi.

Qanunverici orqanın bu dəyişiklik prosesinə başlıca töhfəsi fərqli baxışların və təşkilatlanmamış cəmiyyət tərəfindən artıq edilmiş seçimin təsdiqlənməsinin ictimai təqdimatı üçün forum olmasıdır. Status-kvo və dəyişiklik arasında problem baş qaldıran zaman onun yalnız ya qanun qəbul edilməsi, ya da rədd edilməsi formasında həll edilmək üçün qanunverici orqana göndərilməli olduğuna inanmaq sadəlövhlük olardı. Bu dinc dəyişiklik prosesində qanunverici orqanlar əvəzedilməz, lakin ikinci dərəcəli rol oynayır.

Məhkəmələrin bir status-kvodan digərinə dinc dəyişiklik prosesinə verə biləcəyi istənilən töhfə Konqresin palataları, Ağ Ev və adi insanların evləri qədər, həm də məhkəmə binalarında hakim olan mənəvi mühit ilə idarə olunur. Görmüş olduğumuz kimi, məhkəmələr yalnız mövcud hüququ tətbiq edə bildiklərindən status-kvonun aləti olmaya bilmir.

Lakin qanunverici orqan yeni status-kvonu əks etdirən yeni qanun qəbul edəndə məhkəmələr bir status-kvodan digərinə keçidi sürətləndirə və asanlaşdıra, yaxud da onu ləngidə və dinc və nizamlı inkişafını təhlükə altına sala bilər. Başqa sözlə, məhkəmələr qaçılmaz dəyişikliyə müqavimət göstərə, yaxud da onun dinc və nizamlı şəkildə reallaşmasına yardım edə bilər. Məhkəmələrin bu rollardan hansını oynayacağı ictimai fikrin gücündən və məqsədyönlülüyündən, eləcə də məhkəmələrin həmin ictimai fikir üçün qəbulolunan olmasından asılıdır.

Demokratiyada hökumətin icraedici qolu ictimai fikrə təsir edə və onu arxasınca apara, həmçinin hökumətin digər qollarına təsir etmək üçün onun təzsınca apara, həmçinin hökumətin digər qollarına təsir etmək üçün onun təzyiqindən istifadə edə bilər. O öz müstəqil səyləri ilə əsas dəyişikliklərə səbəb ola bilməz. Onun əsas vəzifəsi digər qolların qəbul etdiyi qərarların həyata keçirilməsidir. Lakin diktatorluqda hökumətin bütün funksiyaları icraedici qolun əlində toplanır və o eyni zamanda həm qərar verir, həm də onu həyata keçirir. Lakin diktatorun ictimai fikri nəzərə almadan uyğun bildiyi kimi qərar qəbul etdiyinə inanmaq yanlışlıq olar. Doğrudur, o, üzərilərindəki inhisarçı nəzarəti əlində saxladığı kommunikasiya üsullarını səmərəli şəkildə istifadə etməklə ictimai fikri manipulyasiya edə bilər. Lakin təbliğatının səmərəli olması üçün o, subyektlərinin həyat təcrübələrindən çox uzaqlaşmamalıdır. Bu zaman diktator ya təbliğat ilə həmin təcrübələri öz istəyinə uyğunlaşdırmalı, ya da təbliğatını həmin təcrübələrə uyğunlaşdırmalıdır. İstənilən halda hətta diktator da ictimai fikrin nə tamamilə uyğunlaşa bildiyi, nə də rədd edə bildiyi təzyiqlərinə məruz qalır.

Ölkədaxili arenada dinc dəyişiklik prosesləri ümumi çərçivədə belə olur. Onlar gərginliklərin özünü zorakı toqquşmalar əvəzinə ictimai ziddiyyətlər, seçki kampaniyaları, parlament müzakirələri, hökumət böhranlarında büruzə verməsinə imkan yaradır. Lakin əgər bu kimi proseslər cərəyan etməsə və ya pis cərəyan etsə, ölkə daxilində yaranacaq vəziyyət də beynəlxalq arenada mövcud olan vəziyyəti əks etdirər. Bazar rəqabətində, seçki və qanunvericilik mübarizələrində özünü təsdiqləyə bilməyən dəyişiklik tələbləri sanki yerin altına çəkilir. Status-kvo ilə onu dəyişmək tələbi arasındakı ziddiyyət beynəlxalq səhnədə şahidi olduğumuz kimi mübahisələrlə nəticələnən gərginliyə çevrilir. Bu zaman ölkədaxili cəmiyyət inqilab öncəsi, yaxud inqilabi mərhələyə qədəm qoyur. Müvafiq olaraq status-kvonu və dəyişiklik tələbini dəstəkləyən əhali qrupları iki silahlı düşərgə kimi bir-birinə qarşı çıxır və məsələnin əksəriyyət səsverməsi, yaxud ümumi qəbul olunmuş ədalət meyarları ilə həll edilməsi üçün arbitraja müraciət edə bilmədiklərindən həll yolunu iqtisadi və hərbi müharibədə axtarır.

Belə vəziyyətin, həqiqətən, inqilaba və vətəndaş müharibəsinə çevrilib-çevrilməyəcəyi ölkədaxili cəmiyyətdə qüvvələrin bölgüsündən asılıdır. Artıq başqa bir kontekstdə qeyd etmişik ki, müasir müharibə və kommunikasiya texnologiyaları xalq inqilablarını qeyri-adi dərəcədə ağlasığmaz edir.[1] Ehtimallar daha çox dövlət çevrilişi formasında zorakı dəyişikliklər yönündədir. Əhalinin bir zümrəsinin digər bir əhali zümrəsi tərəfindən dəstəklənən hökumətə qarşı qalxması əvəzinə, hökumət aparatının bir hissəsinin xüsusilə silahlı qüvvələri bütün hökumət üzərində nəzarəti ələ keçirməyə çalışacağı daha çox ehtimal olunur.

İndiki müzakirəmiz üçün vacib olan, əks halda, inqilaba, yaxud vətəndaş müharibəsinə gətirib çıxara biləcək münaqişələri dinc yolla həll edənin məhkəmələr olmadığını qəbul etməkdir. Dred Skott məsələsində quldarlığın ərazisinin genişlənməsi problemi ABŞ Ali Məhkəməsinin qarşısına çıxarılanda Məhkəmə onun haqqında status-kvonun xeyrinə qərar qəbul etdi. Lakin həmin qərar heç nəyi həll etmədi. Dred Skott məsələsində mübahisə mövzusu olan məsələni heç bir məhkəmə həll edə bilməzdi. Hətta bütövlükdə cəmiyyət də status-kvo ilə dəyişiklik arzusu arasındakı münaqişəni dinc üsullarla həll etmək iqtidarında deyildi. Çünki həmin münaqişə yalnız Şimal və Cənub arasında qüvvələr bölgüsünə qarşı etiraz etmirdi; o həmçinin quldarlıq və federal və ştat hökumətləri arasındakı əlaqələrə dair məsələlərdə ABŞ-ın siyasi strukturunun əsaslandığı mənəvi konsensusun mahiyyəti məsələsini yenidən açırdı. Həmin məsələ yalnız məhkəməyə, yaxud qanunvericilik orqanına deyil, ümumilikdə cəmiyyətə ünvanlanmışdı. Amerika cəmiyyəti buna bir-birinə zidd iki cavab verdi. Həmin cavablar münaqişənin nizamlanmasını qeyri-mümkün etdi.

[1] Bax: səh. 476 və növbəti səhifələr

Dövlət daxilində dinc dəyişikliyin ən vacib funksiyası təcrid olunmuş formada fəaliyyət göstərən hər hansı bir xüsusi qurum tərəfindən deyil, bölünməz bir bütövlük formasında olan ölkədaxili cəmiyyət tərəfindən yerinə yetirilir. Cəmiyyətin hökumətin nüfuzu və maddi gücü ilə dəstəklənən mənəvi konsensusu vəziyyətin öz ədalət konsepsiyasına uyğun şəkildə formalaşması üçün bütün sosial və siyasi qurumlardan yararlanmağa çalışacaq. Dinc dəyişikliyin bu prosesi üçün qanunverici orqanlar əgər demokratik cəmiyyətlərdə olduğu kimi azad qurumlardırsa, xüsusilə əhəmiyyətli rol oynayır. Lakin qanunverici orqanlar da yalnız bütöv bir cəmiyyətin qurumlarıdır. Cəmiyyətin dəstəyi olmadan onların qəbul etdiyi qanunlar arzuolunan dəyişikliyə səbəb olmaq üçün gücsüzdür. Qanunvericiliyin tarixi qanunverici orqan tərəfindən qəbul edildiyi və qanunvericilik toplusunda yer aldığı halda, cəmiyyətin mənəvi konsensusu tərəfindən dəstəklənmədiyi üçün öz məqsədinə nail olmamış inhisar əleyhinə qanunlar kimi qanunlarla zəngindir. Beləliklə, qanunverici orqanlar, sadəcə, öz üzərilərinə düşən vəzifələri yerinə yetirməklə köhnə status-kvonu dinc şəkildə yeni status-kvoya dəyişməkdə məhkəmələrdən daha böyük imkana malik deyil. Başqa sözlə, cəmiyyətin rifahının asılı olduğu nizami və dinc prosesləri pozmadan cəmiyyət daxilində qüvvələrin bölgüsünü dəyişmək kimi olduqca əhəmiyyətli bir məsələ ilə üz-üzə qaldıqda qanunverici orqanların fəaliyyəti artıq məhkəmə orqanlarının fəaliyyətindən daha çox qaneedici deyil.

BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ DİNC DƏYİŞİKLİK

Ölkədaxili və beynəlxalq cəmiyyətlər arasındakı analogiyadan əhəmiyyətli dərs çıxarıla bilər. Lakin bu, beynəlxalq mübahisələrin məhkəmə yolu ilə nizamlanmasının tərəfdarlarının çıxardığı dərs deyil. Ölkədaxili məhkəmələr məhkəmə yolu ilə nizamlama tərəfdarlarının onlara şamil etdiyi vəzifəni yerinə yetirmir və yerinə yetirə də bilməz. Onlar, əks halda, zorakı qarşıdurmaya gətirib çıxara biləcək mübahisələri dinc yolla nizamlamır və nizamlaya bilmir. Ölkədaxili cəmiyyət üçün bu vəzifəni yerinə yetirən qüvvələr və təsisatlar beynəlxalq arenada, ümumiyyətlə, mövcud deyil.

Gördüyümüz kimi[1], artıq çəkişən dövlətlərin öz mübahisələrini həll etməsi üçün ümumi ədalət meyarı əldə edə biləcək bir beynəlxalq mənəvi konsensus mövcud deyil. Mənəvi konsensusun olmaması çoxsaylı arbitraj müqavilələrində, eləcə də Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsində əksini tapmış, beynəlxalq məhkəmələrə müəyyən şərtlər altında sərt beynəlxalq hüquqa uyğun deyil, *exaequo et bono*, yəni ümumi bərabərlik və ədalət prinsiplərinə uyğun qərar qəbul etmək imkanı

[1] Bax: səh. 329 və növbəti səhifələr

verən müddəaların reallaşmasının qarşısını almışdır. Bu növ müddəalar o baxımdan ağlabatandır ki, onlar beynəlxalq hüququn mövcud qaydaları əsasında məhkəmə yolu ilə həllə meyilli olmayan mübahisələrin mövcudluğunu qəbul edir. Lakin belə müddəalar o baxımdan ağlabatan deyil ki, onlar sonuncu kateqoriyadan olan mübahisələrin yaratdığı problemin, sadəcə, məhkəmələrə beynəlxalq hüququn mövcud qaydalarından kənar, bərabərlik və ədalətə dair bəzi ümumi prinsiplərə müraciət edərək qərar vermək səlahiyyəti verməklə həll edilə biləcəyini hesab edir.

Beynəlxalq məhkəmələr belə prinsiplərə o zaman müraciət edə bilər ki, həmin prinsiplər mövcud olsun. Onlar bu prinsipləri beynəlxalq məhkəmə status-kvo və dəyişiklik arzusu arasında qalarkən müdaxiləyə hazır *deus ex machina* kimi ixtira və tətbiq edə bilməzlər. Beynəlxalq cəmiyyət ədalətin status-kvonun müdafiəsi və ona hücumun müvafiq ölçülərini təyin edə biləcək ümumi şəkildə qəbul olunmuş meyarlarına ehtiyac duyur. Əgər istifadə olunmalı meyarlar mövcud deyilsə, məhkəməyə belə meyarlardan istifadə etmək səlahiyyəti verməyin heç bir əhəmiyyəti yoxdur.

Beynəlxalq cəmiyyət həmçinin ölkədaxili cəmiyyət üçün dinc dəyişiklik prosesində qanunvericilik orqanlarının yerinə yetirdiyi funksiyaya oxşar funksiyaları həyata keçirə biləcək qanunverici orqana malik deyil. Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsi və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 10-cu və 14-cü maddələri dinc dəyişiklik aləti yaratmağa cəhd edib. Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsində oxuyuruq: "Assambleya zaman-zaman Cəmiyyətin üzvlərinə tətbiq edilməsi mümkünsüzləşmiş müqavilələri yenidən nəzərdən keçirməyi və davam etməsi dünyada sülhü təhlükə altına sala biləcək beynəlxalq şəraiti nəzərdən keçirməyi məsləhət görə bilər".

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 10-cu maddəsi isə bəyan edir ki, "Baş Assambleya verilmiş Nizamnamənin çərçivəsində istənilən problem və məsələləri müzakirə edə ...və ...Birləşmiş Millətlər Təşkilatının üzvlərinə, yaxud Təhlükəsizlik Şurasına, yaxud da onların hər ikisinə istənilən belə problem və məsələlərə dair tövsiyələr verə bilər". Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 14-cü maddəsi xüsusilə "[*Baş Assambleyanın*] dövlətlər arasında ümumi sabitliyi və mehriban münasibətləri zədələyə biləcəyi hesab etdiyi mənbəyindən asılı olmayaraq, istənilən vəziyyətin dinc şəkildə tənzimlənməsi"nə aiddir.

Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsi

Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsinə aid Frederik S.Dan düzgün olaraq qeyd etmişdir ki, o "elə başlanğıcdan ölü bir sənəd olmuşdur".[1] 19-cu maddəyə əvvəllər yalnız bir dəfə əl atılıb – 1920-ci ildə Boliviya ondan

[1] *Peaceful Change* (New York: Councilon Foreign Relations, 1937), səh. 111.

Çiliyə qarşı istifadə edib. Millətlər Cəmiyyətinin Baş Assambleyasının təyin etdiyi vəkillər komitəsi tərəfindən qərəzli hesabata görə Boliviya öz xahişini geri götürdü və 1929-cu ilə qədər Cəmiyyətin fəaliyyətində bir daha iştirak etməkdən imtina etdi.

Vəkillər komitəsi öz hesabatında iki vacib cəhəti qeyd etmişdi: onlardan biri aydın idi, digəri isə 19-cu maddənin tətbiqini ciddi şəkildə məhdudlaşdırırdı. Hesabat 19-cu maddənin mətninin Assambleyanın müqavilələri məcburedici təsir ilə dəyişmək səlahiyyətinin olmadığına dair açıq şəkildə irəli sürdüyü müddəaya dair bəyan etdi ki, belə bir dəyişiklik müqavilə tərəflərinin müstəsna səlahiyyətidir və Assambleya yalnız Cəmiyyətin üzvlərinə məsləhətlər verə bilərdi. Lakin müqavilələrə dair belə məsləhətlərin verilməsi haqqında qoyulan şərt müqavilələrin tətbiq edilə bilməməsi demək idi. Komitə müqavilələrin tətbiq edilə bilməməsini "tətbiqi artıq münasib qaydada mümkün olmayan"[1] radikal maddi və mənəvi dəyişikliklərin müdaxiləsi kimi təyin etdi. Status-kvonun əbədiləşdirilməsinin bu tələblərə cavab verəcək qədər açıq şəkildə ağlasığmaz olduğu vəziyyətə, əslində, nadir hallarda rast gəlinərdi.

Lakin fərz edək ki, Assambleya aidiyyəti üzv dövlətlərə müqaviləni yenidən nəzərdən keçirməyi və sülhü yaradan vəziyyəti nəzərdən keçirməyi məsləhət görmüşdü. Tərəflər məsləhəti qəbul və ya rədd etməkdə azad idi. Əgər onlar məsləhəti könüllü şəkildə qəbul etsəydilər, onların təhlükə altında olan maraqlarının həyati əhəmiyyət daşımadığını və istənilən növ xarici təzyiq, ruhlandırma, yaxud nüfuzun qorunması mexanizminin, demək olar ki, onları müqaviləni yenidən nəzərdən keçirməyə və vəziyyəti nəzərdən keçirməyə razılaşmağa vadar edəcəyini rahatlıqla təxmin etmək olardı. Lakin nəzərdən keçirmə hələ razılaşma mənasını vermir. Aidiyyəti tərəflər müqaviləni, yaxud vəziyyəti nəzərdən keçirmiş və bu zaman Assambleyanın məsləhətini nəzərə almış olmalı idi. Onlar həll yolu ilə razılaşmaya da bilərdilər, 19-cu maddə isə hər hansı bir həll yolunu onların boynuna qoymaq üçün Assambleyaya heç bir səlahiyyət vermirdi.

Assambleyanın 19-cu maddəni icra edərək məsləhəti yalnız yekdilliklə qəbul etməli olduğu, yoxsa əksəriyyətin səsinin kifayət etdiyi məsələsi hələ də açıq qalır. Əgər hesab etsək ki, yekdillik tələb olunur, Assambleya hətta bir dövlət qarşı çıxardısa, məsləhət vermək iqtidarında olmazdı. Status-kvoya edilən dəyişiklikdən maraqları xələl görə biləcək dövlət böyük ehtimalla buna qarşı çıxmış olacaqdı. Digər tərəfdən əgər aidiyyəti dövlətlər status-kvonun yenidən nəzərdən keçirilməsinə artıq razılaşıbsa, onların belə bir məsləhətə ehtiyacı yoxdur və 19-cu maddə vasitəsilə həyata keçirilən fəaliyyətin heç bir məqsədi yox idi.

[1] *Journal of The Second Assembly of the League of Nations*, 1921, səh. 218.

Bununla belə, əgər fərz etsək ki, yalnız əksəriyyətin razılığı tələb olunurdu, o zaman vəziyyət kollektiv təhlükəsizliyin təcrübi fəaliyyətinə zərər vurduğunu müəyyən etdiyimiz vəziyyətə oxşar olurdu.[1] Status-kvonun əbədiləşdirilməsinin təhlükə altında olduğu istənilən vəziyyətdə dövlətlər birliyinin iki düşmən düşərgəyə bölünəcəyi ehtimal olunur. Bir qrup status-kvonun əbədiləşdirilməsinin lehinə olacaq; digəri onun aradan qaldırılmasını tələb edəcək. Hansı qrupun say üstünlüyünə malik olduğunun, aydın məsələdir ki, məsələyə aidiyyəti yoxdur. Suveren dövlətlər birliyində yeganə əhəmiyyəti olan məsələ güc üstünlüyünün hansı tərəfdə olmasıdır. Böyük dövlətlərin azlığı, şübhəsiz ki, kiçik və orta dövlətlərin əksəriyyətinin məsləhətinə əhəmiyyət verməyəcək; üstün gücündən istifadə etməyə hazır olan əksəriyyətin məsləhəti isə azlıq tərəfindən nəzərə alınacaq. Bununla belə, əslində, çox ehtimal olunur ki, bir-birinə çox qeyri-mütənasib olmayan gücə malik iki düşərgə bir-birinə qarşı çıxacaq. Belə bir ehtimalda məsələ Millətlər Cəmiyyətinin Assambleyasında əksəriyyətə malik ola biləcək status-kvoya qarşı olan dövlətlərin məsləhəti ilə həll edilmiş olmaz.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi

Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsinə münasibətdə, sadəcə, mücərrəd olan bu mülahizələr Birləşmiş Millətlər Təşkilatının orqanlarının real fəaliyyətində sınaqdan keçirilmişdir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 18-ci maddəsinin 2-ci bəndi Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 10-cu və 14-cü maddələrə əsasən iclasda iştirak edən və səs verən üzv dövlətlərin üçdə iki səs çoxluğu ilə tövsiyələr verə bilməsini təmin edir. Öz ifadə formalarına görə Millətlər Cəmiyyətinin Nizamnaməsinin 19-cu maddəsindən nə qədər geniş və daha az konkret olsa da, 10-cu və 14-cü maddələr Birləşmiş Millətlər Təşkilatı üçün 19-cu maddənin Millətlər Cəmiyyəti üçün həyata keçirdiyi güman olunan vəzifə ilə eyni vəzifəni həyata keçirmək məqsədi daşıyır: bu, dinc dəyişiklik üçün hüquqi yol açmaqdan ibarətdir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tövsiyələr vermək üçün bu gücündən diqqətəlayiq dərəcədə tez-tez istifadə etmişdir. Bu tövsiyələrin çoxunun ya dinc dəyişiklik problemi ilə əlaqəsi olmayıb, ya da onlar sülhün mühafizəsi və bərpası yolu ilə status-kvonu qoruyub saxlamaq məqsədi daşıyıb. Bununla belə, Baş Assambleya qarşısına çıxarılan bir sıra məsələlər dinc dəyişiklik problemini qaldırıb. Bunlar Fələstin, Koreya, Almaniya, Avstriya, Macarıstan, Tunis, Mərakeş, Əlcəzair, Qərbi İran, Kipr, Formoza, Süveyş kanalı, İordaniya, Livan və keçmiş İtaliya müstəmləkələri məsələləri olub. Ümumi mənzərə gözlənildiyi kimi mənfi olub.

[1] Bax: paraqraf 24.

Digər tərəfdən status-kvonu dəyişmək üçün edilən və bütün əlaqədar tərəflərin qəbul etdiyi tövsiyə artıqdır; onun qəbul edilməsi göstərir ki, tərəflər arasında nə kimi narazılıqlar ola bilsə də, bu onlar arasında qüvvələrin ümumi bölgüsünə heç bir xələl gətirmir, xələl görən yalnız qüvvələrin bütün əlaqədar dövlətlərin razılaşdığı ümumi bölgüsü daxilindəki tənzimləmələrdir.

Digər tərəfdən əlaqədar tərəflərdən birinin status-kvonun dəyişdirilməsi üçün edilən tövsiyəyə qarşı çıxması ya yalnız kağız üstündə qalacaq, ya da məcburi şəkildə tətbiq olunmalıdır. Ona görə də səmərəli olsun deyə tövsiyə gücə əsaslanan bir qərar olmalıdır. Baş Assambleyanın tövsiyənin qərara çevrilməsinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin güc tətbiq etmək hüququ verdiyi yeganə orqanı – Təhlükəsizlik Şurası tərəfindən reallaşdırılmalı olmasına dair qoyduğu tələblərin məqsədi bu idi. Təhlükəsizlik Şurası güc tətbiqini həyata keçirə bilmədiyindən Baş Assambleyanın tövsiyələri kağız üzərində qaldı.

Əgər əlaqədar tərəflər razılaşmasa, dinc dəyişiklik yalnız kollektiv təhlükəsizliyin ideal şərtləri altında, yəni etiraz edən tərəfə qarşı böyük bir qüvvənin yönəldildiyi halda mümkündür. Görmüş olduğumuz kimi, bu şərtlərin gerçəkləşdirilməsi ehtimalı çox az olduğundan müasir beynəlxalq təşkilatlar tərəfindən dinc dəyişiklik üçün təmin edilən mexanizmlər, ümumiyyətlə, işlək olmamağa məhkumdur. Əgər onlar ümumilikdə işə salınsa, ya heç bir dəyişiklik olmayacaq, ya da baş verən hər hansı dəyişiklik dinc yolla olmayacaq. Başqa sözlə, ya dəyişiklik üçün edilən tövsiyələr həyata keçməyəcək, ya da məsələ status-kvonun lehinə və əleyhinə olan dövlətlər arasında müharibə vasitəsilə həll olunacaq. Suveren dövlətlər birliyində başqa cür mümkün deyil. Çünki suveren dövlətlər ədalətin ümumi meyarı kimi ümumi rifaha bağlılıq əvəzinə – dövlətlər birliyində bu, mövcud deyil – milli maraq hesab etdikləri tərəfindən hərəkətə gətirilir.

27. Beynəlxalq hökumət

Bura qədər beynəlxalq anarxiya və müharibəyə dair müzakirə olunmuş tədbirlərin hamısı spesifik tədbirlərdir. Onlar təzahürü beynəlxalq nizamın yoxluğu və müharibəyə meylin olduğu xüsusi bir problemi hədəf alırlar və beynəlxalq nizam və sülh ilə əlaqədar ümumi problemi həmin xüsusi problemi aradan qaldırmaqla həll etməyə cəhd edirlər. Beynəlxalq hökumət öz mövcudluğuna görə sülh və nizamın xüsusi bir problemi həll etmək üçün yaradılan xüsusi bir mexanizmin deyil, vahid cəmiyyəti ümumi hakimiyyət və ümumi ədalət konsepsiyası altında birləşdirən ümumi öhdəliyin məhsulunun olduğunun qəbul edilməsinə borcludur. Bu halda suveren dövlətlər birliyində belə hökumətin və belə bir ədalət konsepsiyasının necə yaradılmalı olması beynəlxalq hökumətə dair edilən istənilən cəhdin həll etməyə çalışmalı olduğu məsələdir.

Keçən əsr yarımlıq dövrdə baş vermiş üç dünya müharibəsinin hər biri beynəlxalq hökumət qurmaq cəhdi ilə müşayiət olunmuşdur. Beynəlxalq nizam və sülhün mühafizə edilməsində total uğursuzluq beynəlxalq nizam və sülhün təhlükəsizliyinə edilən ümumi cəhdin meydana çıxmasına səbəb olmuşdur. Napoleon müharibələrindən sonra yaradılan "Müqəddəs ittifaq", Birinci Dünya müharibəsindən sonra yaradılan Millətlər Cəmiyyəti və İkinci Dünya müharibəsindən sonra yaradılan Birləşmiş Millətlər Təşkilatı. Beynəlxalq hökumətin yaradılmasına edilən bu cəhdlərin hər birinə münasibətdə 3 sual qoyulmalıdır: (1) İdarə etmək səlahiyyəti hara verilir, yaxud kim idarə etməlidir? (2) Hökumət hansı ədalət prinsipi ilə idarə olunmalıdır, yaxud hökumət tərəfindən həyata keçirilməli ümumi rifah konsepsiyası hansıdır? (3) Hökumət nizamı və sülhü nə qədər mühafizə edə bilmişdir?

"MÜQƏDDƏS İTTİFAQ"

Tarixi

Ümumi şəkildə "Müqəddəs ittifaq" adlanan beynəlxalq hökumət üç müqaviləyə əsaslanırdı: 9 mart 1814-cü ildə imzalanmış Şomon müqaviləsi, 20 noyabr 1815-ci ildə Parisdə imzalanmış "Dördlər ittifaqı" haqqında müqavilə və

20 sentyabr 1815-ci ildə imzalanmış "Müqəddəs ittifaq" müqaviləsi. Şomon müqaviləsinə görə, Avstriya, Böyük Britaniya, Prussiya və Rusiya Napoleon sülaləsinin Fransaya qayıtmasının qarşısını almaq və Napoleona qarşı müharibənin sonunda həyata keçirilməli olan ərazi nizamlamasına təminat vermək üçün 20 illik müddətə ittifaq yaratdı. "Dördlər ittifaqı" Şomon müqaviləsinin müddəalarını yenidən təsdiqlədi və onun VI maddəsi "konqres hökuməti", yaxud "konfrans diplomatiyası" kimi tanınan prinsipləri müəyyən etdi.[1]

"Dördlər ittifaqı" haqqında müqavilədən fərqli olaraq, – o sanki "Müqəddəs ittifaq" beynəlxalq hökumətinin konstitusion qanunu idi, – beynəlxalq hökumətin öz adını götürdüyü "Müqəddəs ittifaq" müqaviləsinin özü, ümumiyyətlə, heç bir hökumət prinsipi ehtiva etmirdi. O, Allahın dünyanın həqiqi suvereni olması ilə bütün dövlət başçılarının xristianlıq prinsiplərinə bağlılığını bəyan etdi. O, "qarşılıqlı xidmət", "dəyişməz xoş məram", "qarşılıqlı rəğbət", "xristian xeyirxahlığı" və "qırılmaz qardaşlıq" kimi ifadələrlə zəngin idi. Əvvəlcə Avstriya, Prussiya və Rusiya dövlət başçıları tərəfindən imzalanan "Müqəddəs ittifaq" müqaviləsinə daha sonra Papa və sultan istisna olmaqla Avropanın bütün dövlət rəhbərləri öz sədaqətlərini bəyan etdilər.[2] Açıq şəkildə Rusiya çarı I Aleksandr tərəfindən ilhamlandırılan ittifaq Avropanın mənəvi birliyini bir daha təsdiqlədi. Dövlətlər arasında mənəvi konsensusun bir daha təsdiq edilməsi "Müqəddəs ittifaq" müqaviləsinin, əslində, yerinə yetirdiyi əsas vəzifədir.

"Müqəddəs ittifaq" müqaviləsi onun adını daşıyan beynəlxalq hökumətin real fəaliyyəti üçün heç bir əhəmiyyət daşımırdı. Onun prinsipləri zaman-zaman çar tərəfindən xatırlanır, digər dövlətlər tərəfindən sözlərdə təsdiq olunur və əməldə rədd edilirdi. Britaniya xarici işlər naziri Kasleri imzalanması zamanı bu müqaviləni "möhtəşəm mistika və cəfəngiyyat" adlandırmış, Avstriya kansleri Metternix isə onunla bağlı bayağı zarafatlar etmişdir. Lakin o, müqaviləni ilkin olaraq imzalayan üç dövlətin müzakirəyə təklif etdiyi ədalət prinsipləri və onların bu prinsipləri reallaşdırmaq üçün təşəbbüs etdikləri siyasətlər üçün mənəvi əsaslandırma kimi xidmət göstərdi. Beləliklə, "Müqəddəs ittifaq" müqaviləsi həmçinin

[1] VI maddənin mətni aşağıdakı kimidir: "Bu müqavilənin icrasını təmin etmək və buna dəstək vermək üçün və bu gün 4 suvereni dünyanın rifahı üçün birləşdirən sıx əlaqələri möhkəmləndirmək üçün müqaviləni imzalayan ali tərəflər müəyyən edilmiş dövrlərdə ya suverenlərin birbaşa himayəsi altında, ya da müvafiq nazirləri tərəfindən böyük ümumi məqsədlərə həsr olunmuş birlikləri yeniləməyə və bu dövrlərin hər hansı birində xalqların əmin-amanlığı və inkişafı, eləcə də dövlətin asayişinin mühafizəsi üçün ən çox faydalı hesab olunan tədbirləri gözdən keçirməyə dair razılığa gəlib".

[2] Britaniya monarxı konstitusion səbəblərdən rəsmi olaraq öz sədaqətini bəyan edə bilmədi; baş nazir qeyri-rəsmi olaraq müqaviləyə tərəfdar çıxdıqlarını bəyan etdi.

ideoloji funksiya yerinə yetirirdi və beynəlxalq münasibətlərin bütöv bir dövrünün rəmzinə çevrildi.

1818-ci ildə "Dördlər ittifaqı" haqqında müqaviləni imzalayan dövlətlər Fransanı müqavilənin VI maddəsinə əsasən keçirilən bütün növbəti görüşlərdə iştirak edəcək 5-ci üzv kimi qəbul etdi. 1820-ci ildə Troppau konqresində imzalanmış bəyannamədə Avstriya, Prussiya və Rusiya heç vaxt hər hansı bir xalqın onların dövlət başçılarının hakimiyyətini məhdudlaşdırmaq hüququnu tanımayacaqları haqqında öhdəlik götürdü. Bu razılaşma "Yeni Müqəddəs ittifaq" kimi tanınır. Kasleri eyni ildə etdiyi iki rəsmi müraciətdə digər ölkələrin daxili işlərinə müdaxilə etmək məqsədi daşıyan siyasətlərdə hər hansı formada iştirak etməkdən imtina etdi. Onun varisi Corc Kanninq 1822-ci ildə keçirilmiş və Böyük Britaniyanın iştirak etdiyi sonuncu konqres olan Verona konqresində həmin prinsipi müdafiə etdi.

Verona konqresinin uğursuzluğu haqqında xəbərlər ona çatanda Kanninq 3 yanvar 1823-cü il tarixində Britaniya diplomatı Baqota yazdığı məktubunda qisasçılıq zəminində "Müqəddəs ittifaq"ın dini prinsipinə əsaslanaraq Böyük Britaniya üçün konqreslər formasında beynəlxalq hökumətin sonunun və yeni dövrün başlanğıcının gəldiyini elan etdi: "Hər dövlət özü üçün, Allah hamımız üçün!"

Konfranslar üsulu ilə fəaliyyət göstərən beynəlxalq hökumət fəaliyyətdə olan bir təsisat kimi Britaniyanın dönüklüyünə davam gətirə bilmədi. Daha iki faydasız cəhddən sonra – onlardan biri İspaniya müstəmləkələri, digəri isə Yunanıstan və Türkiyə ilə bağlı idi – o, 1825-ci ildə sona çatdı.

20 noyabr 1815-ci ildə bağlanmış "Dördlər ittifaqı" haqqında müqavilənin VI maddəsinə əsasən təsis edilmiş ümumi beynəlxalq hökumətin sistemi hətta 10 il belə davam etmədi. Ayrı-ayrı problemlərin nizamlanması üçün səfirlər səviyyəsində keçirilən konfransların ömrü hətta ondan da qısa oldu. Bu konfrans da 1815-ci il müqavilələrinə əsasən təşkil edilirdi və üç orqandan ibarət idi: əsasən, Fransa ilə bağlanmış sülh müqavilələri ilə meydana çıxan problemlərlə məşğul olmaq üçün bir araya gələn, lakin ümumi olaraq "Dördlər ittifaqı"nın önəmli icraçı orqanı kimi fəaliyyət göstərən, Avstriya, Böyük Britaniya, Prussiya və Rusiyanın Fransadakı səfirlərinin konfransı; böyük dövlətlərin səfirlərinin qul ticarətinin ləğvini təşkil etmək üçün Londonda keçirilən görüşü; və Almaniya ilə bağlı məsələləri müzakirə etmək üçün Frankfurtda səfirlərin konfransı. Bütün bu orqanlar 1818-ci ilə qədər yoxa çıxdı.

Böyük dövlətlərin yaratdığı hökumət

"Müqəddəs ittifaq" adlanan beynəlxalq hökumət böyük dövlətlərin hökuməti idi. Avstriya dövlət xadimi və yazıçısı Fridrix Gents onun ümumi xarakterini belə təsvir edirdi:

"1814-1815-ci illərdən etibarən Avropada yaradılmış sistem dünya tarixində görülməmiş bir fenomendir. Üç əsr boyunca Avropanı olduqca tez-tez təşvişə salmış və onu qana bulamış müvazinət, yaxud daha dəqiq desək, ayrı-ayrı ittifaqların yaratdığı əks-çəkilər prinsipi dövlətlərin cəmini aparıcı dövlətlərin rəhbərliyi altında federasiyada birləşdirən ümumi ittifaq prinsipi ilə əvəz olunmuşdur... İkinci, üçüncü və dördüncü dərəcəli dövlətlər üstünlüyə malik olan dövlətlər tərəfindən birlikdə qəbul olunmuş qərarlara dinməz-söyləməz və əvvəlcədən hər hansı bir qeyd-şərt irəli sürmədən tabe olur; və görünür ki, Avropada, nəhayət ki, onun özünün yaratdığı areopaqın himayəsi altında birləşən böyük bir siyasi ailə təşəkkül tapır".[1]

Dövlətlər arasında gücün kəskin fərqlərinə işarə edən siyasi amil kimi böyük və kiçik dövlətlər arasındakı fərq, əlbəttə ki, beynəlxalq siyasətin əsas təcrübələrindən biridir. Beynəlxalq siyasətin bir təsisatı və hüquqi statusuna görə fərqli olan bir təşkilat kimi o, Kaslerinin beyninin məhsuludur və 1815-ci ildə qəbul edilmiş planın bünövrəsini təşkil edir. Doğrudur, 15 noyabr 1818-ci ildə keçirilmiş Aaxen konqresinin 5 böyük dövlətin gələcək görüşlərini təmin edən protokolu həmçinin belə bir qeyd-şərt qoydu ki, "bu görüşlər mövcud fəaliyyətlərinə görə məxsusi olaraq Avropanın digər dövlətlərinin maraqları ilə əlaqələnmiş olacaqları halda onlar yalnız əgər adı çəkilən fəaliyyət həmin dövlətlərlə əlaqədar olarsa, onlara rəsmi dəvətnamənin göndərilməsi və orada onların ya özlərinin, ya da müvəkkillərinin birbaşa iştirak hüququnun təcili şəkildə təmin edilməsi ilə baş tutacaq". Lakin bu qeyd-şərtin "Müqəddəs ittifaq"ın və xüsusilə "Yeni Müqəddəs ittifaq"ın siyasəti üzərində heç bir əhəmiyyətli təsiri olmadı.

Status-kvonun ikili mənası

"Müqəddəs ittifaq"ın hansı ədalət prinsipi tərəfindən yönləndirildiyinə dair sualın cavabı, görünür ki, aydındır: status-kvo əsasında sülhün qorunub saxlanması. Bu prinsip heç vaxt 5 böyük dövlətin 1818-ci il noyabrın 15-də Aaxendə imzaladığı bəyannamədə olduğundan daha aydın ifadə edilməmişdir: "Bu ittifaqın məqsədi böyük və faydalı olduğu qədər sadədir. O heç bir yeni siyasi birliyə – mövcud müqavilələr ilə icazə verilmiş münasibətlərdə hər hansı dəyişikliyə meyil etmir. Öz fəaliyyətində sakit və ardıcıl olan ittifaqın sülhün mühafizəsindən və həmin sülhün əsaslandığı və onu möhkəmləndirən sövdələşmələrə təminat verməkdən başqa bir məqsədi yoxdur".

[1] *Dépêches Inédites du Chevalier de Gentz aux Hospodors de Valachie* (Paris: E.Plon, 1876), Vol. 1, səh. 354. Ingilis dilinə müəllif tərəfindən tərcümə olunmuşdur.

Lakin status-kvo altında nəyin nəzərdə tutulduğuna dair növbəti suala verəndə bu cavab olduqca ikimənalı xarakter alır. Başdan bəri Böyük Britaniyanın status-kvo altında nəzərdə tutduğu Rusiyanın nəzərdə tutduğu status-kvo deyildi və "Yeni Müqəddəs ittifaq"ın siyasətini yönləndirən status-kvo konsepsiyası Kasleri və Kanninqin siyasətlərinin arxasındakı status-kvo ilə tamamilə ziddiyyət təşkil edirdi. Böyük Britaniyanın "Müqəddəs ittifaq" vasitəsilə mühafizə etməyə çalışdığı status-kvo Napoleon müharibələrinin sonunda Fransaya münasibətdə mövcud siyasi vəziyyətlə kəskin şəkildə məhdudlaşırdı. Britaniya dövlət adamlarının fikrincə, Napoleonun Britaniya adalarını üz-üzə qoyduğu ölümcül təhlükə Avropada Napoleon imperiyasından törəmiş qüvvələr tarazlığına təhlükə ilə eynidir. Böyük Britaniya məqsədi Fransa torpağından yeni istilaçının baş qaldırmasının qarşısını almaq və bu məqsədlə Fransaya qarşı 1815-ci il sülh nizamlanmasını tətbiq edən beynəlxalq hökuməti dəstəkləmək idi. Britaniyanın status-kvo konsepsiyası 1815-ci il ərazi tənzimləmələri və Napoleon ailəsinin üzvünün Fransa taxt-tacından kənarlaşdırılması ilə məhdudlaşırdı. Bu baxımdan Kasleri və Kanninqin xarici siyasətləri arasında heç bir fərq yox idi.

Lap əvvəldən Rusiyanın, XIX əsrin ikinci onilliyindən etibarən isə Avstriya, Prussiya və Fransanın siyasətini təyin edən status-kvo konsepsiyası ərazi və obyekti baxımından qeyri-məhdud idi. Real siyasi şərtlərin reallaşdırmağa icazə verdiyindən daha barışmaz cəhətdən işlənib-hazırlanmış həmin konsepsiyaya uyğun olaraq, "Müqəddəs ittifaq" müqaviləsi ilə yaradılmış beynəlxalq hökumətin məqsədi 1815-ci ildə yaradılmış ərazi status-kvosunu və mütləq monarxiyanın konstitusion status-kvosunu dünyanın hər yerində mühafizə etmək idi. Bu məqsədin reallaşdırılması aləti qaçılmaz şəkildə bütün dövlətlərin daxili işlərinə müdaxilə olmalı idi ki, bu zaman da mütləq monarxiya təsisatı təhlükə altına düşürdü.

Belə bir müdaxilə mütləq şəkildə müdaxilə edən dövlətlərin gücünün çoxalmasına gətirib çıxarırdı. Milli və azadlıq hərəkatları nə qədər geniş yayılırdısa, müdaxilə edən dövlətin və dövlətlər qrupunun öz gücünü artırmaq və bununla da qüvvələr tarazlığını yenidən təhlükə altına salmaq ehtimalı bir o qədər böyük olurdu. Belə bir prosesdən ən çox yararlanan Rusiya olmalı idi. Bu nöqtədə Böyük Britaniya və Rusiyanın fikir ayrılığı meydana çıxdı.

Böyük Britaniya, demək olar ki, əsrin dörddəbiri müddətində Fransa inqilabının dinamizmi ilə bəslənmiş Napoleon imperiyası ilə onu universal qardaşlıq və mütləq hökumətə dair dini mistikadan ilhamlanan Rusiya imperiyası ilə dəyişmək üçün döyüşməmişdi. Milli və azadlıq hərəkatlarının yayılmasının "Yeni Müqəddəs ittifaq"a ümumi müdaxilə prinsiplərini yoxlama imkanı verdikcə Böyük Britaniya da ondan uzaq durur və onun siyasətinə qarşı çıxırdı. 1818-ci ildə Rusiya Amerika müstəmləkələrinə qarşı müharibədə İspaniyaya kömək etmək üçün müttəfiqlərin

ordusunu göndərməyi təklif edəndə Böyük Britaniya bu planın icrasının qarşısını aldı. Lakin 1820-ci ildə Neapol və Pyemontda inqilablar başlayanda Portuqaliya və Avstriya "Müqəddəs ittifaq" adından Neapol və Pyemontda mütləq monarxiyaları silah gücünə öz taxt-taclarına qaytardı. 1820-ci ildə İspaniyada inqilab başladı. 1823-cü ildə Fransa öz adından, lakin Avstriya, Prussiya və Rusiyanın mənəvi dəstəyi ilə silah gücünə onun yaratdığı konstitusion rejimə qarşı çıxdı.

Sülh, nizam və milli maraq

"Müqəddəs ittifaq"ın bu kimi fəaliyyətləri iki amili üzə çıxarır. Bunlardan biri bu vəziyyətlərdən heç birində ciddi müharibə təhlükəsinin olmamasıdır. Müdaxilə edən dövlət ilə müdaxilə obyekti – yalnız öz əks-inqilabçı həmyerliləri ilə deyil, həmçinin xarici ordu ilə mübarizə aparmalı olan inqilabi qrup – arasında gücün mütənasib olmaması müdaxiləyə müharibə əvəzinə cəza tədbiri xarakteri verirdi.

Digər amil dövrün diplomatik dili Rusiya çarının mistik aludəçiliklərinə nə qədər çox güzəştlər etsə də, bütün dövlətlərin siyasətlərinin onların milli maraqları ilə təyin olunması idi. Bu özünü daha açıq şəkildə Böyük Britaniyanın hərəkətlərində göstərirdi. Nə Kasleri, nə də bu baxımdan xüsusilə riyasız və bəlağətli olan Kanninq yalnız ümumi sülh və təhlükəsizlik maraqları istisna olmaqla fəaliyyətlərində Böyük Britaniyanın ənənəvi maraqları tərəfindən yönləndirildikləri faktını gizlətməyə heç bir səy göstərmirdilər. Həm Avstriyanın İtaliyaya müdaxiləsi, həm də Fransanın İspaniyaya müdaxiləsi ənənəvi milli maraqlar tərəfindən diktə edilirdi. Bu əlaqə Avstriya və Fransa tərəfindən öz cənub qonşularının işlərinə müdaxilənin, demək olar ki, yarım əsr "Müqəddəs ittifaq"a tab gətirməsi faktının özü ilə göstərilir.

Lakin bizim müzakirəmiz baxımından daha əhəmiyyətli olan ayrı-ayrı milli maraqların "Müqəddəs ittifaq"ın ümumi prinsipləri ilə münaqişəyə girəndə onlar üzərində qələbə çalmasıdır. Bu, iki dəfə: 1820 və 1821-ci illərdə baş verib. Hər iki halda Rusiya ittifaqın bütün üzvləri tərəfindən kollektiv müdaxilə təklif etdi və bu məqsədlə Mərkəzi və Qərbi Avropaya böyük bir rus ordusu göndərməyə hazır olduğunu bildirdi. Böyük Britaniyanın belə bir təklifə etiraz edəcəyi Britaniyanın ənənəvi qüvvələr tarazlığı siyasətinə qayıdışı haqqında söylənilənlərdən aydın idi. Böyük Britaniyanın "Müqəddəs ittifaq"ın digər bir dayağı olan Avstriyanın ona qarşı etirazına qoşulmuş olacağı isə "Müqəddəs ittifaq"ın prinsiplərinin ideoloji xarakterini göstərir. Onlar bu prinsiplərə milli maraqların diktə etdiyi siyasətlərinin mənəvi cəhətdən əsaslandırılmasına əsas verə bildikləri zaman müraciət olunurdu. Onlara müraciət etməklə milli maraq üçün heç nə əldə etmək mümkün olmadıqda isə onlardan imtina olunurdu.

1821-ci ildə yunanlar türklərə qarşı üsyan etdikdə dövlətlərin münasibəti bu baxımdan ibrətamizdir. Bu həmçinin "Müqəddəs ittifaq"ın tarixi ərzində ümumi müharibə rüşeymləri daşıyan yeganə vəziyyət idi və sonrakı əsrdə dəfələrlə müharibələrin başlamasına gətirib çıxardı. "Yeni Müqəddəs ittifaq"ın prinsipləri legitim hökumətə qarşı milli üsyana münasibətdə yalnız bir münasibətin göstərilməsinə icazə verdi: legitim hökumətə fəal şəkildə dəstək verilməlidir. Lakin bu ən çox təsirə məruz qalmış dövlətin milli maraqlarının tələb etdiyi cavab deyildi.

Rusiya Osmanlı imperiyasının xristian pravoslav dinindən olan subyektlərinin ənənəvi müdafiəçisi olmuşdu. Konstantinopola sahib olmaq Moskvadakı hökmdarların əsrlərlə yaşı olan arzusu idi. Beləliklə, yunanların üsyanı başlayanda Rusiya çarı "Yeni Müqəddəs ittifaq"ın prinsiplərini tamamilə heçə sayaraq Türkiyəyə qarşı müharibə elan etməyə həvəs göstərdi. Digər tərəfdən, Avstriya və Böyük Britaniya isə Rusiyanın gücünün Balkanlara yayılmasını və Rusiyanın Aralıq dənizinə doğru irəliləməsini – bu, əvvəl də və sonralar, demək olar ki, bütöv bir əsr ərzində də hiss olunurdu – yalnız əndişə içində müşahidə edə bilərdi. Belə olduqda "Yeni Müqəddəs ittifaq"ın əleyhdarı olan Kasleri və onun çoşqun müdafiəçisi olan Avstriya kansleri Metternix Rusiyanı yunan üsyançılarını dəstəkləmək üçün fəal tədbirlər görmək fikrindən daşındırmaq üçün əl-ələ verdilər. Onların "Yeni Müqəddəs ittifaq"ın prinsiplərindən onun müəllifinin əksinə uğurlu şəkildə istifadə etməsi milli maraqların açıq şəkildə qəbul edilməsi əvəzinə, mücərrəd prinsiplərə əsaslanan xarici siyasətin qarşılaşdığı çətinliklərə dair istehzalı bir şərhdir. Kaslerinin müdrik şəkildə qeyd etdiyi kimi: beynəlxalq münasibətlərdə "ziddiyyətli maraqlar arasında" tarazlığı saxlamaq kifayət qədər çətindir; "ziddiyyətli prinsiplər arasında" tarazlığı saxlamaq isə ondan da çətindir.

Nəhayət, 1826-cı ildə Rusiya və Türkiyə arasında müharibə təhlükəsi kəskin şəkil aldıqda bunun qarşısını alan artıq ölü formasında olan "Müqəddəs ittifaq" deyil, Kanninqin Türkiyəni yunanlara güzəştə getməyə məcbur etmək üçün Rusiya ilə razılaşmaya daxil olmaqla bağlı cəsarətli hərəkəti idi və Rusiya belə daxili islahatlardan heç də birbaşa xeyir əldə etmirdi. Kanninqin ölümündən sonra Kanninqin qarşısını almağa müvəffəq olduğu hadisə baş verdi: 1828-ci ildə Rusiya təklikdə Türkiyəyə müharibə elan etdi və bununla onu öz insafından asılı etdi. Bu müharibənin başlanması qismən Kanninqin ölümündən sonra Britaniya dövlətçiliyinin tənəzzülü ilə bağlana bilər. Lakin bu, əlbəttə ki, "Müqəddəs ittifaq" adlı beynəlxalq hökumətin artıq mövcud olması ilə heç bir şəkildə bağlı deyildi.

Belə olduqda "Müqəddəs ittifaq" beynəlxalq sülhün qorunub saxlanmasına heç bir töhfə verməmiş qısaömürlü təcrübə idi. O, hökmranlıq etdiyi sahəyə öz qaydalarını tətbiq edən beynəlxalq bir hökumət kimi yalnız bir onilliyin yarısından çox bir müddətdə uğurlu oldu. 1818-ci ildə o, qüdrətinin zirvəsində olanda

onun memarlarından və görkəmli filosoflardan biri olmuş Fridrix Gents onun yaradılarkən olan zəifliyinə işarə etdi:

"İndiki sistemin ən kəskin çatışmazlığı onu təşkil edən müxtəlif növ ünsürlərin birliyini uzun müddət mühafizə etməkdə üzə çıxan çətinlikdir. Ən müxtəlif maraqlar, ən antaqonist meyillər, ən ziddiyyətli proqnozlar, baxışlar və məxfi düşüncələr indiki məqamda aşkar və daimi maraqlara əsaslanan həqiqi ittifaqdan daha çox, fövqəladə məqsədlər üçün yaradılmış bir koalisiyanı əks etdirən bir cəmiyyətin ümumi fəaliyyətinə daxil edilib. Belə bir birliyin reallaşdırılması üçün xüsusi şəraitə ehtiyac var idi; onun üçün hər hansı bir zaman kəsiyində vəziyyətlərin, maraqların və fikirlərin fərqliliyinin, hər biri zərurətdən öz ayrıca xarakterinə və fəaliyyət planına malik olan bir çox müstəqil dövlətləri gətirdiyi həmin ziddiyyətin və nifaqın yerini tutmaq insan təbiətinə və əşyaların təbiətinə zidd olar".[1]

Əvvəldən mövcud olan iki zəiflik "Müqəddəs ittifaq"ın fəaliyyətini erkən dayandırmasını qaçılmaz etdi. Onlardan biri ittifaqın iki aparıcı üzvü arasında status-kvonun – bütün dövlətlər onun mücərrəddə ədalətin istiqamətverici prinsipi olduğu haqqında razılığa gəlmişdi – hansı konkret siyasi mənanı kəsb etməsinə dair kəskin ziddiyyət idi. Həmin məna ayrı-ayrı üzvlərin milli maraqları ilə təyin olundu. Əgər həmin maraqlar üst-üstə düşsəydi, ittifaq vahid kollektiv orqan kimi həmrəylik içində fəaliyyət göstərə bilirdi. Əgər həmin maraqlar bir-birindən fərqlənsəydi, necə ki, onlar zaman-zaman, Böyük Britaniya və Rusiya arasındakı münasibətlərə gəlincə isə daimi olaraq buna məhkum idi, ittifaq fəaliyyətini dayandırırdı.

"Müqəddəs ittifaq"ın əziyyət çəkdiyi digər zəiflik Rusiya, Prussiya və Avstriya hökumətlərinin konkret siyasi fəaliyyətin bələdçisi olduğuna dair razılığa gəldikləri ədalət prinsipi ilə "Müqəddəs ittifaq"ın rəhbərliyi altında yaşayan ayrı-ayrı fərdlərin əksəriyyətinin tərəfdar olduğu ədalət konsepsiyası arasındakı təzad idi. Legitim hökumət prinsipləri ilə liberalizm və millətçilik prinsipləri arasındakı ziddiyyət birinci qrup prinsiplərdən ruhlanan beynəlxalq hökumətin fəaliyyətini mütləq monarxiyaların və onların dünyadakı mülklərinin mühafizəsi və yenidən bərqərar edilməsi üçün silahlı qüvvələrdən sürəkli istifadədən asılı etdi.

Beynəlxalq bir hökumətin bütün üzvləri Rusiya çarı I Aleksandrın təsəvvürlərini və şövqünü bölüşərdisə, belə bir vəzifəni nə qədər yerinə yetirmiş ola biləcəyi ehtimal məsələsidir. "Müqəddəs ittifaq" bəzi üzvlərinin və onun hakimiyyətinin subyekti olan xalqların müxalifliyi qarşısında üstünlük qazana bilməzdi. Kaslerinin dövründə həmin ikili müxaliflik bir-biri ilə təmasa girmədən paralel xətlərdə hərəkət edirdi və bu, Kaslerini "Yeni Müqəddəs ittifaq"ın siyasəti ilə fəal əməkdaşlıqdan

[1] *Dépêches Inédites du Chevalier de Gentz aux Hospodors de Valachie* (Paris: E.Plon, 1876), Vol. 1, səh. 355.

çəkindirirdi. Həmin milli və liberalizm hərəkatlarının artan gücündən Britaniyanın məqsədlərinin müdafiəsi, yəni qüvvələr tarazlığı tərəzisinin gözlərində çəkisini artırmaq üçün istifadə etmək Kanninqin gətirdiyi və sonralar onun varisi Palmertson tərəfindən üstünlük verilmiş bir yenilik idi. Həmin yenilik ilə Kanninq Britaniyada Avropa qitəsi yönümlü siyasət başlatdı və bu siyasət XIX əsr boyunca hakim oldu.

"Müqəddəs ittifaq" adlanan beynəlxalq hökumət hər hansı növ daimi təşkilata malik deyildi və yuxarıda qeyd olunmuş ötəri səfir komitələrindən başqa, yalnız cari beynəlxalq məsələləri həll etmək məqsədilə yaradılmış beynəlxalq konqreslərdən ibarət idi. Bununla belə, "Müqəddəs ittifaq", sözün həqiqi mənasında, beynəlxalq hökumət idi. Aaxen konqresinin gündəliyində olan məsələlərin tam olmayan siyahısı onun hökumət kimi fəaliyyətinin dairəsini göstərəcək: bir dövlətdə birləşdirilmiş alman knyazlarının öz yeni suverenlərinin təhqirlərinə qarşı iddiaları, Hesse Kurfürstünün öz titulunu kral tituluna dəyişmək üçün müraciəti, Napoleonun anasının oğlunun azad edilməsi ilə bağlı xahişi, Monako xalqının öz knyazlarına qarşı narazılıqları, Bavariyanın və Hohberq xanədanının Badendə varisliyə iddiaları, Oldenburq hersoqu ilə Bentink qrafı arasında Knupenhauzen üsuli-idarəsi haqqında mübahisə, yəhudilərin Prussiya və Avstriyada vəziyyəti, diplomatik nümayəndələrin rütbəsi, qul ticarətinin və berber dəniz quldurlarının qarşısının alınması və İspaniya müstəmləkələri məsələsi.

"Avropa konserti"

"Müqəddəs ittifaq"ın bu geniş yayılmış hökumət fəaliyyətləri ilə müqayisədə sonrakı əsr geriyə qayıdış idi. Dünyada cərəyan edən işləri mühakimə edən böyük dövlətlərin hökumətinin fəaliyyəti 1919-cu ildə Millətlər Cəmiyyətinin Şurası "Müqəddəs ittifaq"ın oynamış olduğu rolu yenidən təqlid etməyənə qədər özünü göstərmədi. Lakin "Müqəddəs ittifaq" ilə Millətlər Cəmiyyəti arasındakı dövr beynəlxalq problemləri böyük dövlətlərin razılaşdırılmış fəaliyyəti ilə həll etməyə edilən xüsusi cəhdlərdən məhrum deyildi. "Müqəddəs ittifaq"ın buraxılmasından sonra böyük dövlətlər nizamlanmadan müharibəyə gətirib çıxara biləcək siyasi məsələlərin nizamlanması öhdəliyini öz üzərilərinə götürməyə davam etdi. Həmin öhdəlik sülhü təhlükə altına salan problemlərlə əlaqədar keçirilən bir sıra konfranslar vasitəsilə reallaşdırıldı və bunlara nümunə kimi, məsələn, 1830-cu illərin əvvəllərində Belçika problemi, 1850-ci illərin əvvəllərində və yenidən 1878-ci ildə Şərq problemi və XX əsrin əvvəllərində Afrika məsələlərini göstərmək olar. Ser Edvard Qreyin Birinci Dünya müharibəsi ərəfəsində əbəs yerə etdiyi müraciət böyük dövlətlərin dünyadakı sülhə dair daşıdıqları, xüsusi konfranslar qismində fəaliyyət göstərən və ümumi şəkildə "Avropa konserti" adlanan həmin öhdəliyə əsaslanırdı.

"Avropa konserti" əsl dünya hökumətindən iki baxımdan fərqlənirdi. Birincisi, o, təsisatlanmış deyildi. Böyük dövlətlər arasında müntəzəm görüşlər keçirmək və ümumiyyətlə, görüşlər keçirmək haqqında heç bir razılıq əldə olunmamışdı. Böyük dövlətlər beynəlxalq vəziyyətin razılaşdırılmış fəaliyyət tələb etdiyi görünəndə görüşürdü. İkincisi, "Avropa konserti" artıq ruhunu, əvvəl qeyd etdiyimiz kimi[1], münaqişələri neytrallaşdıra və ümumi mühakimələr və fəaliyyət üçün meyarlar təmin edə bilən güclü mənəvi konsensusdan almırdı. Fransa inqilabının millətçilik və legitimlik arasında açdığı ixtilaf XIX əsr boyunca açıq qaldı. Ola bilsin ki, o, zaman-zaman daraldı və genişləndi, lakin heç vaxt aradan götürülmədi. Yalnız Birinci Dünya müharibəsinin sonunda Mərkəzi və Şərqi Avropanın monarxiyalarının sonunu gətirməklə millətçilik prinsipi qələbə çaldı.

Bununla belə, güclü mənəvi konsensusun çatışmazlığına baxmayaraq, "Avropa konserti" təşkilatlanmış hökumət, konfranslar vasitəsilə təsis olunan hökumət kimi mövcud olduğu 90 il ərzində ümumi sülhün qorunub saxlanmasında ən çox uğurlu olan təsisat oldu. Həmin dövrdə dünyanın şahid olduğu yeganə beynəlxalq müharibə olan 1854-1856-cı illər Krım müharibəsi təsadüflər silsiləsinin nəticəsi idi. Bu təsadüflərdən hər hansı biri maddiləşməsəydi, müharibədən də qaçmaq olardı. "Avropa konserti" artıq sülh formulunu razılaşdırmışdı, lakin formulun ötürülməsində 24 saatlıq gecikmə mənzərəni dəyişdi.

"Avropa konserti"nin ümumi müharibələrin qarşısını almaqdakı uğuru nə ilə izah olunurdu? Üç amil qeyd olunmalıdır. Tarixin həmin dövründə Avropa cəmiyyətinin içində həyatını sürdüyü zəif əks-səda şəkilli mənəvi konsensus, buna baxmayaraq, çağların humanitar mənəvi mühiti ilə gücləndi. Siyasi konfiqurasiya, artıq qeyd etdiyimiz kimi[2], ziddiyyətli maraqların uyğunlaşdırılması ilə siyasi baxımdan boş ərazilərə genişlənməyin xeyrinə idi. Sonuncusu və ən əhəmiyyətlisi isə, tarixin həmin dövrü sülhü qoruyub saxlamağın və müharibəni həcminə görə qısa və məhdud etməyin yollarını bilən çoxsaylı parlaq diplomatların və dövlət adamlarının fəaliyyətinin şahidi oldu. Onların əməyinin dövrümüz üçün heyrətamiz ibrəti haqqında kitabın irəlidəki səhifələrində bəhs ediləcək.

MİLLƏTLƏR CƏMİYYƏTİ

Birinci Dünya müharibəsinin başa çatması ilə beynəlxalq hökumətin tarixində yeni era başlandı. Millətlər Cəmiyyəti öz funksiyalarında "Müqəddəs ittifaq"ın funksiyaları ilə çoxsaylı oxşarlıqlar nümayiş etdirdi. Lakin təşkilatlanmasında isə o ondan bir əsr bundan əvvəlki təcrübədən köklü şəkildə uzaqlaşdı.

[1] Bax: səh. 323 və növbəti səhifələr
[2] Bax: səh. 432 və növbəti səhifələr

Təşkilatlanması

Millətlər Cəmiyyəti "Müqəddəs ittifaq"dan fərqli olaraq, hüquqi kimliyi, nümayəndələri və öz qurumları olan real təşkilat idi. Onun siyasi qurumları Assambleya, Şura və Daimi Katiblik idi. Assambleya bütün üzv dövlətlərin nümayəndələrindən təşkil olunurdu. Assambleyada, eləcə də Şurada hər bir dövlətin bir səsi var idi və müharibənin qarşısının alınmasına dair məsələlər də daxil olmaqla bütün siyasi qərarların verilməsi üçün iştirak edən dövlətlərin yekdil razılığı tələb olunurdu.[1] Əsas istisnalar 15-ci maddənin 10-cu bəndi[2] və beynəlxalq mübahisələrin nizamlanmasına dair qərarların verilməsi zamanı mübahisənin aidiyyəti tərəflərinin səslərinin sayılmaması qaydası idi.

Şura iki növ üzvlərdən ibarət idi: daimi və daimi olmayan. Müəyyən bir dövrdə Cəmiyyətin üzvü olmuş bütün böyük dövlətlər daimi üzvlər idi – məsələn, əvvəldən etibarən Fransa, Böyük Britaniya, İtaliya və Yaponiya, daha sonra isə onlara Almaniya və Sovet İttifaqı qoşuldu. Daimi olmayan üzvlərin sayı yalnız 4 idi. Onların sayı dayanmadan artdı və 1936-cı ildə Şuranın 11 daimi olmayan üzvü var idi. Beləliklə, başlanğıcda daimi və daimi olmayan üzvlər sayına görə bərabər idilər. 1922-ci ildən etibarən daimi olmayan üzvlər daimi üzvlər üzərində daim artan əksəriyyətə sahib olmağa başladılar. 1939-cu ildə Almaniya, İtaliya və Yaponiya təşkilatdan çıxdıqdan və Sovet İttifaqı ondan xaric edildikdən sonra Şura 2 daimi (Fransa və Böyük Britaniya) və 11 daimi olmayan üzvdən ibarət oldu.

Böyük və kiçik dövlətlər arasında qüvvələr bölgüsü baxımından əhəmiyyətli olan onların say nisbəti deyildi, böyük dövlətlərin Şurada daimi üzvlüyü idi. Daimi üzvlük vasitəsilə və qərarların yekdilliklə qəbul edilməsi qaydası ilə birlikdə böyük dövlətlər əmin ola bilərdi ki, Şura onların hamısının razılığı olmadan heç bir qərar verə bilməz. Bundan əlavə, beynəlxalq qurum daxilində səsvermə gücünün

[1] Müqayisə et: Daimi Beynəlxalq Ədalət Məhkəməsinin Lozanna müqaviləsinin 3-cü maddəsinin 2-ci bəndinə dair məşvərətçi fikirdə müəyyən etdiyi yekdillik prinsipləri üzərinə qoyduğu vurğu: " ... Cəmiyyətin fəaliyyət dairəsi daxilində, yaxud dünyada sülhə təsir göstərən istənilən məsələ ilə məşğul olmaq missiyasını daşıyan bir orqanda yekdillik qaydasına riayət etmək təbii və hətta zəruri olaraq tələb olunur. Yalnız əgər Şuranın qərarları onu təşkil edən dövlətlərin yekdil razılığını əldə edərsə, malik olmalı olduqları səlahiyyət dərəcəsinə sahib olacaqlar: əgər mühüm məsələlərə dair qərarların əksəriyyət səs çoxluğu ilə verilə bildiyi qəbul edilərsə, təsirinə aşkar təminat verilmədiyi halda Cəmiyyətin nüfuzunun özü təhlükəyə məruz qala bilər. Bundan əlavə, dünyada sülhə təsir edə bilən məsələlərə dair qətnamələrin Şuranın üzvləri arasında olanların iradəsinin əksinə qəbul edilə biləcəyi çətin ağlabatandır; sonuncular, baxmayaraq ki, azlıqda idilər, siyasi mövqeləri səbəbindən bundan irəli gələn öhdəlik və nəticələrin daha böyük qismində təsir etməli idilər". *(P.C.I.J.* Series B. No. 12, səh. 29)

[2] Mətn üçün bax: səh. 569, qeyd 1.

paylanması hələ hər şey demək deyil. Heç bir böyük dövlət hər hansı bir tədbirin lehinə və ya əleyhinə səs verən zaman əgər özü istəmirsə, heç vaxt tək olmur, heç böyük dövlətlərin hər hansı bir qrupu da müəyyən bir məsələyə dair azlıqda qalmamaqdan narahat deyilsə, əleyhinə səs veriləcəyi riskindən qaçmağa ehtiyac duymur. Əksər kiçik və orta dövlətlər iqtisadi, hərbi və siyasi cəhətdən böyük dövlətin dəstəyindən asılıdır. Belə bir dövlət öz səsini, çətin ki, məsləhətini daha kiçik dövlət tərəfindən nəzərə alınacağının gözlənilən olduğunu bəyan etmiş böyük dövlətə qarşı istifadə etsin.

Beləliklə, hər bir böyük dövlət Cəmiyyətin kiçik və orta üzvlərinin səsinin bir hissəsinə nəzarət edirdi. Hər hansı mühüm bir məsələdə Fransa Belçika, Çexoslovakiya, Yuqoslaviya, Rumıniya və – 10 ildən çox bir müddətdə – Polşanın səslərindən əmin ola bilərdi. Böyük Britaniya dominionlarının, Skandinaviya ölkələrinin və Portuqaliyanın səslərinə bel bağlaya bilərdi.

Böyük dövlətlərin nəzarətetmə təsiri təşkilatın hüquqi strukturundan asılı olmayaraq, Millətlər Cəmiyyətində kiçik və böyük dövlətlərin nümayəndələrinin parlaq intellektual idarəçiliyi ilə yan-yana fəaliyyət göstərirdi. Bu nümayəndələr öz ölkələrinin gücünə qeyri-mütənasib şəkildə və ondan asılı olmayaraq, Millətlər Cəmiyyətinin fəaliyyətinə təsir göstərirdilər. Həmin rəhbərlik üçün səhnə, əsasən, Assambleyadır. Millətlər Cəmiyyətinin Assambleyası Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının əksinə olaraq, yalnız ikinci dərəcəli əhəmiyyətli cari məsələ və problemlərə aid deyil, həmçinin sülhün mühafizəsi tədbirləri kimi siyasi məsələlərə aid məcburi qərarlar çıxarmaq səlahiyyətinə malik idi.[1] Millətlər Cəmiyyətinin Assambleyası həmin hüdudlarda rəhbərliyin dəfələrlə gücündən və bəzən hətta ölkəsinin maraqlarından asılı olmayaraq, daha çox ixtisaslaşmış nümayəndələrin üzərinə düşdüyü real parlament rolu oynayırdı.

Lakin həmin rəhbərlik böyük dövlətlərin həyati maraqlarının başladıqları xətdə bitirdi. Cəmiyyətin böyük böhranları zamanı böyük dövlətlərin rəhbərliyi

[1] Bax: Millətlər Cəmiyyətinin Nizamnaməsinin 3-cü maddəsinin 3-cü paraqrafı: "Assambleya iclaslarında fəaliyyət sahəsi daxilində olan, yaxud dünyada sülhə təsir edən istənilən məsələni müzakirəyə qoya bilər". Həmçinin bax: 15-ci maddənin 9 və 10-cu bəndləri: "Şura istənilən məsələni bu maddəyə əsasən Assambleyaya ünvanlaya bilər. Mübahisə tərəflərindən biri mübahisəni baxılmaq üçün Şuraya göndərdikdən sonra 14 gün ərzində mübahisə tərəflərindən birinin xahişi ilə bu şəkildə göndəriləcək.

"Assambleyaya ünvanlanmış istənilən məsələdə bu maddənin və 12-ci maddənin Şuranın fəaliyyətinə və səlahiyyətlərinə aid bütün müddəaları Assambleyanın fəaliyyəti və səlahiyyətlərinə şamil olunacaq, əgər Cəmiyyətin Şurada təmsil olunan üzvlərinin nümayəndələri və Cəmiyyətin digər üzvlərinin əksəriyyəti Assambleyanın məruzəsi ilə razılaşarsa, ...o, Şuranın onun bütün üzvləri tərəfindən razılaşdırılmış məruzəsi ilə eyni qüvvəyə malik olacaq..."

öz hüquqlarını müdafiə edirdi. Birinci dərəcəli siyasi əhəmiyyətli münaqişədə, məsələn, İtaliya-Efiopiya müharibəsində və İspaniya vətəndaş müharibəsində böyük dövlətlərin siyasəti hökmən qalib gəlməli idi. Çünki böyük dövlətlərin beynəlxalq arenadakı üstünlüyü böyük iqtisadi təşkilatların ölkədaxili cəmiyyətdə üstünlüyünün olduğu kimi bir gerçəklik idi. Gücün özünün üstünlüyünü aradan qaldırmaqdan başqa, heç bir hüquqi tənzimləmə və təşkilati mexanizm gücün bu qeyri-mütənasibliyinin siyasi nəticələrini aradan qaldıra bilmir. Bununla Cəmiyyətdəki kiçik dövlətlər əvvəllər, yaxud müasir dövrdən etibarən istifadə etdikləri ilə müqayisədə daha böyük təsir və müstəqil fəaliyyət imkanından istifadə edə bilirdi. Buna baxmayaraq, Millətlər Cəmiyyəti ən azından yüksək siyasət sahəsində böyük dövlətlərin hökuməti idi.

Status-kvonun ikili mənası: Fransa və Böyük Britaniya

Millətlər Cəmiyyəti adlanan beynəlxalq hökumətin reallaşdırmalı olduğu ədalət prinsipləri hansılar idi? Bu suala belə bir amillə rəmzi cavab verilmişdir ki, Millətlər Cəmiyyətinin Nizamnaməsinin 26 maddəsi Birinci Dünya müharibəsinin problemlərini nizamlamış sülh müqavilələrinin ilk 26 maddəsi ilə eyni idi. Bununla da Millətlər Cəmiyyəti və 1919-cu ilin status-kvosu arasındakı aşkar əlaqə elə başdan məlum olmuşdu. Nizamnamənin müddəaları bu əlaqəni müfəssəl hüquqi formaya saldı. Preambulada beynəlxalq hüququn "hökumətlər arasında real idarəetmə qaydası" olduğundan və "müqavilə öhdəliklərinə vicdanlı hörmət" haqqında bəhs olunur. 10-cu maddə üzvlər üzərinə "Cəmiyyətin bütün üzvlərinin ərazi bütövlüyü və mövcud müstəqilliyinə hörmət etmək və bunları xarici təcavüzə qarşı qorumaq" öhdəliyi qoymaqla Millətlər Cəmiyyətini 1919-cu ilin ərazi status-kvosunun müdafiəçisinə çevirir. Sonrakı maddələrin mübahisələrin həllinə və onun tətbiqinə dair bütün müddəaları 10-cu maddənin bu müddəasının işığında nəzərdən keçirilməlidir. Bu müddəa Cəmiyyətin qurumlarının dövlətlərin iddialarını və fəaliyyətini dəyərləndirərkən və sülhə təhdidin qarşısını almaq üsullarını təyin edərkən rəhbər tutmalı olduğu meyarları müəyyənləşdirir.

Bu bir həqiqətdir ki, Nizamnaməni hazırlayanlar Cəmiyyəti 1919-cu ilin status-kvosu ilə tamamilə eyni olmaq rüsvayçılığından azad etməyə çalışırdılar. Bu məqsədlə onlar dinc dəyişiklik üçün Nizamnaməyə 19-cu maddəni daxil etdilər. Biz artıq əvvəldən yalnız kağız üzərində qalmış həmin müddəaya xas olan zəiflikdən bəhs etmişik. Lakin ona xas olan çatışmazlıqlardan başqa, 19-cu maddə əgər Nizamnamənin strukturu daxilində kimsəsiz şəkildə təcrid edilmiş formasında və 10-cu maddənin bir tərəfdən 1919-cu ilin sülh müqavilələri, digər tərəfdən isə Nizamnamənin 11-16-cı maddələrin sülhü mühafizə və hüququ tətbiqetməyə dair

müddəaları ilə üzvi bağlılığı ilə müqayisədə nəzərdən keçirilərsə, əhəmiyyətini itirir. Bu halda 19-cu maddə təkzibedilməz dəyişiklik faktının şifahi qəbulundan bir qədər çox idi. Cəmiyyətin fundamental hüququ 1919-cu ilin sülh müqavilələri ilə üst-üstə düşən mənşəyi kimi onun fəaliyyətdə olan beynəlxalq hökumət təşkilatı olaraq status-kvonun müdafiəçisi kimi mühakimə yürütməsi və hərəkət etməsini qaçılmaz etdi.

1919-cu ilin status-kvosunun bünövrəsində iki prinsip dururdu: Almaniyanın müharibə aparmaq iqtidarından həmişəlik məhrum olması və xalqın öz müqəddəratını təyinetmə prinsipi. Lakin elə başlanğıcda Cəmiyyətin siyasəti üçün əsas məsuliyyəti daşıyan iki dövlət: Böyük Britaniya və Fransa bu iki prinsipi kəskin şəkildə fərqli formada şərh etdi və Cəmiyyətin siyasətinə bu fərqli şərhlərə uyğun forma verməyə çalışdı. Fransa üçün Almaniyanın müharibə aparmaq iqtidarından həmişəlik məhrum olması Fransanın Avropa qitəsində həmişəlik üstünlüyü ilə sinonim idi. Böyük Britaniya üçün isə Almaniyanın müharibə aparmaq iqtidarından həmişəlik məhrum olması Avropa qitəsində qüvvələr tarazlığının ən azından görüntüsünün yenidən mövcud olması üçün Almaniyanın idarə olunan hüdudlar daxilində böyük bir dövlət kimi geri dönüşü ilə bir araya sığmırdı.

Fransa Millətlər Cəmiyyətinə, əsasən, 1919-cu il status-kvosunu müdafiə etmək üçün gücünü Fransanın hərbi qüdrətinə qatacaq kollektiv şerif forması kimi baxırdı. Böyük Britaniya isə Millətlər Cəmiyyətini, əsasən, dünyanın dövlət adamlarının ortaq problemləri müzakirə etmək və kompromis yolu ilə razılıq əldə etmək üçün görüşəcəkləri hesablama palatası forması kimi nəzərdə tuturdu. Nəhayət, Fransa xalqın öz müqəddəratını təyinetmə prinsipindən Şərqi Avropadakı müttəfiqlərini Almaniyaya qarşı gücləndirmək üçün siyasi silah kimi istifadə edirdi. Böyük Britaniya isə bunda ən azından Avropada universal şəkildə tətbiq oluna bilən bir prinsip görürdü və ondan Almaniyanı Fransanın müttəfiqləri hesabına gücləndirmək üçün istifadə etmək olardı.

Ədalət meyarları və siyasi prinsiplərin belə fərqli şərhlərin kökündə yenə də beynəlxalq siyasətin əsas nümunəsi ilə qarşılaşırıq. Fransa bütün siyasətini Millətlər Cəmiyyəti adlanan beynəlxalq hökumətin aparıcı üzvü kimi 1919-cu il status-kvosunu qoruyub saxlamaqla bağlı mühüm istəyinə yönəltdi. Bu status-kvo Fransanın Avropa qitəsində ağalığı ilə eyni idi. Böyük Britaniya isə düşünürdü ki, XIX əsr ərzində Avropadakı münasibətlər üzərində sahib olduğu təsir gücünü yenidən qaytara bilər. Bu məqsədlə o həmin dövrdə mövcud olmuş güc konfiqurasiyasını – Avropa qitəsində "tarazlayıcısı" Böyük Britaniyanın olduğu qüvvələr tarazlığını bərpa etməyə cəhd etdi. Odur ki onun Millətlər Cəmiyyəti adlanan beynəlxalq hökumətin digər bir aparıcı üzvü kimi bütün siyasəti Böyük Britaniyanın öz iradəsi ilə müəyyən edə biləcəyini düşündüyü idarə olunan hüdudlar daxilində

1919-cu il status-kvosunun kökünü qazımağa yönəldi. Britaniya xarici siyasətinin bu məqsədinə yalnız Fransanın zəiflədilməsi ilə nail olmaq olardı.

Lakin Britaniya və Fransanın konsepsiyalarının və siyasətlərinin arasındakı bu ziddiyyət Böyük Britaniya və Rusiya arasındakı ziddiyyət "Müqəddəs ittifaq"ı dağıtdığı kimi Millətlər Cəmiyyətini dağıtmadı. O daha çox Cəmiyyətin siyasi fəaliyyətinin yavaş-yavaş iflic olmasına və onun beynəlxalq nizama və sülhə təhdidlərə qarşı tədbirlər görmək imkanını itirməsinə gətirib çıxardı. Bu, Britaniyanın konsepsiyasının Fransanın konsepsiyası üzərində qələbəsi ilə bitdi. Hadisələrin belə inkişafının əsas səbəbi Böyük Britaniya və Fransa arasında qüvvələrin bölgüsü idi.

20-ci illərin ortalarında Fransanın üstünlüyünün çərçivəsi Almaniyanın qüdrətinin artmasına mütənasib şəkildə əvvəlcə yavaş-yavaş və hiss edilməyən formada, daha sonra isə Hitlerin hakimiyyətə gəlməsi ilə daim artan sürətlə daralmağa başladı. 1919-cu ildə Fransa Reyn çayının sol sahilinin Almaniyadan ayrılmasına və Böyük Britaniya və ABŞ ilə ittifaq müqavilələri bağlamağa cəhd etdi. Lakin Fransa bunların heç birinə nail olmadı. O, hərbi qüdrətinə yalnız iki əlavə edə bildi və bu, Almaniyanın gücünün imkanları ilə müqayisədə ona xas olan zəifliyi güclə ört-basdır etdi. Bir əlavə Polşa, Çexoslovakiya və Rumıniya ilə ittifaqlar və Yuqoslaviya ilə dostluq müqaviləsi idi. Lakin bu müttəfiqlər, ən yaxşı halda, orta ölçülü dövlətlər idi. Onların hamısı olmasa da, bəziləri hərbi baxımdan həqiqətdə olduğundan artıq qiymətləndirilmişdi və razılaşdırılmış birgə fəaliyyət üçün onlara hər zaman bel bağlamaq olmazdı.

Digər əlavə isə Fransa-Almaniya sərhədini Böyük Britaniya və İtaliyanın birgə təminatı altına verən 1925-ci il Lokarno müqavilələri idi. Lakin Fransa Almaniya-Polşa sərhədi üçün həmin təminatı əldə edə bilmədi və heç Millətlər Cəmiyyətinin Nizamnaməsi ilə açıq qalmış müəyyən boşluqları dolduracaq avtomatik kollektiv təhlükəsizlik sisteminə Britaniyanın dəstəyinə də nail ola bilmədi.[1]

Yaxın gələcəkdə hegemon dövlətin mövcud olduğu belə şərait, uzun müddətliyinə isə əlacı olmayan zəifliyi səbəbindən Fransa 20-ci illərin ortalarında Millətlər Cəmiyyəti daxilində öz siyasətində əvvəlcə tərəddüdlü şəkildə, 30-cu ildə isə başqa seçimi olmadığı üçün Britaniyanın nümunəsini müşayiət etməyə başladı.[2] Çünki o zamana qədər özünün qərarsızlığı və indi isə aşkar zəifliyi

[1] Bax: səh. 575-577.

[2] Bu tendensiya yalnız 1934-cü ildə Fransa xarici işlər naziri Bortou Sovet İttifaqı ilə onun varislərinin heç birinin gerçəkləşdirməyə cəsarət etmədiyi hərbi ittifaq üçün zəmin hazırladığı zaman qısa müddətliyinə dayandı. Həmin dövrdə Lavalın özü məramına görə qatı antibritaniyalı və "Ox dövlətləri" ilə anlaşma tərəfdarı olduğu halda, onun xarici siyasəti Böyük Britaniyanın 1919-cu il status-kvosunun kökünü qazmaq siyasəti ilə eyni idi.

səbəbindən Fransa artıq Nizamnamənin Millətlər Cəmiyyətinin beynəlxalq nizamın mühafizəsi və müharibənin qarşısının alınması üçün beynəlxalq hökumət rolunu həyata keçirməsini təmin edəcək həmin müddəalarını müstəqil şəkildə yerinə yetirməyə cəhd edə bilmirdi. Fransa özü Cəmiyyəti həmin rolu oynamağa məcbur etmək gücünə malik deyildi. Böyük Britaniyanın isə Cəmiyyətin belə bir rol oynamasında marağı yox idi. Çünki belə bir rolun oynanılması Fransanın Avropa qitəsindəki təkzibedilməz üstünlüyü mənasını vermiş olardı, Böyük Britaniya isə həmin üstünlüyə son qoymağı qət etmişdi. Beləliklə, Britaniya konsepsiyası və siyasəti Millətlər Cəmiyyətinin hökumət kimi fəaliyyətlərinə öz möhrünü qoydu.

Millətlər Cəmiyyətinin 3 zəifliyi

Bu o demək deyil ki, Millətlər Cəmiyyəti mühüm hökumət funksiyaları yerinə yetirmədi. Millətlər Cəmiyyəti iki ərazidə idarəetmə həyata keçirirdi: Saar hövzəsində və Dantsiq şəhərində. Nizamnamənin 22-ci maddəsinin mətninə uyğun olaraq, o, mandatı altında olan ərazilərdə real idarəetmə əvəzinə dolayı idarəetmə həyata keçirirdi.[1] Lakin məsələ beynəlxalq nizamın mühafizəsi və sülhün qorunub saxlanılması və bərpası olduqda o yalnız nadir hallarda ya üzvləri arasında olan böyük dövlətlərin maraqlarına xələl gəlmədikdə, ya da onlar arasında ən təsirli olanların ümumi maraqları tələb etdikdə idarəetmə həyata keçirirdi.

1920-ci ildə Polşa Litvanın keçmiş paytaxtı Vilnanı ələ keçirəndə Millətlər Cəmiyyəti beynəlxalq hökumət kimi hərəkət etmədi; çünki beynəlxalq hüququn

[1] Müqayisə et: 12-ci maddənin aşağıdakı müddəaları: "Keçən müharibənin nəticəsi olaraq, əvvəllər onları hakimlik etmiş dövlətlərin suverenliyi altından çıxmış və müasir dünyanın güc tələb edən şərtləri altında hələ də özlərini müdafiə edə bilməyən xalqlar tərəfindən məskunlaşmış müstəmləkə və ərazilərə elə bir prinsip tətbiq olunmalıdır ki, belə xalqların rifahı və inkişafı ona sivilizasiyanın müqəddəs inamını yaradır və bu inamın həyata keçməsi üçün təhlükəsizlik tədbirləri bu Nizamnamədə əks edilməlidir.

Bu prinsipə praktiki əhəmiyyət verməyin ən yaxşı üsulu belə xalqlara hamiliyin inkişaf etmiş dövlətlərə həvalə olunmasıdır; bu dövlətlər sahib olduqları resurslar, təcrübələri və coğrafi mövqeləri səbəbindən bu məsuliyyəti öz üzərilərinə götürə bilər və bunu qəbul etmək onların iradəsindən asılıdır; həmçinin bu hamilik onlar tərəfindən Cəmiyyətdən bunun üçün mandat almış dövlət kimi həyata keçirilə bilər...

Hər bir mandat verilmə halında mandat almış dövlət himayəsinə verilmiş ərazi haqqında Şuraya illik hesabat verəcək.

Mandat almış dövlət tərəfindən həyata keçirilməli olan hakimiyyət, nəzarət, yaxud inzibatçılıq dərəcəsi əvvəllər Cəmiyyətin üzvləri tərəfindən razılaşdırılmayıbsa, hər bir hal üçün Şura tərəfindən açıq şəkildə müəyyən olunacaq.

Mandat almış dövlətlərin illik hesabatlarını qəbul etmək və yoxlamaq və mandatlara riayət edilməsinə dair bütün məsələlərdə Şuraya məsləhət vermək üçün daimi komissiya təsis olunacaq".

həmin pozuntusu Fransanın ən güclü müttəfiqi tərəfindən həyata keçirilmişdi və Sovet İttifaqı Cəmiyyətin müdaxiləsinə qarşı çıxmışdı. Lakin 1925-ci ildə Bolqarıstan və Yunanıstan arasında başlanan müharibə Cəmiyyətin Şurasının prezidenti tərəfindən asanlıqla dayandırıldı; o, tərəflərə teleqram göndərərək ədavəti dərhal dayandırmağı tələb etmişdi. Bu məsələdə birlikdə hərəkət edən və öz nüfuzlarından xüsusilə Yunanıstanı hücum əməliyyatından çəkindirmək üçün istifadə edən Fransa və Böyük Britaniya ona fəal dəstək verdi.

1923-cü ildə İtaliya yunan adası olan Korfunu işğal edəndə Millətlər Cəmiyyəti tədbir görməkdən imtina etdi. Yaponiya 1931-ci ildə Mancuriyanı və 1937-ci ildə Çinin mülkiyyətini işğal edəndən sonra o hətta təxminən məcburiyyət xarakterli bir addım belə atmadı. Cəmiyyət Boliviya və Paraqvay arasında 1932-1935-ci illərdə baş vermiş Cako müharibəsinin qarşısını almaq və onu dayandırmaq üçün heç nə etmədi. 1935-ci ildən etibarən cəmiyyət Dantsiq ərazisində öz hakimiyyətini qoruyub saxlamaq üçün səmərəli olan heç nə etmədi və Versal müqaviləsinin Almaniya tərəfindən ardıcıl şəkildə pozulmasına dair heç bir tədbir görmədi. Cəmiyyətin 1935-1936-cı illərdə İtaliyanın Efiopiyaya hücumuna münasibətdə gördüyü tədbirlər, görmüş olduğumuz kimi[1], səmərəli olmayacağı hesablanmış olsaydı, fərqli ola bilməzdi. 1936-1939-cu illərdə Cəmiyyət İspaniya vətəndaş müharibəsinin beynəlxalq nəticələrinə nəzarət etmək üçün heç nə etmədi. Lakin 1939-cu ilin dekabrında Cəmiyyət Sovet İttifaqını Finlandiyaya qarşı hücumu səbəbindən öz sıralarından çıxartdı. Bu, Cəmiyyətin sonuncu və – İtaliyaya qarşı sanksiyaları nəzərə almasaq – ən çox kəskin olan siyasi tədbiri oldu.

Millətlər Cəmiyyəti heç bir böyük müharibənin qarşısını almayıb və o, beynəlxalq nizamın mühafizəsində səmərəsiz olub. Bu uğursuzluğun Britaniya konsepsiyasının Fransa konsepsiyası üzərində üstünlüyündən başqa, üç səbəbi var: konstitusional, struktur və siyasi səbəblər.

Konstitusional zəiflik

Millətlər Cəmiyyətinin Nizamnaməsi mövcud müharibəni qanundankənar elan etmədi. Cəmiyyətin üzvlərinə müəyyən şərtlər altında müharibə etmək icazəsi verilmirdi. Eyni zamanda həmin şərtlər olmadıqda onlara müharibə etmək icazəsi verilirdi. Beləliklə, Nizamnamənin preambulası "müharibəyə əl atmamaq öhdəliyinin qəbulu"[2]qeyd-şərtini qoydu. 12-ci maddə belə bir şərt qoydu ki, üzvlər "arbitrlərin qərarından sonrakı üç ayda müharibəyə əl atmamalı" idilər. 31-cü maddənin 4-cü

[1] Bax: səh. 531-532.
[2] "Öhdəliyin qəbulu" ifadəsinin "öhdəlik" ilə tutuşdurulmasında. Fransız dilində olan mətn (*"certaines obligations"*) bu baxımdan daha ifadəlidir.

paraqrafına əsasən üzvlər razılaşdırdılar ki, münaqişənin məhkəmə yolu ilə həll edilməsi ilə "razılaşan Cəmiyyət üzvünə qarşı müharibəyə əl atmayacaqlar". Nəhayət, 15-ci maddənin 6-cı bəndinə uyğun olaraq, "əgər Şuranın mübahisənin bir və ya daha artıq tərəfinin nümayəndələrindən qeyri üzvləri onun məruzəsinə dair yekdil razılığa gəlirlərsə, Cəmiyyətin üzvləri razılaşırlar ki, məruzənin tövsiyələri ilə razılaşan hər hansı mübahisə tərəfi ilə müharibə etməyəcəklər".

Yalnız növbəti iki müddəa müharibəyə əl atmağa qəti qadağa qoyur. Jan Rey belə qeyd edirdi: "Biz əminik ki, Nizamnamənin müəlliflərinin bu qorxaqlığı ciddi nəticələr törədir və onların qurmağa çalışdığı yeni sistemi təhlükə altına qoyur. Faktiki olaraq bunun əksinə olan aydın bir fikir səsləndirilmədiyindən müharibənin beynəlxalq münaqişələrin bir həll üsulu və həm də normal bir həll üsulu olduğu sakitcə qəbul olunur. Bu öhdəliklər hüquqi məsələ olaraq yalnız istisnalar kimi təqdim olunur; nəzərdə tutulan qayda isə müharibəyə əl atmaqdır".[1] Hətta əgər üzvlər Nizamnamənin müddəalarına sadiq qalmış olsaydılar da belə, onlar Cəmiyyətin fundamental hüququnda bəzi müharibələrin qarşısının alınması, digərlərinin isə hüquqiləşdirilməsi üçün alətlər tapmış olardılar.

Struktur zəifliyi

Bununla belə, konstitusion zəiflik Cəmiyyətin real fəaliyyətlərinə xələl gətirmədi. Çünki Cəmiyyət özü konstitusiyasına sadiq qalmadı. Digər tərəfdən Cəmiyyətin strukturunun zəifliyi onun yurisdiksiyası altında baş verən müharibələrin qarşısının alınmasındakı uğursuzluğuna birbaşa təsir etdi. Həmin zəiflik Cəmiyyətin öz daxilində qüvvələrin bölgüsü ilə ümumi şəkildə dünyada qüvvələrin bölgüsü arasındakı ziddiyyətdən ibarət idi.

Beynəlxalq siyasətin əsas amilləri artıq, əsasən, Avropa ilə bağlı olmadığı bir zamanda həmin dövrdə Cəmiyyətin strukturu, əsasən, Avropa ilə bağlı idi. Növbəli şəkildə ona ağalıq edən hər iki böyük dövlət: Fransa və Böyük Britaniya Avropa dövlətləri idi. Cəmiyyətin üzvü olan yeganə qeyri-Avropa dövləti Yaponiya idi. 20-ci illərdə artıq potensial olaraq dünyanın iki ən güclü dövlətindən biri – ABŞ heç vaxt Cəmiyyətin üzvü olmadı, digəri – Sovet İttifaqı isə yalnız 1934-1939-cu illərdə Cəmiyyətin süqutu zamanı onun üzvü oldu.

Əlbəttə, bu bir həqiqət idi ki, ilkin 21 üzvdən yalnız 10-u və sonradan ona qoşulmuş 13 üzvdən yalnız 7-si Avropa dövləti idi. Lakin burada da rəqəmlər hər şey demək deyil. Əsas məqsədi beynəlxalq nizamın və sülhün mühafizəsi olan bir beynəlxalq təşkilatın dünyanın bütün dövlətlərinin ona mənsub olması

[1] *Commentaire du pacte de la Sociétédes Nations* (Paris: Sirey, 1930), səh. 73-74.

mənasında universal olmağa ehtiyacı yoxdur. Lakin o, dünyada sülhü təhlükə altına qoya biləcəyi ən çox ehtimal olunan bütün güclü dövlətlərin onun yurisdiksiyası altında olması mənasında universal olmalıdır.

Ona görə də Nizamnamənin 17-ci maddəsi üzvlükdən asılı olmayaraq, Cəmiyyətin yurisdiksiyasını universal etməyə cəhd etdi. O, Cəmiyyətə biri, yaxud da hər ikisi Cəmiyyətin üzvü olmayan iki dövlət arasında mübahisənin baş verdiyi halda üzv olmayan dövlətləri "belə mübahisələrin Şuranın ədalətli hesab edə biləcəyi şərtlərə uyğun nəticələnməsi üçün Cəmiyyətdə üzvlük öhdəliklərini qəbul etmək"ə dəvət etmək səlahiyyəti verdi. "Əgər buna dəvət olunmuş dövlət üzvlük öhdəliklərini qəbul etməkdən imtina edərsə və Cəmiyyətin üzvünə qarşı müharibəyə əl atarsa", belə dövlətə qarşı 16-cı maddənin sanksiyaları tətbiq oluna bilər. "Əgər mübahisənin hər iki tərəfi ...üzvlük öhdəliklərini qəbul etməkdən imtina edərsə ...Şura belə tədbirlər görə və düşmənçiliklərin qarşısını alacaq və mübahisənin həlli ilə nəticələnəcək tövsiyələr verə bilər".

17-ci maddənin bu sonuncu bəndi Millətlər Cəmiyyətini sülhün qorunub saxlanılması məqsədi ilə dünya hökumətinə çevirməyə cəhd etdi. Belə bir hökumətin fəaliyyətinin həyata keçirilə bilməsi yenə də Cəmiyyətin həmrəy şəkildə fəaliyyət göstərən üzvləri və hökumətin funksiyalarının tətbiq edilməli olduğu dövlətlər arasında qüvvələrin bölgüsündən asılı olmalıdır. Cəmiyyət üçün iradəsini iki kiçik və orta dövlətin üzərinə tətbiq etməkdə heç bir çətinlik olmazdı. Lakin fərz edək ki, mübahisə 1919-1934-cü illər arasında ABŞ və Sovet İttifaqının heç biri Millətlər Cəmiyyətinin üzvü olmadığı dövrdə Cəmiyyətin bir üzvü ilə ABŞ və ya Sovet İttifaqı arasında, yaxud həmin dövlət ilə onların hər ikisi arasında, yaxud da ABŞ və Sovet İttifaqının öz aralarında baş verib. Belə şərtlər altında Cəmiyyətin iradəsini ABŞ və ya Sovet İttifaqının, yaxud hər ikisinin üzərinə qoymağa edilən cəhd Cəmiyyətin üzvləri ilə dünyanın potensial olaraq iki ən güclü dövlətindən biri, yaxud hər ikisi arasında dünya müharibəsinə bərabər olardı və bu zaman Cəmiyyətin üzvü olmayan dövlətlərin bir qismi ya sonunculara qoşular, ya da bitərəf qalardı. Sülhü universal miqyasda mühafizə etməyə edilən cəhd universal miqyasda müharibəyə gətirib çıxarmış olardı.[1] Beləliklə, bəzi böyük dövlətlərin üzvlüyü və digər böyük dövlətlərin üzv olmaması Cəmiyyəti dünya miqyasında sülhün mühafizəsində gücsüzləşdirdi.

Böyük dövlətlərin Cəmiyyətə üzvlüyündə universallığın olmaması həm də iki dünya müharibəsi arasındakı dövrdə Britaniya və Fransanın siyasətinin uğursuzluğunun fundamental səbəbinin göstəricisidir. Hər iki ölkənin siyasəti anaxronist idi.

[1] Oxucu yada sala bilər ki, bu vəziyyət kollektiv təhlükəsizliyin ardıcıl tətbiqi nəticəsində yaranan vəziyyət ilə eynidir. Bax: səh. 528-530.

Fransanın siyasəti, ola bilsin ki, XIV Lüdoviqin dövründə müvəffəqiyyət qazana bilmişdi. O zaman qüvvələr tarazlığının əsas çəkiləri Mərkəzi və Qərbi Avropada yerləşirdi və Fransanın 1919-cu ildə qazandığı üstünlük ona qitədə daimi hegemonluğunu qurmağa real imkan vermiş olardı. Lakin Rusiya qüvvələr tarazlığında əsas amillərindən birinə çevrildikdən sonra Napoleon öyrənmiş oldu ki, Şərqi Avropanın və Asiyanın böyük hissəsinin ehtiyatları ələ keçirilməmiş, yaxud düşmənlərin əlində qalarsa, Avropa qitəsi üzərində hegemonluq çox kiçik əhəmiyyət kəsb edirdi. Bu dərs Birinci Dünya müharibəsindən əvvəlki iki onillikdə Fransanın xarici siyasətini Rusiya ilə yaxın əlaqələr üzərində quran parlaq fransız diplomatları tərəfindən diqqətə alındı. Onların varisləri iki dünya müharibəsi arasındakı dövrdə ümidlərini Şərqi və Cənub-Şərqi Avropanın balkanlaşmış ölkələri ilə ittifaqlar sisteminə bağlayırdılar ki, bu da Rusiya ilə "böyük ittifaq" üçün olduqca zəif bir əvəzedici idi. Onlar 1789-cu ildən sonrakı illərdə Fransa aristokratiyasının vəziyyətinə çox oxşar bir şəkildə – inqilab xofu ilə içində yeni beynəlxalq konfiqurasiyanın məntiqinə təslim olmaq əvəzinə milli sui-qəsd törətməyə hazır idilər.

Həmin dövrdə Britaniyanın xarici siyasəti Fransanın xarici siyasəti kimi anaxronist idi. Böyük Britaniya, əslində, Avropa qitəsinə münasibətdə Fransa Almaniyaya münasibətdə olduğu kimi zəif idi. Rusiyanın Fransaya münasibətdə oynadığı rol ABŞ-ın və ondan xeyli az dərəcədə Yaponiyanın Böyük Britaniyaya münasibətdə oynadığı rol ilə oxşar idi. Hələ Dizraeli dövründə uğurlu olmuş siyasət Stenli Bolduinin dövründə uğursuzluğa düçar oldu. XIX əsr boyunca Böyük Britaniyanın arxası sanki möhkəm idi; Britaniya donanması heç bir problemsiz dənizlərə nəzarət edirdi. 30-cu illərdə digər böyük donanmalar meydana çıxdı və onlardan biri potensial olaraq dünyanın ən güclü dövlətlərindən biri idi. Bundan əlavə, təyyarə Britaniya adalarını qitəyə əvvəllər olduğundan çox yaxınlaşdırdı. Bu şərtlər altında Britaniya siyasətinin yalnız iki alternativi var idi. O öz çəkisini Britaniyanın maraqlarının uzun vədədə ən çox təhlükəsiz ola biləcəyi Avropa qüvvələr tarazlığının tərəzisinin gözlərinə yerləşdirə bilərdi, yaxud da Amerika siyasətinin Avropadakı liderinə çevrilə bilərdi.[1] Britaniya siyasətinin artıq edə bilmədiyi "parlaq təcrid" siyasətini davam etdirmək idi. O da bunu etdi.

Fransa və Böyük Britaniyanın Sovet İttifaqı və ABŞ tərəfindən həqiqi olaraq yürüdülən siyasətlər qarşısında hər hansı real seçiminin olub-olmadığı hər zaman mübahisəli sual olaraq qalacaq. Lakin bu, şübhəsizdir ki, aparıcı üzvləri ya seçim səbəbindən, yaxud da zərurətdən dünyada qüvvələrin real bölgüsü ilə razılaşmayan beynəlxalq bir hökumətin heç vaxt şansı yoxdur.

[1] Qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsinin sona çatmasından etibarən Britaniya eyni zamanda hər iki siyasəti yürütmüşdür.

Siyasi zəiflik

Millətlər Cəmiyyətinin böyük ölçülü müharibə təhlükəsi qarşısında bir qurum olaraq fəaliyyət göstərə biləcəyini ehtimal etmək də olardı. Reallıqda isə bu ehtimal heç vaxt gerçəkləşmədi. Böyük dövlətlərin güddüyü fərqli milli maraqlar Millətlər Cəmiyyəti tərəfindən status-kvo baxımından təyin olunan ədalət prinsiplərini üstələyirdi. Birinci Dünya müharibəsindən dərhal sonra 1921-ci ildə Cəmiyyətin Şurasının 4 daimi üzvü, məsələn, Finlandiya və İsveçi cəlb etməklə Aland adalarının möhkəmləndirilməsi və Almaniya və Polşa arasında çəkişmə obyekti olan Yuxarı Sileziyanın bölünməsi kimi nisbətən mühüm siyasi məsələlərə münasibətdə hələ də birlikdə hərəkət edə bilirdi. Belə ümidverici başlanğıcdan sonra Cəmiyyətin böyük əhəmiyyətli məsələlərdə kollektiv şəkildə fəaliyyət göstərmək imkanını əlindən alan yalnız Fransa və Almaniya arasındakı münaqişə deyildi, həmçinin böyük dövlətlərin təcrid edilmiş və adətən, antaqonist siyasəti idi.

Almaniya 1925-ci ildə Cəmiyyətə qoşularkən, əsasən, xalqın öz müqəddəratını təyinetmə prinsipindən ərazi status-kvosunun bünövrəsinə çat salan dinamit kimi istifadə edərək, Versal müqaviləsi ilə yaranan status-kvonun kökünü qazıyan siyasət yürütdü. Bu siyasət Fransa və onun şərq müttəfiqlərinin siyasəti ilə ziddiyyət təşkil edirdi və əvvəlcə gizlin, sonra isə açıq şəkildə onların Avropa qitəsindəki üstünlüyünə son qoymaq məqsədi daşıyırdı. Xalqın öz müqəddəratını təyinetmə prinsipinə əlavə olaraq, Almaniya Qərb dövlətlərinin içinə düşdüyü bolşevik inqilabı və Rusiya imperializmi xofundan öz mövqeyini gücləndirən silah kimi istifadə etdi. O, növbəli şəkildə özünü ya bolşevizmə qarşı istehkam kimi təqdim edərək, ya da Sovet İttifaqı ilə müttəfiq olacağı ilə təhdid edərək Qərb dövlətlərindən güzəştlər qopara, Polşanı Fransadan təcrid edə və Cəmiyyəti iflic edə bildi.

İtaliya isə öz tərəfindən 20-ci illərdə təxminən Böyük Britaniyanın yürütdüyü siyasət ilə oxşar siyasət yürüdürdü. İtaliya Almaniyanın müəyyən hüdudlar daxilində geriyə dönüşünü Fransanın və onun şərq müttəfiqlərinin, xüsusilə Yuqoslaviyanın zəiflədilməsi üsulu kimi xoş qarşıladı. 30-cu illərdə Cəmiyyətin zəifliyi aşkar olanda Almaniya Sovet İttifaqından istifadə etdiyi kimi, İtaliya da Almaniyadan növbəli şəkildə ya ortaq təhlükə, ya da sakit tərəfdaş kimi istifadə etdi və Böyük Britaniya və Fransaya qarşı Aralıq dənizinə ağalıq ilə bağlı açıq tələbi irəli sürdü.

Sovet Ittifaqı Cəmiyyət daxilində, eləcə də ondan kənarda təcrid olunmuşdu. Bir dövlət kimi potensial gücü və dünya inqilabına hamiliyi onu Qərb dövlətləri üçün ikiqat təhlükəyə çevirmişdi. Bu, 1934-1939-cu illərdə, İtaliyaya qarşı sanksiyalar istisna olmaqla Fransa, Böyük Britaniya və Sovet İttifaqının hər hansı bir böhran vəziyyətində ortaq fəaliyyət göstərmək üçün bir araya gəlməsinin qeyri-mümkünlüyünü təsdiqlədi. Həmin dövrdə baş vermiş bütün böhran hallarında Qərb dövlətləri və Sovet İttifaqı əks düşərgələrdə yer aldı. Hətta 1939-cu ildə Almaniya həm Sovet İttifaqını, həm də Qərb dövlətlərini müharibə ilə

hədələyəndə onlar ortaq qabaqlayıcı tədbirlər üçün razılığa gələ bilmədilər. Bunun əvəzinə hər bir tərəf təhlükəli ildırım zərbəsinin istiqamətini digər tərəfə dəyişməyə çalışırdı. Onları iradələrinin əksinə olaraq müttəfiq edən yalnız Hitlerin eyni vaxtda onların hər ikisinə qarşı müharibə başlatmaq kimi ağılsızlığı oldu.

Nəhayət, Yaponiya 1922-ci il müqavilələrinin onu düşürdüyü alçaq mövqedən əzab çəkə-çəkə Uzaq Şərqdə öz hegemonluğunu qura biləcəyi ana hazırlaşırdı. Yaponiya bunu yalnız Böyük Britaniya və ABŞ-ı Uzaq Şərqdəki mövqelərindən sıxışdırıb çıxartmaqla və Böyük Britaniya və ABŞ-ın ənənəvi siyasət forması kimi bütün dövlətlər üçün açıq saxlanmasını tələb etdikləri "qapı"nı Çin üçün "bağlamaqla" edə bilərdi. Beləliklə, Yaponiya 1931-ci ildə Mancuriyanı işğal edərək Uzaq Şərqdə öz imperiyasını qurmağa doğru ilk addımı atanda Millətlər Cəmiyyətinin aparıcı üzvləri olan Fransa və Böyük Britaniya ilə münaqişədən qaçа bilmədi. Yaponiyanın öz ağalığını quran zaman Fransa və Böyük Britaniyanı Millətlər Cəmiyyətində üstün mövqeyə qaldıran həmin xalqın öz müqəddəratını təyinetmə prinsipindən istifadə etməsi istehza doğurmaya bilmir. İndi bu prinsipdən Uzaq Şərqin rəngli irqlərini Cəmiyyətin liderlərinin müstəmləkəçiliyinə qarşı qaldırmaq üçün istifadə olunurdu. Lakin nə Yaponiya Cəmiyyətin üzvü olduqda, nə də o, 1932-ci ildə Cəmiyyətdən çıxdıqdan sonra Böyük Britaniya Yaponiyanın Çinə qarşı hücumunu dayandırmaq üçün Cəmiyyəti effektiv kollektiv fəaliyyətə apara biləcək gücdə deyildi.

Millətlər Cəmiyyətinin müharibənin qarşısını almaq bacarığı onun üzvlərinin və xüsusilə böyük dövlətlərin birləşməsinə söykənirdi. Yekdillik prinsipi vasitəsilə mübahisənin tərəfləri istisna olmaqla Cəmiyyətin istənilən üzvü tədbir görmək təklifinə qarşı səs verməklə qərarı veto edə bilirdi. Cəmiyyətin aparıcı üzvləri tərəfindən yürüdülən antaqonist siyasətləri nəzərə alsaq, veto ehtimalının özü həlledici kollektiv fəaliyyət cəhdlərinə belə maneə törədir. Yalnız hakim olan bir ədalət prinsipi belə bir fəaliyyəti mümkün etmiş ola bilərdi. Gördüyümüz kimi, belə ədalət prinsipləri status-kvonun Birinci Dünya müharibəsində qalib gəlmiş dövlətlərə qarşı kollektiv müdafiəsi və xalqın öz müqəddəratını təyin etməsi kimi mücərrəd formalarda mövcud idi.

Konkret tədbirlər tələb edən siyasi fəaliyyət ilə üz-üzə qaldıqda bu mücərrəd prinsiplər ayrı-ayrı dövlətlər tərəfindən yürüdülən təcrid olunmuş siyasətlər üçün ideoloji əsaslandırmaya çevrilirdi. Beləliklə, ortaq fəaliyyət üçün qiymətləndirmə və idarəetmənin ortaq meyarlarını müəyyən etməkdən uzaq olan bu mücərrəd prinsiplər, əslində, ayrı-ayrı dövlətlərin antaqonist siyasətlərini gücləndirməklə beynəlxalq anarxiyanı gücləndirdi. Belə olduqda Millətlər Cəmiyyətinin beynəlxalq nizamı və sülhü müdafiə etmək iqtidarında olmaması suveren dövlətlərin əxlaq normaları və siyasətlərinin Millətlər Cəmiyyəti adlanan beynəlxalq hökumətin əxlaq normaları və siyasi məqsədləri üzərində qoruyub saxlaya bildiyi hakimliyinin nəticəsi idi.

28. Beynəlxalq hökumət: Birləşmiş Millətlər Təşkilatı

Birləşmiş Millətlər Təşkilatının konstitusional funksiyalarını və real fəaliyyətini dərk etmək üçün onun Nizamnaməsinin konstitusional müddəaları ilə Birləşmiş Millətlər Təşkilatının qurumlarının gözlənilməyən siyasi şərtlərin təzyiqi altında Nizamnaməyə uyğun olaraq, reallıqda həyata keçirmiş olduğu vəzifələrin tərzi arasında kəskin fərqləndirmə aparmaq lazımdır. Birləşmiş Millətlər Təşkilatı adlandırdığımız hökumət də ABŞ hökuməti kimi yalnız konstitusiyanın müddəalarının siyasi təcrübənin reallıqları ilə qarşılaşdırılması vasitəsilə dərk edilə bilər. Konstitusion funksiya və real fəaliyyətin belə ayrıca analizi yalnız Birləşmiş Millətlər Təşkilatının qurumlarının həyata keçirdiyi xüsusi siyasi funksiyalarda deyil, həmçinin beynəlxalq bir təşkilat kimi Birləşmiş Millətlər Təşkilatının öz xarakterində əhəmiyyətli dəyişikliklər silsiləsini vurğulayır.

NİZAMNAMƏYƏ GÖRƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI

Superdövlətlərin hökuməti

Konstitusion baxımdan təşkilinə görə Birləşmiş Millətlər Təşkilatı Millətlər Cəmiyyətini xatırladır. Onun da 3 siyasi qurumu var: Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərindən təşkil olunan Baş Assambleya, təşkilatın siyasi icraçı orqanı olan Təhlükəsizlik Şurası və Katiblik. Lakin Baş Assambleya ilə Təhlükəsizlik Şurası arasında funksiyaların bölgüsü Millətlər Cəmiyyətinin Şurası və Assambleyası arasında funksiyaların bölgüsündən kəskin şəkildə fərqlənir. Böyük dövlətlərin hökumətinin qurulmasına artıq Millətlər Cəmiyyəti ilə aşkara çıxmış meyil Birləşmiş Millətlər Təşkilatında funksiyaların bölgüsündə özünü tam şəkildə göstərir. Bu meyil özünü Nizamnamənin 3 konstitusion mexanizmində büruzə verir: Baş Assambleyanın siyasi məsələlərə dair qərarlar verə bilməməsi, yekdillik tələbinin Təhlükəsizlik Şurasının daimi üzvləri ilə məhdudlaşması və mübahisə tərəflərinin özlərinə qarşı istənilən məcburiyyət tədbirini veto etmək hüququ.

Millətlər Cəmiyyətinin Assambleyası, gördüyümüz kimi, real beynəlxalq parlament idi və siyasi məsələlərə dair təklikdə, yaxud da Cəmiyyətin Şurası ilə rəqabətdə tədbirlər görə bilirdi. Nizamnamənin 10-14-cü maddələrinə görə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası yalnız siyasi məsələlərə dair ya əlaqədar tərəflərə, ya da Təhlükəsizlik Şurasına tövsiyələr vermək səlahiyyətinə malikdir. Beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına münasibətdə isə o, müzakirələr və tədqiqatlar apara və tövsiyələr verə bilər, lakin tədbir görə bilməz. Hətta həmin adi funksiyalar belə Nizamnamənin 12-ci maddəsi ilə məhdudlaşdırılır; belə ki, həmin maddə Baş Assambleyanın Təhlükəsizlik Şurasının gündəliyində olan məsələlərə dair tövsiyələr verməsinə imkan vermir. Beləliklə, Millətlər Cəmiyyətinin Assambleya və Şuranın eyni vaxtda qərar qəbul etməsi ilə bağlı fərqləndirici xüsusiyyəti qərar qəbul edən Təhlükəsizlik Şurası və tövsiyələr verən Baş Assambleyanın növbəli yurisdiksiyası ilə əvəz olunur. Təhlükəsizlik Şurası məsələ ilə əlaqədar olanda Baş Assambleyada hələ də müzakirələr aparıla bilər, lakin artıq hətta tövsiyələr belə edilə bilməz.

Bu mexanizm Təhlükəsizlik Şurasına siyasi əhəmiyyətli məsələlərdə Baş Assambleyanın funksiyalarına dolayı nəzarət imkanı verir. Təhlükəsizlik Şurası məsələni, sadəcə, gündəliyinə daxil etməklə Baş Assambleyanı məsələyə dair hətta kollektiv fikrini belə ifadə etmək hüququna malik olmayan müzakirə təşkilatına çevirir.

Baş Assambleyanın funksiyalarının bu şəkildə məhdudlaşdırılması Birləşmiş Millətlər Təşkilatına parçalanmış kimlik bəxş edir. Baş Assambleya Təhlükəsizlik Şurasına beynəlxalq bir məsələnin həllinə dair üçdə iki səs çoxluğu ilə qəbul edilmiş tövsiyə verə bilər; Təhlükəsizlik Şurasının həmin tövsiyəni nəzərə almamaq səlahiyyəti var. Əgər Baş Assambleya məhdud üzvlüklü məşvərətçi orqan olsaydı və dünyanın faktiki olaraq bütün dövlətlərinin nümayəndəli orqanı olmasaydı, Təhlükəsizlik Şurasının bu səlahiyyəti heç bir ciddi əhəmiyyət kəsb etməzdi. Lakin belə olduğu üçün Təhlükəsizlik Şurası və Baş Assambleya arasında funksiyaların bölgüsü konstitusion rüsvayçılığıdır. Birləşmiş Millətlər Təşkilatı bir məsələyə münasibətdə iki ağızdan – Baş Assambleyanın adından və Təhlükəsizlik Şurasının adından – danışa bilər və bu iki ağız arasında heç bir üzvi əlaqə yoxdur. Birləşmiş Millətlər Təşkilatının üzvlərinin üçdə ikisi, yaxud hamısı bir şey tövsiyə edə bilər və Təhlükəsizlik Şurasının 15 üzvündən 9-u tövsiyəni nəzərə almaya və başqa bir qərar qəbul edə bilər.

Bu konstitusion tənzimlənmənin qüsuru "Müqəddəs ittifaq"da, eləcə də Millətlər Cəmiyyətində müəyyən etdiyimiz kimi böyük dövlətlərin üstünlüyündə deyil. Qüsur daha çox Baş Assambleyanın zəifliyini nümayiş etdirmək imkanındadır. "Müqəddəs ittifaq" açıq-aşkar böyük dövlətlərin beynəlxalq hökuməti idi. Millətlər Cəmiyyəti böyük dövlətlərin hər biri yekdillik prinsipi vasitəsilə və

Nizamnamənin 15-ci maddəsinin 10-cu bəndi[1] istisna olmaqla beynəlxalq hökumətin hərəkət etməsinin qarşısını ala bilən bütün üzv dövlətlərin məsləhəti və razılığı ilə fəaliyyət göstərən beynəlxalq hökuməti idi. Birləşmiş Millətlər Təşkilatı böyük dövlətlərin konstitusion tənzimləmələrinə görə "Müqəddəs ittifaq"ı, iddiasına görə isə Millətlər Cəmiyyətini əks etdirən beynəlxalq hökumətidir. Birləşmiş Millətlər Təşkilatının konstitusion müddəalarını xarakterizə edən qüvvələrin real bölgüsü qabaqcadan nəzərdə tutulan iddia ilə konstitusion reallıq, Nizamnamənin müddəaları ilə doğulan meydana çıxan gözləntilər və avtokratik fəaliyyət arasındakı ziddiyyət idi.

Bu halda Birləşmiş Millətlər Təşkilatı adlandırdığımız beynəlxalq hökumət Təhlükəsizlik Şurası adlandırdığımız beynəlxalq hökumət ilə eynidir. Təhlükəsizlik Şurası özünü sanki dövrümüzün "Müqəddəs ittifaq"ı kimi göstərir. Beləliklə, Təhlükəsizlik Şurasının hökmranlığı bu şəkildə yaradılmış olduqdan sonra Nizamnamə Təhlükəsizlik Şurası daxilində böyük dövlətlərin hökmranlığını yaradır. Çünki hökumət funksiyasını yerinə yetirdiyi güman olunan, əslində, 5 daimi üzvdür. Qeyd etmişdik ki, yekdillik prinsipinin Təhlükəsizlik Şurasının bütün qərarlarına münasibətdə rəhbər tutulması qaydası ləğv edilmişdir və önəmli qərarların verilməsinə münasibətdə 5 daimi üzvün səsi də daxil olmaq şərtilə 9 üzvün lehinə səs verməsi tələbi ilə əvəz olunmuşdur. 5 daimi üzvün (Çin, Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ) bəzilərinin üstün olan təsirini nəzərə alsaq, onların yekdil razılığının Təhlükəsizlik Şurasının daha 4 üzvünün səsini də özü ilə gətirəcəyi gözlənilməndir.

Bu halda Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvlərinin qırılmaz birliyinə əsaslanır. Nizamnamənin strukturunda bu 5 üzv sanki dünya federasiyasının nüvəsi, "Müqəddəs ittifaq" daxilində "Müqəddəs ittifaq"dır. Yekdillik prinsipini onlarla məhdudlaşdırmaqla Nizamnamə onları Birləşmiş Millətlər Təşkilatı adlandırdığımız beynəlxalq hökumətə çevirir. Buradan belə nəticə çıxır ki, tək bir daimi üzv razılıq verməsə, Birləşmiş Millətlər Təşkilatı adlı heç bir beynəlxalq hökumət mövcud ola bilməz.

Hökumət fəaliyyətində böyük dövlət inhisarçılığı 27-ci maddənin 3-cü bəndində daha da möhkəmlənir; həmin bəndə görə, mübahisə tərəfinin yalnız mübahisələrin Nizamnamənin VI fəslinə uyğun olaraq dinc şəkildə nizamlanmasına münasibətdə səs verməsinə icazə verilmir. Başqa sözlə, böyük dövlətin vetosu VII fəslə uyğun tədbirlərin görülməsinə tətbiq edilir. Böyük dövlət mübahisənin tərəfi olduqda Təhlükəsizlik Şurası 27-ci maddənin 3-cü bəndinə uyğun olaraq, böyük dövlətin münasibətindən asılı olmayaraq qərar çıxara bilər. Əgər Təhlükəsizlik Şurası həmin qərarı tətbiq etməyə çalışarsa, böyük dövlətlərdən hər hansı birinin

[1] Mətn üçün bax: səh. 382.

etirazı – baxmayaraq ki, o, mübahisə tərəfidir – tədbirin həyata keçirilməsi üçün hüquqi maneə yaradar. Belə bir vəziyyətdə Təhlükəsizlik Şurasının qərarı kağız üzərində qalar.

Lakin, əslində, Birləşmiş Millətlər Təşkilatı adlandırdığımız beynəlxalq hökumət qarşıdakı analizlərin də göstərəcəyindən də artıq dərəcədə böyük dövlətlərin hökumətidir. Təhlükəsizlik Şurasının 5 daimi üzvündən yalnız ikisi: ABŞ və Sovet İttifaqı, həqiqətən, böyük dövlətlərdir. Böyük Britaniya və Fransa orta ölçülü dövlətlərdir; tək Çin isə potensial olaraq böyük dövlətdir. Dünya siyasətinin indiki şərtləri altında daimi üzvlər də daxil olmaqla Təhlükəsizlik Şurasının əksər üzvləri ehtiyac olduqda ABŞ, Çin və Sovet İttifaqının tutduğu mövqeyi dəstəkləməyə razı salına bilər. Bu halda hüquqi bər-bəzəyi çıxarılanda Birləşmiş Millətlər Təşkilatı adlandırdığımız beynəlxalq hökumət, əslində, birlikdə fəaliyyət göstərən ABŞ, Çin və Sovet İttifaqının işlətdiyi beynəlxalq hökumətdir. Ən yaxşı halda – əgər onlar birlikdə fəaliyyət göstərdikdə – onlar nizamı qorumaq və müharibənin qarşısını almaq məqsədilə bütün qalan dünyanı idarə edə bilərlər. Ən pis halda isə – onlar birlikdə fəaliyyət göstərə bilmədikdə – ümumiyyətlə, heç bir beynəlxalq hökumət mövcud olmayacaq.

İdeal vəziyyətdə Birləşmiş Millətlər Təşkilatı dünyanı ABŞ, Çin və Sovet İttifaqının birləşmiş gücü ilə idarə edən alətdir. Lakin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi Birləşmiş Millətlər Təşkilatının ABŞ, Çin və Sovet İttifaqı arasındakı münasibətlərdə nizamın bərqərar edilməsi, qorunub saxlanılması və onlar arasında müharibənin qarşısının alınması məqsədilə fəaliyyət göstərən beynəlxalq təşkilat olacağı ehtimalını nəzərdə tutmur. Veto mexanizmi ABŞ, Çin və Sovet İttifaqının öz iradələrinin əksinə beynəlxalq hökumətin hədəfinə çevirmək məqsədini istisna edir.

Ədalətin müəyyən edilməmiş prinsipləri

Birləşmiş Millətlər Təşkilatının qurumlarının mühakimə və fəaliyyətini idarə edən ədalət meyarlarına Nizamnamənin 3 yerində rast gəlinir: preambula, məqsəd və prinsiplərdən bəhs edən I fəsil və Nizamnamənin müxtəlif yerlərinə səpələnmiş müddəalar. Lakin "Müqəddəs ittifaq" və Millətlər Cəmiyyətinin əsas prinsiplərinin əksinə olaraq, Birləşmiş Millətlər Təşkilatının əsaslandığı ədalət prinsipləri iki daxili ziddiyyət forması ilə əhatə olunur: onlardan biri Birləşmiş Millətlər Təşkilatı tərəfindən görülən tədbirlərin formasına aiddir, digəri isə bu tədbirlərin həyata keçirilməsi məqsədləri ilə əlaqədardır.

Preambula "böyük və kiçikliyindən asılı olmayaraq, bütün dövlətlərin ...bərabər hüquqlarına ...inam"ı bir daha təqsiqləyir və 2-ci maddənin 1-ci bəndində

bəyan olunur ki, "Təşkilat bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır". Həmin prinsip 2-ci maddənin 7-ci bəndində əksini tapmış müddəa ilə möhkəmlənir; o, Nizamnamənin VII fəslində əksini tapmış məcburiyyət tədbirlərinə aid olan məsələlər istisna olmaqla "mahiyyəti etibarilə hər hansı dövlətin daxili yurisdiksiyası daxilində olan məsələlər"i Birləşmiş Millətlər Təşkilatının yurisdiksiyasından azad edir.[1] Lakin Birləşmiş Millətlər Təşkilatının ümumi strukturu Nizamnamənin əsas hissəsində müəyyən olunduğu kimi paradoksal olaraq üzvlərinin "suveren qeyri-bərabərliyi" adlandırıla biləcək amilə əsaslanır. Artıq belə bir faktı qeyd etmişik ki, əgər Birləşmiş Millətlər Təşkilatı Nizamnamədə müəyyən olunduğu kimi fəaliyyət göstərməli olsa, onun Təhlükəsizlik Şurasının üzvü olmayan üzvləri suverenliyini itirər və yalnız adına və formasına görə suveren olaraq qalar.[2] Beləliklə, Nizamnamə ilə elan olunan suveren qeyri-bərabərlik prinsipi ilkin müddəalarına görə Nizamnamənin özünün müəyyən etdiyi funksiyaların real bölgüsü ilə ziddiyyət təşkil edir.

Preambula və I fəsil 5 siyasi fəaliyyət məqsədi müəyyən edir: (1) beynəlxalq sülh və təhlükəsizliyin mühafizəsi, (2) kollektiv təhlükəsizlik, (3) "hər hansı dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı" güc tətbiqinin qadağan edilməsi və gücün istifadəsinin Nizamnamədə təyin edilmiş "ortaq maraq" üçün saxlanılması, (4) "ədalətin və müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmət"in mühafizəsi və (5) xalqların öz müqəddəratını təyin etməsi.

Bu beş məqsəddən ilk ikisi ümumidir və istifadə oluna bilən alət xarakterlidir. Onlar göstərir ki, Birləşmiş Millətlər Təşkilatı nə edirsə etsin, onu dinc üsullarla və kollektiv təhlükəsizlik prinsipinə uyğun etməlidir. Digər üç prinsip spesifik və konkretdir. Onlar isə Birləşmiş Millətlər Təşkilatının konkret vəziyyətlərdə nəyi edib, nəyi etməməli olduğunu göstərir. Müəyyən şərtlər altında o, güc tətbiq etməlidir, digərlərində isə etməməlidir; o, ədalətlə və beynəlxalq hüququn qaydalarına uyğun şəkildə və xalqın öz müqəddəratını təyinetmə prinsipi ilə hərəkət etməlidir.

Bu da əhəmiyyətli bir amildir ki, Nizamnamə ən çox ilk iki məqsədin (müqayisə et: xüsusilə VI və VII fəsillər) ətraflı işlənib-hazırlanması və yerinə yetirilməsinə dair aşkar müddəalar ehtiva edir, qalan üç məqsədə münasibətdə isə faktiki olaraq səssiz qalır. 11-ci maddənin 1-ci bəndi və 24-cü maddənin 2-ci bəndi Baş Assambleya və Təhlükəsizlik Şurasının müzakirələri və tədbirlərini müəyyənləşdirərkən onları ümumi ifadələrlə məqsədlərə və prinsiplərə

[1] Ölkədaxili yurisdiksiya ilə bağlı şərtin beynəlxalq öhdəliklər üzərində sahib olduğu dağıdıcı təsirlər haqqında əvvəldə deyilənlərə bax: səh. 367-369.
[2] Bax: səh. 405 və növbəti səhifələr

aid edir. Lakin ədalət, beynəlxalq hüquqa hörmət və xalqın öz müqəddəratını təyin etməsi kimi anlayışların konkret mənası nə aydındır, nə də hər yerdə və hər zaman eynidir. Mücərrəd olaraq əksər insanlar həmin ifadələrin təyini ilə razılaşa bilər. Bu mücərrəd ifadələrə konkret məna və insanların mühakiməsini və hərəkətlərini yönləndirmək imkanı verən konkret siyasi vəziyyətdir. Nizamnamənin əsas hissəsində heç yerdə real ədalət prinsipindən bəhs edilmir və ya ona istinad olunmur. Heç bu mücərrədliklərə dəqiq məzmun verəcək hər hansı digər mənbə də yoxdur.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI – SİYASİ REALLIQ

Baş Assambleyanın yüksəlişi və iflası

Birləşmiş Millətlər Təşkilatının konstitusion strukturu üç siyasi ehtimal üzərində quruldu. Birincisi, birlikdə hərəkət edən böyük dövlətlər mənbəyindən asılı olmayaraq, sülh və təhlükəsizliyə istənilən təhdid ilə mübarizə aparacaqdı. İkincisi, onların birləşmiş müdrikliyi və gücü müharibəyə əl atmadan bütün bu kimi təhdidlərin qarşısını almaq üçün kifayət edəcəkdi. Üçüncüsü, heç bir belə təhdid böyük dövlətlərin hər hansı birindən qaynaqlanmayacaqdı. Bu ehtimallar təcrübədə sınaqdan keçə bilməyib. Böyük dövlətlər mövzu onların fərqli olan maraqları olduqda birlikdə hərəkət edə bilməyib və bu o deməkdir ki, onlar yalnız nadir və müstəsna şərtlər altında birlikdə hərəkət edə bilib. Dünyada sülh və təhlükəsizliyə əsas təhdid elə böyük dövlətlərin özündən qaynaqlanır. Beləliklə, Nizamnamənin konstitusion strukturu müharibədən sonrakı dünyanın siyasi reallığını nəzərə almamışdı.

Konstitusion məramlar ilə siyasi reallıq arasındakı ziddiyyət Birləşmiş Millətlər Təşkilatını onu olmaq niyyətində olduğundan fərqli bir quruma çevirdi. Bu ikili arasındakı əlaqələrdə dinamik dəyişikliklər baxımından həmin çevrilmədə üç mərhələni fərqləndirmək olar. Birinci onillik, kobud dillə desək, Təhlükəsizlik Şurasının iflasının və Baş Assambleyanın yüksəlişinin şahidi olur. İkinci onillik, yenə kobud dillə desək, Baş Assambleya və Təhlükəsizlik Şurasının təmsilçi səlahiyyəti ilə fəaliyyət göstərən baş katibin hakimliyi ilə xarakterizə olunur. 1964-cü ildə sülhməramlı əməliyyatların maliyyələşdirilməsi ilə əlaqədar münaqişə nəticəsində yaranan konstitusiya böhranı Baş Assambleya və baş katibin gücündəki iflası üzə çıxardı və nəticədə Təhlükəsizlik Şurası konstitusion hakimiyyətini yenidən irəli sürməyə başladı.

Təhlükəsizlik Şurası və Baş Assambleyanın nisbi əhəmiyyətindəki bu dəyişikliklər iki qurumun fəaliyyətindəki kəmiyyət dəyişiklikləri ilə qrafik olaraq təsvir edilir. Məşğul olduğu siyasi məsələlərin sayı ilə mühakimə olunan Təhlükəsizlik Şurası Nizamnamənin konsepsiyasına uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının aparıcı siyasi orqanı kimi fəaliyyətə başladı. Lakin 1948-ci il iyulun 1-dən etibarən onun fəaliyyəti mütləq mənada dəyişkən olduğu halda, Baş Assambleyanın fəaliyyətindən müvafiq formada az əhəmiyyətli oldu.

ABŞ və Sovet İttifaqı arasında münaqişə və kommunist Çinin iştirak etməməsi Birləşmiş Millətlər Təşkilatının Nizamnamənin nəzərdə tutduğu kimi böyük dövlətlərin işlətdiyi beynəlxalq hökumətə çevrilməsinin qarşısını aldı. Həmin münaqişə Təhlükəsizlik Şurasını beynəlxalq bir hökumət qurumu kimi iflic etmişdir. Onun belə bir qurum kimi fəaliyyət göstərə bildiyi sayca az olan hallarda isə o bunu ya Koreya müharibəsinin əvvəlində olduğu kimi təsadüfən və Sovet İttifaqının müvəqqəti yoxluğu səbəbindən, ya da İndoneziya, Kəşmir, Orta Şərq və Süveyş kanalı məsələlərində olduğu kimi maraqların təsadüfi və müstəsna uyğunluğu ilə edə bilmişdir.

Təhlükəsizlik Şurasının görüşlərinin sayındakı dəyişikliklər onun Birləşmiş Millətlər Təşkilatının aparıcı siyasi orqanı kimi əhəmiyyətindəki dəyişiklikləri eyni şəkildə təsvir edir.

ABŞ və Sovet İttifaqının ümumdünya maraqları və öhdəlikləri Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılmış və ya çıxarıla bilən, demək olar ki, hər məsələdə iki superdövlətin maraq və öhdəliklərinin hər hansı formada əhatə olunmasını qaçılmaz etmişdir. Bu, razılaşmanı, adətən, qeyri-mümkün etmiş və Təhlükəsizlik Şurasında səsvermə zamanı, bir qayda olaraq, Sovet İttifaqı məsələnin bir tərəfində, əksəriyyət isə digər tərəfində yer almışdır. Bu halda azlıqda olan böyük dövlətlərin əksəriyyətdən narazılıqlarını ifadə etməsinin və maraqlarını ədavətli əksəriyyət tərəfindən düşməncəsinə xələl yetirilməkdən qorumasının aləti vetodur.

Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatı adlanan beynəlxalq hökumətin ən fəal qolu kimi öz zirvəsinə yüksəlməsi iki amillə bağlıdır: 5 konstitusion mexanizmin Baş Assambleyanın əksəriyyəti tərəfindən istifadə edilməsi və çağdaş dünya siyasətinin xarakteri.

Baş Assambleya və Təhlükəsizlik Şurası tərəfindən nəzərdən keçirilmiş siyasi məsələlər, 1 yanvar 1946 – 30 iyun 1964-cü illər

Dövr	Baş Assambleya	Təhlükəsizlik Şurası
1 yanvar, 1946 – 30 iyun, 1946	2	8
1 iyul, 1946 – 30 iyun, 1947	6	8
1 iyul, 1947 – 30 iyun, 1948	9	14
1 iyul, 1948 – 30 iyun, 1949	15	10
1 iyul, 1949 – 30 iyun, 1950	13	12
1 iyul, 1950 – 30 iyun, 1951	24	12
1 iyul, 1951 – 30 iyun, 1952	17	9
1 iyul, 1952 – 30 iyun, 1953	18	5
1 iyul, 1953 – 30 iyun, 1954	12	8
1 iyul, 1954 – 30 iyun, 1955	18	4
1 iyul, 1955 – 30 iyun, 1956	13	4
1 iyul, 1956 – 30 iyun, 1957	19	11
1 iyul, 1957 – 30 iyun, 1958	22	9
1 iyul, 1958 – 30 iyun, 1959	15	6
1 iyul, 1959 – 30 iyun, 1960	14	2
1 iyul, 1960 – 30 iyun, 1961	20	6
1 iyul, 1961 – 30 iyun, 1962	24	8
1 iyul, 1962 – 30 iyun, 1963	15	4
1 iyul, 1963 – 30 iyun, 1964	11	8
Cəmi	286	147

Təhlükəsizlik Şurasının görüşlərinin sayı

1946	88	1956	51
1947	137	1957	48
1948	168	1958	36
1949	62	1959	5
1950	73	1960	71
1951	39	1961	68
1952	42	1962	38
1953	43	1963	58
1954	32	1964	86
1955	23		

Baş Assambleyanın beynəlxalq hökumət qurumu olaraq öz fəaliyyətində izlədiyi konstitusional təcrübələr Təhlükəsizlik Şurasının səlahiyyətini azaltmaq, Baş Assambleyanın səlahiyyətini isə artırmaq məqsədi daşımışdır. Hər şeydən öncə, Nizamnamənin 12-ci maddəsinin 1-ci bəndinin Təhlükəsizlik Şurasına Baş Assambleyanın fəaliyyəti üzərində verdiyi nəzarət imkanına iki konstitusion mexanizm tərəfindən xələl gəlmişdir. Təhlükəsizlik Şurasında dalana dirənmiş bir sıra məsələlər adi səs çoxluğu ilə Baş Assambleyaya keçirilmişdir; bu zaman hesab olunurdu ki, məsələnin belə yer dəyişməsi Nizamnamənin 27-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, bütün daimi üzvlərin yekdil səsini tələb etməyən prosedur məsələsidir. Başqa sözlə, Təhlükəsizlik Şurası belə bir təsəvvürlə hərəkət etmişdi ki, məsələnin Təhlükəsizlik Şurasından Baş Assambleyaya keçməsi üçün əksəriyyətin səsi ilə qəbul olunmuş qərara veto tətbiq olunmur.

Bundan əlavə, Baş Assambleya 12-ci maddənin 1-ci bəndini geniş çərçivədə şərh etmiş və eyni zamanda Təhlükəsizlik Şurasının gündəliyində olan məsələlərə dair tövsiyələr vermişdir. Bu hal Fələstin və Koreya məsələlərində qeydə alındı. Prosedur belə bir hüquqi arqument ilə əsaslandırılırdı ki, Baş Assambleya eyni bir məsələnin Təhlükəsizlik Şurasının əlaqədar olduğu aspektindən fərqli aspekti ilə məşğul olur. Aydın məsələdir ki, bu arqument 12-ci maddənin 1-ci bəndinə kölgə salmaq məqsədi daşıyır və nəticədə Baş Assambleyanın ona göndərilmiş faktiki olaraq istənilən məsələ üzərində qeyri-məhdud yurisdiksiyası təsəvvürü üçün geniş yol açır.

Baş Assambleya Nizamnamənin 24-cü maddəsinin 1-ci bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurasının məsuliyyət daşıdığı sülh və təhlükəsizliyin mühafizəsi məsələlərində ilkin və əlahiddə məsuliyyəti heç bir qeyd-şərtsiz öz üzərinə götürərkən daha da irəli getdi. Baş Assambleya bu nəticəyə sülh uğrunda birləşmə qətnaməsi ilə nail oldu[1]; qətnamə Kollektiv Tədbirlər Komitəsi yaratdı və ona sülh və təhlükəsizliyin mühafizəsi üçün geniş məşvərətçi funksiyalar verdi. Sovet İttifaqı həmin qətnamənin qeyri-qanuni olduğunu bəyan edəndə çox uzağa getdi; o, Kollektiv Tədbirlər Komitəsinin Təhlükəsizlik Şurasının fəaliyyətinə "xələl gətirmək" üçün yaradıldığını əsaslandıranda xətti o qədər də keçməmişdi. Çünki Kollektiv Təhlükəsizlik Komitəsi öz mövcudluğuna görə Təhlükəsizlik Şurasının böyük dövlətlərin fərqli maraqlarının cəlb olunduğu istənilən məsələdə beynəlxalq hökumətin qurumu kimi hərəkət etməkdə nümayişkaranə bacarıqsızlığına borclu idi.

Nizamnamənin mətninə görə, Baş Assambleya heç vaxt hər hansı baxımdan Təhlükəsizlik Şurasının yerini tuta bilməməli idi. Çünki Nizamnamə yalnız Təhlükəsizlik Şurasına hüquqi cəhətdən məcburi qərarlar qəbul etmək səlahiyyəti verməklə, Baş Assambleyaya isə tövsiyə verməkdən artıq heç nə etməyə icazə verməməklə bu kimi hər hansı bir hüquq mənimsəməyə zahirən aradan qaldırıla bilməyən çətinlik törədir.

[1] Onun məzmunu üçün bax: səh. 391-393.

Təhlükəsizlik Şurasının qərar qəbul etmədə hər zaman daha artıq diqqəti cəlb edən bacarıqsızlığı iki qurumun nisbi güclərində hiss edilməyən formada dəyişikliyə səbəb oldu. Bu dəyişiklik Baş Assambleyanın tövsiyələrinə ən azından müəyyən məsələlərdə və müəyyən hüdudlarda[1] hüquqi olaraq məcburi olan qərara bənzər səlahiyyət bəxş etdi. Birləşmiş Millətlər Təşkilatının üzvlərinin böyük əksəriyyəti açıq-aydın hiss edirdi ki, Birləşmiş Millətlər Təşkilatı gərək müəyyən məsələlərə münasibətdə tədbirlər görsün və Təhlükəsizlik Şurasının tədbirlər görməyə qabil olmaması şəraitində Baş Assambleya gərək fəaliyyətini həyata keçirməyi bacaran Təhlükəsizlik Şurasının tərzində hərəkət etsin. Beləliklə, texniki baxımdan Baş Assambleya yalnız tövsiyələr verə bildiyi halda, üzvlərin böyük əksəriyyəti müəyyən məsələlərə münasibətdə və müəyyən hüdudlar daxilində həmin tövsiyələrlə onlar sanki məcburiyyət xarakterli qərardadırlarmış kimi rəftar etmək meyli nümayiş etdirdi.[2]



Baş Assambleya və Təhlükəsizlik Şurası tərəfindən nəzərdən keçirilmiş siyasi məsələlər, 1946-1964

[1] Bu məhdudiyyətlərin xarakteri irəlidə müzakirə olunacaq. Bax: səh. 597 və növbəti səhifələr
[2] Bununla əlaqədar onu da xatırlamaq yerinə düşər ki, bir xüsusi və müəyyən baxımlardan unikal nümunədə – İtaliya müstəmləkələri məsələsində – Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ əvvəlcədən Baş Assambleyanın qərarını məcburi kimi qəbul edəcəklərinə razılaşmışdı.

Baş Assambleyanın Birləşmiş Millətlər Təşkilatının siyasi baxımdan hakim orqanına belə transformasiyası yalnız ona görə mümkün oldu ki, üzv dövlətlərin ən azından üçdə ikisi bunun lehinə idi. Çünki əgər Baş Assambleya göndərilmiş məsələlərə dair tövsiyələrin lehinə səs verməsəydi, bu transformasiya baş tuta bilməzdi. Həmin üçdə iki səs çoxluğu bu transformasiyanı gerçəkləşdirən, onu dəstəklədikcə ona həyat verən və onun mahiyyəti və gücünü təyin edən alət idi. Transformasiyanın xarakteri həmin əksəriyyətin tərkibindən asılı idi.

Baş Assambleyanın tövsiyələrini dəstəkləyən əksəriyyətin tərkibi 1955-1956-cı illərdə 20 yeni üzvün təşkilata qəbul edilməsi ilə kəskin dəyişikliyə məruz qaldı. Bu tarix Birləşmiş Millətlər Təşkilatının tarixində köhnə bir dövrü bağlamış və yeni dövrü başlatmış dönüş nöqtəsi oldu. Hətta, demək olar ki, Birləşmiş Millətlər Təşkilatı həmin dövrdən əvvəl mövcud olmuş Birləşmiş Millətlər Təşkilatı beynəlxalq hökumətin ondan sonra mövcud olmuş Birləşmiş Millətlər Təşkilatından fərqli bir aləti idi və o, Birləşmiş Millətlər Təşkilatının bu gün yerinə yetirə bildiyi funksiyalardan fərqli funksiyalar yerinə yetirmək iqtidarında idi. Birləşmiş Millətlər Təşkilatının məruz qaldığı bu transformasiya siyasi qərar qəbuletmənin mərkəzi Təhlükəsizlik Şurasından Baş Assambleyaya keçdikdən sonra da dayanmadı.

1956-cı ilin sonuna qədər Baş Assambleyasında tövsiyələri qəbul edən əksəriyyətin nüvəsində ümumilikdə 39 səsə malik olan ABŞ, Qərb dövlətləri, Britaniya Birliyinin əksər üzvləri və Latın Amerikası dövlətləri dururdu. Digər dövlətlər bəzən əksəriyyət ilə lehinə, bəzən əksinə səs verərək, bəzən də bitərəf qalaraq, bu nüvənin ətrafında hər zaman dəyişən konfiqurasiyalarda qruplaşırdı. 5 səsə malik olan sovet bloku daim ondan kənarda qalırdı. Birləşmiş Millətlər Təşkilatı yalnız sovet blokunun iştirakı olmadan fəaliyyət göstərən beynəlxalq hökumət deyildi, o həmçinin sovet blokuna qarşı çıxan və sonuncunun da ona qarşı çıxdığı beynəlxalq hökumət idi. O, mövcudluğunun özünə görə sovet blokuna qarşı tutduğu bu əks mövqeyə borclu idi və əsas siyasi və hərbi məqsədini də bu qarşıdurmada tapırdı. Öz məqsədlərinə görə onu sovet blokuna qarşı yönəlmiş böyük ittifaq adlandırmaq olardı.

Mənbəyindən asılı olmayaraq, təcavüzə qarşı böyük dövlətlərin yaratdığı hökumət formasında alət kimi nəzərdə tutulmuş Birləşmiş Millətlər Təşkilatı siyasi zərurət yolu ilə böyük və kiçikliyindən asılı olmayaraq, çoxsaylı dövlətlərin real və potensial təcavüzə qarşı məlum mənbədən irəli gələn alətinə çevrildi. Nizamnaməsinə əsasən Birləşmiş Millətlər Təşkilatı mücərrəd mənada istənilən yerdə baş verən istənilən təcavüzə qarşı sipər olmalı idi. Siyasi marağın məntiqi ilə o, hərəkətlərinə əsasən təyin edilən müəyyən ayrı-ayrı təcavüzkarlara qarşı silaha çevrildi. Belə ki, 1953-cü ilin martında Kollektiv Tədbirlər Komitəsinin hesabatı müzakirə olunarkən Baş Assambleyadakı Rusiya nümayəndəsi bəyan etdi ki,

sülh uğrunda birləşmə qətnaməsi və komitənin fəaliyyəti ABŞ tərəfindən Sovet İttifaqına qarşı təşviq edilən plandır və o, demaqoq bir dildə Birləşmiş Millətlər Təşkilatının strukturu və məqsədində fundamental dəyişikliyin baş verdiyinə işarə etdi. Amerika nümayəndəsi qətnamənin və komitənin fəaliyyətinin "kimsə"yə qarşı deyil, təcavüzə qarşı yönəldiyi cavabını verərkən siyasi reallıq əvəzinə Nizamnamənin ruhuna şifahi haqq qazandırdı və bu halda o, Nizamnamədən beynəlxalq siyasətin reallığının ideoloji pərdələnməsi üçün istifadə etdi.

Birləşmiş Millətlər Təşkilatı üzvlərinin ilkin olaraq 50 olan sayının indiki dövrdə 158-ə qədər çoxalması Baş Assambleyada səsverməsinin bölgüsünü və bununla da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleya vasitəsilə həyata keçirə bildiyi siyasi funksiyaları kəskin şəkildə dəyişdi. Üzvlərin sayının artması səslərin bölgüsündə siyasi əhəmiyyətli üç dəyişikliyə gətirib çıxardı. Qərb bloku sovet blokuna qarşı yönəlmiş qətnamələri dəstəkləmək üçün üçdə iki səs çoxluğundan müntəzəm şəkildə istifadə etmək qabiliyyətini itirdi. ABŞ-ın, ən yaxşı halda, ümid edə bildiyi arzuolunmaz qətnamələrə veto qoymaq və bununla da onu dəstəkləyənlərin səs verməməsinə nail olmaqdır. Lakin o artıq maraqlarının reallaşdırılması kimi real bir məsələdə Birləşmiş Millətlər Təşkilatından istifadəyə bel bağlaya bilməz.

ABŞ-ın Birləşmiş Millətlər Təşkilatı daxilində təsirinin belə kəskin şəkildə azaldığı halda, sovet blokunun təsiri artmışdır. Müharibədən sonrakı birinci onillikdə həm Təhlükəsizlik Şurası, həm də Baş Assambleyada faktiki olaraq ümidsiz bir azlıqda idi. O, Təhlükəsizlik Şurasında, gördüyümüz kimi, veto yolu ilə müntəzəm olaraq əleyhinə səs verilməsi şəraitinə qarşı özünü müdafiə etmək imkanı əldə etmişdir. Baş Assambleyada isə o, bir qayda olaraq, onun üçün arzuolunmaz qətnamələrin qəbul edilməsinin qarşısını almaq imkanına sahib deyildi, çünki o, mövqeyinin dəstəklənməsi üçün üzvlərin üçdəbirindən azının səsinə arxayın ola bilərdi. İndi isə Sovet İttifaqı öz blokunun üzvlərinin səsinə digər dövlətlərin səslərini də əlavə etmək üçün yaxşı bir imkana malikdir, həmin səslər üzvlərin səsinin üçdə ikisindən çoxuna bərabər ola bilər və bununla da Sovet İttifaqı onun üçün arzuolunmaz qətnamələrin qəbulunun qarşısını ala biləcək bir mövqeyə sahib olar.

Çinin qitə dövlətinin (Honkonq və Makao istisna olmaqla Çin ərazisi – red.) Birləşmiş Millətlər Təşkilatındakı nümayəndəliyi həmin imkandan maddi olaraq zərər çəkməyib, çünki o və onun tərəfdarlarının sovet blokuna qarşı antaqonist mövqelər tutacaqları ehtimalında hal-hazırda yalnız bir neçə səsə malik olarlar.

Səsvermə gücünün bölgüsündə bu dəyişiklik Birləşmiş Millətlər Təşkilatına üzvlükdə kütləvi artımın, əsasən, Afrika-Asiya blokuna mənsub olan dövlətlər üçün xeyirli olması faktının nəticəsidir. Afrika-Asiya bloku Birləşmiş Millətlər

Təşkilatının üzvlərinin üçdəbirindən çoxunu əhatə edir. Belə ki, əgər onlar səsvermədə eyni mövqeni tutsaydılar, ya maraqlarına zidd olan istənilən qətnaməni veto edə bilər, ya da Amerika və sovet blokuna qoşulmaqla lazımi üçdə iki səs çoxluğunun özəyinə çevrilərdilər. Lakin, əslində, Afrika-Asiya bloku nadir hallarda vahid mövqe tutub; onun səsi, adətən, parçalanmış olub, üzvlərinin bəziləri Amerika, digərləri isə sovet bloku ilə birlikdə səs verib, əhəmiyyətli bir sayı isə bitərəf qalıb. Nəticədə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleya vasitəsilə siyasi cəhətdən fəaliyyət göstərmək imkanına münasibətdə Afrika-Asiya bloku, beləliklə, mənfi funksiya yerinə yetirib. Səslərini onlar arasında parçalamaqla o, Amerika və sovet bloklarının üzvlərin üçdə ikisindən çoxunun vetosu ilə sadə çoxluğun iradəsinə qarşı çıxmaq gücünü artırıb.

Nəticədə Baş Assambleya üçün müstəmləkəçilik və irqi ayrı-seçkiliyin qalıqlarına zidd olmaqdan daha çox onlar üçün səciyyəvi olan real siyasətlərin yürüdülməsinə, müharibə aparan tərəflərin atəşi dayandırmağa və məsələnin nizamlanması üçün danışıqlar aparmağa dəvət olunmasına və baş katibə tədqiqat aparmaq, araşdırmaq, məruzə və vasitəçilik etmək, sülhməramlı qüvvələr təşkil etmək və sülh və nizamı bərqərar etmək üçün zəruri hesab etdiklərini həyata keçirmək səlahiyyətləri verməyə çağıran qətnamələrin qəbulu çətinləşib. Bununla da xüsusi real siyasi fəaliyyətlərə dair razılığa gəlmək üçün Baş Assambleyanın üçdə iki səs çoxluğuna nail olmaq çətinliyi baş katibin müvəqqəti olaraq Birləşmiş Millətlər Təşkilatının baş icraçısı mövqeyinə yüksəlməsi ilə nəticələndi.

Nizamnamədə baş katibin "təşkilatın baş inzibatçısı" olması nəzərdə tutulur. O, "beynəlxalq sülh və nizamı təhlükə altına sala biləcəyini düşündüyü istənilən məsələni Təhlükəsizlik Şurasının diqqətinə çatdıra bilər". O həmçinin Birləşmiş Millətlər Təşkilatının "digər orqanlar tərəfindən ona həvalə edilmiş bu kimi digər funksiyaları yerinə yetirir. Baş katibin Birləşmiş Millətlər Təşkilatının açıq şəkildə baş siyasi nümayəndəsi kimi yeni funksiyaları bu müddəadan qaynaqlanır.

Baş Assambleyanın öz üzərinə götürdüyü tədbir öhdəliyi Təhlükəsizlik Şurasının gücsüzlüyü ilə sıx şəkildə bağlı olduğu kimi, yeni funksiyalar da Baş Assambleyanın gücsüzlüyü ilə sıx şəkildə bağlıdır. Bir addım da irəli gedib demək olar ki, bütövlükdə Birləşmiş Millətlər Təşkilatının üzərinə götürdüyü siyasi məsələlərin nizamlanması öhdəliyi birbaşa əlaqədar dövlətlərin, xüsusilə böyük dövlətlərin öz aralarında qarşıda duran siyasi məsələləri həll edə bilməməsinin doğurduğu nəticədir. Odur ki onlar nizamlama üsulunun tapılmasını Birləşmiş Millətlər Təşkilatına həvalə edirlər. İflic olmuş Təhlükəsizlik Şurasının yerini tutmuş Baş Assambleyanın üzvlərin nizamlamaya dair kollektiv razılığa gələ bilmək imkanı ayrı-ayrı dövlətlər olaraq fəaliyyət göstərdikləri zaman olduğundan böyük deyil. Odur ki onlar həll yolu tapmağı baş katibə həvalə ediblər.

Beləliklə, baş katib sanki Birləşmiş Millətlər Təşkilatının baş nazirinə çevrilib. O, Təhlükəsizlik Şurası və Baş Assambleyanın, bir qayda olaraq, qeyri-müəyyən səlahiyyətli nümayəndəsi kimi Təhlükəsizlik Şurası və Baş Assambleyanın özlərinin yerinə yetirməli olduqları, lakin yerinə yetirə bilmədikləri siyasi funksiyaları öz üzərinə götürür. Funksiyaların belə transformasiyası daha çox 1953-1961-ci illərdə baş katib olmuş Daq Hammarşeldin təşəbbüsü və bacarığına borcludur. O, Birləşmiş Millətlər Təşkilatını, onun öz sözləri ilə desək, "dinamik hökumət aləti"nə çevirdi. O, yenə də onun öz sözləri ilə desək, "haradasa yeni icraetmə öhdəliyi yaratmağ"a və "Nizamnamə və ənənəvi diplomatiyanın sülh və təhlükəsizliyin mühafizəsi üçün təmin etdiyi sistemdə üzə çıxa bilən hər hansı boşluğu doldurmağa yardım etməy"ə başladı. Hammarşeld hətta Baş Assambleya, yaxud Təhlükəsizlik Şurasından aldığı mandatın şərhində xeyli kənara çıxmalara yol verərək, zaman-zaman, ümumiyyətlə, heç bir mandatsız və Birləşmiş Millətlər Təşkilatının üzvünün açıq-aşkar qarşı olmasına baxmayaraq hərəkət etdi.

Beləcə, o, 1959-cu ildə hətta Sovet İttifaqının əvvəlcədən onun səfərinə və xüsusilə orada özündən sonra Birləşmiş Millətlər Təşkilatının nümayəndəsini qoymağına qarşı olduğunu bəyan etməsinə baxmayaraq, Laosda Birləşmiş Millətlər Təşkilatının nümayəndəliyini təsis etdi. Beləcə, o, 1958-ci ildə Birləşmiş Millətlər Təşkilatının Livandakı müşahidə korpusunu genişləndirmək qərarına gəldi, hətta baxmayaraq ki, Sovet İttifaqı artıq Amerikanın genişlənmək təklifini və Yaponiyanın ona fəaliyyət azadlığı verilməsi haqqında təklifini veto etmişdi.

Baş katibin funksiyalarının bu şəkildə fövqəlmilli siyasi qurum səviyyəsinə yaxınlaşacaq dərəcədə genişlənməsi nəinki baş katib tərəfindən görülən müəyyən tədbirlərə qarşı ayrı-ayrı dövlətlərin müxalifliyini doğurmalı, həmçinin bütün siyasi beynəlxalq təşkilatları iflic etmiş kəskin daxili bir ziddiyyət – milli suverenlik ilə beynəlxalq təşkilatın effektivliyi arasındakı ziddiyyəti yaratmalı idi. Sovet İttifaqı milli suverenliyi beynəlxalq müqavilə və təşkilatlar tərəfindən müdaxiləyə qarşı ardıcıl şəkildə müdafiə edib, həmçinin Birləşmiş Millətlər Təşkilatının fövqəlmilli istəklərinin mücəssəməsi kimi Hammarşöld və onun varisi Trüqve Linin idarəetməsinə ardıcıl şəkildə qarşı çıxıb. 1958-ci ildə Şarl de Qoll hakimiyyətə gəldikdə Fransa da Sovet İttifaqına qoşuldu. Sovet İttifaqı üçlük təklifi kimi tanınan təkliflə baş katibin hakimiyyətinə son qoymağa çalışdı; həmin təklifə əsasən, bir baş katib birlikdə hərəkət edən və hər biri bərabər səlahiyyətə malik üç vəzifəli şəxs ilə əvəz olunmalı idi və onlardan biri bitərəf dövlətləri, biri sovet, biri də Qərb blokunu təmsil etməli idi. Bu təklif uğur qazanmış olsaydı, baş katibin funksiyaları vetoya məruz qalacaqdı və Təhlükəsizlik Şurası veto ilə iflic olduğu kimi, o da bununla iflic olacaqdı. Təklif boşa çıxanda həm Sovet İttifaqı, həm də Fransa və onları dəstəkləyən dövlətlər Birləşmiş Millətlər Təşkilatının fövqəlmilli meylini dayandıracaq və dəyişəcək başqa

bir alət axtardı. Onlar bu aləti Baş Assambleya tərəfindən tövsiyə olunan sülhməramlı missiyalara maliyyə dəstəyi formasında müəyyənləşdirdilər.

Nizamnamənin 19-cu maddəsi müəyyən edir ki, "Birləşmiş Millətlər Təşkilatının təşkilata maliyyə ianələrinin ödənişində borcu olan üzvü əgər borcunun miqdarı onun növbəti iki bütöv il üçün ianələrinin miqdarına bərabərdirsə, yaxud onu ötüb-keçirsə, Baş Assambleyada heç bir səsə malik olmayacaq".

1964-cü il dekabr ayının 1-də Sovet İttifaqının vəziyyəti belə idi; 1965-ci il yanvar ayının 1-də Fransa və bir sıra kiçik dövlətlər də belə vəziyyətdə idi. Sovet İttifaqı və Fransa Beynəlxalq Ədalət Məhkəməsinin əks məşvərətçi rəyinə baxmayaraq, Baş Assambleya tərəfindən lehinə səs verilmiş sülhməramlı tədbirlərin haqqını ödəməyə borclu olmadıqlarına israr etdi. Onlar belə bir arqumentlə çıxış etdilər ki, yalnız böyük dövlətlərin vetosunun onların əleyhinə səs verilməkdən müdafiə etdiyi Təhlükəsizlik Şurası, məsələn, Qəzza zolağı və Konqo kimi məsələlərdə sülhməramlı tədbirlər üçün göstəriş verə bilər və həmin tədbirlərə Baş Assambleyada üçdə iki səs çoxluğu ilə razılıq verilirdi.

Əgər Nizamnamənin müddəaları tətbiq olunsaydı, Sovet İttifaqı 1964-cü ilin sessiyasının başlanğıcında, Fransa və öhdəliklərini yerinə yetirməyən digər dövlətlər isə 1965-ci il yanvarın 1-dən sonra avtomatik olaraq öz səsindən məhrum olmalı idi. Birləşmiş Millətlər Təşkilatı bununla öz hökmünü hətta üzvləri arasındakı böyük dövlətlərə də keçirmiş olardı. Belə etməklə o öz sıralarında açıq parçalanma və hətta üzvlərin onun sıralarından ayrılması kimi risklərə getmiş olardı.

Bir sıra üzv dövlətlər bu riskə getmək istəmirdi və hətta ABŞ belə sözdə 19-cu maddənin tətbiqinə dair qətiyyətində israrlı olsa da, Birləşmiş Millətlər Təşkilatının səlahiyyətini müdafiə edərək məsələni gündəmə gətirmək istəyində deyildi. Birləşmiş Millətlər Təşkilatı səsvermə əvəzinə "yekdil razılıq" üsulu ilə fəaliyyət göstərirdi; yəni o yalnız elə bir iş aparır ki, ona dair yekdil razılıq olsun, həmin razılıq isə Assambleyanın iclasında rəsmi səsvermə yolu ilə deyil, kuluarlarında qeyri-rəsmi razılaşmalar yolu ilə əldə olunurdu. Sessiyanın sonuncu günündə Albaniya Baş Assambleyanın hərzamankı səsvermə proseduruna son qoymasını təklif edərək məsələni hamının diqqətinə çatdıranda bu təklif rədd edildi. Bu səsvermədə öhdəliyini yerinə yetirməyən üzvlər hüquqi cəhətdən belə bir əsassız zəmində iştirak etdilər ki, 19-cu maddə yalnız əsaslı məsələlərə dair səsvermələri əhatə edir və prosedur ilə əlaqəli səsvermələrə aid deyil.

Bu hüquqi mövqelər və arqumentlər Birləşmiş Millətlər Təşkilatının strukturuna xas olan münaqişənin adi səthi təzahürləri idi. Bu, milli suverenlik və effektiv beynəlxalq effektivliyi arasındakı qarşıdurma idi. Gördüyümüz kimi[1], bu

[1] Bax: səh. 405 və növbəti səhifələr

iki konsepsiya nəzəriyyə və təcrübədə bir araya sığmırdı. Beynəlxalq təşkilatın effektivliyi meyarında onun öz üzvlərinin fəaliyyət azadlığına xələl yetirməsi qaçılmazdır, üzv dövlətlərin fəaliyyət azadlığını qoruyub saxlaması meyarında isə beynəlxalq təşkilatın effektivliyinə xələl gəlir. Nizamnamənin özü bir tərəfdən bütün üzv dövlətlərin "suveren bərabərliyi"ni vurğulayaraq, digər tərəfdən isə Təhlükəsizlik Şurasının daimi üzvlərinə məhdud dünya hökumətinə bərabər imtiyaz verərək bu həll olunmamış münaqişənin mövcudluğunu təsdiq edir.

1965-ci ildə Baş Assambleya Nizamnamənin 19-cu maddəsinin yerinə yetirilməsindən imtina etmək və Birləşmiş Millətlər Təşkilatının sülhməramlı tədbirlərinə könüllü ianə prinsipini qəbul etmək haqqında qərar qəbul etdikdə milli suverenliyin müdafiəçiləri və qüvvətli Birləşmiş Millətlər Təşkilatının əleyhdarları qəti qələbə qazandılar. Bu qələbə Birləşmiş Millətlər Təşkilatına qarşı həqiqi əks-inqilaba bərabərdir, çünki o, yuxarıda qeyd olunmuş konstitusion olaraq nəzərdə tutulmamış irəliləyişlər vasitəsilə nail olunmuşdu. Bu qərar, demək olar ki, bu 20 illik konstitusiyaya zidd irəliləyişləri heçə endirdi. O, Birləşmiş Millətlər Təşkilatını Nizamnamədə nəzərdə tutulmuş ilkin məramlarına qaytardı.

Təcrübədə bu o mənanı kəsb edir ki, Təhlükəsizlik Şurası yenidən hələ də veto və üzvlərinin sayının 11-dən 15-ə artırılması ilə iflic olunmaq təhlükəsi altında olan baş icraçı orqana çevrilir, Baş Assambleya, əslində, kollektiv səsvermə gücü real güclərinə qeyri-mütənasib olan cırtdan dövlətlərin kütləvi axını vasitəsilə zəifladılan mübahisəli təşkilat səviyyəsinə enir, baş katibin Baş Assambleyanın ona verdiyi icraçılıq səlahiyyəti əlindən alınır. Bu o deməkdir ki, Təhlükəsizlik Şurası da, Baş Assambleya da, baş katib də gücsüzdür. Birləşmiş Millətlər Təşkilatı effektiv beynəlxalq təşkilat olmağı dayandırıb. Baş katib U Tan 1965-ci il martın 22-də etdiyi çıxışda bunu belə ifadə etdi:

"Mən hiss edirəm ki, bu gün biz Birləşmiş Millətlər Təşkilatının sabitlik və dünyada sülh istiqamətində asta irəliləyişində müəyyən durğunluğun şahidi oluruq. Bu istiqamətdə irəliləyiş əgər vaxtında dayandırılmasa, böyük gözləntilər fəslinin bağlanması və dünya təşkilatının, sadəcə, müzakirələrin aparıldığı forumdan başqa bir şey olmadığı yeni fəslin açılması ilə yadda qalacaq.

Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ona Nizamnamənin məramlarına uyğun fəaliyyət göstərmək imkanı vermək üçün kifayət qədər maraq birliklərinin olub-olmadığını və Baş Assambleyanın üzvlərinin indi Baş Assambleyaya bir zaman sahib olduğu gücü qaytarmaq üçün qüdrətli bir Birləşmiş Millətlər Təşkilatının mövcudluğunda maraqlarını kifayət qədər dərk edib-etmədiklərini yalnız gələcək göstərəcək".

Baş katibin imkanlarının azalması yalnız Birləşmiş Millətlər Təşkilatı daxilində haqqında bəhs etdiyimiz qarşıdurmanın deyil, həmçinin onun funksiyalarına ən

başdan xas olan zəifliyin nəticəsidir. Siyasi münaqişələrin tərəfləri kənar qüvvə tərəfindən növbəli şəkildə, yaxud eyni zamanda tətbiq edilən dörd üsul ilə dinc nizamlama ilə razılaşmağa məcbur edilə bilər: onlar münaqişənin davam etməsindən əldə ediləcək xeyirləri üstələyəcəyi gözlənilən ziyanlar ilə təhdid edilə bilər; onlara münaqişənin uğurlu nəticələnməsi ilə əldə ediləcəyi gözlənilən xeyirlərdən daha böyük xeyirlər vəd edilə bilər; onlar gözlənilən xeyirlər və ziyanlar, eləcə də digər tərəfin və maraqlı olan üçüncü tərəfin niyyətləri və imkanlarını göstərən rasional arqumentlərlə inandırıla bilər; yaxud da onlara nüfuzun xilas edilməsi və texniki baxımdan qənaətbəxş formul işləyib-hazırlamaqla mahiyyəti etibarilə artıq nail olunmuş nizamlamanın başa çatdırılmasına doğru sonuncu kiçik addımın atılmasında yardım edilə bilər. Bu dörd mexanizmdən ilk ikisi əhəmiyyətinə görə, əsasən, yardımçı funksiyalar yerinə yetirən digər ikisini üstələyir.

Baş katibin təhdid və vəddən ibarət olan iki ən karlı barışıq alətindən, demək olar ki, tamamən məhrum olması və rasional inandırma üsulundan istifadə və mahiyyəti etibarilə artıq əldə edilmiş razılaşmaları tərtib etməklə məhdudlaşması onun siyasi nümayəndə kimi mövqeyinin zəifliyinin göstəricisidir.

Bu halda hal-hazırkı formada təşkil olunmuş Baş Assambleyanın zəifliyi baş katibin zəifliyində əks olunur. Onların hər ikisi danışa, izah edə və sənədlər işləyib-hazırlaya bilir, lakin heç biri siyasi fəaliyyətin mahiyyətini təşkil edən təhdid və vədlər kimi təsir üsullarına əl ata bilmir.

Baş katibin müvəqqəti üstünlüyü yalnız onun şəxsiyyətinin və Baş Assambleyanın fəaliyyət göstərmək iqtidarında olmadan buna çağırılması şəraitində qarşılaşdığı çətinliyin işi idi. Baş katib Kurt Valdhaym İrandakı girovları azad etməyə cəhd edəndə o, əvvəlcə girov saxlayanlar tərəfindən düşmən münasibətlə qarşılandı, daha sonra isə uğursuzluğuna görə amerikalılar tərəfindən tənqid olundu. Baş Assambleyaya ünvanlanmış fəaliyyətə çağırış isə öz növbəsində böyük dövlətlərin öz aralarındakı problemləri nizamlaya bilməmələrindən yaranan ümidsizliyin fəryadı idi və onlar nə qədər ki nizamlanmamışdı, müharibə təhlükəsi daşıyırdı. Beləliklə, Baş Assambleyanın qətnamələri kimi, baş katibin fəaliyyəti də xəstəliyin sağalmazlığının əlamətləri kimi nəinki onun çarəsi idi, heç o qədər sağalmağının müjdəçisi də deyildi. Bununla belə, onlar gərilmiş sinirlər üçün sakitləşdirici və mövcud yaraların daha da geniş açılmasının qarşısını alan müalicəvi təsirə də malik ola bilirlər. Birləşmiş Millətlər Təşkilatının hal-hazırda beynəlxalq mübahisələri dinc üsulla həllinə verdiyi real töhfə budur.

Baş Assambleya indiki dövrdə istənilən halda Təhlükəsizlik Şurasının ən başdan düşdüyü vəziyyətdədir: o, Nizamnamənin tələb etdiyi əksəriyyətin çatışmaması səbəbindən iş görmək iqtidarında deyil. Lakin Təhlükəsizlik Şurası başdan etibarən Sovet İttifaqının gözlənilən və demək olar ki, avtomatik veto tətbiq etməsi ilə iflic olduğu halda, Baş Assambleyanın fəaliyyətinin iflic olması üç mərhələyə bölünə

bilən dinamik prosesin nəticəsi olmuşdur: ABŞ tərəfindən idarə olunan üçdə iki əksəriyyətin parçalanması, iki superdövlətin onların siyasətlərini dəstəkləyəcək üçdə iki əksəriyyəti formalaşdırmağa etdikləri faydasız cəhd və iki superdövlətin qarşı tərəfin səsvermədə dəstəyini minimuma endirmək üçün etdiyi cəhd – Reyqan administrasiyasının Birləşmiş Millətlər Təşkilatında səfiri Cin Kirkpatrik bu növ fəaliyyəti başlıca olaraq başqaları tərəfindən qabaqlayıcı tədbirlərdən biri kimi xarakterizə edir. Aramsız səs axtarışı, yaxud ən azından dövlətlərin bitərəfliyinə nail olmaq böyük dövlətlərin Baş Assambleyada əsas qayğılarından birinə çevrilib. Bundan kənarda yeni bir diplomatik prosedur hazırlanıb ki, o da ikili əhəmiyyət daşıyır. O, böyük dövlətləri ən azından siyasətinin işlənib-hazırlanmasında kiçik üzv dövlətlərin istəklərinə güzəştə getməyə məcbur edir və bununla da beynəlxalq münaqişənin iti kənarlarını kütləşdirir. O, əlaqədar dövlətlərə Birləşmiş Millətlər Təşkilatının xoşagəlməz qərarları üçün aşkar məsuliyyəti dəyişmək imkanı verir və bununla da nüfuzun qorunub saxlanması və zərbənin təsirinin azaldılması mexanizmi kimi fəaliyyət göstərir. Hər ikisi Amerikanın Birləşmiş Millətlər Təşkilatındakı siyasətini mübariz formada müdafiə edən və işləyib-hazırlayan səfirlər Kirkpatrik və Moynihanın səlahiyyət dövrləri istisna olmuşdur.

Yeni prosedurlar

Siyasətlərinin uğurlu şəkildə icrası üçün kiçik dövlətlərin dəstəyinə ehtiyac duyan böyük dövlətlər iki fəaliyyət kursundan birinə əməl edə bilər. O, ənənəvi diplomatiya üsuluna əl ata bilər və üstün gücündən daha zəif olan dövlətlərə birbaşa olaraq təsir etmək üçün istifadə edə bilər. Bu zaman asılılıqlar qurulur və ittifaqlar yaradılır. Bununla belə, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası vasitəsilə siyasətinə dəstək qazanmağa çalışan güclü dövlətlər yalnız üstün gücünə arxalana bilməz. Əgər dövlət siyasi məqsədləri üçün kifayət qədər səs sayı toplaya bilməyi bacarmırsa, üstün gücün onun üçün heç bir faydası olmur. Odur ki o, Baş Assambleyanın prosedurları ilə təyin olunan fərqli bir fəaliyyət kursu yeritməlidir. Bu prosedurlar və onlardan törəyən yeni Birləşmiş Millətlər Təşkilatı diplomatiyasının böyük və kiçik dövlətlər arasında fərqi azaldacağı görünür, çünki onların hər biri yalnız bir səsə malikdir.

Əgər böyük dövlət yalnız ənənəvi diplomatiya üsulları ilə ittifaq yaratmaq vəzifəsinə malik olsaydı, o həmin ittifaqın üzvlərini başlıca olaraq onların ona əlavə edə biləcəyi güc baxımından seçərdi. Lakin Birləşmiş Millətlər Təşkilatı yeni diplomatiyasının maksimum siyasi və hərbi gücə malik olan ittifaq qurmaq vəzifəsi səs çoxluğu formalaşdırmaq vəzifəsindən böyük deyil. Baş Assambleyada Hindistanın səsi İslandiyanın səsi qədərdir, Qətərin səsi Böyük Britaniyanın

səsi dəyərindədir. İttifaqın ən güclü üzvü gücünün heç bir dəyəri olmayan kiçik dövlətlərin seçimlərinə etinasız yanaşa və yalnız gücünün dəyəri olan üzvlərə güzəştlər edə bilər. Baş Assambleyada isə əksəriyyətin ən güclü üzvü də təşkilatlanma prosesində səsinə ehtiyac duyduğu ən zəif dövlətin belə arzularını nəzərə almalıdır. Bu səbəbdən ABŞ-ın Birləşmiş Millətlər Təşkilatındakı bəzi səfirləri, Edlay Stivenson, Karl Yost, Uilyam Skranton və Donald MakHenri də daxil olmaqla dəhlizlərdə və paltar soyunma otaqlarında ABŞ-ın siyasətlərinə dəstəyə nail olmaq üçün göstərdikləri səbirli səylərə görə yaxşı xatırlanır.

Bunun məntiqi nəticəsidir ki, böyük dövlətin gücü kiçik dövlətin zəifliyi kimi hələ də hiss olunur, çünki birinci gücün verdiyi inandırıcı səs ilə danışır, zəif isə ona yalnız zəifliyindən irəli gələn pıçıltı ilə cavab verə bilir. Lakin güc və zəiflik yeni Birləşmiş Millətlər Təşkilatı diplomatiyasında hələ də əhəmiyyət kəsb etdiyi halda, onlar ənənəvi diplomatiyada o qədər də böyük əhəmiyyət kəsb etmir. Ənənəvi diplomatiya ilə Birləşmiş Millətlər Təşkilatı diplomatiyasının texnologiyaları arasında əhəmiyyətli fərq buradadır: ikinci birincinin etinasız yanaşa biləcəyi məqamda yola gətirilməyə vadar olunur. Beləliklə, böyük dövlət səs verilməli məsələləri səslərinə ehtiyac duyulan üzvlər üçün qəbul olunan nöqteyi-nəzərdən təqdim etməlidir. Görülən tədbir müstəsna olaraq böyük dövlətin məqsədlərinə xidmət etməli olarsa, bu zərurət onun ikili transformasiyasına səbəb olur.

Hər şeydən öncə, tədbir ayrı-ayrı dövlətlərin, yaxud dövlətlərin daha məhdud bir qrupunun maraqlarından daha çox, üçdə iki səs çoxluğunun potensial üzvlərinin ümumi maraqlarını əks etdirən dildə təqdim olunmalıdır. Dil ilə transformasiya çox vaxt ideoloji əsaslandırmadan və milli siyasətlərin fövqəlmilli siyasətlər baxımından rasionallaşdırılmasından daha artığına bərabər olmur. Lakin müəyyən terminologiyadan yalnız təbliğat məqsədləri ilə deyil, həmçinin siyasi sövdələşmələrdə qarşılıqlı güzəştlər üçün daimi istifadəsi sövdələşmələrin mahiyyətinin özünə hiss olunmayan təsir göstərə bilər. Çünki daimi şəkildə istifadə olunan dil sövdələşmənin iştirakçılarında sövdələşmənin necəsə uyğunlaşmalı olduğu, yaxud da ən azından təsirindən tamamilə qurtula bilmədiyi gözləntilər yaradacaq.

Beləliklə, müəyyən dövlətin, yaxud məhdud dövlətlər qrupunun tamamilə həmrəy olduğu və lehinə Baş Assambleyanın üçdə ikisinin geniş dəstəyinə nail olmağa cəhdin edildiyi xarici siyasət əgər belə geniş dəstəyin əldə olunması məqsədilə daim fövqəlmilli nöqteyi-nəzərdən təqdim olunursa, hiss olunmayan dəyişikliyə məruz qala bilər. Belə bir dəyişiklik, çətin ki, nə vaxtsa ilkin milli siyasətin nəzərdə tutduğu məqsəd və üsullara qarşı çıxacaq qədər uzağa getsin. Lakin o, milli siyasətin kəskin kənarlarının kütləşməsi, onun irəliləmiş mövqeyindən geri çəkilməsi və onun qətnamənin dilində ifadə olunan fövqəlmilli prinsiplərin işığında yenidən işlənib-hazırlanması və uyğunlaşdırılması ilə nəticələnə

bilər. Daha təcrübəli BMT diplomatları öz siyasətlərini dövlətlərin üzdə olan əksəriyyətinin siyasəti ilə uzlaşdırmaq və uyğunlaşdırmaqla digər dövlətləri öz tərəflərinə çəkmək bacarığı ilə şöhrət qazanıblar.

Qətnamənin dəstəklənməsi məqsədilə üçdə iki səs çoxluğunu təşkil etmək üçün aparılan danışıqların gedişində də bilavasitə və qaçılmaz olaraq eyni nəticə əldə olunacaq. Dəstəyinə nail olunmağa cəhd edildiyi üzvlər arasında maraqların, imkanların və nəzər nöqtələrinin müxtəlifliyi ortaq məxrəc axtarışını zəruri edir və o, milli siyasətin müəllifinin arzu etdiyi maksimumdan aşağı olmağa məcburdur. Baş Assambleyanın qəbul etdiyi tədbirin həmin maksimumdan nə qədər aşağıda olacağı qismən müxtəlif dövlətlərin Birləşmiş Millətlər Təşkilatı diplomatiyasının yeni üsullarını istifadə etmək bacarığından asılı olacaq. Geniş ölçüdə isə siyasəti üçün dəstəyə nail olmağa çalışan dövlətlər və dəstəyinə nail olunmağa cəhdin edildiyi dövlətlər arasında maddi gücün bölgüsü birincinin həmin dəstəyə nail olmaq üçün getməli olduğu güzəştin ölçüsünü müəyyən edəcək. Çünki belə etməyə imkanı ola bilən dövlətlər güzəştlərə nail olmaq və onlardan boyun qaçırmaq üçün güclərindən təsir vasitəsi kimi istifadə edəcək. Köhnə və yeni diplomatiyanı birləşdirən nöqtə buradadır.

Lakin Birləşmiş Millətlər Təşkilatı ən azından siyasətlərin işlənib-hazırlanması üçün iki böyük səbəb təqdim edir: hal-hazırda o, iş görə bilmək üçün gücsüzdür və iddiasında olduğu və göründüyü və müəyyən hüdudlar daxilində, əslində, olduğu və böyük dövlətlərin mövqeyindən fərqli mövqenin verdiyi səslə danışır. Bununla da bir-biriylə münaqişə içində olan dövlətlər Birləşmiş Millətlər Təşkilatına qarşı bir-biri ilə münasibətlərdə etməyə imkanlarının olmadıqlarını edə bilir – bu, nüfuzlarını itirmək qorxusu olmadan siyasətlərinin mahiyyətində olmasa da, onu tərtib edən zaman güzəştlər edə bilməkdir.

Bu, xüsusilə nüfuzun qorunub saxlanması formulu "bitərəf" dövlət, yaxud dövlətlər qrupu tərəfindən təklif olunan zaman belə olur. Çünki bu halda belə görünür ki, mübahisə tərəfləri güzəştləri bir-birinə deyil, adından "bitərəf" dövlətlərin danışdığı Baş Assambleyadakı əksəriyyətə edir. Əksinə, ayrı-ayrı vəziyyətlərdə güzəştlər etməkdən imtina olunması isə özünü dövlətin ədalətli mövqeyinin düşmən dövlətə qarşı müdafiə etməkdən daha çox, "bəşəriyyətin özünün siyasi səsi"nə etinasızlıq kimi göstərir. Baş Assambleyanın işlək qurum kimi mövcudluğunun özü vasitəsilə göstərə bildiyi təsirlər nə qədər hiss olunmayan və tutarsız olsa da, onlar mövcuddur və əlaqədar dövlətlər tərəfindən nəzərə alınır.

Baş katib nüfuzun qorunub saxlanması formulunun layihələndiricisi kimi həm "bitərəf" dövlətləri, həm də "bəşəriyyətin siyasi səsi"ni təcəssüm etdirir və onların Baş Assambleyada göstərdikləri təsirlərdə iştirak edir. Bununla belə, onun ixtiyarında ona əlverişli şərtlər altında beynəlxalq münaqişələri yumşaltmaq imkanı verən

daha iki mexanizm var. Onlardan biri onun idarəsinin fəaliyyəti və real təzyiq üçün ixtiyarındakı müstəsna vasitələrdir. O, məsələnin həllində həvəssiz olan tərəfi xəbərdar edə bilər ki, vəziyyəti beynəlxalq sülh və təhlükəsizliyə təhlükə kimi Baş Assambleyanın diqqətinə çatdıracaq və bununla da günahı baş katibin məxsus olduğunu düşündüyü tərəfin üzərinə qoymaq olar. Belə etməklə o həmin təsirləri hərəkətə gətirməklə hədələyir ki, bununla da Baş Assambleyanın haqqında bəhs etdiyimiz vasitəçi və yumşaldıcı rolu oynamaq üçün imkanı yaranır.

Baş katibin ixtiyarında olan digər alət onun şəxsiyyətinin gördüyü işdir və sırf inandırma ilə əlaqədardır. Rəhmətlik cənab Hammarşöldün vəzifədə olduğu dövr baş katibin sülh təşviqetmə funksiyalarının bu vəzifənin sahibinin intellektual və mənəvi keyfiyyətlərindən nə qədər asılı olduğunu təsirli şəkildə nümayiş etdirir. Yalnız Hammarşeldin şəxsiyyətinə sahib olan bir insan onun bu baxımdan etdiklərini etməyə çalışa və nail olduqlarına nail ola bilərdi.

Nizamlanmamış məsələlərin tezliyi baxımından baş katibin nail olduqlarının kifayət qədər az olduğunu söyləmək ədalətli olardı və bu fikir bütövlükdə Birləşmiş Millətlər Təşkilatına aid olunmalıdır. Lakin bu nizamlanmamış məsələlərin yaratdığı yalnız ayrı-ayrı dövlətləri deyil, sivilizasiyanın özünü təhdid edən vəziyyətlərin böyüklüyü baxımından bu da qeyd olunmalıdır ki, Birləşmiş Millətlər Təşkilatının kiçik nailiyyətləri heç bir işin görülməməsindən daha yaxşıdır.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI VƏ SÜLH PROBLEMİ

Nizamnamədə nəzərdə tutulduğu kimi, Birləşmiş Millətlər Təşkilatı böyük dövlətlər arasında birliyə inanır və böyük dövlətlərin hökuməti vasitəsilə orta və kiçik dövlətlər arasında sülhün mühafizəsi ilə məşğul olur. Birləşmiş Millətlər Təşkilatı iki superdövlət arasında parçalanmaya inanır və müvafiq siyasətlərin dəstəklənməsinə effektiv təsir məqsədilə üzvləri arasında resurs və siyasətlərin əlaqələndirilməsi ilə məşğul olur. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi belə bir xülya ilə hazırlanmışdı ki, böyük dövlətlər arasında sülh təmin olunub; yeni Birləşmiş Millətlər Təşkilatı isə öz mövcudluğuna görə onlar arasındakı real münaqişələrə borcludur.

Bu halda yeni Birləşmiş Millətlər Təşkilatının sülhün mühafizəsinə verə bildiyi töhfə Birləşmiş Millətlər Təşkilatının Nizamnamənin verdiyi güman olunan töhfədən köklü şəkildə fərqlənməlidir. Birləşmiş Millətlər Təşkilatının hər hansı müharibənin qarşısını almağı göstərmək üçün heç bir əsas yoxdur. Lakin onun 5 müharibəni qısaltmağa maddi töhfələr verdiyi haqqında aşkar sübutlar var: bunlar 1949-cu ildə İndoneziyadakı, 1949-cu ildə Fələstindəki, 1956 və 1973-cü

illərdə Misirdəki və 1965-ci ildə Kəşmirdəki müharibələrdir. O bu nəticələrə Nizamnamədə nəzərdə tutulduğu kimi ona görə nail ola bildi ki, böyük dövlətlər bu müharibələrin dayandırılmasında ortaq maraqlara malik idi, yaxud ən azından onların heç birinin müharibənin uzadılmasında marağı yox idi. Oxşar vəziyyətlərdə Birləşmiş Millətlər Təşkilatı yenə də müharibənin müddətinin qısaldılması üçün oxşar funksiyasını yerinə yetirə bilər.

Qərb ittifaqının hələ də Nizamnamə ilə müəyyən edilən faktiki olaraq boş çərçivədə sovet bloku ilə birlikdə yer aldığı faktının özü Birləşmiş Millətlər Təşkilatının sülhün mühafizə edilməsi bacarığı üçün əhəmiyyətsiz deyil. Çünki nə qədər ki iki blok eyni bir beynəlxalq təşkilatın daxilində birgə mövcuddur və tərəfsiz dövlətlər onlar arasında irəli-geri hərəkət edir, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin universallıq və böyük və kiçikliyindən asılı olmayaraq, bütün dövlətlər arasında sülhün qorunub saxlanmasına iddiası hələ də keçərlidir. Habelə Şərq və Qərbin nümayəndələri arasında şəxsi təmas imkanı da qalmaqda davam edir və o, münaqişələrin yumşaldılması və nizamlanması üçün təvazökar formada istifadə oluna bilər. 1960-cı illərdə və 1970-ci illərin sonunda ABŞ administrasiyalarının və səfirlərin şəxsiyyəti səbəbindən diplomatiyanın qeyri-formal vasitələrindən istifadədə daha çox uğurlu idi. 1980-ci illərin əvvəlləri də daxil olmaqla digər dövrlərdə Amerika nümayəndələri Birləşmiş Millətlər Təşkilatından daha çox Amerika xarici siyasətinin elan edilməsi üçün əks-səda verən lövhə kimi istifadə ediblər. Bir fikir mübadiləsində Amerika nümayəndəsi ABŞ ilə fərqli mövqeyə malik olan üzvləri bu mövqedən geri çəkilməyə və "sonda yeni və xoşbəxt həyata başlamağ"a dəvət etdi.

Birləşmiş Millətlər Təşkilatının sülhün mühafizəsinə verə bildiyi töhfənin Amerika, sovet və "üçüncü dünya" dövlətlərinin nümayəndələrinin kobud ritorikasına rəğmən iki blokun eyni bir beynəlxalq təşkilat daxilində birgə mövcudluğunun ənənəvi diplomatiyanın üsullarından təvazökar istifadə üçün yaratdığı imkandan bəhrələnməyin əsasında durduğu üzə çıxar. Bu halda Birləşmiş Millətlər Təşkilatı, belə deyək, diplomatiyanın köhnə üsulları üçün yeni fəaliyyət yerinə çevrilər. Baş katib 1955-ci ildə illik məruzəsində belə qeyd edirdi:

"Biz Birləşmiş Millətlər Təşkilatının real imkanlarından gərginliklərin yumşaldılması, inamsızlıq və anlaşılmazlığın azaldılması və ortaq müstəvi və maraqların yeni sahələrinin üzə çıxarılması və çərçivəsinin çəkilməsi üçün ən çox nümayəndəli alət kimi istifadəyə yalnız qədəm qoymuşuq... Konfrans diplomatiyasına Birləşmiş Millətlər Təşkilatı daxilində ya birbaşa olaraq üzv hökumətlərin nümayəndələri arasında, ya da baş katib və üzv hökumətlər arasında əlaqələr yolu ilə həyata keçirilən daha sakit diplomatiya faydalı şəkildə əlavə oluna bilər... Nizamnamənin çərçivəsi daxilində müxtəlif fəaliyyət növləri üçün hələ də üzə

çıxarılmamış çoxlu imkan mövcuddur... Mən ümid edirəm ki, növbəti illərdə yeni əlaqə formalarının, yeni düşüncə üsullarının və yeni barışıq texnikalarının yaradılmasında əsaslı irəliləyiş əldə oluna bilər. Birləşmiş Millətlər Təşkilatından kənarda baş vermiş böyük məsələlərin müzakirəsi çox vaxt yalnız kiçik uzlaşma ilə onun çərçivəsinə uyğunlaşdırıla bilib və bununla eyni zamanda dünya təşkilatının gücünə güc qatıb və ondan güc alıb".

Baş katibin 1957-ci ildəki illik məruzəsinin girişinə istinad etsək, bu gün ən böyük ehtiyac dövlətlər arasında münaqişənin kənarlarını itiləməyə deyil, kütləşdirməyə duyulur. Əgər lazımi formada istifadə olunarsa, Birləşmiş Millətlər Təşkilatının diplomatiyası üzv dövlətlərin sahib olduğu digər alətlərdən daha yaxşı barışdırma aləti kimi xidmət göstərə bilər. Dünyanın bütün çoxşaxəli maraq və istəkləri Nizamnamənin ümumi müstəvisi üzərindəki hüdudlar daxilində bir araya gəlir. Münaqişələr razılaşdırılmış nizamlamaya nail olmadan uzun müddət davam edə bilər və dövlətlərin qrupları xüsusi və regional maraqları fəal şəkildə müdafiə edə bilər. Bununla belə və qızğın gərginliyin təsiri altında əks-istiqamətdə müvəqqəti proseslərə baxmayaraq, Birləşmiş Millətlər Təşkilatındakı tendensiya fərqlilikləri silib atmalı, yaxud aradan götürməli və bununla da ümumi marağa və Nizamnamənin prinsiplərinin tətbiqinə yaxınlaşan həll yollarına yardım etməlidir.

Yeni Birləşmiş Millətlər Təşkilatı "soyuq müharibə"nin Şərq və Qərb arasındakı münaqişədən doğulan övladıdır. Nizamnamədəki Birləşmiş Millətlər Təşkilatı Şərq və Qərb arasındakı konflikt ilə pərən-pərən salınmış bir xarabalıqdır. "Müqəddəs ittifaq" daxilində Böyük Britaniya və Rusiya arasındakı münaqişə, Millətlər Cəmiyyəti daxilində Böyük Britaniya və Fransa arasındakı münaqişə kimi Birləşmiş Millətlər daxilində ABŞ və Sovet İttifaqı arasındakı münaqişə də mühakimə və fəaliyyətin əhəmiyyətli dərəcədə ziddiyyətli meyarları ilə həll olunur və bu, beynəlxalq təşkilatın siyasi məsələlərdə tədbirlər görmək imkanını ümumiyyətlə əlindən alır.

Təcrübə göstərib ki, Birləşmiş Millətlər Təşkilatından superdövlətlərdən hər hansı birini razılaşmaya məcbur etmək məqsədilə istifadə etmək cəhdi faydasızdır və yalnız fikir ayrılığı ilə nəticələnir. Nizamnamə Birləşmiş Millətlər Təşkilatına, yəni birlikdə fəaliyyət göstərən ABŞ və Sovet İttifaqına digər dövlətlər arasındakı müharibələrin qarşısını almaq imkanı verir. ABŞ və Sovet İttifaqının birgə fəaliyyəti zəminində hazırlanmış Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi öz aralarındakı müharibənin qarşısını almağa konstitusion baxımdan qabil deyil və yeni Birləşmiş Millətlər Təşkilatı, ən yaxşı halda, onun qarşısının alınmasına yalnız kiçik bir töhfə verə bilər. Lakin belə bir müharibə ABŞ-ı da, Sovet İttifaqını da, həmçinin bütün bəşəriyyəti də təhlükə altına salır. Onun qarşısını almaq yollarını Birləşmiş Millətlər Təşkilatından kənarda axtarmalıyıq.

IX FƏSİL

SÜLH PROBLEMİ: TRANSFORMASİYA YOLU İLƏ SÜLH

29. Dünya dövləti

Sülh məsələsinə dair apardığımız araşdırmada iki nəticə əldə etmişik: dövlətlərin güc istəklərini məhdudlaşdırmaqla beynəlxalq sülh məsələsini həll etməyə edilmiş heç bir cəhd uğur əldə etməyib və müasir dövlət sisteminin şərtləri altında heç bir belə cəhd uğur qazana bilməzdi. Bu halda dövlətlər arasındakı əlaqələrdə sülh və nizamın qeyri-sabitliyi və onların dövlətlər daxilində nisbətən sabitliyi nə ilə izah olunur? Başqa sözlə, milli cəmiyyət daxilində sülh və nizamı yaratmaq üçün mövcud olan hansı amildir ki, beynəlxalq arenada yoxdur? Cavab aydındır – bu, dövlətin özüdür.

Milli cəmiyyətlər sülh və nizama görə milli sərhədlər daxilində ali gücün bəxş olunduğu və sülh və nizamı təmin edən dövlətin mövcudluğuna borcludur. Bu, əslində, Hobbsun təlimidir və o belə bir arqument ilə çıxış edirdi ki, belə bir dövlət olmadan milli cəmiyyətlər beynəlxalq arenanı xatırladardı və "hər kəsin hər kəsə qarşı müharibəsi"[1] bəşəriyyət üçün universal olan bir vəziyyət olardı. Bu mühakimədən çıxış etsək, dövlətlər arasında sülh və nizamın yalnız dünyanın bütün dövlətlərini əhatə edən dünya dövləti daxilində təmin ediləcəyi nəticəsinə gəlmək məntiqi olaraq qaçılmaz idi. Orta əsrlərin universal nizamının pozulmasından sonra bu mülahizə zaman-zaman irəli sürülmüşdür.[2]

Əsrin dörddəbiri qədər olan bir müddətdə iki dünya müharibəsinin təcrübəsi və nüvə silahları ilə aparılacaq üçüncü dünya müharibəsinə dair ehtimallar dünya dövləti ideyasına görünməmiş bir təxirəsalınmazlıq verdi. İrəli sürülmüş arqumentə görə, dünyanı özünüməhvdən xilas etmək üçün tələb olunan milli suverenliyin həyata keçirilməsinin beynəlxalq öhdəliklər və təsisatlar yolu ilə məhdudlaşdırılması deyil, ayrı-ayrı dövlətlərin suverenliyinin ayrı-ayrı dövlətlərin öz məxsusi əraziləri daxilində suveren olduğu kimi onlar üzərində suveren olacaq dünya hakimiyyətinə ötürülməsidir. Beynəlxalq cəmiyyətlər daxilində islahatlar uğursuzluğa uğramışdır və uğursuzluğa uğramağa məcbur idi. Bu halda tələb olunan suveren dövlətlərin mövcud beynəlxalq cəmiyyətinin ayrı-ayrı fərdlərin fövqəlmilli birliyinə transformasiyası idi.

[1] *Leviathan*, XIII fəsil
[2] Bax: səh. 486 və növbəti səhifələrdəki məlumatlar

Bu arqument milli cəmiyyətlər ilə analogiyaya əsaslanır. Ona görə də bizim birinci vəzifəmiz sülh və nizamın milli cəmiyyətlərdə necə mühafizə olunduğunu aydınlaşdırmaqdır.

ÖLKƏDAXİLİ SÜLHÜN ŞƏRTLƏRİ

Dövlət daxilində sosial qruplar arasında sülh ikili bünövrəyə söykənir. Cəmiyyətin üzvlərinin sülhü pozmağa meyilsizliyi və buna meyilli olduqları halda, onu pozmaq imkanına malik olmamaları. Əgər böyük bir güc sülhü pozmaq cəhdini ümidsiz bir işə çevirirsə, ayrı-ayrı fərdlər onu pozmaq imkanına malik olmazlar. Onlar sülhü pozmağa iki şərt altında meyilsizlik nümayiş etdirəcəklər. Birincisi, onlar hər hansı bir hissədə sədaqətlərini üstələyən cəmiyyətə bütövlükdə sədaqət hiss etməlidirlər. Digər tərəfdən onlar cəmiyyətdən tələblərinin cüzi bir təminatı ilə heç olmasa ədalətə yaxın bir münasibət gözləməyi bacarmalıdırlar. Üç şərtin – dəfedilməz güc, qrupun fövqündə olan sədaqətlər və ədalət gözləntisi – mövcudluğu dövlət daxilində sülhü mümkün edir. Beynəlxalq arenada bu şərtlərin olmaması müharibə təhlükəsini doğurur.

Bu şərtləri mümkün edən amillər hansılardır? Bəs bu baxımdan dövlət hansı rolu oynayır? Sosial qüvvələrin dövlət daxilində sülhü mümkün edən qarşılıqlı fəaliyyətinin yaxından nəzərdən keçirilməsi bizə bu suallara cavab verməyə kömək edəcək.

Qrupun fövqündə duran sədaqətlər

Milli cəmiyyətlər çoxsaylı sosial qruplardan təşkil olunur. Bunların bəziləri müvafiq iddialarının qarşılıqlı şəkildə uyuşmaz olması mənasında bir-birinə antaqonistdir. Ziddiyyətli maraqların qarşılıqlı uyuşmazlığı bir qrupun iqtisadi məhsuldan pay almaq istədiyi, digərinin isə bunu verməkdən imtina etdiyi iqtisadi sahədə xüsusilə aşkardır. İqtisadi məhsulun bölüşdürülməsi problemi hər yerdə mövcud olan sosial fenomenin yalnız üzdə olan nümunəsidir. Siyasi partiyalar, dini məzhəblər, irqi qruplar, regionlar və yerlər oxşar mübarizələrdə üz-üzə gəlir. Bu cür münaqişələrin zorakılığa keçməsinin qarşısı necə alınır?

Hər şeydən öncə, E1 iqtisadi qrupunun üzvü olan A vətəndaşı, hansı ki, digər E2 iqtisadi qrupunun üzvü olan B vətəndaşına qarşı çıxır, özünü tam şəkildə E1 qrupuna aid edə və öz bölünməz sədaqətini ona göstərə bilmir. O bunu üç səbəbdən edə bilmir.

A vətəndaşı yalnız E1 qrupunun üzvü deyil, o həmçinin R dini qrupunun, P siyasi qrupunun və C etnik və mədəni qrupun üzvüdür. Bütün bu qruplar onun sədaqətini tələb edir; əgər o onların hamısına qarşı ədalətli olmaq istəyirsə, tamamilə bir qrupa mənsub ola bilməz. O, E1 qrupunun üzvü kimi hərəkət edəndə R qrupu qarşısındakı öhdəliklərini unuda bilməz. P qrupunun məqsədləri üçün mübarizəyə atılanda C qrupuna borclu olduqlarını yaddan çıxara bilməz. Bu halda yerli qruplaşmaların və münaqişələrin bu plüralizmi iştirakçılara onların maraqlarının və sədaqətlərinin nisbiliyini təlqin etməyə meyil göstərir və bununla da müxtəlif qrupların toqquşmasını yüngülləşdirir. Bu plüralizm sanki ayrı-ayrı vətəndaşların bu və digər qrupa mənsubluğu gərginliyində hər qrup və münaqişəyə öz payını vermək üçün geniş yayılmalı olan bir iqtisadiyyatın formalaşmasına səbəb olur.

Bundan əlavə, A vətəndaşı E1 qrupunun üzvü kimi E2 qrupunun üzvü olan B vətəndaşına qarşı çıxsa da, onların hər ikisi də P qrupunun üzvü olduğundan hasarın digər tərəfində B vətəndaşı ilə eyni tərəfdədirlər. Başqa sözlə, A vətəndaşı və B vətəndaşı iqtisadi sahədə düşməndirlər, lakin siyasi sahədə dostdurlar. Onlar iqtisadi cəhətdən bir-birilərinə qarşı çıxırlar, siyasi cəhətdən isə birlikdədirlər. A vətəndaşı və B vətəndaşı həmçinin dini, etnik və regional və s. qrupların üzvləridirlər və onların hər ikisi bu qrupların üzvlərinin istənilən sayı ilə oxşar birlik və münaqişə münasibətlərinə malik ola bilər. Bu halda A vətəndaşı yalnız eyni vaxtda müxtəlif sosial qrupların çoxluğu ilə ortaqlığa malik deyil, o həmçinin bu müxtəlif qrupların üzvü kimi öz həmqruplarının müəyyən bir sayı ilə eyni vaxtda həm dost, həm də düşməndir, çünki onlar onun ya üzvü, ya da müxalifi olduğu müxtəlif qruplara mənsubdurlar.

A vətəndaşının öz həmqruplarına münasibətdə dost və düşmən kimi cəm halında oynadığı rol onun üzərinə həm dost, həm də düşmən kimi məhdudiyyətlər qoyur. O eyni zamanda həm də onun iqtisadi rəqibləri olan siyasi dostları ilə iqtisadi mənfəət uğrunda mübarizədə məğlub olmaq riskinə getmədən tam ortaq ola bilmir. O, siyasi qrupun üzvü kimi ehtiyac duyduğu siyasi dəstəyi itirmədən iqtisadi mənfəət uğrunda mübarizəni ifratçılıqlara sürükləyə bilmir. Əgər A vətəndaşı eyni zamanda həm iqtisadi rəqib, həm də siyasi dost olmaq istəyirsə, o çalışmalıdır ki, həm də elə hüdudlar daxilində hərəkət etsin ki, başqa birinin yoluna çıxmasın. Bununla da cəmiyyətin müxtəlif üzvlərinin oynadığı sosial rolların üst-üstə düşməsi münaqişələrin neytrallaşdırılmasına və cəmiyyətin müxtəlif üzvlərinin eyni vaxtda müxtəlif rollar oynamasına şərait yaradacaq hüdudlar daxilində məhdudlaşdırılmasına xidmət edir.

Nəhayət, A vətəndaşı və B vətəndaşı yalnız bir-biriylə mübarizə aparan iqtisadi qurumların üzvləri deyil və yalnız üst-üstə düşən siyasi mənsubiyyətə malik

deyillər, hələ onların mənsub olduqları digər qruplardan danışmırıq, onlar həm də mahiyyət etibarilə eyni bir milli cəmiyyətin üzvləridirlər. Onlar eyni dili, eyni adət-ənənələri, eyni tarixi yaddaşı, eyni fundamental sosial və siyasi fəlsəfəni və eyni milli rəmzləri bölüşürlər. Onlar eyni qəzeti oxuyur, eyni radio proqramlarını dinləyir, eyni bayramları qeyd edir və eyni qəhrəmanlara pərəstiş edirlər. Hər şeydən əvvəl isə, onlar öz dövlətlərini digər dövlətlər ilə müqayisə edirlər və digər dövlətlərin nümayəndələri ilə müqayisədə bir-biri ilə nə qədər çox ortaq cəhətlərə malik olduqlarını dərk edirlər. Daha dəqiqi, onlar əmin olurlar ki, onların malik olduğu ortaq milli keyfiyyətlər, xüsusilə mənəvi keyfiyyətlər bütün mühüm baxımlardan fərqli dövlətlərə mənsub olanların keyfiyyətlərindən üstündür.

Beləliklə, A vətəndaşı və B vətəndaşı yalnız eyni bir xalq ailəsinə mənsub olduqlarını deyil, həmçinin bu ailə münasibəti səbəbindən çox qiymətli olan nəsə ortaq bir şeyə, onların dəyərini yüksəldən və onları əcnəbilərlə müqayisədə hər mühüm baxımdan "daha yaxşı" insan edən nəyəsə sahib olduqlarını hiss etməyə başlayırlar.

A vətəndaşının və B vətəndaşının özünəhörməti, eləcə də onların bir-birilərinə bəslədikləri ehtiram onların eyni bir milli birliyin üzvü olması ilə sıx şəkildə bağlıdır. Onların intellektual baxışları və mənəvi dəyərləri bu üzvlükdən qaynaqlanır. Bu üzvlüyün onların güc meyillərinə necə əvəzedici məmnuniyyət verdiyi haqqında biz artıq təfsilatı ilə danışmışıq.[1] Onları dövlətə bağlayan sədaqətlər, sadəcə, əldə olunmuş mənfəətlər üçün minnətdarlıq borcunu geri ödəməkdən daha artıqdır. Bu yalnız dövlətə sadiq olmaq, ona bütün dünyəvi mülkiyyətin ilkin mənbəyi kimi bağlanmaq, onunla elə eyniləşməkdir ki, mülkiyyətin təhlükəsizliyini, milli qürurun şadlığını, Vətənin digər dövlətlər ilə mübarizədə qələbələrini özününkü kimi yaşayırsan. Beləliklə, dövlətin xaricdən dağılması və daxildən süqut etməsi bütün vətəndaşların ən mühüm narahatlığıdır. Eynilə dövlətə sədaqət də bütün vətəndaşların mühüm öhdəliyidir. Dövlətdəki bağlılığı təhdid edə bilən heç nəyə dözmək olmaz. Dövlətin birliyi marağı ilə bir araya sığmayan maraqlar, ideyalar və sədaqətlər bu marağa təslim olmalıdır.

Bu maraq A vətəndaşı və B vətəndaşını ayırmağa imkan verən məsələlərə və A vətəndaşı və B vətəndaşının bu məsələlər uğrunda mübarizə aparmaq üsullarına daimi məhdudiyyətlər qoyur. Münaqişələrinin obyektindən asılı olmayaraq, onlar milli birlik məsələsinin özünü gündəmə gətirməyəcəklər. A vətəndaşı və B vətəndaşının münaqişəni öz maraqlarına uyğun həll etmək üçün istifadə etdiyi üsullardan asılı olmayaraq, onlar dövlətin birliyini təhlükə altına sala biləcək tədbirlərə əl atmayacaqlar. Dövlət daxilində bütün münaqişələr bu şəkildə daşıdığı məqsədlərə istifadə etdiyi üsullara münasibətdə məhduddur. Onlar sanki milli

[1] Bax: səh. 166 və növbəti səhifələr

birliyin sıx toxunmuş qumaşı içində pərçimlənib və bu onları hüdudlar daxilində saxlayır. Plüralizmin və qrup sədaqətlərinin üst-üstə düşməsinin birliyində dövlət daxilində sülhə şərait yaradan üç amilin birincisini milli sədaqətlərin məhdudlaşdırıcı təsiri təşkil edir.

Ədalət gözləntisi

Milli cəmiyyətlər düşmən mövqedə olan sosial qruplarda iddialarının heç birinin tamamilə rədd edilməyəcəyinə, onların hamısının ən azından qismən təmin edilmək şansına malik olduğuna dair gözləntini necə yaradır? Mübarizə aparan bütün qrupların mənsub olduqları milli cəmiyyətdən heç olmasa ədalətə yaxın vəziyyət gözləmələrini necə mümkün edir?

Milli cəmiyyətlərdə ədalət problemi özünü iki səviyyədə göstərir. Bunlardan biri bütövlükdə cəmiyyətin bölüşdüyü ümumi prinsiplər səviyyəsi, digəri isə ayrı-ayrı qruplar tərəfindən irəli sürülən xüsusi iddialar səviyyəsidir. Ümumi prinsiplər səviyyəsində sülh üçün heç bir təhlükə meydana çıxmır, çünki hər şey cəmiyyətin ümumi rifahını təyin edən ümumi prinsiplərə uyğunlaşdırılır. Demokratiya, sosial ədalət, bərabərlik və söz azadlığı kimi prinsiplər nə qədər ki cəmiyyətin kollektiv şəkildə göstərdiyi cəhdlərin son məqsədini təyin edən mücərrədliklər sahəsində qalmaqda davam edir, cəmiyyətdə sülhü təhlükə altına salacaq münaqişələrin meydana çıxmasına imkan vermir.

Lakin bu mücərrədliklər həmin prinsiplər adından öz ziddiyyətli iddialarını irəli sürən sosial qruplar tərəfindən ələ keçirildikdə sosial münaqişədə güclü silahlara çevrilir. Bu iddialar cəmiyyəti onun ali çağırışı ilə üz-üzə qoyur. Cəmiyyət sülhü təhlükə altına atmadan kiçik və zəif qrupların iddialarına əhəmiyyət verməyə bilər. Onun sosial birliyi və mütəşəkkil zorakılıq üzərində inhisarçılığı bu cür kiçik və zəif qrupları açıq şəkildə sosial nizama qarşı çevirəcək narazılığın qarşısını almaq üçün kifayət qədər güclüdür. Lakin cəmiyyət inqilab və vətəndaş müharibə riski oyatmadan, yəni sülhü və onun bütöv bir vahid formasında mövcudluğunu təhlükə altına salmadan böyük və potensial olaraq güclü qrupların ədalət iddialarına qarşı etinasız qalmağa imkan verə bilməz.

Burada dinc dəyişikliyin mürəkkəb mexanizmi dövrəyə daxil olur və bütün qruplara öz ədalət iddiaları haqqında arbitraj qərarının çıxarılması üçün ictimai fikrə, seçkilərə, parlament səsverməsinə, təftiş şuralarına və s. təqdim etmək imkanı verir. Biz artıq bu mexanizmlərin fəaliyyətini digər kontekstlərdə ümumi şəkildə izah etmişik və oxucunu buna istiqamətləndiririk.[1] Bu mexanizmlər sosial

[1] Bax: paraqraf 26.

qrupların belə ziddiyyətli iddialarını dinc üsullara yönləndirir və bu zaman onlara eşidilmək və hamı üçün məcburi olan qaydalara uyğun olaraq qəbul olunmaq üçün bir-biri ilə rəqabət aparmaq imkanı verir. Bu yarışların şərtləri altında heç bir qrup uzun vədədə üstünlük əldə edəcəyinə əmin ola bilməz, lakin bütün qruplar bu və digər vaxtda ədalətə nail olmağa doğru bəzi addımlar atmaq şansına arxalana bilər.

Dəfedilməz güc

Milli cəmiyyətlər daxilində sülhün mühafizəsindəki üçüncü amil cəmiyyətin sülhün pozulmasına göstərilən bütün cəhdləri onlar baş qaldırdığı an boğa bilən dəfedilməz gücüdür. Bu dəfedilməz güc özünü iki formada büruzə verir: mütəşəkkil zorakılıq üzərində inhisarçılıq şəklində maddi qüvvə formasında və qarşısıalınmaz sosial təzyiq formasında.

Mütəşəkkil zorakılıq üzərində inhisarçılıq formasında cəmiyyətin ixtiyarında olan güc zorakılığın istənilən digər formasından, xüsusilə beynəlxalq sahədə qarşılaşdığımız formasından iki xüsusiyyətinə görə fərqlənir.

Sosial qrupların ziddiyyətli iddiaları nə qədər ki qanun hüdudları daxilindədir və dinc üsullardan yararlanır, milli cəmiyyətlərin mütəşəkkil zorakılığı onlara münasibətdə müəyyən qədər laqeyd olur. XIX əsrin liberal təlimi belə hesab edirdi ki, cəmiyyətin mütəşəkkil zorakılığı tamamilə etinasızdır və qanun onu pozan istənilən kəsə qarşı onu tətbiq etməyə hazır şəkildə, toqquşan maraqların yaratdığı qarşılığın üstündə yer alır. Bu təlimin əksinə olaraq, marksizm iddia edir ki, cəmiyyətin mütəşəkkil zorakılığı hakim sinfin istismar olunan kütlələr üzərində öz hakimiyyətini qoruyub saxlamaq üçün istifadə etdiyi silahdan başqa bir şey deyil. Əslində, cəmiyyətin məcburi təşkilatlanması tamamilə qərəzsiz ola bilməz, çünki, görmüş olduğumuz kimi[1], onun tətbiq etdiyi hüquqi nizam tamamilə qərəzsiz ola və mövcudluğuna görə borclu olduğu status-kvonu müdafiə etməyə bilməz. Əgər şübhə altına düşərsə, status-kvo cəmiyyətin məcburi təşkilatlanmasının dəstəyinə bel bağlaya bilər.

Bununla belə, cəmiyyətin məcburi təşkilatlanmasının status-kvonun lehinə olan təmayülə malik olması, lakin ayrıca bir status-kvonun lehinə olan təmayülə malik olmaması onun özünəməxsus xüsusiyyətidir. Amerika cəmiyyətinin məcburi təşkilatlanması status-kvonu 1800, 1900, 1932 və 1940-cı illərdə müdafiə edib. Britaniya cəmiyyətinin məcburi təşkilatlanması ardıcıl olaraq feodalizm, kapitalizm və sosializm status-kvosunu müdafiə etmişdir. Lakin ola bilər ki, ayrıca bir status-kvo

[1] Bax: səh. 549 (bax: paraqraf 20).

fundamental mənəvi təsəvvürlərə və əhalinin əhəmiyyətli bir qisminin vacib maraqlarına zidd olar və qanun tətbiqetmə qurumlarının əhəmiyyətli bir qrupu onların status-kvoya barışmaz müxalifliyinə can yandırar. Bu halda, status-kvonu əks etdirən hüquqi nizam tətbiq olunmayacaq. ABŞ-da Vətəndaş müharibəsinin konstitusion zəmini və spirtli içki qadağasının taleyi belə vəziyyətin nümunəsidir.

Milli cəmiyyətlərinin məcburi təşkilatlanmasının digər bir xüsusiyyəti kollektiv fəaliyyətin çatışmazlığıdır. Bir qayda olaraq, milli cəmiyyətlərin məcburi təşkilatlanması sülh və nizamı yalnız ayrı-ayrı qanun pozucularından mühafizə edir. Onun üçün kollektiv qüvvə kimi sülhü pozmaqla təhdid edən digər bir kollektivə qarşı çıxmaq nadir istisnadır. Əmək mübahisələrində güc tətbiqi bu növün ən çox rast gəlinən növüdür. Adətən, cəmiyyətin əlində təşkilatlanmış zorakılıq üzərində inhisarçılığın mövcudluğunun özü ölkədaxili sülhün kollektiv şəkildə pozulmasının qarşısını alır. Onun mövcudluğu faktının özü cəmiyyətin məcburi təşkilatlanması tərəfindən tədbirlərin görülməsini qeyri-zəruri edir.

Bu amildən başqa və güman ki, onun əhəmiyyətini üstələyən bir amil cəmiyyətin sülhü qorumaq üçün öz üzvlərinin üzərinə qoyduğu böyük, təşkilatlanmamış təzyiqdir. Qrup təzyiqdən yaxa qurtara bilmək üçün cəmiyyətin öz çərçivəsi daxilində özünün daha çox birləşmiş, daha dözümlü və mərkəzində yer aldığı milli cəmiyyətin tələb etdiyindən daha yüksək sədaqətlər tələb edən sosial strukturunu qurmalıdır. Dövrümüzdə millətçiliyin gücü, onun millətçi universalizmin siyasi məzhəbinə çevrilməsi müasir kütləvi kommunikasiya vasitələrinin hər yerdə mövcud olması və onların kiçik və nisbətən yekcins qrup tərəfindən idarə olunması milli cəmiyyətlərdə müxalif qrupları qanun və sülh çərçivəsində saxlamağa xidmət edən sosial təzyiqləri artırmış və gücləndirmişdir.

Dövlətin rolu

Dövlətin ölkə daxilində sülhün qorunub saxlanılmasında rolu nədən ibarətdir? "Dövlət" cəmiyyətin məcburi təşkilatlanmasının – nizam və sülhü qoruyub saxlamaq üçün cəmiyyətin təşkilatlanmış zorakılıq üzərində inhisarçılığından istifadə edə bilmək şərtlərini təyin edən hüquqi nizamın başqa bir adıdır. Əvvəlki hissələrdə cəmiyyətin məcburi təşkilatlanması və hüquqi nizamı haqqında danışanda, əslində, dövlətdən danışırdıq. O, ölkə daxilində sülhü qorumaq üçün üç funksiyanı yerinə yetirir: (1) Dövlət milli cəmiyyətin hüquqi davamlılığını təmin edir. O bununla ayrı-ayrı fərdlərin dövlətə zaman və məkan bölünməzliyi olan mühit, insanların adından fəaliyyət göstərən, xidmətlər tələb edən və xidmət göstərilən, eləcə də imtiyazlar bəxş edən, insanın ona qarşı ailə və kilsədən başqa, az sayda digər qruplara bəslədiyi sədaqətləri hiss edə bildiyi şəxsiyyət kimi münasibət

bəsləməsi imkanı yaradır. (2) Dövlət sosial dəyişikliyin əksər təsisatlanmış qurumları və proseslərini təmin edir. (3) Dövlət qanunlarının tətbiq olunması üçün qurumların işini təmin edir.

Bizə dövlətin ölkədaxili sülhdə rolunun əhəmiyyətini təyin etmək qalır. Bu sualın iki cavabı var. Dövlətin daxili sülhün təmin edilməsində rolu əvəzedilməzdir, lakin bu da öz-özlüyündə kifayət etmir. Dövlətin rolu olmadan ölkə daxilində sülhə nail olmaq mümkün deyil, lakin heç nəsiz, yalnız dövlətin rolu ilə də ölkə daxilində sülhü təmin etmək olmur.

Dövlət olmadan ölkə daxilində sülhün mövcud ola bilməməsi güc, qüvvələr tarazlığı və suverenlik məsələləri haqqında dediklərimizdə artıq nəzərdə tutulmuşdur. Düşmən sosial qruplar özləri üçün vacib hesab etdikləri məqsədlərə nail olmaq üçün ixtiyarlarında olan istənilən vasitədən istifadə edəcək. Əgər belə sosial qruplar suveren dövlətlərin qarşılıqlı münasibətlərində etdikləri kimi fiziki zorakılıq üsullarına nəzarət edirsə, onlardan iki yolla istifadə edəcək. Onlar ya üstün hesab etdiklərinin nümayiş edilməsi ilə rəqiblərinə təzyiq edəcəklər, ya da rəqibin fiziki zorakılıq vasitələrini məhv etmək üçün tətbiq edəcəklər. Hər iki seçimdə fiziki zorakılığın məqsədi rəqibin digər tərəfin tələblərinə müqavimət göstərmək iradəsini sındırmaqdır.

Milli cəmiyyətlərin tarixi göstərir ki, heç bir siyasi, dini, iqtisadi, yaxud regional qrup əgər çox böyük riskə getmədiyini düşünübsə, uzun müddət öz iddialarını zorakı üsullarla irəli sürməyin cazibəsinə qarşı tab gətirə bilib. Digər sosial amillər sülhün motivini nə qədər çox müdafiə edə bilsə də, onların səmərəliliyi zorakılığın öz sahibinə verdiyi sürətli və mütləq qələbə vədinə uzun müddət sadiq qalmadı. Bununla da dövlət təşkilatlanmış zorakılıq üzərində inhisarçılığını qoruyub saxlamaq və sülhün qorunması və öz mövcudluğunun təmin edilməsi məqsədilə əlində olan istənilən zorakılıq vasitəsini səmərəli şəkildə istifadə etmək iqtidarında olmayanda milli cəmiyyətlər parçalanmış, bir sıra daha kiçik daimi və müvəqqəti vahidlərə bölünmüşdür.

Nail olunmalı məqsədlərlə əsaslandırıldığı halda zorakılıqdan istifadə edə bilən istənilən kəs ondan istifadə edəcəyi üçün, ondan istifadənin qarşısını almaqdan ötrü güclü sosial quruma ehtiyac var. Cəmiyyət dövlətin ona zaman və məkanda verdiyi hüquqi birlik və dövlətin sosial proseslərin dinamikasını tənzimləmək üçün istifadə etdiyi sosial dəyişiklik qurumlarına əvəzedicilər tapmalıdır. Cəmiyyət mövcudluğunun özü mübarizə aparan qrupların üstündə ucalaraq, onların münaqişələrini dinc sərhədlər daxilində saxlayan Leviafanın gücü üçün heç bir əvəzediciyə sahib deyil.

Ölkə daxilində sülhün qorunub saxlanılmasında dövlət əvəzedilməzdir; Hobbsun fəlsəfəsinin həqiqi mesajı belədir. Lakin dövlət öz-özlüyündə ölkə daxilində sülhü

qoruyub saxlaya bilmir; bu isə Hobbsun fəlsəfəsinin böyük səhvidir. Dövlətin gücünün mühüm olduğu, lakin milli cəmiyyətlərin sülhü təmin etmək üçün kifayət etmədiyi vətəndaş müharibələrinin tarixi təcrübəsi ilə nümayiş olunub. Əgər tarixin uzun dövrü ərzində onların sayı az olsaydı, onlara qaydada istisna halları kimi məhəl qoymamaq olardı. Lakin 1480-1941-ci illər ərzində aparılmış ümumilikdə 278 müharibədən 78-i – yəni 28 faizi – vətəndaş müharibələri olub. 1840-1941-ci illəri əhatə edən bir dövrdə vətəndaş müharibəsi ilə dövlətlərarası müharibələr arasındakı nisbət birinci 18, ikinci isə 60 olmaqla təxminən birin üçədir. 1800-1941-ci illər müddətində rəqəmlər 28 vətəndaş müharibəsi və 85 dövlətlərarası müharibə olmaqla nisbət dəqiqliklə birin üçədir.[1]

Vətəndaş müharibələrinin baha başa gəlməsi haqqında Kuinsi Rayt yazır: "XVI əsr Fransa Quqenot müharibələri, Britaniyada XV əsrdə Qızılgül müharibələri və XVII əsr Vətəndaş müharibəsi, Almaniyanın nöqteyi-nəzərindən Otuzillik müharibə, İspaniyanın nöqteyi-nəzərindən Yarımada müharibəsi, Amerika Vətəndaş müharibəsi, Çində Taypin üsyanı həm insan itkisinə və həm də iqtisadi itkilərə görə çağdaş dövlətlərarası müharibədən baha başa gəlmişdir".[2]

Vətəndaş müharibəsinin tezliyi və dağıdıcılığı göstərir ki, dövlətin mövcudluğu ölkə daxilində sülhün qorunub saxlanmasına təminat vermir. Bunun səbəbi dövlətin özünün təbiətindədir. Dövlət hökumətin bəzi mücərrəd prinsiplərinin timsalında dərk edilən və mövcud ola bilən istənilən cəmiyyətin boynuna qoyulan konstitusion müqavilənin süni yaradılışı deyil. Əksinə, dövlət qaynaqlandığı cəmiyyətin bir parçasıdır və cəmiyyət inkişaf etdikcə o da inkişaf edir, cəmiyyət tənəzzül etdikcə o da tənəzzül edir. Cəmiyyətdən ayrı olmayan dövlət cəmiyyətin özü tərəfindən yaradılır.

Qrupları arasındakı münaqişələri artıq üstünlük qazanmış sədaqətləriylə məhdudlaşdırılmayan, qarşısı alınmayan və zərərsizləşdirilməyən, sosial dəyişiklik prosesləri artıq bütün böyük qrupların ədalət gözləntisinə dayaq olmayan, təşkil olunmamış məcburiyyət qüvvələri artıq həmin qruplara tabe olmaq üçün təsir göstərməyə kifayət etməyən cəmiyyətlərdə sülh dövlətin nə qədər qüdrətli olmasından asılı olmayaraq, onun tərəfindən qoruna bilmir. Cəmiyyət daxilində sinfi, irqi, dini, regional, yaxud sırf siyasi mübarizələr formasında üzə çıxan dağıdıcı inqilablar, dövlət çevrilişləri, vətəndaş müharibələri şəklini alır. Dövlət bu toqquşmalardan kənar qalmır, necə ki, yanğınlar baş verən kimi onları söndürməyə hazır olan yanğınsöndürmə idarəsi yanğınlardan kənar qalmır. Dövlət

[1] Quincy Wright, *A Study of War* (Chicago: University of Chicago Press, 1942), Vol. I, səh. 651.
[2] Yenə orada, səh. 247.

qaçılmaz olaraq iki baxımdan bu toqquşmalara cəlb olunur. Bir tərəfdən dövlət inqilabın başlıca hədəfidir və güc tətbiqi yolu ilə özünü ondan müdafiə etməlidir. Digər tərəfdən cəmiyyəti dağıdan parçalanmalar həm də onun məcburi təşkilatlanmasını – dövləti parçalayır. Bu halda dövlət ya vahid bir orqan kimi fəaliyyətini dayandıracaq, onun bir-birinin ziddinə gedən hissələri bütövlükdə cəmiyyətin bir-biri ilə mübarizə aparan qruplarına qoşulacaq və dövlətin birliyi vətəndaş müharibəsində pozulacaq, ya da – növbəti, müasir texnologiyanın dövlətə verdiyi effektiv güc üzərində inhisarçılıq baxımından bizim dövrümüzdə daha çox ehtimal olunan haldır – əhalini tərəflərə ayırmış məsələlər uğrunda bütövlükdə əhali mübarizə aparmayacaq, onlar uğrunda dövlətin təşkilatlanması daxilində dövlət çevrilişi, sui-qəsdçilik və təmizləmə formasında ölümcül mübarizələr aparılacaq.[1]

DÜNYA DÖVLƏTİ MƏSƏLƏSİ

Ölkə daxilində sülh məsələsinə dair analizlərimiz göstərib ki, dünya dövləti tərəfdarlarının arqumentinin cavabı yoxdur: sərhədləri siyasi dünyanın sərhədləri ilə üst-üstə düşən dövlət olmadan daimi beynəlxalq sülhə nail olmaq mümkün deyil. İndi diqqətimizi yönəltməli olduğumuz məsələ dünya dövlətinin yaradıla bilməsi üsuluna aiddir.

İki düşüncə məktəbi

"Nümayəndəli hökumət haqqında düşüncələr" əsərinin 1-ci fəslində Con Stüart Mil hökumətin ayrı-ayrı formalarına münasibətdə eyni problem ilə qarşılaşdı. "Siyasi təsisatın nə olduğuna dair" Mil onun probleminə dair bütün müzakirələrin əsasında durduğunu hesab etdiyi iki "ziddiyyətli təsəvvür", həm də dünya dövlətinin yaradılmasına dair müzakirələri təyin edir. Bir düşüncə məktəbinə görə, hökumət kəskin olaraq üsullar və məqsəddən başqa heç bir məsələnin üzə çıxmasına imkan verməyən təcrübi sənət kimi təsəvvür edilir. Hökumət formaları insan obyektinin nailiyyəti üçün istənilən digər üsullar ilə uyğunlaşdırılır. Onlara bütövlükdə ixtira və kələk işi kimi münasibət bəslənilir. İnsan tərəfindən yaradıldığı üçün hesab olunur ki, insanların onları yaratmaq, ya da yaratmamaq, eləcə də necə və hansı nümunə əsasında yaratmaq seçimi var... Hökumətin ən yaxşı

[1] Dövrümüzdə xalq inqilablarının tədricən yox olması haqqında bax: səh. 476 və növbəti səhifələr

formasını tapmaq, başqalarını onun ən yaxşı olduğuna inandırmaq və onları elə həvəsləndirməkdir ki, buna sahib olmağa israr etsinlər – bu, siyasi fəlsəfə baxışını qəbul edənlərin beyinlərindəki ideyaların ardıcıllığıdır. Onlar konstitusiyaya da buxar kotanına, yaxud taxıldöyən maşına baxdıqları eyni nöqteyi-nəzərdən baxırlar (miqyaslar müxtəlif ola bilər).

Digər düşüncə məktəbinin hökumətə münasibəti qeyri-iradi məhsul, hökumət elminə isə (belə deyək) təbii tarixin bir sahəsi kimi idi. Onlara görə, hökumət formaları seçim məsələsi deyil. Biz onları, əsasən, qarşımıza çıxdıqları kimi qəbul etməliyik. Hökumətlər əvvəlcədən müəyyən edilmiş formaya uyğun yaradıla bilməz. Onlar "yaradılmır, yetişir". ...Xalqın fundamental siyasi institutları bu məktəb tərəfindən həmin xalqın təbiəti və həyatının üzvi yetişkənliyi kimi nəzərdən keçirilir: onların adətlərinin, instinktlərinin, düşünülməmiş istəkləri və arzularının məhsuludur, nəinki qabaqcadan düşünülmüş məqsədlərinin. Onların iradəsinin məsələdə heç bir payı yoxdur, yalnız məqamın zərurətlərinin məqamın ixtiraları ilə qarşılaşması zamanı, adətən, əgər milli hisslər və xarakter ilə kifayət qədər uyuşursa, ixtiralar davam gətirir və ardıcıl birləşmələrlə məxsus olduğu xalqa münasib olan hökumət yaradır, lakin təbiəti və şəraiti qeyri-iradi olaraq buna tərəqqi etməmiş hər hansı xalqa etmək cəhdi əbəs olar.

Mil bu iki təlimin ifratçılıqları arasında mövqe tutdu və "onların hər ikisində mövcud olan həqiqət kütləsi"ndən yararlandı. Bir tərəfdən Siyasi təsisatlar ...insan fəaliyyəti ilə bağlıdır; öz mənşələrinə bütövlükdə mövcudluğuna görə insan iradəsinə borcludur. ...Digər tərəfdən həm də dərk olunmalıdır ki, siyasi mexanizm öz-özlüyündə fəaliyyət göstərmir. O yaradıldığı kimi, insan tərəfindən, hətta ən adi insan tərəfindən olsa da belə, işlədilməlidir. Onun insanların, sadəcə, könülsüz razılığına deyil, onların fəal iştirakına ehtiyacı var və belə insanların mövcud imkanları və keyfiyyətlərinə uyğunlaşdırılmalıdır.

Bu, üç şərti nəzərdə tutur. Hökumət forması nəzərdə tutulduğu xalqın onu qəbul etmək istəyi formasında olmalıdır, yaxud da ən azından onun yaradılmasına aşılmaz maneə törətməlidir. Onlar həmin hökumətin mövcudluğunu qorumaq üçün zəruri olanları etməyə istəkli, həmçinin bunları etmək iqtidarında olmalıdır. Onlar həm də hökumətin öz məqsədlərini yerinə yetirməsi üçün tələb olunanları etməkdə istəkli, həmçinin onları etmək iqtidarında olmalıdırlar. Onlar yaradılmış hökumətin mövcudluğunu saxlamaq, yaxud onun üçün məqsədlərinə və fəaliyyətin həyata keçirilməsinə şərait yaradan tövsiyələrinin həyata keçməsinə nail olmaq imkanı yaratmaq üçün zəruri olan fəaliyyət və təmkinlilik şərtlərini yerinə yetirmək iqtidarında olmalıdırlar.

Bu şərtlərdən hər hansı birində uğursuzluq hansı əlverişli vədi yerinə yetirməsindən asılı olmayaraq, hökumət formasını verilmiş hal üçün qeyri-münasib edir.

İctimai dəstəyin 3 hissədən ibarət sınağı

Hökumətin xüsusi formaları üçün düşünülüb tapılmış üç hissədən ibarət yoxlama dünya dövlətinə də tətbiq oluna bilər. Dünyanın xalqları dünya hökumətini qəbul etmək istəyir, yaxud ən azından onun yaradılmasına aşılmaz maneə törətmək istəmirlər ki? Onlar dünya hökumətinin mövcudluğunun saxlanılması üçün zəruri olanı etmək istəyindədirlərmi və buna qadirdirlərmi? Onlar dünya hökumətinin öz məqsədlərini yerinə yetirmək üçün onlar tələb etdiyini etməyi istəyirlərmi və buna qabildirlərmi, yoxsa bundan boyun qaçırırlar? Bu sualların cavabları millətçilik, millətçi universalizm, beynəlxalq əxlaq normaları və dünya ictimai fikri haqqında əvvəldə deyilənlərdə nəzərdə tutulub.[1] Onların cavabları həm də ölkə daxilində sülhün qorunub saxlanması şərtləri haqqında deyilənlərdə nəzərdə tutulub. Cavablar inkar olmaq məcburiyyətindədir.

Ərazi baxımından dünya dövlətinin təxmin edilən ərazisi ilə üst-üstə düşən heç bir cəmiyyət yoxdur. Mövcud olan suveren dövlətlərin beynəlxalq cəmiyyətidir. Bütün dövlətlərin ayrı-ayrı nümayəndələrindən təşkil olunmuş və ona görə də siyasi baxımdan təşkil olunmuş bəşəriyyət ilə üst-üstə düşən fövqəlmilli cəmiyyət mövcud deyil. Dövrümüzdə əksər insanların yaşadığı və fəaliyyət göstərdiyi ən böyük cəmiyyət milli cəmiyyətdir. Gördüyümüz kimi, dövlət insanın ən ali dünyəvi sədaqətlərinin ünvanıdır. Ondan o tərəfə dövlətlər var, lakin insanın öz dövlətinin maraqları altında nəyi dərk etməsindən asılı olmayaraq, uğrunda fəaliyyət göstərmək istəyə biləcəyi heç bir birlik yoxdur. İnsan milliyyətindən asılı olmayaraq, ehtiyacı olana yemək, geyim və pul vermək istəyir.

Lakin onlar ehtiyacı olanlara istədikləri yerə getmək və bununla da yenidən xeyirli vətəndaşa çevrilmək icazəsi vermək əvəzinə, onları olduqları yerdə saxlamağa üstünlük verirlər. Çünki beynəlxalq yardım milli maraq ilə uyğunlaşa bildiyi halda, mühacirət azadlığı onunla bir araya sığmır. İnsanlığın mövcud mənəvi şərtləri altında az insan dövlətinin maraqları onların dərk etdiyi kimi fərqli fəaliyyət kursu tələb edirsə, dünya hökuməti adından fəaliyyət göstərər. Əksinə, böyük əksəriyyət dövlətinin rifahı hesab etdiklərini dünya dövlətinin maraqları da daxil olmaqla digər hər şeydən üstün tutur. Başqa sözlə, dünyanın xalqları dünya hökumətini qəbul etmək istəmir və onların dövlətə hər şeydən üstün olan sədaqəti onun yaradılması üçün aşılmaz maneə törədir.

Dünyanın xalqları heç dünya hökumətinin mövcudluğunu qoruyub saxlamaq üçün zəruri olanları etmək istəmir də və buna qadir də deyil. Çünki onlar bütün dəyərlərin dövləti öz hakimiyyətindən əl çəkməyə məcbur edəcək və ora bəşəriyyətin

[1] Bax: xüsusilə paraqraf 17.

siyasi təşkilatını gətirəcək, görünməmiş mənəvi və siyasi inqilabı həyata keçirməyə hazır deyillər. Onların uğrunda qurban vermək və ölmək istədikləri və buna qadir olduqları milli hökumətlərin mövcudluqlarını qoruyub saxlamasıdır.

Dövlətin lehinə olan imkanlar o qədər çoxdur ki, dünya dövlətinin mövcudluğunu qoruyub saxlaması üçün qurbanlar vermək və ölmək istəyən və buna qadir olan insanlar da bu gün təşkil olunmuş formada dünyada bunları hətta həyata keçirmək imkanına belə malik deyillər. Öz dövlətinin maraqlarına və siyasətinə bəşəriyyətin və onun dövlətinin naminə qarşı çıxmaq istəyəcək insan bu müxaliflik hərəkəti ilə (öz dövlətini zəiflədərək) hökumətinin ölümcül mübarizəyə qoşulmuş ola bildiyi dövləti gücləndirər. O, ən yaxşı halda, dövlətin xainlərə təyin etdiyi cəzanın işə düşməsinə şərait yaradaraq əqidəsinin qurbanına çevrilə bilər. Heç nə dünya dövlətini əks etdirən nə üçünsə ilkin sosial və mənəvi şərtlərin yoxluğunu dünya vətəndaşı kimi fəaliyyət göstərmək istəyən insanın dünyada mövcud şərtlər altında digər dövlətin havadarı, öz dövlətinə isə xəyanət edən bir insan kimi hərəkət etməyə məcbur edilməsindəki mənəvi paradoks qədər aydın nümayiş etdirmir. Çünki insanın öz dövlətindən üstün, adından hərəkət edə biləcəyi heç bir siyasi varlıq yoxdur. İnsanın öz dövlətindən qeyri, yalnız digər dövlətlər mövcuddur.

Sonuncusu, dünya xalqları dünyanın öz məqsədlərini yerinə yetirmək üçün onlardan tələb etdiklərini etmək istəyində deyil və buna qadir deyil. Bir dünya dövlətinin əsas məqsədi dünyada sülhü mühafizə etmək olar. Bu məqsədlə dünya dövləti üç funksiyanı yerinə yetirməli olar: (1) o, bəşəriyyətə insanlığın birliyini gözü qarşısında saxlayacaq bir hüquqi kimlik verər; (2) insanlığın bütün qruplarına öz ziddiyyətli iddialarının müəyyən qədər təmin olunmasını gözləmək imkanı verə bilən ümumdünya sosial dəyişikliyi üçün qurumlar yaradar və onların fəaliyyətini təmin edər; (3) o, böyük güc vasitəsi ilə sülhə istənilən təhlükənin qarşısını alacaq qanun tətbiqetmə qurumları yaradar. Belə bir ehtimal irəli sürmək olar ki, yuxarıda[1] qeyd olunmuş ictimai fikrə dair səsvermələrdə dünya xalqları (1) bəndində əksini tapmış funksiyanı yerinə yetirmək üçün dünya dövlətini dəstəkləyir. (3) bəndində əksini tapmış funksiyanın dəstəklənmədiyinə dair kifayət qədər danışılıb.[2] Onda gəlin dünya xalqlarının (2) bəndində əksini tapmış funksiyanı dəstəkləmə ehtimallarını qısaca nəzərdən keçirək; bildiyimiz kimi, bu funksiya istənilən dövlətin sülhü mühafizə etmə funksiyalarının mərkəzində yer alır.

Biz dünyanın müxtəlif xalqlarının sosial dəyişiklik üçün qanunverici qurumlarda necə təmsil olunacağı məsələsinin təfərrüatlarına varmayacağıq. Saya görə təmsilçilik, aydın məsələdir ki, ağ irqlər üçün qəbulolunmaz olar, çünki bu, dünyanı rəngli irqlərin hakimiyyəti altına salar. Əksəriyyət prinsipinin pozulması ilə istənilən

[1] Bax: səh. 416, qeyd 1.
[2] Bax: səh. 412-414.

təmsilçilik növü dünyada ağların üstünlüyünün bərqərar edilməsinə xidmət edər və bu halda daimi bir gerilik vəziyyətinə düşəcək rəngli irqlərin narazılığı ilə qarşılanar. Biz heç belə qanunvericilik qurumlarının yaradılması mümkün olsa da belə, işə salınmasının aşkar qeyri-mümkünlüyünün təfərrüatlarına da varmayacağıq. Amerikalılar, çinlilər, hindlilər və ruslar kimi fərqli mənəvi təsəvvürlərə, siyasi maraqlara və özünü idarəetmə bacarıqlarına malik xalqların təmsil olunduğu bir parlament, çətin ki, belə fərqliliklərdən bütövlükdə fəaliyyət göstərə bilən bir qurum yarada bilsin. Onu təşkil edən heç bir qrup belə təşkil edilmiş qanunverici bir assambleyaya məsələlərin səs çoxluğu ilə həll edilməsi üçün müraciət etmək istəməyəcək. Vətəndaş müharibəsi təhlükəsi və reallığı məcburiyyəti mənəvi və siyasi konsensus çatışmazlığı ilə əvəz etməli olan belə bir təsisatı tarixə çevirər.

Müxtəlif xalqların iddialarının adətən toqquşduğu iki konkret məsələni nəzərdən keçirək: immiqrasiya və ticarət. Dünya dövləti istənilən dünya dövləti kimi dövlətlərarası miqrasiyanın və ticarətin tənzimlənməsini tərkib hissələrinin ixtiyarına buraxa bilməz. Belə məsələləri o özü tənzimləyər. Hətta bu iki məsələdə dünya dövlətinin səlahiyyəti dünya konstitusiyası ilə qəti şəkildə məhdudlaşmış olarsa da, Amerika xalqının dünya hökumətinə ABŞ-ın sərhədini ildə, deyək ki, 100 000 rusun, 250 000 çinlinin və 200 000 hindlinin bura mühacirət etməsi üçün açmaq səlahiyyətini verməyə hazır olması üçün hansısa ehtimal varmı? Bəs sovet hökumətinin ildə 10 600 rusun ABŞ-a mühacirət etməsinə icazə verməyə razı olacağı ehtimal edilə bilərmi? Amerika əhalisi yerli məhsullarla bərabər şərtlərdə rəqabət apara biləcək xarici kənd təsərrüfatı mallarının ölkəyə hər hansı miqdarda idxalına icazə verərmi? Rusların ucuz istehlak mallarının planlı iqtisadiyyatlarını korlaya, eləcə də siyasi sisteminə inamı sarsıda biləcək idxalına icazə verəcəyinə dair hər hansı ehtimal varmı? Əgər bu suallara inkar cavab verilməli olarsa, – aydın məsələdir ki, belə də olmalıdır, – dünya dövlətinin, ümumiyyətlə, necə idarə olunması gözlənilir? Dövlətlər arasında dünyada sülhü təhlükə altına salan gərginliklərin dinc yolla necə həll edilə bilməsi gözlənilir?

Beynəlxalq sülhün dünya dövləti olmadan daimi ola bilməyəcəyi və dünyanın mövcud mənəvi, sosial və siyasi şərtləri altında dünya dövlətinin qurula bilməyəcəyinə dair gəlinən nəticədən heç kim boyun qaçırmır. Bu kitabda bu məqama qədər deyilənlər əsasında müasir tarixin heç bir dövründə sivilizasiyanın daimi sülhə bugünkü qədər çox ehtiyacı olduğu və müasir tarixin heç bir dövründə dünyanın mənəvi, sosial və siyasi şərtlərinin dünya dövlətinin yaradılması üçün əlverişsiz olduğuna dair gəlinən növbəti nəticələrdən də heç kim boyun qaçırmır. Nəhayət, heç kim onu dəstəkləmək istəyən və buna qadir olan cəmiyyət olmadan heç bir dövlət mövcud ola bilmədiyi kimi, onu dəstəkləmək istəyən və buna qadir olan dünya birliyi olmadan da dünya dövlətinin mövcud ola bilməyəcəyinə dair gəlinən nəticədən boyun qaçırmır.

İKİ YANLIŞ HƏLL YOLU

Bəs bu halda dünya dövləti necə yaradıla bilər? İki həll yolu təklif olunub: dünyanın istilası və İsveçrə və 1787-ci il Konstitusiya razılaşması ilə ABŞ-ın yaradılması nümunələri.

Dünyanın istilası

Dünya dövləti olmağa yaxınlaşmış bütün tarixi siyasi strukturları ortaq bir cəhətə malik olub: onlar bir güclü dövlət tərəfindən həmin dövrdə siyasi dünyaya məlum olan digər üzvlərin istila edilməsi ilə yaradılıb. Bu dünya dövlətlərinin əksəriyyəti digər bir ortaq cəhətə də malik olub: həmin dünya dövlətləri ancaq onları yaradanın ömrü qədər mövcud ola bilib.

Qərb sivilizasiyasında bu qaydaya yeganə istisna Roma imperiyasıdır. Bu dövlət təkrarolunmaz uzunömürlülüyünə görə iki qeyri-adi transformasiyaya borcludur. Romalı istilaçılar istila olunanları ya Roma vətəndaşı kimi hakim sivilizasiyaya qəbul etməklə, ya da onları doğma sivilizasiyalarından qopararaq qula döndərməklə romalılara çevirirdilər. Lakin xüsusilə ellin dünyasının istilası prosesində romalı istilaçı istila olunan sivilizasiyaların simasında öz sivilizasiyasında dəyişikliklər edərək özü dəyişdi. Bu ikitərəfli qarşılaşma prosesi ilə Roma öz istilalarının sərhədləri ilə üst-üstə düşən və yeni dövlətdə sabitliyi təmin etmək iqtidarında olan mənəvi və siyasi birlik yaratdı. Bu iki transformasiyaya digər bir vəziyyət də əlavə olunmalıdır ki, Aralıq dənizi bölgəsinin istilasından sonra Roma imperiyası barbarlar tərəfindən məskunlaşmış siyasi cəhətdən boş ərazilərə yayıldı və barbarların dağınıq şəkildə təşkil olunmuş sivilizasiyası istilaçının daha üstün olan və cəlbedici sivilizasiyasının təsiri altında parçalandı.

Digər dünya dövlətlərinin əksəriyyəti istila yaradılan kimi parçalandı. Çünki gücün hesabına yaradılan siyasi və hərbi superstrukturun altında hər biri ayrıca milli dəyərlərə və siyasi maraqlara malik olan və hər biri istilaçının əsarətindən xilas olmağa çalışan milli cəmiyyətlər yaşayır. Bu dünya dövlətləri onların sərhədləri ilə üst-üstə düşən dünya cəmiyyətinin təbii törəməsi deyil, süni olaraq həvəssiz milli cəmiyyətlərin çoxluğunun üstünə zorla qoyulan qüvvənin əsəridir. Əlbəttə, doğrudur ki, məsələn, Napoleonun mümkün ola biləcək dünya dövləti Böyük Britaniya və Rusiyanın istifadə edilməmiş ehtiyatları tərəfindən dağıdıldı. Lakin 1812-ci ildə həmin imperiya ekspansiya kimi əsas vəzifəsində uğursuzluğa uğrayaraq, ilk dəfə öz hərbi zəifliyini göstərdi, onu təşkil edən milli cəmiyyətlər özlərini təsdiqlədi və imperiyaya son qoymaq üçün Böyük Britaniya və Rusiyaya qoşuldu.

İstilaçı ilə istila olunan əhalini yeni birlikdə birləşdirə bilməyən daha kiçik miqyaslı istilalar daha kiçik üsyan riski və irridentist separatçılıq ilə üzləşir. İrlandiya ilə Böyük Britaniya arasındakı və Şərqi Avropa və Rusiya arasındakı əlaqələr buna nümunədir. Əgər istilaçı böyük güc toplaya bilirsə, eyni dövlətin daxilində yaşayan iki milli cəmiyyətin münaqişəsindən sülhə heç bir təhlükə törəyə bilmir. Lakin əgər istila olunmuş xalqın gücü ilə istilaçının gücünə tam mütənasib deyilsə, istilaçı ilə istila olunan arasında potensial vətəndaş müharibəsi vəziyyəti müasir müharibə şərtləri altında dövlətin mövcudluğunu təhlükə altına sala bilməsə də belə, onun gücünü sarsıdacaq.[1]

Məhdud istilaların sərhədləri daxilində yeni birlik yarada bilməyən məhdud istilaların mümkün nəticələri belədir. Buradan belə çıxır ki, istila ilə yaradılmış dünya siyasəti və dünya birliyinə dəstəyin olmaması öz sərhədləri daxilində sülhü yalnız o şərtlə qoruyub saxlamaq imkanına malikdir ki, istəksiz olan insan kütlələri üzərində öz hakimiyyətini tətbiq etmək üçün ehtiyac duyduğu milyonlarla əsgər polis arasında tam intizam və sədaqəti formalaşdırıb saxlaya bilsin. Belə bir dünya dövləti gil ayaqlar üzərində durmuş, düşüncəsinin özü təsəvvürü heyrətə salan totalitar əjdaha olar.

İsveçrə və ABŞ nümunələri

Görünür ki, dünya dövlətinin yaradılmasına nümunə olacağının gözləntilərinə İsveçrə artıq nail olub – öz dili, mədəniyyəti, tarixi, bağlılıqları və siyasətləri olan bir sıra suveren dövlətlərdən ibarət yeni federal dövlətin yaradılması. İsveçrə 4 müxtəlif dildə danışan 26 dövləti bir siyasi təşkilatda birləşdirə bilib. Dünyanın 150-dən çox dövləti niyə eyni işi görə bilməsin? Onlar da isveçrəlilər kimi federal konstitusiya qəbul etsinlər, bir-birilərinə qarşı İsveçrə dövlətlərinin bir-birinə qarşı davrandığı kimi davransınlar, bu halda dünya dövləti məsələsi də həll olunacaq. Arqumentin inandırıcı olduğu görünür və o, tez-tez ictimai müzakirələrdə nəzərdən keçirilir. Lakin o, İsveçrə tarixinin faktları ilə qarşılaşdırıldıqda aradan qalxır.

Hər şeydən öncə, birləşmiş İsveçrə dövlətinin tarixi 1848-ci ildən başlayır. Ondan əvvəl İsveçrə dövlətləri vahid dövlətdən daha çox uğurlu Millətlər Cəmiyyətini, yaxud Birləşmiş Millətlər Təşkilatını əks etdirən konfederasiya yaratdı. Həmin konfederasiya XIV əsr ərzində "Meşə kantonları" və bir neçə "Şəhər kantonları" arasında yaradılan bir sıra daimi ittifaqlardan əmələ gəldi. Bu ittifaqlar bu dövlətləri ortaq təhlükəyə qarşı müdafiəyə sövq edən müəyyən

[1] Bu məsələyə dair bax: səh. 476 və növbəti səhifələr

eyni və bir-birini tamamlayan maraqların nəticəsi idi. Bu ittifaqlar niyə meydana çıxdıqları xüsusi imkanları qoruyub saxladı və onları hətta konfederasiyanın hökumətin ümumi qurumları ilə sıx əlaqələri şəklində möhkəmləndirdi? Bu sualın cavabı İsveçrə fenomeninin izahını təmin edəcək.

(1) İlkin konfederasiyanın sərhədləri daxilində yerləşən 13 üzvün hamısının subyektləri olduqları, ortaq səyləri ilə azadlıq əldə etdikləri və onların hamısının ortaq düşməni olan Almaniya imperiyası və Habsburqlara qarşı ümumi müxalifətdə birləşdilər. (2) İsveçrə ordularının XIV-XV əsrlər boyunca cəngavərlər üzərində məşhur qələbələri iki nəticə doğurdu. Onlar Avropada əsrlər boyunca isveçrəlilərin ən qəzəbli əsgərlər nüfuzunu bərqərar etdilər və ilkin konfederasiyanın əsas ərazisini təşkil edən dağlıq vadilərin xarici hücumdan faktiki toxunulmazlığını sübut etdilər. (3) İsveçrə üzərinə hücumun səbəb olduğu hərbi risklərlə müqayisə edildikdə qələbənin cazibələri kiçik idi. Bu vadilərin təbii ehtiyatlarla kasadlığı nəzərə alınarsa, cazibələr müstəsna şəkildə strateji idi, yəni bunlar İtaliyanı Avropanın şimalı ilə birləşdirən bəzi Alp aşırımlarına nəzarəti təmin edirdi. Lakin dörd əsr boyunca, Napoleon müharibələri bir mühüm istisna təşkil etməklə İsveçrəyə bitişik olan böyük düşmən dövlətlər üçün İsveçrənin Alp aşırımlarını bütün müharibə aparan dövlətlərə qarşı müdafiə etmiş olması onların İsveçrədən alınmasına çalışmaqdan daha sərfəli idi.

Lakin məsələnin mühüm tərəfi budur ki, qüvvələr tarazlığı bu müdafiə təsirini yalnız İsveçrənin güclü qonşuları arasında rəqabət davam etdiyi müddətdə göstərdi. Napoleonun İtaliyadakı qələbələri eyni zamanda həmin müdafiəni dağıtdı və 1798-ci ildən etibarən İsveçrə mübarizə aparan orduların başıbəlalı qurbanı oldu. Onu da xatırlamağa dəyər ki, Avstriya, Almaniya və İtaliya "Üçlər ittifaqı"na qoşulduğu halda, İtaliya baş qərargahı 6 dəfə Almaniya baş qərargahına təklif etdi ki, İsveçrə ərazisindən keçməklə Fransaya qarşı birləşmiş kampaniyaya başlasınlar.

Beləliklə, İsveçrənin doğuluşu və mövcudluğunu mümkün edən, sadəcə, özünü konstitusiyalı tənzimləmədə ifadə edən iradi hərəkət deyil, bir sıra məxsusi və onların birləşməsində unikal olan şərtlər idi. Bu şərtlər İsveçrəyə güclü qonşuların ortasında mövcudluğunu qoruyub saxlamaq imkanı versə də, onlar onu təşkil edən dövlətlər arasında sülhü qoruyub saxlamağa icazə vermədi. 300 ildən bir az çox zaman müddətində İsveçrə dövlətləri öz aralarında onların hamısını, yaxud da faktiki olaraq hamısını əhatə edən, sonuncusu 1847-ci ildə olmuş çoxsaylı kiçik və 5 dini müharibə apardı. Çoxsaylı inqilablar və dövlət çevrilişləri vətəndaş çaxnaşmalarının mənzərəsini tamamlayır.

Bu halda İsveçrənin tarixi dünya dövləti məsələsinə hansı işığı salır? Rappardın İsveçrənin konfederasiya kimi milli təhlükəsizliyi yalnız "bu rejimin özünə yad olan xüsusi şərtlər vasitəsilə" məhdudlaşdırılmışdır. "...İsveçrənin 5 əsrlik kollektiv

təhlükəsizlik təcrübəsinin indiki nəslə verdiyi dərsdən görünür ki, açıq şəkildə mənfi bir dərsdir. O eyni zamanda ən yaxın keçmişdən qaynaqlanan müşahidələri və adi sağlam düşüncənin təlimlərini təsdiqləyir. Nə qədər ki beynəlxalq cəmiyyətin təhlükəsizliyi yalnız tam suveren dövlətlərin azad əməkdaşlığından asılıdır, o, mütləq kövrək olaraq qalacaq".[1]

Beləliklə, İsveçrə təcrübəsi məhdudlaşdırma yolu ilə sülhün kövrəkliyinə dair gəldiyimiz nəticələri təsdiqləyir və eyni zamanda milli dövlətlərin fövqündə duran dövlətin yaradılmasına ehtiyacı və bunun çətinliyini vurğulayır.

ABŞ-ın yaradılması üsulunun nümunəsi çox vaxt verilmiş məqamda konstitusiya razılaşması yolu ilə dünya dövləti yaratmağın mümkünlüyünün təsdiqi kimi istinad olunur. Əslində, ABŞ nümunəsi yalnız mövcudluğunu qoruyub saxlaya biləcəyi gözlənilə bilən istənilən dövlətin əvvəllər mövcud olmuş mənəvi və siyasi birlikdən asılılığını təsdiqləyir.

1787-ci ildə Konstitusiya razılaşması təsdiq olunduqda 13 dövlət siyasi reallıqda olduğundan daha çox, sözdə suveren idi. Onlar 13 ayrı-ayrı suverenliklərin tək bir dövlətdə birləşməsini təşkil etmədilər. Onlar 1776-cı ildə Britaniyadan müstəqilliklərini elan edəndə suverenlik qeyri-müəyyən olaraq qaldı. ABŞ-ın yaradılması ilə onlar bir suverenliyi – Böyük Britaniyanı – digərinə dəyişdilər. Onlar həmçinin bir ümumi bağlılığı digər bir ümumi bağlılıq ilə dəyişdilər. Bütün bu müddət ərzində onlar yenicə vahid komandanlıq altında birlikdə aparılmış inqilabi münaqişənin sınağından keçmiş eyni dili, eyni mədəniyyəti, eyni milli irsi, eyni mənəvi təsəvvürləri və eyni siyasi məqsədləri qoruyub saxladılar. 13 müstəmləkə Britaniya taxt-tacı altında mənəvi və siyasi birlik yaratdı, onu sınaqdan keçirdi və Britaniyaya qarşı ortaq mübarizələrində onun haqqında tam bələd oldu və müstəqilliklərini əldə edəndən sonra da həmin birliyi qoruyub saxladı. Con Cey *"Federalist"* jurnalının 2-ci nömrəsində qeyd etdiyi kimi:

"Bir əlaqədar ölkəni bir birləşmiş xalqa verməklə uzaqgörənlik edildi; eyni əcdaddan törəyən, eyni dildə danışan, eyni dinə etiqad edən, eyni idarəetmə prinsiplərinə bağlı olan, davranış və həyat tərzlərinə görə olduqca oxşar olan və birləşmiş müzakirələr, silahlar və səylər ilə uzun və qanlı müharibədə yan-yana döyüşən, ümumi azadlıq və müstəqilliyini ləyaqətlə bərqərar edən xalqa...

Aramızdakı insanların bütün nizamları və dəyərləri arasında da bu günə qədər oxşar münasibətlər üstünlük təşkil edir. Bütün ümumi məqsədlərə görə birləşmiş şəkildə vahid xalq olmuşuq. Hər yerdə hər bir vətəndaş eyni milli hüquqlardan, imtiyazlardan və müdafiədən yararlanır. Bir dövlət olaraq sülh yaratmış və

[1] William E.Rappard, *Cinqsiècles de sécurité collective (1291-1798)* (Paris: Librairie du Recueil Sirey, 1945), səh. 594.

müharibə aparmışıq: bir dövlət olaraq ümumi düşmənlərimizi məğlub etmişik; bir dövlət olaraq ittifaqlar yaratmış, müqavilələr bağlamışıq və xarici dövlətlər ilə müxtəlif birlik və sazişlərə daxil olmuşuq".

Filadelfiya konventinin həyata keçirdiyi bir konstitusiyanı, bir suverenliyi və bir dövləti digəri biri ilə əvəz etmək oldu və onların hər ikisi də əvvəlcədən mövcud olan eyni birliyə söykənirdi. Konvent əvvəllər 13 ayrı-ayrı dövlətin mövcud olduğu yerdə bir dövlət yaratmadı. ABŞ-ın yaradılması konstitusiyanın mətni üzərində qurulmuş razılaşma ilə dövlət yaradıla biləcəyini isbat etməkdən uzaq olaraq, əvvəllər irəli sürülmüş iki fikrin həqiqiliyini sübut edir: müharibə dövlətlər arasında baş verdiyi kimi, dövlətin içində də baş verə bilər və ABŞ elə bir mənəvi və siyasi birliyin üzərində quruldu ki, onu konstitusiya ilə yaratmamışdı, konstitusiya hazırlananda o artıq mövcud idi. Amerika xalqının birliyinin tarixi Amerika dövlətinin tarixindən daha əvvələ aid idi və dünya birliyinin tarixi də dünya dövlətinin tarixini belə qabaqlamalıdır.

30. Dünya birliyi

Sonuncu nəticə, yəni dünya birliyinin tarixinin dünya dövlətinin tarixini qabaqlamalı olması dünya birliyinin yaradılması üçün göstərilən iki cəhdi doğurub: Birləşmiş Millətlər Təşkilatının UNESCO kimi tanınan Təhsil, Elm və Mədəniyyət Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının digər ixtisaslaşmış qurumları.[1]

MƏDƏNİ YANAŞMA: UNESCO

UNESCO-nun Əsasnaməsinin 1-ci maddəsinə görə;

Təşkilatın məqsədi dövlətlər arasında ədalətə, hüququn aliliyinə və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin dünyada irqindən, cinsiyyətindən, dilindən, yaxud dinindən asılı olmayaraq, xalqlar üçün bəyan etdiyi insan hüquqları və fundamental azadlıqlara ümumi hörməti təmin etmək üçün təhsil, elm və mədəniyyət vasitəsilə əməkdaşlığı təbliğ etməklə sülh və təhlükəsizliyə töhfə verməkdir.

Bu məqsədini reallaşdırmaq üçün Təşkilat:

(a) xalqların qarşılıqlı məlumatlılıq və anlaşmasını irəlilətmək işində bütün kütləvi kommunikasiya üsulları vasitəsilə əməkdaşlıq edəcək və bu məqsədlə ideyaların söz və görüntü ilə azad hərəkəti üçün zəruri ola biləcək beynəlxalq razılaşmalar tövsiyə edəcək;

(b) üzvlərin istəyiylə təhsil fəaliyyətlərinin inkişafında iştirak edərək;
dini, cinsi və yaxud hər hansı iqtisadi və sosial fərqdən asılı olmayaraq, təhsil imkanının bərabərliyi qayəsinin inkişafında dövlətlər arasında əməkdaşlığı təsis edərək;
dünyada uşaqları azadlıq öhdəliklərinə hazırlamaq üçün ən münasib təhsil üsullarını təklif edərək, ictimai təhsilə və mədəniyyətin yayılmasına yeni təkan verəcək;

[1]Bu paraqrafla əlaqədar bax: yuxarıda paraqraf 7-də dünya ictimai birliyi haqqında deyilənlər

(c) dünyadakı kitabların, incəsənət əsərlərinin, tarixi və elm abidələrinin konservasiyası və mühafizəsini təmin etməklə və aidiyyəti dövlətlərə zəruri beynəlxalq sazişləri tövsiyə etməklə;
təhsil, elm və mədəniyyət sahələrində fəal olan insanların beynəlxalq mübadiləsi, nəşrlərin, incəsənət və elm baxımından maraqlı əşyaların və digər informasiya materiallarının mübadiləsi da daxil olmaqla elmi fəaliyyətin bütün sahələrində dövlətlər arasında əməkdaşlığı təşviq etməklə, bütün ölkələrin insanlarına onların hər hansı biri tərəfindən hazırlanaraq çap və dərc edilmiş materiallara giriş verməyə hesablanmış beynəlxalq əməkdaşlıq üsulları irəli sürərək, biliyi müdafiə edəcək, artıracaq və yayacaq.

UNESCO-nun beynəlxalq sülhün qorunmasına verdiyi töhfələri qiymətləndirmək üçün üç fərqləndirmə aparmaq lazımdır: (1) Bizim burada haqqında bəhs etdiyimiz, UNESCO-nun məqsədi olaraq mədəniyyət və təhsilin yayılması və təkmilləşdirilməsinə verə bildiyi töhfə ilə bağlı deyil; (2) Biz burada UNESCO-nun beynəlxalq əməkdaşlıq faktının özü vasitəsilə beynəlxalq sülhə verə bildiyi töhfə ilə bağlı deyil; məsələnin bu aspekti haqqında paraqrafın sonunda bəhs edəcəyik; (3) Bizim burada haqqında bəhs etdiyimiz məsələ UNESCO-nun beynəlxalq anlaşma, təhsil və ümumi mədəni tədbirləri üçün imkanlar yaratmaqla beynəlxalq sülhün mühafizəsi üçün edə biləcəkləri ilə bağlıdır.

Beynəlxalq Sülh naminə Karnegi Fondunun UNESCO-nun 1948-ci il proqramını qiymətləndirməsində bəyan etdiyi – "Hər şeydən öncə, onun ayrı-ayrı bəndləri hər zaman aydın və aşkar şəkildə sülh və təhlükəsizliyin təminatı ilə bağlı olmayıb"[1] – mahiyyət etibarilə nə qədər təqdirəlayiq olmasından asılı olmayaraq, UNESCO-nun bütün fəaliyyət sahələrinə aiddir. Bu çatışmazlıq UNESCO-nun öhdəsinə götürdüyü, sülhü qoruma funksiyasını yerinə yetirmək üçün yalnız yoxlanılaraq bəzi dəyişikliklər edilməyə və sərtləşməyə ehtiyacı olan müəyyən proqramların təsadüfi xüsusiyyəti deyil. Əksinə, bu çatışmazlıq qurumun bünövrəsində duran və onun fəaliyyətlərinin ruhuna hopmuş fəlsəfədən qaynaqlanan anadangəlmə xüsusiyyətdir. Belə ki, 1952-ci ilin noyabrın 17-də UNESCO-nun Baş Konfransının müzakirələrinə yekun vuran qurumun istefaya gedən baş direktoru cənab Hayem Tores Bodet xəbərdarlıq şəklində bəyan etdi ki, "UNESCO-nun göz qoymalı olduğu ən böyük təhlükə səylərinin boşa çıxmasıdır".

UNESCO-nun fəlsəfəsi hesab edir ki, təhsili (xüsusilə onun məqsədi beynəlxalq anlaşma olduqda), mədəni mübadiləni və ümumiyyətlə, müxtəlif dövlətlərin vətəndaşları arasında əlaqələri artırmağa və onların bir-birini anlamasını təmin etməyə xidmət edən bütün fəaliyyətlər hökmən beynəlxalq birliyin yaradılmasına və sülhün qorunub saxlanmasına kömək edir. Bu fikirdə dövlətlərin millətçi

[1] *International Conciliation*, No.438 (February 1948), səh. 77.

olduqları və bir-biriylə bir-birini kifayət qədər yaxşı tanımadıqları və təhsil və mədəniyyətin müxtəlif səviyyələrində fəaliyyət göstərdikləri üçün müharibə etdikləri ehtimalları nəzərdə tutulur. Hər iki ehtimal yanlışdır.

Mədəni inkişaf və sülh

Təsisatlanmış təhsil sisteminə malik olmayan primitiv xalqlar var ki, ümumilikdə sülhsevərdir və xarici mədəniyyətlərin təsirinə qarşı özünüməhv dərəcəsinə qədər qavrayışlıdır. Başqa xalqlar var ki, yüksək təhsil səviyyəsinə malikdir və klassik mədəniyyət onların canına hopub, məsələn, almanlar və bütün tarixləri boyu millətçi və davakar olublar. Periklin hakimiyyəti dövründə afinalılar, İntibah dövründə italyanlar Qərb sivilizasiyasının tarixində bərabəri olmayan mədəniyyətlər yaratdılar və onların hər ikisi ən azından tarixlərinin əvvəlki və sonrakı istənilən bir dövründə olduğu qədər millətçi və davakar idi.

Bundan əlavə, Britaniya və Fransa kimi bəzi dövlətlərin tarixində millətçi müstəsnalıq və davakar siyasət kosmopolit və dinc siyasət ilə növbələşir və bu dəyişikliklər ilə təhsil və mədəniyyətin inkişafı arasında heç bir əlaqə yoxdur. Çin xalqı istənilən digər xalqın üstün öyrənmə xüsusiyyətinə hörmət ənənəsinə malikdir və onlar mədəni nailiyyətlər tarixi haqqında istənilən digər məsələ haqqında olduğundan daha çox və ən azından yaradıcı düşünürlər. Təhsil və mədəniyyətin bu yüksək keyfiyyətləri çinlilərin hərbçi vəzifəsinə, eləcə də digər xalqlara nifrətlə baxmasına səbəb oldu və XIX əsrin əvvəllərində Çin imperatorunun vassallarına hələ də barbarlar kimi münasibət bəsləyirdilər. Lakin bütün bunlar Çin xalqını daha az millətçi və daha sülhpərvər etmədi. Rusiya təhsili dövrümüzdə xüsusilə savadlılıq və texniki təhsil sahəsində əvvəllər nə vaxtsa olduğundan ən yüksək nailiyyət səviyyəsinə çatmışdır. Onun kamilliyi rus xalqının xarici ideyaları, yaxud Rusiya hökumətinin xarici siyasətini qavramasına təsir göstərməmişdir.

Təsadüfən götürülmüş bu nümunələr verilmiş formada təhsil və mədəniyyət səviyyəsi və onların xüsusiyyətlərinin dünya birliyi məsələsi ilə əlaqədar olmadığını aşkar şəkildə göstərir. Həmin məsələ mədəni dəyərlər haqqında biliklərdən, onların yaradılması və dəyərləndirilməsindən deyil, misilsiz əhəmiyyətlərin mənəvi və siyasi transformasiyasından asılıdır.

Mədəni birlik və sülh

Verilmiş formada təhsil və mədəniyyət haqqında söylənilənlər müxtəlif milli mədəniyyətlərin məhsullarının mübadiləsi məqsədi daşıyan təhsil və mədəniyyət fəaliyyətləri haqqında da keçərlidir. İnsanlar arasında milli sərhədləri aşan əlaqələrin

çoxşaxəli mövcudluğu bizim problemimizin cavabı deyil. Daha dəqiq desək, milli sərhədləri aşan elmi və estetik əlaqələrin mövcudluğu dünya birliyinin lehinə olan heç nəyi isbat etmir. Siyasi imkanlara malik olan dünya birliyi intellekt və duyğuların deyil, əxlaq meyarları və siyasi fəaliyyətin birliyidir. ABŞ-da intellektual elitanın rus musiqisi və ədəbiyyatından zövq almasının və Şekspirin rus səhnəsində qadağan olunmaması haqqında bəhs etdiyimiz məsələ ilə heç bir aidiyyəti yoxdur. Müxtəlif dövlətlərin vətəndaşlarının eyni intellektual və estetik təcrübələri bu şəkildə bölüşməsi vahid bir cəmiyyət yaratmır, çünki o, müxtəlif dövlətlərin vətəndaşları tərəfindən bir-birilərinə münasibətdə onların həmin təcrübələri bölüşməmiş olduqları halda həyata keçirməyəcəkləri, mənəvi və siyasi baxımdan münasib hərəkətlər edilməsinə səbəb olmur.

Onu da yada salmaq lazımdır ki, intellektual və estetik müstəvidən daha ali müstəvidə və aydın müəyyən edilmiş fəaliyyət məqsədinin mövcudluğu şəraitində Rusiya da daxil olmaqla Qərb min ildən artıq bir müddətdə eyni təcrübələri bölüşüb. Onlar eyni bir Allaha ibadət ediblər, eyni fundamental dini etiqadlara sahib olublar, eyni əxlaq qanunlarına tabe olublar və ümumi şəkildə eyni mərasim rəmzlərinə malik olublar. Dini ibadətlərin fövqəlmilli intellektual və estetik təcrübələrin təklif etdiyi istənilən şeydən daha çox, fərdin ümumi şəxsiyyəti və onun hərəkətləri ilə yaxından bağlı olan həmin birliyi dünya dövlətinin yaradılmasını mümkün etmək üçün kifayət qədər uyuşmuş beynəlxalq birlik deyil, müxtəlif növlərin beynəlxalq birliyini yaradıb. Bu halda amerikalıların və rusların eyni dərəcədə bölüşə bildiyi Çaykovskinin musiqilərinin, Dostoyevskinin dərin fikirlərinin, *"Federalist"* jurnalının uzaqgörənliyinin, Mobi Dikin bədiiliyinin yalnız müvəqqəti duyğu birliyi deyil, həmçinin keçmiş bağlılıqları kənara qoyan və yenilərini yaradan mənəvi dəyərlərin və siyasi fəaliyyətlərin birliyini yarada biləcəyini necə gözləmək olar?

Tarix bu suala yanlış olmayan bir cavab verib. UNESCO-nun planlaşdırdığı və nail ola bildiyi istənilən vəziyyətdən daha yaxın olan mədəni birlik tarixin bütün dövrlərində müharibə ilə birlikdə mövcud olub. Biz burada təyinatına görə eyni milli mədəniyyətin üzvləri tərəfindən aparılan vətəndaş müharibəsindən danışmırıq. Yunan şəhər dövlətləri arasında müharibələr, Orta əsrlərdə Avropada aparılan müharibələr, İntibah dövründə italyan müharibələri, XVI-XVII əsrlərin dini müharibələri və hətta elita ilə əlaqədar olan qismi baxımından XVIII əsrin müharibələri yekcins bir mədəniyyət çərçivəsində aparılmışdır. Bu mədəniyyətlər bütün əsas ortaq cəhətlərə malik idi: dil, din, təhsil, ədəbiyyat, incəsənət. Lakin bu mədəniyyətlər dağıdıcı meyilləri nəzarətdə saxlaya və onları dinc məcraya yönəldə biləcək, sərhədləri onların sərhədləri ilə üst-üstə düşən bir birlik yaratmadı. Belə olduqda həmin tarixi halların eyni

bir mədəniyyət daxilində baş verdiyi halda, belə bir birliyin bütün baxımlardan olduqca fərqli olan mədəniyyətlər arasında mübadilə vasitəsilə yaradılacağını necə gözləmək olar?

Beynəlxalq anlaşma və sülh

UNESCO-nun beynəlxalq əlaqələrə dair təsəvvürünün əsas yanlışlığı onun üçüncü məqsədi olan beynəlxalq anlaşmada meydana çıxır. Belə bir inam mövcuddur ki, beynəlxalq münaqişələr intellektual geriliyin, digər xalqların xüsusiyyətlərinə münasibətdə mühakiməyə etinasızlıq və onun çatışmazlığının nəticəsidir. Əgər amerikalılar rusları anlaya bilsəydilər, yaxud əksinə, onlar nə qədər oxşar olduqlarını, nə qədər ortaq cəhətə malik olduqlarını və uğrunda mübarizə aparmalı nə qədər az şeyə malik olduqlarını başa düşərdilər. Arqument iki mənada yanlışdır.

İstənilən kəsin öz iradəsi ilə təkrarlaya bildiyi ayrı-ayrı təcrübələr göstərir ki, dostluğun genişlənməsi mütləq anlaşmanın da səviyyəsinin artması ilə müşayiət olunmur. Əlbəttə, A dövlətinin B dövlətinin xarakterini və motivlərini yanlış anlaşıldığına dair və faktların aydınlaşdırılmasının münaqişə mənbəyini aradan qaldıracağına dair çoxsaylı nümunələr var. A dövləti və B dövlətinin həyati əhəmiyyətli maraqlarının hədəfdə olduğu münaqişələrlə bağlı vəziyyət belə deyil. A dövləti B dövləti ilə iqtisadi mənfəət uğrunda B dövlətinin məramlarını düzgün anlamadığına görə mübarizə aparmır; bu daha çox onunla bağlıdır ki, o onları olduqca yaxşı başa düşür. Amerika hərbçilərinin əksəriyyəti Fransaya tanımadığı fransız xalqına qarşı dostluq duyğuları ilə getmədi. Onların dostluq hissləri anlaşma şokuna tab gətirmədi. Rusiyaya dostluq səfəri edənlərin çoxunun oxşar təcrübələri təkmilləşməyə ehtiyac duymaq baxımından olduqca səciyyəvidir.

Başdan etibarən nasional sosialist rejiminin xarici məqsədlərinə qarşı hətta müharibə riskinə getməklə kəskin şəkildə müxalif olanlar arasında bəziləri alman mədəniyyətini dərindən dərk edirdilər. Onları nasional sosialist rejiminin barışmaz düşmənlərinə çevirən məhz bu anlaşma idi. Eynilə Rusiya tarixi və mədəniyyətinin rusları həqiqətən başa düşən biliciləri, bir qayda olaraq, Rusiya lehinə və əleyhinə olan isteriyadan bərabər şəkildə təsirlənmirlər. Onlar Rusiya ekspansiyasının ənənəvi məqsədləri, eləcə də Rusiya diplomatiyasının ənənəvi üsulları haqqında yaxşı məlumatlıdırlar. Əgər onların anlaşması Qərb demokratiyasında həyata keçirdiyi xarici fəaliyyət üzərində təsirə malik olmuş olsaydı, bu xarici siyasət, şübhəsiz ki, əslində olduğundan daha çox ağılla yürüdülmüş və daha çox uğurlu olmuşdu. Belə anlaşmanın Sovet İttifaqı ilə daha yaxşı münasibətlər qurmaq üçün imkan yaradıb-yaratmayacağı açıq qalan bir sualdır. Xarici

siyasətin ağılla və uğurlu şəkildə yürüdülməsi amerikanların və rusların bir-birinin dövlətləri və onların istəkləri haqqında anlayışlarından asılıdır. Sonuncu analizdə ABŞ və Sovet İttifaqı arasında sülh onlardan biri və onun istəklərinin digər biri və onun istəkləri ilə uyğunlaşa bilməsindən asılıdır.

Bu müşahidə UNESCO-nun beynəlxalq münasibətlər anlayışının digər bir yanlışlığına işarə edir. Beynəlxalq müşahidələrin beynəlxalq anlaşma yolu ilə aradan qaldırıla bilməsinə dair təsəvvür nəzərdə tutulan belə bir ehtimala söykənir ki, onsuz da anlaşılmazlıqdan yaranan beynəlxalq münaqişələr yalnız xəyalidir və əslində, dövlətlər arasında uğrunda mübarizə aparılmağa dəyən heç bir məsələ yoxdur. Heç nə həqiqətdən kənar ola bilməz. Tarixin gedişini təyin etmiş və siyasi dünyanın simasını dəyişmiş bütün böyük müharibələr xəyali deyil, real hədəflər uğrunda aparılıb. Həmin böyük kataklizmlərin mübahisə obyekti dəyişməz idi: idarə edən kim olacaq və idarə olunan kim olacaq? Kim azad olacaq və kim qul olacaq?

Yunanlar və farslar, afinalılar və makedoniyalılar, yəhudilər və romalılar, imperator və Papa, Orta əsrlərin sonunda ingilislər və fransızlar, türklər və avstriyalılar, Napoleon və Avropa, Hitler və dünya arasında mübahisə obyektinin kökündə anlaşılmazlıqmı dururdu? Digər tərəfin mədəniyyətinin, xarakterinin və niyyətlərinin anlaşılmazlığı elə bir mübahisə mövzusu deyildimi ki, real olmayan belə bir məsələ uğrunda, ümumiyyətlə, heç bir müharibə aparılmasın? Yaxud daha çox belə bir fikri müdafiə etmək olmazmı ki, bu münaqişələrin çoxunda sülhü bir müddət mühafizə edən məhz elə potensial istilaçının mədəniyyəti, xarakteri və niyyətlərinin anlaşılmaması idi – bu amillərin anlaşılması müharibəni qaçılmaz edirdi? Nə qədər ki afinalılar Demosfenin xəbərdarlıqlarına diqqət yetirməkdən imtina edirdilər, müharibə təhlükəsi uzaq olaraq qalırdı. Onlar yalnız – onların xilası üçün artıq çox gec olanda – Makedoniya imperiyasının və onun siyasətinin təbiətini dərk edəndə müharibə qaçılmaz oldu. Anlaşma və münaqişənin qaçılmazlığı arasında bu tərs mütənasiblik tarixin gələcək nəsillərə verdiyi kədərli dərslərdən biridir: bir tərəf digərə tərəfin mövqeyini, xarakterini və niyyətlərini nə qədər ətraflı anlayırsa, münaqişənin qaçılmaz olduğu bir o qədər çox üzə çıxır.

UNESCO-nun göstərdiyi böyük xidmətlərdən asılı olmayaraq, onun proqramının dünya birliyi problemi ilə əlaqəsi yoxdur, çünki onun dünya birliyinə əngəllər sahəsində apardığı diaqnostika əsas məsələni tamamilə diqqətdən qaçırır. Dünya birliyi məsələsi intellektual və estetik deyil, mənəvi və siyasi məsələdir. Dünya birliyi intellektual zəkaların və estetik qavrayışların deyil, mənəvi mühakimələrin və siyasi fəaliyyətlərin birliyidir. Fərz edək ki, Amerika və Rusiya təhsili və mədəniyyəti eyni kamillik səviyyəsinə çatdırıla və tamamilə birləşdirilə bilər və ruslar Mark Tveni, amerikanlar isə Qoqolu özününkü kimi qəbul edərlər. Əgər belə olardısa da, ABŞ və Rusiya arasında Orta Şərqə kimin nəzarət edəcəyi məsələsi hələ də bugünkü kimi mövcud olardı. Nə qədər ki insanlar

fövqəlmilli meyarlar və bağlılıqlar əvəzinə milli meyarlar və bağlılıqlara uyğun mühakimə aparacaq və hərəkət edəcəklər, dünya birliyi öz reallaşmasını gözləyən fərziyyə olaraq qalacaq.

FUNKSİONAL YANAŞMA

Birləşmiş Millətlər Təşkilatının sistemi

Meyar və bağlılıqların belə transformasiyasını necə reallaşdırmaq olar? Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları bir yol göstərib. Onlar öz mövcudluqlarına görə iştiraketmə səviyyələri fərqli olan bir sıra dövlətlər arasında əldə edilmiş xüsusi razılaşmalara borclu olan muxtar təşkilatlardır. Onların öz nizamnaməsi, öz büdcəsi, öz siyasətini müəyyənetmə və inzibati orqanları var və hər bir qurum öz üzvlərinə malikdir. Bu qurumların bəzilərinin adları yerinə yetirdikləri funksiyalara işarə edir: Beynəlxalq Əməkdaşlıq Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya Poçt İttifaqı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin IX və X fəsilləri ixtisaslaşmış qurumlar ilə Birləşmiş Millətlər Təşkilatı arasındakı təşkilati və funksional əlaqələri nəzərdə tutur. Nizamnamə Birləşmiş Millətlər Təşkilatının milli mənsubiyyətindən asılı olmayaraq, fərdin hüquqları və rifahı üçün daşıdığı öhdəliyi beynəlxalq təşkilat tarixində görünməmiş dərəcədə vurğulayır. O, Iqtisadi və Sosial Şurada həmin öhdəliyin yerinə yetirilməsi üçün xüsusi bir orqan yaratmışdır. İqtisadi və Sosial Şura ixtisaslaşmış qurumlarla "əlaqədar qurumun Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələndiriləcəyi şərtləri təyin edən"[1] müqavilələr bağlamaq səlahiyyətinə malikdir – və bir neçə halda bunu edib. Birləşmiş Millətlər Təşkilatı "ixtisaslaşmış qurumların siyasəti və fəaliyyətinin əlaqələndirilməsi üçün tövsiyələr verə"[2] bilər. İqtisadi və Sosial Şura ixtisaslaşmış qurumlardan müntəzəm və xüsusi məruzələr qəbul edə və Birləşmiş Millətlər Təşkilatının üzvlərinin və ixtisaslaşmış qurumların xahişi ilə xidmətlər göstərə bilər.[3]

İxtisaslaşmış qurumların Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq şəraitində həyata keçirdiyi iqtisadi və sosial fəaliyyətlərin əsasında duran fəlsəfə nədir? Həmin fəlsəfənin beynəlxalq birlik məsələsi ilə əlaqəsi nədir? Professor Mitreni bu suala olduqca gözəl və inandırıcı cavab vermişdir:

[1] Maddə 63, bənd 1.
[2] Maddə 58, həmçinin müqayisə et: maddə 62, maddə 63, bənd 2.
[3] Maddə 64, 66, bənd 2.

"Əgər müharibə və münaqişə fəlakəti dünyanın bir-birindən təcrid edilmiş və bir-biri ilə rəqabət aparan siyasi vahidlərə bölünməsindən qaynaqlanırsa, o, sadəcə, bölgünün xətlərinin dəyişilməsi və ya qısaldılması ilə aradan qalxacaqmı? Ayrı-ayrı vahidlər şəklində yenidən təşkilatlanma gec-tez eyni nəticəni verəcək; yeni bir dünyada qurulan istənilən beynəlxalq sistem siyasi bölgünü yumşaltmaq üçün əks-təsir yaratmalıdır. Göründüyü kimi, həmin məqsədə nail olmağın yalnız iki yolu var. Bunlardan biri siyasi bölgünü zor gücü ilə aradan qaldıracaq dünya dövləti olar; digəri isə bu səhifələrdə müzakirə olunan yoldur və o daha çox bütün dövlətlərin maraqlarının və həyatının tədricən onun vasitəsilə və ona inteqrasiya edəcəyi, beynəlxalq fəaliyyətlərin və qurumların yayılmış şəbəkəsi ilə siyasi bölgülərin üstünü örtər. O, istənilən effektiv beynəlxalq sistemin can atdığı və yardım etdiyi fundamental dəyişiklikdir: sərhədləri beynəlxalq fəaliyyətlərlə üst-üstə beynəlxalq hökumətin yaradılması... O, hələ də yalnız gizli olan və qəbul edilməyən sosial birliyi mümkün olduğu qədər az sui-istifadə edərək, aşkar olan ümumi ehtiyacları mümkün olduğu qədər çox təmin etməlidir. ...[Həmin yolda] Birlik özü yazılı etiqad aktı ilə deyil, fəal üzvi inkişaf yolu ilə canlı bir orqana nail olacaq. ...Həmin tendensiya hüquq və səlahiyyətlərin yurisdiksiyasının konstitusional bölgüsünün quruluşu əsasında fəaliyyət göstərən ənənəvi təşkilatın əvəzinə xüsusi məqsədlər və ehtiyaclara və onların zaman və məkan şərtinə uyğun hökumət təşkil etməlidir. ...Funksional yanaşma belə müsbət və konstruktiv ümumi işin, ümumi vərdiş və maraqların artımına kömək edər və bu zaman onları üstünü ümumi fəaliyyətlərin və ümumi inzibati qurumların təbii artımı ilə qapayaraq sərhəd xətlərini mənasız edər".[1]

Bu, əslində, birliklərin formalaşdığı və cəmiyyətlərdən hökumətlərin əmələ gəldiyi yoldur. Artıq qeyd etmişik ki, suverenlik bir nəzəriyyə olmazdan əvvəl bir gerçəklik olub və Amerika xalqı dövlət yaratmazdan əvvəl bir birlik yaradıb. O zaman heç bir birliyin mövcud olmadığı yerdə birliyi necə yaratmaq olar?

Professor Mitreninin fikrincə, beynəlxalq birlik müxtəlif dövlətlərin vətəndaşlarının bölüşdüyü ümumi ehtiyacların təminatından əmələ gəlməlidir. Milli sərhədlərdən asılı olmayaraq, bütün dünyadakı xalqlara xidmət edən Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları öz mövcudluqları və fəaliyyətləri gerçəkliyi ilə maraqlar, dəyərlər və fəaliyyətlər birliyi yarada bildi. Nəticədə əgər belə beynəlxalq qurumların sayı kifayət qədər çox olarsa və onlar dünyanın əksər xalqlarının ən vacib istəklərinə xidmət edərsə, belə təsisatlara və onların qurumları olduqları beynəlxalq birliyə bağlılıqlar ayrı-ayrı milli cəmiyyətlərə və onların təsisatlarına bağlılıqların yerini tutar. Belə bir prosesin dünyada indiki şərtlər

[1] David Mitrany, *A Working Peace System*, 4th ed. (London: National Peace Council, 1946), səh. 14, 15, 18, 28, 34, 35. (Naşirin icazəsi ilə təkrar nəşr edilmişdir)

altında mümkün ola bildiyinin təsdiqi üçün professor Mitreni başlıca olaraq müttəfiqlərin İkinci Dünya müharibəsi zamanı funksional beynəlxalq qurumlar ilə, məsələn, İngiltərə-Amerika Xammal İdarəsi və Orta Şərq Təchizat Mərkəzi ilə sahib olduqları təcrübələrə istinad edir. Bu nümunələr funksional yanaşma ilə üzə çıxmış məsələni kəskin fokus altına qoyur.

Müharibədə ortaq motivlərə və ortaq düşmən üzərində qələbəyə ortaq marağa bağlılıqlar ayrı-ayrı milli bağlılıqları üstələdi və əsas əhəmiyyətli beynəlxalq funksional qurumların uğurlu fəaliyyətini mümkün etdi. Dinc dövrdə isə elə görünür ki, dövlətin fərdə təklif etmiş olduqları beynəlxalq funksional qurumlardan qaynaqlanan faydaları aşkar şəkildə üstələyir, baxmayaraq ki, getdikcə daha geniş şəkildə belə qəbul olunur ki, müxtəlif dövlətlərin vətəndaşları, məsələn, nüvə müharibəsindən uzaq durmaqla fiziki mövcudluğunu qorumaq və nüvə silahlarının yayılmaması, ətraf mühitin mühafizəsi, beynəlxalq ticarət, valyuta sistemi və fəaliyyəti yalnız fövqəlmilli əsasda təmin edilə bilən qlobal korporasiyalar üzərində nəzarət vasitəsilə iqtisadi rifaha nail olmaq kimi müəyyən ortaq maraqlara sahibdir.

Daha dəqiq desək, güc münaqişələri dövlətləri bir-birindən ayırır və onların yaratdığı təhlükəli vəziyyət bütün dövlətlərin əksər vətəndaşlarının başlıca narahatlıqları ilə dövləti ortaqlaşdırır. Dövlət fərdə müdafiə, güc meyillərinin digər məmnuniyyətlərlə əvəz olunması və maddi ehtiyacların dərhal təmin olunması sözünü verir. Dünya Sağlamlıq Təşkilatının epidemiya ilə mübarizədə yardımı kimi bir neçə tək-tək təsadüf edilən istisnalarla Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları adi insanların birbaşa həyat fəaliyyətlərindən uzaq və özünü yalnız bir sıra vasitəçi milli qurumlar vasitəsilə hiss etdirən ümidlər və vasitələr təklif edir, belə ki, onların beynəlxalq mənbələrini aşkar etmək çətindir. Xarici ölkəyə poçt ilə məktub göndərəndə kim Ümumdünya Poçt İttifaqının bu əməliyyatda yardımına görə həmin beynəlxalq quruma təşəkkür etməyi ağlından keçirir.

Beləliklə, beynəlxalq funksional qurumların bütün dövlətlərin vətəndaşlarının rifahına verdiyi töhfələr arxa plana keçir. Hamının gözü qarşısında olan isə dünyanın böyük dövlətlərini ayıran və məğlubun mövcudluğunu olmasa da, rifahını təhlükə altına salan olduqca böyük siyasi münaqişələrdir. Bu başlıca olaraq cəhalətdən irəli gələn yanlış baxış məsələsi deyil. Bu daha çox funksional nöqteyi-nəzərdən belə bir inkaredilməz gerçəkliyin qəbul edilməsidir ki, milli hökumətin etdikləri və etmədikləri fərdin istəklərinin təmin edilməsi üçün beynəlxalq qurumun etdikləri və etmədiklərindən daha əhəmiyyətlidir. Digər hər şeydən daha əhəmiyyətli olan milli hökumətin öz ərazisini və vətəndaşlarını xarici təcavüzə qarşı müdafiə etmək və öz sərhədləri daxilində sülhü qoruyub saxlamaq və sosial dəyişiklik prosesinin davamlılığını təmin etmək bacarığıdır. İctimaiyyətin beynəlxalq funksional qurumlara göstərdiyi etinasız münasibət yalnız bu qurumların vacib beynəlxalq problemlərin həllində oynadığı kiçik rolun böyüdülmüş inikasıdır.



Birləşmiş Millətlər Təşkilatının sistemi

Bu, ayrılıqda bir dövlətin milli maraqları ilə beynəlxalq funksional qurumun məqsədləri və fəaliyyətləri arasında heç bir ziddiyyət mövcud olmadıqda həqiqətdir. Belə bir ziddiyyət yaranarsa, milli maraqlar beynəlxalq məqsədə qalib gəlir. Odur ki belə bir fakt dərin əhəmiyyət kəsb edir ki, çağdaş dünya siyasəti arenasında iki böyük antaqonistdən biri – adətən, xarici müdaxilədən ehtiyat edən və öz siyasi və iqtisadi sisteminin toxunulmazlığının qeydinə qalan Sovet İttifaqı yalnız üç ixtisaslaşmış quruma: Beynəlxalq Əmək Təşkilatı, UNESCO və Dünya Meteorologiya Təşkilatına qoşulub, bir qurum – Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq edir və əsrin böyük bir hissəsində mövcud olmuş və xarakteri etibarilə ən çox qeyri-siyasi iki qurumun: müvafiq olaraq 1865 və 1912-ci illərdə Beynəlxalq Teleqraf və Radioteleqraf İttifaqlarını əvəz etmiş, 1974-cü ildə yaradılmış Ümumdünya Poçt İttifaqının və Beynəlxalq Telekommunikasiya İttifaqının üzvüdür.

Bu halda dünya birliyinin funksional yanaşma yolu ilə necə yaradıla bilməsi sualına cavab beynəlxalq siyasət sahəsində axtarılmalıdır. Bu bu baxımdan üç müxtəlif növ funksional qurumun oynadığı və oynaya bildiyi rolun analizi ilə təsdiqlənir: Şimali Atlantika Müqaviləsi Təşkilatı, Avropa Birlikləri və iqtisadi və texniki yardımı qurumları. Bütün bu qurumlar belə bir ortaq xüsusiyyətə malikdir: onlar elə bir ümumi problemi həll etməyə çalışırlar ki, iştirakçılardan heç biri öz səyləri hesabına həll edə bilməzdi və onlar bunun həlli üçün fövqəlmilli səviyyədə texniki funksiyaların koordinasiyası ilə onu həll etməyə çalışırlar. Bu məqsədlə onlar beynəlxalq hökumətin haqqında yuxarıda bəhs etdiyimiz[1] yeni prosedurlarından istifadə edir və onları təkmilləşdirirlər.

Bu prosedurlar iki baxımdan yenidir. Onlar Birləşmiş Millətlər Təşkilatının yeni modelinə uyğun olaraq, siyasətin icrasında mərkəzi istiqaməti yürüdülməli olan siyasətin təbiətinə dair danışıqlar nəticəsində əldə olunmuş razılaşma ilə uyğunlaşdırırlar. Bu yolla onlar güc və ehtiyatların ya iştirakçılardan birinin, ya da qurumun özü ilə bağlı olan real üstünlüyünü bütün iştirakçıların bərabərliyə qanuni iddiası ilə uyğunlaşdırırlar.

Bu prosedurlar həmçinin ona görə – bu baxımdan onlar Birləşmiş Millətlər Təşkilatının yeni modelinin sərhədlərini açır – yenidir ki, onlar beynəlxalq və ölkədaxili münasibətlər arasında zamanın sınağından keçmiş fərqi unutdurur və bununla da eyni dərəcədə zamanın sınağından keçmiş digər dövlətin daxili işlərinə müdaxilə etməmək prinsipini pozur. Çünki hərbi hazırlıq, sənaye istehsalı, qiymətlər və tariflər kimi, adətən, ayrı-ayrı dövlətlərin müstəsna daxili yurisdiksiyasına aid olduğu hesab olunan məsələləri beynəlxalq narahatlıq məsələsinə çevirmək yeni prosedurların elə mahiyyətini təşkil edir.

[1] Bax: səh. 597 və növbəti səhifələr

Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO)

NATO-nu yaradan müqavilə 1949-cu il aprelin 4-də Belçika, Kanada, Danimarka, Fransa, Böyük Britaniya, İslandiya, İtaliya, Lüksemburq, Hollandiya, Norveç, Portuqaliya və ABŞ tərəfindən imzalandı; 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə isə Almaniya təşkilata qoşuldu. Müqavilə təşkilatın üzvləri üçün kollektiv təhlükəsizlik prinsipini müəyyən edir. 5-ci maddəyə uyğun olaraq, "Avropada və Şimali Amerikada onlardan biri, yaxud bir neçəsinə qarşı silahlı hücum onların hamısına qarşı hücum hesab olunacaq..." və hamı ona müqavimət göstərməlidir. Bu ümumi məqsəd, eləcə də üzvlərin hərbi qüdrətini artırmaqla bağlı ilkin məqsəd NATO-nu ənənəvi ittifaqdan fərqləndirmir. Lakin NATO bundan başqa, üzvləri arasında iqtisadi və siyasi sabitliyi qoruyub saxlamaq və onlar arasında ümumilikdə sıx əlaqələr qurmaq məqsədlərinə malikdir və o bu məqsədlərə mürəkkəb çoxmilli təşkilat vasitəsilə nail olmağa cəhd edir. Bu təşkilatın məqsədi öz üzvlərinin hərbi və iqtisadi siyasətlərinə onlar arasında danışıqlar yolu ilə əldə edilmiş razılaşmalar əsasında mərkəzi istiqamət verməkdir. Öz geniş məqsədlərinə və onları həyata keçirmək üçün istifadə olunan üsullara görə NATO, əslində, ənənəvi ittifaq hüdudlarını aşaraq, yeni növ funksional təşkilata çevrilir.

NATO təşkilatına üzv dövlətlərin nazirlər kabinetinin nümayəndələrindən təşkil olunmuş Şimali Atlantika Şurası başçılıq edir. Şura NATO-nun ali rəyasət orqanıdır; o, ayrı-ayrı üzvlər üçün istehsalat cədvəllərini, büdcə tələblərini, hərbi yardımın miqdarı və xarakterini və s. müəyyən edir. Şuraya baş katibin rəhbərlik etdiyi beynəlxalq qərargah kömək edir və o müstəsna olaraq təşkilat üçün fəaliyyət göstərən gerçək beynəlxalq orqandır; o, NATO-nun daimi mülki dəftərxanasıdır.

Şuranın idarəçiliyi altında bir neçə mülki və hərbi qurum fəaliyyət göstərir. NATO-nun hərbi təşkilatına üzv dövlətlərin qərargah rəislərindən təşkil olunan Hərbi Komitə rəhbərlik edir. O, hərbi məsələlərdə Şuraya məsləhətlər verir, ümumi müdafiə üçün hərbi tədbirləri planlaşdırır və ona Beynəlxalq Hərbi Qərargah yardım edir. O, Şimali Atlantikanın müdafiəsinin ümumi strategiyası üçün məsuliyyət daşıyır, müxtəlif NATO komandanlıqlarına hərbi rəhbərliyi həyata keçirir və təlimatlar verir. Bu komandanlıqlardan Avropa Müttəfiq Qüvvələrinin Ali Baş Qərargahı (SHAPE) ən çox əhəmiyyətli olan komandanlıqdır. O, Avropada ali müttəfiq komandanlığının rəhbərliyi altında Qərbi Avropanın birləşmiş qüvvələrini idarə edir. SHAPE həmçinin verilmiş halda müxtəlif üzv dövlətlərin yüksək rütbəli zabitlərindən təşkil olunan həqiqi beynəlxalq bir qurumdur. Ali komandanlıq əmrləri Hərbi Komitədən alır, lakin qərargahın rəhbərlərinə və

istənilən üzv dövlətin digər yüksək rütbəli zabitlərinə birbaşa çıxışı var.

NATO əhatə dairəsinə görə – o, üzv dövlətlərin hərbi, iqtisadi və maliyyə siyasətlərini əhatə edir – ümumi məqsəd naminə beynəlxalq hökumətin yeni prosedurlarının konkret texniki sahədə təsirə malik olmasına çalışan yeni funksional qurumların ən çox iddialısıdır. Üç amilin nisbi gücü və əlaqəsi NATO-nun təxirəsalınmaz hərbi məqsədlərinə və daha geniş və uzaq siyasi və sosial məqsədlərinə nail olub-olmayacağını müəyyən edəcək. NATO üzvləri birləşmiş müdafiə sisteminin yaradılmasını hansı təcililikdə nəzərdən keçirəcəklər? Onların ayrı-ayrı milli maraqları həmin ümumi hərbi vəzifənin təciliyi ilə müqayisədə özünü onlar üçün nə qədər əhəmiyyətli şəkildə büruzə verəcək? Başqa sözlə, üzv dövlətlərin siyasəti onların ikisindən hansına üstünlük verəcək?

Fövqəlmilli maraq ilə ayrı-ayrı milli maraqlar arasında bu qarşılıqlı əlaqə və Amerikanın gücü NATO-nun qarşıya qoyduğu vəzifələrini yerinə yetirib-yetirməyəcəyini müəyyən edəcək. İlk iki amil arasında qarşılıqlı əlaqə yalnız NATO-nun gələcəyi baxımından deyil, həmçinin Avropa dövlətlərini funksional əsasda birləşdirmək üçün, Avropa Birlikləri formasında, digər planların uğurlu, yaxud uğursuz olması baxımından həlledicidir.

Avropa birlikləri

Avropa birlikləri Avropa Kömür və Polad Birliyindən, Avropa İqtisadi Birliyindən (Ümumi Bazar) və Avropa Atom Enerjisi Birliyindən (Avroatom) ibarətdir. Avropa Kömür və Polad Birliyi 1952-ci il iyulun 25-də qüvvəyə mindiyi halda, digər iki birlik 1958-ci il yanvarın 1-də fəaliyyətə başlayıb. Onlara üzv dövlətlər eynidir: Belçika, Fransa, Qərbi Almaniya, İtaliya, Lüksemburq və Hollandiya. Onların mahiyyətinə görə eyni olan, lakin ayrı-ayrılıqda fəaliyyət göstərən orqanları 1967-ci ildə birləşdi. Nəticədə indi birliklər Avropa Komissiyası adlanan ortaq icraedici hakimiyyət və Assambleya adlanan ortaq parlament və ortaq Ədalət Məhkəməsi altında fəaliyyət göstərir; Nazirlər Şurası və İqtisadi və Sosial Komitə orqanları tamamlayır. Ortaq təsisatlar Avropa Polad və Kömür Birliyinin nümunəsi əsasında yaradıldığından sonuncunun analizi hökumət strukturunu izah etməyə xidmət edəcək.

Avropa Kömür və Polad Birliyi üzvlərinin kömür və polad istehsalı məhsulları üçün vahid bazar yaratmaq məqsədilə təsis edildi. Avropa Komissiyasının sələfi olan Ali Hakimiyyət birliyin icraedici orqanı idi. Hər hansı hökumətdən təlimatlar almadan "tam müstəqil və birliyin ümumi maraqlarından" fəaliyyət göstərdiyi hesab edildiyindən o, həqiqi bir fövqəlmilli qurum idi. O, kömür və poladın qiymətinə, vergiqoymaya, göstərişlərinin pozulmasına görə cərimələrə, sərmayələrin

yönləndirilməsinə, borcalma və borcverməyə dair məcburi qərarlar vermək səlahiyyətinə malik idi. Ortaq Assambleya ya milli parlamentlər, ya da xalq səsverməsi ilə seçilən 78 üzvdən ibarət idi. O, Ali Hakimiyyətin illik hesabatını təsdiqləməli idi və üçdə iki səs çoxluğu ilə üzvlərini birlikdən çıxmağa məcbur edə bilərdi. Hər bir üzv dövlətdən bir nümayəndədən təşkil olunan Nazirlər Şurası Ali Hakimiyyət ilə üzv dövlətlər arasında əlaqələndirici və həmçinin Ali Hakimiyyətin fəaliyyətinə nəzarətedici kimi xidmət göstərirdi, çünki sonuncunun olduqca əhəmiyyətli nəticələr doğuracaq qərarları üçün Şuranın razılığı tələb olunurdu. Ədalət Məhkəməsi Ali Hakimiyyətin qərarlarından şikayətlər haqqında qərar verir və Ortaq Assambleyanın və Nazirlər Şurasının qeyri-konstitusion aktlarını ləğv edirdi.

Bütün Avropa Birliklərinin funksional təşkilatlar kimi əhəmiyyəti xidmət etməyi nəzərdə tutduqları siyasi məqsəd üçün önəmlidir. Ayrı-ayrı Avropa dövlətlərinin güc itkisinin yerini birləşmiş səyləri ilə doldurmağa çalışmalarından savayı, Avropa Birlikləri əsrlərlə yaşı olan siyasi problemin həllində inqilabi cəhd oldu. Bu problem iki əsas amil ilə xarakterizə olunur. Onlardan biri Almaniyanın Avropanın digər dövlətləri arasında təbii üstünlüyü, digəri isə digər Avropa dövlətlərinin onun üstünlüyünü qəbul etmək istəməməsi idi. 1870-ci ildən etibarən Avropa qitəsində böyük kataklizmlərin və həmin kataklizmlərdən əvvəl edilən diplomatik gedişlərin hamısında həmin iki amil üstün təsirə malik olmuşdur.

Birinci Dünya müharibəsindən əvvəl və sonra Fransa bu iki amil ilə əvvəlki əsrlərdə etdiyi kimi qüvvələr tarazlığının təklif etdiyi üsullardan istifadə etməklə davranmağa çalışdı. O özünə xas olan zəifliyin yerini Almaniyanın təbii üstünlüyünə əks-tarazlıq olacaq ittifaqlar sistemi ilə doldurmağa çalışdı. Hər iki dünya müharibəsində Fransa nə öz gücü, nə də qitədəki müttəfiqlərinin gücü hesabına deyil, Böyük Britaniyanın, daha dəqiq desək, ABŞ-ın müdaxiləsinin hesabına xilas oldu. Bu uğursuzluq Avropa Birliklərinin imkanlarını qiymətləndirərkən unutmamalı olduğumuz digər bir amildir.

Bu birliklər geri qalan dövlətlərin üstün dövlətlərə qarşı çıxmaq üçün istifadə etmiş olduqları ənənəvi üsullardan inqilabi şəkildə uzaqlaşmanın əsasını qoyur. Çünki həmin potensial olaraq üstün dövlətə ittifaqlar sistemi ilə qarşı çıxmaq əvəzinə, Qərbi Avropanın digər dövlətləri Almaniyanı tərk-silah etmək üçün sanki onu öz qolları arasına çəkməyə və Almaniyanın üstün gücünü zərərsizləşdirməyə çalışır. Başqa sözlə, Avropa Birlikləri bir yerə toplanmış güclərinə ortaq nəzarəti təmin etmək məqsədilə üstün dövlətin geridə qalmış dövlətlə qaynayıb-qarışmasına edilən cəhddir. Beləliklə, Qərbi Avropa Almaniyanın həmin üstün gücündən qərəzli məqsədlərlə, xüsusilə Avropa qitəsində yeni alman hegemonluğunun yaradılması üçün istifadənin qabağını almağa ümid edir.

Avropa Birlikləri bu məqsədlərini yerinə yetirməyə çalışdıqları tərzdə də eyni dərəcədə inqilabidir. Əvvəllər, xüsusilə iki müharibə arasındakı dövrdə Avropanın birləşdirilməsinə cəhd sanki yuxarıdan edilirdi. Bu o deməkdir ki, hamını əhatə edən hüquqi bir təşkilat təklif edilir və yaradılırdı; ümumi hökumət üçün hüquqi çərçivə müəyyən etmək həmin cəhdlərin məqsədi idi. Nazirlər Komitəsi və milli nümayəndə heyətlərinin Məşvərətçi Assambleyasından ibarət olan Avropa Şurası bu gün həmin ənənə ilə fəaliyyət göstərir. Avropa Birlikləri başlanğıcı sanki nəzərdə tutulmuş strukturun əks qurtaracağından götürür. Onlar yuxarıdan başlamaq əvəzinə, aşağıdan start götürürlər.

Onlar məhdud fəaliyyət sahəsi daxilində funksional birlik yaratmağa çalışırlar və bu zaman gözləyirlər ki, həmin birliyin məhdud sahədə fəaliyyəti, hər şeydən öncə, həmin xüsusi sahə daxilində maraqların birliyinə gətirib çıxaracaq və bu nümunə daha sonra kənd təsərrüfatı, nəqliyyat, elektrik və hərbi qüvvələr kimi digər funksional sahələrə yayılacaq. Nəhayət, ümid olunur ki, funksional vahidlərin bu silsiləsindən üzvi şəkildə siyasi birlik ərsəyə gələcək. Bütün funksional təşkilatlar fəaliyyətdə olan müəssisələr kimi bərqərar olduqdan sonra suverenlik tədrici addımlarla faktiki olaraq ortaq Avropa hökumətinə keçəcək və ayrı-ayrı dövlətlərin real olaraq bundan heç xəbəri də olmayacaq.

Bu planın uğuru üç fundamental amildən asılıdır və onların hamısı ayrı-ayrı dövlətlərin milli maraqları və onlar arasında qüvvələrin bölgüsü ilə bağlıdır. Bu baxımdan cavab verilməli olan ilk sual budur: Avropa Birliklərinin daxilində və onların müxtəlif qurumları arasında qüvvələrin daxili bölgüsü necədir? Məsələn, Avropa Komissiyasının tərkibi necədir? O, deyək ki, kömür və polad istehsalının və bölgüsünün ən yaxşı üsulları haqqında texniki baxışları əsasında müstəqil fəaliyyət kursu yürüdən texniklərdən təşkil olunurmu, yoxsa o, üzv hökumətlərin, ola bilsin ki, onlardan əmr almayan, lakin üzv dövlətlərin milli maraqlarını və özlərinin onlara məxsus olduqlarını ağlından çıxarmağı bacarmayan nümayəndələrindən ibarətdir?

Avropa Komissiyası ilə üzv dövlətlərin yalançı parlament təmsilçiliyi olan Assambleya arasında əlaqə nədən ibarətdir? Komissiya və şura – aidiyyəti hökumətlərin nümayəndələri arasında əlaqələr necədir? Məhkəmə ən azından kağız üzərində olan böyük səlahiyyətlərindən komissiya, assambleya və şuraya münasibətdə hansı formada istifadə edir?

İkincisi, birliklərin qurumları ilə üzv dövlətlər arasında qüvvələr bölgüsü necədir? Nizamnaməyə əsasən, məsələn, Kömür və Polad Birliyi icraedici orqanı kimi, əsasən, təhqiqat səlahiyyətinə və dolayı səlahiyyətlərə malikdir. Onun, demək olar ki, tərkibinə daxil olan dövlətlərin ərazisi daxilində heç bir birbaşa səlahiyyəti yoxdur. Onun əsas səlahiyyəti sərmayələr, borclar və itaətsiz üzv dövlətlərdən

borclar üçün təminatlar sahəsindədir. Bəs həmin itaətsiz üzv dövlətlərin həmin borclara ehtiyacı olmazsa, yaxud onu başqa yerdən ala bilərsə, necə olacaq?

Üçüncüsü, üzv dövlətlər arasında iqtisadi, hərbi və siyasi sahələrdə birliyi hansı səviyyədədir? Başqa sözlə, kömür və polad, atom enerjisi sahələrində maraqların ümid olunan birliyi ilə ayrı-ayrı dövlətlərin ticarət və real iqtisadi, hərbi və siyasi maraqları arasında əlaqə necədir? Məsələn, bütün almanların öz ölkələrinin yenidən birləşməsi, yaxud Fransanın hakim dövlət mövqeyinə sahib olmaq istəklərinin yerinə yetməməsi birliklərin fəaliyyətlərinə necə mane olur? Fransa və Almaniyanın birliklərdəki iqtisadi maraqları yerinə yetməmiş milli istəklərinə qarşı çıxmaq və hətta onları üstələmək üçün kifayət qədər güclüdürmü?

İqtisadi və texniki yardım qurumları

Həm NATO, həm də Avropa Birlikləri məqsədlərinə, fəaliyyət obyektlərinə və prosedurlarına görə nisbətən irəli getmiş funksional qurumlardır. Lakin onlar bu baxımdan daha az irəli getmiş çox funksional qurumlardan regional xarakterinə görə çox geri qalır. Əgər onlar məqsədlərinə nail olsalar, milli dövlətin köhnəlmiş separatçılığını dəf etmiş olacaqlar. Onların dünya birliyinə töhfəsi haqqında müəmmalı suala yeni fövqəlmilli, regional vahidlərin dünyanın qalan hissəsinə münasibətdə yürütmüş olacaqları siyasətlərlə cavab veriləcək.[1]

Çağdaş dünya siyasətinin şərtləri altında regional xarakterli funksional qurumlar bu və digər tərəfdən həll edilməmiş siyasi münaqişələrə dartılıb çəkilməyə bilməz. Beləliklə, milli dövlətə münasibətdə birləşdirici təsir göstərdikləri halda, dünya birliyinin son məqsədi baxımından onlar ən azından qısa vədədə parçalayıcı qüvvələri gücləndirməyə məhkumdurlar.

İqtisadi və texniki yardım qurumları regionçuluğun qeyri-müəyyənliyindən əhəmiyyətli dərəcədə uzaqdır, çünki onların əksəriyyətinin göstərdiyi yardım ən azından potensial olaraq əhatə dairəsinə görə ümumdünya xarakterlidir. Lakin onlar fəaliyyət obyektinə, məqsədinə və proseduruna görə qeyri-müəyyəndir. Ona görə də onların dünyanın birləşməsinə funksional əsasda göstərdiyi təsir istənilən halda qısa vədədə əhəmiyyətsiz, qeyri-müəyyən və siyasi baxımdan səmərəsiz olmağa məhkumdur. Bu belə qurumların 3 əsas qrupu üçün keçərlidir: Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları və Texniki Yardım Şurası, ABŞ və Sovet İttifaqı tərəfindən birtərəfli şəkildə yaradılan qurumlar və Britaniya Dövlətlər Birliyi tərəfindən Kolombo planı ilə nəzərdə tutulan qurumlar. Bu qurumlar siyasi baxımdan ən çox ayrı-ayrı dövlətlərin siyasi maraqları ilə yaxından

[1] Millətçiliyin regionçuluq ilə dəf edilməsinin qeyri-müəyyənliyi haqqında bax: səh. 419.

əlaqələndirildikdə səmərəli olur, məsələn, Sovet İttifaqı ən azından qısa vədədə dünya birliyi qayəsini heçə endirir.

Aşkar humanitar aspektlərindən başqa, belə iqtisadi və texniki yardım proqramının məqsədi daha az aşkar olan gizli siyasi mənalara malikdir. Çünki dünyanın siyasi baxımdan ən vacib inkişafdan geri qalmış əraziləri Şərq və Qərbin bağlılıqları uğrunda mübarizə apardıqları heç bir tərəfə aid olmayan dövlətləridir. Bu mübarizədə daha yaxşı həyat vədi vacib bir silahdır, daha yaxşı həyatın təmin olunması isə ondan da əhəmiyyətlidir.[1]

Lakin yardımı qəbul edən tərəfdə siyasi bağlılıqlar yaradan göstərilən yardım, yaxud onun xeyirli nəticələri deyil, yardımı qəbul edənin düşüncəsində yardım və onun xeyirli nəticələri ilə yardımı göstərənin siyasi fəlsəfəsi, sistemi və məqsədləri arasında qurduğu əlaqədir. Bu o deməkdir ki, əgər yardımı qəbul edən yardım almasına baxmayaraq, yardımı göstərənin siyasi fəlsəfəsi, sistemi və məqsədlərinə mənfi yanaşmaqda davam edirsə, yardım öz siyasi səmərəsini itirir. Eyni fikir onun aldığı yardımın onu göstərənin siyasi fəlsəfəsi, sistemi və məqsədlərinin təbii olmasa da, qaçılmaz təzahürü olduğuna əmin olmadığı hal üçün də həqiqətdir. Yardımı qəbul edən nə qədər ki ya "yardım yaxşıdır, onu göstərənin siyasəti isə pisdir", ya da "yardım yaxşıdır, lakin onu göstərənin siyasətinin yaxşı, pis, yaxud əhəmiyyətsiz olmasından asılı olmayaraq, onunla heç bir əlaqəsi yoxdur" deyə fikirləşir, iqtisadi və texniki yardım siyasi baxımdan səmərəsiz olaraq qalır.[2]

Yardımı göstərən ilə onu qəbul edən arasında birlik yaratmaqda səmərəli olmaq üçün yardımın göstərilmə prosedurları və onun tətbiq olunduğu obyekt yardım və onu göstərənin siyasəti arasında sonuncuya inamı əks etdirən əlaqənin yaradılmasına uyğunlaşmalıdır. Belə bir əlaqənin Birləşmiş Millətlər Təşkilatının, yaxud Qərbin qurumlarının xarici yardım siyasətləri vasitəsilə yaradıldığı nadir nümunələrdə bu, planlaşdırmadan daha çox təsadüf olub; çünki hal-hazırda mövcud olduqları formalarda nə obyekt, nə də prosedurlar öz-özlüyündə belə bir əlaqənin yaradılmasında yardımçı ola bilmir.

İqtisadi və texniki yardımın obyekti təhsil və səhiyyədən ictimai idarəetmə və elektrik enerjisinə qədər şəxsi və sosial ehtiyacların bütöv bir sırasını əhatə edir. Göstərilən səyin belə geniş yayılması yalnız onun tətbiq olunduğu obyektə

[1] Bax: insan düşüncələri uğrunda mübarizənin bu aspekti haqqında deyilənlər, səh. 419 və növbəti səhifələr

[2] Biz burada belə hesab edirik ki, öz siyasi aspektlərinin mahiyyətinə münasibətdə irəli sürülən arqumentləri sadələşdirmək və məhdudlaşdırmaq üçün həmin iqtisadi və texniki yardım mütləq yardımı qəbul edən tərəfindən "yaxşı" kimi qarşılanır. Əslində, belə yardım böyük psixoloji gərginliklər və sosial qarışıqlıqlar yarada, qısa vədədə həll etdiyindən daha çox problemlər törədə və xoş qarşılanmaqdan daha çox, qəzəb doğura bilər.

münasibətdə deyil, həmçinin müxtəlif milli və beynəlxalq qurumlar formasında üzə çıxan mənbəyə münasibətdə olduqca əhəmiyyətlidir. O, yardımı qəbul edənlər üçün əldə etdikləri mənfəətləri xüsusi fövqəlmilli bir mənbəyə aid etməyi və həmin mənbəni milli hökumətdən daha yüksək maraqlara malik olduğu – və buna görə də öz bağlılıqlarını yönəltməli olduqları – xeyirxahlıq rəmzinə çevirməyi çətinləşdirir.

Milli bağlılıqlarının belə yerdəyişməsi bu qurumların riayət etdiyi standart prosedurlarla daha da çətinləşir. Onlar, adətən, yalnız ayrı-ayrı hökumətlərin istəyi ilə yardım göstərirlər. Bundan əlavə, məqsəd, yardımın forması və onun həyata keçirilməsi tərzləri qurum ilə yardımı qəbul edən hökumət arasındakı razılaşmanın mövzusudur. Belə şərtlər altında qurum, yəqin ki, yardımı qəbul edən hökumətə onlara öz təşəbbüsü ilə və öz planlarına uyğun olaraq yardım göstərən müvafiq hökumətlərin nümayəndələri qismində görünür.

Belə bir ehtimal onların milli bağlılıqlarını gücləndirəcək və eyni şəkildə həmin bağlılıqların fövqəlmilli rəmzlərə ötürülməsinə – dünya birliyinin inkişafının bundan asılı olduğunu hesab edirik – çətinlik törədəcək. Beləliklə, iqtisadi və texniki yardım verilmiş halda nəzərdə tutulduğu kimi, belə ehtimal olunur ki, beynəlxalq sülh məsələsini, ən yaxşı halda, olduğu yerdə saxlayır, ən pis halda isə dünyanın inkişafdan geri qalmış ərazilərində fərdlərin milli bağlılıqlarını gücləndirməklə beynəlxalq münaqişələri daha çox həllolunmaz edir.

Təklif edirik ki, müharibəyə gətirib çıxara biləcək beynəlxalq münaqişələrin dinc yolla həlli istiqamətində atılan ilk addım dünya dövlətinin bünövrəsi kimi beynəlxalq birliyin yaradılması olsun. Hesab edirik ki, beynəlxalq birliyin yaradılması ən azından beynəlxalq münaqişələrin yumşaldılması və minimuma endirilməsini əvvəlcədən elə nəzərdə tutur ki, müxtəlif dövlətlərin vətəndaşlarını birləşdirən maraqlar onları ayıran maraqları üstələyə bilir. Beynəlxalq münaqişələr necə yumşaldıla və minimuma endirilə bilər? Bu, araşdırma tələb edən sonuncu sualdır.

X FƏSİL

SÜLH PROBLEMİ: RAZILAŞMA YOLU İLƏ SÜLH

31. Diplomatiya

Biz gördük ki, beynəlxalq sülh milli suverenliyin məhdudlaşdırılması ilə mühafizə oluna bilmir və bu uğursuzluğun səbəblərini elə dövlətlər arasında əlaqələrin təbiətində aşkara çıxardıq. Belə bir nəticəyə gəldik ki, suveren dövlətlərin indiki cəmiyyətinin dünya dövlətinə transformasiyası dövrümüzün mənəvi, sosial və siyasi şərtləri altında qeyri-mümkündür. Əgər dünyamızda dünya dövləti qurmaq qeyri-mümkün, lakin həmin dünyanın mövcudluğunun saxlanması üçün əvəzolunmazdırsa, başdan etibarən dünya dövləti təşkil etməyin qeyri-mümkün olmayacağı şəraiti yaratmaq lazımdır. Belə şəraiti yaratmaq üçün əsas zərurət kimi dövrümüzdə iki superdövləti bir-birinə qarşı qoyan və dağıdıcı müharibə kabusu doğuran siyasi münaqişələrin yumşaldılması və minimuma endirilməsini təklif edirik. Daimi sülh üçün ilkin şərtlərin yaradılmasının bu üsulunu biz razılaşma yolu ilə sülh adlandırırıq. Onun aləti diplomatiyadır.

DİPLOMATİYANIN 4 VƏZİFƏSİ

Artıq diplomatiyanın dövlətin gücünün bir ünsürü kimi böyük əhəmiyyətini vurğulamaq üçün fürsətimiz olub. Beynəlxalq sülhün mühafizəsi üçün diplomatiyanın əhəmiyyəti isə həmin ümumi funksiyanın xüsusi bir aspektidir. Çünki müharibə ilə bitən diplomatiya öz əsas məqsədində uğursuzluğa uğrayıb: bu məqsəd dinc üsullarla milli maraqların gerçəkləşməsi üçün şərait yaratmaqdır. Bu, həmişə belə olub və total müharibənin imkanları baxımından da xüsusilə belədir.

Xarici siyasətin bütün spektrini əhatə edən ən geniş mənasında diplomatiyanın 4 vəzifəsi var: (1) diplomatiya öz məqsədlərini həmin məqsədlərə nail olmaq üçün mövcud və potensial gücü nəzərə alaraq müəyyən etməlidir; (2) diplomatiya digər dövlətlərin məqsədlərini və həmin məqsədlərə nail olmaq üçün mövcud və potensial gücü qiymətləndirməlidir; (3) diplomatiya həmin müxtəlif məqsədlərin bir-birinə nə qədər uyğun olduğunu müəyyən etməlidir; və (4) diplomatiya öz məqsədlərinə nail olmağın ən münasib üsullarını tətbiq etməlidir. Bu vəzifələrdən hər hansı birində uğursuzluğa uğramaq xarici siyasəti və bununla da dünyada sülhü təhlükə altına sala bilər.

Dövlət qarşısına nail olmağa gücünün çatmadığı məqsədlər qoyduqda iki səbəbdən müharibə riski ilə üzləşə bilər. Belə bir dövlət, güman ki, öz gücünü israf edir və çəkişmənin bütün cəhətlərinə münasibətdə düşmən dövləti ona qarşı onun davam gətirə biləcəyi həddi aşacaq dərəcədə çıxmaqdan çəkindirmək üçün kifayət qədər güclü olmur. Xarici siyasətindəki uğursuzluq dövləti atdığı addımları yenidən nəzərdən keçirməyə və məqsədlərini real gücü baxımından yenidən təyin etməyə məcbur edə bilər. Lakin daha çox ehtimal olunur ki, belə bir dövlət alovlandırılmış ictimai fikrin təzyiqi altında əlçatmaz məqsədlər yolunda irəliləməkdə davam edəcək, bütün resurslarını onlara nail olmağa yönəldəcək və nəhayət, milli marağı həmin məqsəd ilə qarışdıraraq, dinc üsullarla həll oluna bilməyən problemin həllinə müharibə ilə nail olmağa çalışacaq.

Dövlət həm də digər dövlətlərin məqsədlərini və onların ixtiyarında olan gücü yanlış qiymətləndirərkən müharibəyə yol açmış olur. Biz artıq status-kvo siyasətini imperializm siyasəti ilə və əksinə, səhv salmaq və imperializmin bir növünü digər bir növü ilə qarışıq salmaq yanlışlığına işarə etmişik.[1] İmperializm siyasətini status-kvo siyasəti ilə səhv salan dövlət başqa bir dövlətin siyasəti ilə onun öz mövcudluğu üçün yaranan təhlükənin qarşısını almaq üçün hazırlıqsız olacaq. Onun zəifliyi hücuma yol açar və müharibəni qaçılmaz edə bilər. Status-kvo siyasətini imperializm siyasəti ilə səhv salan dövlət mütənasib olmayan reaksiya ilə uzaq durmağa çalışdığı müharibə təhlükəsinin özünü doğuracaq. Çünki A dövləti B dövlətinin siyasətini imperializm ilə səhv saldığı üçün B dövləti də A dövlətinin müdafiə reaksiyasını imperializm ilə səhv sala bilər. Beləliklə, digər dövlət tərəfindən uydurma təcavüzün qarşısını almaq fikrində olan hər iki dövlət silaha əl atacaq. Buna oxşar olaraq imperializmin bir növünün digər bir növ ilə qarışıq salınması mütənasib olmayan reaksiyaya səbəb ola və bununla da müharibə riski törədə bilər.

Digər dövlətlərin gücünün qiymətləndirilməsinə gəlincə, onun həm olduğundan daha artıq, həm də olduğundan daha aşağı qiymətləndirilməsi sülh vəziyyəti üçün eyni dərəcədə fəlakətli ola bilər. B dövlətinin gücünü olduğundan daha artıq qiymətləndirməklə A dövləti B dövlətinin tələbləri ilə razılaşmaq yolunu seçə bilər və sonda öz mövcudluğu uğrunda ən əlverişsiz şərtlər altında mübarizə aparmağa məcbur edilər. B dövlətinin gücünü olduğundan aşağı qiymətləndirməklə A güman olunan üstünlüyündən həddindən artıq arxayın ola bilər. A tələblər irəli sürə və B dövlətinə onun müqavimət göstərmək üçün olduqca zəif olduğunu hesab etdiyi şərtlər qoya bilər. A dövləti B dövlətinin real müqavimət gücündən şübhələnməyərək ya geri çəkilmək və məğlubiyyəti boynuna almaq, ya da hücuma keçmək və müharibə riskinə getmək seçimi ilə üz-üzə qalır.

[1] Bax: səh. 75 və növbəti səhifələr, səh. 102 və növbəti səhifələr

Ağıllı və dinc xarici siyasət yürütməyə çalışan dövlət öz məqsədlərini başqa dövlətlərin məqsədləri ilə onların uyğunluğu baxımından müqayisə etməyi dayandıra bilmir. Əgər onlar bir-birinə uyğundursa, heç bir problem baş vermir. A dövləti öz-özlüyündə məqsədlərinin B dövlətlərinin məqsədləri ilə uyğunsuzluğa rəğmən həyata keçirilməli olacaq qədər əhəmiyyətli olub-olmadığını təyin etməlidir. Əgər aşkar olunarsa ki, A dövlətinin həyati maraqları həmin məqsədlərə nail olmadan təmin oluna bilər, onlar gərək təxirə salınsın. Digər tərəfdən əgər A dövləti müəyyən etsə ki, həmin məqsədlər onun həyati maraqları üçün vacibdir, o, öz-özlüyündə B dövlətinin onun məqsədləri ilə uyğun olmayan məqsədlərinin B dövlətinin həyati maraqları üçün vacib olub-olmadığını müəyyənləşdirməlidir. Əgər cavab mənfi olarsa, A dövləti B dövlətinə A dövləti üçün həyati olmayan ekvivalentlər təqdim edərək, B dövlətini öz məqsədlərindən imtinaya vadar etməyə çalışmalıdır. Başqa sözlə, diplomatik sövdələşmə, qarşılıqlı güzəştlər vasitəsilə A dövləti ilə B dövlətinin maraqlarının uyğunlaşa biləcəyi yolu tapmağa cəhd edilməlidir.

Nəhayət, əgər A dövləti və B dövlətinin bir-birinə uyğun olmayan məqsədlərinin hər iki tərəf üçün həyati əhəmiyyətli olduğu sübut olunarsa, A dövləti və B dövlətinin həyati maraqları yenidən təyin olunmalı və uzlaşdırılmalı və beləliklə də məqsədləri bir-birinə uyğunlaşdırılmalıdır. Lakin burada hətta hər iki tərəfin ağıllı və dinc siyasət yürütdüyü hesab olunsa da, A dövləti və B dövləti təhlükəli şəkildə müharibə astanasına yaxınlaşır.

Öz məqsədlərini həyata keçirmək üçün müvafiq üsulları seçmək sülhü mühafizə etmək niyyəti daşıyan və ağılla yürüdülən diplomatiyanın sonuncu vəzifəsidir. Diplomatiyanın ixtiyarında olan üsullar üçdür: inandırma, güzəşt və güc ilə hədələmə. Güc ilə hədələməyə arxalanan heç bir diplomatiya həm ağıllı, həm də sülhpərvər olmağa iddia edə bilməz. Hər bir hədəfini inandırma və güzəştə söykəyən heç bir diplomatiya ağıllı adlandırıla bilməz. Böyük dövlətin xarici siyasətinin həyata keçirilməsində əgər ümumiyyətlə olursa da, nadir hallarda digər üsulları istisna etməklə yalnız bir üsuldan istifadəyə haqq qazandırılır. Ümumiyyətlə, böyük dövlətin diplomatik nümayəndəsi həm öz ölkəsinin maraqlarına, həm də sülhün maraqlarına xidmət edə bilmək üçün eyni zamanda həm inandırmadan istifadə etməli, həm güzəştin üstünlüklərindən yararlanmalı və öz dövlətinin hərbi qüdrəti ilə digər tərəfə təsir etməlidir.

Diplomatiya sənəti hər hansı verilmiş məqamda düzgün şəkildə ixtiyarında olan bu üç üsuldan birinə üstünlük verməkdən ibarətdir. Özünün digər vəzifələrini uğurla icra etmiş diplomatiya əgər vəziyyətin şərtləri, əsasən, qarşılıqlı güzəştlər tələb etdikdə inandırmaya üstünlük verirsə, milli marağın irəli sürülməsi və sülhün mühafizəsində uğursuz ola bilər. Dövlətin hərbi qüdrəti xüsusilə nümayiş edilməli olduqda diplomatiya bütün səylərini güzəştlərə yönəldirsə, yaxud siyasi vəziyyət inandırma və güzəşt tələb etdikdə hərbi qüdrətini nəzərə çatdırırsa, eyni şəkildə uğursuzluğa düçar olacaq.

DİPLOMATİYANIN ALƏTLƏRİ

Diplomatiyanın bu dörd vəzifəsi hər yerdə və bütün dövrlərdə xarici siyasəti təşkil edən dörd əsas elementdir. Demək olar ki, qonşu tayfa ilə siyasi münasibətlər saxlayan primitiv tayfanın başçısı da uğurlu olmaq və sülhü mühafizə edib saxlamaq üçün həmin dörd vəzifəni yerinə yetirməli idi. Bu funksiyaların yerinə yetirilməsinə ehtiyac beynəlxalq siyasətin özü qədər qədimdir və onun qədər geniş yayılmışdır. Yalnız bu funksiyaların təşkilatlanmış qurumlar tərəfindən həyata keçirilməsi nisbətən yaxın tarixə bağlıdır.

Diplomatiyanın təşkil olunmuş iki aləti var: müvafiq dövlətlərin paytaxtlarında xarici işlər idarələri və xarici işlər idarələri tərəfindən xarici dövlətlərin paytaxtlarına göndərilən diplomatik nümayəndələr. Xarici işlər idarəsi xarici siyasəti həyata keçirən qurum, xarici siyasətin beynidir və burada ölkənin sərhədləri arxasında olan dünyadan təəssüratlar toplanır və qiymətləndirilir və diplomatik nümayəndələrin real xarici siyasətə çevirdiyi impulslar göndərilir. Xarici işlər idarəsi xarici siyasətin beyni olduğu kimi, diplomatik nümayəndələr də onun gözləri, qulaqları və ağzı, barmaq izləri və sanki səyyar təcəssümüdür. Diplomat öz hökuməti üçün üç əsas funksiyanı həyata keçirir: rəmzi, hüquqi və siyasi.

Rəmzi təmsilçilik

Diplomat hər şeydən əvvəl öz ölkəsinin rəmzi təmsilçisidir. Bu qisimdə o davamlı olaraq rəmzi funksiyalar həyata keçirməli və digər diplomatların və akkreditasiya olunduğu xarici hökumətin rəmzi funksiyalarının obyekti olmalıdır. Bu funksiyalar bir tərəfdən onun dövlətinin ölkə xaricində sahib olduğu nüfuzu, digər tərəfdən isə öz dövlətinin hökumətinə akkreditasiya olunduğu ölkəyə münasibətdə sahib olduğu nüfuzu sınaqdan keçirməyə xidmət edir. Məsələn, Amerikanın Londondakı səfiri dəvət olunduğu rəsmi tədbirlərdə, eləcə də özü təşkil etdiyi dövlət naharları, qəbullar və s.-də ABŞ-ın prezidentini təmsil edir. O, əlaqədar dövlətə sevincli, yaxud kədərli hadisələr münasibətilə müvafiq olaraq təbrik göndərir, yaxud başsağlığı verir, yaxud həmin dövlətdən belə təbrik və başsağlığını qəbul edir. O, diplomatik mərasimin rəmzi funksiyalarını yerinə yetirir.[1]

Diplomatiyanın rəmzi funksiyasının bariz nümunəsi kimi əksər diplomatik missiyaların akkreditasiya olunduqları hökumətin üzvlərinə, diplomat yoldaşlarına və yerləşdikləri paytaxtın yüksək cəmiyyəti üçün təşkil etmək üçün məcburiyyət hiss etdikləri təmtəraqlı ziyafətlər yada düşür. Demokratik ölkələrdə bir çox

[1] Bax: səh. 135 və növbəti səhifələr

mənfi şərhlərin hədəfi olan bu adət əsas etibarilə ayrı-ayrı diplomatların dəbdəbəyə olan sevgisinin ifadəsi deyil və diplomatik nümayəndəlik sistemində xüsusi bir funksiyanı yerinə yetirir.

Ziyafət verərkən diplomat ayrıca bir fərd kimi özü üçün deyil, öz ölkəsinin rəmzi nümayəndəsi kimi fəaliyyət göstərir. Belə ki, 1917-ci il Oktyabr inqilabını yad etmək üçün keçirilən qəbula qonaqları dəvət edən sovet səfiridir. Onun vasitəsilə (onun kimliyi bu rəmzi məqsəd üçün nisbidir) ziyafətlər verən, şənlik edən və qonaqlarını – həmçinin tədbirə açıqcasına dəvət olunmayanları – öz var-dövləti və səxavəti ilə təsirləndirməyə çalışan Sovet İttifaqıdır. Təsadüfi deyil ki, 30-cu illərdə, Sovet İttifaqı dövlətlər cəmiyyətində yenidən vacib, lakin şübhəli mövqeyə sahib olduqdan sonra sovet səfirlikləri tərəfindən verilən qonaqlıqlar bütün dünyada öz təmtərağı və yemək-içməyin bolluğu və keyfiyyəti ilə məşhur idi. Bu israfçılığın məqsədi Qərb dünyasının burjua sakinlərinə rus xalqının necə varlı olduğunu göstərmək deyildi. Məqsəd Sovet İttifaqının yenicə güclə sıyrıldığı və yenidən düşməkdən qorxduğu siyasi geriləmənin əvəzini doldurmaq idi. Diplomatik nümayəndəliklərinə xarici dövlətlərin paytaxtlarında ziyafət məsələlərində öz həmkarlarından daha yaxşı olmasa da, onlarla bərabər səviyyədə fəaliyyət göstərmək haqqında təlimatlar verməklə Sovet Ittifaqı – cəmiyyəti yenicə iflasa uğratmış yenicə peyda olan bir dövlət kimi – rəmzi olaraq özünün ən azından istənilən digər dövlət qədər xoşməramlı olduğunu nümayiş etdirməyə cəhd etdi.

Hüquqi təmsilçilik

Diplomat həm də öz hökumətinin hüquqi təmsilçisi kimi fəaliyyət göstərir. Oturaq yeri Delaverdə, Vilminqtonda yerləşən yerli korporasiya digər dövlətlərdə və şəhərlərdə hüquqi nümayəndələr tərəfindən təmsil olunduğu kimi, o da öz hökumətinin belə hüquqi nümayəndəsidir. Bu nümayəndələr korporasiya adlandırdığımız həmin hüquqi uydurmanın adından fəaliyyət göstərir, onlarla əlaqədar bəyanatlar verir, onun üzərinə öhdəliklər qoyan müqavilələr imzalayır və sanki korporasiya imiş kimi korporativ nizamnamə çərçivəsində fəaliyyət göstərirlər. Eynilə Amerikanın Londondakı səfiri də ABŞ hökuməti adından Konstitusiyanın, ABŞ qanunlarının və hökumətin göstərişlərinin ona icra etməyə icazə verdiyi hüquqi funksiyaları yerinə yetirir. Ona müqavilə imzalamaq, yaxud artıq imzalanmış müqaviləni qüvvəyə mindirən ratifikasiya sənədlərini göndərmək və qəbul etmək səlahiyyəti verilə bilər. O, ölkə xaricindəki vətəndaşların hüquqi müdafiəsini təmin edir. O, ABŞ-ı beynəlxalq konfransda, yaxud da Birləşmiş Millətlər Təşkilatının qurumlarında təmsil edə və hökuməti adından və onun təlimatlarına uyğun səs verə bilər.

Siyasi təmsilçilik

Diplomat xarici işlər idarəsi ilə birlikdə öz ölkəsinin xarici siyasətini formalaşdırır. Bu, qeyd-şərtsiz onun ən mühüm vəzifəsidir. Xarici işlər idarəsi xarici siyasətin siniri olduğu kimi, diplomatik nümayəndəliklər də onun mərkəz və xarici dünya ilə ikitərəfli hərəkəti təmin edən, onun hüdudlarından kənarda yerləşən damarlardır.

Diplomatın çiyinlərində diplomatiyanın yuxarıda müzakirə olunmuş dörd vəzifəsindən ən azından birini icra etmək kimi vacib bir yük var: onlar digər dövlətlərin məqsədlərini və bu məqsədləri həyata keçirmək üçün onların əlində olan real və potensial gücü qiymətləndirməlidirlər. Bu məqsədlə onlar hökumət rəsmiləri və siyasi liderlər ilə birbaşa sual-cavab yolu və mətbuat və ictimai fikrin digər carçılarını müşahidə etmək vasitəsilə akkreditasiya olunduqları hökumətin planları haqqında məlumat əldə etməlidirlər. Bundan əlavə, onlar hökumət daxilində, siyasi partiyalarda və ictimai fikirdə hökumətə qarşı meyillərin hökumət siyasətinə potensial təsirini qiymətləndirməlidirlər.

Vaşinqtondakı xarici diplomat öz hökumətini ABŞ hökumətinin müxtəlif qollarının beynəlxalq münasibətlərin cari problemlərinə indiki və ehtimal edilən gələcəkdəki münasibəti haqqında məlumatlandırmalıdır. O, hökumətdəki müxtəlif şəxslərin və siyasi partiyaların xarici siyasətin gedişindəki əhəmiyyətini qiymətləndirməlidir. Prezidentliyə müxtəlif namizədlər seçim prosesində xarici siyasətin həllini gözləyən məsələlərinə münasibətdə hansı mövqeni tuturlar? Müəyyən icmalçı və şərhçilərin hökumət siyasəti və ictimai fikrə təsiri necədir və onun baxışları rəsmi düşüncənin və ictimai fikrin meyillərini necə əks etdirir? Bunlar diplomatın cavab verməyə çalışmalı olduğu bəzi suallardır. Onun hökumətinin xarici siyasətin uğuru və uğursuzluğu və onun sülhü mühafizə edə bilmə imkanı böyük həcmdə onun məlumatlarının etibarlılığından və mülahizələrinin əsaslılığından asılıdır.

Dövlətin real və potensial gücünün qiymətləndirilməsinə gəlincə, diplomatik missiya yüksək səviyyəli və məxfi casus təşkilatının fəaliyyətini üzərinə götürür. Silahlı xidmətlərin yüksəkrütbəli üzvləri hərbi, hərbi-dəniz və hərbi-hava qüvvələri attaşelər qismində diplomatik missiyalarda nümayəndə olur və onlar mümkün istənilən üsul ilə mövcud və planlaşdırılan silahlanma, yeni silahlar, hərbi potensial, əlaqədar dövlətlərin müharibə planları haqqında məlumatın toplanması üçün məsuliyyət daşıyırlar. Onların xidmətləri iqtisadi tendensiyalar, sənaye inkişafı və sənaye müəssisələrinin yerləşməsi, xüsusilə onların hərbi hazırlığa təsiri haqqında məlumat toplayan ticarət attaşelərin fəaliyyəti ilə tamamlanır. Bu və burada qeyd olunmaq üçün olduqca çox olan digər çoxsaylı baxımlardan hökumətin

ölkə xaricindəki diplomatik missiyadan aldığı məlumatların dəqiqliyi və əsaslılığı onun qərarlarının əsaslılığı üçün əvəzolunmazdır.

Müasir diplomatiyanın kökündə, xüsusilə dövlətin xarici siyasətinin əsaslana biləcəyi məxfi informasiya olmaqla ümumilikdə bu informasiya toplamaq funksiyası durur. Orta əsrlərdə dövlət başçısının xarici ölkəyə səyahət edən xüsusi nümayəndəsinin casus olduğu sübuta ehtiyacı olmayan bir həqiqət idi. XV əsrin gedişində kiçik italyan daha güclü olan dövlətlərlə münasibətlərində daimi diplomatik nümayəndəliklərdən istifadə etməyə başlayanda onların başlıca məqsədi bu idi ki, həmin dövlətin təcavüzkar niyyətlərindən vaxtında xəbər tutsunlar. Hətta XVI əsrdə daimi diplomatik missiyalar ümumi xarakter alanda diplomatlara çox hallarda zəhlətökən adam və qəbul edən dövlət üçün əngəl kimi münasibət bəslənirdi. XVII əsrin əvvəlində müasir beynəlxalq hüququn banisi olmuş Hüqo Qrotsi daha da irəli gedərək onların ləğv edilməsi fikrini müdafiə etdi.

Diplomatik nümayəndələr, sadəcə olaraq, xarici dünyadakı hadisələr haqqında xarici siyasətin mərkəzi sinirinə onun qərarlarının xammalı kimi məlumat çatdıran gözlər və qulaqlar deyil. Diplomatik nümayəndələr həm də sinir mərkəzindən göndərilən impulsları sözlərə və fəaliyyətlərə çevirən ağız və əllərdir. Onlar aralarında yaşadıqları insanların və xüsusilə onların ictimai fikrinin və siyasi liderlərinin carçılarının onların təmsil etdikləri siyasəti anlamasını və mümkündürsə, qəbul etməsini təmin etməlidirlər. Xarici siyasəti belə "satmaq" vəzifəsi üçün diplomatın şəxsi cəlbediciliyi və onun əcnəbi xalqın psixologiyasını anlaması əsas ilkin şərtlərdir.

İnandırma, danışıq və sülh ilə hədələmə kimi sülhməramlı funksiyaların yerinə yetirilməsində diplomatik nümayəndə gözəçarpan rola sahibdir. Onun xarici işlər idarəsi ona yerinə yetirilməli məqsədlər və tətbiq edilməli üsullara dair təlimatlar verə bilər. Lakin həmin təlimatların yerinə yetirilməsi üçün o, diplomatik nümayəndənin özünün mühakiməsinə və bacarıqlarına bel bağlamalıdır. Xarici işlər idarəsi öz nümayəndəsinə inandırmadan, yaxud güc ilə hədələmədən istifadə etməyi, yaxud da eyni zamanda hər iki taktikadan faydalanmağı tapşıra bilər, lakin həmin üsullardan necə və nə vaxt istifadə etməyi nümayəndənin ixtiyarına buraxmalıdır. Arqument nə qədər inandırıcı olacaq, üzərində danışıqların aparıldığı razılaşma hansı faydaları gətirəcək, güc ilə hədələmə hansı təəssüratı yaradacaq, bu texnikalardan biri və digərinə üstünlük verməyin səmərəsi nədir – bütün bunlar diplomatın əlindədir və yaxşı xarici siyasətə dair yanılmaq və pis xarici siyasətin ən ağır nəticələrindən uzaq durmaq onun bacarığıdır. Biz böyük diplomatların öz dövlətlərinin gücünə verdikləri heyranedici töhfələr haqqında danışmışdıq.[1] Onların sülh məsələsinə töhfələri də bundan az əhəmiyyətli deyil.

[1] Bax: səh. 208 və növbəti səhifələr

DİPLOMATİYANIN İFLASI

Bu gün diplomatiyanın oynadığı rol artıq Otuzillik müharibənin sonundan Birinci Dünya müharibəsinin əvvəlinə qədər oynamış olduğu rol kimi çox vaxt əzəmətli və parlaq və hər zaman əhəmiyyətli deyil. Diplomatiyanın iflası Birinci Dünya müharibəsinin sona çatması ilə başladı. 20-ci illərdə bir neçə görkəmli diplomat hələ də öz ölkələrinin xarici siyasətinə əhəmiyyətli töhfələr vermək iqtidarında idi. İkinci Dünya müharibəsindən əvvəlki onillikdə diplomatların xarici siyasətin formalaşdırılmasındakı payı daha da kiçildi və diplomatiyanın xarici işlərin həyata keçirilməsi üsulu kimi iflası getdikcə daha çox aşkar oldu. İkinci Dünya müharibəsinin sonundan etibarən diplomatiya öz canlılığını itirdi və onun funksiyaları müasir dövlət sisteminin tarixində bənzəri olmayan dərəcədə tükəndi. Bu iflas 5 amil ilə izah olunur.

Kommunikasiyaların inkişafı

Bu amillərdən ən bariz olanı müasir kommunikasiyaların inkişafıdır. Diplomatiya öz yüksəlişinə görə qismən yeni ərazi dövlətlərinin hökumətlərinin bir-biri ilə aramsız siyasi əlaqələr saxladıqları dövrdə sürətli kommunikasiyaların yoxluğuna borcludur. İflasına görə isə diplomatiya qismən peyk, təyyarə, radio, teleqraf, teletayp və uzaq məsafədən istifadə olunan telefonlar kimi sürətli və müntəzəm kommunikasiyaların inkişafına borcludur.

Birinci Dünya müharibəsindən əvvəlki istənilən dövrdə ABŞ və Böyük Britaniya istənilən vaxt danışıqlara girmək istəyərkən onlar üçün London və Vaşinqtonda danışıqlar aparmaq üçün böyük səlahiyyətlər verilmiş daimi nümayəndələrə sahib olmaq əvəzedilməz idi. Belə daimi nümayəndələrin olması ona görə zəruri idi ki, təfsilatlı mesajların sürətlə və aramsız şəkildə ötürülməsi üçün mexanizmlər ağır zəhmət tələb edirdi, daha dəqiq desək, ona görə ki səyahətə sərf olunan zaman danışıqları pozmadan şəxsi məsləhətləşmələr aparmağı qeyri-mümkün edirdi. Bu gün Dövlət Departamentinin rəsmisi Britaniya Xarici İşlər Nazirliyindəki həmkarı, yaxud Londondakı Amerika səfiri ilə yalnız transatlantik telefon əlaqəsi ilə danışmağa, yaxud da növbəti gün Londonda danışıqlara başlamaq üçün axşam transatlantik səyahət həyata keçirən təyyarəyə minməyə ehtiyac duyur. Hökumət ilə birbaşa məsləhətləşmələr zərurəti yarandıqda onun öz hökumətini sonuncu hadisələr haqqında məlumatlandırmaq və ondan təlimatlar almaq üçün Atlantik okeanının üstündən o tərəf-bu tərəfə gedib-gəlməyi yalnız bir gün çəkir.

Yalnız təxminən 25 il bundan əvvəl dövlət katibinin beynəlxalq konfransda iştirak etmək və xarici ölkələrin paytaxtlarına səyahət etmək üçün həftələrlə Vaşinqtonda olmaması ağlagəlməz idi. Bu gün isə paytaxtda olmadıqda o, telefon

və radio vasitəsilə Dövlət Departamenti ilə aramsız şəkildə əlaqə saxlayır və o, istənilən an birgəcəlik reys ilə Vaşinqtona geri qayıda bilər. Belə olduqda vacib danışıqlar, bir qayda olaraq, diplomatik nümayəndələr tərəfindən deyil, xüsusi nümayəndələr tərəfindən aparılır və bunlar xarici işlər nazirlərinin özləri, yaxud xarici işlər idarələrinin yüksək çinli rəsmiləri, yaxud da texniki ekspertlər ola bilər. Müasir telekommunikasiya texnologiyası "məkik diplomatiya"nı mümkün edib.

Diplomatiyanın dəyərini itirməsi

Bununla belə, bu texnoloji irəliləyişlər yalnız diplomatiyanın ənənəvi üsullarının düşdüyü gərəksizlik vəziyyəti üçün məsuliyyət daşımır. Texnoloji cəhətdən diplomatiyanın xidmətlərindən uzaq dura bilmək imkanına həmin xidmətlərdən uzaqlaşmağın gərəkliyinə dair əminlik də əlavə olunmalıdır, çünki diplomatiyanın xidmətləri nəinki sülh vəziyyətinə heç bir yardım göstərmir, əslində, onu təhlükə altına salır. Bu əminlik güc siyasəti konsepsiyasını tarixin istənilən anında aradan qaldırıla bilən təsadüf kimi yetişdirilən zəmində böyüyüb.[1]

Həmin əminlik və onun konsepsiyası, hər ikisi güc siyasəti ilə diplomatiyanın funksiyaları arasındakı sıx əlaqəni qəbul edir və onlar bunda haqlıdır. Diplomatiyanın bir institut kimi yaranması milli dövlətin yaranması və ona görə də müasir mənada beynəlxalq münasibətlərin meydana gəlməsi ilə üst-üstə düşür. Lakin diplomatiyanın müasir görünüşü və müasir dövlət sistemi adi təsadüfdən daha artıqdır. Əgər suveren dövlətlər arasında beynəlxalq münasibətlərdə ən azından kiçik bir nizam və sülh vəziyyəti yaratmaq və belə bir vəziyyəti qoruyub saxlamaq məqsədilə, ümumiyyətlə, əlaqə olmalıdırsa, həmin əlaqə daimi nümayəndələr tərəfindən həyata keçirilməlidir. Bu halda diplomatiyaya qarşı müxaliflik və onun dəyərini itirməsi yalnız müasir dövlət sisteminə və onun yaratdığı beynəlxalq siyasət formasına qarşı qərəzliyin özünəməxsus təzahürüdür.

Müasir tarixdə diplomata mənəvi baxımdan aşağı dəyər verildiyi və bunun yalnız beynəlxalq arenada güc uğrunda mübarizəni aradan qaldırmağın asan yolunun olduğunu düşünənlər tərəfindən edilmədiyi həqiqətdir. Diplomatın hiyləgərlik və ləyaqətsizlik ilə bağlı olan nüfuzunun tarixi diplomatiyanın özü qədər qədimdir. Diplomatın XVII əsrin əvvəlində ingilis səfiri olmuş ser Henri Votona aid olunan "xaricdə öz ölkəsi naminə yalan danışmağa göndərilmiş vicdanlı insan" kimi səslənən tərif yaxşı məlumdur. Deyirlər ki, Metternixə Rusiyanın Vyana konqresində səfirinin ölüm xəbəri çatdırılanda o ah çəkərək belə deyib: "Bu, doğrudur? Onun məqsədi nə ola bilər?"

[1] Bax: səh. 80 və növbəti səhifələr

Diplomatiyanın belə dəyər itirməsinin müasir versiyası diplomatik üsulun ayrıca bir aspektinə – onun məxfiliyinə xüsusi bir əhəmiyyət əlavə edir. Birinci Dünya müharibəsi zamanı və ondan sonra həmin müharibənin məsuliyyətinin əsas olmasa da, böyük hissəsinin diplomatların məxfi fırıldaqlarının üstünə düşdüyü, diplomatik danışıqların məxfiliyinin zadəgan keçmişinin atavist və təhlükəli qalığı olduğu və sülhpərvər olan ictimai fikrin diqqətli baxışları altında aparılan və nəticələrə gələn beynəlxalq danışıqların sülh məsələsinə artıq kömək edə bilmədiyi fikri geniş yayıldı.

Vudro Vilson beynəlxalq münasibətlərə dair bu yeni fəlsəfənin ən bəlağətli təmsilçisi idi. Onun 14 maddə bəyannaməsinin preambulası və birinci maddəsi bu yeni fəlsəfənin klassik ifadəsidir. Sənədin preambulasında yazılır:

"Bizim arzumuz və məqsədimiz sülh prosesləri başladılanda mütləq açıq olması və onun bu andan etibarən hər hansı şəkildə məxfi anlaşmalara yol açmaması və icazə verməməsidir. İstila və böyümə günləri geridə qalıb; həmçinin ayrı-ayrı hökumətlərin marağına daxil olan və hansısa gözlənilməz anda dünyada sülhü poza bilən məxfi razılaşmalar dövrü də belədir. Məqsədləri dünyada sülh və ədalət ilə bir araya sığan hər bir dövlət üçün göz qabağında baş verənləri indi və ya hər hansı digər zamanda etiraf etməyi mümkün edən, bunun indi düşüncələri artıq tənəzzül etmiş və gəlib-keçmiş bir dövrdə qalmayan hər bir ictimai şəxs üçün aydın olması kimi xoşbəxt bir gerçəklikdir. Birinci maddədə yazılır: "Açıq sülh razılaşmaları açıq şəkildə əldə olunur və bundan sonra hər hansı formada hansısa şəxsi beynəlxalq razılaşmalar olmur, diplomatiya isə hər zaman açıq şəkildə və ictimaiyyətin gözü qarşısında həyata keçirilir".[1]

Parlament prosedurları ilə yürüdülən diplomatiya

Birinci Dünya müharibəsindən sonra dünyanın dövlət adamlarının diplomatiyanın bərqərar olmuş formasından uzaqlaşmağa başlamasının bu yeni fəlsəfə üçün əhəmiyyəti yox idi. Onlar Millətlər Cəmiyyətində, daha sonra isə Birləşmiş Millətlər Təşkilatında yeni diplomatik ünsiyyət forması yaratdılar: parlament proseduru ilə diplomatiya. Həll tələb edən beynəlxalq problemlər bu təşkilatların məşvərətçi orqanlarının gündəliyinə daxil edilir. Müxtəlif hökumətlərin nümayəndə heyətləri problemin xüsusiyyətlərini ictimai diskussiyada müzakirə edir. Təşkilatın Nizamnaməsinə uyğun keçirilən səsvermədə məsələ yoluna qoyulur.

[1] *Selected Addresses and Public papers of Woodrow Wilson*, edited by Albert Bushnell Hart (New York: Boni and Liveright, 1918), səh. 247-288.

Bu üsul əvvəllər xüsusi konfranslarda, məsələn, 1899 və 1907-ci illər Haaqa konfranslarında tətbiq olunub. Beynəlxalq problemlər ilə məşğul olmağın ümumi üsulu kimi ondan ilk dəfə Millətlər Cəmiyyətində istifadə olunub. Bununla belə, onun həmin təşkilat tərəfindən istifadəsi reallıqdan daha çox, görüntü xarakteri daşıyıb. Cəmiyyətin Şurası və Assambleyasında keçirilən ictimai müzakirələrdə, xüsusilə siyasi məsələləri nəzərdən keçirilərkən üsullara, bir qayda olaraq, diqqətlə əməl olunub. Hamının razılaşa biləcəyi həll yoluna, adətən, ictimai görüşlərdən əvvəl aparılan gizli danışıqlar yolu ilə cəhd edilib və nail olunub. Bu halda ictimai görüşlər əlaqədar dövlətlərin nümayəndə heyətlərinə, sadəcə, ictimaiyyət arasında öz mövqelərini bir daha bəyan etmək və gizli şəkildə əldə olunmuş razılaşmanı Nizamnamənin müddəalarına uyğun təsdiqləmək imkanı verdi.

Birləşmiş Millətlər Təşkilatı isə, əksinə, diplomatiya işinin aparılmasında parlament üsuluna ciddi yanaşdı. O, məqsədi Baş Assambleyada səsverməyə çıxarılan hər məsələ üçün Nizamnamə ilə tələb olunan üçdə iki səs çoxluğunu formalaşdırmaq olan Birləşmiş Millətlər Təşkilatı diplomatiyasının yeni üsullarını işləyib-hazırladı.[1] Ümumiyyətlə danışsaq, yeni Birləşmiş Millətlər Təşkilatı diplomatiyasının məqsədi üzv dövlətləri bir-birindən ayrı salan məsələnin nizamlanması deyil, digər tərəfə üstün gəlmək üçün üçdə iki səs çoxluğuna nail olmaqdır. Onun fəaliyyətlərinin məqsədi və son nöqtəsi səsvermədir.

Diplomatik danışıqlar əvəzinə ictimai parlament prosedurlarına – Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının əməliyyatları həmin prosedurların səciyyəvi formasıdır – meyil etməsi həm də tərkibinə, məşğul olduğu məsələlərə və məqsədlərinə görə daha çox XIX və XX əsrin əvvəllərinin diplomatik yığıncaqlarını əks etdirən müharibədən sonrakı beynəlxalq konfranslara öz təsirini göstərdi. 21 dövlətin iştirak etdiyi 1946-cı il Paris sülh konfransı tam açıqlıq şəraitində fəaliyyət göstərdi və prosedurlarına görə Birləşmiş Millətlər Təşkilatının məşvərətçi qurumlarının nümunəsini təkrarlayır. Fransa, Böyük Britaniya, Sovet İttifaqı və ABŞ-ın xarici işlər nazirlərindən təşkil olunan və İkinci Dünya müharibəsinin miras qoyduğu problemləri aradan qaldırmağa çalışan xarici işlər nazirlərinin konfranslarında müzakirələr və səsvermələr tamamilə ictimaiyyətin gözü qarşısında, yaxud da yarımməxfilik şəraitində aparılırdı və bu, ictimaiyyət üçün müzakirənin əsas mərhələlərini müxtəlif nümayəndə heyətlərinin mətbuat müxbirlərinə verdiyi məlumatlar əsasında izləmək imkanı yaradırdı.

Lakin diplomatiyanın bu ümumi parçalanmasının məsuliyyətini bütövlükdə kommunikasiyaların asanlaşması, məxfi diplomatiyanın və yeni parlament

[1] Birləşmiş Millətlər Təşkilatı diplomatiyasına dair müzakirələr üçün bax: səh. 553 və növbəti səhifələr

diplomatiyasının pislənməsi daşıya bilməz. Diplomatiyanın tənəzzülündə iki əlavə amili də qeyd etmək lazımdır: iki superdövlətin beynəlxalq siyasət məsələlərinə özünəməxsus qeyri-ənənəvi yanaşması və XX əsrin ikinci yarısında dünya siyasətinin təbiətinin özü.

Superdövlətlər – diplomatiyanın yeni iştirakçıları

Yaradıldığı illərdə ABŞ qeyri-adi dərəcədə parlaq diplomatiyanın xidmətlərindən faydalandı. Ceksonun dövründən etibarən Amerika diplomatiyasının çox gözəl keyfiyyətləri yoxa çıxdı, çünki belə görünürdü ki, onlara ehtiyac yoxa çıxmışdı. 1930-cu illərin sonunda fəal Amerika xarici siyasətinə ehtiyac özünü göstərəndə bünövrə qoymaq üçün ortasəviyyəli xarici xidmətdən başqa heç nə yox idi, güc siyasətinin və məxfi diplomatiyanın pislənməsi "təcavüzkar dövlətlər"ə qarşı mənəvi qəzəbə və Qərb yarımkürəsində yaxşı işləmiş böyük dəyənək ənənəsinə çevrildi. Belə ki, Amerika xarici siyasətini Amerika maraqları ilə ahəngdə saxlayan yalnız Franklin D.Ruzveltin zaman-zaman beynəlxalq gerçəkliklərin intuitiv hökmü ilə idarə olunan improvizasiyaları idi.

Həmin həlledici mərhələdə nə dövlət katibi, nə Dövlət Departamentinin daimi heyəti, nə də ölkə xaricindəki diplomatik nümayəndələr Amerika xarici siyasətinin həyata keçirilməsinə ikinci dərəcəli təsirdən daha böyük təsir göstərmədi. 12 il ərzində Amerika xarici siyasətini təkbaşına həyata keçirən Ruzvelt səhnədən getdikdən sonra ənənəvi diplomatiya vasitəsilə milli marağın dinc şəkildə mühafizəsini təmin edən və həyata keçirilməsinə yardım edən həmin mürəkkəb və mahir mexanizmi yaratmağa və onu işlətməyə qabil olan heç kim və ya heç bir qrup yox idi. Heç xarici siyasətin nədən ibarət olduğunu bilən bacarıqlı və etibarlı dövlət qulluqçularının həmin kiçik qrupu da xarici siyasətin rasional və mürəkkəb prosesləri üçün ictimai anlaşmaya və ictimai dəstəyə güvənə bilmirdi; bunlarsız isə demokratik bir ölkədə xarici siyasət uğurla həyata keçirilə bilməz.

Tamamilə fərqli səbəblərdən Sovet İttifaqı diplomatik ünsiyyət üçün adekvat alətlər işləyib-hazırlamaqda çətinlik çəkdi. 1917-ci il bolşevik inqilabı Rusiyanın qədim ənənələrə dayanan və bir sıra parlaq nailiyyətlər ilə şöhrət qazanmış diplomatik xidmətini məhv etdi. İnqilabdan sonra idarədə qalan qədim məktəbdən çıxmış azsaylı diplomatlar və inqilabçıların sırasından çıxmış yeni istedadlı diplomatlar özlərini təsdiq etmək üçün az imkana malik idilər. Sovet İttifaqı və əksər digər dövlətlər arasında mövcud olan və Sovet İttifaqının təcridi ilə nəticələnən ədavət normal diplomatik əlaqələrin həyata keçməsinə əngəl törətdi.

Bundan əlavə, rus diplomatı uğursuzluğu, yaxud hətta hökumətin əmrlərinin şərhində olduqca sorğu-suallı ən azından işin itirilməsi ilə cəzalandıran, yaxud

totalitar hökumətin emissarı idi. Nəticədə rus diplomatları inqilabdan sonra, adətən, – İkinci Dünya müharibəsi başa çatdıqdan sonra hər zaman olduğundan daha tez-tez, – vəzifələrinin hökumətlərinin təkliflərini qarşı hökumətə ötürməkdən ibarət olduğunu hesab edirdilər, həmin hökumət isə uyğun bildiyi şəkildə həmin təklifləri qəbul, yaxud rədd edirdi. Əks-təkliflər və danışıqlarda yeni ünsürlər xarici işlər idarəsindən yeni alətlərin irəli sürülməsini tələb edirdi. Bu yeni alətlərin məzmunu yenə də digər hökumətə ötürülürdü, sonuncu isə onu qəbul, yaxud rədd edirdi və bu şəkildə davam edirdi, o vaxta qədər ki, tərəflərdən birinin səbri tükənirdi. Belə bir prosedur diplomatik danışıqların yeni vəziyyətə çevik uyğunlaşma, psixoloji açılma, vəziyyətin tələb etdiyi kimi geri çəkilmə və ya irəli atılma, inandırma, qarşılıqlı güzəştlərlə sövdələşmə və s. bu kimi bütün imkanlarını məhv edirdi. Yeni rus diplomatiyasının həyata keçirdiyi diplomatik əlaqə ali komandanlıqdan – xarici işlər idarəsindən – səhra komandanlıqlarına – diplomatik nümayəndələrə hərbi əmrlərin verildiyi, ikincilərin isə öz növbəsində razılaşma şərtlərini düşmənə çatdırdığı vəziyyətdən başqa, bir şeyi əks etdirmirdi.

Əsas narahatlığı öz rəhbərlərinin xoşuna gəlmək olan diplomat, adətən, yalnız doğru olub-olmamasından asılı olmayaraq, rəhbərinin eşitmək istədiyi məlumatı çatdırmağa can atır. Həqiqəti xarici işlər idarəsinin istəklərinə uyğun dəyişmək və faktları əlverişli rənglərlə rəngləmək tendensiyasına bütün diplomatik xidmətlərdə rast gəlinir; çünki bu, idarədə təhlükəsizliyi gücləndirir və irəliləyiş imkanlarını artırır.

Çağdaş dünya siyasətinin təbiəti

Dövrümüzdə diplomatiyanın iflasa uğramasının bu izahında çatışmayan amil məhz çağdaş dünya siyasətinin təbiətidir. Millətçi universalizmin yeni mənəvi qüvvəsinin səlibçi ruhundan ilham almış və hər ikisi total müharibənin potensial imkanları ilə şirniklərdirilmiş və həmin imkanlardan vahiməyə düşmüş, iki nəhəng güc blokunun mərəzləri olan iki superdövlət bir-biri ilə elastik qarşıdurmada üz-üzə gəlib. Onlar özləri üçün həyati əhəmiyyətli hesab etdiklərindən imtina etmədən geri çəkilə bilməzdilər. Onlar döyüş riskinə getmədən irəli addım ata bilməzdilər. O zaman inandırma aldatma ilə bərabər tutulur, güzəşt satqınlıq mənasını verir, güc ilə hədələmə isə müharibə demək idi.

ABŞ və Sovet İttifaqı arasında güc münasibətlərinin təbiəti və bu iki superdövlətin qarşılıqlı əlaqələrinə təsir göstərmək üçün, adətən, nümayiş etdirdikləri verilmiş düşüncə tərzlərindən çıxış etdikdə diplomatiya fəaliyyət göstərmək üçün az imkana malik idi və köhnəlmək üzrə idi. Belə mənəvi və siyasi şərtlər altında dövlətin aqibətini təyin edən diplomatın sağlamdüşüncəli, iti və hərtərəfli

ağlı deyil, səlibçinin sərt, amansız və birtərəfli düşüncəsi idi. Səlibçi düşüncə inandırma və güzəşt haqqında heç nə bilmir. Onun bildiyi yeganə şey qələbə və məğlubiyyətdir.

Xarici siyasətin həyata keçirilməsinə bu şəkildə yeridilmiş əxlaqi fanatizm əlaqədar dövlətlərin istənilən şərtlər altında rasional şəkildə anlaşılan milli maraqlarını təhlükə altına salar. XVI-XVII əsrin dini müharibələri, XVIII əsrin Napoleon müharibələri və İkinci Dünya müharibəsindən sonrakı "soyuq müharibə" bunun nümunələridir. Həmin fanatizm tarixin bizim olan mərhələsində xüsusilə mənasız və özünü məhv edəndir. Həmin mərhələ keçən tarixdən milli maraqları mücərrəd şərtlər əvəzinə müstəsna şərtlər altında yenidən müəyyən etmək ehtiyacı ilə fərqlənir. Adətən, – bu gün də bu, böyük ölçüdə belədir, – A dövlətinin milli maraqlarının təmin olunması B dövlətinin milli maraqlarının narazı düşməsinə bərabər olub. Ona görə də A dövlətinin maraqları yalnız B dövləti ilə münaqişə riski ilə irəli çəkilə bilər. Müasir texnoloji irəliləyişlər həmin münasibətlərdə fundamental dəyişikliyə səbəb olub. Bu gün hər zaman olduğundan daha böyük ölçüdə müəyyən milli maraqlar var ki, A dövləti onları B dövlətinin hesabına yerinə yetirməlidir, lakin tam əksinə, onların bu şəkildə təminatı həm də B dövlətinin xeyrinədir.

Götürək nüvə enerjisindən dinc məqsədlərlə istifadə, nüvə silahlarının yayılmaması, nüvə müharibəsindən uzaq durmaq, texnoloji baxımdan zəruri resursların istehsalı və paylanması, ərzağın kifayət qədər istehsalı və paylanması, əhalinin artımına nəzarət və təbii ətraf mühitin qorunması kimi bariz nümunələri. Hər şeydən əvvəl, A dövlətinin milli maraqlarının təmin edilməsi yalnız B dövləti ilə əməkdaşlıq yolu ilə mümkündür, ikincisi isə, A dövlətinin mənfəətləri B dövlətinin narazılıqlarından deyil, B dövlətinin də mənfəətindən asılıdır. Başqa sözlə, A dövlətinin maraqları yalnız eyni zamanda B dövlətinin milli maraqlarının da təmin edilməsi ilə təmin oluna bilər. Təmin edilmək üçün onlar A dövlətinin maraqlarının müstəsnalığına üstün gəlməli, həmçinin B dövlətinin maraqlarına güzəştə getməlidirlər.

Beləliklə, diplomatiya dövlətlərin yeni ortaq maraqlarını həyata keçirə bilən yeni təsisatlar və prosedurlar yaratmaq və onların fəaliyyətini təmin etmək kimi yeni vəzifəyə malikdir. Əgər həmin vəzifə ümidsiz, müharibə isə qaçılmaz olsaydı, bu kitab burada bitməli olardı. Əgər müharibə qaçılmaz deyilsə, diplomatiyanın yenidən dirçəldilməsi şərtləri və onun sülhün xidmətində uğurla fəaliyyət göstərməsi nəzərdən keçirilməlidir.

32. Diplomatiyanın gələcəyi

DİPLOMATİYA YENİDƏN NECƏ DİRÇƏLƏ BİLƏR?

Diplomatiyanın yenidən dirçəlməsi ənənəvi diplomatik təcrübələrin tənəzzülü üçün məsuliyyət daşıyan amilləri, yaxud ən azından onların bəzi şərtlərinin aradan qaldırılmasını tələb edir. Bu baxımdan üstünlük diplomatiyanın iflasına və onun nəticəsinə – parlament prosedurları ilə yürüdülən diplomatiyaya məxsusdur. Nə qədər ki bu iflas yalnız güc siyasətinin iflasının nəticəsidir, bizim güc siyasəti haqqında yuxarıda dediklərimiz[1] diplomatiyanın iflası üçün də kifayət edir. Diplomatiya işi çoxlarına mənəvi cəhətdən nə qədər xoşagəlməz görünsə də, o öz aralarında əlaqələri nizamlı və dinc şəkildə yoluna qoymağa çalışan suveren dövlətlər arasında güc uğrunda mübarizənin əlamətindən başqa bir şey deyil. Əgər güc uğrunda mübarizəni beynəlxalq arenada qadağan etməyin bir yolu olsaydı, diplomatiyanın özü də yox olardı.

Əgər nizam və anarxiya, sülh və müharibə dünya dövlətləri üçün heç bir narahatlıq məsələsi olmasaydı, onlar diplomatiyadan tamamilə imtina edər, müharibəyə hazırlaşar və ən yaxşısına ümid edərdilər. Əgər suveren olan, əraziləri daxilində üzərilərində heç bir ağa olmadan hakim olan dövlətlər öz münasibətlərində sülhü və nizamı qoruyub saxlamaq istəyirsə, onlar inandırmağa, danışıqlar aparmağa və bir-birinə təzyiq etməyə çalışmalıdırlar. Bu o deməkdir ki, onlar diplomatik prosedurlara qoşulmalı, onları işləyib-hazırlamalı və onlara arxalanmalıdırlar.

Yeni parlament diplomatiyası bu prosedurlar üçün əvəzedici deyil. Əksinə, o, beynəlxalq münaqişələri yumşaltmaq əvəzinə, onları daha da kəskinləşdirir və sülh imkanlarına işıq salmaq əvəzinə, onları daha da tutqunlaşdırır. Bu uğursuz nəticələr üçün yeni diplomatiyanın 3 əsas xüsusiyyəti məsuliyyət daşıyır: onun aşkarlığı, qərarların səs çoxluğu ilə qəbulu və onun beynəlxalq məsələləri hissələrə bölməsi.

[1] Bax: səh. 80 və növbəti səhifə

Aşkarlıq qüsuru

Məxfi diplomatiya probleminin müzakirəsini müşayiət edən çaşqınlıq, əsasən, problemin iki aspektini fərqləndirə bilməməyin nəticəsidir: "açıq razılaşma" və "açıq şəkildə əldə olunan razılaşma" arasındakı fərq, diplomatik danışıqların nəticələrinin aşkarlığı və diplomatik danışıqların özünün aşkarlığı arasındakı fərq. Diplomatik danışıqların nəticələrinin açılması diplomatiya prinsiplərinin tələbidir, çünki bunsuz xarici siyasətə heç bir diplomatik nəzarət mümkün deyil. Lakin danışıqların özünün aşkarlığı demokratiya tərəfindən tələb olunmur və sağlam düşüncənin tələblərinə ziddir. O yalnız gündəlik təcrübədən irəli gələn sağlam düşüncəyə əsaslanaraq belə hesab edir ki, ictimaiyyət arasında danışıqlar tərəfləri olmayan dövlətləri də maraqlandıran hər hansı məsələ haqqında danışıqlar aparmaq qeyri-mümkündür. Bu qeyri-mümkünlük məhz danışıqların təbiətindən və danışıqların, adətən, aparıldığı sosial kontekstdən qaynaqlanır.

Hər bir tərəfdən maksimum tələblərlə başlaması danışıqların ümumi xüsusiyyətidir və inandırma, sövdələşmə və təzyiq proseslərində onlar hər iki tərəf danışıqlara başlayan zaman olduqları səviyyədən enərək razılaşana qədər azaldılır. Danışıqların xilasedici gücü onun hər iki tərəfin tələblərini ən azından müəyyən nöqtəyə qədər təmin etməsinin nəticəsidir və o, tərəflər arasında razılaşma aktı ilə onları birləşdirən ortaq və bir-birini tamamlayan maraqların mövcudluğunu göstərərək dostluq münasibətlərini möhkəmləndirməyə qulluq edir. Digər tərəfdən bu nəticəyə gətirib çıxaran proses tərəflərin onların həmkarları tərəfindən xatırlanmayan rollarını üzə çıxarır. Qeyri-rəsmi müzakirələrdə razılaşmaya gəlməyin və uzlaşmanın blef, ədabazlıq, bazarlıq, yalan, real zəiflik və saxta güc nümayiş etdirməkdən daha ibrətli formaları var. Belə danışıqları ictimailəşdirmək tərəflərin gələcəkdə digər tərəflərlə aparacağı istənilən sonrakı danışıqlarda sövdələşmə mövqeyini heçə endirməyə və ya ən azından zədələməyə bərabərdir.

Ziyan çəkən yalnız onların sövdələşmə mövqeyi olmayacaq. Əgər belə danışıqlar ictimailəşməyə məruz qalarsa, bununla onların zəifliyinin üstü açılaraq və qeyri-səmimilik maskası cırılaraq, onların sosial statusu, nüfuzu və gücünü bərpa edilə bilməyən ziyan ilə üz-üzə qoyacaq. Danışıqlar aparan tərəflərin can atdıqları qazanclar uğrunda mübarizə rəqibləri ictimai danışıqların onlar üçün üzə çıxardıqlarından istifadə edəcəklər. Onlar bunu yalnız tərəflərlə sonrakı danışıqlarda etməyəcəklər, həmçinin bütün mübarizə tərəflərinin xüsusiyyətləri və imkanlarının nəzərə alınması ilə apardıqları ümumi hesablamalarda, planlarda və mövqe seçimində bunlardan istifadə edəcəklər.

Bu səbəblərdəndir ki, açıq bazarda heç bir satıcı alıcı ilə, heç bir torpaq sahibi icarədarla, heç bir ali təhsil müəssisəsi öz heyəti ilə ictimaiyyət üçün açıq

danışıqlar aparmır. Vəzifəyə heç bir namizəd öz havadarları, heç bir vəzifəli şəxs öz həmkarları, heç bir siyasətçi digər siyasətçilər ilə ictimaiyyət içində danışıqlar aparmır. Bu halda ayrı-ayrı insanların etməyi fikirləşmədiklərini dövlətlərin edə biləcəklərini və etmək istəyəcəklərini necə gözləyə bilərik?

Dövlətlərin ictimaiyyət üçün açıq danışıqlar ilə düşə biləcəkləri əlverişsiz şərait daha sonra belə bir faktla daha da ağırlaşır ki, beynəlxalq ictimai danışıqlar formasının şahidi olan kütlə yalnız marağı olan tərəflərin məhdud sayını deyil, bütün dünyanı ehtiva edir. Daha dəqiq desək, əlaqədar hökumətlər öz xalqlarının diqqətli nəzərləri və xüsusilə əgər demokratik şəkildə seçilibsə, müxalifətin hərtərəfli müşahidəsi altında danışıqlar aparır. Hakimiyyətdə qalmaq, yaxud, sadəcə, xalqın ona ehtiramını qoruyub saxlamaq istəyən heç bir hökumət başdan etibarən ədalətli və zəruri elan etmiş olduqlarının bir qismindən açıq şəkildə imtina etməyi, tutduğu ilkin mövqedən geri çəkilməyi, digər tərəfin iddialarının ən azından qismən ədalətliliyini güzəştə getməyi özünə rəva görə bilməz. İctimai fikir qeyri-rəsmi müzakirələrdə razılaşmaya gələnlərə deyil, qəhrəmanlara pərəstiş edir. İctimai fikir müharibə qorxusundan vahiməyə düşdüyü halda, tələb edir ki, diplomatlar hətta müharibə riskinə gedəcək olsa da belə, qəhrəman kimi hərəkət edərək düşmən qarşısında güzəştə getməsin və o, sülh naminə güzəştə gedənləri – baxmayaraq ki, onlar bunu yalnız qismən edirlər – zəif adamlar və satqınlar kimi qınayır.

Bundan əlavə, ənənəvi diplomatiya dövlətin işini dildə və fəaliyyət tərzi ilə məqsədlərlə uyğunlaşdırardı. O zaman diplomatiyanın məqsədi milli marağı təmkinlə təbliğ etmək və qapını danışıqlar üsulu ilə həll formasında güzəştlər üçün açıq saxlamaq idi. Bunun üçün istifadə edilən ölçülüb-biçilmiş sözlər və oturuşmuş ifadələr onlardan istifadə edəni heç nəyə, yaxud yalnız fəaliyyəti lazımi şəkildə həyata keçirmək üçün istədiyinə çatdırırdı. Bu ifadələr və qəbul edilmiş formalar mənasına görə boş, ya da istənilən halda qeyri-müəyyəndir, ona görə də sonda hansı siyasət və ya tənzimləməyə üstünlük verildiyi göründüyündən asılı olmayaraq, bütün növ şərhlərə həssasdır. Onlar həmçinin nəzakətlidir və ona görə də dövlətləri bir-birindən ayıran məsələlər nə qədər tutarlı ola bilsə də, onlardan istifadə edənlər üçün bir-biriylə yola getməyi asanlaşdırır. Ümumiyyətlə, onlar danışıqları aparan açıqgözlü, tədbirli, təmkinli, barışdırıcı tərəfin mükəmməl alətidir.

İctimai diplomatiya və onun tərəfdarları belə bir alətə yalnız rişxəndlə baxır, belə ki, onlar hesab edirlər ki, onlar başa çatmış zadəgan özündənrazılığı və mənəvi laqeydlik dövrünə məxsusdurlar. Həqiqət səlibçiləri – onların ictimai diplomatlar olduğu güman olunurdu – belə danışmırlar. Tamaşaçısı bütün dünya olan səhnədə yer alan ictimai diplomatlar bir-biriləri ilə danışmaq əvəzinə, dünya ilə danışırlar. Məqsəd bir-birilərini razılaşma üçün ortaq zəminin tapa biləcəklərinə inandırmaq deyil, dünyanı və xüsusilə öz xalqlarını özlərinin haqlı, digər

tərəfin isə haqsız olduğuna və özlərinin həqiqətin dönməz müdafiəçisi olduqlarına və hər zaman belə olaraq qalacaqlarına inandırmaqdır.

Dünyanın diqqətli gözləri və qulaqları qarşısında belə bir mövqe tutmuş heç kəs axmaq və hiyləgər kimi görünmədən tam açıq şəkildə güzəştlərə razı ola bilməz. O, ictimaiyyət qarşısında verdiyi sözün və heç bir güzəştə getmədən "prinsip"in üstündə durmalıdır – "prinsip" ictimai diplomatiyanın danışıq və güzəştdən daha çox üstünlük verdiyi ifadədir. O, tutmuş olduğu ilkin mövqeni müdafiə etməlidir, digər tərəf də belə etməlidir.

Heç bir tərəf geriyə çəkilə, yaxud irəli atıla bilmədiyindən onların tutduqları mövqelər "qəribə müharibə" ilə nəticələnir. Tərəflərin hər biri digər tərəfin hərəkət etməyəcəyini və hərəkət edə bilmədiyini bilərək, sərt şəkildə bir-birinə qarşı çıxır. İctimaiyyətə hansısa fəaliyyətlilik görkəmi təqdim etmək üçün havaya boş söz atəşləri açılır, onlar səs-küylü şəkildə partlayır, lakin hər kəsə məlum olduğu kimi, heç bir məqsəd daşımırlar. Nümayəndə heyətlərinin baxışları yalnız bir-birini qarşılıqlı şəkildə günahlandırma zamanı kəsişir. Nümayəndə heyətləri sonda qəzəbli və pərişan şəkildə ayrıldıqda onlar nə qədər qəzəbli olsalar da, ən azından bir məsələdə razılığa gəlirlər: qarşı tərəf təbliğat ilə məşğul olur. Elə hasil olur ki, hər iki tərəf bu məsələdə haqlı olur.

Bu halda diplomatik ünsiyyətin təbliğat yarışına çevrilməsi yeni diplomatiyanın ictimailiyinin qaçılmaz müşayiətçisidir. Yalnız ictimai şəkildə yürüdülən diplomatiya razılığa gəlmək, yaxud razılığa gəlmək məqsədilə danışıqlar aparmaq iqtidarında olmur, həmçinin hər bir ictimai görüş beynəlxalq problemləri əvvəl olduğundan daha pis vəziyyətə salır. Çünki hər təbliğat yarışı müxtəlif nümayəndə heyətlərinin və onların mənsub olduqları xalqların onların tamamilə haqlı, digər tərəfin isə haqsız olduğuna və onları ayıran boşluğun ənənəvi diplomatiya üsulları ilə keçilə bilmək üçün olduqca dərin və geniş olduğuna əminliyini gücləndirir. Birləşmiş Millətlər Təşkilatının baş katibinin 1956-cı il məruzəsində etdiyi və 1959-cu il məruzəsində daha müfəssəl şəkildə işləyib-hazırladığı "tənzimləmələrə dair danışıqların aparılması aləti kimi Birləşmiş Millətlər Təşkilatına daha çox üstünlük verilməsi"nə dair müraciətində böyük müdriklik var.

Qərarların səs çoxluğu ilə qəbulu qüsuru

Diplomatiyanın ictimai şəkildə yürüdülməsinin mənfi tərəfi problemlər haqqında səs çoxluğu ilə qərar vermək cəhdi ilə əlaqədardır. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında bu üsul qalan üzvləri üstələmək üçün ən azından üçdə iki səs çoxluğu formasına çevrildi. Diplomatiya işinin yürüdülməsində bu üsulun qarşıda duran hər hansı bir məsələnin dinc şəkildə nizamlanmasına birbaşa yardım etmədiyi

nəticələrdən bəllidir. Məsələn, Koreya məsələsində sovet bloku dəfələrlə azlıqda qaldı. Lakin Baş Assambleyada keçirilən səsvermə Koreya məsələsinin nizamlanması üçün yalnız o, səsvermə gücünü nümayiş etdirdiyi qədər əhəmiyyətli oldu və bununla da Qərb blokunun siyasi gücünü artırdı və Birləşmiş Millətlər Təşkilatının Koreyadakı fəaliyyətini dəstəkləyən dövlətlərin sovet blokuna münasibətdə birlikdə hərəkət etməsi üçün imkan yaratdı. Həmin səsvermə bir tərəfin gücünü artırması baxımından dolayı yardımdan başqa, Koreya məsələsinin tənzimlənməsinə heç bir töhfə vermədi. Həmin məsələ Baş Assambleyanın iclasında deyil, döyüş meydanında və Qərb və Şərq arasında diplomatik danışıqlarda həll olundu. Rəqibin məşvərətçi beynəlxalq orqanda səs üstünlüyünə sahib olmasının səbəbi ayrıca bir qrupun güclənməsi üçün vaxtaşırı olaraq istifadə edilməsindən başqa, əhəmiyyətsiz və hətta, ola bilsin ki, zərərli iş olmasıdır və bu, milli cəmiyyətlərdən fərqli olaraq, məhz beynəlxalq cəmiyyətlərin təbiətində üzə çıxır.

ABŞ-ın Konqresində keçirilən səsvermədə azlıq səs azlığında qalırkən o, məsələni, həqiqətən, verilmiş zamana görə həll edir. O bunu beynəlxalq arenada olmayan 4 səbəbə görə edə bilir:

1. Parlamentdə səs çoxluğu dinc dəyişiklik hər biri digərlərini tamamlayan, yaxud dəstəkləyən, yaxud da onlar üzərində düzəliş edən və hamısı konstitusiya ilə məhdudlaşan və əlaqələndirilən mexanizmlərin bütöv sisteminin ayrılmaz bir parçasıdır. Konqresdə azlıq və çoxluq bütöv bir cəmiyyəti təşkil edir. Səs çoxluğu ilə qərar verən məşvərətçi orqanlardan başqa, milli cəmiyyət prezident tərəfində veto və məhkəmə baxışı kimi silsilə mexanizmlər yaradıb və onların vasitəsilə səs çoxluğu ilə qəbul olunan qərarı ləğv etmək və azlığı səs çoxluğundan qeyri-konstitusion istifadə və özbaşına sui-istifadəyə qarşı müdafiə etmək olar. Səs çoxluğu ilə qərar qəbulunun, eləcə də məğlubiyyətə uğradılmış azlığın arxasında azlığın qərarını həyata keçirməyə və azlığı ədalətsizlik və sui-istifadəyə qarşı müdafiə etməyə hazır olan milli birliyin mənəvi və siyasi gücü durur.
2. Milli birlik daxilində fəaliyyət göstərən dinc dəyişiklik alətləri azlığa gələcəkdə nə vaxtsa çoxluğa çevrilmək imkanı verir. Həmin imkan gücün hər zaman yeni birləşməsi və bölgüsünü təşkil edən dövri seçkilər mexanizmi və sosial proseslərin dinamizminə xasdır. Bu dinamikalar həmçinin məşvərətçi məclisdə azlığın heç vaxt bütün mühüm baxımlardan azlıqda qalmamasına göz yetirir. Bir qrup dini azlıq bu növ məsələlərə dair səsvermələrdə səs azlığında qala bilər, lakin iqtisadi qanunvericiliyi müəyyən edən iqtisadi çoxluğun tərkib hissəsi olar və ilaxir.[1]

[1] Həmçinin bax: dinc dəyişikliyə dair ümumi müzakirələr, paraqraf 26.

3. Azlıq və çoxluq arasında say nisbəti ən azından bütün əhali içərisində gücün və maraqların real bölgüsünə təxminən uyğundur. Nümayəndələr Palatası təklifin əleyhinə səs verəndə – deyək ki, 270-in 60-a – Amerika əhalisinin yalnız nisbətən kiçik azlığının rədd edilmiş tədbirin tərəfində olduğunu güman etmək, ümumiyyətlə, düzgündür.
4. Konqresdə hər verilən səs bir səs sayıldığı halda, siyasi olaraq danışsaq, bütün verilən səslərin bərabər çəkiyə malik olmadığı, şübhəsiz, bir həqiqətdir. Güclü bir komitə sədrinin, sənayeçinin, fermerin, yaxud həmkarlar ittifaqı rəhbərinin qanunvericilik aktına münasibətdə mənfi olan səsi onun mənsub olduğu qrupun maraqlarına təsir edərək, çoxluğun qanunvericilik aktının malik olacağını düşündüyü siyasi, iqtisadi və sosial nəticələrə təsir göstərə bilər. Lakin Konqresdə ən güclü tək səs belə Amerika xalqının ümumi gücünün kiçik bir qismini təmsil edir.

Səs çoxluğu ilə qərar qəbuletmənin ölkə daxilində dinc dəyişikliyə yardım etməsini mümkün edən bu 4 amildən heç biri beynəlxalq arenada mövcud deyil.

1. Səs çoxluğu ilə qərar qəbuletmə Birləşmiş Millətlər Təşkilatı çərçivəsində məcburi dinc dəyişikliyin yeganə mexanizmidir. Çoxluq üzərinə əsaslı və prosedur məhdudiyyətləri qoyan və azlığı ədalətsizlik və sui-istifadədən müdafiə edən heç bir konstitusiya, prezident vetosu, məcburi məhkəmə baxışı və hüquqlar haqqında sənəd mövcud deyil. Heç çoxluq və azlıq üzərinə eyni şəkildə mənəvi məhdudiyyətlər qoyan və çoxluğun qərarını itaət göstərməyən azlığa qarşı həyata keçirməyi bacaran birlik də mövcud deyil. Çoxluq azlıq üzərində istədiyi qədər və seçdiyi istənilən məsələdə səs üstünlüyünə malik ola bilər, azlıq isə özünü veto vasitəsilə və gücünün hesabına səs çoxluğu ilə qəbul olunmuş, ləğv etmək istədiyi istənilən qərara qarşı müdafiə edə bilər.
2. Birləşmiş Millətlər Təşkilatında azlıq, ehtimal olunur ki, xüsusilə indiki siyasi şərtlər altında daimi olacaq. Eyni səbəbdən onun azlıq statusu böyük əhəmiyyət kəsb edən müəyyən məsələlərə də öz təsirini göstərməlidir. Çağdaş dünya siyasətinə hakim olan, Çinin və "üçüncü dünya"nın müstəqil mövqeyi ilə şəklini dəyişən ikibloklu sistem bölgünün hər iki tərəfində daimi ittifaqlara gətirib çıxarır. İki blok arasında gərginliklər məsələlərin əksəriyyətini siyasi məsələlərə çevirir. Belə məsələlər səsverməyə çıxarılanda iki blokun tərəfdarları iki bloku ayıran xətt boyunca müvafiq şəkildə bölünməlidirlər.
3. Baş Assambleyada azlıq və üçdə iki çoxluq arasında say nisbəti, aydın məsələdir ki, mütləq Birləşmiş Millətlər Təşkilatının üzvləri arasında gücün

və maraqların real bölgüsünə uyğun gəlmir, heç Baş Assambleyanın ən güclü üzvlərinin əksəriyyətinin səsi də dövlətlər birliyinin ümumi gücünün nisbətən kiçik bir qismini də təmsil etmir. Afrika, Asiya, Avropa və Latın Amerikasının bütün kiçik dövlətlərindən təşkil olunan böyük çoxluq ABŞ, yaxud Sovet İttifaqının bir səsi ilə müqayisədə güc baxımından kiçik əhəmiyyət kəsb edir.

Beynəlxalq məşvərətçi orqanda güclü azlığın "soyuq müharibə" zamanı ondan güclü silah kimi istifadə oluna biləcəyi halda, əleyhinə səs vermək, adətən, sülhün qorunub saxlanmasına kömək etmir. Çünki azlıq çoxluğun qərarını qəbul edə bilmir, çoxluq isə müharibədən başqa digər yolla öz qərarını həyata keçirə bilmir. Ən yaxşı halda, beynəlxalq arenaya keçirilən parlament prosedurları hadisələri olduğu kimi saxlayır; onlar problemləri həll edilməmiş və məsələləri tənzimlənməmiş olaraq buraxırlar. Ən pis halda isə, bu prosedurlar beynəlxalq iqlimi zəhərləyir və müharibə toxumu daşıyan münaqişələri kəskinləşdirir.

Onlar çoxluğa azlığı ictimaiyyət içində istədiyi qədər tez-tez hörmətdən salmaq imkanı verir. Bu prosedurlar azlığı çoxluğun iradəsini qırmaq və beynəlxalq qurumun, ümumiyyətlə, fəaliyyətinin qarşısını almaq üçün suveren dövlətlər birliyində səs çoxluğu ilə keçirilən səsvermənin nəticəsinin vetosu formasında silahla təmin edir. Nə çoxluq, nə də azlıq hərəkətlərinə məhdudiyyətlər tətbiq etməyə, yaxud da beynəlxalq təşkilat və ya bəşəriyyət qarşısında məsuliyyətindən xəbərdar olmağa ehtiyac duymur, çünki tərəflərdən hansınınsa lehinə, yaxud əleyhinə səs verməsi bu şəkildə hadisələrin gedişinə təsir göstərə bilməz. Bu halda suveren dövlətlərin bir qrupu səsvermə zamanı suveren dövlətlərin digər bir qrupuna qarşı çıxmaq üçün, adətən, beynəlxalq münaqişələrin dinc yolla nizamlanması üçün heç nə edə bilməyən, lakin insanlığı daha da müharibə yoluna sürükləyə biləcək uşaq oyununa qoşulmalıdır.

Hissələrə bölmə qüsuru

Qərarların səs çoxluğu ilə qəbulu ənənəvi diplomatik təcrübələrin yenidən dirçəlməsi yolunda dayanan çatışmazlıqlardan üçüncüsünü ortaya çıxarır: beynəlxalq məsələlərin hissələrə bölünməsi. Öz təbiətinə görə, səs çoxluğu ilə qərar qəbulu təcrid olunmuş bir hal ilə əlaqədardır. Həyatın haqqında səs çoxluğu ilə qərarın qəbul edilməli olduğu gerçəkliklər onlardan əvvəl gələn, onları müşayiət edən və onlardan sonra gələn gerçəkliklərdən süni şəkildə ayrılır və haqqında səs çoxluğu ilə qərarın qəbul edilməsi ilə bu şəkildə nizamlanmalı olan hüquqi "hal"a, yaxud siyasi "məsələ"yə çevrilir. Daxili düzəndə bu prosedurlar mütləq şəkildə ziyanlı olmur. Burada məşvərətçi orqanda qərarların səs çoxluğu ilə qəbulu

prosesi vəziyyətdən asılı olaraq, dinc dəyişiklik, bir-birini tamamlama, dəstəkləmə və bir-birinə nəzarətin qarışıq, lakin istənilən halda müəyyən qədər bir-birinə uyğunlaşan və bununla da ayrı-ayrı qərarlara bir-biri ilə və bütün sosial sistem ilə əlaqə bəxş edən mexanizmlər sisteminin konteksti çərçivəsində fəaliyyət göstərir.

Beynəlxalq arenada vahid şəkildə belə birləşmiş amillər mövcud deyil. Bu səbəbdən burada bir "hal", yaxud "məsələ"ni digərinin ardınca qaldırmaq və onları səs çoxluğu ilə qərarlar qəbuletmə ardıcıllığı ilə nizamlamaq xüsusilə qeyri-münasibdir. Məsələn, Orta Şərq və Berlin kimi məsələlər hər zaman daha böyük problemin ayrıca mərhələsi və təzahürüdür. Belə bir hal, yaxud məsələnin kökü tarixi keçmişə gedib çıxır və öz şaxələrini öz məxsusi dairəsindən kənara və gələcəyə uzadır. Gərginliklər və mübahisələr arasında əlaqələrə dair müzakirəmiz beynəlxalq münaqişələrin səth fenomeni ilə beynəlxalq həyatın gündəlik hadisələrinin səthi altında dərində basdırılmış həmin böyük və qeyri-müəyyən problemlər arasında mövcud olan sıx əlaqələrə işarə etmişdir.[1]

Hallar və məsələlərlə onların üzə çıxdığı formada məşğul olmaq və onları beynəlxalq hüquqa və siyasi məqsədyönlülüyə uyğun şəkildə nizamlamağa çalışmaq səth fenomeni ilə məşğul olmaq və bünövrədə duran problemi nəzərdən keçirilməmiş və həll edilməmiş qoymaq deməkdir. Millətlər Cəmiyyəti bu qüsurun qurbanı oldu, Birləşmiş Millətlər Təşkilatı isə Cəmiyyətin təcrübəsini nəzərə almayıb.

Məsələn, heç bir şübhə yoxdur ki, Millətlər Cəmiyyəti beynəlxalq hüquqa uyğun olaraq, 1939-cu ildə Sovet İttifaqını Finlandiyaya hücumuna görə öz sıralarından çıxartmaqda haqlı idi. Lakin Sovet İttifaqının dünyanı üz-üzə qoyduğu siyasi və hərbi problemlər nə onun Finlandiyaya hücumu ilə başlamışdı, nə də onunla bitdi; vəziyyətin belə olduğunu iddia etməsi və məsələni bu iddia əsasında həll etməsi Cəmiyyət tərəfindən ağılsızcasına atılmış addım idi. Tarix həmin iddianın düşünülməmiş olduğunu təsdiqlədi, yalnız İsveçin Böyük Britaniya və Fransa ordularına onun ərazisindən keçərək Finlandiyanın köməyinə gəlməyə icazə verməkdən imtina etməsi Böyük Britaniya və Fransanı eyni zamanda Almaniya və Sovet İttifaqı ilə müharibə vəziyyətinə düşməkdən xilas etdi. Millətlər Cəmiyyəti hüquqi məsələ kimi təqdim olunan siyasi vəziyyətlərlə əlaqədar olmağa cəhd etdiyi istənilən vaxt onlarla siyasət sənətinin qaydalarına uyğun ümumi həll tələb edən ümumi siyasi vəziyyətin ayrı-ayrı mərhələləri kimi deyil, yalnız beynəlxalq hüququn tətbiq oluna bilən qaydalarına uyğun şəkildə, təcrid olunmuş hallar kimi məşğul ola bilirdi. Ona görə də siyasi problemlər heç vaxt həll olunmadı, onlar haqqında yalnız açıq və bəlağətli, lakin qeyri-ciddi müzakirələr aparıldı və sonda onlar hüquqi oyunun qaydalarına uyğun rəfə qoyuldu.

[1] Bax: səh. 541 və növbəti səhifələr

Millətlər Cəmiyyəti haqqında həqiqət olanların Birləşmiş Millətlər Təşkilatı haqqında da həqiqət olduğu artıq təsdiqlənib. Birləşmiş Millətlər Təşkilatı siyasi qurumlar qarşısında qaldırılan məsələlərin çoxuna yanaşmasında Millətlər Cəmiyyətinin yaratdığı ənənəyə sadiq qalıb. Bu hallar parlament proseduru və ənənəvi diplomatiyanın çox vaxt qınadığı süründürməçi üsullarla həll imkanları təmin etmişdir, lakin həmin vəziyyətlərin yalnız səthi təzahürü olduğu siyasi məsələləri üzə çıxarmağa hətta cəhdlər belə nadir hallarda edilmişdir.

Müharibədən sonrakı dövrdə keçirilən xüsusi siyasi konfranslar Millətlər Cəmiyyətinin yaratdığı hissələrə bölmə nümunəsini təkrarlamışdır. Onlar, məsələn, Koreya, Almaniyanın birləşdirilməsi, yaxud tərk-silah kimi məsələlərlə əlaqədar olub. Lakin bu konfranslardan heç biri bütün bu məsələlərin ayrıca mərhələləri və təzahürləri olan və bu məsələlərin nizamlanmasının həllindən asılı olduğu problemi üzə çıxarmamışdır; bu, Sovet İttifaqı ilə ABŞ arasındakı ümumi münasibətlərin problemidir. Onlar beynəlxalq siyasətin fundamental problemin həlli ilə ciddi şəkildə məşğul olmaq istəmədikləri üçün diqqətlərini cəmlədikləri ayrı-ayrı məsələlərin hər hansı birini həll edə bilmədilər.

Çağdaş diplomatiyanın hətta sülhün qorunub saxlanması problemini həll etməyə çalışmaq bir tərəfə, onun nədən asılı olduğunu belə görə bilməməsi onun tətbiq etdiyi üsulların qaçılmaz nəticəsidir. Digər tərəf ilə barışdırıcı tərzdə danışmaq əvəzinə, təbliğat məqsədilə dünyaya müraciət edən, danışıqlarda məqsədinin güzəşt əldə etmək olması əvəzinə, səs çoxluğu ilə qəbul edilmiş faydasız qərarlar və maneə törədən səsvermələr ilə ucuz qələbələrə can atan, əsas problemi üzə çıxarmaq əvəzinə, ikinci dərəcəli problem üzərində manipulyasiya ilə qane olan diplomatiya sülh məsələsi üçün əlverişli vasitədən daha çox öhdəçilikdir.

Müasir diplomatiyanın bu üç qüsuru müasir texnologiyaların düzgün istifadə edilməməsi ilə daha da kəskinləşir. Müasir texnologiyanın zamanı və məkan problemini ram etməsi ilə diplomatik nümayəndəliyin əhəmiyyəti qaçılmaz şəkildə azalmışdır. Lakin bu heç bir halda xarici işlər idarəsi ilə müasir diplomatiya üçün xarakterik olan diplomatik nümayəndəlik arasında vəzifələrin qarışıq salınmasını zəruri etməmişdir. Dövlət katibi, yaxud xarici işlər naziri müasir texnologiyalardan istifadə etməklə bir neçə dəqiqə ərzində istənilən xarici paytaxt ilə əlaqə yaratmaq və ən çoxu bir neçə gün ərzində şəxsən ora getmək üçün fiziki imkana malikdir. Beləliklə, belə bir tendensiya yaranmışdır ki, xarici işlərin yürüdülməsi üçün məsuliyyət daşıyan insanlar bir konfransdan digərinə tələsən, konfranslar arasında olan dövrdə qısa müddətliyinə idarədə qalan və orada keçirdiyi zamanı növbəti görüşə hazırlaşmağa sərf edən səyyar səfirlərin rolunu öz üzərilərinə götürüblər. Diplomatiyanın beyni, sinir mərkəzi hesab olunan insanlar indi, ən yaxşı halda, sinir uclarının vəzifələrini yerinə yetirirlər.

Bu səbəbdən mərkəzdə bir boşluq mövcuddur. Beynəlxalq siyasətin ümumi problemini üzə çıxaran və bütün ayrı-ayrı məsələləri bir bütövün mərhələləri və təzahürləri kimi görən heç kim yoxdur. Bunun əvəzinə xarici işlər idarəsində hər bir mütəxəssis öz fəaliyyət istiqamətinə məxsus olan ayrı-ayrı məsələlərlə məşğul olur və xarici siyasətin icrasının tərkib hissələrinə bölünməsi üçün – çağdaş diplomatiya da öz üsullarını həmin hissələrə uyğunlaşdırır – xarici siyasətdə ümumi istiqamətlərin olmaması da olduqca əlverişli şərait yaradır.

DİPLOMATİYANIN VƏDİ: ONUN 9 QAYDASI[1]

Diplomatiya son illər onun faydalılığını, demək olar ki, heçə endirmiş bu qüsurlarından arınarsa və çox qədim dövrlərdən etibarən dövlətlərin qarşılıqlı əlaqələrini idarə etmiş üsullarını bərpa edərsə, yenidən dirçələ bilər. Belə etməklə diplomatiya sülhün mühafizə edilməsi üçün yalnız bir ilkin şərti reallaşdırar. Yenidən dirçəlmiş diplomatiyanın sülh məsələsinə töhfəsi onun tətbiq etdiyi üsullarından və onlardan istifadə məqsədlərindən asılı olar. Bu istifadələrin müzakirəsi bizim bu kitabda qarşımıza qoyduğumuz sonuncu məsələdir.

Biz artıq xarici siyasətin milli marağın həyata keçməsinə yardım və sülhü mühafizə edə bilmək üçün uğurla öhdəsindən gəlməli olduğu dörd əsas vəzifəsini müəyyən etmişik. İndi qalır həmin vəzifələrin müasir dünya siyasətinin diplomatiyanı üz-üzə qoyduğu xüsusi problemlər baxımından yenidən müəyyənləşdirmək. Biz gördük ki, müasir dünya siyasətinin hakim və səciyyəvi ünsürü olan ikiqütblü sistem böyük fəlakət və böyük xeyir potensiallarına malikdir. Biz fransız filosofu Fenelondan iki təxminən bərabər dövlətin müxalifliyinin ideal qüvvələr tarazlığı sistemi yaratdığına dair sitat gətirmişdik. Aşkar etdik ki, Fenelonun ikiqütblü sistemdən gözlədiyi xeyirli nəticələr ABŞ və Sovet İttifaqı arasında müxalifliyi müşayiət etməkdə uğursuz olmuşdur.[2]

Nəhayət, biz müasir dünya siyasətinin təhlükəli aspektinin əsas səbəbini millətçi universalizm və müasir texnologiyanın təsiri altında əsaslı şəkildə dəyişmiş müasir müharibənin xarakterində gördük. Müasir texnologiyanın nəticələri geri qaytarıla bilməz. Məqsədyönlü manipulyasiyaya hələ də məruz qalan yeganə arqument millətçi universalizmin yeni mənəvi qüvvəsidir. Dirçəlmiş diplomatiya

[1] Biz burada heç bir halda diplomatiyanın qaydalarının ətraflı izahını vermək niyyətində deyilik. Biz yalnız çağdaş vəziyyət üzərində xüsusi təsirə malik olduqları görünən qaydaları müzakirə etməyi nəzərdə tuturuq.
[2] Bax: səh. 454-455.

üsulları ilə müharibəyə doğru meyli aradan qaldırmağa edilən cəhd bu fenomendən başlamalıdır. Əks mənada bu o deməkdir ki, yenidən dirçəlmiş diplomatiya yalnız o zaman sülhü mühafizə etmək imkanına malik olacaq ki, ondan dünyaya ağalıq etmək məqsədi daşıyan siyasi məzhəbin aləti kimi istifadə edilməyəcək.

4 fundamental qayda

1. Diplomatiya səlibçi ruhdan xilas olmalıdır. Bu, diplomatiyanın yalnız müharibə riski ilə etinasız yanaşa biləcəyi qaydalardan birincisidir. Uilyam Qraham Samnerin sözləri ilə desək:

"Əgər müharibə istəyirsənsə, bir ehkam yarat. Ehkamlar insanların nə vaxtsa hədəf ola biləcəkləri ən qorxunc tiranlardır, çünki ehkamlar insanın öz düşüncəsinin içinə daxil olur və onun özünün özünə yalan danışmasına səbəb olur. Sivil insanlar ən sərt mübarizələrini ehkamlar uğrunda aparıblar. Müqəddəs məqbərənin yenidən fəthi, "qüvvələr tarazlığı", "ümumdünya ağalığının olmaması", "ticarətin bayraq altında aparılması", "quruya sahib olan dənizə də sahib olacaq", "taxt və qurbangah", inqilab, etiqad – bunlar insanların uğrunda öz həyatlarını verdikləri məfhumlardır. ...İndiki zamanda hər hansı ehkam belə bir hökm dərəcəsinə çatdıqda onun adı istənilən demaqoqun istənilən vaxt və heç nədən asılı olmayaraq, sənin üstünə qaldıra biləcəyi dəyənəyin adıdır. Bir ehkamı təsvir etmək üçün nəzəri dilə müraciət etməliyik. Ehkam etiqad ilə əlaqədar bir məfhumdur. Bu inanmağa məcbur olduğun bir məfhumdur, ona görə yox ki onun doğruluğuna inanmaq üçün hansısa rasional zəminin var, ona görə ki bu kilsəyə, yaxud məzhəbə mənsubsan. ...Dövlətdəki bir siyasəti biz başa düşə bilirik; məsələn, XVIII əsrin sonunda hətta İspaniya ilə müharibə riski hesabına olsa da belə, Missisipidə onun mənsəbinə qədər gəmilərinin hərəkət azadlığına nail olmaq ABŞ-ın siyasəti idi. Həmin siyasətin səbəb və ədalətliliyi onun özünün içindədir; onun bünövrəsi bizim maraqlarımızda idi; o, dəqiq bir formaya və müəyyən bir çərçivəyə malik idi. Ehkam isə mücərrəd bir prinsipdir; o, əhatə dairəsinə görə istər-istəməz mütləq və ifadə formasına görə isə çətin başa düşüləndir; o, metafizik hökmdür. O, heç vaxt həqiqət deyil, çünki mütləqdir və insanların bütün işləri şərti və nisbidir. ...İndi isə yenidən siyasətə nəzər salaq və sadəcə, dövlətçilikdə mücərrəd bir ehkamın necə bir rəzalət olmalı olduğunu düşünək. İstənilən siyasətçi, yaxud redaktor istənilən an onun üzərinə yeni bir ölçü qoya bilər. Əhali ehkamla ona görə məmnuniyyətlə razılaşır və onu alqışlayır ki, siyasətçilər və redaktorların onu təkrarladığını eşidirlər, siyasətçilər və redaktorlar isə onu ona görə təkrarlayırlar ki, onun populyar olduğunu düşünürlər. Bununla da o böyüyür. ...O hər hansı bir anda nəsə ifadə edə bilər, ya da heç nə ifadə etməz, bunun necə olacağını isə heç kim bilmir. Sən indi onun nə olduğuna

dair gümanlarının qeyri-müəyyən hüdudları çərçivəsində onunla razılaşırsan; ona görə də sabah eyni ad sənin heç vaxt haqqında eşitmədiyin və düşünmədiyin nəyi isə nəzərdə tutaraq işlədildiyi zaman da onun tərəfində olacaqsan. Əgər siyasi şüarın yayılmasına və böyüməsinə imkan versən, bir gün ayılıb görəcəksən ki, o, başının üstündədir, insanların yanılmalar qarşısında gücsüz olduğu kimi, qarşısında gücsüz olduğun müqəddəratına hakim kəsilib. ...Hazırda gündəmdə olan maraqlarımızdan hər hansı biriylə heç bir müəyyən əlaqəsi olmayan, lakin əvvəlcədən görə bilmədiyimiz, bununla belə, meydana çıxdıqları zaman əziyyət çəkəcəyimizə əmin olduğumuz fəsadlar törətmək potensialına malik mücərrəd bir hökm irəli sürməkdən daha çox nə sağlam dövlətçiliyə və sağlam düşüncəyə zidd ola bilər!"[1]

Müstəmləkə tarixinin lap əvvəlində maraqlar ilə səlibçi ruh arasındakı bu münaqişə Massaçusetsin birinci qubernatoru Con Vintrop tərəfindən qeyd-şərtsiz qəbul olundu və birincinin xeyrinə həll edildi. Professor Edmund S.Morqanın sözləri ilə desək:

"Vintropun təkəbbürün xeyirxahlığı necə boğduğunu müşahidə etmək üçün çoxsaylı fürsətləri olmuşdu. O həmçinin insanı reallıqlara kor edir. O bilirdi ki, Yeni İngiltərə yeni iqtisadiyyatına görə xarici dünyadan asılı idi və hər dəfə Yeni İngiltərə treskasını bütpərəst Roma katoliklərinin onlar üçün yaxşı pul verdikləri bazarlara daşıyan digər bir gəminin Bostonda yollarda suları sıçratdığını görəndə onun ürəyi fərəhlənirdi. O həmçinin bilirdi ki, yaxşı bir xarici işlər naziri onu bilməlidir ki, o, ətrafda baş verən pisliklərə qarşı kor-koranə və heç bir fərq qoymadan laqeydlik nümayiş etdirdikdə həmin təkəbbür onun icmasını təhlükə altına qoyur. Beləliklə, onun həmkarları Rod Aylendə yardım etməkdən imtina edəndə o bildirdi ki, bu yanlış bir siyasətdir, çünki, baxmayaraq ki, rod aylendlilər son dərəcə qəbahətli idilər və öz aralarında belə bir nifaq onların gələcək məhvindən xəbər verirdi, əgər hindilər onları üstələyərdilərsə, bu, hindilər üçün böyük üstünlük və bütün ölkə üçün silahlı təhlükə və s. olardı və belə bir hal çoxsaylı insan itkisi, heyvan tələfatı və 120-dən artıq ailəyə məxsus olan digər maddi mülkiyyətə ziyanın dəyməsi ilə nəticələnəcək. Yaxud əgər onlar Hollandiyadan müdafiə üçün yardım etməyə məcbur olarlarsa – Hollandiya buna razılaşar – əcnəbilərin onların qüdrəti qədər əhəmiyyətli gücə sahib olması bütün ingilislər üçün böyük narahatlıq olar".[2]

Din müharibələri göstərdi ki, öz dinini yeganə həqiqi din kimi dünyanın qalan hissəsinə zorla qəbul etdirmək cəhdi əbəs olduğu qədər də böyük xərclər

[1] "War," *Essays of William Graham Sumner* (New Haven, CT: Yale University Press, 1934), Vol. İ, səh. 169 və növbəti səhifələr

[2] Edmund S.Morgan, *The Puritan Dilemma: The Story of John Winthrop* (Boston: Little, Brown, 1958), səh. 189, 190.

tələb edir. Mübarizə tərəflərini iki dinin qarşılıqlı dözümlülük içində birlikdə yaşaya biləcəyinə inandırmaq üçün, demək olar ki, görünməmiş qırğınlar, viranəliklər və barbarlıqlarla dolu bir əsr lazım gəldi. Dövrümüzün iki siyasi etiqadı XVI-XVII əsrlərin iki böyük xristian məzhəbinin yerini tutub. Dövrümüzün siyasi etiqadlarının Otuzillik müharibənin təcrübəsinə ehtiyacı olacaqmı, yaxud onlar qaçılmaz şəkildə nəticəsi olmayan bir müharibəyə gətirib çıxaran universalist cəhdlər dövründə xilas olacaqmı?

Sülh məsələsi bu suala cavabdan asılıdır. Çünki yalnız əgər ona müsbət cavab verilərsə, ortaq təsəvvürlərdən və ümumi dəyərlərdən üzə çıxan mənəvi konsensus – daxilində sülhməramlı diplomatiyanın böyümək imkanına malik olacağı mənəvi bir konsensus formalaşa bilər. Yalnız bu halda diplomatiya dinc həll yolu tələb edən konkret siyasi məsələlərə sinə gərmək imkanına malik olacaq. Əgər xarici siyasətin məqsədləri dünyanı əhatə edən siyasi etiqad baxımından təyin olunmamalıdırsa, nə baxımından təyin olunmalıdır? Millətçi universalizmin səlibçi təşəbbüsləri aradan qaldırılmış olduqda həll edilməli olan fundamental məsələ budur.

2. Xarici siyasətin məqsədləri milli maraq baxımından müəyyən edilməli və ona adekvat güc ilə dəstəklənməlidir. Bu, sülhməramlı diplomatiyanın ikinci qaydasıdır. Sülhpərvər dövlətin milli marağı yalnız milli təhlükəsizlik baxımından təyin oluna bilər, milli təhlükəsizlik isə dövlətin ərazisinin və onun təsisatlarının bütövlüyü kimi təyin olunmalıdır.[1] Bu halda milli təhlükəsizlik diplomatiyanın güzəştə getmədən adekvat güc ilə müdafiə etməli olduğu ən kiçik minimumdur. Lakin diplomatiya nüvə dövrünün təsiri altında istənilən vaxt milli təhlükəsizliyin məruz qaldığı radikal dəyişiklikləri anlamalıdır. Həmin dövr gələnəcən dövlət öz diplomatiyasından digər dövlətin hesabına öz təhlükəsizliyini satın almaq üçün istifadə edə bilərdi. Bu gün diplomatiya nüvə qüvvəsi tarazlığında ayrıca bir dövlətin xeyrinə radikal dəyişiklik istisna olmaqla bir dövlətin nüvə məhvindən təhlükəsizliyini təmin etmək üçün bütün dövlətlərin belə bir təhlükəsizliyini təmin etməlidir. Milli marağın bu cür məhdudlaşdırıcı və müstəsna formada təyin edildiyi bir şəraitdə diplomatiya özünün üçüncü qaydasına əməl etməlidir.

3. Diplomatiya siyasi səhnəyə digər dövlətlərin nəzər nöqtəsindən baxmalıdır. "Bir dövlət üçün heç nə ifrat lovğalıq və digərlərinin təbii olaraq nəyə ümid edəcəyi və nədən qorxacağı haqqında yürüdülməli mülahizə haqqında ümumi istək qədər fəlakətli deyil".[2] Digər dövlətlərin milli təhlükəsizlik baxımından milli maraqları nədir və onlar bizim dövlətimizin maraqları ilə bir araya sığırmı? Milli

[1] Əlaqədar problemlərin daha geniş müzakirəsi üçün bax: paraqraf 24.
[2] Edmund Burke, "Remarks on the Policy of the Allieswith Respectto France" (1793),

marağın milli təhlükəsizlik baxımından təyin olunması daha asandır və bir-birinə qarşı çıxan iki dövlətin maraqları, çox ehtimal ki, ikiqütblü sistemdə qüvvələr tarazlığının istənilən digər sistemində olduğundan daha çox bir-birinə uyğundur. İkiqütblü sistem, görmüş olduğumuz kimi, sülh nöqteyi-nəzərindən daha çox təhlükəlidir. İki blok bütün dünyada bir-biriylə rəqabətli əlaqədədir və onların hər ikisinin iddiası universal missiyanın səlibçi şövqü ilə aradan qalxır. "Qonşuluq, yaxud vəziyyətin yaxınlığı dövlətin təbii düşmənlərini müəyyən edir".[1]

Lakin onların milli maraqları milli təhlükəsizlik baxımından təyin edilmiş olunduqda onlar digər tərəfin milli təhlükəsizlik dairəsində, yaxud ona yaxın yerləşən kənar mövqelərindən geri çəkilə bilirlər və hər biri öz orbiti daxilində qane olaraq öz müvafiq dairələrinə qayıdır. Həmin kənar mövqelər milli təhlükəsizliyə heç nə qatmır; onlar yalnız müharibə vəziyyətində yerinə yetirilə bilməyən öhdəliklər və qorunub saxlanıla bilməyən mövqelərdir. Hər bir blok iki milli təhlükəsizlik sahəsini bir-birindən ayırmayan məsafəni nə qədər geniş saxlayarsa, o qədər təhlükəsiz olar. Hər bir tərəf bir-birindən çox uzaq olan xətt çəkə bilər və qarşı tərəfə anlada bilər ki, həmin xəttə toxunmaq və hətta yaxınlaşmaq müharibə mənasını verəcək. Bəs iki demarkasiya xətti arasında yerləşən aralıq ərazilər necə olur? Burada diplomatiyanın dördüncü qaydası tətbiq olunur.

4. Dövlətlər onlar üçün həyati əhəmiyyətli olmayan bütün məsələlərdə güzəştə getmək iradəsini nümayiş etdirməlidir.

Həqiqətən hər bir insanın xeyrinə olan və onu razı salan, hər bir əxlaq normasına ağılla yürüdülən tədbirə uyğun olan bütün hökumətlər güzəşt və mübadilə üzərində qurulur. Biz hər bir narahatlığı tarazlayırıq; biz veririk və alırıq; biz digərlərini məmnun edə biləcək şəkildə bəzi hüquqlardan imtina edirik; və biz mübahisələrin açıqgözlü tərəfi olmaqdansa, xoşbəxt vətəndaşlar olmağı seçirik. Vətəndaş mənfəətlərindən yararlanmaq üçün təbii azadlığımızın bir hissəsindən əl çəkməli olduğumuz kimi, böyük imperiyanın birliyindən və yoldaşlığından qaynaqlanan mənfəətlər naminə də müəyyən vətəndaş azadlıqlarını qurban verməliyik. Lakin bütün dürüst sövdələşmələrdə satın alınan ödənilən haqqa müəyyən ölçüdə mütənasib olmalıdır. Heç kim öz qəlbinin cövhərini ucuz qiymətə satmaz.[2]

Burada diplomatiya ən çətin vəzifəsi ilə qarşılaşır. Siyasi etiqadın səlibçi şövqünə bürünən və hər iki tərəfin milli maraqlarını obyektiv şəkildə qiymətləndirən düşüncələr üçün belə həyati maraqları bir-birindən ayırmaq o qədər də çox çətin olmamalıdır. İkinci dərəcəli məsələlərdə güzəştə getmək başqa bir

Works (Boston: Little, Brown, 1889), Vol. IV, səh. 447.
[1] *The Federalist*, No. 6.
[2] Edmund Burke, "Speech in the conciliation with America," *Works*, Vol. II, səh. 169.

məsələdir. Burada qarşıda duran vəzifə artıq təbiətlərindən irəli gələn xüsusiyyətlərə görə bir-birindən ayrı şəkildə müəyyən edilməyə meyil göstərən maraqları ayırmaq və təyin etmək deyil, bir çox nöqtələrdə bir-biri ilə toqquşan və ayrılma ehtimalı olmadan bir-biriylə uzlaşdırıla bilən maraqları tarazlıqda saxlamaqdır. Digər tərəfə aralıqda qalan həmin əraziləri öz orbitinə çəkməyə icazə vermədən həmin ərazilərdə müəyyən təsirə malik olmağa imkan vermək olduqca vacib bir vəzifədir. Təhlükəsizlik zonasına yaxın regionlarda həmin regionları öz orbitinə daxil etmədən digər tərəfin təsirinin mümkün qədər az olmasını təmin etmək də az vacib vəzifə deyil. Bu vəzifələri yerinə yetirmək üçün avtomaitk şəkildə tətbiq edilə biləcək heç bir hazır formul yoxdur. Bu yalnız ikinci dərəcəli məsələlərdə güzəştlərin edilə biləcəyi, dönməz şəkildə və təmkinlə aparılan davamlı uyğunlaşma prosesi vasitəsilə mümkündür. Lakin hansı yanaşmaların güzəşt siyasətinin uğuruna kömək edəcək, yaxud manea törədəcək yanaşmalara əvvəlcədən işarə etmək mümkündür.

Hər şeydən əvvəl, güzəştin uğurlu olmasının – yəni dördüncü qaydaya əməl etməyin – öz növbəsində bir-birindən asılı olan digər üç qaydanın yerinə yetirilməsindən nə dərəcədə asılı olması heç bir əhəmiyyət kəsb etmir. İkinci qaydaya əməl etmək birinci qaydanın yerinə yetirilməsindən asılı olduğu kimi, üçüncü qayda da ikinci qaydaya riayət edildikdən sonra yerinə yetirilə bilər. Dövlət yalnız siyasi əqidəsi səlibçi ruhdan azad edildikdən sonra öz milli maraqlarını rasional şəkildə nəzərdən keçirə bilər. Dövlət digər dövlətin milli maraqlarını yalnız öz milli maraqları hesab etdiklərini təmin etdikdən sonra obyektiv şəkildə nəzərdən keçirmək iqtidarındadır. İstənilən məsələdə güzəşt nə qədər kiçik olsa da, hər iki tərəf öz milli maraqlarını təmin etməyənə qədər mümkün deyil. Beləliklə, dövlətlər digər üç qayda ilə razılaşmaq istəmirsə, onların dördüncü qayda ilə razılaşacaqlarına ümid etmək olmaz. Həm əxlaq normaları, həm də məqsədəuyğunluq bu dörd fundamental qaydaya riayət etməyi tələb edir.

Bu qaydalara riayət etmək güzəşti mümkün edir, lakin onun uğurlu olacağına zəmanət vermir. İlk üç qaydanın yerinə yetirilməsi ilə mümkün edilən güzəştə müvəffəq olmaq imkanı yaratmaq üçün daha beş qaydaya riayət olunmalıdır.

Güzəştin 5 ilkin şərti

1. Real xeyirə nail olmaq üçün heç bir əhəmiyyəti olmayan hüquqların kölgəsindən çıx. Hüquqi və təbliğatçı nöqteyi-nəzərdən düşüncə yürüdən diplomatiya qanunu şərh edən zaman qanunun hər nüansında israrlı olmağa və belə israrın

onun xalqı və bəşəriyyət üçün gətirə biləcəyi nəticələri gözdən buraxmağa xüsusilə meyillidir. Müdafiə etməli olduğu hüquqların mövcudluğu səbəbindən bu növ diplomatiya hesab edir ki, məsələdə güzəştə gedilə bilməz. Lakin diplomatın üz-üzə qaldığı seçim hüquqilik və qeyri-hüquqilik arasında deyil, siyasi müdriklik və siyasi ağılsızlıq arasındadır. Edmund Berk deyirdi: "Mən hesab edirəm ki, məsələ sənin öz xalqını səfil etmək haqqına malik olub-olmadığın deyil, onları xoşbəxt etməyin sənin marağına uyğun olub-olmamasıdır. Mənim edə *biləcəyim* hüquqşünasın mənə dediyi deyil, mərhəmətin, ağılın və ədalətin mənə nə etməli olduğumu dediyidir".[1]

2. Heç vaxt özünü simanı itirmədən geriyə çəkilə bilməyəcəyin və ciddi risklərə getmədən irəli gedə bilməyəcəyin vəziyyətə salma. Bu qaydanın pozulması çox vaxt əvvəlki qaydaya etinasızlığın nəticəsi olur. Hüquqi qaydanın kölgəsini siyasi xeyirin reallığı ilə qarışıq salan diplomatiya, güman ki, hüquqi qaydanın işlədiyi, lakin heç bir siyasi işin aparılmadığı mövqeyə düşür. Başqa sözlə, dövlət özünü siyasi nəticələrindən asılı olmayaraq, tutmağa haqqının ola bildiyi və ya bilmədiyi mövqedə təqdim edə bilər.

Yenə də güzəşt çətin bir məsələyə çevrilir. Dövlət ciddi nüfuz itkisinə məruz qalmadan öz mövqeyindən geri çəkilə bilməz. O, siyasi risklərə, ola bilsin ki, hətta müharibə riskinə getmədən öz mövqeyində irəli gedə bilməz. Əsası olmayan mövqelərə ehtiyatsızcasına belə can atmaq, daha dəqiq desək, vaxtında onlardan qurtulmaqdan imtina etməkdə inad göstərmək səriştəsiz diplomatiyanın göstəricisidir. Onun klassik nümunəsi 1870-ci il Fransa-Prussiya müharibəsi ərəfəsində III Napoleonun siyasəti və Birinci Dünya müharibəsi ərəfəsində Avstriya və Almaniyanın siyasətləridir. Onun məşhur müasir nümunəsi isə Amerikanın Hind-Çinə müdaxiləsidir. Bu nümunələr həmçinin bu qaydanın pozulmasının müharibə riski ilə nə qədər yaxından əlaqəli olduğunu göstərir.

3. Heç vaxt zəif müttəfiqə sənin yerinə qərar qəbul etmək imkanı vermə. Əvvəlki qaydalara laqeyd yanaşan güclü dövlətlər bu qaydanı pozmaqda xüsusilə meyilli olur. Onlar milli maraqlarını zəif müttəfiqlərinin milli maraqları ilə tamamilə eyniləşdirməklə hərəkət azadlıqlarını itirirlər. Güclü müttəfiqindən aldığı dəstək ilə təhlükəsiz olan zəif müttəfiq özünə münasib xarici siyasət məqsədləri və üsulları seçə bilir. Güclü dövlət o zaman görür ki, o özünün olmayan milli maraqları müdafiə etməlidir və özü üçün deyil, yalnız müttəfiqi üçün həyati əhəmiyyətli olan məsələlərdə güzəştə gedə bilmir.

[1] "Speach on Conciliation with the Colonies" (1775), *The Works of Edmund Burke* (Boston: Little, Brown, 1865), Vol. II, səh. 140.

Bu qaydanın pozulmasının klassik nümunəsinə 1853-cü ildə Krım müharibəsi ərəfəsində Türkiyənin Böyük Britaniya və Fransanı sıxışdırması üsulunda rast gəlirik. "Avropa konserti" faktiki olaraq Rusiya və Türkiyə arasındakı münaqişənin nizamlanması üçün güzəşt razılığına gəlmişdi. Lakin Türkiyə Rusiya ilə müharibədə Qərb dövlətlərinin onu dəstəkləyəcəyini bildiyi üçün həmin müharibəni qızışdırdı və bununla da Böyük Britaniya və Fransanı iradələrinin əleyhinə olaraq həmin müharibəyə cəlb etdi. Bununla Türkiyə müharibə və sülh məsələsi haqqında Böyük Britaniya və Fransanın yerinə öz milli maraqlarına uyğun qərar verməklə çox uzağa getdi. Böyük Britaniya və Fransa hətta milli maraqları Rusiya ilə müharibə tələb etməsə də və belə bir müharibənin qarşısını almağa, demək olar ki, müvəffəq olmuş olsa da belə, həmin qərarı qəbul etməli oldu. Onlar fəaliyyət azadlıqlarını zəif müttəfiqlərinə təslim etdilər və o onların siyasəti üzərində nəzarət imkanından öz məqsədləri naminə istifadə etdi.

4. Silahlı qüvvələr xarici siyasətin ağası deyil, alətidir. Bu qaydaya riayət etmədən heç bir uğurlu və dinc xarici siyasət mümkün deyil. Heç bir dövlət xarici siyasətinin məqsəd və vasitələrini hərbçilər təyin etdiyi halda güzəşt siyasəti yürüdə bilməz. Bu bir həqiqətdir ki, müharibə aparmağın və xarici siyasət yürütməyin son məqsədləri eynidir. Lakin onların hər ikisi də ən yaxın məqsədlərinə, tətbiq etdikləri üsula və müvafiq vəzifələrini həyata keçirmələrinə dair düşüncə tərzlərinə görə fərqlənir.

Müharibənin məqsədi sadə və şərtsizdir: düşmənin iradəsini sındırmaq. Onun üsulları da eyni dərəcədə sadə və şərtsizdir: düşmənin ordusunda ən çox zəif olan nöqtəyə ən böyük ölçüdə zorakılıq tətbiq etmək. Bu səbəbdən hərbi lider mütləq mənada düşünməlidir. Onun ixtiyarında olan indiki məqam və ən yaxın gələcəkdir. Onun qarşısında duran yeganə məsələ mümkün qədər ucuz və tez başa gələn qələbələr əldə etmək və məğlubiyyətdən canını qurtarmaqdır.

Xarici siyasətin məqsədi isə nisbi və şərtidir: digər tərəfin həyati əhəmiyyətli maraqlarına zərər vurmadan öz həyati əhəmiyyətli maraqlarını təmin etmək üçün həmin tərəfin iradəsini sındırmaq deyil, mümkün olduğu qədər əymək. Xarici siyasətin üsulları da nisbi və şərtidir: yolun üstündə duran maneələri məhv etmək deyil, onlar qarşısında geri çəkilmək, onlara kələk gəlmək, onlar ətrafında manevr etmək, inandırma, danışıqlar və təzyiq üsulları ilə onları yavaş-yavaş yumşaltmaq və aradan qaldırmaq. Bu səbəbdən diplomatın düşüncəsi mürəkkəb və incədir. O, içində olduğu məsələyə tarixin bir anı kimi baxır və sabahın qələbəsinin arxasında gələcəyin hesabagəlməz imkanlarını görür. Bolinqbroukun sözləri ilə desək:

"Burada yalnız onu deyim ki, şəhərləri tutmağın və döyüşlərdə qələbə çalmağın zəfəri həmin qələbələrin nəticəsi olan faydalılıq ilə ölçülməlidir.

Dövlətin silahlarına şərəf gətirən qələbələr onun şuralarına rüsvayçılıq gətirə bilər. Döyüşdə qələbə çalmaq, şəhəri tutmaq generalın və ordunun zəfəridir. ...Lakin dövlətin zəfəri qarşıya qoyduğu məqsədləri öz maraqlarına və gücünə, tətbiq etdiyi üsulları qarşıya qoyduğu məqsədlərə və göstərdiyi gücü onların hər ikisinə uyğunlaşdırmaqdır".[1]

Belə olduqda xarici siyasətin icrasını hərbçilərə təslim etmək güzəşt ehtimalını heçə endirmək və bununla da sülh məsələsini təslim etmək deməkdir. Hərbi düşüncə qələbə və məğlubiyyətin mütləqlikləri arasında necə fəaliyyət göstərilməli olduğunu bilir. O, əsas məqsədi qələbə və məğlubiyyətin mütləqliklərindən uzaq durmaq və digər tərəf ilə danışıqlar yolu ilə güzəştin orta zəminində görüşmək olan diplomatiyanın həmin səbirli, müəmmalı və incə manevrləri haqqında heç nə bilmir. Hərbi qüvvələr tərəfindən hərb sənətinin qaydalarına uyğun həyata keçirilən xarici siyasət yalnız müharibə ilə başa çata bilər, çünki "nəyə hazırlaşırıqsa, onu da hasil edəcəyik".[2]

Müasir müharibənin imkanlarını dərk edən dövlətlər üçün xarici siyasətin məqsədi sülh olmalıdır. Xarici siyasət elə həyata keçirilməlidir ki, sülhü qoruyub saxlamaq mümkün olsun və müharibə başlatmaq qaçılmaz olmasın. Suveren dövlətlər birliyində hərbi qüvvə xarici siyasətin zəruri alətidir. Lakin xarici siyasətin aləti xarici siyasətin ağasına çevrilməlidir. Müharibə sülhü mümkün etmək üçün aparıldığı kimi, xarici siyasət də sülhü daimi etmək üçün həyata keçirilməlidir. Hər iki vəzifənin yerinə yetirilməsində hərbi qüvvələrin xarici işlərin həyata keçirilməsi üçün konstitusion olaraq məsuliyyət daşıyan mülki hakimiyyətlərə tabe edilməsi labüd ilkin şərtdir.

5. Hökumət ictimai fikrin qulu deyil, lideridir. Xarici siyasətin həyata keçirilməsi üçün məsuliyyət daşıyanlar bu prinsipi daim diqqətdə saxlamasalar, diplomatiyanın ilkin prinsipləri ilə ayaqlaşa bilməyəcəklər. Uğurla həyata keçirilən xarici siyasətin yuxarıda haqqında daha ətraflı şəkildə bəhs etdiyimiz[3] rasional tələbləri başdan etibarən seçimləri rasionaldan daha çox, emosional olan ictimai fikrin dəstəyinə arxalanmamalıdır. Bu, xüsusilə güzəşt məqsədi daşıyan və ona görə də digər tərəfin bəzi məqsədləri ilə razılaşmalı, özünün bəzi məqsədlərindən isə imtina etməli olan xarici siyasət haqqında doğrudur. Xüsusilə xarici siyasət demokratik nəzarət şərtləri altında həyata keçirilərkə və siyasi etiqadın səlibçi şövqündən ruhlananda dövlət adamları hər zaman uğurlu xarici siyasətin

[1] *Bolingbroke's Defence of the Treaty of Utrecht* (Cambridge, UK: Cambridge University Press, 1932), səh. 95.
[2] William Graham Sumner, *Essays*, səh. 173.
[3] Bax: səh. 216 və növbəti səhifələr

tələblərini kütlələrin alqışlarına qurban verməyə meyil edirlər. Digər tərəfdən həmin tələbləri kütlə ehtirası ilə ən incə korlanmaya qarşı belə qoruyacaq dövlət adamı siyasi lider kimi öz taleyinə və bununla birlikdə yürütdüyü xarici siyasətin taleyinə son qoyar, çünki onu hakimiyyətdə saxlayan ictimai dəstəyi itirər.

Bu halda dövlət adamına nə ictimai ehtiraslara təslim olmaq, nə də onlara etinasız yanaşmaq icazəsi verilmir. O özünü onlara uyğunlaşdırmaqla öz siyasəti üçün onların dəstəyindən istifadə etmək arasında ağılla qurulmuş tarazlığa nail olmağa can atmalıdır. Bir sözlə, o, rəhbərlik etməlidir. O, dövlətçiliyin ən yüksək məharətini nümayiş etdirməlidir: öz yelkənlərini ictimai ehtiras küləklərinə tərəf çevirmək və bu zaman yol nə qədər dolanbac və əyri-üyrü olsa da, dövlət gəmisini uğurlu xarici siyasət limanına gətirmək üçün onlardan istifadə etmək.

NƏTİCƏ

Beynəlxalq sülhə gedən, ümumi xətlərlə göstərdiyimiz yol ruhlandırıcı xüsusiyyətlərinə görə bir əsr yarım ərzində müharibədən təngə gəlmiş dünya təsəvvürünü aradan qaldırmış sadə və heyranedici formul ilə rəqabət apara bilməz. Müharibə problemini bir həmlə ilə birdəfəlik aradan qaldırmış bir formulun olduqca sadə olmasında nəsə çox maraqlı bir şey var. Bu, azad ticarət, arbitraj, tərk-silah, kollektiv təhlükəsizlik, ümumdünya sosializmi, beynəlxalq hökumət və dünya dövləti kimi həll yollarına dair verilən vəd olmuşdur. Diplomatiya işində ən azından ümumilikdə əhali üçün cəlbedici, heyranedici, yaxud ruhlandırıcı olan heç nə yoxdur.

Lakin biz onu da izah etdik ki, bu həll yollarının real problemin, sadəcə, bəzi təzahürlərinə deyil, onun özünə şamil edilməsi üçün birləşmiş beynəlxalq cəmiyyətin mövcudluğu nəzərdə tutulur, hazırda isə belə bir cəmiyyət mövcud deyil. Belə bir beynəlxalq cəmiyyətin mövcudluğunu təmin etmək və onu qoruyub saxlamaq üçün diplomatiyanın uyğunlaşdırma üsulları tələb olunur. Daxili cəmiyyətin birliyi və dincliyi adi və demək olar ki, hiss olunmayan gündəlik uyğunlaşdırma və dəyişmə üsulları ilə təmin edildiyi kimi, beynəlxalq həyatın son qayəsi – yəni fövqəlmilli cəmiyyətə çevrilmək – öz reallaşmasını diplomatiyanın ənənəvi alətləri olan inandırma, danışıqlar və təzyiq alətlərindən gözləməlidir.

Bura qədər fikirlərimiz ilə tanış olmuş oxucu bizə belə bir sual verə bilər: bəs diplomatiya keçmişdə müharibənin qarşısını almaqda uğursuz olmayıb? Bu haqlı suala iki cavab vermək olar.

Diplomatiya sülhü təmin etmək vəzifəsində dəfələrlə uğursuzluğa uğrayıb və bir çox dəfə də uğur qazanıb. Bəzən o ona görə uğursuz olub ki, heç kim onun uğurlu olmasını istəməyib. Biz keçmiş dövrün məhdud müharibələrinin öz

məqsədlərinə və üsullarına görə dövrümüzün total müharibəsindən nə qədər fərqli olduğunu gördük. Müharibə kralların adi fəaliyyət forması olanda diplomatiyanın vəzifəsi onun qarşısını almaq deyil, onu ən əlverişli məqamda başlatmaq idi.

Digər tərəfdən dövlətlər diplomatiyadan müharibənin qarşısının alınması aləti kimi istifadə edəndə çox vaxt məqsədlərinə nail olub. Müasir dövrdə müharibənin qarşısını alan diplomatiyanın ən məşhur nümunəsi 1878-ci il Berlin konqresidir. Həmin konqres uyğunlaşdırma diplomatiyasının üsullarından istifadə etməklə Napoleon müharibələri başa çatdığı dövrdən etibarən Böyük Britaniya və Rusiyanı bir-birindən ayrı salmış məsələləri nizamladı, yaxud da ən azından nizamlanmaya meyil etdi. XIX əsrin böyük bir dövrü ərzində Böyük Britaniya və Rusiya arasında Balkanlar, Dardanel bölgəsi və Aralıq dənizinin qərbi uğrunda aparılan münaqişə dünyada sülhün başı üstündə sanki bir qılınc kimi asılmışdı. Lakin Krım müharibəsindən sonrakı 50 il ərzində Böyük Britaniya və Rusiya arasındakı ədavət dəfələrlə alovlanmaq təhlükəsinə məruz qaldısa da, reallıqda heç vaxt alovlanmadı. Sülhün qorunub saxlanılması üçün göstərilmiş əsas xidmətlər uyğunlaşdırma diplomatiyasının Berlin konqresində kulminasiyasına çatmış üsullarının adı ilə bağlanmalıdır. Britaniyanın baş naziri Dizraeli həmin konqresdən Londona qayıdanda qürurla bəyan etdi ki, o, evə "...şərəflə nail olunmuş sülh" gətirib. Əslində, o, sonrakı nəsillər üçün də sülhə nail olmuşdu; bir əsr ərzində Böyük Britaniya və Rusiya arasında heç bir müharibə olmadı.

Bununla belə, biz suveren dövlətlər cəmiyyətində sülhün etibarsız olduğunu da dərk etmişik. Diplomatiyanın sülhün mühafizə edilməsində davamlı uğuru, görmüş olduğumuz kimi, bütün aparıcı iştirakçıların sahib olmalı olduğu fövqəladə mənəvi və intellektual keyfiyyətlərdən asılıdır. Dövlətin gücünün ünsürlərindən birinin dəyərləndirilməsində bir və ya bir neçə dövlət adamı tərəfindən yol verilən yanlışlıq sülh və müharibə arasındakı fərqi ifadə edə bilər. Bu, planın pozulması, yaxud güc hesablamasındakı yanlışlığa da aiddir.[1]

Diplomatiya suveren dövlətlər birliyinin sülhün mühafizəsi üçün təklif edə bildiyi ən yaxşı üsuldur, lakin xüsusilə müasir dünya siyasətinin və müasir müharibənin şərtləri altında o, kifayət edəcək dərəcədə faydalı deyil. Yalnız dövlətlər müasir texnologiyanın onların ixtiyarına verdiyi dağıdıcı vasitələri özlərindən daha ali hakimiyyətə təslim edəndə – öz suverenliklərindən imtina edəndə – beynəlxalq sülh ölkədaxili sülh kimi təmin oluna bilər. Diplomatiya sülhü bu gün olduğundan daha təhlükəsiz edə bilər, dünya dövləti isə sülhü dövlətlər diplomatiyanın qaydalarına sadiq qalacaqları halda ola biləcəyindən daha təhlükəsiz edə bilər. Lakin dünya dövləti olmadan daimi sülhə nail olmaq mümkün olmadığı

[1] Səh. 225 və növbəti səhifələr, səh. 277 və növbəti səhifələr

kimi, diplomatiyanın sülhü mühafizə etmə və birlik yaratma gedişləri olmadan da dünya dövləti yaratmaq mümkün deyil. Dünya dövlətinin qeyri-müəyyən anlayışdan daha artıq olması üçün diplomatiyanın uyğunlaşdırma gedişləri, münaqişələri yumşaltma və minimuma endirmə üsulları yenidən dirçəlməlidir. Həmin ehtiyacın qəbul edilməsinə və qarşısına qoyulan tələbə görə beynəlxalq münasibətlərin son vəziyyəti haqqında təsəvvürün necə ola bilməsindən asılı olmayaraq, bütün xoşməramlı insanlar ona qoşula bilərlər.

Əgər burada təqdim edilmiş beynəlxalq sülh anlayışının müdafiə olunması üçün müdrik bir fikrə ehtiyac olarsa, buna xarici siyasətdə öz müasirlərindən daha az yanlışlıqlara yol vermiş bir insanın – ser Uinston Çörçillin məsləhətində rast gəlmək olar. 1948-ci il yanvarın 23-də İcmalar Palatasında çıxışı zamanı çağdaş dünya səhnəsini narahatlıqla nəzərdən keçirən və öz-özünə "Müharibə olacaq?" sualını verən cənab Çörçill uyğunlaşma yolu ilə sülhə çağırış etdi – o, "soyuq müharibə" başlanan vaxtdan etibarən söyləmiş olduğu məlum nitqdə bunu etmişdi. O dedi:

"Yalnız indi deməyə cəsarət edəcəyəm ki, mənə elə gəlir ki, uzun müddət axın istiqamətində üzməkdə davam etməkdə çox real olan bir təhlükə var. Mən inanıram ki, müharibənin qarşısını almağın ən yaxşı imkanı məsələləri kəskinləşdirmək və çox gec olmadan sovet hökuməti ilə razılaşmaya gəlməkdir. Bu onu nəzərdə tutur ki, Qərb demokratiyası ilkin olaraq, şübhəsiz ki, öz aralarında birliyə nail olmağa cəhd edərək, Sovet İttifaqı ilə razılaşma təşəbbüsünü öz üzərilərinə götürür.

Kommunistləri yola gətirmək və onlarla müzakirələr aparmaq mənasızdır. Bununla belə, onlarla ədalətli, realist əsasda münasibət qurmaq mümkündür və mən təcrübəmə əsaslanaraq hesab edirəm ki, onlar sövdələşməni öz maraqlarına uyğun gəldiyi qədər davam etdirəcəklər və bu mühüm məsələdə nizamlama uzun bir zaman ala bilər...

Bu gün mənim demək istədiyim odur ki, hadisələri nəyinsə baş verəcəyinə qədər boş buraxmaq özündə olduqca ciddi olan təhlükələr ehtiva edir və birdən hər şey nəzarətdən çıxa bilər.

Bütün faktları nəzərdən keçirərək, belə bir fikir səsləndirməyin doğru olduğuna inanıram ki, bu gün müharibədən uzaq durmağın ən münasib forması Qərb demokratiyaları ilə razılığa gəlib, Sovet İttifaqı ilə məsələləri kəskinləşdirmək və bütün məxfilikləri və ciddiyyəti ilə birlikdə formal diplomatik üsullardan istifadə edərək, davamlı nizamlamaya nail olmaqdır. Belə bir nizamlanmanın nail olunması, şübhəsiz ki, hamının maraqlarına kifayət qədər uyğundur. Lakin onu da deməliyəm ki, hətta bu üsul da müharibənin olmayacağına təminat vermir. Lakin mən inanıram, bu ondan sağ çıxmaq üçün ən yaxşı imkandır".[1]

[1] *Parliamentary Debates (Hansard), House of Commons*, Vol. 446, No. 48, səh. 562-563.

ƏLAVƏ A

XXI əsr üçün realizmin yenilənməsi
Beynəlxalq institutların yanlış vədi

CON C.MERŞAYMER

Con C.Merşaymer Çikaqo Universitetinin Siyasi elmlər fakültəsinin professorudur.
International Security, Vol. 19. No. 31 (Winter 1994-1995), səh.5-49.
© 1995. Harvard Kolleci və Massaçusets Texnologiya İnstitutunun prezidenti və əməkdaşları.

Bu məqalə Harvard Universitetinin Con M.Olin adına Strateji Araşdırmalar İnstitutunda yerinə yetirilmiş "Dəyişən təhlükəsizlik mühiti və Amerikanın milli maraqları" layihəsi üçün yazılmış işçi hesabatın nəticəsidir. Olduqca faydalı olmuş rəylərinə görə Robert Art, Bencamin Frankel, Markus Fişer, Çarlz Qlaser, Hayn Qoimans, Jozef Qriko, Robert Cervis, Xristofer Leyn, Erik Lopes, Robert Peyp, Eşli Telis, Bredli Tayer, İvan Toft, Stefan Van Evera və xüsusilə Maykl Deşə minnətdaram.

Bu məqalədə institutların dövlətləri müharibədən uzaqlaşdırdığı və sülhə yardım etdiyi iddiası nəzərdən keçirilir. Mən diqqəti beynəlxalq münasibətlərə dair institutların əsas təlim kimi qəbul etdiyi əsas nəzəriyyələrin dəyərləndirilməsinə cəmləyirəm: liberal institusionalizm, kollektiv təhlükəsizlik və tənqidçi nəzəriyyə.[1] Bununla belə, mən analizi realizmin qısa icmalı ilə başlayıram, çünki "institusionalist" nəzəriyyələr, əsasən, realizmə cavabdır və onların hər biri birbaşa olaraq realizmin əsasında duran məntiqin tətbiq olunmasını tələb edir.[2]

Realistlər və institusionistlərin fikirləri xüsusilə institutların beynəlxalq sabitlik perspektivlərinə nəzərəçarpacaq dərəcədə təsir göstərib-göstərmədiyi

[1] Sülhü ən yaxşı formada təmin etməyə dair tövsiyələr müharibənin səbəbləri və sülh haqqında ümumi nəzəriyyələrə söykənməlidir. Bu məqam həm araşdırmaçılar, həm də siyasətçilərə aiddir. Baxmayaraq ki, siyasətçilər nəzəriyyələrdən istifadə etmələrinə görə hərdən çəkingən olurlar, bununla belə, onların institutlar haqqında baxışları öz nəzərlərində beynəlxalq münasibətlərə dair bir nəzəriyyəyə digərindən daha çox üstünlük vermələri ilə formalaşır.

[2] Kioheyn, məsələn, yazır ki, "institusionalist düşüncə öz tənqid alovunu realizmə yönəldib". Robert O.Keohane, "Institutional Theory and the Realist Challenge Afterthe Cold War," in *Neorealism and Neoliberalism The Contemporary Debate*, David A.Baedwin, ed. (New York: Columbia University Press, 1993), səh. 271.

məsələsində ziddiyyət təşkil edir. Realistlər institutların belə bir təsirə malik olmadığını, institusionalistlər isə malik olduğunu bildirirlər. Realistlər belə bir fikri müdafiə edirlər ki, institutlar əsas etibarilə dünyada qüvvələr bölgüsünün inikasıdır. Onlar böyük dövlətlərin öz maraqlarına dair apardıqları hesablamalara əsaslanırlar və onlar dövlətin davranışı üzərində heç bir sərbəst təsirə malik deyillər. Ona görə də realistlər hesab edirlər ki, institutlar sülhün mühüm səbəbi deyil. Onlar yalnız məsələnin ətraflarında əhəmiyyət kəsb edirlər. İnstitusionalistlər isə institutlar haqqında belə baxışlara dərhal etiraz edirlər və bunun əvəzinə belə bir arqument ilə çıxış edirlər ki, institutlar dövlətin seçimlərini və ona görə də davranışını dəyişə bilir. İnstitutlar dövlətləri öz maraqlarını onların hər bir hərəkətinin nisbi güc mövqeyinə necə təsir edəcəyi əsasında hesablamaqdan çəkindirə bilər. İnstitutlar müstəqil dəyişənlərdir və onların dövlətləri müharibə etmək mövqeyindən daşındırmaq imkanı var.

Baxmayaraq ki, institusionistlər institutlar haqqında realist iddialara qarşı müxaliflikdə birləşirlər, hər bir institusionalist nəzəriyyə institutların dövlətin davranışına təsiri haqqında fərqli arqumentlə çıxış edir. Mənim məqsədim institutların sülhün səbəbi olduğuna dair iddianın inandırıcı olub-olmadığını təyin etməkdə bu 3 nəzəriyyəni qiymətləndirməkdir. Bu vəzifəni yerinə yetirmək üçün 4 suala cavab vermək lazımdır: (1) İnstitutlar nədir? (2) Sülhə səbəb olmaq üçün onlar necə fəaliyyət göstərir? Xüsusilə hər bir nəzəriyyəni möhkəmləndirən səbəbiyyət qanunauyğunluğu nədir? (3) İnstitutların vadaredici fəaliyyəti necə həyata keçirdiyini izah edən qanunauyğunluqlar bunlardırmı? (4) Dəlillər bu nəzəriyyələri dəstəkləyirmi?

Mənim gəldiyim əsas nəticə budur ki, institutlar dövlətin davranışı üzərində minimum təsirə malikdir və ona görə də "soyuq müharibə"dən sonrakı dövrdə onların sabitliyin təmin edilməsində yardım etmək vədi kiçikdir. İnstitutların lehinə olan arqumentlərin əsaslandığı hər 3 nəzəriyyə nöqsanlıdır. Hər birinin səbəbiyyət qanunauyğunluğunda problemi var və hər 3 nəzəriyyə tarixi gerçəkliklər baxımından az müdafiə olunur.

Bu məqalənin qalan hissəsi aşağıdakı kimi təşkil olunub. Mən institutların qısa təyinatı və realizm haqqında müzakirə ilə başlayıram, çünki hər bir institusionalist nəzəriyyə öz başlanğıcını realizmdən götürür. Məqalənin əsas hissəsində mən liberal institusionalizmi, kollektiv təhlükəsizliyi və tənqidçi nəzəriyyənin təsvirini verir və dəyərləndirmə aparıram. Nəticə hissəsində institutların sülhün mühüm səbəbi olduğuna dair belə az sübutun olduğu halda, onun siyasətçilər və tədqiqatçılar tərəfindən niyə belə yüksək qiymətləndirildiyi nəzərdən keçirilir.

İnstitutlar nədir?

Beynəlxalq münasibətlərə dair nəzəriyyələrdə institutların geniş dairədə razılaşdırılmış heç bir təyini yoxdur.[1] Anlayış bəzən o qədər geniş şəkildə təyin edilir ki, bütün beynəlxalq münasibətləri əhatə edir və bu onun analitik kəskinliyini azaldır.[2] Məsələn, institutların "davranış və təcrübənin ətrafında gözləntilərin cəmləşdiyi qəbul edilmiş formaları kimi" təyin edilməsi, anlayışa dövlətlər arasında fəaliyyətin müharibədən Tariflər və Ticarət haqqında Ümumi Razılaşmaya (GATT) uyğun olaraq haqqında danışıqların aparıldığı tarif öhdəliklərinə qədər, demək olar ki, hər bir tənzimlənən formasını əhatə etmək imkanı verir və bununla da onu, əsasən, mənasızlaşdırır.[3] Bununla belə, əksər institusionalist alimlərin anlayışdan necə istifadə etməsi ilə uyğun olan münasib bir təyinat düşünüb tapmaq mümkündür.

Mən institutları dövlətlərin bir-biri ilə əməkdaşlıq etməli və rəqabət aparmalı olduğu üsulları şərtləndirən qaydalar qrupu kimi təyin edirəm.[4] Onlar dövlət davranışının qəbul oluna bilən formalarını müəyyən edir və davranış qəbul oluna bilməyən növlərini qadağan edir. Bu qaydalar haqqında dövlətlər arasında danışıqlar aparılır və bir çox görkəmli nəzəriyyəçilərə görə, onlar "hüquqlar və öhdəliklər baxımından

[1] Bu məqalədə rejimlərə və institutlara sinonim anlayışlar kimi baxılır. Onlar institusionalist ədəbiyyatlarda da bir-birini əvəz edən anlayışlar kimi istifadə olunur. Bax: Robert O.Keohane, "International Institutions: Two Approaches," *International Studies Quarterly*, Vol. 32, No. 4 (Dekabr, 1988), səh. 384; Robert O.Keohane, *International Institutions and State Power: Essaysin International Relations Theory* (Boulder, CO: Wetsview Press, 1989), səh. 3-4; və Oran R.Youn, *International Cooperation: Building Regimesfor Natural Resources and the Environment* (Ithaca, NY: Cornell University Press, 1989), fəsil 1 və 8. "Multilateralizm" termini də faktiki olaraq institutlar termini ilə sinonimdir. Con Ragiyə istinad etsək, "multilateral' termini "institutlar" terminin mənasını yumşaldan sifətdir. Belə ki, multilateralizm beynəlxalq münasibətlərdə *ümumi institusional formanı* təsvir edir. ... [Xüsusilə] multilateralizm üç və daha artıq dövlət arasında əlaqələri idarəetmənin "ümumiləşdirilmiş" prinsipləri əsasında uzlaşdıran institusional formadır", Ruggie, "Multilateralism," səh. 570-571.

[2] Bu məsələnin müzakirəsi üçün bax: Arthur A.Stein, *Why Nations Cooperate: Circumstance and Choice in International Relations* (Ithaca, NY: Cornel University Press, 1990), səh. 25-27. Həmçinin bax: Susan Strange, *"Cazel Hic Dragones:* A Crituque of Regime Analysis," in *International Regimes*, edited by Stephen D.Krasner, special issue of *International Organization*, Vol. 36, No. 2 (Spring, 1982), səh. 479-496.

[3] Oran R.Young, "Regime Dynamics: The Rise and Fall of International Regimes." In Krasner, *International Regimes*, səh. 277.

[4] Bax: Douglans C.North and Robert P.Thomas, "An Economic Theory of the Growth of the Western World," *The Economic History Review*, 2nd series, Vol. 23, No. 1 (April 1970), səh. 5.

təyin edilən davranış standartları"[1] olan daha ali normaların qarşılıqlı qəbuluna səbəb olur. Bu qaydalar səciyyəvi olaraq beynəlxalq razılaşmalarda qanuniləşdirilir və adətən, öz personalı və büdcəsi olan təşkilatlarda həyata keçirilir.[2] Baxmayaraq ki, qaydalar, adətən, formal beynəlxalq təşkilatlara aid edilir, dövlətləri qaydalara əməl etməyə vadar edən öz-özlüyündə təşkilat deyil. İnstitutlar dünya hökumətinin bir forması deyil. Dövlətlər yaratdıqları qaydalara riayət etməyi özləri seçməlidir. İnstitutlar, sözün qısası, "hər hansı effektiv əmr vermə mexanizminə malik olmadan ayrı-ayrı suveren dövlətlərin dağınıq əməkdaşlığı"na[3] səbəb olur.

İnstitutların necə işlədiyi və ya işləmədiyi haqqında qalan üç suala cavab vermək üçün müxtəlif institusionalist nəzəriyyələri ayrı-ayrılıqda nəzərdən keçirməliyik. Lakin, hər şeydən öncə, realizmi qısa şəkildə şərh edək.

Realizm

Realizm dünya siyasətinin daha çox amansız təsəvvürünü yaradır.[4] Beynəlxalq

[1] Krasner, *International Regimes*, səh. 186. Azsaylı realist institutlar normalara əsaslandığı halda, neorealist institutlar çox vaxt daha ali normalara əsaslanır. Normaları və qaydaları bir-birindən ayıran xətt institusional ədəbiyyatda aydın şəkildə təyin olunmur. Bax: Robert O.Keohane, *After Hegemony: Cooperation and Discord in the World Political Economy* (Princeton, NJ: Princeton University Press, 1984), səh. 57-58. Məsələn, belə bir fikir ilə çıxış etmək olar ki, yalnız normalar deyil, qaydalar da hüquqlar və öhdəliklərlə əlaqəlidir. Lakin mühüm məqam ondan ibarətdir ki, əksər institusionalistlər üçün dövlətin müvafiq davranışının standartları haqqında əsas təsəvvürlər olan normalar daha spesifik qaydaları formalaşdıran bünövrədir. Normalar və qaydalar arasında bu fərq qarşıdakı müzakirələrdə daha açıq formada tətbiq edilir. Həm kollektiv təhlükəsizlik, həm də tənqidçi nəzəriyyə dövlətin öz maraqlarını əsas götürərək davrandığına dair realist təsəvvürə qarşı çıxır və bunun əvəzinə dövlətin daha çox qərəzsiz formada hərəkət etməsini tələb edən normaları inkişaf etdirməyə dair arqument ilə çıxış edir. Liberal institusionalizm isə digər tərəfdən dövlətlərin öz maraqları əsasında hərəkət etdikləri fikrini qəbul edir və diqqəti dövlətlər arasında əməkdaşlığa kömək edən qaydaların düşünülüb tapılmasına yönəldir.

[2] Beynəlxalq təşkilatlar iki və daha artıq dövlətin birgə səyi ilə yaradılan ictimai qurumlardır. Bu inzibati strukturların öz büdcəsi, personalı və binaları var. Con Ragi onları "qərargahları və blankları, səsvermə prosedurları və səxavətli təqaüd planlarına malik olan gözəçarpan müəssisələr" kimi təyin edirdi. Ruggie, "Multilateralism," səh. 573. Qaydalar beynəlxalq təşkilatla daxil edildikdə hətta "analitik baxımdan fərqli" olsa da, "demək olar ki, üst-üstə düşən kimi görünə bilər". Keohane, *International Institutions and State Power*, səh. 5.

[3] Charles Lipson, "Isthe Future of Collective Security Likethe Past?" in *Collective Security Beyond the Cold War*, George W.Downs, ed. (Ann Arbor, MI: University of Michigan Press), səh. 114.

[4] Baxmayaraq ki, realist alimlərin beynəlxalq siyasətin bir çox aspektlərinə dair fikirləri üst-üstə düşür, onlar arasında mühüm elmi narazılıqlar da var. Götürək son 50 ilin, demək olar ki, 2 ən nüfuzlu realisti olmuş Hans Morgentaunu və Kennet Uoltsu: Morgentau belə bir fikri müdafiə edir ki, dövlətlər güc ehtirasına malikdir, Uolts isə öz nəzəriyyəsini dövlətlərin, sadəcə, mövcudluqlarını qorumağa və ona görə də təhlükəsizliklərini maksimallaşdırmağa çalışdıqları haqqında fikirlə başlayır. Bax: Hans

sistem dövlətlərin bir-birindən xeyir götürmək üçün imkanlar axtardığı və ona görə də onların bir-birinə inanmaları üçün az səbəblərinin olduğu qanlı arena kimi təsvir edilir.[1] Gündəlik həyat əsas etibarilə güc uğrunda mübarizədir və burada hər bir dövlət yalnız sistemin ən güclü aktoru olmağa deyil, həmçinin heç bir digər dövlətin həmin vüqarlı mövqeyə nail olmamasını təmin etməyə çalışır.

Beynəlxalq münasibətlər daimi müharibə vəziyyəti deyil, o, arxa planda hər zaman müharibə ehtimalının durduğu amansız təhlükəsizlik yarışıdır. Bu yarışın gərginliyi vəziyyətdən vəziyyətə dəyişir. Paradoksal görünə bilsə də, dövlətlər bu rəqabətli dünyada çox vaxt əməkdaşlıq edir. Bununla belə, dövlətlər arasında əməkdaşlığın öz hüdudları var, əsasən, ona görə ki onun qarşısını əməkdaşlığın heç bir ölçüsünün aradan qaldıra bilməyəcəyi təhlükəsizlik yarışının hakim qanunauyğunluğu kəsir. Həqiqi sülhün, yaxud dövlətlərin güc uğrunda yarışmadığı dünyanın realizmə uyğun olmadığı görünür.

Dünyanın necə fəaliyyət göstərdiyi haqqında bu pessimist baxış realizmin beynəlxalq sistemə dair 5 fikri ilə bağlı ola bilər. Birinci fikir ondan ibarətdir ki, beynəlxalq sistem anarxikdir. Bu o demək deyil ki, o, xaotikdir və nizamsızlıq tərəfindən parçalanır.[2] Realizm təhlükəsizlik yarışı və müharibə ilə xarakterizə olunan bir dünya təsvir etdiyindən belə bir nəticəyə gəlmək asandır. Lakin realistlərin işlətdiyi "anarxiya"nın münaqişə ilə heç bir əlaqəsi yoxdur; bu daha çox nizamlama prinsipidir və onu ifadə edir ki, sistem üzərilərində heç bir mərkəzi hakimiyyətə malik olmayan müstəqil siyasi vahidlərdən (dövlətlərdən) təşkil olunur. Suverenlik, başqa sözlə, dövlətlərə məxsusdur, çünki beynəlxalq sistemdə daha ali idarəedici orqan yoxdur. "Hökumətlər üzərində hökumət"[3] yoxdur.

İkinci fikir belədir ki, dövlətlər başdan etibarən müəyyən hücum xarakterli hərbi imkanlara malikdir və bu onlara bir-birini incitmək və mümkün olduğu qədər məhv etmək üçün

J.Morgenthau, *Politics Among Nations: The Struggle for power and Peace*, 5th ed. (New York: Knopf, 1973); və Kenneth N.Waltz, *The Theory of International Politics* (Reading, MA: Addison-Wesley, 1979). Bu bölmədəki müzakirə mənim realizm haqqında Morgentaudan daha çox Uoltsa yaxın olan düşüncələrimə əsaslanır.

[1] Bax: Stephan Van Evera, "The Hard Realities of International Politics," *Boston Review*, Vol. 17, No. 6 (November/December 1992), səh. 19.

[2] Bax: Waltz, *Theory of International Politics*, səh. 88-93. Həmçinin bax: Robert J.Art and Robert Jervis, editors, *International Politics: Anarchy, Force, Imperialism* (Boston: Little, Brown, 1973), fəsil 1; və Helen Miner, "International Theories of Cooperation Among Nations: Strengths and Weaknesses," *World Politics*, Vol. 44, No. 3 (April 1992), səh. 468.

[3] Inis L.Claude, Jr., *Swordsinto Plowshares: The Problems and Progress of International Organization*, 4th ed. (New York^ Random House, 1971), səh. 14.

lazımi vasitələr verir. Dövlətlər bir-biri üçün potensial olaraq təhlükədir. Dövlətin hərbi gücü, adətən, ixtiyarında olan xüsusi silah-sursat ilə təyin olunur, hətta baxmayaraq ki, heç bir silah yoxdursa da belə, dövlətin ayrı-ayrı fərdləri öz əl və ayaqları ilə də digər dövlətin əhalisinə hücum edə bilərlər.

Üçüncü fikir belədir ki, dövlətlər digər dövlətlərin niyyətləri haqqında heç vaxt əmin ola bilməz. Xüsusilə heç bir dövlət əmin ola bilməz ki, digər dövlət öz hərbi hücum imkanlarından ona qarşı istifadə etməyəcək. Bu o demək deyil ki, dövlətlərin bədxah niyyətlərə malik olması mütləqdir. Digər dövlət etibar ediləcək qədər xoşniyyətli ola bilər, lakin onun aparacağı qiymətləndirmələrə əmin olmaq olmaz, çünki niyyətləri əvvəlcədən 100 faiz əminliklə müəyyən etmək mümkün deyil. Təcavüz üçün çoxsaylı mümkün səbəblər var və heç bir dövlət əmin ola bilməz ki, digər dövlətin onlardan biri tərəfindən motivə olunmadığına əmin ola bilməz. Bundan əlavə, niyyətlər çox tez-tez dəyişə bilər, belə ki, bir dövlətin niyyətləri bir gün xoşməramlı, növbəti gün isə bədxah ola bilər. Niyyətləri qiymətləndirərkən əminsizlik qaçılmazdır və bu, sadəcə, o deməkdir ki, dövlətlər heç vaxt digər dövlətlərin öz hərbi hücum imkanlarından istifadə etməyə dair hücum xarakterli məqsədlərə malik olmadıqlarına əmin olmur.

Dördüncü fikir bundan ibarətdir ki, dövlətləri arxasınca aparan ən başlıca motiv mövcudluqlarını qoruyub saxlamaqdır. Dördüncü fikir isə belədir ki, beynəlxalq sistemdə öz mövcudluqlarını qoruyub saxlamaq haqqında strateji olaraq düşünürlər. Dövlətlər istifadə etdikləri üsullara görə rasionaldır. Bununla belə, onlar zaman-zaman yanlış hesablamalar apara bilərlər, çünki informasiyanın mükəmməl olmadığı bir dünyada yaşayırlar və burada potensial düşmənlər öz qüdrətlərini və zəifliklərini yanlış təqdim etmək və həqiqi məqsədlərini gizlətmək meyillərinə malikdirlər.

Bu fikirlərin heç biri təklikdə dövlətlərin rəqabət yönümlü davranış nümayiş etdirəcəyinə əsas vermir. Əslində, motivlər ilə əlaqəli olan başlıca fikirdən belə çıxır ki, dövlətlərin, sadəcə, mövcudluqlarını qoruyub saxlamaq məqsədinə malikdirlər və bu, müdafiə xarakterli bir məqsəddir.[1] Lakin ümumilikdə götürüldükdə dövlətlərdə təcavüzkar xarakterli düşünmək və bəzən də belə hərəkət etmək meylləri yarada bilər. Xüsusilə də davranışın üç əsas forması meydana çıxır.

Birincisi, beynəlxalq sistemdə dövlətlər bir-birindən xoflanır. Onlar bir-birinə şübhəli münasibət göstərir və yaxın zamanda müharibənin baş verə biləcəyindən narahat olurlar. Onlar təhlükəni gözləyirlər. Dövlətlər arasında inam üçün yer azdır. Baxmayaraq ki, xofun səviyyəsi zamana və məkana görə fərqlənir, o, heç vaxt əhəmiyyətsiz səviyyəyə endirilə bilməz.[1] Bu xofun kökü ondadır ki, dövlətlərin bir-birinə hücum edə biləcəkləri və bunun üçün motivlərə malik ola biləcəkləri bir dünyada mövcudluğunu qoruyub saxlamağa çalışan hər bir dövlət ən azından digər dövlətlərə şübhəli münasibət göstərməli və onlara inanmağa həvəs göstərməməlidir. Bu fikrə təhlükəyə məruz qalmış dövlətin kömək üçün müraciət edə biləcəyi heç bir mərkəzi hakimiyyətin mövcud olmadığını da əlavə etsək, dövlətlərin bir-birindən xoflanmasında motivi daha böyük olar. Bundan əlavə, təcavüzkarı cəzalandırmaq üçün üçüncü tərəflərin mümkün maraqlarının doğura biləcəyi imkanlardan başqa, heç bir mexanizm də yoxdur. Potensial təcavüzkarları müəyyən etmək çox vaxt çətin olduğundan dövlətlər müharibəyə hazır olmaq məqsədilə tədbirlər görməkdə əsaslı səbəbə malikdir.

Təcavüzün qurbanı olmağın mümkün nəticələri dünya siyasətində xofun niyə böyük qüvvə olduğunu izah edir. Dövlətlər bir-biriylə beynəlxalq siyasət sanki iqtisadi bazardırmış kimi rəqabət aparmır. Dövlətlər arasında siyasi mübarizə iqtisadi əlaqələrdən daha təhlükəli bir işdir; o, müharibəyə gətirib çıxara bilər, müharibə isə çox vaxt döyüş meydanlarında insanların kütləvi qırğınları və hətta dinc əhalinin kütləvi qətliamı deməkdir. İfrat hallarda müharibə dövlətin ümumi məhvinə də gətirib çıxara bilər. Müharibənin dəhşətli nəticələri bəzən dövlətlərin bir-birinə, sadəcə, rəqiblər kimi deyil, potensial olaraq öldürücü düşmənlər kimi baxmasına səbəb olur.

İkincisi, beynəlxalq sistemdə hər bir dövlət öz mövcudluğunu təminat altına almaq məqsədi daşıyır. Digər dövlətlər potensial təhlükə mənbəyidir və təhlükə baş qaldıranda onları xilas edəcək heç bir daha ali hakimiyyət olmadığına görə dövlətlər öz təhlükəsizliklərinə görə digərlərindən asılı ola bilməz. Hər bir dövlət özünün zəif və tək olduğunu hesab etməyə meyillidir və ona görə də öz mövcudluğunu qoruyub saxlamaq üçün tədbirlər görmək

[1] Qeyd olunduğu kimi, Morgentau belə bir fikri müdafiə edir ki, dövlətlər təbiətlərinə xas bir şəkildə güc nümayişi ehtirasına və ona görə də onların kənardan görüntüsü başdan etibarən hücuma meyillidir. Burada arqument ondan ibarətdir ki, dövlətlər əvvəlcə müdafiə motivi ilə hərəkət edir, lakin sonra beynəlxalq sistemin strukturu səbəbindən hücum xarakterli düşünməyə və bəzən də hərəkət etməyə məcbur olur.

[1] Bu məqam Britaniya və Fransanın "soyuq müharibə"nin sonunda Almaniyanın yenidən birləşməsinə reaksiyasında öz əksini tapır. Bu üç dövlətin, demək olar ki, 45 il ərzində yaxın müttəfiqlər olması faktına baxmayaraq, həm Britaniya, həm də Fransa dərhal birləşmiş Almaniyanın yaratdığı təhlükələr haqqında düşünməyə başladı. Bax: David Garnham, "European defense cooperation: The 1990s and Beyond," in *The 1992 Project and the Future of Integration in Europe*, Dale L.Smith and James Lee ray, eds. (Armonk, NY: M.E.Sharpe, 1993), səh. 203-205; və Margaret Thatcher, *The Downing Street years* (New York: Harper Collins, 1993), fəsil 25-26.

məqsədinə malikdir. Kennet Uoltsun qeyd etdiyi kimi, dövlətlər "özünəyardım" sistemində fəaliyyət göstərir. Özünəyardımın belə vurğulanması dövlətlərin ittifaqlar yaratmasına əngəl törətmir.[1] Lakin ittifaqlar rahatlıq üçün yalnız müvəqqəti izdivacdır və burada bu gün müttəfiq olan sabah düşmən, bu gün düşmən olan isə sabah müttəfiq ola bilər. Özünəyardım dünyasında fəaliyyət göstərən dövlətlər hər zaman öz məqsədlərinə uyğun hərəkət etməlidir, çünki o özünəyardım dünyasında xudpəsənd olmağın xeyrini görür. Bu həm qısa vədə, həm də uzun vədə üçün keçərlidir, çünki qısa vədədə uduzan dövlət uzaq qələbə imkanına malik ola bilməz.

Üçüncüsü, beynəlxalq sistemdə dövlətlər digər dövlətlər üzərində öz nisbi güc mövqelərini maksimallaşdırmaq məqsədi daşıyır.[2] Səbəb çox sadədir: bir dövlət digər dövlət üzərində nə qədər böyük üstünlüyə malik olarsa, o o qədər təhlükəsiz olar. Hər dövlət sistemdə ən əhəmiyyətli hərbi gücə sahib olmağı istəyər, çünki bu çox təhlükəli ola bilən dünyada mövcudluğun qorunub saxlanmasını təmin etməyin ən yaxşı yoludur. Bu məntiq dövlətlər üçün bir-birindən xeyir götürməkdə güclü meyillər yaradır və bura şərtlər uyğun olduqda və qələbə mümkün göründükdə müharibə etmək də daxildir. Məqsəd potensial rəqiblərin hesabına daha böyük hərbi gücə sahib olmaqdır. Ən ideal nəticə sistemdə hegemon olmaq nəticəsinə gəlib çatmaqdır. Bu zaman mövcudluğun qorunub saxlanması, demək olar ki, təmin olunacaq.

Bütün dövlətlər bu məntiqdən təsirlənir və bu yalnız o demək deyil ki, bir-birindən xeyir götürmək imkanları güdürlər, bu həmçinin o deməkdir ki, onlar digər dövlətlərin onlardan xeyir götürməməsini təmin etmək istiqamətində fəaliyyət göstərirlər.[3] Dövlətlər, başqa sözlə, həm hücuma, həm də müdafiəyə meyillidir. Onlar özləri işğal haqqında düşünür və həm də təcavüzkara qarşı

[1] Bax: Stephen M.Walt, *The Origins of Alliances* (Ithaca, NY: Cornel University Press, 1987).

[2] Realistlər arasında bu məsələdə ziddiyyət var. Bəzi realistlər belə bir arqument ilə çıxış edilər ki, dövlətlər, əsasən, nisbi gücün maksimallaşdırmasında deyil, mövcud qüvvələr tarazlığının qorunub saxlanmasında maraqlıdır. Mənim "hücum realizmim" ilə ziddiyyət təşkil edən "müdafiə realizmi"nin nümunələri üçün bax: Joseph M.Grieco, "Anarchy and the Limits of Cooperation^ A realist Critique of the Newest Liberal Institutionalism," *International Organization*, Vol. 42, No. 3 (Summer 1988), səh. 498-500; Jack L.Snyder, *Myths of Empire^ domesticPolitics and International Ambition* (Ithaca, NY: Cornell University Press, 1991), səh. 10-13; və Waltz, *Theory of International Politics*, səh. 126-127. Həmçinin bax: Fareed Zakaria, "Realism and Domestic Politics: A review Essay," *International Security*, Vol. 17, No. 1 (Summer 1992), səh. 190-196. Morgentau həmçinin hücum realisti idi. Bu ziddiyyətə baxmayaraq, bütün realistlər inanırlar ki, dövlətlər nisbi qüvvələr tarazlığı ilə bağlı çox narahatdır.

[1] Bax: Walt, Origins of Alliances

tarazlıq yaradırlar; bu, amansızcasına daimi təhlükəsizlik mübarizəsinin getdiyi bir dünyanın yaranmasına gətirib çıxarır və bu dünyada müharibə daim arxa planda gözləyir. Sülh, – əgər bu anlayışı asayiş və ya qarşılıqlı razılaşma vəziyyəti kimi təyin ediriksə, – güman ki, belə bir dünyada bərqərar olmamalıdır.

Realist dünyada əməkdaşlıq

Baxmayaraq ki, realizm, əsasən, rəqabətli olan bir dünya təsvir edir, dövlətlər arasında əməkdaşlıqlar baş verir. Lakin bəzən buna nail olmaq çətindir, onu davamlı etmək isə hər zaman çətindir. Əməkdaşlığa iki amil mane olur: nisbi qazanc haqqında mülahizələr və aldanma ilə bağlı narahatlıq.[1]

Əməkdaşlıq niyyətində olan dövlətlər mənfəət və qazancların onlar arasında necə bölünəcəyini götür-qoy etməlidir. Onlar bölgü haqqında iki fərqli formada düşünə bilərlər. Onlar mütləq qazanclar baxımından düşünə bilərlər və bu o deməkdir ki, tərəflərin hər biri diqqəti öz şəxsi mənfəətinin maksimallaşdırılmasına yönəldir və sövdələşmədə digər tərəfin nə qədər qazanc əldə etdiyi və nə qədər itirdiyi onu az maraqlandırır. Hər bir tərəf digəri haqqında yalnız həmin tərəfin davranışının onun maksimum mənfəətə nail olmaq imkanlarına göstərdiyi təsir həcmində düşünür. Digər tərəfdən isə dövlətlər nisbi qazanclar baxımından düşünə bilər və bu o deməkdir ki, hər bir tərəf yalnız öz şəxsi qazancını deyil, həmçinin onun digər tərəflə necə müqayisə olunduğunu götür-qoy edir.

Realist dünyada dövlətlər qüvvələr tarazlığı haqqında narahat olduqlarından onlar əməkdaşlığı nəzərdən keçirərkən, əsasən, nisbi qazanc maraqları ilə motivə olunmalıdır. Hər bir dövlət öz mütləq qazancını maksimallaşdırmaq istədiyi zaman digər tərəf ilə daxil olduğu razılaşmada digər dövlətdən daha çox səy göstərməyə, yaxud ən azından daha az səy göstərməməyə çalışmalıdır. Lakin dövlətlər mütləq qazanc məntiqindən daha çox, nisbi qazanc məntiqinə köklənəndə əməkdaşlığa nail olmaq daha çətin olur. Bu ona görə belə olur ki, mütləq qazancda maraqlı olan dövlətlər yalnız piroqun böyüməsini təmin etməyə və həmin böyümənin ən azından müəyyən bir hissəsini əldə etməyə ehtiyac duyur, nisbi qazanclar haqqında narahat olan dövlətlər isə həm də piroqun necə bölünməsi ilə məşğul olmalıdır, bu isə əməkdaşlıq səylərini mürəkkəbləşdirir.

Aldadılma narahatlığı da əməkdaşlığa mane olur. Dövlətlər çox vaxt digər tərəfin razılaşmada hiyləgərlik edəcəyi və nisbi üstünlük əldə edə biləcəyi qorxusundan əməkdaşlıq razılaşmalarına daxil olmağa həvəsli deyil. Hərbi sahədə "xüsusi xəyanət təhlükəsi" var, çünki hərbi silahların xüsusiyyəti qüvvələr

[1] Bax: Grieco, "Anarchy and the Limits of Cooperation"

tarazlığında sürətli dəyişikliklərə imkan verir. Hadisələrin belə gedişatı hiyləgərlik edən dövlət üçün qurban olan dövləti həlledici məğlubiyyətə uğratmaq üçün imkan yarada bilər.[1]

Əməkdaşlığa belə əngəllərə baxmayaraq, realist dünyada dövlətlər əməkdaşlıq edir. Məsələn, qüvvələr tarazlığının məntiqi çox vaxt dövlətlərin ittifaqlar yaratmasına və ortaq düşmənə qarşı əməkdaşlıq etməsinə səbəb olur. Dövlətlər bəzən üçüncü bir dövlətə hücum etmək üçün əməkdaşlıq edir, necə ki, 1939-cu ildə almanlar və sovetlər Polşaya qarşı etdilər.[2] Rəqiblər kimi, müttəfiqlər də əməkdaşlıq edirlər. Bunlardan əlavə, sövdələşmələr onunla heyrət doğura bilir ki, qüvvələr tarazlığını təxmini şəkildə əks etdirir və hiyləgərliklə bağlı narahatlıqları aradan qaldırır. Superdövlətlər tərəfindən "soyuq müharibə" dövründə silahlar üzərində nəzarət haqqında imzalanmış müxtəlif razılaşmalar bu məqamı izah edir.

Lakin sonda gəlinən nəticə bundan ibarətdir ki, əməkdaşlıq öz mahiyyətinə görə rəqabətli olan dünyada həyata keçirilir – həmin dünyadakı dövlətlər digər dövlətlər üzərində üstünlük əldə etmək üçün güclü meyillərə malik olur. Bu məqam 45 il bundan əvvəl Birinci Dünya müharibəsində Avropa siyasəti tərəfindən əyani şəkildə ön plana çıxdı. Bu dövrdə böyük dövlətlər arasında geniş əməkdaşlıq həyata keçmişdi, lakin bu, 1914-cü ildə müharibə etməsinin qarşısını almadı.

Realist dünyada institutlar

Realistlər həmçinin dövlətlərin bəzən institutlar vasitəsilə fəaliyyət göstərdiyini qəbul edirlər. Lakin onlar hesab edirlər ki, həmin qaydalar dövlətin öz maraqlarına dair, əsasən, qüvvələrin beynəlxalq bölgüsü bünövrəsində apardıqları hesablamaları əks etdirir. Sistemin ən güclü dövlətləri elə institutlar yaradır və onların fəaliyyətini elə formalaşdırır ki, dünyadakı qüvvələr arasında öz paylarını qoruyub saxlaya və hətta artıra bilirlər. Bu baxımdan institutlar, əsasən, "güc münasibətlərini əks etdirən arenalar"dır.[3] Realistlərə görə, müharibə və sülhün səbəbləri, əsasən, qüvvələr tarazlığının vəzifəsidir və institutlar başlıca olaraq sistemdəki qüvvələr bölgüsünün güzgüsüdür. Sözün qısası, qüvvələr tarazlığı müharibəni izah edən müstəqil dəyişəndir; institutlar, sadəcə, prosesin aralıq dəyişənidir.

NATO institutlar haqqında realist düşüncənin yaxşı bir nümunəsidir.

[1] Lipson, "International Cooperation," səh. 14.
[2] Randal L.Schweller, "Bandwagoning for Profit: Bringing the Revisionist State Back In," *International Security*, Vol. 19, No. 1 (Summer 1994), səh. 72-107.
[3] Tony Evans and Peter Wilson, "Regime Theory and the English School of International Relations: A Comparison," *Millenium: Journal of International Studies*, Vol. 21, No. 3 (Winter 1992), səh. 330.

NATO bir institutdur və əlbəttə ki, üçüncü dünya müharibəsinin qarşısının alınmasında və Qərbə "soyuq müharibə"də qələbə qazanmaqda kömək etməkdə böyük rola malik olub. Bununla belə, NATO əsas etibarilə "soyuq müharibə" zamanı Avropada ikiqütblü qüvvələr bölgüsünün təzahürü idi və qitədə sabitliyi qoruyub saxlayan əsası təmin edən öz-özlüyündə NATO deyil, həmin qüvvələr tarazlığı idi. NATO, əsasən, Amerikanın sovet təhlükəsi ilə qarşılaşmada gücü idarə etmək aləti idi. İndi – Sovet İttifaqı süquta uğrayandan sonra realistlər belə bir fikir ilə çıxış edirlər ki, NATO ya ləğv edilməli, ya da Avropada yeni qüvvələr bölgüsü əsasında yenidən təşkil edilməlidir.[1] NATO "soyuq müharibə" dövründə olduğu kimi qala bilməz.

İnstitusional nəzəriyyələrin növləri

Üç institusional nəzəriyyə var və onların hər biri institutların dövlətləri müharibədən necə uzaqlaşdırdığı və sabitliyin təmin olunmasına necə kömək etdiyi haqqında fərqli arqument ilə çıxış edir.[2] Liberal institusionalizm həmin üç nəzəriyyənin ən az iddialı olanıdır. O, müharibənin qarşısının necə alınması sualına birbaşa müraciət etmir, lakin bunun əvəzinə diqqəti iqtisadiyyat və ətraf mühit sahələrində dövlətlər arasında əməkdaşlığın realistlərin qəbul etdiyindən nəyə görə daha ağlabatan olduğunu izah edir. Bu sahələrdə artan əməkdaşlığın müharibə ehtimalını azaltdığı güman edilir, baxmayaraq ki, liberal institusionalistlər bunun necə baş verdiyini izah etmirlər. Nəzəriyyə belə bir inamı bəyan edir ki, aldatma beynəlxalq əməkdaşlığa əsas əngəldir və institutlar bu problemi aradan qaldırmaq üçün açarı təmin edir. Məqsəd dövlətlərin fəaliyyətlərini məhdudlaşdıran qaydalar yaratmaqdır, dövlətlərin öz maraqlarına xidmət edən aktorlar olduğuna dair fundamental realist iddiaya qarşı çıxmaq deyil.

Kollektiv təhlükəsizlik müharibənin qarşısının alınması məsələsi ilə birbaşa olaraq qarşılaşır. Nəzəriyyə belə bir fikir ilə başlayır ki, güc dünya siyasətində əhəmiyyət kəsb etməkdə davam edəcək və dövlətlər potensial təcavüzkara qarşı müdafiə olunmalı olacaq.

[1] Bax: Gunther Hellman and Reinhard Wolf, "Neorealism, Neoliberal Institutionalism and the Future of NATO," *Security Studies*, Vol. 3, No. 1 (Autumn 1993), səh. 3-43.
[2] İnstitusional nəzəriyyələr arasında belə fərqliliklərə baxmayaraq, hər bir nəzəriyyənin tərəfdarları vaxtaşırı olaraq digər nəzəriyyələrə müvafiq istinadlar edirlər və bununla da, görünür ki, hər üç nəzəriyyə əsas istinad nöqtəsi kimi antirealizmi götürən institusionalist ədəbiyyatların bir parçasıdır. Məsələn, bax: Charles A.Kupchan and Clifford A.Kupchan, "Concrts, Collective Security and the Future of Europe," *International Security*, Vol. 16, No. 1 (Summer 1991), səh. 114-161; və Ruggie, "Multilateralism," səh. 561-598.

Lakin nəzəriyyəyə uyğun olaraq, dövlətin davranışı haqqında realist düşüncəyə qarşı çıxmaqla və onu üç antirealist norma ilə əvəz etməklə müharibə təhlükəsini geniş həcmdə azaltmaq olar. Birincisi, dövlətlər status-kvonu dəyişmək üçün gücdən istifadədən imtina etməlidir. İkincisi, həmin normanı pozan və müharibə ilə təhdid edən (yaxud onu başladan) dövlət ilə əlaqədar olmaq üçün cavabdeh dövlətlər öz dar maraqları əsasında fəaliyyət göstərməməlidir. Əvəzinə onlar öz fərdi qazanclarını maksimallaşdıracaq istənilən yolla cavab vermək istəklərini yatırtmalı və bunun əvəzinə təcavüzkarı olduqca böyük bir qüvvə tərəfindən təhdid ilə üz-üzə qoymaq üçün avtomatik olaraq bir araya gəlməlidirlər. Üçüncüsü, dövlətlər təcavüzdən imtina etmək və həmin imtinaya əhəmiyyət vermək üçün bir-birinə inanmalıdır. Onlar həmçinin əmin olmalıdırlar ki, əgər təcavüzün hədəfi olarlarsa, digər dövlətlər onları xilas etməyə gələcək.

Tənqidçi nəzəriyyə bu nəzəriyyələrin ən iddialısıdır, çünki onun son məqsədi beynəlxalq siyasətin fundamental təbiətini dəyişdirmək və yalnız dövlətlər arasında genişlənmiş əməkdaşlığın deyil, həm də həqiqi sülh imkanının olduğu bir dünya yaratmaqdır. Kollektiv təhlükəsizlik kimi, lakin liberal institusionalizmdən fərqli olaraq, tənqidçi nəzəriyyə birbaşa formada dövlətin öz maraqları əsasında davranışına dair realist düşüncəyə qarşı çıxır. Nəzəriyyə belə bir fikri bəyan edir ki, ideyalar və mülahizələr – bizim beynəlxalq siyasət haqqında düşüncə və danışıqlarımız – dövlətin davranışının arxasında duran aparıcı qüvvələrdir. O, realizmin dövlətin davranışının başlıca olaraq xarici dünyanın verilmiş strukturunun nəticəsi olduğuna dair realist iddianı tamamilə inkar edir. Tənqidçi nəzəriyyəçilərə görə, ideyalar maddi dünyanın formalaşmasına əhəmiyyətli təsir göstərir və buna görə də beynəlxalq siyasətdə inqilab etməyin yolu ayrı-ayrı fərdlərin dünya siyasəti haqqında düşüncə və danışıq tərzlərini kökündən dəyişməkdir. Ziyalıların, xüsusilə tənqidçi nəzəriyyəçilərin özlərinin bu prosesdə aparıcı rol oynadıqları hesab olunur...

Səbəb-nəticə məntiqində çatışmazlıqlar

Liberal institusionalist məntiqdə hətta o, iqtisadi məsələlərə tətbiq olunduqda belə mühüm bir nəzəri qüsur var. Nəzəriyyə aldatmanın əməkdaşlıqda ciddi maneə olduğuna dair fikrinə görə haqlıdır. Lakin o, əməkdaşlığın digər bir çətinliyini nəzərdən qaçırır: nisbi qazanc maraqları. Jozef Qrikonun göstərdiyi kimi, liberal institusionalistlər hesab edirlər ki, dövlətlər nisbi qazancda maraqlı deyil, lakin səylərini mütləq qazanca olduqca

çox yönəldirlər.[1] Kioheyn bu problemi 1993-cü ildə etiraf etdi: "Qriko diqqəti nisbi qazanclar məsələsinə yönəltməklə xüsusilə dünya iqtisadiyyatı haqqında liberal və neoliberal şərhçilər tərəfindən az əhəmiyyət verilən bir mövzuya böyük bir töhfə verdi".[2]

Bu gözdənqaçırma məhbusun dilemması oyununda nəzərdə tutulan seçim ardıcıllığı tərəfindən üzə çıxarılır: hər bir dövlət bir tərəfin digərinə nisbətən nə qədər qazanc əldə edəcəyi ilə deyil, rəqibinin strategiyasının onun öz (mütləq) maraqlarına necə təsir göstərəcəyi ilə maraqlanır. Başqa sözlə, hər bir tərəf, sadəcə, özü üçün ən yaxşı sövdələşməyə nail olmaq istəyir və digər tərəfin prosesdə necə keçindiyinə diqqət yetirmir.[3] Buna baxmayaraq, liberal institusionalistlər nisbi gücə dair mülahizələrə etinasız yanaşa bilməzlər, çünki onlar dərk edirlər ki, dövlətlər

[1] Bax: Grieco, "Anarchy and Limits of Cooperation." Qrikonun məsələyə münasibət göstərən digər işlərinə daxildir: Joseph M.Grieco, "Realist Theory and the Problem of International Cooperation: Analysiswith an Amended Prisoner's Dilemma Model," *The Journal of Politics*, Vol. 50, No. 3 (August 1988), səh. 600-624; Grieco, "Understanding the Problem of International Cooperation: The Limits of Neoliberal Institutionalism and the Future of Realist Theory," in Baldwin, *Neorealism and Neoliberalism*, səh. 301-338. Qrikonun tənqidçinin güclü təsiri əks olunur: yenə orada və bu, əsasən, Qriko geniş şəkildə istinad olunan, 1988-ci ildə dərc edilmiş məqaləsində qaldırmazdan əvvəl az diqqət yetirilmiş nisbi qazanclar və mütləq qazanclar məsələsinin müzakirəsi ətrafında sistemləşir. Problem Qrikodan əvvəlki alimlər tərəfindən qısa şəkildə müzakirə olunmuşdur. Bax: Joanne Gowa, "Anarchy, Egoism, and the Third Images: *The Evolution of Cooperation* and International Relations," *International Organization*, Vol. 40, No. 1 (Winter 1986), səh. 172-179; və Oran R.Young, "International Regimes: Toward a New Theory of Institutions," *World Politics*, Vol. 39, No. 1 (October 1986), səh. 118-119.

[2] Robert O.Keohane, "Institutional Theory and Realist Challenge," in Baldwin, *Neorealism and Neoliberalism*, səh. 283. Liberal institusionalistlər 1980-ci illərin ortalarında öz nəzəriyyələrini işləyib-hazırlayanda onlar birmənalı şəkildə qəbul etmirdilər ki, dövlətlər mütləq qazanc güdür. Əslində, onların nisbi və mütləq qazanclar arasında fərq haqqında düşündüklərini göstərən az dəlil var. Lakin dövlətlərin mütləq qazanclar güddüyünə dair fikirlər onların yazılarında nəzərdə tutulur.

[3] Lipson yazır: "Məhbusun dilemmasının ən sadə formasında iki oyunçu olur. Onların hər birinin öz maraqları olan, öz xeyrini maksimallaşdıran, özünə arxalanan biri olduğu nəzərdə tutulur və bu, beynəlxalq siyasətdə suveren dövlətlər haqqında realist konsepsiyaya oxşardır". Lipson, "International Cooperation," səh. 2. Bununla belə, realistlər beynəlxalq siyasətə dair bu konsepsiyanı qəbul etmirlər və təəccüblü deyil ki, məhbusun dilemmasının beynəlxalq münasibətləri geniş şəkildə izah etməkdə uyğunluğunu (ən azından onun ümumi formasında) sual altına qoyurlar. Bax: Gowa, "Anarchy, Egoism, and Third Images"; Grieco, "Realist Theory and the Problem of International Cooperation"; Stephen D.Krasner, "Global Communications and National Power: Life on the Pareto Frontier," *World Politics*, Vol. 43, No. 3 (April 1991), səh. 336-366.

anarxik sistemdə öz maraqları olan aktorlardır və qəbul edirlər ki, hərbi güc dövlət üçün əhəmiyyət kəsb edir. Realizmin əsas fikirlərini açıq şəkildə qəbul edən nəzəriyyə – liberal institusionalizm belə edir – dövlətlərin niyə əməkdaşlıq etdiyinə dair əsaslı bir izah ortaya qoymaq üçün nisbi qazanclar məsələsi ilə üz-üzə qalmalıdır.

Liberal institusionalistlərdən mütləq qazanclar məntiqinin iqtisadi sahəyə tətbiq olunduğu halda, nisbi qazanclar məntiqinin yalnız təhlükəsizlik sahəsinə tətbiq olunduğu haqqında əks arqument gözləmək olardı. Nəzərə alsaq ki, onlar, əsasən, iqtisadi və ətraf mühit sahəsində əməkdaşlığı izah etməkdə maraqlıdırlar, nisbi qazanclarla bağlı məsələləri nəzəriyyədən kənar saxlamağın heç bir əhəmiyyəti yoxdur.

Bu arqument ilə əlaqədar iki problem ortaya çıxır. Birincisi, əgər aldatma əməkdaşlığın yeganə əhəmiyyətli çətinliyi olsaydı, liberal institusionalistlər belə bir arqument ilə çıxış edə bilərdilər ki, onların nəzəriyyəsi hərbi deyil, iqtisadi sahəyə tətbiq olunur. Əslində, onlar belə bir arqument ilə çıxış edirlər. Lakin nisbi qazanclara dair mülahizələr bərabərləşdirməyə daxil edildikdə iqtisadi və hərbi məsələlər arasında aydın görünən ayırıcı xətti qoruyub saxlamaq qeyri-mümkün olur, başlıca olaraq ona görə ki hərbi güc iqtisadi gücdən əhəmiyyətli dərəcədə asılıdır. Dövlətin iqtisadiyyatının nisbi ölçüsü onun hərbi qüvvələrin beynəlxalq tarazlığında mövqeyi üçün əsaslı nəticələrə malikdir. Ona görə də iqtisadi, eləcə də hərbi fəaliyyət sahələrinə baxanda nisbi güc ilə bağlı maraqlar təhlükəsizlik səbəblərindən nəzərə alınmalıdır. Dövlətlərin nisbi qazanclar haqqında narahat olduqlarını qəbul etsək, liberal institusionalistlərin fərqləndirmə üçün istifadə etdikləri aydın görünən ayırıcı xətt onların nəzəriyyəsi tətbiq olunanda az yararlı olur.[1]

İkincisi, dövlətlərin nisbi qazanclarla bağlı nə üçün narahat olduqlarını izah edə biləcək qeyri-realist (yəni təhlükəsizliklə bağlı olmayan) qanunauyğunluqlar var. Məsələn, strateji ticarət nəzəriyyəsi dövlətlərin nisbi qazanclarla bağlı niyə narahat olmalı olduqları haqqında birbaşa iqtisadi qanunauyğunluq irəli sürür.[2] O belə bir arqument ilə çıxış edir ki, dövlətlərə öz firmalarına rəqib dövlətlərin firmaları üzərində üstünlük əldə etməkdə kömək etməlidirlər, çünki bu, milli iqtisadi inkişafı təmin etməyin ən yaxşı yoludur. Eyni zamanda psixoloji bir qanunauyğunluq da var və o, maddi səbəblərdən deyil, insan təbiətindən irəli gələn bir xüsusiyyət olaraq, öz inkişafını digər birinin inkişafı ilə müqayisə etmək üçün əməkdaşlıq razılaşmasının onların (yaxud dövlətlərinin) nə qədər xeyrinə olduğuna görə narahat olan fərdləri təsvir edir.[1]

Digər mümkün liberal institusionalist əks-arqument bundan ibarətdir ki, aldatma probleminin həlli nisbi qazanclar problemini yersiz edir. Əgər dövlətlər bir-birini aldada bilməsə, bir-birindən qorxmağa da ehtiyacları olmaz və ona görə də dövlətlər nisbi güc haqqında narahat olmalı olmaz. Lakin bu arqument ilə əlaqədar problem ondan ibarətdir ki, əgər aldatma problemi aradan qalxmış olsa belə, dövlətlər hələ də nisbi qazancları haqqında narahat olmalı olacaqdı, lakin qazanclardakı fərqlər hərbi üstünlüklərə çevrilə bilər və bu, məcburetmə və təcavüz məqsədləri ilə istifadə oluna bilər. Beynəlxalq sistemdə isə dövlətlər bəzən təcavüzə gətirib çıxaran ziddiyyətli maraqlara sahib olur.

Nisbi qazanclara dair mülahizələrin "soyuq müharibə" dövründə hətta İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (İƏİT) inkişaf etmiş sənayeləşmiş demokratiyalar arasında iqtisadi münasibətlərdə belə əhəmiyyət kəsb etdiyinə dair empirik dəlillər var. Realizm məntiqinin bu məsələdə təsirli olacağı gözlənilmir: ABŞ İƏİT-in digər dövlətlərindən az hərbi qorxusu olan superdövlətidir və həmin dövlətlərin nisbi qazanclarından ABŞ-ı təhdid etmək üçün istifadə edəcəkləri güman olunmurdu.[2] Bundan əlavə, İƏİT dövlətləri "soyuq müharibə"də Amerikanın vacib müttəfiqləri idi və ABŞ bundan strateji baxımdan faydalandı, onlar isə əhəmiyyətli dərəcədə böyüdülər və gücləndilər.

Bununla yanaşı, nisbi qazancların inkişaf etmiş sənaye dövlətləri arasında iqtisadi münasibətlər üçün əhəmiyyət kəsb etdiyi görünür. Üç tanınmış araşdırmanı nəzərdən keçirək. Stifen Krasner beynəlxalq kommunikasiyalar sənayesinin

[1] Mənim bu məsələyə dair düşüncələrim Şon Lin-Consun 19 iyun 1994-cü il tarixində mənimlə yazışmalarından nəzərəçarpacaq dərəcədə təsirlənib.
[2] Strateji ticarət nəzəriyyəsinin qısa şərhi üçün bax: Robert Gilpin, *The Political Economy of International Relations* (Princeton, NJ: Princeton University Press, 1987), səh. 215-221. Mövzuya dair ən geniş şəkildə istinad olunan: Paul R/ Frugman, editor, *Strategic Trade Policy and the New International Economics* (Cambridge, MA: MIT Press, 1986).

[1] Bax: RobertAxelrod, *The Evolution of Cooperation* (New York: Basic Books, 1984), səh. 110-113.
[2] Qriko "*Dövlətlər arasında əməkdaşlıq*" (*"Cooperation Among States"*) kitabında belə bir fikri müdafiə edir ki, "Avropa Birliyi ilə ABŞ arasında danışıqlar kontekstində ... nisbi qazanc ilə bağlı istənilən narahatlığı nisbi itkinin mövcudluğun qorunub saxlanması ehtimalı üzərində malik ola biləcək təsirlərə aid etmək çətindir". Robert Powell, "Absolute and relative Gains in International Relations Theory," *American Political Science Review*, Vol. 85, No. 4 (December 1919), səh.1319, qeyd 26. Pauel ilə razılaşdırmışam. Qrikonun Pauelə cavabından aydın olur ki, Qriko strateji ticarət nəzəriyyəsi kimi qeyri-hərbi məntiqi realizm günbəzinin altına daxil edir, lakin Pauel və mən bunu etmirik. Bax: Grieco, "The Relative-Gains Problem for International Relations," *American Political Science Review*, Vol. 87, No. 3 (September 1993), səh. 733-735.

müxtəlif sahələrində əməkdaşlıq səylərini nəzərdən keçirdi. O müəyyən etdi ki, dövlətlər aldanmadan çox narahat deyildi, lakin nisbi qazanclara görə olduqca narahat idi və bu onun belə bir nəticəyə gəlməsinə gətirib çıxardı ki, liberal institusionalizm "qlobal kommunikasiyalar üçün münasib deyildi". Qriko Amerika və Avropa Birliyinin GATT-ın himayəsi altında ticarətə qeyri-tarif maneələrinə aid bir sıra razılaşmaların yerinə yetirilməsi ilə əlaqədar səyləri nəzərdən keçirdi. O müəyyən etdi ki, uğurun səviyyəsi aldatma və narahatlıqlar ilə bağlı deyildi, lakin, əsasən, qazancların bölgüsü ilə bağlı maraqdan təsirlənirdi. Buna oxşar olaraq, Maykl Mastanduno müəyyən etdi ki, Amerikanın üç məsələdə Yaponiyaya yönəlik siyasətinə forma verən mühüm amil aldanma deyil, nisbi qazanclarla bağlı narahatlıq idi: FSX döyüş təyyarəsi, peyklər, yüksək dəqiqlikli (HD) televizorlar.[1]

Mən onu demək istəmirəm ki, nisbi qazanca dair mülahizələr əməkdaşlığı qeyri-mümkün edir; mənim fikrim, sadəcə, bundan ibarətdir ki, onlar əməkdaşlığa ciddi əngəl törədə bilərlər və ona görə də dövlətlər arasında əməkdaşlığa nəzəriyyə işlənib-hazırlanarkən nəzərə alınmalıdır. Bu fikir bu gün liberal institusionalistlər tərəfindən açıq şəkildə qəbul olunur. Kioheyn, məsələn, etiraf edir ki, o, "bölgü məsələlərini və onların beynəlxalq əməkdaşlıq üçün yaratdığı çətinlikləri lazımi qədər qiymətləndirməməklə böyük yanlışlığa yol verib".[2]

Liberal institusionalizm bərpa oluna bilərmi?

Liberal institusionalistlər əgər öz nəzəriyyələrini bərpa etmək istəyirlərsə, iki suala cavab verməlidirlər. Birincisi, dövlətlər nisbi qazanclarla bağlı ciddi şəkildə narahat olduqları halda, institutlar əməkdaşlığa kömək edə bilərlərmi, yaxud institutlar yalnız dövlətlər nisbi qazanclarla bağlı mülahizələrdən imtina etdikdə və bunun əvəzinə diqqəti mütləq qazanclara yönəldən zamanmı əhəmiyyət kəsb edir? Mən liberal institusionalistlərin dövlətlər nisbi qazanclara dair olduqca narahat olduqda institutların əməkdaşlığa kömək etdiyini hesab etdiklərinə dair heç bir dəlil görmürəm. Onlar açıq şəkildə qəbul edirlər ki, onların nəzəriyyəsi yalnız nisbi qazanclara dair kiçik və ya ümumiyyətlə heç bir əhəmiyyət daşımadıqda tətbiq olunur.[3]

[1] Krasner, "Global Communications and National Power," səh. 336-366; Grieco, *Cooperation Among Nations*; və Michael Mastanduno, "Do Relative Gains Matter? America's Response to Japanese Industrial Policy," *International Security*, Vol. 16, No. 1 (Summer 1991), səh. 73-113. Həmçinin bax: Jonathan B.Tucker, "Partner and Rivals: A Model of International Collaboration in Advanced Technology," *International Organization*, Vol. 45, No. 1 (Winter 1991), səh. 83-120.

[2] Keohane, "Industrial Theory and the Realist Challenge," səh. 292.

[3] Məsələn, Qrikonun nisbi qazanclara dair arqumenti ilə tanış olduqdan sonra Kioheyn

Buradan ikinci sual doğur: "dövlətlər nisbi qazanclarla bağlı nə vaxt narahat olmur?" Bu sualın cavabı nəticədə liberal institusionalizmin tətbiq olunduğu sahəni müəyyən edər.

Liberal institusionalistlər bu mühüm suala sistemli şəkildə cavab verməyib, ona görə də ilkin mərhələdə onların öz nəzəriyyələrini bərpa etməyə göstərdikləri səylər hər hansı formada dəyərləndirilməlidir. Mövcud olan Kioheynin Qrikonun nisbi qazanclar haqqında orijinal işinə uzun bir cavab, Robert Pauel və Dunkan Snidal tərəfindən Qrikonun yazılarına cavabdır və Kioheyn və digər liberal institusionalistlər nisbi qazanclar problemi haqqında necə fikir yürütməyə dair nümunələr kimi onları göstərirdilər.[1]

Pauel və Snidal nisbi qazanclara dair mülahizələrin nə zaman əhəmiyyət kəsb etmədiyinə dair müxtəlif arqumentlər irəli sürürlər. Bununla belə, onların hər ikisi mahiyyət etibarilə realist arqumentlərdir.[2] Heç bir araşdırma institutların əməkdaşlığa necə kömək edə biləcəyini müzakirə etmir və hər iki şərh məlum realist konsepsiyalar ətrafında aparılır.

Pauelin arqumentinin kökündə yaxşı tanış olan və Robert Cervis, Corc Kvester, Cek Snayder və Strefan van Evera tərəfindən məşhurlaşan hücum-müdafiə tarazlığı durur.[3] Pauel belə fikri müdafiə edir ki, nisbi qazanclara dair mülahizələr az əhəmiyyət kəsb edir və aqressiv müharibə təhlükəsi aşağı olanda və "güc tətbiqi artıq müzakirə mövzusu

yazırdı: "Xüsusi şərtlər altında – qarşılıqlı maraqların kiçik olduğu və ona görə də nisbi qazancların dövlət üçün xüsusilə əhəmiyyətli olduğu zaman – neoliberal nəzəriyyə neorealizmdən dövlətin davranış elementlərini izah etməyi gözləyir". Keohane, *International Institutions and State Power*, səh. 15-16.

[1] Keohane, "Institutional Theory and the Realist Challenge" səh. 269-300; Powell, "Absolute and Relative Gains," səh. 1303-1320; və Duncan Snidal, "Relative Gains and the Pattern of International Cooperation," *American Political Science Review*, Vol. 85, No. 3 (September 1991), səh. 701-723. Həmçinin bax: Powell, "Anarchyin International Relations Theory: The Neorelist-Neoliberal Debate," *International Organization*, Vol. 48, No. 2 (Spring 1994), səh. 313-344; Snidal, "International Cooperation Among Relative Gains Maximiazers," *International Studies Quarterly*, Vol. 35, No. 4 (December 1991), səh. 387-402; və Pauel və Snidalın məqaləsi: "The Relative-Gains Problem for International Cooperation," səh. 735-742.

[2] Bu məsələyə dair bax: Sean Lynn-Jones, "Comments on Grieco, 'Realist Theory and the Relative Gains Problem for International Cooperation: Developments in the Debate and the Prospectsfor Future Research," dərc olunmamış qeyd, 10 dekabr 1992-ci il.

[3] Robert Jervis, "Cooperation Under the Security Dilemma," *World Politics*, Vol. 30, No. 2 (January 1978), səh. 167-214; George H.Quester, *Offense and Defense in the international System* (New York: John Wiley, 1977); Jack Snyder, *The Ideology of the Offensive: Military Decision Making and the Disaster of 1914* (Ithaca, NY: Cornell University Press, 1984); və Stephen Van Evera, "The Cult of the Offensive and the Origins of the First World War," *International Security*, Vol. 9, No. 1 (Summer 1984), səh. 58-107.

olmadıqda" dövlətlər liberal institusionalizmə uyğun hərəkət edir.[1] Belə bir vəziyyət təcavüz baha başa gələndə yaranır və bu da öz növbəsində "müharibənin bünövrəsində duran texnologiyaların yaratdığı məhdudiyyətlər"in vəzifəsidir.[2] Başqa sözlə, üstün hərbi silahlar hücumun xeyrinə olanda müharibənin xərcləri də az olur və nisbi qazanclara dair mülahizələr qızğınlaşır. İnstitutlar belə vəziyyətlərdə əməkdaşlığa kömək etmək üçün az şey edə bilir. Lakin müdafiə texnologiyası hakim olanda təcavüzə başlamağın xərci yüksək olur və nisbi qazanclar problemi yumşalır, bu isə institutlara əməkdaşlığa səbəb olmağa imkan verir.

Snidal belə fikrin üstündə durur ki, əgər dövlətlər hətta ciddi müharibə təhlükəsi ilə üzləşsə belə, nisbi qazanc marağı böyük əhəmiyyət kəsb etmir. Onun arqumentinin kökündə duran konsepsiya beynəlxalq sistemdə qüvvələr bölgüsüdür.[3] Xüsusilə o qeyd edir ki, dövlətlərin çoxunun təxminən bərabər gücə malik olduğu çoxqütblü sistemdə dövlətlər nisbi qazanclar haqqında çox narahat olmur. Sistemdə dövlətlərin sayının artması nisbi qazanclar narahatlığını artırır. "Səbəb budur ki, çox aktorlar koalisiyalar yaratmaqla özlərini müdafiə etmək imkanını artırır və ümumiyyətlə, potensial düşmənlər nə qədər az birləşərsə, dövlət bir o qədər təhlükəsiz olar".[4]

Lakin o qəbul edir ki, "nisbi qazanclar hipotezası ...iki aktorlu vəziyyət üçün mühüm nəticələrə malik olur və say kiçik olanda, yaxud böyük saylar arasında əhəmiyyətli dərəcədə asimmetriya olanda o, mütləq qazanc modelindən əldə olunan nəticələri dəyişə bilər".[5]

Mən liberal institusionalistlərin nisbi qazanclar problemi ilə məşğul olmaq üçün apardıqları bu müzakirədən üç nəticə çıxarmışam. Birincisi, əgər hətta Pauel və Snidalın dövlətlərin nisbi qazanc marağından imtina halı haqqında arqumentləri qəbul olunsa belə, həmin

[1] Powell, "Absolute an Relative Gains," səh. 1314; həmçinin bax: səh. 1311.
[2] Yenə orada, Pauel öz məqaləsində "hücum-müdafiə" tarazlığı terminindən istifadə etmir.
[3] Baxmayaraq ki, Snidalın qüvvələr haqqında əsas arqumentləri heç bir kənaraçıxma olmadan realist ənənəyə uyğun gəlir (əslində, Qriko "Anarxiya və əməkdaşlığın hüdudları" ("Anarchy and the Limits of Cooperation") səh. 506-da onları qısa şəkildə təqdim edir), onun işləyib-hazırladığı formal model "əməkdaşlığın gətirdiyi qazanclar əlaqədar dövlətlərin ölçüsünə mütənasib olduğu və onlar arasında bərabər paylandığı"na dair qeyri-realist təsəvvürə söykənir. Snidal, "RealtiveGains," səh. 715. Bu təsəvvür əsas etibarilə qazanclarda fərqlər ehtimalını və bununla da nisbi qazanclar problemini aradan qaldırır. Bu məsələnin müzakirəsi üçün Qrikonun məqaləsinə bax: "The Relative-Gains Problem for International Cooperation," səh. 729-733.
[4] Snidal, "Relative Gains," səh. 716.
[5] Yenə orada, səh. 702.

şərtlər real dünya üçün ümumi deyil. Pauel müdafiə xarakterli hərbi texnologiyaların hakim olduğu bir dünya axtarır. Lakin hücum xarakterli və müdafiə xarakterli silahlar arasında fərqləndirmə aparmaq olduqca çətindir və Pauel bu məsələdə heç bir yardım göstərə bilmir.[1] Nüvə silahları istisnadır; onlar qarşılıqlı məhvin mütləq olduğu vəziyyətdə müdafiə silahlarıdır.[2] Lakin "soyuq müharibə" zamanı superdövlətlərin arsenalında kütləvi sayda nüvə silahının olması onları nisbi qazanclara dair mülahizələrin böyük əhəmiyyət kəsb etdiyi gərgin təhlükəsizlik yarışına daxil olmaqdan çəkindirmədi. Çox vacib bir amildir ki, Pauel öz mərkəzi arqumentini izah etmək üçün heç bir tarixi nümunə gətirmir. Snidal təxminən eyni ölçüdə böyük dövlətlərin sayının çox olduğu çoxqütblü bir dünya axtarışına çıxardı. Lakin biz tarixi baxımdan az sayda böyük dövlətə malik olan – adətən, beş, yaxud altı – və çox vaxt aralarında əhəmiyyətli dərəcədə asimmetriyanın olduğu çoxqütblü sistemlər müəyyən edirik. Snidal böyük dövlətlərin nisbi qazanclara dair mülahizələrdən geniş ölçüdə imtina etdiyi çoxqütblü sistemlərə dair heç bir tarixi nümunə təqdim etmir.[3]

İkincisi, liberal institusionalizmin dövlətlərin nisbi qazanclara dair narahatlığı haqqında yeni nə isə deməyə sözü azdır. Nəzəriyyənin tərəfdarları bunun əvəzinə həmin suala cavab vermək üçün iki realist şərhə arxalanırlar: hücum-müdafiə tarazlığı və sistemdə

[1] Belə bir ümumi razılaşma var ki, müdafiə silahları istilanı çətin və baha başa gələn, hücum silahları isə bunu ucaz və asan edir. Lakin ayrı-ayrı silahlara hücum, yaxud müdafiə statusu vermək üçün qəbul edilmiş kriteriyalar qrupu yoxdur. Bax: Marion Boggs, *Attempts to Define and Limit "Aggressive" Armament In Diplomacy and Strategy* (Columbia, MO: University of Missouri, 1941); Jack Levy, "The Offensive/Defensive Balance Of Military Technology: A Theoretical and Historical Analysis," *International Studies Quarterly*, Vol. 28, No. 2 (June 1984), səh. 219-238; John Mearsheimer, *Conventional Deterrence* (Ithaca, NY: Cornell University Press, 1983), səh. 25-27; və Jonathan Shimshoni, "Technology, Military Advantage and World War I: A Case for Military Entrepreneurship," *International Security*, Vol. 15, No. 3 (Winter 1990/1991), səh. 187-215.
[2] Bax: Shai Feldman, *Israeli Nuclear Deterrence: A Strategyforthe 1980s* (New York: Columbia University Press, 1982), səh. 45-49. Charles L.Glaser, *Analyzing Strategic Nuclear Policy* (Princeton, NJ: Princeton University Press, 1990); Jervis, "Cooperation Under the Security Dilemma"; və Stephen van Evera, *Causes of War*, Vol. II: *National Misperception and the Origins of War*, forthcoming, fəsil 13.
[3] Kioheyn, əslində, Qrikoya cavabında "soyuq müharibə"dən sonrakı Avropada sabitliyin perspektivlərini müzakirə edir. Bax: Keohane, "Institutional Theory and Realist Challenge," səh. 284-291. Təəccüblüdür ki, onun optimist dəyərləndirməsi nə Pauel, nə də Snidalın arqumentlərinə heç bir diqqət yetirmir, baxmayaraq ki, həmin cavabda o, əvvəlcə öz arqumentlərində "həm realist, həm də institusionalist arqumentlərin mahiyyətinin məhdudlaşdırılması"na arxalanır. Bax, yenə orada, səh. 276.

qüvvələr bölgüsü. Beləliklə, liberal institusionalizmi realizmin alternativi adlandırmaq çətindir, lakin bunun əvəzinə buna onun qolu kimi baxmaq olar.[1]

Üçüncüsü, hətta nisbi qazanclar haqqında realist məntiqin tətbiq olmadığı vəziyyətlərdə belə strateji ticarət nəzəriyyəsi kimi qeyri-hərbi qanunauyğunluqlar dövlətlərin nisbi qazanclar baxımından düşüncə yürütməsinə səbəb ola bilər. Liberal institusionalist nəzəriyyə birbaşa olaraq həmin qanunauyğunluqlara qarşı çıxmalıdır.

Səbəb-nəticə məntiqində çatışmazlıqlar

Kollektiv təhlükəsizlik nəzəriyyəsində iki əsas çatışmazlıq var və onların hər ikisi olduqca vacib inam komponentinə aiddir. Kollektiv təhlükəsizlik tamamlanmamış bir nəzəriyyədir, çünki o, dövlətlərin öz qorxularını necə dəf etdiklərini və bir-birinə inanmağı necə öyrəndiklərinə dair qənaətbəxş şəkildə izah edir. Realistlər belə bir fikri müdafiə edirlər ki, dövlətlər ona görə bir-birindən qorxur ki, onlar anarxik bir dünyada fəaliyyət göstərirlər, hücum xarakterli hərbi imkanlara malikdirlər və heç vaxt digər dövlətlərin niyyətlərindən əmin olmurlar. Kollektiv təhlükəsizlik ilk iki realist təsəvvür haqqında, əsasən, susur, çünki nəzəriyyə anarxiya, yaxud hücum imkanları haqqında az söz deyir.[2] Bununla belə, onun niyyətlər haqqında deməyə nəyisə var, çünki nəzəriyyənin ilk iki norması dövlətləri təcavüzkarlıq etməyə deyil, müdafiə olunmağa çağırır. Dövlətlər, başqa sözlə, hərbi qüvvədən istifadəni düşünərkən yalnız xoş niyyətlərə malik olmalıdır.

Bununla belə, nəzəriyyə qəbul edir ki, bir və daha artıq dövlət kollektiv təhlükəsizliyi dəstəkləyən normalardan imtina edə və təcavüzkarcasına davrana bilər. Kollektiv təhlükəsizlik sisteminin məqsədinin özü, bütün bunlardan əlavə, təcavüzkar niyyətlərə malik olan dövlətlərlə məşğul olmaqdır. Nəticədə kollektiv təhlükəsizlik etiraf edir ki, heç bir dövlət nə vaxtsa digər dövlətin niyyətlərindən tam əmin ola bilməz və bu bizi geriyə

[1] Liberal institusionalistlər öz nəzəriyyələri və realizm arasındakı əlaqəni hər zaman aydın dərk etməyiblər. Məsələn, Kioheyn *"Hegemoniyadan sonra" ("After Hegemony")* (səh. 14) kitabında belə bir təvazökar iddia ilə çıxış edir ki, onun nəzəriyyəsi "realizmin dəyişilmiş formasıdır. Realist nəzəriyyələr ... yenisi ilə əvəz olunmasa da, əlavələrə ehtiyac duyur". O, bir neçə il sonra "neoralizm ilə [müəyyən] oxşarlıqlara baxmayaraq, neoliberal institusionalizmə ayrıca bir düşüncə məktəbi kimi münasibət göstərilməlidir" fikrini yazaraq, bir qədər daha cəsarətli iddia ilə çıxış etdi. Keohane, *International Institutions and State Power,* səh. 8. Lakin həmin parçada o belə bir çox cəsarətli arqument irəli sürür ki, "biz anlamalıyıq ki, neoliberal institusionalizm neorealizmin, sadəcə, alternativi deyil, faktiki olaraq onu özünə ehtiva etməyə iddia edir". Yenə orada, səh. 15.

[2] Kollektiv təhlükəsizliyin tərəfdarları, adətən, silahların azaldılmasının geniş yayılmasına şərait yaradırlar.

dövlətlərin birindən qorxmaqdan başqa az seçimi olduğu realist dünyaya qaytarır.

Dövlətlərin kollektiv təhlükəsizlik sisteminə inam bəsləməməsinin ikinci bir səbəbi var: o, üstün gücə malik olan təcavüzkara qarşı çıxmaq cəhdlərinə mane olduğu görünən tələblər qrupuna malikdir – mən 9 belə tələb saymışam. Kollektiv təhlükəsizlik, Klaudun qeyd etdiyi kimi, "tələblərin fövqəladə dərəcədə mürəkkəb şəbəkəsi ilə razılığını nəzərdə tutur".[1]

Birincisi, kollektiv təhlükəsizliyin fəaliyyəti üçün dövlətlər təcavüzkarı və qurban olanı aydın şəkildə fərqləndirməyi bacarmalıdır və sonra təcavüzkara qarşı hərəkət etməlidir. Lakin bəzən böhran zamanı iğtişaşçının və qurbanın kim olduğunu müəyyən etmək çətin olur.[2] Birinci Dünya müharibəsinin başlanması üçün əgər hər hansı böyük Avropa dövləti məsuliyyət daşıyırsa, bunun hansı dövlət olduğu ətrafında müzakirələr hələ davam edir. Oxşar müzakirələr əksər digər müharibələri müşayiət edib.

İkincisi, nəzəriyyə hesab edir ki, təcavüz bütövlükdə yanlışdır. Lakin vaxtaşırı istilanı, demək olar ki, əsaslandırmış olur. Məsələn, 1979-cu ildə vyetnamlıların Kambocaya hücum etməsinin təqdir olunan səbəbləri var, çünki o, qanlı Pol Potu_hakimiyyətdən saldı.

Üçüncüsü, bəzi dövlətlər tarixi və ideoloji səbəblərdən xüsusilə mehribandır. Yaxın dostlara malik olan bir dövlətə kollektiv təhlükəsizlik sistemində təcavüzkar damğası vurularsa, ehtimal olunur ki, onun dostları ona qarşı koalisiyaya qoşulmağa həvəssiz olacaq. Məsələn, ABŞ-ın hətta beynəlxalq birlik tərəfindən təcavüzkar adlandırılsalar belə, Britaniya, yaxud İsrailə qarşı hərbi qüvvədən istifadə etdiyini təsəvvür etmək çətindir.

Dördüncüsü, dövlətlər arasında tarixi düşmənçilik həmçinin kollektiv təhlükəsizlik səylərini məhdudlaşdıra bilər. Hesab edək ki, Avropada qurulmuş bir təhlükəsizlik sistemi nizamı qoruyub saxlamaq üçün qitənin iki ən qüdrətli dövləti olan Almaniya və Rusiyadan yüksək dərəcədə asılı olmalı olar. Lakin Avropada nizamı qoruyub saxlamaq üçün 1939-1945-ci illərdə Avropada qətllər və dağıntı törətmiş Almaniya və sovet imperiyasının özəyi olmuş Rusiya ideyasının digər Avropa dövlətləri tərəfindən əhəmiyyətli dərəcədə müqavimət ilə qarşılaşmalı olduğu qaçılmaz idi.

Beşincisi, əgər dövlətlər təcavüzə qarşı çıxmaq üçün avtomatik və kollektiv şəkildə hərəkət etməyə razılaşsa belə, şübhəsiz ki, öhdəliyin necə bölüşdürülməsinin müəyyən edilməsi məsələsində çətinlik olacaq. Dövlətlər məsuliyyəti üzərilərindən atmağa və təcavüzkara qarşı çıxmaq üçün ödənilən böyük xərci digər dövlətlərin üzərinə qoymağa güclü

[1] Claude, *Swords into Plowshares,* p. 250.

[2] Bax: Bourquin, *Collective Security,* səh. 295-338.

şəkildə meyil edəcək.[1] Birinci Dünya müharibəsi zamanı, məsələn, Britaniya, Fransa, və Rusiyanın hər biri Almaniyanı döyüş meydanında məğlubiyyətə uğratmaq üçün qanlı əvəzin müttəfiqləri tərəfindən ödənməsinə cəhd etdi.[2]Məsuliyyətin təhdidedici şəkildə digər dövlətlərin üzərinə qoyulması kollektiv təhlükəsizliyi işlək etmək üçün zəruri olan üstün hərbi qüvvə yaratmaq səylərini boşa çıxara bilər.

Altıncısı, kollektiv təhlükəsizlik sistemində təcavüzə sürətli cavaba zəmanət vermək çətindir. Əvvəlcədən planlaşdırma problemlidir, çünki "silahlı münaqişə olarsa, dövlətlərin necə qruplaşacağını bilmək qeyri-mümkündür".[3] Müharibə aparmaq üçün dövlətlərin böyük koalisiyasının yaradılması ilə birlikdə böyük əhəmiyyət kəsb edən əlaqələndirmə problemləri mövcud olur. Məsuliyyət daşıyan dövlət bir və daha artıq təcavüzkar ilə məşğul olmalı olduqda sürətli cavab daha da problemli olur. ABŞ Küveyti Səddam Hüseydən azad etmək üçün koalisiya yaratmağa 6 aya nail oldu. Amerikanın səyləri nə qədər təsirli olsa da, təhlükəyə məruz qalan dövlətlərin onlara köməyin gələcəyini, lakin yalnız onlar istila edildikdən sonra gəlib çatacağını söyləyən təhlükəsizlik sisteminə böyük inamının olmadığı görünürdü.

Yeddincisi, dövlətlər, görünür ki, kollektiv təhlükəsizlik səyinə qoşulmaqda həvəssiz idi, çünki sistem nəticə etibarilə hər bir lokal münaqişəni beynəlxalq münaqişəyə çevirir. Dünyanın hər yerində baş verən münaqişələri görən dövlətlər, şübhəsiz ki, Qərbin keçmiş Yuqoslaviyada etmiş olduğu kimi iğtişaşlı ərazini təcrid etməyə və münaqişənin genişlənməsinin qarşısını almağa çalışacaq.[4] Lakin kollektiv təhlükəsizlik sülhməramlı məqsədlər daşımasına baxmayaraq, münaqişənin genişlənməsinə səbəb olur.

Səkkizincisi, dövlətlərin təcavüzə avtomatik şəkildə cavab verməli olduğu təsəvvürü fundamental yollarda dövlət suverenliyi ilə toqquşur və ona görə də onun qəbul etdirilməsi çətindir. Dövlətlər, xüsusilə demokratiyalar, görünür ki, təcavüzkar ilə mübarizə aparıb-aparmamaq müzakirəsində öz azadlıqlarını qısqanclıqla qoruyur. Müharibə, xüsusilə əgər böyük dövlətlər ona cəlb olunubsa, son dərəcə amansız bir işdir və az ölkələr öz maraqları ilə əlaqəsi yoxdursa, əvvəlcədən qanlı bədəl ödəmək öhdəliyi götürmək istəyir.

Doqquzuncusu, cavabdeh dövlətin, həqiqətən, təhlükəyə məruz qalan dövlətin köməyinə gəlib-gəlməyəcəyinə dair şübhələr doğuran qüvvəyə münasibətlərdə bəzi ziddiyyətlər var. Kollektiv təhlükəsizlik nəzəriyyəsi belə bir inama əsaslanır ki, müharibə, həqiqətən, dəhşətli bir fəaliyyətdir və ona görə də dövlətlər təcavüzdən imtina etməlidir. Nəzəriyyə eyni zamanda bəyan edir ki, dövlətlər iğtişaşçılara mane olmaq üçün gücdən istifadə etməyə hazır və istəkli olmalıdır. Lakin öhdəlik daşıyan dövlətlər müharibəni o qədər mənfur hesab edir ki, ondan imtina edərlər; bu onların təcavüzü dayandırmaq üçün müharibə etmək istəyəcəklərinə şübhə yaradır. Əslində, kollektiv təhlükəsizliyin əksər tərəfdarları təcavüzkar dövlətə münasibətdə hərbi qüvvədən daha çox "yaradıcı diplomatiya və iqtisadi sanksiyalar"a üstünlük verirlər.[1]

Ümumiyyətlə, dövlətlərin kollektiv təhlükəsizlik çətin vəziyyətə düşdükdə və təcavüz ehtimalı mövcud olduqda elan olunduğu kimi işləyəcəyinə şübhələnməsi üçün çoxsaylı əsaslar var. Əgər o, uğursuzluğa uğrayarsa, potensial qurbanlar əgər qüvvələr tarazlığına dair mülahizələrdən imtina ediblərsə və inamlarını kollektiv təhlükəsizliyə bağlayıblarsa, güman ki, əndişəli vəziyyətə düşəcəklər. Bu qəbul olunarsa, çox ehtimal olunur ki, dövlətlər öz talelərini digər dövlətlərin əlinə verməyəcək və bunun əvəzinə realizmin özünəyardım məntiqinə üstünlük verəcək.

Tənqidçi nəzəriyyə

Tənqidçi nəzəriyyəçilər[2] birbaşa olaraq sülhə necə şərait yaratmaq sualına müraciət edirlər və dövlətin davranışının dəyişməsi imkanları haqqında əsaslı

[1] Bax: Mancur Olson, Jr., and Zeckhauser, "An EconomicTheory of Alliances," *Review of Economics and Statistics*, Vol. 48, No. 3 (August 1966), səh. 266-279; və Barry R.Posen, *The Sources of Military Doctrine: France, Britain, and German Between the World Wars* (Ithaca, NY: Cornell University Press, 1984).
[2] David French, *British Strategy and War Aims, 1914-1916* (London: Allen and Unwin, 1986).
[3] G.F.Hudson, "Collective Security and Military Alliances," in *Diplomatic Investigations: Essaysin the Theory of International Politics*, Herbert Butterfield and Martin Wight, eds. (Cambridge, MA^ Harvard University Press, 1966), səh. 177.
[4] Bu düşüncə xəttindən olan nümunə üçün bax: Stephen M.Walt, "Collective Security and Revolutionary Change: Promoting Peacein the Former Soviet Union," in Downs, *Collective Security Beyond the Cold War*, səh. 169-195.

[1] Robert C.Johansen, "Lessons for collective security," *World Policy Journal*, Vol. 8, No. 3 (Summer 1991), səh. 562.
[2] Tənqidçi nəzəriyyə ayrıca bir elm sahəsi ilə əlaqədar olmayan insanlıq halının öyrənilməsinə yanaşmadır. Əslində, tənqidçi nəzəriyyə 1980-ci illərin əvvəlində beynəlxalq münasibətlər sahəsinə daxil olmağa başlamazdan əvvəl digər elm sahələri tərəfindən geniş şəkildə inkişaf və tətbiq edilmişdir. Bu məqalə diqqəti öz-özlüyündə tənqidçi nəzəriyyəyə yönəltmir, tənqidçi nəzəriyyənin beynəlxalq münasibətlərə tətbiq olunduğu elmi ədəbiyyatı nəzərdən keçirir. Mən həmin işlərə onlar arasında xüsusilə vurğulamalarda fərqlərin olmasına baxmayaraq, bir-biri ilə əlaqəli olan bütövlük kimi münasibət göstərirəm. Tənqidçi nəzəriyyənin ümumi şərhi üçün bax: David Heldç *Introduction to Critical Theory: Horkheimer to Habermas* (Berkley: University of California Press, 1980); və Pauline M.Rosenau, *Post-Modernism and the Social Science: Insights, Inroads, and Intrusions* (Princeton, NJ^ Princetone University Press, 1992). Həmçinin bax: Pauline Rosenau, "Once Again into the Fray: International Relations Confronts the Humanities," *Millenium: Journal of International Studies*, Vol. 19, No. 1 (Spring 1990), səh. 83-110.

iddialar ilə çıxış edirlər.[1] Xüsusilə onlar beynəlxalq sistemi dövlətlərin "inam və bölüşmə normaları" ilə yönləndirildiyi "dünya cəmiyyəti"nə dəyişmək məqsədi güdürlər. Məqsəd təhlükəsizlik yarışını və müharibəni tarixin zibilliyinə tullamaq və onun əvəzinə həqiqi bir "sülh sistemi" yaratmaqdır.[2]

Tənqidçi nəzəriyyəçilər ideyaları olduqca ciddi qəbul edirlər. Əslində, onlar hesab edirlər ki, mühakimə, yaxud bizim dünya haqqında necə düşünməyimiz və danışmağımız təcrübəyə böyük təsir göstərir. Kobud şəkildə desək, ideyalar tarixin aparıcı qüvvəsidir. Bundan əlavə, onlar qəbul edirlər ki, realizm uzun müddət beynəlxalq münasibətlərdə hakim nəzəriyyə olub və ona görə də onların reallığa dair mülahizələrinə görə, dövlətin davranışı üzərində əhəmiyyətli təsirə malik olub. Lakin tənqidçi nəzəriyyəçilər realizmə qarşı çıxmaq və ona kölgə salmaqla həmin vəziyyəti dəyişmək niyyətindədirlər. Riçard Eşli öz niyyətlərini bədii şəkildə belə təsvir edir: "Gəlin onda neorealist konsepsiya

[1] Tənqidçi nəzəriyyəni beynəlxalq münasibətlərə tətbiq edən əsas işlər arasında növbətiləri göstərmək olar: Richard K. Ashley, "The Poverty of Neorealism," *International Organization*, Vol. 38, No. 2 (Spring 1984), səh. 225-286; Ashley, "The Geopolitics of Geopolitical Space: Toward a Critical Social Theory of International Politics," *Alternatives*, Vol. 12, No. 4 (October 1987), səh. 403-434; Robert W.Cox, "Gramsci, Hegemony and International Relations: An Essay in Method," *Millennium: Journal of International Studies*, Vol. 12, No. 2 (Summer 1983), səh. 162-175; Cox, "Social Forces, States and World Orders: Beyond International relations Theory," *Millenium Journal of International Studies*, Vol. 10, No. 2 (Summer 1981), səh. 126-155; Cox, "Towards A Post-Hegemonic Conceptualization of World Order: Reflections on the Relevance of Ibn Khaldûn," in *Governance Without Government: Order and Change in World Politics*, James N.Rosenau, and Ernst-Otto Czempiel, eds. (New York: Cambridge University Press, 1992), səh. 132-159; Rey Koslowski and Friedrich Kratchwil, "Understanding Change in International Politics: The Soviet Empire's Demise and the International System," *International Organization*, Vol. 48, No. 2 (Spring 1994), səh. 215-247; Friedrich Kratochwil and John G.Ruggie, "International Organization: A State of the Art on An Art of the State," *International Organization*, Vol. 40, No. 4 (Autumn 1986), səh. 753-775; Ruggie, "Continuity and Transformation in the World Polity: Toward a neorealist Synthesis," *World Politics*, Vol. 35, No. 2 (January 1983), səh. 261-285; Ruggie, "Territorial and beyond: Problematizing Modernity in International Relations," *International Organization*, Vol. 47, No. 1 (Winter 1993), səh. 139-174; Alexander Wendt, "The Agent Structure Problem in International RelationsTheory," *International Organization*, Vol. 41, No. 3 (Summer 1987), səh. 335-370; Wendt, "Anarchy Is What States Make of It: The Social Construction of Power Politics," *International organization*, Vol. 46, No. 2 (Spring 1992), səh. 391-425; və Wendt, "Collective Identity Formation and the International State," *American Political Science Review*, Vol. 88, No. 2 (June 1994), səh. 384-396. Bu qrupdan olan ədəbiyyatı mən "tənqidçi nəzəriyyəsi" adlandırıram; bəzən başqa adlardan da istifadə olunur və onlar arasında konstruktivizm, reflektivizm, postmodernizm və poststrukturalizm var.
[2] Gətirilən sitat buradandır: Ashley, "Poverty of Neorelaism," səh. 285 və Wendt, "Anarchy IsWhat States Make of It," səh. 431.

və iddiaları aradan qaldıraq. Gəlin yanlışlardan ibarət planetlər düzülüşünə nə məftun olaq, nə də onlardan imtina edək, bunun əvəzinə həmin kürələri sındıraq, içini açaq və açıb içində hansı imkanların gizləndiyini üzə çıxaraq. Bundan sonra, işimizi bitirdikdən sonra isə qalan qalıqları süpürüb atmayaq. Gəlin bunun əvəzinə onları bir bankanın içinə tökək, onun şüşəsini silib parladaq və onu digər səhvlərin örnəkləri ilə birlikdə kitab rəfinə yerləşdirək".[1] Realizmin ayrı-ayrı hissələrə parçalanması ilə, güman ki, daha dinc bir dünyaya yol açılar.

Tənqidçi nəzəriyyə realizmə qarşı çıxmaq üçün çox uyğundur, çünki inqilabçı nəzəriyyə öz təbiətinə görə alternativ imkanlar yaratmaq deyil, "hegemon" ideyaların tənqid edilməsidir. Mərkəzi məqsəd "dəyişiklik ziddiyyətlərdən qaynaqlandığına görə mövcud nizam daxilində ziddiyyətlər axtarıb müəyyən etmək"dir.[2] O, məlum səbəblərdən "tənqidçi nəzəriyyə" adlanır. Bununla belə, belə bir çox mühüm bir amil var ki, tənqidçi nəzəriyyə öz-özlüyündə beynəlxalq siyasətin gələcəyi haqqında az söz deyir. Əslində, tənqidçi nəzəriyyə vurğulayır ki, "gələcək haqqında qabaqcadan xəbər vermək qeyri-mümkündür".[3] Robert Koks bu məsələni belə izah edir: "Dəyişiklik potensialı haqqında tənqidçi xəbərdaretmə dəyişikliyin son məqsədi olan utopik planlaşdırmadan, yəni gələcək cəmiyyətin formasının müəyyən edilməsindən fərqləndirilməlidir. Tənqidçi anlaşma diqqəti dəyişiklik prosesinin məqsədləri əvəzinə, həmin prosesin özünü sosial hərəkatın nail ola biləcəkləri əvəzinə həmin hərəkatın başladılması imkanlarına yönəldir".[4]

Bununla belə, tənqidçi nəzəriyyəsindən realizmə qarşı çıxmaq və ona kölgə salmaq üçün istifadə edən beynəlxalq münasibətlər sahəsi ilə məşğul olan alimlər, şübhəsiz ki, daha ahəngdar və dinc beynəlxalq sistem yaratmağa ümid bağlayır. Lakin nəzəriyyənin

[1] Ashley, "Poverty of neorealism," səh. 286.
[2] Robert W.Cox, *Production, Power, and World Order: Social Forces in the Making of World History* (New York: Columbia University Press, 1987), səh. 393.
[3] Cox, "Post-Hegemonic Conceptualization," səh. 139.
[4] Cox, *Production, Power, and World Order: Social Forces in the Making of World History* (New York: Columbia University press, 1987), səh. 393. Gənc Karl Marks bu yanaşmanı 1844-cü ildə belə ümumiləşdirdi: "Yeni tendensiyanın üstünlüyü ondan ibarətdir ki, biz gələcəyi ehkamçı şəkildə təsvir etməyə cəhd etmirik, yalnız köhnə dünyanın tənqidi ilə yeni dünya kəşf etmək istəyirik". Karl Marx, "For a Ruthless Cricism of Everything Existing," in *The Marx-Engels Reader*, 2nd ed. Robert C.Tucker, ed. (New York: Norton, 1978), səh. 13. Marksın işləri erkən dövrdə tənqidçi nəzəriyyədən hissolunacaq dərəcədə təsirlənmişdi. Məsələn, bax: Ashley, "Poverty of Neorealism," səh. 226-230; və Cox, "Social Forces," səh. 133. Lakin tənqidçi nəzəriyyəçilər Marksın realizm ilə bir çox ortaq cəhətlərə malik olan siyasətə dair struktur nəzəriyyəsinin əsasını qoyan sonrakı işlərini aşağı qiymətləndirirlər.

özü isə həmin məxsusi məqsədə nail olmağın arzuolunan olması və ya mümkünlüyü haqqında az danışır.

Səbəb-nəticə məntiqində çatışmazlıqlar

Tənqidçi nəzəriyyəçilərin əsas məqsədi dövlətin davranışını fundamental yollarla dəyişmək, təhlükəsizlik yarışının və müharibənin getdiyi dünyanı geridə buraxmaq və plüralist təhlükəsizlik birliyi yaratmaqdır. Lakin onların dəyişikliklərin necə baş verdiyinə dair izahı, ən yaxşı halda, natamam, ən pis halda isə daxilən ziddiyyətlidir.[1]

Tənqidçi nəzəriyyə belə bir fikri müdafiə edir ki, dövlətin davranışı o zaman dəyişir ki, təlim dəyişir. Lakin həmin arqument belə bir aşkar və mühüm məsələni açıq saxlayır: hansı təlimlərin hakim olduğunu, digərlərinin isə ideyalar bazarında uğursuzluğa uğradığını nə müəyyən edir? Təlimlərin yüksəlişini və süqutunu idarə edən mexanizm hansıdır? Bu ümumi sual öz növbəsində üç daha spesifik suala gətirib çıxarır: (1) Niyə realizm dünya siyasətində uzun müddət hegemon təlim olub? (2) Niyə onun bu mövqeyini itirməsinin vaxtı yetişib? (3) Niyə realizmin daha sülhyönümlü ictimai təlim ilə əvəz edilməsi ağlabatandır?

Tənqidçi nəzəriyyə təlimlərin yüksəlişi və süqutu haqqında az sayda analiz təqdim edir. Tomas Ris-Kapen yazır: "Biliyə əsaslanan transmilli şəbəkələrin "elmi birliklər"i üzrə araşdırmalar digər ideyalar uğursuzluğa düçar olduğu halda, ayrı-ayrı ideyaların seçildiyi və siyasətə təsir göstərdiyi şəraitləri dəqiq müəyyən etməkdə uğursuz olmuşdur".[2] Təəccüblü deyil ki, tənqidçi nəzəriyyəçilər realizmin hakim təlim olmasının və indi bünövrəsinin belə laxladığının səbəbləri haqqında heç nə demir. Onlar qəti olaraq bu mühüm məsələlər haqqında heç bir əsaslı arqument irəli sürmürlər. Ona görə də tənqidçi nəzəriyyəçilərin gözü ilə baxıb, realizmin müqəddəratı haqqında mühakimə yürütmək çətindir.

Bununla belə, tənqidçi nəzəriyyəçilər zaman-zaman beynəlxalq münasibətlərin mühakiməsində dəyişikliklərə gətirib çıxara bilən ayrı-ayrı amillərə işarə edirlər. Lakin belə hallarda da onlar, adətən, belə bir nəticəyə gəlirlər ki, maddi dünyada baş verən dəyişikliklər təlimdə də dəyişikliklər ilə müşayiət olunur. Məsələn, Eşli realizmin gələcəyi haqqında ehtimallar yürüdəndə belə bir iddia ilə çıxış edir ki, "əsas məsələ dəyişən tarixi şəraitlərin realizmin uzunsürən güc ənənələrini sıradan

[1] Mənim bu haqda düşüncələrim nəzərəçarpacaq dərəcədə Hayn Qoimansın fikirlərindən təsirlənmişdir.
[2] Thomas Risse-Kappen, "Ideas Do Not Float Freely: Transnational Coalitions, Domestic Structures, and the End of the Cold War," *International Organozation*, Vol. 48, No. 2 (Spring 1994), səh. 187. Həmçinin bax: Koslowski and Kratochwil, "Understanding Change," səh. 225.

çıxarıb-çıxarmamasından ibarətdir". Xüsusilə o belə bir sual qoyur ki, "sonuncu kapitalist cəmiyyətində baş verən proseslər", məsələn, "dövlətin maliyyə böhranı" və "kapitalın beynəlmiləlləşməsi" "böyük həcmdə dağıdıcı və yüksək səviyyədə avtomatlaşmış nüvə arsenalı" ilə birləşərək, "dövlət adamlarını realizmin güc ənənələrini müvafiq formada icra etmək imkanından məhrum edibmi".[1] Buna oxşar olaraq Koks belə bir arqument ilə çıxış edir ki, fundamental dəyişiklik o zaman baş verir ki, "insanların dünyanın təbiəti haqqında malik olduqları ideyalar müxtəlifliyi və onların ziddinə olan təcrübi problemlər" arasında "parçalanma" mövcud olur. O daha sonra yazır ki, "bəzilərimiz fikirləşirik ki, neorealizmin vaxtilə sahib olduğu hakim ağlabatan quruluşu bu gün qlobal siyasətin çağırışlarını qarşılamaq üçün qənaətbəxş deyil".[2]

Əgər realistlər belə bir arqument ilə çıxış etsələr, bunu başa düşmək olardı, çünki onlar hesab edirlər ki, hansı təlimin hakim olmasını, əsasən, təyin edən obyektiv bir reallıq mövcuddur. Lakin tənqidçi nəzəriyyəçilər vurğulayırlar ki, dünya sosial baxımdan qurulub və fundamental olaraq obyektiv amillər tərəfindən formalaşmayıb. Bütün bunlardan əlavə, anarxiya bizim onu dərk etdiyimiz formadır. Lakin tənqidçi nəzəriyyəçilər realizmin öz hegemon mövqeyini nə üçün itirə biləcəyini izah etməyə cəhd edəndə həm də dəyişikliyin əsas səbəbi kimi obyektiv amilləri qeyd edirlər. Beləliklə, buradan belə bir nəticə hasil olur ki, təlim təyinedici deyil və əsasən, obyektiv dünyada baş verən hadisələrin inikasıdır. Sözün qısası, belə görünür ki, beynəlxalq siyasəti öyrənən tənqidçi nəzəriyyəçilər real dünyada baş verən dəyişikliyin səbəblərinə dair düşüncələrinin işartılarını təqdim edəndə öz nəzəriyyələri ilə birbaşa olaraq ziddiyyət, lakin zahirən qarşı çıxdıqları nəzəriyyə ilə uyğunluq təşkil edən arqumentlər ilə çıxış edirlər.[3]

[1] Ashley, "Geopolitics of Geopolitical Space," səh. 426-427.
[2] Cox, "Post-Hegemonic Conceptualization," səh. 138. Həmçinin bax: Cox, "Social Forces," səh. 138-149. Digər bir nümunə üçün bax: Ruggie, "Continuty and Transformation," səh. 281-286; və Wendt, "Collective identity Formation," səh. 389-390.
[3] Görünür ki, Koks bu problem ilə tanış idi. Yeni dünya nizamını müəyyən edə biləcək müxtəlif obyektiv amillərin təsvirinə 11 səhifəsini həsr etdikdən sonra o qeyd edir: "Gələcək dünya düzəninə dair təxminləri əvvəlki mülahizələrə əsaslandırmaq, əlbəttə ki, *məntiqi baxımdan yolverilməzdir*, həmçinin düşüncəsizlikdir". Cox, "Social Forces," səh. 149., kursiv əlavə olunur. Bununla belə, o, sonrakı bir neçə cümlədə həmin obyektiv mülahizələrin gələcək dünya düzəninə dair təxminlərin anlaşılması üçün nə qədər əhəmiyyətli olduğunu vurğulayır. O yazır: "Onların faydası diqqəti formalaşmaqda olan dünya düzənini bu və digər istiqamətə çəkə biləcək amillərə cəlb etməkdə daha çoxdur. İstehsalat proseslərinin dəyişməsi ilə meydana gələn sosial qüvvələr mümkün gələcək haqqında düşüncələrin çıxış nöqtəsidir. Bu qüvvələr müxtəlif konfiqurasiyalarda birləşə bilər və nümunə kimi hipotetik konfiqurasiyaların böyük ehtimalla gələcək

Tənqidçi nəzəriyyənin beynəlxalq siyasətə tətbiq olunmasında digər bir problem də var. Baxmayaraq ki, tənqidçi nəzəriyyəçilər realizmi uzlaşma və sülhü əsas götürən bir təlim ilə əvəz etməyə ümid edirlər, tənqidçi nəzəriyyə öz-özlüyündə vurğulayır ki, gələcəkdən xəbərdar olmaq qeyri-mümkündür. Tənqidçi nəzəriyyə öz məntiqinə uyğun olaraq, realizmi sarsıtmaq və dəyişiklik yaratmaq üçün istifadə oluna bilər, lakin ondan hansı təlimin realizmi əvəz edəcəyini əvvəlcədən müəyyən etmək üçün əsas kimi istifadə etmək olmaz, çünki nəzəriyyə dəyişikliyin istiqaməti haqqında az söz deyir. Əslində, Koks belə bir arqument ilə çıxış edir ki, baxmayaraq ki, "utopik gözləntilər insanların addımlar atmasında stimullaşdırıcı elementlər ola bilər, ...belə gözləntilər təcrübədə, demək olar ki, heç vaxt anlaşılmır".[1] Beləliklə, müəyyən mənada tənqidçi nəzəriyyəçilər tərəfindən müdafiə olunan ictimai təlim arzuolunan bir düşüncədir, nəzəriyyənin özü ilə əlaqəli olan bir nəticə deyil. Əslində, tənqidçi nəzəriyyə yeni təlimin yerini tutduğu təlimdən daha bədxassəli olmayacağına təminat verə bilməz. Nəzəriyyədə heç nə təminat verə bilməz ki, məsələn, realizmdən daha zorakı olan faşist təlimi *yeni hakim təlim kimi ortaya çıxmayacaq.*

Realist konstruktivizm

C.Samuel Barkin

C.Samuel Barkin Florida Universitetinin Siyasi elmlər fakültəsinin professorudur.
© 2003 International Studies Review,
Vol. 5, səh. 325-342.

Konstruktivizmin beynəlxalq münasibətlər nəzəriyyəsinə dair ədəbiyyatda realizmə birbaşa müxaliflik mövqeyi tutduğu görünür. Metodologiyalarının realizm ilə uyğunluq təşkil etmədiyini iddia edən konstruktivistlər diqqəti realizm ilə həm materializm, həm də rasionalizm arasındakı birliyə yönəldirlər. Öz paradiqmalarının konstruktivizm ilə bir araya sığmadığını iddia edən realistlər diqqəti əsas etibarilə konstruktivistlərin idealist və utopistlər olduğuna dair qavranılan təmayülə yönəldirlər. Lakin heç bir arqument öz dayanıqlığını qoruyub saxlamır. Bu essedə konstruktivist qneseologiya və klassik realist nəzəriyyəsi nəzərdən keçirilir və belə bir müzakirə aparılır ki, onlar, əslində, bir-birinə uyğundur; konstruktivizm mütləq şəkildə realist olduğu deyil, konstruktivist araşdırmanın istənilən digər təlim kimi dünyaya realist baxış ilə də bir araya sığdığı müzakirə olunur. Realist konstruktivizmin mövcudluğunun beynəlxalq siyasətdə gücün öyrənilməsi ilə beynəlxalq münasibətlərin sosial quruluş kimi öyrənilməsi arasında əlaqənin müəyyənləşdirilməsində yardımçı olması da daxil olmaqla metodoloji müzakirələrin aydınlaşdırılmasından başqa, beynəlxalq münasibətlər nəzəriyyəsində faydalı olduğu təsdiq oluna bilər.

Konstruktivizmin beynəlxalq münasibətlər nəzəriyyəsinə dair ədəbiyyatda realizmə birbaşa müxaliflik mövqeyi tutduğu görünür. Bu müxalifliyin nümunələrinə bir çox yerlərdə rast gəlinə bilər. Konstruktivizm beynəlxalq münasibətlər istiqamətinə realizmin bir variantının – struktur realizmin (Wendt 1987a; Dessler 1989; Onuf and Klink 1989) tənqidi kimi daxil olmuşdur. Özlərini konstruktivist elan edənlər çox vaxt dünyaya liberalizmə aid, geniş şəkildə təyin olunan və çox vaxt həmin kateqoriyanı qəbul edən baxışlara malik olurlar (və ya ən azından belə görünürlər). Bundan əlavə, keçən dövrdə yürüdülən bəzi konstruktivist nəzəri mühakimələr belə açıq bir arqument irəli sürür ki, konstruktivizm və realizm məntiqi baxımdan birbirinə uyğun deyil (məsələn, Wendt 1999; Patomäki and Wight 2000), yaxud da ən azından antaqonistdir (Lebow 2001). Beynəlxalq münasibətlərin pedaqogikası həmçinin realizmi və konstruktivizmi getdikcə daha çox qəti şəkildə bir-birindən fərqlənən paradiqmalar kimi təyin edir; belə ki, beynəlxalq münasibətlər sahəsində yazılan dərsliklərdə hətta ilkin səviyyədə, getdikcə artan tendensiyadan gördüyümüz kimi, onlar bu sahədə üç və daha çox fərqli paradiqmadan ikisi kimi təqdim olunur (məsələn, Hughes 2000; Kegley və Wittkopf 2001; Lieber 2001).

Konstruktivizmin realizm və liberalizm kimi beynəlxalq münasibətlərə dair paradiqma olduğunu iddia etmək yanıldıcıdır və dərsliklərdə bunu etməyə göstərilən meyil elmi ədəbiyyatlarda nadir hallarda əks olunur. Sonuncularda konstruktivizm, adətən, ontologiya, qneseologiya, yaxud metodologiya kimi təyin edilir. Bu şəkildə onun, adətən, materializm, yaxud rasionalizmdən fərqli olduğu müəyyən edilir. Yerlərdə hadisələrin öyrənilməsi üçün aparılan sonuncu çalışmalar (Katzenstein, Keohane, and Krasner 1998; Ruggie 1998), əslində, rasionalizm-konstruktivizm ziddiyyətini müasir beynəlxalq münasibətlər nəzəriyyəsində mərkəzi müzakirə mövzusu kimi təyin etdi. Metodologiyalarının realizmə uyğun olmadığını iddia edən konstruktivistlər diqqəti realizm ilə həm materializm, həm də rasionalizm arasında əlaqəyə yönəldirlər. Paradiqmalarının konstruktivizm ilə uyğun olmadığını iddia edən realistlər diqqəti, əsasən, öz-özlüyündə metodologiyaya deyil, konstruktivistlərin idealistlər, yaxud utopistlər kimi qəbul edilməsi meylinə yönəldirlər.

Lakin arqumentlərin heç biri əsaslı şəkildə öyrənilmir. Konstruktivistlərin realist nəzəriyyənin sahələrarası qneseologiyalar və metodologiyalar ilə uyğun

dünya sisteminə dair üç müxtəlif nəticəyə gətirib çıxaracağını nəzərdən keçirmək olar. Diqqəti bu 3 nəticəyə yönəltmək, əlbəttə ki, sosial qüvvələrin heç bir digər nəticəsinin və konfiqurasiyasının mümkün olmadığını nəzərdə tutmur". Başqa sözlə, Koks mümkün gələcək dünya düzənlərini izah etmək üçün əsas etibarilə obyektiv amillərə arxalanmır.

[1] Cox, *Production, Power, and World Order*, səh. 393.

olmadığına dair iddiaları realizmin ya karikaturalarına, ya da dar şəkildə anlaşılmaya əsaslanır. Konstruktivizmin realist təndiqçiləri də bəzi (ola da bilsin ki, əksər) konstruktivistlərin baxışlarından onun metodologiyasının mahiyyət etibarilə liberalizmin təsiri altında olduğu haqqında nəticə çıxarmaqda eyni dərəcədə günahkardırlar. Konstruktivist qneseologiyanın və klassik realist nəzəriyyənin tədqiqi göstərir ki, onlar, əslində, bir-birinə uyğundur; əlbəttə, ona görə yox ki konstruktivizm mütləq şəkildə realistdir, ona görə ki konstruktivist araşdırma istənilən digər baxışlar kimi dünyaya realist baxış ilə də bir araya sığır.

Bu essenin məqsədi belə bir araşdırmanı aparmaqdır. Bunu etməkdə ilk addım terminləri təyin etmək və konstruktivizm və realizmi birləşdirən təlimi əhatə edən bəzi terminoloji anlaşılmazlığa aydınlıq gətirməkdir. İkinci addım realist konstruktivizmin (yaxud bu halda konstruktivist realizmin) qneseoloji, metodoloji və paradiqmatik baxımdan fəaliyyət qabiliyyətli olduğuna dair arqument ilə çıxış etməkdən ibarətdir. Sonuncu addım realist konstruktivizmin nəyə bənzəyə biləcəyini və onun beynəlxalq münasibətlərin araşdırılmasına hansı halda daha geniş şəkildə uyğun gəldiyini müzakirə etməkdir. Digər hallar arasında belə bir yanaşmaya sahib olmaq bəzi vacib vəzifələri yerinə yetirir. Bir vəzifə protaqonistlərin bu sahədə bir-biriləri ilə danışmaq əvəzinə, müxtəlif şeylər haqqında danışdıqları bir sıra müzakirələrə aydınlıq gətirməkdir. Digər bir vəzifə beynəlxalq münasibətlərdə gücün öyrənilməsi və ideyaların öyrənilməsi ilə beynəlxalq siyasətin sosial quruluşu arasında əlaqəyə aydınlıq gətirməkdir. Sonuncu vəzifə beynəlxalq münasibətlərə təməl yanaşmalar ilə həm konstruktivizmi, həm də realizmi müxtəlif səbəblərdən olsa da, problematik kimi qiymətləndirən tənqidçi və postmodern yanaşmalar arasında körpü rolunu oynamaqdır.

Təyinatlar

Bu sahədə çox sayda alimin paradiqma və qneseologiyanın məsələlərini müzakirə edən zaman müxtəlif məfhumlardan danışmasının səbəbinin bir hissəsi terminoloji qarışıqlıq ilə bağlıdır. Alimlər terminləri tez-tez yenidən təyin etməyə meyillidirlər və bununla da eyni terminin müxtəlif müəlliflər tərəfindən çox müxtəlif mənalarda işləndiyi vəziyyətin yaranmasına səbəb olurlar. Bu müşahidə bu essedəki əksər əsas terminlərə, eləcə də iki mühüm anlayışa: realizmə və konstruktivizmə də aiddir. Qarışıqlıq eyni sözlər üçün müxtəlif təyinatlar nəzərdə tutan ayrı-ayrı müəlliflər tərəfindən daha da kəskinləşir. Məsələn, Aleksandr Vendt (1999) həm siyasi, həm də elmi realizmdən danışır və belə bir fikir irəli sürür ki, onlar bir araya sığmır. O həmçinin idealizmin iki təyinatını verir, çünki ideyaların "zm"i və idealların "zm"i – iki müxtəlif anlayışlardır. Biz idealizmə və elmi realizmə qısa bir nəzər salacağıq. Bununla belə,

ilk addım bu essenin iki ən mərkəzi terminini – konstruktivizmi və realizmi (siyasi) – təyin etmək və onların burada necə istifadə olunacağını müəyyən etməkdir. Hər iki termin elə təyin olunur ki, mümkün qədər özlərini konstruktivistlər elan edən alimlər və realist araşdırmaçılar birliklərini əhatə edir.

Konstruktivizm iki termindən daha asan təyin oluna bilənidir. Özünü konstruktivistlər kimi təqdim edənlərin çoxu (ola bilsin ki, hamısı) razılaşar ki, bu yanaşmanın təyinedici xüsusiyyəti diqqəti beynəlxalq siyasətin sosial quruluşuna yönəltməsidir. Konstruktivistlər beynəlxalq siyasətin gerçəkliklərini obyektiv, maddi reallığın deyil, sahələrarası, yaxud sosial reallığın inikası kimi görürlər. (Onuf 1989). Başqa sözlə, aktorların beynəlxalq münasibətlərdə göstərdikləri fəaliyyət, sahib olduqları maraqlar və daxilində fəaliyyət göstərdikləri strukturlar obyektiv və maddi şərtlərdən daha çox, sosial norma və ideyalar tərəfindən təyin olunur.

Bu geniş təyinat daxilində konstruktivistlər əhəmiyyətli dərəcədə fərqlənirlər. Onların fərqləndiyi müstəvilərdən biri müəyyən edilməli və öyrənilməli olan empirik baxımdan müəyyən edilə bilən reallığın mövcud olduğu ölçüdür. Fikirlər iki qneseologiyadan birində birləşməyə meyil edir: həmin qneseologiyalardan biri müəyyən edilə bilən reallığın mövcud olduğu və empirik araşdırma vasitəsilə əl çata bildiyi fikrini irəli sürür; digəri isə belə bir fikir ilə qarşı çıxır ki, biz nə vaxt əminliklə müşahidə edə bildiyimizin bizim müşahidəmizdən asılı olmayaraq həqiqətən mövcud olduğunu bilə bilmərik və ona görə də empirik araşdırmanın müəyyən edə biləcəyi heç bir həqiqi reallıq mövcud deyil. Bu iki qneseologiya müxtəlif şəkildə "neoklassik" və "postmodernist" konstruktivizm (bax: Ruggie 1998), eləcə də "seyrək" və "qatı" konstruktivizm (bax: Wendt 1999) kimi tanınır. Bu essedə realist konstruktivizm diqqəti konstruktivizmin neoklassik variantına yönəltməklə izah olunacaq, çünki bunun izahı daha çətindir. Postmodern konstruktivizm, ümumiyyətlə, siyasətdə gücün mərkəzi mövqeyini daha çox qəbul edir, güc isə, aşağıda göstəriləcəyi kimi, realizmin təməl anlayışıdır. Realizmin mahiyyət etibarilə fundamentalist olduğuna dair postmodernist cavab qabaqda bu bölmədə və növbəti bölmədə nəzərdən keçiriləcək.

İki əsas termindən təyin edilməsi daha çətin olan realizmdir, çünki qarşılıqlı olaraq bir-birinə uyğun olmadığı görünən çoxsaylı təyinlərə malikdir. Məsələnin mahiyyətini anlamaq üçün qeyd edək ki, realizmin ortaq cəhəti – yəni realizmə aid olan, həm də sahələrarası anlayış olaraq konstruktivizmə aid olan anlayış – gücdür. Bu müşahidə bəzi oxuculara açıq şəkildə bayağı görünə bilər. Lakin realizmin bir çox müasir təyinatları gücü az qabardır və nəticə etibarilə ona nə dərəcədə söykəndiklərini göstərməkdə uğursuz olur (məsələn, Mearcheimer 1994/95; Jervis 1998; Legro və Moravcsik 1999). Güc digər oxuculara beynəlxalq münasibət-

lərin analizində xüsusilə istifadə olunmaq üçün olduqca geniş bir kateqoriya kimi görünə bilər; bu tənqid aşağıda nəzərdən keçiriləcək. Gücün realizmin təməl anlayışı olduğunu izah etmək üçün realizmin mövcud olan çoxsaylı təyinlərini nəzərdən keçirməliyik və bu zaman onların nəticə etibarilə gücün beynəlxalq münasibətlərdə mərkəzi mövqeyə sahib olduğuna dair fikirlərdən qaynaqlandığını qeyd etməliyik.

Realizm termini beynəlxalq münasibətlər təliminə beynəlxalq siyasətin bizim onun necə olduğunu hiss etdiyimiz kimi deyil, onun olduğu kimi öyrənilməsinə ehtiyaca istinadən daxil olmuşdur (bax: Schuman 1933; Kitk 1947; Morgenthau 1948; Carr 1964; Rommen 1994). Bu ehtiyacın arxasındakı məntiq gücün üzərində cəmləşir. Biz siyasətin başqa formada olmasını arzu edərək, onu belə edə bilmərik, çünki biz gücə malik deyilik; ona görə də mövcud güc strukturu daxilində fəaliyyət göstərməliyik (Lasswell 1935; Wight 1946; Morgenthau 1948; Carr 1964). ABŞ-da realist nəzəriyyəni inkişaf etdirən ilkin işlər realizmi açıq-aşkar güc haqqında təlim kimi təyin edirdi. Məsələn, Hans Morgentau (1985:31-32) beynəlxalq siyasətin bütün araşdırmasını təyinati baxımdan güc ilə əlaqələndirir. O, siyasət elmini güc ilə əlaqədar olan sosial elm kimi təyin edir. Əgər biz beynəlxalq münasibətlərin gücün ətrafında dolanmayan hər hansı ünsürünü öyrənməli olsaydıq, beynəlxalq siyasət əvəzinə beynəlxalq siyasəti, beynəlxalq hüququ, yaxud da beynəlxalq sosiologiyanı öyrənmiş olardıq. Belə bir mövqeyi tutmaqla Morgentau (1948: 15) belə bir fikir ilə çıxış etmirdi ki, beynəlxalq hüquq, iqtisadiyyat, yaxud sosiologiya əlaqədar olmayan sahələrdir. Lakin onun dediyi budur ki, beynəlxalq sahədə güc kimi təyin olunan siyasət mühüm əhəmiyyət kəsb edir və ayrılıqda öyrənilməyə layiqdir.

"Dövlətlər arasında siyasət" (Morgenthau 1948) kitabı ilk dəfə çap olunandan sonra keçən yarım əsrdən çox bir müddət ərzində təyinatın bu başlanğıc mahiyyəti zaman-zaman itirilmişdir. Realizmin müasir təyinatları gücdən başqa, adətən, aşağıdakı bəzi kombinasiyalarını ehtiva edir: dövlətlərin analitik mərkəzçiliyi, onların mövcudluqlarını qoruyub saxlamaq marağı, maddi imkanların üstünlüyü və rasionallıq (realizmin təyinlərinin icmalı üçün bax: Donelly 2000). Bu elementlər birlikdə gücün təməl realist anlayışından aşkar bir törəmə nümayiş etdirir, lakin çox vaxt qaynaqlandıqları ideyalarla necə əlaqədar olduqlarını az qəbul edirlər. Bu anlayışlara eyni zamanda birlikdə baxmaq bizə onları yenidən əlaqələndirmək imkanı verir.

Realizmin çoxsaylı müasir təyinatları dövlətin beynəlxalq siyasətin mərkəzi aktoru olduğunu hesab edir. Erkən realistlər üçün belə mülahizə deduksiyadan daha çox müşahidə məsələsi idi. XX əsrin birinci yarısında qeydə alınmış əsas siyasi hadisələr iki dünya müharibəsi idi və həmin müharibələr dövlətlər arasında və dövlətlər

tərəfindən aparılırdı. Dövlətlər beynəlxalq siyasətdə gücə malik olan təşkilatlar idi. Əslində, heç bir digər təşkilat beynəlxalq olaraq daha effektiv gücə malik deyildi; ona görə də dövlətlər əhəmiyyət kəsb edirdi. Lakin E.H.Karr (1964:224-235) belə bir nəticəyə gəlirdi ki, baxmayaraq ki, dövlətlər hal-hazırda qlobal siyasətdə gücün yerləşdiyi mərkəz idi, onların mərkəzi aktor olaraq qalması mütləq deyildi. O vaxtdan etibarən dövlətlər realistlər arasında, adətən, özlərinə görə realizmin təyinedici elementi kimi təqdim olunub (məsələn, bax: Jervis 1998). Dövlətlərin müşahidə mərkəzindən təyinatı mərkəzə keçirilməsinin bir nəticəsi həm realizmin tənqidçiləri, həm də bəzi neorealistlər tərəfindən dövlət daxilində baş verənlərin realistlər üçün əhəmiyyət kəsb etmədiyinə dair irəli sürülən arqumentdir. Yalnız bir neçə realist nəzəriyyəçi (və bu halda bir neçə ilkin neorealist nəzəriyyəçi) bu arqument ilə çıxış edir. Realist nəzəriyyədə dövlət daxilində baş verənlər həm dövlətin güclü olma dərəcəsini, həm də həmin gücə sahib olmaqda onların məqsədlərini təyin edir.[1] Klassik realist nəzəriyyə, əslində, daha çox ilkin təsəvvür nəzəriyyəsidir və Kennet Uolts da (1959, 1979) onu buna görə tənqid edirdi. Beynəlxalq münasibətlər sahəsində Cefri Leqro və Endrü Moravsik (1999) kimi nəzəriyyəçilər tərəfindən nəzəriyyəsi realist və liberal nəzəriyyə arasında birincinin üçüncü təsəvvür nəzəriyyəsi olduğunu, ikincinin isə ilkin və ikinci təsəvvürü birləşdirdiyini təklif etməklə fərqi müəyyən etmək üçün edilən cəhdlər belə olduqda yersizdir. Realizmdə dövlətlər əhəmiyyət kəsb edir, çünki onların gücü var; əhali və daxili təsisatlar əhəmiyyət kəsb edir, çünki onlar dövlətin nə qədər gücə sahib olacağını və həmin gücün necə istifadə olunacağını müəyyən edirlər.

Dövlətlərin mövcudluqlarını qoruyub saxlamaq marağını bölüşdürdükləri fikri dövlətin mərkəziliyinə dair indicə müzakirə etdiyimiz mülahizədən irəli gəlir. Realist nəzəriyyə üçün mövcudluğunu qoruyub saxlamaq marağını nəzərə almaq mütləq qaydadan daha çox ümumiləşdirmədir: mövcudluğunu qoruyub saxlamaqda maraqlı olmayan dövlətlər, ehtimal ki, anarxik dünyada davam gətirə bilməyəcək. Ona görə də hesab edə bilərik ki, bizim çağdaş dünyaya davam gətirmiş və orada yer almış dövlətlər mövcudluğunu qoruyub saxlamaq marağına malik olan dövlətlərdir (Morgenthau 1948: 13, Waltz 1979: 74-77; Jervis 1998: 980-981). Mövcudluğunu qoruyub saxlamağın dövlətin davranışının yeganə və hətta əsas motivə edən marağı olmağına ehtiyac yoxdur; lakin mövcudluğu qoruyub saxlamağın məsələyə aidiyyəti

[1] Nəzərə alın ki, Kennet Uolts (1979: 121-122) bu kimi faktlara xarici siyasətin beynəlxalq siyasətin sistemli araşdırılmasından kənar araşdırılması kimi müraciət edir və belə bir fikir ilə çıxış edir ki, bu yalnız reduksion üsulla edilə bilər. Lakin o bunu heç vaxt əhəmiyyətsiz kimi diqqətdən kənar qoymur.

olduğu hallarda dövlətlər, görünür ki, bunu nəzərə almalıdır. Realizmin bəzi tənqidçiləri belə bir fikir ilə qarşı çıxırlar ki, dövlətin mövcudluğunu qoruyub saxlamağa dəyər verməsi fikri böyük bir əhəmiyyət kəsb etmir və ona görə də realizmdə dövlətin seçimləri haqqında bəzi nəzərdə tutulan əlavə fikirlər olmalıdır (məsələn bax: Leqro and Moravcsik 1999: 14, Wendt 1999: 235). Lakin əsas məsələ də bu fikrin əhəmiyyətsizliyindədir. Gücün əhəmiyyət daşıdığı bir dünyada dövlətlərin nisbi güc baxımından düşünməsi üçün yalnız mövcudluqlarını qoruyub saxlamaq ilə əlaqəli təməl bir ortaq marağa ehtiyacları var (məsələn, bax: Waltz 1979; Grieco 1997; Shweller 1998).

Realizmin müasir təyinlərində tez-tez özünü göstərən üçüncü anlayış rasionallıqdır. Siyasət elminin hazırkı araşdırmaçılarının çoxu, bəlkə də, əksəriyyəti üçün rasionallıq rasional seçim nəzəriyyəsini doğurur (bax: Kahler 1998; Katzenstein, Koehane and Krasner 1998). Siyasətin öyrənilməsinə belə yanaşma belə bir ilkin münasibət ilə başlayır ki, biz siyasi aktorları faydalı şəkildə öyrənə bilərik və bu zaman onların kənardan təyin edilmiş seçimlərini sanki onlar rasional alətdirlərmiş kimi nəzərə alırıq. Bununla belə, rasionallığın realist nəzəriyyə kontekstində istifadəsi rasional seçim nəzəriyyəsi ehtimallarını doğurmur. Klassik realizmdə rasionallığa aid olan iki element ortaya çıxır. Birincisi budur ki, biz araşdırmaçılar olaraq siyasətin öyrənilməsi zamanı rasional, yəni bu terminin çoxmənalı istifadəsində nizamlı və "elmi" olmalıyıq. Başqa sözlə, biz davranışın ümumi formaları, sosial alimlərin böyük sayı (mütləq şəkildə hamısı ilə olmasa da) tərəfindən qəbul olunan xəbərdarlıqları nəzərə almalıyıq.[1] Realizmdə rasionallığın müzakirə olunduğu ikinci üsul xəbərdaredicidən daha çox praktikdir, yəni dövlətin əhalisinin mütləq rasional davranmış *olacağını* deyil, öz dövlətlərinin maraqlarını həyata keçirmək üçün belə davranmalı *olduğunu* nəzərdə tutur. Bu o deməkdir ki, əgər siyasətçilər beynəlxalq siyasətdə yalnız bəyanatlar vermək əvəzinə, dəyişikliklər yaratmaq istəyirlərsə, onlar öz imkanlarından rasional şəkildə istifadə etməlidirlər. Morgentaunun (1985:10) sözlərinə görə, "xarici siyasət öz mənəvi və təcrübi məqsədləri baxımından rasional olmalıdır". Beləliklə, rasionallıq haqqında təsəvvür, əslində, gücün mərkəziliyi haqqında təsəvvürə əsaslanan rasionallığın təyinatıdır.

Maddi imkanların üstünlüyü haqqında təsəvvür ilə bağlı olan dördüncü anlayış realistlərin özlərindən daha çox, onların tənqidçilərinin realist nəzəriyyəyə aid etdiyidir (məsələn, bax: Kratochwil 1984:310; Wendt 1999:30). Doğrudur, realistlər diqqəti gücün istər iqtisadi, mənəvi, istərsə də mənəvi formalarından çox hərbi gücə yönəldirlər (məsələn, Mearsheimer, 1994/1995). Belə bir mövqe belə bir təsəvvür ilə izah oluna bilər ki, düşmənin hərbi gücü dövlətin birbaşa mövcudluğunu təhlükə altına saldığı halda, gücün digər formaları belə etmir. (Əlbəttə, bu təsəvvürün düzgünlüyü mübahisə mövzusudur). Bu həmçinin əksər ilkin realist işlərin yazıldığı "soyuq müharibə" dövrünün kontekstindən (bax: Oren 2000), yaxud da hərbi güc alətlərinin hesablanmasının asanlığı ilə izah oluna bilər. Lakin birbaşa hərbi təhlükənin mövcud olmadığı vəziyyətlərdə, məsələn, hal-hazırda dünyanın əksər böyük dövlətləri arasında olduğu kimi hərbi gücün gücün digər formaları üzərində üstünlük qazanması üçün realist nəzəriyyəsində heç bir nəzərdə tutulmuş səbəb yoxdur. "Soyuq müharibə" dövründə hərbi insan qüvvəsini və avadanlığı birbaşa şəkildə hesablamaq üçün kustar bir üsul var idi və o, realist nəzəriyyədən daha çox davranışda inqilaba əsaslanırdı və ola bilsin ki, bu səbəbdən realizm maddi imkanlar ilə birləşməli olmuşdu.[1] Lakin az realist nəzəriyyəçi belə bir fikrə qoşulur və çoxu açıq şəkildə əsaslandırır ki, gücün mənbələri qeyri-maddidir (bax: məsələn, Waltz 1979:131; Morgenthau 1985:34-36).

Materializm fikri tənqidçilər tərəfindən realizmə şamil edildikdə insanda belə ayrıca bir müqəvvanın niyə yaradıldığına maraq oyanır. Bir səbəb realizmi rasional seçim nəzəriyyəsi ilə daha çox uyğunlaşdırmaq ola bilər. Bu, əslində, bizə güc ilə formal nəzəriyyəçilərin seçimlər ilə davrandığı kimi davranmaq imkanı verə bilər. Bununla belə, klassik realist nəzəriyyəsinə görə, güc ən azından qismən endogendir: gücü necə istifadə etməyi bilmədən nə qədər gücə sahib olduğunu bilmək olmur. Lakin güc ehtiyatlarının maddiləşməsi gücü ekzogen olaraq dəyişkən etmək təsirinə malikdir; o haradasa ölçülə bilən və birbaşa siyasi fəaliyyətdən azad bir məfhuma çevrilir. Formal nəzəriyyə də həmçinin aktorların seçimlərini oynanılan oyuna ekzogen olaraq götürməlidir. Beləliklə, gücün maddiləşməsi ilə realizm həm rasionalistlər, həm də öz tənqidçiləri üçün (məsələn, müvafiq olaraq Leqro və Moravsik 1999 və Wendt 1999) "rasionallaşır".

Əvvəlki müzakirə onu nəzərdə tutur ki, güc realist nəzəriyyənin özək və ümumi elementidir. Realizmin çağdaş təyinlərinin yüklənmiş dörd anlayışdan dövlətlərin analitik mərkəzçiliyi

[1] Lakin bu xəbərdarlıq sosial elmin adi deduktiv modelinə, Ragi (1998: 880) və Vendt (1999: 48) kimi konstruktivistlər tərəfindən istinad edilən modelə uyğunluğu nəzərdə tutmur. Morgentau (1946), əslində, "elmi insan" terminindən – beynəlxalq siyasətin problemlərinin həlli yollarını ilkin prinsiplərdən müəyyən edən şəxs – Karr (1964) "utopiyaçılar" terminindən istifadə etdiyi kimi realistlər üçün polemik örtük kimi istifadə etmişdir.

[1] Bununla belə, qeyd etmək vacibdir ki, maddi imkanların hesablanması ilə məşğul olanların əksəriyyəti, məsələn, müharibənin əlaqələndirilməsi layihəsinin iştirakçıları özlərini sülh nəzəriyyəçiləri, yaxud münaqişələrin həlli ilə məşğul olan nəzəriyyəçilər və əks-realistlər kimi təqdim edirdilər (məsələn, bax: Singer 1990, Vasquez 1998).

və mövcudluğun qorunub saxlanması marağı gücə dair ilkin realist mövqedən qaynaqlanır; üçüncü anlayış – rasionallıqda realistdən daha çox, rasional seçim formasında istifadə olunanda diqqətin gücə yönəlməsini təklif edir. Dördüncü – maddi imkanlara üstünlük verilməsi təməl realist ideyadan daha çox, "soyuq müharibə"nin ortalarında siyasət elmində davranış dönəminin və "soyuq müharibə"nin sonunda onun rasionalist dönəmin nəticəsidir. Lakin çox hallarda konstruktivizm və realizmin bir araya sığmadığı fikrini irəli sürən diqqətin gücə yönəldilməsindən daha çox, həmin dördüncü xüsusiyyətdir.

Realizm və konstruktivizm

Əksər konstruktivistlər açıq-aşkar qəbul edirlər ki, güc beynəlxalq siyasətdə əhəmiyyət kəsb edir. Məsələn, Vendt (1999:13-14) qeyd edir ki, realizmin güc haqqında söylədikləri qədər, o da realistdir. O və digər konstruktivist nəzəriyyəçilər çox vaxt realistlərlə fikir ayrılığına düşürlər və bunun səbəbi belə bir təsəvvürdür ki, realist nəzəriyyə öz məğzində siyasətin "maddidən daha çox sosial bünövrə"yə (Wendt 1999:13-14) malik olduğunu görür. Bu ittihamın 3 hissəsi var: realist nəzəriyyə (1) diqqəti maddi imkanlara yönəldir; (2) insan təbiətini maddi olaraq təsvir edir; (3) empirizmi qabardır. Bu üç ittihamın hər biri digərindən fərqlidir və əgər onlardan biri var olarsa, o, realizm və konstruktivizm arasında uyğunsuzluğa işarə etmiş olar. Lakin diqqətlə öyrənildikdə onlardan heç biri əsaslı deyil.

Bu ittihamlardan birincisi, yəni gücün realist anlayışının maddi imkanlara meyil etdiyi artıq yuxarıda nəzərdən keçirilmişdir. Əlbəttə, özünü realistlər kimi təqdim edən araşdırmaçıların çoxunun güc ideyasını kəmiyyət ölçüləri dərəcəsinə kiçiltdikləri bir həqiqətdir. Lakin bu prosesin realist nəzəriyyəsinə məxsus olduğunu hesab etməyə heç bir səbəb yoxdur. Əslində, davranış və bununla da kəmiyyət dönəminin, ümumiyyətlə, beynəlxalq münasibətlərdə realist dönəmindən onilliklər sonra yer aldığı hesab olunur və bu da onu deməyə əsas verir ki, birinci ikinciyə xas ola bilməz (Bull 1972; Vasquez 1983; Holsti 1985). Əksər ilkin realist nəzəriyyəçilər bundan əlavə, açıq-aşkar belə bir arqument ilə çıxış ediblər ki, beynəlxalq münasibətlərdə gücün tam dərk edilməsində qeyri-maddi amillər mərkəzi mövqeyə sahibdir (məsələn, bax: Morgenthau 1948; Wolfers 1962; Carr 1964; Waltz 1979; Gilpin 1981; Strange 1987). Bundan əlavə, güc analizini aparanlar, onların bəziləri özlərini realistlər kimi təqdim edirlər, güc analizinin necə mürəkkəb və çoxtərəfli ola biləcəyini təsvir ediblər (məsələn, bax: Laswell and Kaplan 1950; Bachrach and Baratz 1962; Baldwin 1989; Hall 1997). Hətta hərbi məsələlərin araşdırılması davranışçı dönəmdən sonra çox vaxt diqqəti təlimlər kimi qeyri-maddi elementlərə yönəldən, özlərini

realistlər adlandıranlar tərəfindən aparıldı (məsələn, bax: Mearsheimer 1983: Posen 1984). Ona görə də bəzi realist araşdırmaçıların amansız maddi imkanların kəmiyyət ölçülərindən istifadə etməsi faktı elə şərh edilməməlidir ki, bu növ materializm realizmə xasdır.

İkinci ittiham bundan ibarətdir ki, realist qanunauyğunluq beynəlxalq siyasətdə aktorların davranışlarını idarə edən insan təbiəti və insan ehtiyacları haqqında müəyyən materialist təsəvvürlərin mövcudluğunu irəli sürür (Wendt 1999:30, 131-133). İnsan təbiətinin realist anlaşmasına şamil olunan ayrı-ayrı təsəvvürlər çox vaxt təhlükənin və qorxunun mövcudluğunu ehtiva edir (Waltz 1959; Wendt 1999). Realistlərin işə insan təbiəti haqqında müəyyən nəzəri düşüncələr ilə başlamalı olduqları bir həqiqətdir. Əslində, Vendtin (1999:131) müşahidə etdiyi kimi, bütün sosial nəzəriyyələr hətta həmin yerdə insan təbiəti kifayət qədər vəziyyətə müvafiq olsa da belə, insan təbiəti haqqında müəyyən nəzəri düşüncələr ilə başlamalıdır. İnsan təbiəti haqqında elə nəzəriyyələr mövcuddur ki, siyasi realizm ilə bir araya sığmır və bura o nəzəriyyələr də daxildir ki, insan təbiətinin vəziyyətə kifayət qədər uyğun olduğunu və nəticə etibarilə mükəmməlliyə qabil olduğunu irəli sürür. Lakin biz həmçinin insan təbiəti haqqında çoxsaylı nəzəriyyələr göstərə bilərik ki, həm realizm, həm də konstruktivizm ilə bir araya sığır və bura insanların fərqli olduğunu irəli sürən nəzəriyyələr də daxildir (Bu ədəbiyyatın ümumi müzakirəsi üçün bax: Sterling-Folker 2000). Realizm məntiqi bütün insanların təcavüzkar, yaxud şəxsi maraqlarını güdən olmasını tələb etmir, sadəcə, onların bəziləri belədir. Başqa sözlə, nəzəriyyə belə bir fikir ilə çıxış edir ki, bütün insanlar təcavüzkar və digər yönlü olmaya bilməzlər. Nə qədər ki bəzi insanlar güc toplamağa çalışacaqlar və heç bir əks qüvvə onları dayandırmayacaq, digər insanlar təhlükə ilə üz-üzə qalacaqlar. Bu məntiq, məsələn, Randal Şvelerin (1998) status-kvo və revizionist dövlətlər arasında müəyyən etdiyi fərqin mərkəzində durur. Tənqidçilər buna belə cavab verə bilərlər ki, belə xarakterizə edildikdə realist məntiq kifayət qədər genişdir və aydındır ki, bayağı olmalıdır. Bu tənqiddən aşağıda bəhs olunacaq.

Üçüncü ittiham bundan ibarətdir ki, siyasi realizm müxtəlif vaxtlarda "pozitivist" və "empirist"dir və nəticə etibarilə konstruktivist metodologiya ilə bir araya sığmır (məsələn, bax: müvafiq olaraq Pettman 2000 və Wendt 1999). Bu ittiham zahirən metodoloji kimi görünür, lakin bir sıra konstruktivist nəzəriyyəçilər son zamanlar onu ontoloji səviyyədə həyata keçirməyə çalışırlar. Bu tənqid "elmi" (Wendt 1999) və "tənqidi" (Patomäki and Wight 2000) realizmə istinadən həyata keçirilir ki, bu da elm fəlsəfəsində "siyasi" realizm ilə heç bir əlaqəsi olmayan anlayışdır. Sosial elmlərdə tətbiq olunan elmi realizmin mahiyyəti belə bir ideyadan

ibarətdir ki, bizim müşahidələrimizdən kənar real sosial strukturlar mövcuddur. Sözün qısası, əslində, "elə bir yer" mövcuddur (bax: Hellman 1983; Leplin 1984; Bhaskar 1986; Archer və s. 1998). Bu görüntü yalnız müşahidə ilə görə bildiyimiz məntiqi pozitivist-empirist mənzərə (məsələn, Ayer 1959; Lapid 1989) və bütün sosial biliyin nizamsız yaradılması səbəbindən bizim haqqında məlumatlı olmamızdan kənar heç bir sosial strukturun mövcud ola bilmədiyinə dair postmodern-dekonstruktiv mənzərə (məsələn, Core 1994) ilə ziddiyyət təşkil edir. Həm məntiqi pozitivist, həm də dekonstruktiv mövqelər belə bir ehtimalı bölüşür ki, müşahidəçinin gözündən kənar heç bir sosial fenomen biliyi mövcud ola bilməz, lakin elmi realistlərin mövqeyi ondan ibarətdir ki, müşahidəçinin gözündən kənar sosial fenomen mövcud ola bilər və hətta birbaşa müşahidə edilmədikdə belə dəlil kimi nümunə gətirilə bilər (Potomäki and Wight 2000). Siyasi realizm antologiyasının konstruktiv tənqidi bu əks-elmi realist mövqelər ilə müşayiət olunur.

Axırıncı ittiham zaman-zaman formalaşmışdır. Pozitivist-postpozitivist müzakirədə pozitivistlər (məsələn, Ashley and Walker 1990a) çox vaxt realizmi pozitivist kimi və nəticədə onun beynəlxalq münasibətlər haqqında düşüncələrin yeni tendensiyaları ilə uyğunlaşdığını rədd edirlər. Lakin konstruktiv nöqteyi-nəzərdən belə bir münasibət problemlidir, çünki pozitivizmin realist düşüncəni ehtiva etmək üçün kifayət qədər geniş olan təyinatı (məsələn, Walt 1987, Snyder 1988 olduğu kimi) həm də müasir konstruktivist düşüncəni əhatə etmək üçün kifayət qədər genişdir. Realizmin bir çox tənqidləri həm də onu neorealizm ilə qarışdırır ki, Uoltsun (1979) əsərinin keçən əsrin son iki onilliyində sahib olduğu şöhrəti nəzərə alanda bu, anlaşılandır, lakin nəzərə alanda ki, bu əsərin özü klassik realizmin açıq-aşkar tənqididir, bu, problematikdir.[1]

Heikki Patomeki və Kolin Vayt belə bir fikir ilə çıxış edirlər ki, siyasi realizm həm məntiqi pozitivist mövqeyə, həm də dekonstruktivist mövqeyə çox yaxındır, bunda hamı biliyə elmi realizm ilə bir araya sığmayan bir antroposentrik baxışı bölüşür və əsaslandırır ki, o, konstruktivizmin əsasını təşkil etməlidir. Onlar (Patomäki and Wight 2000:219-223) bu antroposentrizmi XX əsrin ortalarının ilkin realistləri vasitəsilə müəyyən edirlər, Yum və Kantın XVIII əsrdə yazdıqları ontoloji yazılara müraciət edirlər.[2] Belə etməklə onlar siyasi realizmin ABŞ-da Morgentau

[1] Realizmin neorealizm tərəfindən təklif olunan "rasionallaşma"sı haqqında bax: Spegele (1996), o, realizm və neorealizm əvəzinə "sağlam düşüncə" və "güzəştli" realizm haqqında danışır.

[2] Bu genealogiya mübahisəlidir: bəzi yerlərdə belə görünür ki, Morgentau onların onu ittiham etdikləri fenomenal- noumenal fərqləndirməni etirazsız bölüşməkdən tamamilə imtina edir (məsələn, bax: Morgenthau 1946:170-171).

tərəfindən inkişaf etdirilməsi və beynəlxalq münasibətlərə daxil edilməsini həm Yumun empirisizmi, həm də Nitsşenin postmodernizmi ilə birləşdirirlər. Bu genealogiyanın hədəfi realist düşüncədə empirik olaraq müşahidə oluna bilən ilə mənəvi düşüncə arasında kəskin bölgünü postulat kimi qəbul etməkdir. O, müəyyən mənada siyasi realizmin pozitivist olduğuna dair ittihamı yenidən bəyan etməyin və dar mənada başa düşülən pozitivizmin elmi realizm ilə bir araya sığmadığı fikrini irəli sürməyin yolunu göstərir.

Morgentaunun siyasət elminin "elmi" haqqında yazdıqları, əslində, ilk baxışda çaşdırıcıdır. *"Elmli insan və güc siyasəti" ("Scientific Man Versus Power Politics")* kitabında (Morgenthau 1946) o belə bir fikir ilə çıxış edir ki, siyasətin problemlərini ağılın tətbiqi ilə həll edəcək "elmli insan" həmin problemlərə uğurla yanaşmaq iqtidarında deyil. Əksinə, *"Dövlətlər arasında siyasət" ("Politics Among Nations")* Morgentau (1985:5) siyasi realizm haqqında "siyasət qanunlarının obyektivliyinə ... inam" və həmin qanunları "əks etdirən rasional nəzəriyyənin işlənib-hazırlanması imkanı" kimi danışır. Siyasi realizmin bəzi konstruktivist tənqidçiləri mühakimə üçün belə bir əsas götürürlər ki, həmin iki əsərin yazılmaları arasındakı dövrdə Morgentaunun düşüncəsində radikal dəyişiklik baş verib. Məsələn, Potomeki və Vayt (2000:222) birinci əsəri dünya haqqında elmi biliyə nail olacağımızı skeptizmin bir ifadəsi kimi şərh edirlər və bu şərh Morgentaunun *"Dövlətlər arasında siyasət" ("Politics Among Nations")* kitabına uyğun gəlmir.

Lakin belə bir iddia ilə çıxış etmək, yuxarıda müzakirə edildiyi kimi, xəbərdaredici rasionallığı praktiki rasionallıq ilə qarışdırmaqdır. Morgentaunun (1946:122-131) *"Elmli insan" ("Scientific Man")* kitabında qarşı çıxdığı, dünyanı rasional olaraq başa düşmək əvəzinə, dünyanı rasional bir yer kimi dərk etmək cəhdidir. Onun (Morgenthau 1948:3-5) *"Dövlətlər arasında siyasət" ("Politics Among Nations")* kitabında haqqında mübahisə etdiyi isə dünya özü rasional bir yer olmadığı halda onu rasional olaraq dərk etməyə edilən cəhddə bir problemin olmasıdır. Başqa sözlə, hər iki kitab eyni fikri irəli sürür, lakin eyni nöqtəyə müxtəlif yollarla gəlir. Bu şərh klassik realizm və rasional seçim nəzəriyyəsi, yaxud Ragi adlandırdığı kimi, neoutilitarizm arasında uyğunsuzluğu göstərir.[1] Lakin o həmçinin klassik realizm ilə neoklas-

[1] Bu müşahidə realizmi rasionalist baxımdan yenidən təyin etmək üçün, məsələn, Cefri Leqro və Endrü Moravsik (1999) bəzi son cəhdləri nəzərdə tutur. Belə cəhdlər bu esse kontekstində paradiqmalararası mübahisələrə girişdən daha çox, rasionalist-konstruktivist mübahisəyə daxil olmalar kimi görünə bilər. Nəticədə klassik realizmi rasional seçimlər baxımından yenidən təyin etmək müharibədən sonrakı beynəlxalq münasibətlərə ənənəvi yanaşmanı rasional seçim ilə birləşdirmə kimi nəzərdən keçirilə bilər və bununla da rasionalist yanaşmaların marginalizasiyasını artırar.

sik, yaxud zərif konstruktivizm arasında uzlaşma təklif edir. Morgentaunun (bax: 1946:130) işlərində "elmli insan"a antipatiya, ideyaların vacibliyinin qəbul edilməsi və tarixi kontekstin əhəmiyyət kəsb etdiyinə dair israrlılıq neoklassik və postmodern olmasından asılı olmayaraq, konstruktivist qneseologiyanın fikrinə tamamilə uyğun gəlir. Klassik realizmin reallığı subyektiv fikirdən ayrı qəbul edən, lakin nəticə etibarilə, məsələn, əxlaq normaları kimi müşahidə oluna bilməyən məfhumların rolunu nəzərdən qaçırmayan antologiyası isə, çətin ki, konstruktivist tənqidçilərin bəzən realizm ilə birləşdirdiyi amansız materializm forması olsun.

Bütün bunlar bizi konstruktivizm və siyasi realizm arasında nəzərdə tutulan uyğunsuzluqlar ilə baş-başa buraxır və burada sonuncu beynəlxalq münasibətlərin beynəlxalq sahədə güc münasibətlərinə yönəlik öyrənilməsi kimi müəyyən edilir. Şübhəsiz ki, bir çox oxucular məsələ ilə bu baxımdan maraqlanmağa başlayıblar, o zaman necə olacaq? Anlayışı kimsəni istisna edə bilməyəcək qədər geniş təyin etməklə realizm konstruktivizm ilə uyğunlaşdırılıb? Bu suala cavab vermək üçün biz bu sahədə mövcud olan terminoloji qarışıqlıq haqqında əvvəlki araşdırmamıza qayıdırıq. Yada salaq ki, Vendt (1999) *realizm* və *idealizm* terminlərini iki müxtəlif üsulla istifadə edir. Siyasi və elmi realizmlər arasındakı fərqi həmin bölmənin mövzusu olub. İdealizmlər – ideallara və ideyalara yönəlik – arasındakı fərqi müəyyən etmək isə növbəti bölmənin mövzusudur.

İdeyalar, utopiyalar və liberallar

"Karrın kəskin tənqidindən etibarən "idealist" termini beynəlxalq münasibətlərdə, əsasən, sadəlövhlüyün epiteti funksiyasını yerinə yetirmişdir". (Wendt 1999:33). Vendt bu nəticəyə sosial siyasət nəzəriyyəsi kimi idealizm ilə beynəlxalq münasibətlər nəzəriyyəsi İdealizm (o, sözün ilk hərfini böyük hərflə yazır) arasında fərqi müəyyən etdikdən sonra gəlir. Birinci idealizm ideyaların əhəmiyyətinə nəzər yetirən idealizmi nəzərdə tutduğu halda, beynəlxalq münasibətlərin realizm əvəzinə ideallara əsaslanan nəzəriyyəsini nəzərdə tutur. Maraqlıdır ki, Karr (1964) *"İyirmi ilin böhranı" ("The Twenty Years Crisis")* kitabında *idealizm* terminindən ümumiyyətlə istifadə etmir; bunun əvəzinə o, utopizmi müzakirə edir. Eynilə Moravsik də (1997:514) beynəlxalq münasibətlərdə liberal nəzəriyyəni yenidən təyin edərkən "liberalizmin bir ideologiya kimi tarixi rolu"ndan açıq şəkildə uzaq durmağa çalışır. Liberalizm Morgentaunun (1946) *"Elmli adam və güc siyasəti" ("Scientific Man Versus Power Politics")* əsərində realizmin arxa planıdır. Həm Vendt (1999:39), həm də Moravsik (1997:514) özlərinə müvafiq olaraq yapışdırdıqları idealist və liberal yarlıqlarını normativ birləşmələrdən azad etməklə bağlı ümumi marağı bölüşürlər və bununla "elmi" və ehtimal ki, ona görə də dəyərləri olmayan sosial elm yaratmağa cəhd edirlər.

Bu alimlərin hər ikisi, əslində, *idealizm* və *liberalizm* terminlərinə bu anlayışların sosial elmə normativ yanaşmanı – bir ideologiyanı əks etdirdiyinə dair ittihamdan (baxmayaraq ki, müxtəlif üsullarla) bəraət qazandırmağa çalışır. Bu bölmədə məqsəd beynəlxalq münasibətlər həm Vendt, həm də Moravsikin uzaq durmağa cəhd etdikləri normativ yanaşmaya bəraət qazandırmaqdır. Realizmə ritorik fon kimi Karr (1964) "utopizm"dən, Morgentau isə (1946) "liberalizm" və "elmli adam"dan istifadə edirdi. Baxmayaraq ki, Karr və Morgentaunun istifadə etdikləri terminlər tamamilə müxtəlif görünür, hər ikisi də, əslində, çox vaxt Vudro Vilson ənənəsində siyasət alimləri ilə əlaqələndirilən liberal idealizm və elmi humanizm formasını nəzərdə tutur (bax: Kegley 1993; Schmidt 1998). Bu düşüncə məktəbinin mahiyyəti ondan ibarətdir ki, insanlar məntiqli və ağlabatan (ən azından təxmin oluna bilən) seçimlərə malikdir və insanlar onları rasional şəkildə həyata keçirirlər.[1] Nəticədə insanların daxilində öz seçimlərini rasional şəkildə, digərlərinin fəaliyyətinə mümkün olduğu qədər az maneə törətmək üsulu ilə həyata keçirdikləri yaxşı təşkil olunmuş siyasi institutlar güc siyasətinin istənilən zərurətini aradan qaldırmaq üçün kifayət dərəcədə insanların ağlına əsaslanacaq. Başqa sözlə, liberal idealist üçün düzgün siyasi struktur, əslində, İmmanuel Kantın (1957) sözləri ilə desək, əbədi sülhü təmin edə bilər.

Klassik realist cavab bundan ibarətdir ki, heç bir qəti həll yolu mövcud deyil. "Sülh zaman və məkan şərtlərindən asılıdır və müxtəlif üsullarla və ayrı-ayrı dövlətlərin gündəlik münasibətlərinin müxtəlif aktuallıq şərtlərinə müvafiq olaraq bərqərar edilə və qorunub saxlana bilər. Bu şəkildə beynəlxalq sülh problemi yalnız filosof üçün mövcuddur" (Morgenthau 1946:217). Bu o deməkdir ki, düzgün qurulmuş beynəlxalq institutlar ayrı-ayrı zamanlarda və məkanlarda ayrı-ayrı problemlər ilə uğurla məşğul ola bilər, lakin bu problem, zaman və məkan məsələsi tarixi baxımdan unikaldır; mütləqdir ki, başqa vaxtlarda və başqa zamanlarda başqa problemlər olacaq. Əksər olmasa da, bir çox beynəlxalq siyasi problemlərin ən azından bəzi bölüşdürücü şaxələrə malik olması nəzərə alınarsa, yeni problemlərin, yaxud müxtəlif zaman və məkanlardakı problemlərin həllində nisbi qazanclar və ya üstün tutulan bölgülər, güman

[1] Bu düşüncə məktəbi ilə beynəlxalq münasibətlərin öyrənilməsində çağdaş rasionalist yanaşmalar arasında əsas fərq ondan ibarətdir ki, sonuncuda ağılla hərəkət etmə ehtimalı gündəmdən çıxır. Hesab olunur ki, insanlar instrumental olaraq rasionaldırlar, lakin mütləq şəkildə hesab olunmur ki, onlar digərlərinin hüquqlarına və rifahına hörmət edirlər, belə etdikdə onlar əyani surətdə instrumental olaraq rasional olmazlar.

ki, həmin qazanclara iddialarını ən yaxşı ortaya qoya bilən, yəni daha böyük gücə malik olan aktorların maraqlarını əks etdirəcək. Belə olduqda siyasi institutların strukturunun necə yaxşı təşkil olunmasından asılı olmayaraq, güc hər zaman beynəlxalq siyasətin yekunlarının son arbitri olacaq.

Beləliklə, belə halda beynəlxalq münasibətlərdə gücdən başqa, əhəmiyyət kəsb edən heç nə yoxdur? Tam əksinə, Morgentauya (1946:177-178) görə, insanlar təbiət etibarilə əxlaqlı və həmçinin siyasi heyvandırlar; bütün siyasi fəaliyyətlər əxlaqi əhəmiyyət daşıyır. Karra (1964:235) görə, "hər hansı dünya düzənində əxlaq elementini inkar edən forma realizmin qeyri-real formasıdır". Klassik realizmdə gücün qəbul edilmədiyi vəziyyətdə mövcud olan əxlaq nəzəriyyəsi əbəsdir, çünki əxlaqın olmadığı yerdə gücdən istifadə mənasızdır. Sonuncu iki səbəb ilə əlaqəlidir və onlardan biri praktiki, biri isə fəlsəfidir. Praktiki səbəb ondan ibarətdir ki, insanlar mənəvi varlıqlar olduğundan onlar mənəviyyat olmayan yerdə gücü qəbul etmirlər. Siyasi hakimiyyətin subyektləri bizim burada xoş niyyətlərlə istifadə olunan güc ilə bəd niyyətlərlə istifadə olunan güc arasında müəyyən etməyə çalışdığımız fərqi qəbul edəcəklər və birinciyə dəstək verəcək, ikinciyə qarşı çıxacaqlar (məsələn, bax: Morgenthau 1946:176-178 və Fukidid haqqında gedən müzakirə: Bagby: 1994). Fəlsəfi səbəb isə ondan ibarətdir ki, güc öz naminə əhəmiyyətsizdir; onunla nə etməli olduğun haqqında hər hansı təsəvvürə malik olmadan onunla heç bir yerə gedib çıxa bilmirsən. Əslində, "utopist üçün xarakterik olan nöqsan sadəlövh olması, realist üçün isə sonsuz olmasıdır" (Carr 1964:12). Beləliklə, klassik realizm beynəlxalq siyasət sənətini bir tərəfdə güc tələbləri və digər tərəfdə əxlaq normaları arasında təcrübi tarazlama – güc və mənəviyyat arasında dialektika kimi nəzərdən keçirir (bax: Kubalkova 1998).

Qısaca desək, realizm başdan etibarən idealizmin əvəzedicisi kimi *deyil*, zəruri düzəlişi kimi nəzərdən keçirilib. Klassik realist üçün idealizm yalnız hərəkətlər haqqında məlumat vermək və beynəlxalq siyasətin yürüdülməsində maraqlarımızı həyata keçirmək üçün lazımdır, lakin realizm hər zaman dövlətlər arasında münasibətlərin mühüm hissəsi olaraq qalacaq. Burada realistlər və "utopistlər", yaxud "elmli adam" arasındakı fərq özünü göstərir. İkincilər sonda güc üzərində qurulmayan bir dünya yarada biləcəyimizə inandıqları halda, realistlər hesab edirlər ki, biz bunu bacarmayacağıq. Realizmə görə, beynəlxalq institutlar nə qədər yaxşı təşkil olunsa da, milli maraqlarımız nə qədər yaxşı uyğunlaşsa da və ideyalarımız nə qədər xoşniyyətli olsa da, güc yekun nəticələrin son arbitri (fikir verin, son mənbəyi deyil) olaraq qalacaq. Çünki nə insan təbiəti, nə də insanın yaratdığı təsisatlar nəticə etibarilə mükəmməlliyə qadir deyil, biz hər

zaman həm sistemi öz məqsədləri ilə sıradan çıxaranları müəyyən etməyə və onlarla səmərəli şəkildə rəftar etməyə cəhd göstərməkdə davam etməliyik.

Yaxşı, bu şəkildə bəyan edilən realist mühakimə ilə həqiqətən razılaşmayan kimsə var? "Beynəlxalq siyasətin təbiətinin güc münasibətləri ilə müəyyən olunduğuna dair səsləndirilən fikir, bir qayda olaraq, realizmin təyinedici xüsusiyyətlərindən biri kimi sadalanır. Lakin bu *yalnız* realist iddia ola bilməz, belə olduqda beynəlxalq siyasətin hər araşdırmaçısı realist olar". (Wendt 1999:96-97). Bu fikri ilə Vendtin realizmin bu essedə istifadə olunan geniş təyininin əhəmiyyətini hamıdan qabaq dərk etdiyi görünür. Lakin belə bir fikir irəli sürülə bilər ki, Vendtin gücün mərkəziliyini qəbul edən kimi müəyyən etdiyi qrupların çox üzvləri, neoliberallar və onun özü də daxil olmaqla sonda bunu qəbul etmirlər. Məsələn, Moravsik (1997:531) liberal nəzəriyyəyə elmi yanaşmaların tərtib etdiyi siyahısına demokratik sülh ideyasının tərəfdarlarını daxil edir.[1] Demokratik sülhün mövcudluğunun məntiqi nəticəsi budur ki, əgər bütün ölkələr demokratik olsa, heç bir müharibə olmaz. Başqa sözlə, düzgün qurulmuş daxili siyasi strukturların universallaşması hərbi gücün doğurduğu təhlükəni aradan qaldıracaq. Burada müəyyən edilən terminlər baxımından gəlinən idealist nəticə realizm ilə bir araya sığmır. Neoliberal institusionalistlər belə bir fikir ilə çıxış edirlər ki, lazımi şəkildə təşkil edilmiş beynəlxalq təsisatların mövcudluğu şəraitində ayrı-ayrı sahələrdə beynəlxalq əməkdaşlıq baş tuta bilər (bax: Keohane and Nye 1977; Keohane 1984; Haas, Keohane, and Levy 1993; Keohane and Martin 1995).[2] Bu təsisatlar yerində olduqda güc artıq əhəmiyyət kəsb etmir. Beləliklə, ən azından ayrı-ayrı sahələrə münasibətdə neoliberal institusionalistlər idealistdirlər; onlar iddia edirlər ki, təsisatların təkmilləşməsi dövlətin gücünə olan ehtiyacı aradan qaldıra bilər.

Deyilməli olan bundan ibarətdir ki, hələ də idealistlər mövcuddur; hələ də köhnə normativ və ya ideoloji təyinata görə liberallar mövcuddur. Beynəlxalq münasibətlərin hər araşdırmaçısı realist deyil. Bəs konstruktivistlər kimlərdir? Əvvəlki paraqrafda Vendtə istinadən söylənmiş fikirlərə baxmayaraq, belə bir arqument irəli sürmək olar ki, ABŞ-da çalışan hazırkı konstruktivist nəzəriyyəçilərin əksəriyyəti, əslində, liberal

[1] O bu variantı daha geniş şəkildə "respublikaçı liberalizm" adlandırır. Respublikaçı liberalizmin sülhə gedən yol kimi idealist təbiəti haqqında daha ümumi yanaşma üçün bax: Doyle (1983a, 1983b) və Kant (1957).

[2] Bu alimlərdən heç biri universal idealist iddia irəli sürmür; lakin onlar beynəlxalq təsisatların əməkdaşlıq təsirləri üçün məhdud və böyüyən bir çərçivəyə iddia edirlər. Bu düşüncə məktəbinin son zamanlar öz yarlığının "neoliberal" hissəsini itirdiyi və çox vaxt, sadəcə, "institusionalistlər" kimi müraciət olunduğu görünür.

idealistlərdir. Bu arqumenti iki yolla müdafiə etmək olar: makroperspektiv və mikroperspektiv adlandırıla bilən üsullarla. Birinci konstruktivizmin ümumi yanaşma kimi xarakterizə edildiyi və edilmiş olduğu üsulu nəzərdən keçirir; ikincisi isə xüsusilə aparıcı konstruktivist nəzəriyyəçilərin işinə nəzər salır.

Makroperspektivdən – konstruktivizmə dair həm onun tərəfdarları, həm də tənqidçiləri tərəfindən icmallardan istifadə onu istər birbaşa, istərsə də dolayı yolla liberal-idealist kimi xarakterizə etməyə meyil edir. Bundan əlavə, belə xarakterizələr, ümumiyyətlə, əgər mübahisəli olarsa da, nadir hallarda mübahisəli olar. Məsələn, beynəlxalq münasibətlərdə normaların son zamanlarda aparılan icmalı (Finnemore and Sikkink 1998:916) normaların çağdaş tədqiqini bir daha açıq şəkildə Karrın utopizmindən ayırır, lakin belə bir arqument irəli sürür ki, normaların tədqiqinin yenidən başlamasının əsas hissəsinin "dəqiq məqsədi "gərək olsun"un "olur"a necə çevrildiyini göstərməkdir". Karrın utopizmindən uzaqlaşmaq iddiası bu günün araşdırmaçıları tərəfindən tətbiq olunan empirik tədqiqatın təkmilləşmiş standartlarına əsaslanır və bununla konstruktivist fəaliyyəti siyasi nəzəriyyə çalışmasından daha çox empirik dəlildən sistemli istifadə çalışmasına çevirir (Finnemore and Sikkink 1998:90). Mahiyyəti etibarilə Finmor və Sikinkin mübahisə etdikləri budur ki, Karrın utopiyaları dünyaya baxışında deyil, metodologiyasında uğursuz olub. Onlar aydın şəkildə nəzərdə tuturlar ki, beynəlxalq münasibətlər nəzəriyyəsində konstruktivizmin əyarları olan norma və ideyaların öyrənilməsi bu iki fenomenin müstəqil şəkildə dünyanı daha yaxşı bir yerə çevirməsi yollarını tədqiq etməyi əhatə edir. Konstruktivizmin onun yaradıcılarından biri olan Nikolas Onuf (2001) tərəfindən son zamanlar aparılmış digər bir icmalı onu açıq şəkildə siyasi baxımdan liberal institusionalizm ilə eyniləşdirir (həmçinin bax: Sterling-Folker 2000).

Konstruktivizmin həm neorealist, həm də posmodernist istiqamətlərdən tənqidləri konstruktivizmi həmçinin gücün beynəlxalq münasibətlərdəki rolu haqqında kifayət qədər məlumatlı olmayan liberal idealizm ilə əlaqələndirir. Məsələn, postmodernizm və feminizm arasında əlaqənin son zamanlar aparılan icmalında Bircit Loxer və Elizabet Prüql (2001) konstruktivizmi "dəyişən" xarakterlərinə görə təqdir edir, lakin beynəlxalq siyasətin təşkilində gücün mərkəzi rolunu qəbul etmədiyinə görə tənqid edir. Bu müşahidə daha çox idealların təklikdə, gücsüz dünyanı dəyişmək bacarığına olduqca çox inanan liberal idealizmin klassik realist tənqidi kimi səslənir.

Konstruktivizmin neorealist tənqidi də eyni şəkildə diqqətə layiqdir. Məsələn, "Beynəlxalq təsisatların yanlış vədləri" məqaləsində Con Merşaymer (1994/1995:37-47) tənqidçi nəzəriyyəni xarakterizə edir və o, burada diqqəti ideyaların və təlimin metodlarının

yaradılmasında və yayılmasında gücün rolunu nəzərə almadan dünya siyasətinin transformasiyasına yönəldərkən bura konstruktivizmi də daxil edir. Merşaymerin bu məktubu həmin jurnalın sonrakı nəşrlərində ona cavablar silsiləsinin yer alması ilə nəticələndi; onlardan ikisinin müəllifi konstruktivistlər kimi təqdim edirdi. Birində Ragi (1995) ənənəvi liberal perspektivdən belə bir arqument ilə çıxış edir ki, güc siyasətinə dair mülahizələrdən kənar, düzgün təşkil edilmiş beynəlxalq institutlar, həqiqətən, dünyanı daha yaxşı yerə çevirir. Digər bir məqalədə Vendt (1995) Merşaymer tərəfindən konstruktivizmin irəli sürülmüş mübahisəli surətini korrektə etdi, lakin bunu edərkən o, utopiyaçı damğasının vurulmağın artıq şahidi olduğumuz həssaslığını göstərdi.

Bu isə bizi konstruktivist nəzəriyyəçilərin, əslində, əsasən, liberal idealistlər olduğunu göstərməyə dair mikroperspektiv yanaşmaya gətirib çıxarır. Konstruktivist nəzəriyyə sahəsində ədəbiyyatın burada bütünlüklə icmalı, əlbəttə ki, mümkün deyil. Bunun əvəzinə burada diqqət liberal idealizmə doğru özlərini çağdaş konstruktivistlər kimi təqdim edənlərin işindəki iki məxsusi tendensiyaya yönəldiləcək.[1] Birinci tendensiyaya liberal idealizm ilə nisbətən qeyri-tənqidi üsullarla uyğun gələn sahələrin öyrənilməsi üçün seçim daxildir. Ikinci tendensiya liberal-idealist təmayülün nəzəriyyəçilərinin fikirlərindən fəlsəfi əsaslar kimi istifadə etməkdir.

Biz, əlbəttə ki, normativ təmayülü məqsədyönlü şəkildə bəzi tərəfdarların verdikləri böyük əhəmiyyətə əsaslanan metodoloji yanaşmaya aid edə bilmərik. Bununla belə, biz müəyyən növ məsələlərə özünütənqid formasında olmayan yanaşmanı qeyd edə bilərik. Bir çox tanınmış aparıcı konstruktivistlərin diqqəti insan hüquqları (Sikkink 1993; Klotz 1995; Keck and Sikkink 1998; Risse, Ropp, and Sikkink 1999; Burgerman 2001), təhlükəsizlik birlikləri (Adler and Barnett 1998), yaxud multilateralizmə (Ruggie 1993) yönəltməsi faktı onları liberal idealistlərə çevirmir. Onları buna çevirən daha çox onların belə məsələlərə diqqət yönəltməsi üsuludur. Bu məsələlərdən birincisi vasitəsilə izah etsək, belə anlaşılır ki[2], insan hüquqları haqqında yazan konstruktivistlər dövlətlərin davranışını yaxşıya doğru dəyişmək üçün, adətən, beynəlxalq sivil cəmiyyətin roluna nəzər salırlar. Bu iş tətbiqi

[1] Bu müzakirədəki məqsəd bura daxil edilənlərin konstruktivist nəzəriyyə üçün bura daxil edilməyənlərdən daha əhəmiyyətli və ya mərkəzi olduğunu göstərmək deyil – burada seçim bu mənada sistemli aparılmamışdır.

[2] Sikkink (1993) prinsipial maraq qruplarından, Kek və Sikkink (1998) müdafiə qruplarından, Burgermen isə (2001), sadəcə, aktivistlərdən bəhs edir. Onların heç biri, güman ki, tədqiq etdiklərinin qlobal sivil cəmiyyətin elementi kimi xarakterizə edilməsinə etiraz etməz. Burgermen tənqidi olmayan formada həm aktivist birliyi, həm də multilateralizmdən bəhs edir.

konstruktivizmdir – sahələrarası normalar marağın təyinatlarına təsir göstərir. Lakin bu həmçinin liberal-idealistdir, o mənada ki, bu normalar geniş şəkildə qeyri-tənqidi formada faydalı normalar kimi bu normaların yayılmasına cəlb edilən beynəlxalq sivil cəmiyyətin elementləri olaraq qəbul olunur.

Biz eynilə normativ təmayülü məqsədyönlü şəkildə bəzi tərəfdarları cəlb edən mövcud nəzəri müddəalara əsaslanan metodoloji yanaşmaya aid edə bilmərik. Lakin ABŞ-da konstruktivistlərin diqqətini siyasi nəzəriyyəçilərin işləri cəlb etməsi baxımından (onları metodoloji və qneseoloji baxımdan cəlb edən sosial nəzəriyyəçilərdən fərqli olaraq) bu nəzəriyyəçilər çox vaxt liberal-idealist meyilə malik olurlar. Bariz nümunə Vendtdir. O, beynəlxalq münasibətlərdə gücün rolunu və bununla da burada müəyyən edilmiş əsas realist müddəanı qəbul etdiyini iddia edir. Lakin o həmçinin Kanta istinadən belə bir fikir ilə çıxış edir ki, beynəlxalq anarxiyanın xarici dinamikası mütərəqqidir. Başqa sözlə, daxildən vurulan zərbənin olmadığı şəraitdə anarxiya mədəniyyəti Hobbsun düşmənlər dünyasından Lokkun rəqabət dünyasına və sonda Kantın dostlar dünyasına tərəqqi edəcək (Wendt 1999:308-312). Kantın dostun "rol münasibəti" (Wendt 1999:309) haqqında fikirlərinə gəlib çatdıqda beynəlxalq siyasətin tənəzzülə uğradığı ehtimal olunmur. Anarxiyanın sosial quruluşunun dəyişdirilməsi bununla əlaqədar şəkildə qonşularımızın düşmənə və ya rəqibə çevriləcəyi haqqında narahatlığımızı da aradan qaldıra bilər.

Digər nümunə Yürgen Habermasın işində əks olunan konstruktivist araşdırmadır (məsələn, Linklater 1990, 1998; Lynch 1999; Risse 2000). Habermas ünsiyyətli rasionallıq kimi ideyalardan istifadə edərək, belə bir fikir ilə çıxış edir ki, ünsiyyətli fəaliyyət və yaxşı təşkil edilmiş ictimai sfera xilaskar qüvvə ola bilər. Onu, adətən, tənqidçi nəzəriyyəçi kimi təqdim edirlər, lakin müəyyən baxımlardan o, liberal idealistdir. O mənada idealist ki, o, siyasi inkişafın və siyasi baxımdan düzgün yaşamın nədən ibarət olduğuna dair aydın təsəvvürə malik idi və o baxımdan liberal ki, siyasi baxımdan düzgün yaşam haqqında bu təsəvvür fərdi özünü ifadə və rasionallıq formasına (instrumental rasionallığa olmasa da) əsaslanırdı. Habermasın nəzəriyyəsində əks olunan konstruktivist araşdırma sosial nəzəriyyəni (ictimai sferalar əhəmiyyət kəsb edir) normativ nəzəriyyədən (ictimai sferalar faydalıdır) asanlıqla ayıra bilmir.

Əminlik üçün qeyd edək ki, bu tendensiyalardan heç biri – ayrı-ayrı sahələrin seçilməsi, yaxud liberal-idealist layihələndirməyə açıq olan fəlsəfi meyarlara arxalanmaq – universal deyil. Məsələn, Rodni Bryus Hol (1997) legitimlik haqqında açıq şəkildə güc kimi bəhs edir; Marta Finmor (1996) liberal nəzəriyyəni ideoloji öhdəliklərinə görə tənqid edir. Ola bilsin, daha

əhəmiyyətli olan budur ki, yuxarıda müzakirə edilən konstruktivistlərin hamısı ABŞ-da yaşayır; yəqin ki, liberal-idealist meyli daha geniş şəkildə konstruktivizmə deyil, yalnız ABŞ-dakı konstruktivizmə şamil etmək həm daha ədalətli, həm də daha dəqiq olar. Konstruktivist nəzəriyyənin ABŞ-da yaşamayan alimlər tərəfindən təhlilləri üçün bax: Ralf Petman (2000) və Karen Firk və Knud Erik Yorgensen (2001). ABŞ-ın konstruktivizmi və liberal idealizm arasında əlaqənin özü realist konstruktivizmin daha yaxşı araşdıra biləcəyi bir işdir.

Realist konstruktivizm

Bu müzakirə bizi belə bir müşahidə ilə baş-başa buraxır ki, konstruktivizm beynəlxalq münasibətlərin öyrənilməsində bir metodologiya kimi idealist olmağa ehtiyac duymur, lakin ABŞ-ın təcrübəsində o, liberal-idealist olmağa meyil edir. Belə bir fikir heç bir halda konstruktivizmin, yaxud liberal idealizmin əhəmiyyətinin azaldılması demək deyil. Klassik realistlər kifayət qədər açıq şəkildə belə bir fikir irəli sürürdülər ki, mənəvi ideallar beynəlxalq siyasət təcrübəsinin ayrılmaz və zəruri parçasıdır və əxlaq normalarının, utopik təsəvvürün olmadığı yerdə siyasi realizm həm nəticəsiz, həm də mənasızdır. Belə olduqda realist konstruktivizm öz xülasəsi kimi özünü dərk edən bir idealist konstruktivizmə ehtiyac duyaraq və idealların, eləcə də ideyaların tədqiqinin beynəlxalq siyasətin tam anlaşılmasında ayrılmaz olduğunu iddia edərək, idealizmə bəraət qazandırmağa kömək edir. Konstruktivizmin ilkin başlanğıc nöqtəsi klassik realizmdən daha çox, struktur realizmin "struktur" hissəsinin tənqidi olmuşdur; ikinci mənəvi idealları birləşdirməyə birincinin təqdim etdiyindən daha kiçik çərçivə təqdim edir. Klassik realist arqument bundan ibarətdir ki, hər hansı bir təsirə malik olmaq üçün istənilən mənəvi ideallar siyasəti güc siyasəti ilə dəstəklənməlidir.

Bu arqumentin xülasəsi belə bir müşahidədən ibarətdir ki, "güc və əxlaq normaları arasında kompromis"ə (Karr 1964:210) nəzər yetirmədən biz siyasi dəyişiklik fenomeninə uğurla nəzər sala bilmərik. Maraqlıdır ki, dəyişikliyi izah edə bilməmək neorealizmə, xüsusilə Uoltsun (1979) təqdim etdiyi neorealizmə ünvanlanan standart ittihamlardan biridir (məsələn, Ruggie 1983b, Walker 1987). Bu mənada Uolts həm Karr, həm də Morgentau üçün arxa planı təmin edən vilsonçu idealistlərə cavab vermək üçün çıxış nöqtəsinə qayıdıb. Uoltsun gücün strukturu haqqında nəzəriyyəsi əxlaq normaları üçün çərçivə olmadan, əxlaq normalarının strukturu nəzəriyyəçilərin güc olmadan sabitləşdiyi formada sabitləşib. Nə realizm, nə də idealizm təklikdə siyasi dəyişikliyi izah etmək iqtidarındadır, yalnız onlar arasında qarşılıqlı əlaqə əxlaq normalarının universaldan daha çox kontekstual olduğu haqqında fikrin

subyektidir.

Ona görə də konstruktivist metodologiya beynəlxalq siyasətin fəaliyyətini işıqlandıra biləcəyi qədər həm idealist konstruktivizm, həm də realist konstruktivizm – onlar bir-birindən fərqlidir, lakin bir-biri ilə dialektik münasibətdədir – beynəlxalq sistemdəki dəyişikliyi izah etməlidir. İdealist konstruktivizm idealları öyrənməkdən uzaq durmağa edilən bir cəhd ilə yalnız ideyaları öyrənmək iddiasına istənilən anlaşılan ehtiyacdan azad olar. Realist konstruktivizm güc strukturlarının beynəlxalq münasibətlərdə normativ dəyişikliyin formalarına təsir üsuluna nəzər salır. Yuxarıda idealist konstruktivist adlandırılmış nəzəriyyəçilərin çoxu bunlardan birini və ya digərini artıq etdiklərini söyləyə bilərlər. Məsələn, Latın Amerikasında insan hüquqları məsələlərini öyrənən bir kəs söyləyə bilər ki, o, insan hüquqları normalarının ənənəvi idarəetmə elitası hesabına qeyri-hökumət təşkilatlarına səlahiyyətlərin verilməsi ilə dəyişdiyi haqqında açıq fikir irəli sürür. Lakin bu araşdırmanın əsasında duran mütləq şəkildə gücün belə təşkilatların əlində olmasını gücün ənənəvi elitaların əlində olmasından daha yaxşı olduğunu hesab edən mənəvi idealizmdir. Ona görə də güc ikincidən birinciyə nə qədər çox keçərsə, bir o qədər yaxşıdır.

Biz bu əxlaqi mənzərə ilə razılaşa bilərik. Lakin realistlərin cavabı bundan ibarətdir ki, güc son nəticədə onu xüsusi məqsədlər silsiləsi üçün çoxaldan tərəfindən istifadə olunacaq. Bundan əlavə, gücdən uğrunda istifadə oluna bilən bütün məqsədlər hətta həmin gücdən mənəvi ideallar naminə istifadə olunsa belə, bir araya sığan olmayacaq, çünki əxlaqi ideallar bütünlükdə bir araya sığan deyil. Başqa sözlə, mübahisə mövzusu olan insan hüquqları normaları ölkələrarası münasibətlərdə ümumiyyətlə qəbul olunduqda belə güc hər zaman əhəmiyyət kəsb edəcək. Normalar vasitəsilə imkanlar əldə etmiş ayrı-ayrı qruplar müəyyən məqamda müəyyən edəcək ki, onların məqsədləri fərqlidir; həmin vaxt onlar arasında nisbi güc əhəmiyyət kəsb etməyə başlayacaq. Əgər hətta beynəlxalq sistemdəki bütün aktorlar verilmiş məqamda normativ strukturların eyni əsas qrupunu qəbul etsə belə, onların həmin strukturlara dair şərhi ya rasional şəxsi maraq səbəblərindən, ya da psixoloji səbəblərdən fərqli olacaq (məsələn, bax: Jervis 1976; Rosati 2000; Shannon 2000). Şərhlər fərqli olanda isə şərh edənin gücü əhəmiyyət kəsb etməkdə davam edir. Bu halda realist konstruktivizmin rolu güc ilə beynəlxalq normalar arasında qarşılıqlı əlaqələri mənəvi baxımdan skeptik şəkildə araşdırmaqdan ibarətdir (bax: Loriaux 1992).

Bu mənəvi skeptisizmdə idealizm və realizm arasındakı əsas fərq yer alır. İdealizm tək bir idealı qəbul edir və bu bizim uğrunda mübarizə aparmalı olduğumuz universal siyasi əxlaq normalarıdır. Realizm belə bir arqument irəli sürür ki, heç bir universal siya-

si əxlaq norması mövcud deyil və ona görə də öz əxlaq normalarımızın qələbə çalmasını istəyiriksə, biz bunu güc tətbiqi yolu ilə həyata keçirməyin yollarını müəyyən etməliyik. Lakin klassik realistlər, xüsusilə Karr bizi xəbərdar edir ki, bu əlaqədən ikitərəfli şəkildə istifadə oluna bilər: əxlaq normalarından da güc aləti kimi istifadə oluna bilər. Ona görə də biz gücdən üstünlük verdiyimiz siyasi əxlaq normalarının qəbul olunmasına yardım etmək üçün istifadə edəndə digərləri bunu, sadəcə, maraqlarımızın həyata keçirilməsi üçün gücdən istifadə kimi görə bilər. Bundan əlavə, siyasi psixologiya (məsələn, bax: Jervis 1976) təklif edir ki, biz gücdən istifadəni özümüz üçün mənəvi məqsədlər naminə olduğu ilə əsaslandıranda biz, sadəcə, özümüzü aldatmış və digər səbəblərdən atdığımız addımları mənəvi səbəblərdən atılmış addımlar kimi rasionallaşdırmış ola bilərik. Belə olduqda, hətta baxmayaraq ki, güc siyasi əxlaq normaları olmadan faydasızdır, klassik realist arqument bundan ibarətdir ki, biz istənilən halda istər öz əxlaq normalarımıza, istərsə də başqalarının əxlaq normalarına onlardan gücün əsaslandırılması üçün istifadə ediləndə müəyyən bir skeptisizm tətbiq etməliyik.

Bu şəkildə bəyan edilərkən klassik realizm beynəlxalq münasibətlərdə tətbiq olunan tənqidçi nəzəriyyənin müəyyən bir forması kimi səslənir (məsələn, bax: Ashley 1984). *"İyirmi ilin böhranı" ("The Tüenty Year's Crisis")* (Carr 1964), əslində, Vilson idealizminin Fuko tərəfindən tənqidi kimi səslənir (Foucault 1980; həmçinin bax: Ashley 1980; Der Derlan 1990 və Walker 1990b; Walker 1993). Bu bölümlər belə bir arqumenti əhatə edir ki, beynəlxalq sahədə siyasi fəaliyyətlər hətta ən yaxşı məqsədlərlə motivə olunduqda belə gücün bölgüsündə öz şaxələrinə malikdir və bu, tədbirlərin yekun səmərəsinə və həmin tədbirlərin digərləri tərəfindən necə qəbul edilməsinə təsir göstərə bilir. Belə ki, Millətlər Cəmiyyəti hətta status-kvo dövlətləri tərəfindən beynəlxalq sülhü dəstəkləmək üçün yaradılmış olsaydı belə, digərləri tərəfindən onu yaradan dövlətlərin nisbi güclərinə dəstək üçün görülən bir iş kimi qəbul olunacaqdı. ABŞ konstruktivizminin liberal idealizmə doğru meyli də eyni şəkildə mərkəzi status-kvo dövlətindən kənarda həmin status-kvonun qorunub saxlanması çalışması kimi qəbul oluna bilər – və beynəlxalq münasibətlər nəzəriyyəsinin bəzi postmodern tənqidçiləri tərəfindən belə də edilib (məsələn, bax: George 1994:27).

Realist konstruktivizm bu növ məsələlərə xüsusilə nəzər yetirə bilərdi. O, normativ strukturlar, siyasi əxlaq normalarının daşıyıcıları və gücdən istifadə arasında əlaqəni tədqiq edə bilərdi. Nəticədə isə realist konstruktivizm beynəlxalq münasibətlərdə dəyişiklik məsələlərini elə bir şəkildə nəzərdən keçirə bilərdi ki, nə idealist konstruktivizm (siyasi əxlaq normalarına öz qəti şəkildə sabit baxışı ilə), nə də pozitivist-materialist realizm (siyasi

əxlaq normalarına öz laqeyd baxışı ilə) bunu bacara bilmir. Bunu edərkən realist konstruktivizm beynəlxalq münasibətlər haqqında nəzəri mühakimə yürüdülməsində aparıcı nəzəriyyə ilə tənqidçi nəzəriyyə arasındakı boşluğu doldura bilərdi.[1] O bunu əksər tənqidçi nəzəriyyələrdə rast gəlinən gücə marağı, həmin nəzəriyyənin azadlıq planına xas olan mənfi cəhəti nəzərə almadan, özünün "nə üçünsə" azad olmaq əvəzinə, "nədənsə" azad olmaq marağı ilə uyğunlaşdırmaqla edə bilərdi (bax: Spegele 1996; Waver 1996; Patomäki and Wight 2000). Realist konstruktivizm bunu həmçinin gücün istənilən tədqiqinə norma və sosial qaydaların yalnız subyektiv mətnin postmodern nəzəriyyə vasitəsilə araşdırılmasını və obyektiv fenomenin pozitivist realizm vasitəsilə araşdırılmasını deyil, həmçinin sahələrarası hissənin konstruktivizm vasitəsilə araşdırılmasını daxil etməklə edə bilərdi.

Sonda bu fikir ardıcıllığı beynəlxalq münasibətlər sahəsində araşdırmanın və mühakimənin aparılması haqqında nə deməlidir? Konstruktivistlərə görə, o belə bir fikir irəli sürür ki, konstruktivizm – metodologiya, qneseologiya, yaxud ontologiya kimi başa düşülməsindən asılı olmayaraq – realizm və liberalizm və həmin baxımdan marksizm kimi paradiqma kimi anlaşılmamalıdır. Burada paradiqma altında beynəlxalq siyasətin necə fəaliyyət göstərdiyi haqqında təsəvvürlər qrupu nəzərdə tutulur. Konstruktivizm isə siyasəti necə öyrənməyin üsulları haqqında təsəvvürlər qrupudur. Belə olduqda o, realizm də daxil olmaqla müxtəlif paradiqmalar ilə bir araya sığır (necə ki, siyasətin necə öyrənilməsi haqqında digər təsəvvürlər qrupu, məsələn, rasionalizm ilə bir araya sığır). İdealist konstruktivistlərə görə (burada idealizm ideyaları deyil, ideallara aid edilir), bu fikir silsiləsi belə bir nəticəyə gəlir ki, realist konstruktivizm bir imkan kimi nəzərdən keçirilməlidir. Bu, idealların roluna dair məsələləri ideyaların roluna dair məsələlərdən fərqləndirməklə idealistlərə ideallara xüsusilə diqqət yetirməyə imkan verir və onları öz idealizmləri haqqında açıq danışmağa, *"İyirmi ilin böhranı" ("The Twenty Year's Crisis")* (Carr 1964) kitabı yazıldığı vaxtdan etibarən utopizm ilə əlaqələndirilmiş damğanı silib atmağa cəsarətləndirir. Başqa sözlə, o təklif edir ki, onlar öz ideallarını həqiqi elm iddiası arxasında gizlətməsinlər. Realistlərə görə, o yalnız bəyan etmir ki, konstruktivizm faydalı bir araşdırma metodologiyası ola bilər, həmçinin onu bəyan edir ki, konstruktivist qneseoloji və ontoloji mühakimələrə müraciət etmək son bir neçə onillikdə realizmin qarışıq salınan təyinləri olmuş fərdi rasionalizm və materializm haqqında təsəvvürlər üçün faydalı bir düzəliş ola bilər.

[1] Aparıcı konstruktivizmlə tənqidçi nəzəriyyə arasındakı əlaqə mübahisəyə açıqdır. Bu əlaqənin müxtəlif perspektivləri haqqında, məsələn, bax: Price and Reus-Smit (1998) və Kubálková, Onuf and Kowert (1998).

İstinadlar

ADLER, EMANUEL, AND MICHAEL BARNETT, eds. *Security Communities.* Cambridge, UK: Cambridge University Press, 1998.

ARCHER, MARGARET, et al., eds. *Critical Realism: Essential Readings.* London: Routledge, 1998.

ASHLEY, RICHARD. "The Poverty of Neorealism." *International Organization* (1994) 38:225-286.

ASHLEY, RICHARD, AND R.B.J. WALKER. "Reading Dissidence/Writing the Discipline: Crisis and the Question of Sovereignty in International Studies." *International Studies Quarterly* 34 (1990a): 367-416.

___"Speaking and Language of Exile: Dissident Thought in International Studies." *International Studies Quarterly* 34 (1990b): 259-268.

AYER. ALFRED JULES, ed. *Logical Positivism.* Glencoe, IL: Free Press, 1959.

BACHRACH, PETER, AND MORTON BARATZ. "Two faces of Power." *American Political Science Review.* 56 (1962): 947-952.

BALDWIN, DAVID. *Paradoxes of Power.* New York: Blackwell, 1989.

BHASKAR, ROY. *Scientific Realism and Human Emancipation.* London: Verso, 1986.

BULL, HEDLEY. "The Theory of International Politics, 1919-1969." In *The Aberystwyth Papers: International Politics 1919-1969*, Brian Porter, ed. London: Oxford University Press, 1972.

BURGERMAN, SUSAN. *Moral Victories: How Activists Provoke Multilateral Action.* Ithaca, NY: Cornell University Press, 2001.

CARR, EDWARD HALLETT. *The Twenty Years' Crisis, 1919-1939: An Introduction to the Study of International Relations.* Reprinted from the earlier edition. New York: Harper and Row, 1964.

DER DERLAN, JAMES. "The (S) pace of International Relations: Simulation, Surveillance, and Speed." *International Studies Quarterly* 34 (1990): 295-310.

DESSLER, DAVID. "What's at Stake in the Agent-Structure Debate?" *International Organization* 43 (1989): 441-473.

DONNELLY, JACK. *Realism and International Relations.*Cambridge, UK: Cambridge University Press, 2000.

DOYLE, MICHAEL. "Kant, Liberal Legacies, and Foreign Affairs: Part 1." *Philosophy and Public Affairs* 12 (1983a): 205-235.

___ "KANT, Liberal Legacies, and Foreign Affairs: Part 2." *Philosophy and Public Affairs* 12 (1983b): 323-253.

FIERKE, KAREN, AND KNUD ERIK JØRGENSEN, eds. *Constructing International Relations: The Next Generation.* Armonk, NY: M.E.Sharpe, 2001.

FINNEMORE, MARTHA. *National Interests in International Society.* Ithaca, NY: Cornell University Press, 1996.

FINNEMORE, MARTHA, AND KATHRYN SIKKINK. "International Norm Dynamics and Political Change." *International Organization* 52 (1998): 887-917.

FOUCAULT, MICHAEL. *Power/Knowledge: Selected Interviews and Other Writings, 1972-1977*, Colin Gordon, ed. New York: Pantheon, 1980.

GEORGE, JIM. *Discourses of Global Politics: A Critical (Re) Introduction to International Relations.* Boulder, CO: Lynne Rienner, 1994.

GILPIN, ROBERT. *War and Change in World Politics.* Cambridge, UK: Cambridge University Press, 1981.

GRIECO, JOSEPH. "Realist International Theory and the Study of World Politics." In *New Thinking in International Relations Theory*, Michael Doyle and G.John Ikenberry, eds. Boulder, CO: Westview Press, 1997.

HAAS, PETER, ROBERT KEOHANE, AND MARC LEVY, eds. *Institutions for the Earth: Sources of Effective International Environmental Protection.* Cambridge, MA: MIT Press, 1993.

HALL, RODNEY BRUCE. "Moral Authority as a Power Resource." *International Organization* 51 (1997): 555-589.

HELLMAN, GEOFFREY. "Realist Principles." *Philosophy of Science* 50 (1983): 227-249.

HOLSTI, KALEVI J. *The Dividing Discipline: Hegemony and Diversity in International Theory.* Boston: Allen and Unwin, 1985.

HUGHES, BARRY. *Continuity and Change in World Politics: Competing Perspective*, 4th ed. Upper Saddle River, NJ: Prentice-Hall, 2000.

JERVIS, ROBERT. *Perceptions and Misperceptions in International Politics.* Princeton, NJ: Princeton University Press, 1976.

___ Realism in the Study of World Politics. *International Organization* 52 (1998): 971-991.

JOHNSON BAGBY, LAURIE. "The Use and Abuse of Thucydides in International Relations." *International Organization* 48 (1994): 131-153.

KAHLER, MILES. "Rationality in International Relations." *International Organization* 52 (1998): 919-941.

KANT, IMMANUEL. *Perpetual Peace*, Lewis White Beck, ed. New York: Macmillan, 1957.

KATZENSTEIN, PETER, ROBERT KEOHANE, AND STEPHEN KRASNER. "International Organization and the Study of World Politics." *International Organization* 52 (1998): 645-685.

KECK, MARGARET, AND KATHRYN SIKKINK. *Activists Beyond Borders: Advocacy Networks in International Politics.* Ithaca, NY: Cornell University Press, 1998.

KEGLEY, CHARLES. "The Neoidealist Moment in International Studies? Realist Myths and the New International Realities." *International Studies Quarterly* 37 (1993): 131-147.

KEGLEY, CHARLES, AND EUGENE WITTKOPF. *World Politics: Trends and Transformations*, 8th ed. Boston: Bedford/St. Martin's, 2001.

KEOHANE, ROBERT. *After Hegemony: Cooperation and Discord in the World Political Economy.* Princeton, NJ: Princeton University Press, 1984.

KEOHANE, ROBERT, AND LISA MARTIN. "The Promise of Institutionalist Theory." *International Security* 20 (1995): 39-51.

KEOHANE, ROBERT, AND JOSEPH NYE, JR. *Power and Interdependence: World Politics in Transition.* Boston: Little, Brown, 1977.

KIRK, GRAYSON. *The Study of International Relations in American Colleges and Universities.* New York: Council on Foreign Relations, 1947.

KLOTZ, AUDIE. *Norms in International Relations: The Struggle Against Apartheid.* Ithaca, NY: Cornell University Press, 1995.

KRATOCHWIL, FRIEDRICH. "Errors Have Their Advantages." *International Organization* 38 (1984): 305-320.

KUBÁLKOVÁ, VENDULKA. "The Twenty Years' Catharsis: E.H.Carr and IR." In *International Relations in a Constructed World*, Vendulka Kubálková, Nicholas Onuf, and Paul Kowert, eds. Armonk, NY: M.E.Sharpe, 1998.

KUBÁLKOVÁ, VENDULKA, NICHOLAS ONUF, AND PAUL KOWERT. "Constructing Constructivism." In *International Relations in a Constructed World*, Vendulka Kubálková, Nicholas Onuf, and Paul Kowert, eds. Armonk, NY: M.E.Sharpe, 1998.

LAPID, YOSEF. "The Third Debate: On the Prospects of International Theory in a Post-Positivist Era." *International Studies Quarterly* 33 (1989): 235-254.

LASSWELL, HAROLD. *World Politics and Personal Insecurity.* New York: McGraw-Hill, 1935.

LASSWELL, HAROLD, AND ABRAHAM KAPLAN. *Power and Society: A Framework for Political Inquiry.* New Haven, CT: Yale University Press, 1950.

LEBOW, RICHARD NED. "Thucydides the Constructivist." *American Political Science Review* 95 (2001): 547-560.

LEGRO, JEFFREY, AND ANDREW-MORAVCSIK. "Is Anybody Still a Realist?" *International Security* 24 (1999): 5-55.

LEPLIN, JARRETT, ed. *Scientific Realism.* Berkeley: University of California Press, 1984.

LIEBER, ROBERT. *No Common Power: Understanding International Relations*, 4th ed. Upper Saddle River, NJ: Prentice Hall, 2001.

LINKLATER, ANDREW. *Beyond Realism and Marxism: Critical Theory and International Relations.* London: Macmillan, 1990.

___ *The Transformation of Political Community: Ethical Foundations of the Post-Westphalian Era.* Columbia, SC: University of South Carolina Press, 1998.

LOCHER, BIRGIT, AND ELISABETH PRÜGL. "Feminism and Constructivism: Worlds Apart or Sharing the Middle Ground?" *International Studies Quarterly* 45 (2001): 111-129.

LORIAUX, MICHAEL. "The Realists and St. Augustine: Skepticism, Psychology, and Moral Action in International Relations Thought." *International Studies Quarterly* 36 (1992): 401-420.

LYNCH, MARK. *State Interests and Public Spheres: The International Politics of Jordan's Identity.* New York: Columbia University Press, 1999.

MEARSHEIMER, JOHN. *Conventional Deterrence.* Ithaca, NY: Cornell University Press, 1983.

___ "The False Promise of International Institutions." *International Security* 19 (1994/1995): 5-49.

MORAVCSIK, ANDREW. "Taking Preferences Seriously: A Liberal Theory of International Politics." *International Organization* 51 (1997): 513-553.

MORGENTHAU, HANS. *Scientific Man Versus Power Politics.* Chicago: University of Chicago Press, 1946.

___ *Politics Among Nations: The Struggle for Power and Peace.* New York: Knopf, 1948.

___ *Politics Among Nations: The Struggle for Power and Peace,* 6th ed. Revised by Kenneth Thompson. New York: McGraw-Hill, 1985.

ONUF, NICHOLAS. *World of Our Making.* Columbia, SC: University of South Carolina Press, 1989.

___ "The Politics of Constructivism." In *Constructing International Relations: The Next Generation,* Karen Fierke and Knud Eric Jørgensen, eds. Armonk, NY: M.E.Sharpe, 2001.

ONUF, NICHOLAS, AND FRANK KLINK. "Activity, Authority, Rule." *International Studies Quarterly* 33 (1989): 149-174.

OREN, IDO. "Is Culture Independent of National Security? How America's National Security Concerns Shaped 'Political Culture' Research." *European Journal of International Relations* 6 (2000): 543-573.

PATOMÄKI, HEIKKI, AND COLIN WIGHT. "After Postpositivism? The Promises of Critical Realism." *International Studies Quarterly* 44 (2000): 213-237.

PETTMAN, RALPH. *Commonsense Constructivism: Or the Making of World Affairs.* Armonk, NY: M.E.Sharpe, 2000.

POSEN, BARRY. *The Sources of Military Doctrine: France, Britain, and Germany Between the World Wars.* Ithaca, NY: Cornell University Press, 1984.

PRICE, RICHARD, AND CHRISTIAN REUS-SMIT. "Dangerous Liaisons? Critical International Theory and Constructivism." *European Journal of International Relations* 4 (1998): 259-294.

RISSE, THOMAS. 'Let's Argue!' Communicative Action in World Politics." *International Organization* 54 (2000): 1-39.

RISSE, THOMAS, STEPHEN ROPP, AND KATHRYN SIKKINK, eds. *The Power of Human Rights: International Norms and Domestic Change.* Cambridge, UK: Cambridge University Press, 1999.

ROMMEN, HANS. "Realism and Utopianism in World Affairs." *Review of Politics* 6 (1994): 193-215.

ROSATI, JEREL. "The Power of Human Cognition in the Study of World Politics." *International Studies Review* 2 (2000): 45-75.

RUGGIE, JOHN GERARD. "Continuity and Transformation in the World Polity." *World Politics* 35 (1983): 261-285.

___ ed. *Multilateralism Matters: The Theory and Praxis of an Institutional Form.* New York: Columbia University Press, 1993.

___ "The False Premise of Realism." *International Security* 20 (1995): 62-70.

___ "What Makes the World Hang Together? Neo-Utilitarianism and the Social Constructivist Challenge." *International Organization* 52 (1998): 855-885.

SCHMIDT, BRIAN. *The Political Discourse of Anarchy: A Disciplinary History of International Relations.* Albany, NY: State University of New York Press, 1998.

SCHUMAN, FREDERICK. *International Politics: An Introduction to the Western State System.* New York: McGraw-Hill, 1933.

SCHWELLER, RANDALL. *Deadly Imbalances: Tripolarity and Hitler's Strategy of World Conquest.* New York: Columbia University Press, 1998.

SHANNON, VAUGHN. "Norms Are What States Make of Them: The Political Psychology of Norm Violation." *International Studies Quarterly* 44 (2000): 293-316.

SIKKINK, KATHRYN. "Human Rights, Principled Issue-Networks, and Sovereignty in Latin America." *International Organization* 47 (1993): 411-441.

SINGER, J.DAVID. *Models, Methods, and Progress in World Politics: A Peace Research Odyssey.* Boulder, CO: Westview Press, 1990.

SYNDER, JACK. "Science and Sovietology: Bridging the Methods Gap in Soviet Foreign Policy Studies." *World Politics* 40 (1988): 169-193.

SPEGELE, ROGER. *Political Realism in International Theory.* Cambridge, UK: Cambridge University Press, 1996.

STERLING-FOLKER, JENNIFER. "Competing Paradigms or Birds of a Feather? Constructivism and Neoliberal Institutionalism Compared." *International Studies Quarterly* 44 (2000): 97-119.

___ "Realism and the Constructivist Challenge: Rejecting, Reconstructing, or Rereading." *International Studies Review* 4 (2002): 73-97.

STRANGE, SUSAN. "The Persistent Myth of Lost Hegemony." *International Organization* 41 (1987): 551-574.

VASQUEZ, JOHN. *The Power of Power Politics: A Critique.* New Brunswick, NJ: Rutgers University Press, 1983.

___ *The Power of Power Politics: From Classical Realism to Neotraditionalism.* Cambridge, UK: Cambridge University Press, 1998.

WÆVER, OLE. "The Rise and Fall of the Inter-Paradigm Debate." In *International Theory: Positivism and Beyond,* Steve Smith, Ken Booth and Marysia Zalewski, eds. Cambridge, UK: Cambridge University Press, 1996.

WALKER, R.B.J. "Realism, Change, and International Political Theory." *International Studies Quarterly* 31 (1987): 65-86.

___ *Inside/Outside: International Relations as Political Theory.* Cambridge, UK: Cambridge University Press, 1993.

WALT, STEPHEN. *The Origins of Alliances.* Ithaca, NY: Cornell University Press, 1987.

WALTZ, KENNETH. *Man, the State, and War.* New York: Columbia University Press, 1959.

___ *Theory of International Politics.* Reading, MA: Addison-Wesley. 1979.

WENDT, ALEXANDER. "The Agent-Structure Problem in International Relations Theory." *International Organization* 41 (1987): 335-370.

___ "Constructing International Politics." *International Security* 20 (1995): 71-81.

___ *Social Theory of International Politics.* Cambridge, UK: Cambridge University Press, 1999.

WIGHT, MARTIN. *Power Politics.* London: Royal Institute of International Affairs, 1946.

WOLFERS, ARNOLD. *Discord and Collaboration: Essays on International Politics.* Baltimore, MD: Johns Hopkins University Press, 1962.

İngilis məktəbi və Amerika realizmi: düşüncələrin görüşü, yoxsa ortaq dillə bölünmə?

RİÇARD LİTL

Bu məqalənin əvvəlki layihəsində faydalı olmuş qeydlərinə görə Teo Farrelə təşəkkür edirik.
Review of International Studies 29 (2003): 443-460.
© Britaniya Beynəlxalq Araşdırmalar Assosiasiyası

...Mən göstərmək istəyirəm ki, Amerika realizmi və ingilis məktəbi ortaq elmi irsi bölüşür və bu irs öz ideyalarını XX əsrin ortalarında yaradıb inkişaf etdirmiş klassik realistlərə gedib çıxır. Lakin müasir Amerika realizminin etmiş olduğu klassik realist düşüncənin bir istiqamətini götürüb onu öz pozitivist metodologiyası əsasında təkmilləşdirməkdir. Prinsipcə əgər onlar məqsədyönlü şəkildə klassik realistlərdən ayrılmaq qərarına gəlsəydilər, bu prosedurda heç bir problem olmazdı. Lakin bu məktəbin nümayəndələri çox vaxt klassik realist ənənənin özündən sonra nə qoyduğu haqqında aydın təsəvvürə malik olmadan özlərini onunla əlaqələndirirlər.

İstehza doğuran haldır ki, bu arqumentin əksi ingilis məktəbinin banilərinə aid edilir. Məsələn, Bull özünü açıq şəkildə klassik realistlərdən ayırırdı və israr edirdi ki, Morgentaunun əsəri "ibrət götürülə biləcək bir uğursuzluğ"u təmsil edir və "bütövlükdə araşdırmanın iflası"nı[1] əks etdirir. Bununla belə, Alderson and Hurrell etiraf edir ki, beynəlxalq cəmiyyət ideyası "beynəlxalq həyatın sosial təbiəti"ni aşağı dəyərləndirmiş olduğu görünən klassik realizm ilə "önəm kəsb edən qarşılaşma"dan irəli gəlir.[2] Lakin təcrübədə bu uyğunluq Alderson və Hurrellin etiraf etdiyindən daha əhəmiyyətlidir. Yaxından tanışlıq belə bir amili üzə çıxarır ki, ingilis məktəbi yanaşmasının mərkəzində duran əsas anlayışların – beynəlxalq sistem, beynəlxalq cəmiyyət, dünya cəmiyyəti və beynəlxalq ədalət – hamısına klassik realizmin Morgentau kimi ilkin nəzəriyyəçilərinin işlərində aydın şəkildə müəyyən edilə bilir.

Ona görə də ingilis məktəbinin etdiyi klassik realizmdə birbaşadan daha çox dolayı olan bir yanaşmaya aydınlıq gətirməkdir. Bu məqalənin birinci hissəsində ingilis məktəbi ilə klassik realizm arasında bu əlaqələri araşdırmaqla ingilis məktəbi istiqaməti haqqında səciyyəvi olanı üzə çıxarmağa ümid edirəm. Mən həmçinin üzə çıxaracağam ki, niyə ingilis məktəbi mövqeyindən müasir Amerika realizmində klassik realizmdə təmsil olunan

[1] Bulla istinad olunur: Kal Anderson and Andrew Hurrell, *Hedley Bull on International Society* (London: Macmillan, 2000).
[2] Yenə orada.

əhəmiyyətli bir sosial elementin çatışmadığı şübhəsizdir. Ona görə də ingilis məktəbi mövqeyindən Amerika realizmi bir ölçülü şərh təqdim edir ki, bu da beynəlxalq münasibətlərin təhrif olunmuş, yaxud müəyyən dərəcədə natamam dərkinə səbəb olur. Daha sonra məqalənin ikinci hissəsinə həmin çatışmayan elementin bizim müasir beynəlxalq siyasəti anlayışımıza nə əlavə etdiyini göstərməyə çalışacağam.

Sonda nəticə hissəsində mən Amerika realistlərinin ingilis məktəbinə ünvanladığı əsas tənqidlərə qayıdacağam.

Klassik realizm və ingilis məktəbi

Klassik realizm ilə ingilis məktəbi arasında qurula bilən əhəmiyyətli əlaqələr mövcuddur. Bunlar diqqəti ingilis məktəbi düşüncəsini möhkəmləndirən anlayışlara – beynəlxalq sistem, beynəlxalq cəmiyyət və dünya cəmiyyəti və beynəlxalq ədalətə yönəltməklə vurğulana bilər. Bu bölmədə biz şahidi oluruq ki, baxmayaraq ki, ingilis məktəbi bu anlayışları vurğulayır, hər bir vəziyyətdə onların düşüncələrinin keçmişi klassik realistlərə gedib çıxır. Bu əlaqələri göstərmək Amerika realistlərinin beynəlxalq siyasətin sosial ölçüsü haqqında düşüncə hesabına klassik realizmin yalnız bir elementini vurğuladığını üzə çıxarmağa kömək edir.

Beynəlxalq sistem

Ümumi qəbul edilən baxışlara görə, beynəlxalq sistemin dinamikaları və xüsusilə qüvvələr tarazlığı ilə əlaqələndirilən dinamikalar klassik realistlər üçün əsas nəzər nöqtəsini təmin edir. Lakin Morgentauya münasibətdə bu dəyərləndirmə müəyyən dərəcədə bəzi dəyişikliklər tələb edir. Ona görə beynəlxalq sistemdə qüvvələr tarazlığının fəaliyyəti ilə onun beynəlxalq cəmiyyətdə fəaliyyəti arasında açıq görünməyən bir fərq mövcuddur. İngilis məktəbində qarşılaşdığımız beynəlxalq sistem və cəmiyyət arasında aydın bilinən bir fərq olmasa da, onların birgə mövcud olduğu haqqında oxşar olan bir fərziyyə var. Ona görə də bütün normativ müdaxilələrdən məhrum olan qüvvələr tarazlığı nəzəriyyəsi müasir Amerika realistləri üçün səciyyəvidir.

İngilis məktəbinə görə, beynəlxalq sistem o zaman təşəkkül tapır ki, "dövlətlər bir-biri ilə müntəzəm əlaqədə olur və onlar arasında əlavə olaraq hər birinin davranışını digərinin davranışını müəyyən etməkdə zəruri elementə çevirəcək qədər kifayət edən qarşılıqlı fəaliyyət mövcud olur".[1] Klassik realistlər oxşar mövqeyə qoşulurlar və Morgentau belə bir avtomatik qaydanın mövcudluğu qəbul edir ki, əgər bir dövlət rəqibin hesabına imperiya siyasəti yürütmək üçün öz güc imkanlarını artırırsa, o zaman "digərinin gücündə də mütənasib

[1] Heley Bull, *The Anarchical Society: A Study of Order in üorld Politics* (New York: Columbia University Press, 1977), səh. 10.

Bununla belə, "soyuq müharibə"nin başlanğıcında Morgentauda belə bir qorxu var idi ki, dövlətlərin beynəlxalq birliyi ciddi təhlükə altındadır. O, bərqərar olmaqda olan, iki superdövlət arasında mövcudluğunu qoruyub saxlamaq uğrunda gedən qarşılıqlı mübarizə ilə xarakterizə olunan beynəlxalq sistemi tədqiq etdi və əsaslandırdı ki, onların siyasəti "yeni qüvvələr tarazlığı"[1] formalaşdırır və həmin tarazlıq "ortaq dəyərlər və universal fəaliyyət standartları"[2] ilə təyin edilən dövlətlər birliyinin uzunmüddətli mövcudluğuna imkan yaratmış qüvvələr tarazlığına "həlledici, öldürücü zərbə" vuracaq. Morgentau israr edirdi ki, Avropa qüvvələr tarazlığı dövründə gücə imperiya meyillərinin qarşısı dövlətlər tərəfindən bütün dövlətlərin mövcudluğunu qoruyub saxlamaq hüququna malik olduğu haqqında "sözsüz sövdələşmə" təsis etməyin nəticəsində qəbul edilmiş "əxlaqi məhdudiyyətlər"lə alınırdı.[3] Ona görə də dövlətlər bütün dövlətlərin riayət etməyə məcbur olduğu qaydalar qrupunu əks etdirən davranışın "əsas standartı"nda razılığa gəldi.[4] Tarixin bu məxsusi mərhələsində hər bir dövlət rəhbəri "digər hər kəsin bu standarta ortaq olmasını gözləyirdi və bunu gözləməyə haqqı var idi".[5]

Ona görə də Morgentau beynəlxalq cəmiyyət ilə qüvvələr tarazlığı arasında çox sıx bir əlaqə yaratdı və ingilis məktəbi də düz onun qoyduğu yol ilə gedir. Məsələn, Bull beynəlxalq sistem daxilində bəzən fəaliyyət göstərən "təsadüfi" tarazlıq ilə istənilən beynəlxalq cəmiyyəti iflasa uğradan "uydurma" tarazlıq arasındakı fərqi kəskin şəkildə müəyyən edir. Uydurma tarazlıq bütün böyük dövlətlərin dövlətlər birliyini möhkəmləndirmək ehtiyacını qəbul etdikləri istənilən beynəlxalq tənzimləmə ilə əlaqələndirilir. Bu onunla müşayiət olunur ki, beynəlxalq gücü inhisara almağa cəhdin edilməsindən çəkinmək və bu strategiyanı həyata keçirən istənilən dövləti bundan çəkindirmək üçün zəruri addımların atılması üçün subyektlərarası razılaşma, "sözsüz sövdələşmə" mövcuddur. Böyük dövlətlər könüllü məhdudiyyətlərə ona görə qoşulur ki, tarazlığın aradan qaldırılmasına edilən istənilən cəhdin "ümidsiz bir addım" olacağını bilirlər.[6] Baxmayaraq ki, bu fikir söz ilə ifadə olunmur, aydındır ki, atılan addımın "ümidsiz" olduğu son nəticədə təsdiq olunarsa, bu sosial tarazlığın məhvinə və həm ingilis məktəbinin, həm də klassik realistlərin "təbii vəziyyət"ə çevrilmək potensialına malik olduğuna inandıqları

[1] Morgethau, *Politics Among Nations*, paraqraf 21.
[2] Yenə orada, səh. 330-331.
[3] Yenə orada, səh. 219.
[4] Yenə orada, səh. 274.
[5] Yenə orada.
[6] Yenə orada, səh. 219.

sistemli tarazlığın bərqərar olmasına gətirib çıxara bilər.[1]

Bununla belə, həm ingilis məktəbi, həm də klassik realistlər daha da irəli gedirlər və israr edirlər ki, beynəlxalq hüquq ilə sosial qüvvələr tarazlığı arasında zəruri bir əlaqə mövcuddur. Lakin bu əlaqəni möhkəmləndirən qanunauyğunluq heç vaxt Amerika realistləri tərəfindən irəli sürülən analizləri xarakterizə edən dəqiqlikdə nə iləsə dilə gətirilmir. Arqumentin belə olduğu, görünür ki, sosial qüvvələr tarazlığı kontekstində hər bir dövlət beynəlxalq hüquqa tab gətirəcək, çünki o belə etməkdə uğursuz olarsa, digər dövlətlər ona qadağalar qoyacaq. Qarışıqlığın bu prosesin mərkəzində durduğu görünür.[2] Lakin bu prosedur yalnız o halda səmərəli olacaq ki, sistemdə digər dövlətlərin qadağalarına əhəmiyyət verməyə bilən dövlətlər olmayacaq. Ona görə də dövlətlərin beynəlxalq hüquqa könüllü şəkildə qoşulması tendensiyası qeydə alınacaq, çünki beynəlxalq hüququn pozulması sosial qüvvələr tarazlığı üçün təhlükə yaradır. Lakin klassik realistlər və ingilis məktəbi bu fikri təfsilatı şəkildə araşdırmaqda uğursuz olublar. Bunu etmək onlardan sistemli və sosial qüvvələr tarazlığı arasındakı fərqi daha yaxşı təyin etməyi tələb edər. Birinci növ tarazlıq normativ çərçivənin olmadığı şəraitdə fəaliyyət göstərən, sistemli qüvvələr tarazlığına keçmək qorxusu səbəbindən dövlətləri beynəlxalq hüququ pozmaqdan çəkindirən əks-gerçəklik kimi hərəkət edir.

Arqument silsiləsinin dövlətlərin birbaşa maraqlarına uyğun gəlmədiyi halda qaydalara niyə tabe olduğunu izah etmək üçün kifayət etdiyi görünmür. Lakin Hurrellin qeyd etdiyi kimi, ingilis məktəbinin nümayəndələri beynəlxalq hüquqa riayət edilməsinin müxtəlif səbəblərini göstəriblər. O bildirir ki, normalara "güc və məcburiyyət, şəxsi maraq və qarşılıqlı faydalar, təsisatlanmış vərdiş, yaxud fəaliyyətsizlik, birlik hissinin mövcudluğu, qayda yaratma prosesinin prosedur qanunauyğunluğu, yaxud da ortaq ədalət hissindən doğan mənəvi inandırma" səbəbindən riayət olunurdu. Lakin Hurrell həm də etiraf edirdi ki, ingilis məktəbi amillərin "əlaqələrinə dair heç bir dəqiq istiqamət vermədən" ümumi siyahısını təqdim edir.[3] Beləliklə, ingilis məktəbinin irəli sürdüyü arqumentləri natamam və

[1] Praysın fikrincə, bu, Fukididin Peloponnes müharibəsini xarakterizə etməsi formasıdır. Bax: Jonathan J.Price, *Thucydides and Internal War* (Cabridge, UK: Cambridge University Press, 2001).
[2] Bax: G.Schwarzenberger, *Power Politics*, 3rd ed. (London: Stevens, 1964), səh. 203; və K.W.Thompson, *Political Reform and the Crisis of World Politics* (Princeton, NJ: Princeton University Press), səh. 169.
[3] Andrew Hurrell, "International Society and the Study of Regimes: A Reflective Approach."

qeyri-kafi hesab edən yalnız Amerika realistləri deyil.[1]

Dünya cəmiyyəti

Baxmayaraq ki, dünya cəmiyyəti ideyası ən çox ingilis məktəbi ilə əlaqələndirilir, bu anlayış Morgentaunun dünya dövlətinin yaradılması haqqında müzakirələrində mühüm rola malikdir. Baxmayaraq ki, o, beynəlxalq hüquq və diplomatiyanın dövlətlər birliyini dəstəkləmək üçün yaradıldığını və nəticə etibarilə beynəlxalq hökumətə dəstək verdiyinin ehtimal olunmadığını qəbul edir, dünya hökumətinin ağlabatan olmadığını, yaxud da dünya dövlətinin yaradılmasının prinsipcə qarşı çıxılacağını demirdi. Əksinə, o hesab edirdi ki, əgər biz öz mövcudluğumuzu qoruyub saxlamalıyıqsa, o zaman uzun vədədə dünya dövlətinin yaradılması vacibdir, çünki yalnız dünya hökuməti müharibəni səmərəli şəkildə aradan qaldıra bilər. Lakin dünya hökuməti dünya dövlətinin mövcudluğunu və suveren dövlətlər birliyinin aradan qalxmasını nəzərdə tutur.[2]

Morgentau aydın şəkildə bəyan edir ki, belə bir proses başdan ya imperiya dövləti tərəfindən dünyanın istila edilməsi, ya da hər hansı konstitusion konfederasiya formasında həyata keçirilə bilməz. Dövlətlər birliyindən kənar istənilən uğurlu hərəkat cəmiyyət səviyyəsində transformasiyanı müşayiət etməlidir. Dünya dövlətinin yaradılmasının kafi olmasa da, zəruri ilkin şərti budur ki, ayrı-ayrı fərdlər əsas bağlılıqlarını yerli birlikdən dünya birliyinə keçirmiş olmalıdırlar. Lakin Morgentau etiraf edir ki, dünya birliyini yaratmaq olduqca çətin olacaq, baxmayaraq ki, o,

[1] Bax: Ole Wœver, "Four Meanings of International Society: A Transatlantic Dialogue," in B.A.Roberson, ed., *International Society and the Development of International Relations Theory* (London and Washington: Pinter, 1998), səh. 90, müəllif belə bir arqument ilə çıxış edir ki, ingilis məktəbi tərəfindən sadalanan arqumentlər bizi siyahıdakı yalnız bir məsələni tədqiq etmiş liberal institusionalistlərdən daha uzağa aparmaq potensialına malikdir. Bundan əlavə, onlar diqqəti ayrı-ayrı qaydalara yönəldirlər. O davam edir (səh. 91): "Çox vaxt ayrı-ayrı qaydalar dövlət sisteminin strukturunun özünün təsisedicisi olan beynəlxalq hüququn ümumi sisteminə çevrildiyi halda, ayrı-ayrı qaydalarla uyğunluğu izah etmək üçün beynəlxalq cəmiyyətə ümumi maraq vacib olur. Çünki dövlətlər inanır ki, onlar bu beynəlxalq hüquqi sistemdə uzunmüddətli maraqlara malikdirlər, qaydalar daha çox qanuna bənzər olduqda və ayrı-ayrı və ölçülə bilən maraqlar baxımından uyğunluğu hesablamaq çətin olduqda məcburilik və normativliyə nail olurlar".

[2] Morgenthau, *Politics Among Nations*, paraqraf 29. Morgentau dünya cəmiyyəti əvəzinə dünya birliyindən bəhs edir. Bax: Barry Buzan, "From International System to International Society: Structural Theory and Regime Theory Meet the English School," *International Organization*, 47 (3) (1993), səh. 327-352, burada müəllif bu fərqə ciddi yanaşır. O, hal-hazırda ingilis məktəbi düşüncəsinə aydınlıq gətirmək üçün bu fərqdən istifadə edən bir kitab üzərində işləyir.

Mitreninin yazıları ilə əlaqələndirilən funksional nəzəriyyədə çox maraqlı idi və Birləşmiş Millətlər Təşkilatına birləşdirilmiş ixtisaslaşdırılmış qurumları dünya birliyinin yaradılmasında irəliyə doğru bir addım kimi görürdü.[1]

İngilis məktəbi bu məsələdə fərqli və daha mürəkkəb bir fikrə sahibdir. Məktəbin nümayəndələri beynəlxalq cəmiyyətin mövcudluğu üçün dünya birliyi adlandırdıqları məfhumun əhəmiyyəti məsələsində fikir ayrılığına düşürlər; bəziləri hesab edirlər ki, əgər sabit dövlətlər birliyi mövcud olarsa, dünya birliyi elementi də təşəkkül tapar. Digərləri isə buna daha az əmindirlər. Lakin məsələni əhatə edən böyük bir anlaşılmazlıq var. Məsələn, Morgentau ilə fikirləri olduqca çox üst-üstə düşən Bull bir məqamda fikir ilə çıxış edir ki, ayrı-ayrı fərdlərin beynəlxalq hüququn subyektlərinə çevirməklə dünya birliyinin genişlənməsi "dövlətlər birliyinə əsaslanan beynəlxalq nizamı"[2] məhv edəcək. Lakin o daha sonra belə bir fikir irəli sürür ki, "beynəlxalq birliyin gələcəyi, güman ki, digər amillərlə birlikdə ümumi mədəniyyətin mühafizəsi və yayılması yolu ilə müəyyən olunmalıdır".[3] Dayz və Vaytman belə bir nəticəyə gəlirlər ki, bu anlaşılmazlıq beynəlxalq siyasətin xüsusiyyətidir və biz bu anlaşılmazlığı aradan qaldırmaq və "onunla *beynəlxalq siyasətin səciyyəvi xüsusiyyəti* kimi rəftar etməklə"[4] önəmli analitik üstünlük qazana bilərik.

Beynəlxalq ədalət

Klassik realistlər və ingilis məktəbinin hər ikisi nizam və ədalət arasındakı fərqi müəyyən edirlər.[5] Başqa sözlə, etiraf olunur ki, qaydalarla idarə olunan cəmiyyətin mütləq olaraq ədalətli cəmiyyət olacağını güman etməyə heç bir səbəb yoxdur. Əksinə, biliyin sosioloqu olan Morgentau və Karr kimi klassik realistlər – onların hər ikisi Manhaymdan təsirlənmişdi – belə bir mühakimədən çıxış edirdilər ki, gücə sahib olanlar güclərindən öz maraqlarını həyata keçirmək üçün istifadə edəcəklər, baxmayaraq ki, güc və maraq arasındakı bu əlaqəni pərdələmək üçün onlar tez-tez həm də yüksək dərəcədə hakim ideologiyaya arxalanacaqlar.

Neyburun qeyd etdiyi kimi, "hər hansı cəmiyyəti təşkil edən fərd və

[1] Morgenthau, *Politics Among Nations*, paraqraf 30. Həmçinin bax: David Mitrany, *The Functional Theory of Politics* (London: Robertson, 1975).

[2] Bull, *The Anarchical Society*, p. 152.

[3] Yenə orada, səh. 317.

[4] Thomas Diez and Richard Whitman, "Analysing European Integration: Reflecting on the English School," *Journal of Common Market Studies*, 40 (1) (2002), səh. 43-67, səh. 49.

[5] Əslində, bu məsələ ingilis məktəbində mübahisəlidir, çünki bəziləri hesab edirlər ki, ədalət haqqında heç bir təyinata malik olmayan nizam anlayışına malik olmaq mümkün deyil. Bax: Ian Harris, "Order and Justice in *The Anarchical Society*," *International Affairs*, 69 (4) (1993), səh. 725-741.

qrup məram və iddiaları nə qədər sosial olsa da, sosial imtiyazın həddən artıq hissəsini mənimsəyir".[1] Həm Morgentau, həm də Karra görə, realistin əsas vəzifəsi gücün harada yerləşdiyi və *status-kvoya* necə dəstək verdiyinə dair həqiqəti üzə çıxarmaqdır. Nəticədə realist "müəyyən qanuni maraqlara münasibətdə təxribatçı və inqilabçı qüvvə olmaya bilmir".[2]

Karr hesab edir ki, realizmin zəifliyi ondadır ki, o, beynəlxalq siyasətdə ideyalar üçün müstəqil rolun mövcud olduğunu etiraf edə bilmir. Ona görə də Karr etiraf edir ki, yalnız dəyişilmiş bir dünya ehtimal etmək deyil, həmçinin bu təsəvvürü reallığa çevirmək mümkündür. Lakin istənilən bir təsəvvür reallaşdıqda bəzi tərəflər yeni sistemdən digərlərindən daha çox xeyir götürəcək və onlar bu xeyri gücə çevirəcəklər ki, o da öz növbəsində sistemin müdafiə olunması üçün istifadə olunacaq. Realistin daimi vəzifəsi güc və maraq arasındakı bu aksiomatik əlaqəni üzə çıxarmaqdır. Ona görə də Karrın nöqteyi-nəzərindən həm realistlərin maddi qüvvə üzərinə qoyduğu vurğu, həm də dəyişkən ideyalara sahib utopik qayğı dünya siyasətinin istənilən şəkilli anlaşılmasında önəmli rola malik olmalıdır. Belə bir düşüncəyə köklənmiş Karr sonda belə bir nəticəyə gəlir ki, bərqərar olmuş sistemin mühafizə edilməsini arzu edən məmnun dövlətlərin niyə sistemdən ən az xeyir götürənlərə vəziyyətlərin dözülən olmasını təmin etmək üçün əhəmiyyətli güzəştlərin edilməsini təmin etməli olduqları aydındır.[3]

İngilis məktəbi beynəlxalq münasibətlərdə ədalətin rolu haqqında da çox düşünüb və beynəlxalq münasibətlərdə ədalətin təminediciləri haqqında ideyaların mövcud olduğuna və həmin ideyaların "hadisələrin gedişində müəyyən rol oynadığı"na[4] dair aydın fikirlərə malikdir. Bull dövlət səviyyəsində ədalət ilə fərd səviyyəsində ədalət arasında fərqi müəyyən etməkdə davam edir. Dövlət səviyyəsində ədalət beynəlxalq cəmiyyətin, məsələn, dövlətlərin suveren hüquqlarına riayət olunmasını təmin etməsini tələb edir. Lakin bu, insan ədaləti haqqında heç nə demir. Başqa sözlə, istənilən bir cəmiyyətdə olduğu kimi, gücə sahib olan dövlətlərin də öz gücündən həmin dövlətlərin maraqlarının sistemin qalan dövlətlərinin hesabına həyata keçməsini təmin etmək üçün istifadə edəcəyi qaçılmazdır. Ona görə də dövlətin öz mövqeyini möhkəmləndirməsi ilə insan hüquqları "yerin altı"na keçib və indi, əslində, potensial olaraq "beynəlxalq cəmiyyətin özündən ziyan çəkən"[1] kimi görünürlər. Bu mövqeyə şamil edilən aşkar mənəvi anlaşılmazlığa baxmayaraq, Bull nizam üçün ədalət üzərində üstünlüyün ələ keçirilməsinin vacib olduğu haqqında aydın təsəvvürə malik idi. Lakin ömrünün sonuna doğru o bu mövqeyini yenidən nəzərdən keçirməyə başladı və etiraf etdi ki, sistem daxilində varlı və kasıb dövlətlər arasında tarazsızlığı yoluna qoymağa ehtiyac var. Bullun fikrincə, ədalət Qərbin "hüdudu olmayan imtiyaz mövqeyi"ndən[2] əl çəkməsini tələb edir.

[1] R.Niebuhr, *Moral Man and Immoral Society* (London: SCM Press, 1963), səh. 6-7.
[2] Hans J.Morgenthau, "The Commitments of Political Science," in Hans J.Morgenthau, *Politics in the Twentieth Century*, abridged ed. (Chicago: Chicago University Press, 1971), səh. 258.
[3] E.H.Carr, *The Twenty Years' Crisis, 1919-1939: An Introduction to the Study of International Relations*, with new introduction by Michael Cox, ed. (New York: Palgrave, 2001). Həmçinin bax: Bullun dəyərləndirməsi, "The Twenty Years' Crisis Thirty Years on," in Alderson and Hurrell, *Hedley Bull on International Society*, səh.125-138. Karrın burada verilmiş digər yazısı üçün bax: Charles A.Jones, "Carr, Mannheim and a Post-Positivist Science of International Relations," *Political Studies*, 45 (1) (1997), səh. 232-246. Karr haqqında ətraflı esselər üçün bax: Michael Cox ed., *E.H.Carr: A Critical Reappraisal* (London: Palgrave, 2000).
[4] Bull, *The Anarchical Society*, səh. 78.

Morgentau: siyasət güc uğrunda mübarizə kimi

EŞLİ TELİS

Benjamin Frankel, ed. *Roots of Realism* (London: Frank Cas, 1996).

XX əsrdə siyasi realizmin, bəlkə də, ən görkəmli və fikirlərini ən aydın şəkildə ifadə etmiş təmsilçisi olmuş Hans Morgentau siyasətin hərtərəfli fəlsəfi izahını verməyə çalışmışdır. Siyasət, əsasən, güc uğrunda mübarizə kimi başa düşülürdü və "əsasən, düşüncənin aydınlığı üçün adət edilməmiş formada göstərilən sürəkli cəhd"[3] olan fəlsəfə dövlət adamlarının siyasi reallıqlar anlayışını yönəldə biləcək fundamental prinsipləri aradan qaldırmaq məqsədi daşıyırdı. İkinci Dünya müharibəsindən əvvəl Avropadan elmi miqrasiyanın bir parçası olaraq Amerikaya gəlişi ilə Morgentau dərhal o zaman xarici siyasətin tədqiqatçıları və icraçıları arasında hakim olan böyük müzakirəyə cəlb edildi.

Qanunçu ənənə Amerika xarici siyasətinin məqsədlərini universal əxlaq prinsiplərinin axtarışı və qəbuluna əsaslanan ahəngdar beynəlxalq cəmiyyətin qurulması baxımından müəyyən

[1] Yenə orada, səh. 183.
[2] "Justice in International Relations: The 1983 Hogey Lectures," in Alderson and Hurrell, *Hedley Bull on International Society*, səh. 244.
[3] Uilyam Ceymsdən gətirilmiş bu sitat götürülüb: Kenneth Thompson, "Philosophy and Politics: The two Commitments of Hans J.Morgenthau," in *Truth and Tragedy*, augmented edition, Kenneth Thompson and Robert J.Myers, eds. (News Brunswick, NJ: Transaction, 1984), 28.

etməyə cəhd etmişdi.[1] Bu məqsədin əsasında maarifçiliyin liberal fəlsəfəsi durur və o hesab edir ki, universal şəkildə işlək mücərrəd prinsiplərdən qaynaqlanan rasional və əxlaqi siyasi düzənə hal-hazırda nail oluna [bilərdi]. O, insan təbiətinin mahiyyəti etibarilə mərhəmətli və sonsuz dərəcədə üzüyola olmasını nəzərdə tutur və sosial nizamın rasional standartlara cavab verməkdə uğursuzluğunu bilik və anlaşmanın çatışmazlığı, sosial təsisatların köhnəlməsi və müəyyən təcrid olunmuş insan və qrupların mənəvi cəhətdən pozğunluğu ilə əlaqələndirir.[2]

Maraqların daimi uzlaşması ilə bağlı bu ehtimal sayəsində qanunçu ənənə beynəlxalq münaqişənin yanlış siyasi anlaşma və məqsədyönlü olmayaraq yol verilən nöqsanların nəticəsi kimi qəbul edirdi. Müvafiq olaraq "təhsil, islahat və qüvvədən təsadüfi istifadə"də[3] təcəssüm edən ağıl insan varlıqlarının öz ümumi vəziyyətləri haqqında əsl həqiqəti başa düşə biləcəyi həll yolu kimi təqdim olundu. Belə ki, əgər bütün insanlar ağılın dalınca getsələr, onları bir-birindən ayıran münaqişələr aradan qalxar və ya ən pis halda, kompromislə həll olunar; onlara əzab verən ehtiyaclar təmin olunar; həyatlarını məhv edən qorxular dağılar; və əmin-amanlıq, rifah və xoşbəxtlik hakim olar.[4]

Belə vəziyyətdə hüquq təsisatları, təhsil və ticarət insanların öz qarşılıqlı asılılığını və bir-birinə uyğunlaşan maraqlarını qəbul etməsinə səbəb ola biləcək əsas alətlər kimi nəzərdə tutulurdu. Ümid olunurdu ki, bunun qəbul edilməsi dünya dövlətinin yaradılmasının analoqu formasında beynəlxalq cəmiyyətin yaradılması ilə nəticələnəcək. Amerika xarici siyasətinin məqsədləri bu təsəvvür və inamlara uyğun olaraq, ağıla əsaslanan və onunla bəslənən yeni universal əxlaq nizamına dəstək verə bilən beynəlxalq institutların yaradılması kimi təyin olunurdu.

Belə təkliflərin əsasında duran optimist təsəvvürlərdən imtina edən Morgentau belə bir fikir ilə çıxış edirdi ki, maraqların əbədi uzlaşmasını nəzərdə tutmaqdan uzaq olan siyasi həyatın "kökü bütün insanlar üçün ümumi olan güc istəyinə gedib çıxır [və] bu səbəbdən də sosial həyatın özündən də ayrılmazdır".[5] İnsanın əxlaqsız təbiəti haqqında Avqustin düşüncəsinə

[1] Nümunə kimi bax: Frank Tannenbaum, "The Balance of Power versus the Coordinate State," *Political Science Quarterly* 47 (June 1952): ss. 173-197, və Thomas I.Cook and Malcolm Moos, *Power through Purpose: The Realism of Idealism as a Basis for Foreign Policy* (Baltimore, MD: Johns Hopkins University Press, 1954).
[2] Hans J.Morgenthau, "Another Great Debate: The National Interest of the United States," *American Political Science Review* 46 (1952): ss. 961-962.
[3] Yenə orada.
[4] Hans J.Morgenthau, *Scientific Man vs. Power Politics* (Chicago: University of Chicago Press, 1974), s. 14.
[5] Yenə orada, s. 9.

əsaslanan Morgentau Martin Lüterə istinadən qeyd edirdi ki, "şəhvət hissi dəfedilməzdir" və ona görə də insanlıq üçün ümumi olan gücə ehtiraslı istək "pozğunluq ünsürü və hətta ən yaxşı məqsədlərə bir damcı da olsa belə, pislik qatan və onu korlayan günah"[1] kimi qəbul edilməlidir. Analizin nəticəsi bundan ibarətdir ki, buna görə də bütün siyasət heç bir səbəbdən olmasa da belə, bədxah insan tərəfindən həyata keçirilməsi səbəbindən mənfurdur.

Morgentau siyasi fəaliyyətin təbiətini daha da diqqətlə araşdıraraq belə bir arqument ilə çıxış edirdi ki, məkrli xarakterin kökü insanın iki meylindədir. Bir tərəfdən o, insan varlığının mövcudluğuna imkan verən kasad maddi və təfəkkür məhsulları uğrunda rəqabətdən yaranan elementar eqoizmdən irəli gəlir. Bu məhsullar, "məsələn, pul, iş, nikah və bu kimi digərləri fərdin həyati ehtiyacları ilə obyektiv əlaqəyə malikdir" və ona görə də bu məsələdə insanların xudbinliyi "hüdudlar"ın olması ilə izah oluna bilər.[2] Morgentau digər tərəfdən fiziki mövcudluq ehtiyaclarından qaynaqlanan belə tələblərin əksinə olaraq, *animus dominandi* halını – "öz şəxsinin dairəsini digərlərinə münasibətdə mühafizə etmək, onu artırmaq və ya onu nümayiş etdirmək arzusu"nu[3] – insanın heç bir əməli hüdudu olmayan güc iradəsi kimi görürdü. O, sonuncu meylin sərhədsizliyini birbaşa olaraq nəzəri baxımdan izah edirdi: "İnsanın həyati ehtiyacları təmin oluna bilsə də, onun güc ehtirası yalnız sonuncu insan da onun ağalığının obyektinə çevriləndə, ondan üstün və ondan başqa heç kim olmayanda, yəni o, Allah mövqeyinə qalxanda təmin olunar".[4] Bu iki meyil arasında fərqin kökü belə bir amildədir ki, "xudbinlikdə məqsədin təbii həddi ilə təqdim olunan rasionallıq ünsürü var" (çünki güman olunur ki, insan varlıqlarının mövcudluqlarını qorumaq üçün maddi məhsulların yalnız nisbətən məhdud miqdarına ehtiyacı var), istər hüdudluluq, istərsə də rasionallıq isə "güc iradəsində çatışmır".[5]

Belə görünür ki, sanki Morgentau bəyan edir ki, siyasətin mənfurluğu ontoloji olaraq bir-birindən fərqlənən iki meyildən irəli gəlir: mövcudluğun qorunub saxlanması ehtiyaclarının səbəb olduğu zərurətdən qaynaqlanan xudbinlik və istila və ağalıq sevincinə can atan ayrı-ayrı fərdlərin seçimlərindən qaynaqlanan güclənmə. O, ontoloji fərq kimi görünənlərin üstündən ötəri keçərək bildirir ki, bu ziddiyyətlər, əgər onlar ümumiyyətlə mövcuddursa, sadəcə, fenomenolojidir, yəni insanın eyni formada bədxah təbiətinin müxtəlif aspektləridir:

[1] Hans J.Morgenthau, *Scientific Man vs. Power Politics*, ss. 194-195.
[2] Yenə orada, s. 193.
[3] Yenə orada, s. 192.
[4] Yenə orada, s. 193.
[5] Yenə orada, ss. 193-194.

"Bu yolla güc arzusunu bir tərəfdən xudbinlikdən, digər tərəfdən isə önə çıxan digər istəklərdən ayırmaqla həmin arzunun əsl təbiətinə artıq ədalətsizlik etmiş oluruq; əslində, insan digər insana münasibətdə hər hansı bir hərəkət etmək niyyətində olduğu istənilən məqamda mövcud olur. Bunu sosial fəaliyyətin digər komponentlərindən konseptual olaraq ayırmaq olar; əslində, öz şəxsini digərləri qarşısında üstün etmək arzusunun ən azı bir qoluna sahib olmayan heç bir sosial fəaliyyət yoxdur. İnsan təbiətinin mənfurluğunun ümumiliyini təşkil edən, məqsədin özünəməxsus xudbinliyindən və digər mənfurluğundan başqa, güc arzusunun bu şəkildə olan ümumiliyidir".[1]

Nəticə etibarilə bir-birinin arasında eqoist insan varlıqlarının olması faktı *animus dominandi* halının özünü təsbit etməsi üçün kifayətdir və bunda bütün sosial ədavətin səbəbləri müəyyən edilə bilər. Ona görə də Morgentaunun siyasət anlayışının mərkəzində münaqişənin açıq olan ilkin görüntüsünün izahı durur: ədavətin səbəbi insanın mənfur və eqoist təbiətidir. Mahiyyəti etibarilə hər bir insanın öz maraqlarını bütün digər insanların maraqlarında öndə yerləşdirməsi formasında olan bu eqoizm güc uğrunda mübarizə ilə nəticələnir, çünki "bir kəsin özü üçün istədiyinə digəri artıq sahibdir və yaxud o da sahib olmaq istəyir".[2] Nəticədə siyasət mənfurluq arenasına çevrilir və burada fərdlərin hətta digərlərinə qarşı xudbin olmamağa dair mənəvi öhdəliyə uyğun olaraq başqa cür hərəkət etməyə cəhd etsə belə, xudbinlik etməkdən başqa seçimi yoxdur.[3]

Əgər Fukidid və Makiavellinin etdiyi kimi, bədxah və nizamsız fərdlər bu şəkildə siyasi həyatın həqiqi vahidləri kimi qəbul edilərlərsə, siyasi nizamın necə qurula biləcəyi məsələsi dərhal təxirəsalınmaz bir məsələyə çevrilir. Fukidid bu suala birbaşa cavab verməkdən çəkinib, lakin Makiavelli mövzunun qabarıqlığını qəbul edərək, induktiv olaraq tarixi faktlar əsasında aydın bir cavab vermişdir: dövlətlər güc, başlıca olaraq nümunəvi *virtu (kamil)* fərdlər tərəfindən törədilən böyük miqyaslı cinayətlər vasitəsilə yaradılır. Morgentau isə, əksinə, siyasi nizamın necə yaradıldığı haqqında ümumiyyətlə susur. O hesab edir ki, "hərəkət edənlər hər zaman insanlardır" və "cəmiyyətin, dövlətin və ya istənilən siyasi və digər növ kollektivin fəaliyyəti belə olduqda, ümumiyyətlə, heç bir empirik mövcudluğa malik deyil"[4], lakin o, beynəlxalq siyasətin analitik vahidləri kimi münasibət bəslədiyi "dövlət"

[1] Hans J.Morgenthau, *Scientific Man vs. Power Politics*, s. 194.
[2] Yenə orada, s. 192.
[3] Yenə orada.
[4] Yenə orada, s. 187.

adlanan, komponentləri bir-biri ilə çox az əlaqələnmiş aqreqatlarda eqoist fərdlərin necə bir araya gətirildikləri haqqında heç bir izah vermir. Bunun əvəzinə o bu məsələni təsviri olaraq bütün makroskopik sosial mövcudluqların eqoist fərdlərin səmimi şəkildə qurulmuş birlikləri kimi münasibət göstərərək həll edir. Bu zaman Morgentau ən azından bu məsələdə Fukididin mövqeyinə əks etdirir. İnsan varlıqlarının təyinedici xarakteri hesab olunan özünədüşkün güc axtarışı sosial həyatın bütün səviyyələrində müşahidə olunan operativ mexanizmdir, lakin heç bir nəzəriyyəçi ondan dövlət kimi makroskopik mövcudluqların ya mənbəyinin, ya da strukturunun səbəbiyyət izahını vermək üçün istifadə etmir, baxmayaraq ki, bu bir faktdır ki, onların hər ikisi öz şərhedici sistemlərində fərdlər üçün nəzəri üstünlük, dövlətlər üçün isə analitik üstünlük müəyyən edir.[1]

Belə bir izah mexanizminin çatışmazlığı özünü Morgentaunun daxili və beynəlxalq siyasət arasındakı əlaqələrə dair müzakirələrində də göstərir:

"Mövcud sosial şərtlərdən asılı olmayaraq, beynəlxalq arenada güc uğrunda mübarizənin adi bir tarixi hadisə olduğu mülahizəsinə qarşı əsaslı arqument daxili siyasətin təbiətindən qaynaqlanmalıdır. Beynəlxalq siyasətin mahiyyəti daxili siyasətin mahiyyəti ilə eynidir. Həm daxili, həm də beynəlxalq siyasət güc uğrunda mübarizədir və yalnız bu mübarizənin yer aldığı daxili və beynəlxalq sferalardakı şərtlərin müxtəlifliyinə görə dəyişir.

Xüsusilə ağalıq tendensiyası ailədən başlamış, qardaşlıq assosiasiyaları və peşəkar assosiasiyalar, yerli siyasi təşkilatlar da daxil olmaqla dövlətə qədər bütün insan birliklərinə xas olan elementdir. Ailə səviyyəsində qayınana ilə onun övladının həyat yoldaşı arasında tipik olan münaqişə öz mahiyyətinə görə güc uğrunda mübarizə, artıq kök salmış güc mövqeyinin yeni güc mövqeyinin qurulmasına edilən cəhdlərə qarşı müdafiəsidir. Mahiyyətcə bu, beynəlxalq arenada status-kvo siyasəti ilə imperializm siyasəti arasındakı münaqişənin əlamətidir. Sosial klublar, qardaşlıqlar, fakültələr və biznes təşkilatları ya artıq əlində olan gücü saxlamaq istəyən, ya da daha böyük gücə nail olmağın yollarını axtaran qruplar arasında güc uğrunda aramsız mübarizənin səhnələridir. Biznes müəssisələri arasında rəqabətli yarışlar, eləcə də işçilər və işə götürənlər arasında əmək mübahisələri çox vaxt yalnız və bəzən hətta, ümumiyyətlə, iqtisadi mənfəətlər uğrunda deyil, birinin digəri və ya digərləri üzərində nəzarəti,

[1] Şübhə yoxdur ki, Fukidid dövlət strukturu məsələsindən bəhs edir. Lakin onun məsələyə dair nəzəriyyəsi yalnız özünü dolayı olaraq siyasi süqut prosesinin təsviri zamanı büruzə verir. O, dövlət strukturlarının yaradılmasının səbəbiyyət izahını vermir (nə qeydlərində, nə də nitqlərində), necə ki, bunu imperializm və sistem müharibələri məsələlərini müzakirə edən zaman edir.

yəni güc uğrunda aparılır. Nəhayət, bir xalqın, xüsusilə demokratik xalqın siyasi həyatı bütünlükdə, lokal səviyyədən milli səviyyəyədək güc uğrunda aramsız mübarizədir. Vaxtaşırı seçkilərdə, qanunvericilik məclislərindəki səsvermələrdə, məhkəmə çəkişmələrində, inzibati qərarlarda və icra tədbirlərində – bütün bu fəaliyyət istiqamətlərində insanlar digər insanlar üzərində güclərini saxlamaq və ya bərqərar etməyə səy göstərirlər... Güc uğrunda mübarizənin hər yerdə, bütün sosial münasibətlərdə və sosial təşkilatlanmanın bütün səviyyələrində bu cür mövcud olması baxımından beynəlxalq münasibətlərin labüd olaraq güc siyasəti olması təəccüblüdürmü? Bəs güc uğrunda mübarizənin daxili siyasətin bütün qollarının daimi və zəruri elementi olduğu halda, beynəlxalq siyasətin təsadüfi və ötəri əlaməti hesab olunması daha təəccüblü deyilmi?"[1]

Ona görə də daxili və beynəlxalq siyasətin oxşarlığı məntiq nümayişi əvəzinə induktiv analogiya vasitəsilə təsbit edilir. Dövlətlər gücə can atan fərdlərdən təşkil olunmuş vahidlər kimi təsvir olunur, bu halda beynəlxalq siyasət isə daxili siyasətin aydın şəkildə izah olunmasından fərqli olaraq, az təsvir olunur. Ona görə də beynəlxalq siyasətin anlaşılmasına belə yanaşma əvvəlki realistlər tərəfindən təklif olunan əsas arqumentlə, daha dəqiq desək, bütün siyasi ədavətin səbəbinin insanın eqoist təbiətinin olması ilə assimilyasiya edilir. Lakin daxili və xarici siyasi düzənin səbəbiyyət baxımından necə bir-biri ilə əlaqələndiyinin ətraflı izahını vermiş bir öncəki realistdən – Makiavellidən fərqli olaraq, Morgentaunun marağı sürətlə daxili sferadan tamamilə beynəlxalq siyasətə keçir. Ona görə də müvafiq olaraq üçüncü və ikinci planda yer alan beynəlxalq sistemin və dövlətin təbiətinin güc ehtirasına malik insan olan birinci plan komponenti ilə müəyyən xarakter oxşarlıqlarını bölüşdüyünü bəyan edildikdən sonra fərdlərin nəzəri üstünlüyü, ümumiyyətlə, analizdən kənarlaşdırılır və Morgentaunun şah əsəri olan *"Dövlətlər arasında siyasət" ("Politics Among Nations")* cəld şəkildə öz əsas məqsədinə keçid edir və bu məqsəd beynəlxalq siyasətin dövlətlər adlanan analitik baxımdan əsas vahidlər arasında güc uğrunda mübarizə kimi təsvir etməkdir.

Gözlənildiyi kimi, Morgentau işə gücün xarakterinin qısa analizini verməklə başlayır, lakin gücü dar şəkildə "xoşməramlı silahlar"dan qaynaqlanan məcburetmə bacarığı kimi təsvir etmiş Makiavellidən fərqli olaraq, Morgentau gücü "mənfəət gözləntisi, zərər xofu və ayrı-ayrı şəxslərə, yaxud təsisatlara sevgi və ya hörmət"dən qaynaqlanan bərabərsizliklər arasında "psixoloji əlaqə"[2] kimi təyin edir. Beləliklə, təhdidlər, əmrlər, inandırma [və] xarizma –

[1] Morgenthau, *Politics Among Nations*, ss. 31-33.
[2] Yenə orada, s. 27.

bunların hamısı gücü həyata keçirməyin üsullarıdır və "siyasi gücü zorakılığın real tətbiqi səviyyəsinə qədər azaltmaq, yaxud da onu ən azından uğurlu güc ilə hədələmə ilə bərabərləşdirmək tendensiyası"ndan beynəlxalq siyasətdə nüfuzun müstəqil element kimi inkarı zəminində açıq şəkildə imtina olunur.[1] Daha sonra əsərdə dövlətin gücünün xarakteri coğrafiyadan tutmuş təbii ehtiyatlar, hərbi hazırlıq, əhali, milli xarakter, əxlaq normaları, diplomatiya və hökumətin xarakterinə qədər hər bir mümkün komponenti əhatə edən diqqətlə hazırlanmış tipologiya ilə müfəssəl şəkildə izah olunur.[2] Güc haqqında müzakirə "Tək amil nöqsanı" adlanan bölmənin yer alması ilə bitir və burada Morgentau coğrafiyaya, hərbi gücə və ya milli xarakterə əsaslanmasından asılı olmayaraq, təksəbəbli izahın verilməsinin yanlışlığını müzakirə edir.[3]

"Dövlətlər arasında siyasət" ("Politics Among Nations") əsərində güc haqqında müzakirə Morgentaunun siyasət elmi ehtimalına münasibətinə işıq salması səbəbindən olduqca maraq doğurur. Fukidid və Makiavelli müxtəlif üsullarla siyasi realizmin hər hansı bir elmi formulunu təqdim etməyə cəhd etdikləri halda, Morgentau siyasət "elmi" ehtimalından qızğın mübahisəli imtinasına görə məşhurdur. Belə ki, bir tərəfdən "siyasətin ümumilikdə cəmiyyət kimi kökü insan təbiətində olan obyektiv qanunlar tərəfindən idarə olunduğu"nu[4] iddia etdiyi halda, o digər tərəfdən bu obyektiv qanunların rasionalist araşdırmanın mücərrəd və deduktiv üsulları ilə təyin edilə biləcəyi fikrini səylə rədd edir. Morgentau rasionalizmin idarəetmə və dəyişikliyin avtomatik şəkildə siyasi anlaşma tərəfindən əsaslandırılması iddiası ilə təyin olunduğunu hesab edərək, siyasət "elmi"ndən belə bir zəmində imtina edir ki, o, insan bədxahlığı reallığını dəyişmək imkanı haqqında illüziyaya sahibdir. Onun bütünlükdə siyasət elmi ilə bağlı əsassız ittihamı belə bir yanlış təsəvvürdən irəli gəlirdi ki, "siyasətə bütün elmi yanaşmalar" istər-istəməz insanın digər insanlara düşmən münasibətini elmi üsullarla hazırlanmış həll yolları ilə aradan qaldırmaqla bağlı yalançı vədlər verirdi. Onun bəzi rasionalizmlərin, xüsusilə onun böyük müzakirənin gedişində qarşılaşdığı liberal-qanunçu növdən olanların mücərrədliyinin tərəfində olmaqdan imtina etməsi ona insanın digər insanlara düşmən münasibəti haqqında daimi təsəvvürə əsaslanan alternativ rasionalizmin həqiqətən yaradıla bilməsi ehtimalını görməyə imkan vermirdi. Belə bir rasionalizm yalnız daha böyük

[1] Yenə orada.
[2] Yenə orada, ss. 97-144.
[3] Yenə orada, ss. 153-160.
[4] Yenə orada, s. 4.

yoxlanışın məntiqi və deduktiv realist formullarını və gücün geniş izahını təqdim etməyə qadir olmaz, həm də tarixdə mənfurluqları birdəfəlik aradan qaldıra biləcək elmi həll yollarını təqdim etməyə qadir olmadığını asanlıqla qəbul edər.

Morgentaunun belə bir rasionalist siyasi realizm ehtimalını nəzərdə tuta bilmədiyini nəzərə alsaq, o, mücərrəd deduktiv sistemləşdirmədən "beynəlxalq siyasətin prinsipləri"nin "[müxtəlif] hadisələr arasında [induktivist] müqayisələr" əsasında anlaşılması naminə ümumiyyətlə imtina etdi.[1] Başqa sözlə, tarix beynəlxalq siyasətin öyrənilməsində müstəsna olmasa da, əsas bünövrə olmalı idi və beynəlxalq siyasət fənnin də öz növbəsində vəzifəsi "xüsusi olanı ümumi olandan fərqləndirmək və hər ikisi haqqında ifadəli şəkildə bəhs etmək"dən[2] kimi elmi məqsədlə bağlıdır. Beynəlxalq siyasətin bünövrələri haqqında belə təsəvvür nəzərə alınarsa, "*Dövlətlər arasında siyasət*" əsərinin böyük bir hissəsinin, əsasən, "siyasi arenanın xəritəsi"nin çəkilməsinə həsr olunduğu olması təəccüb doğurmur. Aydın məsələdir ki, "belə bir xəritə tarixin verilmiş dövründə mövcud olan siyasi mənzərənin tam təsvirini vermir", o daha çox "onun coğrafiyasının daim dəyişən tarixi parametrlərdən fərqli olaraq, zamanı olmayan xüsusiyyətləri"ni təsvir edir.[3]

Beynəlxalq siyasətin zamanı olmayan xüsusiyyətlərinin təhlilinə edilən bu cəhd Morgentaunun beynəlxalq siyasəti güc uğrunda mübarizə kimi analizində özünü hiss etdirir. Burada analizin əsas kateqoriyası kimi "milli maraq" müəyyən edilir, hansı ki, öz növbəsində dövlətin öz mövcudluğunu qoruyub saxlaması, eləcə də "məntiqi cəhətdən ona uyğun gələn digər [dəyişkən və əlavə] mənaların bütöv sırası" ilə əlaqədar daimi "minimum tələblər"dən ibarətdir.[4] Dövlət öz fəaliyyətində hər zaman milli marağa dəstək verməyə çalışdığından tarixdə güc uğrunda mübarizənin üç əsas formaya uyğun gəldiyi görünür: gücü qorumaq məqsədi daşıyan "status-kvo" siyasəti; gücü artırmaq məqsədi daşıyan "imperializm" siyasəti; və şöhrət qazanmaq və gücü nümayiş etdirmək məqsədi daşıyan "nüfuz" siyasəti. Dövlət nə üçün bu və digər siyasəti seçir? Morgentau empirikdən daha çox, məntiqi nöqteyi-nəzərdən cavab verir. Belə ki, məsələn, imperialist siyasəti seçməyin sövqedici amilləri ya "qələbə ilə bitən müharibələr", "məğlubiyyətlə bitən müharibələr", ya da "zəiflikdir"

[1] Yenə orada, s. 17.
[2] Norman A.Graebner, "Morgenthau as Historian," in Thompson and Myers, *Truth and Tragedy*, s. 67.
[3] Hans J.Morgenthau, *Dilemmas of Politics* (Chicago: University of Chicago Press, 1958), s. 39.
[4] Yenə orada, s. 65.

və onların hər biri tarixi hadisələr əsasında izah olunur. Eynilə tarix bütün imperializmlərin eyni olmadığı iddiası üçün bünövrəni təmin edir və ona görə də Morgentau onları həm məqsədlərinin təbiətinə, – "dünya imperiyası", "qitə imperiyası" və "lokal üstünlük", – həm də onlara nail olmaq üsullarının xarakterinə – "hərbi", "iqtisadi" və "mədəni" – fərqləndirməyə keçir.

Milli gücün tarixi hadisələr əsasında aparılan müzakirəsi ona qoyulan müxtəlif məhdudiyyətlərin analizi ilə tamamlanır və burada da Morgentaunun məqsədi siyasi mənzərənin çoxsaylı xüsusiyyətlərinin hər şeyi əhatə edən kataloqunu təqdim etməkdən ibarətdir. Belə ki, "qüvvələr tarazlığı", "beynəlxalq əxlaq normaları" və "beynəlxalq hüquq" fərqli imkanlarına baxmayaraq, güc meylinə müvafiq formada məhdudlaşdırıcı qüvvələr kimi qəbul olunur.[1] Aydındır ki, qüvvələr tarazlığı dövlətin gücünün maneəsiz tətbiqinə qoyulan ən önəmli məhdudiyyətdir və "hər biri ya status-kvonu qoruyub saxlamağa, ya da aradan qaldırmağa çalışan bəzi dövlətlər tərəfindən gücə edilən cəhd zərurətdən ...qüvvələr tarazlığı adlanan konfiqurasiyaya və onun mühafizə edilməsi məqsədi daşıyan siyasətlərə gətirib çıxarır".[2] Belə bir izahın verilmiş vəziyyətin qanunauyğunluğundan deduktiv şəkildə irəli gələn izaha bənzədiyinə görə formaca rasionalist olduğu göründüyü halda, Morgentau tərəfindən klassik qüvvələr tarazlığı ilə əlaqədar 6 şərtin verilən təsviri nəzərə alınarsa, qaçılmaz nəticə bundan ibarətdir ki, o, əslində, Avropa dövlətçiliyinin tarixi təcrübəsindən doğur; həmin vəziyyətlər bunlardır: çoxsaylı müstəqil dövlətlərin mövcudluğu; ümumi Avropa mədəniyyəti; beynəlxalq sistemin coğrafi hüdudları; kütləvi qırğın silahlarının olmaması; elitanın siyasət yürütmə azadlığı; və "tarazlayıcı"nın mövcudluğu.[3] Beynəlxalq münasibətlərdə müharibədən sonrakı dəyişikliklər nəzərə alınarsa, Morgentau qüvvələr tarazlığı haqqında müzakirəsini pessimist notlarda bitirir, çünki uğurlu tarazlamanın 6 klassik şərtinin çoxu, demək olar ki, pozulmuşdu. Əslində, onun Avropa tarazlığı haqqında müfəssəl induktiv şərhini nəzərə alsaq, onun öz təsvirləri baxımından tarazlıq anlayışının, ümumiyyətlə, hər hansı məna kəsb edən bir anlayış olub-olmadığı müəyyən deyil, çünki bəzi hallarda dövlətlərin öz güclərini qarşı tərəfin gücü ilə bərabərləşdirməyə, digər hallarda isə aşkar üstünlüyə can atdığı görünür.[4] Ola bilsin ki, bu səbəbdən də o,

[1] Morgenthau, *Politics Among Nations*, ss. 161-296.
[2] Morgenthau, *Dilemmas of Politics*, ss. 41, 258.
[3] Morgenthau, *Politics Among Nations*, ss. 167-195.
[4] Yenə orada, ss. 196-223.

başqa bir yerdə belə bir nəticəyə gəlir ki, "imperializmin beynəlxalq siyasətin universal fenomeni olması xarakteri qorunub saxlanmalıdır".[1]

Morgentaunun *"Dövlətlər arasında siyasət"* əsəri realist proqramın induktiv quruluşunun xülasəsini təqdim edir, çünki o, beynəlxalq siyasətdə özünü büruzə verən mürəkkəb və çox vaxt fərqli davranışların müfəssəl inventarizasiyasıdır. Bu davranışlar dövlətin gücün maksimallaşdırılması ilə təhlükəsizliyi artırmaqla əlaqədar fəaliyyətlərini ifadə etmələri baxımından ortaq bir xətti bölüşdükləri halda, onun əsərində dar formada nizamlamaya ya heç bir cəhd edilməmiş, ya da buna nail olunmamışdır. Əslində, siyasi faktların hətta zaman-zaman fərqli görünsə belə, müfəssəl təsviri açıq şəkildə arzuolunan hesab edilib, çünki siyasi həyat haqqında rasional-nəzəri anlayış yalnız xaotik olmuş, yaxud ola bilən reallığa yanlış yön verib. Morgentau, onun öz sözləri ilə desək, siyasətin rasionalist quruluşların süzgəcindən keçərkən "təhrif olunmuş, qeyri-təbii və qərəzli şərhi"[2] haqqında xəbərdarlıq edərək, fəlsəfi cəhətdən şərtləndirilmiş empirizmi beynəlxalq münasibətlərin öyrənilməsi üçün ideal metodologiya və rasionalist elmə müvafiq alternativ kimi təqdim edirdi.

Beynəlxalq siyasəti öyrənən tələbənin mənimsəməli və heç vaxt unutmamalı olduğu ilk dərs budur ki, beynəlxalq proseslərin mürəkkəbliyi sadə həll yolları və etibarlı proqnozları qeyri-mümkün edir. Burada alim və şarlatanın yolları ayrılır. Xalqlar arasında siyasəti təyin edən qüvvələr və onların siyasi əlaqələrini həyata keçirdikləri üsullar haqqında biliklər beynəlxalq siyasətə dair faktların anlaşılmazlığını üzə çıxarır. Hər bir siyasi situasiyada təzadlı tendensiyalar özünü göstərir. Bu tendensiyalardan biri əksərən müəyyən şərtlər altında digərini üstələyir. Lakin hansı tendensiyanın üstün olacağını söyləmək kimsənin gümanına qalır. Bu halda tədqiqatçının edə biləciyi, ən yaxşı halda, potensial imkanlar kimi, "müəyyən" beynəlxalq vəziyyətə xas olan müxtəlif tendensiyaları da təyin etməkdir. O bir tendensiyanın digərini üstələməsinə kömək edən müxtəlif şərtləri göstərə və sonda müxtəlif şərtlərin və tendensiyaların həqiqətdə üstünlük ehtimallarını qiymətləndirə bilər.[3]

"Dövlətlər arasında siyasət" əsəri belə bir yanaşma ilə siyasəti dərk etməyin bütün rasionalist-elmi üsullarının səmərəsi və dəyərindən imtinanı təqdim edir. Beynəlxalq siyasi davranışın heç bir rasional tədqiqi ola bilməz, yalnız dövlətçiliyin müxtəlif ağlabatan

[1] Hans J.Morgenthau and Kenneth W.Thompson, eds., *Principles and Problems of International Politics* (New York: Knopf, 1950), s. 61.
[2] Morgenthau, *Politics Among Nations*, s. 17.
[3] Yenə orada, s. 19.

formalarının izahedici təsvirləri ola bilər. Ona görə də siyasət "elmi" *episteme politike* məfhumundan, həm yaxından iştirak, həm də uzaqlıq tələb edən təcrübi elmdən başqa bir şey deyil. Uzaqlıq onu nəzərdə tutur ki, dövlət adamı sanki arxada durmalı və fəlsəfi baxımdan şərtləndirilmiş və induktiv şəkildə topladığı bilikdən çoxsaylı əsaslandırılmış və ağlabatan siyasi seçimlərin dəyərləndirilməsi üçün istifadə etməlidir; lakin həm də yaxından iştirak tələb olunur, o mənada ki, ən yaxşı siyasi seçimlər yalnız bir dövlət adamının və onun dövlətinin üz-üzə qaldığı alternativlərin konsteksti daxilində edilə bilər.

Güc dünyasında real həqiqətlərin belə uğurlu seçimlər üçün tələb olunan izahına cəhd edərkən Morgentaunun məqsədi onun əsərində əks olunduğu kimi qoyduğu vurğuya görə Makiavellinin məqsədindən əhəmiyyətli dərəcədə fərqlənir; Makiavelli daha çox uğurlu siyasətin üsullarını müəyyən etməkdə və siyasətin, əsasən, həmin məqsədin vasitəsi kimi dərk edilməsində maraqlı olduğu halda, Morgentaunun daha çox siyasətin, onun xarakterinin və hüdudlarının öz maraqlarına uyğun dərk edilməsində maraqlı olduğu görünür. Normativ siyasət marağı Morgentaunun bütün əsərində ikinci planda mütləq şəkildə mövcud olduğu halda, onun realist proqramın təkamülünə özünəməxsus töhfəsi onun beynəlxalq siyasət təcrübəsinə dair sistemli, empirik şərhindən ibarətdir. Bu şərh, şübhə yoxdur ki, insan təbiəti və insan müqəddəratı haqqında özünəməxsus baxışlarla şərtlənmişdir, lakin son analizdə əsas məqsəd "intellektual elm sahəsini icmalçıya həvalə edən, rasional nizamı siyasətin müzakirə obyektinə çevirən və bununla siyasətin nəzəri idrakını mümkün edən"[1] çərçivə yaratmaqdır.

Klassik realizm bu məqsədilə, demək olar ki, elmi nəzəriyyəyə doğru uzun yürüşündə öz yüksək nöqtəsinə çatdı. O, Fukididin əsərində dünyanın əlverişli görüntüsünü yaradaraq, metafizik tədqiqat proqramı kimi ərsəyə gəldi, siyasəti görüntüləməyin yeni ənənəsini doğurdu. Siyasətin bu şəkildə anlaşılması zaman keçdikcə real idarəetmə arzusuna rəvac verdi və təəccüblü deyil ki, Makiavellinin əsərində realist proqram siyasi nəticələr üzərində inhisarın ələ keçirilməsi məqsədi daşıyan praktiki ümumiləşdirmələrə təkamül edir. Sonuncu mərhələdə realist proqram adi texnoloji idarəetməni aşan arzuda təcəssüm etməyə başladı və nəticədə Morgentaunun əsərində o, empirik məlumatın sistemləşmiş qrupunu təqdim edən forma alır və beləliklə, indi onun məqsədi qismən məharətli xarici siyasət yürütmək olduğu halda, fundamental məqsədi öz marağı naminə obyektiv bilik formalaşdırmaqdır. Morgentaunun əsəri sonuncu cəhdi

[1] Hans J.Morgenthau, *Politics Among Nations*, 5th ed. (New York: Knopf, 1978), ss. 4-5.

təqdim etməsi baxımından ədalətli şəkildə ənənəvi realizmi xarakterizə edən empirik yanaşmaların xülasəsi hesab olunur.

Ənənəvi realizm: ağalıq etməyin qanunauyğunluğu, fərdin üstünlüyü, kəskin induktivizm

Bu günə qədər üç növ araşdırmaçı – qədim, müasir dövrdən əvvəlki və müasir – tərəfindən öyrənilmiş siyasi realizm ənənəsi realist tədqiqat proqramının növbəti formada ümumiləşdirilməsini təklif edir.

Əsaslı iddialar səviyyəsində hər üç nəzəriyyəçi nizam məsələsi ilə əlaqədar olur və onların hamısı münaqişə gərçəkliyini və ədavəti ağalığın zərurətdən doğan qanunauyğunluğu ilə izah edir. Hər bir nəzəriyyəçi ya birbaşa, ya da dolayı yolla bəyan edir ki, bütün siyasi varlıqlar – hətta yalnız *ex ante* (gözlənilən) təhlükəsizliyə nail olmağa çalışsalar da belə –rəqabətin tələbləri ilə son nəticədə idarəetmə, istila və ağalığa sövq edən fəaliyyət kursu tutmağa məcbur olurlar. Lakin yalnız Makiavelli bu qanunauyğunluqdan birbaşa olaraq nizamın necə yaradıldığını izah etmək üçün istifadə edir. Həm Fukidid, həm də Makiavelli məsələnin vacibliyini qəbul edir, lakin heç biri ona birbaşa və ya təsadüfi formada münasibət göstərmir. Yalnız Makiavelli həm fərdlərin "dövlət" adlanan nizam qurucu varlıqlar yaratmaq üçün qarşılıqlı fəaliyyət prosesini, həm də yaradılmış bu dövlətlərin bundan sonra dövlətlərarası siyasət dünyasında necə davrandığını sistemli şəkildə təsvir edir. Nəticədə Makiavelli "kamil realist" adlandırılmağa iddia edə bilər; onun işi arqumentin aydınlığını və məntiqiliyini və izahat çərçivəsinin bütövlüyünü nümayiş etdirir və bu işdə nə Fukidid, nə də Morgentau onunla rəqabət apara bilməz. Bununla belə, qeyd etmək vacibdir ki, hər üç nəzəriyyəçi etiraf edirdi ki, təhlükəsizlik rəqabəti ağalıq uğrunda mübarizə ilə bitir və dünyada siyasət üzrə ənənəvi realist təlimi vahid formaya salan hər şeydən çox bu əsaslı iddiadır.

Analiz vahidləri və səbəbiyyət qanunauyğunluğu səviyyəsində hər üç nəzəriyyəçi yenə də mühüm oxşarlıqlara malikdir. Fukidid öz tədqiqatını dövlət sistemi haqqında mülahizələr çərçivəsində aparmasına baxmayaraq, diqqəti "milli vahidlər daxilindəki insanlar"ın xarakterinə yönəldir və bununla müstəsna şəkildə insana məxsus olan eqoizmi üzə çıxarmağa cəhd edir. Makiavelli də siyasət haqqında şərhlərini fərdlər üzərində qurur. Eyni şəkildə Morgentau da siyasi birliklərin hər üç səviyyəsində davranışı izah etmək üçün diqqəti yalnız metaforik formada olsa da, insan təbiətindəki mənfurluğa yönəldir. Ona görə də analizin vahidləri baxımından hər üç nəzəriyyəçi öz izahat sistemlərində nəzəri üstünlüyü fərdlərə verir. Onların siyasətin uğurlu

izahında ən mühüm amilinə dair, daha dəqiq desək, eqoist fərdlər və onların xudbin təbiəti mövqeləri üst-üstə düşür. Lakin onlar insan təbiətindən səbəbiyyət izahının verilməsi məqsədilə istifadədə fərqlənirlər. Makiavelli insan təbiətindən həm makroskopik siyasi varlıqların təyin edilməsi, həm də onların davranışının izahı üçün ən çox anlaşılan və açıq şəkildə istifadə edəndir. Fukidid makroskopik siyasi varlıqların davranışının izahı üçün insan təbiətindən istifadə edir, lakin o bunu yalnız dolayı yolla edir; o onların əmələ gəlməsini eyhamla da olsa, izah etmir, lakin bunun əvəzinə diqqəti onların dağılması və süqutuna yönəldir. Morgentau da insan təbiətindən açıq şəkildə beynəlxalq siyasətin səbəbiyyət izahını vermək üçün istifadə etmir. İnsan təbiətinin mənfurluğu arxa planda qalır, lakin ondan nə makroskopik siyasi varlıqların yaradılması, nə də onların davranışı haqqında bir səbəb amili kimi istifadə olunmur. Ona görə də ənənəvi realizmin insan təbiətinə verdiyi əhəmiyyət Popperin baxışlarına görə təqdirəlayiq olsa da, fərdlərarası fəaliyyətin nəticələri kimi həm makroskopik siyasi varlıqların təsis edilməsi, həm də onların davranışını təsvir edən izahın səbəbiyyət sistemlərini açıq şəkildə əhatə edə bilməməsinə görə nöqsanlıdır. Makiavelli burada, əlbəttə ki, istisnadır, lakin onun bu sahəyə verdiyi töhfə də çıxılmaz vəziyyət salınmış olaraq qalır, çünki onun təqdim etdiyi izah sistemi tarixdən qaynaqlanır və induktiv şəkildə əsaslandırılır və belə olduqda yalnız formal (deduktiv) məntiq sistemindən irəli gələn mütləq zərurət çatışmazlığına malikdir.

Nəhayət, metodoloji forma səviyyəsində hər üç ənənəvi realisti empirik-induktivizmə arxalanmaları birləşdirir (hansı ki, Fukidid istisna olmaqla bu və digər dərəcədə dövlətçiliyin təcrübi problemlərinin həlli ilə bağlıdır). Empirik ümumiləşdirmələrin görünən fenomenin aydın şəkildə qavranılması yolu ilə müqayisəsinə belə münasibət, bəlkə də, bilik əldə etməyin erkən üsuludur və empirik ənənə siyasi həyat haqqında müşahidələr əsasında irəli sürülmüş ayrı-ayrı fikirlərin təkrar nəzərdən keçirilməsi və müqayisə edilməsinin induktiv üsulu ilə həm praktiki, həm də nəzəri universal ümumiləşdirmələrin aparılmasına etdiyi cəhdə görə fərqlənir. Hər üç ənənəvi realist öz siyasi analizlərini siyasi həyat haqqında müşahidələr əsasında irəli sürülmüş ayrı-ayrı fikirlərin bu şəkildə bir araya gətirilməsi əsasında aparır. Eynşteynin sözlərindən istifadə etsək, deyə bilərik ki, onların qneseoloji təsəvvürü belədir ki, "təcrübə bizim reallıq haqqında biliyimizin başlanğıcı və sonudur".[1] Heç bir ənənəvi realistdə deduktiv ümumiləşdirmə üsulu

[1] Albert Einstein, "On the Method of Theoretical Physics," in *Ideas and Opinions*, trans. and rev. Sonja Bargmann (New York: Crown, 1954), s.271.

ilə mahiyyətin yüksək dərəcədə təxmin edilməsi vasitəsilə daxilən bir-biri ilə əlaqələnən nəzəri kateqoriyaların postulat kimi qəbul edilməsinə əhəmiyyət verilməsi özünü göstərmir. "Empirik" və "rasional" bilik arasında Eynşteynin haqqında tez-tez bəhs etdiyi böyük dialektikada ənənəvi realistlər birincinin metodologiyasından möhkəm yapışırlar.[1] Deduktiv şəkildə ümumiləşdirilmiş izahlar vasitəsilə müəyyənlik, qabaqcadan proqnozlaşdırma və məntiqi sistemləşdirməyə ehtiyacdan, ən azından onların biri tərəfindən açıq şəkildə (digər ikisi tərəfindən, ola bilsin ki, dolayı yolla) qaçıldığından hər bir ümumiləşdirmənin "irəli sürülən fikirlərinin hər birinin tamamilə şəksiz olacağı bir dəqiqliklə addım-addım aparıldığı"[2] sırf rasional quruluş ideyası hələ özünü qabarıq şəkildə göstərmir.

Ona görə də elmin tənqidi rasionalist metodologiyası baxımından bütün ənənəvi realist yanaşmalar yarımçıq hesab olunmalıdır. Onların analizlərə xas olan vahidlər və bütün siyasi fəaliyyətin təsirli səbəbkarları kimi fərdlərə verdikləri əhəmiyyət təqdirəlayiqdir və metodoloji individualizmin tənqidi rasionalist qeyd-şərtinə tamamilə uyğundur. Lakin onların öz baxışlarını əsaslandırmaq məqsədilə induksiyaya müraciət etmələri problematik olaraq qalır və səbəbiyyət izahlarını sistemli, deduktiv formada nizamlamaqda uğursuz olmaları onları gəldikləri nəticələrin, sadəcə, şans məsələsi deyil, tamamilə məntiqi və nəzəri zərurət [hesabına] olduğunu göstərmək imkanından məhrum edir. Bu mənada ənənəvi realizmdə elmi metodu faydalı və cəlbedici edən fundamental komponent çatışmır və nəticədə təəccüb doğurmur ki, onların varisləri olmuş elmi realistlərin etdiyi ilk dəyişiklik metodoloji olaraq o qədər də əsaslı olmadı: bu, tarixə əsaslanan və induktiv şəkildə təsdiqlənən izahlar sistemindən daha mücərrəd və deduktiv şəkildə sistemləşdirilmiş səbəbiyyət ehtimalları sisteminə keçid idi. Müasir sosial elmə xas olan belə bir səyin göstərilməsinə ilk dəfə Morton Kaplanın cığır açan əsərində rast gəlirik və bu gün şərh edilməli olan onun və Uoltsun yanaşmasıdır.

İraq təcrübəsi

ADMİRAL UİLYAM KROU

Admiral Krou, Qərargah Rəislərinin Birləşmiş Komitəsinin sədri, Oklahoma Universitetində geosiyasət üzrə professor, Vaşinqtonda Corctaun Universitetinin Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi İnstitutunda məsləhətçi və ABŞ-ın Böyük Britaniyadakı səfiri olmuşdur. Son dövrlərdə o, Prezidentin Xarici Təhqiqat üzrə Məşvərətçi Bürosunun rəhbəri, Qlobal İmkanlar üzrə Məşvərətçilər Şurası və Vaşinqtonda yerləşən Beynəlxalq Münasibətlər İnstitutunun rəhbəri olacaq. Bu məqalə 2004-cü ilin aprelində Şarlotsvilledə (Virciniya) yerləşən Miller Mərkəzində təqdim edilib.

İraqa müdaxilə bizim dövlətimizə 11 sentyabr hücumlarından daha dərin təsirə malik ola bilər. Bizim bütün xidmət sahələrimiz bu kampaniyadan peşəkar dərslər çıxarıb, lakin mənim onlara toxunmaq fikrim yoxdur. Bunun əvəzinə mən "üçüncü dünya" çağırışları ilə üz-üzə qaldığımız üçün vətəndaşlarımızın xəbərdar olmalı olduğu bəzi daha əhəmiyyətli dərslər hesab etdiyim məsələlərə xitab etmək istəyirəm. Bizim və xüsusilə yeni preemptiv *(hamıdan qabaq sahib olma – red.)* siyasətimizin bir sıra etirazlarla üz-üzə qalacağına bəzi işarələr mövcuddur və onlar hökuməti yeni təhdidləri əvvəlcədən müəyyən etməyə və onlara qarşı çevik hərbi tədbirlər görməyə çağırır.

İraqda qazanılmış sürətli qələbə Amerika ordusunun diqqətəlayiq bacarığını, çevikliyini və texniki üstünlüyünü nümayiş etdirdi. Bu ən azından peşəkarlar üçün sürpriz olmadı. Eyni zamanda düzgün təsəvvür yaratmaq üçün Səddam Hüseynin qüvvələrinin xüsusilə yararsız olduğunu qəbul etmək lazımdır. O, hücumdan əvvəlki zamandan istifadə edə bilmədi və onun ordusu müharibə manevrində iştirak etmək iqtidarında olmadığını göstərdi. Qələbə, əlbəttə ki, döyüş meydanında birbaşa olaraq ABŞ ilə qarşılaşan "üçüncü dünya" qüvvəsinin iqtidarsızlığını bir daha nümayiş etdirdi (mən "üçüncü dünya"nın hadisələrdən dərs çıxardığına o qədər də əmin deyiləm). Rəqiblərimizi terrora, yaxud terror üzrə bəzi professorların qeyd etdiyi kimi, asimmetrik müharibəyə əl atmağa məcbur edən bu gerçəklikdir.

Bununla belə, sürətli kapitulyasiya nisbətən əhəmiyyət kəsb edən bəzi yanlış dəyərləndirmə və təsəvvürlərin üstünü örtdü. Pentaqon belə proqnoz vermişdi ki, işğal kiçik maliyyə xərci hesabına başa gələcək və İraq əhalisi qalibləri xilaskarlar kimi qarşılayacaq. Müdafiə nazirliyi bu günə qədər hələ də hər hansı bir yanlışı qəbul etməyib, bu fikirlərin hər ikisi həqiqətdən çox uzaq idi. İraqa sülh və demokratiyanın gələ biləcəyi halda, ən azından erkən gedişatda bəzi işarələr göstərir ki, bu məqsədlər heç bir halda təmin olunmamışdır. Zülmkarlığın hakim olduğu bir ölkə üçün qeyri-adi olmadığı kimi əhali bizi ilk başda yaxşı qarşıladı, lakin şadyanalıq uzun çəkmədi və bizim qoşunlara artıq getdikcə xilaskarlar kimi deyil, işğalçılar kimi münasibət göstərilir. Pentaqonun məqsədi İraq ordusu məhv edildikdən sonra qüvvələrin əsas hissəsini geri çəkmək idi, lakin bunun mümkün olmadığı əminliklə təsdiqlənmişdir. Yeri gəlmişkən, bizim ölkədə

[1] Eynşteynin üsulunun və elmə rasional və empirik yanaşmalar arasındakı fərqin mükəmməl izahı üçün bax: Gerald Holton, "Thematic Presuppositions and the Direction of Scientific Advance," in *Scientific Explanation*, A.F.Heath, ed. (Oxford: Clarendon Press, 1981), ss. 1-27.
[2] Einstein, "On the Method," s. 271.

belə problemlərin olacağını əvvəlcədən xəbər vermiş ərəbşünaslar var idi, – onların çoxu Dövlət Departamentində idi, – lakin rəhbərlik onları lazımi dərəcədə nəzərə almadı.

Daha böyük sayda qoşunların gətirilə bilməməsi ilə vəziyyət daha da ağırlaşdı. Həmin vaxt ABŞ ordusunun qərargah rəisi general Erik Şinseki Konqres qarşısında bəyan etdi ki, sabitliyin bərqərar edilməsi və yenidənqurma mərhələsində bizim planlaşdırdığımızdan daha böyük hərbi qüvvə lazım olacaq. Lakin Pentaqon rəhbərliyi onun bu fikrini ictimaiyyət qarşısında rişxəndə qoydu və o, tezliklə kiçik bir mərasimlə təqaüdə göndərildi. Belə bir kiçik sual var ki, daşımaçılıq xətlərimizin müdafiəsi üçün xüsusi səriştəli daha çox bölmələrə sahib olmaq və yolları məskunlaşma ərazilərinin ətrafi əvəzinə içindən salmaqla sonrakı xaos və təhlükəsizlik problemlərinin bəzisi yüngülləşmiş olarmı. Daha əhəmiyyətlisi budur ki, Qərargah Rəislərinin Birləşmiş Komitəsinin sədri general Riçard Mayers əvvəlcədən belə bir qeyd irəli sürmüşdü ki, bizim qoşunlarımız polis və dövlət quruculuğu missiyasını həyata keçirmək üçün təlim keçməyib və zaman onun tamamilə haqlı olduğunu təsdiqlədi.

İndi ABŞ-ın ordusu və hərbi-dəniz qüvvələri öz təlim proqramlarında əhəmiyyətli dəyişikliklər edib və bu çatışmazlığı aradan qaldırmaq üçün ciddi səylər göstərirlər. Nəticədə ABŞ ordusu və hərbi-dəniz qüvvələri arasında uzunmüddətli sabitlik qurulması proqramının həyata keçirilməsinin ən yaxşı taktikaları haqqında qızğın mübahisə başlayıb. Nəticənin hesablamadan daha pis olduğu öz təsdiqini tapıb.

Biz ABŞ ordusu və hərbi-dəniz qüvvələri arasındakı bu mübahisəni sınaqdan keçirəcəyik. İndi biz təcavüzkarlardan intiqam alacağıq, lakin bunu tez və tələsik etməyəcəyik. Biz bunu təmkinli və düşüncəli formada edəcəyik. Bu, işğalın nəzərdə tutulmamış daha çox narahatlıq doğuran nəticələrindən birini ərsəyə gətirir. İraqda uzunsürən bir müddətdə böyük qüvvələrin saxlanmış olması ordunu və dəniz qüvvələrini zəiflədib. Məsələn, 120 000-lik qoşunun saxlanılması o deməkdir ki, quru qoşunları hər üç ildə bir il ölkədə, yaxud da Körfəzdəki xidmət yerlərində xidmət edəcək. Bizim digər dənizarxası öhdəliklərimizi yerinə yetirmək bacarığımız ciddi şəkildə təhlükə altına düşüb, yaxud onlar ən azından təxirə salınıb. Məsələn, İraqdakı bölmələrimizin bəzilərini bu vəzifələrindən azad etmədən İrana oxşar şəkildə hücum həyata keçirə bilmərik və bu halda Koreyada döyüşmək də problematikdir.

Təchizatın səhra şəraitində əvvəlcədən təxmin edilməyən sıradançıxması da hərbi büdcəyə, eləcə də ümumi hazırlığa baha başa gəlib. ABŞ-a qayıtmış qrupların hazırlıq səviyyəsi minimum standartdan aşağıdır və onların yenidən təşkili müəyyən vaxt aparacaq. Bundan əlavə, gözlənilməz uzunsürən dənizarxası missiyalar Milli Qvardiya

və Ehtiyatların qüvvəsini də zəiflədib. Ara sakitləşəndən sonra Konqres, güman ki, Milli Qvardiya və Ehtiyatların strukturunda əsaslı təftiş aparacaq.

Konqresdə həmçinin daha geniş həcmli daimi qüvvələr yaratmaq əhvali-ruhiyyəsi var, lakin Pentaqon rəhbərliyi məlum olmayan səbəblərdən buna qarşı çıxır. İraqdakı ABŞ qoşunları və sivilləri bütün mənsubiyyətlərdən – baptistlər, millətçilər, cinayətkar və ölkəyə gələn antiamerikalılar – olan fitnəkarlar üçün hədəflər yaradır. Yeri gəlmişkən, hadisə yerində olan kəşfiyyata – əsasən, ordunun kəşfiyyatına görə, ABŞ-da qarşı çıxanların əksəriyyəti xaricilər tərəfindən ruhlandırılanlardan daha çox daxili qüvvələrdir, baxmayaraq ki, mediada bunun əksi yer alır. Təəssüf ki, etibar edilə bilməyən təhlükəsizlik şəraiti müttəfiqlərimizin bizim səylərimizə qoşulması ehtimalını azaldır, bu isə öz növbəsində digər mühüm əhəmiyyət kəsb edən bir ehtimalın üstündən xətt çəkir: bu ehtimal ondan ibarət idi ki, əgər biz İraqı istila edəriksə, ərəb dünyasındakı ciddi terror müqaviməti qırılar. Daha təcrübəli insanların bu baxışa həqiqətən qoşulacağına inanmaq çətindir.

Eyni şəkildə İraqa erkən hücumun niyə belə zəruri olduğu da aydın deyil. Bizim hərbi imkanlarımız hər gün Səddam Hüseynin imkanlarından daha çox təkmilləşirdi. Bizim aşkar üstünlüyümüz ilə hava, yaxud sürprizlər artıq əhəmiyyətli amillər deyildi. Daha diqqətlə işlənib-hazırlanmış yanaşma silah müfəttişlərinə öz axtarışlarını tamamlamaq üçün, Türkiyə hökumətinə bizim onların hərbi bazalarından istifadə etməyimiz haqqında fikirlərini dəyişmək üçün, diplomatlarımıza müttəfiqlər cəlb etmək üçün vaxt verərdi. Biz öz bacarığımızı, daha sonra da çevikliyimizi ucuza satdıq və bu da bizim manevr etmək imkanımızı azaltdı.

Əvvəllər mülki rəhbərlik bizim Pentaqon tərəfindən yaxından nəzarət olunan və gözdən keçirilən hərbi əməliyyatlarımıza bəzi müsbət töhfələr verirdi. Lakin mülki rəhbərlik sonrakı hadisələrə az diqqət yetirirdi. Ordu qərargahının rəisi deyərdi: "Onlar hərbi əməliyyatlara qarışan kimi hamısı cəbhəyə getmək və taqımlara necə manevr etməyi demək istəyir; onlar digər məsələlərlə məşğul olmaq istəmirlər". Rəhbərlik nəinki əhalinin münasibətini və ərəb siyasətlərini, həm də dünyanın bu hissəsində olduqca mürəkkəb olan iqtisadi vəziyyəti müəyyən etməkdə uğursuz oldu.

Bəzi əsas planların yenidən nəzərdən keçirilməsi çox gözəl olar. 2003-cü ilin aprelində Beynəlxalq İnkişaf Agentliyi (AİD) İraqın yenidən qurulmasının maliyyə dəyərini 1,7 milyard dollar miqdarında qiymətləndirdi. OMB (İdarəetmə və Büdcə İdarəsi) şəstlə bəyan etdi ki, İraqa davamlı yardım göstərmək lazım gəlməyəcək. Dövlət katibinin müavini Paul Volfovits Pentaqonun nisbətən dəqiq hesablama apararaq xərci 60 milyard dollar dəyərləndirən işçisinin fikrinə əhəmiyyət verməmişdi. Volfovits

daha sonra davam edərək bildirmişdi ki, İraq yenidənqurması özü maliyyələşdirə bilər. İraqın neft istehsalı haqqında oxşar optimizm mövcud idi; indi üzə çıxır ki, neft infrastrukturunun tam fəaliyyətə keçməsi üçün, əgər bundan sonrakı dağıntılar nəzərə alınmazsa, 3 ildən 5 ilə qədər müddət tələb olunur. Administrasiya artıq bu bir il üçün 150 milyard dollardan çox vəsait axtarır; bura hərbi üçün tələb olunan aylıq 4 milyard və 2004-cü ilin yazında Fəllucada getmiş döyüşün xərclərini qarşılamaq üçün əlavə kimi tələb olunan 25 milyard dollar daxil deyil.

Hərbi üzərində mülki nəzarət ikitərəfli yolu olan bir küçədir. Mülki rəhbərliyin ən vacib funksiyalarından biri qələbədə iştirak edəcək və onu müşayiət edəcək diplomatik və siyasi dairələrə müraciət etməkdir. Eyni şəkildə hərbi əməliyyatlardan əvvəl bütün hökumət qurumlarını müharibədən sonrakı planlaşdırmaya cəlb etmək də mülki rəhbərliyin məsuliyyətidir və rəhbərlik bu işdə uğursuz oldu. Hökumətin bütün imkanlarının yalnız bir zümrəsi məsələyə əvvəlcədən təsir edə bildi. Bu, əlbəttə ki, administrasiyanın qüsurlu və bəsit olmuş ehtimallarının bəzisi ilə əlaqədar idi. Əgər biz terrora qarşı çıxmaq və preemptiv hərbi siyasət yürütməkdə qərarlıyıqsa, o zaman əvvəllər prezident Buş tərəfindən imtina edilmiş "milli quruculuq" çağırışları hərbi əməliyyatlar qədər və bəlkə də, onlardan daha artıq əhəmiyyət kəsb etməyə başlayır. Onlar eyni qətiyyət və hökumətin bütövlükdə iştirakı ilə planlaşdırılmalıdır. Mahiyyət etibarilə belədir ki, sən bəzi döyüşlərdə qələbə çala bilərsən, lakin sülhə nail olmadan müharibədə qələbə qazanılmır. Bu bizim bürokratiyanın çıxarmalı olduğu bir nömrəli dərsdir.

İndi isə gəlin olduqca ziddiyyətli bir məsələ olan koalisiya siyasətinə nəzər yetirək. Siyasi tərəfdən, xüsusilə Avropada olan əsas müttəfiqlərimizi bura cəlb etməkdə uğursuzluğa uğramağımız həlledici oldu. Baxmayaraq ki, müdafiə naziri Donald Ramsfeld "yeni Avropa" haqqında uzun-uzadı danışır, bizim elə həmin köhnə səbəblərdən köhnə dostlarımıza ehtiyacımız var. "Köhnə Avropa" ABŞ ilə əməkdaşlığa vərdiş etmişdi. PEW İnstitutunun keçirdiyi sonuncu səsvermə göstərdi ki, Avropa dövlətlərinin əksəriyyətində və bütün Orta Şərq ölkələrində ABŞ-ın siyasətinə müxaliflik ən yüksək səviyyəyə çatmışdır. Hətta Böyük Britaniyada da böyük əksəriyyət ABŞ siyasətinə qarşı çıxır. İspaniyada dəmir yoluna bomba qoyulmasından bir neçə gün sonra yeni İspaniya hökuməti bəyan etdi ki, o, İraqdakı kiçik hərbi birləşməsini geri çəkəcək. Bu, indiki koalisiyada ilk çat idi. Polşa da ona edilmiş vədlərin bəzilərinin, məsələn, müqavilələrlə, kütləvi qırğın silahları ilə bağlı olanların yerinə yetirilməməsinə görə Vaşinqtona qarşı məyusluğunu ifadə edib. İndi Polşanın koalisiyada qalıb-qalmayacağına dair bəzi şübhələr

var. Bunlar yalnız ilk addımlardır, lakin onlar böyük psixoloji təsirə malik olacaq. Avropa qitəsi Vaşinqtonun yalnız antiterror deyil, həm də bir çox digər xarici siyasət məsələlərində təkbaşına fəaliyyətə meyil etməyə başlamasından şübhələnir.

Avropanın baxışlarının əsaslı olduğunu irəli sürmək mütləq deyil. Məsələ budur ki, avropalılar haqlı olduqlarına inanırlar və ona görə də biz hətta onlarla razılaşmasaq da, onların baxışlarını anlamağa çalışmalıyıq. Qərbi Avropa terrorçuluqdan 1950-ci illərdən başlayaraq əziyyət çəkib; bir çox avropalılar 11 sentyabr hadisələrinə Amerikanın bir neçə onillik ərzində sadəlövhcəsinə daldalandıqdan sonra real dünyaya təqdim edilməsi kimi baxırdılar. Bəzi avropalılar "terrorçuluq ilə müharibə"ni həm də daha çox daxili siyasi məqsədlər üçün istifadə olunan həddini aşan reaksiya kimi görürdülər. Onlar administrasiyanın hərəkətləri haqqında dəyişkən izahlara da skeptik yanaşırlar: əvvəlcə "əl-Qaidə", daha sonra kütləvi qırğın silahları, Səddamın qəddarlığı, regional sabitlik və s. və i. Əslində, avropalılar qorxurlar ki, ABŞ onları nəzarət edə bilmədikləri və istəmədikləri yollara çəkəcək. *"Economist"* jurnalı Buş üçün nəyin daha əhəmiyyətli olduğu haqqında sual verir: "Amerikanın hüdud olmayan fəaliyyət azadlığı, yoxsa Atlantik İttifaq?" ABŞ hökuməti bu suala hələ aydın cavab verməyib. İstənilən halda biz öz əsas müttəfiqlərimizin baxış nöqtəsini anlamağa ciddi cəhd göstərməkdə və onlarla müəyyən razılaşmaya gəlməkdə uğursuz olmağımızın əvəzini ödəyirik. Əslində, bu fikir ayrılıqları mənə Böyük Britaniyada olarkən deyilmiş bir şeyi xatırladır; o elə bir şeydir ki, ölkələr arasında bütün əhəmiyyətli fikir ayrılıqlarına tətbiq oluna bilər. "Əgər sən İrlandiya problemini anlayırsansa, deməli, sənə nəyisə düz başa salmayıblar".

Bu hesablamaların bir hissəsinə, əlbəttə ki, Birləşmiş Millətlər Təşkilatı da daxildir. Buş administrasiyasının özü məsələyə yanaşmada parçalanırdı. Sonda prezident BMT-nin razılığını almağa üstünlük vermiş olacaqdı, lakin yalnız öz nöqteyi-nəzərindən. BMT-nin digər üzvlərinin çaşqınlığı üçün bəzi zəminlər var idi. (Yeri gəlmişkən, İsrail BMT qətnamələrini daha çox rədd etmişdi, eləcə də bunu tez-tez hallarda etmişdi, ABŞ da zaman-zaman belə etmişdi. Bu daha az tənqid doğurmuşdu). Atəşkəsdən dərhal sonra BMT İraqın bərpasında iştirak etməyə can atdı, lakin ABŞ bunu rədd etdi. *"Time"* jurnalı bu yaxınlarda yüksək səviyyəli bir Amerika rəsmisinə istinadən xəbər verdi ki, o zamandan etibarən administrasiya BMT-nin yenidənqurmanın bəzi öhdəliklərini öz üzərinə götürməsini cidd-cəhdlə istəyib, lakin BMT bundan, əsasən, geri çəkilib. Sadə həqiqət bundan ibarətdir ki, bizim dostlara ehtiyacımız var və onları əlimizdə saxlamaq üçün daha çox iş görməyə

ehtiyacımız var. Koalisiya əgər birlikdə hərəkət etməlidirsə, o, daimi və kollegial olmalıdır, selektiv deyil. Çörçilldən sitat gətirsək, müttəfiqlərə sahib olmaqdan yeganə daha pis şey müttəfiqləri olmadan döyüşməkdir. Bu həm siyasi, həm də hərbi kontekstə aiddir. İkinci Dünya müharibəsindən sonrakı bir neçə onillik ərzində multilateralizm xarici siyasətimizin dayağı olub, lakin son zamanlar ona az əhəmiyyət verilir. Kəfkirin yavaş-yavaş mərkəzə qayıtdığı görünür, lakin o hələ ki bir az qeyri-müəyyəndir və bizim geri qalmağımız bizə müəyyən əzab və xərcə başa gəldi.

Yenidən daxili siyasətə qayıtsaq, bu gün Amerika ictimaiyyətini ən çox maraqlandıran məsələ bizim İraq məsələsi ilə nə qədər yaxından və nə müddətə məşğul olacağımızdır. Bu, böyük təsəvvürlərlə bağlı olan nəzəri bir məsələ deyil; bu, seçicilər və ABŞ hökuməti üçün əlahiddə bir məsələdir. Prezident bir çox mülahizələrlə sarsıdılıb. Bütün bu müddətdə o bəyan edib ki, "biz lazım olduğu qədər orada qalacağıq". Bizim İraqda "işlər yoluna qoyulana" qədər orada qalacağımızın nə demək olduğu isə mənə aydın deyil. Buş indi 30 iyunu iraqlılara, yaxud İraq şurasına hər hansı bir formada bəzi suverenliklərin verilməsi tarixi kimi müəyyən edib. İyunun 30-da 100 000 nəfərdən artıq ABŞ qoşunları qalacaq və 3000 nəfərlik ABŞ səfirliyi Paul Bremerin vəzifələrinin çoxunu öz üzərinə götürəcək. Bu onu göstərir ki, administrasiya əsas ipləri əlində saxlamağı planlaşdırır – və bu, ümumilikdə pis olmaz. Təəssüf ki, iraqlıların özləri ABŞ qoşunlarının ölkədə qalması ilə bağlı vahid mövqeyə sahib deyillər. Lakin onların əksəriyyəti hesab edir ki, yeni hökumətin möhkəmlənməsi üçün ABŞ qoşunlarının illərlə olmasa da, bir neçə ay ölkədə mövcudluğunu saxlaması zəruridir. Senator Con MakKeyn deyib ki, o bizim İraqda qalmağımızın bir neçə il çəkəcəyini hesab edir. Bəzi nüfuzlu iraqlılar 30 iyun tarixinə şübhəli yanaşırlar və belə hesab edirlər ki, qoşunların sayının hətta ən kiçik azalması belə qətllərin sayını və xaosu artıracaq. Onlar tələsik təlim keçmiş İraq polis qüvvələrinə az güvənə bilirlər. Hətta ABŞ komandirləri də yerlilərin məsuliyyəti bir neçə aylıq öz üzərilərinə götürmələri ilə bağlı şübhələrini dilə gətiriblər. Bu məsələlər asanlıqla gözdən çıxarıla bilməz. Təhlükəsizlik olmadan demokratiya nəzəridir. Lakin ABŞ seçiciləri üçün siyasi çağırış nəzərilikdən uzaqdır. Bu məsələnin iki tərəfi var və onların hər ikisinin əsaslandırılmış arqumentləri var, beləliklə, gəlin mən idarəçiliyin erkən ötürülməsi tərəfdarı olan qrupdan başlayım.

Həqiqətdir ki, idarəetmənin iraqlılara ötürülməsi və qoşunlarımızın ölkəyə qaytarılması xüsusilə bizim öz insanımızın və İraq əhalisinin qətlə yetirilməsi və yaralanmasının qarşısını almaq üçün böyük rəğbət doğurur. Şübhə yoxdur ki, 30 iyun tarixinin təyin edilməsi jesti bu arzunun nəticəsidir. Bu iraqlılar belə bir fikir ilə çıxış edirlər ki, olduqca çox qeyri-müəyyənliklər mövcuddur və İraqda inkişaf bizim orada nə qədər qalmağımızdan asılı olmayaraq, çox məhdud olacaq. Daha əhəmiyyətlisi budur ki, onlar inanırlar ki, qoşunların ölkədən erkən çıxarılması ərəb terrorçularını İraqda yerləşən ABŞ hədəflərindən məhrum edəcək – bu, əlbəttə ki, müsbət irəliləyişdir. Onların gözlərində heç kim bizim bu ölkəni, həqiqətən, demokratikləşdirməyi bacarıb-bacarmayacağımızı və bunu hansı tezlikdə edəcəyimizi bilmir. Bu qrup hesab edir ki, cavabdehlik iraqlıların özlərinin üzərinə, yaxud da heç olmasa BMT-nin üzərinə qoyulmalıdır, Vaşinqtonun üzərinə deyil. Bunu qeyd etmək maraqlı olar ki, britaniyalılar İraqı 32 il idarə ediblər və cidd-cəhdlə burada parlament sistemi yaratmağa çalışıblar, lakin heç vaxt müvəffəq olmayıblar. Buna oxşar olaraq, idarəetmənin erkən ötürülməsi tərəfdarı olan qrup iddia edir ki, demokratik İraqın bütün qalan Körfəz regionuna təmsilçi hökumət gətirəcəyi bir fantaziyadır. Onlar, əlbəttə ki, İraqın nəticəsində yumşalmaq əvəzinə, daha da ağırlaşmış İsrail-Fələstin düyününə istinad edirlər. Onların fikrincə, bizim hərbi qələbəmiz ərəb dünyasında düşmənçiliyi aradan qaldırmayıb; əgər nəsə edibsə də, bu, odu körükləmək olub. (Polzun fikrincə, antiamerikaçılıq hər bir müsəlman ölkəsində, hətta Bəhreyn, Pakistan və Səudiyyə Ərəbistanı kimi bizə bağlı müttəfiq dövlətlərdə də öz zirvəsinə qalxıb). Bundan əlavə, onlar israr edirlər ki, qoşunların erkən çıxarılması ABŞ üçün fəlakətli olmayacaq və onlar Vyetnamı nümunə gətirirlər – biz qoşunlarımızı buradan qələbə çalmamış çıxartmışdıq. Bəzi müvəqqəti çətinliklərə baxmayaraq, bizim nüfuzumuz qalıcı xələl görmədi. Bu qrup bizim İraqda qalmağımızı antiterror cəhdinin bir hissəsi kimi görmür və bizim hərbi qüvvələrimizi "əl-Qaidə" ilə mübarizəyə yönəltməyimizi istəyər.

Burada çox qalmağı istəməyənlər haqqında iki rəy qeyd olunmalıdır. Birincisi, onlar İraqı idarə etməyə fərqli bir yanaşma təklif etmirlər; onlar nüanslara diqqət yetirmirlər. Əslində, kütləvi qırğın silahlarının yoxluğunu nəzərə alsaq, onlar bizim orada olmalı olduğumuzu hesab etmirlər. İkincisi, bu fikri dəstəkləyən insanların sayı durmadan artır və əgər bir təhlükəsizlik məsələsini həll etməsək və qətlləri dayandırmasaq, bu rəqəm artmaqda davam edəcək. Vyetnam hadisələrinin göstərdiyi kimi, Ağ Evə böyük təzyiqin göstərilməsi üçün qətiyyətli əksəriyyətə malik olmaq lazım deyil.

Uzaq görüşlü tərəfdarlar da eyni şəkildə güclü dəlillər ortaya qoyurlar. Bir çox amerikalılar və administrasiyanın bir çox üzvləri İraqın demokratikləşməsində gözəgörünən irəliləyiş əldə edənə qədər orada qalmağımızı istəyirlər.

İdarəetmənin 30 iyunda ötürülməsi onların məqsədlərinə cavab verməyəcək və bu onlar üçün sanki oyunun ilkin planının pozulması kimi səslənir. Onlar xərclərin kəskinləşməsini rədd edir və bildirirlər ki, kütləvi qırğın silahları ətrafında qalxmış hay-küy əlaqəsizdir. İraqda həyat şəraitinin yaxşılaşdırılması onlar üçün öz-özlüyündə nə qədər idealist olsa da, dəyər kəsb edən və kifayət edə biləcək məqsəddir. Onlar ehtiyac olduğu qədər qalmaq və nə qədər lazımdır sərmayə yatırmaq istəyirlər. Bundan əlavə, onlar hesab edirlər ki, əgər onlar bunu edərlərsə, dünyadakı ABŞ təsəvvürü daha da möhkəmlənəcək – onlar bunda haqlı ola bilərlər. Onların baxışına görə, hakimiyyətin tələsik şəkildə daha çox qətiyyətsiz olan İraq şurasına və hökumətinə ötürülməsi, çətin ki, bizim istədiyimiz demokratik nəticəni təmin etsin. Onlar daha tələşli şəkildə bildirirlər ki, bu, vətəndaş müharibəsinə səbəb olmaq kimi ciddi bir risk daşıyır və bu, iraqlıların özlərinin də tez-tez irəli sürdükləri bir arqumentdir. Onlar öz baxışlarını genişləndirir və iddia edirlər ki, həqiqətən, demokratik bir İraq müsəlman dünyasında sakitləşdirici təsirə malik olacaq, baxmayaraq ki, mən tarixin belə bir mülahizənin tərəfində olduğuna əmin deyiləm. Belə arqumentlərin tərəfdarlarının BMT-nin buraya daha çox cəlb edilməsi məsələsində skeptik olduqlarını söyləməyə ehtiyac yoxdur. İraqda həqiqi bir təhlükəsiz mühit qurmadan böyük nəticələr təsəvvür etmək çətindir, həqiqi bir təhlükəsizlik mühiti isə uzunsürən amerikan istilası və ola bilsin ki, xeyli daha çox ABŞ qoşunu deməkdir. Bu yanaşma bizim ölkədə bəziləri üçün güclü cəlbediciliyə malikdir. Amerikalılar, əsasən, optimistdirlər: bizdə hər bir problemin əzmkarlıqla həll edilə biləcəyi inamına bir meyil var. Bundan əlavə, bəziləri iddia edirlər ki, bizim bir ölkə olaraq fundamental missiyamız dünyada demokratiyanı yaymaq və hətta lazım gəldikdə onu zorla qəbul etdirməkdir.

Optimizmimizə və problemləri həll edə bilmək inamımıza baxmayaraq, biz amerikalılar həmçinin praktiki olduğumuzu hesab edirik. Nə qədər idealist olmağımızdan asılı olmayaraq, biz real dünya mülahizələrindən imtina edə bilmərik. Dilemma yalnız pis və yaxşı arasındakı seçimdən ibarət deyil, bu həm də dəyər kəsb edən, lakin qeyri-müəyyən qazanclar ilə həyatların, insanların, resursların və enerjinin ağlabatan şəkildə sərfi hesab olunan arasında seçimdir. İraq haqqında onun daxildə təsirini nəzərə almadan heç bir qərar qəbul etmək olmaz. [Redaktorun qeydi: İraqın müharibə məhbusları ilə pis rəftarla müşayiət olunan hadisələr bizim qalmağımızı necəsə asanlaşdırmır.]

Hər bir belə addımın bizim fundamental dəyərlərimizə, dənizarxasında bizim haqqımızda təsəvvürlərə, digər qlobal siyasətlərimizə və əlbəttə ki, daxili maliyyə sağlamlığımıza təsiri ölçülməlidir. Bu növ qərarlar müəyyən mənada sıfır nəticəli oyundur; sən bir tərəfi yaxşılaşdıranda digər tərəfdən nəyisə alırsan. Bizim seçicilərimiz prezidentin İraq üçün buillik 87 milyard dollar xahişinə dəstək verdilər. Mən əmin deyiləm ki, bu, uzunmüddətli boş bank çeki mənasını verir: bizim ehtiyatlarımız sonsuz deyil. Bununla belə, bu məsələnin bizim dövlətimiz üçün əhəmiyyətini həddindən artıq çoxaltmaq da mümkün deyil. Bu özünü artıq prezident seçkilərində hiss elətdirib və müəyyən müddət qabarıq olaraq qalacaq və bu bizim həyatımızın səviyyəsinə və dövlətimizin gələcəyinə də təsir göstərir. Kütləvi qırğın silahları bizim kəşfiyyat birliyimiz haqqında ciddi narahatlıqlar doğuran ön plan məsələsi olub və biz bu günə qədər onun ətrafında dövrə vurmuşuq. Bu böhran xarici siyasət cəbhəsində bizim İran, Səudiyyə Ərəbistanı və Pakistan ilə münasibətlərimizə yeni işıq salıb. Məsələn, həm Ər-Riyad, həm də İslamabad bəzi vaxtlarda müəyyən formalarda terrorçulara dəstək verib. Bu ölkələrin hər biri Vaşinqtonu yeni mürəkkəb dilemmalar ilə üz-üzə qoyur.

Amerikanın həqiqi bir superdövlət kimi təxminən 230 illik mövcudluğu dövründə nail olduqları ilə qürur duymağa hər cür hüququ var. Lakin zaman-zaman geriyə addım atmaq, öz gücümüzdən necə istifadə etdiyimizi nəzərdən keçirmək və onu daha səmərəli şəkildə necə istifadə edəcəyimizi yenidən müəyyən etmək lazım gəlir. Bizim tənqidlərə sinə gərməyə və fikir ayrılıqları ilə onlara tələsik və az düşünülmüş şəkildə cavab vermədən barışmaq gücümüz var. Bunu etmək üçün hərbi bacarığımız, qlobal diplomatiyamız və maliyyə siyasətimiz arasında diqqətli qurulmuş tarazlıq tələb olunur. Biz daha çox dinləməli və hər şeyə cavabımızın olmadığını, hər şeyi təkbaşına, xüsusilə güc yolu ilə edə bilməyəcəyimizi qəbul etməliyik. Bir neçə həftə bundan əvvəl prezident Reyqan zamanında dövlət katibinin müavini olmuş Con Vaythed dinləyicilər qarşısında demişdir ki, biz bəzən hərbi gücümüzdən istifadə ilə qələbə qazandığımız müharibələrlə təmkinli diplomatiya ilə uzaq durduğumuz müharibələrdən daha çox qürur duymağa meyil göstəririk. O, əlbəttə ki, bizim Sovet İttifaqını üzüüstə qoyduğumuz "soyuq müharibə" haqqında danışırdı, lakin o həm də bildirirdi ki, bizim hərbdən əsas problem həlledicisi kimi istifadəyə meyil kimi dərk etdiyi ilə bağlı natahatlıqlara malikdir. O davam edərək bildirirdi ki, hər baxımdan daha da güclənmiş bir superdövlət kimi biz diplomatik kursu bir az daha sərt və bir az da daha uzunsürən şəkildə davam etdirmək riskinə getmək imkanına sahibik. Bu mənə faydalı məsləhət kimi görünür. Mənim bir dostum var, o təkid edir ki, müharibə Allahın Amerika coğrafiyasını öyrətmək üsuludur. Mən ümid edirəm ki, biz İraqa müdaxiləmizdən coğrafiyadan bir az daha çox şey öyrənəcəyik.

Beynəlxalq siyasət fəlsəfəsində yeni başlanğıclar

GENERAL BRENT SKOUKROFT

General-leytenant Skoukroft Corc Buş administrasiyasında milli təhlükəsizlik üzrə müşavir olub, Ford administrasiyasında xidmət edib. Miller Mərkəzi Rəyasət Surasının üzvü olmuş Skoukroft Prezidentin Xarici Kəşfiyyat üzrə Məşvərət Komissiyasına sədrlik edib və 2002-ci ildə ABŞ kəşfiyyatı haqqında oxunaqlı məruzəni hazırlamış komissiyanın rəhbəri olub. Bu esse Skoukroftun ABŞ xarici siyasəti haqqında keçmiş dövlət katibi Lourens S.İqlberqer ilə birlikdə 2004-cü ilin iyununda Miller Mərkəzində keçirilmiş forumda ifadə etdiyi baxışlarını əhatə edir.

Hazırkı administrasiyanın Orta Şərqdəki vəziyyətə yanaşması, ola bilsin ki, qismən əvvəlcədən nəzərdə tutulmamış olaraq, beynəlxalq siyasətin görüntülənməsinin yeni konseptual çərçivəsinə gətirib çıxarıb. Beynəlxalq siyasətə fəlsəfi yanaşmalar ilk dəfə (ən azından mənə görə) Hans Morgentaunun *"Dövlətlər arasında siyasət"* əsərində müvafiq şəkildə yer alıb. O, beynəlxalq siyasətə yanaşmaları iki məktəbə ayırıb: realistlər və idealistlər. "Soyuq müharibə" dövründə meydana çıxmış yeni bir təsnifat – şahinlər və göyərçinlər – Sovet İttifaqı ilə münasibətlərə yanaşmalar arasında fərqi müəyyən etmək üçün yaradıldı. Daxili siyasət baxımından aparılan oxşar analogiya ümumi şəkildə mühafizəkarlar və liberallar olaraq nəzərdən keçirilir. Bu yaxınlarda terrorçuluğun və Orta Şərqdəki iğtişaşların təzyiqi altında və ABŞ-ın dünyadakı müasir hakim mövqeyi kontekstində fəlsəfi bir diferensiasiya yaranmışdır və mən onları ənənəçilər və dəyişiklik tərəfdarları adlandırardım.

Ənənəçilər hesab edirlər ki, biz xarici siyasət məsələlərinə ABŞ-ın yarım əsr və ondan artıq müddətdə sahib olduğu ənənə ilə yanaşmalıyıq, yəni öz dostlarımız, müttəfiqlərimiz və Birləşmiş Millətlər Təşkilatı ilə sıx əlaqələndirmə və əməkdaşlıq şəraitində münasibət saxlamalıyıq. Əksinə, dəyişiklik tərəfdarları belə bir fikir ilə çıxış edirlər ki, dünyada vəziyyət belə bir ənənəvi iş yanaşması nümayiş etdirmək üçün olduqca sürətlə pisləşir. Onlar iddia edirlər ki, 40 il ərzində bir ənənənə olaraq davam etdirilmiş fəaliyyət bu gün Orta Şərqdə fəlakətli vəziyyətə gətirib çıxarıb. Biz cəsarətli addımlar atmalıyıq. Biz nəyin edilməsinə ehtiyacın olduğunu bilirik və bizim bunu etməyə gücümüz var. Biz başqalarının biz lazım olunanı etməyə mane olmasına imkan verə bilmərik. Biz öz məqsədlərimizi həyata keçirdikdən sonra dünya bizim haqlı olduğumuzu görəcək və bizi işlərimizə görə alqışlayacaq. Dəyişiklik tərəfdarlarına görə, edilməyə ehtiyacı olan nədir? Bizim məqsədimiz demokratikləşmiş Orta Şərq olmalıdır. Nüvə olaraq İraq ilə başlayaraq biz regionda demokratiyanın qələbəsinə israr etməliyik; bu, dinc və sabit region istiqamətində yeganə əmin yoldur.

Bu yeni fəlsəfi yanaşmanın (dəyişiklik) qeyri-adi aspektlərindən biri budur ki, o daha en kəsiyində daha ümumi şəkildə qəbul olunan qoşalaşmalar yaradır. Yəni dəyişiklik tərəfdarları – əgər ümumi qəbul olunmuş terminologiyadan istifadə etsək – idealist (vilsonçu) şahinlərdir. Bu, çağdaş dünyada düşüncənin yeni formasıdır və o, çoxlu qarışıqlığa səbəb olub. Dəyişiklik tərəfdarlarının baxışlarında təqdir olunacaq çox şey var. Lakin belə yüksək məqsədlər müəyyənləşdirməklə biz heç vaxt öz çoxşaxəli milli maraqlarımızı nəzərdən qaçırmamalıyıq. Əslində, bizim Orta Şərqdə çoxşaxəli maraqlarımız var və bu maraqlar regiondakı vacib məsələlər arasındakı qarşılıqlı sıx əlaqənin nəzərə alınması ilə tarazlanmalıdır. Əgər biz antiterrorçuluğa verdiyimiz üstün önəmi öndə saxlayaraq, bunu edə biləriksə, təhlükəsizlik maraqlarımızın bütün sahələrində uğur imkanımızı maksimallaşdıra bilərik. Hətta dəyişiklik tərəfdarları da bizim real dünyadakı çoxşaxəli maraqlarımıza diqqət yetirməlidirlər.

ABŞ "soyuq müharibə"nin qalibi oldumu?

SƏFİR DEVİD D.NYUSOM

Səfir Nyusom ABŞ-ın Liviya, İndoneziya və Filippindəki keçmiş səfiri olub və Virciniya Universitetinin beynəlxalq münasibətlər üzrə təqaüddə olan professorudur. Bu esse 2004-cü ilin iyununda Miller Mərkəzində Lourens İqlberqer və Brent Skoukroft tərəfindən "soyuq müharibə"dən sonrakı siyasət haqqında təqdimata cavab olaraq yazılıb.

XX əsrin başlanğıcında ABŞ terrorçuluq, müsəlman dünyasında antaqonizm və Asiya, Afrika və Latın Amerikasının böyük hissəsində motivlərinin şübhəliliyi təhlükələri ilə üz-üzə qalıb. Belə problemlərin köklərinin çoxu XX əsrin ikinci yarısında ABŞ-ın fəaliyyəti və siyasətində – "soyuq müharibə"nin məqsədli olmayan nəticələrindədir.

Ümumi qəbul olunmuş belə bir baxış var ki, ABŞ "soyuq müharibə"nin qalibi olub. Sovet İttifaqının süqutu ilə beynəlxalq kommunizm bir təhlükə kimi aradan qalxdı və ABŞ dünyanın "yeganə superdövləti"nə çevrildi.

Lakin "baxış"ı müşayiət edən qlobal gələcək haqqında qeyri-müəyyənlik və ABŞ-da dövlətin belə güclü və "yaxşı" olduğu halda, niyə dünyada öz təsirini yaymaqda çətinlik çəkdiyi haqqında suallardır.

ABŞ-ın maraqlarına hazırkı təhdidlərin fonunda ola bilərdimi ki, "soyuq müharibə"də əldə olunacağı güman edilən qələbə Pirr qələbəsi olub?

Sovet İttifaqı ilə toqquşma ən çox fəal şəkildə Asiya və Afrikanın müstəmləkəçilikdən yaranmış dövlətləri arenasında və oliqarxlara müqavimət göstərən Latın Amerikası ölkələrində qeydə alınırdı. ABŞ-ın yürütdüyü siyasətlər çox vaxt bu ərazilərdə pozitiv olan, iqtisadi inkişafa, insan hüquqlarına,

münaqişələrin həllinə və çoxtərəfli əməkdaşlığa dəstək verən siyasətlər idi. 1989-cu ildə Berlin divarının sökülməsindən etibarən edilən seçimlərin gələcəyi bizim ilk zamanlar təsəvvür etdiyimizdən daha aydındır. Bununla belə, Amerika maraqları üçün vacib olan regionlarda ABŞ çox vaxt azad dünyanın müdafiəçisi əvəzinə yeni müstəmləkəçiliyin aləti kimi qəbul edilirdi. Təəssüratların tarixlə bağlı olduğu və yaddaşların dərin olduğu regionlarda belə baxışların təsiri qalmaqda davam edir.

İkinci Dünya müharibəsindən dərhal sonra Qərbi Avropada nüvə dövləti olan və ambisiyalara malik Sovet İttifaqının müdafiə etdiyi kommunist partiyaları həm hərbi, həm də siyasi təhlükə mənbəyi idi. Sovet İttifaqının Şərqi Avropanı ələ keçirməsi ABŞ-da ictimai fikir üzərində dərin təsirə malik oldu. Heç bir administrasiya cavab verməmiş ola bilməzdi. Atlantik İttifaqı ölkələrinin antisovet siyasəti başlatması və onu müdafiə etməsi ilə bağlı olan fəaliyyətləri əsaslandırılmış və anlaşılan idi.

Koreya müharibəsi kommunist ambisiyaları xofuna növbəti təkan oldu. Yeni müstəqillik qazanmış ölkələrin solçu ritorikalı liderləri və həmin dövlətlərə sovet yardımı kommunist tərəqqisinin davam etdiyinin göstəricisi idi; amerikalıların baxışlarında millətçilik sovet ambisiyaları ilə qarışmışdı. 1950-ci illərdə anlaşılan olan bu təhlükəni aradan qaldırmaq üçün Şimali Atlantika Müqaviləsinin və Trumen doktrinasının çəkindirmə fəlsəfəsi şərqə doğru Asiyaya və cənuba doğru Afrika və Latın Amerikasına yayıldı. Öz təsir dairəsinə daxiletmə qlobal siyasətin məqsədinə çevrildi. Dünya həmin vaxt strateji mütəfəkkirlər üçün nəhəng risk oyununa çevrildi və oyunun heyəti iştirak etdikləri oyunun mahiyyətini çox az dərk edirdi. Onun nəticələri bizə bu gün hələ də əzab verir.

Bu yanaşmanın ilk təzahürü 1953-cü ildə İranda oldu. Eyzenhauer administrasiyası baş nazir Məhəmməd Mussədiqin rəhbərliyi altında solçu Tudə Partiyasının təsirinin artmasından narahat olaraq, baş naziri hakimiyyətdən salmaq və şahı hakimiyyətə qaytarmaq üçün Britaniya ilə əməkdaşlıq etdi. Daha sonrakı ABŞ administrasiyaları şaha regionda ABŞ-ın antikommunist əvəzedicisi kimi nüfuz qazandırdı. 1978-ci ildə islamçı hərbçilər şahı hakimiyyətdən saldıqları və 53 amerikalı diplomatı əsir götürdükləri zaman bu dəstək az faydalı oldu. Bundan əvvəl ABŞ-ın Mussədiqi hakimiyyətdən salması antiamerika ritorikasında İran inqilabı ilə bağlı gözəçarpan təsəvvür formalaşdırdı və İran siyasətində hələ bu gün də xatırlanır.

Koreya müharibəsi və İranda Mussədiq təcrübəsinin nəticəsində dövlət katibi Con Foster Dalles 1954-cü ildə Sovet İttifaqının Asiyadakı fəaliyyətini məhdudlaşdıracaq müqavilələr silsiləsi hazırlamaq cəhdinə başladı. 1954-cü ildə Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatının (SEATO) yaradılması

haqqında müqavilənin bağlanması ilə başlayaraq imzalanan paktlar NATO ilə ABŞ-ın Yaponiyadakı strateji mövqeyi arasında dairəni qapatmaq məqsədi daşıyırdı. Yeni müstəqillik qazanmış dövlətlər arasında məşhur olan "qoşulmamaq" siyasəti, Dallesin fikrincə, azad dövlətlər üçün alternativ deyil.

1950-ci illərin ortalarında ABŞ regionda dərk edilən maraqlarına iki ciddi təhlükə ilə üz-üzə qaldı: Sovet İttifaqının daha da aqressiv olan hərəkətləri və Misir prezidenti Camal Əbdül Nasirdən ilhamlanan güclü ərəb millətçi təsirləri. Onların ikisi bir-biri ilə əməkdaşlıq edirdi. ABŞ iki dəfə onların hər ikisinə qarşı çıxmağa təşəbbüs göstərdi, lakin hər iki halda da uğursuzluğa düçar oldu və ABŞ-ın regiondakı mövqeyi daha da korlandı. ABŞ-ın Fransa, Britaniya və İsrailin 1956-cı ildə Süveyşə hücumuna qarşı çıxması bu tendensiyanı yalnız müvəqqəti olaraq dayandırdı.

1955-ci ildə Birləşmiş Krallıq İraq, Türkiyə, Pakistan və İranı əhatə edən Bağdad paktı təşkilinə təkan verdi. Katib Dalles paktı yalnız Sovet İttifaqını çəkindirmək üsulu kimi deyil, həm də ərəblərin, xüsusilə İraqın diqqətini İsraildən yayındırmaq və bunu kommunist təhlükəsinə qarşı yönəltmə cəhdi kimi görürdü. İraq isə, əksinə, pakta qoşulmağı ərəblərin mövqeyinə ABŞ-ın daha böyük dəstəyinə nail olmağın mümkün üsulu kimi görürdü. ABŞ rəsmi olaraq pakta qoşulmadı, lakin ona hərbi və maliyyə dəstəyi göstərdi. Ərəb millətçiləri paktı əvvəlki Fransa və Britaniya mandatları dövründəki "müstəmləkə" ağalığının davam etdirilməsi cəhdi kimi tənqid etdilər.

Paktın ABŞ siyasəti üçün iki ciddi nəticəsi olub. Hindistan ilə Kəşmir məsələsində mübahisənin hələ də davam etməsi səbəbindən Pakistanın pakta qoşulması Nyu-Dehlidə ABŞ-ın motivləri ilə bağlı şübhələr oyatdı və şübhələr düz 1970-ci illərə və İndira Qandinin baş nazirliyi dövrünə qədər davam etdi.

Bu addım Bağdadda ərəb millətçiləri tərəfindən güclü müqavimət ilə qarşılandı və Britaniya ilə təqdir olunmayan ittifaqın ardı kimi qəbul olundu. İraqın böyük lideri baş nazir Nuri əl Səidin pakta qoşulmaq qərarı ən azı Haşimi monarxiyasını sarsıdan və 1958-ci ildə Bağdadda inqilaba gətirib çıxaran amillərdən biri oldu. Bunu müşayiət edən hərbi çevrilişlər silsiləsi son nəticədə Səddam Hüseynin hakimiyyətə gəlməsinə səbəb oldu ki, bunun nəticəsi də bu gün göz qabağındadır.

Orta Şərqdə kommunist təhlükəsinə qarşı çıxmaq üçün iqtisadi və hərbi yardım almaqda daha böyük çevikliyə can atan administrasiya 1957-ci ildə ABŞ Konqresində Orta Şərq qətnaməsinin qəbuluna nail oldu; bu qətnamə Eyzenhauer doktrinasını elan etdi. Beynəlxalq kommunizm ilə mübarizəyə qoşulan ölkələrə 200 milyon dollar miqdarında yardım təklif olundu. Administrasiya, əsasən, yardım fondları üzərində idarəetməyə qoyulan sərt

konqres məhdudiyyətlərini tovlamağa bir vasitə istəyirdi; "soyuq müharibə" dövründə bu bir həqiqət idi ki, Konqresdə uğur qazanmaq üçün istənilən yardım təşəbbüsü antisovet kontekstdən təqdim olunmalı idi. Konqresin təqaüddə olan üzvü Ceyms P.Riçardz doktrinanı "satmaq" və öhdəliklərin qoyulmasına nail olmaq üçün Orta Şərqə göndərildi. Lakin Orta Şərq dövlətləri xüsusilə 7 il bundan əvvəl ABŞ-ın İsrail dövlətinin yaradılmasına verdiyi dəstəkdən sonra "onun tərəfində durmağı və onun tərəfdarlarından biri sayılmağı" arzu etmirdi. Yalnız 2 ölkə: İraq və Livan doktrinanı dəstəklədi. Bir il sonra İraq inqilabı baş verdi. Livan isə xaosdan yalnız ABŞ dəniz qüvvələrinin müdaxiləsi ilə xilas oldu.

Asiya ərazisində Hind-Çində Fransa Vyetnamdakı mövqeyini itirdi; 1954-cü ildə keçirilmiş Cenevrə konfransında Vyetnam şimal və cənub arasında bölündü. Kennedi administrasiyası Şimali Vyetnamın antikommunist Cənub üçün törətdiyi böyüyən təhlükəni regionun dövlətləri üçün daha böyük təhlükə kimi görürdü. Yıxılan "domino daşları" effektindən qorxan administrasiya ABŞ-ın müdaxiləsini başlatdı və bu, sonda tamhəcmli bir müharibə ilə başa çatdı. ABŞ-ın Vyetnama müdaxiləsi Vaşinqtonda Asiya domino daşlarının kommunizmə doğru yıxılmasının qarşısını almaq üçün mübarizədə zəruri addım kimi qəbul olundu. Lakin Asiyanın böyük hissəsində bu, Fransa müstəmləkəçiliyinin əbədiləşdirilməsinə cəhd kimi nəzərdən keçirildi.

ABŞ-ı maraqlandıran domino daşlarından biri İndoneziya idi. Eyzenhauer administrasiyası, xüsusilə dövlət katibi Con Foster Dalles və onun qardaşı, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) rəhbəri Allen Dalles prezident Sukarnonun siyasətindən narahat idilər. Onlar Sukarno rejimini zəiflətmək və ya aradan götürmək üçün kənar adalarda dəstək verilə biləcək dissident fəaliyyətləri axtarırdılar. İmkan 1957-ci ildə Sumatra adasındakı dissident polkovniklər iğtişaş qaldıranda və onlar MKİ-dən silah alanda yarandı. Lakin iğtişaş yatırıldı, nəticədə MKİ-nin rolu ifşa edildi və bu, ABŞ haqqında İndoneziya və regiondakı təsəvvürü daha da korladı. Paul Qardner bu hadisənin sonrası haqqında *"Paylaşılan ümidlər, fərqli qorxular" ("Shared Hopes, Separate Fears")* kitabında yazırdı: "Baxmayaraq ki, ABŞ-ın PRRI/Permesta qiyamına cəlb olunduğunu rədd etməsi İndoneziya hökumətini diplomatik münasibətləri dayandırmağa vadar edəcək bir vəziyyətin qarşısını aldı, o həm də indoneziyalıların ABŞ-ın anti-İndoneziya fəaliyyətlərində iştirakına dair sonrakı məlumatlarda yer alan təkziblərə laqeyd yanaşmasına səbəb oldu".[1]

1960-cı illər ərzində Vaşinqton Sovet

[1] *Shared Hopes, Separate Fears: Fifty Years of U.S.-Indonesian Relations* (Boulder, CO: Westview Press, 1997), səh. 162.

İttifaqı və Çin tərəfindən Afrikanın yeni yaranmış müstəqil dövlətlərinə qarşı aşkar təhlükələrdən narahat idi. ABŞ həm gizlin şəkildə həyata keçirilən tədbirlər, həm də başqalarının vasitəsilə apardığı müharibələr vasitəsilə Vaşinqton tərəfindən kommunist yönümlü, bir çox afrikalılar tərəfindən isə müstəqillik tərəfdarı kimi görünən qruplara qarşı mübarizə apardı. 1960-cı ildə Konqonun milli qəhrəmanı Patris Lumumbanın qətlinə görə hələ də amerikalıları günahlandırırlar. Kinşasada Mobutu Sese Sekonun hakimiyyətə gəlməsi Amerikanın kommunizm ilə mübarizə naminə pozğun və qeyri-demokratik avtokratları dəstəkləməyə hazır olduğunun bariz nümunəsinə çevrildi.

ABŞ-ın Afrikadakı Portuqaliya müstəmləkələrinin müstəqilliyinə müqavimət göstərməsi müstəmləkəçiliyi əbədiləşdirmək cəhdi kimi qiymətləndirildi. ABŞ-ın Anqolada Jozef Savimbinin UNİTA (Anqolanın Tam Müstəqilliyi üçün Milli İttifaq) hərəkatına və onu müşayiət edən uzunsürən vətəndaş müharibəsinə kommunizm ilə mübarizə naminə gizli dəstəyi Afrikanın böyük bir hissəsini xaraba qoydu.

Bu dövr ərzində ABŞ haqqında təsəvvür onun Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında müstəmləkəçilik, aparteid və Fələstin kimi məsələlərdə tutduğu mövqedən ziyan çəkdi. Baxmayaraq ki, BMT BA-nın mövqeləri məcburi deyildi, ABŞ-ın tutduğu mövqelər çox vaxt Afrika və Asiyada əsas millətçi və irqi münasibətlərə qarşı müqavimətin əksi kimi qəbul olunurdu. Reyqan administrasiyası yardım səviyyələrini Afrika və Asiya ölkələrinin bu məsələlərdə onun üçün münasib səsverməsi ilə əlaqələndirməyə cəhd edərək, işləri daha da pisləşdirdi.

Görünən kommunist təhlükələrinə reaksiyalar Asiya və Afrika ilə məhdudlaşırdı. Qvatemala prezidenti Yakoba Arbens Quzmanın solçu meyillərindən narahat olan ABŞ 1954-cü ildə onun hökumətinin devrilməsinə kömək etdi. 1973-cü ildə digər solçu lider Çili prezidenti Salvador Allend Qossensin hakimiyyətdən salınması və ölümündə ABŞ-ın əli olduğu şübhəsi var idi. Reyqan administrasiyası Mərkəzi Amerikada böyüyən solçu hərəkatlarda ABŞ üçün kommunist təhlükəsi görürdü və Salvador, Honduras və Qvatemalada antikommunist elementləri dəstəkləməyə təşəbbüs göstərdi. Latın Amerikasının daha yoxsul olan ölkələrində bu fəaliyyətlər çoxu üçün aşkar "qrinqo" taleyinin növbəti sübutu idi.

Şübhə yoxdur ki, "soyuq müharibə"nin gözlənilməz nəticələrindən ən çox zərər verəni Sovet İttifaqı 1978-ci ildə Əfqanıstanı işğal etdikdən sonra *mücahidlərə* – sovet qüvvələrinə müqavimət göstərən müsəlman döyüşçülərə verilən dəstəyin nəticəsi oldu. Sovet işğalı Karter administrasiyasında sovetlərin Fars körfəzinə çıxış əldə etmək arzularını reallaşdırmağa yaxın olduqlarına dair narahatlıqlar yaratmışdı. ABŞ Səudiyyə Ərəbistanı və Pakistan ilə birlikdə müqaviməti silahlar və yardım ilə təmin

etməklə Sovet İttifaqına işğal üçün ağır əvəz ödəməyə məcbur etmək üçün imkan gördü. Ərəb ölkələrindən və digər müsəlman ölkələrdən olan ərəb döyüşçülər əcnəbi işğalçılara qarşı *cihad* aparmaq üçün qəbul olunur və təlim keçirdilər. İslam militantizmi Sovet İttifaqına qarşı mübarizə üçün səfərbər edilmişdi, lakin 1989-cu ildə sovetlər ölkəni tərk etdikdən sonra militantlar yeni hədəflər axtarışına çıxdılar. Militant müsəlman qüvvələrinin hazırlanması və təşviq edilməsi cəhdindən – MKİ-nin geniş yardımı ilə – Üsamə bin Ladenin təsir dairəsi və "əl-Qaidə" hərəkatı yarandı və demək olar ki, bu, "soyuq müharibə" dövrünün ən ciddi gözlənilməz nəticələrindən biri idi.[1]

Soyuq müharibə dövründəki kommunist hücumlarının xofu 1990-cı illərdə Səddam Hüseynin neft ilə zəngin Fars körfəzinə ağalıq etməsi təhlükəsindən yaranan narahatlıqla əvəz olundu. Lakin Birinci Körfəz müharibəsinin nəticəsi Səudiyyə Ərəbistanında ABŞ qüvvələrinin mövcudluğuna dair narazılıqdan qaynaqlanmış "əl-Qaidə"nin güclənməsi olmuşdu.

Orta Şərqdə ABŞ-ın İraqı işğalına qarşı müqavimət, şübhəsiz ki, "soyuq müharibə" zamanı Amerikanın antimüsəlman olduğu və öz məqsədləri naminə neft ilə zəngin regiona ağalıq etməyə cəhd etdiyi ilə bağlı yaranmış təsəvvürlərin inikası idi. "Soyuq müharibə"nin gözlənilməz nəticələrinə gətirib çıxarmış siyasətləri çərçivəyə salanlar günahlandırılmamalıdır. Siyasətçilər əsas etibarilə ictimaiyyətdəki qorxulara, mediaya və Konqresə cavab verirdilər ki, diqqət yetirilməyən əks baxışlara sahibdirlər.

Həmin dövrdə dünya haqqında bir çox yüksək səviyyəli siyasətçilərin və Konqresin sahib olduğu baxış ilə diplomatlar, alimlər, jurnalistlər, yaxud xarici müşahidəçilər olmasından asılı olmayaraq, əlaqədar regionda təcrübəsi olanlar arasında daimi fikir haçalanması özünü göstərirdi. 1955-ci ildə Bağdaddakı səfirliyin məsul şəxsləri İraq hökumətinə antikommunist pakta qoşulmaq üçün təzyiq etməyin nə dərəcədə ağıllı hərəkət olduğu məsələsini qaldırdılar. Sonrakı illərdə Tehranda xidmət edənlər İranın şahın hakimiyyəti altında sabit olduğu haqqında öz şübhələrini dilə gətirdilər. Lakin bu baxışlar Vaşinqtonda müəyyən edilmiş siyasətə qarşı etiraz eşitmək istəməyən qərar qəbul etməyə məsul olanlar tərəfindən yaxşı qarşılanmadı.

Vyetnam siyasəti haqqında müzakirə yaxşı sənədləşdirilib. ABŞ-ın Vyetnamda səfiri olmuş Elzvorf Bunkerin bu yaxınlarda dərc edilmiş bioqrafiyasında Hovard Şaffer yazır:

"O, Nikson-Kissincer illərində o, [prezident] Txeu ilə sabit və qarşılıqlı inama əsaslanan münasibətlər qurduğundan onun mesajları Cənubi Vyetnam

[1] MKİ-nin Əfqanıstanda rolunun tam şərhi üçün bax: Steve Coll, *Ghost Wars* (New York: Penguin Press, 2004).

üçün sabitliyə doğru irəliləyiş, təhlükəsizlik və tərəqqi meyarının kələ-kötür olsa da, davamlı rəsmini təqdim edirdi.

Səfirliyin əməkdaşlarının bəziləri, xüsusilə siyasi şöbənin əməkdaşları, eləcə də digərləri, əsasən, gənc əməkdaşlar onun dəyərləndirmələri ilə heç bir şəkildə razılaşmırdılar. Vyetnamın gələcəyi haqqında belə neqativ baxışları onların müntəzəm olaraq qeydlərini müzakirə etdikləri bir çox amerikalı müxbirlər də bölüşürdülər. Yaşı çox olan rəsmilərin hadisələr haqqında optimist, daha gənc olanların və müxbirlərin isə skeptik baxışlara sahib olmalarının bu nümunəsi müharibə dövrünə də xas idi".[1]

Xarici müşahidəçilər eyni dərəcədə skeptik idilər. İndoneziyalılar Vyetnamda beynəlxalq komissiyanın üzvləri idi və ölkə ərazisində səyahət edirdilər. 1975-ci ilin yanvarında (Sayqonun süqutundan 4 ay əvvəl) Sayqondakı ABŞ səfiri Qraham Martin indoneziyalılara məlumat vermək üçün Cakartaya gəldi. O, inkişaf haqqında çəhrayı rəngli bir mənzərə təsvir etdi və müharibə ilə bağlı ABŞ-a ünvanlanan tənqidləri pisləndi. İndoneziyalı bir müşahidəçi sonralar Amerika səfirliyinin işçisinə dedi: "Səfir Martinin nə demək istədiyi bizim hamımız üçün maraqlı idi. O, deyəsən, bizim çalışdığımızdan fərqli ölkədə çalışır".

Əfqanıstanda "əl-Qaidə"nin böyüməsinə gəlincə, militant İslam qruplarına sovetlərə qarşı mübarizə aparmaqda yardımın uzun vədədə risklər doğura biləcəyinə dair şübhələrin olduğu haqqında heç bir dəlil yoxdur. *Mücahidlər* dövründə aparılan müzakirələrin, əsasən, Pakistan kəşfiyyatı və əfqan hərbi rəhbərliyi arasında müxtəlif mümkün radikal elementlərlə əməkdaşlığın məqsədəuyğunluğuna dair şübhələr ətrafında getdiyi görünürdü. Yalnız ABŞ-ın 3 obyektinə – 1993-cü ildə Nyu-Yorkda Dünya Ticarət Mərkəzinə, 1998-ci ildə ABŞ-ın Nayrobi və Dar əs Salamdakı səfirliklərinə və 2000-ci ildə eskadra mina daşıyıcısına (*U.S.S. Cole*) – edilən terror hücumlarından sonra bin Ladenin rolu və "əl-Qaidə" təhlükəsi tam miqyasında dərk olundu. Lakin hətta o zaman ABŞ-ın Sovet İttifaqına qarşı müharibəsinin gözlənilməz nəticələrindən ən pisi hələ də qarşıda idi.

Vaşinqtonun siyasi və strateji dairələrində digərləri tərəfindən aparılmış qiymətləndirmələrin əksinə hazırlanmış siyasətləri sədaqətlə yerinə yetirən ABŞ səfirlərinin bu nümunəsi ABŞ-ın "soyuq müharibə" dövründə Asiya, Afrika və Latın Amerikasında yaşadığı böhranların hər birində təkrarlanıb.

Bəs o zaman ABŞ Avropadan kənarda yerləşən Qərb yönümlü, antikommunist hökumətlərin üz-üzə qaldığı təhlükələrə göz yummalı idimi? Əgər ABŞ Orta Şərq ölkələrinə və

[1] Howard Schaffer, *Ellsworth Bunker: A Biography* (Chapel Hill, NC: University of North Carolina Press, 2003).

İndoneziya, Vyetnam, Anqola və Nikaraquaya müdaxilə etməmiş olsaydı, bu gün onun mövqeyi daha yaxşı olardımı?

Əlbəttə, ABŞ siyasətini müəyyən etmiş qiymətləndirmələrin çoxu dəqiq olmayıb. Cənub-Şərqi Asiyada domino daşları yıxılmadı. Bu gün ABŞ-ın Vyetnam ilə dostluq münasibətləri var. İndoneziya ilk demokratik seçkisini keçirib. Əfqanıstana sovet hücumunun mənbələri haqqında məlumatlar bu addımın neft ilə zəngin olan Körfəzdə ayaqyeri qazanmaq meylinin bir hissəsindən daha çox, sovet Mərkəzi Asiyasında İslam militantlarının təsirini sındırmaq cəhdi olduğunu irəli sürür. Sovet Ittifaqı Əfqanıstana sabitlik gətirməkdə onlardan əvvəl bunu etməyə çalışmış britaniyalılardan, bu gün isə bunu etməyə çalışan amerikalılardan daha müvəffəq ola bilərdimi?

İran və İraqda nəyin baş vermiş ola biləcəyi haqqında proqnoz vermək çətindir. Tehranda Mussədiqin hakimiyyətinin davam edəcəyi halda bu gün ABŞ-ın mövqeyinin daha pis olacağını təsəvvür etmək çətindir. Doğrudur, Iraqda sərf olunan ABŞ canlı qüvvəsi və resurslarının hansı nəticələrə nail olacağı hələ müəyyən edilməlidir, lakin Amerika yönümlü demokratik İraq arzusu artıq gerçəkləşməkdən çox uzaqdır.

Sovet İttifaqının süqutu bu dövlətə xas olan zəifliyi nümayiş etdirir və əlbəttə ki, onun Asiya, Afrika və Latın Amerikasında cəmiyyətləri dəyişmək üçün uzun vədəli potensialını sual altına qoyur. ABŞ rəsmilərinin bu qitələrə yardım etmək üçün Sovet İttifaqı və Çinin təklif etdiyi yardımlara qarşı çıxmağa cəhdə sərf etdiyi sonsuz saatlar həmin vaxt önəmli hesab olunurdu, lakin indi keçmişə nəzər salanda onlara daha az haqq qazandırılır.

"Soyuq müharibə" dövründə ABŞ-ın Avropadan kənar müdaxiləsi indiki terror təhlükəsini yaratmadı. Onlar müstəmləkəçilik və Avropa ağalığının digər formalarını yaşamış ərazilərdə Qərb müdaxiləsindən qorxu və Qərbə qarşı antipatiya yaratdı. İstilanın yenidən baş verə biləcəyindən belə qorxular regionda fəaliyyətsizliyin əsasını qoydu və demaqoqlar və avtokratlar tərəfindən istismarın subyektinə çevrildi. Orta Şərqdə ABŞ-ın həll olunmamış İsrail-Fələstin məsələsində yer almaqda davam etməsi istismar ehtimalını xüsusilə real edir.

Vaşinqtonun məsələ haqqında siyasət, təzyiqlər və maraqlar arasında ABŞ xarici siyasətini xarakterizə edən qaçılmaz qarşılıqlı əlaqə tərəfindən yaradılan qavramalar ilə hadisə yerində olan müşahidəçilərin gördüyü fərqli reallıq arasında toqquşması heç vaxt bitməyəcək. "Soyuq müharibə" siyasətinin nəticələri dəyişdirilə bilməz, lakin nəticələrin şərhi, yəqin ki, superdövlətin qlobal hadisələrin idarə edilməsində imkanlarının hüdudlarını daha yaxşı dərk etməyə kömək edə bilər. Belə anlaşma həmçinin birbaşa fəaliyyətin təzyiqləri altında həmin fəaliyyətin uzun vədəli nəticələrini qabaqcadan müəyyən etməyin necə çətin olduğunu göstərə bilər.

ƏLAVƏ B

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi

Biz, Birləşmiş Millətlər Təşkilatının xalqları,

– gələcək nəsilləri həyatımızda iki dəfə bəşəriyyətə sözlə deyilə bilməyən bəlalar gətirmiş müharibənin müsibətlərindən xilas etmək;

əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların, böyük və kiçik xalqların hüquq bərabərliyinə inamını yenidən təsdiq etmək;

– ədalətin və müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərə hörmətin bərqərar ola bildiyi şərait yaratmaq və sosial tərəqqiyə və daha artıq azadlıq şəraitində daha yüksək yaşayış standartlarının olmasına yardım göstərmək və bu məqsədlərlə

– mehriban qonşular kimi səbirlilik nümayiş etdirmək və birlikdə, birbiriylə dinc yaşamaq;

– beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün öz gücümüzü birləşdirmək;

– prinsiplər qəbul etmək və üsullar müəyyənləşdirməklə silahlı qüvvələrin ümumi mənafeyindən başqa ayrı bir halda tətbiq olunmamasını təmin etmək;

– bütün xalqların iqtisadi və sosial tərəqqisinə yardım göstərmək üçün beynəlxalq mexanizmdən istifadə etmək əzmində olaraq, öz səylərimizi birləşdirmək qərarına gəldik.

Buna uyğun olaraq, bizim müvafiq hökumətlərimiz San-Fransisko şəhərində toplaşmış və özlərinin yaxşı lazımi formada olduğu müəyyən edilmiş səlahiyyətlərini təqdim etmiş nümayəndələr vasitəsilə Birləşmiş Millətlər Təşkilatının hal-hazırkı Nizamnaməsinə razılıq vermişik və bununla "Birləşmiş Millətlər Təşkilatı" adlanan beynəlxalq təşkilat yaradırıq.

I fəsil. MƏQSƏD VƏ PRİNSİPLƏR

Maddə 1

Birləşmiş Millətlər Təşkilatının aşağıdakı məqsədləri vardır:

1. Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarının və sülhün digər pozulması hallarını yatırtmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və vəziyyətlərin

dinc vasitələrlə və ədalətdə və beynəlxalq hüququ prinsiplərinə uyğun olaraq nizamlanmasına və yaxud həll olunmasına nail olmaq;
2. Millətlər arasında, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə hörmət əsasında dostluq münasibətləri inkişaf etdirmək, universal sülhün möhkəmləndirilməsi üçün digər müvafiq tədbirlər görmək;
3. İqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoymadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və təşviq edilməsində beynəlxalq əməkdaşlığa nail olmaq;
4. Bu ümumi məqsədlərə çatmaq üçün xalqların hərəkətlərini uzlaşdırmaq üçün mərkəz rolunu oynamaq.

Maddə 2

1-ci maddədə bəyan edilmiş məqsədlərə nail olmaq üçün Təşkilat və onun üzvləri aşağıdakı prinsiplərə uyğun olaraq hərəkət edirlər.
1. Təşkilat onun bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanır.
2. Bütün üzvlər özlərini Təşkilata üzvlükdən irəli gələn hüquq və imtiyazlarla təmin etmək üçün bu Nizamnaməyə uyğun olaraq, üzərilərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər.
3. Bütün üzvlər öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edilər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın.
4. Bütün üzvlər öz beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güc ilə hədələmək və gücün tətbiqindən çəkinirlər.
5. Bütün üzvlər Təşkilata onun bu Nizamnaməyə uyğun olaraq gördüyü istənilən tədbirdə hər cür yardım göstərirlər və əleyhinə Birləşmiş Millətlər Təşkilatı tərəfindən preventiv və ya məcburiyyət tədbiri görülən istənilən dövlətə yardım göstərməkdən çəkinirlər.
6. Təşkilat təmin edir ki, onun üzvü olmayan dövlətlər bunun beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri ola bildiyi dərəcədə bu prinsiplərə uyğun hərəkət etsin.
7. Bu Nizamnamənin heç bir müddəası Birləşmiş Millətlər Təşkilatına səlahiyyət vermir ki, hər hansı bir dövlətin əsas etibarilə daxili yurisdiksiyasında olan məqsədlərə müdaxilə etsin və ya üzvlərdən tələb etmir ki, belə məsələləri bu Nizamnamədə müəyyən olunmuş qaydada həll olunmaq üçün təqdim etsinlər; lakin bu prinsip VII fəslə müvafiq olaraq məcburiyyət tədbirlərinin tətbiqinə xələl gətirmir.

II fəsil. TƏŞKİLATA ÜZVLÜK

Maddə 3

Birləşmiş Millətlər Təşkilatının ilkin üzvləri o dövlətlərdir ki, onlar San- Fransiskoda Beynəlxalq Təşkilatın yaradılması üzrə Birləşmiş Millətlərin konfransında iştirak etmiş və yaxud bundan qabaq Birləşmiş Millətlər Təşkilatının 1 yanvar 1942-ci il tarixli bəyannaməsini imzalamışlar və hal-hazırda bu Nizamnaməni imzalayır və 110-cu maddəyə müvafiq olaraq onu ratifikasiya edirlər.

Maddə 4

1. Birləmiş Millətlər Təşkilatında üzvlük və bu Nizamnamədə əks olunmuş öhdəlikləri qəbul edən və Təşkilatın mühakiməsinə görə, bu öhdəlikləri yerinə yetirməyə qabil və hazır olan digər sülhsevər dövlətlərə açıqdır.
2. İstənilən belə bir dövlətin Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbulu Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Assambleyanın qərarı ilə həyata keçirilir.

Maddə 5.

Birləşmiş Millətlər Təşkilatının üzvünün əleyhinə Təhlükəsizlik Şurası tərəfindən preventiv və ya məcburiyyət tədbiri görülmüşsə, Baş Assambleya Təhlükəsizlik Şurasının təqdimatı əsasında onun Təşkilatın üzvü kimi malik olduğu hüquq və imtiyazlarını həyata keçirməsini müvəqqəti dayandıra bilər. Bu hüquq və imtiyazların həyata keçirilməsi Təhlükəsizlik Şurası tərəfindən bərpa oluna bilər.

Maddə 6

Bu Nizamnamədə təsbit olunmuş prinsipləri sistematik qaydada pozan Birləşmiş Millətlər Təşkilatının üzvü Təhlükəsizlik Şurasının təqdimatı əsasında Baş Assambleya tərəfindən təşkilatdan çıxarıla bilər.

III fəsil. ORQANLAR

Maddə 7

1. Birləşmiş Millətlər Təşkilatının əsas orqanları kimi aşağıdakılar yaradılır: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumuq Şurası, Beynəlxalq Məhkəmə və Katiblik.
2. Zəruri hesab edilə bilən köməkçi orqanlar bu Nizamnaməyə uyğun olaraq yaradıla bilər.

Maddə 8

Birləşmiş Millətlər Təşkilatı kişi və qadınların hər hansı sifətdə və hüququ bərabərliyi əsasında onun əsas və köməkçi orqanlarında iştirak etməsi hüququna heç bir məhdudiyyət qoymur.

IV fəsil. BAŞ ASSAMBLEYA

Tərkibi

Maddə 9

1. Baş Assambleya Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərindən ibarətdir.
2. Hər bir üzvün Baş Assambleyada 5 nəfərdən artıq nümayəndəsi ola bilməz.

Funksiya və səlahiyyətləri

Maddə 10

Baş Assambleya bu Nizamnamənin tətbiq dairəsində olan və yaxud bu Nizamnamə ilə nəzərdə tutulmuş orqanlardan hər hansı birinin səlahiyyət və funksiyalarına aid olan istənilən məsələ və ya işləri müzakirə edə bilər və 10-cu maddə ilə nəzərdə tutulmuş hallardan başqa, Birləşmiş Millətlər Təşkilatının üzvlərinə və ya Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə hər hansı bu cür məsələ və ya işlər üzrə tövsiyələr edə bilər.

Maddə 11

1. Baş Assambleya beynəlxalq sülhün qorunub saxlanması işində əməkdaşlığın ümumi prinsiplərini, o cümlədən tərk-silah və silahlanmanın tənzimlənməsi məsələlərini müəyyən edən prinsipləri nəzərdən keçirə bilər və Birləşmiş Millətlər Təşkilatının üzvlərinə və ya Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə bu prinsiplərlə bağlı tövsiyələr edə bilər.
2. Baş Assambleya beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına aid olan, Birləşmiş Millətlər Təşkilatının hər hansı üzvü və ya Təhlükəsizlik Şurası və ya 35-ci maddənin 2-ci bəndinin əsasında Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan dövlət tərəfindən ona təqdim olunmuş istənilən məsələni müzakirə edə bilər və 12-ci maddə ilə nəzərdə tutulmuş hallardan başqa, hər hansı belə bir məsələ ilə bağlı maraqlı dövlətə və ya dövlətlərə və ya Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə tövsiyələr edə bilər. Barəsində tədbir görülməli olan hər hansı belə məsələ ya Baş Assambleya tərəfindən müzakirədən qabaq, ya da ondan sonra Təhlükəsizlik Şurasına təqdim edilir.
3. Baş Assambleya Təhlükəsizlik Şurasının diqqətini beynəlxalq sülhü və təhlükəsizliyi təhlükəyə məruz qoya bilən vəziyyətlərə yönəldə bilər.
4. Baş Assambleyanın bu maddədə əks olunmuş səlahiyyətləri 10-cu maddənin ümumi mənasını məhdudlaşdırmamalıdır.

Maddə 12

1. Təhlükəsizlik Şurası hər hansı bir mübahisə və vəziyyət ilə bağlı bu Nizamnamənin onun üçün nəzərdə tutduğu funksiyaları yerinə yetirdiyi zaman Baş Assambleya, əgər Təhlükəsizlik Şurası ondan bu barədə xahiş etmirsə, həmin mübahisə və vəziyyət ilə bağlı heç bir tövsiyə verə bilməz.
2. Baş katib Təhlükəsizlik Şurasının razılığı ilə Baş Assambleyaya onun hər bir sessiyasında həmin anda Təhlükəsizlik Şurası tərəfindən baxılan beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasına aid istənilən məsələlər haqqında məlumat verir və eyni qaydada Təhlükəsizlik Şurası bu məsələlərə baxıb qurtaran kimi dərhal Baş Assambleyaya, yaxud əgər Baş Assambleya sessiyada deyilsə, onda Birləşmiş Millətlər Təşkilatının üzvlərinə məlumat verir.

Maddə 13

1. Baş Assambleya aşağıdakı məqsədlərlə tədqiqatlar təşkil edir və tövsiyələr verir:
a. siyasi sahədə beynəlxalq əməkdaşlığa dəstək vermək və beynəlxalq hüququn mütərəqqi inkişafını və onun məcəllələşdirilməsini həvəsləndirmək;
b. iqtisadi, sosial, mədəni sahələrdə, təhsil və səhiyyə sahələrində beynəlxalq əməkdaşlığa dəstək vermək və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə yardım göstərmək.
2. Baş Assambleyanın yuxarıda 1 (b) bəndində göstərilmiş məsələlərlə bağlı daha sonrakı vəzifə, funksiya və səlahiyyətləri IX və X fəsillərdə təsbit olunmuşdur.

Maddə 14

12-ci maddənin göstərişlərini nəzərə almaqla Baş Assambleya mənşəyindən asılı olmayaraq, ümumi əmin-amanlığı və xalqlar arasındakı dostluq münasibətlərini, onun fikrincə, poza bilən hər hansı bir halın, o cümlədən bu Nizamnamənin, Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərini təsbit edən müddəalarının pozulması nəticəsində əmələ gələn vəziyyətlərin dinc yolla nizama salınması üçün tədbirlər tövsiyə edə bilər.

Maddə 15

1. Baş Assambleya Təhlükəsizlik Şurasından illik və xüsusi məruzələr qəbul edir və onları nəzərdən keçirir; bu məruzələr beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması məqsədilə Təhlükəsizlik Şurası tərəfindən görülməsi qərara alınmış və ya görülmüş tədbirlər haqqında hesabatı özündə əks etdirməlidir.
2. Baş Assambleya Birləşmiş Millətlər Təşkilatının digər orqanlarından məruzələr qəbul edir və onlara baxır.

Maddə 16

Baş Assambleya beynəlxalq qəyyumluq sistemi ilə əlaqədar ona XII və XIII fəsillər əsasında həvalə olunmuş funksiyaları, o cümlədən strateji ərazilər kimi müəyyən olunmamış ərazilər üçün qəyyumluq haqqında sazişlərin təsdiq edilməsi funksiyasını yerinə yetirir.

Maddə 17

1. Baş Assambleya Təşkilatın büdcəsini nəzərdən keçirir və təsdiq edir.
2. Təşkilatın xərcləri onun üzvləri tərəfindən Baş Assambleyanın müəyyən etdiyi kimi aparılır.
3. Baş Assambleya 57-ci maddədə nəzərdə tutulmuş ixtisaslaşmış qurumlarla istənilən maliyyə və büdcə sazişlərini nəzərdən keçirir və təsdiq edir və müvafiq ixtisaslaşmış qurumlara tövsiyələr etmək məqsədilə onların inzibati büdcələrini yoxlayır.

SƏSVERMƏ

Maddə 18

1. Baş Assambleyanın hər bir üzvü bir səsə malikdir.
2. Baş Assambleyanın mühüm məsələlər üzrə qərarları onun sessiyada və səsvermədə iştirak edən üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir. Bu məsələlərə aşağıdakılar daxildir: beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması ilə əlaqədar tövsiyələr, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlərinin seçilməsi, İqtisadi və Sosial Şuranın seçilməsi, 86-cı maddənin 1 (c) bəndinə uyğun olaraq, Qəyyumluq Şurasının üzvlərinin seçilməsi, Birləşmiş Millətlər Təşkilatının yeni üzvlərin qəbul edilməsi, Təşkilat üzvlərinin hüquq və imtiyazlarının müvəqqəti olaraq dayandırılması, üzvlərin Təşkilatdan çıxarılması, qəyyumluq sisteminin fəaliyyətinə aid olan məsələlər və büdcə məsələləri.
3. Digər məsələlər üzrə qərarlar üçdə iki səs çoxluğu ilə qəbul edilməli olan məsələlərin əlavə kateqoriyalarının müəyyən edilməsi daxil olmaqla sessiyada və səsvermədə iştirak edən üzv dövlətlərin sadə səs çoxluğu ilə qəbul edilir.

Maddə 19

Təşkilata üzvlük haqqını ödəməkdə borclu olan üzv dövlət, əgər onun borcunun miqdarı bundan əvvəlki iki bütöv il üçün ödəməli olduğu üzvlük haqqında bərabərdirsə və ya ondan çoxdursa, Baş Assambleyada səsvermə hüququndan məhrum edilir. Lakin Baş Assambleya üzvlük haqqının üzv dövlətdən asılı olmayan hallara görə ödənilmədiyi qənaətinə gələrsə, həmin üzv dövlətlərin səsvermədə iştirak etməsinə icazə verə bilər.

PROSEDUR

Maddə 20

Baş Assambleya müntəzəm illik sessiyalarına və vəziyyət tələb etdikdə xüsusi sessiyalara toplanır. Xüsusi sessiyalar baş katib tərəfindən Təhlükəsizlik Şurasının və ya Təşkilatın üzvlərinin əksər hissəsinin tələbi ilə çağırılır.

Maddə 21

Baş Assambleya öz prosedur qaydalarını müəyyən edir. O hər sessiya üçün öz sədrini seçir.

Maddə 22

Baş Assambleya öz funksiyalarını yerinə yetirmək üçün zəruri hesab etdiyi köməkçi orqanlar yarada bilər.

V fəsil. TƏHLÜKƏSİZLİK ŞURASI

Tərkibi

Maddə 23

1. Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının 15 üzvündən ibarət olur. Çin Respublikası, Fransa, Sovet Sosialist Respublikaları İttifaqı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Amerika Birləşmiş Ştatları Təhlükəsizlik Şurasının daimi üzvləridir. Baş Assambleya Birləşmiş Millətlər Təşkilatının digər 10 üzvünü Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi seçir; bu zaman ilk növbədə Birləşmiş Millətlər Təşkilatının beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına və Təşkilatın digər məqsədlərinə nail olunmasına verdiyi töhfə və habelə ədalətli coğrafi bölgü nəzərə alınır.
2. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri 2 il müddətinə seçilir. Qeyri-daimi üzvlərin, Təhlükəsizlik Şurasının üzvlərinin sayı 11-dən 15-ə artdıqdan sonra keçirilən ilk seçkisində 4 əlavə üzvdən 2-si bir il müddətinə seçilir. Şuranın üzvlüyündən çıxan dövlətin fasilə vermədən yenidən seçilmək hüququ yoxdur.
3. Təhlükəsizlik Şurasının hər bir üzvünün bir nümayəndəsi olur.

Funksiyaları və səlahiyyətləri

Maddə 24

1. Birləşmiş Millətlər Təşkilatının cəld və səmərəli fəaliyyətini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyurlar və razılaşırlar ki, bu məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurası onların adından çıxış edir.

2. Öz vəzifələrini icra edərkən Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə uyğun olaraq hərəkət edir. Bu vəzifələri icra etmək üçün Təhlükəsizlik Şurasına verilmiş konkret səlahiyyətlər VI, VII, VIII və XII fəsillərdə öz əksini tapmışdır.
3. Təhlükəsizlik Şurası Baş Assambleya tərəfindən baxılmaq üçün ona illik və lazım olduqda xüsusi məruzələr təqdim edir.

Maddə 25

Birləşmiş Millətlər Təşkilatının üzvləri razılaşırlar ki, bu Nizamnaməyə uyğun olaraq, Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar.

Maddə 26

Dünyanın insan və iqtisadi resurslarını silahlanma üçün ən az miqdarda ayırmaqla beynəlxalq sülhün və təhlükəsizliyin bərqərar olunmasına və qorunub saxlanmasına dəstək vermək məqsədilə Təhlükəsizlik Şurası 47-ci maddədə nəzərdə tutulmuş Hərbi Qərargah Komitəsinin köməyi ilə Birləşmiş Millətlər Təşkilatının üzvlərinə təqdim olunmaq üçün silahlanmanın tənzimlənməsi sisteminin yaradılması üzrə planların tərtib edilməsinə görə məsuliyyət daşıyır.

Səsvermə

Maddə 27

1. Təhlükəsizlik Şurasının hər bir üzvü bir səsə malikdir.
2. Təhlükəsizlik Şurasının prosedur məsələləri üzrə qərarları 9 üzvün lehinə səsverməsi ilə qəbul olunur.
3. Təhlükəsizlik Şurasının bütün digər məsələlər üzrə qərarları daimi üzvlərin uyğun gələn səsləri də daxil olmaqla 9 üzvün lehinə səs verməsi ilə qəbul olunur; nəzərə alınmalıdır ki, VI fəslin əsasında və 52-ci maddənin 3-cü bəndinin əsasında qərarlar qəbul olunan zaman mübahisənin tərəfi olan dövlət səsvermədə iştirak etməməlidir.

Prosedur

Maddə 28

1. Təhlükəsizlik Şurası elə təşkil olunur ki, fasiləsiz fəaliyyət göstərə bilsin. Təhlükəsizlik Şurasının hər bir üzvü bu məqsədlə Təşkilatın yerləşdiyi yerdə hər an təmsil olunmalıdır.
2. Təhlükəsizlik Şurası mütəmadi iclaslar keçirir və bu iclaslarda onun üzvlərindən hər biri öz arzusu ilə hökumətin üzvü və ya hər hansı digər xüsusi təyin olunmuş nümayəndə vasitəsilə təmsil oluna bilər.
3. Təhlükəsizlik Şurası öz iclaslarını nəinki Təşkilatın yerləşdiyi yerdə, həbelə, onun fikrincə, işinə daha yaxşı kömək edən istənilən yerdə keçirə bilər.

Maddə 29

Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirmək üçün zəruri hesab etdiyi köməkçi orqanlar yarada bilər.

Maddə 30

Təhlükəsizlik Şurası öz sədrini seçmək qaydası da daxil olmaqla öz prosedur qaydalarını müəyyən edir.

Maddə 31

Təhlükəsizlik Şurasının üzvü olmayan hər hansı Birləşmiş Millətlər Təşkilatı üzvü Təhlükəsizlik Şurasının qarşısında qaldırılmış, Təhlükəsizlik Şurasının həmin üzv dövlətin maraqlarına xüsusilə toxunulduğunu hesab etdiyi istənilən məsələnin müzakirəsində səsvermə hüququ olmadan iştirak edə bilər.

Maddə 32

Təhlükəsizlik Şurasının üzvü olmayan hər hansı Birləşmiş Millətlər Təşkilatı üzvü və Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan hər hansı dövlət Təhlükəsizlik Şurasında baxılan mübahisənin tərəfi olduqda bu mübahisəyə aid olan müzakirədə səsvermə hüququ olmadan iştirak etmək üçün dəvət olunur. Təhlükəsizlik Şurası Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan dövlətin iştirakı üçün ədalətli hesab etdiyi şərtlər müəyyən edir.

VI fəsil. MÜBAHİSƏLƏRİN DİNC YOLLA HƏLL OLUNMASI

Maddə 33.

1. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcək hər hansı bir mübahisədə iştirak edən tərəflər həmin mübahisəni, hər şeydən əvvəl, danışıqlar, müayinə, vasitəçilik, barışdırma, arbitraj, məhkəmə vasitəsilə, regional qurumlara və sazişlərə müraciət etməklə və yaxud öz seçimi ilə digər dinc vasitələrlə həll etməyə çalışmalıdır.
2. Təhlükəsizlik Şurası bunu zəruri hesab etdikdə tərəflərdən mübahisəni bu vasitələrlə həll etməyi tələb edir.

Maddə 34

Təhlükəsizlik Şurası beynəlxalq ixtilafa çıxara bilən və ya beynəlxalq mübahisəyə səbəb ola bilən istənilən mübahisəni və ya vəziyyəti həmin mübahisənin və ya vəziyyətin davam etməsinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcəyini müəyyən etmək məqsədilə təhqiq edə bilər.

Maddə 35

1. Birləşmiş Millətlər Təşkilatının istənilən üzvü 34-cü maddədə göstərilmiş xarakterə malik olan hər hansı bir mübahisəni və hər hansı bir vəziyyəti Təhlükəsizlik Şurasının və yaxud Baş Assambleyanın diqqətinə çatdıra bilər.
2. Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan dövlət tərəfi olduğu hər hansı mübahisəni, əgər o, qabaqcadan həmin mübahisəyə münasibətdə bu Nizamnamədə nəzərdə tutulmuş dinc yolla həll etmək vəzifələrini üzərinə götürürsə, Təhlükəsizlik Şurasının və yaxud Baş Assambleyanın diqqətinə çatdıra bilər.
3. Baş Assambleyada bu maddənin əsasında onun diqqətinə çatdırılmış məsələlərə baxılması 11-ci və 12-ci maddələrin göstərişləri nəzərə alınmaqla həyata keçirilir.

Maddə 36

1. Təhlükəsizlik Şurası 33-cü maddədə göstərilmiş xarakterə malik olan mübahisənin və ya oxşar xarakterli vəziyyətin istənilən mərhələsində müvafiq nizamlama prosedur və ya metodları tövsiyə edə bilər.
2. Təhlükəsizlik Şurası mübahisənin həlli üçün tərəflərin artıq qəbul etmiş olduqları hər hansı proseduru nəzərə almalıdır.
3. Bu maddənin əsasında tövsiyələr edərkən Təhlükəsizlik Şurası habelə nəzərə almalıdır ki, tərəflər hüquqi mübahisələri ümumi qayda olaraq, Beynəlxalq Məhkəmənin Nizamnaməsinin müddəalarına uyğun olaraq bu Məhkəməyə verməlidir.

Maddə 37

1. Əgər tərəflər 33-cü maddədə göstərilmiş xarakterə malik olan mübahisəni həmin maddədə sadalanmış vasitələrlə həll edə bilmirsə, onda onu Təhlükəsizlik Şurasına verirlər.
2. Əgər Təhlükəsizlik Şurası bu mübahisənin davam etməsinin, həqiqətən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcəyini hesab edirsə, o ya 36-cı maddənin əsasında hərəkət etməsi, ya da mübahisənin uyğun hesab etdiyi həlli şərtlərini tövsiyə etməsi barədə qərar qəbul edir.

Maddə 38

33-37-ci maddələrin göstərişlərinə xələl gətirmədən Təhlükəsizlik Şurası əgər hər hansı mübahisənin bütün tərəfləri bunu xahiş edirsə, həmin mübahisənin dinc həlli məqsədilə tərəflərə tövsiyə verə bilər.

VII fəsil. SÜLHƏ TƏHLÜKƏ, SÜLHÜN POZULMAŞI VƏ TƏCAVÜZ AKTLARI İLƏ BAĞLI TƏDBİRLƏR

Maddə 39

Təhlükəsizlik Şurası hər bir halda sülhə təhlükənin, sülhün pozulması

və ya təcavüz aktının olmasını müəyyən edir və tövsiyələr verir və yaxud beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq, hansı tədbirlərin görülməsi haqqında qərar qəbul edir.

Maddə 40

Vəziyyətin pisləşməsinin qarşısını almaq məqsədilə Təhlükəsizlik Şurası tövsiyələr etməzdən və yaxud 39-cu maddədə nəzərdə tutulmuş tədbirlər haqqında qərar qəbul etməzdən qabaq maraqlı tərəflərdən tələb edə bilər ki, onun zəruri və ya arzuolunan hesab etdiyi müvəqqəti tədbirləri yerinə yetirsinlər. Bu cür müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, iddialarına və mövqelərinə xələl gətirməməlidir. Təhlükəsizlik Şurası bu müvəqqəti tədbirlərin yerinə yetirilməməsini lazımi qaydada nəzərə alır.

Maddə 41

Təhlükəsizlik Şurası öz qərarlarının həyata keçirilməsi məqsədilə silahlı qüvvələrin istifadəsiylə bağlı olmayan hansı tədbirlərin tətbiq olunması barədə qərar qəbul edə bilər və Birləşmiş Millətlər Təşkilatının üzvlərindən bu tədbirlərin tətbiq olunmasını tələb edə bilər. Həmin tədbirlər iqtisadi münasibətlərin və dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini ehtiva edə bilər.

Maddə 42

Əgər Təhlükəsizlik Şurası hesab etsə ki, 41-ci maddədə nəzərdə tutulmuş tədbirlər kifayət etməyə bilər və ya artıq kifayət etməmişdir, o, hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər. Həmin tədbirlər Birləşmiş Millətlər Təşkilatının üzvlərinin hava, dəniz və ya quru qüvvələrinin nümayişlərini, blokadasını və digər əməliyyatlarını ehtiva edə bilər.

Maddə 43

1. Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına töhfə vermək məqsədilə öz üzərilərinə vəzifə götürürlər ki, Təhlükəsizlik Şurasının tələbi ilə xüsusi sazişə və ya sazişlərə uyğun olaraq, onun sərəncamına beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması məqsədləri üçün zəruri olan silahlı qüvvələr, yardım və ərazidən keçmək hüququ da daxil olmaqla müvafiq xidmət vasitələri versinlər.
2. Bu cür saziş və ya sazişlər qoşunların sayını və növünü, onların hazırlıq vəziyyətini və ümumi mövqeyini, təmin edilməli olan

xidmət vasitələrinin və yardımın xarakterini müəyyən edir.

3. Həmin saziş və ya sazişlərin bağlanması haqqında danışıqlar mümkün qədər ən tez bir müddətə Təhlükəsizlik Şurasının təşəbbüsü ilə həyata keçirilir. Onlar Təhlükəsizlik Şurası və Təşkilatın üzvləri arasında və yaxud Təhlükəsizlik Şurası və Təşkilat üzvlərinin qrupları arasında bağlanılır və onlara imzalamış dövlətlər tərəfindən, həmin dövlətlərin müvafiq konstitusiya prosedurlarına müvafiq olaraq ratifikasiya edilməlidir.

Maddə 44

Təhlükəsizlik Şurası güc tətbiq etmək qərarına gəldikdə Şurada təmsil olunmamış Təşkilat üzvündən 43-cü maddəyə əsasən onun öz üzərinə götürdüyü vəzifələrin yerinə yetirilməsi ilə bağlı silahlı qüvvələr verməyi tələb etməzdən qabaq həmin Təşkilat üzvünü, əgər o bunu arzu edirsə, onun silahlı qüvvələrinin kontingentinin istifadəsinə dair Təhlükəsizlik Şurasının qərarlarında iştirak etməyə dəvət edir.

Maddə 45

Birləşmiş Millətlər Təşkilatına təcili hərbi tədbirlər görmək imkanını yaratmaq məqsədilə Təşkilatın üzvləri birgə beynəlxalq məcburiyyət tədbirləri üçün öz milli hərbi-hava qüvvələrinin kontingentlərini dərhal hazırlıq vəziyyətinə gətirməlidirlər. Bu kontingentlərin hərbi gücü və hazırlıq dərəcəsi və onların birgə hərəkət planları Təhlükəsizlik Şurası tərəfindən Hərbi Qərargah Komitəsinin köməyi ilə 43-cü maddədə göstərilmiş xüsusi saziş və ya sazişlərdə nəzərdə tutulan hüdudlar çərçivəsində müəyyən olunur.

Maddə 46

Silahlı qüvvələrin tətbiqi planları Təhlükəsizlik Şurası tərəfindən Hərbi Qərargah Komitəsinin köməyi ilə tərtib edilir.

Maddə 47

1. Təhlükəsizlik Şurasına, onun beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün hərbi tələbatına, sərəncamında olan qüvvələrin istifadəsinə və onlara komandanlıq edilməsinə, silahlanmanın tənzimlənməsinə və mümkün tərk-silaha aid olan bütün məsələlər üzrə məsləhətlər vermək və kömək etmək məqsədilə Hərbi Qərargah Komitəsi yaradılır.
2. Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasının daimi üzvlərinin Qərargah rəislərindən və ya onların nümayəndələrindən ibarətdir. Komitədə daimi təmsil olunmayan Birləşmiş Millətlər Təşkilatının istənilən üzvü, əgər Komitənin öz vəzifələrini səmərəli icra etməsi həmin üzv dövlətin Komitənin işində iştirakını tələb

edirsə, komitə tərəfindən əməkdaşlığa dəvət olunur.

3. Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasına tabe olmaqla Şuranın sərəncamına verilmiş bütün silahlı qüvvələrə strateji rəhbərliyə görə məsuliyyət daşıyır. Bu qüvvələrə komandanlıq etməklə bağlı olan məsələlər sonralar işlənib-hazırlanmalıdır.
4. Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasının icazəsi ilə və müvafiq regional orqanlarla məsləhətləşmədən sonra regional altkomitələr yarada bilər.

Maddə 48

1. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması məqsədilə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların həyata keçirilməsi üçün tələb olunan tədbirlər Təhlükəsizlik Şurasının özünün müəyyən etməsindən asılı olaraq, Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri və ya onların bəziləri tərəfindən görülə bilər.
2. Bu qərarlar Birləşmiş Millətlər Təşkilatının üzvləri tərəfindən bilavasitə və habelə üzvü olduqları müvafiq beynəlxalq təşkilatlardakı fəaliyyətləri vasitəsilə həyata keçirilir.

Maddə 49.

Birləşmiş Millətlər Təşkilatının üzvləri Təhlükəsizlik Şurası tərəfindən qərara alınmış tədbirlərin həyata keçirilməsində bir-birilərinə qarşılıqlı yardım göstərmək üçün birləşməlidirlər.

Maddə 50

Əgər Təhlükəsizlik Şurası tərəfindən hər hansı dövlətə qarşı preventiv və ya məcburiyyət tədbirləri görülürsə, bu tədbirlərin həyata keçirilməsi nəticəsində ortaya çıxan iqtisadi problemlərlə üzləşmiş istənilən başqa bir dövlət Birləşmiş Millətlər Təşkilatının üzvü olub-olmamasından asılı olmayaraq, həmin problemlərin həlli ilə əlaqədar məsləhət üçün Təhlükəsizlik Şurasına müraciət edə bilər.

Maddə 51

Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlər Təşkilatının üzvünə qarşı silahlı hücum baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir.

VIII fəsil. REGİONAL SAZİŞLƏR

Maddə 52

1. Bu Nizamnamənin heç bir müddəası beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması ilə bağlı

olan və regional tədbirlər üçün münasib olan məsələlərlə məşğul olmaq məqsədilə regional sazişlərin və ya orqanların mövcud olmasını istisna etmir, o şərtlə ki, bu cür saziş və ya orqanlar və onların fəaliyyəti Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə uyğundur.

2. Birləşmiş Millətlər Təşkilatının bu cür sazişlər bağlamış və ya bu cür orqanlar təsis etmiş üzvləri bütün səylərini sərf etməlidirlər ki, həmin sazişlərin və ya orqanların vasitəsilə yerli mübahisələrin onları Təhlükəsizlik Şurasına təqdim edilməsindən qabaq dinc yolla həllinə nail olsunlar.
3. Təhlükəsizlik Şurası bu cür sazişlərin və ya bu cür orqanların vasitəsilə ya maraqlı dövlətlərin təşəbbüsü, ya da Şuranın öz təşəbbüsü əsasında yerli mübahisələrin dinc yolla həllinin reallaşmasına təşviq etməlidir.
4. Bu maddə 34 və 35-ci maddələrin tətbiqinə heç bir xələl gətirmir.

Maddə 53

1. Təhlükəsizlik Şurası münasib olan yerdə bu cür regional saziş orqanlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə edir. Lakin Təhlükəsizlik Şurasının vəkaləti olmadan həmin regional sazişlər əsasında və ya orqanlar tərəfindən bu maddənin 2-ci bəndində müəyyən edildiyi kimi, istənilən düşmən dövlətə qarşı 107-ci maddədə və ya hər hansı belə bir dövlət tərəfindən təcavüzkar siyasətin yenidən başlanmasına qarşı yönəlmiş regional sazişlərə müvafiq olaraq, Təşkilatın üzərinə əlaqədar hökumətlərin xahişi ilə belə bir dövlət tərəfindən təcavüzün davam etməsinin qarşısını almaq öhdəliyi qoyulana qədər görülə bilən tədbirlər istisna olmaqla heç bir məcburiyyət tədbiri görülə bilməz.
2. Bu maddənin 1-ci bəndində istifadə olunmuş "düşmən dövlət" termini bu Nizamnaməni imzalamış dövlətlərdən hər hansı birinə qarşı İkinci Dünya müharibəsi zamanı düşmən olmuş hər bir dövlətə tətbiq edilir.

Maddə 54

Təhlükəsizlik Şurasına hər bir zaman beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün regional sazişlər əsasında və regional orqanlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir.

IX fəsil. BEYNƏLXALQ İQTİSADİ VƏ SOSİAL ƏMƏKDAŞLIQ

Maddə 55

Xalqlar arasında xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik və əmin-amanlıq şəraitini yaratmaq məqsədilə Birləşmiş Millətlər Təşkilatı:

a. həyat səviyyəsinin yüksəldilməsinə, əhalinin tam məşğulluğuna, iqtisadi və sosial tərəqqi və inkişaf şəraitinə;

b. beynəlxalq iqtisadi, sosial, səhiyyə və əlaqədar problemlərin həllinə; mədəniyyət və təhsil sahələrində beynəlxalq əməkdaşlığa və

c. irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə

dəstək verir.

Maddə 56

Təşkilatın bütün üzvləri öz üzərilərinə öhdəlik götürürlər ki, 55-ci maddədə göstərilən məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etsinlər.

Maddə 57

1. Hökumətlərarası sazişlər əsasında yaradılmış və təsis aktlarında müəyyən olunduğu kimi iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və əlaqədar sahələrdə geniş beynəlxalq məsuliyyət daşıyan müxtəlif ixtisaslaşmış qurumlar 63-cü maddəyə uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatı ilə əlaqə yaradır.
2. Birləşmiş Millətlər Təşkilatı ilə bu cür əlaqəyə girmiş qurumlar bundan sonra "ixtisaslaşmış qurumlar" adlanacaq.

Maddə 58

Təşkilat ixtisaslaşmış qurumların siyasətini və fəaliyyətini əlaqələndirmək üçün tövsiyələr verir.

Maddə 59

Təşkilat, əgər lazım gələrsə, 55-ci maddədə göstərilmiş məqsədlərin həyata keçirilməsi üçün tələb olunan hər hansı yeni ixtisaslaşmış qurumların yaradılması barədə maraqlı dövlətlər arasında danışıqların başlanmasına təşəbbüs edir.

Maddə 60

Təşkilatın bu fəsildə göstərilmiş funksiyalarının icrasına görə məsuliyyət baş Assambleyanın və onun rəhbərliyi altında bu məqsədlə X fəsildə göstərilmiş səlahiyyətlərə malik olan İqtisadi və Sosial Şuranın üzərinə qoyulur.

X fəsil. İQTİSADİ VƏ SOSİAL ŞURA

Tərkibi

Maddə 61.

1. İqtisadi və Sosial Şura Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası

tərəfindən seçilən 54 üzvdən ibarətdir.
2. 3-cü bəndin müddəalarını nəzərə almaqla İqtisadi və Sosial Şuranın 18 üzvü hər il 3 il müddətinə seçilir. Şuranın üzvlüyündən çıxan dövlətin heç bir fasilə vermədən yenidən seçilmək hüququ vardır.
3. İqtisadi və Sosial Şuranın üzvlərinin sayı 27-dən 54-ə yüksəldikdən sonra keçirilən ilk seçkidə səlahiyyət müddəti həmin ilin axırında bitən 9 üzvün yerinə seçilən üzvlərə əlavə olaraq daha 27 üzv seçilir. Həmin əlavə 27 üzvdən bu yolla seçilmiş 9 üzvün səlahiyyət müddəti Baş Assambleyanın qərarına müvafiq olaraq, bir ildən sonra daha 9 üzvün səlahiyyət müddəti isə 2 ildən sonra bitir.
4. İqtisadi və Sosial Şuranın hər bir üzvünün bir nümayəndəsi olur.

Funksiyaları və səlahiyyətləri

Maddə 62.

1. İqtisadi və Sosial Şura beynəlxalq iqtisadi, sosial, mədəni, təhsil, səhiyyə və əlaqədar məsələlərə aid tədqiqatlar və məruzələr edə bilər və ya istənilən belə məsələlərə aid Baş Assambleyaya Birləşmiş Millətlər Təşkilatının üzvlərinə və əlaqədar ixtisaslaşmış qurumlara tövsiyələr verə bilər.
2. Şura hər bir kəsin əsas hüquq və azadlıqlarına hörmət və riayət edilməsinə yardım etmək üçün tövsiyələr verə bilər.
3. Şura Baş Assambleyaya təqdim etmək üçün öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid konvensiya layihələri hazırlaya bilər.
4. Şura Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq, öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid beynəlxalq konfranslar çağıra bilər.

Maddə 63.

1. İqtisadi və Sosial Şura 57-ci maddədə göstərilmiş təşkilatların hər hansı biri ilə sazişlərə girə bilər. Baş Assambleya tərəfindən təsdiq edilməli olan bu sazişlər müvafiq təsisatın Birləşmiş Millətlər Təşkilatı ilə əlaqə yaratmağı əsasında duran şərtləri müəyyən edir.
2. Şura ixtisaslaşmış qurumlarla məsləhətləşmələr aparmaq və tövsiyələr vermək yolu ilə və Baş Assambleyaya və Birləşmiş Millətlər Təşkilatının üzvlərinə tövsiyələr vasitəsilə həmin qurumların fəaliyyətini əlaqələndirə bilər.

Maddə 64.

1. İqtisadi və Sosial Şura ixtisaslaşmış qurumlardan müntəzəm hesabatlar almaq üçün müvafiq addımlar ata bilər. O öz tövsiyələrini və səlahiyyətləri çərçivəsində olan məsələlər üzrə Baş Assambleya tərəfindən verilmiş tövsiyələri həyata keçirmək üçün atılmış addımlar barədə hesabatlar almaq məqsədilə Birləşmiş Millətlər Təşkilatının üzvləri ilə və ixtisaslaşmış qurumlarla sazişlər bağlaya bilər.
2. Şura bu hesabatlara aid öz qeydləri barədə Baş Assambleyaya məlumat verə bilər.

Maddə 65

İqtisadi və Sosial Şura Təhlükəsizlik Şurasına məlumat təqdim edə bilər və Təhlükəsizlik Şurasının müraciəti ilə ona kömək edə bilər.

Maddə 66

1. İqtisadi və Sosial Şura o funksiyaları yerinə yetirir ki, onlar Baş Assambleyanın tövsiyələrini həyata keçirməklə əlaqədar Şuranın səlahiyyətləri çərçivəsinə aid edilmiş olur.
2. Baş Assambleya buna razılıq verərsə, Şura Təşkilatın üzvlərinin xahişi ilə və ixtisaslaşmış qurumların xahişi ilə xidmətlər göstərə bilər.
3. Şura habelə bu Nizamnamənin digər müddəalarında öz əksini tapmış və ya Baş Assambleya tərəfindən onun üzərinə qoyulmuş funksiyaları yerinə yetirir.

Səsvermə

Maddə 67

1. İqtisadi və Sosial Şuranın hər bir üzvü bir səsə malikdir.
2. İqtisadi və Sosial Şuranın qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

Prosedur

Maddə 68

İqtisadi və Sosial Şura iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar və habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir.

Maddə 69

İqtisadi və Sosial Şura Birləşmiş Millətlər Təşkilatının hər hansı üzvünü bu üzv dövlət üçün xüsusi maraq kəsb edən istənilən məsələnin müzakirəsində səsvermə hüququ olmadan iştirak etməyə dəvət edir.

Maddə 70

İqtisadi və Sosial Şura ixtisaslaşmış qurumların nümayəndələrinin Şurada və onun təsis etdiyi komissiyalarda keçirilən müzakirələrdə səsvermə hüququ olmadan iştirakı üçün və habelə öz nümayəndələrinin ixtisaslaşmış qurumlardakı müzakirələrdə iştirakı üçün tədbirlər həyata keçirə bilər.

Maddə 71

İqtisadi və Sosial Şura onun səlahiyyətləri çərçivəsində olan məsələlərlə məşğul olan qeyri-hökumət təşkilatları ilə məsləhətləşmə aparılması üçün

müvafiq tədbirlər həyata keçirə bilər. Bu tədbirlər beynəlxalq təşkilatlarla və buna lüzum varsa, marağı olan Təşkilat üzvü ilə məsləhətləşmədən sonra milli təşkilatlarla razılaşdırıla bilər.

Maddə 72

1. İqtisadi və Sosial Şura öz sədrini seçmək qaydası da daxil olmaqla öz prosedur qaydalarını müəyyən edir.
2. İqtisadi və Sosial Şura lazım gəldikdə öz qaydalarına uyğun toplaşır; bu qaydalar Şuranın üzvlərinin əksər hissəsinin tələbi ilə iclasların çağırılması barədə müddəanı özündə əks etdirməlidir.

XI fəsil. ÖZÜ-ÖZÜNÜ İDARƏ ETMƏYƏN ƏRAZİLƏRƏ DAİR BƏYANNAMƏ

Maddə 73

Xalqları hələ tam özünü idarəyə nail olmamış ərazilərin idarə olunmasına görə məsuliyyət daşıyan və ya belə məsuliyyəti öz üzərinə götürən Birləşmiş Millətlət Təşkilatının üzvləri belə bir prinsipi qəbul edirlər ki, bu ərazilərin əhalisinin mənafeyi ümdə əhəmiyyətə malikdir və müqəddəs borc kimi belə bir öhdəlik qəbul edirlər ki, bu Nizamnamə ilə müəyyən olunmuş beynəlxalq sülh və təhlükəsizlik sistemi çərçivəsində həmin ərazilərin əhalisinin rifah halına maksimal dərəcədə dəstək versinlər və bu məqsədlə:

a. həmin xalqların mədəniyyətinə lazımi hörmət göstərməklə onların siyasi, iqtisadi, sosial tərəqqisini və təhsil sahəsində tərəqqisini, onlarla ədalətli rəftarı və təhqirlərdən müdafiəsini təmin etsinlər;
b. özünü idarəni inkişaf etdirsinlər, həmin xalqların siyasi səylərini lazımi qaydada nəzərə alsınlar və hər bir əraziyə və onun xalqlarına xas olan səciyyəvi hallara və müxtəlif inkişaf səviyyələrinə uyğun olaraq, onların azad siyasi təsisatlarının mütərəqqi inkişafına kömək etsinlər;
c. beynəlxalq sülhü və təhlükəsizliyi möhkəmləndirsinlər;
d. konstruktiv inkişaf tədbirlərinə dəstək versinlər, tədqiqatlara təşviq etsinlər və bu maddədə göstərilmiş sosial, iqtisadi və elmi məqsədlərə təcrübədə nail olmaq məqsədilə bir-biriylə və münasib olan vaxtda və yerdə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq etsinlər və
e. XII və XIII fəsillərin şamil olunduğu ərazilərdən başqa, onların müvafiq olaraq məsuliyyət daşıdıqları bütün ərazilərdə iqtisadi, sosial və təhsil şəraitinə aid olan statistik və digər texniki xarakterli məlumatı təhlükəsizlik və konstitusiya baxımından zəruri olan məhdudiyyətlər nəzərə alınmaqla müntəzəm olaraq məlumat üçün baş katibə versinlər.

Maddə 74

Birləşmiş Millətlər Təşkilatının üzvləri həmçinin razılaşırlar ki, onların bu Nizamnamənin şamil olunduğu ərazilərə aid siyasəti sosial, iqtisadi və ticarət məsələlərində dünyanın qalan hissəsinin maraqları və əmin-amanlığı lazımi dərəcədə nəzərə alınmaqla metropoliyalara münasibətdə heç də az olmayaraq mehriban qonşuluq prinsipinə söykənməlidir.

XII fəsil. BEYNƏLXALQ QƏYYUMLUQ SİSTEMİ

Maddə 75

Birləşmiş Millətlər Təşkilatı öz rəhbərliyi altında beynəlxalq qəyyumluq sistemi yaradır; beynəlxalq qəyyumluq sistemi sonrakı fərdi sazişlər əsasında bu sistemə daxil edilə biləcək əraziləri idarə etmək və onları nəzarətdə saxlamaq üçün yaradılır. Bu ərazilər bundan sonra "qəyyumluq altında olan ərazilər" adlanacaqdır.

Maddə 76

Qəyyumluq sisteminin əsas məqsədləri bu Nizamnamənin 1-ci maddəsində təsbit olunmuş Birləşmiş Millətlər Təşkilatının məqsədlərinə uyğun olaraq, aşağıdakılardan ibarətdir:

a. beynəlxalq sülhü və təhlükəsizliyi möhkəmləndirmək;
b. qəyyumluq altında olan ərazilərin əhalisinin siyasi, iqtisadi, sosial tərəqqisinə və təhsil sahəsində tərəqqisinə və onların bunun hər bir əraziyə və onun xalqlarına xas olan spesifik hallara və bu xalqların sərbəst ifadə olunmuş arzularına münasib olduğu dərəcədə və hər bir qəyyumluq sazişinin şərtləri ilə nəzərdə tutulduğu qaydada, özünüidarəyə və ya müstəqilliyə doğru tədricən inkişafına dəstək vermək;
c. irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmət edilməsini təşviq etmək və dünyada xalqların qarşılıqlı asılılığının qəbul edilməsini təşviq etmək və
d. Birləşmiş Millətlər Təşkilatının bütün üzvlərinə və onların vətəndaşlarına sosial, iqtisadi və ticarət məsələlərində bərabər rəftar təmin etmək və vətəndaşlara, habelə yuxarıda göstərilmiş məqsədlərə nail olunmasına xələl gətirmədən və 80-ci maddənin göstərişlərini nəzərə almaqla ədalət mühakiməsinin həyata keçirilməsində bərabər rəftarı təmin etmək.

Maddə 77

1. Qəyyumluq sistemi qəyyumluq haqqında sazişlər vasitəsilə bu sistemə daxil edilə bilən ərazilərin aşağıdakı kateqoriyalarına şamil olunur:

a. hal-hazırda mandat altında olan ərazilər;
b. İkinci Dünya müharibəsi nəticəsində düşmən dövlətlərdən qoparılan ərazilər və
c. idarə edilməsinə görə məsuliyyət

daşıyan dövlətlərin könüllü olaraq bu sistemə daxil etdiyi ərazilər.
2. Yuxarıda sadalanmış kateqoriyalardan hansılarının və hansı şərtlərlə qəyyumluq sisteminə daxil edilməsi sonrakı sazişlərin predmeti olacaqdır.

Maddə 78

Qəyyumluq sistemi Birləşmiş Millətlər Təşkilatının üzvləri olmuş, aralarındakı münasibətlər suveren bərabərlik prinsipinə hörmət üzərində qurulan ərazilərə şamil edilmir.

Maddə 79

Qəyyumluq sisteminə daxil edilməli olan hər bir ərazi üçün qəyyumluq şərtləri bütün dəyişiklik və ya düzəlişlər daxil olmaqla birbaşa maraqlı olan dövlətlər, o cümlədən Təşkilatın üzvlərindən birinin mandatı altında olan ərazilərə aid olduqda mandatari tərəfindən razılaşdırılır və 83-cü və 85-ci maddələrdə nəzərdə tutulduğu kimi təsdiq edilir.

Maddə 80

1. 77, 79 və 81-ci maddələrə uyğun olaraq bağlanmış, hər bir ərazini qəyyumluq sisteminə daxil edən qəyyumluq haqqında fərdi sazişlərdə razılaşdırılan hallardan başqa və bu sazişlərin bağlanmasına qədər bu fəsildə heç nə öz-özlüyündə hansısa dövlətin və ya hansısa xalqın hər hansı hüquqlarının və ya Təşkilatın üzvlərinin müvafiq olaraq iştirakçısı olduqları mövcud beynəlxalq müqavilələrin şərtlərinin hər hansı qaydada dəyişdirilməsi kimi təfsir edilə bilməz.
2. Bu maddənin 1-ci bəndi mandat altında olan və digər ərazilərin 77-ci maddədə nəzərdə tutulduğu kimi qəyyumluq sisteminə daxil edilməsi barədə sazişlərin bağlanması ilə əlaqədar danışıqların və sazişlərin bağlanmasının yubadılması və ya təxirə salınması üçün əsas kimi təfsir oluna bilməz.

Maddə 81

Qəyyumluq haqqında sazişlər hər bir halda qəyyumluq altında olan ərazilərin hansı şərtlər əsasında idarə olunacağını və həmin ərazi üzərində idarəetməni həyata keçirəcək hakimiyyəti müəyyən etməlidir. Bundan sonra "idarəedici hakimiyyət" adlanacaq bu hakimiyyət bir və ya bir neçə dövlət və yaxud Təşkilat özü ola bilər.

Maddə 82

Qəyyumluq haqqında istənilən sazişdə həmin sazişin şamil olunduğu qəyyumluq altında olan ərazinin bir hissəsini və ya hamısını əhatə edə bilən strateji zona və ya zonalar müəyyən oluna bilər; bu, 43-cü maddənin əsasında bağlanmış hər hansı xüsusi saziş və ya sazişlərə xələl gətirməməlidir.

Maddə 83

1. Birləşmiş Millətlər Təşkilatının strateji zonalara aid bütün funksiyaları, o cümlədən qəyyumluq haqqında sazişlərin şərtlərinin və onlara edilən dəyişiklik və ya əlavələrin təsdiq edilməsi Təhlükəsizlik Şurası tərəfindən həyata keçirilir.
2. 76-cı maddədə göstərilmiş əsas məqsədlər strateji zonalardan hər birinin xalqına şamil olunur.
3. Təhlükəsizlik Şurası qəyyumluq haqqında sazişlərin müddəalarını nəzərə almaqla və təhlükəsizlik mülahizələrinə xələl gətirmədən Birləşmiş Millətlər Təşkilatının qəyyumluq sistemi ilə bağlı strateji zonalarda siyasi, iqtisadi, sosial və təhsil məsələlərinə aid funksiyalarını yerinə yetirmək üçün Qəyyumluq Şurasının köməyindən istifadə edir.

Maddə 84

İdarəedici hakimiyyətin vəzifəsi qəyyumluq altında olan ərazinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasındakı rolunu oynamasını təmin etməkdən ibarətdir. Bu məqsədlə idarəedici hakimiyyət Təhlükəsizlik Şurasının qarşısında bununla bağlı öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərkən və habelə yerli müdafiə və qəyyumluq altında olan ərazi daxilində qanunu və qaydanı qorumaq üçün könüllü silahlı qüvvələrdən, xidmət vasitələrindən və qəyyumluq altında olan ərazinin köməyindən istifadə edə bilər.

Maddə 85

1. Strateji zonalar kimi müəyyən olunmamış bütün zonalar üçün qəyyumluq haqqında sazişlərə aid Birləşmiş Millətlər Təşkilatının funksiyaları, o cümlədən qəyyumluq haqqında sazişlərin şərtlərinin və onlara edilən dəyişiklik və ya əlavələrin təsdiq edilməsi Baş Assambleya tərəfindən həyata keçirilir.
2. Baş Assamleyanın rəhbərliyi altında fəaliyyət göstərən Qəyyumluq Şurası Baş Assambleyaya bu funksiyaları yerinə yetirməkdə kömək edir.

XIII fəsil. QƏYYUMLUQ ŞURASI

Tərkibi

Maddə 86

1. Qəyyumluq Şurası Birləşmiş Millətlər Təşkilatının aşağıdakı üzvlərindən ibarətdir:
a. qəyyumluq altında olan əraziləri idarə edən üzv dövlətlər;
b. 23-cü maddədə adları sadalanmış, qəyyumluq altında olan əraziləri idarə etməyən üzv dövlətlər;
c. Baş Assambleya tərəfindən 3 il müddətinə Qəyyumluq Şurasının üzvlərinin ümumi sayının Birləşmiş

Millətlər Təşkilatının qəyyumluq altında olan əraziləri idarə edən və idarə etməyən üzvləri arasında bərabər bölünməsini təmin etmək üçün zəruri olan sayda digər üzv dövlətlər seçilir.
2. Qəyyumluq Şurasının hər bir üzvü onu Şurada təmsil etmək üçün xüsusi ixtisaslı bir şəxs təyin edir.

Funksiyaları və səlahiyyətləri

Maddə 87

Baş Assambleya və onun rəhbərliyi altında Qəyyumluq Şurası öz funksiyalarını yerinə yetirərkən:
a. idarəedici hakimiyyət tərəfindən təqdim olunan məruzələri nəzərdən keçirə;
b. petisiyalar qəbul edə və idarəedici hakimiyyətlə məşvərət şəklində onları nəzərdən keçirə;
c. idarəedici hakimiyyətlə razılaşdırılmış müddətlərdə qəyyumluq altında olan müvafiq ərazilərə müntəzəm səfərlər təşkil edə;
d. qəyyumluq haqqında sazişlərin şərtlərinə müvafiq olaraq, bu göstərilmiş və digər tədbirləri həyata keçirə bilər.

Maddə 88

Qəyyumluq Şurası qəyyumluq altında olan hər bir ərazinin əhalisinin siyasi, iqtisadi, sosial tərəqqisinə və təhsil sahəsində tərəqqisinə aid anket tərtib edir, Baş Assambleyanın səlahiyyətləri çərçivəsində olan hər bir qəyyumluq altında olan ərazi üçün idarəedici hakimiyyət isə Baş Assambleyanın səlahiyyətləri daxilində həmin anket əsasında Baş Assambleyaya illik məruzə təqdim edir.

Maddə 89

1. Qəyyumluq Şurasının hər bir üzvü bir səsə malikdir.
2. Qəyyumluq Şurasının qərarları iştirak edən və səs verən üzvlərin səs çoxluğu ilə qəbul olunur.

Prosedur

Maddə 90

1. Qəyyumluq Şurası öz prezidentini seçmək qaydası da daxil olmaqla özünün prosedur qaydalarını müəyyən edir.
2. Qəyyumluq Şurası, lazım gələrsə, öz qaydalarına uyğun olaraq çağırılır; bu qaydalar Şuranın üzvlərinin əksər hissəsinin tələbi ilə iclasların çağırılması barədə müddəanı özündə əks etdirməlidir.

Maddə 91

Qəyyumluq Şurası, lazım gələrsə, İqtisadi və Sosial Şuranın və əlaqədar məsələlərlə bağlı müvafiq ixtisaslaşmış qurumun köməyindən istifadə edir.

XIV fəsil. BEYNƏLXALQ MƏHKƏMƏ

Maddə 92

Beynəlxalq Məhkəmə Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanıdır. O bu Nizamnaməyə əlavə olunan Nizamnaməyə uyğun olaraq fəaliyyət göstərir; həmin Nizamnamə Daimi Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinə əsaslanır və onun ayrılmaz tərkib hissəsini təşkil edir.

Maddə 93

1. Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri *ipso facto* Beynəlxalq Məhkəmənin Nizamnaməsinin iştirakçılarıdır.
2. Birləşmiş Millətlər Təşkilatının üzvü olmayan dövlət hər bir halda Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən müəyyən olunan şərtlərlə Beynəlxalq Məhkəmənin Nizamnaməsinin iştirakçısı ola bilər.

Maddə 94

1. Birləşmiş Millətlər Təşkilatının hər bir üzvü tərəf kimi çıxış etdiyi istənilən işdə Beynəlxalq Məhkəmənin qərarına əməl etməyi öz öhdəsinə götürür.
2. Əgər iş üzrə tərəflərdən biri Məhkəmənin çıxardığı qərarla onun üzərinə qoyulmuş öhdəlikləri icra etmirsə, o biri tərəf Təhlükəsizlik Şurasına müraciət edə bilər; Təhlükəsizlik Şurası zəruri hesab etdikdə tövsiyələr verə və ya həmin qərarın həyata keçirilməsi üçün görülməli olan tədbirlər haqqında qərar qəbul edə bilər.

Maddə 95

Bu Nizamnamədə heç nə Birləşmiş Millətlər Təşkilatının üzvlərinin öz mübahisələrinin həllini artıq qüvvədə olan və ya gələcəkdə bağlanıla bilən sazişlər əsasında başqa məhkəmələrə həvalə etməsinə manea yaratmır.

Maddə 96

Baş Assambleya və ya Təhlükəsizlik Şurası Beynəlxalq Məhkəmədən istənilən hüquqi məsələ üzrə məsləhətçi rəy verməyi xahiş edə bilər.

Baş Assambleya tərəfindən istənilən vaxt buna icazə ala bilən Birləşmiş Millətlər Təşkilatının digər orqanları və ixtisaslaşmış qurumları da onların fəaliyyəti çərçivəsində ortaya çıxan hüquqi məsələlər üzrə Məhkəmədən məsləhətçi rəy istəyə bilər.

XV fəsil. KATİBLİK

Maddə 97

Katiblik baş katibdən, Təşkilat üçün tələb olunan ştatdan ibarətdir. Baş katib Təhlükəsizlik Şurasının tövsiyəsi əsasında Baş Assambleya tərəfindən

təyin olunur. Baş katib Təşkilatın baş inzibati vəzifəli şəxsidir.

Maddə 98

Baş katib bu tərkibdə Baş Assambleyanın, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın bütün iclaslarında fəaliyyət göstərir və bu orqanlar tərəfindən ona həvalə olunan digər funksiyaları icra edir. Baş katib Təşkilatın işi barədə Baş Assambleyaya illik məruzə təqdim edir.

Maddə 99

Baş katib beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, onun fikrincə, təhlükə törədə bilən istənilən məsələni Təhlükəsizlik Şurasının diqqətinə çatdıra bilər.

Maddə 100

1. Baş katib və Katibliyin heyəti öz vəzifələrini icra edərkən hər hansı hökumətdən və ya Təşkilatdan kənar hər hansı digər orqandan göstərişlər almağa cəhd etmir və belə göstərişlər almır. Onlar yalnız Təşkilat qarşısında məsuliyyət daşıyan beynəlxalq vəzifəli şəxslər kimi onların statusuna təsir göstərə bilən hər hansı hərəkətdən uzaq dururlar.
2. Birləşmiş Millətlər Təşkilatının hər bir üzvü baş katibin və Katibliyin heyətinin vəzifələrinin sırf beynəlxalq xarakterinə hörmət etməyi və onlara öz vəzifələrini yerinə yetirərkən təsir göstərməyə cəhd etməməyi öz öhdələrinə götürür.

Maddə 101

1. Katibliyin heyəti baş katib tərəfindən Baş Assambleyanın müəyyən etdiyi qaydalara əsasən təyin olunur.
2. Müvafiq heyət daimi əsasda işləmək üçün İqtisadi və Sosial Şuraya, Qəyyumluq Şurasına və lazım gəldikdə Təşkilatın digər orqanlarına təyin edilir. Bu heyət Katibliyin bir hissəsini təşkil edir.
3. Heyəti işə qəbul edərkən və xidmət şərtlərini müəyyən edərkən yüksək iş qabiliyyəti səviyyəsinin, səlahiyyətliliyin və təmizliyin təmin edilməsinin zəruriliyi ön plana çəkilir. Heyətin mümkün qədər geniş coğrafi əsasda seçilməsinin vacibliyinə lazımi diqqət yetirilməlidir.

XVI fəsil. ƏLAVƏ MÜDDƏALAR

Maddə 102

1. Birləşmiş Millətlər Təşkilatının istənilən üzvünün daxil olduğu hər bir müqavilə və hər bir beynəlxalq razılaşma bu Nizamnamə qüvvəyə mindiyi andan sonra mümkün qədər tez bir müddət ərzində Katiblikdə qeydiyyata alınmalı və onun tərəfindən dərc edilməlidir.
2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq, qeydiyyata alınmamış hər hansı belə bir müqavilənin və ya beynəlxalq sazişin heç bir iştirakçısı Birləşmiş Millətlər Təşkilatının hər hansı orqanı qarşısında həmin müqaviləyə və ya beynəlxalq sazişə istinad edə bilməz.

Maddə 103

Birləşmiş Millətlər Təşkilatı üzvlərinin bu Nizamnamədən irəli gələn öhdəlikləri ilə onların istənilən digər beynəlxalq sazişdən irəli gələn öhdəlikləri arasında ziddiyyət olduqda üstünlük bu Nizamnamədən irəli gələn öhdəliklərə verilir.

Maddə 104

Təşkilat öz üzvlərinin hər birinin ərazisində funksiyalarını həyata keçirmək və məqsədlərini yerinə yetirmək üçün lazımi formada hüquqi səlahiyyətlərdən yararlanır.

Maddə 105

1. Təşkilat öz üzvlərindən hər birinin ərazisində məqsədlərini yerinə yetirmək üçün zəruri olan imtiyaz və immunitetlərdən istifadə edir.
2. Birləşmiş Millətlər Təşkilatının üzvlərinin nümayəndələri və Təşkilatın vəzifəli şəxsləri Təşkilatla əlaqədə öz funksiyalarını müstəqil şəkildə həyata keçirmək üçün zəruri olan imtiyaz və immunitetlərdən istifadə edirlər.
3. Baş Assambleya bu maddənin 1-ci və 2-ci bəndlərinin tətbiqi ilə bağlı ayrı-ayrı detalları müəyyən etmək üçün tövsiyələr verə bilər və ya bu məqsədlə Təşkilatın üzvlərinə konvensiyalar təklif edə bilər.

XVII fəsil. KEÇİD DÖVRÜNDƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ

Maddə 106

Təhlükəsizlik Şurasının fikrincə, 42-ci maddədə nəzərdə tutulmuş öhdəliklərini yerinə yetirmək üçün 43-cü maddədə nəzərdə tutulmuş xüsusi sazişlərin qüvvəyə minməsini gözləyərkən 30 oktyabr 1943-cü ildə imzalanmış "4 dövlətin bəyannaməsi"nin iştirakçıları və Fransa bəyannamənin 5-ci maddəsinin müddəalarına uyğun olaraq, Təşkilatın adından beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan birgə tədbirlər görmək məqsədilə bri-biriylə və zərurət olduqda Birləşmiş Millətlər Təşkilatının digər üzvləri ilə məsləhətləşəcəklər.

Maddə 107

Bu Nizamnamədə heç nə İkinci Dünya müharibəsi zamanı, bu Nizamnaməni imzalayanlardan hər hansı birinin düşməni olmuş dövlətə qarşı həmin müharibənin nəticəsində müvafiq tədbirlər görməyə məsul olan hökumətlər tərəfindən görülən və ya

görülməsinə səlahiyyət verilən tədbirləri hüquqi qüvvədən məhrum etmir və ya onların tətbiqinə maneə yaratmır.

XVIII fəsil. DÜZƏLİŞLƏR

Maddə 108

Bu Nizamnaməyə düzəlişlər Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri üçün Baş Assambleyanın üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul olunduqdan və Təhlükəsizlik Şurasının bütün daimi üvzləri daxil olmaqla Birləşmiş Millətlər Təşkilatının üzvlərinin üçdə ikisi tərəfindən, onların müvafiq konstitusion qaydalarına uyğun olaraq ratifikasiya edildikdən sonra qüvvəyə minir.

Maddə 109

1. Nizamnaməyə yenidən baxmaq məqsədilə Baş Assambleyanın üzvlərinin üçdə iki səs çoxluğu və Təhlükəsizlik Şurasının istənilən 7 üzvünün səsi ilə müəyyən edilməli olan vaxtda və yerdə Birləşmiş Millətlər Təşkilatının üzvlərinin ümumi konfransı çağırıla bilər. Təşkilatın hər bir üzvü konfransda bir səsə malik olur.
2. Konfransın üçdə iki səs çoxluğu ilə bu Nizamnaməyə tövsiyə etdiyi hər hansı dəyişiklik Təhlükəsizlik Şurasının bütün daimi üzvləri daxil olmaqla Təşkilatın üzvlərinin üçdə ikisi tərəfindən, onların müvafiq konstitusion qaydalarına uyğun olaraq ratifikasiya edildikdən sonra qüvvəyə minir.
3. Əgər belə bir konfrans bu Nizamnamənin qüvvəyə mindiyi andan hesablanmaqla Baş Assambleyanın onuncu illik sessiyasına qədər olmamışsa, belə bir konfransın çağırılması barədə təklif Baş Assambleyanın həmin sessiyasının gündəliyinə daxil edilir və Baş Assambleyanın üzvlərinin sadə səs çoxluğu ilə və Təhlükəsizlik Şurasının hər hansı 7 üzvünün səsi ilə belə qərar qəbul edilirsə, konfrans çağırılır.

Maddə 110

1. Bu Nizamnamə onu imzalamış dövlətlər tərəfindən onların müvafiq konstitusion qaydalarına uyğun olaraq ratifikasiya edilməlidir.
2. Ratifikasiya sənədləri Amerika Birləşmiş Ştatları hökumətində saxlanmağa verilir; o, Nizamnaməni imzalamış bütün dövlətlərə və habelə təyin olunduqda Təşkilatın baş katibinə hər bir depozit haqqında məlumat verir.
3. Bu Nizamnamə Çin Respublikası, Fransa, Sovet Sosialist Respublikaları İttifaqı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı və Amerika Birləşmiş Ştatları və Nizamnaməni imzalamış digər dövlətlərin əksər hissəsi tərəfindən ratifikasiya sənədləri depozit olunduqdan sonra qüvvəyə minir. Bundan sonra Amerika Birləşmiş Ştatlarının hökuməti ratifikasiya sənədlərinin depozit olunması haqqında protokol tərtib edir və onun nüsxələrini Nizamnaməni imzalamış bütün dövlətlərə göndərir.
4. Bu Nizamnamə qüvvəyə mindikdən sonra onu ratifikasiya edən, onu imzalamış dövlətlər müvafiq ratifikasiya sənədlərinin depozit olunduğu gündən Birləşmiş Millətlər Təşkilatının üzvləri olacaq.

Maddə 111

Çin, fransız, rus, ingilis və ispan dilində olan mətnləri bərabər autentlik olan bu Nizamnamə Amerika Birləşmiş Ştatları hökumətinin arxivində saxlanacaqdır. Nizamnamənin müvafiq qaydada təsdiq olunmuş nüsxələri bu hökumət tərəfindən Nizamnaməni imzalamış digər hökumətlərə göndərilir.

BUNUN TƏSDİQİ OLARAQ, Birləşmiş Millətlər Təşkilatının hökumətləri bu Nizamnaməni imzaladı.

San-Fransisko şəhərində, iyunun 26-cı günündə 1945-ci ildə TƏRTİB OLUNMUŞDUR.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ÜZVLƏRİ, 1985

Birləşmiş Millətlər Təşkilatının 157 üzvü Təşkilata üzv olduqları tarixlə birlikdə aşağıdakı siyahıda yer almışdır:

Üzv	Qəbul olunduğu tarix
Albaniya	14 dekabr, 1955
Almaniya Demokratik Respublikası	18 sentyabr, 1973
Almaniya Federativ Respublikası	18 sentyabr, 1973
Amerika Birləşmiş Ştatları	24 oktyabr, 1945
Anqola	1 dekabr, 1976
Antiqua	11 noyabr, 1981
Argentina	24 oktyabr, 1945
Avstraliya	1 noyabr, 1945
Avstriya	14 dekabr, 1955
Baham adaları	18 sentyabr, 1973
Banqladeş	17 sentyabr, 1974
Barbados	9 dekabr, 1966
Belçika	27 dekabr, 1945
Beliz	25 sentyabr, 1981
Belarusiya	24 oktyabr, 1945
Benin[1]	20 sentyabr, 1960
Bəhreyn	21 sentyabr, 1971
Birləşmiş Ərəb Əmirlikləri	9 dekabr, 1971
Birləşmiş Krallıq	24 oktyabr, 1945
Boliviya	14 noyabr, 1945
Bolqarıstan	14 dekabr, 1955
Botsvana	17 oktyabr, 1966
Braziliya	24 oktyabr, 1945
Birma	19 aprel, 1948
Burundi	18 sentyabr, 1962
Butan	21 sentyabr, 1971
Cənubi Afrika	7 noyabr, 1945
Cibuti	20 sentyabr, 1977
Çad	20 sentyabr, 1960
Çexoslovakiya	24 oktyabr, 1945

[1] Əvvəllər Dahomeya

Çili	24 oktyabr, 1945
Çin	24 oktyabr, 1945
Danimarka	24 oktyabr, 1945
Demokratik Kampuçiya[1]	14 dekabr, 1955
Demokratik Yəmən	14 dekabr, 1967
Dominikan Respublikası	24 oktyabr, 1945
Efiopiya	13 noyabr, 1945
Ekvador	21 dekabr, 1945
Ekvatorial Qvineya	12 noyabr, 1968
Salvador	24 oktyabr, 1945
Əfqanıstan	19 noyabr, 1946
Əlcəzair	8 oktyabr, 1962
Fici	13 oktyabr, 1970
Filippin	24 oktyabr, 1945
Finlandiya	14 dekabr, 1955
Fransa	24 oktyabr, 1945
Haiti	24 oktyabr, 1945
Hindistan	30 oktyabr, 1945
Honduras	17 dekabr, 1945
İndoneziya[2]	28 sentyabr, 1950
İordaniya	14 dekabr, 1955
İran	21 dekabr, 1945
İran	24 oktyabr, 1945
İrlandiya	14 dekabr, 1955
İslandiya	19 dekabr, 1946
İspaniya	14 dekabr, 1955
İsrail	11 may, 1949
İsveç	19 noyabr, 1946
İsveçrə	24 sentyabr, 1968
İtaliya	14 dekabr, 1955
Kabo-Verde	16 sentyabr, 1975
Kameron Birləşmiş Respublikası	20 sentyabr, 1960
Kanada	9 noyabr, 1945
Keniya	16 dekabr, 1963
Kipr	20 sentyabr, 1960
Kolumbiya	5 noyabr, 1945
Komor adaları	12 noyabr, 1975
Konqo	20 sentyabr, 1960
Kosta-Rika	2 noyabr, 1945
Kot-d'Ivuar	20 sentyabr, 1960
Kuba	24 oktyabr, 1945
Küveyt	14 may, 1963
Qabon	20 sentyabr, 1960
Qambiya	21 sentyabr, 1965
Qana	8 mart, 19557
Qatar	21 sentyabr, 1971
Qayana	20 sentyabr, 1966
Qrenada	17 sentyabr, 1974
Qvatemala	21 noyabr, 1945
Qvineya	12 dekabr, 1958
Qvineya-Bisau	17 sentyabr, 1974
Lao Xalqının Demokratik Respublikası[3]	14 dekabr, 1955
Lesoto	17 oktyabr, 1966
Liberiya	2 noyabr, 1945
Livan	24 oktyabr, 1945

[1] Əvvəllər Kamboca
[2] İndoneziya 20 yanvar 1965-ci ildə göndərdiyi məktubla "bu mərhələdə və verilmiş şərtlər altında" Birləşmiş Millətlər Təşkilatından çıxdığını elan etdi. 19 sentyabr 1966-cı ildə göndərdiyi teleqramla ilə isə "Birləşmiş Millətlər Təşkilatı ilə tam əməkdaşlığı davam etdirmək və onun fəaliyyətlərində iştirakı davam etdirmək" haqqında qərarını elan etdi. Baş Assambleya 28 sentyabr 1966-cı ildə bu qərarı qeydə aldı və prezident İndoneziyanın nümayəndələrini Assambleyanın işində iştirak etməyə dəvət etdi.
[3] Əvvəlki Laos

Liviya	14 dekabr, 1955
Lüksemburq	24 oktyabr, 1945
Macarıstan	14 dekabr, 1955
Madaqaskar	20 sentyabr, 1960
Malavi	1 dekabr, 1964
Malayziya[1]	17 sentyabr, 1957
Maldiv adaları	21 sentyabr, 1965
Mali	28 sentyabr, 1960
Malta	1 dekabr, 1964
Mavriki	24 aprel, 1968
Mavritaniya	27 oktyabr, 1961
Meksika	7 noyabr, 1945
Monako	12 noyabr, 1956
Mərkəzi Afrika İmperiyası	20 sentyabr, 1960
Misir[2]	24 oktyabr, 1945
Monqolustan	27 oktyabr, 1961
Mozambik	16 sentyabr, 1975
Nepal	14 dekabr, 1955
Niderland	10 dekabr, 1945
Niger	20 sentyabr, 1960
Nigeriya	7 oktyabr, 1960
Nikaraqua	24 oktyabr, 1945
Norveç	27 noyabr, 1945
Oman	7 oktyabr, 1971
Pakistan	30 sentyabr, 1947
Panama	13 noyabr, 1945
Papua Yeni Qvineya	10 oktyabr, 1975
Paraqvay	24 oktyabr, 1945
Peru	31 oktyabr, 1945
Polşa	24 oktyabr, 1945
Portuqaliya	14 dekabr, 1955
Ruanda	18 sentyabr, 1962
Rumıniya	14 dekabr, 1955
Samoa	15 dekabr, 1976
San Tome və Prinsipi	16 sentyabr, 1975
Seneqal	28 sentyabr, 1960
Seynt Vinsent və Qrenadina	16 sentyabr, 1980
Seynt-Kits	23 sentyabr, 1983
Seynt-Lusiya	12 sentyabr, 1979
Seyşel adaları	21 sentyabr, 1976
Səudiyyə Ərəbistanı	24 oktyabr, 1945
Sinqapur	21 sentyabr, 1965
Solomon adaları	19 sentyabr, 1978
Somali	20 sentyabr, 1960
Sovet Sosialist Respublikaları İttifaqı	24 oktyabr, 1945
Sudan	12 noyabr, 1956
Surinam	4 dekabr, 1975
Suriya[7]	24 oktyabr, 1945 (yeni üzvlük 13 oktyabr, 1961)
Syerra Lione	27 sentyabr, 1961
Şri-Lanka	14 dekabr, 1955
Tanzaniya Birləşmiş Respublikası[8]	14 dekabr, 1961
Tailand	16 dekabr, 1946

[1] Malaya Federasiyası 17 sentyabr 1957-ci ildə Birləşmiş Millətlər Təşkilatına qoşuldu. 16 sentyabr 1963-cü ildə onun adı Sinqapur, Sabah (Şimali Borneo) və Saravak ilə yeni federasiyaya daxil olduqdan sonra Malayziyaya dəyişdi. 9 avqust 1965-ci ildə Sinqapur müstəqil dövlət, 21 sentyabr 1965-ci ildə isə BMT-nin üzvü oldu.
[2] Misir və Suriya 24 oktyabr 1945-ci ildən Birləşmiş Millətlər Təşkilatının ilk üzvləri sırasında idi. 21 fevral 1958-ci ildə keçirilmiş ümumxalq səsverməsi nəticəsində Misir və Suriyanın birləşməsindən Birləşmiş Ərəb Respublikası yarandı və o, vahid bir üzv kimi Təşkilata üzvlüyü davam etdirdi. 13 oktyabr 1961-ci ildə Suriya müstəqil dövlət statusunu qaytarandan sonra Birləşmiş Millətlər Təşkilatına ayrılıqda üzvlüyünü də davam etdirdi.

Toqo	20 sentyabr, 1960
Trinidad və Tobaqo	18 sentyabr, 1962
Tunis	12 noyabr, 1956
Türkiyə	24 oktyabr, 1945
Ukrayna	24 oktyabr, 1945
Uqanda	25 oktyabr, 1962
Uruqvay	18 dekabr, 1945
Vanuatu	8 iyul, 1981
Venesuela	15 noyabr, 1945
Vyetnam Sosialist Respublikası	20 sentyabr, 1977
Yamayka	18 sentyabr, 1962
Yaponiya	18 dekabr, 1956
Yeni Zelandiya	24 oktyabr, 1945
Yəmən	30 sentyabr, 1947
Yuxarı Volta	20 sentyabr, 1960
Yuqoslaviya	24 oktyabr, 1945
Yunanıstan	25 oktyabr, 1945
Zair	20 sentyabr, 1960
Zambiya	1 dekabr, 1964
Zimbabve	25 avqust, 1980

ƏDƏBİYYAT

Burada verilmiş ədəbiyyat siyahısının məqsədi oxucunu beynəlxalq siyasətin ümumi problemləri haqqında ən vacib və ən geniş yayılmış ədəbiyyatlar ilə tanış etməkdir. Bu məqsədə uyğun olaraq, təqdim olunan siyahı üç amil ilə məhdudlaşdırılmışdır. Birincisi, siyahı zərurətdən irəli gələrək seçmədir. İkincisi, ayrı-ayrı problemlərdən, xüsusilə ayrı-ayrı regionlar və dövlətlər ilə əlaqəli problemlərdən bəhs edən ədəbiyyatlar siyahıya daxil edilməmişdir. Üçüncüsü, əsas yer ingilis dilində olan nəşrlərə verilmişdir.

I FƏSİL
Siyasi realizm haqqında

Beynəlxalq siyasətin araşdırılması haqqında

II FƏSİL
Siyasi güc anlayışı haqqında

Əlavə olaraq siyasi gücün öz dəyərini itirməsi haqqında: aşağıdakı kitablar və I fəsildə siyasi realizm haqqında göstərilən ədəbiyyat:

Beynəlxalq siyasətin ümumi təbiəti haqqında, əlavə olaraq I fəslə aid kitablar

İmperializmin müxtəlif aspektləri haqqında

Nüfuz siyasəti haqqında, əlavə olaraq aşağıdakı kitab və X fəslə aid ədəbiyyat

Siyasi ideologiyalar haqqında iki fundamental əsər bunlardır:

Həmçinin bax:

III FƏSİL
Ümumiyyətlə, dövlətin gücü haqqında

Millətçilik haqqında

Dövlətin gücünün müxtəlif ünsürləri haqqında
Geosiyasət haqqında

IV FƏSİL
Qüvvələr tarazlığı nəzəriyyəsi haqqında

Güc siyasəti və qüvvələr tarazlığına dair klassik hind nəzəriyyəsi haqqında

Qüvvələr tarazlığının tarixi haqqında

V FƏSİL
İdarəetmə qaydalarının ümumi problemi haqqında

Beynəlxalq əxlaq normaları haqqında

Həmçinin Karr, Morgentau və Tompsonun I fəslə aid ədəbiyyat arasında göstərilmiş kitabları

Millətçi universalizm barədə III fəslə aid millətçilik haqqında göstərilmiş kitablar

Dünya ictimai fikri haqqında

VI FƏSİL
Beynəlxalq hüququn ümumi problemləri haqqında

Millətlər Cəmiyyətinin Nizamnaməsinin və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə əlaqədar xüsusi promlemlər haqqında VIII fəslə aid ədəbiyyatlar

Suverenlik haqqında

VII FƏSİL
Müasir dünya siyasətinin ümumi təbiəti haqqında

Total müharibə haqqında

VIII FƏSİL
Sülh planlarının tarixi haqqında

Tərk-silah haqqında
Təhlükəsizlik haqqında

Məhkəmə yolu ilə həll haqqında

Dinc dəyişiklik haqqında, əlavə olaraq beynəlxalq hökumət başlığı altında verilmiş ədəbiyyatlar

Ümumilikdə beynəlxalq hökumət haqqında

Həmçinin IV fəslə aid ədəbiyyat arasında Temperli, Vebster və Volfersin kitablarına

Birləşmiş Millətlər Təşkilatı haqqında

IX FƏSİL
Dünya dövləti məsələsi haqqında

Dünya birliyi məsələsi haqqında

X FƏSİL
Diplomatiya problemi haqqında

TARİXİ LÜĞƏT

"Açıq qapı"

ABŞ-ın Çinə qarşı siyasəti ilk dəfə olaraq 1899-cu ildə dövlət katibi Con Hey tərəfindən böyük dövlətlərə Çində bərabər kommersiya hüquqlarına riayət etməyə çağırış edən oxşar notalar formasında rəsmən elan edilmiş və 1900-cü ildə Çinin ərazi bütövlüyü, eləcə də siyasi müstəqilliyinin dəstəklənməsi haqqında eyni nota ilə genişləndirilmişdir.

Adams, Con Kvinsi

1767-1848. ABŞ-ın 6-cı prezidenti (1825-1829). Niderlandda (1794-1797) və Prussiyada (1797-1801) səfir; ABŞ senatoru (1803-1808); Rusiyada səfir (1809-1814); 1812-ci il müharibəsinə son qoyan Gent müqaviləsinin (1814) tərtib edilməsinə yardım edib; Britaniyada səfir (1815-1817). O, dövlət katibi kimi (1817-1825) Monro doktrinasının tərtib olunmasında böyük rol oynayıb.

Adams, Con

1735-1826. ABŞ-ın 2-ci prezidenti (1797-1801). 1777-ci ildə Fransada sülh komissarı təyin edilib; Amerikanın Müstəqillik müharibəsinin sonunda imzalanan Paris müqaviləsi (1783) danışıqlarını aparanlardan biri; Böyük Britaniyada elçi (1785-1788). Adams prezident kimi yumşaq və barışdırıcı siyasət ilə Fransa ilə müharibənin qarşısını aldı.

Alabama iddiaları

ABŞ-ın Vətəndaş müharibəsi zamanı İngiltərədə istehsal edilmiş və təchiz edilmiş, cənubluların tərəfdarlarına məxsus *"Alabama"* gəmisi tərəfindən şimalın gəmilərinə vurulmuş ziyan nəticəsində İngiltərəyə qarşı iddiaları. İddialar 1871-ci ildə Cenevrədə keçirilmiş arbitraj tribunalı tərəfindən həll edildi.

Aleksandr, I

Rusiya çarı (1801-1825). Napoleonun qəsbkarlıqlarının uğursuzluğu Aleksandrı Avropada ən güclü hökmdara çevirdi. O, mistisizm və reaksiyanın qəribə kombinasiyasından ruhlanaraq, "Müqəddəs ittifaq"ı təbliğ etmişdir.

Ancel, Norman

1874-1967. Britaniyalı pasifist. O, *"Böyük illüziya"* kitabına (1910) görə məşhurlaşıb; kitabda belə bir tezis irəli sürülür ki, müharibələri aparmağa dəyməz və belə bir nəticə çıxarılır ki, dövlətlər bunu anlasa, heç bir müharibə olmaz.

"Atlantika xartiyası"

1941-ci ildə prezident Ruzvelt və baş nazir Çörçill tərəfindən imzalanmış ümumi prinsiplərə dair bəyannamə; burada ABŞ və Böyük Britaniyanın müharibədən sonrakı dövrə münasibətdə dövlət siyasətləri müəyyən edilir; bəyannamə xalqın öz müqəddəratını təyin etməsi prinsipi, təcavüzə qarşı çıxma, tərk-silah və ticarət və xammala bərabər çıxış prinsiplərini də əhatə edir.

Austerlits döyüşü

1805-ci il, Austerlits yaxınlığı, indi Çexoslovakiyaya aid olan ərazidə I Napoleon Rusiya və Avstriya ordularını məğlubiyyətə uğratdı. Napoleonun ən parlaq qələbəsi hesab olunan bu döyüş Napoleonun uğurunun zirvəsi kimi qiymətləndirilir.

Avqust
Yuli Sezarın oğulluğu və varisi. Birinci Roma imperatoru (b.e.ə. 27 – b.e. 14); İtaliya, Afrika və Siciliya üzərində nəzarəti ələ keçirmiş, Antonio və Kleopatranı Aktium döyüşündə (b.e.ə. 31) məğlub edərək Roma dünyasının tək hökmdarına çevrilmişdir.

Avropa Müdafiə İttifaqı
1852-ci ildə Fransa, Almaniya, İtaliya, Belçika, Niderland, Lüksemburq tərəfindən ümumi müdafiə qüvvəsinin yaradılması məqsədilə razılaşdırılmış uğursuz təklif.

Avropa Ödənişlər İttifaqı
1950-ci ildə Avropa Iqtisadi Əməkdaşlıq Təşkilatının (AİƏT) üzvləri tərəfindən avropalılar arasında müdaxiləni genişləndirmək və liberallaşdırmaq üçün təsis edilmiş təşkilat. İndi Avropa Valyuta Razılaşması ilə əvəz olunmuş ittifaq öz üzvlərinə istənilən ölkə ilə debet balansları nizamlamaq üçün istənilən xarici pul vahidindən istifadə etməklə hesablarını digər üzv dövlətlərlə tarazlaşdırmaq imkanı verdi.

Avropa Şurası
1949-cü ildə Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, İsveç, Danimarka, İrlandiya və İtaliya tərəfindən yaradılmış beynəlxalq qurum; 1950-ci ildə Türkiyə və Yunanıstan bura qoşuldu. Şura Nazirlər Komitəsi və Məşvərətçi Assambleya vasitəsilə Avropa Konfederasiyasının yaradılmasına nail olmaq məqsədi daşıyır.

Azlıqlar haqqında müqavilələr
Birinci Dünya müharibəsindən sonra bağlanan və Mərkəzi və Şərqi Avropanın əksər dövlətlərinə öz sərhədləri daxilində yaşayan azlıqlara öz dini etiqadlarını həyata keçirmək, öz dillərində danışmaq və uşaqlarına mənsub olduqları azlıqların mədəniyyətini öyrətmək azadlığı verərək, onları müdafiə etmək öhdəliyi qoyan müqavilələr. Millətlər Cəmiyyəti bu şərtlərin həyata keçməsi üçün məsuliyyət daşıyırdı.

Barbarossa, Fridrix
I Fridrixin ləqəbi, Müqəddəs Roma imperatoru və Almaniya kralı, 1152-1190.

Bareer, Kamiy E.P.
1851-1940. Fransanın İtaliyadakı səfiri (1897-1924).

Bartu, Jan Lui
1862-1934. Fransa dövlət xadimi. Xarici işlər naziri kimi (1934) Fransanın Rusiya, Böyük Britaniya və Kiçik Antanta ilə əlaqələrini möhkəmləndirməyə cəhd etmişdir.

Beneş, Edvard
1887-1948. Çexoslovakiya dövlət xadimi. Xarici işlər naziri (1918-1935) və baş nazir (1921-1922) kimi onun adı əsas etibarilə Kiçik Antanta və Çex İttifaqı ilə bağlıdır. 1935-ci ildə prezident seçilmişdir; Münhen razılaşmasından sonra (1938) sürgünə getdi; İkinci Dünya müharibəsi zamanı müvəqqəti hökumətə rəhbərlik etdi; 1946-cı ildə yenidən prezident seçildi; kommunist çevrilişindən qısa müddət sonra 1948-ci ildə istefaya getdi.

Bentam, Ceremi
1748-1832. İngilis filosofu və hüquqşünası; utilitar məktəbin banisi.

Berd, Çarlz O.
1874-1948. Amerika tarixçisi və siyasi mütəfəkkiri.

Berk, Edmund
1729-1797. Britaniya dövlət adamı və maarifçi mühafizəkarlığın siyasi filosofu.

Berlin konqresi
1878. Krım müharibəsi nəticəsində imzalanmış Paris müqaviləsini (1856) imzalayan dövlətlər tərəfindən, 1878-ci ilin əvvəlində Rusiya tərəfindən Osmanlı imperiyasına diktə edilmiş San Stefano müqaviləsinin şərtlərini yenidən nəzərdən keçirmək üçün çağırılmışdı.

Berns, Con
1858-1943. Britaniya sosialisti və parlamentin üzvü (1892-1918).

Beveric, Albert C.
1862-1927. ABŞ senatoru (1889-1911) və Con Marşallın bioqrafı. Bir siyasətçi kimi onun şöhrəti beynəlxalq siyasətdə imperializmi daxili siyasətdə mütərəqqi hərəkatı müdafiə etməsinə söykənir.

Beykon, Fransis
1561-1626. İngilis filosofu.

Beynəlxalq Çəkilər və Ölçülər Bürosu
1875-ci ildə çəkiləri və ölçüləri standartlaşdırmaq üçün hökumətlərarası təşkilat. 1949-cu ildən etibarən Birləşmiş Millətlər Təşkilatının qurumu.

Beynəlxalq Dunay çayı Komissiyası
Çayın beynəlxalq hissəsini idarə etmək üçün Versal müqaviləsi (1919) ilə yaradılmışdır; 1936-cı ildə Almaniya Komissiyanın işində iştirakdan imtina etmiş və o, 1940-cı ildə buraxılmışdır.

Beynəlxalq Kənd Təsərrüfatı İnstitutu
1905-ci ildə kənd təsərrüfatı ilə əlaqədar biliklərin toplanması və yayılması məqsədilə təsis edilmişdir.

Beynəlxalq Mülki Aviasiya Təşkilatı
Birləşmiş Millətlər Təşkilatının 1947-ci ildə yaradılmış qurumu; beynəlxalq hava ticarətini genişləndirmək və onu daha təhlükəsiz və daha səmərəli etmək məqsədilə yaradılmışdır.

Beynəlxalq Telekommunikasiya İttifaqı
Bütün növ telekommunikasiyaların təkmilləşdirilməsi və rasional istifadəsi üçün beynəlxalq əməkdaşlığa dəstək vermək və onu genişləndirmək məqsədilə yaradılmışdır. 1934-cü ildə 1865-ci ildə təsis edilmiş Beynəlxalq Teleqraf İttifaqının və 1906-cı ildə təsis edilmiş Beynəlxalq Radioteleqraf İttifaqının nəzdində yaradılmışdır.

Beynəlxalq Teleqraf İttifaqı
1865-ci ildə yaradılmış bu təşkilat ilk əhəmiyyətli beynəlxalq ictimai ittifaqdır. 1934-cü ildən etibarən Telekommunikasiya İttifaqı kimi tanınıb; indi Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumudur.

Beynəlxalq Valyuta Fondu
1947-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının qurumu olan müstəqil təşkilat; Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı ilə yaxından əməkdaşlıq edir; beynəlxalq ticarətə yardım etmək, mübadilədə bərabərsizlikləri azaltmaq və pul vahidlərini sabitləşdirmək məqsədilə yaradılmışdır.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı
Birləşmiş Millətlər Təşkilatının qurumu olan təşkilat. Onun vəzifəsi üzv dövlətlərə və xarici sərmayəçilərə istehsalata qoyulan sərmayəyə yardım etmək, xarici ticarəti təşviq etmək və beynəlxalq borcları ödəmək üçün borclar vermək.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı
1946-cı ildə kənd həyatı şəraitinin yaxşılaşdırılması, kənd təsərrüfatı istehsalının və bölüşdürülməsinin təkmilləşdirilməsi və qidalanma səviyyəsinin yüksəldilməsi məqsədləriylə yaradılmışdır.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası
Birləşmiş Millətlər Təşkilatının beynəlxalq iqtisadi və sosial məsələləri araşdırmaq və onlar haqqında Baş Assambleyaya və Birləşmiş Millətlər Təşkilatının digər orqanlarına tədbirlər görülməsi üçün məlumat verən tərkib orqanı.

Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq Şurası
Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, öz-özünü idarə edə bilməyən ərazilər üzərində idarəetməyə nəzarət edir; qəyyumluq altında olan ərazilərin idarə edilməsini həyata keçirən üzvlərdən və digər üzvlərin (Təhlükəsizlik Şurasının daimi üzvləri hər zaman bura daxildir) bərabər sayından təşkil olunur.

Birləşmiş Millətlər Təşkilatının Yardım və Bərpaetmə Administrasiyası
1943-cü ildə müharibədə viran edilmiş ölkələrə yardım göstərmək məqsədilə yaradılmışdır; 1947-ci ildə Avropada fəaliyyətini dayandırmış; 1949-cu ildə buraxılmışdır.

Bismark, Otto fon
1815-1898. Almaniya dövlət xadimi. Prussiya kansleri (1862-1871) və Almaniya kansleri (1871-1890); o, Almaniyanı Prussiyanın rəhbərliyi altında birləşdirmiş və Almaniya imperiyasını böyük dövlətlərdən birinə çevirmişdir.

Bokser iğtişaşı
1990-cü il. Çində (xüsusilə Pekində) Bokser kimi tanınan antiəcnəbi hərbi təşkilat tərəfindən əcnəbilərə və xristianlara qarşı zorakı hücumlar.

Boldvin, Steynli
1867-1947. Britaniya mühafizəkarlarının lideri; Britaniya hökumətində xəzinədar, 1922-1923; baş nazir, 1923-1924, 1924-1929, 1935-1937.

Bolen, Çarlz E.
1904-1974. Amerika diplomatı. Sovet İttifaqında səfir (1953-1957).

Bolinqbrouk, Henri Müqəddəs Con, 1-ci viskont
1678-1751. İngilis Mühafizəkar Partiyasından olan dövlət xadimi və yazıçı.

Bos, Subhas Çandra
1897-1945. Hind millətçisi, İkinci Dünya müharibəsi zamanı "Ox dövlətləri"nə rəğbətinə görə həbs olunmuşdu, Almaniyaya qaçmış və yaponların dəstəklədiyi "Müvəqqəti hind hökuməti"nə başçılıq etmişdir.

"Böyük dəyənək siyasəti"
Dövlətin gücünün təsirli şəkildə tətbiqinin xarakteristikası; prezident Teodor Ruzveltin (1901-1909) məşhur "Yumşaq danış, lakin əlində böyük bir dəyənək tut" kəlamından götürülüb.

Brays, Ceyms
1838-1922. İngilis tarixçisi, dövlət adamı, diplomatı və hüquqşünası. ABŞ-da başlıca olaraq Amerika cəmiyyəti və siyasətinin klassik araşdırması olan *"Amerika birliyi"* (1888) əsərinə görə və ABŞ-dakı səfirliyinə (1907-1913) görə tanınır.

Brayt, Con
1811-1889, Britaniya Parlamentinin üzvü. İngiltərədə orta sinif islahatı hərəkatının liberal müdafiəçisi.

Brian-Kelloq paktı
1928-ci ildə ABŞ və 43 digər dövlət tərəfindən imzalanmış, həmçinin Paris paktı kimi tanınan müqavilə. Onu imzalayanlar üzərinə müharibədən dövlətin siyasətinin bir aləti kimi imtina etmək və beynəlxalq mübahisələri yalnız dinc vasitələrlə həll etməyə çalışmaq öhdəliyi qoydu. Əsasən, ABŞ-ın dövlət katibi Kelloq və Fransa xarici işlər naziri Brian tərəfindən işlənib-hazırlanmışdı.

Buxarin, Nikolay
1888-1938. Rus kommunisti; Leninin ölümündən sonra baş partiya nəzəriyyəçisi; Siyasi Büronun üzvü; 1938-ci il təmizləməsi zamanı qətlə yetirilib.

Bur müharibəsi
1899-1902. Cənubi Afrikada Britaniya və Hollandiya müstəmləkəçiləri arasında müharibə.

Burbonlar
Fransa əsilli kral ailəsi, İspaniyanı, iki Siciliyanı və Parmanı idarə etmiş qolları olub; XVI əsrin sonundan 1848-ci ilə qədər Fransa inqilabı və Napoleon dövrü istisna olmaqla Fransaya rəhbərlik edib.

Ceyms, Uilyam
1842-1910. Amerika filosofu və psixoloqu.

Cefferson, Tomas
1743-1826. ABŞ-ın üçüncü prezidenti (1801-1809). Müstəqillik bəyannaməsinin müəllifi; Virciniyanın qubernatoru; Qitə Konqresində xidmət etmişdir; Franklini Fransada səfir kimi əvəz etmişdir (1785); dövlət katibi (1790-1793).

Cey, Con
1745-1829. Qitə Konqresinin prezidenti (1778); İspaniyada yardım və tanınmaya nail olmağa çalışan missiyasında səlahiyyətli səfir. Hamilton və Medison ilə birlikdə *"Federalistin qeydləri"nin ("Federalist Papers")* müəllifi. Xarici işlər katibi (1784-1789); Ali Məhkəmənin birinci baş hakimi (1789-1795). Paris müqaviləsinin (1783) müddəalarının pozulmasından irəli gələn çətinlikləri aradan qaldırmaq üçün İngiltərə ilə Cey müqaviləsini imzalamışdır.

Corc, III
Böyük Britaniya və İrlandiya kralı (1760-1820)

Corc, VI
Böyük Britaniya kralı (1936-1952).

Cako müharibəsi
1932-1935. Cako ərazisinə sahib olmaq uğrunda Boliviya və Cako arasında müharibə.

Çarlz, II
İngiltərə, Şotlandiya, İrlandiya kralı (1660-1685).

Çarlz, VIII
Fransa kralı (1483-1498). 1494-cü ildə İtaliyanı işğal etdi. İspaniya kralı V Ferdinand, imperator I Maksimilian, Papa VI Aleksandr və Milan və Venetsiyanın dövlət başçılarından ibarət ittifaq tərəfindən geri çəkilməyə məcbur edildi.

Çarlz, V
Müqəddəs Roma imperiyasının imperatoru (1519-1558) və (I Çarlz kimi) İspaniya kralı (1516-1556).

Çemberlen, Cozef
1836-1914. Britaniya dövlət adamı. Müstəmləkə naziri kimi (1895-1903) o, imperiya genişlənməsinin, birləşmənin və islahatın tərəfdarı olub.

Çemberlen, Nevil
1869-1940. İngilis dövlət adamı; Cozef Çemberlenin oğlu. Baş nazir kimi (1937-1940) "Ox dövlətləri"nə qarşı "barışdırma" siyasətinin məşhur müdafiəçisi olub; Britaniyanın Norveçdə məğlubiyyətindən sonra (aprel, 1940) istefa verməyə məcbur edilib.

Çesterfild, Filip Dormer Stanhoup, 4-cü qraf
1649-1773. İngilis dövlət xadimi və yazıçısı.

Çörçill, Uinston L.S.
1874-1965. Britaniya dövlət xadimi və yazıçısı. Admirallığın birinci lordu (1911-1915, 1939-1940); Birinci Dünya müharibəsindən əvvəl və sonra kabinetdə müxtəlif vəzifələr tutub; baş nazir (1940-1945, 1951-1955).

Daimi Beynəlxalq Ədalət Məhkəməsi
Başqa sözlə, Dünya Məhkəməsi adlanır. 1921-ci ildə Millətlər Cəmiyyətinin Nizamnaməsinə uyğun olaraq yaradılmışdır. 1945-ci ildə funksiyaları Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə yaradılan Beynəlxalq Ədalət Məhkəməsinə keçdikdən sonra fəaliyyətini dayandırmışdır.

Demosfen
B.e.ə. 384-322. Yunan natiqlərinin ən görkəmlisi. *Filippiklərində (Philippics)* (b.e.ə. 351, 344, 341) o, afinalıları Makedoniya kralı II Filip tərəfindən gələn təhlükəyə qarşı xəbərdar edirdi, hansı ki, b.e.ə. 338-ci ildə Yunanıstanı işğal etdi.

Diderot, Denis
1713-1784. Fransız filosofu və ədibi.

Diskart, Rene
1596-1650. Fransız filosofu.

Dizraeli, Benjamin (Bikonsfild qrafı)
1804-1881. Britaniya dövlət xadimi və yazıçısı; baş nazir (1867-1868, 1874-1880). Mühafizəkarlar Partiyasını imperializm və demokratik islahatdan ibarət ikili siyasət ilə yenidən dirçəltdi.

"9 dövlət" müqaviləsi
1922. ABŞ, Böyük Britaniya, Yaponiya və Vaşinqton konfransının 6 digər üzvü "Çinin suverenliyi, müstəqilliyi və ərazi və idarəetmə bütövlüyü"nə hörmət etmək və "Açıq qapı" prinsipini dəstəkləmək öhdəliyi götürdü.

Donuzlar körfəzi
Kuba sahil xəttinin bir hissəsi, 1961-ci ildə bir qrup kubalı qaçqın burada Amerikanın himayəsi altında qəsbkarlıq törətdi və uğursuzluğa uğradı.

Dörd azadlıq
Prezident Franklin D.Ruzvelt Konqresə lend-liz haqqında qanunu təklif etmək üçün etdiyi müraciətdə (6 yanvar, 1941) bəyan etdi ki, dörd azadlıq dünyada hər yerdə üstün olmalıdır – bunlar söz azadlığı, etiqad azadlığı, təminat azadlığı, qorxudan azadlıq.

Dünya Səhiyyə Təşkilatı
Birləşmiş Millətlər Təşkilatının 1948-ci ildə yaradılmış ixtisaslaşmış qurumu. Onun məqsədi "bütün xalqların sağlamlığın ən yüksək səviyyəsinə nail olması"dır.

Erasmus, Desiderius
1469-1536. İntibah dövrünün ən böyük humanistlərindən biri.

Fenelon, Fransua
1651-1715. Fransız teoloqu və yazıçısı; Kambray arxiyepiskopu.

Fixte, Yohann Qotlib
1762-1814. Alman filosofu.

Filip, II
İspaniya, Neapol və Siciliya kralı (1556-1598) və Portuqaliya kralı (I Filip kimi) (1580-1598). Filipin xarici siyasəti İspaniyanın Avropa qitəsində hegemonluğunu qoruyub saxlamağa və Roma katolik kilsəsinin bidətçilik üzərində qələbəsinin təmin edilməsinə yönəlmişdi. İngiltərəyə qarşı 1588-ci ildə İspaniya Armadasının məğlubiyyəti ilə nəticələnmiş fəlakətli ekspedisiyanı öz üzərinə götürmüşdü.

Fox, Ferdinanad
1851-1929. Fransız marşalı; 1918-ci ildən etibarən Birinci Dünya müharibəsi dövründə birləşmiş müttəfiqlər komandanlığının rəhbəri.

Franklin, Bencamin
1706-1790. Amerika dövlət xadimi, çapçı, alim və yazıçı. Amerika inqilabının və yenicə yaranmış dövlətin ən böyük diplomatlarından biri; yeni yaranmış respublikanın (1778) Fransa tərəfindən tanınmasında və 1782-ci ildə Britaniya ilə sülh danışıqlarının aparılmasında böyük rol oynayıb.

Fransis, I
Fransa kralı (1515-1547).

Fransıs, II
Müqəddəs Roma imperiyasının sonuncu imperatoru (1792-1806); Avstriyanın birinci kralı (I Fransis kimi, 1804-1835); Bogemiya və Macarıstan kralı (1792-1835).

Fridrix, II (Böyük Fridrix)
Prussiya kralı (1740-1786). Xüsusilə Avstriya mirası uğrunda müharibədə (1740-1748) və Yeddiillik müharibədə (1756-1763) yürütdüyü parlaq taktikalar vasitəsilə Prussiyanı Avropada qabaqcıl hərbi qüvvəyə çevirib.

Friport, ser Endrü
Riçard Stil və Jozef Edison tərəfindən ingilis dilində gündəlik *"Spectator"* jurnalında cari münasibətlər haqqında baxışlarının carçısı kimi uydurulmuş surətlərdən biri.

Fukidid
Təxminən b.e.ə. 460-400-cü illər. Afina tarixçisi.

Genuya Respublikası
İtaliya dəniz dövləti; qüdrətinin zirvəsinə XIV əsrdə çatmışdır. 1805-ci ildə Fransaya birləşdirilmiş və 1815-ci ildə Sardiniya krallığı ilə birləşmişdir.

Gizo, Fransua
1787-1874. Fransız tarixçisi və liberal dövlət xadimi.

Haaqa konvensiyaları
1899 və 1907-ci illər Haaqa sülh konfranslarının nəticəsində ABŞ və digər böyük

dövlətlər arasında imzalanmış müqavilələr. Daimi Beynəlxalq Ədalət Məhkəməsi kimi tanınan qurumun fəaliyyətini təmin etmiş, quruda aparılan müharibənin qanunlarını və üsullarını, bitərəflərin hüquq və öhdəliklərini təyin etmiş və s.

Hamilton, Aleksandr

1757-1804. Amerika dövlət xadimi. Federal Konstitusiya Konvensiyasında nümayəndə olmuş və burada mərkəzi hökumətin güclü rəqibi kimi çıxış etmişdir; Medison və Cey ilə birlikdə *"Federalistin qeydləri"nin ("Federalist Papers")* müəllifidir. Vaşinqtonun administrasiyası dövründə xəzinə katibi və Federalist Partiyasının lideri kimi Hamilton xarici, eləcə də maliyyə işləri üzərində böyük təsirə malik olub.

Hannibal

B.e.ə. 247-182. Karfagenli, general; İkinci Pun müharibəsi (b.e.ə. 218-201) dövründə Alp dağlarını keçərək, İtaliyanı işğal edib.

Habsburq

1282-ci ildən 1918-ci ilə qədər Avstriyanı idarə etmiş xanədanlıq; 1438-ci ildən 1806-cı ilə qədər Müqəddəs Roma imperiyasının imperatorları onların arasından seçilib.

Hege, Corc Vilhelm Fridrix

1770-1831. Alman filosofu.

Henri, II

Fransa kralı (1547-1559); atası I Fransisin imperator V Karla və Karlın oğlu, İspaniya kralı II Filipə qarşı mübarizəsini davam etdirib.

Henri, VIII

İngiltərə kralı (1509-1547).

Hilferdinq, Rudolf

1877-1941. Alman sosialisti və iqtisadçısı; maliyyə naziri (1923, 1928-1929).

Hobbs, Tomas

1588-1679. İngilis filosofu.

Hobson, Con A.

1858-1940. İngilis iqtisadçısı.

Höte, Yohan Volfqanq fon

1749-1832. Alman şairi, dramaturqu və novellaçı.

Hull, Kordel

1871-1955. ABŞ dövlət katibi (1933-1944).

İoan, Salisberili

Təxminən 1115-1180. İngilis sxolastik filosofu.

İsgəndər, Böyük

Makedoniya hökmdarı, b.e.ə. 336-323-cü illər. İsgəndər Trakiya, İlliriya və Misirin hərbi istilası və Persiya və Şimali Hindistanın qəsbini həyata keçirərək, faktiki olaraq sivilizasiyanın Aralıq dənizindəki mərkəzinin hökmdarına çevrildi.

İslahat aktları

Britaniya seçki sistemini formalaşdırmış və səsvermə hüququnu genişləndirmiş üç sənəd (1832, 1867, 1884).

İspaniya irsi uğrunda müharibə

Bax, *Utrext müqaviləsi.*

Kalhon, Con S.

1782-1850. Amerika dövlət adamı və siyasi filosof. Cənub əkinçi zadəganlığının maraqlarının müdafiəçisi və konstitusional ləğvetmə nəzəriyyəsinin müəllifi. Müharibə katibi (1817-1825); vitse-prezident (1825-1829); dövlət katibi (1844-1845).

Kambon, Pier Paul

1843-1924. Fransız diplomatı; Culs Kambonun qardaşı. İngiltərədəki səfir kimi (1898-1920) İngiltərə-Fransa razılaşmasının (1904) və 1907-ci il İngiltərə-Rusiya razılaşmasının əldə edilməsində yardımçı olub və İngiltərəni Birinci Dünya müharibəsinə daxil olmağa təşviq edib.

Kambon, Culs M.

1845-1935. Fransız diplomatı; Pyer Paul Kambon. İspaniya-Amerika müharibəsi zamanı ABŞ-da, İspaniyada (1902-1907) və Almaniyada (1907-1914) səfir.

Kanninq, Corc

1770-1827. Britaniya dövlət adamı; baş nazir (1827); xarici işlər naziri (1807-1809, 1822-1827).

Kant, İmmanuel

1724-1804. Alman filosofu.

Karfagen sülhü

B.e.ə. 146-cı ildə Üçüncü Pun müharibəsinin (b.e.ə. 149-146) sonunda Roma tərəfindən Karfagenin viran edilməsi.

Karl, Böyük

Qərbin imperatoru (800-814); frankların kralı (768-814).

Kasleri, Robert Stüart

1769-1822. Britaniyalı mühafizəkar dövlət adamı. Müharibə katibi (1805, 1807-1809); xarici işlər naziri (1811-1822).

Katerina, Böyük (II Katerina)

Rusiya çariçası (1762-1796). Rusiya imperiyasını başlıca olaraq Türkiyənin hesabına genişləndirmiş və gücləndirmişdir.

Kato (Böyük)

B.e.ə. 234-149. Roma dövlət adamı, Karfagenin barışmaz düşməni; Üçüncü Pun müharibəsi onun təsiri ilə baş vermişdi.

Kautski, Karl Yohan

1854-1938. Sosializmin aparıcı alman-avstriyalı nəzəriyyəçisi.

Kavur, Kamillo B.

1810-1861. İtaliya dövlət adamı, Sardiniyanın baş naziri (1852-1859, 1860-1861); İtaliyanın siyasi birləşməsinə nail olub.

Kenan, Corc F.

1904 – amerikan diplomatı və tarixçisi. Sovet İttifaqında səfir (1952).

Kiçik Antanta

1920 və 1921-ci illərdə Çexoslovakiya, Rumıniya və Yuqoslaviya arasında 1919-cu il status-kvosunun ümumi müdafiəsi üçün bağlanmış ittifaq müqavilələri.

Klauzevits, Karl fon

1780-1831. Prussiya generalı və hərbi strategiya haqqında araşdırmaçı. Onun şah əsəri *"Müharibə haqqında"* hərbi strategiya və taktika və müharibə nəzəriyyəsinə böyük təsirə malik olmuşdur.

Klemenso, Corc
1841-1929. Fransa dövlət xadimi, iki dəfə baş nazir (1906-1909, 1917-1919). Paris konfransında (1919) Vudro Vilsonun əsas rəqibi.

Kobden, Riçard
1804-1865. İngilis dövlət xadimi, liberal islahat hərəkatında lider; xüsusilə azad ticarətin inkişafına dəstək vermişdir.

Kolombo planı
Britaniya Birliyinin 1951-ci ildə Cənubi və Cənub-Şərqi Asiyada iqtisadi əməkdaşlıq üçün hazırlanmış planı.

Koreya müharibəsi
Şimali Koreyanın Rusiya və ABŞ arasında müharibədən sonra razılaşma ilə müəyyən edilmiş bölgü xətti olan 38-ci enlik paralelini keçərək, Cənubi Koreyaya hücumu ilə başladı (iyun, 1950). Birləşmiş Millətlər Təşkilatı sülhün pozulmasını pisləyən və ədavətlərin dayandırılması və Şimali Koreya qüvvələrinin geri çəkilməsini tələb edən qətnamə qəbul etdikdən sonra (25 iyun) Birləşmiş Millətlər Təşkilatının qüvvələri ABŞ-ın komandanlığı altında Cənubi Koreyaya qoşuldu.1950-ci ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının qüvvələri Mancuriya sərhədinə yaxınlaşanda Şimali Koreyaya Çin kommunistləri qoşuldular. 1951-ci ildə döyüş xətləri yenidən 38-ci paraleldə sabitləşdi. 1953-cü ilin iyulunda hərbi əməliyyatların dayandırılması haqqında razılıq əldə edildi.

Kornel, Pyer
1606-1684. Fransa dramaturqu.

Krım müharibəsi
1854-1856. Fransa, Böyük Britaniya və Türkiyənin Rusiyaya qarşı apardığı müharibə. Müharibənin nəticəsində imzalanmış Paris müqaviləsi (1856) Dunay prinsiplərini böyük dövlətlərin birgə zəmanəti altına qoydu, Qara dənizi bitərəf ərazi elan etdi, onu imzalayanların üzərinə Türkiyənin müstəqilliyinə və ərazi bütövlüyünə hörmət etmək məsuliyyəti qoydu.

Kryus, Emerik
1590-1648. *"Le Nouveau Cynée"* (1623) əsərində Kryus beynəlxalq münaqişələri səs çoxluğu ilə həll etmək və qəbul olunan qərarları tətbiq etmək üçün bütün monarxları və suveren respublikaları təmsil edən səfirlərin şurasını təsvir edir.

Qoqol, Nikolay V.
1809-1852. Rusiya novellaçısı və pyes yazarı.

Qoll, Şarl de
1890-1970. Fransız generalı və dövlət xadimi. İkinci Dünya müharibəsi zamanı 1940-cı ildə Almaniya və Fransa arasında hərbi əməliyyatların dayandırılmasına qarşı çıxmış, İngiltərəyə qaçıb getmiş və döyüşən Fransanın və Fransa müvəqqəti hökumətinin lideri olmuşdur. Müharibədən sonra Fransada millətçi-sağçı partiyanın, Fransa Birləşmiş Xalq Partiyasının (*Rassamblement du Peuple Français*) lideri olmuş və 1958-ci ildə V Respublikanın prezidenti seçilmişdir.

Qrey, Edvard Qrey, I viskont
1862-1933. Britaniyalı dövlət xadimi. Xarici işlər naziri kimi (1905-1916) "Üçlər ittifaqı"nın yaradılmasında aparıcı rol oynayıb.

Qrotsi, Hüqo
1583-1645. Hollandiyalı hüquqşünas və humanist, beynəlxalq hüququn "atası". Beynəlxalq hüquq haqqında ilk sistemli əsəri *("De jure belli ac pacis")* qələmə alıb.

Quatçiardini, Françesko
1483-1540. İtalyan tarixçisi və diplomatı. Makiavellinin davamçısı olan Qutçiardini, əsasən, italyan müharibələri (1492-1534) dövrünün tarixini qələmə almasına görə tanınır.

Qustav, Adolf
1594-1632. İsveç kralı; Otuzillik müharibədə protestantların lideri.

Laval, Pyer
1883-1945. Fransız siyasətçisi; baş nazir (1931-1932, 1935-1936); Petenin rəhbərliyi altında yaradılmış Vişi hökumətinin faktiki diktatoru. İkinci Dünya müharibəsindən sonra almanlarla əməkdaşlığına görə edam edilmişdir.

Lenin, V.İ.
1870-1924. Rus inqilabçısı və dövlət adamı; bolşevizmin, III İnternasionalın və Sovet İttifaqının banisi.

Leopold, I
Belçika kralı (1831-1865).

Leopold, II
Belçika kralı (1865-1909).

Lloyd Corc, Devid (I Dvayfor qrafı)
1863-1945. Britaniya dövlət adamı və Birinci Dünya müharibəsi zamanı baş nazir.

Lokk, Con
1632-1704. İngilis filosofu.

Lokarno sazişləri
1925. Fransa-Almaniya və Belçika-Almaniya sərhədlərində qarşılıqlı təminat haqqında müqavilə də (təminatçılar kimi Almaniya, Fransa, Belçika, Böyük Britaniya və İtaliya tərəfindən imzalanmışdır) daxil olmaqla müxtəlif arbitraj müqavilələri və Almaniya tərəfindən hücum olacağı halda qarşılıqlı yardım haqqında Fransa-Polşa və Fransa-Çexoslovakiya müqaviləsi. "Lokarno ruhu" kimi tanınan qısa xeyirxah beynəlxalq razılaşma dövrünü yaratdı.

Lonq, Hyui
1893-1935. Luiziana qubernatoru (1928-1931); ABŞ senatoru (1931-1935).

Lov, Alfred Henri
1830-1913. Amerika pasifisti.

Lüdoviq, XIV
Fransa kralı (1643-1715).

Lüdoviq, XVI
Fransa kralı (1715-1774).

Lüksemburq, Roza
1870-1919. Alman marksisti; Birinci Dünya müharibəsində Spartak partiyasını təsis etdi və onun Almaniya Kommunist Partiyasına çevrilməsinə kömək etdi.

Mahan, Alfred Tayer
1840-1914. Amerikan tarixçisi, dəniz zabiti və publisist. ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya və Rusiyaya böyük təsir göstərmiş dəniz qüvvəsi doktrinasını formalaşdırıb.

Majino xətti
Fransanın şərq sərhədləri boyunca möhkəmləndirmə sistemi; onun tikintisinə başlamış Fransanın müharibə naziri (1922-1924, 1929-1931) Andre Majinonun adı ilə adlandırılmışdır.

Keçilməz hesab olunan bütöv xətt almanlar onu Sedan yaxınlığında yarma vasitələri ilə keçdikdən sonra – bu, 1940-cı ildə Fransanın istilasının başlanğıcını qoydu – əhəmiyyətsiz oldu.

Makedoniya imperiyası

B.e.ə. III əsrdə Böyük İsgəndərin hakimiyyəti dövründə gücünün zirvəsinə çatdı; b.e.ə. II və I əsrlərdə Roma tərəfindən məğlubiyyətə uğradıldı, parçalandı və ilhaq edildi.

Makiavelli, Nikolo

1469-1527. İtaliyalı siyasi filosof və dövlət adamı.

Mariya Tereza

Avstriya-Macarıstan imperatriçəsi (1740-1780).

Marks, Karl

1818-1883. Müasir sosializmin nəzəri bünövrəsini qoymuş alman iqtisadçısı və sosial filosofu.

Mazarini, Culio

1602-1661. Fransa dövlət adamı; Roma katolik kilsəsinin kardinalı. XIV Lüdoviqin hakimiyyətinin birinci dövründə aparıcı nazir (1643-1661).

Mediatizasiya

Müqəddəs Roma imperiyasında dövlət ilə imperiya arasında "birbaşa" əlaqə üstün dövlətin vasitəçiliyi ilə "vasitəli" əlaqəyə çevrildi və həmin dövrdən etibarən həmin dövləti imperiya ilə əlaqələrində həmin üstün dövlət təmsil edirdi.

Medison, Ceyms

1751-1836. Hamilton və Cey ilə birlikdə *"Federalistin qeydləri"nin ("Federalist Papers")* müəllifi; Ceffersonun hakimiyyəti dövründə dövlət katibi (1801-1808) və prezident kimi onun xələfi (1809-1817).

Mehmet, II

1429-1481. Osmanlı sultanı (1451-1481); Bizans imperiyasının istilasını tamamlamışdır; Osmanlı imperiyasının banisi.

Mehriban qonşuluq siyasəti

Prezident Franklin D.Ruzveltin prezident Huverin dövründə başlamış, mehriban əməkdaşlıq proqramı naminə Latın Amerikasına silahlı müdaxilədən özünü saxlamaqla bağlı siyasətini xarakterizə etmək üçün istifadə etdiyi ifadə.

Metternix, Klemens fon

1773-1859. Avstriya xarici işlər naziri (1809-1821), kansleri (1821-1848); Napoleon müharibələri dövründə Avropa diplomatiyasının yönünün müəyyən edilməsində vacib rol oynayıb və 1815-ci ildən 1848-ci ilə qədər Avropanın aparıcı dövlət adamı olub.

Mil, Con Stüart

1806-1873. İngilis filosofu və iqtisadçısı.

Millətlər Cəmiyyətinin Nizamnaməsi

Millətlər Cəmiyyətinin Konstitusiyası.

Morli, Con, blekbernli viskont Morli

1838-1923. İngilis liberal dövlət xadimi və ədibi.

Müqəddəs Roma imperiyası

962-1806. 476-cı ildə mövcudluğuna son qoyulmuş Roma imperiyasının varisi olmağa iddia edən Qərbi Avropa siyasi vahidi. Avropa dövlətləri onun süzerenliyini qəbul etməsə də, XVI əsrə qədər Avropanın birliyi olaraq qalmışdır. Otuzillik müharibənin (1618-1648) nəticəsində faktiki olaraq bütün siyasi əhəmiyyətini itirmiş və 1806-cı ildə ləğv edilmişdir.

Münhen razılaşması

Sentyabr, 1938. "Barışdırma" siyasətinin zirvəsi oldu. Nevil Çemberlen tərəfindən təmsil olunan İngiltərə və Eduard Daladye tərəfindən təmsil olunan Fransa Hitlerin tələblərini rədd etdi və Almaniyaya Çexoslovakiyada Sudet vilayətini işğal etmək icazəsi verdi. Baxmayaraq ki, Fransa və Britaniya yeni sərhədlərə təminat verirdi, Hitler 1939-cu ilin martında Çexoslovakiyanı ələ keçirəndə onların heç biri bircə addım da atmadı.

Napoleon müharibələri

1796-1815. Fransa tərəfindən I Napoleonun hərbi və siyasi liderliyi altında İngiltərə, Avstriya, Prussiya, Rusiya və Avropanın əksər digər dövlətlərinə qarşı müxtəlif dövrlərdə və müxtəlif kombinasiyalarda başladılan müharibələr. Napoleonun Vaterloo yaxınlığında məğlubiyyəti ilə başa çatdı.

Napoleon, I

1769-1821. Fransa imperatoru (1804-1815).

Napoleon, III

1808-1873. Fransa imperatoru (1852-1870); I Napoleonun qardaşı oğlu. 1848-ci il inqilabından sonra II Respublikanın prezidenti kimi o, diktatora və sonra imperatora çevrildi; Fransa Prussiya müharibəsində (1870-1871) məğlubiyyətə uğradıldıqdan sonra hakimiyyətdən əl çəkdi.

Nasional sosialistlər

Birinci Dünya müharibəsindən sonra yaradılmış və Hitlerin başçılıq etdiyi Nasional Sosialist Alman Fəhlə Partiyasının üzvləri (qısaca olaraq nasistlər).

Nay Komitəsi

Senator Herald P.Nay tərəfindən rəhbərlik edilən Senat Komitəsi (1934-1936), Birinci Dünya müharibəsində bankirlərin fəaliyyətini və hərbi təchizatı tədqiq etmək üçün yaradılmışdı. O başlıca olaraq müharibə möhtəkirlərinin Amerikanın müdaxiləsi üçün məsuliyyət daşımasının təmin edilməsi ilə əlaqədar olurdu. Bu tezisin populyarlığı 1935-1937-ci illər qanunvericilik fəaliyyətlərinin bitərəfliyində öz əksini tapmışdır.

Nehru, Cəvahirlal

1889-1964. Hindistan müstəqillik hərəkatının lideri; 1929-cu ildən etibarən Hind Milli Konqresinin prezidenti; müstəqil Hindistanın baş naziri, 1947-1964.

Nitsşe, Fridrix Vilhelm

1844-1900. Alman filosofu.

Nort, Frederik Nort, VII baron

1732-1792. İngiltərə baş naziri (1770-1782).

Nürnberq məhkəmələri

1945-1947. Nasistlərin "müharibə cinayətləri"nə görə Almaniyanın Nürnberq şəhərində yerləşən Beynəlxalq Hərbi Tribunal tərəfindən keçirilən məhkəmə prosesləri.

14 maddə

Prezident Vudro Vilsonun 8 yanvar 1918-ci ildə Konqresə müraciətində təqdim etdiyi müttəfiqlərin müharibəsinin məqsədlərinə və ümumi sülh proqramına verdiyi təyinat.

Otuzillik müharibə

1618-1648. Əsasən, Almaniyada aparılan ümumi Avropa müharibəsi; mahiyyətinə

görə kiçik alman dövlət başçıları və xarici dövlətlərin – Fransa, İsveç, Danimarka, İngiltərə – Avstriya, Almaniya, İtaliya, Niderland və İspaniyada Habsburqlar tərəfindən təmsil olunan Müqəddəs Roma imperiyasına qarşı müharibəsi, həmçinin protestantların katoliklərə qarşı müharibəsi.

Paleoloq, Mauris
Fransız diplomatı və yazıçısı, Rusiyada səfir (1914-1917).
Palmertson, Henri Con Templ, III viskont
1784-1865. Britaniya xarici işlər naziri (1830-1841); baş nazir (1855-1858).
Paris müqaviləsi
1856. bax: *Krım müharibəsi*
Pen, Uilyam
1644-1718. İngilis kvakeri. Pensilvaniyanın banisi. *"Avropada indiki və gələcək sülhə doğru"* essesində (*"Essay Towards the Present and Future Peace of Europe"*) (1693) Pen mübahisələri beynəlxalq arbitraj məhkəməsi tərəfindən nizamlanan dövlətlər liqası ideyasını irəli sürdü.
Pil, ser Robert
1788-1850. Britaniya daxili işlər naziri (1822-1827). Baş nazir (1834-1835, 1841-1846).
Pit (kiçik), Uilyam
1759-1806. İngilis dövlət adamı; baş nazir (1783-1801; 1804-1806)
Potsdam razılaşması
ABŞ, Sovet İttifaqı, Böyük Britaniyanın Almaniyanın Potsdam şəhərində keçirdikləri konfransın nəticəsi. Almaniyada ali hakimiyyəti Amerika, Rusiya, Britaniya və Fransa işğalçı hakimiyyətinə və 4 dövlətin Müttəfiq Nəzarət Şurasına keçirdi. Denasifikasiya, demilitarizasiya, demokratizasiya şərtlərini müəyyən etdi. Çinin razılığı ilə Yaponiyaya təslim olmaq haqqında ultimatum təqdim etdi.
Proudhon, Pyer C.
1809-1865. Fransız sosial filosofu.
Pun müharibələri
Şimal-Qərbi Afrika və Qərbi Aralıq dənizinə nəzarət edən Karfagenlə (danışıq dili pun dili idi) Roma arasında müharibələr. I Pun müharibəsi, b.e.ə. 264-241-ci illər, II Pun müharibəsi, b.e.ə. 218-201-ci illər, III Pun müharibəsi, b.e.ə. 149-146-cı illər. Karfagenin darmadağın edilməsi və Romanın Qərb dünyasında ən böyük dövlət mövqeyinə yüksəlməsi ilə nəticələndi.
Pyotr, Böyük (I Pyotr)
Rusiya çarı (1682-1725); müasir Rusiya dövlətinin banisi.

Radioteleqraf İttifaqı
1906-cı ildə yaradılmışdır; Beynəlxalq Teleqraf İttifaqı ilə birləşmiş və Beynəlxalq Telekommunikasiya İttifaqı yaradılmışdır.
Rasin, Jan
1639-1699. Fransız dramaturqu.

Regensburq Parlamenti
Müqəddəs Roma imperiyasının dövlət başçılarının nümayəndələrinin daimi konqresi.

Reyn Konfederasiyası
I Napoleonun başçılığı altında alman dövlət başçılarının 1806-cı ildə yaradılmış liqası.
Rişelye, Armand, Jan du Plesis, Duk de
1585-1642. Fransız dövlət xadimi, XIII Lüdoviq dövründə hökuməti baş nazir kimi idarə etmişdir; Roma Katolik Kilsəsinin kardinalı.
Robespyer, Maksimilian Mari İzidor
1758-1794. Ekstremist respublikaçı qrup olan yakobinlərin başçısı kimi Fransa inqilabı zamanında terror hakimiyyətini qızışdırmış və özü qətlə yetirilməzdən əvvəl Fransanın faktiki diktatoruna çevrilmişdir.
Ruselia, Bernardo
1449-1514. İtalyan tarixçisi və diplomatı.
Rusiya-Finlandiya müharibəsi
1939-1940. Rusiyanın Finlandiyaya hücumu ilə başlamış (30 noyabr, 1939), yüz gün sonra Finlandiyanın müqavimətinin qırılması ilə başa çatmışdır. 12 mart 1940-cı ildə imzalanmış sülh müqaviləsinə görə Finlandiya Karel bərzəxini, Viipuri şəhərini, hərbi-dəniz bazasını və ümumilikdə 450 000 əhalinin yaşadığı 16 173 kv. mil (42 min kv km) ərazini SSRI-yə verdi.
Russo, Jan Jak
1712-1778. Fransız filosofu.

Solsberi, Robert Artur Talbot Qaskoyn-Sesil, III Markes
1830-1903. Dizraeli hökumətində xarici işlər naziri (1878-1880); baş nazir (1885, 1886-1892, 1895-1902).
SALT
ABŞ və Sovet İttifaqı arasında Strateji Silahların Azaldılması haqqında Danışıqlar.
Samner, Uilyam Qraham
1840-1910. Amerikan sosioloqu və iqtisadçısı; Yeil Universitetində siyasi və sosial elmlər professoru.
Satqın (kvizlinq)
Satqın, yaxud 5-ci kolonna. Söz 1940-cı ildə Norveçin Almaniya tərəfindən işğalına hazırlığa kömək etmiş Norveç faşist lideri Vidkun Kvizlinqin adından götürülüb. 1945-ci ildə qətlə yetirilmişdir.
Sen-Pyer, Şarl İ.K. abbat
1658-1743. Fransız sosial filosofu. *"Daimi sülh layihəsi"ndə (*"Project of Perpetual Peace"*)* (1713) o, beynəlxalq arbitraj məhkəməsinə, müharibədən imtina etməyə və qarşılıqlı təhlükəsizlik naminə daimi ittifaq şəklində bir araya gətirilən xristian dövlətlərin liqasının yaradılmasına tərəfdar çıxmışdır.
Sezar, Yuli
B.e.ə. 100-44. Roma imperiyasının əsasını qoymuş Roma dövlət adamı və generalı.
Sombart, Verner
1863-1941. Alman iqtisadçısı və sosioloqu, əvvəlcə marksizmin tərəfdarı kimi çıxış etmiş, daha sonra kəskin şəkildə marksizmin əleyhinə çıxmışdır və sonda nasional sosializmin müdafiəçisi olmuşdur.
Spenser, Herbert
1820-1903. İngilis filosofu.

Stare decisis
Eyni vəziyyətlərə eyni hüquq prinsipini tətbiq etməklə əlaqədar olan presedentlərə sadiqlik təlimi.

Stoiklər
B.e.ə. üçüncü əsrin əvvəlində Zeno tərəfindən əsası qoyulmuş stoisizm fəlsəfəsinin tərəfdarları.

Süzerenitet
Bir dövlətin digər dövlət üzərində suverenliyin bütün zahiri atributlarının saxlanması ilə siyasi idarəetməsi.

Syulli, Maksimilian de Betyun
1560-1641. Fransız dövlət xadimi. Onun "böyük planı" bütün xristian dövlətlərinin federasiyasını yaratmaq planı idi.

Şternberq, Frits
1895-1963. Marksist yazıçı.

Taleyran, Şarl Mauris de
1754-1838. Fransa xarici işlər naziri (1797-1799, 1800-1807, 1814-1815).

Tasit, Korneli
Təxminən 55-120-ci illər. Roma tarixçisi.

Tehran konfransı
1943-cü ildə Ruzvelt, Çörçill və Stalinin İranın Tehran şəhərində görüşü; Fransanın hərbi müdaxiləsinin və Almaniyaya qarşı əməliyyatların əhatə dairəsi və vaxtına dair razılıq əldə edildi.

Titulesku, Nikola
1883-1941. Rumın dövlət xadimi. Xarici işlər naziri kimi (1927-1936) Fransanın təşəbbüskarı olduğu kollektiv təhlükəsizlik siyasətini müdafiə etmiş və Çexoslovakiya və Yuqoslaviya ilə yaradılan Kiçik Antantanın memarlarından biri olmuşdur.

Tiyer, Luis Adolf
1797-1877. Fransız dövlət xadimi, jurnalisti və tarixçisi. Üç dəfə baş nazir, III Respublikanın birinci prezidenti (1871-1873).

Tokvil, Aleksis de
1805-1859. Fransa dövlət adamı, siyasi nəzəriyyəçi və tarixçi. 1831-ci ildə ABŞ-a səfərdən sonra *"Amerikada demokratiya" ("Democracy in America")* kitabını yazmış və burada Amerika demokratiyasının və ümumilikdə demokratiyanın dərin analizini aparmışdır.

Trayan
Roma imperatoru (98-117).

Troppau konqresi
1820. Metternix tərəfindən "Müqəddəs ittifaq"ın təminatı ilə Siciliya və İspaniya krallarına qarşı liberal üsyanları yatırtmaq üsullarını nəzərdən keçirmək üçün çağırılmış konfrans.

Trumen doktrinası
Prezident Trumen tərəfindən yunan-türk yardım layihəsini dəstəkləmək üçün Konqresə müraciət. Trumen doktrinası kimi tanınan siyasət, əslində, "totalitar təcavüz"ü dəf etməyə çalışan hökumətlərə yardım etməklə kommunizmin "cilovlanması"na çağırır.

Uilyam, II
1859-1941. Alman imperatoru (1888-1918).

Uilyam, III
1650-1702. İngiltərə, Şotlandiya və İrlandiya kralı (1689-1702).

Uilyam, istilaçı (I Uilyam)
1027-1087. İngiltərə kralı (1066-1087).

Urban, II
Papa (1088-1099).

Utrext müqaviləsi
İspaniya irsi uğrunda aparılan müharibədə Fransanın İngiltərə və Hollandiya tərəfindən məğlubiyyətə uğradılmasından sonra bağlanmışdır.

III Fransa Respublikası
Fransanın Fransa-Prussiya müharibəsində məğlubiyyətindən 1940-cı ildə Almaniyanın istilası altında Vişi hökumətinin yaradılmasına qədər mövcud olmuşdur.

Ümumdünya Poçt İttifaqı
1875-ci ildə yaradılmışdır, qərargahı İsveçrənin Bern şəhərindədir; 1947-ci ildə Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumuna çevrilmişdir.

Vaqram döyüşü
1899-cu ildə Avstriyada Vaqram kəndi yaxınlığında baş vermiş döyüş. Döyüşdə I Napoleon öz parlaq qələbələrindən birini qazandı. Altı gün sonra Avstriya barışıq imzalamağa məcbur edildi.

Vattel, Emerik de
1714-1767. İsveçrəli filosof və hüquqşünas; beynəlxalq hüquq sahəsində aparıcı nüfuz sahibi.

Vaymar Respublikası
1919-1933. Vaymar şəhərində konstitusion assambleya tərəfindən qəbul edilmiş federal konstitusiyaya uyğun olaraq yaradılmış alman dövləti.

Veber, Maks
1864-1920. Ən nüfuzlu alman sosioloqu.

Vellinqton, Artur Velesli, I qraf
1769-1852. Britaniya hərbçisi və dövlət xadimi. Napoleona qarşı müharibələrdə (1808-1815) Britaniya və müttəfiq ordularının komandanı; ən məşhur qələbəsini Vaterloo yaxınlığında qazanmışdır (1815); baş nazir (1828-1830); xarici işlər naziri (1834-1835).

Venetsiya Respublikası
XV və XVI əsrlərin böyük dəniz dövlətlərindən biri. Onun səfirləri diplomatiyanı böyük bir sənətə çeviriblər. Venetsiya 1866-cı ildə İtaliya krallığı ilə birləşdi.

Verona konqresi
1822. "Dördlər ittifaqı"nın təminatı altında keçirilən sonuncu konfrans; İspaniyadakı üsyana qarşı hansı tədbirlərin görülməsini qərarlaşdırmaq üçün çağırılmışdı. Konqres İngiltərə xarici işlər naziri Kanninqin qarşı çıxmasına baxmayaraq, bu üsyanı yatırmaq üçün Fransa ordusunun göndərilməsi haqqında qərar qəbul etdi.

Versal müqaviləsi
Birinci Dünya müharibəsinə xitam verən əsas müqavilə.

Vestfaliya müqaviləsi
1648. Otuzillik müharibəyə xitam vermiş əsas razılaşma; Fransanın üstün Avropa dövləti kimi meydana çıxması ilə Müqəddəs Roma imperiyasının hakimiyyətinə son qoymuşdur.

Vida nitqi
1796. Prezident Corc Vaşinqtonun ikinci prezidentlik dövrünün sonunda təqaüdə gedərkən öz həmvətənlərinə məsləhətləri.

Viktoriya
İngiltərə kraliçası (1837-1901) və Hindistan imperatriçəsi (1876-1901).

Vilson, Vudro
1856-1924. ABŞ-ın 27-ci prezidenti (1913-1921).

Volsi, Tomas
1427-1530. İngilis dövlət xadimi və Roma katolik kilsəsinin kardinalı; VIII Henrinin gizli müşaviri və lord müşavir.

Volter
1694-1778. Fransa filosofu və yazarı.

Vyana konqresi
1814-1815. Napoleon müharibələrindən sonra çağırılan sülh konfransı. Konfransda böyük dövlətlər – Avstriya, Rusiya, Böyük Britaniya və Fransa – nizamlamanın ərazi və siyasi şərtlərini razılaşdırdı.

Yalta (yaxud Krım) razılaşması
Ruzvelt, Çörçill və Stalinin SSRİ-nin Krım vilayətinin Yalta şəhərində keçirilmiş görüşünün (1945) nəticəsi; tam mətni 1947-ci ilə qədər açıqlanmadı. Almaniyanın işğalı şərtlərini irəli sürmüş, Yeni Polşanın demokratik əsaslarda qurulmasına təminat vermiş və onu imzalayanların üzərinə nasist ağalığından azad olmuş ölkələrə "azad seçkilər" vasitəsilə "əhalinin iradəsinə cavab verən" hökumət qurmaq imkanına sahib olmaq üçün birgə yardım göstərmək öhdəliyini qoymuşdur. Birləşmiş Millətlər Təşkilatında böyük dövlətlərin səsverməsi formulunu bəyan etmiş və Sovet Ittifaqına rus-yapon müharibəsində (1904-1905) itirilmiş müəyyən ərazilərin qaytarılması və Çin-Şərq dəmir yolunun Çin və Sovet İttifaqı tərəfindən birgə istismarı qarşılığında Yaponiyaya qarşı müharibəyə daxil olmaq öhdəliyi qoymuşdur.

Yeddiillik müharibə
1756-1763. Avropa, Şimali Amerika və Hindistanda bir tərəfdə Fransa, Avstriya, Rusiya, Saksoniya, İsveç və (1762-ci ildən sonra) İspaniya, digər tərəfdə isə Prussiya, Böyük Britaniya və Hannover olmaqla aparılan ümumdünya müharibəsi; ilkin mərhələdə Fransa və İngiltərə arasında müstəmləkələr uğrunda rəqabət və Avstriya və Prussiya arasında Almaniyada üstünlük uğrunda mübarizə şəklində başlamışdı.

Yelizaveta, I
İngiltərə kraliçası (1558-1603).

Yeveqeniy, Savoyyalı
1663-1736. Öz dövrünün ən böyük hərbi lideri və Avstriyanın qulluğunda duran görkəmli dövlət xadimi.

BİBLİOQRAFİYA

The purpose of this bibliography is to direct the reader to the most important and most accessible literature on the general problems of international politics. Three limitations follow from this purpose. First, the bibliography is of necessity selective. Second, the voluminous literature dealing with special problems, especially of a particular nation or region, has not been considered. Third, the main emphasis is placed upon publications in the English language.

I FƏSİL

On political realism, see:

Berlin, Isaiah. "Realism in Politics." The Spectator 193 (December 17, 1954): 774–76.

Bozeman, Adda B. *Politics and Culture in International History.* Princeton, NJ: Princeton University Press, 1960.

Butterfield, Herbert. *Christianity and History.* New York: Charles Scribner's Sons, 1950.

____. *History and Human Relations.* London: Collins Press, 1951; Scribner Library, 1961.

____. "The Scientific vs. the Moralistic Approach in International Affairs." *International Affairs* 27, no. 4 (October 1951): 411–22.

____. *Christianity, Diplomacy and War.* London: Epworth Press, 1953.

Butterfield, Herbert, and Wight, Martin, eds. *Diplomatic Investigations.* Cambridge, MA: Harvard University Press, 1966.

Carleton, William G. "Wanted: Wiser Power Politics." *The Yale Review* 41, no. 2 (Winter 1952): 194–206.

Carr, Edward Hallett. *The Twenty Years' Crisis,* 1919–1939. London: Macmillan, 1946; New York: Harper Torchbooks, 1946.

Cook, Thomas I., and Moos, Malcolm. *Power Through Purpose: The Realism of Idealism as a Basis for Foreign Policy.* Baltimore, MD: Johns Hopkins University Press, 1954.

Frankel, Joseph. *National Interest.* New York: Praeger, 1970.

Greenstein, Fred I. *Personality and Politics.* New York: W. W. Norton, 1969.

Greenstein, Fred I., and Polsby, Nelson, eds. *Handbook of Political Science.* Vol. 8, *International Politics.* Reading, MA: Addison-Wesley, 1975.

Halle, Louis. *Men and Nations.* Princeton, NJ: Princeton University Press, 1962.

Halperin, Morton H. *Bureaucratic Politics and Foreign Policy.* Washington, DC: The Brookings Institution, 1974.

Herz, John H. *Political Realism and Political Idealism.* Chicago: University of Chicago Press, 1951.

Hinsley, F. H. *Power and the Pursuit of Peace: Theory and Practice in the History of Relations Between States.* Cambridge, UK: Cambridge University Press, 1963.

Hoffman, Stanley H., ed. *Contemporary Theory in International Relations.* Englewood Cliffs, NJ: Prentice Hall, 1960.

____. "An American Social Science: International Relations." *Daedalus* I (Summer 1977): 41–60.

Kissinger, Henry. *White House Years.* Boston and Toronto: Little, Brown, 1979.
Leurdijk, J. Henk. "From International to Transnational Politics: A Change of Paradigms?" *International Social Science Journal* XXVI, no. 1 (1974): 53ff.
Manning, C.A.W. *The Nature of International Society.* London: G. Bell and Sons, 1962.
Morgenthau, Hans J. *Scientific Man vs. Power Politics.* Chicago: University of Chicago Press, 1946; Canaan: Phoenix Books, 1965.
____. *In Defense of the National Interest.* New York: Alfred A. Knopf, 1951; Washington, DC: University Press of America, 1982.
____. *Politics in the Twentieth Century.* 3 vols. Chicago: University of Chicago Press, 1962.
Morgenthau, Hans J., and Thompson, Kenneth W. *Principles and Problems of International Politics: Selected Readings.* New York: Alfred A. Knopf, 1951; Washington, DC: University Press of America, 1982.
Niebuhr, Reinhold. *The Children of Light and the Children of Darkness.* New York: Charles Scribner's Sons, 1944; reprint, Scribner Library.
____. *Christian Realism and Political Problems.* New York: Charles Scribner's Sons, 1953.
____. *Beyond Tragedy.* New York: Charles Scribner's Sons, 1955; reprint, Scribner Library.
Rommen, Hans. "Realism and Utopianism in World Affairs." *Review of Politics* 6, no. 2 (April 1944): 193–215.
Rosenau, James. *The Scientific Study of Foreign Policy.* New York: Free Press, 1971.
Said, Abdul, ed. *Theory of International Relations: The Crisis of Relevance.* Englewood Cliffs, NJ: Prentice Hall, 1968.
Schuman, Frederick L. "International Ideals and the National Interest." *The Annals of the American Academy of Political and Social Science* 280 (March 1952): 27–36.
Smith, Michael J. *Realism as an Approach to International Relations.* Ph.D. diss., Harvard University, 1982.
Thompson, Kenneth W. *Political Realism and the Crises of World Politics.* Princeton, NJ: Princeton University Press, 1960; Washington, DC: University Press of America, 1982.
____. *American Diplomacy and Emergent Patterns.* New York: New York University Press, 1962; Washington, DC: University Press of America, 1983.
____. *Ethics, Functionalism and Power in International Politics.* Baton Rouge, LA, and London: Louisiana State University Press, 1979.
____. *Cold War Theories: World Polarization, 1943–1953,* Vol. I. Baton Rouge, LA, and London: Louisiana State University Press, 1981.
____. *Winston Churchill's "Worldview": Statesmanship and Power.* Baton Rouge, LA, and London: Louisiana State University Press, 1983.
Wolfers, Arnold. *Discord and Collaboration: Essays on International Politics.* Baltimore, MD: Johns Hopkins University Press, 1962.

On the study of international politics, see:

Beitz, Charles. *Political Theory and International Relations.* Princeton, NJ: Princeton University Press, 1979.
Best Geoffrey. *Humanity in Warfare.* New York: Columbia University Press, 1980.
Booth, Ken, and Wright, Moorhead. *American Thinking About War and Peace.* New York:
Barnes and Noble, 1978.

Bull, Hedley. *The Anarchical Society.* New York: Columbia University Press, 1977.
Corbett, Percy E. "Objectivity in the Study of International Affairs." *World Affairs* 4, no. 3 (July 1950): 257–63.
Deutsch, Karl. *The Analysis of International Relations.* Englewood Cliffs, NJ: Prentice Hall, 1967.
Dougherty, James E., and Pfalzgraff, Robert L., Jr. *Contending Theories of International Relations.* Philadelphia: J. B. Lippincott, 1971.
Dunn Frederick S. "The Present Course of International Relations Research." *World Politics,* 2, no. 1 (October 1949): 80–95.
Ferrell, Robert H. *American Diplomacy: A History.* New York: W. W. Norton, 1975.
Finnegan, Richard B. "International Relations: The Disputed Search for Method." *The Review of Politics* 34, no. 1 (January 1972): 40–66.
Fitzsimons, M. A. *The Foreign Policy of the British Labour Government.* Notre Dame, IN: University of Notre Dame Press, 1953.
Fox, W. T. R. *The American Study of International Relations.* New York: Columbia Institute of International Studies, 1968.
Frankel, Joseph. *Contemporary International Theory and the Behavior of States.* New York: Oxford University Press, 1973.
George, Alexander L. *Presidential Decisionmaking in Foreign Policy: The Effective Use of Information and Advice.* Boulder, CO: Westview Press, 1980.
Gurian, Waldemar. "The Study of International Relations." *Review of Politics* 8, no. 3 (July 1946): 275–82.
Harrison, Horace V., ed. *The Role of Theory in International Relations.* Princeton, Toronto, New York: D. Van Nostrand, 1964.
Herz, John H. "Relevancies and Irrelevancies in the Study of International Relations." *Polity* 4, no. 1 (Fall 1971): 25–47.
Jervis, Robert. *Perception and Misperception in International Politics.* Princeton, NJ: Princeton University Press, 1976.
Joynt, Carey B., and Corbett, Percy E. *Theory and Reality in World Politics.* Pittsburgh, PA: University of Pittsburgh Press, 1978.
Manning, C. A. W. "The Pretensions of International Relations." *Universities Quarterly* 7, no. 4 (August 1953): 361–71.
Mansback, Richard, Ferguson, Yale H., and Lampert, Donald. *The Web of World Politics: Nonstate Actors in the Global System.* Englewood Cliffs, NJ: Prentice-Hall, 1976.
May, Ernest R. *The "Lesson" of the Past: The Use and Misuse of History in American Foreign Policy.* New York: Oxford University Press, 1973.
Platig, E. Raymond. *International Relations Research: Problems of Evaluation and Advancement.* Santa Barbara, CA: Clio Press, 1967.
Rosenau, James N. *International Studies and the Social Sciences.* Beverly Hills and London: Sage, 1973.
Singer, J. David. "Theorizing About Theory in International Politics." *Journal of Conflict Resolution* IV, no. 4 (December 1960): 431–42.
Thompson, Kenneth W. "The Study of International Politics: A Survey of Trends and Developments." *Review of Politics* 14, no. 4 (October 1952): 433–67.
____. "The Empirical, Normative, and Theoretical Foundations of International Studies."

Review of Politics 29, no. 2 (April 1967): 147–59.
____. "Neibuhr's Conception of Politics." *Interpretation* 6, no. 2 (May 1977): 124–31.
____. *Masters of International Thought: Major Twentieth Century Theorists and the World Crisis.* Baton Rouge, LA, and London: Louisiana State University Press, 1980.
____. "Power, Force and Diplomacy." *Review of Politics* 43, no. 3 (July 1981): 410–35.
____. "The Cold War Legacy of Morgenthau's Approach." *Social Research* 48, no. 4 (Winter 1981): 660–67.
____. "Foreign Policy Books from Theory to Practice." *Book Forum* 6. no. 4 (1984): 409–15.
Thompson, Kenneth, and Myers, Robert J. *Truth and Tragedy: A Tribute to Hans J. Morgenthau*, Washington, DC: New Republic, 1977; Rutgers: Transaction Books, 1984.
Waltz, Kenneth N. *Man, the State and War.* New York: Columbia University Press, 1954.
____. *Theory of International Politics.* Reading, MA: Addison-Wesley, 1979.
Webster, C. K. *The Study of International Politics.* Cardiff, UK: University of Wales Press Board, 1923.
Woodward, E. L. *The Study of International Relations at a University.* Oxford: Clarendon Press, 1945.
Wright, Quincy. *The Study of International Relations.* New York: Appleton-Century-Crofts, 1955.
Zimmerman, William. *Soviet Perspectives on International Relations.* Princeton, NJ: Princeton University Press, 1969.

II FƏSİL

For the concept of political power, see:

Bryson, Lyman, Finkelstein, Louis, and MacIver, R. M., eds. *Conflicts of Power in Modern Culture.* New York: Harper & Brothers, 1947.
Clausewitz, Karl von. *War, Politics and Power: Selections.* Chicago: Henry Regnery, 1962.
Dunn, Frederick S. Peaceful Change. New York: Council on Foreign Relations, 1937.
Gerth, H. H., and Mills, C. Wright, eds. From Max Weber: Essays in Sociology. New York: Oxford University Press, 1946; San Francisco: Harbinger Books, 1958.
Hersh, Seymour M. *The Price of Power: Kissinger in the Nixon White House.* New York: Summit Books, 1983.
Katznelson, Ira, and Kesselman, Mark. *The Politics of Power.* New York: Harcourt Brace Jovanovich, 1975.
Keohane, Robert O., and Nye, Joseph S. *Power and Interdependence: World Politics in Transition.* Boston: Little, Brown, 1977.
Lasswell, Harold D. *Politics: Who Gets What, When, How.* New York: Whittlesey House, 1936; Silver Spring: Meridian Books, 1958.
Lorenz, Konrad. *On Aggression.* New York: Harcourt, Brace and World, 1966.
Mannheim, Karl. *Man and Society in an Age of Reconstruction.* New York: Harcourt, Brace, 1941.
Merriam, Charles E. *Political Power: Its Composition and Incidence.* New York: Whittlesey House, 1934; New York: Collier Books, 1964.
Miroff, Bruce. *Pragmatic Illusions: The Presidential Politics of John F. Kennedy.* New York: David McKay, 1976.
Parsons, Elsie Clouse. *Social Rule: A Study of the Will to Power.* New York: G. P. Putnam's

Sons, 1915.
Parsons, Talcott. *The Structure of Social Action.* New York: McGraw-Hill, 1937.
____, ed. Max Weber: *The Theory of Social and Economic Organization.* New York: Oxford University Press, 1947.
Plamenatz, John. "Interests." *Political Studies* 2, no. 1 (February 1954): 1–8.
Russell, Bertrand. *Power.* New York: W. W. Norton, 1938; New York: Barnes and Noble, 1962.
Stillman, Edmund, and Pfaff, William. *Power and Impotence.* New York: Random House, 1966.

Concerning the depreciation of political power, see, in addition to the following books, those cited under Part One, on political realism:

Ash, Maurice A. "An Analysis of Power, with Special Reference to International Politics." *World Politics* 3, no. 2 (January 1951): 218–37.
Beard, Charles A. *A Foreign Policy for America.* New York: Alfred A. Knopf, 1940.
____. *The American Spirit: A Study of the Idea of Civilization in the United States.* New York: Macmillan, 1942.
Beard, Charles A., and Beard, Mary R. *The Rise of American Civilization II.* New York: Macmillan, 1927.
Becker, Carl L. *How New Will the Better World Be?* New York: Alfred A. Knopf, 1944.
Brucan, Silviu. *The Dissolution of Power.* New York: Alfred A. Knopf, 1971.
Curti, Merle. *The Growth of American Thought.* New York: Harper and Brothers, 1943.
Neibuhr, Reinhold. *The Irony of American History.* New York: Charles Scribner's Sons, 1952; New York: Scribner Library, 1962.
Osgood, Robert E. *Ideals and Self-Interest in America's Foreign Relations.* Chicago: University of Chicago Press, 1953; Canaan: Phoenix Books, 1964.
Temperley, Harold. *The Victorian Age in Politics, War and Diplomacy.* Cambridge, UK: Cambridge University Press, 1928.
Thompson, Kenneth W. "The Uses and Limits of Two Theories of International Relations." *In Isolation and Security*, Alexander De Conde, ed. Durham, NC: Duke University Press, 1957.
Vagts, Alfred. "The United States and the Balance of Power." *The Journal of Politics* 3, no. 4 (November 1941): 401–49.

For the general nature of international politics, see, in addition to the books cited under Part One:

Ferrero, Guglielmo. *The Principles of Power: The Great Political Crisis of History.* New York: G. P. Putnam's Sons, 1942.
Hammond, Paul Y. *Cold War and Detente.* New York: Harcourt Brace Jovanovich, 1975.
Lasswell, Harold D. *World Politics and Personal Insecurity.* New York: McGraw-Hill, 1953.
Morgenthau, Hans J. *Truth and Power.* New York: Praeger, 1970.
Niebuhr, Reinhold. *The Structure of Nations and Empires.* New York: Charles Scribner's Sons, 1949; London: Faber and Faber, 1960.
Spykman, Nicholas. *America's Strategy in World Politics: The United States and the Balance of Power.* New York: Harcourt, Brace, 1942.

Thompson, Kenneth W. "Toynbee and World Politics." *Diogena* (January 1956).
____. "Toynbee and World Politics: War and National Security." *World Politics VIII* (April 1956): 374–91.
____. "Theory and Practice in International Relations." *The Review of Politics* 44, no. 3 (July 1982): 328–41.
Wight, Martin. *Power Politics.* London: Royal Institute of International Affairs, 1946.

For the different aspects of imperialism, see:

Aaron, Raymond. "The Leninist Myth of Imperialism." *Partisan Review* 18, no. 6 (November–December, 1951): 646–62.
Beard, Charles A. *The Devil Theory of War.* New York: Vanguard Press, 1936.
Bukharin, Nikolai I. *Imperialism and World Economy.* New York: International Publishers, 1929.
Cohen, Benjamin J. *The Question of Imperialism: The Political Economy of Dominance and Dependence.* New York: Basic Books, 1973.
Delaisi, Francis. *Political Myths and Economic Realities.* New York: Viking Press, 1927.
Einzig, Paul. *Bloodless Invasion.* London: Duckworth, 1938.
____. *Appeasement Before, During and After the War.* London: Macmillan, 1941.
Feis, Herbert. *The Diplomacy of the Dollar.* Baltimore, MD: Johns Hopkins University Press, 1950.
Hallgarten, George W. F. *Imperialismus vor 1914.* 2 vols. Munich: C. H. Beck, 1951.
Handman, Max. "War, Economic Motives, and Economic Symbols." *The American Journal of Sociology* 44, no. 5 (March 1939): 629–48.
Heinmann, Eduard. "Schumpeter and the Problems of Imperialism." *Social Research* 19, no. 2 (June 1952): 177–97.
Hobson, John A. *Imperialism.* London: G. Allen and Unwin, 1938.
Hovde, Brynjolf J. "Socialist Theories of Imperialism Prior to the Great War." *Journal of Political Economy* 36, no. 5 (October 1928): 569–91.
Koebner, Richard, and Schmidt, Helmat Dan. *Imperialism: The Story and Significance of a Political Word, 1840–1960.* Cambridge, UK: Cambridge University Press, 1964.
Langer, William L. *The Diplomacy of Imperialism.* New York: Alfred A. Knopf, 1935.
Lichtheim, George. *Imperialism.* New York: Praeger, 1971.
Moon, Parker Thomas. *Imperialism and World Politics.* New York: Macmillan, 1926.
Nearing, Scott. *The Tragedy of Empire.* New York: Island Press, 1945.
Petras, James. *Critical Perspectives on Imperialism and Social Class in the Third World.* New York: Monthly Review Press, 1979.
Robbins, Lionel. *The Economic Causes of War: Some Reflections on Objectives and Mechanisms.* New York: Macmillan, 1948.
Rosen, Steven J., and Kurth, James R. *Testing Theories of Economic Imperialism.* Lexington, MA: Lexington Books, 1974.
Schumpeter, Joseph. *Imperialism and Social Classes.* New York: Augustus M. Kelley, 1951; Silver Spring: Meridian Books, 1960.
Seilliere, Ernest. *Introduction à la Philosophie de l'Imperialisme.* Paris: Felix Alcan, 1911.
Sulzbach, Walter. *"Capitalist Warmongers"—A Modern Superstition.* Chicago: University of Chicago Press, 1942.

Viner, Jacob. *International Economics. Glencoe,* IL: Free Press, 1951, pp. 49–85, 216–31.
Winslow, E. M. *The Pattern of Imperialism.* New York: Columbia University Press, 1948.

On the policy of prestige, see, in addition to the following book, the literature cited under Part Ten:

Nicolson, Harold. *The Meaning of Prestige. Cambridge,* UK: Cambridge University Press, 1947.

Two fundamental works on political ideologies are:

Mannheim, Karl. *Ideology and Utopia: An Introduction to the Sociology of Knowledge,* with a Preface by Louis Wirth. New York: Harcourt, Brace, 1936; New York: Harvest Books, 1955.
Ulam, Adam. *Ideologies and Illusions: Revolutionary Thought from Herzen to Solzhenitsyn.* Cambridge, MA: Harvard University Press, 1976.

See also:

Burks, Richard V. "A Conception of Ideology for Historians." *Journal of the History of Ideas* 10, no. 2 (April 1949): 183–98.
Roucek, Joseph S. "A History of the Concept of Ideology." *Journal of the History of Ideas* 5, no. 4 (October 1944): 479–88.
Thompson, Kenneth W. "Liberalism and Conservatism in American Statecraft." *Orbis* 2 (Winter 1959): 457–77.

III FƏSİL

On national power in general, see:

Baldwin, Hanson W. *The Price of Power.* New York: Harper and Brothers, 1948.
Beard, Charles A. *The Idea of National Interest.* New York: Macmillan, 1934.
Frankel, Joseph. *The Making of Foreign Policy.* London: Oxford University Press, 1963.
Hirschman, Nau. *National Power and the Structure of Foreign Trade.* Berkeley: University of California Press, 1981.
Strausz-Hupe, Robert. *The Balance of Tomorrow.* New York: G. P. Putnam's Sons, 1945.
Thompson, Kenneth W. "National Security in a Nuclear Age." *Social Research* 25 (Winter 1958): 439–48.

On nationalism, see:

Barker, Ernest. *Christianity and Nationality.* London: Oxford University Press, 1927.
Baron, Salo Wittmayer. *Modern Nationalism and Religion.* New York: Harper and Brothers, 1947.
Carr, Edward Hallett. *Nationalism and After.* New York: Macmillan, 1945.
Chadwick, H. Munro. *The Nationalities of Europe and the Growth of National Ideologies.* New York: Macmillan, 1946.
Coban, Alfred. *National Self-Determination,* rev. ed. Chicago: University of Chicago Press, 1948.
Deutsch, Karl W. *Nationalism and Socialism Communication.* New York: John Wiley and

Sons, 1953.
____. *Nationalism and Its Alternatives.* New York: Alfred A. Knopf, 1969.
Friedmann, W. *The Crisis of the National State.* London: Macmillan, 1943.
Gooch, George P. *Nationalism.* New York: Harcourt, Brace, 1920.
Grodzins, Morton. *The Loyal and the Disloyal.* Chicago: University of Chicago Press, 1956.
Hayes, Carleton J. *The Historical Evolution of Modern Nationalism.* New York: R. R. Smith, 1931.
Hertz, Frederick. *Nationality in History and Politics.* New York: Oxford University Press, 1944.
Herz, John. *The Nation-State and the Crisis of World Politics.* New York: David McKay, 1976.
Hula, Erich. "National Self-Determination Reconsidered." *Social Research* 10, no. 1 (February 1943): 1–21.
____. *Nationalism and Internationalism.* Washington, DC: University Press of America, 1984.
Janowsky, Oscar I. *Nationalities and National Minorities.* New York: Macmillan, 1945.
Kohn, Hans. *The Idea of Nationalism.* New York: Macmillan Company, 1944, 1961.
Royal Institute of International Affairs. *Nationalism.* New York: Oxford University Press, 1946.
Shafer, Boyd C. *Faces of Nationalism: New Realities and Old Myths.* New York: Harcourt Brace Jovanovich, 1972.
Smith, Anthony D. *Theories of Nationalism.* New York: Harper and Row, 1971.
Sulzbach, Walter. *National Consciousness.* Washington, DC: American Council on Public Affairs, 1943.
West, Rebecca. *The Meaning of Treason.* New York: Viking Press, 1947.
Wirth, Louis. "Types of Nationalism." *The American Journal of Sociology* 41, no. 6 (May 1936): 723–37.

On the different elements of national power, see:

Allison, Graham, and Szanton, Peter. *Remaking Foreign Policy: The Organizational Connection.* New York: Basic Books, 1976.
Barker, Ernst. *National Character and the Factors of Its Formation.* London: Methuen, 1927.
Benedict, Ruth. *The Chrysanthemum and the Sword.* Boston: Houghton Mifflin, 1946.
Fairgrieve, James. *Geography and World Power*, 8th ed. London: University of London Press, 1941.
Ginsberg, Morris. *Reason and Unreason in Society.* Cambridge, MA: Harvard University Press, 1948, pp. 131–76.
Hartshorne, Richard. *The Nature of Geography.* Ann Arbor, MI: Edwards Brothers, 1946.
Hirschman, Albert O. *National Power and the Structure of Foreign Trade.* Berkeley: University of California Press, 1945.
Hume, David. "Of National Characters." *Essays, Moral, Political, and Literary,* Vol. 1. New edition. London: Longmans, Green, 1889.
Knorr, Klaus. The Power of Nations. New York: Basic Books, 1975.
Leith, C. K., Furness, J. W., and Lewis, Cleona. *World Minerals and World Peace.* Washington, DC: Brookings Institution, 1943.
Madariaga, Salvador. *Englishmen, Frenchmen, Spaniards,* 4th ed. London: Oxford University Press, 1937.
Mead, Margaret. "National Character." *In Anthropology Today,* A. L. Kroeber, ed. Chicago:

University of Chicago Press, 1953.
Sprout, Harold, and Sprout, Margaret. *The Ecological Perspective on Human Affairs: with Special Reference to International Politics.* Princeton, NJ: Princeton University Press, 1965.
Thompson, Warren S., and Lewis, David T. *Population Problems,* 5th ed. New York: McGraw-Hill, 1965.
Whittlesey, Derwent. *The Earth and the State: A Study of Political Geography.* New York: Henry Holt, 1944.
Wriggins, W. Howard, and Guyot, James F. *Population, Politics, and the Future of Southern Asia.* New York and London: Columbia University Press, 1973.

On geopolitics, see:

Conant, Melvin, and Gold, Fern. *The Geopolitics of Energy.* Boulder, CO: Westview Press, 1978.
Mackinder, Sir Halford J. "The Geographical Pivot of History." *Geographical Journal* 23 (1904): 421–44.
____. *Democratic Ideals and Reality.* New York: Henry Holt, 1942.
Mattern, Johannes. *Geopolitik: Doctrine of National Self-Sufficiency and Empire.* Baltimore, MD: Johns Hopkins University Press, 1942.
Spykman, Nicholas J. *The Geography of the Peace.* New York: Harcourt, Brace, Company, 1944.
Strausz-Hupe, Robert. *Geopolitics.* New York: G. P. Putnam's Sons, 1942.
Weigert, Hans W. *German Geopolitics.* New York: Oxford University Press, 1941.
____. *Generals and Geographers.* New York: Oxford University Press, 1942.

IV FƏSİL

On the theory of the balance of power, see:

Carleton, William G. "Ideology of Balance of Power?" *Yale Review* 36, no. 4 (June 1947): 590–602.
Dehio, Ludwig. *The Precarious Balance.* New York: Alfred A. Knopf, 1962.
Elzbacher, O. "The Balance of Power in Europe." *The Nineteenth Century and After* 57 (May 1905): 787–804.
Gulick, Edward Vose. *Europe's Classical Balance of Power.* Ithaca, NY: Cornell University Press, 1955.
Hume, David. "Of the Balance of Power." *Essays Moral, Political, and Literary,* Vol. 1. New edition. London: Longmans, Green, 1889.
Liska, George. *Nations in Alliance: The Limits of Interdependence.* Baltimore, MD: Johns Hopkins University Press, 1962.
Newman, William J. *The Balance of Power in the Interwar Years, 1919–1939.* New York: Random House, 1968.
Phillimore, Sir Robert. *Commentaries upon International Law,* Vol. 1, 2nd ed. London: Butterworths, 1871.
Riker, William H. *The Theory of Political Coalitions.* New Haven, CT: Yale University Press, 1962.
Spykman, Nicholas. *America's Strategy in World Politics.* New York: Harcourt, Brace, 1942.

Tannenbaum, Frank. "The Balance of Power in Society." *Political Science Quarterly* 61, no. 4 (December 1946): 481–504.
Thompson, Kenneth W. "The Morality of Checks and Balances." *In The Search for Justice*, W. Lawson Taitte, ed. Dallas: University of Texas, 1983.
Toynbee, Arnold J. *A Study of History*, Vol. 3. New York: Oxford University Press, 1934; New York: Galaxy Books, 1962.

On the classic Indian theory of power politics and the balance of power, see:

Kautilya. *Arthasastra*. Translated by R. Shamasastry. Mysore: Wesleyan Mission Press, 1929.
Law, Narendra Nath. *Interstate Relations in Ancient India*. London: Luzac, 1920.

For the history of the balance of power, see:

Grant, A. J., and Temperley, Harold. *Europe in the Nineteenth and Twentieth Centuries* (1789–1939). New York: Longmans, Green, 1940.
Hudson, G. F. *The Hard and Bitter Peace*. London: Pall Mall, 1966.
Langer, William L. The Diplomacy of Imperialism. New York: Alfred A. Knopf, 1935.
____. *European Alliances and Alignment*, 1871–1890, 2nd ed. New York: Alfred A. Knopf, 1950.
Petrie, Sir Charles. *Diplomatic History*, 1713–1933. London: Hollis and Carter, 1946.
Schmitt, Bernadotte E. *Triple Alliance and Triple Entente*. New York: Henry Holt, 1934.
Seton-Watson, Robert W. *Britain in Europe*, 1789–1914. New York: Macmillan, 1937.
Sontag, Raymond J. *European Diplomatic History*, 1871–1932. New York: Century, 1933.
Sorel, Albert. *Europe Under the Old Regime*. Los Angeles: Ward Ritchie Press, 1947; New York: Harper Torchbooks, 1964.
Temperley, Harold. *The Foreign Policy of Canning*, 1822–1827: England, the Neo-Holy Alliance, and the New World. London: G. Bell and Sons, 1925.
Vagts, Alfred. "The Balance of Power: Growth of an Idea." *World Politics* 1, no. 1 (October 1948): 82–101.
Webster, Charles K. *The Foreign Policy of Castlereagh*, 1812–1815. London: G. Bell and Sons, 1931.
Wolfers, Arnold. *Britain and France Between Two Wars*. New York: Harcourt, Brace, 1940.

V FƏSİL

For the general problem of rules of conduct, see:

Timasheff, N. S. *An Introduction to the Sociology of Law*. Cambridge, MA: Harvard University Committee on Research in the Social Sciences, 1939.

On the problem of international morality, see:

Bennett, John C., ed. *Nuclear Weapons and the Conflict of Conscience*. New York: Charles Scribner's Sons, 1962.
Berger, Peter. *Pyramids of Sacrifice: Political Ethics and Social Change*. Garden City, NJ: Anchor Books, 1974.

Bosanquet, Bernard. *The Philosophical Theory of the State*. New York: Macmillan, 1899.
Cahn, Edmond. *The Moral Decision*. Bloomington, IN, and London: Indiana University Press, 1955.
____. *The Sense of Injustice*. Bloomington, IN, and London: Indiana University Press, 1975.
Canavan, Francis, ed. *The Ethical Dimension of Political Life*. Durham, NC: Duke University Press, 1983.
Carr, Edward Hallett. *Conditions of Peace*. New York: Macmillan, 1944.
Falk, Richard A. *Law, Morality and War in the Contemporary World*. New York: Praeger, 1963.
____. *Legal Order in a Violent World*. Princeton, NJ: Princeton University Press, 1968.
Freund, Paul A. On Law and Justice. Cambridge, MA: Harvard University Press, 1968.
Goulet, Denis, *A New Moral Order*. Ossining, NY: Orbis Books, 1974.
Hare, J. E., and Joynt, Carey B. *Ethics and International Affairs*. New York: St. Martin's Press, 1982.
Huizinga, J. H. "On the High Cost of International Moralizing." *The Fortnightly Review* 156, New Series (November 1944): 295–300.
Kennan, George F. "Morality, Politics and Foreign Policy." *In The Virginia Papers on the Presidency*, Kenneth W. Thompson, ed. Washington, DC: University Press of America, 1979, pp. 3–30.
Lindsay, A. D. *The Modern Democratic State*. New York: Oxford University Press, 1947; New York: Galaxy Books, 1962.
MacIntyre, Alasdair. *After Virtue*. Notre Dame, IN: University of Notre Dame Press, 1981.
May, Henry F. *The End of American Innocence*. Oxford and New York: Oxford University Press, 1959.
Morgenthau, Hans J., and Hein, David. *Essays on Lincoln's Faith and Politics*. Washington, DC: University Press of America, 1983.
Niebuhr, Reinhold. *Christianity and Power Politics*. New York: Charles Scribner's Sons, 1940.
———. "Democracy as a Religion." *Christianity and Crisis* 7, no. 14 (August 1947): 1–2.
____. *Moral Man and Immoral Society: A Study in Ethics and Politics*. New York: Charles Scribner's Sons, 1932; New York: Scribner Library, 1960.
____. *Leaves from the Notebook of a Tamed Cynic. Reprint*. New York: Harper and Row, 1980.
Osgood, Robert E., and Tucker, Robert W. *Force: Order and Justice*. Baltimore, MD: Johns Hopkins University Press, 1967.
Petro, Nicolai N. *The Predicament of Human Rights*. Washington, DC: University Press of America, 1983.
Rajaee, Farhang. *Islamic Values and World View*. Washington, DC: University Press of America, 1983.
Ramsey, Paul. *War and the Christian Conscience*. Durham, NC: Duke University Press, 1961.
Rawls, John. *A Theory of Justice*. Cambridge, MA: Harvard University Press, 1971.
Thompson, J. W., and Padover, S. K. *Secret Diplomacy: A Record of Espionage and Double Dealings*, 1500–1815. London: Jarrolds, 1937.
Thompson, Kenneth W. *Christian Ethics and the Dilemmas of Foreign Policy*. Durham, NC: Duke University Press, 1959; Washington, DC: University Press of America, 1983.
____. *The Moral Issue in Statecraft*. Baton Rouge, CA: Louisiana State University Press, 1966.
____. "New Reflections on Ethics and Foreign Policy." *The Journal of Politics* 40, no. 4 (November 1978): 984–1010.

____. *The Moral Imperatives of Human Rights.* Washington, DC: University Press of America, 1980.
____. *Morality and Foreign Policy.* Baton Rouge, CA, and London: Louisiana State University Press, 1980.
____. *Political Traditions and Contemporary Problems.* Washington, DC: University Press of America, 1982.
____. *Diplomacy and Values.* Washington, DC: University Press of America, 1984.
____. *Ethics in Foreign Policy.* Rutgers, NJ: Transaction Books, 1984.
____. *Moralism and Morality.* Washington, DC: University Press of America, 1984.
____. *Traditions and Values.* Washington, DC: University Press of America, 1984.
Weldon, T. D. *States and Morals.* New York: McGraw-Hill, 1947.

See also the books by Carr, Morgenthau, and Thompson cited under Part One.

On Nationalistic universalism, consult the books in Part Three under nationalism.

On world public opinion, see:

Dicey, A. V. *Lectures on the Relation Between Law and Public Opinion in England During the Nineteenth Century.* London: Macmillan, 1914.
Ferrero, Guglielmo. *The Unity of the World.* London: Jonathan Cape, 1931.
Lasswell, Harold D. *World Politics and Personal Insecurity.* New York: Whittlesey House, 1935.
Lippmann, Walter. *Public Opinion.* New York: Macmillan, 1922, 1960.
Lowell, A. Lawrence. *Public Opinion and Public Government.* New York: Longmans, Green, 1914.
____. *Public Opinion in War and Peace.* Cambridge, MA: Harvard University Press, 1926.
Smith, Charles W. *Public Opinion in a Democracy.* New York: Prentice Hall, 1939.
Stratton, George Malcomb. *Social Psychology of International Conduct.* New York: D. Appleton, 1929.

VI FƏSİL

For the general problems of international law, see:

Bailey, Sydney D. *Prohibitions and Restraints in War.* London and New York: Oxford University Press, 1972.
Bentwich, Norman. *International Law.* London: Royal Institute of International Affairs, 1945.
Brierly, J. L. *The Outlook for International Law.* Oxford: Clarendon Press, 1944.
____. *The Law of Nations,* 4th ed. Oxford: Clarendon Press, 1949.
____. *The Basis of Obligation in International Law.* London: Oxford University Press, 1958.
Coll, Alberto R. *The Western Heritage and American Values.* Washington, DC: University Press of America, 1982.
Corbett, Percy E. *Law and Society in the Relations of States.* New York: Harcourt, Brace, 1951.
____. *Law in Diplomacy.* Princeton, NJ: Princeton University Press, 1959.
Dickinson, Edwin D. *What Is Wrong with International Law?* Berkeley, CA: James J. Gillick, 1947.
Franck, Thomas M. *The Structure of Impartiality.* New York: Macmillan, 1968.

Friedmann, Wolfgang. *The Changing Structure of International Law.* New York: Columbia University Press, 1964.
Henkin, Louis. *How Nations Behave.* New York: Praeger, 1968.
Higham, Robin, ed. *Intervention or Abstention.* Lexington, KY: University Press of Kentucky, 1975.
Jessup, Philip C. A *Modern Law of Nations.* New York: Macmillan, 1948.
Kaplan, Morton A., and Katzenbach, Nicholas de B. *The Political Foundation of International Law.* New York: John Wiley and Sons, 1961.
Keeton, George W., and Schwarzenberger, Georg. *Making International Law Work,* 2nd ed. London: Stevens and Sons, 1946.
Kelsen, Hans. *Principles of International Law.* New York: Rinehart, Inc., 1952.
Lauterpacht, H. *The Function of Law in the International Community.* Oxford: Clarendon Press, 1933.
Levi, Werner. *Law and Politics in the International Society.* Beverly Hills, CA: Sage, 1976.
Moore, John Bassett. *International Law and Some Current Illusions.* New York: Macmillan, 1924.
Morgenthau, Hans J. "Positivism, Functionalism, and International Law." *American Journal of International Law* 34 (April 1940): 260–84.
O'Brien, William V. *The Conduct of Just and Limited War.* New York: Praeger, 1981.
Royal Institute of International Affairs. *International Sanctions.* London, New York, Toronto: Oxford University Press, 1938.
Schwarzenberger, Georg. *International Law and Order.* New York: Praeger, 1971.
Starke, J. G. *Introduction to International Law.* London: Butterworths, 1947.
Stone, Julius. *Legal Controls of International Conflict.* New York: Rinehart, 1954.
____. *Aggression and World Order.* Berkeley and Los Angeles: University of California Press, 1958.
Visscher, Charles de. *Theory and Reality in Public International Law.* Princeton, NJ: Princeton University Press, 1957.
Walzer, Michael. *Just and Unjust Wars.* New York: Basic Books, 1977.
Williams, Sir John Fischer. *Chapters on Current International Law and the League of Nations.* New York: Longmans, Green, 1929.
____. *Aspects of Modern International Law.* New York: Oxford University Press, 1939.

On special problems connected with the Covenant of the League of Nations and the Charter of the United Nations, see the books cited under Part Eight.

On sovereignty, see:

Chace, James. Solvency: *The Price of Survival.* New York: Random House, 1981.
Corwin, Edward S. *The President: Office and Powers,* 2nd ed. New York: New York University Press, 1941.
____. *Total War and the Constitution.* New York: Alfred A. Knopf, 1947.
Dickinson, Edwin D. *The Equality of States in International Law.* Cambridge, MA: Harvard University Press, 1920.
____. "A Working Theory of Sovereignty." *Political Science Quarterly* 42, no. 4 (December 1927): 524–48; 43, no. 1 (March 1928): 1–31.

Duguit, Leon. *Law in the Modern State.* New York: B. W. Huebsch, 1919.
Fromkin, David. *The Independence of Nations.* New York: Praeger, 1981.
Keeton, George W. *National Sovereignty and International Order.* London: Peace Book, 1939.
Kelsen, Hans. *Das Problem der Souveranität und die Theorie des Völkerrechts.* Tübingen: J.C.B. Mohr, 1920.
____. *General Theory of Law and State.* Cambridge, MA: Harvard University Press, 1945.
Koo, Wellington, Jr. *Voting Procedures in International Organizations.* New York: Columbia University Press, 1947.
Krabbe, H. *The Modern Idea of the State.* New York: D. Appleton, 1922.
Laski, Harold J. *Studies in the Problem of Sovereignty.* New Haven, CT: Yale University Press, 1917.
____. *Authority in the Modern State.* New Haven, CT: Yale University Press, 1919.
____. *The Foundations of Sovereignty and Other Essays.* London: G. Allen and Unwin, 1921.
Mattern, Johannes. *Concepts of State, Sovereignty and International Law.* Baltimore, MD: Johns Hopkins University Press, 1928.
Merriman, Charles E. *History of the Theory of Sovereignty Since Rousseau.* New York: Columbia University Press, 1900.
Riches, Cromwell A. *Majority Rule in International Organizations.* Baltimore, MD: Johns Hopkins University Press, 1940.
Vernon, Raymond. *Sovereignty at Bay.* New York: Basic Books, 1971.
Watkins, Frederick M. *The State as a Concept of a Political Science.* New York and London: Harper and Brothers, 1934.

VII FƏSİL

On the general nature of contemporary world politics, see:

Ambrose, Stephen E. *Rise to Globalism,* 3rd ed. New York: Penguin Books, 1983.
Aron, Raymond. *The Century of Total War.* New York: Doubleday, 1954; Boston: Beacon Press, 1955.
____. *Peace and War.* Garden City, NJ: Doubleday, 1966.
____. *The Imperial Republic: The United States and the World.* Englewood Cliffs, NJ: Prentice Hall, 1974.
Banisadr, Abolhassan. *Islamic Government.* Translated by Mohammad R. Ghanoon-parvar. Lexington, MA: Mazda, 1981.
Beloff, Max. *New Dimensions in Foreign Policy.* New York: Macmillan, 1961.
Beres, Louis Rene. *Apocalypse: Nuclear Catastrophe in World Politics.* Chicago: University of Chicago Press, 1980.
Blake, David, and Walters, Robert. *The Politics of Global Economic Relations.* Englewood Cliffs, NJ: Prentice Hall, 1976.
Bozeman, Adda B. *Conflict in Africa.* Princeton, NJ: Princeton University Press, 1976.
Braestrup, Peter. *Vietnam as History.* Washington, DC: University Press of America, 1984.
Brown, Seyom. *New Forces in World Politics.* Washington, DC: Brookings Institution, 1974.
Calvocoressi, Peter. *World Order and the New States.* New York: Praeger, 1962.
____. *World Politics Since 1945,* 4th ed. London and New York: Longman, 1982.

Carr, Edward Hallett. *Conditions of Peace.* New York: Macmillan, 1944.
Chicago Council on Foreign Relations. *Detente and the Atlantic Nations.* Chicago Council on Foreign Relations, 1977.
Dunn, Frederick S. *War and the Minds of Men.* New York: Harper and Brothers, 1950.
Ellis, John. *The Social History of the Machine Gun.* New York: Pantheon Books, 1976.
Fischer, Eric. *The Passing of the European Age.* Cambridge, MA: Harvard University Press, 1943.
Fox, William T. R. *The Super-Powers.* New York: Harcourt, Brace, 1944.
Franck, Thomas M., and Weisband, Edward. *World Politics: Verbal Strategy Among the Superpowers.* New York: Oxford University Press, 1971.
Fromm, Erich. *May Man Prevail?* Garden City, NJ: Doubleday, 1961; New York: Anchor Books, 1961.
George, Alexander L., and Smoke, Richard. *Deterrence in American Foreign Policy: Theory and Practice.* New York: Columbia University Press, 1974.
Gilpin, Robert. *War and Change in World Politics.* Cambridge, UK: Cambridge University Press, 1981.
Gompert, David C., Mandelbaum, Michael, Garwin, Richard L., and Barton, John. *Nuclear Weapons and World Politics: Alternatives for the Future.* New York: McGraw-Hill, 1977.
Graebner, Norman A. *Cold War Diplomacy,* 2nd ed. New York: D. Van Nostrand, 1977.
____. *The Age of Global Power.* New York: John Wiley and Sons, 1979.
Harkavy, Robert. *The Arms Trade and International Systems.* Cambridge, MA: Ballinger, 1975.
Herz, John. *International Politics in the Atomic Age.* New York: Columbia University Press, 1959.
Hoffmann, Stanley. *The State of War.* New York: Praeger, 1966.
____. *Primacy or World Order.* New York: McGraw-Hill, 1978.
Jaspers, Karl. *The Future of Mankind.* Chicago: University of Chicago Press, 1961; Phoenix: Phoenix Books, 1963.
Jensen, Lloyd. *Return from the Nuclear Brink: National Interest and the Nuclear Nonproliferation Treaty.* Lexington, MA: Lexington Books, 1974.
Johnson, Harry G. *Technology and Economic Interdependence.* New York: St. Martin's Press, 1976.
Keegan, John. *The Face of Battle.* New York: Viking Press, 1976.
Kemp, Geoffrey, Pfalzgraff, Robert L., Jr., and Ra'anan, Uri. *The Superpowers in a Multinuclear World.* Lexington, MA: Lexington Books, 1974.
____, eds. *The Other Arms Race: New Technologies and Non-Nuclear Conflict.* Lexington, MA: Lexington Books, 1975.
Kennan, George F. *American Diplomacy, 1900–1950.* Chicago: University of Chicago Press, 1951; New York: Mentor Books, 1952.
Kinter, William R., and Sicherman, Harvey. *Technology and International Politics: The Crisis of Wishing.* Lexington, MA: Lexington Books, 1975.
Kissinger, Henry A. *Nuclear Weapons and Foreign Policy.* New York: Harper and Brothers, 1957; Garden City: Anchor Books, 1958.
LaFeber, Walter. *America, Russia and the Cold War,* 1945–73, 3rd ed. New York and London: John Wiley and Sons, 1976.
Lippmann, Walter. U.S. *Foreign Policy.* Boston: Little, Brown, 1943.
____. *U.S. War Aims.* Boston: Little, Brown, 1944.

____. *The Cold War*. New York: Harper and Brothers, 1947.
____. *Isolation and Alliances*. Boston: Little, Brown, 1952.
Martin, Laurence. *Arms and Strategy: The World Power Structure Today*. New York: David McKay, 1973.
Melanson, Richard. *Writing History and Making Policy*. Washington, DC: University Press of America, 1983.
Mikdashi, Zuhayr. *International Politics of National Resources*. Ithaca, NY, and London: Cornell University Press, 1976.
Morgenthau, Hans J. *In Defense of the National Interest*. New York: Alfred A. Knopf, 1960; Washington, DC: University Press of America, 1982.
____. *A New Foreign Policy for the United States*. New York: Praeger, 1969.
Morse, Edward L. *Modernization and the Transformation of International Relations*. New York: Free Press, 1976.
Nau Henry R. *National Politics and International Technology: Nuclear Reactor Development in Western Europe*. Baltimore, MD: Johns Hopkins University Press, 1974.
Niebuhr, Reinhold. *The Structure of Nations and Empires*. New York: Charles Scribner's Sons, 1959.
Osgood, Robert E., et al. *America and the World: From the Truman Doctrine to Vietnam*. Baltimore, MD: Johns Hopkins University Press, 1970.
Osgood, Robert E. *Limited War: The Challenge to American Strategy*. Chicago: University of Chicago Press, 1957.
Piscatori, James P. *Islam in the Political Process*. Cambridge, MA: Cambridge University Press, 1983.
Ramazani, R. K. *The United States and Iran*. New York: Praeger, 1982.
Schachter, Oscar. *Sharing the World's Resources*. New York: Columbia University Press, 1976.
Schulzinger, Robert D. *American Diplomacy in the Twentieth Century*. New York and Oxford: Oxford University Press, 1984.
Scott, Andrew M. *The Revolution in Statecraft*. New York: Random House, 1965.
Skolnikoff, Eugene B. *The International Imperatives of Technology*. Berkeley, CA: University of California Press, 1972.
Thompson, Kenneth W. *Understanding World Politics*. Notre Dame, IN: University of Notre Dame Press, 1975.
____. *Interpreters and Critics of the Cold War*. Washington, DC: University Press of America, 1978.
Ulam, Adam B. *The Rivals*. London: Allen Lane, 1973.
____. *Expansion and Coexistence: Soviet Foreign Policy*, 2nd ed. New York: Praeger, 1974.
____. *Dangerous Relations: The Soviet Union in World Politics, 1970–82*. New York and Oxford: Oxford University Press, 1983.
Vernon, Raymond. *Storm over the Multinationals: The Real Issues*. Cambridge, MA: Harvard University Press, 1977.
Viner, Jacob. "The Implications of the Atomic Bomb for International Relations." *Proceedings of the American Philosophical Society* 90, no. 1 (1946): 53–58.
Wall, David. *The Charity of Nations: The Political Economy of Foreign Aid*. New York: Basic Books, 1973.

Wheeler-Bennett, John, and Nicholls, Anthony. *The Semblance of Peace: The Political Settlement After the Second World War*. New York: St. Martin's Press, 1972.

On total war, see:

Aron, Raymond. *On War*. New York: W. W. Norton, 1968.
Brodie, Bernard. *See Power in the Machine Age*. Princeton, NJ: Princeton University Press. 1941.
____, ed. *The Absolute Weapon: Atomic Power and World Order*. New York: Harcourt, Brace, 1946.
____. *Escalation and the Nuclear Option*. Princeton, NJ: Princeton University Press, 1966.
____. *War and Politics*. New York: Macmillan, 1973.
Brown, Neville. *Nuclear War: The Impending Strategic Deadlock*. New York: Praeger, 1965.
Butterfield, Herbert. *International Conflict in the Twentieth Century*. New York: Harper and Brothers, 1960.
Clarkson, Jesse, and Cochran, Thomas C., eds. *War as a Social Institution*. New York: Columbia University Press, 1941.
Earle, Edward Mead, ed. *Makers of Modern Strategy*. Princeton, NJ: Princeton University Press, 1944.
Ferrero, Guglielmo. *Peace and War*. London: Macmillan, 1933.
Hart, B. H. Liddell. *The Revolution in Warfare*. London: Faber and Faber, 1946.
Howard, Michael. *The Causes of War*. Cambridge, MA: Harvard University Press, 1983.
Kahn, Herman. *On Thermonuclear War*. Princeton, NJ: Princeton University Press, 1960.
____. *Thinking About the Unthinkable*. New York: Horizon Press, 1962.
Mumford, Lewis. *Technics and Civilization*. New York: Harcourt, Brace, 1946; San Francisco: Harbinger Books, 1963.
Ogburn, William Fielding, ed. *Technology and International Relations*. Chicago: University of Chicago Press, 1949.
Oman, Sir Charles. *A History of the Art of War in the Sixteenth Century*. New York: E. P. Dutton, 1937.
Schelling, Thomas C. *Arms and Influence*. New Haven, CT, and London: Yale University Press, 1966.
Schultz, Theodore W. "Changes in the Economic Structure Affecting American Agriculture." *Journal of Farm Economics* 28, no. 1 (February 1946): 15–27.
Spaulding, O. L., Nickerson, Hoffman, and Wright, J. W. *Warfare*. New York: Harcourt, Brace, 1925.
Speier, Hans. *Social Order and the Risks of War*, Part III. New York: George W. Stewart, 1952.
Speier, Hans, and Kahler, Alfred, eds. *War in Our Time*. New York: W. W. Norton, 1939.
Tucker, Robert W. *Nation or Empire: The Debate over American Foreign Policy*. Baltimore, MD: Johns Hopkins University Press, 1968.
Vagts, Alfred. *A History of Militarism*. New York: W. W. Norton, 1937.
Wohlstetter, Albert. "Technology, Prediction, and Disorder." *Vanderbilt Law Review* 17, no. 1 (December 1963): 1–14.
Woolsey, R. James. *Nuclear Arms*. San Francisco, CA: Institute for Contemporary Studies, 1984.

VIII FƏSİL

On the history of peace plans, see:

Falk, Richard A. *A Study of Further Worlds.* New York: Free Press, 1975.

Hemleben, Sylvester John. *Plans for World Peace Through Six Centuries.* Chicago: University of Chicago Press, 1945.

Lance, Christian. *Histoire de l'Internationalisme.* New York: G. P. Putnam's Sons, 1919.

Marriott, J. A. R. *Commonwealth or Anarchy? A Survey of Projects of Peace from the Sixteenth to the Twentieth Century.* New York: Columbia University Press, 1939.

Paullin, Theodore. *Comparative Peace Plans.* Philadelphia: Pacifist Research Bureau, 1943.

Pragellis, Stanley, ed. "The Quest for Political Unity in World History." *Annual Report of the American Historical Association,* 1942, Vol. 3. United States Government Printing Office, 1944.

Souleyman, Elizabeth V. *The Vision of World Peace in Seventeenth- and Eighteenth-Century France.* New York: G. P. Putnam's Sons, 1941.

Wynner, Edith, and Lloyd, Georgia. *Searchlights on Peace Plans.* New York: E. P. Dutton, 1944.

On disarmament, see:

Barnet, Richard J. *Who Wants Disarmament?* Boston: Beacon Press, 1960.

Beckhoefer, Bernard J. *Postwar Negotiations for Arms Control.* Washington, DC: Brookings Institution, 1961.

Blackett, P.M.S. *Studies of War.* New York: Hill and Wang, 1962.

Brennan, Donald G., ed. *Arms Control, Disarmament, and National Security.* New York: George Braziller, 1961.

Buell, Raymond Leslie. *The Washington Conference.* New York: D. Appleton, 1922.

Bull, Hedley. *The Control of the Arms Race.* New York: Praeger, 1961.

Burton, John W. *Peace Theory: Precondition of Disarmament.* New York: Alfred A. Knopf, 1962.

Dougherty, James E. *How to Think About Arms Control and Disarmament.* New York: Cane, Russak, 1973.

Epstein, William. *Disarmament: 25 Years of Effort.* Toronto: Canadian Institute of International Affairs, 1971.

____. *The Last Chance: Nuclear Proliferation and Arms Control.* New York: Free Press, 1976.

Fallows, James. *National Defense.* New York: Random House/Vintage Books, 1982.

Forbes, Henry W. *The Strategy of Disarmament.* Washington, DC: Public Affairs Press, 1962.

Gray, Colin S. *The Soviet-American Arms Race.* Lexington, MA: Lexington Books, 1976.

Griswold, A. Whitney. *The Far Eastern Policy of the United States.* New York: Harcourt, Brace, 1938; New Haven, CT: Yale University Press, 1964.

Hadley, Arthur T. *The Nation's Safety and Arms Control.* New York: Viking Press, 1961.

Harvard Nuclear Study Group. *Living with Nuclear Weapons.* New York: Bantam Books, 1983.

Huntington, Samuel P. "Arms Races: Prerequisites and Results." *Public Policy,* Vol. 8. Cambridge: Harvard Graduate School of Public Administration, 1958, pp. 41–86.

Kennan, George F. *The Nuclear Delusion.* New York: Pantheon Books, 1982.

Levine, Robert A. *The Arms Debate.* Cambridge, MA: Harvard University Press, 1963.

Melman, Seymour, ed. *Inspection for Disarmament.* New York: Columbia University Press, 1958.

Morgan, Laura Puffer. *The Problem of Disarmament.* New York: Commission to Study the Organization of Peace, 1947.

Myrdal, Alva. *The Game of Disarmament: How the United States and Russia Run the Arms Race.* New York: Pantheon Books, 1977.

Nogee, Joseph L. *Soviet Policy Toward International Control of Atomic Energy.* Notre Dame, IN: University of Notre Dame Press, 1961.

Possony, Stefan T. "No Peace Without Arms." *The Review of Politics* 6, no. 2 (April 1944): 216–27.

Schelling, Thomas C., and Halperin, Morton H. *Strategy and Arms Control.* New York: Twentieth Century Fund, 1961.

Shils, Edward A. *Atomic Bombs in World Politics.* London: National Peace Council, 1948.

Singer, J. David. *Deterrence, Arms Control, and Disarmament: Toward a Synthesis in National Security Policy.* Columbus: Ohio State University Press, 1962.

Smith, Gerard. *Double-Talk: The Story of SALT I.* Garden City, NJ: Doubleday, 1980.

Spainer, John W., and Nogee, Joseph L. *The Politics of Disarmament: A Study of Soviet-American Gamesmanship.* New York: Praeger, 1962.

Stone, Jeremy J. *Strategic Persuasion: Arms Limitation Through Dialogue.* New York: Columbia University Press, 1967.

Tate, Merze. *The Disarmament Illusion.* New York: Macmillan, 1942.

____. *The United States and Armaments.* Cambridge, MA: Harvard University Press, 1948.

Thompson, Kenneth W. *The President and the Public Philosophy.* Baton Rogue, LA, and London: Louisiana State University Press, 1981.

Wheeler-Bennett, John. *The Pipe-Dream of Peace: The Story of the Collapse of Disarmament.* New York: William Morrow, 1935.

Wieseltier, Leon. *Nuclear War, Nuclear Peace.* New York: Holt, Rinehart and Winston, 1983.

Wolfers, Arnold, and Osgood, Robert, eds. *The United States in a Disarmed World.* Baltimore, MD: Johns Hopkins University Press, 1966.

Woodward, E. L. *Some Political Consequences of the Atomic Bomb.* New York: Oxford University Press, 1946.

Wright, Sir Michael. *Disarm and Verify.* New York: Praeger, 1964.

On security, see:

Beaton, Leonard. *The Reform of Power: A Proposal for an International Security System.* New York: Viking Press, 1972.

Brown, Harold. *National Security.* Boulder, CO: Westview Press, 1983.

Gaddis, John Lewis. *Strategies of Containment.* New York and Oxford: Oxford University Press, 1982.

Halle, Louis J. *The Elements of International Strategy.* Washington, DC: University Press of America, 1984.
Jessup, Philip C. *International Security.* New York: Council on Foreign Relations, 1935.
Mitrany, David. *The Problem of International Sanctions.* New York: Oxford University Press, 1925.
Royal Institute of International Affairs. *International Sanctions.* London: Oxford University Press, 1938.
Thompson, Kenneth W. "Collective Security." *International Encyclopedia of the Social Sciences.* New York: Macmillan/Free Press, 1968, pp. 565–67.
Wild, Payson S. *Sanctions and Treaty Enforcement.* Cambridge, MA: Harvard University Press, 1934.

On judicial settlement, see:

Kelsen, Hans. *Peace Through Law.* Chapel Hill, NC: University of North Carolina Press, 1944.
Lauterpacht, H. *The Function of Law in the International Community.* Oxford: Clarendon Press, 1933.
Lissitzyn, Oliver J. *The International Court of Justice.* New York: Carnegie Endowment for International Peace, 1951.
Morgenthau, Hans J. *La notion du "politique" et la theorie des differents internationaux.* Paris: Librairie du Recueil Sirey, 1933.
Rosenne, Shabtai. *The International Court of Justice.* Leyden: Sijthoff, 1957.

For peaceful change, see in addition the titles under international government:

Bloomfield, Lincoln P. *Evolution or Revolution? The United Nations and the Problem of Peaceful Territorial Change.* Cambridge, MA: Harvard University Press, 1957.
Cruttwell, C.R.M.F. *A History of Peaceful Change in the Modern World.* New York: Oxford University Press, 1937.
Dunn, Frederick S. *Peaceful Change.* New York: Council on Foreign Relations, 1937.

On international government in general, see:

Barker, Ernest. *The Confederation of Nations.* Oxford: Clarendon Press, 1918.
Briggs, Herbert W. "Power Politics and International Organization." *American Journal of International Law* 39, no. 4 (October 1945): 664–79.
Corbett, Percy E. *Post-War Worlds.* Los Angeles: Institute of Pacific Relations, 1942.
Davis, Harriet Eager, ed. *Pioneers in World Order.* New York: Columbia University Press, 1944.
Dell, Robert. *The Geneva Racket,* 1920–1939. London: Robert Hale, 1940.
Freeman, Harrop A. *Coercion of States in International Organizations.* Philadelphia: Pacifist Research Bureau, 1944.
Freeman, Harrop A., and Paullin, Theodore. *Coercion of States in Federal Unions.* Philadelphia: Pacifist Research Bureau, 1934.

Hankey, Lord Maurice P. *Diplomacy by Conference.* New York: G. P. Putnam's Sons, 1946.
Kissinger, Henry A. *A World Restored: Castlereagh, Metternich, and the Problem of Peace,* 1812–22. Boston: Houghton Mifflin, 1957.
Levi, Werner. *Fundamentals of World Organization.* Minneapolis: University of Minnesota Press, 1950.
McCallum, R. B. *Public Opinion and the Last Peace.* New York: Oxford University Press, 1944.
Mangone, Gerard J. *A Short History of International Organization.* New York: McGraw-Hill, 1954.
Nicolson, Harold. *The Congress of Vienna: A Study in Allied Unity,* 1812–1822. New York: Harcourt, Brace, 1946; London: Constable, 1946; Rochester, NY: Compass Books, 1961; New York: Harcourt Brace Jovanovich, 1970 (paperback), 1974 (hardcover).
Nys, M. Ernest. "Le Concert Européen et la notion du droit international." *Revue de droit international,* Deuxieme Serie, vol. 1 (1899): 273–313.
Oppenheim, L. *The League of Nations and Its Problems.* London: Longmans, Green, 1919.
Phillips, Walter Alison. *The Confederation of Europe.* London: Longmans, Green, 1914.
Ray, Jean. *Commentaire du Pacte de la Societe des Nations.* Paris: Recueil Sirey, 1930.
Schenk, H. G. *The Aftermath of the Napoleonic Years: The Concert of Europe—An Experiment.* New York: Oxford University Press, 1948.
Thompson, Kenneth W. *Institutions for Projecting American Values Abroad.* Washington, DC: University Press of America, 1983.
Walters, F.P.A. *A History of the League of Nations.* 2 vols. New York: Oxford University Press, 1952.
World Organization: *A Balance Sheet of the First Great Experiment.* Washington, DC: American Council on Public Affairs, 1942.
Zimmern, Sir Alfred E. *The League of Nations and the Rule of Law.* New York: Macmillan, 1939.

See also the books by Temperley, Webster, and Wolfers, cited under Part Four.

On the United Nations, see:

Alker, Chadwick F., and Russett, Bruce M. *World Politics in the General Assembly.* New Haven, CT: Yale University Press, 1965.
Bailey, Sidney D. *The General Assembly of the U.N.: A Study of Procedure and Practice.* New York: Praeger, 1960.
Bentwich, Norman, and Martin, Andrew. *A Commentary on the Charter of the United Nations.* London: Routledge and Kegan Paul, 1950.
Bloomfield, Lincoln P. *Evolution or Revolution?* Cambridge, MA: Harvard University Press, 1957.
____. *The U.N. and U.S. Foreign Policy.* Boston: Little, Brown, 1960.
Brierly, J. L. *The Covenant and the Charter.* Cambridge, UK: Cambridge University Press, 1947.
Claude, Inis L. *Swords into Plowshares,* 3rd ed. New York: Random House, 1964.
Cohen, Benjamin V. *The U.N.: Constitutional Developments, Growth, and Possibilities. Cambridge, MA: Harvard University Press, 1961.*

Cox, Robert W., and Jacobson, Harold K. *The Anatomy of Influence.* New Haven, CT, and London: Yale University Press, 1973.
Feller, A. H. *United Nations and World Community.* Boston: Little, Brown, 1952.
Goodrich, Leland M. *The United Nations.* New York: Thomas Y. Crowell, 1959.
____. *The United Nations in a Changing World.* New York: Columbia University Press, 1974.
Gross, Ernest A. The U.N.: *Structure for Peace.* New York: Harper and Row, 1962.
Hasluck, Paul. *Workshop of Security.* Melbourne: F. W. Chesire, 1948.
Haviland, H. Field, Jr. *The Political Role of the General Assembly.* New York: Carnegie Endowment for International Peace, 1951.
Hiscocks, Richard. *The Security Council: A Study in Adolescence.* New York: Free Press, 1974.
Hovet, Thomas, Jr. Bloc *Politics in the United Nations.* Cambridge, MA: Harvard University Press, 1960.
Jacobson, Harold Karan. "The Changing United Nations." *In Foreign Policy in the Sixties: The Issues and Instruments, Roger Hilsman and Robert Good Baltimore,* eds. Baltimore, MD: Johns Hopkins University Press, 1965.
Kelsen, Hans. *The Law of the United Nations.* New York: Praeger, 1950.
McDermott, Geoffrey. *The New Diplomacy and Its Apparatus.* London: Plume Press/Ward Lock, 1973.
Miller, Linda B. *World Order and Local Disorder: The United Nations and International Conflict.* Princeton, NJ: Princeton University Press, 1967.
Morgenthau, Hans J., ed. *Peace, Security, and the United Nations.* Chicago: University of Chicago Press, 1946.
Nicholas, Herbert. *The United Nations as a Political Institution.* New York: Oxford University Press, 1959.
Ross, Alf. *The United Nations: Peace and Progress.* Totowa, NJ: Bedminster Press, 1966.
Stoessinger, John. *The United Nations and the Superpowers.* New York: Random House, 1965.
Thompson, Kenneth W. "Collective Security Reexamined." *The American Political Science Review* 47 (September 1953): 753–72.
____. *Foreign Assistance.* Notre Dame, IN: University of Notre Dame Press, 1972; Washington, DC: University Press of America, 1983.
Wainhouse, David W. *Remnants of Empire: The United Nations and the End of Colonialism.* New York: Harper and Row, 1964.

IX FƏSİL

On the problem of the world state, see:

Bibo, Istvan. *The Paralysis of International Institutions and the Remedies.* New York: Halsted Press, 1976.
Brinton, Crane. *From Many One: The Process of Political Integration: The Problem of World Government.* Cambridge, MA: Harvard University Press, 1948.
Ewing, Alfred C. *The Individual, the State, and World Government.* New York: Macmillan, 1947.

Hammond, Mason. *City-State and World State in Greek and Roman Political Thought Until Augustus.* Cambridge, MA: Harvard University Press, 1951.
Ionescu, Ghota, ed. *Between Sovereignty and Integration.* New York: Halsted Press, 1974.
Klein, Robert A. *Sovereign Equality Among States: The History of an Idea.* Toronto: University of Toronto Press, 1974.
Lewis, Edward R. "Are We Ready for a World State?" *The Yale Review* 35, no. 3 (March 1946): 491–501.
Mangone, Gerald J. *The Idea and Practice of World Government.* New York: Columbia University Press, 1951.
Marriott, T.A.R. *Federalism and the Problem of the Small State.* London: G. Allen and Unwin, 1943.
Martin, William. *A History of Switzerland.* London: Grant Richards, 1931.
Meyer, Cord. *Peace or Anarchy.* Boston: Little, Brown, 1947.
Näf, Werner. *Die Schweiz in Europa.* Bern: Herbert Lang, 1938.
Niebuhr, Reinhold. "The Illusion of World Government." *Foreign Affairs* 27, no. 3 (April 1947): 379–88.
Pelcovits, N. A. "World Government Now?" *Harper's* 193, no. 1156 (November 1946): 396–403.
Rappard, William E. *Cinq siècles de sécurité collective, 1291–1798.* Paris: Recueil Sirey, 1945.
Reves, Emery. *The Anatomy of Peace. New York: Harper and Brother,* 1946; Rochester, NY: Compass Books, 1963.
Rider, Fremont. *The Great Dilemma of World Organization.* New York: Reynal and Hitchcock, 1946.
Schuman, Frederick L. *The Commonwealth of Man.* New York: Alfred A. Knopf, 1952.
Sewell, James P. *Unesco and World Politics: Engaging in International Relations.* Princeton, NJ: Princeton University Press, 1975.

On the problem of the world community, see:

Beloff, Max. "The 'Federal Solution' in Its Application to Europe, Asia, and Africa." *Political Studies* 1, no. 2 (June 1953): 114–31.
Buchan, Alastair. *NATO in the 1960s.* New York: Praeger, 1960.
____. *Europe's Futures, Europe's Choices.* New York: Columbia University Press, 1969.
Camps, Miriam. *European Unification in the Sixties.* New York: McGraw-Hill, 1966.
Denian, J. F. *The Common Market.* London: Barrie and Rockliff with Pall Mall Press, 1960.
Freeman, Harrop A., and Paullin, Theodore. *Road to Peace: A Study in Functional International Organization.* Ithaca, NY: Pacifist Research Bureau, 1947.
Haas, Ernest B. *The Uniting of Europe.* Stanford, CA: Stanford University Press, 1958.
Hallstein, Walter. *United Europe: Challenge and Opportunity.* Cambridge, MA: Harvard University Press, 1952.
Huxley, Julian. *UNESCO.* Washington, DC: Public Affairs Press, 1947.
James, William. *A Moral Equivalent for War.* New York: Carnegie Endowment for International Peace, 1926.

Kitzinger, U. W. *The Politics and Economics of European Integration.* New York: Praeger, 1963.
Lindberg, Leon N. *The Political Dynamics of European Economics Integration.* Stanford, CA: Stanford University Press, 1963.
Liska, George. The New Statecraft: Foreign Aid in American Foreign Policy. Chicago: University of Chicago Press, 1960.
____. Europe Ascendant: The International Politics of Unification. Baltimore, MD: Johns Hopkins University Press, 1964.
McMurry, Ruth Emily, and Lee, Muna. *The Cultural Approach: Another Way in International Relations.* Chapel Hill, NC: University of North Carolina Press, 1947.
Mason, Edward S. *Foreign Aid and Foreign Policy.* New York: Harper and Row, 1964; paperbound, 1964.
Mitrany, David. *A Working Peace System.* Chicago: Quadrangle Books, 1966.
Murphy, Gardner, ed. *The Moral Implications of Loyalty to the United Nations.* New Haven, CT: Edward W. Hazen Foundation, 1952.
Niebuhr, Reinhold. *Human Nature and Enduring Peace.* New Haven, CT: Edward W. Hazen Foundation, 1952.
Osgood, Robert E. *NATO: The Entangling Alliance.* Chicago: University of Chicago Press, 1962.
Patterson, Ernest Minor, ed. "NATO and World Peace." *The Annals of the American Academy of Political and Social Science* 288 (July 1953).
Sewell, James Patrick. *Functionalism and World Politics.* Princeton, NJ: Princeton University Press, 1966.
Shuster, George N. *Cultural Cooperation and the Peace.* Milwaukee, WI: Bruce, 1952.
Thompson, Kenneth W. *Ethics, Functionalism and Power in International Politics.* Baton Rouge, LA, and London: Louisiana State University Press, 1979.
Tucker, Robert W. *A New Isolationism.* Washington, DC: Potomac Associates, 1972.
West, Ranyard. *Psychology and World Order.* London: Penguin Books, 1945.

X FƏSİL

On the problems of diplomacy, see:

Beard, Charles A. *The Idea of National Interest.* New York: Macmillan, 1934.
Burton, J. W. *Systems, States, Diplomacy and Rules.* London and New York: Cambridge University Press, 1968.
Callieres, Francois de. *On the Manner of Negotiating with Princes.*
Cambon, Jules. *Le Diplomate.* Paris: Hachette, 1926.
Chamburn, Charles de. *L'Espirit de la diplomatie.* Paris: Editions Correa, 1944.
Craig, Gordon A., and Gilbert, Felix, eds. T*he Diplomats,* 1939. Princeton, NJ: Princeton University Press, 1953; New York: Atheneum, 1963.
Craig, Gordon A., and George, Alexander L. *Force and Statecraft.* New York and Oxford: Oxford University Press, 1983.
Fisher, Roger, and Ury, William. *Getting to Yes: Negotiating Agreement Without Giving In.* Boston: Houghton Mifflin, 1981; New York: Penguin Books, 1983.

Foster, John W. *The Practice of Diplomacy.* New York: Houghton Mifflin, 1906.
Franck, Thomas M., and Weisband, Edward. *Secrecy.* New York: Oxford University Press, 1974.
Friedrich, Carl Joachim. *Diplomacy and the Study of International Relations.* Oxford: Clarendon Press, 1919.
Halle, Louis, and Thompson, Kenneth W. *Foreign Policy and the Democratic Process.* Washington, DC: University Press of America, 1978.
Ikle, Fred Charles. *How Nations Negotiate.* New York: Harper and Row, 1964.
Jackson, Elmore. *Meeting of Minds.* New York and Toronto: McGraw-Hill, 1952.
Jones, Joseph M. *A Modern Foreign Policy for the United States.* New York: Macmillan, 1944.
Jusserand, Jean A. *The School for Ambassadors and Other Essays.* New York: G. P. Putnam's Sons, 1925.
Kennan, George F. *The Cloud of Danger.* Boston and Toronto: Little, Brown, 1977.
Kertesz, Stephen D., ed. *American Diplomacy in a New Era.* Notre Dame, IN: University of Notre Dame Press, 1961.
____. *The Quest for Peace Through Diplomacy.* Englewood Cliffs, NJ: Prentice Hall, 1967.
____. *Between Russia and the West.* Notre Dame, IN: University of Notre Dame Press, 1984.
Lippmann, Walter. *The Stakes of Diplomacy.* New York: Henry Holt, 1917.
Mably, Abbé Gabriel Bonnet de. "Principes des négociations." *Collection compl'ete des œuvres de l'Abbé de Mably* 5. Paris: 1794–95.
McGhee, George. *Envoy to the Middle World.* New York: Harper and Row, 1969.
McLachlan, Donald. "The Death of Diplomacy." *The Twentieth Century* 149, no. 889 (March 1951): 173–80.
Macomber, William. *The Angels' Game: A Handbook of Modern Diplomacy.* New York: Stein and Day, 1975.
Mattingly, Garrett. *Renaissance Diplomacy.* Boston: Houghton Mifflin, 1955; New York: Penguin Books, 1964.
Morley, John Viscount. *On Compromise.* London: Macmillan, 1923.
Mowrer, Paul Scott. *Our Foreign Affairs: A Study in National Interest and the New Diplomacy.* New York: E. P. Dutton, 1924.
Nicolson, Harold G. *Diplomacy.* London: T. Butterworth, 1939; New York: Galaxy Books, 1964.
____. *The Evolution of Diplomatic Method.* London: Constable, 1954.
Oncken, Hermann. *Politik und Kriegsführung.* Munich: Max Huber, 1928.
Pearson, Lester B. *Diplomacy in the Nuclear Age.* Cambridge, MA: Harvard University Press, 1959.
Redlich, Marcellus D. *International Law as a Substitute for Diplomacy.* Chicago: Independent, 1928.
Reinsch, Paul S. *Secret Diplomacy.* New York: Harcourt, Brace, 1922.
Rock, Vincent P. *A Strategy of Interdependence.* New York: Charles Scribner's Sons, 1964.
Schelling, Thomas G. *The Strategy of Conflict.* Cambridge, MA: Harvard University Press, 1960; New York: Galaxy Books, 1963.

Spanier, John. *American Foreign Policy Since World War II*, 9th ed. New York: Holt, Rinehart and Winston, 1983.
Thayer, Charles W. *Diplomat*. New York: Harper and Brothers, 1959.
Thomson, David, Meyer, E., and Briggs, A. *Patterns of Peacemaking*. London: Kegan Paul, Trench, Trubner, 1945.
Watson, Adam. *Diplomacy*. New York: McGraw-Hill, 1983.
Wellesley, Sir Victor. *Diplomacy in Fetters*. London: Hutchinson, 1944.
Willits, Joseph H. "Social Adjustments to Atomic Energy." *Proceedings of the American Philosophical Society* 90, no. 1 (Philadelphia: 1946): 48–52.
Woodward, E. L. "The Old and the New Diplomacy." *The Yale Review* 36, no. 3 (Spring 1947): 405–22.
Yergin, Daniel. *Shattered Peace*. Boston: Houghton Mifflin, 1977.
Young, George. *Diplomacy Old and New*. London: Swarthmore Press, 1921.
Zartman, I. William, and Berman, Maureen R. *The Practical Negotiator*. New Haven, CT and London: Yale University Press, 1982.

İNDEKS

Aaxen konqresi, 561
ABŞ Atom enerjisi Komissiyası, 491
"ABŞ Soyuq müharibənin qalibi olurmu?" (Nyusom), 765-72
ABŞ xarici siyasəti: Fransa ilə ittifaq (1793), 259; İngilis-Amerikan İttifaqı, 253-7; Atlantik İttifaq, 450-1, 759; ikiqütblü sistemdə, 445-61; Soyuq müharibədə Sovet İttifaqı ilə əlaqələr, 542-4; Kuba raket böhranı, 101-2, 455; Soyuq müharibə siyasətlərinin indiki təsirləri, 765-72; gərginliyin azaldılması və, 454-61; diplomatiyası, 213; tərk-silah razılaşmaları, 488; erkən dövrlərdə təcridetmə, 85-7; Yaxşı Qonşuluq siyasəti, 98q, 145; insan hüquqları və, 334-8; fərdlərin ona ortaq olması, 173-4; imperializm, 105-6, 116-7; Koreya müharibəsi, 249, 314, 391-2, 532-5; Birinci Dünya müharibəsindən əvvəl aşağı nüfuzu, 202; İkinci Dünya müharibəsindən əvvəl aşağı nüfuzu, 147-9; Monro Doktrinası, 71, 101-2, 117, 254, 263; neft imkanları və, 184, 444-5; nüfuz siyasəti, 143; ictimai dəstək, 216-20; Soyuq müharibə siyasətlərinin ona indiki təsirləri, 765-72; Çin ilə münasibətlər, 451-2, 454-5; İkinci Dünya müharibəsindən sonra transformasiyası, 210-1; Kuba ilə müqavilə, 403-4; Vyetnam müharibəsi, 54, 138, 422-5, 440-1, 768-71
Adams, Con Kvinsi, 336
Adams, Con, 152
adətlər, güc üzərində məhdudiyyət kimi, 300-4, 351
Afrika: kənd təsərrüfatı, 179; qüvvələr tarazlığı, 251, 273, 436; Britaniya imperializmi, 105; Soyuq müharibədə siyasi xətlər, 767-8; müstəmləkə inqilabları, 438-40;diktatura, 337; İtaliya-Efiopiya müharibəsi, 146, 341, 348, 531-2, 574; uran, 127, 185.
"Ağ adam boyunduruğu", 105, 156
Aland adaları, 578
Alderson, Kal, 732
Alend Qossens, Salvador, 769
Almaniya: İngiltərə-Almaniya Dəniz Razılaşması, 493, 496-7, 506; barışması, 127-8;Birinci Dünya müharibəsindən sonra qüvvələr tarazlığı, 578-9; Balkan məsələsi haqqında, 437; Berlin böhranı, 77; Polşada ildırım sürətli müharibə, 115, 143, 191; xarici neftdən asılılıq, 184; gərginliyin azaldılması dövründə, 372; diplomatiyası, 212-3; tərksilah danışıqları, 493-4; ərzaq təminatı, 178; coğrafiya və, 177; imperializmi, 113-5, 126-7, 131, 142-3, 157, 164; sənaye istehsalı potensialı, 186; əxlaq normalarının təsiri, 307; milli xarakter, 197, 202-3; milli əxlaq normaları, 205, 207; əhalini artımı, 193-4; ərazisinin ölçüsü məsələsi, 308; cəzalandırılması, İkinci Dünya müharibəsindən sonra, 310; yenidən birləşdirilməsi, 250, 448-50, 682q; Sovet İttifaqı və, İkinci Dünya müharibəsindən sonra, 450-1; Versal müqaviləsi və, 99, 114-5, 117, 131, 156, 202; birləşdirilməsi, 427, 436; Belçikanın bitərəfliyinin pozması, 60-1;Dünya Tərksilah Konfransı və, 498-9. *Həmçinin bax:* Hitler, Adolf; Nasional Sosializm
Almaniya-Avstriya Gömrük İttifaqı, 369, 545-6
alternativ enerji resursları, 184
Alyaska, satınalınması, 101
ABŞ: anti-Kommunizm, 53-4, 454-5; yoxlama və tarazlıq, 241-4, 242q; Sovet imperializminin pislənməsi, 152; konstitusion müqavilə, 621-2; tərksilah

razılaşmaları, 492-6, 507; Maarifçilik prinsipləri və, 742; ərzaq yetərliliyi, 178; coğrafiya və, 175; sənaye istehsalı potensialı, 187; qəbul etdiyi beynəlxalq hüquq, 358-9; məhkəmə funksiyası, 364-5; üzərində beynəlxalq məhkəmə yurisdiksiyası, 368-9; daxilində yanlış münasibətlər, 52; İkinci Dünya müharibəsindən sonra mənəvi tənəzzülü, 440-5; milli əhval-ruhiyyə, 203-4; təbii resurslar, 185-6; Dövlət Departamentində siyasi təyinatlar, 323-4; əhalinin artımı, 193-4; prezidentin səlahiyyəti, 78, 78q, 408-9; beynəlxalq polis qüvvəsi haqqında ictimai fikir, 413-4; federal hökumətin suverenliyi, 401-2, 409-13, 412q; səs çoxluğundan istifadə, 659-61. *Həmçinin bax:* ABŞ xarici siyasəti
"Amerika əsri", 229
Amerika inqilabı, 69, 289-92
Amerikada demokratiya (Tokvil), 197
Amerikanın xarici siyasəti. *Bax* ABŞ-ın xarici siyasəti
animus dominandi, 743
anlayışlar, dəyərləri, 74q
Anqola, 769
Anti-Ballistik Raketlərin (ABM) Məhdudlaşdırılması Müqaviləsi, 493, 497
anti-imperializm, 158, 285
arbitraj hərəkatı, 538
arbitraj, 365-7, 366q. *Həmçinin bax:* beynəlxalq hüquq
Argentina, 526
artilleriya, 471-4
Asiya: dünyanın "mərkəz"i kimi, 230; Doqquz dövlət müqaviləsi, 100. *Həmçinin ayrı-ayrı dövlətlərə görə bax.*
Atlantik İttifaqı, 424-5
Atlantika Xartiyası, 256, 256q
atom bombaları. *Bax:* nüvə bombaları
Atom Enerjisi Komissiyası, 140, 491-2, 516
Avroatom (Avropa Atom Enerjisi Birliyi), 635
Avropa Atom Enerjisi Birliyi (Avroatom), 635
Avropa Birlikləri, 635-8
Avropa İqtisadi Birliyi (Ümumi bazar), 635
Avropa Komissiyası, 635
Avropa Kömür və Polad Birliyi, 635, 637
Avropa Konserti, 292-3, 297, 566-7, 672
Avropa Şurası, 637
Avropa: hazırkı qüvvələr tarazlığı, 275; Avropa Birlikləri, 635-7, müstəmləkə inqilablarının təsiri, 438-40; neft mövcudluğu, 183-4; əhəmiyyətinin daimi süqutu, 483-4, Birinci Dünya müharibəsindən əvvəl, 130; qüvvələr tarazlığında "Üçüncü Qüvvə" kimi, 433-4; İkinci Dünya müharibəsindən sonra birləşməsi, 170-1, 250; ABŞ-ın İraqa hücumu və, 757-60. *Həmçinin bax: ayrı-ayrı ölkələrə görə*
Avstraliya, əhalisi, 193
Avstriya: Almaniya ilə Rusiyaya qarşı ittifaq, 65-6; Avstriya-Almaniya Gömrük İttifaqı, 369, 545-6; Avstriya-Prussiya müharibəsi, 109; Balkan məsələsi, 437; Birinci Dünya müharibəsinin başlanğıcı, 265; Avropa Konsertində, 292-3; Avropa qüvvələr tarazlığı, 272-4; Slavyan xalqları, 206-7; Otuzillik müharibə və, 262
Avstriya-Almaniya Gömrük İttifaqı, 369, 545-6
Avstriya-Prussiya müharibəsi (1866), 109
avtomatlaşma. *Bax:* texnologiya
azad ticarət: haqqında Kobden, 81, 81q; XIX əsr, 112; Proudhon,81, 81q; elmi tariflər və,90. *Həmçinin bax:* ticarət

Babil, 176
Bağdad paktı, 767-8
bakterioloji müharibə, 313
Balkan məsələsi, 437
Balkanlar, qüvvələr tarazlığı və, 109, 265-6, 272, 274-5, 437
Ballis, Uilyam, 465
barışıq siyasəti, 125-7
Barkin, C. Samuel, 704-26
Baş Qərargah, Müttəfiq dövlətlərin, Avropa (SHAPE), 634
Bekon, Frensis, 260
Belçika: Avropa qüvvələr tarazlığı və, 249, 264-5, 293; bitərəfliyinin Almaniya tərəfindən pozulması, 60-1, 325
Belorus, 177
Bentam, Ceremi, 81, 112, 549
bərabərlik prinsipi, imperializm ideologiyası kimi, 102, 158-9
bərabərlik, suverenlik və, 397-9
Berd, Çarlz A., 91q, 107q, 243
Berk, Edmund, 235q, 248
Berlin böhranı (1961), 77
Berlin konqresi (1878), 675
beşinci kolonna, 121
beynəlxalq anlaşma və sülh, 627-8
beynəlxalq cəmiyyət, haqqında İngilis məktəbi, 735-7, 737q
Beynəlxalq Ədalət Məhkəməsi: İngiltərə-İran Neft Şirkəti mübahisəsi, 547; təşkili, 372; təsis edilməsi, 371; yurisdiksiyası, 374; məcburiyyətsizlik qeyd-şərti, 368-71; *stare decisis* qaydası, 365, 373; BMT-ın əlaqədar müddəaları, 794-5
beynəlxalq ədalət, 740-1. *Həmçinin bax:* beynəlxalq məhkəmələr
beynəlxalq əxlaq normaları, 305-39; beynəlxalq cəmiyyətin dağılması, 325-8; insan hüquqları və, 218-9, 334-9; zadəganlığın beynəlxalq xarakteri, 318-22; müharibənin əxlaqi baxımdan pislənməsi, 313-4; dinc dövrdə insan həyatının müdafiəsi, 306-10; müharibədə insan həyatının müdafiəsi, 310-3; zadəgan məsuliyyətini demokratik məsuliyyəti ilə əvəz etmək, 323-5; müharibədə texnologiya və anonimlik, 317; total müharibə və, 314-8;
beynəlxalq hökumət, 558-79; Avropa Konserti timsalında, 566-7; Müqəddəs İttifaq, 558-60; Millətlər Cəmiyyəti, 567-79, 573q; Birləşmiş Millətlər Təşkilatı, 580-602
beynəlxalq hüquq. *Bax:* sülh
beynəlxalq hüquq: kollektiv təhlükəsizlik, 379-93, 380q-3q, 524-38, 696-9; məcburi yurisdiksiya və, 365-70; dağınıq xarakteri, 358-61, 374-7;
beynəlxalq hüququn dağınıqlığı, 358-61, 374-7
beynəlxalq konfranslar, nüfuz və yeri, 139-40
beynəlxalq məhkəmələr: məhkəmə yolu ilə həllə edilən cəhdlər, 372-4, 373q; təcrid edilmiş arbitraj, 365-6; yurisdiksiya və məhdudiyyətləri, 370-2, 539; mənəvi konsensusun çatışmazlığı, 553-4; məcburiyyətsizlik qeyd şərti, 367-70. *Həmçinin bax:* Beynəlxalq Ədalət Məhkəməsi; Daimi Beynəlxalq Ədalət Məhkəməsi
beynəlxalq müqavilələr. *Bax:* müqavilələr
beynəlxalq polis qüvvəsi, 412-4, 535-7
Beynəlxalq Qırmızı Xaç, 312
beynəlxalq sistemi, haqqında İngilis məktəbi, 733-5
"Beynəlxalq siyasət fəlsəfələrində yeni başlanğıclar" (Skoukroft), 764-5
beynəlxalq siyasət: güc ilə əlaqədar olmayan fəaliyyətlər, 74-5; qoşulmaq dərəcəsi, 75; tək səbəb üsulu, 91-3; dinc dəyişiklik, 553-7, 570;daxili siyasət ilə əlaqə, 220-1, 457-9, 745; elmi yanaşma, 89-96, 91q, 96q. *Həmçinin bax:* qüvvələr tarazlığı; diplomatiya; siyasi güc
beynəlxalq siyasətin qavranılması: yanaşmalar, 63-5; öncədən proqnozlaşdırmada yanlışlıqlar, 69-71, 70q; əhəmiyyəti, 71-2; oxşarlıq və oxşarsızlıq, 65-7
"Beynəlxalq təsisatların yanlış vədi" (Merşaymer), 677-704, 720-1
Binkli, Robert C., 331-2
bioloji ideologiya, 157
birbaşa müxaliflik forması, 244-6
birgə inkişaf zonası, 156-7
Birinci Dünya müharibəsi: əvvəlcədən yaradılan ittifaqlar, 100, 128, 264-6, 428; beynəlxalq əxlaq normaları iddiası və, 331-2; sonra tərksilaha dair danışıqlar, 498-500; mülki istehsalın əhəmiyyəti, 314-5; milli həmrəylik və,169;

öldürülmüş xalqların faizi, 469-70; sülh müqaviləsində güc bölgüsü, 99; əvvəlində güclərin qiymətləndirilməsi, 280-2; elmi utopizm və, 96q; orduların ölçüsü, 468
Birinci Haaqa Sülh Konfransı (1899), 489
Birinci Səlib yürüşü, 110
Birləşmiş Krallıq. *Bax:* Böyük Britaniya
Birləşmiş Millətlər Təşkilatı: yeni üzvlərin qəbulu, 590; Kollektiv Tədbirlər Komitəsi, 392-3; kollektiv təhlükəsizlik müddəaları, 385-9; diplomatiya və, 652; tərk-silaha dair müddəalar, 491; güc siyasətinin sonu və, 81-2; maliyyələşdirilməsi, 594; super dövlətlərin hökuməti kimi, 580-3; baş qərargahın yerləşməsi, 139-40; beynəlxalq polis qüvvəsi, 423-6; beynəlxalq hüququn şərhi, 362, 362q; status-kvonun qorunub saxlanması, 162; üzvləri, 799-802; milli suverenlik və, 594-5; nəzərdən keçirdiyi məsələlərin sayı, 587, 589; təşkili, 580-3; sülh və, 600-2; sülhməramlı qüvvələr, 594; dinc dəyişikliklər haqqında müddəalar, 553-4, 556-7; məqsədləri, 583-5, 773-4; baş katib, 592-6, 599-600; suverenlik və səs çoxluğu, 405-8; ixtisaslaşmış qurumları, 623-33, 638; qəyyumluq sistemi; üçlük təklifi, 593-4; Soyuq müharibə zamanı ABŞ haqqında təsəvvür və, 770; ABŞ-ın İraqı işğal etməsi və, 759-60; dövlətlərin səsi və nüfuzu, 351q. *Həmçinin bax:* BMT Nizamnaməsi; BMT Baş Assambleyası; BMT Təhlükəsizlik Şurası
Bismark, Otto fon: Rusiyada səfir kimi, 321; Balkan məsələsi haqqında dair, 437; kollektiv təhlükəsizlik haqqında, 100, 525; diplomatiyası, 128, 212-3; əxlaq normalarının təsiri, 308; lokallaşdırılmış imperializm və, 117-8; parlamentli hökumət haqqında, 458; Rusiyanın milli xarakteri haqqında, 198-9
Blef siyasəti, 146-7
Blitskriq, 115, 143, 191
Blois müqaviləsi (1505), 378
BMT Atom Enerjisi Komissiyası, 140-1, 490-1, 516
BMT Baş Assambleyası: tənəzzülü, 591-7; diplomatiya, 652-3; tərksilah və, 490-2; üzvlərin sayının artırılması, 591; fəaliyyət hüdudları, 581; əksəriyyət səsverməsi, 661-2; yeni proseduralar, 597-600; sülhün qorunması tədbirləri, 594; nəzərdən keçirdiyi siyasi məsələlər, 587, 589; yüksəlişi, 585-90; haqqında BMT Nizamnaməsi müddəaları, 776-9; "Sülh uğrunda birləşmə" qətnaməsi, 391-3
BMT Baş katibi: gücünün azalması, 595-596; funksiyaları, 592-593; üçlük təklifləri və, 593-594; haqqında BMT Nizamnaməsi müddəaları, 795-796
BMT İqtisadi və Sosial Şurası, 787-90
BMT Nizamnaməsi: maliyyə yardımları haqqında, 594-5; super dövlətlərin əhəmiyyəti, 580-3; bəyan edilmiş məqsədlər, 584-5; ixtisaslaşmış qurumlar, 629-30; mətni, 773-802; ədalət prinsipinin qeyri-müəyyənliyi, 583-5
BMT Qəyyumluq Şurası, 793-4
BMT Təhlükəsizlik Şurası: əhəmiyyəti, 581-3; daimi üzvləri, 582-3; nəzərdən keçirdiyi siyasi məsələlər, 587, 589; haqqında BMT Nizamnaməsi müddəaları, 779-81; veto səlahiyyəti, 389-91, 407
BMT Xüsusi Təyinatlı Qüvvələri (UNEF), 537
BMT-in ixtisaslaşmış qurumları: yaratdıqları beynəlxalq birlik, 629-33; siyahısı, 632; UNESCO, 623-9
Bolinqbrouk, Lord, 278, 283, 672
Bolivia, Cako müharibəsi, 108, 384, 574
Bolqarıstan, 574
Böyük Britaniya: Birinci Dünya müharibəsindən əvvəl ittifaqlar, 281-2, 281q, 284; Fransa ilə Habsburqlara qarşı ittifaq, 66, Portuqaliya ilə ittifaq, 258; İngilis-Amerikan ittifaqı, 253-8; İngiltərə-Almaniya Dəniz Razılaşması, 493, 496-7, 506; İngiltərə-İran Neft Şirkəti, 547; İkinci Dünya müharibəsindən sonra qüvvələr tarazlığı, 256; dünya müharibələri arasında qüvvələr tarazlığı, 285-6; İkinci Dünya müharibəsi dövründə blef etməsi, 147-8; müstəmləkə inqilabları və,438-40; Avropa Konsertində, 292-3, 297, 566-7, 671-2; dövlətin gücünün süqutu, 226-7; diplomatiyası, 211-212; tərksilah danışıqları və, 489, 495-6, 507-8; Sovet İttifaqının Millətlər Cəmiyyətindən çıxarılması və,60; ərzaq təminatı, 178; coğrafiya və,177-8, Belçikanın Almaniya tərəfindən işğalı və, 60-1; tarazlığın "tənzimləyici"si kimi, 2679, 432-4, 571-2; Müqəddəs İttifaqda, 559-66; imperializmi, 103-5, 438-9;İran və, 120; İtaliya-Efiopiya müharibəsi və, 531-2; milli xarakter, 196-7; dövlətinin gücü, 234-5; təbii ehtiyatlar və, 180-181; Doqquz dövlət müqaviləsi, 100; müharibədə həlak olmuş əhalisinin faizi, 470; İmperiyada nüfuz siyasəti, 145, 147, 147q; uran ehtiyatları, 185
Böyük İllüziya (Ancel), 111
Brays, Lord, 242
Brejnev L., 68, 494
Bridcz, Robert, 240
Brirli, J.L., 354, 374
Britaniya, *Bax:* Böyük Britaniya
Britaniya-Polşa İttifaqı (1939), 101
Briyan-Kelloq paktı (1928), 362-3, 385
Bull, Hedli, 732-5, 739-41
Bunker, Elsvorf, 770-1
Bur müharibəsi (1899-1902), 108, 480
Burgerman, Syuzan, 721q
Buxarin N.İ., 130

Cekson, Henri, 454-455
Cenevrə Dəniz Konfransı (1927), 493
Cenevrə konvensiyaları, 312
Cənubi Afrika İttifaqı, 181
Cey, Con, 621-2
Coad, C.E.M., 88-9
coğrafiya, dövlətin gücü və, 175-7, 230-1
Corc, Lloyd, 214
Cako müharibəsi (1932-35), 109, 384, 574
çəkindirmə siyasəti: imperializmə qarşı çıxmaq üçün, 125; Koreya müharibəsi və, 766; haqqında Truman, 66
çəkindirmə, nüvə silahları, 76-7
Çemberlen, Nevil, 50, 227, 293
çevik cavab doktrinası, 521-2
Çexoslovakiya: 1938-ci il böhranı, 126-7, 142, 160-1, 443-4, 454, 539; milli öz müqəddəratını təyinetmə və, 160-1; Birinci Dünya müharibəsindən sonra müqavilələr, 100, 154, 266; uran, 181, 185
Çili, 769
Çin: Amerika tərəfindən bombalanması, 422; Soyuq müharibənin qüvvələr tarazlığı və, 446, 452-5; mədəni imperializmi 122-3, Birləşmiş Millətlər Təşkilatından kənarlaşdırılması, 586; sənaye istehsalı imkanları, 186-7, Koreya və, 249, 532-5; "9 Dövlət müqaviləsi", 100; Niksonun səfəri, 140; əhalisi, 192; Sovet İttifaqının rəqabəti, 122-3; təhsil və mədəniyyət ənənəsi, 625; yüksəlişinə Qərbin reaksiyası, 60
Çörçil, Uinston: müttəfiqlər haqqında, 760; Almaniya ilə barışıq haqqında, 127-128; Britaniya imperializmi haqqında, 105; İngiltərənin tarazlığın "tənzimləyici"si olması haqqında, 270-1; motivasiyası, 50; milli maraq haqqında, 458; razılaşma yolu ilə sülh haqqında, 676; əhalinin artım tendensiyaları haqqında, 196; sanksiyalar və müharibənin pisləşməsi haqqında, 348; Fransa ordusunun gücü haqqında, 226

Daimi Arbitraj Məhkəməsi, 370-1, 545
Daimi Beynəlxalq Ədalət Məhkəməsi: Avstriya-Almaniya Gömrük İttifaqı mübahisəsi, 397, 545-6; tərkibi, 371-2; təsis olunması, 370-1; yurisdiksiyası, 369; yekdillik prinsipi, 568q
Dalles, Allen, 768
Dalles, Con Foster, 441, 766, 768

Danimarka, 154, 209
Dansiq, 539, 573-574, 573q
daxili siyasət: qüvvələr tarazlığı, 241-4, 241q; xarici siyasət və, 220-1, 457-61, 644; haqqında Makiavelli, 644-5; "tək səbəb üsulu", 91-4; milli əxlaq normaları və, 206-9; dövlətin gücü və, 214-21. *Həmçinin bax:* demokratik dövlət
daxili sülh: ədalət gözləntisi və, 608-9; həddindən artıq güc və, 609-0; dövlətin rolu, 610-3; fövqündə duran sədaqətlər, 605-8. *Həmçinin bax:* sülh
de Qol, Şarl, 433-4, 593
Defo, Daniel, 378
dəmir ehtiyatları, 131
demokratik dövlət: siyasi azadlıq çağırışı, 422; suveren qüvvənin yeri, 411; milli əxlaq normaları, 332; milli mənəviyyat və, 208-9; sülh və, 719; diplomatiyanın ictimai xarakteri, 657; etibarlılığı, 469
demonoloji yanaşma, xarici siyasətdə, 52-4
Demosfen, 154
dəniz hüququ, 359-60, 363
Dəniz Müqaviləsi hüququ (1982), 360
dərəcəli çəkindirmə, 516-7
Diderot, D., 487
diktatorluq, 551
Din müharibələri, 667-8
din, 157, 327
dinc dəyişiklik: Millətlər Cəmiyyəti və, 553-6, 570-1; dövlət daxilində, 549-53; Birləşmiş Millətlər Təşkilatı və, 556-7
diplomatiya: kommunikasiyalar, 649-50, 664; güzəşt, 669-74; Avropa Konserti, 292-3, 297, 566-7, 672; təyini, 209q; dəyərini itirməsi, 650-1; problemin tərkib hissələrə ayrılması və, 662-5; alətləri, 645-8; xarici siyasətə beynəlxalq dəstək, 220-1; hüquqi təmsilçiliyi, 646; qərarların səs çoxluğu ilə qəbul edilməsi, 659-62; dövlətin gücü və, 209-13; çağdaş dünya siyasətinin təbiəti və, 654-5; parlament prosedurları ilə, 651-3; siyasi təmsilçilik, 647-8; Birinci Dünya müharibəsindən əvvəl, 126, 211; ictimailik və, 656-9; qaydaları, 665-70; super dövlətlər və, 653-4; rəmzi təmsilçilik, 645-6; vəzifələri, 642-4. *Həmçinin bax:* xarici siyasət
Dizraeli, Bencamin, 90, 104-5, 675
dollar diplomatiyası, 119
Donuzlar körfəzi, 146
Doqquz Dövlət Müqaviləsi (1922), 100, 385
Dördlər İttifaqı, 558-60
Dördüncü Fransa Respublikası, 409
dövlətin gücü, 166-74; qüvvələr tarazlığı və, 238-49; dəyişən təbiəti, 227-9; təyinatı, 166-9; diplomatiya və, 209-13, 668-9; iqtisadi sinif və, 168, 168q; qeyri-sabitlik dövründə emosional gərginlik, 171-4; qiymətləndirilməsi, 222-35, 278-82, 643; coğrafiya və, 175-7;hökumət xarakteri və, 214-21; fərdi güc meyilləri və, 167-9; sənaye istehsalı potensialı, 185-7, 712-3; hərbi hazırlıq və, 188-92, 233-5; milli xarakter və, 201-3; milli əxlaq normaları və,196-203; təbii ehtiyatlar və, 177-85; maksimuma nail olmaq zərurəti, 282-9; fərdi ortaqlıq, 169-70; xarici siyasətə ictimai dəstək və, 216-20; əhali və, 192-6; dövlətlərin sayının azalması, 427-9; nisbi xarakteri, 225-7; üzərində məhdudiyyətlər, 300-4; ərazinin ölçüsü və, 277-8; Qərbi Avropanın birləşməsi və, 170-1
dövlətin gücünün qiymətləndirilməsi, 222-35; çətinliyi, 278-85; yeganə amil xətası, 230-5; gücün dəyişkən olması, 227-9; gücün nisbi olması, 225-7; vəzifəsi, 222-5; yanlışlıq nəticəsində müharibənin aparılması, 643
Dövlətlər hüquq (Vattel), 291, 378
döyüş gəmiləri, 492-3
Dred Skot məsələsi, 552
dünya birliyi, 623-40; iqtisadi və texniki yardım qurumları, 638-40; haqqında ingilis məktəbi, 738-9; Avropa Birlikləri və, 635-8; NATO və, 634-5; Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumları və, 623-33, 639. *Həmçinin bax:* dünya dövləti
dünya dövləti, 604-22; ölkədaxili sülh və, 605-13; ona ehtiyac, 604-5; ona ictimai dəstək, 615-7; məsələsi, 613-8; insan iradəsinin rolu, 613-4; dünya istilası və, 618-9
dünya ictimai fikri, 340-52; texnoloji unifikasiyanın iki tərəfi, 343-6; ona müraciət, 351-2; dünyanın psixoloji birliyinə inam, 342-3; millətçilik ona maneə kimi, 346-2. *Həmçinin bax:* ictimai fikir
Dünya Tərksilah Konfransı (1932), 488, 490, 498-9, 501-4, 506-9
dünyanın psixoloji birliyi, 342-3
Dyuri, Con, 78

elmi utopizm, 87-96, 91q, 96q
"Elmli insan", 710q
Economist jurnalı, 211
Efiopiya, 146, 251-2, 348, 385, 531-2
Emerson, Ralf Valdo, 92
emosiyalar, kollektiv, 171-4
empirizm, realizm və,713-4, 750, 752
Eşli, Riçard, 700-1
Eynşteyn, Albert, 753, 753q
Eyzenhauer doktrinası, 767

ədalət, beynəlxalq, 739-41. *Həmçinin bax:* beynəlxalq məhkəmələr
ədalətli müharibə, 464-5
Əfqanıstan, 90, 218, 769-70.
əhali, dövlətin gücü və, 192-6, 215
əks-ittifaqlar, 261-6
əks-qüvvə strategiyası, 517-8
əl-Qaidə, 759, 761
əməkdaşlıq, realizm və, 685-7
ən çox uyğunlaşanın mövcuduğunu qoruyub saxlaması, 157
enerji ehtiyatları: kömür, 180-1; nüvə, 184-5; neft, 181-5; 445
Ərəb Dövlətləri Liqası müqaviləsi (1945), 256
Ərəb-İsrail müharibəsi, 77, 457
ərzaq, dövlətin gücü və, 178-9, 481-2
əxlaq normaları, 153, 203-9. *Həmçinin bax:* milli xarakter
əxlaq normaları. *Bax:* beynəlxalq əxlaq normaları; mənəvi prinsiplər
əxlaq prinsipləri: yaşam standartlarında kəskin fərqlər, 157-8; Müqəddəs İttifaqda, 559; bütün əhalinin müharibədə iştirakı, 464-8; qüvvələr tarazlığına təsiri, 289-93, 290q; beynəlxalq zadəganlıqda; 319-22; müasir dövlət sisteminin mənəvi konsensusu, 294-7, 553-4; milli əxlaq normaları, 330-1; humanitar yardım öhdəlikləri, 159-60; siyasi realizm və, 57, 717; İkinci Dünya müharibəsindən sonra ABŞ-da, 442-5. *Həmçinin bax:* beynəlxalq əxlaq normaları

faşizm, *Bax:* Nasional Sosializm
federalizm: İsveçrədə, 619-20; ABŞ-da, 620-2
Feerqriv, Ceyms, 480
Fələstin, xalqın öz müqəddəratını təyin etməsi və, 162
feminizm, postmodernizm və, 720
Fenelon, Fransis, 291, 460-1, 464
fərdi təhlükə, 171-4
Finlandiya, 59, 149, 574
Finmor, Marta, 720, 722
Folklend adaları, 526
Foş, Marşal, 463-4
Fransa İnqilabı, 119, 292, 325, 331, 469. *Həmçinin bax:* Müqəddəs İttifaq
Fransa: Fransa Kommunistlərinin sədaqəti, 170; Rusiya ilə ittifaq (1894), 100; İkinci Dünya müharibəsindən sonra qüvvələr tarazlığı, 570-3; Dünya müharibələri arasında qüvvələr tarazlığı, 100, 286, 576; mədəni imperializmi, 122-3; gücünün süqutu, 186; Birinci Dünya müharibəsindən əvvəl siyasəti, 211; tərksilah danışıqları, 503-4; parçala və idarə et siyasəti, 250-1; Sovet İttifaqının Millətlər Cəmiyyətindən çıxarılması, 60; Dördüncü Fransa Respublikasının

suverenliyi, 409; Fransa-Prussiya müharibəsi, 109, 293, 671; Fransa İnqilabı, 119, 292, 325, 331, 469; Hapsburqlar və, 66, 162, 251-70, 272, 333; qüvvələr tarazlığının "tənzimləyici"si kimi, 268; sənaye istehsalı potensialı, 186-7; İtaliya-Efiopiya müharibəsi və, 531-2; Majino xətti düşüncələri, 190; hərbi xidmət, 467-8; milli xarakter, 197; milli əxlaq normaları, 204, 207-8; dövlətin gücü, Birinci Dünya müharibəsindən əvvəl, 225-7; neft diplomatiyası, 181; müharibələrdə həlak olmuş əhalisinin faiz göstəricisi, 417; nüfuz siyasəti və, 135-7, 140-141;əhalinin artımı, 193-4; xarici siyasətdə elmi formullar, 93-4; Dünya Tərksilah Konfransı, 498-9
Fransa-Prussiya müharibəsi, 109, 293, 671
Frid A.H., 93-4
Fridrix, Böyük, 190, 262, 279, 321, 466
Friport, Endrü, 111
Fukidid, 55, 84, 744-5, 745q, 751-2

Gents, Fridrix, 560-1, 564-5
geosiyasət, məktəbi, 230-1
gərginliklər, mübahisələr və, 542-4
Gərginliyin azaldılması, 451, 454-8
Gibbon, Edvard, 289-90, 290q
girovlar, İranda, 217-8
Gizo, Fransua, 321
görüntü, nüfuz və, 137-8
güc boşluqları, 115, 156
güc əleyhinə siyasət, 158q
güc. *Bax:* hərbi qüvvə; dövlətin gücü; siyasi güc
güzəştlər, ərazi, 252-3

Haaqa konvensiyaları, 311-3, 371
Haaqa sülh konfransları (1899 və 1907), 489-90, 652
Habermas, Yürqen, 722
Habsburqlar, 66, 162, 251, 261, 333
hakimiyyət, xarizmatik liderlik və, 78
Hamarşöld, Daq, 370, 593, 600
Hamilton, Aleksandr, 259, 410-2
Hart, Hornel, 481-2
Hauzhofer, general, 230
hava gücü, müharibədə, 189
Havana müqaviləsi (1901), 403-4
Hayd, Çarlz K. 359
həddindən çox məskunlaşma, ideologiyası, 157
Helsinki razılaşmaları, 114
Henri, VIII (İngiltərə kralı), 66, 260-1
Hərb və sülh (Tolstoy), 150-151, 205-6
hərbi imperializm, 119-21, 124
hərbi mükəlləfiyyət, 467-9
Hərbi qüvvə: silahlanmada qüvvələr tarazlığı, 252-3; hərbi mükəlləfiyyət, 466-9; diplomatiya və, 672-3; dövlətin gücünün onunla bərabərliyi, 233-5; həcminin artması, 467-9; sənaye istehsalı potensialı, 482-3; beynəlxalq polis qüvvəsi, 412-4, 535-7; rəhbərlik və, 190-1; muzdlu əsgərlər, 465-6; hərbi imperializm, 119-21, 124; hərbi hazırlıq, 188-90; milli əhval-ruhiyyə və, 203-6; nümayişindən doğan nüfuz, 140-2; silahlı qüvvələrin kəmiyyəti və keyfiyyəti, 191-2; xammal və, 180-1; texnologiya və, 188-90.
hidrogen bombaları, 515-6. *Həmçinin bax:* nüvə silahları
Hind-Çin müharibəsi: Soyuq müharibə siyasətləri, 768, 769-0; ABŞ-ın məğlubiyyəti, 440-1; mülki əhalinin həlak qətlə yetirilməsi, 316; sülh danışıqlarında nüfuz, 138; təbliğat, 421-3, 424-5;
Hindistan: müstəmləkə idarəetməsi altında, 403; Kəşmir məsələsində mübahisə, 545, 767; ərzaq təminatı, 178-9; mineral ehtiyatları, 185-6; əhalisi, 192, 194, 215
Hitler, Adolf: Çexoslovakiyanın birləşdirilməsi, 126-7, 148-9, 161, 443, 454, 540; ona qarşı gizli planın uğursuzluğu, 478q; dövründə Almaniya diplomatiyası, 212-3; mənəvi dəyərlərin çatışmazlığı, 308; milli əxlaq normaları və, 207; ekspansiyaya meyli, 110, 111. *Həmçinin bax:* Nasional Sosializm

Hobbs, Tomas, 116q, 411, 604, 611
Hobson, Con A., 107-8
Hökumət: qüvvələr tarazlığı, 241-4, 242q; xarici siyasət və, 220-1; milli əxlaq normaları və, 206-9; dövlətin gücü və, 214-1; totalitar, 123, 208, 551. *Həmçinin bax:* demokratik dövlət; beynəlxalq hökumət; dünya dövləti
Hol, RodniBryus, 722
Holşteyn doktrinası, 449
Höte, Yohan Volfqanq fon, 169
hücum-müdafiə tarazlığı, 693-4
Hull, Kordel, 81, 316
humanitar yardım öhdəlikləri, 159
hüquq, güc üzərində məhdudiyyət kimi, 300-4. *Həmçinin bax:* beynəlxalq hüquq
hüquqçuluq, 60
Hurrel, Endrü, 732, 737

icraetmə siyasəti, 117
ictimai fikir: dünya ictimai fikrinə inam, 340-52; diplomatiya və, 656-9, 673-4; xarici dövlətlərin, 220-1; milli suverenlik haqqında, 413; dinc dəyişiklikdə rolu, 549-50; xarici siyasətə dəstəyi, 216-20; texnologiya və, 343-6. *Həmçinin bax:* dünya ictimai fikri
idealizm, 716-23; 724-5, 740-1
İdeologiya və utopiya (Manhaym), 150q
ideologiya. *Bax:* siyasi ideologiya
İkinci Dünya müharibəsi: ondan sonra qüvvələr tarazlığı, 275; ondan sonra müstəmləkə inqilabları, 438-40; istənilən şeyin müqabilində uzaq durmaq istəyi, 313-4; dinc insanların kütləvi şəkildə məhv edilməsi, 315, 469-70; milli həmrəylik və, 169-70; anti-imperializmin rolu, 158; orduların ölçüsü, 469-70
İkinci Haaqa Sülh Konfransı (1907), 489-90
ikiqütblü sistem, 445-61; Soyuq müharibənin davamı, 447-8; gərginliyin azaldılması və sülh şəraitində birgə yaşamaq, 454-61; hərəkətlilik diplomatiyası, 448-54; Çinin rolu, 446-7, 451-2; ona meyil, 429-31
immiqrasiya, dünya dövləti və, 617
imperializm, 103-33; Amerika, 105-6, 116-7; antiimperializmdən, 158-9; Balkan məsələsi və, 437; Britaniya, 104-5, 438-9;kapitalizm və, 107-8, 111; müstəmləkə, 115, 156-7, 157q, 251-2, 435-440; mədəni, 122-3, 122q; təyinatı, 104; müəyyən edilməsi və qarşısının alınması, 125-33, 643; iblis nəzəriyyəsi, 107-8; iqtisadi, 119-20; iqtisadi nəzəriyyələri, 123-4; Almaniya, 113-5, 125-7, 131-2, 157, 164; məqsədləri, 115-8; ideologiyalar və, 128-30, 156-60; imperialist müharibələr, 285-6; meyil, 113-5; beynəlxalq məhkəmələr və, 539-40; İtaliya, 112; Yaponiya, 112; lokallaşdırılmış, 117-8; hərbi, 118-9, 124; haqqında yanlış təsəvvürlər, 104-6; qarşılıqlı qorxu, 127-30; neqativ anlayış kimi, 103-4, 103q; qeyri-imperialist ekspansiya, 131-2; Roma, 105, 113-4; Rusiya, 117-8, 123; dünya imperiyası və, 259-61, 476-9
imperializmə dair iblis nəzəriyyəsi, 107-8
İndoneziya, 768, 771-2
inflyasiya, Almaniyanın qeyri-sabitliyi, 172
"ingilis məktəbi və Amerika realizmi" (Litl), 732-41
İngiltərə, *bax:* Böyük Britaniya
İngiltərə-Almaniya Dəniz razılaşması (1935), 493, 496-7, 506
İngiltərə-Amerika İttifaqı, 253-8
İngiltərə-İran Neft Şirkəti, 547
insan hüquqları: konstruktivizm və, 721, 723; xarici siyasət və, 218, 337-8; beynəlxalq əxlaq normaları və, 334-9
insan təbiəti, siyasi nəzəriyyə və, 17-8, 61-2, 713, 741-3, 753-4
institusional arbitraj, 365-6
institusionalizm: kollektiv təhlükəsizlik nəzəriyyəsi, 687, 696-9; tənqidçi nəzəriyyə, 687, 699-704, 699q; liberal institusionalizm nəzəriyyəsi, 687-96, 688q, 689q, 719-20; realizm ilə müqayisəsi, 677-8, 686-7. *Həmçinin bax:* institutlar, beynəlxalq

institutlar, beynəlxalq: güc münasibətləri üçün səhnə kimi, 586-7; təyinatı, 679-80, 679q, 680q. *Həmçinin bax:* institusionalizm; *xüsusi institutlar altında*
İordaniya, 453
iqtisadi böhran (1929), 173-4
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), 691
iqtisadi imperializm, 119-21, 124
iqtisadi sinif: zadəganlıq, 318-22, 325-8; milli əxlaq normaları və, 207-8; dövlətin gücü və, 168, 168q
iqtisadi siyasətlər: iqtisadi imperializm, 119-21, 124; yaşam standartlarında kəskin fərqlər, 158-60; siyasi gücün aləti kimi, 79-80; "tək səbəb üsulu", 93; qeyri-imperialist ekspansiya, 131-2
İran: İngiltərə-İran Neft Şirkəti, 547; müstəmləkə təsir dairələri, 252; uğrunda Rusiya və Böyük Britaniya arasında rəqabət, 119-20, 245, 252; Mussədiqin devrilməsi, 766; Şahı devrilməsi, 70-1; tutduğu ABŞ əsirləri, 596
"İraq təcrübəsi" (Krou), 755-63
İraq: kənd təsərrüfatı, 179; Bağdad Paktı və, 768, 770; ABŞ tərəfindən işğalı, 755-63
irqçilik, gücün yanlış anlaşılması və, 231-3
irriqasiya, 179
İsgəndər, Böyük, 110
İspaniya Vətəndaş müharibəsi, 574
İspaniya: Vətəndaş müharibəsi, 574; meşəsizləşməsi, 179; coğrafiya və, 176: Latın Amerikasında təsiri, 132; nüfuz siyasəti və, 137; İspaniya-Amerika müharibəsi, 87, 109, 326; ABŞ-ın İraqı işğal etməsi və, 758
İspaniya-Amerika müharibəsi, 87, 109, 326
İspaniyanın mirasi uğrunda müharibə, 251, 270
İsrail: Ərəb-İsrail müharibəsi (1973), 76, 457; xalqın öz müqəddəratını təyin etməsi, 161-162; Misir ilə sülh razılaşmaları, 453; ABŞ-ın rolu, 453
İsveç, 154, 262, 272, 428, 578
İsveçrə: federal dövlətin yaradılması, 619-20; ixrac siyasəti, 79; beynəlxalq konfranslar, 139; imperializmin olmaması, 131-2; status-kvo siyasəti, 154; piyadalardan istifadə, 188
İtaliya: Efiopiyaya hücum,146, 341, 348, 531-2; Birinci Dünya müharibəsindən sonra qüvvələr tarazlığı, 578; coğrafiya və, 176; tarazlığın "tənzimləyici"si kimi, 268; imperializmi, 112; işğalı, VIII Karl, 188; milli əxlaq normaları, 204; Birinci Dünya müharibəsindən əvvəl öhdəlikləri, 280; blef siyasəti, 146; Türkiyə-İtaliya müharibəsi, 109; birləşdirilməsi, 427; XIV və XV əsrlərin müharibələri, 462-3. *Həmçinin bax:* Mussolini, Benito.
İtaliya-Efiopiya müharibəsi, 146, 341, 348, 531-2, 574;
ittifaqlar, 253-66; *ad hoc*, 258q; zadəganlar arasında, 319-22; İngiltərə-Amerika, 253-8; Atlantik, 450, 759; Ox dövlətləri, 266; Balkan məsələsi və, 437; kollektiv təhlükəsizlik və, 266; əks-ittifaqlar, 261-266; mənfəətin bölgüsü, 257; XVIII əsr Avropasında, 261-3; qüvvələr tarazlığında uyğunlaşma, 428-9; ümumi təbiəti, 253-9; tarazlığın "tənzimləyici"si, 267-72, 432-5; təmsil olunan maraq formaları, 255; Yeni Müqəddəs ittifaq, 560-2, 564; fəaliyyət göstərən və fəaliyyət göstərməyən, 258-9; siyasi realizm və, 685; status-kvonun qorunub saxlanması, 98-101; Birinci Dünya müharibəsindən əvvəl, 66; Dördlər İttifaqı, 558-60; Üçlər İttifaqı, 128, 265; dünya ağalığına qarşı, 259-61; iki Dünya müharibəsi arasında, 98; *həmçinin bax:* Müqəddəs İttifaq; müqavilələr

Kalhon, Con S., 86, 410
Kamboca, soyqırım,337-8, 697
Kanada: ABŞ ilə tərksilah razılaşması, 492, 495; əhalisi, 193; uran, 181, 185
Kanninq, Corc, 264-5, 275, 560, 562-6
Kant, İmmanuel, 722
kapitalizm: imperializm və, 107-108, 111; müharibə və, 111-2
Karfagen sülhü, 113
Karr, E.H., 709, 716-20, 724-5, 739-40
Karter, Cimi, 217-9, 454, 494
Kasleri, Robert S., 559-60, 563-4
Katon, 309
Kelmanso, Corcz, 181, 308-9, 327
kənd təsərrüfatı məhsullarının istehsalı, total müharibə və, 480-1
Kennedi, Con F., 102
Kenon, Uolter B., 239q
Kəşmir, 545, 767
Kioheyn, Robert, 692, 692q, 695q
Kirk, Qreyson, 63-64
Kissincer, Henri, 457, 515
Kobden, Riçard, 81, 81q
Koks, Robert, 703, 703q
Koleric, Samuel Teylor, 196
kollektiv emosiyalar, 171-4. *Həmçinin bax:* ictimai fikir
kollektiv özünümüdafiə, 388-9
Kollektiv Tədbirlər Komitəsi, 392-3, 588
kollektiv təhlükəsizlik,379-93, 524-35; qüvvələr tarazlığı və, 266; kollektiv özünümüdafiə, 388-9;şəxsi marağın dərəcəsi, 526-8; institusionalist nəzəriyyə kimi, 687, 696-9; beynəlxalq polis qüvvəsi, 535-7; İtaliya-Efiopiya müharibəsi və, 531-2; Koreya müharibəsi və, 532-5; Millətlər Cəmiyyəti və, 380-5, 380q-3q; status-kvonun qorunub saxlanılması, 525-6; tələbləri, 525;total müharibə, 529-30; Birləşmiş Millətlər Təşkilatı və, 385-9; "Sülh uğrunda birləşmə" qətnaməsi, 391-3, 588. *Həmçinin bax:* beynəlxalq hüquq
Kolombo planı, 638
kommunikasiyalar: Sovet İttifaqı və Çin arasında rəqabət, 122; diplomatiyada, 545-6, 656-9, 664; mexanikləşməsi, 475; müharibədə, 476-7. *Həmçinin bax:* təbliğat
kommunizm: Fransa kommunistlərinin sədaqəti, 169-70; bərabərlik çağırışı, 422; mədəni imperializm, 121-2; imperializmin iblis nəzəriyyəsi, 107-8; imperializm xofu və, 129-30; polisentrizm, 170.
kömür, səmərəsi, 185, 480
Konqo, 185, 769
Konstantinopol, 157, 471
Konstitusion hökumətin yüksəlişi və süqutu (Smit), 241q
Konstitusiya razılaşması (1787), 621-2
konstruktivizm, 704-1; təyinatlar, 706-12; idealizm və, 716-23; realizm və, 712-6; realist, 723-6
Koreya müharibəsi: qüvvələr tarazlığı və, 249; Soyuq müharibə çəkindirmə siyasəti, 766; kollektiv təhlükəsizlik və, 532-5; dövründə təmkinlilik, 314; Birləşmiş Millətlər Təşkilatının rolu, 391-2, 660; ona qarşı dünya ictimai fikri, 350
Korfu, 574
Krasner, Stifen, 691
Krau, Uilyam J., Jr., 754-63
Krım müharibəsi (1854-56), 109, 265, 288, 567
Kuba raket böhranı, 101-2, 454
Kuba, 101-2, 403-4, 454
kütləvi qırğın, 309-10, 337-8

Laos, 593
Latın Amerikası: Argentina, 536; Britaniya qüvvələr tarazlığında, 263-4; Cako müharibəsi, 108, 384, 574; Çili, 769; gücün daimi olmaması, 228; İspaniyanın təsiri, 132; Monro Doktrinası, 66, 101-2, 117, 254, 263; əhalinin artımı, 195; iki bloklu sistem, 430-1. *Həmçinin bax:* Mərkəzi Amerika; *ayrı-ayrı ölkələr*
Lauterpaxt, H, 367, 379, 385
Lenin V.İ. 69
Leqro, Cefri, 709, 715q
Leviafan (Hobbs), 116q, 411, 604, 611
Li Mey, Kurtis, 516
Li, Homer, 89
liberal institusionalizm, 679q, 687-96,

689q. *Həmçinin bax:* institutlar, beynəlxalq
liberalizm, 716-23, 717q
liderlik, xarizmatik, 78
Lind, Robert S., 89
Linkoln, Abraam, 338-9
Lipman, Uolter, 346-7
Litl, Riçard, 732-41
Litva, 573
Livan, 593
lokallaşdırılmış imperializm, 117-8
Lokarno müqavilələri (1925), 572
Lokarno paktı, 378
London Dəniz Konfransı (1935-36), 493
London konfransı (1831), 293
London müqaviləsi (1930), 508
London protokolu (1936), 313
Loxer, Bircit, 720
Lüdovik, XIV (Fransa kralı), 116, 136, 261, 268
Lüdovik, XV (Fransa kralı), 322
Lumumba, Patris, 769

Maarifləndirmə prinsipləri, 742
Macarıstan, 268, 454
Majino xətti, 190-191
Makedoniya imperiyası, 132,
Makiavelli, Nikolo: daxili və xarici siyasi düzən, 744; XV əsr döyüşləri, 462-3; realizm və, 745-6
Makinder, Halford, 230-1
MakKartizm, 54
MakNamara, Robert S. 517-8
Manhaym, Karl, 150q
Manhetten layihəsi, 184
Marksizm: nifaqın kökü kimi kapitalizm haqqında, 80-2; imperializm nəzəriyyəsi, 59-60. *Həmçinin bax:* kommunizm
Markus, Herbert, 87
Martin, Çarlz E., 63-4
Mastanduno, Mişel, 692
materializm, 704-5
məcburiyyətsizlik qeyd-şərti, beynəlxalq hüquqda, 367-70
mədəni imperializm, 121-4, 121q
mədəniyyət, 196-8, 625
Medison, Ceyms, 243, 410-2
Məhbusların dilemması oyunu, 689, 689q
məhkəmə funksiyası: mübahisələr və gərginliklər, 541-4; beynəlxalq hüquqda; 364-74; hüdudları, 545-8; təbiəti, 538-40. *Həmçinin bax:* beynəlxalq məhkəmələr.
məhkəmə qərarı: təyini, 366q; yurisdiksiyası və hüdudları, 370-2, 539. *Həmçinin bax:* beynəlxalq məhkəmələr.
Meri (Macarıstan kraliçası), 268-9
Mərkəzi Amerika: Soyuq müharibə siyasəti, 769; İspaniya tərəfindən mədəni müdaxilə, 132; iqtisadi imperializm, 120; Monro doktrinası, 71, 101-2, 117, 254; ABŞ-ın siyasi gücü, 78-9, 119; nüfuz siyasəti və, 139. *Həmçinin bax:* Latın Amerikası: *ayrı-ayrı ölkələr*
Mərkəzi Təhqiqat Bürosu (CİA), 307
Merşaymer Con C., 677-704, 720-1
Metternix, Prins fon, 90, 136, 564
mexanikləşmə, *Bax:* texnologiya
militarizm, 233-5, 234q
Mill, Con Stüart, 241q, 292, 613-4
millətçi universalizm, 416-26; diplomatiya və, 654-5; XIX əsr millətçiliyi və, 417-8; təbliğatın prinsipləri, 420-6; təbliğatın istifadəsi, 418-20; milli əxlaq normaları, 203-9; ideologiya və, 153; qeyri-sabitliyi, 203-6; cəmiyyət və hökumət bərabərliyi və, 206-9
millətçilik: dünya ictimai fikrində maneə kimi, 346-52; beynəlxalq cəmiyyətin dağılması və, 325-8; ideologiyası və əxlaqı, 153; beynəlxalq əxlaq normaları və, 328-9; mistikliyi, 231-3; XIX və XX əsrlərdə, 416-7; öz marağı naminə nüfuz və, 142-3; fövqəl qrup bağlılığı kimi, 605-8
Millətlər Cəmiyyəti, 567-79; müqavilələrə tövsiyələri, 553-7; beynəlxalq hüququn məcburi qüvvəsi və, 363-4; kollektiv təhlükəsizlik müddəaları, 380-5, 380q-3q; konstitusional zəifliyi, 574-5; diplomatiya və, 651; tərksilah müddəaları, 490; Sovet İttifaqının kənarlaşdırılması, 59, 663; ərazilərin hökumətləri, 573, 573q; beynəlxalq hüququn təfsiri və, 362; İtaliya-Efiopiya müharibəsi və, 385, 531-2, 574; təşkili, 568-70; siyasi zəifliyi, 578-9; status-kvonu qoruyub saxlaması, 99, 525-6, 570-3; suverenlik və, 406; struktur zəifliyi, 575-7. *Həmçinin bax:* Millətlər Cəmiyyətinin Nizamnaməsi
Millətlər Cəmiyyətinin Nizamnaməsi: 12-ci maddə, 380q; 13-cü maddə, 380q-1q; 15-ci maddə, 381q-2q; 16-cı maddə, 380-5, 380q; 17-ci maddə, 575-6; 19-cu maddə, 553-7, 570
milli əxlaq normalarının beynəlxalq əxlaq normalarına transformasiyası, 330-4; millətçiliyin beynəlmiləlçilik üzərində qələbəsi, 328-9; dünya ictimai fikri, 340-1. *Həmçinin bax:* əxlaq prinsipləri
milli suverenlik. *Bax:* suverenlik
milli xarakter, 196-203; mövcudluğu, 196-7; mistikliyi, 231-3; dövlətin gücü və, 201-3; Rusiya, 197
Misir: ərzaq təminatı, 179; İsrail ilə sülh razılaşmaları, 453; əhalinin artımı, 195
Mitreni, Devid, 629-30
Mobutu Sese-Seko, 769
Monro Doktrinası, 71, 71q, 101-2, 117, 254, 263
Monro, Ceyms, 66, 263
Moravsik Endrü, 709, 715q, 719, 719q
Morgentau, Hans: İngilis məktəbi və, 732-5, 735q; insanın təbiəti və, 742-5; İnduktivizm və, 752-4; güc haqqında, 746-8; realizmə verdiyi təyinlər, 708-12; "elmi insan" haqqında, 710q, 714-8; haqqında Skoukroft, 764-5; haqqında Telis, 741-54; dövlətlərin güc istəyi haqqında, 680q, 682q.
"Morgentau: güc uğrunda mübarizə siyasəti kimi" (Telis), 741-54
Morqan, Edmund S., 667
mübahisələr, gərginliklər və, 542-4
Mücahidlər, 769, 771
Müdafiə raketləri üzrə İlkin Razılaşma, 493-4
müdafiə realizmi, 684q
müharibə məhbusları, 310-13
Müharibə və Sülh hüququ haqqında (Qrotsi), 310, 355-6
müharibə: anti-imperialist, 285-6; kapitalizm və, 111-3; vətəndaş, 611-3; kollektiv təhlükəsizlik, 266, 380-9, 380q-3q, 696-9; hərbiçilər və hərbiçi olmayanlar, 311; doktrina və, 666-8; iqtisadi səbəblərdən, 108-9; imperialist, 285-6; imperializmə meyil, 114-5; sənaye, 294q-5q; sənaye istehsalı potensialı və, 186-7; ədalətli, 464-5; leqallaşdırılması, 574-5; məhdud, 462-4, 466-7, 467q; mexanikləşdirilməsi, 471-5; muzdlu əsgərlər, 466-7; mənəvi baxımdan pisləşməsi, 313-4; milli xarakter və, 201-2; milli əhval-ruhiyyə və, 203-9; milli suverenlik və, 412-4; siyasi məqsədi, 79-80; qətlə yetirilmiş əhali, 469-70; güc bölgüsü uğrunda, 108-13; preventiv, 284; əsirləri, 312; insan həyatının müdafiəsi, 310-3; xammal və, 180-1; haqqında elmi utopizm, 88, 91, 91q; texnologiya və anonimlik, 317; total, 314-8; nail olunmaz məqsədlər uğrunda, 643; "həyat tərzi" uğrunda, 333; ona qarşı dünya ictimai fikri, 347-50. *Həmçinin bax:* nüvə müharibəsi; sülh; *ayrı-ayrı müharibələr;* total müharibə
mülki əhalinin həyatı, müharibə zamanı, 310-1, 314-6
multilateral institutlar, 679q. *Həmçinin bax:* institutlar, beynəlxalq
Münhen razılaşması (1938), 67, 126, 161
müqavilələr: Millətlər Cəmiyyətinin tövsiyələri, 553-6; məcburi qüvvəsi, 362; dağınıq təbiəti, 358-9; təminat müqavilələri, 377-9; suverenlik və, 399-400. *Həmçinin ayrı-ayrı müqavilələrə görə*
Müqəddəs İttifaq müqaviləsi (1815), 256, 256q, 292, 558-9. *Həmçinin bax:* Müqəddəs İttifaq

Müqəddəs İttifaq, 558-566; Xristian prinsipləri, 292; böyük dövlətlərin hökuməti kimi, 559-60; tarixi, 558-60; ideoloji ittifaq kimi, 256, 256q; milli maraqlar və, 562-6; Fransa İnqilabına cavab kimi, 286, 292; status-kvo kimi, 99, 565-6; müqavilələr, 558-60
Mussolini, Benito, 116, 142-3, 164
müstəmləkə imperializmi: müstəmləkə inqilabı, 438-40; aradan qalxması, 435-8; iqtisadi əhəmiyyəti, 157q-8q; ideoloji xarakteri, 156-7, 157q; güc boşluqlarının olduğu ərazilər, 115; texnoloji çatışmazlıq və, 182; ərazi güzəştləri, 251-2. *Həmçinin bax:* imperializm
müstəqillik, suverenlik və, 396-7, 400
muzdlu əsgərlər, 465-6

Napoleon I: Metternix və, 136; hərbi imperializmi, 110-1; imperializmdə məqsədi, 119-20; Papa ilə nisbətdə nüfuzu, 135-6; ekspansiyaya meyli, 116
Napoleon III, 489, 672
Napoleon müharibələri: qüvvələr tarazlığı və, 255, 260-1, 287-8; ondan sonra vətəndaşların dövlətin gücünə ortaq olması, 169; kommunikasiya, 478; istilasının uğursuzluğu, 618; ondan sonra Müqəddəs İttifaq, 99, 558-66; milli əxlaq normaları, 330-1; həlak olmuş insanların faizi, 469-70
Naqasaki, 190, 516
Nasional Sosializm: irqi nəzəriyyələrin qəbulu, 420-1; kommunizmə qarşı seçim kimi, 441; mədəni imperializmi, 121; fərdin onunla ruhi ortaqlığı, 172; imperializm ideologiyası, 156-7; beynəlxalq anlayışı, 627-8; Versal Müqaviləsinin süqutu və, 131; universal əxlaq normalarının məcəllələşdirilməsi kimi, 332. *Həmçinin bax:* Hitler, Adolf
Nasist Partiyası. *Bax:* Nasional Sosializm
NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı): ənənəvi müdafiələri, 521-2; gərginliyin azaldılması dövründə, 456; realist düşüncə və, 686-7; strukturu və mahiyyəti, 634-5
Nay Komitəsi, 108
Neft: Cako müharibəsi və,108, 574; 1973-74-cü illər embarqosu, 181-2; neft diplomatiyası, 119-121, 181-2; siyasi gücü, 181-5
Nehru C., 545
nəqliyyat, müharibədə, 474-5, 477-8
Neybur, R. 739-40
Nikson, Riçard M., 140, 454
nisbi qazanclar məntiqi, 688-93
Noel-Beyker, Filip, 82
normalar, qaydalar və, 679q
normativ sistemlər və dövlətin gücü, 300-4, 679q
Norveç, 154
Norviç, Lord, 220q
nüfuz siyasəti, 134-49; mərasim formaları, 135-40; təhrifləri, 145-9; hərbi qüvvənin nümayişi və, 140-2; ona etinasızlıq, 134;məqsədləri, 142-5
Nümayəndəli hökumət haqqında düşüncələr (Mill), 241q, 294q-5q, 613-4
Nürmberq məhkəmələri, 362-3
nüvə müharibəsi: nüvə silahlarının əlçatılan olması və, 76-8; əks qüvvə strategiyası, 517-8; coğrafiya və, 177; dərəcəli çəkindirmə, 516-7; məhdud, 522; mənəvi məhdudiyyətlər, 312-3, 329; qarşılıqlı məhv, 189-90; milli dövlət və, 453-4; kütləvi qırğın imkanı, 473-4; onda "üstünlük", 68; taktiki, 520-1; ona münasibətdə kəskin qeyri-müəyyənlik, 68, 72, qələbə və məğlubiyyət, 518-9. *Həmçinin bax:* nüvə silahları
nüvə silahları: nüvə dövlətləri arasında ittifaq, 259; silahlara nəzarət vasitələri, 511-2; milli dövlətlər tərəfindən nəzarət, 184-5; əks qüvvə strategiyası, 517-8; aradan qaldırılması, 508-9; hidrogen bombaları, 516; beynəlxalq nəzarət, 404-5; strateji üstünlüyün əhəmiyyətsizliyi, 515; dövlətin gücü, 189-90; dünya imperiyasının qurulması ehtimalı və, 479; kütləvi qırğın ehtimalı, 473-4, 511, 514; qüvvənin nümayişi kimi sınaqdan keçirilməsi, 140-1; qeyri-sabitliyi, 218-9. *Həmçinin bax:* nüvə müharibəsi.
Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (1970), 512
Nyusom, Devid D., 765-72

Oman, Çarlz, 462q
On Dörd maddə (Vilson), 153, 346-7, 651
Onuf, Nikolas, 720
Openhaym, L., 357, 357q, 379
Orta Şərq müharibəsi (1973), 183-4
Orta Şərq: Ərəb dövlətləri və İsrail, 77, 162, 453, 457; Böyük Britaniya, 119; neft və, 181-5, 444-5, 546-7; ABŞ-ın rolu, 453-63, 761. *Həmçinin bax: ayrı-ayrı dövlətlərə görə*
Osmanlı İmperiyası, 265
Otuzillik müharibə, 262, 276, 394
Ox dövlətləri ittifaqı, 266

öz müqəddəratını təyinetmə, 161-2, 231, 231q, 578,

Pakistan, 256, 545, 761, 767
Panama kanalı, 102
papalıq, nüfuz siyasəti və, 135-136
Paraqvay, 108, 384-385, 574
parçala və idarə et qaydası, 250-251
Paris Bəyannaməsi (1856), 312
pasifizm: imperializmə dair iblis nəzəriyyəsi və, 107-8; status-kvo ideologiyası kimi, 154-5; elmi utopiaçılıqda, 89-92, 91q. *Həmçinin bax:* sülh
Paskal, Bleyz, 328-9
Patomaki, Heikki, 714
Pauel, Robert, 691q, 693-5
Perl Harbora hücum, 148
Persiya. *Bax:* İran.
Peyn, Tomas, 336
Pitt, Uilyam, 69
Platt dəyişikliyi, 403
Polib, 259-260
polis qüvvəsi, beynəlxalq, 412-4, 535-7
polisentrizm, 170
Polşa: Birinci Dünya müharibəsindən sonra ittifaqlar, 266; ona qarşı ildırım sürətli müharibə, 115, 143, 191; coğrafiya və, 177; xalqın öz müqəddəratını təyin etməsi və, 160-1; bölüşdürülmələri, 251, 273, 276; Vilnanın istila etməsi, 573-4; ABŞ-ın yardımı, 80; ABŞ-ın İraqa hücumu və, 757-8
Portuqaliya, 119, 258
postmodern konstruktivizm, 707-8
postpozitivizm, 713-4
Potsdam konfransı (1945), 137, 542
Poun, Din Rosko, 325
pozitivizm, realizm və, 713-4
preventiv (qabaqlayıcı) müharibə, 284
Proust, Marsel, 166
Prudhon, Pyer-Jozef, 81, 81q, 88
Prüql, Elizabet, 720
Prussiya: Bismarkın lokkalaşdırılmış imperializmi, 117; Avropa Konsertində, 292-3; hərbi mükəlləfiyyət, 468; Avropa qüvvələr tarazlığı və, 272-4, 286-7, 435; Fransa-Prussiya müharibəsi, 109, 293, 671; hərbi qüvvəsi, 190
Puerto Riko, 78
pulemyot, təsiri, 473
Pun müharibələri, 176

qanunvericilik orqanları, vasitəsilə dinc dəyişiklik, 550-1, 553-4
Qardner, Paul, 768
qarışmamaq, 549
Qərbi Almaniya. *Bax:* Almaniya
Qırmızı kxmerlərin törətdiyi soyqırım, 337-8
qitələrarası ballistik raketlər (ICBM), 493-4
Qoşulmamaq, 767
Qranvil, lord, 69
Qrenada, 526
Qrey, Edvard, 60
Qriko, Jozef, 688-9, 689q
Qrotsi, Hüqo, 310-311, 355-356

Quç, G. P., 325
Quruda müharibə qaydaları və adətlərinə hörmət haqqında Konvensiya (1899 və 1907), 363
Qustav, Adolf (İsveç kralı), 78
qüvvələr tarazlığı: İkinci Dünya müharibəsindən sonra, 440-3; silahlanmada, 252-3; bioloji müvazinət ilə müqayisədə, 239, 239q; ikiqütblülük, 429-31; Soyuq müharibədə, 447-52; kompensasiyalar, 251-2; rəqabət forması, 246-9; təyin olunması, 238q; gərginliyin azaldılması və, 454-61; birbaşa müxaliflik forması, 249-51; müstəmləkələrin yox olması, 435-8; parçala və hökmranlıq et üsulu, 250-1; daxili siyasətdə, 241-244; hakim və asılı sistemlər, 272-4; XVIII əsr Avropasında, 261-3; İngilis məktəbi, 734-5; Avropa birlikləri və, 635-8; qiymətləndirilməsi, 276-97; "tənzimləyici"si, 267-71; ideologiya kimi, 287-9; imperialist və əks-imperialist müharibələr, 255-6; uyğunlaşa bilməməsi, 427-31; beynəlxalq hüquq və, 357, 357q; Koreya və, 249; mənəvi həmfikirlik və, 289-93; qarşılıqlı zəmanətli məhv və, 513-6; Napoleon müharibələri və, 254, 260-1; qabaqlayıcı müharibə və, 284; Birinci Dünya müharibəsindən əvvəl, 264-6, 281-2, 284; oyunçuların sayının azalması, 427-9; məhdudiyyətlər, 300-4; struktur dəyişiklikləri, 274-5; Üçüncü Qüvvə, 433-5; hesablamalarda əminsizlik, 277-82; universal anlayış kimi, 238-40; qeyri-reallığı, 282-6; Dünya müharibələri arasında, 570-3, 578-9. *Həmçinin bax:* ikiqütblü sistem; Soyuq müharibə; dövlətin gücü
Qvatemala, 769

Ragi, Con Cerard, 721
raket əleyhinə müdafiə sistemləri (ABM), 493, 519
Raş-Baqot razılaşması, 488, 492, 495
rasionalist fəlsəfə, 95-6, 709-10, 746-8
Rassel, Con, 229
Rayt, Kuinsi, 296
realist konstruktivizm. *Bax:* konstruktivizm
"Realist konstruktivizm" (Barkin), 704-31
realizm, 48. *Həmçinin bax:* siyasi realizm
rejimlər, 679q. *Həmçinin bax:* institutlar, beynəlxalq
Rendolf, Con, 240
rəqabət, və qüvvələr tarazlığı, 246-9
respublikaçı liberalizm, 719q
Rey, Jan, 362, 575
Reyqan administrasiyası, beynəlxalq məhkəmə və, 368-9
Roberts, P.E., 120
Robespyer, Maksimilian, 50
Roma imperializmi, 105, 113
Roma imperiyası: daxilində birləşmə, 618; Karfagen məsələsi, 113, 309; imperializm, 105, 113; nüfuz siyasəti, 144-5
Roma İmperiyasının Tənəzzülü və Süqutu (Gibbon), 290q
Rumıniya, 100, 119, 211, 266
Rusiya İnqilabı, 69, 332
Rusiya: Birinci Dünya müharibəsindən əvvəl ittifaqlar, 280, 284; Fransa ilə ittifaq (1894), 100; Avropa Konsertində, 293; Krım müharibəsi və, 288; Böyük Britaniya ilə tərksilah danışıqları, 489-90; coğrafiya və, 176; imperializmi, 117, 122-3, 157; beynəlxalq arenada anlaşılması, 627; İran və, 120-1, 252; səfərbərlik, 142; milli xarakteri, 198-201; milli əxlaq normaları, 332; milli əxlaq normaları, 204; nüfuz siyasəti və, 140-2; əhalisi, 194; ictimai fikir dəyişiklikləri, 349; Rusiya inqilabı, 69, 332; rus-yapon müharibəsi, 109; Türkiyəyə qarşı müharibə, 564. *Həmçinin bax:* Sovet İttifaqı
Russo, Jan Jak, 291, 458
rüşvət, 319-20
rus-yapon müharibəsi (1904-05), 109
Ruzvelt, Franklin D., 101, 653
Ruzvelt, Teodr, 101,

Saar hövzəsi, 573, 573q
SALT (Strateji Silahların Azaldılması Müqaviləsi), 456, 488-9, 493, 497, 512
SALT İİ (Strateji Silahların Azaldılması Müqaviləsi II), 488-9, 514-5
Samner, Uilyam Qraham, 53, 86-7, 666
Sankt-Peterburq Bəyannaməsi (1868), 312
Satner, Berta fon, 89
Savimbi, Jozef, 769
səfərbərlik, nüfuz kimi, 141-2
Sənaye inqilabı, 483
sənaye istehsalının potensialı: dövlətin gücü və, 185-7; total müharibə və, 481-3
səngər müharibəsi, 190-1
Servantes, Migel de, 471
Sesil, Robert, 319
Səudiyyə Ərəbistanı, 453
Sikkins, Katrin, 720, 721q
silah sənayesi, 294q
silahlar, mexanikləşməsi, 471-3, 477. *Həmçinin bax:* nüvə silahları
silahlara nəzarət: silahlanma nisbətləri, 494-501; qüvvələr tarazlığı və, 252-3; gərginliyin azaldılması zamanı, 457; formal razılaşmalarla, 512-3; qarşılıqlı zəmanətli məhv və, 513-6; dağıdıcı optimal və, 511; status-kvo dövlətləri və, 285-6; yazılmamış razılaşma ilə, 512. *Həmçinin bax:* tərksilah
silahlı qüvvələr. *Bax:* hərbi qüvvə
sivilizasiya, idarəetmə qaydaları, 303-4
siyasət "elm"i, 746-7
siyasi əxlaq normaları, 57
siyasi güc, 74-96; Amerika təcridçiliyi və, 85-7; dəyişən təbiəti, 227-9; xarizmatik liderlik və, 78; motivasiyaların anlaşılması və, 98q; təyinatı, 75-6; dəyərini itirməsi, 80-2; ağalıq kimi, 56; iqtisadi siyasətlər aləti kimi, 79-80; qüvvə və, 76; onunla tarazlaşdırılan xarici siyasət, 214-5; imperializm və, 103-33; təsir və, 76; qanuni və qanunsuz, 77, 78q; dövlətin məqsədlərinin vasitəsi kimi, 74-5; haqqında XIX əsr fəlsəfəsi, 85; neft ehtiyatları və, 181-5, 444-5; püralist cəmiyyətlərdə, 56; status-kvo siyasəti, 97-102; nisbi xarakteri, 225-7; elmi utopizm və, 87-96; ağalıq etmək meyli və, 82-4, 82q; universallığı, 81-4; istifadə olunan və istifadə olunmayan, 76-7; könüllü təslimi, 98q. *Həmçinin bax:* qüvvələr tarazlığı; dövlətin gücü
siyasi ideologiya, 150-64; ikili təbiəti, 160-3; qüvvələr tarazlığı onun kimi, 287-9; bioloji, 157; diplomatiya və, 666-8; imperializm və, 128-30, 156-60; fərdi güc arzusu və dövlətin güc arzusu, 152-3, 167-9; təbiəti, 150-3; qəbul edilməsi problemi, 163-4; status-kvonun, 154-5
siyasi realizm, 47-62; mütləq və nisbi qazanclar və, 684-6, 688-95, 692q-3q; beynəlxalq sistem haqqında təsəvvürlər, 49-55, 680-2; kollektiv təhlükəsizlik nəzəriyyəsi ilə müqayisəsi, 687, 696-9; konstruktivizm və, 704-31; əməkdaşlıq və, 684-6; tənqidçi nəzəriyyə ilə müqayisəsi, 687, 699-704, 699q; müdafiə, 684q; təyinatı, 708-12;İngilis məktəbinə qarşı, 732-41; insan təbiəti və, 47-8, 61-2; induktivizm və, 752-4; institusionalizm ilə müqayisəsi, 677-8; institutlar və, 684-7; güc kimi təyin olunan maraq, 49-55; beynəlxalq ədalət və, 739-41; beynəlxalq cəmiyyət və, 735-8, 738q; qanunçu-əxlaqçı yanaşma və, 58-61;liberal institusiomalizm ilə müqayisəsi, 679q, 687-96, 689q; əxlaq prinsipləri və, 57, 718; millətçi və universal əxlaq normaları, 57-8; cəmiyyəti idarə edən obyektiv qanunlar, 48-9; davranış formaları, 682-3; marağın siyasi və mədəni kontekstləri, 55-7; Soyuq müharibədən sonrakı, 734; dünya cəmiyyəti və, 738-9
Skoukroft, Brent, 764-5
Smit, Adam, 87-8
Snidal, Dunkan, 241q
Solisberi, Con, 84
Sombart, Verner, 157
sosial qeyri-sabitlik, 171-4

sosial sinif: zadəganlıq, 319-22, 325-8; milli əxlaq normaları, 207-8; dövlətin gücü və, 168, 168q
sosial tarazlıq, 238-244. *Həmçinin bax:* qüvvələr tarazlığı
Sovet İttifaqı: Avropada qüvvələr tarazlığı və, 450-1, 578-9; ABŞ ilə Soyuq müharibədə əlaqələri, 101-2, 454-5, 542-4; Çin ilə rəqabət, 122; Amerika imperializminin pislənməsi, 152-3; Kuba raket böhranı, 101-2, 454-5; mədəni imperializmi, 122; gərginliyin azaldılması və, 454-61; diplomatiya, 653-4; tərksilah danışıqları, 492; enerji resursları, 181, 185; dollar və rubl arasında mübadilə tarifi, 542-3; ixrac siyasəti siyasi siyasət kimi, 80; Millətlər Cəmiyyətindən kənarlaşdırılması, 59; coğrafiya və, 176-7; insan hüquqları və, 336-7; fərd ilə ortaqlığı, 173; sənaye istehsalı potensialı, 186; Şərqi Avropada təsiri, 79-80; Finlandiyanın işğalı, 59, 149, 385, 578; militarizmi, 233-4; milli əxlaq normaları, 207; dövlətin gücü, 227-229; nüfuz siyasəti, 148-9; Birləşmiş Millətlər Təşkilatı və, 588, 590-2. *Həmçinin bax:* Rusiya
soyqırım, Kambocada, 337-338
Soyuq müharibə: anti-imperialist məqsədləri, 164; Çin, 446, 451-2, 454-5; Atlantik İttifaqın həmrəyliyi, 450, davam etməsi, 446-7; zamanında ABŞ siyasətinin hazırki təsirləri, 765-72; gərginliyin azaldılması və, 454-61; tərksilaha dair danışıqlar, 456, 488, 494, 497-501, 512-3; ABŞ mənəvi süqutu, 440-45; ittifaqlara qoşulmama və, 766; nüvə silahları üzərində nəzarət, 511-4; nisbi qazanclara dair mülahizələr, 690-1; Almaniyanın yenidən birəşdirilməsi, 448-51; təbliğatdan istifadə, 419-20; nüfuzun silahları, 144
Stalin, Jozef, almanların cəzalandırılması haqqında, 310
stare decisis qaydası, beynəlxalq məhkəmələrdə, 358, 365
START (Strateji Silahların Azaldılması Danışıqları), 456, 488-9
status-kvo siyasəti, 97-102; barışıq və, 125-7; Britaniya imperializmi, 105; kollektiv təhlükəsizlik və, 525-6; məhkəmələr və, 551; Kuba raket böhranı və, 102; Müqəddəs İttifaq və, 561-3; ideologiya və, 154-5; Millətlər Cəmiyyəti və, 99-100, 525-6, 561-3; azlıq idarəetməsi və, 101-2; Napoleon müharibələri və, 99; sülh müqavilələri və, 98-99; *status quo ante bellum*, 98; ABŞ və, 101, 117, 442-3; qorunub saxlanması üçün müharibələr, 285-6. *Həmçinin bax:* kollektiv təhlükəsizlik
Strateji Silahların Azaldılması danışıqları (START), 456, 488-9
Strateji Silahların Məhdudlaşdırılmadı Müqaviləsi II (SALT II), 488-9, 514-5
Strateji Silahların Məhdudlaşdırılması Müqaviləsi (SALT), 456, 488-9, 493, 497, 512,
sualtı qayıqlar, 189
sui-qəsd əxlaqı, 307
"Sülh elmi", 90-1, 91q
sülh müqavilələri, status-kvo siyasəti və, 98-99. *Həmçinin bax:* müqavilələr
"Sülh uğrunda birləşmə" qətnaməsi, 391-3, 588
sülh: mədəni inkişaf və, 625; mədəni birlik və, 625-6; gərginliyin azaldılması və, 454-5; diplomatiya və, 642-4, 674-7; tərksilah və, 506-11; ölkə daxilində, 605-13; beynəlxalq anlaşma və, 627-9; insan həyatının müdafiəsi, 306-10; elmi utopiaçılıq və, 87-96, 91q; şəxsi maraq və, 294q; təbliğat aləti kimi, 162-3. *Həmçinin bax:* diplomatiya; tərksilah; pasifizm
super dövlətlər, 187, 221, 580-3
Suriya, 453
suverenlik, 394-414; bərabərlik və, 397-9; ümumi xarakteri, 394-7; müstəqillik və, 397-9; bölünməzliyi, 408-14; itirilməsi, 400-8; beynəlxalq təşkilatlarda

əksəriyyət səsverməsi və, 405-8; Orta əsrlərdə, 355; əlaqədar anlaşılmazlıq, 399-400; müharibənin qaçılmazlığı və, 413-4. *Həmçinin bax:* millətçilik
Süveyş böhranı (1956), 77, 385, 537

Şərqi Almaniya, *bax:* Almaniya
Şimali Atlantika Müqaviləsi Təşkilatı. *Bax:* NATO
Şinseki, Erik, 756
Şomon müqaviləsi (1814), 558-9, 559q
Şveler, Randal, 713

Taft, Uilyam Hovard, 137
taktiki nüvə müharibəsi, 520-1. *Həmçinin bax:* nüvə müharibəsi
Taleyran, Şarl Mauris, 169
tanklar, ixtirası, 189
"Tarixin coğrafi oxu" (Makkinder), 230-1
Tauni, R. H., 234q, 294q
təbii ehtiyatlar: ərzaq, 178-9; neft, 181-5, 444-5; xammal, 180-5
təbii hüquq doktrinası, 156
təbliğat: diplomatiya və, 658-9; tarixdə, 419; millətçi universalizmdə, 419-20; sülh onun kimi, 163; nüfuz siyasətində, 144; prinsipləri, 420-6
təcavüz, kollektiv təhlükəsizlik nəzəriyyəsi və, 696-7
təcrid edilmiş arbitraj, 365-6
təcridetmə, 85-6
təhlükəsizlik. *Bax:* kollektiv təhlükəsizlik
tək səbəb üsulu, 92-4
"Tək səbəb üsulu", 91-4
Telis, Eşli, 741-54
təminat müqavilələri, 377-9
Təminat müqaviləsi, 128
tənqidçi nəzəriyyə, 688, 699-702, 699q
tərksilah, 486-523; silahlanma nisbəti və, 494-501; qüvvələr tarazlığı və, 253; tam, 506-7; tarixi, 488-94; silahlar üzərində nəzarətin üsulları, 511-2; beynəlxalq nizam və sülhə ehtiyac, 487; nüvə silahları üzərində nəzarət, 511-23; sülh və, 506-11; kəmiyyət və keyfiyyət, 488; silahların azaldılması kimi, 504-6; İkinci Dünya müharibəsindən etibarən, 499-501; bölüşdürmə meyarları, 501-4; Dünya Tərksilah Konfransı, 488, 490, 498-9, 501-4, 506-1. *Həmçinin bax:* nüvə müharibəsi
terrorçuluqla müharibə, 758-61
terrorla müharibə, 758-60
təsir, güc və, 76
tətbiqi, 374-93; mövcudluğu, 356; ümumi xarakteri, 356-7; status-kvo ideologiyası kimi, 154-6; təfsiri və məcburi qüvvəsi, 361-4; məhkəmə funksiyası, 364-74; Millətlər Cəmiyyətinin Nizamnaməsi, 380-4, 380q-3q; mənbəyi, 354-5; suverenliyi və, 394-7, 399-400; təminat müqavilələri, 377-9; Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, 385-9. *Həmçinin bax:* beynəlxalq məhkəmələr; Millətlər Cəmiyyəti, Birləşmiş Millətlər Təşkilatı
Texniki yardım, 638-40
texnologiya: onunla unifikasiyaya inam, 343-6; kommunikasiyaların mexanikləşməsi, 475; nəqliyyatın mexanikləşməsi, 474-5; silahların mexanikləşməsi, 471-4; hərbi hazırlıq və, 188-90; total müharibə üçün təqdim etdiyi imkanlar, 470, 479-83
The Acquisitive Society (Tavni), 234q, 294q
The Federalist jurnalı, 240, 243, 621-2
ticarət: iqtisadi səbəblərdən, 79-80; nisbi qazanclar və, 691; dünya dövləti və, 617. *Həmçinin bax:* azad ticarət
Tokvil, Aleksis de, 216
Tolstoy, Lev, 150-1, 205-6
total ağalıq və, 479-83; total xalqlara qarşı, 469-70; nəqliyyat, 474-5; dünya imperiyası uğrunda, 476-9
total müharibə, 462-84; kommunikasiya, 475; mövcud insan enerjisi, 482-4; total əhalinin cəlb edilməsi, 464-8; beynəlxalq əxlaq normaları və, 314-8; məhdud müharibələr və, 462-4, 465-7, 467q; silahların mexanikləşməsi, 471-4;

total əhalinin iştirakı, 468-9; mövcud resurslar
totalitar hökumət: mədəni imperializmi, 122-3; milli əxlaq normaları və, 208; ictimai fikir və, 551
Toynbi, Arnold, 290, 436
Truman Doktrinası, 66
Trumen, Hari, 66
Türkiyə: Krım müharibəsi, 109, 265, 288, 567, 672; ərazi bütövlüyünə təminat, 378; Koreya müharibəsi və, 533; Prussiya ilə müqavilə, 272; Türkiyə-İtaliya müharibəsi, 109
Türkiyə-İtaliya müharibəsi (1911-12), 109

U Tan, 595
Uestleyk, Con, 318
Uiseltir, Leon, 520-1
Ultra vires nemo obligatur, 159
UNESCO (Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı), 623-9
Uolts, Kennet, 680q, 684, 709, 723
uran ehtiyatları, 180-1, 185
Urban II, 110
utopizm, 716-23
Utrext müqaviləsi (1713), 251, 262

Üç İmperatorun İttifaqı (1873), 256
Üçlər Antantası, 265
Üçlər İttifaqı, 128-9, 265
Üçüncü dünya, 443
Üçüncü qüvvə, qüvvələr tarazlığında, 433-5
Ümumi Bazar, 635

Valdhaym, Kurt, 596
Varşava Paktı, 520-2
Vaşinqton Dəniz Müqaviləsi (1922), 253, 492-3, 495-6, 504-5
Vaşinqton, Corc: Vida nitqi, 66, 85; ümumi hökumət prinsipi haqqında, 55-6; Avropa siyasətindən geri çəkilmə, 85-6; İnqilabi müharibə, 69
Vatson, Adam, 735
Vattel, Emerik, 291, 378
Vayner, Yakob, 111
Vayt, Kolin, 714
Vaythed, Con, 763
Veber, Maks, 56
Vendt, Aleksandr, 706, 712, 716-22
Venetsiya, 136, 268-9, 307
Versal müqaviləsi: tərksilah və, 490, 510; alman milli xarakteri və, 202; Almaniyanın onun yaratdığı status-kvonu dağıtması, 99, 131, 156; Almaniya yerinə yetirmə siyasəti və, 114-5, 117; xalqın öz müqəddəratını təyin etməsi və, 160-2
Vestfaliya müqaviləsi, 355, 427
veto səlahiyyəti: suveren dövlətlər arasında, 398-9; Təhlükəsizlik Şurasında, 389-91, 407
Viktoriya (kraliça), 229
Vilehlm, II (Almaniya imperatoru): beynəlxalq cəmiyyətin dağılması haqqında, 326; Fransa İnqilabı haqqında, 326; lokallaşdırılmış imperializm və, 117-8, 128-9; nüfuz siyasəti, 141
Vilna, Polşa tərəfindən tutulması, 573-4
Vilson, Vudro: gücü siyasətinin sonu haqqında, 81; On Dörd maddə, 153, 346-7, 651; xalqın öz müqəddəratını təyin etməsi haqqında, 161; universal əxlaq normaları və, 331, 336-7
Vintrop, Con, 667
Virciniya adaları, ABŞ tərəfindən ələ keçirilməsi, 102
Volfovits, Paul, 757-8
Voton, Henri, 319
Vouver, Ole, 738q
Vyana konqresi, 90
Vyetnam müharibəsi: Soyuq müharibə siyasətləri və, 768, 770-1; ABŞ-ın məğlubiyyəti, 440-1; problemlərin şəxsiləşdirilməsi, 54; sülh danışıqlarının nüfuzu, 138; təbliğat, 422-5

xalqın öz müqəddəratını təyin etməsi: imperializm və, 160-1; Millətlər Cəmiyyəti və, 578-9; mənəvi konsensus kimi, 297, 297q
xammal, 180-5
xarici siyasət: antikommunist, 442-3; barışıq, 125-7; imkanların tarazlanması, 214-5; uzlaşması, 643-4; çəkindirmə, 66, 125, 766; demonoloji yanaşma, 52-4; gərginliyin azaldılması, 451, 454-8; diplomatiya və, 673; yerli hökumət və, 220-1; beynəlxalq əxlaq normaları və, 334-9; milli əxlaq normaları və, 203-6; status-kvo siyasəti, 97-102, 117; ictimai dəstək, 216-20; gücün hərəkətlərə nəzarət kimi, 78; ənənəçilər və dəyişiklik tərəfdarları, 764
xarici siyasətdə bədxahlıq, 53-4
xarici siyasətdə motivasiya, 49-55; anlaşılması, 98q; demonoloji yanaşma, 52-4; məqsədlər və nəticələr, 50; qarşılıqlı asılılıq və suverenlik, 52; problemlərin şəxsiləşdirilməsi, 52; rasionallıq və, 51, 55; darıxdırıcı formalardan istifadə, 51
xarici yardım, 79-80, 425
xarizmatik liderlik, 78
Xirosima, 190, 516
xof, imperializm və, 127-9
Xruşşov, Nikita, 102
xurafat, 53
"Xüsusi ideologiya", 150q. *Həmçinin bax:* siyasi ideologiya
Yaponiya: Perl Harbora hücum, 148; qüvvələr tarazlığı və, 244, 452, 495-6, 579; birgə inkişaf zonası, 102-3; Çin ilə hazırki münasibəti, 452; tərksilah və, 493, 495-6, 505-6; imperializmi, 112; Çini işğalı, 384-5; Koreya və, 249, 533-4; resurslarının çatışmaması, 181; Millətlər Cəmiyyətində, 575, 579; Doqquz Dövlət Müqaviləsi, 99; rus-yapon müharibəsi, 109
Yaxşı Qonşuluq siyasəti, 98q, 144
Yeddiillik müharibə, 287
yekdillik prinsipi, 397-8
Yeni Müqəddəs İttifaq, 560-5
Yom-Kippur müharibəsi (1973), 457
Yunanıstan, 564, 574
Yuqoslaviya, 100, 154, 266

zadəganlıq: zümrələnməsi, 325-8; beynəlxalq xarakteri, 318-22
Zəka Əsri, 89
ziddiyyətlər, idarəetmə qaydaları arasında, 302-4
zorakılıq, güc və, 76

Dünyanın siyasi xəritəsi, 2004-cü il

Hans Y.Morgentau

DÖVLƏTLƏR ARASINDA SİYASƏT:
GÜC VƏ SÜLH UĞRUNDA MÜBARİZƏ

Nəşriyyat redaktoru: Famil Cəfərli
Korrektor: Flora Əliyeva
Dizayner: Sevinc Ələkbərova

Çapa imzalanıb: 24.07.2017
Kağız formatı: 64x90, $^{1}/_{32}$
Fiziki çap vərəqi: 27.375